A Z Ə R B A Y C A N  M İ L L İ  E L M L Ə R  A K A D E M İ Y A S I

A. B A K I X A N O V  A D I N A  T A R İ X  İ N S T İ T U T U

AZƏRBAYCAN

# T A R İ X İ

*1900-1920-ci illər*

Y E D D İ  C İ L D D Ə

V CİLD

B A K I , E L M, 2 0 0 8

*Bu kitab "Azərbaycan tarixi. Yeddi cilddə. V cild" (Bakı, Elm, 2001) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır.*

Məsul redaktorlar: **Mahmud** İsmayılov
*AMEA-nın müxbir üzvü*
**Nigar Maksvell**
*tarix elmləri namizədi*

**ISBN 978-9952-448-41-2**

**947. 5402-dc22**
Tarix - Azərbaycan

**Azərbaycan tarixi.** Yeddi cilddə. V cild (1900-1920-ci illər).
Bakı. "Elm". 2008. 696 səh. + 40 səh. illüstrasiya.

"Azərbaycan tarixi" çoxcildliyinin V cildində XX yüzilliyin son dərəcə mühüm hadisələrlə zəngin olan ilk iki onilliyi işıqlandırılmışdır.

Azərbaycan xalqının bütün həyat sahələrini əhatə edən köklü dəyişiklik-lərin baş verdiyi həmin dövrdə kapitalist istehsal münasibətlərinin iqtisadiyyatda aparıcı mövqe tutması, maarifçiliyə əsaslanan milli özünüdərk və ictimai şüurun milli dövlətçiliyi bərqərar etməklə nəticələnən böyük bir inkişaf mərhələsi keçməsi, ədəbiyyat və mədəniyyətin coşqun inkişafı, sosial-iqtisadi təkamül, cəmiyyətin digər mühüm proses və hadisələri bu cilddə diqqət mərkəzinə çəkilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə nəticələnən milli-azadlıq hərəkatından geniş bəhs olunan bu cilddə Cümhuriyyətin müxtəlif sahələrdəki fəaliyyəti və onun süqutuna səbəb olan amillərlə yanaşı, milli dövlət quruculuğunda mühüm tarixi-siyasi əhəmiyyəti də şərh edilir.

© "Elm" nəşriyyatı, 2008

# GİRİŞ

Yeddi cildlik "Azərbaycan tarixi"nin V cildində Azərbaycan tarixinin sosial-iqtisadi, ictimai-siyasi və mədəni proseslərlə zəngin olan 20 illik (1900-1920-ci illər) dövrü işıqlandırılmışdır.

İyirminci yüzilliyin ilk iki onilliyində Şimali Azərbaycanın istisnasız olaraq bütün təsərrüfat sahələrində bazar iqtisadiyyatı münasibətləri hökmran mövqe tutmuş, bəzi sahələrdə isə təsərrüfatın təşkilinin yüksək forması sayılan inhisarlar həlledici mövqelərə yiyələnmişdi.

Azərbaycan xalqının milli şüurunun inkişafı tarixində keyfiyyətcə yeni mərhələ olan bu dövrdə milli-azadlıq mübarizəsi yeni yüksək mərhələyə qədəm qoymuş, milli-siyasi təşkilatlanma başa çataraq əlverişli şərait yaranan kimi öz nəticəsini vermişdi: mənfur çar imperiyası yıxıldıqdan az sonra Azərbaycan xalqı rus müstəmləkə boyunduruğundan çıxaraq öz milli dövlətini - Azərbaycan Xalq Cümhuriyyətini yaratmışdı. Dövrün mühüm məsələlərini sistemləşdirib təqdim etmək üçün XX əsr tarixşünaslığının nailiyyətlərinə, həmçinin ilk mənbələrə geniş istinad edilən bu cilddə Rusiyanın Mərkəzi Dövlət Tarix Arxivində, Mərkəzi Dövlət Hərbi Tarix Arxivində, Peterburq MDTA-da, Gürcüstan Tarix Arxivində, Azərbaycan Respublikası Dövlət Arxivində (ARDA), Azərbaycan Respublikası Dövlət Tarix Arxivində (ARDTA), Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivində (ARDSPİHA), Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Tarixi Arxivində (ARDƏİTA) toplanmış materiallardan, həmçinin vaxtilə çap üzü görmüş mənbələrdən, o dövrün çoxsaylı mətbuat materiallarından geniş istifadə olunmuş, "Azərbaycan" (Azərbaycan və rus dillərində), "Kaspi", "Znamya truda", "İskra", "Açıq söz", "Naş put", "Zarya", "İttihad", "Nabat", "İstiqlal" və s. dövri nəşrlər isə bir sıra məsələlərin işıqlandırılmasında qiymətli qaynaq rolunu oynamışdır.

V cildin əhatə etdiyi dövr və problemlərə hələ XX əsrin əvvəllərində yaşamış müəlliflərin həm Azərbaycan, həm də rus dillərində yazılmış müxtəlif xarakterli əsərlərində də bu və ya digər şəkildə toxunulmuş, yeni dövrün tarixini tədqiq etmək sahəsində müəyyən işlər görülmüşdü.

XIX əsrin sonu - XX əsrin əvvəllərində Peterburqda, Rusiyanın digər şəhərlərində yaşamış tarixçilərdən P.Q.Butkov, V.A.Potto, N.F.Dubrovin və başqalarının əsərlərində Azərbaycanın XIX əsr tarixinə aid məsələlər geniş işıqlandırılmışdı. Bu əsərlər XX əsrin siyasi, sosial-iqtisadi tarixinin bir çox məsələlərinə toxunmasalar da, həmin dövrün bir sıra problemlərini aydın başa düşməyə imkan yaradır.

XIX əsrin sonu - XX əsrin əvvəllərində yaşamış Hacı Şeyx Həsən Mollazadənin "Zübdət-üt-təvarix" əsərinin dördüncü cildində İran, Qafqaz və Orta Asiya tarixi ilə yanaşı, Azərbaycan tarixinin XX əsrin birinci onilliyinə aid məsələlərindən də bəhs edilmişdir.

1918-ci il mayın 28-də yaradılmış müstəqil Azərbaycan Xalq Cümhuriyyəti bir çox vacib məsələlərlə yanaşı, maarifin, o cümlədən tarix elminin inkişafı üçün bir sıra tədbirlər həyata keçirdi, lazımi mütəxəssislər hazırlamaq üçün xarici ölkələrə 100 nəfərdən artıq nümayəndə göndərdi, 1919-cü ildə Bakıda universitet yaratdı. Bu dövrdə Parisdə Adil xan Ziyadxanovun "Azərbaycan", Şeyxülislamovun "Qafqaz Azərbaycan Respublikası" kitabları çapdan çıxdı, M.Ə.Rəsulzadə "İran və Azərbaycan", "Azərbaycan paytaxtı" məqalələrini nəşr etdirdi. Bu məqalələrdə çox mühüm məsələlərə - Azərbaycan xalqının formalaşması, onun qonşu xalqlarla əlaqələri, Bakı şəhərinin inkişafı və s. məsələlərə toxunulur.

Azərbaycanın mədəni həyatının, tarixi keçmişinin işıqlandırılmasında "Səfa", "Nicat", "Nəşri-Maarif", İran Maarifçilik Cəmiyyəti, "Tərəqqi" cəmiyyətləri mühüm rol oynadılar.

1920-ci ilin aprelində Azərbaycan Respublikası elan edildikdən bir müddət sonra Şimali Azərbaycanda ictimai elmləri, o cümlədən Azərbaycan tarixini öyrənmək üçün qurumlar yaradılmağa başladı. 1923-cü ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti təşkil olundu.

Azərbaycanda 1929-cu ildə yaradılan Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu respublikada Azərbaycan tarixinə dair tədqiqatların aparılması və yazılı mənbələrin nəşr olunmasında mühüm rol oynamağa başladı. O, az sonra SSRİ EA Zaqafqaziya filialının Azərbaycan şöbəsinə, 30-cu illərin ortalarında isə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialına çevrildi. Həmin filialın nəzdində Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutu, həmçinin arxeologiya və etnoqrafiya bölməsi yaradıldı. Lakin burada Azərbaycan tarixinin XX əsrin əvvəllərini əhatə edən dövrünün tədqiqi sahəsində əhəmiyyətli bir iş görülməmiş, əsas fəaliyyət marksizm-leninizm klassiklərinin əsərlərinin nəşrinə və XX əsrin iki onilliyində baş verən fəhlə çıxışlarının öyrənilməsinə yönəldilmişdi. Bununla yanaşı, akademik V V.Bartoldun Bakıda 1925-1926-cı illərdə nəşr etdirdiyi "Azərbaycan tarixinin qısa xülasəsi" və "Türk xalqlarının tarixinin öyrənilməsinin müasir vəziyyəti və ən vacib vəzifələri", akademik N.A.Samoyloviçin "Qafqaz və Türk dünyası" məqalələri, N.İ.Meşşaninov, Ə.Ələkbərov, P.K.Jüze, Əziz Qubaydulin kimi alimlərin Azərbaycan tarixinin müxtəlif dövrləri və məsələlərinə aid əsərləri işıq üzü görsə də, onlarda da Azərbaycan tarixinin XX əsrin əvvəlləri dövrünə toxunulmamışdı.

Sovet dövründə Azərbaycanın XX əsr tarixi məsələlərinə ciddi şəkildə ilk toxunan müəlliflər Bakı Universitetinin professoru Q.Q.Pisarevski, T.Passek, T.Latının və V.M.Sısoyevdir. Onlardan V.M.Sısoyevin 1925-ci ildə nəşr etdirdiyi "Azərbaycan (Şimali) tarixi" əsərini xüsusi qeyd etmək lazımdır.

XX əsrin 20-ci illərində fəaliyyət göstərmiş Vəli Xuluflu, A. Sübhanverdizadə, A.Əfəndi, M.Əfəndizadə, H.İmanov, Abdulla Salamzadə, Ağamir Məmmədov, Rəşid İsmayılov və b. kimi azərbaycanlı tarixçilərin tədqiqatlarında da Azərbaycanın XX əsr tarixi məsələləri diqqətdən kənarda qalmışdı.

40-cı və 50-ci illərdə Azərbaycanda yetişmiş tarixçi alimlərdən Ə.Sumbatzadə, M.İsmayılov, İ.Həsənov, Q.Mehdiyev, İ.Talıbzadə XX əsr tarixi məsələlərini də araşdırmış, Azərbaycanın çar Rusiyası tərəfindən işğalı məsələlərinə, Azərbaycanda aqrar münasibətlər, kənd təsərrüfatı və sənayenin, xüsusən neft sənayesinin tarixinə dair əsərlər nəşr etdirmişlər. Bu istiqamətdə müəyyən işlər görmüş Rusiya tarixçiləri N.Q.Boqdanov, K.A.Pajitnov və Q.Q.Pisarevskinin əməyini də qeyd etmək lazımdır.

50-ci illərin sonu - 70-ci illərin əvvəllərində üç cilddən ibarət "Azərbaycan tarixi" nəşr olunmuşdu. Onun II cildi Azərbaycanın XIX-XX əsrin əvvəlləri tarixinə həsr edilmişdir. Bu cild, demək olar ki, Azərbaycanın XX əsrin əvvəlləri dövrü tarixini bütövlüklə əks etdirmiş ilk əsərdir. Cildin yazılması üçün müəlliflər tərəfindən toplanmış külli miqdarda materialın əksəriyyəti ölkə tarixşünaslığına ilk dəfə gətirilmiş, cilddə XX əsr tarixinin istər sosial-iqtisadi, istər siyasi, istərsə də mədəniyyət məsələlərinə dair yeni məlumatlar və ətraflı şərhlər verilmişdir.

Üçcildlik "Azərbaycan tarixi" nəşr edildikdən sonrakı illərdə Azərbaycan tarixinin bütün dövrləri, o cümlədən XX əsrin öyrənilməsi sahəsində xeyli nailiyyətlər əldə edildi, bir sıra tədqiqatlar nəşr olundu. Onlardan Ə.S.Sumbatzadənin imperializm dövründə Şimali Azərbaycanın sosial-iqtisadi durumuna, Ə.N.Quliyevin XX əsrin siyasi məsələlərinə, M.Ə.İsmayılovun XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı və sənayesinə, kənd təsərrüfatında kapitalizmin inkişafına, A.Ş.Milmanın Azərbaycanın siyasi quruluşuna, İ.V.Striqunovun proletariatın formalaşmasına həsr etdikləri monoqrafiyalarını göstərmək olar. M.Ə.İsmayılovun nəşr etdirdiyi "Şəki" kitabında Şəkinin XX əsr tarixi də öz əksini tapmışdır. XIX-XX əsrin əvvəllərində Azərbaycanda suvarma və sudan istifadə, 1912-ci il 20 dekabr islahatı məsələləri İ. A. Talıbzadənin, XIX əsrin 30-cu illəri - XX əsrin başlanğıcında rus kəndlilərinin Azərbaycana köçürülməsi isə D.İ.İsmayılzadənin əsərlərində işıqlandırılmışdır.

Sonrakı dövrün, yəni 70-ci illərin sonu - 90-cı illərin tarixşünaslığından danışmazdan əvvəl o cəhəti qeyd etmək zəruridir ki, XX əsr Azərbaycan tarixinin bir sıra məsələləri yuxarıda adlan çəkilən əsərlərin çoxunda sovet dövrünün hakim ideologiyasının təsiri, rəsmi dövlət "konsepsiya"larının tələblərinə uyğun təhrif edilmişdi.

İstər XIX və XX əsrin əvvəllərində - Azərbaycanda sovet hakimiyyəti bərqərar olunana qədər, istərsə də ondan sonrakı ilk onilliklərdə həm rus, həm də Azərbaycan tarixşünaslığında Rusiyanın Şimali Azərbaycanı istila etməsi məsələsi əsasən obyektiv işıqlandırılırdı, lakin 40-cı illərdən sonra Rusiya və Azərbaycan tarixşünaslığında həmin məsələ rəsmən saxtalaşdırılmağa başladı.

80-ci illərin ikinci yarısından sonrakı illərdə aparılan tədqiqatlarda artıq əvvəalki dövrdə yuxarıdan irəli sürülmüş "konsepsiya"ları qırağa qoyub, inkaredilməz dəlillərə əsaslanan müəlliflər tariximizdə baş vermiş hadisələri olduğu kimi təqdim etdilər. Bununla da tarixşünaslığımızdakı "Azərbaycanın Rusiyaya birləşdirilməsi" və ya

"birləşməsi" kimi qeyri-elmi müddəalar puça çıxdı. XX əsr tarixinin ilk iyirmi ilinə aid həqiqətlər bərpa olundu. 80-ci və 90-cı illərin tarixşünaslığından danışarkən, ilk növbədə, "Azərbaycan tarixi" kitablarının nəşrini qeyd etməliyik. Tarix İnstitutunun kollektivi tərəfindən hazırlanmış "Azərbaycan tarixi" Azərb. EA həqiqi üzvü İ.H.Əliyevin redaktorluğu ilə 1993-cü ildə Azərbaycanca, 1995-ci ildə rusca, 1994-cü ildə yeni "azərbaycan tarixi" isə akademik Z.M.Bünyadov və professor Yusif Yusifovun redaktəsi ilə çap edildi. XIX-XX əsrin əvvəlləri dövrü M.Ə.İsmayılov tərəfdən yazılmış əsərlərdə də öz əksini tapmışdır.

70-90-cı illərin mütəxəssis tarixçiləri M.İsmayılov, T.Vəliyev, M.Musayev, Ə.Umayev, Q.Cavadov, Y.Ələsgərov, S.Əliyarov, M.İbrahimov, İ.Bağırova, L. Həsənova, H. Həsənov, Z. Qafarova, Ş. Kərimov, V.Səmədov, M.Gülmalıyev və b. Azərbaycanın sosial-iqtisadi, siyasi və mədəniyyət tarixi üzrə çoxsaylı monoqrafiya və elmi məqalələr nəşr etdirdilər. Onların əksəriyyəti Azərbaycanın sosial-iqtisadi tarixinə - XIX-XX əsrin əvvəllərində Azərbaycanın sosial-iqtisadi quruluşu, Azərbaycan kəndinin sosial-iqtisadi strukturu, Azərbaycanın sosial-iqtisadi inkişaf səviyyəsi, neft sənayesinin tarixi, Azərbaycanda kənd təsərrüfatı, torpaq sahibliyi və torpaqdan istifadə, neft istehsalı və Rusiya iqtisadiyyatı, mülkədar təsərrüfatı və s. məsələlərə aiddir.

Tarixi əsərlər içərisində ölkənin siyasi tarixinə dair olanlardan bir çoxunda (müəlliflər: D.Hüseynova, D.Seyidzadə, E.Əliyev, İ.Bağırova, A.Balayev, S.Mustafayeva, D.İsmayılzadə, N.Tahirzadə, S.Talıbova və b.) XIX-XX əsrlərdə Azərbaycan-Rusiya münasibətləri, çarizm siyasətini Azərbaycanda həyata keçirənlər, rus kəndlilərinin Zaqafqaziyaya, o cümlədən Azərbaycana köçürülməsi, Azərbaycan ziyalıları, Azərbaycanda təhsil, Rusiya ali məktəblərində təhsil alan azərbaycanlılar, Azərbaycanda siyasi təhsil məsələləri, Azərbaycan məktəbləri, maarif məsələləri, Azərbaycan burjuaziyasının maarifçilik fəaliyyəti və s. məsələlərin tədqiqinə daha çox yer verilmişdir.

Tarixçilər və digər ixtisas sahibləri (müəlliflər: A.Paşayev, N.Axundov, K.Zeynalova, İ.Kərimov, Q.Məmmədli, S.Mövlayeva, K.Talıbzadə) Azərbaycan mədəniyyətinin bir çox sahələri, dövri mətbuat, görkəmli siyasət və mədəniyyət xadimləri barəsində xeyli əsərlər yazmışlar. Onlara Azərbaycanın dövri mətbuatı, M.Şahtaxtinskinin rus dövri mətbuatında fəaliyyəti, Azərbaycan teatrı, onun inkişaf mərhələləri, H.Cavid, Ü.Hacıbəyov, mədəniyyət məsələləri, mətbuatda ədəbi tənqid məsələləri və s. haqqında olan tədqiqatları misal göstərmək olar.

XX əsr dövrünə dair tarixşünaslıqda şəhərlərin tarixi, su təchizatı məsələləri və s. ilə əlaqədar Bakı (F.Tağıyev), Şimali Azərbaycan şəhərləri (E.Muradəliyeva), Bakı (M.Musayev), Şəki (M.İsmayılov), Gəncə (kollektiv), Şuşa barəsində (G.İsmayılova) xeyli iş görülmüş, şəhər tikintisi və memarlığı məsələlərinə də tədqiqatlar həsr olunmuşdur (müəlliflər: V.Xanəliyev, Ş.Fətullayev). Nəşr olunmuş əsərlərin bir qismi dövri mətbuat (V.Məmmədov), Azərbaycan burjuaziyasının xeyriyyəçiliyi (M.İsmayılov, M.İbrahimov, S.Talıbova), Azərbaycan tarixşünaslığı (Ə.Sumbatzadə) məsələlərinin tədqiqindən ibarətdir.

Azərbaycan Xalq Cümhuriyyətinin tarixinin obyektiv tədqiq edilməsi, o zaman əldə olunmuş nailiyyətlər və buraxılmış səhvlərin düzgün dərk olunması xüsusi əhəmiyyət kəsb edir.

1918-ci il mayın 28-dən 1920-ci il aprelin 27-dək fəaliyyət göstərsə də, Azərbaycan xalqının taleyində böyük rol oynayan məhz milli dirçəliş və dövlətçilik mərhələsi, həmçinin müsəlman dünyasında ilk respublika olan Azərbaycan Xalq Cümhuriyyəti Şərq ölkələrində demokratik ideya və hərəkatların inkişafına da müsbət təsir göstərmişdir. Odur ki, Azərbaycan Xalq Cümhuriyyətinin cahanşümul tarixi hadisə olması zaman keçdikcə daha aydın dərk edilir.

Buna görə Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti ilə əlaqəli müxtəlif məsələlərin, ümumiyyətlə, həmin dövrdə Azərbaycanda və onun yerləşdiyi Cənubi Qafqaz regionunda tarixi hadisə və prosesləri tədqiq edən, əsasən, son onilliklərdə formalaşmış tarixşünaslığın təhlil edilməsi çox vacibdir.

1917-1920-ci illərdə baş vermiş hadisələrin bilavasitə iştirakçıları olmuş siyasi xadimlərin əsərləri həmin dövr tarixşünaslığının mühüm tərkib hissəsidir. Doğrudur, bu əsərlər istifadə olunmuş metod və prinsiplər nöqteyi-nəzərindən sırf elmi-tədqiqat xarakteri daşımır, ancaq izlənilən, məqsədlərə, xüsusən, hadisələrin xronoloji ardıcıllıqla işıqlandırılması və onlara ümumiləşdirici baxışla yanaşılmasına görə etibarlı mənbə sayılmalıdır. Həmin əsərlərin ilk mənbə kimi bir üstünlüyü də ondadır ki, onları qələmə alan, dövrün görkəmli tarixi şəxsiyyətləri olan müəlliflər sırasında Azərbaycan Xalq Cümhuriyyəti (AXC-nin), həmçinin Azərbaycan Sovet Sosialist Respublikasının yaradıcıları və əsas siyasi xadimləri xüsusi yer tuturlar.

AXC xadimlərinin əsas siyasi hadisələrdən bəhs edən əsərləri həm AXC dövründə ölkədə, həm də onun süqutundan sonra xaricdə çap edilmiş, onların bir çoxu isə üçüncü Azərbaycan Respublikasında yenidən işıq üzü görmüşdür. Onların sırasına M.Ə.Rəsulzadənin, Ə.Topçubaşovun, A.Ziyadxanlının, C.Hacıbəyovun, Y.V.Çəmənzəminlinin, M.Məmmədzadənin, Ş.Rüstəmbəylinin, Mir Yəqubun, R.Vəkilovun, N.Şeyxzamanovun, Ə.Əsgərov-Kəngərlinskinin və digər fəal xadimlərin əsərləri daxildir[1].

Bu siyahıda M.Ə.Rəsulzadənin müstəsna yeri vardır. Onun əsərlərində milli dövlətçilik ideyası xüsusi elmi maraq doğuran əsas amillərdəndir. Sosial-nəzəriyyəçilər - tarixçilər, siyasətçilər, ədəbiyyatşünaslar, mədəniyyətşünaslar, hüquqşünaslar üçün hədsiz dərəcədə maraqlı olan bir sıra məsələlər - milli Azərbaycan ideyasının təşəkkülü və inkişafı, dövlətçilik baxışlarının formalaşması, siyasi mübarizənin gözlənilməz dönüşlərlə zəngin mürəkkəbliyi və s. qeyri-adi şəxsiyyət olan müəllifin əsərlərində öz geniş əksini tapmışdır.

Ə.M.Topçubaşovun fakt və hadisələrlə zəngin əsərləri də AXC tarixşünaslığında xüsusi yer tutur. Azərbaycan dövlətinin səlahiyyətli nümayəndəsi, parlamentin yeganə sədri olmuş müəllifin İstanbul və Paris təəssüratları, müstəqil respublikanın öz həllini tapmamış problemləri onun əsərlərinin əsas mövzusudur.

Haqqında bəhs edilən dövrdə insanların fikir və düşüncələrinin əsas

məzmununu təşkil edən subyektiv gerçəkliyi daha düzgün anlayıb qiymətləndirmək üçün M.V.Məmmədzadə və Ə.Əsgərov-Kəngərlinskinin yazıları diqqətəlayiqdir. Əgər birinci müəllifdə hadisələrə baxış və yanaşmada mübarizə əzmi üstünlük təşkil edirsə, ikincidə tarixi gerçəkliyə bədbin münasibət daha qabarıqdır. Lakin buna baxmayaraq, onların hər ikisi tarixin düzgün dərk edilməsi baxımından mühüm əhəmiyyət kəsb edən gerçəklik faktlarına istinad edir.

1917-1920-ci illərdə fəal inqilabçı, hərbi siyasi qurumların rəhbər işçiləri, Sovet hakimiyyəti dövründə isə respublikanın partiya-dövlət nümayəndələri olmuş yerli kommunistlər - N.Nərimanov, Q.Musabəyov, M.D.Hüseynov, M.Quliyev, Q.Hüseynov, Ə.Qarayev və b. tədqiq edilən dövrə aid bir sıra sərt xarakterli polemik əsərlər qələmə almışlar[2]. Bu əsərlərin dəyəri siyasi rəqiblərə tənqidi münasibət ifadə etmələrində, hadisələrin qənaətbəxş və obyektiv təsvirini vermələrində yox, o vaxtkı kommunistlərin dünyagörüşü və psixologiyası haqqında dolğun təsəvvür yaratmalarındadır. Onlara xas olan ümumi cəhət Müsavat hökuməti ilə müqayisədə sovet idarəetmə sistemi və sosial-iqtisadi quruluşunun Azərbaycan xalqının tərəqqisi üçün daha çox işlər gördüyünü sübut etməyə çalışmalarıdır.

Ümumi şəkildə 1917-1920-ci illər tarixşünaslığını üç dövrə bölmək olar: 20-30-cu illərin marksist tarixşünaslığı, 40-80-ci illərin milli kommunist tarixşünaslığı, 90-cı illərin liberal-milli tarixşünaslığı.

Azərbaycanda marksist tarixşünaslığın əsas nümayəndələri 1921-1931-ci illərdə Qırmızı Professura İnstitutunu bitirmiş qeyri-azərbaycanlılar idi. Onlar 1917-1920-ci illəri əhatə edən inqilab dövrünü dünya kapitalizminin tam çürümə mərhələsində zəhmətkeşləri burjuaziyanın zülm və istismarından azad edəcək dünya inqilabının ilkin müjdəçisi kimi qələmə alırdılar.

1917-ci illərə aid tarixi əsərlərin müəllifləri - A.Rayevski, Y.Ratqauzer, N.Pçelin, A.Popov, S.Sef, A.Steklov, A. Dubner hadisələri tədqiq və təqdim edərkən tarixi reallığın təfsilatlarına maraq göstərmək, hadisələrin izahında ideologiyaya üstünlük vermək, mənbələrdən geniş iqtibas gətirmək və s. kimi xüsusi yanaşma üslubu nümayiş etdirmişlər[3].

Lakin onların əsərlərində sonrakı sovet tarixçilərinin tez-tez müraciət etdikləri partiya-sovet rəhbərlərinin çıxışlarından geniş istifadə, tarixi məkanın təfərrüatınadək dövrləşdirilməsi, arxiv mənbələrini kütləvi fetişləşdirmə hallarına az-az rast gəlinir.

"Zəhmətkeşlərə vəhşi nifrət", "dünya miqyaslı quldurlar", "müsavat nökərləri", "bəyxan hökuməti", "öz xalqının mənafeyi ilə alver edənlər" və s. epitetlərdən gen-bol istifadə edilən bu əsərlərdə Azərbaycan Xalq Cümhuriyyəti "Müsavat rejimi", "Müsavat dövləti" kimi təqdim edilmişdir.

Marksist tarixşünaslığın nümayəndələri AXC-nin daxili siyasətindən danışarkən bu siyasətin əsasına "rejimin" sinfi təbiətini, onun siyasi subyektlərinin maraqlarını qoyur və onların zəhmətkeş fəhlə-kəndli mənafelərinə kökündən zidd olduğunu iddia edir və bununla da bu mənafelərin uzlaşdırılması və ümummilli

məqsədə tabe edilməsi imkanlarını göstərmirdilər. Müsavat partiyasını kəskin tənqid edir, onu gah kiçik burjua partiyası, gah da yalnız burjuaziya və mülkədarların mənafeyini müdafiə edən təşkilat adlandırır, bununla da Müsavat partiyasının və bütövlükdə milli hərəkatın əsas tutduğu prinsip və mənəvi dəyərləri bayağılaşdırmağa çalışırdılar. AXC xarici siyasətinə Birinci dünya müharibəsində qalib gəlmiş ölkələr qarşısında nökərçilik donu geydirilirdi.

20-30-cu və sonrakı illərin tədqiqatları başlıca olaraq Azərbaycan Xalq Cümhuriyyətinin daha çox inqilabi dövrün məhsulu olmasını, iqtisadi mühafizəkarlığına baxmayaraq, demokratik siyasi qurum və vətəndaş təsisatları yaradılmasına meylini, mədəniyyət sahəsində özünü göstərən inqilabiliyini, milli hərəkatın isə öz məqsəd və hərəkətverici qüvvələrinə görə maarifpərvər və mütərəqqi xarakter daşıdığını görmək istəmirdilər.

Müharibədən sonrakı illər tarixçi kadrlar: Z.İbrahimov, M.İsgəndərov, Y.Tokarjevski, C.Quliyev, Ə.Sumbatzadə, T.Köçərli, D.Quliyev və başqaları bu dövr milli kommunist tarixşünaslığının ən məhsuldar nümayəndələri sayılırlar[4]. Məhz bu dövrdə 1917-1920-ci illərin tədqiqat mövzusu daha da genişlənmiş, bir sıra sənədlər məcmuəsi çap edilmiş, nəticədə kütləvi oxucu üçün dövrün sirləri ilə yaxından tanış olmaq imkanı yaranmış, lakin AXC tarixinin müstəqil tədqiqat predmeti kimi sistemli şəkildə öyrənilməsi davam etdirilməmişdi[5-8]. Bunun tədqiqatçılardan asılı olmayan başlıca səbəbi onda idi ki, hakim ideologiya məhz AXC ilə əvvəlcə siyasi, onun süqutundan sonra isə Cümhuriyyətin yaddaşdan silinməsi üçün mübarizə aparmışdı.

Keçmiş SSRİ məkanında, o cümlədən Azərbaycanda 80-90-cı illərdə baş verən proseslərlə paralel yaranan yeni mənəvi şərait AXC tarixinə aid bir sıra problemlərin öyrənilməsinə qoyulan qadağaların aradan qalxmasına, dövrü öyrənən yeni istiqamətin - liberal və milliyyətçi tarixşünaslığın formalaşmasına imkan verdi. Onun əsas nümayəndələri olan A.Balayev, C.Həsənli, N.Maksvell, P.Darabadi, N.Nəsibzadə, R.Xudiyev və b. alimlərin tədqiqatları AXC tarixinin öyrənilməsi sahəsində xeyli iş görüldüyünü söyləməyə əsas verir.

Əlbəttə, bu son dövr tarixşünaslığında, xüsusən onun ilk çağlarında bəzi nöqsanlar, o cümlədən ifrat aludəçilik, 1917-1920-ci illərdə baş vermiş hadisələrə münasibətdə eyforiya əhvali-ruhiyyəsi, onların şərhində ideoloji yanaşmaya üstünlük verilməsi kimi qüsurlardan xali olmayan bu ilk addımların özü, ümumilikdə, AXC tarixinin öyrənilməsi istiqamətində irəliləyiş idi.

90-cı illərin əvvəllərində - AXC tarixinə aid mənbəşünaslıq bazasının formalaşma dövründə C.Həsənlinin "Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər)"[9] kitabı AXC-nin xarici siyasət problemləri üzrə müasir Azərbaycan tarixşünaslığında baza olacağına tam əsas verir. Bu sırada duran əsərlər içində İ.Musayevin "Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921)" monoqrafiyası xüsusi yer tutur[10].

Azərbaycan Xalq Cümhuriyyəti hərb tarixinin tədqiqində P.Darabadinin *"Voennıye problemı politiçeskoy istorii Azerbaydjana naçala XX veka"* (Bakı, 1998)"

kitabı qeyd edilməlidir.

Hərb tarixinin tədqiqində başqa bir müəllifin də adı çəkilməlidir. M. Süleymanovun son illərdə çıxmış "Azərbaycan Ordusu (1918-1920)" adlı kitabı hərb tarixində həqiqətən yeni bir səhifə olmuşdur[12].

AXC-nin liberal-milliyyətçi tarixşünaslığının əsas nailiyyəti Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cənablarının sərəncamı ilə AXC-nin 80 illiyini keçirmək üçün yaradılmış Dövlət Komissiyasının iş planına əsasən çap edilmiş bir sıra əsərlərin, material və sənədlər, məqalələr toplularının, xatirə kitablarının Azərbaycan Xalq Cümhuriyyətinin tarixini dərindən öyrənməkdə və geniş şərhində əhəmiyyəti olduqca önəmlidir[13].

Baş Arxiv İdarəsi kollektivinin fəaliyyəti nəticəsində AXC-nin 80 illiyi ilə əlaqədar hazırlanmış materiallar məcmuələrinin işıq üzü görməsindən sonra müasir tarixşünaslıq geniş mənbəşünaslıq bazasına malikdir. Buraya ilk Azərbaycan parlamentinin fəaliyyətinə həsr olunmuş üç kitab daxildir ki, onlar parlamentin 145 iclasının stenoqramından ibarət yeganə sistemli nəşrdir[14].

AXC tarixşünaslığını zənginləşdirən kitablar siyahısına həmçinin 1918-1920-ci illərdə ölkənin silahlı qüvvələrinin yaradılması, tarixini əks etdirən xüsusi sənədlər toplusu da daxildir. Bu nəşr dövlətin öz silahlı qüvvələrini yaratmaq, öz ərazi bütövlüyü və müstəqilliyini qorumaq sahəsində göstərdiyi fəaliyyəti ilə bağlı olan sənəd və materialların ilk tam külliyyatıdır[15].

Azərbaycan Xalq Cümhuriyyətinin aşkar edilmiş qanunvericilik aktları və qərarları[16] bir, xarici siyasət problemlərini əks etdirən sənədləri isə başqa bir topluda[17] dərc edilmişdir. "Fətəli Xan Xoyski. Həyatı və fəaliyyəti"[18] kitabı ilə bitən sənədlər toplusu seriyası yalnız bu günə qədər tapılmış sənəd və materiallar əsasında tərtib olunmuşdur. Bu qəbildən AMEA-nın (1998-ci ildə) 55 çap vərəqi həcmində nəşr etdiyi "Azərbaycan Cümhuriyyəti (sənədlər və materiallar) 1918-1920-ci illər" kitabını da qeyd etmək olar[19].

* * *

Tarix İnstitutu hələ 70-ci illərin əvvəllərindən "Azərbaycan tarixi" çoxcildliyini hazırlamağa başlamışdı. O vaxtlar XX əsrin əvvəlləri dövrünü əks etdirən xüsusi cildin hazırlanmasında respublikanın müxtəlif elmi idarələrində çalışan aparıcı tarixçilərimiz yaxından iştirak edirdilər. Lakin çoxcildliyin hazırlanması ilə bağlı görülən işlər müəyyən səbəblərdən tam başa çatdırılmadı. Təqdim olunan bu cild üzərində iş yenidən başlayanda müəlliflərin bəziləri artıq dünyasını dəyişmiş, bəziləri isə İnstitutun elmi fəaliyyətində iştirak etmək imkanında olmamışdır. Buna görə də Tarix İnstitutunun həmin mətnləri əsaslı surətdə yenidən işləmiş əməkdaşları - tarix elmləri namizədləri H.Həsənov, S.Mustafayeva, K.Ocaqova, E.Əliyev, G.İsmayılova əslində onların həmmüəllifi

sayılmalıdırlar.

V cilddəki əsasən Azərbaycan Xalq Cümhuriyyətinin tarixindən bəhs edən mətnlərin nəşrə hazırlanıb tərtib edilməsində Azərbaycanın 1917-1920-ci illər tarixi şöbəsinin elmi işçiləri - t.e.n. K.İsmayılov, N.Məmmədzadə, R.Rüstəmov, E.Hacıbabayev iştirak etmişlər.

Oxuculara təqdim olunan V cildin ayrı-ayrı hissələrinin müəllifləri aşağıdakılardır:

*Giriş: Azərb. EA müxbir üzvü M.İsmayılov, t.e.n.H.Həsənov, t.e.n. N. Maksvell.*

*I fəsil: Azərb. EA müxbir üzvü M. İsmayılov, t.e.d. D.Hüseynova, t. e. d. M. İbrahimov, t. e. d. İ. Bağırova, t. e. n. H. Həsənov, t. e.n. N. N. Məmmədov, t. e. n. Z. Qafarova, t. e. n. G.İsmayılova.*

*II fəsil: t. e. d. D. Hüseynova , t. e. d. İ. Bağırova.*

*III fəsil: Azərb. EA müxbir üzvü M.İsmayılov , t.e.d.D. Hüseynova , t. e. d. D. Seyidzadə, t. e. d. M. İbrahimov, t. e. n. H. Həsənov, t. e. n. N Məmmədov*

*IV fəsil: t. e. d. D. Hüseynova , t. e. n. N. Tahirzadə, t. e. n. N. Məmmədov*

*V fəsil: t. e. d., prof Y. A. Tokarjevski, t. e. d. prof C. Həsənov, t. e. n. N Maksvell, t. e. n. R. Xudiyev*

*VI fəsil: t. e. d., prof C. Həsənov, t. e. n. N. Maksvell*

*VII fəsil: t. e. n. N. Maksvell, t. e. d., prof İ. Musayev, t.e.n. K. İsmayılov, t. e. n. M. Süleymanov*

*VIII fəsil: t. e. d., prof C. Həsənov*

*IX fəsil: t. e. n. N. Maksvell*

*X Fəsil: f e. n. Ş. Alışanh, t. e. n. H. Abdullayeva, t. e. n. N. İsayev, f e. n. M. Aslanov*

*XI fəsil: t. e. n. N. Maksvell*

I FƏSİL

# AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ VƏZİYYƏTİ

## (1901-1914-cü illər)

### § 1. XALQ TƏSƏRRÜFATININ SOSİAL-İQTİSADİ STRUKTURU

XX əsrin əvvəllərində Azərbaycanda xalq təsərrüfatının, o cümlədən sənaye və kənd təsərrüfatının inkişafi ayrı-ayrı sahə və müxtəlif bölgələr üzrə qeyri-bərabər səviyyədə davam edirdi. Bu ənənə hələ XIX əsrin son rübündə formalaşaraq, özünü çar Rusiyasının milli ucqarların iqtisadi "fəthi"ni gücləndirdiyi və rus kapitalizminin milli ucqarların iqtisadiyyatını özünə tabe etdiyi dövrdən daha bariz surətdə göstərirdi. Azərbaycan artıq Rusiya imperiyası sənayesi üçün ucuz xammal mənbəyinə və əlverişli satış bazarına çevrilmişdi. İqtisadiyyatı da müstəmləkə səciyyəsi daşıyan ölkədə yalnız Rusiya sənayesi üçün xammal və yanacaq istehsal edən sənaye sahələri inkişaf edə bilirdi. Kənd təsərrüfatında da sənayedə hakim olan qayda-qanunlar, imperiyanın ehtiyacını ödəməyə yönəldilmiş tələblər həlledici idi və onlar Azərbaycanın müxtəlif qəzalarında iqtisadiyyatın inkişaf meyillərini müəyyənləşdirirdi.

Sürətlə inkişaf edən Rusiya sənayesinin yanacağa böyük ehtiyacı var idi və Abşeron yarımadası neft yataqları ilə zəngin olduğundan Bakı nəhəng neft sənayesi mərkəzinə çevrilmişdi. Bununla əlaqədar olaraq, Bakıda həm neft sənayesinin, həm də durmadan artan şəhər əhalisinin ehtiyaclarını ödəyən və onlara xidmət göstərən digər istehsal sahələri də yeyinti, tikinti materialları, mədəni-məişət obyektləri də çoxalırdı.

Azərbaycan qəzalarında da bir sıra sənaye sahələri inkişafda idi. Zəngin mis yataqları olan Gədəbəydə güclənən dağ-mədən sənayesinin istehsal etdiyi məhsul metropoliya sənayesi üçün zəruri xammal idi. Eyni sözləri regionlar üzrə paylanan pambıqçılıq və ipək sənayesi barədə də demək olar. Tikinti materialları, yeyinti, yüngül və başqa sənaye sahələri isə Azərbaycanın sənaye həyatında o qədər də böyük mövqe tutmurdu. Beləliklə, Azərbaycan sənayesinin müxtəlif sahələrinin inkişafında hökm sürən qeyri-bərabərlik onun müxtəlif regionlardakı xammal zənginlikləri ilə bağlı idi. Məsələn, Bakıda neft, Gədəbəydə mis, Xəzər dənizi, Araz və Kür çayları boyu ərazilərdə balıq, Şəkidə və Ordubadda ipək, Kür-Araz ovalığı bölgələrində pambıq əldə edilirdi. Azərbaycanın digər hissəsi aqrar təsərrüfat sahəsi idi. Bu

yerlərdə əmtəə xarakterli kənd təsərrüfatı məhsulları istehsal olunurdu.

Azərbaycanın sənaye istehsalı üç iri kapitalist müəssisəsi növü ilə təmsil olunmuşdu: 1) ayrı-ayrı şəxslərin mülkiyyətində olan müəssisələr; 2) ticarət evləri; 3) səhmdar kampaniyalar. Sonuncu növ iki formada - ya səhmdar cəmiyyətləri və ya pay şirkətləri kimi fəaliyyət göstərirdi. Qalan növlər isə kapitalistlərin dar və məhdud cəmiyyətləri idi. Kapitalist müəssisəsinin ən ali forması olan səhmdar kampaniyaları kapitalın geniş surətdə təmərküzləşməsini təmin edir, rəqabətə daha asanlıqla tab gətirir, onun mülkiyyəti isə ictimailəşdirilmiş mülkiyyətə çevrilir, çox geniş sayda səhm sahiblərini birləşdirirdi. Ticarət evləri bu cəhətdən səhmdar kampaniyaları ilə ayrı-ayrı şəxslərin mülkiyyətində olan müəssisələr arasında orta mövqe tuturdu.

Səhmdar kampaniyaları özünün iqtisadi və təşkilati xüsusiyyətlərinə görə maliyyə kapitalının yaranması prosesində də müəssisələrin əsas təşkilat forması idi. Onlar ticarət evlərini, ticarət evləri isə təkbaşına çalışan xüsusi mülkiyyətçiləri sıxışdırırdı. Buna baxmayaraq, kapitalist müəssisələrinin hər üç növdən olan müxtəlif formaları yaşayır və sayca da artırdı[1].

İri kapitalist müəssisələri əsasən maliyyə birliklərinin əllərində cəmləşmiş neft sənayesi və onunla bağlı sənaye sahələrində təmsil olunmuşdu. Bu sahələr neftçıxarma, neft emalı, buruqqazma, maşınqayırma, metaltökmə və qazan istehsalı, təmir zavodlarını birləşdirən mexaniki istehsal müəssisələrindən; həmçinin iri tütün fabrikləri, iri un və çəltik dəyirmanları, onlarla iri dəmiryol-nəqliyyat xidməti müəssisələrindən və "Elektrosila"dan ibarət idi. Bakıda H.Z.Tağıyevin iri toxuculuq fabriki, yüzlərlə gəmisi olan Bakı gəmiçiliyinə xidmət edən tərsanə fəaliyyət göstərirdi. Xəzər dənizində və Volqa çayında bakılı sahibkarların yüzlərlə neftdaşıyan gəmisi üzürdü.

Azərbaycanın digər qəzalarında da iri kapitalist müəssisələri var idi. Onlar Gədəbəy və Qalakənd mis yataqları və misəritmə zavodları, əsasən bir neçə kapitalistin ixtiyarındakı iri balıqçılıq vətəgələri, bəzi iri pambıq təmizləmə zavodları, Şəkidə və Şuşada iri ipək sap fabrikləri və iri ticarət müəssisələrindən, bank və kredit idarələrindən ibarət idi.

İri kapitalist müəssisələrinin əsas göstəricisi kapitalın mərkəzləşməsi və təmərküzləşməsi idi. 1901-ci ildə Bakıda istehsal olunmuş neftin 70,5 faizi səhmdar cəmiyyətlərinin payına düşürdü[2]. Xüsusi çəkisi sonrakı illərdə daha da artan səhmdar cəmiyyətləri neft və onunla bağlı sənaye sahələri ilə yanaşı, digər təsərrüfat sahələrində, həmçinin yeyinti və yüngül sənaye sahələrində də fəaliyyət göstərirdi.

İnhisarçı kapital öz fəaliyyətini əsasən torpaq sahiblərinə borc verməyə yönəldərək, səhmdar torpaq bankları vasitəsilə kənd təsərrüfatı sahələrinə soxulurdu.

Dəmir yol cəmiyyətləri dövlət-kapitalist müəssisələrinin xüsusi növü idi. Bakı-Batumi neft kəməri, həmçinin rabitə vasitələri inhisarçılarla bağlı olan dövlətə məxsus idi.

Azərbaycan qəzalarında da kapitalın təmərküzləşməsi və mərkəzləşməsi prosesi gedir, onlardakı ipək, dağ-mədən, balıq, pambıqtəmizləmə, sement istehsalı

sənayelərində və s. sahələrdə onlarla səhmdar cəmiyyət fəaliyyət göstərirdi. Lakin qəzalarda, Bakıdan fərqli olaraq, səhmdar cəmiyyətləri yox, ticarət evləri üstün mövqe tuturdu.

Azərbaycanda, o cümlədən Bakıda inhisar kapitalından kənarda qalmış və ayrı-ayrı sahibkarların mülkiyyətində olan sənaye müəssisələri də var idi. Bu sənaye müəssisələri sırasına Nuxa və Şuşa qəzalarında, Ordubadda, həmçinin Zaqatala dairəsində olan xam ipək emalı fabriklərinin böyük hissəsi, Göyçay qəzası, Ağdaş, Kürdəmir və Hacıqabulda pambıqtəmizləmə zavodları, Şamaxı və Yelizavetpol qəzalarında bəzi çaxır zavodları, Nuxa qəzası və Zaqatala dairəsində tütün fabrikləri, Bakıda və qəzalarda kapitalist tipli yeyinti, yüngül sənaye sahələri, tikinti materialları istehsal edən müəssisələr, mətbəələr və s. daxil idi.

Azərbaycan şəhərləri - Bakı, Şuşa, Gəncə, Şəki və başqaları kapitalist şəhərləri idi. Həmin şəhərlərdə ticarət burjuaziyasını I və II dərəcə gildiya tacirlər, həmçinin gildiyası olmayan alverçilər təşkil edirdilər.

Azərbaycan kənd təsərrüfatının bəzi sahələrində əmtəə istehsalı əmtəə-kapitalist inkişaf səviyyəsinə yüksəlməsi ilə səciyyələnirdi. Təsərrüfatın kapitalistcəsinə qurulması getdikcə güclənir və feodal istehsal münasibətləri qalıqlarının tənəzzülünə səbəb olurdu.

Azərbaycanda böyük əksəriyyəti əhatə edən dövlət kəndlərində torpaq sahibliyi dəyişikliklərə məruz qaldı. Torpağın sahibkarı olan dövlətlə onu becərən kəndlilər arasındakı münasibətlər 1900-cü ilin mayında verilmiş "Xəzinə torpaqlarında məskunlaşmış Cənubi Qafqaz dövlət kəndlilərinin torpaq quruluşu haqqında qanun"-da öz əksini tapdı. Bu qanuna görə, dövlət kəndliləri şəxsən azad idilər. Lakin dövlət torpağın mülkiyyətçisi olaraq qalır və bu torpaqlardan istifadə edən kəndlilər dövlət xəzinəsinə torpaq vergisi ödəməli idilər[3].

Xüsusi sahibkarlara məxsus kəndlərdə yaşayan kəndlilər isə, bəy torpaqlarından istifadə etdiklərinə görə, bəy-mülkədarın mülkiyyət hüququna əsasən, məhsul və pulla vergi ödəməli idilər. Bu vəziyyət 1912-ci ilə qədər davam etdi. 1912-ci il qanunu ilə feodal torpaq mülkiyyəti ləğv edildi, kəndlilər öz pay torpaqlarının sahibkarlarına çevrildilər. Buna baxmayaraq, torpaq sahibliyinin yarımfeodal xarakteri var idi, belə ki, torpaq üzərində çarizmin sahibkarlıq hüququ və bəy-mülkədar torpaq sahibliyi qalırdı. Lakin bu dövrdə bəy torpaq sahibliyinin xarakteri müəyyən qədər dəyişdi. Birincisi, bəy torpaqları artıq bəy nəslindən olmayanlara da satıla bilərdi. İkincisi və ən başlıcası o idi ki, bəylərin bir qismi əmtəə-pul münasibətlərinin inkişafının təsiri altında, təsərrüfat yaratmağın torpağı icarəyə verməkdən daha əlverişli və gəlirli olduğunu görərək, muzdlu əməyə əsaslanan təsərrüfatlar yaratdılar. Az sonra onların bir qismi kapitalist təsərrüfatlarına çevrildi.

Azərbaycanda təbəqələşmə prosesinin sürətlənməsi nəticəsində qolçomaqlardan, sələmçilərdən, dükançılardan, öz təsərrüfatını muzdlu əmək üzərində qurmuş bəylərdən ibarət kənd kapitalistləri, öz əməklərini satmaqla məşğul olan, muzdla işləyən torpaqsız və aztorpaqlı kəndli təbəqəsi formalaşdı. Lakin

Azərbaycanda muzdlu əmək üzərində qurulmuş böyük təsərrüfatlar deyil, kəndlinin öz əməyi ilə becərdiyi kiçik təsərrüfatlar üstünlük təşkil edirdi. Azərbaycan xırda kəndli təsərrüfatı ölkəsi olsa da, əmtəə istehsalının aparıcı xarakter aldığı, iqtisadiyyata kapitalistcəsinə təsərrüfat qurmaq amilinin daxil olduğu bir şəraitdən kənarda qala bilməyən kiçik kəndli təsərrüfatlarının böyük hissəsi kapitalın özünə yer edib hakim mövqe tutduğu mühitə çevrilirdi. Rəqabət nəticəsində onların bir qismi varlanaraq kənd burjuaziyasının sırasına daxil olur, torpaq sahəsini genişləndirir və muzdlu əməyə əsaslanan təsərrüfatlar yaradırdı. Kənddə baş verən bu proseslər şüura təzə məfhumlar, ana dilimizə "qolçomaq", "muzdur", "muzdla işləyən kəndli" kimi yeni söz və ifadələr gətirirdi.

Qeyd etmək lazımdır ki, Azərbaycan kəndində kapitalist tipli təsərrüfatlar üstünlük təşkil etmirdi. Onların bütün təsərrüfatların cəmi 9 faizini təşkil etdiyini, lakin məhsulun üçdə birini verdiyini nəzərə alsaq, bu təsərrüfatların xüsusi çəkisinin zəif olmadığını görürük[4].

Kənd təsərrüfatında sənaye və bank kapitalı ilə bağlı iri kapitalist mülkiyyətləri də yaranırdı. Sənaye kapitalı, demək olar ki, kənd təsərrüfatının bütün sahələrinə daxil olmuşdu. H.Z.Tağıyev, Qukasov qardaşları, A.M.Benkendorf və başqaları xüsusən üzümçülük və şərabçılığa xeyli kapital qoymuşdular. Üzümçülükdə və şərab istehsalında Tiflis sənayeçisi Saracov, Moskva sənayeçisi Şustov, pambıqçılıqda "Savva Morozov, oğulları və K°-nın Nikolayev manufakturası şirkəti", "Andrey Korzinkin və K°-nın Yaroslavl böyük manufaktura şirkəti", İ.K.Poznanskinin pambıq-parça səhmdar cəmiyyəti, "Vladimir Alekseyev" firması, "Qafqaz pambığı" səhmdar cəmiyyəti, "Voqau və K°-nın ticarət şirkəti" fəaliyyət göstərirdi. Sənaye kapitalının təsiri Azərbaycandan çox-çox uzaqlara yayılaraq, bir çox cəmiyyət və şirkətlərlə əlaqədar olmuşdu[5]. Lənkəran qəzasında düyü almaqla məşğul olan bir çox kontorlar fəaliyyət göstərirdi[6]. Bank kapitalı isə torpaq sahiblərinə mülklərini girov qoymaq şərtilə borc verərək kənd təsərrüfatının inkişafına təsir göstərirdi.

XIX əsrin sonunda Yelizavetpol quberniyasında bəylər şəxsi mülkiyyətlərində olan 441 min desyatin torpağın çoxunu icarəyə verirdilər. Ancaq XX əsrin əvvəllərində onların bir qismi özləri torpağı becərməklə məşğul olmağa başlayaraq təsərrüfatlarını kapitalist qaydasında qururdular. Məsələn, hələ 1917-ci ildən öncə, Yelizavetpol qəzasında 51 bəy ailəsinin ixtiyarında olan 39 min desyatin torpaq sahəsindən 13700 desyatinini mülkədar-bəylər özləri muzdlu əmək tətbiq etməklə becərirdilər.

Azərbaycanda ticarət və sələm kapitalı əsasən mübadilə dairəsində fəaliyyət göstərirdi. Adətən kənddə eyni bir adam həm möhtəkir və həm də sələmçi olurdu. Sələmçilər özlərinin kənd kapitalı ilə yanaşı, banklardan götürdükləri və kənd təsərrüfatı məhsulları satan firmalardan aldıqları məbləğ hesabına fəaliyyət göstərdilər. Onlar kəndlilərin məhsullarını həmin firmalara sataraq, onların sahibi olan sənaye sahibkarlarını kənd təsərrüfatına cəlb edirdilər. "Kaspi" qəzeti hələ 1901-ci ildə yazırdı ki, "hara baxırsınızsa, kənd təsərrüfatının hansı sahəsinə müraciət edirsinizsə, orada

kəndlini öz toruna salıb onu soran bu və ya digər hörümçəyi görərsiniz".

Azərbaycan kənd həyatına yaxından bələd olan görkəmli maarifpərvər Həsən bəy Zərdabi yazırdı ki, "bizdə kənd təsərrüfatının bütün sahələri üzrə inhisarlar mövcuddur"[7], yəni kəndlilər öz məhsullarını ayrı-ayrı şəxslərə, firmalara satmağa məcbur idilər. Hər firmanın isə "onlarca alıcıları var idi və onlar ölkənin bütün guşələrini gəzərək avam camaatı yumşaq hörümçək toruna salırdılar... Alınmış torpaq məhsullarını Cənubi Qafqaz dəmir yolunun ən yaxın stansiyalarında hörümçək kimi oturmuş öz ağalarına, alıcı komissionerlərə təhvil verirdilər"[8].

Kənd varlıları, zavod sahibləri, müxtəlif sənayeçilərin və ticarət firmalarının nümayəndələri olan alıcı-sələmçilər borc verməklə kəndliləri asılı vəziyyətə salırdılar. "Bu əsarət... kənd təsərrüfatlarında kapitalizmin ilk addımlarından başqa bir şey deyildi" [9]. (H.Zərdabi).

Beləliklə, XX əsrin əvvəllərində əmtəə istehsalının geniş inkişafı, muzdlu əməyin tətbiqi, bəy-mülkədar təsərrüfatlarının bir çoxunun kapitalist təsərrüfatı sisteminə keçməsi, sənaye və bank kapitalının kənd təsərrüfatına sirayət etməsi və nəhayət, ticarət-sənaye kapitalının güclənməsi nəticəsində Azərbaycan kəndində, yarımfeodal torpaq sahibliyinin mövcud olmasına baxmayaraq, istehsal üsulu artıq kapitalist istehsal üsulu idi. Əmtəə təsərrüfatının əmtəə kapitalist səviyyəsinə yüksəlməsində alıcı-sələmçilər kapitalist istehsal üsulunun təşkilatçılarına çevrilirdi. Həm də bu, o deməkdir ki, Azərbaycan kəndində kəndlilərin istismarı mahiyyəti etibarilə kapitalist istismarı idi.

Bununla birlikdə Azərbaycanın sosial-iqtisadi strukturunda feodal münasibətlərinin bəziləri qalmaqda idi və aşağıdakı sosial-iqtisadi ukladlarla təmsil olunurdu:

1. Feodal-asılı. Azərbaycan Sovet Rusiyası tərəfindən işğal olunana qədər hələ də bəy-mülkədar latifundiyaları qalmaqda idi, kəndlilərin bir qismi şəxsən azad olsalar da, bəy-mülkədarlardan -torpaq sahiblərindən bir növ asılı olub, istifadələrində olan pay torpaqlarına görə onlara vergi ödəyirdilər.

2. Yarımpatriarxal və yarımnatural. Kiçik torpaq payları, yaxud bir neçə baş qaramalı olan kəndlilər qapalı həyat sürürdülər. Onların təsərrüfatları yarımnatural xarakter daşıyırdı, bir qismi öz ailə ehtiyacları üçün xalçaçılıqla, yaxud digər ev əşyalarının istehsalı ilə məşğul olurdu. Belə təsərrüfatlar kənd təsərrüfatı istehsalçılarının üçdə bir hissəsindən azını təşkil edirdi.

XX əsrin əvvəllərində kənd təsərrüfatında əmtəə istehsalı aparıcı rol oynadığı bir şəraitdə həmin təsərrüfatlar istər-istəməz dar çərçivədə qala bilməzdi. Bu dövrdə onların çoxu, heç olmasa, vergiləri, yaxud ailənin zəruri ehtiyaclarını ödəmək üçün, ailə üzvlərinin yarımac qalmasına baxmayaraq, məhsulun bir hissəsini əmtəə qismində satmalı olurdu. Bundan başqa, həmin təsərrüfatlar ticarət və sələm kapitalının təsiri altına düşür, onların patriarxal özülləri kapitalist ukladının məcburən qəbul edilmiş elementlərini sarsıdırdı.

Beləliklə, XX əsrin əvvəllərində Azərbaycanın şəhər və sənaye ocaqları

yerləşən bölgələrində kapitalist istehsal münasibətləri, feodal torpaq sahibliyinin qismən qorunub saxlandığı kənd yerlərində isə qolçomaqların və varlı kəndlilərin kapitalist tipli təsərrüfatları ilə yanaşı, möhtəkir-sələmçi kapitalın təsiri altında olan kiçik təsərrüfatlar da mövcud idi. Bütövlükdə götürdükdə isə ölkənin sosial-iqtisadi strukturunda kapitalist istehsal üsulu hakim mövqe tuturdu.

## § 2. NEFT SƏNAYESİNİN VƏZİYYƏTİ

XX əsrin başlanğıcında Azərbaycanın neft sənayesi inkişaf sürətinə və məhsul istehsalına görə, dünyada birinci yerə çıxdı. O, 1901-ci ildə dünyada istehsal olunan neftin yarısından çoxunu (672 mln pud) və Rusiyada istehsal olunan neftin 95 faizini verdi. Lakin tezliklə sənaye 1900-1903-cü illər dünya iqtisadi böhranının zərbələrinə məruz qaldı.

Böhran cəmiyyətdəki bütün daxili əksliklərin qeyri-adi kəskinləşməsi şəraitində baş verdi. Ölkənin iqtisadi quruluşunda sənaye inkişafının ən yeni formaları və qabaqcıl texnika ümumi inkişaf səviyyəsinə görə geri qalmış kənd təsərrüfatı ilə çulğaşırdı.

1900-1903-cü illərdə dünyanın bazar iqtisadiyyatı ölkələrini bürümüş ifrat istehsal böhranı Rusiyada daha güclü idi. Çünki Rusiya iqtisadiyyatına təsir edən səbəblərdən biri kimi özünəməxsus xüsusiyyətləri olan neft sənayesi təkcə xarici kapital axını ilə deyil, həm də Avropa və Şərq bazarlarına neft ixracı ilə dünya təsərrüfatına sıx bağlı idi. Ona görə də Rusiyada sonralar sənayeni əhatə etmiş 1899-cu il böhranının təsiri Avropa ölkələrində istehsalın ixtisarına səbəb oldu və ölkənin öz məhsullarını daha çox dünya bazarlarına ixrac edən neft sənayesində ciddi və ağır nəticələr törətdi.

Azərbaycanda sənaye böhranının xüsusiyyəti ondan ibarət idi ki, o, neft sənayesinə başqa sənaye sahələrinə nisbətən gec, lakin çox güclü təsir etmişdi. Böhranın ilk nişanələri özünü 1901-ci ilin əvvəllərində büruzə verdi və aydın oldu ki, neft və neft məhsullarına tələb azalmışdır. Həmin il martın 1-də Bakıda 86 mln. pudu neft qalıqları, 46 mln. pudu xam neft və 26 mln. pudu ağ neft olan[10] duru yanacaq yığılıb qalmışdı. 160 mln. puda qədər neft ehtiyatının olması və satışın, demək olar ki, dayandırılması Bakı neft birjasında böyük təşvişə səbəb olmuşdu.

Daxili bazara tələbatdan xeyli artıq neft çıxarıldığı üçün 1901-ci ildə onun qiyməti əvvəlki illərə nisbətən 48,3 faiz aşağı düşdü. Ağ neft isə o qədər ucuzlaşdı

ki, artıq 1902-ci ilin yazında xam neft qiymətinə satıldı. Ümumiyyətlə, böhran illərində Bakıda xam neftin qiyməti 2,3, ağ neftin qiyməti isə 3,4 dəfə azaldı[11]. Bu, bir tərəfdən, böhranın dərinliyinə, digər tərəfdən isə qiymətlərin əvvəlki illərdə şişirdildiyinə dəlalət edirdi.

1902-ci ildə böhran özünü neft sənayesinin bütün sahələrində -qazma, hasilat və emalın xeyli azalmasında, kəşfiyyat işlərinin ixtisara düşməsində, dayanan quyuların çoxalmasında büruzə verdi. Əgər 1900-cü ildə 83,1 min sajen quyu qazılmışdısa, bu rəqəm 1902-ci ildə 40,2 min[12] sajenə enərək iki dəfədən çox azaldı. Hər il qazılan yeni buruqların sayı 1901-ci ildə 98, 1902-ci ilin sonunda isə 74 ədəd əskildi. 1900-cü ildə fəaliyyətdə olan 1710 quyunun sayı 1902-ci ildə 1202-yə, 1903-cü ildə isə 817-yə endi[13]. İl boyu fasilələrlə işləyən buruqlar 1903-cü ildə bütün buruqların yarısını təşkil edirdi.

Buruqların azalması neft hasilatına təsirsiz qalmadı. 1902-ci il-də 636,5 mln pud[14] neft hasil edilmişdi ki, bu da 1901-ci ilə nisbətən 35,5 mln pud az idi. 1903-cü ildə isə daha az - 596,9 mln pud[15] neft çıxarılmışdı.

Böhran neft hasilatı və emalı ilə məşğul olan firmaların vəziyyətinə də ciddi təsir göstərirdi. Onların 1901-ci ildə 171-dən 146-sı, 1902-ci ildə 167-dən 139-u, 1903-cü ildə 170-dən 136-sı[16] neft çıxarmaqla məşğul ola bilmişdi.

Böhranın xarici ölkə bazarlarından güclü surətdə asılı olan ağ neft istehsalına təsiri daha qüvvətli idi. 1903-cü ildə neft emalı zavodlarından 78-i işləyirdi. Onların istehsal etdiyi məhsullara gəldikdə isə böhranın təsiri yalnız sürtkü yağları istehsalından yan keçmişdi. Bazarda həmin məhsullara tələbatın sabit qalması ilə əlaqədar olaraq onların istehsalı hətta bir qədər də artmışdı. Ağ neft istehsalı isə azalmış və 1903-cü ildə 1901-ci ilə nisbətən 7,8 mln rublluq az ağ neft istehsal edilmişdi.

Neft istehsalı səviyyəsinin daxili bazarın tələblərinə uyğun gəlməsinə baxmayaraq, neft məhsulları ixracı bir qədər artmışdı. Belə ki, onların həcmi 1901-ci ildə 488,2 mln pud idisə, 1903-cü ildə 494 mln pud[17] olmuş və onun illərə uyğun olaraq 383,3 və 386,3 mln. pudu dəniz, 101,9 və 105 mln pudu[18] dəmir yol nəqliyyatı vasitəsilə nəql edilmişdi. Belə ixrac ona gətirib çıxarmışdı ki, Volqa boyunda olan neft anbarları dolmuş və neft məhsullarının satışı xeyli çətinləşmişdi. Belə ki, neft qalıqları və ağ neft satışı 1902-ci ildə 79,4 mln rubldan 37 mln rubla[19] enərək iki dəfədən çox azalmışdı.

İri firmalar Rusiyada itirdiklərinin əvəzini xaricə ixracı artırmaqla çıxmağa çalışırdılar. Onlar 1900-cü ildə Avropaya 32 mln. pud, Şərqə isə 43 mln pud neft məhsulları ixrac etmişdilər. 1903-cü ildə bu ixrac Avropaya 52,5, Şərqə isə 58,7 mln. pud oldu[20].

1903-cü ildə ixracın artmasının başlıca səbəbi qiymətlərin, 1900-cü il səviyyəsinə çatmasa da, artması idi. Lakin neft və neft məhsulları ixracından gələn gəlir Bakı istehsalçılarına çatmırdı, çünki kiçik və orta müəssisələr birləşib təşkilatlanmadıqlarına görə öz məhsullarını iri firmalara təhvil verməli olurdu. Öz mədənlərində neft çıxarılmasını təmin edən, geniş neft anbarları olan "Nobel qardaşları", "Kaspi-Qara dəniz cəmiyyəti", "Kaspi şirkəti" və s. kimi qüdrətli firmalar öz artıq məhsulunu saxlamağa imkanı olmayan

sənayeçilərin neftini ucuz qiymətə alırdı. Bakıdan Britaniya konsulu yazırdı ki, "O iri firmalar böyük qazanc götürürdülər ki, onlar Rusiyada və xaricdə ağ neftin və maye yanacağın satışına nəzarət edirdilər".

Sənaye böhranından narahat olan çar hökuməti durğunluğu ləğv edə bilməsə də, onu zəiflətmək üçün özü vacib saydığı tədbirləri görürdü. Bakıya maliyyə nazirliyinin xüsusi tapşırıqlar üzrə məmuru S.İ.Gülüşambarov ezam edilmişdi. 0,1901-ci il iyunun 15-18-də neft məhsullarının ixracı və xarici ticarətdə onların qiymətlərinin tərəddüdü ilə yaranmış şəraitlə əlaqədar neft sənayeçiləri, zavod sahibləri və yerli dövlət idarələri nümayəndələrinin yığıncağını keçirdi[21]. Hökumət neft sənayeçilərinin bəzi tələblərini ödədi. Məsələn, neftverən torpaqlardan alınan icarə haqqını 30 faiz azaltdı[22], bəzi sahibkarlara borc pul verdi və s. Lakin hökumətin bu köməyi böhranın neft sənayesinin inkişafına göstərdiyi təzyiqi lazımi qədər azalda bilmədi.

Neftin qiymətinin qeyri-sabitliyi böhran dövrü çətinliklərindən mövqelərini möhkəmləndirmək üçün istifadə etməyə çalışan iri firmaların təqsiri üzündən baş verirdi. 1901-ci ildə Qafqaz inzibati idarələrinin nümayəndələri qeyd edirdilər ki, neftin bazar qiymətlərinə "neft sənayesində inhisarlar yaradanların təsir payı az deyildi"[23].

Hələ 1900-cü ilin əvvəllərində "Nobel qardaşları" şirkəti və Rotşildin "Mazut" cəmiyyəti kartel müqaviləsi bağlamışdı ("Nobmazut"). Hər iki firma neft məhsulları satışını tam inhisara almaq və yüksək gəlir götürmək üçün daxili bazarlarda bir-biri ilə razılaşdırılmış ticarət siyasəti yürütməyi öz üzərlərinə götürürdülər. 1900-cü ildə neft istehsalının 21 və neft ixracının isə 40 faizi onların payına düşürdü[24]. 1901-ci ildə isə Xəzər dənizi vasitəsilə Rusiyanın daxili quberniyalarına ixrac olunan ağ neftin 57, ağır neft yanacağının 43,5 və sürtkü yağlarının 67,5 faizi də Nobel və Rotşild firmalarına məxsus idi[25].

Nobellə Rotşild rus ağ neftini xarici bazarlara ixrac etmək üçün də öz qüvvələrini birləşdirmişdilər. Onlar 1900-cü ildə ingilis dilində aparılacaq bütün işləri görəcək "Konsolireyted petrolium ənd K°" kompaniyasını yaratmaq barədə razılığa gəldilər[26]. Tezliklə kompaniya Rokfellerlə ingilis bazarını bölmək barəsində müqavilə bağladı. Bu müqaviləyə görə, Rokfeller ingilis bazarına ağ neftin 60, rus ixracçıları isə 40 faizini çıxarmalı idilər[27].

1901-ci ildə Nobel-Rotşild qrupuna qarşı "Ağ neft-yağ istehsalı şirkəti" ("Tokamp") yaradıldı. Öz tərkibinə "A.İ.Mantaşov və K°" və "Kaspi şirkəti"ni daxil etmiş bu yeni birlik rus müəssisələri kimi yaransa da, əslində ingilis maliyyəsinin nəzarəti altında idi[28]. Birlik öz qarşısına mühüm vəzifə olaraq, ağ neft ixracını ələ keçirməklə yanaşı, daxili ticarətdə iştirak etməyi və neft istehsalı üzərində nəzarəti ələ keçirməyi qoymuşdu. Odur ki, "Tokamp" "Nobmazut" karteli üçün ciddi rəqib idi. Lakin Nobel ingilis sahibkarları ilə Almaniyada ağ neftlə birgə ticarət etmək haqqında saziş bağlamaqla, "Tokamp"ı xeyli neytrallaşdırdı.

Böhran illərində ixrac məsələsi iri firmaların rəqabətinə davam gətirə bilməyən orta və kiçik firmalar üçün ölüm-dirim məsələsi idi. Onlar rəqabətə qarşı durmaq üçün ixrac sindikatı yaratmağın layihəsini hazırladılar. Hökumət əvvəlcə bu

ideyaya müsbət münasibət göstərdi. "Bakı ağ neft zavodçularının ittifaqı" tipli sindikat yaratmaq məsələsi 1901-ci ilin sonunda Bakı neft sənayeçilərinin XVI qurultayında müzakirə olundu. Qurultay seçilmiş komissiyaya sindikat müqaviləsinin layihəsini hazırlamağı tapşırdı. İri firmalar sindikat yaradılmasına etiraz etmədilər.

1902-ci ilin iyununda Peterburqda "Nobel qardaşları", "Kaspi-Qara dəniz cəmiyyəti", "A.İ.Mantaşov və K°", "Kaspi şirkəti", "Ağ neft-yağ istehsalı şirkəti" və başqa firmaların iştirakı ilə komissiyanın iclası keçirildi. Burada ixrac birliyinin yaradılması sahəsində görülmüş işlər barəsində komissiyanın məruzəsi dinlənildi. Lakin müzakirələr zamanı firmalar arasında üzə çıxan fikir ayrılığı və başqa səbəblər ümumi nəticəyə gəlməyə mane oldu. Hökumət də münasibətini dəyişib ixrac sindikatı yaradılması ideyasını müdafiə etmədi.

Rəqiblərini neytrallaşdırmaq məqsədi ilə Nobel Amerikanın "Standart oyl və K°" kompaniyası, Rotşild isə ingilis - holland tresti "Şell" ilə möhkəm əlaqə yaratdılar. Nobellə ittifaq Rokfeller üçün daha əhəmiyyətli idi. 1902-ci ildə "Standart oyl və K°"nın Avropada olan bütün filiallara Nobellə bağlanmış, vaxtı bitən müqavilələrinin möhlətinin beş il də uzatdılar. Almaniyada Rokfellerlə Nobel arasında "təsir dairələri"ni bölmək barəsində müqavilə imzalandı.

Neft sənayesi birliklərinin yaradılması və uğurlu fəaliyyəti istehsalın yüksək dərəcədə təmərküzləşməsi bünövrəsi üzərində mümkün idi. XX əsrin əvvəllərində Azərbaycan neft sənayesi özünün təmərküzləşmə və kapitalın mərkəzləşmə səviyyəsinə görə dünyada qabaqcıl yerlərdən birini tuturdu. Böhran neft sənayesindəki təmərküzləşmə prosesini daha da gücləndirdi və dərinləşdirdi, eyni zamanda maliyyə və texniki cəhətdən zəif olan müəssisələri iflasa uğratdı. Bir çox orta və kiçik müəssisənin iflasa uğradığı və təmərküzləşmə meyillərinin gücləndiyi şəraitdə istehsalı və texniki təchizatı yaxşı təşkil edilmiş müəssisələr daha davamlı olurdular.

Təmərküzləşmə prosesinin xarakterik xüsusiyyətlərindən biri iri müəssisələrlə orta və kiçik müəssisələr kütləsinin arasındakı qeyri-bərabərlik idisə, digəri də iri müəssisələr içərisində əllərində neft məhsullarının istehsalı və satışını cəmləşdirmiş nəhənglərin ayrılması və seçilməsi idi. Onların sırasına daxil olan "Nobel qardaşları", "Kaspi-Qara dəniz cəmiyyəti" və "A.İ.Mantaşov və K°" firmalarının payına 1901-ci ildə Bakı rayonunda çıxarılmış neftin dörddə bir hissəsindən çoxu düşürdü. 1903-cü ildə - böhranın son ilində isə 153 neft sənayesi firmasından 10 firmanın hər biri 20 mln. puddan çox neft istehsal edirdi. Onların cəmi 2,6 faizini təşkil edən dörd ən irisi - Nobel, Mantaşov firmaları, "Kaspi-Qara dəniz cəmiyyəti" və "Kaspi" şirkəti 189,9 mln pud neft çıxarmışdılar ki, bu da həmin il hasil olunmuş neftin 31,8 faizi idi[29].

Neft emalı sənayesi sahəsində də eyni mənzərə nəzərə çarpırdı. Kifayət qədər azad kapitalı, lazımi texniki təchizatı və neft anbarları olmayan bütün kiçik zavodlar iri sahibkarların mülkiyyətinə keçirdi. Təkcə "Tokamp" firması 1901-1902-ci illərdə "Qafqaz" cəmiyyətinin iki, "Bakı-Rus cəmiyyəti"nin bir, Rus neftini və maye yanacağı çıxaran cəmiyyətin iki zavodunu və bir stansiyasını ələ keçirmişdi[30]. 1900-cü ildə

fəaliyyət göstərən 53 zavoddan 6 ən irisi bütün istehsal olunmuş ağ neftin 44 faizini, təkcə "Nobel qardaşları" firması isə 22 faizdən çoxunu vermişdi[31].

İri firmalar neft məhsullarının ixracı və ticarəti sahəsində daha böyük üstünlüklər əldə etmişdilər. Məsələn, 1901-ci ildə Batumi vasitəsilə ixrac olunmuş 74,4 mln pud ağ neftdən 51,9 mln pudu, yaxud 69,7 faizi üç firmanın - "Nobel qardaşları", "Kaspi-Qara dəniz şirkəti" və "A.İ.Mantaşov və K°" cəmiyyətinin payına düşürdü[32].

Böhran illərində neft məhsullarının ixracı üçün lazım olan nəqliyyat vasitələrinin sahibləri də birləşməyə çalışırdılar. 1902-ci ildə 7,4 min pud tutumu olan yelkənli gəmi var idi. Tağıyev, Bünyadov, Aşurov, Hüseynov və Tumayev qardaşları kimi iri gəmi sahibləri 1903-cü ildə sindikat müqaviləsi bağladılar və onların bu birliyi sonralar "Maye daşıyan gəmi-raketlərinin ittifaqı" adlandı.

İstehsalın təmərküzləşməsi və kapitalın mərkəzləşməsi neft sənayesində bank kapitalının fəaliyyəti ilə sıx bağlı idi. Bank kapitalı ilə neft sənaye kapitalının qovuşması neft sənayesində maliyyə kapitalının ağalığına gətirib çıxarırdı. Neft kompaniyalarının əlaqələri Peterburq beynəlxalq kommersiya bankı, Rus xarici ticarət bankı və Volqa-Kama kommersiya bankı ilə daha sıx idi. Neft sənaye müəssisələri ilə əlaqələri genişləndirmiş banklar əslində onların bütün fəaliyyətinə nəzarət edirdi.

Bakı neft sənayesi firmalarının ölkənin iqtisadiyyatında əhəmiyyətli yer tutması maliyyə-sənaye maqnatlarının dövlət aparatı ilə ittifaqına gətirib çıxarır, çar mütləqiyyəti iri kapitalın qüdrətinin artması ilə hesablaşmalı olurdu. Bu isə çar Rusiyasının iqtisadi və siyasi dairələrini maliyyə oliqarxiyasından asılı vəziyyətə salırdı.

Bakıya xarici kapital axını böhran illərində xeyli ixtisara düşdü. Lakin onun mövqeyi hələ də çox güclü olaraq qalırdı. Belə ki, 1902-ci ildə Azərbaycan neft sənayesində xarici kapitalın payı ona qoyulmuş bütün kapitalın 30 faizə qədərini təşkil edirdi[33].

Azərbaycan neft sənayesinə qoyulmuş aksioner (səhm) kapitalın ümumi məbləğində ingilis kapitalı mühüm yer tuturdu. 1903-cü ildə Rusiyanın 225,3 mln rubl kapitalı olan 73 neft müəssisəsində onun xüsusi çəkisi 85,7 mln rubla[34] bərabər idi. Müvafiq olaraq, Bakı rayonunda 60 mln rubl kapitalı olan 12 ingilis cəmiyyəti fəaliyyət göstərirdi[35].

Amerikan maliyyə kapitalı nümayəndələrinin Bakı neftini ələ keçirmək üçün atdığı yeni addımlar da bu dövrə aiddir. 1903-cü il oktyabrın 31-də ingilis jurnalı "Petrolium revyu"da "Standart oyl və K°" kompaniyasının Rusiya neft sənayesində iştirakının layihəsi dərc olunmuşdu[36]. Bu layihədə amerikanlar Peterburqda olan iki, yaxud üç rus bank idarəsinin köməyi ilə Rusiyada bütün neft istehsalının üçdə bir hissəsini ələ keçirmək ideyasını irəli sürürdülər. Lakin bu ideya Bakının başqa iri firmalarını öz tərəfinə çəkə bilmiş Rotşild firmasının müqavimətinə rast gəldi. Həmin layihə həyata keçmədi, lakin amerikan kapitalının Bakı neftini ələ keçirmək cəhdləri də dayandırılmadı.

Böhran vəziyyətinə baxmayaraq, neft sənayesi müəssisələri hələ də mənfəətlə işləyirdi. "Nobel qardaşları" firması "Kaspi-Qara dəniz cəmiyyəti", "Bakı neft

cəmiyyəti", "Neft" rus şirkətləri 20-37 faiz və daha çox gəlir götürürdülər[37]. Neft firmaları belə böyük gəliri təkcə neftverən torpaqlardan istifadəni və istehsalı artırmaqla deyil, müxtəlif bərpa əməliyyatları hesabına da əldə edirdilər. Onlar texniki təkmilləşdirməyə əlavə xərc qoymaqdan qaçırdılar. Bu isə neft sənayesində əmək məhsuldarlığının aşağı düşməsinə səbəb olurdu.

Beləliklə, XX əsrin lap başlanğıcında Azərbaycan neft sənayesi dünya iqtisadi böhranının zərbələrinə məruz qaldı və nəticədə 1901-ci il səviyyəsinə çata bilmədi. Azərbaycanın neft istehsalı getdikcə dərinləşən iflasa uğradı, onu bu vəziyyətdən heç bir qüvvə və vəsait çıxara bilmədi.

XX əsrin əvvəllərində baş vermiş hadisələr - Rusiya-Yaponiya müharibəsi və 1905-1907-ci illərdə xalq kütlələrinin çıxışları neft sənayesinin getdikcə artmaqda olan düşkünləşməsini daha da dərinləşdirdi. Müharibə neft sənayesinin istehsal göstəricilərinin ixtisara düşməsinə səbəb oldu. Ağ neftin Sibir bazarına göndərilməsi dayandırıldı, bu isə bir sıra zavodun bağlanmasına gətirib çıxardı. Müharibə çarizmin siyasi gücsüzlüyünü də nümayiş etdirdi. Mütləqiyyətin maliyyəsi iflas dərəcəsinə çatdı. Xarici banklar hətta qısamüddətli borc verməkdən imtina etdilər.

Rusiyada güclənməkdə olan xalq - azadlıq hərəkatı Qərb ölkələrini narahat etməyə başladı. Rusiya sənayesinə kapital qoyuluşu xeyli zəiflədi. 1905-ci ilin erməni-müsəlman qırğını da bu işdə mühüm rol oynadı, neft mədənlərinin dağıdılması və yandırılmasına gətirib çıxardı. 1905-ci ildə neft istehsalı 200 mln puda endi[38].

Neft sənayeçiləri mədənləri xəzinə hesabına bərpa etməyə çalışırdılar. Çar hökuməti neft burjuaziyasının tələblərini ödəməyi lazım bildiyi üçün Nazirlər Komitəsi 1905-ci il noyabrın 11-də onlara borc verməyi qərara aldı və xəzinədən 20 mln manat ayırmalı oldu[39].

Qeyd edilən şərait nəticəsində Azərbaycan neft sənayesi ağır və uzunmüddətli iqtisadi tənəzzülə məruz qaldı. 1900-1903-cü illər böhranından sonra neft sənayesində əsas inkişaf istiqaməti buruqların ixtisara düşməsi, neft istehsalı və ixracının getdikcə azalması ilə müəyyənləşdi. Qazma işləri daha çox geriləndi. 1909-cu ildə aparılmış qazma işlərinin həcmi 1904-cü ildəki 62,3 mln sajendən 51,7 mln sajenə endi[40]. Eyni səbəb üzündən yeni quyuların buruq üsulu ilə qazılması da azaldı. Əgər 1901-1905-ci illərdə 1152 yeni quyu qazılmışdısa, sonrakı beş ildə onların sayı 1007-yə düşdü[41].

Qazma işlərinin azalması neft çıxarılmasına təsirsiz qalmadı. Təkcə 1904-cü ildə 614,7 mln puda çatan neft hasilatı aşağı düşməyə başladı və 1908-ci ildə 467 mln pud oldu.

Neft emalı sənayesində də çətin vəziyyət yarandı. 1909-cu ildə fəaliyyətdə olan zavodların sayı 1904-cü ildəki 51-dən 28-ə, ağ neft və ağ neft-yağ istehsal edən zavodların sayı isə 1904-cü ildəki 44-dən 19-a endi. Ağ neftin 1904-cü ildə 145,4 mln puda çatan istehsalı sonrakı illərdə orta hesabla ildə 90 mln pud oldu. Bu vəziyyət istehlak tələbatını yüksək səviyyədə saxlamaqla daxili neft bazarını süni surətdə daraltmaq siyasəti ilə bağlı idi.

Neft sənayesi məhsullarının qiymət və istehsal artımları bir-birinə uyğun

gəlmirdi. 1904-1907-ci illərdə də hər il istehsal edilən neftin qiyməti 180 faiz artdı, çıxarılma həcmi isə 26,7 faiz azaldı. İstehsal olunan neft məhsullarının da qiyməti 86 faiz artdısa da, istehsal həcmi 24,3 faiz azaldı[42]. Bu, 1900-1903-cü illərdə qiymətlərin xeyli aşağı düşməsi ilə bağlı idi (xam neftin bir pudunun qiyməti 15,9 qəpikdən 9 qəpiyə enmişdi). Sonrakı illərdə dünya iqtisadiyyatının təsiri altında qiymətlərdə dəyişiklik yarandı. 1904-1909-cu illərdə daxili bazarda neftin qiyməti artdı (bir pudu 14,6 qəpikdən 21 qəpiyə qədər). Bir çox istehlakçılar nisbətən ucuz yanacağa - kömür və oduna keçməyə məcbur oldular. Belə ki, 1904-cü ildə Baltikyanı ölkələrdə 20,7 mln pud neftdən istifadə edilmişdisə, 1907-ci ildə bu, 7,4 mln puda endi. Neftdən istifadə 1907-ci ildə mərkəzi sənaye rayonlarında 1903-cü ilə nisbətən 27,9 mln pud, dəmir yolunda isə 1904-cü ilə nisbətən 35 mln pud azaldı[43].

Neft sənayesi sahibləri qarşısında iki yol dururdu: ya neftin qiymətini azaltmaq, ya da bir-birinin ardınca bazarları itirmək. 1908-ci ildə neftin qiyməti müəyyən qədər düşdü və buna görə istehlakçılar neft yanacağına keçməyə başladılar.

Qiymətlərin düşməsi uzun çəkmədi və 1910-cu ildə başa çatdı. 1911-ci ildə neft sənayesi kompaniyaları yenidən qiymətləri qaldırmağa nail oldular. Neftin qiymətini planlı şəkildə artırmaq güclü firmalara neft ehtiyatı yığmaq, zəif firmaları onlarla uzunmüddətli müqavilələr bağlayaraq, nefti ucuz qiymətə satmağa vadar etmək imkanı yaratdı.

1909-cu ildə Ümumrusiya sənaye yüksəlişinin başlandığı vaxtda neft istehsalının azalması nadir hal idi. Neft sənayesinin xüsusiyyəti onda idi ki, geriləmə sənayenin bütün sahələrini əhatə etmirdi.

1903-1904-cü illərdə azalmış qazma işinin həcmi 1913-cü ilə qədər xeyli artdı. 1911-ci ildə dörd mühüm sahədə 44,8 min sajen, 1913-cü ildə isə 65,1 min sajen,[44] qazıntı aparılmışdı, həmin illərə müvafiq olaraq, qazılmaqda olan quyuların sayı 387 və 602, dərinləşdirilən quyuların sayı isə 414 və 362 olmuşdu[45]. Neft sahibkarları ölkədə neft "aclığı" yarandığı bir şəraitdə daha çox vaxt və xərc tələb edən dərin buruqlar yox, neft layı üzdə olan yerlərdə dayaz quyular qazılmasına üstünlük verir, ancaq mövcud fonddan da lazımi səviyyədə istifadə etmirdilər. 1913-cü ildə hazır quyular fondundan yalnız 48 faizi istismarda idi.

Neftin qiyməti yüksək olduğundan müharibəqabağı illərdə quyu üsulu ilə (kustar) neft istehsalı yayılmağa başladı. Bu üsulla çıxarılan 40 mln pud (1910- cu ildə 6 mln pud, 1912-ci ildə 15 mln pud, 1913-cü ildə isə 19 mln pud)[46] neftin xüsusi çəkisi böyük olmasa da, qiymətlərə müəyyən təsir göstərirdi. Buna görə də iri firmalar kustar neft çıxaranlarla amansız mübarizə aparırdılar.

Buruq qazıma işlərinin zəifləməsi neft, istehsalının azalmasına səbəb oldu. Bir də köhnə neft sahələrində istehsalın azalması yeni sahələrdəki artımdan daha sürətlə gedirdi. 1910-cu ildə 499 mln pud, 1913-cü ildə isə 449,9 mln pud[47] neft çıxarılmışdı, yəni hasilat 50 mln pud azalmış və Azərbaycanın xüsusi çəkisi Ümumrusiya miqyasında aşağı düşmüşdü. Bütün Rusiya imperiyasında istehsal olunmuş neftin 1910-cu ildə 87,7, 1913-cü ildə isə 79,6 faizini vermiş Azərbaycanda neft istehsalı 1901-ci ilə nisbətən 1913-cü ildə

33,2 faiz, yəni üçdə bir dəfə azalmışdı.

Bu azalma dünya neft istehsalında Rusiyanın xüsusi çəkisinin aşağı düşməsinə səbəb oldu. Əgər 1901-ci ildə dünya neft istehsalında Rusiyanın payı 51, ABŞ-ın payı 43 faiz idisə, 1910-cu ildə Rusiyanın payı 22 faizə enmiş, ABŞ-ın payı isə 62 faizə qalxmışdı[48].

Müharibə ərəfəsi illərdə neft məhsullarının istehsalı da aşağı düşməkdə davam edərək, 1910-cu ildə 362 mln pud, 1913-cü ildə isə 326,4 mln pud olmuşdu. İstehsal olunmuş məhsulların nisbəti baxımından neft emalı sənayesində dəyişikliklər baş verirdi. Ağ neftin 1910-cu ildə 22,3 faiz, 1913-cü ildə isə 25,1 faiz (və sürtkü yağları-4,3 faizdən 5 faizə qədər) istehsalının bir qədər artmasına baxmayaraq, zavodların istehsalında əsas yeri neft qalıqları istehsalı (1910-cu ildə 68,5 faiz, 1913-cü ildə 61,7 faiz)[49] tuturdu. Bu, müharibə ərəfəsində "mazut" səciyyəsi daşıyan neft emalı sənayesinin texniki əsaslarının geri qaldığını göstərirdi.

Zavodlarıın sayı 1913-cü ildə 1910-cu ildəki 64-dən 54-ə endi[50], onlardan isə cəmi 30-u fəaliyyətdə idi. Neft emalı zavodlarının istehsal gücü neft istehsalından xeyli geri qalırdı. Buna görə də külli miqdarda neft ya emal olunmadan işlədilir, ya da ehtiyat çənlərində saxlanırdı. 1913-cü ildə istehsal olunmuş neftin yalnız 60 faizi emala göndərilmişdi[51].

1910-1913-cü illərdə Bakıda neft məhsullarının ixracında əsaslı dəyişiklik baş verməmiş, 1910-cu ildə 380 mln pud, 1911-ci ildə 398 mln pud, 1913-cü ildə isə 369 mln pud neft məhsulları ixrac olunmuşdu[52].

Müharibə ərəfəsində neft ölkə iqtisadiyyatında getdikcə daha çox əhəmiyyət kəsb edirdi. Lakin onun ixracı istehlakçı tələbatı yüksək olan rayonların ehtiyaclarını ödəmirdi. Məsələn, 1910-cu ildə mərkəzi sənaye rayonlarına cəmisi 62,6 mln pud, 1913-cü ildə isə 44,7 mln pud yanacaq nefti göndərilmişdi[53].

Birinci dünya müharibəsi ərəfəsindəki "yanacaq aclığı" həm kömür, həm də neft azlığı ilə bağlı idi və hər birinin özünəməxsus xüsusiyyətləri olan bu iki yanacaq sahəsindəki sənaye birləşmələrinin qüdrətini nümayiş etdirirdi. Ehtiyac və qiymətlərin artırılmasına baxmayaraq, kömür və neft hasilatının aşağı düşməsi o dövrün mətbuatında iki səbəblə izah olunurdu: "Neft səhmləri ilə oyunbazlıq edənlərin birjada ağalığı və Rusiya neft işbazlarının qiymətləri şişirtmək siyasəti"[54].

Neft sənayeçilərinin qiymətləri qaldırması nəticəsində, 1913-cü ildə 1910-cu illə müqayisədə, Bakıda yüngül neftin pudu 15 qəpikdən 42,2 qəpiyə, mazutun pudu isə 15,7 qəpikdən 41,4 qəpiyə qalxmış[55], yəni təxminən üç dəfə, 1902-ci illə müqayisədə isə altı dəfə artmışdı.

Qiymətlərin yüksək olması neft firmalarının güclü gəlir mənbəyi idi. Belə ki, 1910-cu ildə bütün neft sənayesi kompaniyalarının 23,6 mln rubl olan əsas kapitallarının 12,3 faizini təşkil edən gəliri 1911-ci ildə 66,4 mln rubl və 26,3 faizə, 1913-cü ildə isə 96,4 mln rubl və 28,7 faizə qalxdı, yəni bu müddət ərzində 4 dəfə çoxaldı[56].

Müharibə ərəfəsindəki "yanacaq aclığı" Rusiyanın iqtisadi vəziyyətinə ağır

təsir göstərdi. Ticarət və sənaye naziri etirazını bildirmək məcburiyyətində qalarkən qeyd etmişdi ki, yanacaq qıtlığı və bahalığı dövlətin iqtisadi inkişafında çox böyük dəyişikliklərə səbəb oldu[57].

Neft və mazutun olduqca çox bahalaşması 1911-ci ildə dəmir yol nəqliyyatı sistemini daş kömür yanacağına keçməyə vadar etdi. Başqa istehlakçılardan fərqli olaraq, özünün neft mədənləri olan Vladiqafqaz dəmir yolunun da neft yanacağından imtina edib, daş kömürə keçməsini xüsusi qeyd etmək lazımdır[58].

Volqaboyu ərazilərin iqtisadiyyatında neft çatışmazlığı özünü daha çox göstərirdi. Çünki o, regiondakı sənaye və nəqliyyat müəssisələri üçün həm yanacaq, həm də yük kimi xüsusi əhəmiyyət kəsb edirdi. Volqaboyu rayonlardakı sənaye müəssisələrinin təkcə neft tələbatı Rusiyanın Avropa yanacaq balansının 56,6 faizini, kömürlə odun isə, müvafiq olaraq, 10 və 26 faizini təşkil edirdi[59]. Burada istehlakçıların vəziyyəti bir də ona görə mürəkkəbləşdi ki, onların təsərrüfatlarında yalnız neft qalıqları ilə işləyən mühərrik və buxar gəmiləri geniş yayılmışdı.

Maraqlıdır ki, qiymətlərin xeyli qalxması ilə bağlı olaraq maye yanacaqdan istifadənin ixtisara düşməsi xeyli ehtiyat yığılması ilə nəticələnmişdi. 1913-cü il aprelin 1-nə olan məlumata görə, daxili bazarlarda satılmayan 57 mln pud neft məhsulları qalmışdı[60]. Halbuki 1914-cü ilin başlanğıcına yaxın neft çatışmazlığı üzündən 49 min fəhləsi olan 108 fabrikin istehsalı ixtisara düşmüş, üç min fəhləsi olan fabrik isə öz işini tamamilə dayandırmışdı[61].

1913-cü ilin lap başlanğıcında maliyyə, ticarət və sənaye nazirliklərinə neft yanacağı istehlakçılarından külli miqdarda ərizə və teleqram daxil oldu. Onlarda neftin çox bahalaşması sindikat və trestlərin əməlinin nəticəsi kimi göstərilir və tədbir görülməsi təkid edilirdi. Ona görə də hökumət bu məsələni 1913-cü il fevralın 13-də Dövlət Dumasının müzakirəsinə vermək məcburiyyətində qaldı. Müzakirə mülkədar və burjuaziya nümayəndələrinin bir hissəsi ilə inhisar tərəfdarları arasında ciddi toqquşmaya səbəb oldu. Dumada baş verən mübahisə Rusiyanın iki əsas hakim qüvvə -mülkədarlar və sənaye-maliyyə maqnatları tərəfindən idarə olunduğunu üzə çıxartdı

Təbii ki, neft firmaları ilə sıx bağlı olan çar hökuməti onların fəaliyyətini məhdudlaşdırmaq üçün heç bir əməli tədbir görmədi. Ticarət və sənaye naziri öz hesabatında neft sənayeçilərinin neft istehsalının aşağı düşməsi və qiymətlərin artması barədə irəli sürdükləri iddiaları (istismar sahələrində neftin azalması, məhsuldarlığın aşağı düşməməsi, tələbatın artması və s.) müdafiə etdi[62]. Əlbəttə, bu iddialarda müəyyən həqiqət var idi, lakin ümumiyyətlə neft firmalarının "yanacağı"n kəskinləşməsində neqativ rolu danılmaz idi.

Beləliklə, böhran illərindən Birinci dünya müharibəsinədək keçən 10 il müddətində Azərbaycan neft sənayesi onun iqtisadiyyatında həlledici rol oynamış, dövrün iqtisadi həyatında baş vermiş bütün çətinliklərlə üzləşsə də, dünyada ən mühüm sənaye sahəsi olaraq qalmış və inkişaf etmişdi.

## § 3. BAŞQA SƏNAYE SAHƏLƏRİ

1903-cü ilin ikinci yarısında, böhranın sona yetməsi ərəfəsində Azərbaycan sənayesində müəyyən canlanma başlandı. Bakının sənaye həyatında mühüm yer tutan mexaniki istehsalat sahələri arasında maşınqayırma sənayesi daha üstün rol oynayırdı. Şəhərin sənaye rayonunda fəaliyyət göstərən, fəhlələrinin sayı 400-600 nəfərə çatan müəssisələrindən ən iriləri "Bakı maşın istehsalı, neft sənayesi və ticarət" cəmiyyətinə məxsus Kaspi maşınqayırma və qazma zavodları idi. Onlar ağ neft və sürtkü yağı zavodları üçün lazım olan materiallar, neft çənləri, buruq dəzgah və alətləri, buxar qazanları istehsal edir, çuqundan və misdən tökmə işləri görür, buruqla neft quyusu qazma ilə məşğul olurdular[63].

1905-1906-cı illər bu maşınqayırma zavodlarının fəaliyyətində yüksəliş zirvəsinə qalxma dövrü idi. Məhz bu zaman onlarda fəhlələrin sayı 1000 nəfərə çatmış və 1,6 mln manatlıqdan artıq məmulat istehsal edilmişdi.

Bu iki iri maşınqayırma zavodu ilə yanaşı, Bakıda fəhlələrinin sayı 200-dən çox olan digərləri də fəaliyyət göstərirdilər. Onlar "Benkendorf və K°" ticarət evinə, "Kaspi-Qara dəniz cəmiyyəti"nə və Y.S.Malnikova məxsus zavodlar idi.

Ümumiyyətlə, XX yüzilliyin əvvəllərində Bakıda 1400-1850 fəhləsi olan maşınqayırma zavodlarının sayı 13 idi. Onlardan 1907-1910-cu illərdə 3-5-nin və 1911-1915-ci illərdə isə 7-sinin xüsusi çəkisi istehsal həcmi və fəhlələrin sayına görə əhəmiyyətli yer tutmurdu. Maşınqayırma zavodlarında çalışan fəhlələrin 75-85 faizi, illik istehsal həcminin isə 80-90 faizi iri maşınqayırma zavodlarının payına düşdüyü üçün onlan iri maşınqayırma sənayesi kateqoriyasına aid etmək olar.

Bakıda podrat üsulu ilə buruqqazma neft sənayesinin ayrılmaz hissəsini təşkil edən ən iri sahələrdən biri idi. Buradakı müəssisələrin hər birində çalışan fəhlələrin sayı 100-dən az olmurdu. Bəzi müəssisələrdə müəyyən illərdə 500, azərbaycanlı sahibkar M.Muxtarov ve "Molot" şirkətinə məxsus olan zavodlarda isə 1000 nəfərdən çox fəhlə işləyirdi. Muxtarovun sərəncamında bürünc işi ilə məşğul olan, əsası 1891-ci ildə qoyulmuş iki mexaniki zavod var idi. Biri Sabunçuda, digəri isə Bibiheybətdə yerləşən bu zavodlarda 1907-ci ildə 1950 nəfər fəhlə çalışırdı[64]. 1913-cü ildə Muxtarovun müəssisələri daha da genişləndi, onun üçüncü zavodu Suraxanıda fəaliyyətə başladı[65].

"Molot" şirkətinə məxsus digər iki zavoddan birinin əsası 1903-cü ildə qoyulmuşdu[66]. Onlardan biri Balaxanıda, digəri isə Bibiheybətdə yerləşirdi. "Molot" şirkətinin üçüncü zavodu 1914-cü ildə Suraxanıda işə düşdü. Bütün zavodların illik istehsal məbləği 6 milyon rubuldan çox idi.

100-dən 500-ə qədər fəhləsi olan digər iri müəssisələr Qalperinə, "Votan" şirkətinə və başqalarına məxsus idi. Bakıda 50-dən çox-100-dən az fəhləsi olan başqa zavodlar da var idi. 1913-cü ildə Bakıda buruq işi ilə məşğul olan 55 mexaniki zavod fəaliyyət göstərirdi[67].

Bakı limanının Rusiyada ən iri gəmiçilik mərkəzinə çevrilməsi, burada müxtəlif

mallar daşıyan gəmilərin və digər nəqliyyat vasitələrinin ildən-ilə artması gəmi təmiri istehsalının sənaye həyatında mühüm yer tutması ilə nəticələndi.

Bakıda gəmi təmiri ilə xüsusi tərsanələr və mexaniki emalatxanalar məşğul olurdu. XX əsrdə biri "Qafqaz və Merkuri" gəmiçilik cəmiyyətinə, o biri "Nobel qardaşları" şirkətinə məxsus iki ellinq fəaliyyət göstərirdi. Hər ikisi ən iri müəssisə idi və "Nobel qardaşları"-nın ellinqində fəhlələrin sayı 1913-cü ildə 775-ə, 1915-ci ildə isə 995-ə çatır, illik istehsal məbləği isə bəzi illərdə 2 milyon manata qalxırdı. "Qafqaz və Merkuri"nin ellinqində fəhlələrin sayı 250-350 nəfər idi.

Ellinqlərlə yanaşı, doklar da gəmi təmir edirdi. XX əsrin əvvəllərində Bakıda "Bakinskiy dok" şirkətinə və A.Dadaşova məxsus olan iki tərsanə var idi[68]. 1903-cü ildə onların sayı üç oldu[69]. Sonuncusu H.Z.Tağıyev, Dadaşov, Pitoyev və başqalarına məxsus "Bakinskiy dok"un mülkiyyətində idi. Hər üç tərsanə iri kapitalist müəssisələri idi. "Bakinskiy dok" şirkətinə məxsus olan iki tərsanədə 100-dən 250-yə qədər fəhlə işləyirdi.

Ellinq və doklardan başqa, Bakıda gəmi təmiri ilə məşğul olan 10-a qədər iri və kiçik emalatxana var idi. Bütün gəmi təmiri müəssisələrində orta hesabla 1750-2185 fəhlə çalışır və onların illik istehsal məbləği 1500-2800 min rubla bərabər idi.

Bakıda buxar qazanları istehsal edən, "Kaspi-Qara dəniz cəmiyyəti"nə və "Neft sənayesi və ticarət cəmiyyəti"nə məxsus olan iki iri müəssisədə XX yüzilliyin ikinci onilliyində 200-dən çox fəhlə çalışırdı. "Nobel qardaşları" şirkətinə məxsus olan digər iki iri müəssisədə həm buxar qazanları, həm çənlər, neft sənayesi üçün zəruri olan alətlər istehsal olunur, həm də təmir işləri aparılırdı.

Ümumiyyətlə, buxar qazanları istehsal edən, 2371 nəfər fəhləsi olan 14 müəssisənin çoxu, 16 fəhlə işlətməsinə baxmayaraq, inkişaf mərhələsində olan kiçik emalatxana idi.

Neft sənayesi, xüsusən buruqqazma işlərinə, bəzi başqa sənaye sahələrinə də kanat tələb olunduğu üçün Bakıda onun istehsal sahəsi yaranmış və XX əsrin əvvəllərində 3-4 müəssisə fəaliyyət göstərmişdi. Onların M. Q. Əlibəyova məxsus olanı iri müəssisə idi[70] və 1913-cü ildə daha da genişləndirilərək, eyni zamanda dinamit də istehsal etməyə başlayaraq "Neft buruq quyularında dinamit partlayışları həyata keçirən şirkət"ə çevrildi[71]. Onun sahibkarı bir ildən sonra özünün bütün müəssisələrini birləşdirib "MQ.Əlibəyovun məftil-kanat və başqa mexaniki istehsal səhmdar cəmiyyəti"ni təşkil etdi[72].

Göstərilən mexaniki müəssisələrdən başqa, Bakıda təkcə təmir işi görən onlarca iri və kiçik zavod, həmçinin emalatxana var idi. Yalnız bir hissəsi neft sənayeçilərinin mülkiyyəti olan bu müəssisələrin digər hissəsi isə əsasən kiçik müəssisələr idi və onların sahibləri neft sənayesi ilə əlaqədar deyildi. Onlar neft sənayeçilərinin sifarişi ilə mədən avadanlıqlarını təmir edirdi.

Sürətlə böyüyən Bakının durmadan artan əhalisini lazımi ərzaqla təmin etmək üçün burada yeyinti sənayesi sahələri genişlənməyə başladı. Bu zaman birinci yeri unüyütmə və çəltiktəmizləmə sahələri tuturdu.

1913-cü ildə Bakıda 9 dənüyüdən və çəltiktəmizləyən dəyirman fəaliyyət göstərir, ildə 12 mln rubulluq məhsul hazırlayırdı. A.Quliyevin dəyirmanları iri kapitalist müəssisələri idi[73]. Sonralar o, "Ağabala Quliyevin dənüyüdən və çəltiktəmizləyən dəyirmanlarının Qafqaz səhmdar cəmiyyəti"ni yaratdı[74]. H.Z.Tağıyevin və "T.Qlaz qardaşları və Ş.Kretinqenin cəmiyyəti"nin mülkiyyətində olan un dəyirmanları da, çəltiktəmizləyən 5 dəyirmandan bəziləri də iri müəssisələr idi. Sonuncuların 1906-cı ildə istehsal məbləği 6 mln rubl olmuşdu.

Bakı sənayesində tütün məmulatı istehsalı da mühüm yer tuturdu. Ən iri tütün fabriki Mirzəbekyan qardaşlarına məxsus idi[75]. Əzizbəyovun 1905-ci ildə fəaliyyətə başlayan iri tütün fabriki[76] həm fəhlələrin sayına, həm də istehsal məbləğinə görə Mirzəbekyan qardaşlarının fabrikindən böyük idi və buxar mühərriki ilə təmin olunmuşdu[77].

Bakıda araq istehsalı sahəsi də inkişaf etmişdi - iki araq zavodu[78], 1903-1913-cü illərdə "İstoçnik" şirkətinə məxsus olan araq-likyör zavodu fəaliyyət göstərirdi[79]. Araq zavodları içərisində 100-dən artıq fəhləsi olan iri müəssisələr var idi. Əsrin əvvəllərində Azərbaycandan kənarda "Fon-Binako və K° jiquli pivə zavodu şirkəti" yaradıldı[80]. Həmin şirkət 1908-ci ildə Zığda bütün Cənubi Qafqazda ən iri kapitalist pivə istehsalı müəssisəsi olan "Vakana" pivə zavodunun əsasını qoydu[81]. Burada 1909-cu ildə 161, 1913-cü ildə 199 fəhlə çalışırdı. Onlardan 50 nəfəri qadın idi. 1912-ci ildə Bakı şəhərinin özündə Beynerovskilər şirkətinə məxsus olan pivə zavodunun əsası qoyuldu.

Bakıda 10 müəssisə mineral sular, limonad, kvas və başqa spirtsiz içkilər buraxır, 20-dən çox müəssisə şirniyyat, 11 fabrik kolbasa məmulatı istehsal edirdi[82].

Abşeron yarımadasında təbii şirin su mənbələri olmadığı üçün neft şəhərinin içməli su ilə təchizatı ən vacib problem idi. Ona görə Bakıda "Arıur Koppel" səhmdar cəmiyyətinə məxsus böyük içməli su qurğusu işləyirdi. Buradakı 12 buxar qazanı onun çox nəhəng qurğu olmasına dəlalət edirdi[83]. 1907-1908-ci illərdə Bakıda "Suraxanı-Kür" səhmdar cəmiyyətinin mülkiyyəti olan sutəmizləyən stansiya da fəaliyyət göstərirdi.

Bakıda 1904-ci ildən yağ zavodu[84], XX əsrin ikinci onilliyində konserv zavodu var idi[85].

Zığ, Masazır, Ceyranbatan və b. şorsulu göllərdən hər il 400 min puda qədər duz yığılırdı[86], duzdəyirmanı 1909-cu ildə işə düşmüşdü[87].

Bakıda H.Z.Tağıyevin "Lifli şeylər hazırlayan Qafqaz səhmdar cəmiyyəti"nin bütün Rusiya imperiyasında ən iri fabriklərdən biri olan müəssisəsi fəaliyyət göstərirdi. Onun yaxınlığında 2500 fəhlə və qulluqçu üçün qəsəbə, məktəb, sutəmizləyici qurğu, elektrik stansiyası, fabrikin məhsullarını ağartmaq və boyamaq üçün xüsusi binadan ibarət kompleks salınmışdı. Tağıyevin bu səhmdar cəmiyyətinin əsas kapitalı 4 mln rubul idi[88]. Təmir emalatxanası da olan fabrikdə 1000 nəfər fəhlə işləyir, eyni zamanda qadın əməyindən istifadə olunurdu. Belə ki, 1913-cü ildə fabrikdə 152 qadın çalışırdı.

XX əsrin əvvəllərində Bakı şəhərində çap işi sürətlə inkişaf edirdi. Şəhərdə 20-dən artıq mətbəə var idi.

Bakıda yüngül sənaye sahələrindən biri də sabunbişirmə sənayesi idi.

1904-cü ildə Bakıda 4 sabunbişirmə zavodu fəaliyyət göstərirdi[89].

Əhalinin sayının artması ilə əlaqədar yaranan tələbatı ödəmək üçün paltar və ayaqqabı istehsalı da genişlənir, yeni kiçik müəssisələr açılırdı. 1903-cü ildə Bakıda 1708 nəfər muzdlu fəhləsi olan 492 belə müəssisə var idi. Onların illik məhsuldarlığı bir milyon manatdan çox idi.

Sənayenin sürətli inkişafı və onunla əlaqədar əhali artımı tikinti işlərinin xeyli genişlənməsinə, tikinti materialları istehsalı sahəsinin inkişafına səbəb oldu. Yüzilliyin əvvəllərində Bakıda 500 fəhləsi olan 20 kərpic zavodu fəaliyyət göstərirdi[90]. 1905-ci ildə Keşlədə tikilən sement zavodu bütün Qafqazda ilk sement zavodu idi. O, sahibkar Həsənova məxsus idi. Sementə tələbat durmadan artdığı üçün zavod ildən-ilə genişlənərək, 1913-cü ildə 140-a qədər fəhləsi olan çox böyük sənaye müəssisəsinə çevrilmişdi[91].

Neft sənayesi və tikinti işləri taxta-şalban istehsalını genişləndirməyi tələb edirdi. Bu sahə üç istiqamətdə inkişaf edirdi: mexaniki yolla taxta-şalban istehsalı, xarratlıq işləri və çəlləklək istehsalı. "Nobel qardaşları" firmasına məxsus olan taxta-şalban zavodu iri kapitalist müəssisəsi idi[92].

Xarrat emalatxanaları əsasən tikinti işlərinə olan tələbatı ödəyirdi. 1903-cü ildə Bakıda aparılmış siyahıyaalmanın materiallarından göründüyü kimi, burada 528 fəhləsi olan 86 xarrat emalatxanası[93], 292 fəhləsi olan 33 dülgər[94] və 49 fəhləsi olan daha 4 xarrat emalatxanası fəaliyyət göstərirdi[95]. 1913-cü ildə Bakıda 586 fəhləsi olan 128 xarrat emalatxanası var idi[96].

Beləliklə, yuxarıda adlarını çəkdiyimiz istehsal sahələri içərisində aparıcı rol həm fəhlələrin sayına, həm də istehsal həcminə görə mexaniki istehsala məxsus idi. 1913-cü ildə bu istehsal sahəsində 15 min fəhlə çalışırdı. Onların böyük əksəriyyəti (84-85 faizi) iri və çox iri müəssisələrdə işləyirdi. Mexaniki istehsal sahələrinin istehsal məbləği 20-25 mln rubla bərabər idi və bu məbləğin 20-23 mln rublu iri və ən iri mexaniki müəssisələrin payına düşürdü.

Bakının həyatında mühüm yer tutan yeyinti və yüngül sənaye sahələrində 9 min fəhlə çalışır və illik istehsal məbləği 35 mln. rubla çatırdı. Buradakı iri və ən iri müəssisələr cəmi 5-6 faiz təşkil etməsinə baxmayaraq, bütün fəhlələrin 50 faizi, yüngül və yeyinti sənayesi sahələrinin illik istehsal məbləğinin 75 faizdən çoxu onlarda cəmləşmişdi.

Adları çəkilən sənaye sahələri neft sənayesi ilə birlikdə Bakının sənaye həyatında aparıcı rol oynayırdı. Əgər 1907-1910-cu illərdə neft istehsalı sənayesində 31.556, 1913-cü ildə 27.764 fəhlə çalışırdısa, digər sənaye sahələrində həmin müddətlərdə 23.191 və 22.129 fəhlə işləyirdi. Göründüyü kimi, fərq o qədər də böyük deyildi.

Azərbaycan qəzalarında isə digər sənaye sahələri inkişaf edirdi. Onların ən mühümü mis istehsal sahəsi idi. 1906-cı ildə Gədəbəy mədənlərində çıxarılmış 4658 min pud mis filizi bütün Rusiyada hasil olunan həcmin 1/4-ni təşkil edirdi. Onun bir ildən sonra 6.270 min puda çatan həcmi bütün Rusiya üzrə hasil edilmiş mis külçəsinin

1/3-nə bərabər idi. 1907-ci il ən çox mis filizi çıxarılan il kimi xarakterizə olunur. Çıxarılan mis filizinin bir hissəsi Gədəbəy və Cənubi Qafqazın digər misəritmə zavodlarına daxil olurdu. 1910-cu ildə Gədəbəy mis mədənlərində 1118 fəhlə çalışırdı[97].

Gədəbəy mis zavodu çox böyük kapitalist müəssisəsi idi. Bu zavodun buxarla işləyən 3 maşın, 3 mühərrik, 1 dinamomaşın, filizi yandırmaq üçün 27 soba, qara misi əritmək üçün 3 soba, xalis misi əritmək üçün 2 soba, elektrik işığı və təmir emalatxanaları ilə təmin olunması onun möhtəşəmliyinə dəlalət edirdi. Zavodu Qalakəndlə əlaqələndirən xüsusi dəmir yol xətti çəkilmişdi. 1911-ci ildə Gədəbəy mis zavodu 1,2 mln rublluqdan çox məhsul vermişdi[98]. Zavodda 1300-1500 fəhlə çalışırdı. Daşkəsəndə isə dəmir və kobalt yataqları var idi. Lakin onların istismarı aşağı səviyyədə idi.

Azərbaycanda balıq sənayesi də xeyli inkişaf etmişdi. 1907-ci ildə təkcə dənizkənarı rayonlarda 713 vətəgə var idi[99]. 1912-ci ildə balıq sənayesinin istehsal həcmi 16,2 mln rubla bərabər olmuşdu. Ondan 13 mln rublu balıq, 3,2 mln rublu isə balıq məhsullarının payına düşürdü[100]. Balıq ovlayan bütöv bir donanma var idi. İri balıq vətəgələri olan rayonlarda yaşayış məntəqələri salınmış, balıq zavodları tikilmişdi[101]. Azərbaycan balıq sənayesinin məhsulları Tiflis, Həştərxan və Rusiyanın daxili şəhərlərinə ixrac edilirdi. Bütün iri, hətta bəzi xırda balıq vətəgələrinin sahibləri bilavasitə balıq və balıq məhsulları satışı və ixracı ilə məşğul olur, bəzən kiçik sahibkarların məhsullarını da nisbətən ucuz qiymətə alırdılar. Azərbaycanda balıq sənayesinin on minlərlə işçisi var idi. Məsələn, 1912-ci ildə balıq sənayesində 40 416 fəhlə çalışırdı. Bu sənayedə, xüsusilə balıq məhsullarının hazırlanmasında qadın əməyindən geniş istifadə olunurdu. Hələ 1911-ci ildə balıq sənayesində 3332qadın çalışırdı[102].

Azərbaycanda pambıqçılığın inkişafı ilə əlaqədar yeni sənaye sahəsi - pambıq emalı sənayesi yaranmışdı. Pambıq rayonlarında yaranmış ilk zavodlar məhsuldarlığı aşağı səviyyədə olan kiçik müəssisələr idi. Onlar at qüvvəsi ilə, yaxud əllə hərəkətə gətirilən və lazım gəldikdə bir yerdən başqa yerə aparılan pambıqtəmizləyən qurğulardan ibarət idi. Bir qədər sonra ağ neftlə hərəkətə gətirilən mühərriklər meydana çıxdı. Bu isə lazımi avadanlıqla təchiz olunmuş bina, ixtisaslı ustalar tələb edirdi. Beləliklə, pambıqtəmizləyən, pambıq emalı zavodları meydana çıxdı və onların sayı ilbəil artdı. 1911-ci ildə Azərbaycanda artıq 40 pambıq emalı zavodu fəaliyyət göstərirdi. Çoxunda mühərriklər ağ neft və buxarla hərəkətə gətirilən bu zavodların 14-də 800-850 fəhlə çalışırdı və illik istehsal həcmi 2 mln rubla çatırdı[103]. Əsasən İrəvanda, Gəncədə, Ağdam, Cavad və Göyçay qəzalarında cəmləşmiş zavodların çoxu 8-10 fəhləsi olan kiçik müəssisələr idi. Onlarla yanaşı, Petropavlovskda, Hacıqabulda, Salyanda, bəzi başqa yerlərdə fəaliyyət göstərən zavodlar elektrik işığı və müxtəlif avadanlıqla təmin olunmuş iri kapitalist müəssisələri idi.

Təmizləndikdən sonra Rusiyanın toxuculuq fabriklərinə və xarici ölkələrə ixrac olunan pambıq mənqənələrdə sıxılırdı. Ona görə də zavodların çoxunda əksəriyyəti vintli olan mənqənələr var idi. "Voqau və K°" nın zavodu isə hidravlik mənqənələrə malik idi.

XX əsrin əvvəllərində ipək emalı sənayesi yeni inkişaf mərhələsinə daxil

oldu. 1905-ci ildə Yelizavetpol qubemiyasında 2944 fəhləsi olan 435 fabrik 1305 mln. rublluq məhsul vermişdi. 1913-cü ilə yaxın fabriklərin sayı 80-ə enmiş, istehsal həcmi isə üç dəfə artaraq 5 mln rubl olmuşdu. Sayca azalma onu göstərir ki, bir çox kiçik müəssisələr ya iflasa uğramış, ya da iri sahibkarların ixtiyarına keçmişdi. İpəkçiliyin əsas mərkəzi olan Nuxa qəzasında 109 fabrik fəaliyyətdə idi. Onlardan 45-i maşınlar və buxar mühərrikləri ilə təmin olunmuşdu, fəhlələrin sayı isə 150-300 nəfərə çatırdı. Şuşa qəzasındakı 21 fabrikdən yalnız 8-i belə texnika ilə təmin olunmuşdu və fəhlələrin sayı 100-150 nəfər idi[104]. Bir qədər iri kapitalist müəssisələri zəif, kustar müəssisələri özlərinə tabe etmişdi. İri fabriklərin nəzdində ipək əyirici şöbələr var idi.

İpək emalı fabriklərinin hazır məhsulu Moskvaya, Rusiyanın başqa şəhərlərinə və xaricə ixrac olunurdu[105]. Bu dövrdə Cənubi Qafqazda fəaliyyətdə olan 120 ipək emalı fabrikindən 114-ü, ixrac edilən məhsulun ən azı 90 faizi Azərbaycanın payına düşürdü.

Bu dövrdə tütün sənayesi də müəyyən inkişaf mərhələsi keçirirdi. Bakıda olan iri fabriklərdən başqa, Şəkidə üç, Şamaxıda iki, Gəncədə və Ağdamda bir tütün fabriki var idi. Əsasən maxorka məhsulu istehsal edən bu fabriklərin hamısı kiçik müəssisələr idi. Hazır tütün məhsulları Bakı və Gəncədə olan anbarlara yığılır, buradan Rusiyanın daxili quberniyalarına, Xəzərsahili vilayətlərə və İrana ixrac olunurdu[106].

Əvvəlki illərdə olduğu kimi, Azərbaycanın əsas pambıqçılıq rayonları Şamaxı, Göyçay, Şuşa və Yelizavetpol qəzaları idi. Çaxır istehsalı və spirtçəkmə işi Şuşa qəzasında Xublarov qardaşları və Soqomonovlar, Göyçay qəzasında Ağayev qardaşları və Şustov şirkəti, Yelizavetpol qəzasında Forer qardaşları, Humel qardaşları, Plemyannikov və knyaz Qolitsın kimi iri sahibkarların əllərində idi. 1913-cü ildə Azərbaycanda 3842490 vedrə çaxır istehsal olunmuşdu ki, bu da yüzilliyin əvvəllərindəkinə nisbətən iki dəfə çox idi və Cənubi Qafqazda istehsal olunmuş çaxırın 25 faizini təşkil edirdi.

Çaxır istehsal edən, araq və spirt çəkən müəssisələrin çoxu kiçik idi və hər birində 20-30 fəhlə çalışırdı. Lakin onların içərisində buxarla hərəkətə gətirilən mühərrikləri, xeyli fəhlə qüvvəsi və böyük istehsal həcmi olan müəssisələr də var idi.

Azərbaycanda konyak spirti istehsalı da davam edirdi. Konyak zavodları Göyçayda, Bərgüşad stansiyasında, Novruzlu kəndində, Əli Mərdanlıda və Ağdamda idi. 1906-cı ildə 9 spirt saflaşdırma zavodundan biri Bakıda, üçü Ucarda, digərləri isə Kürdəmirdə, Gəncədə və b. yerlərdə idi[107].

Çaxır və spirt ticarəti möhtəkir çaxır tacirlərinin əllərində cəmləşmişdi. Möhtəkirlər aldıqları külli miqdarda çaxır və spirt məhsullarını Bakı, Tiflis, Moskva, Peterburq, Riqa, Həştərxan və Xarkova, hətta Sibirin bəzi şəhərlərinə ixrac edirdilər[108].

Göstərilən sənaye və kustar müəssisələrindən başqa, Azərbaycan qəzalarında yüzlərlə yüngül və yeyinti sənayesi məmulatları, tikinti materialları istehsal edən sənaye sahələri, Tovuzda sement zavodu, dəyirmanlar, kərpic, gön-dəri və s. müəssisələr fəaliyyət göstərirdi.

Azərbaycan qəzalarında təsərrüfatın bütün sahələri üzrə fəaliyyət göstərən müəssisələr arasında həm fəhlələrin sayına, həm də istehsal həcminə görə birinci yeri

yeyinti sənayesi tuturdu. Bu sənaye sahəsində 1913-cü ildə 53 min fəhlə çalışmış, istehsal məbləği isə 77 mln rubl olmuşdu. Yüngül sənaye sahəsində isə 11,5 min fəhlə işləyirdi və istehsal həcmi ildə 20 mln rubl idi.

Yeyinti və yüngül sənaye müəssisələri fabrik inkişafı səviyyəsində olsalar da, böyük əksəriyyəti kiçik, bəzi hallarda isə orta kapitalist müəssisələri idi. İri kapitalist istehsalına Azərbaycan qəzalarında dağ-mədən sənayesini və qismən də ipək emalı sənayesini aid etmək olar.

## § 4. KUSTAR İSTEHSAL

XX əsrin əvvəllərində sənayenin inkişafı bir çox kustar istehsal sahələrini və sənətkarlığı böyük dəyişikliklərə uğratdı. Lakin eyni zamanda şəhər və kənd əhalisinin məişətdə mühüm rol oynayan sənət sahələri - dülgərlik, dəmirçilik, zərgərlik, tikinti materialları istehsalı inkişaf etməkdə idi.

Sənətkarlıq mərkəzləri, XIX yüzillikdə olduğu kimi, yenə də əsasən şəhərdə idi. Onların içərisində Bakı xüsusilə seçilirdi. Burada həmçinin mədən-zavod rayonlarında kustar istehsalı və sənətkarlığın müxtəlif növləri ilə muzdlu əmək tətbiq etməklə də məşğul olurdular[109].

Kustar istehsal sahələri arasında xalça toxuculuğu daha geniş yayılıb inkişaf etmişdi. Bakı quberniyasının Quba qəzası xalçaçılıqda bütün Cənubi Qafqazda birinci yeri tuturdu. 1912-ci ildə Quba qəzasının 111 kəndindən 97-də xalçaçılıqda 39979 nəfər, yəni bütün əhalinin 22,7 faizi məşğul olurdu[110]. Burada toxunan xalçalar "Çiçi", yaxud "Quba" adlanırdı[111]. 1908-1909-cu illərə dair məlumata görə, Quba qəzası kəndlilərinin illik gəlirlərinin 40 faizi, Şuşa qəzasında isə 30 faizi xalçaçılıqdan əldə edilirdi[12]. 1912-ci ildə Yelizavetpol qəzasında sənətkar əhalinin 48 faizdən çoxu xalçaçılıqla məşğul olur, əsasən Qazax xalçaları toxunurdu.

Bakı, Şamaxı, Lənkəran və Cavad qəzalarında da xalçaçılıqla məşğul olur, "Bakı", "Muğan" xalçaları, xalı, gəbə, sumax tipli xalça məmulatı, məişətdə işlənən məfrəş, xurcun, heybə, çuval və s. də hazırlayırdılar.

Xalçaçılığı təkmilləşdirmək üçün Bakıda, Şuşada, Yelizavetpol qəzasında, İmamqulukənddə, Naxçıvanda tədris-nümayiş emalatxanaları açılmışdı[113].

Xalça istehsalı sahəsində muzdlu əmək və texnikadan istifadə edən emalatxanalar da var idi, lakin onlar bütünlüklə manufaktura səviyyəsinə yüksəlməmişdi. Xalçaçıların böyük əksəriyyəti eyni zamanda kənd təsərrüfatında çalışır və başqa işlərlə məşğul olurdular, xalçaçılıq isə ev istehsalı səciyyəsi daşıyırdı.

Azərbaycanda xalçaçılıqla yanaşı, 40 növə qədər sənətkarlıq məşğuliyyəti ilə çalışanlar var idi. Onlar ağac və taxtadan düzəldilən məhsullar istehsal edir, xüsusən kənd təsərrüfatında işlədilən bel, yaba, kürək, vəl, araba kimi avadanlıqlar, həmçinin məişətdə işlədilən mebel, qaşıq, beşik, daraq, iynə, xalçatoxuma üçün dəzgah - xana və nəhayət, musiqi alətləri hazırlayırdılar. Bu əşyaların istehsal olunduğu sənət sahələri Qazax, Yelizavetpol və Şuşada daha geniş yayılmışdı.

Azərbaycanda şərabçılığın inkişaf etməsi və buna görə də şərab ixracının artması nəticəsində çəllək istehsalı ilə məşğul olan peşə sənətkarlığı xeyli genişlənmişdi.

Sənətkarlığın metal əşyalar və bəzək şeyləri istehsalı sahəsi də inkişaf edirdi. Bunlardan Azərbaycan şəhərlərində geniş yayılmış zərgərlik ustalarının düzəltdiyi məmulatlarda milli səciyyə qorunub saxlanır, zərb olunmuş, şəbəkəli və naxışlı emal bəzək şeyləri xüsusən fərqlənir, gümüş əşyalar qızılla bəzədilirdi. Zərgərlik işində ştamplama geniş yayılmışdı. Emal bəzəklər özlərinin incə naxışları ilə diqqəti cəlb edirdi. Qızıl bəzəklər ağ emalın fonunda qırmızı, yaşıl və göy emalla naxışlanır, gümüş əşyalarda qrafik naxışaçmadan və qara emalla naxışlamadan istifadə olunurdu. Azərbaycan zərgərləri XX əsrin əvvəllərində brilyant, zümrüd, yaqut, almaz və s. qiymətli daşlardan geniş istifadə etməyə başladılar.

Mis əşyalar düzəldilən sahə nisbətən ixtisara düşsə də, peşə sənətkarlığında hələ mühüm yer tuturdu. Onun əsas mərkəzi olan Lahıcda mis qablar istehsal edən 100-dən artıq emalatxana var idi[114]. Bu emalatxanalarda əmək bölgüsü mövcud idi və ustalar müəyyən məhsulun hazırlanması üzrə ixtisaslaşmışdılar. Azərbaycan misgərləri 80-dən çox çeşiddə mis əşyalar - üstü ornamentlə bəzədilmiş dəyirmi sandıq və sandıqçalar, əl-üz yumaq əşyaları, mətbəxdə və məişətin digər sahələrində işlənən müxtəlif qablar və s. düzəldirdilər[115].

Milli mis qablara tələbat böyük idi. Lahıcda istehsal olunan qablar təkcə Azərbaycanda deyil, Gürcüstanda, Dağıstanda, Şimali Qafqazda satılır, həmçinin İran və Kiçik Asiya ölkələrinə ixrac olunurdu.

Dəmir əşyalar istehsal edən ustalar əsasən kiçik kənd təsərrüfatı əşyaları düzəldir, yaxud onları təmir edirdilər. Bəzi emalatxanalarda kotan və ingilis-bolqar maşınları tipində dənsovuran istehsal olunurdu. Onların dəmir hissələri emalatxanaların özündə, çuqun təkərləri isə sifarişlə Bakıda hazırlanırdı. Bu növ kotanlara, həmçinin əllə hərəkətə gətirilən dənsovuran maşınlara tələbat böyük idi.

Sənətkarlıqda müəyyən yer tutan gil qablar istehsalı sahəsi məişətdə lazım olan əşyalara tələbatı ödədiyi üçün, demək olar ki, Azərbaycanın hər yerində yayılmışdı.

Dəri əşyalar istehsalı ilə məşğul olan geniş yayılmış peşə sənətkarlığı sahəsində çalışan sənətkarlar at üçün yəhər, cilov və başqa qoşqu əşyaları, kəmər, tütün kisəsi, tuluq, saat qabı, tapança qabı -qobur və s. düzəldirdilər. Onların hazırladıqları tumaclar, gön məhsulları məşhur idi. Özünün xüsusi ştampı və markası olan Bakı və Lahıc tumacı İran tumacı kimi məşhur olub, bütün Qafqazda yayılmışdı.

Abşeron və Bakı şəraitində minik vasitələrinin istehsalı və təmiri mühüm

əhəmiyyətə malik idi. XX əsrin əvvəllərində Bakı və onun ətrafında bu sənət sahəsində 500-dən çox usta çalışırdı.

Başqa sənətkarlıq növlərindən biri bədii ipək malların istehsalı idi. Bu sənət sahəsinin mühüm mərkəzləri Şamaxı qəzasında öz zərifliyi və rəngarəngliyi ilə heyrət doğuran kəlağayı, ipək yorğan üzü, cecim, Gəncə qəzasında kəlağayı, Nuxa qəzasında müxtəlif çəkili, naxışlı tikililər, Qarabağda, xüsusən Ləmbəran kəndində müxtəlif, çoxrəngli və incəşəkilli ipək xalçalar toxunurdu. Bədii ipək mallar toxuma sənətinin mühüm mərkəzi Basqal kəndi idi. Burada 1800 dəzgahda 900 sənətkar çalışır, ildə 1,8 mln ədəd ipək baş örtüyü toxuyurdular ki, onların qiyməti 1,6 mln. rubla bərabər idi.

Beləliklə, XX yüzilliyin əvvəllərində xalçaçılıq, zərgərlik və ağacişləmə sənətkarlığı sahələri inkişaf edir, fabrik-zavod istehsalının genişlənməsi ilə əlaqədar olaraq mis, dulusçuluq sənət sahəsi geriləyir, pambıq parça məhsulları, silah istehsalı sahələri isə aradan çıxırdı.

Sənətkarlıq istehsalı, əsasən, xırda əmtəə xarakterli idi. 1913-cü ildə Azərbaycanda 63699 sənətkar usta var idi. Onların sırasına mövsümü sənətkarlar, məsələn, 250 mindən artıq xalçatoxuyanlar daxil deyildi. Daimi sənətkar ustaların çoxu sayı 100 minə çatan muzdlu fəhlə qüvvəsindən istifadə edirdi. Manufaktura səviyyəsinə yüksələn sənət sahələri də var idi. Məsələn, Gəncədə 15 sahibkar-sənətkarın 200 ipəktoxuyan dəzgahı, 200 muzdlu toxucu ustası və 300-ə qədər şagirdi var idi.

Ümumiyyətlə, Azərbaycanda ildə 25 mln rubl dəyərində sənətkarlıq malları istehsal olunurdu.

## § 5. KƏND TƏSƏRRÜFATI

XX əsrin əvvəllərində əkinçilik Azərbaycan əhalisinin başlıca məşğuliyyəti olub, kənd əhalisinin həyatında mühüm əhəmiyyətə malik idi. Əkinçiliyin başlıca məhsulları olan buğda, arpa və düyü həm istehsalçı əhalinin öz istehlakı və həm də satış üçün becərilirdi.

Azərbaycanda ən iri taxılçılıq rayonları Bakı quberniyasının Lənkəran qəzası, Yelizavetpol quberniyasının Yelizavetpol, Ərəş, Nuxa və Şuşa qəzaları idi. 1910-cu ildə Bakı quberniyasında 12,3 mln puda qədər taxıl istehsal edilmişdi ki, bunun da 2,2 mln puddan çoxu Lənkəran qəzasının, qalanı isə digər qəzaların payına düşürdü. Yelizavetpol quberniyasına gəldikdə, 1902-ci ildə burada istehsal edilmiş 28,3 mln pud taxıldan 3,7 mln pudu Yelizavetpol qəzasının, 3 mln pudu Ərəş, 6,8 mln pudu Nuxa, 5,9 mln. pudu Şuşa qəzasının, qalanları isə Cəbrayıl, Cavanşir, Zəngəzur və Qazax qəzalarının payına düşürdü. Əvvəlki və sonrakı

illərdə də qəzalar üzrə taxıl istehsalının həcmi qeyd edilmiş nisbətdə olmuşdur. Bütün Azərbaycan üzrə isə ildə 38 mln puddan 50-52 mln puda qədər taxıl məhsulu götürülürdü.

Toplanan taxıl məhsulunun bir hissəsi olan düyü əsasən Lənkəran qəzasında istehsal edilirdi. Quba, Göyçay, Nuxa və Cavad qəzalarında da çəltik əkini ilə məşğul olurdular. Lakin bu qəzalardakı əkin sahələri Lənkərandakına nisbətən xeyli az idi.

Çəltik əkininə aid 1912-ci ilin hesabatına görə, Cənubi Qafqazda əldə edilmiş düyüdən düşən paylar aşağıdakı kimi idi: Bakı quberniyası 42 faiz, Yelizavetpol quberniyası 33 faiz, İrəvan quberniyası 13 faiz, Zaqatala dairəsi 11 faiz, Tiflis quberniyası 1 faiz. Beləliklə, Cənubi Qafqazda istehsal olunan düyü məhsulunun 99 faizi Azərbaycanın payına düşürdü.

Azərbaycanda taxıl məhsulları içərisində əsas yeri buğda və arpa tuturdu. 1909-cu ildə Bakı quberniyasında 10 mln pud buğda, 5 mln pud arpa əldə edilmişdi. Sonrakı illərdə bəzən daha çox buğda və arpa yığılırdı. Məsələn, 1912-ci ildə Bakı quberniyasında 12,7 mln pud buğda, 7,8 mln pud arpa yığılmışdı. Yelizavetpol quberniyasında isə hər il buğda 10-12 mln pud, arpa 5-9 mln. pud və daha çox olurdu. 1904-cü ildə Yelizavetpol quberniyasında 20 mln pud buğda, 10 mln pud arpa toplanmışdı.

Düyüyə gəldikdə isə orta illik məhsul Bakı quberniyasında 0,5-2,5 mln pud, Yelizavetpol quberiyasında isə 0,4-2,1 mln. pud olurdu.

Gətirilən rəqəmlərdən göründüyü kimi, torpaq sahələrinin genişliyini nəzərə alsaq, məhsuldarlıq o qədər də yüksək deyildi. Bu, quraqlıq, havaların qışda soyuq, yayda isti küləkli olması, aran yerlərdə qar yağmaması, habelə çəyirtkə, çöl siçanlarının yayılması və digər təbii amillər üzündən törəyirdi. Məsələn, əgər 1904-cü ildə Yelizavetpol quberniyasında 5,4 mln pud toxum səpilmiş və 38 mln pud taxıl toplanmışdısa, 1905-ci ildə 5,2 mln pud taxıl səpilmiş və cəmi 15 mln pud, yəni 1904-cü ildəkindən 2,5 dəfə az taxıl toplanmışdı. Məhsuldarlığın kəskin fərqlə aşağı düşməsi çəyirtkə basqını və başqa kortəbii hadisələrlə əlaqədar idi.

1901-ci ilə dair məlumatlarda göstərilir ki, Yelizavetpol quberniyasının Cəbrayıl qəzasında 61400 desyatin torpaq sahəsi çəyirtkə sürfəsi ilə örtülmüşdü. 1904-cü ildə Şuşa qəzasında çəyirtkənin məhv etdiyi sahə 75 min desyatinə çatırdı.

Şahidlərdən biri yazırdı: "Çəyirtkələr üç gün uçdular. Gündüz axşama çevrilmişdi. Çəyirtkə böyük qara bulud kimi günəş işığının qarşısını kəsmişdi. Çəyirtkə İrandan Mil düzünə keçərkən bir həftə ərzində Xonaşından Hindarxa qədər olan sahədə yerləşmişdi".

Taxıl məhsulu miqdarının tərəddüd etməsi və azalması kəndli kütləsinin pay torpağının azlığı, eyni sahədə hər il eyni bitkinin əkilməsi, torpağın dincə qoyulmaması, torpağın köhnə üsulla becərilməsi, aqrotexnikanın, demək olar ki, tətbiq olunmaması ilə də əlaqədar idi.

Torpağın şumlanması və əkinlərin becərilməsi əsasən ibtidai üsulla

aparılırdı. Ağır kotanla yer şumlamaq üçün 6-8, dağ rayonlarında 10 cüt öküz tələb olunurdu. Bu qədər öküzü olmayan kəndlilərin əksər kütləsi bir növ şirkət təşkil edir və sahələrini növbə ilə becərirdilər.

Bununla belə elə təsərrüfatlar var idi ki, onlarda torpaq intensiv surətdə becərilir, yəni müasir texnika, dəmir kotan, taxıldöyən maşın tətbiq olunurdu. Belə təsərrüfatlar qolçomaqlara, varlı kəndlilərə və öz təsərrüfatı ilə məşğul olan mülkədarlara məxsus idi. Çünki təkmilləşdirilmiş alət və maşınlar baha idi və onları yalnız varlı adamlar satın ala bilirdi. Bir mənbədə deyilirdi ki, "Şərqi Zaqafqaziyanın dörd quberniyasında son 2-3 ildə neft və ya buxar mühərriki olan, 6-8 kotanı hərəkətə gətirən bir neçə traktor meydana çıxmışdır". Cənubi Qafqazda, o cümlədən Azərbaycanda təkmilləşdirilmiş kənd təsərrüfatı maşınları və alətlərinin yayılmasında "Qafqaz kənd təsərrüfatı cəmiyyəti" müəyyən rol oynamışdı. Cəmiyyət kənd təsərrüfatı alət və maşınlarını nümayiş etdirir, kəndlilərin iştirakı ilə onların sınaqdan keçirilməsini təşkil edir, hətta yerlərdə maşın istehsal etmək ideyasının təbliğatını aparır və ideyanın bəzi yerlərdə həyata keçirilməsinə nail olurdu. Kənd təsərrüfatı maşın və alətlərini yaymaq üçün Azərbaycanda anbarlar açılırdı. 1910-cu ildə Azərbaycanın kənd təsərrüfatında 76.270 xış, kustar üsulla hazırlanmış 24230 kotan, zavodlarda hazırlanmış 30250 kotan, 21230 mala, 840 səpin maşını tətbiq olunurdu. Əgər 1910-cu ildə Azərbaycanda 300 min-dən çox kəndli təsərrüfatının olduğunu nəzərə alsaq, onda bu təsərrüfatların çoxunun hətta xışa belə malik olmadığı aydın olar.

Xırda kəndli təsərrüfatlarının taxılı yalnız onların istehlakına gedirdi, lakin Azərbaycanda əmtəəlik taxıl da istehsal olunurdu.

Azərbaycan kəndlərinə gələn ticarət firmalarının nümayəndələri, eyni zamanda yerli taxıl möhtəkirləri bazarlarda aldıqları taxılı müxtəlif yerlərə aparıb satırdılar. Məsələn, Lənkəran qəzasında 4 taxıl bazarı var idi. Azərbaycandan hər il ixrac olunan 1,5-2 mln. pud taxıl məhsulları içərisində düyü mühüm yer tuturdu.

Azərbaycana başqa yerlərdən də taxıl gətirilirdi. Taxılın ixracında olduğu kimi, idxalında da Bakı mühüm rol oynayırdı. Məsələn, 1901-ci ildə Bakı 5,2 mln pud taxıl idxal, 2 mln ton isə ixrac etmişdi, 1911-ci ildə bu rəqəmlərdə əsaslı dəyişiklik görürük: idxal 12,7 mln pud, ixrac isə 4,9 mln pud təşkil edirdi. İxrac içərisində un və düyü əsas yer tutur, 1912-ci ildə Bakıdan ixrac olunan 5 mln pud taxıl məhsullarından 2,5 mln. puddan çoxunu un, 2,2 mln pudunu isə düyü təşkil edirdi.

Beləliklə, XX əsrin əvvəllərində Azərbaycan kəndində ticarət əkinçiliyi, yəni əmtəə istehsalı geniş yayılır, ölkədə feodal münasibətləri qalıqlarının olmasına baxmayaraq, əmtəə-kapitalist istehsalı, yəni kapitalist münasibətləri inkişaf edirdi.

Azərbaycanın iqtisadi həyatında mühüm yerlərdən birini maldarlıq tuturdu. Maldarlığın inkişafı üçün bərəkətli otlaqların, geniş düzənliklərin, yaylaq və qışlaqların, əlverişli iqlim şəraitinin, təmiz dağ bulaqlarının olmasının böyük əhəmiyyəti var idi.

Azərbaycanın kənd əhalisini maldarlıqla məşğulluq səviyyəsinə görə üç qrupa bölmək olardı əkinçiliklə məşğul olub, mal-qaranı öz ailə və təsərrüfat ehtiyacını

ödəmək üçün saxlayanları birinci qrupa, qismən əkinçiliklə, əsasən maldarlıqla məşğul olan kəndliləri ikinci qrupa, əsasən məşğuliyyəti maldarlıq olanları - yarımköçəri həyat tərzi keçirənləri üçüncü qrupa aid etmək mümkündür. Mal-qaranın böyük əksəriyyəti ikinci və üçüncü qrupa aid edilən kəndlilərin əlində cəmləşmişdi. Elə mülkədarlar və varlı kəndlilər var idi ki, onların bir neçə min, bəzilərinin isə on minlərlə qoyunu və başqa mal-qarası var idi. Deməli, bu maldarlar əmtəə maldarlığı ilə məşğul olurdular.

Maldarlığın əsas sahələri qoyunçuluq, atçılıq və iribuynuzlu mal-qara saxlanılması idi. Az miqdarda qatır, dəvə, keçi və donuz da saxlanırdı. Qoyunlar qabayunlu idi, ancaq Yelizavetpol qəzasında az miqdarda zərifyunlu qoyunlara da rast gəlinirdi.

XX yüzilliyin əvvəllərində Azərbaycanda saxlanan 3-5 mln baş heyvanın çox hissəsini qoyunlar təşkil edirdi. Yelizavetpol quberniyasında qoyunların sayı 1,5-2,5 mln başa çatırdı. Məsələn, 1904-cü ildə bu quberniyada 2,3 mln baş qoyun, 766 min baş qaramal, 100 minə qədər at, Bakı quberniyasında isə 1910-cu ildə 820 min baş qoyun, 400 min başa yaxın qaramal və 87 minə yaxın at var idi.

Mal-qara və onun məhsulu geniş ticarətə malik idi - yerli bazarlarda satılır, Cənubi Qafqazın şəhərlərinə və Dağıstana aparılırdı. Azərbaycanın bir çox kənd yerlərində xüsusi mal-qara bazarı var idi. Onlara gətirilən mal-qara alınır, Bakı, Tiflis və başqa şəhərlərdə satışa çıxarılırdı. Təkcə Bakı şəhərinə hər il 250-270 min baş qaramal və qoyun gətirilirdi. 1910-cu ilin mayında Vladiqafqaz dəmir yolunun Xaçmaz stansiyasında xüsusi mal-qara yarmarkaları təşkil olunmuşdu. Heyvan dərisi, süd məhsulları da geniş satış malları idi.

Maldarlıq məhsullarının ən vacib əmtəə növü yun idi. Azərbaycan hər il yarım milyon puda qədər yun verirdi. Bunun xeyli hissəsi Rusiya şəhərlərinə, hətta xarici ölkələrə ixrac olunurdu. 1900-cü ildə dəmir yol nəqliyyatı vasitəsilə 110 min, 1902-ci ildə 182 min, 1904-cü ildə 213 min, 1906-cı ildə 337 min pud yun ixrac edilmişdi. Batuma hər il 280 min puda qədər yun gətirilir və buradan dəniz nəqliyyatı ilə İngiltərəyə, Fransaya, hətta Amerikaya göndərilirdi. Amerika müəssisələrində qiymətli xalçalar toxumaq üçün yun əsasən Cənubi Qafqazdan və İrandan gətirilirdi. Qafqazın qoyunçuluqla məşğul olan iri maldarları, əcnəbi firmaları daha uğurlu ticarət etmək üçün xarici ölkələrdə ticarət kontorları da açırdılar.

Beləliklə, XX yüzilliyin əvvəllərində maldarlıq təsərrüfatında hələ də yarımfeodal münasibətlərin, yarımköçəri həyat tərzinin qalmasına baxmayaraq, maldarlıq Azərbaycan iqtisadiyyatında mühüm yer tutur və maldarlıqdan götürülən məhsul əsasən əmtəə xarakteri daşıyırdı. Kapitalist münasibətləri bu təsərrüfat sahəsində zəif də olsa, özünə yer tuta bilmişdi.

Azərbaycanın kənd təsərrüfatı həyatında bağçılıq və üzümçülük xüsusi əhəmiyyətə malik idi. Təsərrüfatın bu sahələrinin inkişafına səbəb bir tərəfdən, iqlim şəraiti, digər tərəfdən isə Azərbaycanla Rusiyanın daxili quberniyaları arasında dəniz və quru yolları vasitəsilə müntəzəm əlaqənin yaranması və o yerlərdə bağ məhsullarına tələbatın yüksək olması idi. Bir sıra sənaye sahələri - şərabçılıq, araqçəkmə, ipəkçilik və s.

bağçılığın inkişafı ilə bağlı idi. Azərbaycanda Gəncə, Şəki, Şamaxı, Göyçay, Quba qəzaları, Qarabağ, Zaqatala dairəsi və Naxçıvanda bağçılıq və üzümçülük daha geniş inkişaf etmişdi.

Bakı quberniyasında təkcə üzümlüklərin sahəsi 10-11 min desyatindən çox olub, ildə orta hesabla 1,5-1,8 mln puda qədər üzüm məhsulu verirdi. Yelizavetpol quberniyasında isə üzümlüklərin sahəsi 11-12 min desyatin olub, illik məhsul 1,7-3,3 mln puda bərabər idi. Ümumiyyətlə, Azərbaycanda, Naxçıvan qəzası və Zaqatala dairəsi daxil olmaqla, ildə orta hesabla 4-6 mln pud üzüm məhsulu yığılırdı.

Azərbaycanda bağçılığın, o cümlədən üzümçülüyün inkişafına elmi və təcrübi kömək göstərmək üçün iki bağçılıq məktəbi fəaliyyət göstərirdi. Bunlardan birini Bakı yaxınlığındakı Mərdəkan kəndində H.Z.Tağıyev açmışdı. Digər məktəb isə 1898-ci ildən Qubada fəaliyyət göstərirdi. Qubadakı məktəbin daha çox tələbəsi var idi. Məktəbin nəzdində 10 desyatin sahəsi olan nümunəvi bağ meyvə ağacları və üzümlükləri ən yaxşı üsulla becərməyi öyrənməyə imkan verirdi.

Bağçılıq və üzümçülüyün inkişafına əməli kömək etmək məqsədilə təşkil olunan sərgilərə gələnlərə və onların iştirakçılarına bağçılığın ayrı-ayrı sahələri haqqında mühazirələr oxuyur, bir çoxlarını medalla təltif edərək həvəsləndirirdilər. Quba şəhərində, Nügədi, Xaçmaz və başqa yerlərdə ağacların müalicə üsullarını öyrətmək üçün də nümunəvi bağ sahələri salınmışdı.

Azərbaycanda böyük əksəriyyətini xırda bağ sahibləri təşkil edən üzümçülərin hər birinin sərəncamında 1/4, 1/2 desyatin bağ sahəsi var idi. Bununla belə öz təsərrüfatlarını kapitalistcəsinə qurmuş Ağayev qardaşları, Forer qardaşları, İretski və b. kimi sahibkarlar təsərrüfat əməliyyatlarının çox hissəsini əllərində cəmləmiş və xırda istehsalçıları özlərindən asılı etmişdilər.

Bağçılıqla məşğul olan kəndlilər təkcə üzümü deyil, yetişdirdikləri külli miqdarda müxtəlif meyvələri də Azərbaycan şəhərlərində satırdılar. Meyvə və meyvə qurusu müxtəlif ölkələrə və Rusiya şəhərlərinə aparılırdı. Məsələn, 1913-cü ildə Peterburqa 33,6 min pud, Odessaya 183 min pud, Rostova 78 min pud müxtəlif meyvə göndərilmişdi. Təkcə dəniz yolu ilə hər il 250-350 min pud meyvə qurusu daşınırdı. Bu yüklərin içərisində qoz və fındıq xüsusi yer tuturdu.

Kənd təsərrüfatı istehsalı sahəsində üzümçülüklə bilavasitə bağlı olan şərabçılığı da qeyd etmək lazımdır. Azərbaycanda hər il 2-2,5 min vedrə olan şərab istehsalı iri sahibkarların (Forer qardaşları, Hummel qardaşları, Ağayev qardaşları və b.) əllərində cəmlənmişdi. Çaxırın böyük hissəsi Rusiya quberniyalarına göndərilirdi.

Azərbaycanın əksər yerində baramaçılıqla da məşğul olurdular. Bu təsərrüfat sahəsinin inkişafı üçün əsas şərtlərdən biri tut ağacı plantasiyalarının genişlənməsi idi. Bu plantasiyalar Azərbaycanda əsas etibarilə Nuxa, Ərəş, Naxçıvan (Ordubad) qəzalarında və Zaqatala dairəsində geniş sahələri əhatə edirdi. XX yüzilliyin əvvəllərinə yaxın Zaqatala dairəsində tut bağlarının sahəsi 1300 desyatin, Yelizavetpol quberniyasında isə 10 min desyatin - dən çox idi. İpəkqurdunun yemlənməsi və barama alınması üçün xüsusi məntəqələr var idi. Rusiya toxuculuq sənayesi üçün mühüm xammal olan baramaçılığı inkişaf etdirmək üçün Tiflisdə "Qafqaz ipəkçiliyi stansiyası" təşkil edilmiş, onun

Şuşa və Şəki kimi şəhərlərdə filialları açılmışdı. Stansiya və onun filialları yerlərdə ipək qurdu bəslənməsi qaydalarını nümayiş etdirir, lazımi izahatlar verir və bəzi hallarda kümçülərin müşavirələrini keçirirdi. Hətta 1902-ci ildə kənd sahibkarlarının Tiflisdə qurultayı açılmış və burada baramaçılığın, ümumiyyətlə, ipəkçiliyin inkişafı məsələləri müzakirə edilmişdi. İpəkçilik stansiyası əhalinin kənd təsərrüfatı biliyini artırmaq üçün məktəblər də açmışdı. Məsələn, belə məktəblər Göyçay və Kürdəmirdə fəaliyyət göstərirdi. 1910-cu ildə Yelizavetpol qubemiyası kənd məktəbləri müəllimlərini baramaçılığın təkmilləşdirilmiş üsulları ilə tanış etmək və yerlərdə necə kömək göstərmək məsələlərini müzakirə etmək üçün onların qurultayı çağırılmışdı.

Bütün bu tədbirlər ipəkçiliyin sonrakı inkişafına, istehsal səviyyəsinin yüksəlişinə kömək göstərsə də, əsasən iri baramaçı və ipəkçi sahibkarları əhatə edirdi. İpəkçilərin böyük əksəriyyəti bu tədbirlərdən kənarda qalır və barama istehsalında bəsit texnika yenə üstünlüyünü saxlayırdı.

Azərbaycan baramaçıları başqa ölkələrdən, əsas etibarilə Kiçik Asiyadan (ağ cins), qismən də Fransa və İtaliyadan (sarı cins) gətirilən baramaqurdu toxumu ilə təmin olunurdular. Baramaqurdu toxumunun cüzi hissəsini yerli baramaçılar və Qafqaz ipəkçilik stansiyası yetişdirirdi. Azərbaycan baramaçıları hər il 100 minlərlə qutu baramaqurdu toxumu alırdılar. Məsələn, 1910-cu ildə Yelizavetpol qubemiyasına 165 min qutu ipəkqurdu toxumu gətirilmiş, onun 53 min qutusu Ərəş qəzasında, Nuxa, Şuşa, Qaryagin qəzalarının hər birində 30 min qutu, qalanı isə başqa qəzalarda yerləşdirilmişdi. Hər il Yelizavetpol quberniyasında 125-150 min pud barama istehsal olunurdu.

Barama istehsalı ilə əsasən kənd əhalisi - kişilər, qadınlar və uşaqlar məşğul olurdular. Tut bağları olan iri mülkədarların çoxu öz bağlarını məhsulun 1/2, 2/5 və 1/5 hissəsini almaq şərtilə kəndlilərə icarəyə verirdilər. Bəziləri isə qurdların bəslənməsilə bilavasitə özləri məşğul olur, bu işdə qadın və uşaq əməyindən istifadə edirdilər. Baramaçı fəhlələrə "kümdar" deyirdilər. Deməli, baramaçılıqda kapitalist manufakturası mövcud idi.

Azərbaycanda istehsal olunan baramanın bir hissəsi yerli ipəksarıma müəssisələrinə satılır, digər hissəsi isə Rusiyaya və xaricə göndərilirdi.

Pambıqçılıq Rusiya toxuculuq sənayesinin xammala tələbatı ilə bilavasitə bağlı olduğu üçün XX əsrin əvvəllərində də Azərbaycan iqtisadiyyatında mühüm yer tuturdu.

Rusiyanın özündə olan pambıqçılıq təsərrüfatı sənayenin tələbatını ödəyə bilmədiyi üçün rus sahibkarları XIX əsrin əvvəllərində pambığın çox hissəsini xarici ölkələrdən gətirməyə məcbur olurdular. Ona görə də çarizm Orta Asiya və Azərbaycanda pambıqçılığın inkişafı üçün tədbirlər görməyə başladı. Bu tədbirlərdən ən vacibi Azərbaycan və Orta Asiya pambığına ucuz qiymətilə üstün rəqib olan xarici pambığın üzərinə gömrük vergisinin qoyulması oldu. Bu, yerli pambığın qiymətinin artmasına, pambıqçıların həvəslənməsinə səbəb oldu və Azərbaycanda da pambıqçılığın inkişafına təkan verdi. Mətbuatda qeyd olunurdu ki, "Rusiya və xüsusən Cənubi Qafqazda pambığın qiymətinin artması birdən-birə pambıq əkini sahələrinin xeyli genişlənməsinə

və beləliklə, ölkədə pambıq məhsulunun çoxalmasına təsir etmişdi".

XX əsrin əvvəllərində rus firma nümayəndələrinin Azərbaycana axını başlandı. Çünki Azərbaycan pambıqçılığın digər mərkəzi olan Orta Asiyaya nisbətən daha yaxın, burada alınan pambıq daha ucuz idi.

Azərbaycanın ənənəvi pambıqçılıq bölgələri Göyçay, Ərəş, İrəvan, Cavanşir və Naxçıvan qəzaları idi. Sonralar təsərrüfatın bu sahəsinin əsas bazasına çevrilmiş Cavad qəzasında artıq XX əsrin başlanğıcında pambıqçılıq genişlənməyə başlamışdı. Doğrudur, Şamaxı, Lənkəran və Quba qəzalarında da pambıq əkilirdi, lakin 1907-ci ildə bu üç qəzada pambıq sahəsi cəmisi 300 desyatin idi.

Pambıq əkini sahələri böyük sürətlə artırdı. Məsələn, XX əsrin başlanğıc illərində ilk dəfə pambıq əkilən Dəllərdə əkin sahəsi cəmisi 53 desyatin. idi. 1906-cı ildə bu rəqəm 500 desyatinə, 1911-ci ildə isə 2000 desyatinə çatıb 40 dəfə artdı. Bu dövr ərzində Şəmkirdə pambıq əkini sahəsi 50 desyatindən 6-7 min desyatin-nə qədər- 120-140 dəfə artdı. X.B.Hacınski 1915-ci ildə yazırdı ki, "pambıq məmurun, bəyin, fəhlənin, adi kəndlinin, kapitalist icarədarların, ticarət kapitalı sahibinin, sadə adamın şüurunda sehrli bir iz buraxmışdı". Pambıq əkini ilə neft sənayeçiləri də məşğul olurdular. Bakı neft sənayeçisi Tağıyev məşhur 26 min desyatinlik "Yevlax mülkünü" satın almışdı. 1909-cu ilin əvvəllərində H.Z.Tağıyev "Qafqaz kənd təsərrüfatı cəmiyyəti"ndən pambıq əkini sahəsini genişləndirmək məqsədilə onun mülkünün təsərrüfat planını tərtib etməyi xahiş etmişdi. Cəmiyyətin gördüyü iş əsasında Tağıyevin mülkündə pambıq əkini sahəsi xeyli genişlənmişdi. Azərbaycanda pambıq əkini sahələrinin genişləndirilməsinə buraya köçürülmüş rus kəndliləri də maraq göstərirdilər. Onların pambıq əkini sahələri qısa müddətdə (1904-1911) 8 desyatindən 6752 desyatinədək artırılmışdı.

1911-ci ildə Göyçay qəzasında 5 min desyatin örüş pambıq əkini sahəsi edildi. Yelizavetpol qberniyasında, xüsusilə onun Yelizavetpol qəzasında pambıqçılıq təsərrüfatın bütün başqa sahələrini sıxışdırır və əhali nəinki əkin yerlərini, hətta bostanlarını belə pambıq əkini edirdilər. Pambıq əkini sahəsinə və yığılan pambığın miqdarına görə, 1911-ci ildə Yelizavetpol quberniyası İrəvan quberniyasını (bu quberniyanın isə əsas pambıqçılıq mərkəzi Naxçıvan qəzası idi) ötüb keçmişdi. Əgər 1897-ci ildə Yelizavetpol quberniyasında pambıq əkini sahəsi 6944 desyatin idisə, 1913-cü ildə 61700 desyatin olmuşdu. Bakı quberniyasında isə həmin illər ərzində pambıq əkini sahələri 4395 desyatindən 35300 desyatinə çatmışdı. Deməli, Azərbaycanda pambıq əkini sahəsi, Naxçıvan qəzası nəzərə alınmadan, 1913-cü ildə 100000 des.-nə bərabər idi.

Pambıq əkini sahələri genişləndikcə yığılan məhsul da ildən-ilə artırdı. Əgər 1900-cü ildə Azərbaycanda 148 min puddan bir qədər artıq pambıq toplanmışdısa, 1913-cü ildə bu rəqəm 1150370 puda çatmışdı.

Pambıqçılığın rastlaşdığı çətinliklərdən ən böyüyü hər il xeyli pambıq əkini sahəsini məhv edən çəyirtkə idi. 1902-ci ildən 1912-ci ilədək olan müddətdə təkcə 1910-cu ildə Şuşa qəzasında pambıq əkini sahəsinə ziyan vurulmamışdı. 1910-cu ildə çəyirtkə Lənkəran, Cavad, Qaryagin və Naxçıvan qəzalarında pambıq əkinlərini məhv etmişdi.

Pambıqçılığa əngəl törədən amillərdən biri də Azərbaycanda geniş yayılmış

möhtəkirlik idi. Pambıqçı kəndlilər hələ məhsul yığılmamışdan qabaq aldıqları behin müqabilində öz pambıqlarını möhtəkirlərə bazar qiymətindən xeyli ucuz satmalı olurdu, bu da onları iflasa gətirib çıxarırdı.

Çaylar quruyarkən yaranan su çatışmazlığı da pambıqçılığın inkişafına böyük əngəl törədirdi. Azərbaycanın ən iri pambıqçılıq zonalarında, xüsusən Mil və Muğan düzlərində ancaq geniş suvarma şəbəkəsi sayəsində lazımi qədər pambıq məhsulu əldə etmək mümkün idi.

Hələ XIX əsrin 90-cı illərində Qafqazda təşkil edilmiş su müfəttişliyi maliyyə çətinlikləri üzündən yalnız XX əsrin əvvəllərindən etibarən fəaliyyətə başlaya bilmişdi. Bu idarənin Mil, Muğan düzlərində arxlar çəkmək, suvuran nasoslar qoymaq və s. üçün göstərdiyi səylər nəticəsində əkin sahələrinin müəyyən hissəsini suvarmaq mümkün olurdu. Su qurğularının çox hissəsi rus köçkünlərinin yaşadığı kəndlərin əkin sahələrini suvarmağa xidmət edirdi. Bu tədbirlər sayəsində Muğanda suvarılan torpaqların sahəsi ilbəil artırdı. Belə ki, əgər 1902-1908-ci illərdə belə torpaqların sahəsi 6 min desyatin idisə, 1913-cü ildə 70 min desyatinə çatmışdı. Mil düzündə də bir neçə arx çəkilmişdi. Bu işlərin həyata keçirilməsində "Qafqaz kənd təsərrüfatı cəmiyyəti" müəyyən rol oynayır, təkmil üsulla pambıq yetişdirən təcrübə stansiyaları, nümunəvi təsərrüfat sahələri yaradır, burada kənd təsərrüfatı alətləri, onlardan istifadə qaydalarını nümayiş etdirmək, kənd təsərrüfatı alətləri almağa kömək etmək kimi tədbirlər həyata keçirilirdi. Cəmiyyət təcrübə mübadiləsi aparmaq üçün 1904-cü ildə Ağdaş və İrəvanda pambıqçılıq qurultayını keçirmişdi.

Pambıqçılığın inkişafı mülkədarların patriarxal məişətini dağıdır, onların bir qismini muzdlu əmək tətbiq etməklə pambıqçılıqla məşğul olmağa sövq edirdi.

Pambıqçılığın inkişafı Azərbaycanda kredit-bank sisteminin genişlənməsinə də təkan vermişdi. Bakı quberniyasının Bakı, Cavad, Lənkəran, Göyçay, Şamaxı, Quba qəzalarının bəzisində bir, digərində bir neçə, Yelizavetpol quberniyasının altı qəzasında 24 borc-kredit müəssisəsi fəaliyyət göstərirdi.

Toplanmış pambıq bu dövrdə Azərbaycanda çoxalmış və genişlənmiş pambıqtəmizləmə zavodlarında emal olunaraq Rusiyaya göndərilirdi. 1911-ci ildə Azərbaycandan Rusiyaya 1490 min, 1912-ci ildə 1992 min, 1913-cü ildə isə 1420 min pud pambıq aparılmışdı. Pambıqtəmizləmə zamanı əldə edilmiş çiyid də ixrac olunurdu. Bakı quberniyasından 1910-1912-ci illərdə Rusiyaya və Batum vasitəsilə xaricə 413 min pud çiyid ixrac edilmişdi.

Beləliklə, əmtəə əkinçiliyi olub, əmtəə və əmtəə-kapitalist xarakteri daşıyan pambıqçılıq XX əsrin əvvəllərində Azərbaycanın xalq təsərrüfatında görkəmli yer tutmuş və yüksək sürətlə inkişaf etmişdi.

XX əsrin əvvəllərində Azərbaycanda tütünçülük də ölkənin kənd təsərrüfatı istehsalında müəyyən yer tuturdu. XIX əsrin sonunda xaricdən gətirilən tütünə qoyulan gömrük rüsumu xaricdən tütün gətirilməsinin qarşısını xeyli aldı və Azərbaycanda da tütünçülüyün inkişafına təkan verdi.

Azərbaycanın çox yerlərində tütün becərilirdi, lakin o, Yelizavetpol

qubemiyasının Nuxa qəzası və Zaqatala dairəsindən başqa, hər yerdə istehsalçıların öz istehlakı üçün idi. Nuxa qəzası və Zaqatala dairəsi isə sənaye tütünçülüyü, ticarət əkinçiliyinin bu sahəsi ilə məşğul olan rayonlar idi. Nuxa, həmçinin Göyçay qəzasında əsasən sadə tütün - tənbəki, Zaqatala dairəsində isə yüksəknövlü tütün məhsulu yetişdirilirdi.

Azərbaycanda iri kapitalist tütünçülük plantasiyaları mövcud olduğu və onlarda bütün işlər muzdlu əməklə aparıldığı üçün əsasən kapitalist istehsalı xarakteri daşıyırdı. Amma çoxlu xırda kəndli təsərrüfatları da var idi və onlarda bütün işləri sahibkarların özləri görürdü. Bakı qubemiyasında ildə orta hesabla 3-4 min, Yelizavetpol qubemiyasında 15-30 min, Zaqatala dairəsində isə 5-15 (bəzi illər-də 21,2) min pud tütün istehsal edilmişdi.

Tütün məhsulu əsasən Bakı, Şəki və Şamaxı fabriklərinə, Rusiya quberniyalarına göndərilir, bir hissəsi isə xaricə, xüsusən İrana ixrac olunurdu.

Azərbaycanda xırda tütün təsərrüfatlarının sayca çoxluğuna baxmayaraq, əsas təsərrüfat əməliyyatları iri tütün plantasiyası sahiblərinin əllərində cəmləşmişdi. Bu plantasiyalarda isə əmtəə istehsalı özünün yüksək pilləsində, əmtəə-kapitalist inkişafı yolunda idi.

Rusiyada kəndli islahatı keçirildikdən sonra, çar hökuməti, nəhayət, Cənubi Qafqaz dövlət kəndliləri barəsində islahat keçirmək hazırlığına başladı.

Azərbaycan çar Rusiyası tərəfindən işğal edildikdən sonra, dövlət kəndlilərinin icmalıqla istifadəsində olan torpaqlar kənd yığıncağında ayrı-ayrı ailələr arasında vaxtaşırı bölünməyə başladı. Bu bölgüdə ailə üzvlərinin sayı nəzərə alınırdı. Lakin bir qədər sonra, xüsusən XIX yüzilliyin son rübündə, ölkədə sosial-iqtisadi inkişaf ilə əlaqədar torpaqların ayrı-ayrı ailələr arasında bölüşdürülməsi qaydası dəyişdi. Dövlət kəndində baş verən təbəqələşmənin getdikcə sürətlənməsi nəticəsində yoxsullaşmış kəndlilərin torpaqları varlı kəndlilərin əllərində cəmləşməyə başladı. XIX əsrin sonlarında isə bölünməyə əsaslanan kənd icması artıq tam iflas qarşısında idi. Təkcə bütün icmanın deyil, kənddə hakimiyyəti də ələ keçirmiş kənd varlılarının təsiri nəticəsində icma qaydalarına əhəmiyyət verilməyə başladı. Torpaqlar ya çox gec-gec bölüşdürülür, yaxud da heç bölüşdürülmürdü. Bu, onsuz da ağır vəziyyətdə olan kəndli istehsalçıların böyük kütləsinin torpaqdan istifadəsi məsələsini daha da ağırlaşdırdı. Belə vəziyyətə dözməyən dövlət kəndliləri çar idarələrinə torpaq çatışmazlığı, torpağın qeyri-bərabər bölüşdürülməsi, yaxud da heç bölüşdürülməməsi barədə ərizələr yağdırırdılar. Kənddə sosial münasibətlərin kəskinləşməsi çar hökumətini dövlət kəndlilərinin torpaqdan istifadəsi məsələsi ilə məşğul olmağa məcbur etdi.

Çar hakimiyyət orqanları dövlət kəndində aqrar islahatın layihəsini hazırlamamışdan qabaq dövlət kəndlilərinin iqtisadi məişətini öyrənmək məqsədilə 1884-cü ilin əvvəllərində bir qrup mütəxəssisi səfərbər edib ayrı-ayrı qəzalar üzrə bölüşdürdü və onlara tapşırdı ki, dövlət kəndlilərinin torpaqla necə təmin olunması, onların meşələrə və otlaqlara münasibəti, torpağın ayrı-ayrı şəxslərə mənsub olub-olmaması, dövlət kəndlilərinin əkinçilikdən və heyvandarlıqdan başqa gəlir mənbələri,

azad xəzinə torpaqlarının olub-olmaması və s. barəsində məlumat toplasınlar. Toplanan məlumatlar 1885-1887-ci illərdə Tiflisdə yeddi cilddən ibarət "Zaqafqaziya ölkəsi dövlət kəndlilərinin iqtisadi məişətini öyrənmək üçün materiallar" adı ilə nəşr olundu.

Müvafiq materiallar toplandıqdan, hətta onların nəşr olunmasından sonra da çar hökumət dairələri islahatın layihəsini hazırlamağa tələsmirdi. Yalnız 1892-ci ildə Tiflisdə xüsusi komissiya yaradıldı. Komissiya "Zaqafqaziya ölkəsinin xəzinə torpaqlarında yaşayan dövlət kəndlilərinin torpaq məsələsi barədə" Qanunun layihəsini tərtib etməli, həmçinin sahibkar torpaqlarından çıxarılmış kəndlilərin torpaq məsələsini qaydaya salmaq problemini müzakirə etməli idi. Lakin komissiya islahat layihəsinin hazırlanmasından qabaq Zaqafqaziyanın bütün beş quberniyası üzrə dövlət kəndlilərinin torpaqla təmin olunması məsələsinin qaydaya salınmasının əsasları barədə geniş qeydlər hazırlamağı lazım bildi və onun tərtibini komissiyanın sədri, müşavir Y.S.Medvedyevə həvalə etdi.

Həmin sənəddə qeyd olunurdu ki, bütün qəzalarda tamamilə torpaqla təmin olunmamış kəndli icmaları ilə yanaşı, torpaq çatışmazlığından korluq çəkənlər, hətta artıqlaması ilə torpaqları olanlar da var[116]. Medvedyev torpaqsız və aztorpaqlı kəndliləri boş olan xəzinə torpaqları hesabına təmin etmək təklifını irəli sürür, eyni zamanda hesab edirdi ki, bu torpaqlar azdır və pay torpaqlarını nizama salmaq üçün onun artığı kənddə birindən alınıb onun həmkəndlisinə verilməlidir. Lakin kəndin sosial-iqtisadi vəziyyəti elə idi ki, nəinki bu təklifi həyata keçirmək mümkün deyildi, artıq pay torpaqlarının bərabər surətdə bölünməsi barədə heç söhbət də gedə bilməzdi.

"Qeydlər"də torpaqların hansı əsaslarla - istifadəyəmi, yoxsa xüsusi mülkiyyət kimi kəndlilərə verilməsi məsələləri geniş yer tuturdu. Medvedyev belə hesab edirdi ki, kəndli təsərrüfatı "olduqca aşağı mədəni səviyyədə" olduğuna və kəndlilər hökumətin qayğısına ehtiyac duyduqlarına görə torpaq onlara xüsusi mülkiyyət hüququnda deyil, daimi istifadə hüququnda verilməlidir[117].

"Qeydlər"də kəndlilərə, vergi ödəmək şərtilə, meşə pay torpaqları verilməsi məsələsinə də toxunulurdu, digər məsələlərlə yanaşı, bu və ya digər səbəb üzündən sahibkar torpaqlarında olan dövlət kəndlilərinə də müəyyən yer ayrılır və bildirilmirdi ki, "azad torpaq sahələri çatışmadığı üçün onları xəzinə torpaqları ilə təmin etməyin mümkünlüyü olduqca şübhəlidir"[118].

1896-cı ilin başlanğıcında komissiya öz sədrinin "Qeydləri"ni müzakirə etdi. "Pay torpaqlarının qaydaya salınması" məsələsinin müzakirəsi zamanı kəndlilərin vəziyyəti ilə daha yaxından tanış olan komissiyanın bəzi üzvləri qeyd etdilər ki, çoxtorpaqlı kəndlilərin torpaqlarının bir qismini onların əllərindən almaq yolu ilə pay torpaq sahələrini qaydaya salmaq mümkün deyil.

Komissiya Medvedyevin "Qeydləri" əsasında qanun layihəsini hazırladı. Bütün materiallar Peterburq Əkinçilik və Dövlət Əmlakı Nazirliyinə təqdim olundu. Nazirlik isə, öz növbəsində, bu materialları Tiflisə, Qafqazın baş rəisinə, o isə layihəni müzakirə etmək üçün 1896-cı ilin sonunda idarəsinin nəzdindəki Şuraya göndərdi. 1897-ci ilin mayında qanun layihəsini müzakirə edən Şura üzvlərindən çoxu pay

torpaqlarının bərabər surətdə bölünməsinin və aztorpaqlı kəndlilərə boş xəzinə torpaqları hesabına pay torpağı verilməsinin əleyhinə çıxdı. Onlar belə hesab edirdilər ki, azad xəzinə torpaqları hökumət orqanlrın tərəfindən yalnız bu yerlərə köçürülən rus kəndlilərinə verilməlidir.

Bununla onlar çarizmin böyük dövlətçilik, millətçilik siyasətinin müstəmləkəçi mahiyyətini bir daha nümayiş etdirdilər.

Əkinçilik və dövlət əmlakı naziri Qafqazın baş rəisinin rəyini aldıqdan sonra, onu öz sədarəti altında yaratdığı mərkəzi komissiyanın 1898-ci ilin əvvəlində keçirilmiş yığıncağında müzakirə etdi. Bu komissiya da pay torpaqlarını normaya salmaq təklifini rədd etdi. Aztorpaqlı kəndlilərin torpaqla təmin olunması məsələsində də çarizmin müstəmləkə siyasətinə üstünlük verildi. Əkinçilik və dövlət əmlakı naziri Yermolov qeyd etdi ki, Qafqazda rusların yerləşdirilməsi mühüm dövlət əhəmiyyətli məsələdir və "bu vəzifə yerli əhalinin torpaqla təmin olunması məsələsindən irəlidə olmalıdır"[120].

Mərkəzi komissiya Qafqaz rəisinin göndərdiyi qanun layihəsini bəzi dəyişikliklər etdikdən sonra təsdiqə verdi. 1900-cü il mayın 1-də imperator II Nikolay "Tiflis, Yelizavetpol, Bakı və İrəvan quberniyaları dövlət kəndlilərinin torpaq təminatının mühüm əsasları"nı təsdiq etdi[121]. Bu qanuna görə, torpaq payları onlardan əvvəlki qaydada istifadə edilməklə kənd icmalarına, kəndlərə və yaşayış məntəqələrinə ayrılırdı. Beləliklə, dövlət torpaq mülkiyyətçisi kimi qalırdı, dövlət kəndliləri bu torpaqlardan icmalıqla istifadə etməli, bunun müqabilində dövlətə töycü ödəməli, mükəlləfiyyət daşımalı idilər. Bu töycü 1900-cü il iyunun 12-də müəyyənləşdirildi və "Qafqazda xəzinənin xeyrinə toplanan evbaşı mükəlləfıyyətlərin ləğvi və bunun əvəzinə dövlət töycü mükəlləfiyyəti və torpaq vergisi haqqında" qanun verildi. Bu qanun 1901-ci il yanvarın 1-dən qüvvəyə mindi.

Bu qanuna əsasən aşağıdakılar müəyyən edildi: 1) dövlət kəndlilərinin daimi istifadəsində olan xəzinə torpaqları üçün töycü mükəlləfiyyəti; 2) bütün başqa torpaqlar üçün torpaq vergisi; 3) həmişəlik zemski vergisi. Töycü vergisinə, torpaq vergisindən başqa, dövlət kəndlilərinin xalis gəlirlərinin 10-12 faizi də daxil idi[122].

Bu qanun verildikdən sonra dövlət kəndlilərinin daşıdıqları mükəlləfiyyətlər daha da ağırlaşdı. Əgər hər ailədən yığılan və hər ev üzrə toplanan vergi 1900-cü ilə qədər bütün Qafqaz üzrə 1,5 mln manat təşkil edirdisə, 1900-cü il qanunu ilə bu vergi iki dəfədən çox artdı. Sonrakı üç ildə pay torpaqları olan bütün Qafqazın dövlət kəndlilərindən onların xalis gəlirlərindən toplanmış töycü mükəlləfiyyətinin illik məbləği 3426 min manata çatdı. Beləliklə, dövlətlə onun torpaqlarını becərən dövlət kəndliləri arasındakı münasibət feodal asılılığı olaraq qalırdı[123].

Kəndlilərin torpağa olan münasibəti qanun maddələrindən birində öz əksini tapmışdı. Bu maddəyə görə, dövlət kəndlilərinin yalnız pay torpaqlarının istifadəçisi olması nəzərdə tutulurdu[124], deməli, feodalasılı münasibətlər qalırdı. Qanun dövlət kəndlilərinin yığıncaqda iştirak edən və səs hüququna malik olanların üçdə ikisinin

razılığı ilə torpaqdan həyətyanı sahə kimi istifadə hüququna və bunun nəsildən-nəslə keçməsinə icazə verirdi[125]. Qanunun bu maddəsi kənddə ictimai münasibətlərin inkişafının gedişi, təbəqələşməsinin güclənməsi, kənddə kapitalist istehsal münasibətlər milli inkişafı, torpaq sahələrinin bir qisminim varlı kəndlilərin və qolçomaqların əllərində cəmləşməsi, yoxsul kəndlilərin bir qisminin torpaqsızlaşması, onların muzdura çevrilməsi ilə bağlı idi. Qanun bu prosesi daha da sürətləndirdi və dövlət kəndlilərinin torpaqdan istifadəsinin qaydaya salına biləcəyi barədə xülyasına son qoydu, torpaqların varlı kəndlilərin əllərində cəmləşməsi üçün hüquqi şərait yaratdı.

1900-cü il qanununun qarşıya qoyduğu vəzifələri həyata keçirmək üçün, onun özündə qeyd edildiyi kimi, Zaqafqaziyanın beş quberniyasında dövlət torpaqlarında məskunlaşmış köçkünlərin torpaq məsələsini qaydaya salmaq barədə əsasnamə verildi. Bu əsasnamə qanunun mahiyyətinə heç cür uyğun gəlmirdi. Çünki qanun kənd icmalarının faktik istifadəsində olan torpaqları, onların planını və başqa aktları tərtib edərək, icmaların istifadəsində saxlamağı tələb edirdi, əsasnamədə isə torpaq paylarının verilməsi məsələsi mürəkkəbləşdirilmişdi. Belə ki, əsasnaməyə görə, pay torpaqlarının planları tərtib edilməli, bu planlar torpaq məsələsini qaydaya salan komissiyalarda təsdiq edilməli, bundan sonra kənd icmalarının pay torpaqlarının sərhədləri dəqiq müəyyənləşdirilməli, torpaq ayrılması barəsində mətn hazırlanıb kəndlərə təqdim edilməli idi.

Belə mürəkkəb üsul kənd icmalarına torpaq ayırmaq işinin xeyli ləngidirdi. Əsasnamənin nəşrindən keçən 5 il müddətində - 1903-cü ildən 1908-ci ilə kimi, torpaq quruluşu işi Qafqazın cəmi 361 kəndinə toxunmuş, həm də yalnız 135 kənddə başa çatdırılmışdı.

1914-cü ilə qədər istifadələrində 1,3 mln desyatin torpaq olan Yelizavetpol quberniyasının 1083 dövlət kəndindən yalnız istifadələrində 160 min desyatinə qədər torpaq olan 103 kəndində, Bakı quberniyasında isə 2530 min desyatin dövlət torpağından cəmisi 6537 desyatin torpaq mərzlənmişdi[126].

Gətirilən rəqəmlər torpaq quruluşu işlərinin nə qədər ləng getdiyini göstərir. Bu, çarizmin müstəmləkə siyasəti, artıq ömrünü başa vurmaqda olan feodal istehsal münasibətləri qalıqlarını qoruyub saxlamaq cəhdi ilə izah olunmalıdır.

**Torpaq və çarizmin vergi siyasəti. 1912-1913-cü illər aqrar qanunları.** XX əsrin əvvəllərində çarizm vergi siyasətində ancaq dövlət kəndinə aid edilmiş 1900-cü ilin 1 may və 1903-cü ilin 21 aprel əsasnamələrindən sonra heç bir dəyişiklik və tədbir nəzərə çarpmır; verilən qanun və qaydalar isə vergi və mükəlləfiyyət sistemini xəzinə kəndində ağırlaşdıraraq mürəkkəbləşdirdi və əsarəti daha da qüvvətləndirdi. Sahibkar kəndində isə çarizmin vergi siyasəti, kəndlilərlə mülkədarlar arasında mükəlləfiyyətli münasibətlərin ləğv edilməsi məsələsinin meydana çıxması ilə əlaqədar olaraq, torpaq siyasəti elə qarışmışdı ki, onları bir-birindən ayırmaq mümkün deyildi. Bu dövrdə bütün Cənubi Qafqazda, o cümlədən Quzey Azərbaycanda da çarizmin aqrar siyasətinin əsas məqsədi kənddə icmaları dağıtmaq, kənd burjuaziyasının - qolçomaqların şəxsində özünə dayaq yaratmaq idi. Qafqaz ali hakimiyyət orqanları və yerli burjuaziya torpaq

məsələsində yeganə çıxış yolunu Stolıpin aqrar siyasətinin tətbiqində görürdülər. Qafqaz canişini Vorontsov-Daşkov və digər çar məmurları hesab edirdilər ki, Stolıpinin aqrar siyasəti kəndlilərin xüsusi torpaq mülkiyyətçilərinə çevrilməsi üçün zəmin yaradır və buna görə də o, təkcə Rusiya üçün deyil, Cənubi Qafqaz üçün də məqsədəuyğun və xeyirxah aktdır.

1907-ci il mayın 10-da Dövlət Dumasında Stolıpinin torpaq məsələsi haqqındakı bəyanatı Cənubi Qafqazda Stolıpin aqrar siyasətinin tərəfdarlarını bir daha ruhlandırdı, çünki bu bəyanat çar hökumətinin təkcə Rusiyanın daxili qubemiyaları yox, milli ucqarları üçün də aqrar məsələ məramnaməsi idi.

Stolıpin aqrar siyasətinin Cənubi Qafqazda, o cümlədən Azərbaycanda tətbiq edilməsinin tərəfdarlarının səylərinə baxmayaraq, onların arzusu həyata keçmədi. Çünki çar hökuməti bu siyasətin ancaq bütün kəndlilərin 20 faizini təşkil edən sahibkar kəndinə tətbiq olunmasına razılıq vermişdi. Buna görə də 1908-1909-cu illərdə xəzinə kəndlilərini xüsusi mülkiyyətçilər qrupuna daxil etmək haqqında III Dövlət Dumasının müzakirəsinə çıxarılan layihələr təsdiq edilməmiş, kağız üzərində qalmışdı.

1909-cu ilin əvvəlində - Stolıpin aqrar siyasətinin həyata keçirilməsinin qızğın dövründə Qafqaz canişini Vorontsov-Daşkov tərəfindən Cənubi Qafqaz quberniyaları, o cümlədən Azərbaycan üçün tərtib edilmiş qanun layihəsi yalnız sahibkar torpaqlarda yaşayan kəndlilərə torpaqlarını ödənclə almaq və xüsusi mülkiyyətçilər qrupuna daxil olmaq hüququ verilməsini, kəndlilərin xüsusi mülkiyyətinə keçmiş pay torpağı üçün mülk sahiblərinə dövlət xəzinəsi tərəfindən ildə ümumi ödənc pulundan 5 faiz ödənməsi nəzərdə tutulurdu. Rusiyada olduğu kimi, bu, nəğd pulla deyil, beşfaizli pul təəhhüdü ilə verilməli idi. Kəndlilər isə dövlət tərəfindən torpaq sahiblərinə verilən pulu faizlə birlikdə 28, 41 və 56 il müddətində xəzinəyə qaytarmalı idilər.

Qanun layihəsinə görə, kəndlilər çəmən, otlaq, meşə yerlərindən və su arxlarından ancaq torpaq sahibinin razılığı ilə istifadə edə bilərdilər. Vorontsov-Daşkov tərəfindən tərtib olunan qanun layihəsi 1909-cu il aprelin 2-də canişin şurasının müzakirəsinə verildi. Müzakirələr 1910-cu il mayın 22-nə qədər davam etdi. Qanun layihəsinin məzmunu ilə tanış olan Azərbaycan torpaq sahiblərinin nümayəndələri canişin idarəsinə öz tənqidi mülahizələrindən ibarət məktublarını göndərmişdilər. Onlar həmin məktublarda kəndlilər tərəfindən torpaqların ödənclə alınması ilə əlaqədar bir çox məsələlərə qarşı çıxırdılar. Yelizavetpol quberniyası torpaq sahiblərinin nümayəndəsi Fərrux bəy Vəzirov məktubunda ödənc pulunun kənd təsərrüfatı məhsulunun keçən əsrin 60-70-ci illərindəki qiymətilə müəyyənləşdirilməsinə etiraz edirdi. Bu, yalnız Fərrux bəy Vəzirovun deyil, bütün Azərbaycan torpaq sahiblərinin tələbi idi. Gündən-günə genişlənən kəndli hərəkatı və kəndlilərin narazılığından ehtiyat edən hökumət bu tələblə razılaşmaqdan çəkinməyə məcbur oldu.

1910-cu il may ayının 22-də qanun layihəsi canişin idarəsi tərəfindən qəbul olunub, yenidən baxılmaq üçün Daxili İşlər Nazirliyi yanında idarələrarası müşavirəyə təqdim edildi. Burada qanun layihəsinin müzakirəsi ilə əlaqədar

təkliflərini vermək üçün Azərbaycan torpaq sahibləri özlərinin iki nümayəndəsini - Abbasqulu xanı və Cəfərqulu xanı 1910-cu il dekabrın 1-də Peterburqa göndərdi. Müşavirə torpaq sahiblərinin ehtirasla dolu tələblərindən ancaq 1 birini nəzərə aldı, yəni kəndlilərin mülkiyyətinə veriləcək pay torpağının əvəzinə onlar sahibkarlara, Rusiyada olduğu kimi, pul verməli idilər. Müşavirə 1910-cu il dekabrın 20-da qanun layihəsinə əhəmiyyətsiz düzəlişlər edib, onu Nazirlər Şurasının sərəncamına verdi.

1911-ci il martın 17-də Nazirlər Şurası layihəni III Dövlət Dumasına təqdim etdi. Dumada Bakı və Yelizavetpol quberniyaları torpaq sahiblərinin nümayəndəsi Xəlil bəy Xasməmmədov iştirak edirdi. Bütün Zaqafqaziya torpaq sahiblərinin nümayəndələri və millətçi-burjua deputatlar ödəncin xüsusi sahibkarların xeyrinə aparılmasını tələb edir, hətta əkin üçün yararsız yerlərin kəndlilərə pulsuz verilməsinə qarşı çıxırdılar.

III Dumada qanun layihəsinin əleyhinə ancaq sosial-demokratlar səs verdilər. Canişinin layihəsi ilə əlaqədar olaraq, sonradan bir deputatın da qoşulduğu 34 deputat hələ 1908-ci ilin dekabrında Zaqafqaziyada kəndlilərin mülkədarlara olan mükəlləfiyyətli münasibətlərini ləğv etmək haqqında özlərinin qanunverici təkliflərini Dumanın müzakirəsinə vermişdilər. Bu təkliflərdə göstərilirdi ki, təhkimçiliyin qalıqları iqtisadi və mədəni inkişafa mane olur, "kəndli istismarının ən vahid formalarının mühafizə olunmasına və qüvvətlənməsinə imkan yaradır, bütün xalqı səfalətdə, cəhalətdə və hüquqsuz vəziyyətdə saxlayır". Qeyd edilirdi ki, Cənubi Qafqazda, o cümlədən Azərbaycanda yerli kəndlilərin Rusiyanın daxili quberniya kəndlilərindən iki-üç dəfə az pay torpaqları olmasına baxmayaraq, onlar 3-4 dəfə artıq mükəlləfiyyət daşıyırlar. Kəndliləri ödənc verməyə məcbur etmək onların onsuz da tükənmiş büdcələrinə əlavə və gücçatmaz yük olar, təsərrüfat vəziyyətlərini sarsıdır, bu "görülən iş ədalətsizlik, ümumxalq və ümumdövlət mənafeyinə açıqcasına zidd gedən bir aktlardı". Deputatların tələbləri asılı və müvəqqəti mükəlləfiyyətli münasibətlərin təxirəsalınmaz və danışıqsız surətdə ləğv edilməsinə, müvəqqəti mükəlləfiyyətli və asılı kəndlilərdən, həmçinin Dağıstanda və Zaqatala dairəsində olan asılı rəiyyətlərin və keşkəlçilərin torpaq sahibləri üçün icra etdikləri hər cür mükəlləfiyyətlərin aradan qaldırılmasına, bu kəndlilərin istifadəsində olan pay torpaqlarının, torpaq nizamnaməsində göstərilmiş sərhədlərə uyğun olaraq, onların mülkiyyətlərinə çevrilməsinə yönəldilmişdi.

Mülkədarların mənafeyini müdafiə edən canişin bu təkliflərin əleyhinə çıxdı. 1911-ci ilin mayında Dövlət Dumasının torpaq komissiyası 35 deputatın təklifini müzakirə edib, kəndlilərin mülkədarlara müvəqqəti mükəlləfiyyətli münasibətləri ləğv etmək mülahizəsi ilə razılaşdı. Lakin komissiya kəndliləri mülkədarlar qarşısında daşımalı olduğu mükəlləfiyyətlərdən əvəzsiz azad etmək haqqında təklifləri rədd edərək, onların öz pay torpaqları müqabilində ödənc ödəmələrini bunun üçün əsas şərt hesab etdi.

III Dövlət Dumasında qanun layihəsinə Stolıpin aqrar siyasətinin əsas müddəaları əlavə edilmişdi, bu dəyişiklik və tamamlamalar qanun layihəsinin mətnində

deyil, onun əlavələrində öz əksini tapmışdı. Bu əlavələrdən birinin məzmunu belə idi: "Ayrı-ayrı kəndlilər tərəfindən əldə edilən pay torpağı bəxşiş, yaxud satmaq vasitəsilə başqasının əlinə keçə bilər...". Lakin pay torpağının sərbəst alınıb-satılmasını məhdudlaşdırmaq üçün əlavələrdə müəyyən şərtlər də qoyulmuşdu. Həmin şərtlərə görə, kəndli xüsusi mülkiyyəti sayılan pay torpağını ancaq kənd icmasının iclasında kəndlilərin 2/3-dən az olmayan hissəsinin razılığı ilə sata bilərdi. Bundan başqa, satılan torpağın qiyməti 500 manatdan baha olduqda, həmin torpaq ancaq maliyyə nazirinin icazəsinə əsasən Daxili İşlər Nazirliyinin sərəncamı ilə alqı-satqı obyekti ola bilərdi. Daha sonrakı müzakirə mərhələlərində qanun layihəsi torpağını ödənclə əldə etmiş kəndliyə xüsusi mülkiyyətçi hüquqi verirdi.

Stolıpin aqrar siyasətini müəyyən məhdudluqla özündə əks etdirən canişin layihəsi Dövlət Dumasında təsdiq olunduqdan sonra Dövlət Şurasına təqdim edildi, 1912-ci il dekabrın 19-da Şuranın 36 üzvünün razılığı ilə, heç bir dəyişiklik edilmədən 1912-ci il dekabrın 20-də çar tərəfindən təsdiq edilib qüvvəyə mindi.

1912-ci il 20 dekabr qanunu Azərbaycan ərazisində Bakı və Yelizavetpol quberniyalarını, İrəvan quberniyasında isə Naxçıvan qəzasını da əhatə edirdi. Qanun Zaqatala dairəsinə aid edilmədi. Müstəqil inzibati ərazi sayılan Zaqatala dairəsində asılılıq münasibətlərinin ləğvi haqqında müddəalar isə 1908-ci ildə canişinin tərtib etdiyi "Dağıstan və Zaqatala dairəsində kəndlilərin bəylərdən və keşkəl sahiblərindən asılılıq münasibətlərinin ləğv edilməsi haqqında" qanun layihəsində verilmişdi. Bu layihə 1910-1912-ci illərdə canişin idarələrində dəfələrlə müzakirə olunduqdan sonra 1912-ci ildə Daxili İşlər Nazirliyi yanında idarələrarası müşavirəyə təqdim edildi. 1912-ci ildə IV Dövlət Dumasında təsdiq edilən qanun layihəsi 1913-cü il iyulun 7-də çarın sərəncamı ilə qüvvəyə mindi.

1912-ci il 20 dekabr qanunu bütün Cənubi Qafqazda olduğu kimi, Azərbaycanda da 1913-cü il yanvarın 1-dən həyata keçirilirdi. Bakı və Yelizavetpol quberniyaları üzrə ödənc 1163 mülkə aid edilmişdi. 1913-cü il yanvarın 1-dən etibarən 403,4 min desyatin. pay torpağı sahibkar kəndlilərin xüsusi mülkiyyəti elan edildi, kəndlilər xüsusi mülkiyyəti olan pay torpağı üçün xəzinəyə faizlə birlikdə 20755376 rubl pul ödəməli idilər. Zaqatala dairəsində isə ödəncə aid edilmiş 47 kənd 20 il müddətində dövlət xəzinəsinə 284969 rubl ödənc verməli idi.

Ödənc əməliyyatına başlamaq üçün 1913-cü ildə Azərbaycanda münsif şöbələrinin sayı xeyli artırıldı. 1912-ci ildə, islahat ərəfəsində, Bakı və Yelizavetpol quberniyalarında 12 münsif şöbəsi yaradıldı və 1913-cü ildə onların sayı 32-yə çatdırıldı.

Zaqatala dairəsində isə ödənc əməliyyatını aparmaq üçün üç münsif vəzifəsi təsis edildi, bununla əlaqədar olaraq inzibati dairənin ərazisi 3 barışdırıcı şöbəyə bölündü. Hər barışdırıcı şöbənin işinə bir münsif rəhbərlik edirdi.

Bakı və Yelizavetpol quberniyalarında 1913-cü il yanvarın 1-dən başlamış ödənc əməliyyatının ayrı-ayrı mərhələlərindən birincisində kəndlilər tərəfindən veriləcək ödəncin hər kənd üzrə hesablanması üçün ilk hesablama siyahılarının

tərtib edilməsinə 1913-cü ilin əvvəllərində başlandı və 17 kənd istisna olunmaqla, həmin ilin sonunda qurtardı. 1913-cü ildə hər kənd üzrə ödəncin hesablanıb qurtarması ilə əlaqədar olaraq kəndlilərə çoxlu pul ödəmə vərəqəsi göndərildi. Bakı quberniyasının kəndliləri 1913-cü ildən başlayaraq hər il həmin vərəqələr üzrə xəzinə palatasına 131678 rubl ödənc verməli idilər. Lakin kəndlilər hər il bu qədər pulu verib qurtara bilmir və onların borcu sonrakı illərə keçirdi.

İlk hesablama siyahılarının tərtib edilməsilə əlaqədar 1913-cü il yanvarın 1 - dən ləğv olunmuş mükəlləfiyyət əvəzində bəylər ödənc almağa başladılar. 1915-ci il yanvarın 1-nə qədər Zaqatala dairəsinin 47 kəndi üzrə 1583 torpaq sahibinə ödənc pulu almaq üçün vəsiqə verildi. Torpaq sahibləri həmin vəsiqələr üzrə 241811 rubl ödənc pulu almışdılar. 1915-ci il yanvarın 1-nə qədər Zaqatala dairəsində ikinci və üçüncü barışdırıcı şöbələrdə torpaq sahiblərinin ödənc pulunu alması başa çatdırılmışdı, ancaq birinci barışdırıcı şöbədə Zaqatala xəzinəsinin bəylərə və keşkəl sahiblərinə 16962 rubl borcu qalmışdı.

1912-ci il qanunu üzrə ödəncə aid edilmiş mülklərdə pay torpaqlarının ölçülməsi ödənc əməliyyatının başqa bir mərhələsi idi. Kəndlilər üçün pay torpağının mərzlənməsi və ödənc pulunun dəqiq hesablanmasının böyük əhəmiyyəti var idi, çünki münsiflər çox vaxt pay torpağının sahəsini əslində olduğundan artıq göstərir, yararsız torpaq üçün də kəndliləri ödənc pulu verməyə məcbur edirdilər. Buna görə də onlar ödənc pulunun dəqiq hesablanması üçün pay torpağının mərzlənməsini və ölçülməsini inadla tələb edirdilər. Lakin bu proses çox ləng gedirdi. 1913-cü ildən 1916-cı ilin axırına qədər keçən 4 ildə Bakı və Yelizavetpol quberniyalarında kəndlilərlə torpaq sahibləri arasında mübahisəyə səbəb olmuş 823 mülkün pay torpağını ölçmək barədə tələblərdən cəmi 298-i yerinə yetirilmişdi.

Bakı və Yelizavetpol quberniyalarında ilk hesablama siyahılarının tərtib edilməsindən sonra münsiflər pay torpağı üzrə mübahisə doğurmayan mülklər üçün ödənc aktı tərtib edirdilər, pay torpağının sahəsi, mərzi ilə əlaqədar mübahisəyə səbəb olmuş mülklər üçün isə ödənc aktının tərtib edilməsi yerin ölçülməsinə qədər təxirə salınırdı.

Kəndlilərin xüsusi mülkiyyətçilər qrupuna daxil olması üçün ödənc aktlarının tərtib və təsdiq olunub-olunmamasının əhəmiyyəti yox idi, çünki, yuxarıda göstərildiyi kimi, kəndlilər ödənc aktlarının tərtib və təsdiq edilməsinə qədər artıq ilk hesablama siyahıları üzrə ödənc pulunu ödəməyə başlamışdılar. Ödənc aktlarının tərtib və təsdiq edilməsi ilk hesablama siyahılarında təxmini hesablanmış ödənc pulunun qədərini dəqiqləşdirmək və rəsmiləşdirmək məqsədini daşıyırdı. Lakin qeyd etmək lazımdır ki, ödənc əməliyyatının bu mərhələsi də olduqca ləng getmiş, başa çatdırılmamışdı. 1917-ci ilə qədər Bakı və Yelizavetpol quberniyalarında ödəncə aid edilmiş 1163 mülkün 450-si üzrə tərtib edilmiş ödənc aktının ancaq 281-ni kəndli məsələsi üzrə quberniya idarələri təsdiq etmişdi.

1912-ci il qanunu tətbiq edilən Bakı və Yelizavetpol quberniyalarından fərqli olaraq, Zaqatala dairəsində ödənc əməliyyatının özünəməxsus cəhətləri var idi. 1912-ci

il qanunu üzrə, ödənc əməliyyatı bir neçə mərhələdən ibarət olduğu halda, Zaqatala dairəsində bu mərhələlər yox idi, çünki ödənc əməliyyatının başlanmasına qədər, hələ 1908-ci ildə ödənc pulunun məbləği Zaqatala dairəsinə ezam edilmiş komissiya tərəfindən müəyyən olunmuşdu. Odur ki, ödənc əməliyyatı başlayan zaman münsifin vəzifəsi ödənc pulunu hesablamaq deyil, onu ancaq hər kənd üzrə həyətlər arasında bölmək idi. Buna görə də Zaqatala dairəsində ödənc əməliyyatının sonrakı mərhələlərini həyata keçirməyə ehtiyac qalmamışdı.

1912-1913-cü illər qanunları aqrar məsələni həll edə bilmədi. 1870-ci il islahatından 42 il keçdikdən sonra da mülkədarlar güclə, zorla öz torpaqlarını kəndlilərə satır, onları bu torpaq üçün külli miqdarda pul verməyə məcbur edirdilər. Həmin qanun aktları kəndliləri qarət edir, onları yenə də torpaq sahiblərinin əsarətində saxlayırdı.

1912-1913-cü illərin aqrar qanunları təhkimçilər tərəfindən həyata keçirilməsinə və təhkimçilik aktı olmasına baxmayaraq, öz məzmununa görə burjua xarakteri daşıyırdı. Kəndlilər tərəfindən pay torpaqlarının ödənclə alınması özü də xalis burjua xarakterli hadisə idi. Məhsul mülkiyyətinin ləğv edilməsi, kəndlinin ödənc ödəməyə başlaması sahibkar kəndində kapitalist münasibətlərinin inkişafını, təbəqələşməni daha da sürətləndirirdi, yoxsullaşmış və əmlakdan məhrum olmuş kəndlilərin sayını artırırdı, tavanalı və tavanasız kəndli qrupları özünü daha aydın göstərməyə başlayırdı. Bu qanunlar sahibkar kəndinin iqtisadi həyatında kapitalist münasibətlərin inkişafını daha da sürətləndirirdi.

## § 6. BORC-BANK İDARƏLƏRİ

XX əsrin əvvəllərində Azərbaycanda borc-bank sisteminin inkişafı, borc verən idarələrin ayrı-ayrı ərazilər üzrə qeyri-bərabər paylanması bəzi rayonlarda bank kapitalının daha çox, digərində isə az cəmlənməsi kapitalist təsərrüfat sisteminə xas olan sənaye kapitalı ilə bank kapitalının çulğaşması ilə xarakterizə olunurdu.

Neft sənayesinin XX əsrin əvvəllərindəki dünya böhranının nəticələrinə məruz qalmış Bakı şəhərində 1909-cu ilə qədər, 1907-ci ildə fəaliyyətə başlayan şəhər xüsusi lombardından başqa, borc verən heç bir yeni idarə açılmamışdı. Neft istehsalının və neft məhsulları ilə ticarətin həcminin azaldığı, gəmiçilikdə yük daşınmasının ixtisara düşdüyü, əməyə tələbatın xeyli azaldığı, vergilərin çoxunun geri qaytarıldığı və bir çox idarənin iflasa uğradığı[127] şəraitdə Rusiya səhmdar kommersiya bankları öz fəaliyyət dairələrini genişləndirmək, Bakı rayonunda yeni şöbələr açmaq istəmirdi.

1909-cu ildə neft sənayesi və onunla bağlı istehsal müəssisələri

uzunmüddətli durğunluqdan sonra öz fəaliyyətini bərpa etdiyi bir şəraitdə Bakıda kredit-bank sisteminin yeni inkişaf mərhələsi başladı. 1909-cu ildə Sankt-Peterburq Beynəlxalq Kommersiya Bankı Balaxanı kəndində özünün ikinci şöbəsini açdı[128]. 1914-cü il aprelin 15-də ilk yerli səhmdar kommersiya bankı - Bakı Tacir Bankı açıldı[129]. Onun idarə heyətinin sədri Musa Nağıyev, bank şurasının sədri isə H.Z.Tağıyev idi.

1900-1913-cü illərdə Bakıdakı 9 bank kontoru arasında ən mühümləri Əbdül Həmid Ələsgərov, Hacı Şıxəli Dadaşov, H.Z.Tağıyev və Tumanyan qardaşlarına məxsus idi, onlar kommersiya banklarından daha çox ixtisaslaşması ilə fərqlənirdi[130]. Səhmdar bankların inkişafı ilə əlaqədar olaraq onların rolu heçə endi.

Bakıda borc (kredit) verən Qarşılıqlı Borcvermə Cəmiyyəti, Şəhər Borcvermə Cəmiyyəti, xəzinəyə və xüsusi şəxsə məxsus olan şəhər lombardı kimi idarələr də fəaliyyət göstərirdi.

Gəncə, Şuşa, Şəki, Lənkəran və Naxçıvan kimi ticarət-sənaye mərkəzlərində də kredit-bank sistemi inkişaf edirdi. Bu şəhərlərdəki kredit-bank sisteminin xüsusiyyəti dünya sənaye sistemini bürümüş böhrandan sonrakı durğunluq dövründə də inkişaf etməsi idi. Bunun başlıca səbəbi böhranın, neft sənayesindən fərqli olaraq, yerli sənaye sahələrinə və sənətkarlığa göstərdiyi təsirin zəif olmasında idi. Əvvəlki dövrlərin kapital yığımı sayəsində Şuşada yerli tacirlərin və sənaye sahiblərinin təşəbbüsü ilə 1904-cü ildə ilk kredit idarəsi - Qarşılıqlı Kredit Cəmiyyəti[131], 1910-cu ildə Volqa-Kama Kommersiya Bankı Tiflis şöbəsinin komisyonerliyi[132], 1914-cü il iyulun 25-də isə nizamnaməsi hələ 1905-ci ildə təsdiq olunmuş Qarşılıqlı Kənd təsərrüfatı Kredit Cəmiyyəti açıldı[133].

Bank idarələrinin mövcud olduğu Gəncə şəhərində 1905-ci il yanvarın 3-dən Qarşılıqlı Borcvermə Cəmiyyəti, iki ildən sonra isə 1910-cu il yanvarın 1-dən Yelizavetpol Qarşılıqlı Kredit Kommersiya Cəmiyyəti adlandırılan ikinci belə cəmiyyət[134], həmin il Volqa-Kama Kommersiya Bankı Tiflis şöbəsinin 1913-cü ildən həmin bankın agentliyinə çevrilən komisyonerliyi, 1912-ci il avqustun 16-dan Tiflis kommersiya bankının şöbəsi fəaliyyətə başladı[135].

Şəkidə ilk bank idarəsi - Qarşılıqlı Kredit Cəmiyyəti 1908-ci il mayın 20-də[136], bir ildən sonra Əhmədov qardaşlarının Banklar Evi[137] və 1910-cu ildə isə Tiflis Kommersiya Bankının şöbəsi açıldı[138].

Uluxanlıdan İran sərhədinə qədər dəmir yol xətti çəkildikdən sonra XX əsrin əvvəllərində mühüm ticarət mərkəzinə çevrilmiş Culfada 1910-cu ildə Azov-Don Kommersiya Bankının şöbəsi[139], 1911-ci ildə İran Hesab-Borc Bankının şöbəsi[140] və 1912-ci ildə isə Tiflis Kommersiya bankının şöbəsi yaradıldı[141].

Azərbaycanın başqa şəhərlərində - 1910-cu ildə Naxçıvanda Qarşılıqlı Kredit Bankının şöbəsi, 1911-ci ildə Lənkəranda Rus-Asiya bankının 1913-cü ildə həmin bankın şöbəsinə çevrilən komisyonerliyi, 1913-cü ildə, Astarada İran Hesablama-Borc Agentliyinin şöbəsi açıldı.

Kommersiya bankları XX əsrin əvvəllərində Azərbaycanın müxtəlif şəhərlərində fəaliyyət göstərən kredit-bank sistemində əsas halqa idi. Rusiyanın

Azərbaycan ərazisini fəaliyyət mühiti etmiş dövlət və səhmdar torpaq bankları sırasına 1900-cü ildən Don Səhmdar Torpaq Bankı, 1903-cü ildən Yaroslavl-Kostroma Səhmdar Torpaq Bankı[142],1907-ci ildən Poltava Səhmdar Bankı[143], 1906-cı il fevralın 15-dən Kəndli Torpaq Bankının Zaqafqaziya şöbəsi daxil idi[144]. Dövlət zadəgan torpaq bankı Zaqafqaziya şöbəsinə öz fəaliyyətini Azərbaycanda yaymağa icazə vermişdi, lakin bankın mərkəzi idarəsinin siyasəti yerli mülkədar və bəyləri onun müştərisi olmaqdan məhrum etmişdi. Bunun başlıca səbəbi onların imtiyazlı silkə mənsubluğunu və mülklərinin sərhədlər üzrə onların mülkiyyətində olduğunu təsdiqləyən sənədlərin olmaması idi. Yerli və Qafqaz inzibati orqanları bankın mərkəzi idarəsi qarşısında dəfələrlə vəsatət qaldırdığına baxmayaraq, bəylər öz torpaqlarını burada girov qoymaq hüququ ala bilməmişdilər. Yalnız xan nəslindən olanlar və rus əsilzadələri öz torpaqlarını bu banka girov qoya bilərdilər.

Azərbaycanın kredit-bank sisteminin digər bir həlqəsi kiçik kredit (borcvermə) idarələri idi. Rusiyanın, o cümlədən Azərbaycanın kənd təsərrüfatında XX əsrin əvvəllərində kapitalist münasibətlərinin inkişafı ölkədə kiçik kreditin vəziyyətini əsaslı surətdə dəyişməyi tələb edirdi. Çar hökumətinin 1904-cü il iyunun 7-də təsdiq etdiyi "Kiçik kredit idarələri haqqında əsasnamə"yə görə, Rusiya dövlət bankı - kiçik kredit işləri üzrə idarə yaradıldı və ona tapşırıldı ki, kiçik kredit müəssisələri yaradılmasına himayədarlıq, onların fəaliyyətinə nəzarət və rəhbərlik etsin[145].

Bu qanun Rusiyada kiçik kredit idarələri şəbəkəsinin yaradılması işini geniş inkişaf yoluna saldı. Azərbaycanda bu istiqamətdə ilk addımlar 1906-1907-ci illərdə atıldı. Dövlət bankının Tiflis və Bakı şöbələrinin nəzdində kiçik kredit üzrə Bakı və Yelizavetpol quberniya komitələri yaradıldı. Bank şöbələrində çalışan müfəttişlər kəndli təsərrüfatlarının xahişlərini nəzərdən keçirməli, imkan olduqda kiçik kredit müəssisələri açmalı idilər.

Kiçik kredit müəssisələri açılması Maliyyə Nazirliyinin 1905-ci ilin noyabrında təsdiq etdiyi Nizamnamə əsasında tənzimlənməli idi. Bu sənəd Azərbaycanda kiçik kredit müəssisələrinin iki növünün -kredit və borc-kredit şirkəti açılmasına yol verirdi.

Lakin kiçik müfəttişlərin sayca məhdudluğu, haqq-hesabın yerli dildə aparılmaması, qolçomaq-sələmçilərin müqaviməti və s. ona gətirib ona çıxartdı ki, Azərbaycanda ilk kiçik kredit müəssisəsi yalnız 1908-ci ildə açıldı. 1909-1913-cü illərdə kiçik kredit müəssisələrinin artım mənzərəsi belə idi: 1909-cu ildə 9, 1910-cu ildə 12, 1911-ci ildə 5, 1912-ci ildə 42, 1913-cü ildə 19, ümumiyyətlə isə həmin müddətdə cəmi 86 kiçik kredit müəssisəsi açılmışdı[146].

Kiçik kredit müəssisələrinin çoxu Bakı quberniyasında, 8-i Naxçıvan qəzasında, 2-si isə Zaqatala dairəsində idi. Kredit şirkətləri çoxluq, borc-əmanət şirkətləri isə azlıq təşkil edirdi. Azərbaycanda kiçik kredit müəssisələri şəbəkəsinin genişliyi öz əksini bankir idarələri, qarşılıqlı kredit cəmiyyətləri və Bakı tacir bankı yaradılmasında tapırdı.

Kredit-bank müəssisələrinin sürətli artımı Azərbaycan iqtisadiyyatında kapitalist inkişafının tələbi ilə şərtlənirdi. Bank kapitalı kredit müəssisələri çoxaldıqca və fəaliyyətlərini genişləndirdikcə yerli sənayenin, ticarət və kənd təsərrüfatının, əhalinin təsərrüfat həyatının bütün sahələrini əhatə edirdi. Girov əvəzinə verilən borclar, bankların fəal əməliyyatının yayılma dairəsinin həcmi və s. bank kreditinin Azərbaycan iqtisadiyyatı ilə nə qədər geniş qovuşduğunu sübut edir.

Bakı banklarının, demək olar ki, hamısı əsasən neft sənayesi, ona xidmət edən sənaye sahələri və neft məhsulları ticarəti ilə bağlı idi və onlara xidmət edirdi. Veksel və əmtəə kreditlərinin əsas hissəsi neft sənayesi sahəsinə düşürdü. Çəltik və buğda dəyirmanları, tütün fabrikləri, balıq sənayeçiləri, manufaktura tacirləri, qənd, meyvə, pambıq və s. ilə ticarət edənlər də bank kreditindən geniş istifadə edirdilər.

Rusiya kommersiya banklarının Bakı şöbələri neft sənayesi ilə, yerli sənayenin başqa sahələri və ticarətlə qovuşdu, bank kapitalı sənaye kapitalı ilə qaynayıb qarışdı. Bu isə maliyyə oliqarxiyasının hakimiyyətinə gətirib çıxardı. Bankların şöbələri kapitalın və inhisarların təmərküzləşməsi prosesini sürətləndirib gücləndirdi, iqtisadiyyatın müxtəlif sahələrindəki qarşılıqlı əlaqələri yüksək dərəcədə qüvvətləndirdi. Bankların şöbələri təsərrüfat həyatının mərkəzinə çevrildi.

Bank şöbələrinin Gəncə qrupu 7-10 mln rubulluq veksellərin hesabını aparırdı[147]. Gəncədəki bütün bank şöbələri kənd təsərrüfatının müxtəlif sahələrini, əsasən isə çaxır və araq istehsalını, pambıqçılığı və ipəkçiliyi kreditlə təmin edirdi. Nuxa və Şuşa bankları baramaçılığa və ipək sənayesinə, həmçinin başqa istehsal sahələrinə kredit verirdi. Bank şöbələrinin apardığı veksel hesabının məbləği hər il Nuxada 3-4, Şuşada isə 2-3 mln rubul olurdu.

Torpaq banklarının bir qrupu özlərinin 1916-cı ilə qədərki fəaliyyəti dövründə kənd malikanələrini girov götürməklə, Azərbaycanın torpaq sahiblərinə 7 mln rubl uzunmüddətli borc vermişdi[148]. Mülkədarlar bu kapitalın müəyyən hissəsini öz təsərrüfatlarını genişləndirməyə, onları kapitalist yolu ilə inkişaf etdirməyə yönəltmişdilər. Bu banklar, yəni Bakıda fəaliyyət göstərən Bakı şəhər Kredit Cəmiyyəti, Tiflis Zadəgan Torpaq Bankı, Don Torpaq Bankı, Tiflis Zadəgan Bankının Şuşadakı agentliyi, Poltava torpaq bankının Gəncədəki agentliyi həmin şəhərlərdə aparılan inşaat işləri üçün girov müqabilində borc vermişdi.

Azərbaycanda fəaliyyət göstərən kiçik kredit müəssisələri 1909-cu ildən 1913-cü ilədək xırda kənd burjuaziyasından olan üzvlərinə 6,5-7 mln rubla qədər borc vermişdi. Bu məbləğ kənd təsərrüfatının müxtəlif sahələrinə qoyulmuşdu.

Beləliklə, müharibədən qabaqkı illərdə Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrinə - sənaye, kənd təsərrüfatı və ticarətə hər il 100-150 mln rubl bank kapitalı yönəldilmişdi.

Bank kapitalı Azərbaycan iqtisadiyyatının bütün sahələrinə daxil olmuş, təsərrüfatı aparmaq üsullarını, onun strukturunu, bütün pul münasibətlərinin mahiyyətini dəyişmiş, sənayedə, kənd təsərrüfatında və ticarətdə əmtəə təsərrüfatı və kapitalizmin inkişafını sürətləndirmişdi.

## § 7. İSTEHSALIN TƏMƏRKÜZLƏŞMƏSİ PROSESİNİN GÜCLƏNMƏSİ

**Neft istehsalının təmərküzləşməsi.** Azərbaycanın neft sənayesinin xüsusiyyətlərindən biri iri kapitalist kompaniyaları qrupunu, eyni zamanda kiçik və orta firmaların böyük kütləsini özündə birləşdirməsi idi. Ayrı-ayrı neft kompaniyalarının XIX əsrin 90-cı illərindən birləşmə səylərinin güclənməsi, XX əsrin əvvəllərindən isə neft istehsalının təmərküzləşməsi daha geniş vüsət aldı.

Sənaye istehsalının inkişafının gedişi onun ayrı-ayrı sahələri daxilində özünəməxsus təmərküzləşməsi prosesində özünü göstərirdi. Bu şəraitdə ümumi istehsal həcmində neft hasilatı və emalı arasında mühüm dəyişiklik baş verdi. Məsələn, 1890-1900-cü illərdə neft çıxaran müəssisələrin istehsal həcmi 12 dəfə, neft emalı müəssisələrininki isə 5 dəfə artmışdı. Əsas məsələ onda idi ki, birinci müəssisələrin sayı iki dəfə artmışdısa, ikincilər 1/3 dəfə azalmışdı[149]. 1900-1908-ci illərdə isə neft hasil edən müəssisələrlə neft emalı müəssisələri arasındakı fərq böyük deyildi.

Neft sənayesində təmərküzləşmənin xüsusiyyəti onda idi ki, bu prosesə əsasən iri, getdikcə əhəmiyyəti artan firmalar cəlb olunmuşdu. İllər keçdikcə iri qruplaşan firmalar dəyişirdi. XX əsrin lap başlanğıcında neft istehsalı ilə məşğul olan 152 firmadan 67-sinin hər birinin illik neft istehsalı 1 mln puddan çox idi və 570,7 mln pud neft hasil etmişdilər ki, bu da ümumi məhsulun 93,3 faizini təşkil edirdi[150]. Onlardan ildə 5-10 mln pud arasında neft çıxaran firmaların xüsusi çəkisi 20 faiz, 10-20 mln pud arasında neft istehsal edən firmalarınkı isə 39,4 faiz idi. Əgər 1904-cü ildə hər biri ildə 20 mln puddan çox neft hasil edən 9 firmanın ümumi məhsulda payı 54,5 faizə bərabər idisə, 1910-cu ildə 7 firmanın payına 44 faiz düşürdü. Neft hasilatının təmərküzləşməsi bütün neft sənayesinin təmərküzləşməsinin əsasını təşkil edirdi. Neft emalı sənayesində də təmərküzləşmə səmərəli olmuşdu. 1901-1911 -ci illər arasında ağ neft zavodlarının sayı 83-dən 53-ə enmişdi. İşləməyən zavodların sayını (1901-ci ildə 14, 1909-cu ildə 52) nəzərə alsaq, təmərküzləşmənin miqyası daha böyük idi. Ən iri neft emalı zavodları (ildə 5 mln puddan artıq istehsalı olan) 1903-cü ildə bütün ağ neft istehsalının 63 faizini, 1909-cu ildə isə 72 faizini verirdi[151].

1911-ci ildə Bakı rayonunda 47 səhmdar neft sənayesi müəssisəsi var idi. Onların əmlaklarının balans qiyməti 212,4 mln rubla bərabər idi və onlar bütün Rusiya neft səhmdar cəmiyyətlərinin 77,6 faizini təşkil edirdi[152].

XX əsrin birinci onilliyindən fərqli olaraq, ikinci onilliyin müharibə ərəfəsində neft istehsalının təmərküzləşməsi prosesi yeni mərhələyə qədəm qoydu. Bu mərhələnin əsas xüsusiyyəti ondan ibarət idi ki, yeni cəmiyyətlərin yaranması ilə köhnələrin yenidən qurulması prosesi gedirdi. Belə cəmiyyətlər köhnədən fəaliyyətdə olan müəssisələrə, ticarət evlərinə əsaslanırdılar. Çar mütəxəssisləri yazırdılar ki, 23 il müddətində (1890-cı ildən 1913-cü ilə qədər) 479 firmadan 298-i sıradan çıxmışdı[153]. Lakin qeyd etməliyik ki, onların bir hissəsi ya sahibini, ya da adını dəyişmiş, bir təşkilat

kimi fəaliyyətdən qalmayaraq ya başqa qrupa keçmiş, yaxud da inkişaf edərək daha da güclənmişdi. Deməli, müəssisələr yalnız öz lövhələrini dəyişmişdi. Məsələn, N.Krasilnikovun Tiflis şirkətinin, Y.A.Mansvetovun və bir neçə başqasının firmalarının adları 1913-cü ilə aid olan siyahıda artıq yox idi. Lakin onlar Lianozovla birləşmişdilər. Bu münasibətlə məşhur mütəxəssis V.İ.Frolov yazırdı: "Bu o demək deyilmi ki, Lianozovla bir firmada birləşənlər keçmiş daşnak firmalarındakından daha güclü yeni aqreqat yaratdılar?"[154] Həqiqətən də öz fəaliyyətlərini dayandırmaq təhlükəsi qarşısında qalan kiçik və orta firmalar daha güclü firmalarla birləşməyə can atırdı.

Müharibə ərəfəsində Azərbaycanın neft sənayesində neft çıxarmaqla məşğul olan 173 firma fəaliyyətdə idi. Onlar hasil etdikləri neftin miqdarına görə beş qrupa bölünürdülər. Birinci dörd qrupdakı 37 müəssisənin illik məhsulu 350 min pud, sonuncu qrupdakı 136 müəssisənin isə illik məhsul istehsalı 69 mln pud idi[155]. Bu, neft istehsalı sənayesinin iri firmaların əllərində cəmləşdiyini göstərir. Müharibəqabağı illərdə firmaların yeni qruplaşması baş verdi, onların çoxu bu və ya digər güclü iri neft istehsalı firması ilə birləşdi.

Bu dövrdə Azərbaycan neft emalı sənayesində də təmərküzləşmə prosesi gedir, istehsal edilən məhsulların 65 faizini 6 iri neft emalı zavodu verirdi ki, onun da 30 faizi "Nobel qardaşları" və "S.M.Şibayev və K°" şirkətlərinin payına düşürdü[156].

Neft ixracı da iri firmaların əllərində cəmləşməkdə davam edirdi. 1913-1914-cü illərdə dəniz vasitəsilə neftin daşınmasına dair məlumatlar bunu bir daha sübut edir. 1913-cü ildə neft ticarəti ilə məşğul olan bütün firmalar 5,1 mln. pud 1914-cü ildə 9,8 mln pud[157], "Nobel qardaşları" şirkəti, müvafiq olaraq, 1,5 mln pud (29,7 faiz) və 4,5 mln pud (46,7 faiz) ixrac etmişdi. "Nobel qardaşları" şirkəti müharibə ərəfəsi illərdə Bakıdan ixrac olunan bütün neft məhsullarının üçdə birini çıxarmışdı; 1910-cu ildə 31 faiz, 1911-ci ildə 32 faiz, 1912-ci ildə isə 34 faiz[158]. Ölkənin daxili bazarlarında özlərinin hakim vəziyyətini yaratmaq üçün ixracla məşğul olan iri firmalar nəqliyyat vasitələrinin çoxunu öz əllərində cəmləşdirməyə çalışırdı. Məsələn, "Nobel qardaşları" şirkəti idarəsinin Bakı kontoruna göndərdiyi məktubunda qeyd olunurdu ki, 1913-cü ildə Lianozovun on benzin sisterni, hər sistem üçün gündə 1 man. 15 qəp. ödəməklə, "Nobel qardaşları" şirkətinə icarəyə verilmişdi[159]. Bu icarənin məqsədi yükdaşıma vasitəsinin çatışmazlığı ilə əlaqədar olsa da, başlıcası "rəqibə Bakıdan benzin və Suraxanı neftini ixrac etmək üçün bu sistemlərdən istifadə etmək imkanı verməmək" idi. "Nobel qardaşları" şirkəti ilə "Okean" cəmiyyəti arasında bağlanan üç naviqasiya müddətində (1914-1916-cı illər) hər ili 5,3 mln pud mazut nəql etmək üçün 8 gəmi icarəyə götürmək barədə müqavilə də bu məqsədi güdürdü[160].

Neft istehsalının təmərküzləşməsi prosesinin nəticələrindən biri də fəhlələrin iri firmalarda cəmləşməsi idi. 1907-ci ildə Bakının neft-mədən rayonlarındakı 23 firmadan cəmi 26929 nəfər, yəni hər müəssisədə orta hesabla 1171 nəfər, qalan orta və kiçik müəssisələrin hər birində isə 76 nəfər fəhlə işləyirdi[161]. Fəhlələrin təmərküzləşməsi neft emalı sənayesində daha yüksək səviyyədə idi. Əgər 1912-ci ildə hər birində 500-dən çox fəhlə çalışan mədən

müəssisələri bütün fəhlələrin 42,7 faizini təşkil edirdisə, bu qədər fəhləsi olan emal zavodlarında hələ 1910-cu ildə bütün fəhlələrin 57,2 faizi çalışırdı. Fəhlələrin təmərküzləşməsinin özünəməxsus xüsusiyyətləri var idi. 500-dən bir neçə minə qədər fəhləsi olan iri və ən iri zavodlardakından fərqli olaraq, mədən fəhlələri dağınıq idi, onlar ayrı-ayrı firma və rayonlarda onlar və yüzlərlə mədənlərə səpələnmişdilər.

Neft sənayesi fəhlələrinin təmərküzləşməsində tərəddüd nəzərə çarpırdı. 1907-ci ildə 500 və daha çox fəhləsi olan iri və on iri müəssisələr bütün müəssisələrin 11,6 faizini təşkil edir və bütün fəhlələrin 67 faizini özündə cəmləşdirirdi. 1910-cu ildə həmin müəssisələrdə fəhlələrin 40,4 faizi işləyirdi. Fəhlələrin sayındakı azalma ölkənin siyasi və iqtisadi həyatında baş vermiş dəyişikliklərlə bilavasitə bağlı idi.

Müharibə ərəfəsində də neft sənayesində fəhlələrin sayının tərəddüdü meylləri özünü göstərirdi. Materialların bahalaşması ilə əlaqədar olaraq, bir sıra firmalar buruq qazıma işini və neft hasilatını ixtisara salmış, 1911-ci ildə təkcə qazıma işində fəhlələrin sayı 40 faiz azalmışdı[162]. Bu, əsasən bir sıra firmaların qazıma işindən imtina etməsi ilə bağlı idi. Lakin 1913-cü ildə fəhlə və qulluqçuların sayı artaraq 45 minə (1903-cü ildə 28,6 min idi) çatdı. Onlardan neft istehsalında 29 min, buruq qazımada 8,3 min, zavodlarda 4 min, yardımçı müəssisələrdə 3,7 min fəhlə çalışırdı[163].

Azərbaycan neft sənayesinin təmərküzləşməsinin xarakteri ABŞ-dan fərqli idi. ABŞ-da xırda istehsal üstünlük təşkil edir, iri kapital isə neft ixracını öz əllərində cəmləşdirərək, neft istehsalı sahəsini öz nəzarəti altında saxlayırdı. Azərbaycanda isə təmərküzləşmə prosesi neft işinin bütün sahələrini əhatə etmişdi. Neftin iri neft kompaniyalarının əlində cəmləşmiş torpaqlardan çıxarılması, neft emalı və onun daşınması üzərində nəzarəti asanlaşdırır, çox da böyük olmayan vəsait hesabına neft sənayesində onların ABŞ inhisarları kimi aparıcı olmalarına şərait yaradırdı.

**Beynəlxalq korporasiyalar: "Şell", "Nobel" və "Oyl".** XX əsrinə əvvəllərində Azərbaycan neft sənayesində fəaliyyət miqyasına görə beynəlxalq səciyyə daşıyan sənaye-maliyyə birliklərinin yaranması prosesi başa çatdı.

İri müəssisələrin neft istehsalının bütün sahələrini, nəqliyyatı və ticarəti öz nəzarətləri altına alması onların təşkili və fəaliyyətində yeni firmalar yaratması və iri neft sənaye-maliyyə korporasiyası qurması üçün münbit zəmin idi. Onlar Rusiyanın sosial-iqtisadi quruluşu üçün xarakterik olan istehsalı böyütmək işini neft sənayesinə də tətbiq etmişdilər. Azərbaycanda iri neft birləşmələrinin yaradılması Qərbin eyni cür qruplarına qarşı durmaq üçün də zəruri idi.

Birinci dünya müharibəsi ərəfəsində Azərbaycanın neft sənayesində bir neçə qüdrətli birliklər yarandı. Onlar Rusiya bankları ilə sıx qarşılıqlı münasibət qurmuşdu və o qədər qüdrətli idi ki, nəinki öz müstəqilliklərini hər hansı bankdan, yaxud qrupdan qoruyub saxlaya bilir, hətta Rusiya və xarici banklardan öz məqsədləri üçün istifadə edirdilər. Onlardan ən iriləri "Royal datç Şell ənd K°", "Şell", "Nobel" və "Oyl" qrupları idi.

1907-ci ildə yaradılmış ingilis-holland "Şell" tresti öz nəhəng məqsədlərinə çatmaq üçün diqqətini Bakı rayonuna yönəltdi. Birinci dünya müharibəsinin başlanmasına yaxın "Şell" neft istehsalında yalnız məşhur Amerika "Standart Oyl və K°" şirkətindən geri qalırdı. Rusiya neftini ələ keçirmək planının reallaşmasında Q.Deterdinqin ("Şell"in başçısı) dünya bazarları uğrunda Rotşildlərlə mübarizəsində ona öz partnyorları ilə qarşılıqlı əlaqələri dayaq oldu.

1912-ci ildə "Şell" Rotşildlərin Paris Bankir Evinə məxsus olan, Xəzər-Qara dəniz Cəmiyyətindəki səhmlərinin 80 faizini (bir qədər sonra daha on faizini) və "Mazut" cəmiyyətinə məxsus olan səhmlərin çoxunu ələ keçirdi. Ən iri Bakı firmaları olan bu müəssisələrin kapitalı müvafiq surətdə 10 və 12 mln rubla bərabər idi[164] və öz gücünə görə yalnız "Nobel qardaşları" şirkətindən geri qalırdı. Onların satılmasının başlıca səbəbi Rotşildlərin xarici bazarlarda Amerika kompaniyasının rəqiblərinə müqavimət göstərə bilməməsi, daxili bazarlarda isə Nobelin üstünlüyü ilə hesablaşması idi. Onlar bu cəmiyyətlərdə iştiraka görə 27,5 mln rubl (hər iki cəmiyyətin əmlakının qiyməti ilə), o cümlədən Azərbaycanda olan müəssisələrinin əvəzinə "Şell" trestinin səhmlərinin 20 faizini əldə etdilər[165].

Daha sonra əsası ingilis kapitalı hesabına 1900-1902-ci illərdə qoyulmuş "S.M.Şibayev və K[0M], "İ.Q.Tumayev və K°" və "Şəriklər" cəmiyyətləri "Şell"in tərkibinə qatıldı[166]. 1913-cü ildə bu müəssisələrin əsasında Londonda Yeni Şibayev neft komissiyası yaradıldı. "Şell" beynəlxalq bazarlarda sürtkü yağlarına tələbatın artdığı bir vaxtda (Şibayevin məhsulları yaxşı keyfiyyəti ilə şöhrət tapmışdı) bu kompaniyanı ələ keçirməklə sürtkü yağı istehsal edən Rusiya sənayesində mühüm yer tutmaq imkanı qazandı. "Şibayev kompaniyası" isə trestdə özünün mühüm məqsədini həyata keçirməklə yanaşı, Qərbin bir neçə iri müəssisəsinin daxil ola bildiyi sürtkü yağları bazarına yol tapdı. "Mazut" cəmiyyəti və Şibayev firması "Şell"in bazasını təşkil edirdi. Bu kompaniyalarda Sibir ticarət, S.Peterburq və Moskva kommersiya bankları fəal iştirak edirdi. 1914-cü ildə trest 11 neft müəssisəsinə nəzarət edirdi[167] və onun 1637 min funtsterlinq (1913-cü ildə 1535 funt-sterlinq) xalis gəliri əsas kapitalın 35 faizinə bərabər idi[168].

Rusiya neft sənayesini inhisara almaq uğrunda mübarizə "Nobel qrupu"nun mövqeyini möhkəmləndirdi. Hələ XIX əsrdə "Nobel qardaşları" şirkəti artıq trest səviyyəsinə yüksəlmişdi. Çar xəzinəsi heç bir başqa neft kompaniyasından "Nobel" şirkətindən götürdüyü qədər gəlir götürmürdü. XX əsrin əvvəllərində o, bütün Rusiyada neft istehsalı və ticarəti nəhənginə çevrilmişdi.

1913-cü ildə "Nobel qardaşları" şirkəti ilə "Mazut" şirkəti arasındakı növbəti müqavilənin vaxtı bitəndə, onun Amerika "Stand" Oyl və K°" tresti ilə müqavilə bağlayacağı barədə şayiə yayılmışdı. Çünki onların arasında sıx münasibət yaranmışdı[170], bu isə "Nobel qardaşları" şirkətini xarici bazarlarda rəqabətlərə daha dözümlü etdi.

Həmin illərdə "Nobel qrupu"nun təsir dairəsi xeyli genişləndi. O, "M.A.Kələntərov və K°" ticarət evinin "Kolxida", "V.İ.Raqozin'" cəmiyyətlərinin nəzarət zərflərini aldı, "Emba" və "Çimion" cəmiyyətini nəzarətinə götürdü[171]. "Nobel qardaşları" şirkəti Uzaq Şərqdə neft məhsullarını satmaqla məşğul olan Şərqi Asiya

Cəmiyyətini yaratdı.

1912-ci ildə "Nobel qardaşları" şirkəti öz kapitalını 15 mln rubl artırdı və öz səhmlərini Berlin birjasında yerləşdirdi. Bununla əlaqədar olaraq şirkətin səhm kapitalı 30 mln, istiqraz kapitalı 16,34 mln və ehtiyat kapitalı 32 mln. rubl oldu[172].

Birinci dünya müharibəsi ərəfəsində "Nobel qrupu" özünün maliyyə fəaliyyəti nəticəsində 9 neft sənayesi və nəqliyyat firmasını öz nəzarəti altında birləşdirdi[173]. Bu qrup başqa firmaların neft məhsullarının ticarətini təşkil edən çox iri ticarət təşkilatı idi. 1913-cü ildə başqa firmalardan 52,5 mln pud neft, 17 mln. pud ağ neft, 40 mln pud neft qalıqları, 2,7 mln pud sürtkü yağları və s. satın alınmışdı[174].

"Nobel qardaşları" şirkətinin bu dövrdə 13 dəniz və 6 çay gəmisi, 147 barjı, 2 minə qədər sistern-vaqonu, külli miqdarda anbarları və neft bazarları var idi[175].

Bank kapitalı ilə sənaye kapitalının çulğalaşmasının mühüm nəticələrindən biri də 1912-ci ildə Rus baş neft korporasiyasının yaranması oldu. 7 iri rus bankı, həmçinin ingilis və Fransa bankları onun təşkilatçıları idi. Korporasiyanın özəyini "Q.M.Lianozov və oğulları" şirkəti, "Neft" rus şirkəti, "A.İ.Mantaşov və K$^{o}$" və "Kaspi" şirkəti" təşkil edirdi. Belə nəhəng birləşməni yaratmaqda məqsəd bütün Rusiya neft sənayesini özünə tabe etmək və "Nobel qrupu"nun fəaliyyətini məhdudlaşdırmaq idi. Bu məqsədi həyata keçirmək üçün korporasiya ticarət-nəqliyyat qrupu yaratdı. Bu qrupa, ilk növbədə, Şərq cəmiyyəti daxil oldu. Bunun nəticəsində o, 79 neft stansiyasını, 23 gəmini, 29 barjı öz nəzarəti altına aldı[176] "Oyl" isə Volqa-Qara dəniz Cəmiyyəti ("Voçeto") adlı sindikat yaratdı.

1913-cü ilin noyabrında "Şərq Cəmiyyəti" ilə "Volqa" Cəmiyyəti müqavilə bağladı. Bu müqaviləyə əsasən, onlar 1914-cü il yanvarın 1-dən neft və neft qalıqlarını birgə satmağı qərara aldılar[177]. Firmaların ticarətdə iştirakı aşağıdakı qaydada müəyyənləşdirildi: "Şərq Cəmiyyəti" 48 faiz, "Volqa" Cəmiyyəti 36 faiz və "Kaspi şirkəti" 16 faiz. Müqavilədə qeyd olunurdu ki, "Şərq cəmiyyəti"nin payında "Q.M.Lianozov və oğulları" şirkəti, "A. İ. Mantaşev və K$^{o}$" Cəmiyyəti, "İ.N.Ter-Akopov" Cəmiyyəti və "Neft" şirkəti iştirak etməlidir. "Oyl"un ən iri müəssisəsi - "A.İ.Mantaşov və K$^{o}$" "Nobmazut"la əlaqəsini kəsdi və hazır məhsullarını "Okean" Cəmiyyətinə verməyə başladı[178]. Sindikat öz ətrafında başqa müəssisələri də birləşdirdi. Onların arasında "Nobmazut"un çoxdankı rəqibi Ş.Əsədullayevin də firması var idi. 1913-cü ildə "Oyl" korporasiyasının yaratdığı sindikat ağ neft ticarətinin yalnız 15-17 faizinə nəzarət edirdi. Bu, payına ağ neft ticarətinin 77 faizi düşən "Nobmazut"u sarsıtmaq üçün çox az idi[179].

Onu da qeyd etmək vacibdir ki, "Oyl"un iştirakçıları olan neft sənaye firmaları qısa müddətdə böyük vəsaitlər əldə etməyə müvəffəq oldular, lakin onu daha çox təsərrüfatlarını genişləndirməyə yox, yalnız üzdə öz müstəqilliklərini qoruyub saxlamış firmaları ələ keçirməyə yönəltdilər[180].

"Oyl" qarşıya qoyduğu məqsədlərə nail ola bilmədi. Xarici müştəriləri geniş surətdə cəlb etmək istəyinin baş tutmaması onun maliyyə vəziyyətini sarsıtdı. Bunu "Nobel qardaşları" şirkətinə nisbətən "Oyl"un gəlirinin nə qədər azalması sübut edir. Əgər 1912-ci ildə Nobel müəssisələrinin gəliri 22 faizə, "Oyl"unki isə 17,2 faizə bərabərdirsə, 1914-cü

ildə "Nobel qardaşları" şirkəti öz səhmdarlarına 26 faiz gəlir (divident) verdi, "Oyl"da bu rəqəm 5,9 faizə bərabər idi[181].

Müharibə ərəfəsində Bakıda fəaliyyət göstərən ingilis neft müəssisələri əsasında Londonda Neft sənaye və maliyyə korporasiyası yaradıldı. Bütün ticarət fəaliyyəti "Şell" qrupunun ixtiyarında olan bu korporasiyanın səhm kapitalı 28 mln rubl idi[182].

Sənaye-maliyyə korporasiyalarının yaranması neft mənbələrini, neft emalı və daşınması sahələrini ələ keçirmək uğrunda amansız rəqabət şəraitində baş verirdi. Birinci dünya müharibəsi ərəfəsində adları çəkilən korporasiyalar Bakı neft müəssisələrinin kapitalı ilə istədikləri kimi rəftar edirdilər. Bu kapital xarici kapitalistlərin qoyduğu kapitaldan çox idi. 1914-cü ildə üç birliyin ("Şell", "Nobel" və "Oyl") səhmdar kapitalı, Rusiyanın bütün səhmdar kapitalının 86 faizini təşkil edirdi (1911-1914-cü illərdə neft istehsalı həcmi 1.127,8 mln.pud idi)[183].

Bu korporasiyaların neft istehsalının həcmini ölkədə istehsal edilənlə müqayisə etsək, "Oyl"a 28 faiz, "Şell"ə 20 faiz və "Nobel"ə 14 faiz pay düşürdü[184]. Bundan başqa, ağ neft istehsalının 2/3-si, sürtkü yağları istehsalının isə hamısı və neft kəmərlərinin xeyli hissəsi də onlara məxsus idi[185]. Beləliklə, bir-biri ilə bağlı olan bu üç iri birlik ölkənin neft sənayesində istehsal və ticarətin əsas hissəsini öz nəzarəti altına almışdı.

Neft sənayesində firmaların və şirkətlərin yenidən qurulması kapitalın milli tərkibində də dəyişiklik yaratdı. Məsələn, "Oyl"da fransız kapitalının payı 6 mln rubla bərabər idi[186]. Fransız kapitalının mənafeyi "Mazut" cəmiyyəti vasitəsilə "Şell" və "Nobel" qruplarında təmsil olunurdu. O da qeyd edilməlidir ki, Amerikanın "Standart Oyl və K°" şirkətini tabe etmək və onun vasitəsilə Rusiya neft sənayesinə daxil olmaq cəhdləri baş tutmadı. Nobel öz uzaqgörən siyasəti sayəsində 1920-ci ilə qədər öz müstəqilliyini qoruyub saxlaya bildi[187]. Bu siyasətin nəticələrindən biri o oldu ki, "Şell" və "Nobel" qrupları öz aralarında qarşılıqlı xeyir götürmək barədə razılığa gəlib, mənafelərində bəzi ziddiyyətlər olmasına baxmayaraq, "Oyl"a qarşı birləşdilər.

Beləliklə, XX əsrin əvvəllərində Azərbaycan neft sənayesindəki iri firmaların mövqeyində müəyyən dəyişikliklər baş verdi. Onların müxtəlif maliyyə və istehsal fəaliyyəti, bank və sənaye kapitallarının təmərküzləşməsinin güclənməsi və korporasiyaların yaranması neft kompaniyalarının ölkənin iqtisadiyyatındakı rolunu artırdı.

## §8. AZƏRBAYCAN NEFT SƏNAYESİNDƏ MİLLİ KAPİTAL

Azərbaycanda iqtisadiyyatın kapitalist inkişafı bir çox sosial qrupların nümayəndələrini müxtəlif sahələrdə sahibkar fəaliyyətinə cəlb edirdi. Bu qruplardan ən kütləvisi - hələ kapitalist istehsal münasibətlərinin hakim mövqe tutmasından qabaq formalaşmış xırda burjuaziya əslində əmtəə təsərrüfatı şəraitində xüsusi mülkiyyəti, həmçinin istehsal vasitələri olan, eyni zamanda istehsal prosesində iştirak edən azad xırda istehsalçıların nümayəndəsi idi. Məhz onlar iri burjuaziya sırasına daxil olanların əsas mənbəyini təşkil edirdilər. Onlar iri kapital sahibləri mühitinə təkcə özlərinin əmtəə-istehsal bacarıqlarını, öz müəssisələrini yaratmaq kimi təşkilati təcrübələrini deyil, həmçinin milli ənənələrini də gətirirdilər.

Bakı neft sənayesinin kapitalist inkişaf yoluna düşməsinin lap başlanğıc mərhələsində burada milli kapitalın xüsusi çəkisi yüksək idi. Hələ 70-ci illərdə, neft sənayesində iltizam sisteminin ləğv olunduğu, neft quyularının və neftverən ərazilərin hərrac vasitəsilə xüsusi şəxslərə icarəyə verildiyi vaxt neft quyularının 88 faizi, hərrac zamanı ödənilmiş məbləğin 94,5 faizi yerli sahibkarlara məxsus idi ki, onların da əsas kütləsini milli kapital nümayəndələri təşkil edirdi. Milli kapital nümayəndələri bu dövrdə neft emalı sənayesi sahəsində də aparıcı rola malik idilər. Bu dövrdə Bakının neft-mədən rayonunda fəaliyyət göstərən 46 neft emalı zavodundan 25-i, yəni 54 faizi milli kapital nümayəndələrinin sərəncamında idi.

H.Z.Tağıyevin 1873-cü ildə yaratdığı kiçik neft firması əsrin sonuna qədər keçən müddətdə özündə neft istehsalı, buruq qazıma, neft emalı və onu daşımaq vasitələrini birləşdirən iri kapitalist müəssisəsinə çevrildi. Bu, istehsalın ən müasir, eyni zamanda bilavasitə istehlakçılıqla əlaqədar təşkilat forması idi.

Kapitalist təsərrüfat sistemini dərindən öyrənən H.Z.Tağıyev qısa müddətdə öz müəssisələrini dövrün tələblərinə uyğunlaşdıraraq böyük uğurlar qazana bilmişdi.

Eyni yolu keçmiş digər azərbaycanlı sahibkarlardan Şəmsi Əsədullayev XX yüzilliyin əvvəllərində öz müəssisələri əsasında səhmdar cəmiyyəti yaratmışdı. Onun yaratdığı cəmiyyət 1913-cü ildə Bakıda neft hasilatının 60 faizinə qədərini öz əlində cəmləmiş 12 firmadan biri idi. 1913-cü ildə "Ş.Əsədullayev" cəmiyyəti Ramanada, Sabunçuda, Suraxanıda şəxsi mülkiyyət və icarə əsasında 37 qazıma buruğuna, Bakıda zavod və mexaniki emalatxanalara, Xəzər dənizində gəmi və barjlara, neft çənləri və kəmərlərinə, neft-mədən rayonunda torpaq sahələrinə, şəhərdə binalara malik idi.

Muxtarov "Qazıma istehsal alətlərinin sahibkarları sindikatı"nın və "Bakı neft quyuları qazan istehsalçılar cəmiyyəti"nin ən əsas üzvlərindən biri idi. Muxtarovun zavodlarının illik istehsal həcmi 2 mln rubla çatırdı. 1908-1910-cu illərdə Bakı neft istehsalı rayonunda 60 azərbaycanlı sahibkar fəaliyyət göstərirdi və onların sərəncamında 80 firma var idi. Onlardan 8-i hər biri ildə 1 mln puddan çox neft istehsal edən sahibkarlar sırasına daxil idi. 1913-1914-cü illərdə neft çıxarmaqla məşğul olan 165 neft firmasından 48-i, yəni 30 faizi azərbaycanlı sahibkarların sərəncamında idi. Neft emalı sənayesi sahəsində isə 1906-cı ildə fəaliyyət göstərən 77 zavoddan 20-si milli

kapital nümayəndələrinə məxsus idi. Bakıda istehsal olunan ağ neftin beşdə bir hissəsi onların payına düşürdü.

Azərbaycanlı sahibkarlar neft sənayesindən əldə etdikləri külli miqdarda vəsait hesabına yerli iqtisadiyyatın digər sahələrində də aparıcı mövqe tuturdular.

Milli kapitalın yüksək inkişaf mərhələsi və onun qüdrəti özünü Tağıyev və Əsədullayevin şəxsi bank kontorları əsasında, M.Nağıyev, M.Muxtarov, F.Rüstəmbəyov və başqalarının iştirakı ilə 1914-cü ildə Bakı Tacir bankının yaradılmasında göstərdi. Onun kapitalı 1914-cü ildə 3 mln 1915-ci ildə isə 5 mln rubl idi. Bu bankın məqsədi neft, pambıq, balıq, dənüyütmə, mexaniki və s. istehsal sahələrində ilk növbədə milli kapital nümayəndələrinə kömək etmək idi. Bunu təsdiqləyən "Birja" qəzeti yazırdı ki, bankın müştərilərinin böyük əksəriyyəti müsəlmanlardır.

Beləliklə, milli burjuaziya, müstəmləkə məngənəsində sıxılan yaradıcı fəaliyyətinə mane olunmasına baxmayaraq, iqtisadiyyatın bir sıra sahəsində, o cümlədən neft sənayesində müəyyən mövqe tutmağa nail olmuşdu.

## § 9. TİCARƏT, NƏQLİYYAT VƏ RABİTƏ

**Ticarət** XX əsrin əvvəlləri Azərbaycan ticarət kapitalının təmərküzləşməsi və mərkəzləşməsi prosesinin sürətlənməsi, inhisar və kredit ticarətinin inkişafı, ticarət müəssisələrinin sayının çoxalması, iri topdansatış ilə yanaşı, xırda ticarətin də inkişafı, iri şirkət və kompaniyaların satışı geniş ölçüdə təşkil etməsi ilə, həm də möhtəkirliyin geniş yayılması ilə xarakterizə olunurdu. Bu dövrdə daxili ticarətin təşkilat sistemi təkmilləşir, onun formaları genişlənir və keyfiyyətcə yeni məzmun kəsb edirdi.

Azərbaycanda ticarət əlaqələri başlıca olaraq inhisarlar tərəfindən təşkil edilir, mal aparılıb-gətirilməsi işi əsasən ticarət evləri, səhmdar cəmiyyətləri və onların nümayəndələri vasitəsilə görülürdü. Azərbaycanın ticarət əlaqələri coğrafiyasını genişləndirir, getdikcə daha çox qarşılıqlı xarakter daşıyır, ticarətin stasionar forması inkişaf edir, milyonlarla manat ticarət dövriyyəsi olan ticarət mərkəzləri yaranır, ticarətdə kapitalist münasibətlərinin inkişafına müsbət təsir göstərən əlverişli şərait formalaşırdı. Bu dövrdə Azərbaycanın mühüm şəhərlərində, birinci növbədə, Bakıda müasir avadanlıqla təchiz olunan ən iri universal və ixtisaslaşmış mağazaların, passajların sayı çoxalır, qəzalarda da illik mal dövriyyəsi böyük məbləğə çatan yüzlərlə ticarət müəssisələri açılırdı.

Bütün Rusiyada olduğu kimi, Azərbaycanda da ticarət müəssisələri beş dərəcəyə bölünürdü. Ticarət müəssisələrinin birinci dərəcəlisində topdansatış, ikinci dərəcəlisində topdan və pərakəndə satış, üçüncü dərəcəsində yalnız pərakəndə satış, dördüncü dərəcəlisində isə xırda satış təşkil edilirdi. Beşinci dərəcəyə malı yüklə və ya əllə gəzdirib satmaqla məşğul olanlar daxil idi. Bundan əlavə, Rusiya imperiyasının ərazisi ticarət və sənayenin inkişaf səviyyəsinə görə 5 sinfə bölünürdü ki, burada da birinci sinif istisna olmaqla qalanlarına qoyulan verginin məbləği müxtəlif idi. Azərbaycanda Bakı şəhəri ikinci, Bakı qəzası və Gəncə şəhəri üçüncü, qalan yerlər isə dördüncü sinfə aid edilmişdi.

Bakı quberniyasında 1900-cü ildə əlavə vergiyə cəlb edilən və mənfəətdən faiz verən, illik dövriyyəsi 155,8 mln. rubl illik mənfəəti 17,5 mln rubl olan 5468 ticarət müəssisəsi, 1904-cü ildə isə illik dövriyyəsi 104 mln rubl, illik mənfəəti 11,4 mln rubl olan 5154 ticarət müəssisəsi var idi. Bakı quberniyasında olan ticarət müəssisələrinin böyük əksəriyyəti Bakı şəhərində və Bakı qəzasında yerləşirdi. Beynəlxalq ticarətin mühüm mərkəzlərindən birinə çevrilən Bakı şəhəri Azərbaycan ticarətinin ümumi inkişaf meylini, xarakterini və istiqamətlərini müəyyən edirdi. Bakı quberniyasında 1900-cü ildə olan ticarət müəssisələrinin 63,7 faizi, 1904-cü ildə isə 64,4 faizi Bakı şəhəri və Bakı qəzasında yerləşirdi. Ticarət müəssisələrinin illik dövriyyəsinin həcminə görə Bakının xüsusi çəkisi daha böyük idi. Ticarət müəssisələrinin illik dövriyyəsinin 1900-cü ildə 88,4 faizi, 1904-cü ildə isə 87,7 faizi Bakının payına düşürdü. 1910-cu ildə Azərbaycanın hər iki quberniyasındakı 8311 ticarət müəssisəsinin 36,6 faizi Bakıda idi.

Bakı şəhəri ticarət müəssisələrinin iriliyi, müasir avadanlıqla təchizatı, ticarətin təşkilində mütərəqqi formaların tətbiqi cəhətindən də Azərbaycanın digər şəhərlərindən fərqlənirdi. Topdansatış ticarət müəssisələrinin, demək olar ki, hamısı, pərakəndə satış iri ticarət müəssisələrinin isə xeyli hissəsi Bakıda yerləşirdi. Bakı quberniyasında götürülən birinci dərəcəli ticarətə aid sənədlərin 1901-ci ildə 96,1, 1906-cı ildə isə 86,2 faizi Bakının payına düşürdü.

1900-cü ildə Bakıda əlavə vergiyə cəlb edilən və mənfəətdən faiz verən 3438 ticarət müəssisəsinin illik dövriyyəsi 137,7 mln, illik mənfəəti isə 16,3 mln rubl olmuşdu. Ticarət müəssisələri üçün götürülən sənədlərin miqdarı 1901-ci ildə 6164, 1904-cü ildə 6576 və 1906-cı ildə isə 4754 olmuşdur.

Azərbaycanın Yelizavetpol quberniyasında da ticarət müəssisələrinin sayı çoxalır, illik dövriyyənin həcmi artırdı. Burada 1909-cu ildə 6970, 1912-ci ildə isə 9015 ticarət sənədi əldə edilmişdi. Ticarət müəssisələrinin illik dövriyyəsi 1909-cu ildə 17 mln, 1910-cü ildə isə 16,7 mln rubl idi. Yelizavetpol quberniyasında Gəncə, Nuxa və Şuşa şəhərləri öz qəzaları ilə birlikdə ticarətin inkişaf səviyyəsinə görə başqa qəzalardan kəskin surətdə fərqlənirdi.

1909-cu ildə ticarət-sənaye müəssisələrinin 22083 min rubldan ibarət illik dövriyyəsindən 3989 min rubl Gəncə şəhərinə, 4 mln rubl Nuxa qəzasına, 5760 min rubl isə Şuşa qəzasına aid idi.

Azərbaycanda birja, yarmarka və bazar ticarəti də xeyli inkişaf etmiş və ticarət dövriyyəsinin ümumi yekununda onların xüsusi çəkisi əhəmiyyətli dərəcədə artmışdı.

Bakıda hər ilin baharında təşkil olunan Nikolay yarmarkasında keçirilən və ildən-ilə genişlənən ticarət əməliyyatı şəhərin ticarət dövriyyəsində əhəmiyyətli yer tuturdu. Məsələn, 1903-cü ildə buraya gətirilən malların məbləği əvvəlki ilə nisbətən 146,4 min, satılan malların məbləği isə 98,7 min rubl artmışdı. Bu yarmarkada yerli mallarla yanaşı, Saratov, Tiflis, Yekaterinodar, Yaroslavl, Yekaterinburq, İrkutsk, Rostov, Dağıstan və başqa yerlərdən gətirilən mallar da satılırdı.

Bakı birjasının mal dövriyyəsinin həcmi 1900-cü ildə 23,4 milyon, 1908-ci ildə 55 milyon rubl, burada sövdə edilən neft məhsullarının miqdarı isə 1900-cü ildə 140,3 milyon, 1910-cu ildə 213,9 milyon pud olmuşdu.

Azərbaycanın daxili ticarətinin yeni bir forması-istehlak kooperasiyası meydana gəlmiş və daxili ticarətin inkişafında onun əhəmiyyəti artmışdı. Artıq 1904-cü ildə Bakıda 10 istehlak kooperasiyası var idi. İstehlak kooperasiyalarının illik dövriyyə məbləği də artmaqda idi. 1913-cü ildə Bakıda 12 istehlak kooperasiyasının illik dövriyyəsi 76 min rubl olmuşdu. 1913-cü ildə Azərbaycandakı 39 istehlak kooperasiyasından 28-i Bakı, 11 -i isə Yelizavetpol quberniyalarında idi.

XX əsrin əvvəllərində Azərbaycanda ticarət kapitalının təmərküzləşməsi və mərkəzləşməsi prosesi daha da sürətlənmişdi. Lakin əvvəllərdə olduğu kimi, yenə də inhisarçı ticarət əsasən Bakı şəhərində inkişaf edirdi. Bakının birja cəmiyyəti, bank-kredit müəssisələri burada ticarət kapitalının təmərküzləşməsi prosesinin sürətlənməsinə təsir göstərirdi. Bakı şəhərində 1904-cü ildə 56, 1910-cu ildə 98, 1913-cü ildə 200 ticarət evi var idi. Onlardan 30-u məhsulun istehsalı və tədavülü ilə məşğul olurdusa, 170-i bilavasitə tədavül dairəsində fəaliyyət göstərirdi.

Bakı şəhərindəki ticarət evlərinin diqqəti cəlb edən cəhəti onların bütün ticarət sahələrinə nüfuz etmələri idi. Bu dövrdə neft məhsulları və digər mallarla da ticarət edən ticarət evlərinin sayı da sürətlə artırdı. Ancaq neft məhsullarının ticarəti ilə məşğul olan ticarət evləri bütün ticarət evlərinin 1904-cü ildə 51,8 faizini (29 ticarət evi), 1913-cü ildə isə 17,5 faizini təşkil edirdi. 1913-cü ildə Bakıdakı ticarət evlərinin 67-sinin hər birinin kapitalı 50 min rubldan çox idi. Şəhərdə möhkəm maddi-texniki bazaya əsaslanan ən iri topdansatış ticarət müəssisələri ticarət evlərinə məxsus idi. 1913-cü ildə Bakıda mövcud olan 138 birinci dərəcəli, yəni topdansatış ticarətlə məşğul olan ticarət müəssisələrinin 94-ü və ya 60,8 faizi ticarət evlərinə aid idi.

Azərbaycanın digər şəhərlərində də ticarət evləri açılırdı. 1910-cu ildə Azərbaycanda olan 105 ticarət evinin 98—i Bakıda, 7-si isə digər şəhərlərdə, məsələn, Gəncədə, Nuxada, Şuşa və Naxçıvanda yerləşirdi.

Neft məhsulları ticarətində "Nobel qardaşları", "Mazut" və qismən "A.İ.Mantaşov və K°" səhmdar cəmiyyətləri həlledici yer tuturdu.

Nobel və Rotşild nəinki Rusiyada inhisarçı mövqe tutmağa, habelə dünya

neft bazarını Rokfellerin Amerika "Ağ neft tresti" ilə bölüşdürməyə müvəffəq olmuşdular.

Neft və neft məhsulları ilə bərabər, metal və metal məmulatı, pambıq-parça məmulatı, qənd və un, ət və ət məhsulları və s. malların ticarətində də inhisarlar meydana gəlmişdi. Neft və neft məhsullarının, metal və metal məmulatının, un, çörək və çörək məmulatının və digər taxıl məhsullarının ticarətində sindikatlar yaranmışdı.

Beynəlxalq ticarətin mühüm mərkəzinə çevrilən Bakı şəhərində tacirlərin sayı, onların kapitalları daha sürətlə artır, ticarət əməliyyatları genişlənirdi. 1903-cü ildə Bakı şəhərində 14945 nəfər tacir var idisə, 1913-cü ildə onların sayı 19545 nəfərə çatmışdı. Bilavasitə malların alqı-satqısı ilə məşğul olanlar tədavül dairəsində çalışanların 83,1 faizini təşkil edirdi.

Bakı tacirlərinin tərkibi çoxmillətli idi. Şəhər tacirləri arasında onlarca millətin nümayəndələrinə rast gəlinirdi. 1903-cü ildə 14945 tacirin 7084 nəfəri azərbaycanlı, 3559 nəfəri erməni, 2489 nəfəri rus və 1873 nəfəri digər millətlərin nümayəndəsi idi.

Azərbaycanın digər şəhərlərində də ayrı-ayrı malların ticarətində həlledici mövqe tutan, Rusiyanın daxili rayonları və xarici ölkələrlə geniş ticarət aparan, çox böyük kapitalı olan tacirlər zümrəsi meydana gəlmişdi.

Azərbaycanın şəhər və qəzaları arasında mal dövriyyəsinin həcmi xeyli genişlənmişdi. Azərbaycan kəndləri sürətlə artan ticarət-sənaye əhalisini ərzaqla təmin etməklə bərabər, şəhərlərdən də müxtəlif istehlak şeyləri və istehsal alətləri əldə edirdilər. Bakı ilə Azərbaycan qəzaları arasında nəqliyyat vasitələrinin ilbəil yaxşılaşması ticarət dövriyyəsinin artmasına müsbət təsir göstərdi. Məhsulun ticarətə daxil olan hissəsinin artım sürəti xeyli çoxaldı.

Bu dövrdə Azərbaycanın xarici ölkələrlə ticarət əlaqələri daha da genişlənmiş, o, dünya bazarına neft məhsulları, balıq məhsulları, ipək və s. ixrac etməklə bərabər, eyni zamanda xarici ölkələrdə istehsal olunmuş malların da mühüm istehlakçısına çevrilmişdi.

Mühüm ticarət mərkəzi olan Bakıda bir-birinin ardınca təşkil edilən xarici şirkət və kompaniyaların kontorları, şöbələri və agentlikləri şəhərin əhalisini və Azərbaycanın digər yerlərini lazımi mallarla təmin edirdi. Bakı şəhərində bilavasitə xarici firmalara məxsus olan mağaza, kontor, anbar və s. fəaliyyət göstərirdi. Birinci dünya müharibəsi ərəfəsində burada xarici ölkə tacirlərinə məxsus 389 ticarət müəssisəsi var idi.

Əvvəllərdə olduğu kimi, yenə də Azərbaycanın ticarət əlaqələri dəniz və dəmir yol nəqliyyatı vasitəsilə təşkil edilirdi. Hər iki halda Bakı şəhəri müstəsna əhəmiyyət kəsb edirdi. XX əsrin əvvəllərində Bakı şəhərinin müxtəlif malların ən mühüm istehlakçısına çevrilməsi, ölkənin daxili rayonları, eləcə də Rusiya və İran arasında ticarət-iqtisadi əlaqələrin genişlənməsində rolunun yüksəlməsi onun mal dövriyyəsinin xeyli artmasına səbəb oldu.

1900-cü ildə Bakıdan dənizlə 353 milyon, dəmir yolla isə 84,8 milyon pud mal aparılmış, buraya dənizlə 30,6 milyon, dəmir yolla 16,7 milyon pud mal gətirilmişdi. 1913-cü ildə Bakıdan dənizlə 307,7 milyon, dəmir yolla isə 72,6 milyon pud mal aparılmış, buraya isə müvafiq surətdə 33 və 46,3 milyon pud mal gətirilmişdi.

Azərbaycanın ticarət əlaqələrinin inkişafında Xəzər dənizi sahilində yerləşən digər limanlar - Lənkəran və Astara, habelə mühüm dəmir stansiyaları - Hacıqabul, Kürdəmir, Ucar, Yevlax, Gəncə, Ağstafa və da mühüm rol oynayırdı. Onlar Azərbaycanın, deməkolar ki, bütün ərazisini Rusiyanın daxili rayonları və xarici ölkələrlə əlaqələndirirdi.

Azərbaycandan neft məhsullarından əlavə ipək, pambıq, yun, taxıl, meyvə və onlarla digər kənd təsərrüfatı məhsulları aparılır, buraya əhalinin istehlak şeylərinə, sənaye, kənd təsərrüfatı, nəqliyyat, tikinti və istehsal vasitələrinə olan tələbatını ödəmək üçün çox adda, müxtəlif növ və çeşiddə mal gətirilirdi.

1909-cu ildə Yelizavetpol quberniyası ərazisində olan dəmir stansiyalarından 8148 min və 1913-cü ildə 9972 min pud mal aparılmış, həmin illərdə müvafiq surətdə 6761 və 11962 min pud mal gətirilmişdi.

Azərbaycanın ticarət əlaqələrində İran yenə də mühüm yer tutur, Bakı şəhəri böyük rol oynayırdı. 1908-ci ildə Azərbaycan ərazisində olan bütün gömrükxanalardan İrana ixrac edilən 18710 min rublluq malın 11101 min rublluğu və ya 59,3 faizi Bakıdan yola salınmışdı. həmin gömrükxanalara daxil olmuş 18454 min rublluq malın 12327 min rublluğu və ya 66,8 faizi isə Bakıya idxal edilmişdi.

Azərbaycandan İrana aparılan malların içərisində neft məhsulları, qənd, metal, pambıq-parça məmulatı, maşın və avadanlıq xüsusi yer tutur, oradan gətirilən mallardan isə düyü, meyvə, pambıq, balıq məhsulları və s. həlledici əhəmiyyət kəsb edirdi.

**Nəqliyyat və rabitə.** XX əsrin əvvəllərində ticarət gəmilərinin kiçikləri ixtisar edilib, irilərilə əvəz olunurdu. Donanmada 1908-ci ildən başlayaraq daxili yanacaqla hərəkətə gətirilən gəmilər (teploxodlar) meydana çıxdı. Xəzər ticarət donanmasında 1910-cu ildə beş, 1914-cü ildə 17 teploxod var idi ki[188], onlar da Rusiyadakı bütün gəmilərin 28,8 və bütün teploxodların 84,8 faizini təşkil edirdi[189]. Ümumiyyətlə, Xəzər dənizində ən iri teploxodlar üzürdü. 1914-cü ilin əvvəlində Xəzər donanmasında buxarla işləyən teploxodlar və başqa gəmilər bütün gəmilərin 72 faizi qədər idi və onlar gəmi ilə yükdaşımanı artıqlaması ilə təmin edirdilər.

Rusiya gəmiqayırma zavodları gəmiyə olan tələbatı vaxtında yerinə yetirirdi. 1914-cü ilə qədərki dövrdə Xəzər donanmasında fəaliyyət göstərən buxarla işləyən gəmi və teploxodların 47 faizi Rusiyada istehsal edilmişdi[190].

XX əsrin əvvəllərində çay nəqliyyatı da xeyli inkişaf etdi. 1907-ci ildə Kür çayında 10 gəmi üzürdü. Onlar Bakı limanlarına da gəlir, əsasən isə Bakı-Salyan arasında işləyirdi. Digər buxarla işləyən və yelkənli gəmilər daxili yükdaşıma ilə məşğul olur, əsasən neft və taxıl daşıyırdılar. Bu gəmilərin yük dövriyyəsi 1905-ci ildə 4,7 mln pud, 1911-ci ildə isə 10 mln pud olmuşdu[191]. Sonrakı üç ildə çayla üzən gəmilərin yük dövriyyəsi 2 dəfə artmış, 1912-ci ildə 25 mln pud, 1914-cü ildə isə 26 mln pud olmuşdu[192].

Azərbaycanın Rusiya bazarlar, həmçinin İranla iqtisadi əlaqələrində ən mühüm rolu Xəzər dənizində ən iri liman olan Bakı limanı oynayırdı[193]. Böhran və uzun çəkmiş durğunluq illərində Bakı limanının yük dövriyyəsinin xeyli azalmasına baxmayaraq (1901-ci ildə 407 mln puddan 1913-cü ildə 342,2 mln puda qədər)[194],

onun ümumi yük dövriyyəsi Rusiyanın Peterburq və Odessa kimi iri limanlarınkından çox idi[195]. Ancaq Bakıda liman təsərrüfatında əhəmiyyətli irəliləyiş olmamış və o, birinci dərəcəli limanlar sırasına daxil edilməmişdi.

XX əsrin əvvəllərində Xəzər gəmiçiliyində azərbaycanlı sahibkarların rolu yüksək idi. 1906-cı ildə Xəzər gəmiçiliyində gəmilərin 41 faizi, yük dövriyyəsinin isə 41,7 faizi onlara məxsus idi'[96]. Ən çox gəmisi olan sahibkarlar Useynovlar, Dadaşovlar və Rəsulovlar idi.

H.Z.Tağıyev də Xəzər dənizində ən çox gəmisi olan sahibkarlardan biri sayılırdı. O, 1905-ci ildə özünün "Kaspi" gəmiçilik şirkətini Kür-Kaspi səhmdar gəmiçilik cəmiyyətinə çevirmişdi. Bu cəmiyyət Peterburq gəmiçilik cəmiyyətləri - "Qafqaz və Merkuri" və VOTS-a ciddi rəqib idi[197].

1907-ci ildə azərbaycanlı gəmi sahibkarların neftdaşıma donanmasında xüsusi çəkisi 52 faiz (gəmilərin sayına görə isə 45,1 faiz) idi[198], 1914-cü ilə yaxın onların Xəzər gəmiçiliyindəki payı bir qədər azalsa da, neftdaşıma donanmasının 40,1 faizi onların sərəncamında qalırdı.

XX əsrin əvvəllərində Xəzər ticarət gəmiçiliyində inhisarlaşma prosesi daha da dərinləşdi. Burada nəqliyyatı idarəetmənin kapitalistcəsinə təşkili daha da qüvvətləndi və bu prosesə başlıca səbəb bir tərəfdən, kapitalist təmərküzləşməsi, digər tərəfdən isə onun ən çox inhisarlaşma prosesinə məruz qalmış neft sənayesi ilə bağlı olması idi[199].

Xəzər buxar gəmiçiliyində səhmdar kompaniyaların mövqeyi daha güclü idi. Əgər 1907-ci ilin başlanğıcına yaxın onların payına gəmilərin 45 faizi, yük dövriyyəsinin isə 43 faizi düşürdüsə, müharibə ərəfəsindəki ildə buxarla və daxili yanacaqla hərəkətə gətirilən gəmilərin 53,2 faizi, mal daşınmasının isə 58,4 faizi 12 səhmdar cəmiyyətin əlində cəmlənmişdi. Teploxodların 47 faizi və onların daşıdıqları yükün 98 faizi də onlara məxsus idi[200]. Tək-tək sahibkarların payına isə buxarla hərəkətə gətirilən gəmilərin və teploxodların daşıdıqları yüklərin 20 faizi (1907-ci ildə 28 faizi) düşürdü.

Xəzər buxar gəmiçiliyində də iqtisadi proseslər dövrün kapitalist təsərrüfatının yüksək inkişaf formasına uyğun gedirdi, yəni gücü azlar müflisləşir, onların mülkləri qüdrətlilərin əllərində cəmlənirdi. 1909-cu ildə "Nadejda" şirkəti öz fəaliyyətini dayandırmalı oldu və onun bütün əmlakı "Qafqaz və Merkuri" və "Şərq" kompaniyalarının ixtiyarına keçdi[201]. 1911-ci ildə həmin kompaniyalar H. Z. Tağıyevin "Kür-Kaspi gəmiçiliyi"ni satın aldılar[202]. 1913-cü ildə "Təyyarə" və "Tacir" Volqa gəmiçiliyi birləşdi və "Kaspi gəmiçiliyi" yarandı. Onun sərəncamında buxarla hərəkətə gətirilən 8 gəmi var idi[203].

1914-cü il ərəfəsində ən iri gəmiçilik müəssisələri "Qafqaz və Merkuri" və "Şərq" cəmiyyəti idi. Xəzər buxar gəmiçiliyi gəmilərinin 34,5 faizi və yükdaşımanın 26,2 faizi, mal və sərnişin daşıyan gəmilərin 61 faizi onların əllərində cəmlənmişdi. 1907-ci ilə nisbətən onların əllərində olan gəmilərin sayı və yük daşıması 1,5 dəfə artmışdı. "Volqa" cəmiyyətinin də maye daşıyan bir neçə iri gəmisi və bir teploxodu var idi.

1907-ci ildə H. Z. Tağıyevin başçılığı altında yaranmış "Bakı gəmi sahiblərinin

cəmiyyəti"[204] "Nobel qardaşları" şirkəti, "Mazut" və "Gəmi sahibləri ittifaqı" cəmiyyətləri ilə rəqabətə tab gətirə bilməyib 1911-ci ildə dağıldı[205].

Xəzər dənizi ilə sərnişinlərin və quru yüklərin daşınması iki iri Rusiya cəmiyyəti - "Qafqaz və Merkuri" və "Şərq" cəmiyyətinin inhisarında idi. 1913-cü ildə Xəzər dənizi ilə daşınmış bütün quru yüklərin 60 faizi bu cəmiyyətlərin payına düşürdü.

Müharibədən əvvəlki illər (1910-1913) Xəzər gəmiçiliyinə maliyyə kapitalının daha fəal nüfuz etməsi və inhisarçı birliklərin daha yüksək təşkilatçılıq formalarına daxil olması ilə xarakterizə olunur[206]. Müharibə ərəfəsində Xəzər mayedaşıma donanmasının iri müəssisələrinin qarşılıqlı münasibətlərini onların üzərində nəzarətçi olan, arxalarında iri banklar dayanmış "Rus ali neft korporasiyası", "Oyl", "Şell", "Nobel qardaşları" kimi trestlər idarə edirdilər[207]. "Qafqaz və Merkuri" və "Şərq" cəmiyyətlərinin işində Peterburq beynəlxalq kommersiya və Rus-Asiya bankları fəal iştirak edirdilər[208].

Azərbaycanın Mərkəzi Rusiya ilə əlaqələrində 1900-cü ildə istismara verilən və Şimali Qafqazdan keçən dəmir yolunun böyük əhəmiyyəti oldu. Onun Dərbənd-Biləcəri xəttinin işə düşməsi ilə Azərbaycan dəmir yolunun uzunluğu 746 km-ə çatdı[209].

1904-cü ildə Zaqafqaziya dəmir yolunun yük dövriyyəsi XIX əsrin sonlarına nisbətən 2 dəfə artaraq 292.7 mln puda çatdı. Həmin vaxtda sərnişin daşınması isə 5 dəfə çoxalmışdı. 1904-cü ildə dəmir yolun gəliri 33,3 mln rubl oldu və 1894-cü ilə nisbətən iki dəfə artdı[210].

XX əsrin əvvəllərində Azərbaycanda yeni dəmir yol xəttinin çəkilməsi sahəsində elə bir əhəmiyyətli iş görülməmişdi. Yalnız 1908-ci ildə Uluxanlı və Culfa stansiyalarını birləşdirən dəmir yolun çəkilişi sona yetdi[211].

Ticarətin inkişafı ilə əlaqədar Azərbaycan dəmir yolunun yükdaşıma dövriyyəsi artırdı[212]. Yalnız Yelizavetpol quberniyası ərazisindən keçən Azərbaycan dəmir yolu ilə quberniyanın qəzalarına 1912-ci ildə 11,2 mln pud, 1913-cü ildə isə 11,9 mln pud müxtəlif yüklər gətirilmişdi[213]. Bakıdan Bakı-Tiflis və Bakı-Dərbənd yolu ilə yük daşınması 1906-1913-cü illər arasında 584300 puddan 72 mln puda qədər artmışdı.

İri dəmir yol qovşağı olan Bakıdan daşınan yüklər içərisində çoxunu ağ neft təşkil edən neft məhsulları mühüm yer tuturdu[214]. 1901-ci ildə Bakı-Dərbənd yolu ilə Rusiyaya 51,7 mln pud ağ neft daşınmışdı[215].

Neft sənayesində uzun müddət davam etmiş durğunluq dövründə dəmir yolla xam neft və neft məhsulu daşınması xeyli azalsa da[216], onun Bakı neftinin dünya bazarına çıxarılması üçün mühüm əhəmiyyəti var idi. Ən əsas ağ neft ixracçıları "Nobel qardaşları", "Kaspi-Qara dəniz cəmiyyəti", "A.İ.Mantaşov və K°" şirkətləri idi. Hər il "Nobel qardaşları" şirkəti 6 mln pud, "Kaspi-Qara dəniz cəmiyyəti" isə 4 mln pud ağ nefti Batum vasitəsilə ixrac edirdi[217].

Dəmir yol nəqliyyatı ilə marqans filizi, daş kömür, taxıl, pambıq, yun, ipək, çaxır, tütün, meyvə və s. ixrac olunurdu. 1910-1914-cü illərdə dəmir yol vasitəsilə hər il Bakıya 28-40 mln pud mal daşınmışdı[218]. Təkcə 1912-ci ildə Bakı stansiyasına 16202 dəmiryol qatarı gəlmişdi. Onlardan 8532-si vasitəsi ilə bütün Rusiya ilə əlaqə saxlanmış, 7850-si Bakı-Sabunçu xəttində xidmət etmiş və hər il 12 mln sərnişin daşımışdı[219].

Azərbaycanda quru yolların vəziyyəti o qədər də yaxşı deyildi. Əsrin əvvəllərində Bakı qubemiyasında Quba ilə Xaçmaz stansiyası arasında poçt yolu işə salındı. 1901-ci ildə uzunluğu 32 verst olan Kürdəmir-Ağsu yolunda hərəkət başlandı[220]. 1907-ci ildə Quba-Rostov, Qusar-Xudat, Xaçmaz-Mixaylovka arasında yollar da istismara buraxıldı. Yelizavetpol qubemiyasında da bu istiqamətdə görülən işlər çox cüzi idi. 1901-ci ildə Şuşa-Gorus yolu təmir olundu. Nuxa qəzasında Vartaşendən Bayana, oradan isə Ərəş qəzasının Yaqublu kəndinə qədər yol salındı, Yevlax-Nuxa-Zaqatala yolu təmir olundu[221].

1917-ci il ərəfəsində Azərbaycanda 1.423 verst uzunluğunda şose və torpaq yolu var idi. İqtisadi cəhətdən ən əsas yollar aşağıdakılar idi: Quba-Dəvəçi-Qızılburun, Lənkəran-Prişib, Lənkəran-Lerik, Bakt-Şamaxı-Kürdəmir, Nuxa-Zaqatala-Laqodexi, Yevlax-Şuşa, Ağdam-Cəbrayıl, Şuşa-Gorus və Qaramarlı-Ordubad-Culfa[222].

Bütün poçt yolları əsasən qəza şəhərlərini bir-birilə əlaqələndirirdi. Cənubi Qafqazda hər 100000 adama 33 verst yol düşürdü. Bu rəqəm Rusiyanın Avropa hissəsində 40,2 verstə bərabər idi.

Kapitalist təsərrüfatçılığının inkişafı poçt-teleqraf xidmətinin genişləndirilməsini tələb edirdi. Bakıda cəmisi bir poçt-teleqraf kontoru fəaliyyət göstərirdi. O, mərkəzi hissədən çox kənarda idi və şəhərin tələbatını ödəyə bilmirdi. 1902-ci ildə neft sənayeçiləri qurultayının vasitəsi ilə daha iki belə rabitə kontoru açıldı[223].

Azərbaycanın Rusiya ilə teleqraf rabitəsi də zəif idi. Azərbaycanı Rusiya ilə birləşdirən Bakı-Tiflis teleqraf xətti yeganə idi və gündə 1000-1500 teleqram göndərə bilirdi. Digər tərəfdən, Tiflis-Gəncə teleqraf xəttindən Tərtər, Ağdam, Xankəndi də istifadə etdiyi üçün böyük çətinliklər törənirdi[224]. Bakıdan Xəzər dənizi boyu Həştərxana gedən teleqraf xətti ilə isə ayda 7600-dan çox teleqram göndərmək mümkün olmurdu[225]. Bunlardan başqa, Bakıda olan bir neçə teleqraf xətti hökumətə məxsus idi.

1902-ci ilin yayında Minvod-Petrovski-Dərbənd xətti Bakı və Tiflis dəmir yol stansiyaları arasındakı teleqraf xətti ilə birləşdirildi[226]. 1903-cü ildə Bakı ilə Salyan arasında teleqraf xətti işə düşdü[227], Prişib-Salyan teleqraf xətti yenidən quruldu. Təzəkənd-Biləsuvar arasında yeni teleqraf xətti çəkildi[228]. 1908-ci ildə Xaldanda (Nuxa qəzası), Petropavlovskidə (Cavadxan qəzası), 1912-ci ildə Hindarxda (Şuşa qəzası) teleqraf rabitəsi, 1910-cu ilin dekabrında Nuxada, 1912-ci ilin fevralında Zumabadda poçt-teleqraf stansiyaları işə düşdü. 1913-cü ildə isə Bakı ilə Tiflis arasında birbaşa teleqraf əlaqəsi yaradıldı[229].

1913-cü ildə bütün Rusiya imperiyasında 7618 dövlət poçt və teleqraf kontoru var idi ki, onlardan cəmi 65-i (1 faizdən az) Azərbaycanda idi[230].

Çox ləng olsa da, telefon rabitəsi də inkişaf edirdi. Bakıda fəaliyyət göstərən telefon qovşağı 1907-ci ildə 20 il müddətinə "Bierinq İK° şirkətinə" verildi[231]. Bir il sonra şirkət 1000 nəfərə xidmət edə biləcək stansiyadan birini Bakıda, digərini Balaxanıda tikməyə başladı. Birinci stansiya 1910-cu ilin mayında fəaliyyətə başladı[232].

Azərbaycanda telefon rabitəsi əsasən Bakıda və onun ətraflarında genişlənərək, neft sənayesinə və ticarət-sənaye nümayəndələrinə xidmət edirdi. Şəhərin

iş adamları telefon rabitəsinin çoxalmasına çalışırdılar. 1910-cu ildə sənayeçilərin vəsaiti hesabına Quba ilə Xaçmaz arasında teleqraf, digərlərinə 50 verstlik telefon xətləri çəkildi[233]. 1910-cu ildə Gəncədə də telefon xətti çəkilmiş[234], 1911-ci ildə buradakı dəmir yol stansiyasında avtomat telefon aparatı qoyulmuşdu. Belə aparatlar Bakıda şəhər idarəsi, şəhər məktəbləri və b. yerlərdə var idi[235].

1911-ci ildə Bakı-Tiflis telefon xətti dövlət hesabına çəkilib, başa çatdırılmışdı[236]. 1913-cü ildə Bakı telefon şəbəkəsi 4716 abonentə xidmət edirdi[237].

## § 10. ŞƏHƏRLƏR

XX əsrin əvvəllərində daxili bazarın yarandığı və qəzalarda kapitalist istehsal münasibətləri üstün mövqe tutmağa başladığı şəraitdə Azərbaycan şəhərləri sürətlə böyüməyə başladı. Artıq Azərbaycanın ondan artıq şəhəri də dünyanın neft mərkəzi olan Bakı, Cənubi Qafqazın ən iri şəhərlərindən biri sayılan Gəncə ilə yanaşı, ticarət-sənaye mərkəzinə çevrilmişdi.

Kiçik kəndli əmtəə istehsalçılarını müflisləşdirən proses və bununla əlaqədar həm əkinçi, həm də qeyri-əkinçi kəsbkarlığı gücləndikcə, adamların iş üçün axışdığı bir şəraitdə şəhər əhalisi artırdı. İri şəhərlərdə əhali artımı əsasən gəlmələrin hesabına olurdu. Belə ki, 1913-cü ildə Bakı əhalisinin yalnız 32,7 faizi Bakıda və mədən-zavod rayonlarında doğulmuşlar idi[238].

Azərbaycanda şəhər əhalisinin artımı çox sürətlə gedirdi. Bakının əhalisi, mədən-zavod rayonları nəzərə alınmadan, 1897-ci ildən 1915-ci ilədək 112,2 min nəfərdən 262,4 min nəfərə, Gəncə şəhərinin əhalisi isə 33,6 min nəfərdən 59,7 min nəfərə qədər artmışdı[239].

1900-1915-ci illər arasında əhalisi sürətlə çoxaları digər Azərbaycan şəhərlərindən Nuxanın əhalisi 28,4 mindən 52,2 minə, Şuşanınkı 25,6 mindən 43,8 minə, Qubanınkı 17,4 mindən 26,9 minə, Şamaxınınkı 23 mindən 27,3 minə, Lənkəranınkı 10,6 mindən 17,8 minə çatmışdı. 1915-ci ildə Naxçıvanın əhalisi 9 minə yaxın, Ordubadınkı isə 6,5 min nəfər idi[240].

Beləliklə, bu dövrdə Azərbaycanın şəhər əhalisi 2 dəfəyə qədər artmış, 1913-cü ildə 1902-ci ildəki 305 min nəfərdən 556 min nəfərə çatmışdı[241]. 1902-ci ildə Bakı quberniyası əhalisinin 22,5 faizi[242], 1913-cü ildə 27,1 faizi şəhər əhalisi idi[243]. Yelizavetpol quberniyasında şəhər əhalisinin xüsusi çəkisi 1902-ci ildə 9,5 faiz[244], 1910-cu ildə isə 11,4 faiz olmuşdu[245].

Şəhər əhalisinin əsas kütləsini Azərbaycan türkləri təşkil edirdi. Şəhərlərin artımı

böyük mütərəqqi əhəmiyyətə malik idi. Azərbaycan şəhərlərinin xarici görünüşü isə öz milli koloriti ilə fərqlənirdi. Xarakteri ölkənin sosial-iqtisadi inkişafındakı rolu ilə müəyyənləşən bu şəhərlərin özünəməxsus xüsusiyyətləri də var idi: onlar ticarət-sənaye mərkəzlərinə çevrilməklə yanaşı, hələ də bəzi kənd təsərrüfatı sahələrini özlərində qoruyub saxlayırdı. Yalnız Bakı şəhəri bu nöqteyi-nəzərdən istisna idi.

Bu dövrdə Azərbaycan şəhərləri öz təbii zənginliklərinə və Rusiya bazarının tələblərinə uyğun olaraq ixtisaslaşırdı. Belə ki, Bakının sürətlə inkişafı neft sənayesi və ona xidmət göstərən sənaye sahələri ilə bağlı idi. Nuxa və Ordubad ipəkçilik mərkəzləri kimi məşhur idi. Gəncədə pambıq emalı sənaye sahəsi üstünlük təşkil edirdi və s.

Şəhərlərdə böyük əhəmiyyəti olan maliyyə-kredit və bank idarələrinin yaranması isə mal-pul münasibətlərinin inkişafı ilə bağlı idi.

Bakı təkcə Azərbaycan və Cənubi Qafqazın deyil, Rusiya imperiyasının ən iri şəhərlərindən biri idi. O, Azərbaycanda topdansatış ticarətinin ən mühüm mərkəzi kimi Rusiyanın bir çox ticarət-sənaye mərkəzləri ilə əlaqə saxlayırdı. Müharibə ərəfəsində şəhərdə onlarla iri sənaye müəssisəsi var idi.

Azərbaycanın enerji bazasının inkişafı neft sənayesinin inkişafı ilə bağlı idi. Bakı 1913-cü ildə öz elektrik stansiyalarının gücünə görə Rusiyada qabaqcıl yerlərdən birini tuturdu[246].

Azərbaycanın ticarət əlaqələrində Bakı limanı mühüm rol oynayırdı. 1910-cu ildə onun mal dövriyyəsi 350 mln puda bərabər idi, halbuki Peterburq limanında bu rəqəm 304,5 mln pud idi. Bakıdan göndərilən və buraya gətirilən mallar Rusiyanın daxili quberniyaları ilə bağlı idi. 1913-cü ildə Bakı limanının 342,4 mln rublluq mal dövriyyəsinin 300 mln pudunu neft məhsulları təşkil edirdi. Bakı limanı Həştərxan, Krasnovodsk və İran limanları ilə əlaqədə idi.

Bakıdan sonra ikinci ticarət-sənaye mərkəzi Gəncə idi. Gəncədə 1914-cü ildə hər birinin illik istehsal həcmi 180 min rubla çatan 8 pambıq emalı zavodu, 3 spirt və konyak zavodu, 37 çaxır istehsalı müəssisəsi, meyvə şirəsi, biyan kökü emal edən 23 zavod, 5 gön-dəri müəssisəsi, tütün fabriki, kərpic zavodu və s. müəssisələr var idi[247].

Gəncə həm də mühüm ticarət mərkəzi idi. 1914-cü ildə burada 1500 ticarət müəssisəsi var idisə, onlardan 56,2 faizini dükanlar, mağazalar, anbarlar təşkil edirdi. Həmin il Gəncədə ticarət dövriyyəsi 14-16 mln rubla çatırdı. Sonrakı illərdə bu rəqəm 2 dəfəyə qədər artmışdı[248]. Şəhərdə 2129 ticarət-sənaye müəssisəsi fəaliyyət göstərirdi[249]. Doğrudur, onların əksəriyyəti kiçik müəssisələr idi, lakin ticarət və sənaye kapitalının mərkəzləşməsi prosesi gedirdi. Sənətkarlıq Gəncə iqtisadiyyatının ayrılmaz hissəsi idi.

Gəncədən Moskva və Lodza pambıq emalı zavodlarının məhsulu, Rusiyanın mərkəzi şəhərləri və Sibirə təzə meyvə, çaxır ixrac olunurdu. 1904-cü ildə Gəncədən Rusiya fabriklərinə 34 min pud, 1913-cü ildə isə 239,870 min pud mahlıc aparılmışdı[250].

Gəncənin xariclə ticarətində İran mühüm yer tuturdu. İrana əsasən taxıl və

heyvandarlıq məhsulları ixrac olunur, oraya yerli məhsullarla yanaşı, Rusiyadan gətirilmiş mallar da yola salınırdı. Gəncə eyni zamanda böyük dəmir yol şəbəkəsi idi. 1883-cü ilə nisbətən 1913-cü ildə Gəncə stansiyasına gətirilən malların miqdarı 15 dəfə, buradan göndərilən malların miqdarı isə 30 dəfə artmışdı.

Şuşa Qafqazda ən böyük xalça istehsalı mərkəzi idi. Burada istehsal olunan xalçalar öz keyfiyyətinə görə ən yaxşı İran xalçalarından geri qalmır, Moskvaya, Peterburqa və xaricə ixrac olunurdu. Şəhərdə 22 ipək emalı və ipəksarıyan fabrik, 3 spirttəmizləyən və konyak zavodu var idi. Burada xeyli sənətkar fəaliyyət göstərirdi. Şəhərdə ticarət ildən-ilə genişlənirdi. Əsas ticarət malları barama, ipək, gön-dəri, yun, pambıq və çaxır idi. Şuşada 1902-ci ildə 708, 1913-cü ildə isə illik ticarət dövriyyəsi 8,4 mln rubla bərabər olan 800 ticarət-sənaye müəssisəsi var idi[251].

Nuxa ipək istehsalı və emalına görə təkcə Azərbaycanda deyil, bütün Qafqazda əhəmiyyətli rol oynayırdı. İpək sənayesinin yüksək səviyyədə inkişafı, yararlı rabitə yollarının olması şəhərin barama və ipək ticarəti üzrə mühüm bazara çevrilməsinə səbəb olmuşdu. 1914-cü ildə burada 55 ipək emalı və ipəkəyirmə fabriki, ipək, ipək istehsalı qalıqları və barama ticarəti ilə məşğul olan 21 müəssisə, 3 tütün fabriki, 24 gön-dəri emalatxanası[252], manufaktura malları ilə ticarət edən 63 müəssisə və s. var idi. 1910-cu ildə Nuxa kapitalisti Ə.Əhmədov şəhərdə elektrik stansiyası tikdirmişdi[253]. 1913-cü ildə şəhərdə illik dövriyyə vəsaiti 3 mln rubldan çox olan 962 ticarət-sənaye müəssisəsi var idi[254].

XX əsrin əvvəllərində Şamaxı şəhəri kənd təsərrüfatı məhsullarının və kustar istehsalı mallarının mühüm mərkəzi idi. Buraya Şamaxı, Göyçay və Cavad qəzalarından gətirilən müxtəlif mallar Bakıya, Cənubi Qafqazın müxtəlif rayonlarına, həmçinin Həştərxana aparılırdı. Satışa buğda, arpa, düyü, meyvə, gön-dəri, yun, ipək, xalça-palaz, mis əşyalar və s. çıxarılırdı. 1912-ci ildə Şamaxıda illik dövriyyəsi 1,2 mln. rubla bərabər olan 227 ticarət və sənaye müəssisəsi var idi[255].

Lənkəran balıq, taxıl, meşə materialları satışı və ixracı üzrə mühüm ticarət mərkəzi idi. 1913-cü ildə burada 6 balıq sənaye kontoru, unla ticarət edən 3 müəssisə, meşə materialları ilə ticarət edən 3 müəssisə, 3 kənd təsərrüfatı alətləri mağazası, bir pivə zavodu fəaliyyət göstərirdi[256]. Şəhərin ticarət-sənaye müəssisələri sürətlə artırdı. XIX əsrin sonunda onların sayı 225 idisə, 1910-cu ildə 460 olmuşdu. Burada 1912-ci ildə illik ticarət dövriyyəsi 1,2 mln rubla çatan 253 ticarət müəssisəsi var idi.

Quba bağçılıq və xalçaçılıqla məşğul idi. 1914-cü ildə burada meyvə və qax ticarəti ilə məşğul olan 4, xalça-palaz satan 4 müəssisə, bir kənd təsərrüfatı alətləri mağazası, 35 parça mağazası fəaliyyət göstərirdi. Meyvə ticarətindən ildə 450-500 min rubl gəlir götürülürdü. 1910-cu ildə şəhərdəki 329 ticarət müəssisəsinin illik ticarət dövriyyəsi 1 mln rubla bərabər idi[257]. Bu illərdə Quba və Lənkəranda kiçik elektrik stansiyaları tikilmişdi.

Naxçıvan, Ordubad və Zaqatala bağçılıq, üzümçülük, heyvandarlıq və taxılçılıq ilə məşğul olurdu. Bu təsərrüfat sahələri tam əmtəə xarakterli idi. Öz

duzu ilə məşhur olan Naxçıvanda 1903-cü ildə 303,4 min pud duz istehsal edilmişdi. Naxçıvanın spirt istehsalında mühüm çəkisi var idi. 1903-cü ildə burada 5,8 mln qradus spirt çəkilmişdi[258]. Ordubad Azərbaycanın ipək sənayesi mərkəzlərindən biri olaraq qalırdı. Şəhərin sənaye müəssisələrinin məhsuldarlığı və ticarət dövriyyəsi bir milyon rubla çatırdı.

XX əsrin əvvəllərində şəhərin ticarət və sənaye əlaqələrinin inkişafında Azərbaycan iqtisadiyyatı üçün ümumi proseslər öz əksini tapdı: bir tərəfdən, Avropa-Rusiya, Şimali Qafqaz və Cənubi Qafqaz ilə ticarət əlaqələrinin möhkəmlənməsi, digər tərəfdən, daxili Azərbaycan bazarının formalaşması.

Bu dövrün səciyyəvi xüsusiyyətlərindən biri ticarət evləri, firmaları, səhmdar cəmiyyətləri tərəfindən həyata keçirilən topdansatış ticarətinin mühüm yer tutması idi. Şəhərlərin hamısında xeyli xırda tacirlərin olması xırda ticarətin geniş yayıldığını göstərir. Bu, əmtəəlik kənd təsərrüfatı malları istehsal edən qəzalarda daha geniş inkişaf etmişdi. Müxtəlif malların gətirildiyi, Azərbaycan qəzaları tacirlərinin fəal iştirak etdiyi yarmarkalara və bazarlara gətirilən məhsulların çox hissəsi yerli tacirlərə məxsus idi.

Dəmir və şose yolların çəkilməsi, rabitə vasitələrinin təkmilləşdirilməsi şəhərlərin həyatında mühüm rol oynayır, onların sürətli inkişafı ilə yanaşı, ticarətinin güclənməsinə də təkan verirdi.

XX əsrin əvvəllərində meydana çıxan şəhər tipli ticarət-sənaye mərkəzləri sırasına Gədəbəy, Salyan, Ağdam, Bərdə və Göyçayı daxil etmək olar. Hər birində 20 min və daha çox əhali yaşayan bu mərkəzlərdə kiçik, lakin böyük kapital dövriyyəsi olan onlarla ticarət müəssisəsi yerləşirdi. Məsələn, 1912-1914-cü illərdə Salyanda 350 ticarət və sənaye müəssisəsi var idi ki, onların illik dövriyyəsi 1,5 mln rubla çatırdı[259].

XX əsrin əvvəllərində şəhər idarə sistemində elə bir dəyişiklik olmamışdı. Hələ 1892-ci ildə tətbiq edilmiş "Şəhər əsasnaməsi" onun işlərində əhalisinin iştirakını ixtisara salmaqla özünüidarə hüquqlarını daha da məhdudlaşdırmışdı. "Əsasnamə" dumalara və şəhər idarə orqanlarına qubernator nəzarətini xeyli gücləndirmiş, yalnız sərbəst əmlaklarının qiyməti 300 rubldan 2 min rubla qədər olan şirkət və idarələrin, birinci və ikinci dərəcə ticarət-sənaye gildiya sahiblərinin seçki hüququnu saxlamışdı.

Bakı şəhər dumasında sənayeçilər, tacirlər, bina sahibləri və b. üstün mövqe tuturdular. Bakı dumasına seçkilərdə iştirak etmək hüququ olanlardan 2807 nəfərin 50 min manatlıq və daha çox daşınmaz əmlakı var idi. Onlar arasında H.Z.Tağıyev, Şəmsi Əsədullayev, Hacıbaba Aşurov, Əli Abbas Dadaşov və başqaları öz daşınmaz əmlaklarının çoxluğuna görə fərqlənirdilər.

"Şəhər əsasnaməsi"nin 44-cü maddəsində müsəlmanların özünüidarə orqanlarında iştirakı məhdudlaşdırılırdı. İctimaiyyətin dəfələrlə vəsatət qaldırması nəticəsində çarın 14 dekabr 1900-cü il fərmanı ilə dumada müsəlman deputatların sayı 50 faizə çatdırıldı.

Azərbaycanda müsəlmanların hüququnu məhdudlaşdıran hökumət tədbirləri Bakı şəhər özünüidarəsində daha kəskin idi. Məsələn, 1902-1905-ci illərdə Bakı şəhər

dumasına seçilmiş qlasnılardan cəmisi 23-ü - yarıdan da azı azərbaycanlı idi. Yalnız 1905-1907-ci illər inqilabı hadisələri dövründə ictimaiyyətin təzyiqi nəticəsində Qafqaz canişini güzəştə getməli oldu və 1907-1911-ci illərdəki seçkilər zamanı qlasnıların 45 nəfəri (bütün deputatların 57,7 faizi) azərbaycanlı oldu. Onların 33 faizini alimlər, mühəndislər, həkimlər, hüquqşünaslar, jurnalistlər və müəllimlərdən ibarət milli ziyalılar təşkil edirdi.

XX əsrin əvvəllərində Bakı şəhər dumasının ən ilk deputatları H.Məlikov (Zərdabi), İsmayıl bəy və İbrahim bəy Səfərəliyevlər olmuş, Ə.Ağayev, Ə.Əmircanov, M.Əsədullayev, Ə.Əhmədov, A.X.Axundov, Əjdər bəy və İsa bəy Aşurbəyovlar, Ə.Aşurov, F.Vəzirov, M.F.Vəkilov, M.Hacınski, Ə.Topçubaşov və b. Bakı şəhər Dumasının üzvləri seçilmişlər.

Şəhər özünüidarəsinin əsası qoyulduqdan 1911-1915-ci illər seçkisinə qədər H.Z.Tağıyev onun ən nüfuzlu nümayəndələrindən biri idi. Dumanın işində İsrafil Hacıyev fəal iştirak etmişdi. Azərbaycan burjuaziyasının, ziyalılarının digər nümayəndələri də dumanın üzvü olmuşlar. Məşhur yazıçı Nəcəf bəy Vəzirov 10 il müddətində (1903-1913-cü illər) dumanın katibi olmuşdu. Lakin azərbaycanlılar şəhər rəisi vəzifəsinə buraxılmırdılar. Yalnız Kamil bəy Səfərəliyev qısa müddət (1905-1907-ci illər) Bakı şəhər başçısı vəzifəsini icra etmişdir.

Gəncə və Şuşa şəhərlərində də ictimai özünüidarə (duma və idarə) mövcud idi. "Şəhər əsasnaməsi" Gəncədə 1894-cü ildə tətbiq edilmişdi. 1917-ci ilə qədər Gəncə dumasında azərbaycanlı qlasnıların sayı üstünlük təşkil etmişdir. Azərbaycanlı deputatlar içərisində ziyalıların nümayəndələri 30 faiz idi. Gəncənin görkəmli ictimai xadimləri Ə.Adıgözəlov (Gorani), H.Ağayev, A.Ziyadxanov, Əli bəy, Ələkbər bəy və Xudadat bəy Rəfibəyovlar, A.Səfikürdski, Usub bəy və Nəsib bəy Usubbəyovlar, Ələkbər bəy, Ələsgər bəy və Xəlil bəy Xasməmmədovlar, Hüseynqulu xan və Cavanşir xan Xoyskilər, Məmmədbağır Şıxzamanov və başqaları olmuşlar.

Bakıdan fərqli olaraq Gəncə şəhər ictimai özünüidarəsinə əsasən azərbaycanlı ziyalıların nümayəndələri Əsgər Ağa Adıgözəlov (Gorani), Adil xan Ziyadxanov və Xəlil bəy Xasməmmədov başçılıq etmişlər.

1898-ci ildə Şuşada özünüidarə yaradıldı. Əbdürrəhim bəy Haqverdiyev, Haşım bəy Vəzirov, Əbdülkərim bəy Mehmandarov və başqaları onun üzvləri idilər. 1904-1907-ci illərdə Cavad bəy Səfərəlibəyov şəhər başçısı olmuşdu.

"Şəhər əsasnaməsi"nə əsasən quberniya mərkəzlərindəki idarədən fərqli olaraq, öz vəsaiti az olan, ticarəti zəif inkişaf edən şəhərlərdə daha sadə özünüidarə sistemi tətbiq edilirdi[260], yəni 12-15 nəfərdən ibarət şəhər müvəkkilləri yığıncağı yaradılır, şəhərləri isə ya bir və ya iki köməkçi ilə ağsaqqal idarə edirdi. Quba, Şamaxı, Nuxa, Lənkəran, Naxçıvan və Ordubadda da bu idarə sistemi tətbiq edilmişdi və müvəkkillərin əksəriyyəti azərbaycanlı idi.

Şəhər büdcəsinin istifadəsində səriştəsizlik hökm sürürdü. Məbləğin əksəriyyəti polis və qoşun saxlamağa xərclənirdi. 1905-ci ildə Bakı şəhər dumasının bu istiqamətdəki xərci nəzərdə tutulandan 90 min rubl çox olmuşdu[261]. Bunun nəticəsində Bakı şəhər dumasının smetasında kəsir 1916-cı ildə 1900-cü

ildəki 55 min rubldan 1,2 mln rubla çatmışdı[262]. Eyni vəziyyət Gəncədə də mövcud idi. Bu məsələ Bakı və Gəncə dumalarının yığıncaqlarında dəfələrlə qaldırılmış, həmin xərclərin şəhər büdcəsi hesabına deyil, dövlət xəzinəsi hesabına ödənilməsi təklifi irəli sürülmüşdü.

Dumadakı ziyalı deputatların səyi nəticəsində Bakıda şəhər məktəbləri və zəhmətkeşlərə xidmət edən tibb-səhiyyə idarələri şəbəkəsi nisbətən genişləndirilmiş, kütləvi mədəni tədbirlər həyata keçirilmişdi.

Gəncə və Şuşa yerli şəhər özünüidarələri onların sosial-iqtisadi və mədəni inkişafında müəyyən rol oynamışdı.

## § 11. ƏHALİNİN TƏRKİBİNDƏ KƏMİYYƏT VƏ KEYFİYYƏT DƏYİŞİKLİKLƏRİ

Azərbaycanda baş vermiş sosial-iqtisadi dəyişikliklər əhalinin say və silk tərkibinin dəyişməsində də öz əksini tapmışdı. Kapitalizm dövründə Azərbaycan əhalisinin say artımı əsasən sənaye, ticarət və kənd təsərrüfatında kapitalizmin inkişafı ilə bağlı idi. Əgər 1897-ci ildə Azərbaycan əhalisi 18767 min nəfər idisə, 1910-cu ildə 2317 min, 1913-cü ildə isə 2339 min nəfər idi[263]. Əhalinin say artımı təbii amillə yanaşı, Rusiyadan, Ermənistandan, Gürcüstandan, Dağıstandan, Cənubi Azərbaycandan kəsbkarların, köçkünlərin Azərbaycana gəlməsi və həmçinin çarizmin köçürmə siyasəti ilə bağlı idi.

Azərbaycanda yeni sənaye sahələrinin meydana çıxdığı yerlər həm müflisləşmiş əkinçi əhalinin bir hissəsini, həm də Rusiya quberniyaları və Cənubi Azərbaycan kəsbkarlarını cəlb edirdi. Belə ki, Bakıda neft, Gədəbəy və Qalakənddə mədən sənayelərinin inkişafı, Nuxa, Şuşa, Ordubad kimi şəhərlərdə açılan kapitalist müəssisələrinin işçi qüvvəsinə olan tələbatı şəhərlərin böyüməsinə və əhalisinin artmasına səbəb olurdu.

XX əsrin əvvəllərində şəhər əhalisinin sayı 220 min nəfər idisə, 1897-1908-ci illərdə 355,7 min nəfərə, 1909-1917-ci illərdə isə 573,3 min nəfərə çatmışdı[264]. Bundan başqa, şəhərtipli yaşayış məntəqələrində 20 min nəfər yaşayırdı[265]. Şəhər əhalisinin artım sürəti bütün Azərbaycan əhalisinin artım sürətindən yüksək idi. 1896-cı ildə şəhər əhalisi ümumi Azərbaycan əhalisinin 16,9 faizini, 1913-cü ildə isə artıq 23,8 faizini təşkil edirdi[266]. Bu göstəriciyə görə Bakı quberniyası təkcə Peterburq quberniyasından geri qalırdı[267].

Azərbaycanın şəhər əhalisinin çoxalması yerli əhalinin təbii artımına da təsir edirdi. 1916-cı ildə onların xüsusi çəkisi Bakı quberniyasında 89,3 faizi, Yelizavetpol quberniyasında isə 91 faizi təşkil edirdi[268]. Azərbaycanın başqa şəhərlərindən fərqli olaraq,

Bakı şəhərinin yeni əhalisi əsasən gəlmələrin hesabına formalaşırdı. Şəhər əhalisinin illik artımı 1897-1903-cü illərdə hər il orta hesabla 6514 nəfər, 1903-1913-cü illər arası onillikdə isə hər il 7213 nəfər idi.

Bakının beynəlxalq iri miqyaslı ticarət-sənaye mərkəzinə çevrilməsi böyük sürətlə inkişaf edən şəhərlərə xas olan xüsusiyyətlə müşayiət olunurdu, yəni qadınlar əhalinin ümumi artımında daha üstün mövqe tutmalarına baxmayaraq, sayca yenə də kişilərdən az idilər.

Azərbaycanın əhali artımı Rusiyadakı artımdan yüksək idi. 1913-cü ildə Azərbaycanda 57 min uşaq doğulmuşdu[269]. Əgər Rusiyanın Avropa hissəsində doğulanların sayı hər 1000 nəfərə 439 idisə, onlardan 271-i ölür, cəmi 168—i qalırdısa[270], Azərbaycanda doğulanların sayı 442, onlardan ölənlər 255, qalanlar isə 187 idi[271].

Azərbaycanda əhali etnik cəhətdən yekcins deyildi. Lakin milli azlıqların çoxluğuna baxmayaraq, əhalinin böyük əksəriyyəti Azərbaycan türkləri idi. 1897-ci il siyahıyaalmasının məlumatına görə, onların sayı 1400 mindən bir qədər çox idisə[272],1913-cü ildə 15248 min[273], 1917-ci il ərəfəsində isə 17535 nəfər idi[274]. Gəlmələr hesabına ikinci yerdə olan ermənilərin sayı 1913-cü ildə 546,8 min[275], üçüncü yerdə gedən rusların sayı isə 208,5 min nəfər idi[276]. Başqa millətlər və etnik qruplar isə azlığı təşkil edirdi.

Kapitalist sənayesinin və kənd təsərrüfatının inkişafı savadlı adamlara tələbatın artmasına səbəb olurdu. Belə ki, istehsalatda gedən texniki tərəqqi fəhlələr içərisində təhsillilərin artması olmadan mümkün deyildi. Ona görə də islahatdan sonrakı dövrdə əhalinin təhsil səviyyəsində müəyyən artım nəzərə çarpırdı. Ümumiyyətlə isə savadlılıq aşağı dərəcədə idi. Kişi və qadınların savadlılığı arasında böyük fərq var idi. 1897-ci ildə kənd əhalisinin yaşı 9-49 arasında olanların cəmi 4,6 faizi, şəhər əhalisinin isə 31,9 faizi savadlı idi. Ümumiyyətlə, Azərbaycan əhalisinin 9,2 faizi, yəni kişilərin 13,1, qadınların isə 4,2 faizi[277] savadlı idi. Bu rəqəmlərə məktəb və mədrəsə bitirib yazıb və oxumağı bilənlər daxil deyildi. Belə ki, rəsmi statistika onları savadsızlar siyahısına daxil edirdi. Şəhər əhalisi içərisində yüksək savad səviyyəsinə görə Bakı fərqlənirdi. Əgər XX əsrin başlanğıcına yaxın Bakı əhalisinin 32,4 faizi savadlı idisə, 1913-cü ildə artıq bu, 38,3 faizi təşkil edirdi[278]. Bakı savadlı əhalinin nisbətinə görə Peterburq, Moskva və Xarkovdan geri qalırdı[279]. Ümumiyyətlə, XX əsrin əvvəllərində Azərbaycanın müstəmləkə halında qalması da əhalinin savad dərəcəsinin aşağı olmasına əsas səbəb idi.

XX əsrin əvvəllərində sənayenin inkişafına və şəhərlərin böyüməsinə baxmayaraq, Azərbaycan əsasən aqrar ölkə olaraq qalırdı. 1897-1913-cü illərdə Azərbaycanın kənd əhalisi artaraq 1502 mindən 1783 min nəfərə çatmışdı[280]. Buna baxmayaraq, həmin dövrdə Azərbaycan əhalisinin ümumi sayı fonunda kənd əhalisinin nisbi çəkisi 83,1 faizdən 76,2 faizə enmişdi. Bunun başlıca səbəbi müflisləşən kənd əhalisinin bir qisminin şəhərlərə axını idi. Lakin bununla yanaşı, Azərbaycan əhalisinin 3/4-dən çoxu kənd əhalisi idi.

Azərbaycan əhalisinin sosial tərkibində də əsaslı dəyişikliklər baş vermişdi. Belə ki, əhalinin hakim təbəqələrini mülkədarlar və kapitalistlər təşkil edirdi. Onlar sayca

az olsalar da, çox böyük maddi dəyərlərin sahibi idilər. Azərbaycan əhalisinin böyük kütləsini təşkil edən kəndlilər və fəhlələr milli sərvətlərin əsas istehsalçıları olmalarına baxmayaraq, hüquqsuz vəziyyətdə idilər.

XX əsrin əvvəllərində Azərbaycanda kəndlilərin təbəqələşməsi, onların bir qisminin kənd burjuaziyasına, əsas kütlənin isə yoxsul kəndli və muzdura çevrilməsi prosesi xeyli sürətləndi. Müstəqil təsərrüfat sahibləri, qolçomaqlar, ticarət, sələm və kapital nümayəndələri kənd burjuaziyasını təşkil edirdi. Kənd yoxsulları, torpaqsız və aztorpaqlı kəndlilər isə öz əməklərini satmağa məcbur olurdular.

Burjua cəmiyyəti əhalisinin əsas hissəsini təşkil edən təbəqənin - fəhlə təbəqəsinin yaranması Azərbaycan tarixində mühüm hadisə idi. Bu, kapitalist sənayesinin sürətlə inkişafı, istehsalın və fəhlələrin səmərəli təmərküzləşməsi ilə bağlı idi. 1897-ci ildə Azərbaycanda fəhlələrin sayı 150 mindən çox idi[281]. 1917-ci ildə onların sayı 240 minə çatdı (180 min sənaye[282], 60 min kənd təsərrüfatı fəhləsi). Kənd təsərrüfatında çalışan mövsümi fəhlələri də nəzərə alsaq, fəhlələrin ümumi sayı 400-500 min nəfərə çatırdı.

Bakı fəhlələri Azərbaycan fəhlə kütləsinin böyük əksəriyyətini təşkil edirdi. Bakı quberniyasında fəhlələrin xüsusi çəkisi 12 faiz idisə, Bakı şəhərində 29 faizə çatırdı[283]. 1913-cü ildə Bakı fəhlələrinin ümumi sayı 109 minə çatmışdı[284]. Bakı fəhlələri çoxmillətli tərkibə malik idi. Belə ki, 1900-cü ildə Bakı fəhlələrinin 33,8 faizini azərbaycanlılar, 25,3 faizini ermənilər, 19,5 faizini ruslar təşkil edirdi[285]. Bu rəqəmlər 1913-cü ildə müvafiq olaraq 41, 27,8 və 17,2 faiz idi[286].

1900-cü ildə Azərbaycan qəzalarında fəhlələrin 65,7 faizini azərbaycanlılar, 14,4 faizini ermənilər, 5,4 faizini ruslar və 14,5 faizini başqa millətlərin nümayəndələri təşkil edirdi.

Sənayenin başqa sahələrində (mis istehsalı, bitki və heyvan məhsulları emalı, nəqliyyat, balıq sənayesi və s.) azərbaycanlı fəhlələr sayca üstünlük təşkil edirdi. Neft emalında, mexaniki emalatxanalarda, dəmir yol nəqliyyatında və s. rus fəhlələr daha çox idi.

Şəhərlərdə bu və ya digər təsərrüfat sahəsində çalışanlar heç bir istehsal sahəsi ilə bağlı olmayan əhalidən sayca çox idi. Bakı şəhərində 1903-cü ildə birincilərin sayı 106,4 min, ikincilərinki isə 100,2 min nəfər idi. 1913-cü ildə bu rəqəmlər müvafiq olaraq 171 və 162,8 min nəfər təşkil edirdi[287]. Təsərrüfatın bu və ya digər sahəsində çalışan Bakı əhalisinin 72 faizini muzdlu fəhlələr, 10,5 faizini qulluqçular, 10,1 faizini xırda burjuaziya nümayəndələri, sənətkarlar, kiçik tacirlər, nəqliyyatda çalışanlar və b., 6,5 faizini isə böyük maddi nemətlərə malik olan burjuaziya təşkil edirdi[288].

Azərbaycanda Bakı ilə yanaşı, digər şəhər və qəzalarda da ticarət-sənaye burjuaziyasının mövqeləri möhkəmlənirdi. Azərbaycan iqtisadiyyatının özünəməxsus inkişaf şəraiti ilə əlaqədar olaraq, qəzalarda da burjuaziyanın tərkibi çoxmillətli idi. Burjuaziyanın tərkibində əsas yeri azərbaycanlılar, rus və erməni kapitalı nümayəndələri tuturdu.

Azərbaycan burjuaziyası içərisində ticarət burjuaziyası çoxsaylı idi. XX əsrin əvvəllərində Bakı və Yelizavetpol quberniyalarında 22 mindən çox tacir var idi. Bakı quberniyasında 15,2 min, Yelizavetpol quberniyasında 7,1 min. Onların 16 mini (72,7

faizi) şəhərlərdə, 61 mini isə (27,3 faizi) qəzalarda fəaliyyət göstərirdi.

Bakı tacirlərinin tərkibi daha müxtəlif idi. 1903-cü ildə burada olan 14,7 min tacirdən 7 mini azərbaycanlı, 3,5 mini erməni, 2,41 mini rus, 1,8 mini isə başqa millətlərin nümayəndəsi idi. Digər tərəfdən, bütün ticarət müəssisələrinin 52 faizi azərbaycanlı, 27,2 faizi erməni, 9,4 faizi rus tacirlərinə məxsus idi.

Azərbaycan milli burjuaziyasının ən nüfuzlu nümayəndələri H.Z. Tağıyev, M. Nağıyev, Ş. Əsədullayev, A. Quliyev və başqaları idilər. Onların kapitalları 10 mln. rubl idi. 1914-cü ildə Bakıda H.Z. Tağıyevin başçılığı altında M. Nağıyevin səhmdar tacir bankı yarandı. Onun əsas kapitalı 3 mln. rubl idi[290].

Azərbaycan burjuaziyası nümayəndələri arasında gəmi sahibləri Ş. Əsədullayev, Dadaşov, Useynov, ipək müəssisələri sahibləri Mehdi Hacı Abdul oğlu, Hacı Süleyman Hüseyn oğlu, un və düyü dəyirmanları sahibləri Ağabala Quliyev, M. İbrahimov, M. S. Kərimov, tütün fabriki sahibi Şirinbəyov, mexaniki istehsal sahibləri M. Muxtarov, S. Abdullayev və başqaları fərqlənirdilər.

Əgər əvvəllər ticarət kapitalı sahibləri öz sərmayələrini əsasən ticarət-sələm əməliyyatlarına yönəldirdilərsə, artıq XX əsrin əvvəllərindən etibarən ticarət və sələmçiliklə yanaşı, sənayeyə, nəqliyyata, tikinti işlərinə də kapital qoyur, bununla da sənaye burjuaziyasının təmsilçiləri olurdular. Çarizmin müstəmləkə siyasəti nəticəsində məhdudiyyətlərə məruz qalmasına, digər qrup sərmayə sahiblərinin ciddi rəqabətinə baxmayaraq, Azərbaycan burjuaziyasının ipək, pambıq emalı, unüyütmə və düyü-çəltik təmizləmədə, balıq sənayesi və ticarətdə mövqeləri güclü idi. Pambıq-parça istehsalı Azərbaycan kapitalına məxsus idi. Onun xüsusi çəkisi Xəzər ticarət donanmasında da yüksək idi. Məsələn, 1904-cü ildə gəmi sahiblərinin əldə etdikləri gəlirin 75 faizi yerli-milli burjuaziya nümayəndələrinə məxsus idi[291]. Onlar bank-kredit, sənaye, ticarət və s. sahibkarları olaraq Rusiyadakı iri burjuaziyanın tərkib hissəsi idilər.

II FƏSİL

# AZƏRBAYCANIN İCTİMAİ-SİYASİ HƏYATI (1900-1914-cü illər)

## § 1. İNZİBATİ İDARƏÇİLİKDƏ DƏYİŞİKLİKLƏR

XX əsrin əvvəlləri inzibati-polis aparatının yenidən qurulması və onun nəzarət-cəzalandırma funksiyalarının genişləndirilməsi çarizmin ordu, jandarm, polis, məhkəmə və ümumiyyətlə, bütün dövlət aparatını Rusiyada, o cümlədən də Azərbaycanda gündən-günə artan azadlıq hərəkatını boğmağa yönəltməsi ilə səciyyələnirdi. Hələ 1881-ci ildə qəbul olunmuş və "müvəqqəti əsasnamə" adlanan, əslində isə "Rusiya imperiyasının ən sabit, əsas qanunlarından biri" sayılan gücləndirilmiş mühafizə haqqında əsasnamə 1902-1903-cü illərdə Azərbaycanın bir çox şəhər və qəzalarına şamil edildi.

Onun Bakı şəhəri və qəzasında 1902-ci ilin yanvarından, Gəncə, Şuşa, Nuxada 1903-cü ilin sentyabrından tətbiq edilməsi o demək idi ki, Bakı və Yelizavetpol quberniyaları "ictimai qaydalara və asayişə zidd olan yığıncaq və toplantıların iştirakçılarını, gücləndirilmiş mühafizə haqqında əsasnaməni "pozan" digər şəxsləri 500 rubladək cərimələyə və ya 3 aylıq müddətədək həbs etdirə bilərdilər".

1905-ci il fevralın 26-da Qafqazda canişinlik bərpa olundu. Canişin təyin edilmiş qraf Vorontsov-Daşkovun adına verilmiş çar reskriptində qeyd olunduğu kimi, onun ən birinci vəzifəsi "Qafqazda təxirə salınmadan dinclik yaratmaq" idi.

Canişin bu məqsədin həyata keçirilməsinə təkcə repressiyalar yolu ilə deyil, həm də müxtəlif qüvvələri zəiflədən və parçalayan manevrlər yolu ilə can atırdı. Vorontsov-Daşkov geniş təbliğ edilən ikiüzlü vədlər siyasəti yürüdür, məhkəmə və zemstvo islahatları keçirəcəyinə, torpaq, silki məsələləri həll edəcəyinə və s. söz verirdi.

Liberal burjuaziya canişinə inanaraq, onu canfəşanlıqla tərifləyir, "bütün Qafqazı xoşbəxt edəcək böyük islahatçı" adlandırırdı. Lakin vəd olunmuş islahatlardan heç biri həyata keçirilmədi.

Zadəganlar təbəqəsi canişinliyə müvəqqəti bir təsisat kimi baxır, mərkəzi hərbi-bürokratik aparatın Qafqaz işlərinə bilavasitə qarışmasını canişinliyin hər hansı şəkildə məhdudlaşdırılmasını istəmirdi. Ona görə də mütləqiyyət Rusiyadakı dekabr silahlı üsyanını məğlubiyyətə uğradan kimi canişinliyin ləğv edilməsi məsələsi qaldırıldı. Lakin Nazirlər Şurası bu orqanı saxlamaq qərarına gələrək göstərdi ki, onun fəaliyyəti "ümumdövlət siyasəti" ilə ən sıx şəkildə əlaqədar olmalı və mərkəzi hökumət tərəfindən istiqamətləndirilməlidir.

Çar hökuməti inqilabi çıxışlara və milli-azadlıq hərəkatına qarşı repressiyaları kifayət hesab etməyərək, fövqəladə səlahiyyət verilmiş müvəqqəti general-qubernator təsisatı yaratdı və bir çox quberniyalarda hərbi vəziyyət elan etməyə başladı. Artıq 1905-

ci ilin fevralında Bakı şəhəri və quberniyasında, 1905-ci ilin sentyabrında isə Yelizavetpol quberniyasında hərbi vəziyyət rejimi tətbiq edildi. Yelizavetpol quberniyası ərazisində iki müvəqqəti general-qubernatorluq yaradıldı. Bunlardan biri Zəngəzur, Cavanşir, Cəbrayıl və Şuşa qəzalarını, o biri isə digər qəzaları əhatə edirdi.

Azərbaycanda, eləcə də Rusiyanın bir sıra digər rayonlarında hərbi vəziyyət elan edilməsi hətta çar qanunvericiliyinə belə zidd idi. Bu qanuna əsasən, ancaq müharibə dövründə, özü də ancaq hərbi əməliyyatlar gedən yerlərdə hərbi vəziyyət rejimi tətbiq etmək olardı. Hərbi vəziyyət mütləqiyyətə fövqəladə orqanlar yaratmaq, qol-budaqlı hərbi bürokratik və hərbi-məhkəmə orqanlarından inqilabi hadisələrin iştirakçılarına divan tutmaq üçün istifadə etmək imkanı verirdi. Hərbi vəziyyət rejimindən irəli gələn tədbirləri həyata keçirməli olan müvəqqəti general-qubernatorluq isə çox geniş səlahiyyətə malik idi. O, yığıncaqları qadağan edə, sənaye və ticarət müəssisələrini bağlaya, "etibarsız" şəxsləri quberniya hüdudlarından kənara sürgün edə və ya onlar üzərində polis nəzarəti qoya, kütləvi axtarışlar keçirə bilərdi. Quberniyada yerləşən qoşunlara ümumi komandanlığı da həyata keçirən müvəqqəti general-qubernatorluq eyni zamanda cinayət işlərinin ümumi qanunlarla nəzərdə tutulmuş baxılma instansiyasını dəyişib, onları hərbi məhkəmənin məhkəməsinə vermək, hərbi dövrün cəzalarını tətbiq etmək, onun fikrincə, "düşüncələrin qızışdırılmasına və asayişin pozulmasına" səbəb ola biləcək bütün işlərin bağlı qapı arxasında mühakimə olunmasını tələb etmək hüququna malik idi.

Müvəqqəti general-qubernatorluq institutunun tətbiqi ilə yanaşı, qubernator başda olmaqla, əvvəlki quberniya aparatı da fəaliyyət göstərirdi. O, "qayda-qanun və dinclik yaratmaq" işində müvəqqəti gcneral-qubernatorluğa tabe idi. Qalan hər şeydə isə quberniya və qəza idarələri ancaq qubernatora tabe idi. Müvəqqəti general-qubernatorluq yerli inzibati idarələrin vəzifəli şəxslərini nəinki işdən uzaqlaşdıra, hətta cəzalandıra da bilməzdi. Qubernator belə tədbirlərin görülməsi təklifləri ilə müvəqqəti general-qubernatorluğa müraciət etməli və aldığı cavabdan razı qalmasaydı, bu zaman canişinə təqdimat verməli idi. Müvəqqəti general-qubernatorluq və qubernator arasında bütün bu və ya digər ixtilafları canişin həll edirdi.

Bakı şəhəri və quberniyasının general-qubernatoru, öz amansızlığı ilə məşhur olan knyaz Amilaxvarinin ilk addımlarından biri repressiyaların gücləndirilməsi və mütləqiyyətə qarşı silahlı çıxışlarla bağlı baxılan işlərin hərbi məhkəmələrə verilməsi haqqında 1905-ci il 25 fevral tarixli əmri oldu.

Cəmiyyətlər və ittifaqlar haqqında müvəqqəti qaydalar adlandırılan sənəd müvəqqəti general-qubernatorluğun inzibati özbaşınalığı üçün geniş meydan açırdı. Bu qaydalar hakimiyyət orqanlarına "ictimai təhlükəsizliyə və ya asayişə" təhlükə yaratması bəhanəsi ilə cəmiyyət və ittifaqları bağlamaq hüququ verir, həmkarlar ittifaqlarının öz üzvlərinin ancaq iqtisadi mənafeyini qorumaqla məhdudlaşdırır, hökumət idarələri işçilərinin həmkarlar ittifaqlarına girməsini qadağan edir və bu "Qaydaların" pozulması halının bir il müddətinədək həbslə nəticələnə biləcəyini

nəzərdə tuturdu.

1905-ci il sentyabrın 22-də Peterburqda keçirilən müşavirədə Bakı qarnizonu və polisinin gücləndirilməsi məsələsini qaldıran neft sənaycçiləri qradonaçalnikliyin yaradılması tələbini irəli sürərək, onun saxlanması xərclərinin xeyli hissəsini öz üzərlərinə götürməyə hazır olduqlarını nümayiş etdirirdilər. Bakı şəhəri və qəzasında inqilabi hərəkatla mübarizəni gücləndirmək üçün canişinin 1905-ci il 2 dekabr tarixli sərəncamı ilə bu bölgələr "ictimai asayiş və təhlükəsizliyin mühafizəsi" baxımından Bakı quberniya idarəsinin ixtiyarından alındı və müvəqqəti general-qubernatorluğun birbaşa idarəsinə verildi. Elə oradaca Vorontsov-Daşkov tərəfindən təqdim edilmiş Bakı şəhəri və qəzasının idarəsi qaydalarında nəzərdə tutulurdu ki, Bakı şəhəri qəzasına münasibətdə quberniya idarələrinin funksiyaları ancaq inzibati idarəçilik üzrə cari yazışma ilə (özü də göstərilən yerlərdə ictimai asayiş və qayda-qanunların mühafizəsinə aid olan bütün tədbirlər istisna edilməklə) məhdudlaşmalıdır. Quberniya idarəsi müvəqqəti general-qubernatorluğun icazəsi olmadan Bakı şəhərində pristavları belə dəyişdirə bilməzdi.

1906-cı il 28 oktyabr tarixli fərmanla Bakı şəhəri, ona bitişik neft-mədən və fabrik-zavod rayonlarının idarəsi üçün Bakı qradonaçalnikliyi yaradıldı. Bu addım, şübhəsiz ki, həmin ilin yayında Bakıda qalxan fəhlə tətil və nümayişlərinin yeni dalğası, fəhlələrin öz əksini avqustun sonu-sentyabrın əvvəllərində Bakıda keçən siyasi tətillərdə tapan ictimai fəallığının yeni yüksəlişi ilə əlaqədar idi.

Bakı qradonaçalnikliyinə canişinin təqdimatı ilə imperator tərəfindən təyin edilən və qubernator səlahiyyətləri olan qradonaçalnik başçılıq edirdi.

Qradonaçalniklik, qradonaçalnikliyin idarəsi Bakı və Balaxanı-Sabunçu polismeysterliklərindən ibarət idi. Qradonaçalnikin yanında inzibati və neft işləri üzrə idarələr fəaliyyət göstərirdi. Bu idarələrdən birincisi qradonaçalnikin sədrliyi altında onun köməkçisindən, Bakı və Balaxanı-Sabunçu polismeysterlərindən və qradonaçalnikliyin dəftərxana müdirindən ibarət idi. O, kəndlər və kənd cəmiyyətlərinin idarəsi, polisin fəaliyyəti və s. ilə bağlı məsələlərə baxırdı.

Neft işləri üzrə idarəetmənin tərkibinə yuxarıda sadalanan şəxslərlə yanaşı, bir sıra hökumət məmurları (II Qafqaz dağ dairəsinin dairə mühəndisi, baş fabrik müfəttişi, Bakı birja komitəsinin sədri və b.), şəhər duması və neft sənayeçiləri qurultayı şurasının nümayəndələri daxil idilər.

Neft işləri üzrə idarə ildə 600 min rubl ayırmaqla bu orqanın saxlanılmasında iştirak edən neft sənaye burjuaziyasının təkidi ilə yaradılmışdı. Bu idarə Bakı neft sənayeçilərinin mənafeyini ifadə edərək tətillərin dağıdılması, şəhərin, mədən və zavodların mühafizəsi və buralarda "asayişin qorunub saxlanması"na aid tədbirlər işləyib hazırlayır, qradonaçalniklik idarəsinin və polismeysterlərin ştatlarını nəzərdən keçirirdi. İdarənin qərarları ancaq qradonaçalnikin razılığından sonra qüvvəyə minirdi.

Qradonaçalniklik çar hökumət orqanları tərəfindən komplektləşdirilməsinə böyük əhəmiyyət verilən çoxsaylı məmur aparatı idi. Burada vəzifələrin əksəriyyətini tutmaq üçün Tiflisdəki hökumət idarələrindən qulluqçular

göndərilmiş, bəzi rəhbər vəzifələrə isə Peterburqdan məmurlar təyin edilmişdi. Canişinin xüsusi sərəncamına müvafiq olaraq, azərbaycanlılar qradonaçalnikliyin aparatına buraxılmırdı. Bu, mütləqiyyətin bu orqanının da müstəmləkəçilik vasitəsi olduğuna dəlalət edən əlamətlərdən biri idi.

1906-cı ilin dekabrında Bakı şəhəri quberniyasında hərbi vəziyyət fövqəladə mühafizə vəziyyəti ilə əvəz olundu, müvəqqəti general-qubernatorluq isə ləğv edildi.

Mütləqiyyət azadlıq hərəkatı ilə mübarizədə jandarma xüsusi yer verirdi. O, milli və inqilabi təşkilatlar, tətil komitələrinin üzvləri haqqında məlumat toplayır, fəaliyyəti şübhəli görünən şəxslərin "siyasi etibarlılığını öyrənməklə" məşğul olur, tətilçi fəhlələri həbs və sürgün edirdi.

Cənubi Qafqazda quberniya jandarm idarələri ilə yanaşı, axtarış müəssisələri adlanan orqanlar da (1902-ci ildə Tiflisdə mühafizə şöbəsi, 1904-cü ilin dekabrında Bakıda mühafizə məntəqəsi-qayda-qanun və ictimai asayişin mühafizəsi üzrə məntəqə) yaradılmış, onların ştatları 1905-1907-ci illərin inqilabi hadisələri dövründə xeyli genişləndirilmişdi.

Qubernatorlara torpaq sahiblərinin vəsatətləri üzrə və onların hesabına kənd yerlərində polis vəzifələri təsis etmək və keşikçi komandaları yaratmaq hüququ verilməsi barədə 1905-ci il 8 dekabr tarixli əmr Cənubi Qafqaz ərazisinə də şamil edilmişdi.

Çar hökuməti milli-azadlıq və inqilab hərəkatı ilə mübarizədə məhkəmə orqanlarına, xüsusən də hərbi ədliyyəyə mühüm yer verirdi. 1905-ci ilin martında Bakıda müvəqqəti hərbi məhkəmə yaradılması barəsində sərəncam verildi, bu, Cənubi Qafqazda ilk hərbi məhkəmələrdən biri oldu.

Hərbi məhkəmələrdə siyasi cinayətlərə baxılması özünün başgicəlləndirici sürətinə görə "ədliyyənin tələsik atəşi" ləqəbini almışdı.

Hərbi məhkəmələrin gücləndirilmiş və ya fövqəladə mühafizə qaydaları üzrə qaldırılmış işlərə aid hökmləri hərbi qubernator tərəfindən, ona tabe olmayan yerlərdə isə qoşun komandanı tərəfindən təsdiq olunmalı idi. General-qubernatorlar və ya qoşun komandanları edam cəzaları haqqında hökmləri təsdiq etmək hüququna malik olsalar da, onları digər cəza ilə müstəqil olaraq əvəz edə bilməzdilər. Bunun üçün imperatorun xüsusi əmri tələb olunurdu.

Baş hərbi məhkəməyə hərbi-dairə məhkəmələrinin hökmlərindən şikayət etmək olardı. Lakin general-qubernator və ya qoşun komandanı hərbi mənafe və ya ictimai intizamın mühafizəsi məqsədilə hökmün dərhal icrasını zəruri sayırdısa, kassasiya şikayətini rədd edə bilərdi.

Çar hökuməti 1906-cı ilin yaz və yayında kəndli, əsgər və matrosların siyasi tətil və inqilabi çıxışlarının yeni yüksəlişi ilə əlaqədar olaraq, narazılığın yeni dalğasını qabaqlamaq məqsədilə məhkəmənin daha sərt cəza tədbirlərini həyata keçirməsinə qərar verdi. Bu məhkəmələr yaddaşlarda hökumətin mütləqiyyət hakimiyyətini qoruyub saxlamaq uğrunda apardığı vəhşi mübarizəsinin ən qatı təzahürü kimi iz qoydu.

Hərbi-səhra məhkəməsi müstəsna surətdə ancaq nizami ordu zabitlərindən, yəni hüquqi bilikləri və mühakimə etmək səriştələri olmayan şəxslərdən təşkil edilirdi.

Burada işlərə prokuror və müdafiəçinin iştirakı olmadan baxılır, çıxarılan yeganə qərar, demək olar ki, ölüm hökmü olur, onun icrası təsdiqi tələb edilmədən ən geci 24 saat müddətində həyata keçirilirdi. Bu isə əfv olmanı qeyri-mümkün edirdi.

Yalnız fəhlələrin, əsgər və matrosların çar əleyhinə çıxışlarının güclü təzyiqi hərbi-səhra məhkəmələrini nisbətən yumşaq cəza tədbirləri tətbiq etmək məcburiyyəti qarşısında qoyurdu.

Əgər hərbi ədliyyə özünün bütün imkanları ilə ancaq hərbi qulluqçuların siyasi cinayətləri və fəhlə-kəndli çıxışlarının rəhbərləri ilə mübarizə aparmağa qadir idisə, inqilab iştirakçılarının kütləvi cəzalandırılmasının başlıca vasitəsi məhkəmədənkənar inzibati özbaşınalıq idi. Çar hökuməti məhkəməsiz divan tutmaq üçün yerli hakimiyyət orqanlarına verdiyi səlahiyyətləri genişləndirmişdi. Polis departamentinin 1905-ci il 30 noyabr tarixli əmri onları qubernatorlara məhkəmə orqanları tərəfindən həbs olunmamış bütün qızışdırıcıları, təşəbbüskarları və inqilabın təşviqatçılarını həbs etmək, nəzarət altında onları sürgün etmək barəsində təqdimatla müraciət etmək hüququ verməklə daha da artırdı.

İnqilabi və milli-azadlıq hərəkatının yüksəlişi dövründə Azərbaycan cəmiyyətənin yüksək dairələrinin nümayəndələri çar hökumətindən bəzi siyasi güzəştlər almağa, o cümlədən özünüidarə orqanlarında milli burjuaziyanın iştirakına qoyulan məhdudiyyətləri ləğv etməyə ciddi səy göstərdi. Məsələn, azərbaycanlı qlasnıların təkidi ilə 1906-cı ilin yanvarında Bakı şəhər duması Cənubi Qafqaz şəhər özünüidarə orqanlarında müsəlmanların hüquqlarını xristianların hüquqları ilə bərabərləşdirmək barəsində vəsatət qaldırdı. 1907-ci ilin martında Bakı duması təkrarən belə bir addım atdı. Lakin dumanın bu vəsatətləri çar hökumət orqanları tərəfindən rədd edildi. Azərbaycanlı qlasnıların seçilməsi üzrə məhdudiyyətlər ancaq sadələşdirilmiş ictimai idarələrin bəzi orqanlarında ləğv edildi. Məsələn, 1906-cı ildə Lənkəran şəhər sadələşdirilmiş ictimai idarəsinə müvəkkillər seçilməsində qeyri-xristian müvəkkillərin sayını məhdudlaşdırmağa icazə verildi.

## § 2. SİYASİ TƏŞKİLATLAR VƏ PARTİYALARIN YARANMASI

XX əsrin əvvəlində baş verən iqtisadi böhran həm Rusiyanı, həm də onun müstəmləkələrini əhatə etdi. Bütün imperiyanı sarsıdan tətillər dalğası sənaye potensialı gündən-günə artan Azərbaycanı da bürüdü. Daha tez-tez baş verən fəhlə və kəndli çıxışları, müstəmləkəçi siyasətini yeridən hakimiyyət orqanlarının özbaşınalıqları bütövlükdə cəmiyyətin bütün təbəqələrində narazılığın artmasına və onun siyasiləşməsinə səbəb olmaya bilməzdi.

XX əsrin əvvəllərində Azərbaycanda formalaşmağa başlayan ilk siyasi təşkilatlar, bütün Rusiyada olduğu kimi, əsasən sosialist yönlü idi.

Rusiyadan gəlmiş bir neçə nəfər inqilabçı 1900-cü ildə Bakıda sosial-demokrat təşkilatının əsasına çevriləcək rəhbər mərkəz yaratmağa nail oldular. Rəhbər qrupa A.S.Yenukidze, V.Z.Ketsxoveli və A.Q.Eyzenbet daxil idilər[1].

1901-ci ildə RSDFP Bakı Komitəsi yaradıldı və RSDFP Bakı təşkilatının formalaşması başlandı. Yuxarıda adları çəkilən şəxslərdən əlavə, 1902-1903-cü illərdə BK-nın tərkibinə N.V.Vişnevski, Y.V.Qolikova, M.V.Kobetski, L.M.Knunyants, İ.F.Sturua, V.A.Şalqunov və b. daxil oldular.

1902-ci il sentyabrın sonlarında RSDFP Bakı təşkilatında yenidənqurma həyata keçirildi. Bütün şəhər təşkilatı 5 rayona (Balaxanı, Bibiheybət, Qara şəhər, Ağ şəhər və şəhər rayonlarına) bölündü. Fəhlə kütləri ilə daha sıx təmasda olmaq və onlara təsir göstərmək üçün rayon komitələri yaradıldı. Bu komitələrdən hər biri öz işini BK-nın bir üzvünün bilavasitə müşahidəsi altında aparırdı. Rayonlarda təbliğat və təşviqat işinin nizama salınması, konspirativ hissə yaradılması, mənzillərin əldə edilməsi, kütləvi toplantılar üçün yerlərin seçilməsi, ədəbiyyatın yayılması, partiya qiraətxanalarının təşkili və s. rayon komitələrinin funksiyalarına daxil idi[3].

1901-ci ildə Bakıda iskraçı qrup da təşəkkül tapdı. Buraya "İskra" qəzetinin agentləri L.Y.Qalperin, A.S.Yenukidze, V.Z.Ketsxoveli, L.Y.Krasin və b. daxil idilər[4]. Bunlardan bəziləri eyni zamanda RSDFP BK-nın da üzvləri idi. Qrup müntəzəm olaraq "İskra"nın redaksiyası ilə yazışır, onun üçün pul vəsaiti toplayır, qəzetin yayılmasına kömək göstərirdi. 1901-ci ilin yazında qrup xaricdən (İrana keçməklə) "İskra"nın gətirilməsini qaydaya saldı. "İskra" və digər qeyri-leqal ədəbiyyat Berlindən Vyana vasitəsilə Təbrizə gətirilir, oradan da atlarla Bakıya daşınırdı. Görünür ki, buna görə Bakı qrupu o zaman gizli "Loşad" (at) adını daşıyırdı[5].

1901-ci ilin yayında RSDFP-nin Bakıdakı qrupunun üzvləri Tiflis sosial-demokratlarının köməyi ilə gizli adı "Nina" olan qeyri-leqal mətbəə təşkil etdikdən sonra (əvvəlcə indiki Əzizbəyov və Füzuli küçələrinin tinində, sonra isə "İskra" küçəsində 102 saylı evdə yerləşirdi) "İskra"nın nəşri və yayılma miqyası daha da genişləndi.

Burada 1901-ci ilin iyulundan 1902-ci ilin martınadək keçən 7-81 ayda 40-dan çox adda müxtəlif nəşrlər - qəzet, kitabça və vərəqə çap olunmuşdu.

Lakin gizli işin dəqiq təşkilinə baxmayaraq, RSDFP Bakı təşkilatı kütləvi fəhlə təşkilatına çevrilmədi.

Təşkilatın iyerarxiyaçı strukturu komitələri kütlələrdən ayırır, fəhlələrin təşkilatda bilavasitə iştirakını çətinləşdirirdi. Bu cəhət RSDFP qurultaylarında da onun opponentləri tərəfindən qeyd olunurdu.

RSDFP-nin II qurultayından sonra 1903-cü ildə Bakı təşkiları da bolşeviklərə və menşeviklərə parçalandı. Bakı Komitəsinin rəhbərliyində əvvəlcə bolşeviklər çoxluq təşkil edirdi. 1904-cü ilin yanvarında isə BK-nın rəhbərliyi menşeviklərin əlinə keçdi. Onlar o zaman gedən rus-yapon müharibəsinə qarşı çıxır, bolşeviklərdən fərqli olaraq, onun başa çatdırılmasını mövcud quruluşa qarşı inqilabi mübarizə ilə bağlamırdılar. Buna görə də menşevikçi Bakı Komitəsi Qafqaz İttifaq Komitəsinin müşavirəsinə öz nümayəndələrini göndərməkdən imtina etdi, aprelin 23-də isə Leninin III partiya qurultayını çağırmaq barəsində təklifinin əleyhinə yönəlmiş qərar qəbul etdi. Bir may nümayişləri və tətilləri də BK tərəfindən faktiki olaraq qadağan olundu[6].

RSDFP-nin bolşevikçi Qafqaz İttifaq Komitəsi belə vəziyyətlə barışa bilməyərək, iyunun 4-də Bakı Komitəsinin buraxılması haqqında qərar qəbul etdi. Qafqaz İttifaq Komitəsinin göndərdiyi böyük bolşevik qrupu BK-nın yeni tərkibini təşkil etdi. A.M.Stopami BK-nın katibi oldu. Bolşeviklər I906-cı ilədək Bakı Komitəsinə rəhbərlik etdilər.

Bakı bolşevikləri öz fəaliyyətlərinin ilkin dövründə yerli millətdən olan fəhlələr arasında siyasi işə xüsusi əhəmiyyət vermir, Leninin bəyan etdiyi prinsiplərə uyğun olaraq, RSDFP-nin müstəqil milli təşkilatının yaradılması barəsində düşünmürdülər. Lakin digər millətlərdən olan fəhlələrlə müqayisədə azərbaycanlı fəhlələrin həddən çox alçaldıcı vəziyyəti onları gündən-günə artan etiraz çıxışlarına şövq edirdi. Bu da özünü 1903 və 1904-cü illərin, müvafiq olaraq, iyul və dekabr tətillərində azərbaycanlı fəhlələrin fəal iştirakında göstərdi. Neft hasilatı sənayesində xüsusən geniş təmsil olunmuş azərbaycanlı fəhlələr özü ilə hesablaşmağı tələb edən real qüvvəyə çevrildilər.

XX əsrin əvvəllərindən etibarən azərbaycanlı ziyalılar içərisində yerli fəhlələrin acınacaqlı vəziyyətinə dərindən acıyan və özlərini büsbütün zəhmətkeşlər içərisində inqilabi iş aparmağa həsr edən adamlar meydana çıxmağa başlamışdı. Onlardan bəziləri - S.M.Əfəndiyev, A.Axundov, M.Q.Mövsümov, M.Ə.Əzizbəyov RSDFP-nin üzvü idilər. Lakin çoxları marksizmin bəzi müddəalarına rəğbət bəsləsələr də, bu partiyanın sıralarına keçmirdilər. Onlardan M.Ə.Rəsulzadə, M.A.Mirqasımov, M.Hacıyev, A.Kazımzadə, M.Hacınski və başqalarının[7] birgə səyi nəticəsində 1904-cü ilin oktyabrından Bakıda müsəlman aləmində ilk sosial-demokrat "Hümmət" təşkilatı fəaliyyətə başladı[8]. 1905-ci ilin fevralına kimi Azərbaycan dilində "Hümmət"qəzeti nəşr edilmişdir. Həmin ildən N.Nərimanov "Hümmət"ə daxil olmuşdur. Bu təşkilatın 1903-cü ildə M. Ə. Rəsulzadə tərəfindən yaradılması barədə də fikirlər var. Hər halda jandarm idarəsinin 1910-cu ilə aid məlumatında

M.Ə.Rəsulzadə "Hümmət"in başçısı adlandırılır.

Mütləqiyyətin yeritdiyi böyük dövlətçilik siyasəti, zorla ruslaşdırma və azlıqda qalmış millətlərin hüquqlarının hər cür pozulması milli məsələni cəmiyyətin siyasi həyatının ən başlıca məsələlərindən birinə çevirmişdi. Belə bir şəraitdə bolşeviklərin partiya proqramının milli məsələ üzrə bölmələri inqilabi əhvali-ruhiyyədə olan yerli Azərbaycan ziyalıları və fəhlələrinin bir hissəsi üçün çox cəlbedici idi. Bu, qismən də, proqramın millətlərin öz müqəddəratını təyin etmək və muxtar inzibati qurum (vilayət) yaratmaq hüquqlarını nəzərdə tutan 9-cu paraqrafı ilə bağlı idi. Bu müddəaların cazibəsi öz xalqını, ilk növbədə, milli əsarətdən xilas etmək ümidi ilə yaşayan mütərəqqi ziyalıların müəyyən hissəsini sosial-demokratiyaya çəkirdi. Radikal əhvali-ruhiyyəli Azərbaycan ziyalılarının sosial-demokratiya hərəkatında iştirakını M.Ə.Rəsulzadə daha dəqiq səciyyələndirmişdir: "Bu gənc nəsil birinci rus inqilabı dövründə rus cəmiyyətinin müxalifətçi qanadına rəğbət bəsləyirdi. Onlar müxalifətçi sosializmdə çarizmə qarşı mübarizədə, ən sadiq olmasa da, ən əlverişli müttəfiqi görürdülər".

"Hümmət"in 1917-ci ilə qədərki fəaliyyətini iki aspektdə -bir tərəfdən, bir çox siyasi məsələlərdə (tətil və nümayişlərdə iştirak etmək, beynəlmiləlçiliyin təbliği, dövlət dumasına seçkilər və s.) RSDFP BK ilə birgə fəaliyyətə, digər tərəfdən isə "Hümmət"in görkəmli xadimlərinin yerli mətbuat səhifələrində müsəlmanların milli ləyaqət və hüquqlarının tapdalanması barədə məqalə və çıxışlara görə nəzərdən keçirmək olar.

"Hümmət"in RSDFP BK ilə birlikdə keçirdiyi ilk siyasi tədbirlərdən biri Rusiyada fəhlələr və sahibkarlar arasında ilk kollektiv (müştərək) müqavilənin bağlanması ilə başa çatmış dekabr (1904-cü il) ümumi tətili idi. Tətilin elə ilk günündə - dekabrın 13-də "Hümmət"in buraxdığı vərəqədə asan anlaşılan şəkildə sosialistlərin kim olduqları və nə uğrunda mübarizə apardıqları azərbaycanlı fəhlələrə belə izah olunurdu: "...qiyamçılar adlandırılan bu şəxslər özlərini xalqa qurban verən əziz adamlardılar. Onların tələbləri... çarın qəzəbi ilə qarşılanıb... Xalq işi üçün özünü qurban verənlər "sosialist" adlanırlar"[9].

1905-ci ilin fevral və avqust hadisələri zamanı "Hümmət" əhalinin sakitləşdirilməsində və talanların dayandırılmasında böyük rol oynadı. Hökumət orqanları tərəfindən təşkil edilmiş millətlərarası qırğını dayandırmağa çağıran vərəqələr buraxılırdı. S.M.Əfəndiyevin qeyd etdiyi kimi, "...o dövrdə milli antaqonizmlə mübarizə, ümumiyyətlə, bütün partiya işi üçün zəruri zəmin idi, çünki bu dövrün dəhşətli milli toqquşmaları şəraitində hər cür partiya işi və proletar həmrəyliyi iflic hala düşürdü"[10].

1905-ci il fevralın ortalarında "Hümmət" qəzeti "zərərli istiqamətinə görə" bəhanəsi ilə polis tərəfindən bağlandı. 1906-cı ilin may ayından avqustunadək Azərbaycan və erməni dillərində çıxan "Dəvət-Qoç" qəzetinin nəşri təşkil olundu. 1906-cı ilin dekabrında hümmətçilər "İrşad" mətbəəsində Mehdi bəy Hacınskinin adına 1907-ci ilin martına qədər çıxmış "Təkamül" qəzetinin buraxılmasına icazə ala bildilər[1]. Elə həmin il avqustdan sentyabradək "Hümmət" əslində "Təkamül"ün davamı olan "Yoldaş" qəzetini nəşr etdirmişdi[12]. Qəzet və intibahnamələrin rayonlara göndərilməsinə M.Ə.Rəsulzadə, Ə.A.Axundov rəhbərlik edirdilər. Bu qəzetin səhifələrində müntəzəm çıxış edən əsas

publisistlər S.M.Əfəndiyev, M.Ə.Rəsulzadə, M.Q.Mövsümov, M.A.Mirbağırov, M.Hacınski, M.Ə.Əzizbəyov cəmiyyətdə gedən proseslərə heç də eyni gözlə baxmırdılar. Əgər S.M.Əfəndiyev bütün millətlərin zəhmətkeşlərini mütləqiyyət və kapitalistlərlə mübarizədə birləşməyə çağırırdısa, M.Ə.Rəsulzadə və M.Hacınskinin məqalələrində milli vəhdət, öz milli müqəddəratını təyin etmək hüququ uğrunda mübarizədə müsəlman xalqlarının birliyi ideyaları üstünlük təşkil edirdi.

M.Ə.Rəsulzadə islam tarixinə həsr olunmuş məqalələrində yazırdı ki, demokratiya və sosializm ideyaları islama zidd deyildir, əksinə, onun əsas müddəalarına müvafiq gəlir[13]. Lakin sosial-demokratiyadan, xüsusən də bolşeviklərin milli məsələyə münasibətlərindən tədricən məyus olan M.Ə.Rəsulzadə sonrakı məqalələrində türk xalqlarının milli özünüdərk məsələlərini diqqət mərkəzinə çəkməyə başlayır. O, "Hümmət"lə əməkdaşlıq münasibətini təqribən 1909-1910-cu illərdə - hakimiyyət orqanlarının təqibləri üzündən İrana mühacirət edənədək davam etdirmişdi. Bu təşkilat 1907-ci ilin iyulunda gizli fəaliyyətinin üstü açılandan sonra bir çox üzvləri həbs edildiyinə görə xeyli zəifləmiş və 1917-ci ilədək, demək olar ki, tam təşkilati fəaliyyətini davam etdirə bilməmişdir.

"Hümmət" təşkilatının Gəncə, Şuşa, Naxçıvan və Culfada şöbələri var idi, lakin Tiflis şöbəsi həm üzvlərin sayı, həm də siyasi fəallığına görə onlardan seçilir və mühüm fəaliyyət göstərirdi. Onun fəalları təşkilatın Naxçıvan və Gəncə filiallarının yaradılmasına böyük kömək göstərmişdilər. Tiflis "Hümmət"i Gürcüstan sosial-demokratiyası üçün səciyyəvi olan menşevik istiqamətini rəhbər tuturdu. Onun ən fəal üzvləri D.Yüzbaşov, A.Bayramov, M.B.Mirheydərzadə, K.Camalbəyov, İ.Vəzirov, Q.A.Hacınski, A.K.Xanəhmədov və b. idi[14]. Tiflis təşkilat bürosunun qərarı ilə 1905-ci ilin sonunda A.Yüzbaşov, A.Bayramov və M.B.Mirheydərzadə Naxçıvana göndərilmiş və orada partiyanın bürosunu yaratmışdılar. Büroya onlardan əlavə A.Sultanov, A.Nəcəfov, M.A.Bektaşev daxil olmuş, Heydər Məmmədov büronun katibi seçilmişdi[15].

1906-cı ilin noyabrında Culfada "Hümmət"in şöbəsi təşkil edildi. Onun bürosuna Nəcəfqulu və Rzaqulu Nəcəfov qardaşları, habelə N.Şeyxov daxil idilər. Tiflis menşevikləri Boquslavski və Kutateladze "Hümmət"in filiallarının yaradılmasında iştirak edirdilər[16].

Tiflis hümmətçilərinin fəaliyyəti dövri mətbuat orqanlarında da əks olunurdu. Onlar mitinqlərdə "sosializm ideyalarını müsəlmanlara izah edir", millətlərarası toqquşmalara qarşı çıxışlar təşkil edir, Azərbaycan dilində kitabça və vərəqələr buraxırdılar. Kitabça və vərəqələr çap edərkən. C.Məmmədquluzadə başda olmaqla, ziyalılar dərnəyinə məxsus "Qeyrət" mətbəəsindən istifadə olunurdu[17].

Azərbaycan sosial-demokratları, hümmətçilər ilə İran milli-azadlıq hərəkatı mücahidləri arasında sıx əlaqələr var idi. Onların çoxu dəfələrlə İranda olmuş və 1906 1911-ci illərin inqilabi hadisələrində iştirak etmişdi.

Tiflis "Hümmət"inin məramnaməsində insanların sinfi və milli mənsubiyyətindən asılı olmayaraq, demokratik azadlıqları və hüquqları bəyan edilirdi. "Ədalət, bərabərlik, azadlıq" sözləri təşkilatın devizi seçilmişdi[18]. Azərbaycan

Demokratik Cümhuriyyət Parlamentinin üzvləri olmuş İ.Əbilov, M.Şeyxülislamov, S.Ağamalı oğlu Tiflis "Hümmət"inə daxil idilər.

"Hümmət"in fəaliyyət prinsipləri sosial-demokratiyanın sərt kanonları ilə ziddiyyət təşkil edirdi. Belə ki, 1917-ci ildən etibarən öz fəaliyyətini bərpa edən və 1920-ci ilin fevralınadək mövcud olan "Hümmət"in həyatiliyini məhz bu xüsusiyyət təmin edirdi.

Kapitalizmin inkişafı sürətləndikcə cəmiyyətin sosial təbəqələşməsi də dərinləşirdi. İnkişaf etməkdə olan Azərbaycan burjuaziyası və ziyalıları yerli özünüidarə orqanlarının fəaliyyətində, çar hökumət orqanlarının çağırdıqları qurultay və müşavirələrdə, Rusiyanın dövlət dumasında və s. fəallıq göstərir, eyni zamanda zəhmətkeş təbəqələrə üz tutaraq, bütün millətin adından çıxış edirdilər. Ən mütərəqqi siyasi xadimlər çarizmin Azərbaycan cəmiyyətinin bütün təbəqələrinin mənafeyini tapdalayan müstəmləkəçi siyasətinə qarşı qətiyyətlə çıxırdılar. Bu siyasət özünü milli sahibkarların fəaliyyətinin sıxışdırılmasında, azərbaycanlıların şəhər özünüidarə orqanlarında təmsilçiliyinin məhdudlaşdırılmasında, dini etiqad və milli mədəniyyət sahələrinə göstərilən təzyiqlərdə təzahür edirdi[19].Birinci rus inqilabınadək Azərbaycanın yuxarı sosial təbəqələri nə siyasi partiyalar yaratmış, nə də siyasi proqram tərtib etmişdi. Onların öz nümayəndələri ilə mövqelərini möhkəmləndirdikləri yeganə sahə şəhər özünüidarə orqanları idi. 1902-1905-ci illərdə Bakı şəhər dumasının 48 qlasnısının 23 nəfəri azərbaycanlı idi. Bunlar həm iri kapitalın nümayəndələri (H.Z.Tağıyev, Ş.Əsədullayev, M.Nağıyev, N.Mehdiyev, N.K.Sadiqov, A.Dadaşov), həm də liberal hərəkatın görkəmli xadimləri (Ə.Topçubaşov, Ə.Ağayev, F. Vəzirov b.)[20] idilər. Şamaxıda 12 nəfər şəhər müvəkkilindən 6-sı azərbaycanlı idi. Quba və Lənkəran şəhər özünüidarə orqanlarında da eyni vəziyyət mövcud idi[21]. Bu cür nisbətən geniş təmsil olunma Azərbaycan cəmiyyətində yuxarı təbəqələrin öz sənaye və ticarət fəaliyyəti məsələlərinin həllinə marağı ilə bağlı idi. Bundan başqa, sabit gəlir gətirən çoxmərtəbəli şəhər evlərinin çox hissəsi milli kapitalın nümayəndələrinə məxsus idi ki, bu da onların şəhər idarəçiliyi məsələlərində də fəallığını artırırdı.

Azərbaycan milli burjuaziyası neft sənayeçiləri qurultayının şurası və Bakı birja komitəsində zəif təmsil olunmuşdu. Bu, həm də digər milli burjuaziya nümayəndələrinin texniki təhsil alması yolunda çar hakimiyyəti orqanları tərəfindən yaradılan maneələrin nəticəsi idi.

Azərbaycanda milli ideologiyanın əsaslarını proqram və tələblər şəklində işləyib hazırlamaqda görkəmli ictimai xadimlər Ə.Topçubaşov, Ə.Ağayev, Ə.Hüseynzadə və b. bilavasitə iştirak edirdilər. Onlar "Kaspi" və "Şərqi-Rus" qəzetlərində müsəlmanların siyasi hüquqsuzluğundan, ictimai-siyasi və mədəni-maarifçilik fəaliyyətlərinin məhdudlaşdırılmasından söz açır, millətin oyanmasına maarifin yayılmasına, xeyriyyəçilik cəmiyyətlərinin yaradılmasına və çalışırdılar. Bununla yanaşı, onların məqalələrində, milli mənsubiyətindən asılı olmayaraq, bütün müsəlman və türk xalqlarının mənafe birliyi ideyası nəzərə çarpırdı[22]. Onların fikrincə, islam "...müsəlmanların həyatında ən keçilməz, ən fəal element rolunu oynayır Müsəlmanlar ya

məhv olub yer üzündən silinməli, ya da din vastəsilə sağlamlaşmalıdırlar"[23].

XX əsrin əvvəllərində Azərbaycanda müxtəlif istiqamətli erməni partiyaları geniş fəaliyyət göstərirdi. Onlardan ən böyüyü və qatı burjua-millətçi "Daşnaksutyun" partiyası idi. Daşnaklar erməni cəmiyyətindəki müxtəlif sosial qüvvələrin mənafe birliyi və ahəngdar ideyasını təbliğ edirdilər. 1890-cı ildə yaradılan və Türkiyə ərazisində Ermənistanın müstəqilliyi uğrunda mübarizəni özünün əsas vəzifəsi elan edən Daşnaksutyun tədricən bu mübarizənin meydanını Türkiyənin hüdudlarından kənara da keçirərək genişləndirir və kütlələrin beyninə dənizdən-dənizə uzanan, demək olar ki, bütün Zaqafqaziya ərazisini əhatə edən "Böyük Ermənistan" yaratmaq ideyasını yeridirdi. Azərbaycanda onun təşkilatları Bakı, Gəncə, Şuşa və b. şəhərlərdə fəaliyyət göstərirdi.

Millətçi erməni xırda burjua partiyası olan "Qnçak" da erməni fəhlələr içərisində müəyyən nüfuza malik idi[24]. Daşnaklar kimi qnçakçılar da erməni fəhlələrin başqa fəhlələrlə birlikdə tətil və siyasi nümayişlərdə iştirak etməsinə qarşı çıxırdılarsa da, 1904-cü il dekabr tətili zamanı sol bloka girdilər[25]. Onlar da daşnaklar kimi, "Qərbi Ermənistan" problemlərinin həlli uğrunda mübarizəyə çağırışla çıxış edirdilər.

1903-cü ilin payızında Bakıda daha bir sosialist təmayüllü erməni təşkilatı - "Erməni sosial-demokrat fəhlə təşkilatı" meydana çıxdı. "Spesifiklər" adlandırılan bu təşkilat partiyanın federativ quruluşda olması, yəni fəhlələrin milli əlamətlərə görə bölünməsi tələbini irəli sürürdü. 1903-cü ilin dekabrında bu təşkilat "Manifest" dərc etdi. Burada RSDFP Qafqaz İttifaqını milli təşkilatların federativ birliyinə çevirmək vəzifəsi bəyan edilirdi[26]. "Spesifiklər" vərəqələr buraxmağa, "Sosialist" jurnalını nəşr etməyə (sonralar onun nəşri xaricə köçürüldü) başladılar. 1903-cü ilin dekabrında "Spesifiklər" Bakı fəhlələrini ümumi tətilə çağırdılar, lakin bu çağırışlar müvəffəqiyyət qazanmadı. "Spesifiklər"in erməni fəhlələri içərisində elə bir xüsusi nüfuzu yox idi. Bu. 1904-cü ilin mayında RSDFP Qafqaz İttifaqının qurultayında da qeyd olunmuşdu[27].

Sosialist inqilabçıları (eserlər) partiyası Bakıda 1903-cü ilin yayında meydana çıxdı. Bunun üçün Azərbaycanda torpaq və kənd təsərrüfatı sahələri ilə sıx bağlı olan müəyyən fəhlə təbəqələrinin mövcudluğu obyektiv zəmin idi.

Bakıda fəaliyyətinə 1903-cü ilin iyulunda hektoqrafik vərəqə buraxmaqla başlayan eser dəməyi elə həmin ilin sonunda çap maşını olan gizli mətbəə təşkil etdi. Burada onların öz nəşrləri ilə yanaşı, mərkəzi eser qəzetlərindən materiallar və digər şəhər komitələrinin nəşrləri çap olunurdu[28].

Eserlər partiyasının xaricdəki Mərkəzi Komitəsi eser təşkilatlarının Zaqafqaziyadakı işinə böyük əhəmiyyət verirdi. Buna görə 1904-cü ildə SİP (Sosial-İnqilabçılar Partiyası) MK öz nümayəndəsi (müvəkkili) V.Volskini Bakıya göndərmişdi[29]. O, burada eser təbliğatını canlandırmalı və birgə terror əməliyyatları keçirmək üçün Daşnaksutyun partiyasının nümayəndələri ilə əlaqə yaratmağa çalışmalı idi. Bununla belə eserlərin bilavasitə mədən fəhlələri ilə əlaqələri çox zəif idi.

Eserlər Azərbaycanın digər şəhərlərində də fəhlə və təhsil alan gənclər içərisində öz təsirlərini yaymağa can atırdılar. 1904-cü ilin fevralında Şuşa real təhsil

məktəbində eser dərnəyi yaradılmışdı[30]. O zaman Gəncədə də eser təşkilatı yaradılmasına cəhdlər göstərilmişdi[31].

1903-cü ilin sentyabrında Bakı sosialist inqilabçılar dərnəyi daşnakların terrorçuluq hərəkətlərini müdafiə edən vərəqə buraxdı[32]. RSDFP Bakı Komitəsi "Erməni cəmiyyətinə" adlı vərəqəsində eserlər tərəfindən təbliğ olunan fərdi terror taktikasını kəskin surətdə tənqid etdi. Vərəqədə qeyd olunurdu: "Terror mütləqiyyətin bu və ya digər nümayəndəsini aradan götürə bilər, lakin dövlət sistemini aradan qaldırmaqda acizdir"[33].

Bakı eser təşkilatının nümayəndələri və SİP MK eser partiyasının Azərbaycan filiallarını da yaratmağa cəhd göstərdilər. Lakin 1906-cı il ərəfəsində SİP MK-nın göndərdiyi nümayəndələr Azərbaycanda Rizel və Rayetskinin köməyi ilə "İttifaq" adlı eser təşkilatını, sonra "Əş-Şəms" ("Günəş") şagird təşkilatını yaratmağa nail oldular[34].

R.Məlikov, M.Cuvarlinski, R.Şərifzadə "İttifaq"ın ən fəal üzvləri idilər. Əsas proqram və taktika məsələlərində ittifaqçılar Bakı eserlərinin görüşlərinə şərik çıxır, onlarla birlikdə çıxış edir və birgə vərəqələr imzalayırdılar. Lakin azərbaycanlı eserlər üçün milli məsələ ön planda dururdu, onlar geridə qalmış kütlələri maarifləndirməyi və xalqın azadlığını özlərinin başlıca vəzifəsi elan etmişdilər. 1905-ci ildə siyasi vəziyyətin kəskinləşdiyi millətlərarası toqquşmalar dövründə ittifaqçılar sol blok taktikası mövqeyində duraraq, qüvvələri qaragüruhçulara və talançılara qarşı birləşdirmək üçün eserlər partiyasının Bakı Komitəsi və "Qnçak" erməni partiyası ilə inqilabi koalisiyaya girmişdilər.

"İttifaq" və "Əş-Şəms" uzun müddət yaşamadı, kütlələr içərisində əhəmiyyətli sosial bazası və müdafiəsi olmadığı üçün 1907-ci ildə dağıldı və ancaq fevral inqilabından sonra yenidən dirçəlib siyasi meydana qədəm qoydu.

## § 3. İCTİMAİ-SİYASİ VƏZİYYƏTİN KƏSKİNLƏŞMƏSİ. SOSİAL VƏ MİLLİ ƏSARƏTƏ QARŞI MÜBARİZƏ

Ölkədə baş verən ümumi böhranla əlaqədar meydana çıxan ağır iqtisadi vəziyyət, digər tərəfdən isə 1901-ci ildə yaradılmış Bakı sosial-demokrat təşkilatı tərəfindən siyasi təbliğatın gücləndirilməsi həmin ildə bir sıra fəhlə çıxışlarına gətirib çıxardı. Əmək haqqı gecikdirildiyinə görə, 1901-ci ilin martında Sabunçudakı "Təmir" emalatxanasının fəhlələri tətilə başladılar. Ancaq polis işə qarışdıqdan və yeddi fəhlə istintaqa cəlb edildikdən sonra tətil dayandırıldı[35].

1901-ci ilin ən böyük tətilləri sentyabr və noyabr aylarında Xatisovun zavodunda 200 nəfərdən artıq fəhlənin iştirakı ilə baş verdi. Zavodun müdiriyyəti tətilçilərə güzəştə getməyə məcbur olub, götürə iş üzrə qiymət cədvəllərini

hazırlamağı və işdən qovulmuş fəhlələri geri qaytarmağı öhdəsinə götürdü[36].

Tətillər təkcə Bakıda deyil, həm də qəzalarda da baş verirdi. 1901-ci ilin avqustunda Gəncədə dəmir yol deposunun, elə həmin ilin dekabrında isə Tovuzda dəmir yol stansiyasının fəhlələri tətil etmişdilər.

Bu çıxışlar hökumət idarələri tərəfindən fəhlələrə qarşı görülən bir sıra cəza tədbirləri ilə nəticələndi. 1902-ci ilin yanvarında Bakıda gücləndirilmiş mühafizə rejimi elan olundu, yəni polisə asayiş pozulan zaman amansız rəftar etmək üçün fövqəladə səlahiyyətlər verildi. Kütləvi axtarışlar keçirib ən fəal fəhlələr həbs edilsə də, fəhlə çıxışlarının qarşısını almaq mümkün olmadı.

1902-ci ilin 1 May nümayişinə (nümayişin təşkilində RSDFP Bakı Komitəsi də iştirak etmişdi) müxtəlif millətlərdən olan 5 mindən artıq adam çıxmışdı.

Nümayişçilər "Rədd olsun mütləqiyyət!, "Yaşasın sosializm!" şüarları ilə şəhərin küçələri ilə addımlayırdılar[37]. 1902-ci ilin iyunundan oktyabrınadək "Nobel qardaşları" mədənlərində emalatxanaların azərbaycanlı fəhlələri, Bakı fənərçiləri, Bakı gəmi təmiri zavodu işçiləri və b. bir sıra tətil çıxışları etdilər.

1903-cü ildə inqilabi çıxışlar geniş miqyas aldı. Martın 2-də Bakıda iri siyasi nümayiş keçirildi. Nümayiş zamanı polis və kazaklarla baş verən toqquşmada yaralananlar oldu. Elə həmin gün Balaxanıda, müxtəlif millətlərdən olan 2 min nəfərədək fəhlə etiraz nümayişinə çıxdı. Hökumət orqanları nümayişi dağıtmaq üçün kütləvi həbslərə əl atdı, iştirakçıların 60 nəfərdən çoxunu həbs etdi.

Aprelin 27-də Bakıda 1 May şərəfinə eyni zamanda şəhərin müxtəlif hissələrində 10 min nəfərədək adamın iştirak etdiyi böyük siyasi nümayiş baş verdi, lakin polis tərəfindən dağıdıldı. Hakimiyyət orqanlarının cəza tədbirlərinə baxmayaraq, bütün may-iyun ayları ərzində şəhərin müxtəlif müəssisələrində bəzən tətilçilərin qələbəsilə bitən kiçik tətillər davam edirdi.

Rusiyanın cənubunda 1903-cü ildə kütləvi siyasi çıxışların başlanğıcı olan ən iri tətil Bakıda iyulun 1-də (14-də) Xatisovun zavodunda başladı, iyulun 4-də Qara və Ağ şəhərləri, habelə Bibiheybəti, növbəti gün isə Balaxanı-Sabunçu neft sənayesi rayonunu əhatə edərək ümumi xarakter aldı. Tətillərdə iri sənaye müəssisələri fəhlələri ilə birlikdə, kiçik sənaye müəssisələri, mətbəə, şəhər konkası işçiləri, sənətkarlıq emalatxanaları, dülgərlər, çəlləkçilər, çörəkçilər və b. iştirak edirdilər. Elektrik stansiyaları, dəmir yol nəqliyyatı dayandı, Bakı limanındakı gəmilərin heyətləri də tətil etməyə başladılar. Tətil iştirakçılarının ümumi sayı ən azı 40 min nəfər olardı[38]. Bəzi yerlərdə azərbaycanlı fəhlələrin qatı tətilçi fəallığı xüsusən əlamətdar hal idi.

RSDFP Bakı Komitəsi tətilin əvvəlindən onun ümumi tətilə çevrilməsini məqsədəuyğun saymayaraq, qətiyyətsiz mövqe tutdu. Lakin hadisələrin gedişi sosial-demokratları tətildə bilavasitə iştirak etməyə, tətil komitəsinə daxil olmağa və onun tələblərini tərtib etməyə məcbur etdi. Onların içərisində əmək haqqının artırılması, iş gününün 8 saatadək qısaldılması, 2 mart və 27 aprel küçə nümayişləri zamanı həbs olunmuş fəhlələrin azad edilməsi, tətil, mətbuat və yığıncaq azadlığı kimi tələblər var idi[39]. İyul tətili əvvəlki, əsasən iqtisadi xarakter daşımış

tətillərdən məhz bununla fərqlənirdi. Tətilçilər müstəsna mütəşəkkillik göstərir, fəhlələr özləri mədənləri mühafizə edirdilər. Tətil yeni-yeni müəssisələri əhatə edirdi. İyulun 5-dən 8-dək "Nobel" firmasının bütün müəssisələri, Bayıldakı sənətkarlıq emalatxanaları, Tağıyevin toxuculuq fabriki, tərsanələr, tənbəki fabriki və b. tətilə başladı. İyulun 6-da şəhərin küçələrini və ətrafını fəhlə nümayişləri bürümüşdü.

Daxili işlər naziri Plevinin göstərişi ilə təcili surətdə Bakıya bir neçə batalyonluq hərbi qüvvə göndərilməsi əmri verildi. Həmin qüvvə iyulun 8-dən başlayaraq şəhərə gəldi və müəssisə, dəmir yolu və mədənlərdə hərbi qarovullar qoyuldu. İyulun 12-də sənayeçilər fəhlələrin, işə çıxmayacaqları təqdirdə, işdən azad ediləcəkləri haqqında elan asdılar[40].

Güclü təzyiqlərə və ayrı-ayrı müəssisələrdə fəhlələrin işə çıxmalarına baxmayaraq, tətil bir çox yerlərdə davam edirdi. Balaxanı mədən rayonunun fəhlələri xüsusən möhkəm dayanmışdılar. Polis fitnəkarlığa əl atdı və mədənlərə yanğın salınması cinayətini təşkil etdi. İyulun 14-dən 17-dək 100-ə yaxın buruq yandırıldı[41]. Fəhlələr arasında kütləvi həbslər başlandı, tətil edənlər isə ağır itkilərə məruz qaldılar. İyulun 19-da tətil zəifləməyə başladı və iyunun 22-də tam dayandırıldı. Fəhlələrin xırda tələbləri ödənilsə də, onların əsas tələbləri yerinə yetirilməmiş qaldı. Lakin Bakıda 1903-cü ilin iyul tətili Rusiyanın cənubunda inqilabi çıxışlara mühüm təsir göstərdi. Bakının ardınca Tiflis, Batum, Odessa, Kiyev, Yekaterinoslav, Novorossiysk və b. şəhərlərdə tətillər baş verdi. A.Bebel iyul tətilinin əhəmiyyəti haqqında yazırdı ki, 1903-cü ildə fəhlə hərəkatının iki ən böyük uğuru olmuşdur: Bakı tətili və Almaniya sosial-demokratiyasının reyxstaqa seçkilərdə qələbəsi.

Azərbaycan kəndində də sosial ziddiyyətlər kəskinləşirdi. Kəndlilərin vergi verməkdən imtina etməsi, mülkədar və xəzinə torpaqlarının tutulması, bəy malikanələrinə hücum halları artmağa başlamışdı[42]. Vergilərin ödənilməsi barədə çoxsaylı şikayətlər də təkcə mülkədarlara qarşı deyil, həm də doğulmaqda olan kənd burjuaziasına-varlı qolçomaq kəndlilərə, binəkdarlara, külli miqdarda tay ilə satan tacir sələmçilərə və b. qarşı çevrilmişdi.

Kəndli çıxışları tez-tez polislə silahlı toqquşmalara çevrilirdi. 1900-1903-cü illərdə Şamaxı qəzasının Navahi kəndində, Bakı qəzasının Buzovna, Zığ, Əhmədli və Maştağa kəndlərində, Naxçıvan və Yelizavetpol qəzalarında belə çıxışlar baş vermişdi. 1903-cü ilin yayında Lənkəran qəzası Cangəmirən kənd sakinlərinin çıxışını kazaklar və bəylərin silahlı dəstələri yatırmışdı.

O dövrdə də Azərbaycanda kəndli etirazı və mübarizəsi əsaslı formada qaçaqçılıq hərəkatı idi. Qaçaqlar mülkədar və varlı kəndlilərin malikanələrinə hücum edirdilər. Yelizavetpol qubemiyasının Alabaşlı kəndindən məlumat verilirdi ki, "hər gün quldurların kazarmaya hücumları baş verirdi... Kazarmadan bayıra çıxmaq qeyri-mümkündür, mühafizə etmək və müdafiə olunmaq üçün heç nə yoxdur"[43].

Qaçaq hərəkatı Yelizavetpol qəzasında geniş miqyas almışdı. Qaçaqları

təqib etmək üçün qəza rəisi Reutt silahlı dəstə ilə buraya göndərilmişdi[44].

1904-cü ildə Yelizavetpol qəzasının qaçaq dəstəsi öz fəaliyyətini daha da genişləndirmişdi. 1904-cü il fevralın 27-də dəstə Aver-Əhmədli kənd cəmiyyətinin starşinasına hücum etdi, mayın 27-də Bitdili kəndi yaxınlığında kazaklarla toqquşdu[45].

Ağır vergi zülmü ifrat tədbirlərə əl atmağa məcbur edirdi. 1904-cü ildə Qarabulaq adlı xəzinə kəndinin 20 ailəsi yerli hökumət idarələrinin özbaşınalığına dözməyərək, öz yurdlarını tərk etmiş və Bürcələr dərəsi adlı əlçatmaz yerə köçmüşdü. Onlar burada, meşədə, Bürcələr kəndinin əsasını qoymuş, qonşu kəndlilərin sakinləri də bu kəndə köçüb gəlmişdilər. Bürcələr camaatı yerli hakimiyyət orqanlarını tanımayaraq, vergiləri ödəməkdən imtina edir və tez-tez malikanələrinə, varlı kəndlilərin evlərinə hücum edirdilər. Onlara Dəli Aslan Həsən oğlu başçılıq edirdi[46]. Çoxsaylı cəza ekspedisiyalarına baxmayaraq, bürcələrlilər təslim olmamış və silahlı mübarizəni bir neçə il davam etdirmişdilər.

Kəndli çıxışları Azərbaycanın digər qəzalarında da baş verirdi lakin onların hamısı pərakəndə və qeyri-mütəşəkkil xarakter daşıyırdı.

Azərbaycanda milli-azadlıq hərəkatı və inqilabi mübarizənin yüksəlişi orta şəhər təbəqələri və milli ziyalılara da təsir göstərirdi, Liberal islahatların keçirilməsi zərurəti getdikcə özünü daha aydın göstərirdi. Təhsil alan gənclər də, mövcud qaydaların dəyişdirilməsi uğrunda mübarizəyə qoşulurdular. 1902-ci ildə Bakı şagird komitəsi təşkil olundu. Komitə fəaliyyətinin başlanğıcında müstəqil təhsil məsələləri ilə məşğul olurdu. Lakin tezliklə şagird komitəsi siyasi işə cəlb olunaraq, siyasi referatların oxunuşunu keçirir, məktəb həyatı ilə yanaşı, siyasi hadisələri də əks etdirən vərəqələr dərc edirdi. Məsələn, şagird komitəsi 1903-cü ildə buraxılmış vərəqələrində şagirdləri mayın 1-də məşğələlərə gəlməməyə çağırdı, eyni zamanda onlar mart və may nümayişlərində, iyul tətili günlərində keçirilən çoxsaylı mitinqlərdə iştirak etmişdilər.

1903-cü ilin ikinci yarısında Bakı və Gəncənin mexaniki zavodları və mədənlərində baş verən ayrı-ayrı pərakəndə tətillər Rusiya-Yaponiya müharibəsinin başlanması ilə əlaqədar tezliklə dayandırıldı.

1904-cü il yanvarın 26-dan 27-nə keçən gecə Yaponiyanın minadaşıyan gəmilər dəstəsi Port-Arturun xarici reydində dayanmış rus Sakit okean donanmasına qəflətən hücum etdi. 1905-ci ilin avqustunadək davam edən və hər iki döyüşən tərəfdən, demək olar ki, 200 min nəfərin ölümünə səbəb olan Rusiya-Yaponiya müharibəsi belə başlandı.

Bütün ölkədə olduğu kimi, Azərbaycanda da müharibə fonduna ianə toplanması başlandı. Digər şəhərlərin ardınca Bakının da hakimiyyət orqanları vətənpərvərlik manifestasiyaları keçirirdilər[47]. Pravoslav, müsəlman və digər dini ruhanilər 1904-cü ilin fevralında Bakı, Şuşa, Gəncə, Salyan və b. yerlərdə dua mərasimləri təşkil etdilər. Zaqafqaziya müsəlmanlarının başçısı Şeyxülislam Əbdülsa-lam Axundzadə xüsusi müraciətində müsəlmanların Mancuriya çöllərindəki müharibədə

iştirak etməyə hazır olduqlarını bildirdi[48].

Bakı burjuaziyası müharibə üçün böyük məbləğdə vəsait ayırırdı. Məsələn, neft sənayeçiləri qurultayı Şurası hərbi fonda 150 min rubl., H.Z.Tağıyev, Ş.Əsədullayev, M.Nağıyev və b. sahibkarlar 10 min rubl., Bakı erməni insansevərlər cəmiyyəti 1000 man. pul vermişdi[49].

Müharibə başlanandan zəhmətkeş kütlələrin və ümumiyyətlə, cəmiyyət arasında böyük narahatlıq yaratmışdı, xalqın onsuz da dilənçilik vəziyyətində olan həyat səviyyəsi bir xeyli aşağı düşmüş, un. yağ, şəkər və digər ərzaq məhsullarının qiymətləri qalxmışdı. Bakının zavod və mədənlərində növbədənkənar və gecə işləri tətbiq olunur, sahibkarlar əmək haqqını vaxtaşırı azaldır, onun ödənilməsini ləngidir və cərimələr qoyurdular.

Fəhlə həyəcanlarının qarşısını almaq üçün Bakıda mühafizə tədbirləri gücləndirildi. Balaxanı, Sabunçu, Ramana və Zabratda yeni polis sahələri yaradıldı[50]. Bunlara baxmayaraq, ayrı-ayrı məhdud çərçivəli tətillər baş verirdi. Bibiheybətdə "Elektrosila"nın fəhlələri tətil etmiş, Eyzenşmidt zavodunun işi dayandırılmış, şəhər konkası, "Votan" firmasının emalatxanaları tətilə başlamışdı[51].

Polis departamenti üçün hazırlanmış məlumatda Bakı fəhlə hərəkatının yüksəlişinə səbəb olan amil belə izah olunurdu: "Proletariatın yaşadığı və indi də yaşamaqda davam etdiyi dəhşətli şərait fəhlə kütlələrini inqilabi yola itələyən özünüdərkin inkişafına təkan verən başlıca qüvvədədir"[52].

Müharibəyə qarşı ən kəskin təbliğat aparan bolşeviklər fəhlə kütləsini müharibəni mütləqiyyətə və kapitalistlərə qarşı çevirməyə çağırırdılar. 1904-cü ilin martında RSDFP Qafqaz İttifaqı Komitəsi tərəfindən Zaqafqaziyada müharibə əleyhinə təşviqat aparılması haqqında təlimat işlənib hazırlandı, bolşeviklər "Rədd olsun müharibə" adlı vərəqə buraxıb[53], onu Tiflis, Bakı, Kutaisi və b. şəhərlərdə yaydılar.

Lakin 1904-cü ilin əvvəllərində RSDFP Bakı Komitəsi bolşeviklərin əlindən çıxdı və ona rəhbərlik V.Mitrov başda olmaqla menşeviklərin əlinə keçdi.

Menşeviklərin Bakı Komitəsinə rəhbərliyi 1904-cü ilin iyununadək çəkdi. Onlar bu, həddindən artıq qeyri-populyar müharibənin əleyhinə çıxış etsələr də, bolşeviklərdən fərqli olaraq, müharibədəki məğlubiyyəti mövcud rejimə qarşı yönəltmək fikrindən uzaq idilər. Məhz bu səbəbdən menşevik BK-sı Qafqaz İttifaq Komitəsinin qurultayına öz nümayəndəsini göndərmədi. İyunun 4-də RSDFP - Qafqaz İttituqının qurultayından sonra Qafqaz İttifaq Komitəsi Bakı Komitəsinin buraxılması haqqında qərar qəbul etdi. Bolşeviklərin Bakıya göndərilən böyük bir qrupu, A.M.Stopani katib olmaqla, BK-nın yeni tərkibini təşkil etdi[54]. Orduya səfərbərliyin hazırlanması ilə əlaqədar olaraq, bolşeviklər 1904-cü ilin sentyabrında müharibə əleyhinə 1 bir neçə nümayiş təşkil edə bildilər.

Eyni zamanda Azərbaycan qəzalarında da tətillər başlandı. Gəncə ipəkçiləri, dəmiryolçular və mətbəə işçiləri ciddi siyasi və iqtisadi tələblər irəli sürdülər, tələblərin xeyli hissəsi yerinə yetirildi. Gədəbəy filiz mədəni və misəritmə zavodunda baş verən tətil 15 gün çəkdi. Tətili Gəncədən çağırılmış kazak dəstələrinin köməyi ilə yatırmaq mümkün oldu. Şamxor və Zəyəm stansiyalarının dəmiryolçuları, Tovuz sement zavodunun tikintisində çalışan fəhlələr və Şəkidə ipəksarıyıcılar içərisində də həyəcanlar baş verirdi[55].

Hərbi əməliyyatların Rusiyanın xeyrinə olmayan istiqamətdə; gedişi, güclənən iqtisadi və siyasi böhran da Azərbaycandakı siyasi vəziyyətə müəyyən təsir göstərirdi.

Rus ordusu məğlubiyyətə uğrayırdı. Port-Arturun bir neçə ay davam edən mühasirəsi müharibənin başa çatdığı mərhələyə çevrildi. Gərgin dəniz vuruşmalarından sonra Port-Artur təslim oldu və Rusiya müharibəni uduzdu.

Port-Artur müdafiəçiləri sırasında sonradan Azərbaycan Demokratik Respublikasının mövcud olduğu dövrdə milli orduda xidmət edəcək igid azərbaycanlı zabitlər də vuruşurdular. 7-ci Şərqi Sibir artilleriya divizionuna komandirlik etmiş Səməd ağa Mehmandarov onlardan biri idi. Cəbhənin müdafiə rəisi general-mayor Kondratenkonun ən yaxın köməkçilərindən biri olan S.Mehmandarov tezliklə Port-Arturun Şərq cəbhəsinin artilleriya rəisi təyin edildi. Bu hadisələrin şahidləri polkovnikin qeyri-adi cəsurluğu və şəxsi igidliyini qeyd edirlər. S. Mehmandarov Port-Arturun müdafiəsində hərbi xidmətlərinə görə döyüş ordenləri və qızıl silahla təltif olunmuş, general-mayor rütbəsi almışdı.

Port-Arturun müdafiəçiləri sırasında qala qarnizonu batareyasına komandirlik edən topçu zabit, kapitan Əlağa Şıxlinski də var idi. Döyüş nailiyyətləri və hərbi məharəti ona "artilleriyanın allahı" şöhrətini qazandırmışdı. Rusiya-Yaponiya müharibəsinin iştirakçıları içərisində həmçinin 2-ci Dağıstan süvari alayının komandiri polkovnik Hüseyn xan Naxçıvanski, polkovnik İlyas bəy Ağalarov və b. məşhur idilər[56].

Alçaldıcı Portsmut sülhünün imzalanması Rusiyanın bu müharibədə məğlubiyyətinə yekun vurdu. Bu müqaviləyə görə, Port-Artur, Cənubi Saxalin və Koreya Yaponiyanın ixtiyarına keçirdi.

Yaponiya ilə müharibədə məğlubiyyət Rusiyada ümumi siyasi böhranın kəskinləşməsinə səbəb oldu. Sənaye şəhərlərində siyasi tətil və nümayişlər baş verir, kənd yerlərində kəndlilər mülkədar və xəzinə torpaqlarını, meşələri, su mənbələrini özbaşına tutur, malikanələri yandırır, mülkədarların taxılını aclıq çəkənlərə paylayırdılar. Orduda, tələbə-gənclər arasında həyəcanlar başlayırdı. Neft sənayesinin geniş fəhlə kütlələri içərisində - cəmiyyətin ən intensiv şəkildə istismar olunan bu hissəsində narazılıq günü-gündən artırdı. 1904-cü ilin avqust ayında Bakıda Şendrikov qardaşları tərəfindən "Balaxanı və Bibiheybət fəhlələrinin təşkilatı" adında menşevik mövqeli təşkilat yaradıldı. Fəhlələrlə sıx ünsiyyətə girən Şendrikovlar onları əsasən iqtisadi mübarizəyə çağırır, bolşeviklərə qarşı çıxış edirdilər.

Şendrikovlar özlərini sözdə sosial-demokrat adlandırır və daha çox menşeviklərə meyl edirdilər. 1904-cü ilin iyun ayında, yəni RSDFP Bakı Komitəsinin bolşeviklərin əlinə keçməsindən sonra onlar ilə şendrikovçular arasında fəhlə kütlələrinə təsir uğrunda mübarizə başlandı. Şendrikov qardaşları başda İlya Şendrikov olmaqla bolşevikləri qeyri-demokratizmdə ittiham edirdilər. Onların dediyinə görə, bolşevik təşkilatının rəhbərliyini bir qrup ziyalı təşkil edir ki, onların da fəhlələrlə ünsiyyəti yox dərəcəsindədir və Bakı Komitəsinə fəhlələr tərəfindən heç bir nəzarət olunmur. Məhz buna görə də BK-nın bütün qərarları fəhlələrə əmr formasında çatdırılır, bu isə, şendrikovçuların fikrincə, inqilabi hərəkatda yolverilməzdir[57].

Şendrikovçuların bolşeviklərə ikinci ittihamı onların fəhlələrin iqtisadi ehtiyaclarına əhəmiyyət verməməkləri və bütün gücü siyasi məsələlərə yönəltmələrindən ibarət idi. Öz növbəsində bolşeviklər şendrikovçuları anarxo-sindikalist və avantüraçı adlandırırdılar. Onların əsas ittihamı ondan ibarət idi ki, şendrikovçular siyasi şüarlardan vaz keçərək, fəhlələri yalnız iqtisadi mübarizəyə çağırırlar, bu isə, bolşeviklərin fikrincə, menşevizmin ibtidai dövrü, kobud "ekonomizm" demək idi.

1904-cü ilin avqustunda Şendrikovlar Bakı Komitəsi tərəfindən intizamsızlıq törətməkdə günahlandırılaraq partiyadan çıxarıldılar. Lakin onlar özlərini hələ də RSDFP-nin üzvləri saymaqda davam edirdilər, çünki menşeviklər 1906-cı ilədək şendrikovçuların tərəfini saxladıqlarına görə onların partiyadan kənar edilməsində yalnız bolşeviklər iştirak edirdilər.

1904-cü ilin noyabr ayından şendrikovçular ümumi tətilə hazırlıq görməyə başladılar.

Dekabrın 12-də "Balaxanı və Bibiheybət fəhlələrinin təşkilatı" çörəkçilər və şəhərin su təchizatı fəhlələrindən savayı bütün sənaye fəhlələrini ümumi tətilə çağıraraq, qabaqcadan elan etdi ki, tətil ancaq təşkilatın xəbərdarlığından sonra dayandırıla bilər və sahibkarların fəhlələri qorxutmağa yönəlmiş bütün cəhdləri "təşkilatın cavab addımlarını gücləndirəcək və ən qəti tədbirlər görüləcəkdir".

Xəzər-Qara dəniz cəmiyyətinin fəhlələri tətilə birinci başladılar. Onların ardınca Nobel, Rotşild, Mantaşev və Mirzoyevin mədənlərinin, günortaya qədər Bibiheybət, habelə Qara və Ağ şəhərlərin fəhlələri işi dayandırdılar. Bu möhtəşəm çıxışın elə birinci günündə 40-a yaxın firmanın fəhlə və qulluqçuları tətilə qoşuldular.

Ertəsi gün tətil genişlənməkdə davam edirdi. Axşama yaxın "Kaspi", "Baku", "Bakinskiye izvestiya" qəzetləri mətbəələrinin fəhlələri işi dayandırdılar. Dekabrın 16-17-də "Şərq cəmiyyəti", "Qafqaz və Merkuri"nin emalatxanaları, habelə "Nadejda" kompaniyası, tənbəki fabriki və Dadaşovun tərsanəsinin fəhlələri, sonra isə Xəzər ticarət donanmasının dənizçiləri, şəhər konkasının, mağazaların, emalatxanaların işçiləri də tətilə başladılar. Beləliklə, tətil ümumi xarakter alaraq 50 minədək adamı əhatə etdi[58].

RSDFP Bakı Komitəsi əvvəldən, qış mövsümü olmasını və dənizdə naviqasiyanın dayandırılmasını nəzərə alaraq, bu tətilin əleyhinə çıxmışdı. Lakin hadisələrin geniş miqyas aldığını görüb tətilə qoşuldu və bu barədə buraxdığı vərəqədə elan etdi: "Tətil başlamışdır. Hazırkı məqamda kapitalistlərə müharibə elan edilməsinə bizim münasibətimiz necə olursa olsun, biz bütün qüvvələrimizi sərf etməliyik ki, qələbə bizim, fəhlələrin olsun. Lakin, yoldaşlar, unutmayın ki, nə qədər ki, bizim başlıca düşmənimiz (çar hökuməti), bizim kapitalistlərin dostu devrilməyibdir, kapitalistlər üzərində bizim heç bir qələbəmiz möhkəm olmayacaq"[59].

Tətilə rəhbərliyi ələ almaq uğrunda iki təşkilat arasında mübarizə başlandı. Bu zaman BK şəhər rayonunda, şendrikovçular isə neft mədənləri və neftayırma zavodlarında üstün mövqeyə malik idilər. BK tətilə rəhbərlik etmək üçün A.M.Stopani, P.A.Caparidze və İ.Fioletov başda olmaqla, tətil komitəsi təşkil etdi. Tətil komitəsinə sosial-demokrat "Hümmət", erməni "Qnçak" təşkilatlarının

da nümayəndələri daxil oldu və sol blok yaratdılar. Şendrikovçular tətil komitəsinə daxil olmaqdan imtina etdilər.

Bu zaman tətil genişlənməkdə davam edirdi. Neft sənayeçiləri danışıqlara getməyə məcbur oldular. İki həftə əvvəl şendrikovçuların hazırladıqları tələblərin bütöv təkrarı olan bir sıra iqtisadi tələblər ətrafında danışıqlara RSDFP BK-nın nəzarəti altında olan Tətil komitəsi fəhlələrin nümayəndəsi kimi rəhbərlik edirdi.

Danışıqlar bir neçə dəfə pozuldu və nəhayət, dekabrın 21-də tətilin dekabrın 23-də dayandırılacağı barədə razılıq əldə edildi. Lakin tətilin rəhbəri şöhrətini əldən vermək istəməyən şendrikovçular fəhlələri açıqdan-açığa işə çıxmamağa çağırırdılar. Dekabrın 23-də iş başlanmadı, müxtəlif fəhlə qrupları arasındakı toqquşmalar və jandarmların işə müdaxiləsi qan tökülməsinə gətirib çıxardı. Sahibkarlar dekabrın 27-ni işə qayıdış günü elan etdilər. Lakin bolşeviklər vəziyyətdən istifadə edərək, 25 yeni tələb hazırladılar və onları sahibkarlara təqdim etdilər. Bu tələblərin əsasında dekabrın 27-də yeni saziş əldə olundu. Bu saziş 9 saatlıq iş gününə (birinci sazişdə 9,5 saatlıq) əməl olunması, xəstəliyə görə 2 aylıq məzuniyyət verilməsini (birinci sazişdə 1,5 ay), 3 növbəli işin tətbiqini, İran təbəələri və digər millətlərdən olan fəhlələr arasında qeyri-bərabərliyin aradan qaldırılmasını və i.a. nəzərdə tuturdu[60].

Tətilin başa çatdırılmasında bolşeviklərin qələbəsinə yol vermək istəməyən şendrikovçular "iqtisadi terrora", yəni neft buruqlarının yandırılmasına əl atdılar. İ.Şendrikov mədənlərdə çıxış edərək, fəhlələri tətili davam etdirməyə çağırır, yeni tələblər hazırladığını bildirirdi. Bu tələblər hazırlandı və dekabrın 30-da "Elektriçeskaya sila" zavodunda, böyük fəhlə kütləsinin əhatəsində Rusiya fəhlə hərəkatı tarixində ilk kollektiv müqavilə imzalandı. "Mazut konstitusiya"sı adı ilə məşhur olan bu müqavilə bolşeviklərin dekabrın 27-də imzaladıqları sazişin şərtlərinə əlavə olan aşağıdakı maddələri nəzərdə tuturdu: tətil günləri üçün fəhlələrə əmək haqqı ödənilməsi; fəhlələrə mənzil, kerosin, neft və su verilməsi; əmək qabiliyyətini itirənlər üçün 3 ay müddətində əmək haqqının yarısının saxlanması; tətilçilərin cəzalandırılmayacağına təminat verilməsi[61].

1904-cü ilin kollektiv müqaviləsi Bakı fəhlələrinin çox böyük nailiyyəti olub, onun maddi vəziyyətini xeyli yaxşılaşdırdı. Neft sənayeçilərindən qoparılmış güzəştlər pulla hər ay 150 min manata və ya fəhlələrin ümumi əmək haqqının 20 faizinə bərabər idi[62].

RSDFP-nin bolşevik Bakı Komitəsi və "Balaxanı və Bibiheybət fəhlələrinin təşkilatı" arasındakı qarşıdurmada bu dəfə şendrikovçular qalib gəldilər. Halbuki sonralar sovet tarixşünaslığında dekabr tətilinin təşkili və keçirilməsindəki bütün xidmətlər yalnız bolşeviklərə aid edilirdi. Lakin şendrikovçuların uğuru da çox çəkmədi. 1905-ci ilin yanvarında onlar tərəfindən yaradılmış "Bakı fəhlələr ittifaqı" (Bakı Sovetində çoxluq toplayaraq) keçirilən tətillərdə təxribatçılıqla məşğul olmağa başladı.

1906-cı ildə isə şendrikovçuların neft sənayeçiləri və polislə ünsiyyətdə olması və bir çox korrupsiya faktları aşkar edildi. Həmin ilin iyun ayında onlar RSDFP birləşmiş təşkilatının (bolşeviklər və menşeviklər) iclasında partiyadan kənar edildilər.

Şendrikovçular haqqında tərtib olunmuş cinayət işi RSDFP Mərkəzi Komitəsinə göndərildi.

Beləliklə, XX əsrin əvvəlindən bəri Azərbaycanda yetişən inqilabi böhran 1904-cü ilin dekabrında güclü ümumi tətillə başa çatdı. Bu tətil Rusiya imperiyasının ucqarlarında idarəçiliyin köhnə forma və metodlarının qeyri-mümkünlüyünü üzə çıxarıb bir daha təsdiq etdi.

1905-ci il Rusiyada ictimai-siyasi hərəkatlar tarixində zirvə mərhələsi, xalq kütlələrinin mütləqiyyətlə, sosial və milli əsarətə qarşı mübarizəsində çox mühüm pillə oldu.

Bütün ölkəni lərzəyə salmış 9 Yanvar hadisələri ümumi partlayışa səbəb oldu. Eyni zamanda yanvar çıxışları Bakıdakı ümumi dekabr tətilinin davamı idi. Hərəkat digər şəhərlərdə də genişlənirdi. Elə həmin ay Tiflis, Gəncə, Batum, Kutaisi və Zaqafqaziya dəmir yolunun fəhlələri tətilə başlamış, Gədəbəyin mis mədənlərində, Ləki stansiyasındakı yağ zavodunda çalışanlar işi dayandırmışdılar.

Çarizm tətil hərəkatına qarşı polis tədbirini gücləndirdi. 1905-ci il fevralın 15-də müvəqqəti Bakı general-qubernatoru vəzifəsi təsis edildi, fevralın 18-dən isə II Nikolayın fərmanı ilə Bakı şəhəri və quberniyasında hərbi vəziyyət tətbiq olundu və digər tədbirlər görüldü.

1905-ci ilin martında çar hökuməti senator Kuzminskiyə Bakı şəhəri və quberniyasını təftiş etməyi tapşırdı. Çar hakimiyyət orqanları fəhlə kütlələrini sakitləşdirmək üçün sahibkarlar və neftçi fəhlələrin nümayəndələrinin birgə müşavirəsini çağırmağı qərara aldı; apreldə Peterburqda maliyyə nazirinin sədrliyi altında "fəhlələrin məişətinin qaydaya salınması və sığortası üzrə" komissiya təşkil olundu. Bu zaman cəza qüvvələri tətil hərəkatını boğmaq üçün Azərbaycanda cəmləşdirilirdi.

1905-ci ilin yaz və yayında ölkədə fəhlə hərəkatı daha geniş vüsət aldı, Azərbaycandakı çıxışlar da kəskin xarakter almağa başladı. Mart-aprelin əvvəllərində Gəncə, Bakı, Ağstafa, Yevlax, Hacıqabul dəmiryolçuları tətilə başladılar, Tiflis və Aleksandropolun yol fəhlələri də onlara qoşuldular. Tətil 1905-ci il aprelin 12-dək davam etdi. Bu çıxışlara RSDFP Qafqaz İttifaq Komitəsi və yerli partiya orqanları rəhbərlik edirdi.

Bakıdakı Bir may tətilləri mayın 10-da ümumi tətilə çevrildi. Azərbaycanlı fəhlələrin kütləvi şəkildə iştirak etdiyi bu tətillərdə 26 hüquqi, siyasi və iqtisadi tələb irəli sürüldü. Onların tələbləri ilə tanış olmaq üçün tərkibinə Bakı dumasının üzvləri H.A.Aşurov, İ. Hacıyev, İ.Hacınski, K.Səfərəliyev və quberniya qazısı daxil olan xüsusi komissiya Balaxanıya gəldi. Mayın 14-də komissiya azərbaycanlı sahibkarlara məxsus mədənlərin müdiriyyəti ilə birlikdə müsəlman fəhlələrin mitinqini keçirdi. Burada irəli sürülən tələblər neft sənayeçiləri qurultayı Şurası tərkibinin azərbaycanlılar hesabına genişləndirilməsi, azərbaycanlı fəhlələrdən usta vəzifəsinə qəbulun artırılması, müsəlman fəhlələrə dini ehtiyaclarını ödəmək üçün şərait yaradılması və onlara tibbi xidmətin

yaxşılaşdırılmasından ibarət idi[63].

1905-ci ilin yayında Azərbaycanda tətil hərəkatının artması müşahidə olunur. İyun-iyul aylarında bu hərəkat Bakının bütün sənaye müəssisələrinin dörddə üçünü əhatə etmişdi[64]. Təkcə neftçilər deyil, həm də dəmiryolçular, gəmi təmiri emalatxanalarının fəhlələri, Xəzər ticarət donanması gəmilərinin çoxunun komandaları, Bakı apteklərinin işçiləri və b. tətil edirdilər. Hərəkat qəzalara da keçərək, ağ neft kəməri fəhlələrini, Nuxa və Şuşanın ipəksarıyıcılarını və Gədəbəyin misəridənlərini əhatə etdi[65].

İyul-avqustun əvvəllərində RSDFP Bakı Komitəsi tətilə hazırlıq gördü, lakin digər siyasi qüvvələrin əks-fəaliyyəti ilə əlaqədar bu niyyətin həyata keçirilməsi mümkün olmadı. Bundan başqa, neft mədənlərində şendrikovçular tərəfindən yanğınlar təşkil olundu. Belə ki, Abşerondakı 3133 qazıma buruğundan 1795-i (57,2 faiz) yandı.

Bu, hakimiyyət orqanlarının əlində çıxışları yatırmaq üçün bəhanə oldu. Avqustun 22-də mühasirə vəziyyəti elan edildi. Çar hökumət orqanları tətilçilərə qarşı qoşun yeritdi, repressiyalar və şəhərdə polis terroru artmağa başladı. Eyni zamanda hökumət neft sənayeçiləri və fəhlələr arasında qarşılıqlı münasibətləri nizama salmağa cəhd göstərirdi. Yaranmış vəziyyətlə əlaqədar sentyabrın 30-da Peterburqda müşavirə çağırıldı. Burada müsəlman fəhlələrinin mənafeyini Ə.Topçubaşov müdafiə etdi. Ə.Ağayev fəhlə məsələsinin qanunvericilik yolu ilə nizama salınması zərurətindən danışdı.

1905-ci ilin yazı və yayında Azərbaycanda kəndli hərəkatı geniş miqyas aldı. Kəndlilər çarizmin köçürmə siyasətinə qarşı çıxır, vergiləri ödəməkdən, mükəlləfiyyətləri yerinə yetirməkdən boyun qaçırır, xəzinə meşələrini qırır, malikanələri dağıdır, hökumət sərəncamlarını yerinə yetirməkdən imtina edirdilər. Lakin bütün bunlar əsasən kortəbii xarakter daşıyırdı.

Bu dövrdə kəndlərdə qaçaqçılıq geniş yayılmışdı. Yelizavetpol quberniyasındakı qaçaqlardan Qandal Nağı, Əli Məhərrəm oğlu, Kərbəlayı Əsgər və b. xüsusən çox şöhrətlənmişdilər[66].

Çar hökumət orqanları kəndlilərə qarşı amansız cəza tədbirləri tətbiq edir, sakinləri əldə silah sosial ədalətsizliyə qarşı çıxan və ya xalq qisasçılarına kömək göstərən kəndləri məhv etməkdən belə çəkinmirdilər.

Cənubi Qafqaz, o cümlədən Bakı, Ağstafa, Hacıqabul, Yevlax və Gəncə dəmiryolçularının tətili 1905-ci ilin payızında mühüm hadisə oldu. Diyarın dəmir yollarında qatarların hərəkəti dayandı, yollar tətil komitələrinin əlinə keçdi[67]. Oktyabr günlərində Bakının bir çox iri müəssisələrinin fəhlələri tətilə başladılar. Bu zaman və noyabrın sonunda Nuxa və Şuşanın ipəksarıma fabriklərində, Ağdam pambıqtəmizləmə zavodunda, Xəzər ticarət donanmasında tətillər baş vermişdi.

1905-ci ilin payızında azadlıq hərəkatının yüksəlişi, ümumi oktyabr tətili ölkədə inqilabi şəraitin kəskinləşməsinə dəlalət edirdi.Oktyabrın 17-də II Nikolay rejimi iflasdan xilas etmək məqsədilə, eləcə də Rusiya xalqlarına mülki və siyasi azadlıqlar vermək niyyəti ilə Dövlət dumasının çağırılması haqqında manifest verdi. Lakin çarizm özünün geniş təbliğ edilən vədlərini yerinə yetirməyə

tələsmirdi.

Sol siyasi təşkilatların təşəbbüsü ilə oktyabrın sonlarında Bakı və Gəncədə kütləvi siyasi mitinqlər və nümayişlər keçirildi. Bu tədbirlərdə zəhmətkeşləri beynəlmiləl ittifaqı möhkəmləndirməyə və mütləqiyyətə qarşı silahlı mübarizəyə hazırlaşmağa çağırırdılar[68].

Oktyabrın 25-də Qafqaz canişini İ.İ.Vorontsov-Daşkovun manifestin necə başa düşülməsini "izah edən" elanı dərc olundu[69]. Bakı şəhəri və quberniyasının müvəqqəti general-qubernatoru Fadeyevin sərəncamı ilə hər cür "kütləvi küçə çıxışları və xalq yığıncaqları" qadağan edilirdi. Çar hakimiyyət orqanları vəd edilmiş "azadlıqlar"ın əvəzinə əhalini amansız cəza tədbirləri ilə hədələyirdi[70].

Bakı fəhlələrinin mübarizəsi şəhər əhalisinin digər təbəqələrinə güclü təsir göstərirdi. Oktyabr-dekabr ayları ziyalılar və qulluqçuların ictimai-siyasi fəallığının inkişafında, onların (mühəndis və texniklərin, vəkillərin, həkimlərin, baytar işçilərin, zabitlərin, müəllimlərin, şagirdlərin, əczaçıların, feldşerlərin, məmurların, poçt-teleqraf və kontor işçilərinin və b.) öz həmkarlar təşkilatlarını yaratmalarında mühüm mərhələ oldu. Ziyalılar çarizmin siyasətinə öz münasibətlərini bildirir, verilmiş vədlərin yerinə yetirilməsini, məclisi-müəssisanın çağırılmasını tələb edirdilər. Orta ziyalı təbəqələrinin tələblərində peşələri ilə bağlı məsələlər (maddi vəziyyətin yaxşılaşdırılması və i.a.) öz əksini tapırdı.

1905-ci il hadisələri Azərbaycan müəllimlərinə də böyük təsir göstərirdi. Müəllimlərin bütün mütərəqqi hissəsini birləşdirən ümumi platforması məktəblərin demokratikləşdirilməsi uğrunda mübarizə idi. Müəllimlər azadlıq hərəkatına, Rusiyanın siyasi cəhətdən yenidən qurulması ideyasına tərəfdar çıxırdılar. 1905-ci ilin dekabrında azərbaycanlı müəllimlər Nazirlər Şurasının sədrinə və Qafqaz canişininə müraciətdə ilk dəfə olaraq kollektiv surətdə özlərinin maddi və hüquqi vəziyyətləri, Azərbaycan əhalisi içərisində xalq təhsili sisteminin kökündən dəyişdirilməsi zərurəti haqqında məsələ qaldırırdılar. Məsələn, N.Nərimanov, Ü.Hacıbəyov və b. xalq təhsili əməkçilərinin siyasi özünüdərk oyanışında azadlıq hərəkatının oynadığı rolu qeyd edirdilər.

Ə.Topçubaşov Bakı müəllimlərinin həmkarlar ittifaqının yaradılmasını alqışlayır və müdafiə edirdi.

1905-ci ilin sonunda Bakı orta məktəb şagirdlərinin hələ fevral ayında başlamış hərəkatı geniş miqyas aldı. Gənclər əsaslı məktəb islahatı tələb edir, mühüm ümumdemokratik şüarlar irəli sürürdülər. Yeniyetmələrin hərəkatı ictimai-siyasi əhəmiyyətə malik idi və rejimə qarşı çıxışa çevrildi. Siyasi təşkilatların şagird gənclər arasında apardığı işlər nəticəsində onların təşkilatları yaradıldı. Görkəmli hümmətçilər A.D.İsmayılov, H.Q.Terequlov, M.Əzizbəyov, texniki məktəbin şagirdləri Z.D.Qulubəyov, M.B.Axundov və A.B.Yusifzadə də onların içərisində iş aparırdılar. Dekabrda azərbaycanlı şagirdlərin "Üxüvvət" ("Qardaşlıq") təşkilatı yaradıldı.

Bu dövrdə Gəncə gimnaziyaçılarının, Şuşa realnı və Zaqatala şəhər məktəbləri şagirdlərinin tətilləri baş verdi.

Noyabrın ortalarında Bakı, Gəncə və Zaqatalanın poçt-teleqraf işçiləri rabitəçilərin Ümumrusiya tətilinə qoşuldular.

Moskvada dekabr silahlı üsyanı Azərbaycanda fəhlə hərəkatına yeni təkan verdi. Qafqaz və Orta Asiya dəmiryolçularının dekabrın 7-də açılan konfransı Rusiya dəmiryolçularının ümumi siyasi tətilinə qoşulmağı qərara aldı. Dekabrın 10-da başlayan tətil Bakı, Biləcəri, Gəncə, Ağstafa və b. stansiyaların fəhlə və qulluqçularını əhatə etdi. Dəmir yolda hərəkətin idarə olunması yenidən tətilçilərin əlinə keçdi. Dəmiryolçuların tətili 1905-ci il dekabrın sonunadək davam etdi.

1905-ci ilin noyabr-dekabrında Xəzər hərbi donanmasının əsgər və matrosları içərisində təbliğat-təşviqat işi gücləndi. Bu işdə həm RSDFP BK yanında hərbi qrup, həm də eserlərin hərbi komissiyası böyük rol oynayırdı. Bakıda yerləşdirilmiş hərbi hissələrlə əlaqə yaradıldı. Noyabrın sonlarında bəzi alayların əsgərləri öz tələblərini komandanlığa təqdim etdilər. Bakı qarnizonunda bir sıra hissələrin əsgərləri dekabrın 12-də keçirdikləri nümayişdə həbs edilmiş inqilabçı matrosların azadlığa buraxılmasını tələb etdilər. Həyəcanlar Gəncə və Zaqatala qarnizonlarının hissələrini də əhatə etdi.

"Ən etibarlı" sayılan kazak hissələri belə tərəddüd etməyə başladı. Qazaxdakı və Yevlaxdakı kazak dəstələri polis xidmətini yerinə yetirməkdən boyun qaçırdılar. Gəncədə 1-ci Labinsk alayının kazakları içərisində həyəcan başlandı.

RSDFP Bakı Komitəsi yaranmış vəziyyətdən ümumi siyasi tətil keçirmək üçün istifadə etmək qərarına gəldi. 1905-ci il dekabrın 13-də Bakı fəhlələrinin 1904-cü il tətilinin ildönümü günü Bakı Fəhlə Deputatları Soveti fəhlələrin təkidi ilə ümumi siyasi tətil elan etdi. Sovetin şendrikovçu rəhbərliyi tətil başlayanda ona iqtisadi xarakter verməyə cəhd göstərdi. Lakin tətil bütün Bakı rayonuna yayılaraq geniş miqyas aldı. Bir çox zavod və mədənlər, konka, yerli qəzetlərin buraxılışı dayandı, ziyalıların bir hissəsi tətilə başladı. Lakin tətil silahlı üsyana çevrilmədi, siyasi təşkilatların hamısı onu müdafiə etmədiyi üçün o, heç kütləvi tətilə də çevrilmədi. Çünki əhalinin geniş təbəqələrini, əsgərləri, matrosları və b. tətilə cəlb etmək mümkün olmadı[71].

Burjuaziya və ziyalıların əsas hissəsi sol partiyaların zorakılıq ve ifratçılıq meyillərindən çəkinmir, quruluşun islahatlar, parlament demokratiyasını tədricən həyata keçirmək yolu ilə dəyişdirilməsini dəstəkləyir, sinfi sülh ideyasını, əmək münaqişələrinin danışıqlar vasitəsilə həllini sinfi mübarizədən üstün tuturdu. Bu görüşlərin tərəfdarları Rusiyada əmək və kapital arasında qarşılıqlı münasibətləri nizamlaya, fəhlələrin mülki və siyasi hüquqlarını müəyyənləşdirə biləcək fəhlə qanunvericiliyinin həyata keçirilməsi zərurətini də qeyd edirdilər.

Moskvada dekabr silahlı üsyanının məğlubiyyətindən sonra çıxışlar zəifləməyə başladı. Lakin Bakıda fəhlə hərəkatı yeni mərhələyə qədəm qoydu. Ona RSDFP-nin birləşmiş (bolşevik və menşeviklərin) Bakı təşkilatının icraiyyə komitəsi, eserlər partiyasının Bakı Komitəsi, milli sosial-demokrat "Hümmət" təşkilatı rəhbərlik edirdi. Mayın 1-i ümumi tətillə qeyd olundu. Sonra tətillər sənaye müəssisələrini əhatə etməyə başladı. Mədənlərin azərbaycanlı fəhlələri

mübarizəyə getdikcə daha çox qoşulurdu. İyulun ortalarında mədənlərdə fəhlələrin artıq 65 faizi tətil edirdi.

Menşeviklər Bakı fəhlələrinin tətil hərəkatını avropasayağı mübarizə yollarına keçirməyi təbliğ edir, mülayim tələblərə çağırırdı.

1906-cı ilin yazında Bakıda şagirdlərin iri tətili baş verdi. Gəncə şagirdləri də tətil elan etdilər, burada sonralar yerli şagird təşkilatı yarandı.

İyun-iyul aylarında Xəzər ticarət donanması dənizçilərinin tətili baş verdi. Bu tətil onların Qara dənizdən olan həmfikirlərinin çıxışları ilə səsləşirdi. Elə bu dövrdə Tağıyevin toxuculuq fabriklərində də iri tətil olmuşdu və i.a.

Lakin tətillər dalğası ümumi tətilə çevrilmədi. Belə ki, siyasi təşkilatların mövqeyi bu məsələdə eyni deyildi. 1906-cı ilin yayı ərəfəsində təkcə RSDFP BK İcraiyyə Komitəsinə deyil, həm bütün komitələrə rəhbərlik edən menşeviklər onun keçirilməsini əleyhinə çıxır, kadetlər, şendrikovçular, "spesifiklər" və b. onları müdafiə edirdilər[72]. Milli ziyalıların da əsas hissəsi kütləvi çıxışlara mənfi münasibət bəsləyirdi.

Tətillərin artması çar hakimiyyət orqanlarını təşvişə saldı. Fəhlələrin həbsi və sürgün edilməsi başladı. Tətil hərəkatı ilə mübarizə məqsədilə II Nikolayın 1906-cı il 28 sentyabrda verdiyi fərmana görə, Bakı xüsusi qradonaçalnikliyə ayrıldı, şəhərin və onun mədən-zavod rayonlarının birlikdə idarə edilməsi onun qradonaçalnikinə həvalə edildi. Eyni zamanda hakimiyyət orqanları, neft sənayeçiləri və fəhlələrin nümayəndələri ilə birlikdə müşavirə keçirilməsini təklif etdilər. Bolşeviklərin ciddi əks-fəaliyyətinə baxmayaraq, bir sıra müəssisələrdə müşavirəyə nümayəndələrin seçkisi keçirildi. Bu müşavirə 1906-cı ilin dekabrında Peterburqda keçirildi. Burada fəhlələrə ancaq onların tələblərinin neft sənayeçilərinin növbəti qurultayında nəzərdən keçirilməsi vəd olundu.

Neft Sənayesi Fəhlələri İttifaqının, fəhlə və qulluqçuların bir sıra digər həmkarlar təşkilatlarının yaradılması bu ilin mühüm hadisəsi oldu.

1906-cı il hərbi çıxışların fəallaşması ilə səciyyəvidir. Hərbi məhkəmə yanvar ayında 1905-ci ilin oktyabrında qaragüruhçuların nümayişini dağıtmaq üstündə həbs olunmuş matrosları cəzalandırmağa cəhd göstərdi. Lakin Bakı fəhlələri dənizçilərin mühakimə edilməsinə qarşı öz güclü səsini qaldırdı. Məhkəmə 3 matrosa bəraət, qalanlarına isə qısamüddətli həbs cəzası verməyə məcbur oldu.

1906-cı ilin əvvəlində Xəzər hərbi donanmasının hissələri, habelə Samur alayının əsgərləri içərisində həyəcanlar baş verdi. Hakimiyyət orqanları dənizçilərə qarşı cəza tədbirləri gordü.

Hissələrdə ordunun çarizmlə mübarizə üçün xalqın tərəfinə keçməsi zərurəti haqqında təbliğat aparılırdı. RSDFP BK, eserlər partiyasının Bakı Komitəsi və b. əsgər və zabitlər içərisində iş aparırdı.

Qafqaz Hərbi Dairəsi qoşunlarının komandanı 1906-cı ilin oktyabrında Peterburqa məlumat verirdi ki, Bakı qarnizonu hissələri içərisində inqilabi təbliğat genişlənir.

1906-cı ildə kəndli hərəkatı da genişlənməkdə davam edirdi. İlin birinci yarısında bu hərəkat Azərbaycan qəzalarının çoxunu əhatə etmişdi. Kəndli həyəcanları 1905-ci ildəki şəkildə təzahür edirdi.

Nuxa, Yelizavetpol, Qazax, Cavanşir, Quba, Göyçay qəzalarında və Zaqatala dairəsində qaçaqlar fəallaşmışdı. Nuxa qəzasında 10 qaçaq dəstəsi fəaliyyət göstərirdi. Zaqatala dairəsində Qaçaq Yusifin başçılıq etdiyi dəstə özünün cəsarətli hərəkətləri ilə fərqlənirdi. Yelizavetpol qəzasında xəzinə kəndi Mingəçevirin sakinləri elliklə mübarizəyə qalxmışdılar. Onlar hər hansı hakimiyyəti tanımadıqlarını bildirib hamılıqla qaçaqlıq edirdilər. Bu qəzaya qarşı iri cəza dəstələri göndərilmişdi, əməliyyata isə general-qubernator özü başçılıq edirdi.

Aqrar hərəkatın gedişində Cənubi Qafqaz kəndliləri arasında əlaqələr yaranırdı. Zaqatala dairəsinin kəndliləri Tiflis quberniyası Sığnaq və Telav qəzalarının, habelə Dağıstan vilayətinin üsyan qaldırmış kəndlilərinə kömək göstərirdilər. İrəvan quberniyasının erməni və türk-müsəlman kəndliləri mülkədar zülmünə və daşnakların törətdikləri özbaşınalıqlara qarşı birgə çıxış edirdilər.

1907-ci ildə bütövlükdə imperiyada inqilabi hərəkat kəskin surətdə zəiflədiyi bir vaxtda, Bakı fəhlələrinin tətil mübarizəsi kifayət qədər yüksək səviyyədə qalmaqda idi. Bu, sahibkarlar tərəfindən dekabr müqaviləsinin pozulması ilə əlaqədar fəhlələrin vəziyyətinin xeyli pisləşməsi, habelə neft sənayesində əlverişli konyunktura və Bakıda vəziyyətin mürəkkəbləşməsindən çəkinən hakim dairələrin ehtiyatlı siyasəti ilə izah olunurdu.

Təkcə yanvarda Bakıda 7000 nəfərdən çox sənaye fəhləsinin iştirak etdiyi 32 iqtisadi tətil baş vermiş, onların tələblərində həmkarlar ittifaqları və mədən-zavod komissiyalarının hüquqlarının tanınması kimi məsələlər də öz əksini tapmışdı.

1907-ci ilin birinci yarısında Azərbaycan qəzalarında fəhlələr bir sıra güclü çıxışlar keçirdilər. Fevralın 6-da Gədəbəy misəritmə zavodunun, mayın əvvəllərində Nuxada 14 ipəksarıyıcı və ipəkəyirici fabrikində 1150 nəfər fəhlənin, Şuşada bir sıra sənətkarlıq emalatxanaları fəhlələrinin tətili baş verdi.

1907-ci ilin birinci yarısında Azərbaycanda tətil mübarizəsinin kulminasiya nöqtəsi Xəzər ticarət donanması dənizçilərinin martın 9-dan aprelin 25-dək davam edən tətili oldu. Çıxışa sosial-demokratların və əsasən eserlərin təmsil olunduqları tətil komitəsi rəhbərlik edirdi. Hümmətçi M.Hacıqasımov onun tərkibinə daxil idi. "Hümmət" tətil edən azərbaycanlı fəhlələr içərisində böyük təşviqat işi aparırdı.

Tətil komitəsi bütün Xəzər ticarət donanmasının gəmi komandalarının vəziyyətini iqtisadi və hüquqi-siyasi aspektlərdən əks etdirən 48 bənddən ibarət tələblərini işləyib hazırladı.

Xəzərin digər limanlarında dayanan gəmilərin komandaları da ona qoşulduğu üçün tətil ümumi xarakter daşıyırdı və Ümumrusiya əhəmiyyəti kəsb edərək, ölkənin iqtisadi həyatına güclü təsir göstərdi. General-mayor baron fon Taube başda olmaqla Bakıya, Petrovska, Krasnovodska, Həştərxana cəza ekspedisiyaları göndərildi, kütləvi repressiyalar başlandı.

Bu məsələ II Dövlət Dumasında müzakirə olundu. Bakı fəhlələri cəza tədbirlərinə etiraz olaraq aprelin 18-də 25 minlik siyasi tətil keçirdilər. Qara dəniz,

Petrovsk, Krasnovodsk, Həştərxan dənizçiləri, ölkənin digər sənaye mərkəzlərinin fəhlələri Bakı dənizçiləri ilə həmrəy olduqlarını bildirdilər. Tətil beynəlxalq əks-səda da doğurmuşdu. Tətilçilər öz tələblərinin müəyyən qədər təmin edilməsinə nail oldular.

1 May günü Bakıda iri tətil və nümayişlərlə keçdi. Bu gün Gəncədə də qeyd edildi.

Mütləqiyyətin Azərbaycanda müstəmləkəçilik siyasəti və xalq hərəkatı ilə mübarizə formalarından biri milli nifaq salmaq, millətlərarası toqquşmalar təşkil etmək idi. Həmin toqquşmalardan ilk ən böyüyü 1905-ci il fevralın 6-9-da Bakıda təşkil olundu. Çar hökumət orqanları milli ehtirasları qızışdırmaq üçün Azərbaycan və erməni burjuaziyası arasındakı müəyyən ziddiyyətlərdən bacarıqla istifadə etdi. Polis və qoşunlar yüzlərlə adamın qurban getdikləri qanlı toqquşmalara qarışmırdı. Bu amansız təxribat cəmiyyətin mütərəqqi qüvvələrinin dərin hiddətinə səbəb oldu. Şəhərdə ruhanilərin, ziyalıların iştirakı ilə kütləvi nümayişlər, mitinqlər keçirilirdi. Demokratik mətbuat, sosial-demokrat təşkilatları, o cümlədən "Hümmət" bu işdə mühüm fəaliyyət göstərirdi. "Hümmət"in Azərbaycan dilində buraxdığı intibahnamə "Rədd olsun mütləqiyyət!", "Yaşasın bütün xalqların qardaşlığı!" şüarları ilə bitirdi. Bu hadisələri törədən səbəbləri araşdırmaq üçün sonralar yaradılan komissiyada çox-millətli Bakı ziyalılarının nümayəndələri yerli hakimiyyət orqanlarının iç üzünü açır, çirkin əməllərini aşkarlayır, iki xalqın düşmənçiliyi üçün digər sanballı səbəblər olmasını rədd edirdilər.

M.Ə.Sabirin 1905-ci ildə "Həyat" qəzetində dərc olunmuş "Beynəlmiləl" şeri xalqlar dostluğunun və birliyinin əsil himni kimi səslənirdi.

Erməni-azərbaycanlı toqquşmaları yenidən 1906-cı ildə (Bakı, Yelizavetpol və İrəvan quberniyalarında) təşkil olundu. Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələri H.Zərdabi, F.Köçərli, N.Vəzirov, Ə.Ağayev, Ü.Hacıbəyov, H.Minasazov, Ə.Topçubaşov, M.Şahtaxtinski, Z.Sultanov və b. bu hadisələri böyük bir bəla kimi qiymətləndirir, mətbuatdakı çıxışları ilə onların təxribatçı xarakterini açıqlayır, hər vasitə ilə bu amansız və mənasız ədavətə son qoymağa çalışırdılar. Hökumətin milli ədavəti qızışdırmaq siyasətinin, mürtəce millətçi təbliğatın ifşası, tərəqqi və azadlıq uğrunda xalqlar dostluğu, onların birliyi ideyalarının təbliği, "Molla Nəsrəddin" jurnalı və onun redaktoru C. Məmmədquluzadənin fəaliyyətində ən aparıcı istiqamətlərdən biri idi. Xüsusi sosial-demokrat orqanı "Dəvət-Qoç" qəzeti (1906) də bu məqsədlərə xidmət göstərirdi.

Ə.Ağayev Azərbaycan xalqının ünvanına deyilən hər cür böhtançı fikirləri yerli və paytaxt mətbuatının səhifələrində hərarət və qızğınlıqla ifşa edirdi.

Fevral hadisələrindən dərhal sonra Əhməd bəy Ağayev Bakı şəhər qlavası (meri) K.A.İretskiyə müraciət edərək, baş verən faciəni dayandırmaq üçün təcili tədbirlər görülməsinin vacibliyi barədə tələb irəli sürmüş, qara qüvvələrin yeni toqquşmalar törətmək istəyinə aid xəbərdarlıq edərək, şəhər administrasiyasını biganəlik və fəaliyyətsizlikdə günahlandırırdı. Ə.Ağayev hər iki tərəfin iştirakı ilə fövqəladə iclas keçirməyin, görkəmli ziyalı nümayəndələri və din xadimlərinin də xalqa müraciətinin

vacibliyini İretskinin diqqətinə çatdırıb vurğulamışdı. Gərgin fevral günlərində Ə.Ağayev qələm əhlinin bu hadisələrdə mühüm rolu haqqında "Kaspi" qəzetində məqalələr çap etdirərək, mətbuatı ilk növbədə faciənin əsil səbəblərini üzə çıxarmağa, emosiyalara uymamağa və obyektivliyi saxlamağa borclu saydığını bildirirdi. Onun fikrincə, bu faciəni törədənlər və onun bilavasitə iştirakçıları cəmiyyət qarşısında günahlarını etiraf edib qanunla cəzalandırılmalıdırlar[73].

Millətlərarası münasibətlərin tənzimlənməsi məqsədilə ictimai təşkilatların yaradılmasında da Ə.Ağayevin rolu böyük idi. 1905-ci ilin iyun ayında şəhər duması "əhalinin barışdırılması üçün Bakı komitəsi" təşkil etdi[74]. Komitədə duma üzvləri ilə yanaşı, həm də şəhər əhalisinin bir çox nümayəndəsi təmsil olunmuşdu. Toqquşmalar nəticəsində zərərçəkənlərə maddi yardım göstərilməsi ilə yanaşı, yerli və Ümumrusiya mətbuatı vasitəsilə millətlərarası sülh çağırışları yaymaq və baş vermiş insidentlərin mahiyyətini araşdırmaq komitənin vəzifələrinə daxil idi və onun sədri şəhər qlavası vəzifələrini icra edən K.Səfərəliyev təyin olunmuşdu.

Azərbaycan ictimaiyyətini burada Ə.Topçubaşov, M.Hacınski, M.Muxtarov, İ.Hacıyev təmsil edirdilər. Ə.Ağayev isə bu komitənin redaksiya komissiyasına "Həyat" qəzetinin baş redaktoru kimi daxil idi[75].

Cənubi Qafqaz şeyxülislamı axund Əbdülsalam Axundzadə və diyarın müftisi Hüseyn Əfəndi Qayıbov əhali arasında böyük barışdırıcılıq işi görürdülər. H.Z.Tağıyev bu toqquşmaların əleyhinə idi. Onun təşəbbüsü və rəhbərliyi ilə yaradılmış yardım komissiyası zərər çəkənlərə kömək edirdi.

1905-1907-ci illərin güclü xalq hərəkatı bir sıra səbəblər üzündən mövcud quruluşun dəyişdirilməsinə gətirib çıxarmadı. Hətta demokratizmin ilk cücərtiləri Dövlət dumasının simasında bürokratiyanın güclü müqavimətinə rast gəldi. Mütləqiyyət hakimiyyəti 1907-ci il iyunun 3-də Dumanı qovaraq, demokratik qüvvələrə qarşı qəti hücuma keçdi və onlara gərgin mübarizələr gedişində verilmiş kiçik nailiyyətləri belə geri almağa başladı.

Lakin bunlara baxmayaraq, 1905-1907-ci illərin hadisələri ölkənin tarixində möhtəşəm rol oynadı, bütün dünyada inqilabi mübarizə və milli-azadlıq hərəkatının yüksəlişinə böyük təsir göstərdi.

Rusiya ilə həmsərhəd Şərq ölkələrində - İran, Türkiyə və Çində burjua inqilabları baş verdi. Rusiya inqilabının, xüsusən də Bakıdakı fəhlə hərəkatı və ictimai-siyasi hadisələrin təsiri İranda daha tez və daha güclü şəkildə özünü büruzə verdi.

Azərbaycan ziyalıları M.Ə.Sabir, N.Nərimanov, Ü.Hacıbəyov, H.Minasazov, M.Rəsulzadə, İ.Əbilov, N.Şeyxov və b. Cənubi Azərbaycanda Səttarxanın başçılığı altında gedən xalq hərəkatına rəğbət bəsləyir, onu müdafiə edirdilər. Onlardan bir çoxu Bakıdan olan fəhlə drujinaları ilə birlikdə bilavasitə hadisələrdə iştirak etmişdilər.

İrtica Azərbaycanda bütün ölkədə olduğundan bir qədər gec hücuma keçə bildi. Bakıda tətil hərəkatı yüksək səviyyədə qalmaqda davam edirdi. Belə ki, Bakıda təkcə avqustda 20-dən çox, bütövlükdə 1907-ci ilin ikinci yarısında isə 91

dəfə tətil baş vermiş, bunlarda 15 min nəfərdən çox adam iştirak etmişdi.

Sentyabrın 29-da hakimiyyət orqanlarının terrorçuluq əməlinin qurbanı olmuş hümmətçi fəhlə X.Səfərəliyevin dəfni ilə əlaqədar güclü nümayiş baş verdi.

1907-ci ildə digər iri siyasi çıxış noyabrın 22-də II Dövlət dumasının sosial-demokrat fraksiyası üzərində aparılan məhkəmə günündə keçirilən birgünlük ümumi siyasi tətil oldu. Burada 50 min nəfər iştirak edirdi.

Müşavirə kampaniyası, sahibkarlar və fəhlələr arasında danışıqların keçirilməsi dövrün nəzərə çarpan hadisəsi oldu. Bu məsələdə siyasi partiyaların mövqeləri eyni deyildi. Bolşeviklər müşavirənin müəyyən şərtlərlə keçirilməsinə tərəfdar çıxırdılar. Menşeviklər sahibkarlar tərəfindən heç bir təminat verilmədən müşavirədə iştirak etmək mövqeyində dururdular. Eserlər və daşnaklar müşavirəni boykot etməyi təklif edirdilər. Buna görə, habelə hakimiyyət orqanlarının bolşevik tələblərinə müqaviməti üzündən müşavirə pozuldu.

1908-ci ilin yazında, müşavirənin pozulmasından sonra, Bakıda vəziyyət dəyişsə də, fəhlələr öz niyyətlərini dəyişməmişdilər. 1 May 50 min nəfərdən çox adamın iştirak etdiyi möhtəşəm ümumi siyasi tətillə qeyd olundu.

1909-1910-cu illərdə Bakını çulğamış qaragüruhçu irtica fəhlə hərəkatının tənəzzülünə gətirib çıxardı. 1910-191-ci illərdə ayrı-ayrı kiçik müəssisələrdə seyrək tətillər baş verirdi.

Böyük təzyiqlərə məruz qalmış partiya və həmkarlar orqanları 1911-ci ilin əvvəllərində öz fəaliyyətlərini bərpa etməyə başladılar.

1912-ci il aprelin 4-də Sibirdəki Lena qızıl mədənləri fəhlələrinin 3 minlik nümayişinin gülləbaran edilməsi Rusiyada fəhlə hərəkatının yüksəlişinə güclü təkan verdi. Bütün ölkədən Bakı fəhlələrinin də iştirak etdikləri etiraz nümayiş və tətilləri dalğası keçdi. Azərbaycan qəzalarında da fəhlələr hərəkətə gəlirdi. Aprelin 5-8-də Xaçmaz rayonunda Şollar-Bakı su kəmərinin inşaatçıları tətil etdilər. Onlar İngiltərə "Qriffis və K°" firmasından əmək haqqının artırılması və iş gününün qısaldılmasını tələb edirdilər.

Mayın 7-də Nuxanın ipək emalı müəssisələri fəhlələrinin elan etdiyi, mayın 12-də ümumi xarakter alan tətildə 6 min nəfər iştirak edirdi. Mayın 15-dək davam edən və fəhlələrlə sahibkarlar arasında saziş imzalanması ilə başa çatan bu çıxış o dövrdə Rusiya ipəkçilik sənayesində ən iri tətil idi.

1912-ci ilin yayı və qışında Bakının ayrı-ayrı müəssisələrində yeni etirazlar baş qaldırdı. Dekabrda mətbəə fəhlələrinin Zaqafqaziya fəhlə hərəkatında mühüm hadisə kimi tarixə düşmüş ümumi tətili keçirildi.

Sentyabrda Nuxa ipəksarıyıcıları yenidən işi dayandırdılar. Burada baş verən həyəcanlar heç dekabrda da səngiməmişdi. Elə həmin ildə Gədəbəy mis mədəni və misəritmə zavodunda fəhlə tətilləri baş verdi.

1910-1912-ci illərdə istismarçılara və çar hakimiyyətinə qarşı yeni kəndli çıxışları müşahidə olunmuşdu. Kəndli həyəcanları Yelizavetpol, Nuxa, Şuşa, Qazax, Cavanşir, Şamaxı, Cavad, Lənkəran, Bakı, Naxçıvan qəzalarında və Zaqatala dairəsində baş verirdi. Yelizavetpol qəzasında Qatır Məmməd, Kərbəlayı Ələsgər, Məşədi Yolçu,

Qandal Nağının başçılıq etdikləri qaçaq hərəkatı geniş miqyas almışdı. 1914-cü ildə Qatır Məmməd həbs olundu və İrkutsk quberniyasına sürgün edildi.

Azərbaycan fəhlə hərəkatında yeni mərhələ olan, 1913-cü ilin yazından etibarən Bakıda artmaqda olan etiraz hərəkatı, yayda, "Xəzər-Qara dəniz cəmiyyəti" fəhlələrinin iyulun 16-da başlayan tətili ilə ümumi xarakter almağa başladı.

Nümayəndələri tətil komitəsinə daxil olmuş Bakı neftçilərinin həmkarlar ittifaqı, siyasi partiyalar və təşkilatlar (sosial-demokrat, eser) ümumi çıxışa hazırlıq görürdülər. Tətil komitəsinin çağırışı ilə iyulun 25-də ümumi tətil başladı. Hərəkatın ön sırasında mədən fəhlələri - Bakı fəhlələrinin ən məzlum hissəsi gedirdi.

İşlənib hazırlanmış tələblər (cəmisi 45 maddə) Bakının neftçi fəhlələrinin həm iqtisadi ehtiyaclarını, həm də onların vəziyyətinin siyasi-hüquqi aspektlərini əks etdirirdi.

Avqustun başlanğıcına yaxın tətildə 30 min nəfərədək fəhlə iştirak edirdi, sonra proletariatın digər dəstələri də ona qoşulmağa başladı.

Ümumi tətilin hazırlanmasında Qazı Məhəmməd Ağasıyev, M.Məmmədyarov, S.D.Yaqubov, P.A.Qraçov, A.Q.Dolidze, Y.Y. Razmaçayev və b. fəal iştirak edirdilər.

Tətil günlərində qabaqcıl fəhlələrdən Rzaqulu bəy Səməd bəy oğlu, Pyotr Dyomin, Qurban Həsən oğlu, Novruzəli Səfərəli oğlu, Sadıq Mövlud oğlu, İsmayıl İbrahim oğlu, Pavel Piskunov, İbadulla Məmməd oğlu, Vasili Xarlamov və başqaları fəhlələr içərisində geniş təşviqat işi aparırdılar.

Tətil komitəsi Azərbaycan və rus dillərində bir sıra vərəqə və müraciətnamələr nəşr etdirdi. Bakı fəhlələrinin Rusiya sənayesi və nəqliyyatının yanacaq təchizatını təhlükə altında qoyan tətili yuxarı hökumət dairələrində böyük həyəcan doğurdu. Lap əvvəldən bu tətil hökumətin cəza tədbirləri ilə müşayiət olunurdu. Polis sahibkarlarla tətilçilərin dinc danışıqlarına qarışır, onları işdən çıxarır, kazarmalardan bayıra atır, döyür və s. cəza tədbirlərini həyata keçirirdi. Hakimiyyət orqanları elektrik stansiyaları, su və neft kəmərləri, nəqliyyat və rabitədə işlərin dayandırılmasına yol verməmək üçün tədbirlər görürdü.

Tətilçilərin, demək olar ki, bütün siyasi tələbləri rədd olunurdu. Menşeviklər, o cümlədən Dövlət dumasının tətil günlərində Bakıya gəlmiş üzvləri Skobelov və Çxeidze də fəhlələri siyasi tələblərdən imtina etməyə çağırır, fabrik müfəttişliyi barışdırıcı siyasət yürüdürdü.

Hakimiyyət orqanları tətili rəhbərsiz qoydular. Tətil komitəsi tərkibinin əksəriyyəti, neftçilərin həmkarlar ittifaqlarının bir sıra üzvü həbs olundu. Lakin ümumi tətil ancaq oktyabrın 17-də başa çatdı. Onun nəticəsində neft sənayesində və onunla bağlı olan istehsalat sahələrində 490 min 735 iş günü itirildi ki, bunun da 74 faizdən çoxu neft hasilatının payına düşürdü.

Tətilçilər bir sıra iqtisadi tələblərin (əmək haqqının artırılması, mənzil haqqı və mükafatların verilməsi) ödənilməsinə nail oldular. Bu, əslində bütün irtica illərində fəhlələrin əlindən alınmışların geri qaytarılması demək idi. Sosial xarakterli bir sıra digər tələblər rədd olundu.

1913-cü ilin yay tətili Bakı fəhlələrinin çıxışlarını yenidən Rusiya fəhlə hərəkatının ön sıralarına çəkdi.

Bakıda tətil dalğasının, demək olar ki, yatdığı dövrdə - sentyabrda belə, Bakı neft sənayesi rayonu tətil hərəkatının intensivliyinə görə Peterburq və Moskva quberniyalarından sonra üçüncü yeri tuturdu.

1913-cü ildə Zaqafqaziyada baş vermiş tətillərin sayının 94-ü və onların iştirakçılarının təxminən 96 faizi Bakının payına düşürdü. Bakıdakı vəziyyət Azərbaycan qəzaları fəhlələrinə də təsir göstərirdi. İyulun 23-də Nuxanın ipəksarıma fabriklərindən birində 300 nəfərin iştirak etdiyi tətil baş verdi.

Bakı tətili Qafqaz və Orta Asiyada fəhlə hərəkatının inkişafına şərait yaratdı. Bu, 1914-cü ilin yazı və yayında Bakı fəhlələrinin yeni böyük çıxışını şərtləndirdi. Bu ilin 5 ayı ərzində Bakıda iştirakçılarının sayı 19 min nəfərdən çox olan 75 fəhlə tətili baş vermişdi.

Ümumi tətilə geniş hazırlıq işləri başlandı. Mayın ortalarında sosial-demokratlar və eserlərdən ibarət iki (əsas və ehtiyat) tətil komitəsi təşkil edildi. Bütün mədən fəhlələrinin 95 faizi ümumi tətilə tərəfdar çıxırdı. Hakimiyyət orqanları hadisələrin inkişafının qarşısını almağa cəhd göstərdi. Mayın 23-ü və 26-da birinci tətil komitəsinin bir çox üzvü həbs olundu, rəhbərlik ikinci komitəyə keçdi. Neft sənayesi fəhlələri həmkarlar ittifaqı ümumi tətilə hazırlıq işində fəal iştirak edirdi.

Bakı ətrafında başlanan, fəhlələr içərisində güclü həyəcan doğuran vəba epidemiyası tətilin elan edilməsi üçün bəhanə oldu. Neftçilərin həmkarlar ittifaqının fəhlə qəsəbələrinin tikilməsi tələbinə neft sənayeçiləri qurultayı Şurası rədd cavabı verdi. Tətil komitəsi mayın 27-də tətilə çağıran vərəqə buraxdı, mayın 28-də isə fəhlə müvəkkillərinin iştirakı ilə Bakı fəhlələrinin 60-dan çox maddəsi olan ümumi tələblərini işləyib hazırladı. Onlar bir çox hallarda bundan əvvəlki ümumi tətil dövründə irəli sürülmüş tələblərlə səsləşir, eyni zamanda yeni məzmunu ilə fərqlənirdi.

Nəinki Bakı, eləcə də bütün Rusiya fəhlə hərəkatı iqtisadi və hüquqi tələblərin belə geniş dairəsini o vaxtadək hələ görməmişdi. Onlar çıxışa daha geniş tutumlu xarakter verirdi.

Tətilin ən qızğın dövründə 1914-cü il iyunun 1-də iştirakçıların sayı təxminən 40 min nəfərə çatmışdı. 1913-cü ildə olduğu kimi, öndə neft mədənləri (xüsusən də iri firmalara məxsus mədənlərin) fəhlələri gedirdi. Hərəkat bütün Rusiyada gur əks-səda oyatdı.

Yerli sahibkarlar, həmçinin mərkəzi hökumət təqdim olunan tələblərin şişirdildiyini bildirir, buna görə də onların yerinə yetirilməsini qeyri-mümkün sayırdı. Cəza aparatı işə salındı. IV Dövlət Dumasının Bakı quberniyasından olan deputatı, Bakıya gəlmiş sosial-demokrat (menşevik) Skobelev tətilə sırf iqtisadi xarakter verməyə çalışırdı.

Tətilçilərin yekdil inadkarlığı hakimiyyət orqanlarının daha qəti tədbirlər görməsinə təkan verdi. İyunun 25-də Bakıda hərbi vəziyyət tətbiq olundu. Tətilçilər həbsxanalara salınır, mədən kazarmalarındakı mənzillərindən bayıra

atılır, Bakıdan çıxarılır, yaxud kənara (o cümlədən də Cənubi Azərbaycandan olan fəhlələri) göndərilirdi.

Məktəblərin, ticarət müəssisələrinin, tərsanələrin, elektrik stansiyalarının və başqa sahələrin işçiləri tətilçi neftçilərlə həmrəy olduqlarını nümayiş etdirirdilər.

Bakı tətili Rusiya fəhlə hərəkatının yeni mərhələsinin başlanğıcı oldu. Peterburq müəssisələrində bakılı qardaşların müdafiəsinə yönəlmiş həmrəylik çıxışları möhtəşəm miqyas aldı. Piter və Bakı hadisələri bütün Rusiya proletariatını hərəkətə gətirdi.

İyulun birinci yarısında Peterburq və Bakı fəhlələri ilə həmrəylik hərəkatında 510 min nəfərdən çox adam iştirak etmişdi. Ölkənin hər tərəfindən Bakıda tətil edənlərə yardım fondu üçün pul vəsaiti gəlirdi. Tətili yatırmaq üçün çarın daxili işlər nazirinin müavini, fövqəladə səlahiyyətlər verilmiş V.F.Cunkovski Bakıya ezam olundu, şəhərə xeyli hərbi qüvvə yeridildi.

Ağır maddi məhrumiyyətlər və Birinci dünya müharibəsinin başlanması ilə dərinləşən amansız repressiyalar şəraitində Bakı fəhlələri ümumi tətili dayandırmalı oldular. İki ay ərzində tətildə neft hasilatı fəhlələrinin 87,4 faizi, podrat qazıması fəhlələrinin 62,6 faizi, neftayırma sahəsində çalışanların 95 faizi, mexaniki istehsalat fəhlələrinin isə 84,1 faizi iştirak etmişdi. Bu dövr ərzində Bakı neft sənayesində 1913-cü il tətili dövründəkinə nisbətən 3 dəfə çox iş günü itirilmişdi.

1914-cü ildə önündə Peterburq və Bakı fəhlələri gedən tətil hərəkatı, Rusiyada baş verən digər ictimai-siyasi hadisələr inqilabın yaxınlaşdığını xəbər verirdi.

## § 4. AZƏRBAYCAN CƏMİYYƏTİNDƏ SİYASİ FƏALLIĞIN ARTMASI

XX əsrin əvvəllərində sosial ziddiyyətlərin kəskinləşməsi, fəhlələrin kütləvi inqilabi çıxışları, Azərbaycan kəndlilərinin daha tez-tez baş verən etiraz hərəkatı bütün Azərbaycan cəmiyyətinin həm siyasi və həm də ideoloji cəhətdən fəallaşması üçün obyektiv şərait yaratdı.

1905-ci ilin yazı və yayında Rusiya imperiyasında, onun ucqarlarında azadlıq mübarizəsinin yüksəlişi bütün Azərbaycan xalqının tələb, arzu və istəklərini əhatə edən ümummilli proqramın işlənib hazırlanması üçün perspektivlər açdı.

Çar hökumətinin böyük dövlətçilik siyasəti, milli zülmün güclənməsi,

ucqarlarda yaşayan xalqların hüquqlarının hər cür tapdalanması milli məsələnin tezliklə həllində maraqlı olan bütün ictimai təbəqələri bu məsələ ətrafında birləşməyə sövq edirdi. Bu dövrdə ictimai-siyasi həyat səhnəsinə Avropa və Rusiyanın ali təhsil müəssisələrində kamil peşə hazırlığına yiyələnmiş yüksək təhsilli parlaq şəxsiyyətlər nəsli gəlirdi. Onlar millətin taleyi ilə bağlı məsələlərə görə güclü həyəcan hissi keçirir, hüquqi məhdudiyyətlərin ləğvi məsələsini getdikcə daha inadla ortaya qoyur, islahatların keçirilməsini ehtirasla tələb edirdilər.

1905-ci ilin yazı və yayında mövcud quruluşun yeniləşdirildiyini bəyan edən bir sıra hökumət fərmanları və sərəncamlarının elan edilməsindən sonra, Azərbaycanda petisiya kampaniyası genişləndi. Rus imperiyasının tərkibinə qatıldıqdan sonra siyasi hüquqsuzluq və zülm şəraitində ilk dəfə idi ki, Azərbaycana, eləcə də digər milli ucqarlara öz arzu və istəklərini çar hakimiyyətinə çatdırmaq imkanı verilirdi. Bu nəcib vəzifəni ziyalıların nümayəndələri öz üzərlərinə götürürdülər. Həqiqətən yüksək peşəkarlıq və dərin siyasi-hüquqi biliklər tələb edən məsul işdə xüsusi rol görkəmli ictimai xadim Əlimərdan bəy Topçubaşova mənsub idi. Bütün petisiyalar - xahişnamələr, müraciətlər və i.a. onun bilavasitə iştirakı ilə tərtib və təqdim edilirdi. 1905-ci ilin aprelində Cənubi Qafqaz müsəlmanları adından Nazirlər Kabinetinə təqdim olunmuş petisiyaları da o tərtib etmişdi[76].

Ali hökumət idarələrinə petisiya ilə müraciət etmək qərarı Azərbaycan burjuaziyası və ziyalıları nümayəndələrinin 1905-ci il aprelin 15-də H.Z.Tağıyevin sarayında keçirilən, Qafqaz diyarında islahatların keçirilməsi zərurəti müzakirə olunan müşavirədə qəbul edilmişdi[77]. Yuxarı sosial təbəqələrin nümayəndələri Ş.Əsədullayev, R.Şirvanski, Ə.Ağayev, Ə.Topçubaşov, Ə.Ziyadxanov, Q.B.Zülqədərov və b. tərəfindən imzalanmış bu petisiya onunla əlaqədar idi ki, o, Azərbaycandan çar hökumətinə təqdim olunan ilk proqram sənədi idi. Sonralar bu sənəd digər inzibati idarələrə ünvanlanan müxtəlif müraciətlər, izahatlar üçün bir növ platforma, istinad nöqtəsi oldu. Bu zaman onun ayrı-ayrı müddəaları daha konkret məzmunla zənginləşdirildi. Azərbaycan cəmiyyətinin nümayəndələri petisiyada məhdudiyyətlərin ləğvi məsələsini qoyaraq, “imperiyada yaradılacaq bütün məşvərətçi, qanunverici və bütün digər nümayəndəli təsisatlar"da müsəlmanların təmsil olunmasına, müsəlmanlara aid qanunvericilik təşəbbüsü göstərmək, məhdudiy-yətsiz olaraq dovlət və ictimai vəzifələri tutmaq hüquqlarına xüsusi maraq göstərirdilər. Petisiya onların həmçinin Qafqazın müsəlman əhalisi nümayəndələrinə 18 fevral reskriptinə əsasən çağırılan "xalq nümayəndələri müşavirəsinə" buraxılmasını da nəzərdə tuturdu.

Qafqazda inzibati hakimiyyət orqanların müdaxiləsi olmadan tam özünüidarəçilik prinsipinə əsaslanan zemstvo idarələrinin yaradılması, habelə zemstvo və şəhər özünüidarəsində müsəlmanların hər hansı məhdudiyyət qoyulmadan iştirakının təmin edilməsi zərurətinin əsaslandırılması petisiyada

əhəmiyyətli yer tuturdu. Petisiya müəllifləri belə hesab edirdilər ki, Qafqazda, eləcə də Rusiyanın daxili quberniyalarında "tam özünüidarə ideyası"nın həyata keçirilməsi bütün məhdudlaşdırıcı qanunların ləğvi, normal mülki idarəçilik təşkilatının yaradılması, idarəçilikdə qanunçuluğun təmin olunması, şəxsiyyət və mülkiyyətin toxunulmazlığı, vicdan, söz, mətbuat (rus və ana dillərində), yığıncaq, ittifaq azadlıqları, ana dilində ümumi icbari və pulsuz ibtidai təhsilin tətbiq edilməsi şəraitində mümkündür. Petisiya əhalinin bütün təbəqələrinin mənafeyini əks etdirir, ümumdemokratik xarakter daşıyırdı və hər cür hüquq məhdudiyyətlərinə qarşı yönəldilmişdi. Petisiyanın məzmununun ətraflı təhlili onu milli-azadlıq və cəmiyyətin demokratikcəsinə yenidən qurulması uğrunda mübarizənin ümummilli proqramı hesab etməyə əsas verir. Petisiya Azərbaycan xalqının milli özünüdərkinin inkişafı üçün mühüm əhəmiyyətə malik idi və bütün milli qüvvələrin sıxlaşması və birləşməsi prosesində böyük rol oynadı.

Yelizavetpol quberniyası Zaqatala dairəsinin də müsəlmanları adından Nazirlər Kabinetinə petisiyalar 1905-ci ilin iyununda Qafqaz canişinin dəftərxanasına təqdim olundu[78]. 1905-ci ilin payızında elə həmin idarəyə Salyan və Cavad qəzalarının sakinləri adından təqdimat[79], Nuxa şəhəri müsəlman əhalisi nümayəndələrinin xahişnaməsi də təqdim olundu[80]. Bütün bu sənədlər əsasən aprel petisiyasını təkrar edirdi, ancaq bəzilərinə yerli məsələlər də daxil edilmişdi. Lakin çar hökumətinin yerli və ali idarələrinə ünvanlanmış petisiyalar, xahişnamələr və müraciətlərə baxılmırdı. Bütün cəhdlər əbəs idi. Heç bir tələb yerinə yetirilmədi, heç bir təklif həyata keçirilmədi. Çarizm məqsədyönlü şəkildə müstəmləkəçilik siyasəti - vaxtilə istila etdiyi ucqarların xalqlarına heç bir hüquq, heç bir imtiyaz verməmək siyasəti yürüdürdü.

Azərbaycan xalqının siyasi özünüdərkinin formalaşması prosesində o illərin publisistikası böyük rol oynayırdı. Çoxsaylı məqalələrin və informasiya məlumatlarının müəllifləri öz yazılarında təkcə siyasi hadisələri işıqlandırmaqla kifayətlənmirdilər. Onlar bu hadisələrin hər birini Azərbaycan əhalisinə sübutlu-dəlilli şərhlərlə izah edir, bununla da milli özünüdərkin inkişafı işində mühüm vəzifəni - xalqın siyasi mədəniyyətinin yüksəldilməsi, xalqda baş verən hadisələrlə bağlılıq hissinin, millətin taleyi üçün məsuliyyət daşımağa qadirlik hissinin oyadılması vəzifəsini yerinə yetirirdi. Ə. Ağayev "Müsəlmanların petisiyasına zəruri izahatlar" adlı xüsusi məqalədə yazırdı: "Bütün rus cəmiyyətinin yaşadığı axınlar rus müsəlmanlarını da əhatə etdi. Çoxəsrlik və sonu görünməyən yuxu və mürgünün əsəri, deyəsən, aradan qalxır. Deyəsən biz də, nəhayət ki, başa düşdük ki, həyat yuxu və mürgüdə deyil, enerjidədir, həyatın sorğularına, insan təbiətinin əqli və ənənəvi inkişafının tələblərinə qərəzsiz hazır olmaqdadır... Tayı-bərabəri olmayan, görünməmiş mənzərə də bundan irəli gəlir: Rusiyanın müsəlman əhalisinin hər tərəfindən nümayəndələr göndərilir, gedirlər ki... müvafiq idarələrdə və yerlərdə öz ehtiyac və tələbatlarından danışsınlar, özləri üçün rus vətəndaşı olmaq, rus cəmiyyətinə qovuşmaq, öz sevinc və kədərini, bütün hüquq və vəzifələrini bu cəmiyyətlə bölüşmək hüququ xahiş etsinlər ki, əvvəlki tək onları kənarda qoymasınlar. Bu, müsəlmanların bütün xahişlərinin məhək daşıdır. Onlar uzun, əsrlik təcrübəyə

əsasən bilirlər ki, unudulmaq, kənarda qoyulmaq nə deməkdir"[81].

Azərbaycanın ictimai xadimləri milli qüvvələrin birləşdirilməsi işində mətbuatın sözünə böyük əhəmiyyət verərək, yerli əhalinin ana dilində qəzet nəşri və senzura əngəllərinin yumşaldılması məsələsinin zəruriliyini çar hakimiyyəti orqanları qarşısında dəfələrlə qaldırmışdılar. 1905-ci ilin iyununda "Həyat" qəzeti çıxmağa başladı. Onun birinci nömrəsində Azərbaycanda nəşr edilən, demək olar ki, bütün mətbuat orqanları üçün əsas olan aşağıdakı prinsiplər elan edilirdi: "Biz müsəlman və Rusiyanın təbəələri olduğumuz üçün rus dövlətinin siyasi və iqtisadi şəraiti çərçivəsində tərəqqi istəyirik. Biz müsəlmanlarıq və ona görə də bütün din qardaşlarımıza tərəqqi arzu edirik, dünyanın hansı guşəsində olurlarsa - olsunlar, onların yüksəlməsini ürəkdən alqışlayırıq. Biz türkük və ona görə də, hər yerdə, hər yanda bütün türklərə tərəqqi və çiçəklənmə arzulayırıq"[82].

1905-ci ilin payızında Bakıda, Gəncədə, Şuşada, Azərbaycanın digər şəhərlərində rejimin özbaşınalıqlarını, milli məhdudiyyətləri ləğv etmək, çar məmurlarını işdən uzaqlaşdırmaq tələbləri ilə zəhmətkeşlərin kütləvi siyasi nümayişləri və mitinqləri baş verirdi[83].

Azərbaycan ziyalılarının görkəmli nümayəndələri H.Zərdabi, C.Məmmədquluzadə, M.Ə.Sabir, N.Nərimanov, M.Rəsulzadə, Ə.Ağayev, M.S.Ordubadi, Ü.Hacıbəyov, Ə.Qəmküsar, Ə.Haqverdiyev, F.Köçərli və b. xalq kütlələrini çarizmin müstəmləkə siyasətinə və istismarçılara qarşı mübarizəyə çağırırdılar. "Molla Nəsrəddin" jurnalı elə ilk saylarından çarizmin müstəmləkə siyasətini qəzəblə ifşa edirdi. Jurnal xalqın gücü, onun mənəvi zənginlikləri barəsində materiallara xeyli yer verərək cəsarətlə bəyan edirdi ki, onun arxalandığı və rəğbət bəslədiyi ictimai qüvvələr - fəhlələr, "beli əyilmiş, kimi toz-torpaq içində, çoxu ayaqyalın olan "cır-cındırlı" kəndlilər, şəhər yoxsulları, "rus təhsili" almış və həyata yenicə qədəm basmış gənclər, Rusiyada despotik rejimə qarşı çıxış etdiklərinə görə "Saxalin adasına göndərilənlərdir[84]".

"Molla Nəsrəddin" "xalqın düşmənləri kimlərdir?", "kimlərə qarşı mübarizə aparmaq lazımdır?" məsələsini dəfələrlə öz səhifələrində qaldıraraq, çarizmin milli-müstəmləkə əsarətinə qarşı çıxır, Azərbaycan xalqı üçün siyasi azadlıqlar və milli hüquq bərabərliyi tələb edirdi. Jurnal çar hökuməti və mürtəce dairələri tərəfindən xalqları qızışdırıb bir-birinin üstünə qaldırması siyasətinin ifşasına ciddi diqqət yetirir, birinci sayında yazırdı: "Bu nə sirdir? Erməni-müsəlman qırğını başlayan kimi hökumət qoşunları elə bir mərəzə mübtəla olurlar ki, həkimlər onların küçəyə çıxmalarını məsləhət bilmirlər"[85].

Ziyalıların nümayəndələri "Molla Nəsrəddin" jurnalının səhifələrində milli hüquq bərabərsizliyinə qarşı çıxır, xalqı birliyə, dostluğa və birgə mübarizəyə çağırırdılar. Ü.Hacıbəyov yazırdı: "Bizim xilasımız birlikdədir. Milli və dini fərqlər bizim birliyimizə manea törətməməlidir"[86]. Onlar orta əsr qalıqlarını, fanatizmi, xurafatı və avamlığı məhvedici tənqid atəşinə tutmaqla xalq kütlələrinin milli və siyasi özünüdərkinin oyanışına və yüksəlişinə təkan verir, Azərbaycan xalqının milli-azadlıq mübarizəsinə kömək

edirdilər.

1905-ci ildə petisiya və xahişnamələrdən biri də Qafqazda zemstvo idarələrinin tətbiq edilməsi idi. Qafqaz canişini də diyarı köhnə qaydalarla idarə etməyin qeyri-mümkün olduğunu başa düşərək, zemstvonun yaradılmasına tərəfdar çıxırdı. Ona görə də "sülh və əmin-amanlıq yaratmaq" üçün canişin Tiflisdə bütün şəhərlilərin və silklərin müşavirəsini keçirməyi vəd etdi. 1905-ci il iyulun 16-da keçirilən həmin müşavirədə Qafqazdakı çar idarələrinin məmurları, mülkədarlar və kapitalistlər, burjua ziyalıları, ən iri yerli qəzetlərin redaktorları iştirak edirdi[87].

Müşavirədən az sonra canişinin göstərişi ilə "Zemstvo əsasnaməsi" dərc olundu. Bu sənəd 1864-cü il "Əsasnaməsi" əsasında hazırlanmışdı. "Zemstvo əsasnaməsi"ndə bütün silklərin iştirak etdikləri sahə zemstvo idarəsinin ən aşağı inzibati vahid olduğu göstərilirdi. Rusiyadan fərqli olaraq, Zaqafqaziyada daha kiçik, cəmisi bir neçə kənd cəmiyyətindən ibarət zemstvo vahidlərinin yaradılması nəzərdə tutulurdu. Növbəti həlqə zemstvo idarəsi olmalı idi. Onun qlasnıları (üzvləri) xüsusi sahə yığıncaqlarında və ən çox zemstvo rüsumları ödəyənlərin xüsusi seçki yığıncaqlarında seçilməli idi. Qəza qlasnılarının ümumi miqdarı iri torpaq sahibləri və qalan iştirakçıları arasında yarıbayarı bölünməli idi. Əslində bu, o demək idi ki, onlarla torpaq sahibi minlərlə və ya on minlərlə zəhmətkeşin seçdiyi qədər qlasnıya malik olacaqdı.

Hər bir qəzadan iki qlasnısı olan dairə zemstvosu diyarda ən ali zemstvo idarəsi kimi təklif olunurdu[88]. Dairə zemstvolarının hüquqları Rusiyanın daxili quberniyalarındakı quberniya zemstvolarının hüquqları ilə eyniləşdirilirdi. Layihədə nəzərdə tutulan zemstvo idarələri üzərində inzibati nəzarəti qəza rəisləri, quberniyalar və canişin Şurasının daxili işlər nazirliyindən olan üzvləri həyata keçirməli idilər və bu ciddilik də çarizmin müstəmləkə siyasətinin məqsədlərinə qulluq etməli idi.

Canişinin göstərişinə görə, qəza və quberniya müşavirələri 1905-ci ilin sentyabrınadək keçirilməli, onların protokolları sentyabrın 15-də canişin dəftərxanasına təqdim olunmalı idi[89].

Avqustun sonunda Bakı quberniyasının Quba, Cavad, Göyçay, Lənkəran və Şamaxı qəzalarında müşavirələr keçirildi. Onlarda quberniya müşavirəsinə və canişinlik şurasına seçilən nümayəndələr torpaq sahibləri silkinə mənsub idilər[90].

Bakı qəza müşavirəsinə gəldikdə isə, onun keçirilməsi avqust hadisələri ilə əlaqədar olaraq təxirə salındı.

Sentyabrın 27-də Bakı şəhərində quberniya müşavirəsi açıldı. Burada cəmisi 33 müvəkkil iştirak edirdi. Azacıq istisna ilə onların hamısı burjuaziya və mülkədarların nümayəndələri idilər[91].

Müşavirədə sədrlik edən M.Hacınski bildirdi ki, "bütün əhali idarəçilikdə şəxsən iştirak etmək hüququ alır. Bununla birlikdə isə həm də müstəqil iş və şəxsi təşəbbüsü inkişaf etdirmək imkanı qazanır"[92]. Lakin elə bu müşavirədə təhsil senzi müəyyənləşdirildi: ancaq orta təhsili olanlar qlasnı seçilə bilərdilər.

Qəza müşavirələrinin arzularına əlavə olaraq, quberniya müşavirəsi

"Qafqazın bütün zemstvo işləri"nin qəti həlli üçün canişinin yanında qəza və quberniya müşavirələrində seçilmiş nümayəndələrdən ibarət xüsusi şura yaradılması təklifinə tərəfdar çıxdı. Yuxarı sosial təbəqələr diyara aid problemlərin müzakirəsi və həllində öz iştiraklarını onun vasitəsilə fəallaşdırmaq istəyirdilər.

Yelizavetpol quberniyasında kəndli hərəkatı gündən-günə gücləndiyi üçün qəza müşavirələrini keçirmək mümkün olmadı və quberniya müşavirəsinin işi pozuldu[93]. 1905-ci il avqustun sonunda Zaqatala dairəsində də zemstvoların yaradılması üzrə müşavirələr keçirildi.

Zemstvo kampaniyası kəndlilər tərəfindən müdafiə olunmadı. Bakı quberniyasının kəndli nümayəndələri quberniya müşavirəsində iştirakdan imtina etdilər, Lənkəran qəzasının kəndliləri isə bu müşavirədə zemstvo seçkilərinin əleyhinə çıxdılar[94].

1905-ci ilin zemstvo kampaniyası uğurla nəticələnmədi və bunu canişin də etiraf etməyə məcbur oldu[95].

1905-ci ilin sonunda inqilabi hərəkatın yüksəlişi, ümumoktyabr tətili mübarizə aparan qüvvələrin elə bir müvəqqəti tarazlığına gətirib çıxardı ki, bu zaman "çarizm artıq inqilabı boğmağa", "inqilab isə hələlik çarizmi əzməyə" qadir deyildi[96]. Çar vaxt qazanmaq və mütləqiyyətin iflasının qarşısını almaq niyyəti ilə oktyabrın 17-də manifest imzaladı. Burada qanunverici dövlət dumasını çağırmaq dumaya seçkilərə əhalinin bütün təbəqələrini cəlb etmək, "əhaliyə vətəndaş azadlığının sarsılmaz əsaslarını" bəxş etmək vədi verilirdi. Azərbaycanda çar manifestinə münasibət çox müxtəlif olsa da. onun nəşri Azərbaycan cəmiyyətinin siyasi həyatı üçün müəyyən əhəmiyyət kəsb etdi. Manifestdə demokratik azadlıqların bəyan edilməsi Azərbaycanda siyasi partiyalar və təşkilatların yaradılması üçün bir növ qanuni əsas oldu.

Manifestin elan edilməsi münasibəti ilə oktyabrın 19-da Bakı şəhər dumasının təcili iclası çağırıldı. Qlasnılar çara ünvanlanmış təbrik-müraciətdə qeyd etmişdilər ki, duma "bu möhtəşəm dövlət zəkası aktını coşqunluqla qəbul etdi və inanır ki, 17 Oktyabr Manifesti ölkəyə asayişi əldə etmək üçün bütün imkanları verir".

Manifestdə söz və mətbuat azadlığının elan edilməsinin ardınca Qafqaz canişini tərəfindən "birgə həmlə ilə mətbuat sözü üzərində ona mane olan senzura zəncirləri və qandallarının götürülməsi"[97] xəbəri də ictimaiyyət tərəfindən ruh yüksəkliyi ilə qarşılandı. Azərbaycan ictimaiyyəti ümid edirdi ki, senzuranın ləğvi ona öz mənafelərini daha uğurla qorumaq, özünün hüquq bərabərliyi məsələsini mətbuat səhifələrində daha geniş şəkildə işıqlandırmaq imkanı verəcək, senzuranın ləğvi "ictimai bəla və ağrıları azad tənqid etmək, bəlaların bütün növlərinə qarşı azad mətbuat mübarizəsi aparmaq imkanları yaradacaqdır"[98].

Çar manifesti münasibətilə Bakıda "vətənpərvərlik" manifestasiyaları təşkil olundu. Oktyabrın 18-də və 19-da şəhərdə keçirilən yürüşlərə şəhər özünüidarə orqanlarının nümayəndələri başçılıq edirdilər[99].

17 Oktyabr Manifesti Azərbaycanın digər şəhərlərində də rəğbət ifadə edən təntənə ilə qarşılandı.

Çar manifestinin çıxması ilə nəticələnən 1905-ci ilin inqilabi hərəkatı cəmiyyətin bütün təbəqələrini hərəkətə gətirdi, siyasi partiyaların və təşkilatların yaranmasına təkan verdi. Həmin ildə Azərbaycanın siyasi səhnəsində ilk olaraq sırf milli, heç bir ümumrusiya təşkilatının filialı və ya şöbəsi olmayan partiyalar meydana çıxdı. 1905-ci ilin fevralında Gəncədə "Sosial-federalistlərin türk inqilabi komitəsi" yarandı. Siyasi partiyanın rüşeymi olan bu komitə 1905-ci ilin fevralında iki vərəqə buraxdı[100]. Bu vərəqələrdə çar hökuməti müsəlmanların hüquqlarını məhdudlaşdırmaqda, Bakıda millətlərarası toqquşmalar təşkil etməkdə, Qafqazda köçürmə siyasətini həyata keçirməkdə ittiham olunurdu. Vərəqələrdə sosial-federalist ideyaları, "əsarətin" aradan götürülməsinə, Qafqaz xalqlarını birliyə, Qafqazın federal quruluşuna can atan bütün təşkilatlarla birgə fəaliyyətə və bu fəaliyyəti əsas düşmənə - rus hökumətinə qarşı yönəltməyə çağırış öz əksini tapmışdı.

Beləliklə, Sosial-federalistlərin Türk İnqilabi Komitəsi Azərbaycanda muxtariyyət və Rusiyanın federativ quruluşu haqqında ideya irəli sürmüş ilk milli təşkilat idi.

1905-ci ilin yayında Gəncədə "Qeyrət" adlı qrup yaradıldı[101]. O, Şuşada da müəyyən nüfuza malik idi[102]. Aşkar olunmuş sənədlərə əsasən bu nəticəyə gəlmək olar ki, məhz bu qrup 1905-ci ilin yayında Gəncədə (Yelizavetpolda) formalaşan ilk milli siyasi qurum olan "Qeyrət" partiyasının əsasını qoymuşdu. Bu partiyada müxtəlif təbəqələr təmsil olunmuşdu, lakin onun rəhbərləri yuxarı təbəqənin nümayəndələri idi. Onların sırasında Gəncənin tanınmış hüquqşünasları və ictimai xadimləri Ələkbər bəy Rəfibəyli və Adil bəy Xasməmmədov[103], bəzi mənbələrə görə, türk ədəmi-mərkəziyyət partiyasının başçısı Nəsib bəy Yusifbəyli də var idi[104].

"Qeyrət" partiyasının qırmızı möhürü və proqramı mövcud idi. Proqramda gürcü sosial-federalistlərin proqramının təsiri özünü büruzə verirdi. Əsas məqsədlərdən biri Qafqazın Rusiya ilə federativ münasibətlər qurmaq və bu federasiya çərçivəsində müsəlman əhaliyə muxtariyyət vermək idi[105].

"Qeyrət"in üzvləri H.Fəttahov, M.H.İsmayılzadə, M.Həlilov və b. əhali arasında federalizm ideyalarını yaymaqla yanaşı, sosial-demokrat və digər partiya nümayəndələri ilə birgə bir çox mitinqlərdə millətlərarası savaşa son qoymaq çağırışı ilə iştirak edirdilər. "Qeyrət" partiyası 1908-ci ilə qədər fəaliyyət göstərdi, lakin bəzi sənədlərə görə, 1912-ci ildə Balkan müharibələri başladığı dövrdə federalistlər fəallaşmaqda idilər.

Siyasi səhnədə isə "Qeyrət" yenidən 1917-ci ilin Fevral inqilabından sonra yeni liderlər, yeni "Türk ədəmi-mərkəziyyət partiyası" adı və yeni proqramı ilə parlaq fəaliyyətə başladı.

1905-ci ilin yazı və yayında Rusiya imperiyasının müstəmləkə ucqarlarında müsəlman xalqlarının siyasi qüvvələrinin birləşməsi prosesi davam edirdi. Azərbaycan nümayəndələri "Ümumrusiya müsəlman ittifaqı"nın ("İttifaqi-müslimin"in) yaradılmasında fəal iştirak etmişdilər. Ə.Topçubaşov bu təşkilatın 1905-ci ilin avqustunda Nijni Novqorodda I (təsis) qurultayının çağırılmasında, proqram sənədlərinin hazırlanmasında və

fəaliyyətində bilavasitə iştirak etmiş. 1906-cı ilin avqustunda onun Mərkəzi Komitəsinin III qurultayında təsis edilmiş daimi bürosuna daxil olmuşdu. Azərbaycan nümayəndələri İttifaqın komissiyalarına üzv seçilir, onun qurultay, müşavirə və yığıncaqlarında iştirak edirdilər. "İttifaqi-müslimin" Rusiya müsəlmanları siyasi qüvvələrinin sonralar Rusiya dövlət dumalarının bütün çağırışlarında müsəlman parlament fraksiyasının fəaliyyətində özünü göstərmiş birliyin bünövrəsi idi. Fraksiya qanun layihələrinin işlənməsində, sorğuların hazırlanmasında ümumrusiya müsəlman qurultayının qərar və qətnamələrini rəhbər tuturdu.

Bakıda 1905-ci ilin noyabrında 17 Oktyabr Manifestinin verilməsindən sonra ölkədə yaranmış siyasi vəziyyəti müzakirə edən mitinqlər keçirildi. Mitinq iştirakçıları belə bir məsələdə yekdil idilər ki, manifestin vədləri həyata keçirilməli və ümumi seçki hüququ. müsəlmanların Rusiya dövlət dumasında mütənasib sayda nümayəndələrlə təmsil olunması və b. tələblər yerinə yetirilməlidir.

Azərbaycanda burjua xadimlərinin kadetlərə rəğbət bəsləyən bir hissəsi 1905-ci il dekabrın 4-də Konstitusion Demokratlar Partiyasının Bakı şöbəsinin təşkilində iştirak etdi. Azərbaycan cəmiyyətinin nümayəndələri İ.Hacınski, İ.Hacıyev, Ə.Topçubaşov, K.Səfərəliyev şöbənin daimi bürosuna seçildilər. Şöbənin 300 nəfər üzvü var idi. Dövlət dumasına seçki kampaniyasının gedişində şöbənin fəaliyyəti nəzərə çarpacaq dərəcədə canlandı. Seçkilərin nəticələri kadet partiyasının populyarlığını bir daha nümayiş etdirdi. Azərbaycandan olan bütün deputatlar duma fəaliyyəti dövründə daim özlərinin bu partiyaya mənsubiyyətlərini unutmurdular. 1912-ci ilin yanvarında Yelizavetpol qubernatoru polis departamentinə bildirdi ki, "ziyalılar başdan-başa kadetçilik eləyirlər: ayrı-ayrı, müstəsna hallarda ciddi surətdə öz daxili inamlarına görə, əksəriyyəti isə nəyə görəsə, belə hesab edir ki, kadet platforması hər bir ziyalı üçün mütləq lazımdır"[106].

1905-ci ilin payızında "Müsəlman əyanları, ziyalıları və yuxarı təbəqələrin ittifaqı və müdafiə cəmiyyəti" meydana çıxdı[107]. Cəmiyyət "Bakı şəhərinin məşhur və hörmətli adamlarına müraciət" nəşr etdirdi. Müraciətdə müəlliflər hökumətə qarşı yönəlmiş azadlıq hərəkatına rəğbət bildirir[108], eyni zamanda qeyd edirdilər ki, bu hərəkatdan müsəlmanlara qarşı istifadə edilməsinə cəhd göstərildiyi təqdirdə cəmiyyətdə birləşmiş qüvvələr qətiyyətli cavab verəcəkdir...

1906-cı ilin avqust-sentyabr aylarında Bakı və Yelizavetpol quberniyalarında "Difai" partiyası meydana çıxdı.

Vahid milli siyasi təşkilatın yaradılması məqsədə uyğunluğunun meydana çıxmasında 1905-ci ildə erməni-müsəlman ziddiyyətlərinin kəskinləşməsi az rol oynamadı. 1906-cı ildə Tiflisdə keçirilmiş barışdırıcı qurultayın siyasi yekunlarından biri "Daşnaksutyun" və onun silahlı qüvvələrinə qarşı Azərbaycan tərəfindən özünə siyasi partiya və döyüş drujinaları yaratmaq zərurəti qarşısında qalmasını etiraf etməsi oldu[109].

"Difai"nin banisi partiyanın Bakıda yerləşən MK-sına başçılıq edən Ə.Ağayev idi[110]. Gəncədə, Şuşada, Ağdamda, Bərdədə, Yevlaxda, Tərtərdə, Qarsda, Naxçıvanda, Vladiqafqazda və b. yerlərdə partiyanın şöbələri yaradılmışdı[111].

Partiyanın 1906-cı ilin oktyabrında "İrşad" qəzetində dərc olunmuş proqramında[112]

bölgədə yaranmış, Azərbaycan xalqını təqiblərə və məhv olmağa məruz qoyan siyasi şəraitin səciyyəsi verilirdi. Milltlərarası toqquşmalar və kütlələrin avamlığı yaranmış vəziyyətin başlıca səbəbləri sayılırdı. Partiyanın proqramı aşağıdakı əsas məqsədi müəyyənləşdirirdi: "Qafqazın bütün digər xalqları ilə hətta öz proqramını elan edib bütün xalqların hüquq və üstünlükləri, Qafqazın nəcib əməlləri ilə razılaşması" şərtilə "Daşnaksutyun"la belə, birlikdə əməl qardaşlığı ortaya çıxarmaq"[113].

Partiya maarifi və əhalinin mənafeyinin müdafiəsini məqsəda çatmaq üçün zəruri şərt sayırdı və bu, partiyanın möhüründə də əks olunmuşdu. Möhürün üzərində altıguşəli ulduzla aypara, çarpazlaşmış iki qılınc təsvir edilmiş və "Difai"- "Mübariz milli firqəsi"sözləri həkk olunmuşdu[114]. "Difai" - nin vərəqələrində hər bir əkinçinin əbədi arzusu - "Torpaq zəhmətkeş sinfə məxsus olmalıdır": öz əksini tapırdı[115].

Partiyanın sosial dayağını əsasən cəmiyyətin orta təbəqələri-tacirlər, ziyalılar, kəndlilər, şagirdlər vo onları təmsil edən şəxslar təşkil edirdi.

Partiyanın təşkilatçıları qarşıya qoyduqları siyasi məqsəd və vəzifələri kütlələrin dərk edib həyata keçirmələri üçün onlarda müəyyən şüur və siyasi mədəniyyət səviyyəsi olmasının zəruriliyini çox düzgün anlayırdı. Buna görə də əhali içərisində geniş maarifçilik işi aparır, mədəni-maarif cəmiyyətinin imkanlarından istifadə edir, siyasi ədəbiyyat yayırdılar[116].

"Difai"nin şöbələri əhali içərisində geniş şöhrətə malik idi. Çar məmurları öz ali rəislərinin nəzərinə çatdırırdılar ki, bu partiyanın mövcud olduğu müddətdə yerli əhalinin ictimai işlərə marağı xeyli artmışdır, indi əhali onun komitələrinə hökumət idarələrindən çox müraciət edir[117]. Həmçinin qeyd edirdilər ki, təbliğat nəticəsində "müsəlmanlar birləşəcək, əqli cəhətdən inkişaf edəcək və şüurlu olacaqlar, partiya, şübhəsiz ki, hökumət əleyhinə olan məqsədləri də təbliğ etməyə başlayacaqdır"[118].

Partiyanın ən iri şöbəsi "Qarabağ birlik məclisi"[119] idi. Onun fəaliyyəti bütün Qarabağı - Yelizavetpol qubemiyasının Cavanşir-Qaryagin və Şuşa qəzalarını əhatə edirdi. Məclisin təşkilatçıları tacirlər, ziyalılar, varlı və kasıb kəndlilərdən ibarət idi. Məclisin baş komitəsi Şuşada yerləşirdi. Onun sədri Kərim bəy Mehmandarov idi. Təşkilatın 400 nəfərlik döyüş drujinası var idi[120]. Məclisin 1907-ci ilin oktyabr ayında qəbul olunmuş proqramında həm siyasi tələblər, həm də əxlaqi normalar əks olunmuşdu. Bu proqram müsəlmanları birliyə, milli özünüdərki inkişaf etdirməyə çağırır, millətlər arasındakı münasibətləri müəyyənləşdirir, milli düşmənçiliyi qızışdırmağa görə məsuliyyət məsələsini qaldırır, rüşvətxorluğa, hakimiyyətdən sui-istifadəyə, böhtana, əsassız surətdə qiymətlərin qaldırılmasına və s. görə cərimələr nəzərdə tuturdu[121]. "Qarabağ birlik məclisi" qanunçuluq və hüquqi qaydaların cəmiyyətin həyatına daxil edilməsi sahəsində ilk kövrək addımlar atırdı. Proqram qadın təhsili də daxil olmaqla məktəblər şəbəkəsinin yaradılmasını nəzərdə tuturdu. Bu sənəddə ticarət, istehsalat və məhsul satışında qayda-qanun və sabitlik yaratmaq, həmçinin cəmiyyətin iqtisadi, siyasi və mənəvi həyatı ilə bağlı məsələlərin həllini partiyanın əlində cəmləşdirmək barədə də müddəa var idi[122]. O, bir növ cəmiyyətin əmin-

amanlıq və qanunçuluq prinsipləri əsasında yenidən qurulması proqramı idi və kütlələrin siyasi oyanışına kömək edirdi.

1907-ci ilin mayında "Müdafiə" təşkilatı meydana çıxdı. Ona böyük ictimai-siyasi xadim İsmayıl xan Ziyadxanov başçılıq edirdi[123]. "Müdafiə"nin fəaliyyəti, başlıca olaraq, Yelizavetpol quberniyasının qərb hissəsini və Tiflis quberniyası qəzalarının bir hissəsini əhatə edirdi. Onun siyasi dayağını əhalinin imtiyazlı təbəqələrinin, mülkədar-bəylərin, kənd ziyalılarının nümayəndələri təşkil edirdi. Təşkilat müsəlmanlar içərisində maarif və mədəniyyət işlərinin qayğısına qalmağı, onların hüquq və mənafelərinin müdafiəsini, habelə kəndli məişətinin yaxşılaşdırılmasını və s. özünün zəruri məqsəd və vəzifəsi hesab edirdi.

Azərbaycan xalqının siyasi cəhətdən birləşməsində Müsəlman Demokratik Müsavat ("Bərabərlik") Partiyası mühüm rol oynadı. "Müsavat" Partiyası 1911-ci ilin oktyabrında Bakıda meydana çıxmışdı. Bu təşkilata Azərbaycanın artıq xalq mənafeyi uğrunda müəyyən mübarizə təcrübəsinə malik, milli-azadlıq hərəkatının həm yaxın illər, həm də perspektiv üçün məqsəd və vəzifələrini müəyyənləşdirməyə qadir olan bir sıra ictimai xadimi başçılıq edirdi.

"Müsavat", onun lideri M.Rəsulzadə və nəşr etdiyi "Açıq söz" qəzeti Azərbaycanın siyasi həyatında öz fəallıqları ilə seçilirdi.

1912-ci ildə partiyanın manifesti - proqramı nəşr edildi. Proqramda qarşıya həyati məsələlər qoyulurdu: bütün müsəlman xalqları üçün bərabərlik əldə olunması, müsəlmanların dövlət müstəqilliyinin qorunması, müstəqilliyini bərqərar edən və onu qorumaq uğrunda mübarizə aparan müsəlman dövlətlərinə maddi və mənəvi yardım göstərilməsi. Partiya həm müsəlmanlar, həm də bütün bəşəriyyətə münasibətdə ali demokratik amallara əsaslanaraq, bütün partiyalarla əməkdaşlıq etmək niyyətində idi[124]. Proqramın xüsusi maddəsi ilə partiya üzvlərinin bütün iqtisadi həyatın inkişafına kömək göstərməsi bir vəzifə kimi qoyulurdu.

Çox tezliklə partiya ziyalıları, xırda burjua, kəndli, fəhlə və qulluqçuların nümayəndələrini öz sıralarına cəlb etdi. Partiyanın Bakıda yerləşən Mərkəzi Komitəsi yerlərdə mərkəzin təyin və ya təsdiq etdiyi ən azı üç nəfərdən ibarət şöbələrə malik idi. Partiyanın təşkilat əsasları gizli iş şəraitində fəaliyyət üçün nəzərdə tutulmuşdu. Bunun səbəbi panislamist adlandırılanların kütləvi təqiblərə, Balkan müharibəsi başlandıqdan sonra isə xüsusilə güclənən cəza tədbirlərinə məruz qaldıqları şərait idi.

1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi münasibətilə verilmiş amnistiya (əfvi-ümumi) nəticəsində İstanbuldan Bakıya qayıda bilən M.Ə.Rəsulzadə həmin vaxtdan etibarən "Müsavat" partiyasının şəriksiz liderinə çevrildi.

## § 5. AZƏRBAYCAN NÜMAYƏNDƏLƏRİ RUSİYANIN DÖVLƏT DUMALARINDA

1905-ci il dekabrın 11-də Rusiyada Dövlət Dumasına seçkilər haqqında yeni qanun nəşr olundu. Seçki hüquqlarının genişləndiyini bəyan edən bu qanun fəhlələrə qismən, kəndlilərə cüzi seçki hüquqları verilməsini nəzərdə tuturdu.

Azərbaycan quberniyaları da Dövlət Dumasında təmsil olunmaq hüququ qazandı. Lakin hökumət milli ucqarların əhalisinin Dumada təmsil olunmasını məhdudlaşdırmaq və maksimum surətdə azaltmaq məqsədilə ucqarlarda seçkilər haqqında qaydaların tətbiq edilməsi məsələsini öyrənmək adı altında bir sıra komissiyalar yaratdı. Uzun bürokratik hazırlıqdan sonra 1906-cı il fevralın 2-də çar "Qafqazda seçkilər haqqında əsasnamə"ni təsdiq etdi. "Əsasnamə" kəndlilərin seçkilərini torpaq sahiblərinin seçkiləri ilə ümumi bir quberniya seçki məclisində birləşdirərək, Qafqaz kəndlilərini dumada müstəqil təmsil olunmaqdan məhrum etdi. Canişinə seçkilərin vaxtını Qafqaz quberniyaları "əhalisinin sakitləşdirilməsindən" asılı olaraq müəyyən etmək hüququ həvalə edilmiş və bununla da Qafqaz duma seçkilərini qeyri-müəyyən müddətə ləngitmək imkanı vermişdi. Lakin, buna baxmayaraq, Bakı qəzası və quberniyasında seçkilər 1906-cı il mayın 31-də, Yelizavetpol quberniyasında isə mayın 16-da, yəni aprelin 27-də açılmış I Dövlət Duması artıq fəaliyyətə başladıqdan sonra keçirildi. Əliyev Məmmədtağı, Haqverdiyev Əbdürrəhman bəy, Bahadurov Xristofor İvanoviç, Ziyadxanov İsmayıl xan Əbülfət xan oğlu, Muradxanov Əsədulla bəy və Topçubaşov Əlimərdan bəy Dövlət Dumasına deputat seçildilər[125].

Dumada təmsil olunmuş ən müxalifətçi siyasi qurum kadetlər partiyası idi. Onlar fəal seçkiqabağı təşviqat aparmaq və əhalinin əksər təbəqələrinin mənafeyini mövcud şəraitdə çox dolğun əks etdirən platformalarını geniş təbliğ etmək hesabına seçkilərdə qalib gəlmişdilər. Onlar "Rusiyanın birliyinə və bölünməzliyinə yalnız tərəfdar olduqlarını söyləmir, həm də ona nail olmaq yollarını hər vasitə ilə asanlaşdırmağa çalışırdılar. Hökuməti buna güclə nail olmaqda təqsirləndirən kadetlər bildirirdilər ki, "süngülər və güllələrlə Rusiyanın birliyinə nail olmaq olmaz" və "hər bir tabe xalqın adət-ənənələri, dili və dininə" hörmət bəyan edilməlidir[126]. Daha sonra bu xalq azadlığı partiyası seçiciləri inandırırdı ki, o, özünəməxsus milli həyat keçirən bütün yerlərdə geniş özünüidarənin, muxtar quruluşun, "ümumi, pulsuz, məcburi təhsilin" və s. tərəfdarıdır. Bütün bunlar müsəlman ucqarlarında, o cümlədən də Azərbaycanda bütün yuxarı sosial təbəqə nümayəndələri üçün kifayət qədər cəlbedici idi. Onlar öz ümidlərini məhz kadetlərə bağlayırdılar. Dumada ən iri fraksiyaya malik olan kadetlər şöbələrə, daimi və müvəqqəti komissiyalara başçılıq edir, bununla da bütövlükdə siyasi mühitin müəyyənləşdirilməsində iştirak edirdilər. Buna dumanın iclaslarında şəxsiyyətin toxunulmazlığı, ölüm hökmünün ləğvi, vətəndaş bərabərliyi, siyasi azadlıqlar və i.a., yəni kadetlərin proqramında əks olunan bütün məsələlərin müzakirələri tutarlı sübut idi.

Azərbaycanlı deputatlar imperiyanın müsəlman ucqarlarının 36 deputatını

birləşdirən Müsəlman parlament fraksiyasına daxil oldular. O, öz sayına görə, dumada Ukrayna qrupu, Polyak polosu və b.dan böyük, ən iri fraksiyalardan biri idi. Ə.Topçubaşov kadetlər fraksiyasının bürosuna daxil oldu. Fraksiya kadetlər partiyası ilə birgə hərəkət etmək barədə qərar qəbul etdi. Ə.Topçubaşov bu barədə P.N.Milyukova məlumat verdi[127]. Kadet partiyası komitəsinin iclasında bu təklif qəbul edildi və qərara alındı ki, fraksiyanın; nümayəndəsinə dərhal kadetlərin fraksiya komitəsinə daxil olmaq və Kadet partiyası MK-na seçilmək hüququ verilsin[128].

Fraksiyanın bir neçə iclası oldu. Birinci iclasda qərara alındı Dumaya təqdim olunan bütün qanun layihələri və sorğular haqqında ətraflı məruzələr dinlənilsin. Lakin qarşıya qoyulmuş vəzifələrdən heç biri yerinə yetirilmədi. Fraksiyanın bütün məsələləri baxılmamış, onun özü, tərkibi və vəzifələri haqqında Ə. Topçubaşovu Dumanın 14 iyul tarixli iclasına olan məlumatı da dinlənilməmiş qaldı, çünki həmin vaxtadək Duma artıq buraxılmışdı. Rusiya imperiyası qanunlarında müsəlmanlara aid məhdudiyyətlərin müyyənləşdirilməsi üzrə deputatlardan Axtyamov, Alkin və Topçubaşov tərəfindən başlanmış iş də başa çatdırılmadı[129].

Sonrakı Dövlət dumalarında olduğu kimi, I Dövlət Dumasında da müzakirələrin başlıca mövzusu aqrar-kəndli məsələsi idi. Bütün partiya və qrup mövqelərinin də məhz bu məsələdə daha dəqiq surətdə aşkara çıxması təsadüfi deyildi.

Mayın 8-də kadetlər tərəfindən müzakirəyə aqrar qanunu layihəsi təqdim olundu. Burada mülkədar torpaqlarının məcburi şəkildə qismən özgəninkiləşdirilməsi nəzərdə tutulurdu. Ona trudoviklərin cavab olan layihəsində isə mülkədar torpaq sahibliyinin tammilə "ümumxalq torpaq fondu"nun yaradılması, yəni torpaqların milliləşdirilməsi təklif edilirdi.

Müsəlman fraksiyası aqrar islahatın əsas müddəalarını müzakirə edərək, müsadirə olunan torpaqların "ədalətli qiymətlə" haqqı ödənilməsi şərti ilə xüsusi sahibkar torpaqlarının özgəninkiləşdirilməsi təklifinə tərəfdar çıxdı. Fraksiya üzvləri eyni zamanda vəqf torpaqlarının özgəninkiləşdirilməsini yolverilməz sayır və hesab edirdilərki, kəndli pay torpaqları "udel, kabinet və monastır torpaqları hesabına" artırılmalıdır. Layihə köçürmələrin dayandırılmasını tələb edirdi[130].

Aqrar komissiyanın məruzəsinin müzakirəsində iştirak edən Ə.Topçubaşov hesab edirdi ki, aqrar komissiyanın məlumatını geniş şəkildə nəşr etmək zəruridir və bir "ucqarlı" "qafqazlı" kimi təklif edirdi ki, məlumat təkcə dövlət dilində deyil, həm də imkan daxilində tərcümə olunaraq "yerli dillərdə" də dərc edilsin. "Bütün rus təbəələrinin hüquq bərabərliyi, vicdan azadlığı, söz azadlığı, şəxsiyyətin toxunulmazlığı, kəndlilərə torpaq verilməsi kimi məsələlərin işlənib hazırlanmasında, bu qəbildən olan ümumi dövlət məsələlərində milli xarakterli elə bir məsələyə yol verilə bilməz. Rusiyanın bütün xalqlarının mənafeləri buna yol vermir, dövrün bütün şəraiti bunun əleyhinədir"[131].

Azərbaycanlı deputatlar Dumanın işində - həm onun iclaslarında, həm də

şöbə və komissiyalarında əməli surətdə yaxından iştirak edirdilər.

İrəvan və Yelizavetpol quberniyalarında millətlərarası toqquşmalar barəsində daxili işlər nazirinə ünvanlanan sorğu üzrə İ.Ziyadxanov çıxış etdi. Onun kifayət qədər ətraflı bəyanatında Azərbaycan cəmiyyətinin XX əsrin əvvəllərindəki ərizə və petisiyalarında olan, demək olar ki, bütün tələbləri öz əksini tapmışdı. O, bir daha imperiya çərçivələri hüdudlarında siyasi hüquqsuzluq vəziyyətindən narahatlığını bildirib, qeyri millətlərin hakim siniflərinə də rus burjuaziyası və mülkədarları ilə eyni hüquq verilməsinə tərəfdar çıxdı. İ.Ziyadxanov Duma tribunasından inzibati orqanların özbaşınalığı, müsəlman ruhanilərinin mənafeyinin tapdalanması haqqında məlumat verdi. O, aqrar məsələdə başlıca bəlanı çarizmin köçürmə siyasətində görürdü. "Mərkəzi Rusiya kimi bizim də torpağa ehtiyacımız var, biz də həmçinin aztorpaqlılıq və torpaqsızlıqdan əziyyət çəkirik. Lakin inzibati orqanlar bu məsələni başqa cür həll etdi", deyə köçürmələrə qarşı etiraz edirdi. İ.Ziyadxanovun məruzəsində zemstvonun olmamasına, şəhər özünüidarə orqanlarında yerli millətlərin nümayəndələrindən olan qlasnıların sayının məhdudlaşdırılmasına da diqqət yetirilirdi. Ali təhsilli azərbaycanlıların dövlət müəssisələrindəki vəzifələrə buraxılmaması, bəzi ali məktəblərin azərbaycanlılar üçün bağlı olması onu narahat edirdi[132].

Azərbaycan nümayəndələrini əhalinin şəxsi və mülki təhlükəsizliyi məsələləri də maraqlandırırdı. Dövlət dumasının 31 nəfər üzvü 1906-cı il iyunun 26-da daxili işlər nazirinə əsas qanunların nəşrinə qədər (1906-cı ilin apreli) bir sıra yerlərdə gücləndirilmiş mühafizənin elan olunması barəsində narahatlıq bildirən sorğu təqdim etdi. Ə.Haqverdiyev də sorğunu imzalayanların sırasında idi. Duma üzvləri xəbərdarlıq edirdilər ki, İrəvan və Yelizavetpol quberniyalarında bir ildən çox davam edən bu vəziyyət "minlərlə insan həyatının itkisi və diyarın tam iqtisadi dağıntısı ilə nəticələnmişdir". Duma bu məsələni müzakirə etməyə tələsmədi. İyunun 14-də bu sorğu Nazirlər Şurasının sədrinə göndərildi. İyulun 7-də, yəni Dumanın buraxılması ərəfəsində, Nazirlər Şurasının sədri Qoremıkin Dumanın sədrinə cavabında bildirdi ki, "canişinin vəzifəsi və hakimiyyəti ümumi nazirlik quruluşuna münasibətdə tam, müstəqil şəkildə qoyulmuşdur və buna görə də Nazirlər Şurası Dövlət Dumasının Qafqaz diyarına aid sorğularına cavab vermək üçün qanuni səlahiyyətlərə və lazımi məlumatlara malik deyildir"[133]. Beləliklə, Nazirlər Şurası Qafqaz millətlərinin taleyinə tamamilə laqeydlik göstərərək, bu sorğuya cızmaqara ilə cavab verdi və formal olaraq sorğunun müəlliflərini canişinin üstünə göndərdi. 1906-cı ilin hadisələri, millətlərarası toqquşmaların güclənməsi sübut edirdi ki, canişin heç bir diyarda şəxsiyyətin toxunulmazlığının təmin olunması üçün tədbirlər görmək fikrində deyil.

Ə.Topçubaşov, İ.Ziyadxanov, M.T.Əliyev və A.Muradxanov bir sıra deputatlarla birlikdə sədrə müraciət edib, Qafqaz hökumət orqanlarının "dinc rus vətəndaşlarının talançıları" kimi hazırladıqları Ter vilayəti dağlılarından ibarət strajniklərin dərhal geri qaytarılmasını tələb etdilər[134]. Bununla da onlar çar hökumətinin

Rusiya imperiyası xalqları içərisində canfəşanlıqla apardığı düşmənçilik toxumları səpmək siyasətinə etiraz bildirdilər.

Azərbaycan deputatları vəzifəli şəxslərin məsuliyyəti, qayda-qanun yaradılması barəsində, qanunsuzluq və zorakılıq əleyhinə, inzibati orqanların özbaşınalıqları haqqında müxtəlif sorğular verilməsi müzakirəsində iştirak edirdilər. Krım tatarları Ə.Topçubaşovdan öz hüquqsuz vəziyyətləri barədə petisiyanı çar hökumətinə çatdırmağı xahiş etmişdilər. Lakin Dumanın buraxılması onların bu xahişini yerinə yetirməyə imkan vermədi.

Dumanın bütün müsəlman fraksiyasının, o cümlədən Azərbaycan deputatlarının siyasi amalı Ə.Topçubaşov tərəfindən "Müsəlman parlament fraksiyası" məqaləsində çox dəqiq şəkildə ifadə olunmuşdur: "Müsəlman proqramı ciddi surətdə konstitusiya əsasları üzərində dayanaraq, torpaqların milliləşdirilməsi, din məsələlərində tam muxtariyyət, bütün imperiya ərazisində özünü idarə edən kiçik vahidlər və vilayət məclislərinin təsis edilməsi ilə yerlərdə geniş muxtar idarəçilik prinsipini irəli sürür"[135]. O, Dumada milli zəmində bir dənə təzahürün də müşahidə edilmədiyini böyük məmnunluqla qeyd edir, "xalq nümayəndəliyinin ilk addımlarının Rusiyanın bütün xalqları üçün ümumi olan ictimaidövlət quruculuğu məsələlərinə yönəldilməli olduğunu başa düşən millət nümayəndələrini" xüsusilə tərifləyirdi[136].

Lakin müsəlman xalqları deputatlarının böyük ümidlər bəslədikləri I Dövlət Dumasının fəaliyyəti uğursuzluqla başa çatdı. Çar hökuməti "nümayəndəli qanunvericilik orqanı" ilə məsələni bitirmək barəsində qəti qərar qəbul edərək, iyunun 9-da Duma deputatlarının iclasları keçirilən Tavriya sarayının bütün qapılarını bağlı saxladı. Bu, deputatlar üçün gözlənilməz idi. Kadet fraksiyasının təşəbbüsü ilə hökumətə etiraz bildirildi və iclasları Vıborqda keçirmək qərara alındı. Sosial-demokratlar və trudoviklər də kadetlərlə həmrəy idilər. İyunun 9-u və 10-da Vıborqdakı iclaslarda Azərbaycan deputatları da iştirak edirdilər. Ə.Topçubaşov və İ.Ziyadxanov kadetlər tərəfindən tərtib olunmuş və Vıborq iclaslarının bütün iştirakçıları tərəfindən bəyənilmiş "Xalq deputatlarından xalqa" müraciətini imzaladılar. Onlar Rusiyanın bütün əhalisini Dumanın buraxılması əleyhinə etiraz çıxışlarına (vergiləri ödəməkdən, rekrut mükəlləfiyyətindən, istiqrazları tanımaqdan imtina etməyə və s.) çağırırdılar.

Bakı qubernatoru 1906-cı il iyulun 15-də bütün yerli qəzetlərin redaktorlarına və mətbəələrə "Dövlət dumasının keçmiş deputatlarının müraciətini" çap etməyin qadağan olduğu barədə sərəncam göndərərək, onları inzibati qaydada ən sərt cəzalar veriləcəyi ilə hədələdi[137].

Vıborq iclaslarının iştirakçılarına divan tutuldu. Onlar barəsində cinayət işi qaldırıldı. Deputatlar məhkəməyə verildi. Onları xalqa ünvanlanmış xüsusi müraciətlə "Rusiya əhalisini itaətsizliyə və qanun əleyhinə çıxmağa qızışdırmaq niyyətində olmaqda və bu müraciətin çoxsaylı nüsxələrini Rusiya hüdudlarında yaymaqda" təqsirləndirirdilər[138].

1907-ci ilin dekabrında keçirilmiş məhkəmənin hökmünə görə, onlara

üçaylıq həbs cəzası verilir, 167 nəfər, o cümlədən də Ə.Topçubaşov və İ.Ziyadxanov Dövlət Dumasının tərkibinə seçilmək hüququndan məhrum edilirdilər[139]. Ə. Topçubaşov "Kaspi" qəzetinə rəhbərlikdən uzaqlaşdırıldı və Bakı şəhər dumasının tərkibindən çıxarıldı.

Hökumət I Dumanı qovaraq, II Dumaya seçkilər elan etdi. Seçkilər 1907-ci ilin yanvar-fevral aylarında keçirildi. Seçkilərdən bir qədər əvvəl "Partiyasız müsəlman bloku" meydana çıxdı. Bu blok əhali içərisində izahat işi apararaq, onu dumaya "müsəlmanların mənafelərinin müdafiəçilərini" seçməyə istiqamətləndirirdi. Bakı bolşevikləri sol blok yaratmağa cəhd göstərirdilər. 1906-cı il noyabrın ortalarında RSDFP Bakı təşkilatı, "Hümmət" və Erməni sosial-demokrat təşkilatının ("Spesifiklər") Bakı Komitəsi arasında saziş bağlandı.

Bu təşkilatların nümayəndələrindən birləşmiş sosial-demokrat seçki komissiyası təşkil olundu. Bu komissiyanın nəşr edib yaydığı bir sıra müraciətlərində seçki kampaniyasında məqsəd və vəzifələri, bolşeviklərin taktiki xətti, kütlələr qarşısında duran vəzifələrin həllində dumanın gücsüzlüyü izah olunurdu.

Bu bloka qarşı meydana çıxan "Torpaq və azadlıq"da eserlərin, daşnakların və "mütərəqqi" istiqamətli bəzi partiyasız burjua nümayəndələrinin mənafeləri üst-üstə düşürdü.

Bakı ərazisində seçkilərin gedişində sosial-demokrat bloku, daşnak və eserçi "Torpaq və azadlıq", kadetçilər və "Partiyasız müsəlman bloku" arasında mübarizə gedirdi. Yelizavetpol qubemiyasında seçki kampaniyasının gedişini yuxarı sosial təbəqələrin nümayəndələri müəyyənləşdirirdilər. RSDFP-nin Yelizavetpol təşkilatı əhaliyə seçkilərdə milli deyil, sinfi prinsipləri rəhbər tutmaq barəsində müraciətlə kifayətlənərək, seçkilərdə iştirak etmirdi.

Seçkilər nəticəsində Fətəli İsgəndər oğlu Xoyski, İsmayıl Zeynalabdin oğlu Tağıyev, Məmməd ağa Məhəmmədtağı Sultan oğlu Şahtaxtinski, Mustafa Hacımusa oğlu Mahmudov, Zeynal Eynal oğlu Zeynalov Azərbaycandan II Dövlət Dumasına deputat seçildilər.

Azərbaycan cəmiyyəti yeni Dumaya böyük ümid bəsləyərək belə hesab edirdi ki, məhz, 20 fevralın "qismətinə ölkədə eyni dövrün hücum günü olmaq nəsib olmuşdur"[140]. Azərbaycan cəmiyyəti inanırdı ki, rus deputatları I Dumada, xüsusilə Vıborq müraciətinin imzalanmasında Azərbaycan deputatlarının həmrəyliyini nəzərə alaraq bundan sonra onları daha yaxşı başa düşəcək və daha yaxından kömək edəcəklər[141]. Bakı və Yelizavetpol dumalarının qlasnıları II Dumanı təbrik edərək, onun ölkədə azadlıq və qayda-qanunların möhkəmlənməsi üçün zəruri təminatları yaratmaq sahəsində I Dumanın başladığı işi başa çatdıra bilməsini istəyirdilər[142].

Azərbaycan deputatları müsəlman parlament fraksiyasına, F.Xoyski və X.Xasməmmədov isə onun bürosuna daxil oldular. Fraksiyanın əməli işlərində onun keçmiş lideri Ə. Topçubaşov fəallıq göstərirdi. O, dəfələrlə Peterburqa getmiş, bəzən isə müsəlman parlament fraksiyası və Ümumrusiya Müsəlman İttifaqı MK üzvlərinin Dumada müzakirə və qəbul olunan qanun layihələri, həmçinin sorğular üzrə fraksiyanın

ümumi mövqeyini işləyib hazırlayan ümumi iclaslarına sədrlik etmişdi. Fraksiya Müsəlman İttifaqının göstərişlərini yerinə yetirərək, I Duma fraksiyasının siyasətini davam etdirərək, öz fəaliyyətində əsasən kadetlərin mövqeyində dayanmışdı.

Fraksiyanın ayrıca kitabça şəklində buraxılmış proqramında vətəndaşların hüquqları müəyyənləşdirilir, dövləti və dini quruluş, yerli özünüidarə, məhkəmə, xalq maarifi, maliyyə və dövlət iqtisadiyyatı, kəndli və fəhlə məsələsi üzrə müddəalar, fraksiyanın siyasi məqsəd və vəzifələri şərh olunurdu. Fraksiya Rusiyanın bütün müsəlman vətəndaşlarını, siyasi əqidə üzrə həmfikirlərini Rusiya imperiyasının idarəçilik quruluşunu yenidən qurmaq üçün səy göstərməyə çağırırdı. Ali dövlət hakimiyyətinin hüquqları konstitusiya ilə məhdudlaşdırılmış monarxa və "ümumi, birbaşa və gizli səsvermə" yolu ilə seçilmiş xalq nümayəndələrindən ibarət birpalatalı xalq nümayəndəliyi orqanına - Ümumrusiya Dövlət Dumasına və ya Ümumrusiya Palatasına verilən konstitusiyalı parlament monarxiyası məqbul dövlət forması sayılırdı. Fraksiya Rusiyanın müsəlman əhalisinin sayını müəyyənləşdirmək, Dumada onlara verilən yerlərin sayını, müsəlman əhalinin sayını müvafiq olaraq təyin etmək məsələsini qoyurdu. Proqramda həmçinin Azərbaycan cəmiyyətinin dəfələrlə təqdim etdiyi petisiyaların müddəalarına müvafiq gələn tələblər - siyasi və mülki hüquqlar baxımından müsəlmanların Rusiya imperiyasının qalan əhalisi ilə bərabərləşdirilməsi, bu hüquqların imperiyanın əsas qanunlarına daxil edilməsi, icbari, ümumi və pulsuz ibtidai təhsil tətbiq olunması, ana dilində təhsilin təmin edilməsi, seçkili hakimlər və andlı iclasçılar məhkəməsi institutunun yaradılması, dövlət dili ilə yanaşı, imperiyanın mövcud vilayətində üstünlük təşkil edən xalqın dilinin bütün yerli nümayəndəli orqanların və ümumi məhkəmələrin dili kimi tanınması və s. tələblər var idi. Proqram aqrar siyasət sahəsində sahibkarlara ədalətli qiymətlərlə haqq verilməsi şərti ilə torpaqların özgəninkiləşdirilməsi haqqında kadetçi tələbi də özündə əks etdirirdi. Məhz elə bu tələb müsəlman deputatları arasında da mübahisə obyektinə çevrildi. Özlərini kəndlilərin nümayəndələri sayanlar ilk növbədə fraksiyanın başlıca məsələni - aqrar məsələnin müzakirəsini ləngitməsindən, konkret olaraq "torpaqların məcburi surətdə özgəninkiləşdirilməsinə" tərəfdar çıxmağa tələsməsindən narazı idilər. Fraksiyanın Z.E.Zeynalov da daxil olmaqla bir neçə üzvü bildirirdilər ki, "aşkar kadetlər" və kadet proqramına qoşulan deputatların sosialistlərlə birgə işinin məhsuldarlığına inanmırlar[143]. Onlar əməkçi müsəlman fraksiyasından ayrılmaq və Dumanın əməkçi qrupuna birləşmək qərarına gəldilər. 1907-ci ilin aprel-may aylarında Z.Zeynalov vs T.Xasanov Peterburqda "Duma" adında qəzet buraxaraq, oxucularını fraksiyanın Dumada müzakirə olunan məsələlərə münasibəti ilə mümkün qədər ətraflı surətdə tanış etməyə cəhd göstərmişdilər.

Özlərini "Sol gənc türk partiyası"na mənsub elan etmiş F.Xoyski və X.Xasməmmədov da fraksiyanın proqramını bütövlükdə qəbul etmədilər. Belə şəraitdə Müsəlman İttifaqının Mərkəzi bürosu müsəlman fraksiyası üzvlərinə ünvanladığı müraciətində "proqramı müəyyən çatışmazlıqlarını etiraf edərək, bütün müsəlmanları onun müddəalarını əldə rəhbər tutmağa çağırırdı"[144].

Azərbaycanlı deputatlar Xalq azadlığı Partiyasından da Dumanın müxtəlif komissiyalarına

seçildi. Məsələn, bu partiyanın duma fraksiyasının üzvü olan M.Şahtaxtinski milli-dini bərabərlik, yerli özünüidarəçilik, zemstvo idarələrinə seçkilər haqqında qanun layihəsinin hazırlanması, aqrar və kəndli məsələləri, kəndlilərin hüquq bərabərliyi, xalq təhsili və şəhər özünüidarəsi üzrə komissiyaların tərkibinə daxil olmuşdu[145]. X.Xasməmmədov və F.Xoyski milli-dini bərabərlik komissiyasının üzvləri idilər. Ən müxtəlif məsələlər üzrə azərbaycanlı deputatların çıxışları konkret təkliflərin hazırlanmasında onların iştirakının sübutudur. Məsələn, aclıqçəkənlərə və işsizlərə kömək haqqında məsələnin müzakirəsi zamanı Z.Zeynalov "trudovik"ləri müdafiə edən məruzə ilə çıxış etdi. O, aclıqçəkənlər və işsizlərə yardım göstərmək üçün vahid komissiya yaradılmasını təklif edərək, Dumaya bildirdi ki, seçicilər onu yola salarkən belə tapşırıq vermişdilər: "Bizə torpaq lazımdır, azadlıq lazımdır, çörək lazımdır, bizə iş lazımdır"[146]. Tətilçiləri çörəklə təmin etmədən, aclıqçəkənlərə tox olmaq imkanı vermədən tətillərin qarşısını almağın qeyri-mümkünlüyü barəsində konkret dəlillərlə zəngin olan bu çıxış kadetlərin ancaq "sənaye böhranından" zərər çəkmiş işsizlərə kömək göstərilməsi təklifinə qarşı çıxan sosial-demokratların açıq-aşkar müdafiəsi kimi səslənirdi. Duma bu məsələ barəsində kadet qətnaməsinə düzəliş edərək, "sənaye böhranından zərər çəkənlərə" qeyd-şərtini oradan çıxardı[147]. İşsizlərə kömək komissiyasının üzvü seçilmiş M.Mahmudov "Proqress" qəzetində seçicilərə müraciət edərək, onları işsizlər və onlara zəruri olan köməyin miqyası barəsində məlumat verməyə çağırırdı.

Dumada deputatların torpaq məsələsi üzrə mövqeyi sinfi və ziddiyyətli xarakter daşıyırdı. Bu məsələnin müzakirəsinə böyük əhəmiyyət verən müsəlman fraksiyası aqrar komissiyanın fəaliyyətində iştirak etmək üçün Bakıdan Ə.Topçubaşov, Q.Qarabəyov və B.Axundovu dəvət etmişdi[148]. Müzakirədə F. Xoyski bütün fraksiya adından çıxış edərək bildirdi ki, özgəninkiləşdirilmiş torpaqlar ümumdövlət torpaq fondunu deyil, hər bir konkret vilayətin hüdud-larında vilayət torpaq fondunu təşkil etməli, torpaqların bölünməsi və əhalinin seyrəldilməsi "ən demokratik prinsiplər üzrə təşkil olunmuş vilayət özünüidarə orqanlarının" ixtiyarına verilməlidir[149].

Aqrar məsələnin müzakirəsində Z.Zeynalov torpaq məsələsi üzrə müsəlman əməkçi fraksiyasının tələblərini irəli sürdü. O, Bakı quberniyası kəndlilərinin vəziyyətindən ətraflı danışaraq, bildirdi ki, kəndlilərin torpağı ən ucuz qiymətə də satın almaq imkanları yoxdur, torpağı onlara əvəzsiz, xüsusi sahibkar və s. torpaqlarını "məcburi özgəninkiləşdirərək bütün Rusiya vətəndaşlarına payla-nacaq xalq fondu vasitəsilə vermək lazımdır". O, xüsusi mülkiyyətə, hər cür pulla alqı-satqılara qarşı çıxış etdi.

Müsəlman fraksiyasında qadınların hüquq bərabərliyi haqqında da məsələ qaldırılırdı. Fraksiya mollalar şurası və müsəlman dininin müxtəlif instansiyaları ilə çoxlu razılaşdırmalardan sonra belə bir nəticəyə gəldi: qadınlara seçki hüququ verilsin, ancaq seçkiqabağı yığıncaqlar ayrıca keçirilsin[150]. Peşəsi müəllim olan

M.Mahmudov Dumanın xalq təhsili üzrə komissiyasının üzvü kimi xalq maarifi naziri tərəfindən təqdim edilmiş qanun layihəsi üzrə çıxış edərək diqqəti müsəlman müəllimlərin hüquqsuz vəziyyətinə yönəltdi. O qeyd etdi ki, müsəlman müəllimlər insan ləyaqətindən, xalq təhsili üzrə bu və ya digər vəzifəni tutmaq hüququndan məhrum edilmiş xüsusi bir təbəqəyə ayrılıblar, onların ana dilində danışmaq hüququ yoxdur, buna görə də onlar sıxışdırılır. M.Mahmudbəyov icbari ümumi ibtidai təhsil tələbi əlavə olunmaqla, qanun layihəsinin komissiyaya verilməsi barəsində kadetlərin təklifini müdafiə etdi.

Duma komissiyasının yerli məhkəmə haqqında məruzəsi peşəkar hüquqşünaslar F.Xoyski və X.Xasməmmədovun xüsusi marağına səbəb oldu. Onlar Rusiyanın bütün guşələrində məhkəmə islahatı olması, məhkəmənin yerli əhalinin dilində aparılması zəruriliyinə tərəfdar çıxdılar[151].

II Dumanın buraxılmasından sonra III Dumaya seçkilər haqqında qanun verildi. Bu qanun Rusiya ucqarlarının Dumaya nümayəndələr göndərmək hüququnu xeyli məhdudlaşdırdı. Belə ki, əgər Bakı, Yelizavetpol və İrəvan quberniyalarının hər birinin əvvəlki dumada 3 nümayəndəsi var idisə, indi bütün quberniyalar birlikdə ancaq iki nümayəndə seçə bilərdi, Tiflis quberniyası isə əvvəlki 4 deputat əvəzinə bir nümayəndəyə malik idi. Bütövlükdə isə Qafqazdan əvvəlki 28 deputatın əvəzinə 10 nümayəndə seçilməsi nəzərdə tutulurdu.

Məhdudiyyətlər cəmiyyətdə narahatlığa səbəb oldu. "Kaspi" qəzeti yazırdı: "Elə eləmək lazımdır ki, Dumaya gedəcək on deputat əvvəlki 28 nəfərə bərabər olsun..."[152].

1907-ci il iyunun 3-də Dövlət Dumasına seçkilər haqqında təsdiq edilmiş "Əsasnamə"nin 25-ci maddəsində göstərilirdi ki, Bakı, Yelizavetpol və İrəvan quberniyaları üçün ümumi olacaq seçki məclisində seçkilərin keçirilməsinə nəzarət Yelizavetpol qubernatoruna həvalə edilir, seçki məclisi isə Yelizavetpol şəhərində çağırılır. Seçkilər nəticəsində yuxarıda sadalanan quberniyaların müsəlman əhalisindən III Dövlət Dumasına seçilən deputat Xəlil bəy Xasməmmədov oldu. Erməni əhalisini İ.Saqatelyan, rus əhalisini isə özünün xəbəri olmadan prikazçik şəhadətnaməsinə görə qafqazlıya dönmüş təsadüfi "həştərxanlı" Timoşkin təmsil etdi[153].

III Dövlət Duması 1907-ci il noyabrın 1-də açıldı. Onun bütün rəhbərliyi oktyabristlərdən ibarət idi.

N.A.Xomyakov sədr seçildi, sonralar bu vəzifədə növbə ilə A.İ.Quçkov və M.V.Rodzyanko oldular. Bu, III Dumanın özündən əvvəlki dumalara nisbətən daha sağ mövqe tutacağını göstərirdi. X. Xasməmmədov dumanın səkkiz daimi komissiyasından bir neçəsinin - imperatora müraciətlər hazırlamaq, sorğular, köçürmə məsələsi və məhkəmə islahatları üzrə komissiyaların tərkibinə daxil idi.

X.Xasməmmədovun Duma fəaliyyəti, çıxışları, sorğuları, müxtəlif duma materialları hazırlanmasında iştirakının təhlili sübut edir ki, o, yorulmadan Azərbaycan cəmiyyətinin müxtəlif imperiya instansiyalarına göndərilən petisiya, xahişnamə və müraciətlərindən toplanmış tələb və istəklərin həyata keçirilməsinə çalışırdı.

X.Xasməmmədovun 1907-ci il noyabrın 13-dəki iclasda II Nikolaya

ünvanlanmış iki hissədən ibarət müraciətinə dair çıxışında qeyd edilirdi: "Mən, siyasi əqidəsi konstitusiyalı monarxiya olan qrupa mənsub bir adam kimi, bütünlüklə bu müraciətin birinci hissəsinə qoşuluram. Burada biz öz monarxımıza sədaqət və sevgi hissimizi bildirməliyik və əslində də bildirmişik, siyasi hissə haqqında isə mən eyni şeyi deyə bilmərəm". X.Xasməmmədov "Zaqafqaziya müsəlmanları" adından mülahizə yürütmək məsuliyyətini öz üzərinə götürərək deputatlara bildirdi ki, "Bizim dövlətimizin siyasi quruluşunun bu və ya digər adı qətiyyən vacib deyildir, bizim üçün daha vacibi bu siyasi quruluşun bizim tələbləri, bizim peşələri ödəyə biləcək məzmunudur"[154]. Bununla 1905-ci il 17 Oktyabr manifestinin müddəalarının həyata keçirilməsi nəzərdə tutulurdu. X.Xasməmmədovun fikrincə, müraciətdə "köhnə Rusiya ilə yeni Rusiya arasında aydın deportasiya xətti qoyulmuşdur". Manifestdən sonrakı iki il ərzində "özgə millətlərin istəkləri aşağıdakılardan ibarət idi: tam vətəndaş azadlığı, bütün vətəndaşların siyasi və mülki hüquq bərabərliyi, əsl xalq nümayəndəliyi, hakimiyyətin qanuniliyi və xalq nümayəndələrinin dövlət qanunvericiliyi işlərində tam iştirakı". X.Xasməmmədov iki il ərzində müsəlmanların hüquqlarının rus əhalinin hüquqları ilə bərabərləşdirilməsi, onların maarifləndirilməsinin inkişafı və maddi rifah halının yüksəldilməsi üçün elə bir iş görülmədiyi üzərində də dayandı. O, öz çıxışında köçürmə məsələsinə toxunaraq, Duma deputatlarını əmin etməyə çalışdı ki, "uzun müddət ərzində aztorpaqlılıqdan əzab çəkən" yerli kəndlilər torpaqla təmin olunduqları təqdirdə, "kim olursa olsunlar və harada yaşayırsa yaşasınlar, bütün Rusiya oğullarını öz ağuşlarına qəbul edəcəklər".

III Dövlət Dumasında Rusiya imperiyasının müsəlman ucqarlarından olan deputatlar vahid parlament fraksiyasında birləşmişdilər. Fraksiya 8 nəfərdən ibarət idi, onun xüsusi bürosu Duma deputatı olmasa da, fraksiyanın və bu dumanın fəaliyyətində, qanun layihələrinin hazırlanıb təqdim edilməsində çox yaxından iştirak edən Ə.Topçubaşovun başçılığı altında işləyirdi.

Fraksiya xüsusi iclaslarını ana dilində ibtidai təhsil, Qafqazda zemstvo idarələrinin təsis edilməsi kimi məsələlər üzrə öz münasibət və mövqeyini işləyib hazırlamağa həsr etmişdi. Müsəlman fraksiyası dini etiqad, vicdan azadlığı məsələsinə böyük əhəmiyyət verərək, bu məsələ üzrə özünün xüsusi məruzəsini Dumanın müzakirəsinə təqdim etdi. Fraksiyanın fəaliyyəti bütün qanun layihələrinin müzakirəsində iştirak etmək, duma iclaslarında vahid hərəkət xəttini işləyib hazırlamaq, məqsəd isə islahatlara nail olmaq idi.

X.Xasməmmədov öz çıxışlarında dəfələrlə vətəndaş azadlıqları və siyasi hüquqlar verilməsi, köçürmə məsələsinin qaydaya salınması, təhsil və məhkəmənin ana dilində aparılması, zemstvoların tətbiqi və s. ən vacib məsələlər üzərində dayanırdı. Onun çıxışlarından ən mühümü "Qafqaz sorğusu" adlandırılmış sorğuya aid olmuşdu. Qafqaz sorğusu ifrat sağların təşəbbüsü ilə Dumaya təqdim olunmuş, sağ oktyabrist çoxluğunun təkidi ilə gündəlikdən çıxarılmışdır.

X.Xasməmmədov, ilk növbədə, Qafqazda mövcud olan xalqların bir-birinə

qarşı qoyulması hallarına diqqət yetirir, diyarda maarifin vəziyyəti üzərində dayanaraq qeyd edirdi ki, mövcud məktəblər yerli əhalini təmin etmir, çünki bunlarda təlim ana dilində aparılmır. Belə məktəblərin özü də son dərəcə az idi. Müsəlmanların yaşadığı yerlərdə hər 14 min nəfər sakinə, xristianların məskunlaşdıqları ərazilərdə isə hər 4 min nəfər sakinə bir ibtidai məktəb düşürdü.

Alitəhsilli müsəlmanlar orta tədris müəssisələrində pedaqoji fəaliyyətə buraxılmır, nazirin icazəsi olmadan vəkillik edə bilməzdilər. Şəhər əsasnaməsinin 44-cü maddəsi şəhər özünüidarə orqanlarında müsəlmanların sayını məhdudlaşdırırdı. Müsəlman ruhaniləri də məhdudiyyətlərə məruz qalırdılar. X.Xasməmmədov izah edirdi ki, bütün bunların nəticəsində müsəlmanlar mədəni baxımdan öz qonşularından geri qalmışlar[135].

Diyarda ali hakimiyyət məsələsinə öz münasibətini bildirərkən X.Xasməmmədov belə hesab edirdi ki, hakimiyyət əhaliyə xeyirxah olmalı, millətləri ayırmaq yox, birləşdirməklə dövlətə məhəbbət toxumu səpməlidir. O, çarizmin köçürmə siyasəti barəsində dəfələrlə bəyan etmişdi ki, ancaq yerli əhali torpaqla təmin edildikdən sonra qalan torpaqlar köçürülmə üçün ayrıla bilər[156].

X.Xasməmmədov bəzi qərarlara dəyişikliklər və əlavələr üzrə qanun layihəsi barədə torpaq komissiyası məruzəsinin müzakirəsindəki çıxışında kəndli torpaq sahibliyi, Rusiya imperiyasının qərb quberniyalarında zemstvoların yaradılması məsələsinə toxunaraq, Qafqazda da zemstvo tətbiq olunmasını təklif etdi. X.Xasməmmədov ibtidai məktəbdə ana dilində təhsillə əlaqədar olaraq, müəllimlərin hazırlanması problemi üzərində, onların təhsil ala bildiyi Qori və İrəvan seminariyalarının ucqarda yerləşməsi, bunlardakı vakansiya məhdudluğu üzündən müsəlmanların ehtiyaclarının ödəyə bilməməsi üzərində dayandı. Müəllimlərin Azərbaycandan kənarda hazırlanması ona gətirib çıxarır ki, gələcək müəllimlər nə milli ənənələrdən, nə tarixdən, nə adətlərdən xəbərdar olur, nə də əhali ilə ünsiyyətə girə bilirlər. Ona görə də o, Xalq Maarifi Nazirliyi qarşısında Zaqafqaziya seminariyasının türk-müsəlman şöbəsinin Gəncəyə köçürülərək, onun müstəqil seminariyaya çevrilməsi barəsində vəsatət qaldırır, müsəlmanlar üçün qadın müəllim seminariyasının açılması məsələsini irəli sürür, bir sıra məhdudiyyətlərə-ruhani müəssisələrinin lüzumsüz inzibati himayəsinə, məktəb şurası sədrinin və şura üzvlərinin yarıdan çoxunun mütləq xristianlardan olmasına qarşı etiraz edirdi. X Xasməmmədov dini etiqad azadlığını ən mühüm məsələ elan edərək, cümə günlərində və islam bayramlarında müsəlmanlara tam istirahət verilməsi barəsində də vəsatət qaldırırdı.

Parlaq zəkası və dərin hüquqi təhsili X.Xasməmmədova qanun layihələrinin geniş dairəsi üzrə, yerli məhkəmə islahatı, hərbi mükəlləfiyyətlər və s. haqqında layihələrin müzakirəsində çıxış etmək imkan verirdi. "Vətənin hər yerində bütün vətəndaşlar eyni hüquqlara malik olmalıdırlar" - bu onun bütün çıxışlarının leytmotivini təşkil edirdi. Onun arzu və ümidləri ancaq Dövlət Dumasının protokolları və stenoqrafik hesabatlarında qaldı. Belə ki, 1912-ci il iyunun 9-da çarın senata verdiyi fərmanına görə dumanın iclasları dayandırıldı.

"Prikaz" ("Əmr") qəzeti III Dumanın fəaliyyətini əvvəlki dumalarla müqayisə

edərək yazırdı: "III Duma xalqa heç nə vermədi və verməyəcəkdir. O, bürokratiyanın əlində ancaq şirma (pərdə) idi. Əvvəlki dumalarda məna, fikir var idi. Hərçənd ki, o, müstəsna qüvvələrə malik deyildi, fikrin özü isə var idi".

IV Dövlət Duması 1912-ci ildə noyabrın 15-dən çağırıldı. Azərbaycanda seçkiqabağı kampaniya genişlənir, deputatlığa namizədlərə tapşırıqlar verilirdi.

IV Dövlət Dumasına seçkilər 1912-ci ilin sentyabr və oktyabrında keçirildi. III Dumaya seçkilərdə olduğu kimi, kuriyalar üzrə seçilmiş seçicilər öz içərilərindən iki deputat (quberniyaların müsəlman və erməni əhalisinin hər birindən bir deputat) seçdilər. 1912-ci il oktyabrın 20-də M.Cəfərov və M.İ.Papacanov IV Dövlət dumasının deputatı oldular. Rus əhalisinin Tiflisdə seçilmiş deputatı L.İ.Skobelev kimi onların da hər ikisi Bakı şəhərində yaşayırdı.

Bakı şəhərinin sakini Məmməd Yusif Hacıbaba oğlu Cəfərovun 27 yaşı var idi. Bakı Aleksandr gimnaziyasını, 1912-ci ildə Moskva Universitetinin hüquq fakültəsini bitirmişdi, andlı vəkilin köməkçisi işləyirdi.

IV Dövlət Duması 1912-ci il noyabrın 15-də fəaliyyətə başladı. M.V.Rodzyanko Dumanın sədri seçildi. O, oktyabrist-kadet çoxluğunun təmsilçisi olduğu üçün dərhal özünü konstitusiyalı quruluşun tərəfdarı elan etdi.

M.Cəfərov IV Dumanın büdcə və köçürmə komissiyasına üzv seçildi və 7 deputatdan ibarət müsəlman fraksiyasına daxil oldu. "Kaspi" qəzeti onların partiya mənsubiyyətini səciyyələndirərək qeyd edirdi ki, fraksiyanın ilk beş üzvü mütərəqqi inamları rəhbər tutur, tərəqqipərvərlər partiyasına qoşulurlar; Samaranın nümayəndəsi sağçı, Dağıstanın nümayəndəsi isə oktyabristdir[157].

IV Dövlət Dumasının fəaliyyəti, müsəlman ucqarları deputatlarının burada iştirakı, tərkibinə M.Cəfərovun da daxil olduğu müsəlman fraksiyasının iclasları Azərbaycan dövri mətbuatında geniş əks etdirilirdi. Cəmiyyətin siyasi mədəniyyətinin yüksəlişinə dair, Rusiyanın parlament həyatında baş verən hadisələr barəsində mətbuata geniş məlumatlar çatdırılmasına şərait yaradan, həmin dövrdə Peterburq Universitetində təhsil alan Ceyhun bəy Hacıbəyov özü müntəzəm olaraq Dumanın iclaslarında iştirak edir, Bakıya ətraflı və yüksək peşəkarlıqla informasiya verirdi. Sonralar məşhur ictimai-siyasi xadim kimi tanınan C. Hacıbəyovun "Kaspi" qəzetində çıxmış yazıları içərisində "Dağıstani" ləqəbi ilə imzalanmış "Peterburq məktubları", "Müsəlman fraksiyasında", "Müsəlmanın qeydləri" silsilə yazıları xüsusi yer tutur. O, oxucuları Tavriya sarayında hökm sürən ab-hava ilə tanış edir, müsəlman fraksiyasının uğur və müvəffəqiyyətsizliklərini, təhlil edir, onun üzvlərini kifayət qədər dəqiq səciyyələndirirdi və i.a.

M.Cəfərov həm Dumanın, həm də fraksiyanın işində yaxından iştirak edir, seçicilərlə görüşərək, verilən tapşırıqlar və onların yerinə yetirilməsi sahəsində görülmüş işlər barəsində onlara məlumat verir, səmimi şəkildə fraksiyanın ağır maddi və mənəvi vəziyyətindən danışırdı. O, əksər Duma deputatlarının, xüsusilə sağların fraksiyaya yekəxana, təkəbbürlü münasibətini, onun haqq səsinə heç kəsin qulaq asmadığını,

müsəlmanlara hüquqlar verilməməsindən danışan natiqlərə hər cür maneçilik törədildiyini qeyd edirdi.

Müxtəlif çətinliklərə baxmayaraq, müsəlman fraksiyasının az-saylı üzvləri, o cümlədən də M.Cəfərov vaxtı çatmış problemlərin həlli üçün Dumanın tribunasından, onun çoxsaylı komissiya və yarımkomissiyalarından istifadə edirdi. O, seçicilərinin və öz diyarının mənafeyini müdafiə etməklə yanaşı, IV Dövlət Dumasında təmsilçi olmayan ucqarların müsəlman əhalisinin də mövqeyini müdafiə etməyi öz üzərinə götürmüşdü. Məsələn, qırğızlar onları seçki hüquqlarından məhrum etmiş 1907-ci il 3 iyun qanununun ləğvini xahiş edir, ən yaxşı torpaqlarını köçürülən gəlmələrin tutmalarından narazılıqlarını bildirir, təhsillə bağlı bir sıra vacib məsələləri qaldırırdılar. M.Cəfərov bütün duma fəaliyyəti dövründə, həmçinin qırğızları müdafiə çıxışına hazırlaşarkən materialları diqqətlə öyrənir və təhlil edirdi.

1912-ci il dekabrın 10-da M.Cəfərov fraksiyanın adından hökumət bəyannaməsinə cavab nitqi ilə çıxış etdi. O, Qafqaz müsəlmanlarını maraqlandıran məsələlər (zemstvo özünüidarəsi; bəyannamədə bu məsələdən söhbət getməsə də, zemstvo əsasnamələrinin yenidən nəzərdən keçiriləcəyi bölgələr sadalanırdı) barədə müsəlman fraksiyasının tələblərini konkretləşdirdi. O, maarif məsələləri üzərində də dayandı: "Biz xalq maarifinə, ilk baxışda siyasətə heç bir yer olmadığı bu müqəddəs işə hökumətin qərəzli müsibətini acı təəssüflə qeyd edirik. İndiyədək hökumət müsəlmanların maarifləndirilməsi adı altında onların ruslaşdırılmasına yönələn tədbirləri həyata keçirməyə çalışmışdır". M.Cəfərov xeyriyyəçilik və maarifçilik cəmiyyətlərinin, onların yanındakı məktəblərin bağlanması hallarının mövcud olduğunu qeyd edərək, bunları "rus həyatına, rus mədəniyyətinə qovuşdurmaq cəhdlərinin" hökumət tərəfindən təqib olunması, xalqa qarşı inamsızlığın təzahürü kimi qiymətləndirirdi[158].

1916-cı ilin martında o, Dumanın iclasında maarif nazirliyinin smetasına aid çıxışında müsəlman fraksiyasının proqramını elan etdi. Bu proqrama maarif sahəsində müsəlmanların hüquqlarını məhdudlaşdıran qanunvericilik aktları və inzibati normaların ləğvi, şagirdlərin ana dilində təhsilinin tətbiqi (bu zaman ibtidai məktəb proqramında rus dilinin öyrənilməsinə müəyyən yer ayrılırdı), ayrı-ayrı şəxslər və cəmiyyətlərə ana dilində məktəblər açmaq hüququ verilməsi arzusu daxil idi. Proqram həmçinin anadilli məktəblərin müvafiq pedaqoji heyətini hazırlamaq üçün zəruri tədbirləri, müsəlmanlara son dərəcə vacib olan bu işdən ötrü büdcədən zəruri vəsait ayrılmasını nəzərdə tuturdu. Duma, fraksiyanın razılığı ilə, bu məsələnin iclasda çətin həll ediləcəyini nəzərə alaraq, onu xalq təhsili komissiyasına verməyi qərara aldı.

1916-cı il noyabrın 3-də IV Dumanın iclasında bir sıra deputatlar hökumətə etimadsızlıq elan etdilər. M.Cəfərov fraksiyanın adından müxalifət tərəfindən hökumətin işinə verilmiş bu qiymətlə razılaşmadığını bildirərək dedi ki, "nifrətamiz milli zülm təcrübəsi heç vaxt belə miqyas almamışdır. Heç vaxt mərkəzləşdirilmiş qəlbsiz bürokratik aparat Rusiyanın digər xalqlarının milli hisslərinə belə ələ salmamışdır və onların məişət və mənəvi xüsusiyyətlərini, hazırkı dövrdə olduğu kimi, şikəst etməmişdir"[159].

Fraksiyanın sədri K.B.Tevkelov və M.Cəfərov Nazirlər Şurasının sədrinə

məktubla müraciət edərək, qeyri-rus xalqlarının orduya çağırılması işinin qaydaya salınmasını xahiş etmişdilər. Bununla birlikdə onlar belə hesab edirdilər ki, tarla işlərinin qızğın çağında kəndlilərin məşğulluğu mütləq nəzərə alınmalı, onların ailələri də orduya çağırılmışların ailələri kimi dövlət payları ilə təmin olunmalı, tibbi və yaş yoxlanılması diqqətlə aparılmalı, fəhlə drujinalarına rəislər təyin edilərkən rəislərin yerli dili bilməsi nəzərə alınmalıdır[160]. Fraksiya və onun bürosunun səyi nəticəsində qeyri-rus əhalinin səfərbər edilməsi sentyabrın 15-dək təxirə salındı. "Açıq söz" qəzeti bu xidməti qeyd edərək yazırdı ki, "Qafqaz müsəlmanları fraksiyanın və büronun xeyrini gördülər, hərçənd ki, bizdən onlara bir xeyir yoxdur".

Ölkədə ümummilli böhran güclənirdi. Dumada təmsil olunmuş bütün siyasi qüvvələr dumadan narazı olduqlarını gizlətmirdilər, Çarizmə olan bütün ümidlər özünü doğrultmadı, vəd olunmuş islahatlar kağız üzərində qaldı. Tədricən aydınlaşdı ki, islahatlar keçirilməyəcək. Ümid məyusluqla əvəz olundu, bu da, demək olar ki, bütün Dumanı bürüyən əsəbiliyə çevrildi. Əsəbi Duma çar üçün də əlverişli oldu. 1917-ci il martın 1-də senata veriləcək çar fərmanları dərc olundu. Bu fərmanlara görə, Dumanın iclasları fevralın 26-da dayandırılmalı və 1917-ci ilin aprelindən gec olmayaraq başlamalı idi. Lakin nə hökumət fərmanını, nə də çarın yeni duma çağırmaq ümidlərini həyata keçirmək nəsib olmadı. Fevralın 26-da Dövlət Dumasının ağsaqqallar şurası dumanın buraxılması haqqında fərmanla tanış olaraq qərara aldı ki, "Dövlət Duması dağılmır, bütün deputatlar öz yerlərində qalsınlar".

III FƏSİL

# AZƏRBAYCAN VƏ BİRİNCİ DÜNYA MÜHARİBƏSİ

## § 1. AZƏRBAYCAN MÜHARİBƏ EDƏN DÖVLƏTLƏRİN PLANLARINDA

1914-cü ilin iyununda bəşəriyyət tarixində öz miqyası və qurbanlarına görə o vaxtadək misli görünməmiş müharibə - Birinci dünya müharibəsi başlandı.

Müharibənin başlanmasının səbəbkarları onun iştirakçısı olan bütün aparıcı dövlətlər - Almaniya, İngiltərə, Fransa, Avstriya, Macarıstan və Rusiya idi. Lakin İngiltərə, Rusiya və digər dövlətləri sıxışdıraraq, silah gücünə dünyanı yenidən bölüşdürüb pay almağa can atan Almaniya müharibənin başlanmasında əsas rol oynadı.

Müharibə Avstriya-Macarıstan ordusunun Serbiyaya qarşı yürüşü ilə başladı. Serbiya ilə müqaviləsi olan Rusiya iyunun 19-da (avqustun 1-də) ümumi səfərbərlik keçirdi. Buna cavab olaraq Almaniya Rusiyaya müharibə elan etdi. Rusiyanın Antanta üzrə müttəfiqləri - Fransa və İngiltərə Almaniyaya qarşı çıxdı.

II Vilhelmin ordusu Belçika ərazisindən Fransaya soxuldu. Rusiya Şərqi Prussiyada hücuma başladı. Tezliklə Yaponiya Antanta, Türkiyə isə Almaniya-Avstriya bloku ilə birləşdi. Müharibənin gedişində İtaliya və Rumıniya Üçlər ittifaqı, ABŞ və digər dövlətlər isə Antanta tərəfindən əməliyyatlara qoşuldu.

Döyüşən bloklardan hər biri öz məqsədlərini güdürdü. Müharibənin başlanmasının həlledici amili müstəmləkələr və təsir dairələri üstündə Almaniya və İngiltərə arasındakı barışmazlıq olsa da, digər iştirakçı dövlətlər arasında da mühüm ziddiyyətlər var idi. Rusiya və Almaniya Konstantinopol və boğazlar üstündə, Türkiyə və Rusiya Qərbi Ermənistan və Konstantinopola görə, Rusiya və Avstriya Balkanlarda hökmranlıq uğrunda mübarizədə bir-biri ilə rəqabət aparırdı.

Xeyli ölkələri əhatə etmiş və qlobal xarakter almış ziddiyyətlərin mürəkkəbliyi və rəngarəngliyi üzündən müharibə öz qanlı qəsbxanasına 38 ölkəni cəlb edərək dünya müharibəsinə çevrildi.

Qafqaz, ilk növbədə isə neft Azərbaycanı da Almaniyanın müdaxilə planlarına daxil idi.

İngilis, fransız və alman kapitalları arasında Bakı neft sənayesində hökmranlıq uğrunda başlayan və ilk dövrlərdə Rusiya neft ticarətində almanların nüfuzunun güclənməsinə gətirib çıxaran rəqabət nəticə etibarilə Azərbaycanın neft istehsalında əsas mövqeləri ələ keçirən rəqiblər tərəfindən alman kapitalının sıxışdırılması ilə başa çatdı.

Neft istehsalı uğrundakı mübarizədə itirilmiş mövqeləri geri qaytarmaq cəhdləri ilə yanaşı, inhisarçı alman burjuaziyasının ideoloqları Skandinaviyadan İran körfəzinədək çox böyük əraziləri əhatə etməli olan "ümumalman reyxi" yaradılması proqramını işləyib hazırlayırdılar[1]. Almaniyanın hökumət məmuru Rudolf Martin hələ müharibədən xeyli

əvvəl, 1907-ci ildə nəşr etdirdiyi "Berlin-Bağdad" adlı kitabında almanların hakimiyyəti altında Bakı və bütün Qafqazı əhatə edəcək "Tiflis canişinliyi" yaradılmasını Almaniya və Rusiya arasındakı gələcək müharibənin məqsədlərindən biri adlandırırdı[2].

Müharibə ərəfəsində Almaniyadan Rusiyaya, o cümlədən də Zaqafqaziyaya çoxlu kəşfiyyatçılar qrupu göndərilmişdi. Onlar alman firmalarının bu diyardakı şöbələrində və müxtəlif alman mədəni-maarif cəmiyyətlərində fəaliyyət göstərərək, əhali arasında təşviqedici ədəbiyyat yayır, müxtəlif təxribat işləri aparırdılar. Alim, səyyah və s. adlar altında Almaniyadan Rusiyaya gələn şəxslər də kəşfiyyatçılıq fəaliyyəti ilə məşğul olurdular. Bütün bu fəaliyyətin təşkil və əlaqələndirilməsində qraf fon Şulenburq başda olmaqla Tiflisdəki Almaniya konsulluğu, habelə Ərzurumdakı alman konsulu Edqar Andres böyük rol oynayırdı[3]. Bu alman casusları Almaniyanı Zaqafqaziya xalqının müdafiəçisi, müstəqilliyinin tərəfdarları kimi təqdim edirdilər.

Almaniya Cənubi Azərbaycanda da öz təsirini möhkəmləndirmək üçün, Rusiyanın buradakı mövqeyini zəifləmtməyə çalışaraq, bu bölgənin strateji əhəmiyyətini nəzərə alıb, nüfuzlu yerli dairələrlə sıx əlaqələr qurmağa can atırdı. Alman kapitalı burada ticarət-sənaye kompaniyaları yaratmağa başladı. Bağdad dəmir yolunun bir qolu olacaq Bağdad-Həmədan-Tehran xəttinin alman sənayeçiləri tərəfindən hazırlanmış layihəsi onların planlarında az rol oynamırdı.

Bu planların həyata keçirilməsində Almaniyanın iqtisadi və siyasi plasdarmı, sonra isə hərbi müttəfiqi olmuş Türkiyəyə mühüm yer verilirdi.

Alman bankları ilk növbədə təkcə Türkiyə hökumətinin maliyyə təşkilatlarına rəhbərlik etməklə kifayətlənmirdilər, burada alman siyasətinin icraçısı rolunda çıxış edən "Döyçe bank" - "Almaniya bankı" isə Türkiyə iqtisadiyyatında aparıcı rol oynayırdı[4].

Müharibə ərəfəsində Almaniyanın Türkiyədəki nüfuzu xüsusilə gücləndi. 1914-cü ilin əvvəlində alman generalı Liman fon Sanders Türkiyə silahlı qüvvələrinə başçılıq etməyə başladı. Onunla birlikdə Türkiyəyə gəlmiş alman zabitlərinin böyük bir qrupu orduda mühüm vəzifələr tutmuşdular. Türkiyənin hərbi naziri, bir neçə il Türkiyənin hərbi attaşesi kimi Almaniyada yaşamış Ənvər paşa II Vilhelmlə şəxsən dost idi. Daxili işlər naziri Tələt paşa və hakim "İttihad və tərəqqi" Partiyasının bir çox digər xadimi də almanpərəst mövqe tuturdular.

Almaniya Yaxın və Orta Şərqdə öz qəsbkarlıq planlarını həyata keçirmək, bu bölgədə İngiltərənin mövqelərinə zərbə vurmaq, habelə Qafqazı tutmaq üçün Rusiyaya qarşı Türkiyədən istifadə etmək niyyətində idi.

Özünün mənafeyi ilə bağlı planları olan Türkiyə müharibəyə qoşularaq onu cihad elan etdi və bütün dünya müsəlmanlarını köməyə çağırdı. Qafqaz, Orta Asiya, Krım və Volqaboyunun istilası Turan imperiyasının yaradılması işinin məhək daşı idi. Gənc Türklər Partiyasının görkəmli nümayəndəsi Rifat Mövlanzadənin məlumatlarına, görə, hərbi nazir Ənvər paşa gənc türklər liderlərinin müşavirəsində bildirmişdi ki, Almaniyanın köməyi ilə biz təkcə Makedoniyanı deyil, həm də Qafqaz və Misiri tutacaq və "İttihad və tərəqqi" Partiyasının hakimiyyətini dünyada ən güclü imperiyaya çevirəcəyik.

Hərbi əhvali-ruhiyyənin qızışdırılması antirus kampaniyası ilə. tacir, zəvvar və b.

sifətlərlə Zaqafqaziyaya gələn müxtəlif emissarların apardıqları pantürkizm və panislamizm təbliğatı ilə müşayiət olunurdu.

Zaqafqaziyanın sonrakı statusuna gəldikdə isə, Türkiyə hökuməti gürcülərə özünün qalib gələcəyi təqdirdə müstəqil Gürcüstan dövlətinin yaradılacağını vəd etmişdi[5]. Gənc türklər hələ 1908-ci ildə daşnaklarla danışıqlara başlamışdılar. 1914-cü ildə Ərzurumda keçirilən daşnak qurultayında "İttihad və tərəqqi" Partiyasının nümayəndələri daşnaklara Türkiyənin ermənilər yaşayan və müharibə nəticəsində Zaqafqaziyanın Rusiyadan alınacaq hissələrini özündə birləşdirəcək muxtar erməni dövləti yaradılmasını təklif etmişdilər. Lakin daşnaklar gələcəkdə Türkiyə əleyhinə qiyamı bundan üstün tutdular və beləliklə də öz xalqlarının sonrakı taleyini müəyyənləşdirdilər.

Türkiyə Rusiya ilə müharibədə Zaqafqaziya və Dağıstandakı müsəlman xalqlarının köməyinə ümid bəsləyirdi. Lakin müharibənin əvvəllərində Türkiyə hökuməti Azərbaycanın müstəqilliyinə dair heç bir vəd vermir, onun gələcək Turan imperiyasının tərkibinə qatılmasını planlaşdırırdı.

Türkiyənin müharibəyə girməsi Almaniyanın mənafeyinə cavab verirdi, çünki bu, rus ordusunun xeyli qüvvəsini Qafqaz cəbhəsinə cəlb etməklə almanların Avropa cəbhələrindəki hərəkətini asanlaşdırırdı. 1914-cü il oktyabrın 29-da türk və alman gəmiləri Sevastopol, Odessa, Novorossiysk və Feodosiyanı atəşə tutdu. Elə həmin gün alman "Breslau" kreyseri Kerç boğazından çıxış yolunu minaladı. Bu hərəkətlərə cavab olaraq, Rusiya oktyabrın 31-də rəsmi surətdə Türkiyəyə müharibə elan etdi.

Türkiyə öz hərbi qüvvələrini bir neçə cəbhədə - Qafqaz və Suriya-Fələstin cəbhələrində, Şərqi Frakiyada, İranla sərhəddə və b. yerlərdə cəmləşdirmişdi[6]. Lakin ən iri hərbi qüvvələr Qafqaz cəbhəsində yerləşdirilmişdi. Buradakı hərbi əməliyyatlarda ümumi sayı 190 min nəfər olan 3-cü ordu iştirak edirdi. Türkiyənin malik olduğu 40 piyada diviziyasından 11-i bu ordunun tərkibində idi.

3-cü türk ordusuna qarşı duran Qafqaz rus ordusunun qoşunları 5 qrupdan ibarət idi və Batumdan Urmiyaya (Cənubi Azərbaycana) qədər 100 km-dən artıq cəbhə xətti boyunca səpələnmişdi.

Noyabrın əvvəllərində 3-cü ordu Ərzurum-Sarıqamış istiqamətlərindən hücuma keçdi. Batum vilayətinə girdi və Acarıstanadək irəliləməyə nail oldu. Burada ruslara qarşı qalxmış müsəlman acarlar onları sevinclə qarşıladılar.

İlk uğurlardan ruhlanan və buna böyük əhəmiyyət verən Ənvər paşa orduya komandanlığı şəxsən öz üzərinə götürdü və böyük hücuma başlamaq əmrini verdi. Türklərin bilavasitə vəzifəsi Qars və Sarıqamış arasında rus qoşunlarını məğlub etmək idi. Burada rusların da məntəqəsi yerləşirdi. Bu əməliyyatın uğurla qurtaracağı təqdirdə Zaqafqaziyanın istilası əslində həll edilmiş olardı.

1914-cü il dekabrın 9-dan 1915-ci il yanvarın 5-dək Sarıqamış istiqamətində yolsuzluq və sərt şaxtalar kimi çox ağır şəraitdə rus və türk qoşunları arasında döyüşlər gedirdi.

9-cu türk korpusu Sarıqamışda ruslara hücum etdi, eyni zamanda 10-cu korpus Sarıqamış və Qars arasında dəmir yol xəttini kəsdi. Elə bu vaxt şimal cəbhəsində ruslar Ərdahandan vurulub çıxarıldı. Çar hökuməti kömək üçün müttəfiqlərə müraciət edərək türklərin diqqətini Qafqaz cəbhəsindən yayındırmaq xatirinə hücum təşkil, etmələrini xahiş etdi. Tezliklə rus ordusunun qərargah rəisi general N.Yudeniçin başladığı əks hücum, habelə ağır hava şəraiti və türk qoşunlarının yorğunluğu nəticəsində 9-cu türk korpusu Sarıqamış yaxınlığında darmadağın edildi.

Türkiyə əsgərlərinin xeyli hissəsi soyuqdan və aclıqdan öldü, 3500 nəfəri isə əsir götürüldü. Ümumiyyətlə, Sarıqamış əməliyyatında Türkiyə döyüşlərdə iştirak etmiş qüvvələrinin 86%-dən çoxunu itirmişdi. Sarıqamışdan sonra Qafqaz cəbhəsindəki döyüşlərin gedişində həlledici dönüş başlandı. 1915-ci ilin yazında ermənı silahlı dəstələrinin kömək göstərdiyi rus qoşunları Şərqi Türkiyənin ermənilər yaşadığı ərazisinə soxuldular.

Eyni zamanda daşnaklar yerli ermənilərin türklərə qarşı üsyan qaldırmalarına nail oldular. Buna cavab olaraq Türkiyə hökuməti ermənilərin kütləvi surətdə köçürülməsini əmr etdi. Bu deportasiyanın gedişində xeyli miqdarda dinc əhali zərər çəkdi. Eyni zamanda general Lyaxovun rus dəstələri Batuma girərək türklərə kömək göstərdiyinə görə acar əhalisinin 90%-ni qırdı[6].

Qafqaz cəbhəsindəki döyüşlərlə bir vaxtda Türkiyə qoşunları rusların diqqətini Qafqaz cəbhəsindən yayındırmaq ümidi ilə Cənubi Azərbaycan ərazisinə girdilər, beləliklə də İranın bitərəfliyi pozuldu. Almaniya və Türkiyənin məqsədi İranda ingilis və rusların təsirini puça çıxarmaq, habelə onun ərazisindən Cənubi Qafqaza soxulub ilk növbədə Bakını tutmaq idi.

Türk ekspedisiya korpusu Ənvər paşanın dayısı Xəlil bəyin komandanlığı altında 1915-ci il yanvarın 1-də Təbrizi, apreldə isə Urmiyanı ələ keçirdi. Eyni zamanda İranın almanpərəst əhvali-ruhiyyəli hakim dairələri Cənubi Azərbaycandakı bəzi şahsevən tayfaları ilə əlaqə yaradaraq, onlardan rus qoşunlarına qarşı mübarizə üçün silahlı dəstələr formalaşdırdılar.

Gənc türklər hərəkatının görkəmli xadimi, "İttihad və tərəqqi" partiyasının Azərbaycan və Qafqaz üzrə baş müfəttişi təyin olunmuş Ömər Nəcib Azərbaycanın şimal və cənub hissələrinin Türkiyənin himayəsi altında tezliklə birləşdiriləcəyi ümidilə Təbrizdə Cənubi Azərbaycan xan nəsillərindən olanların siyahısını tutmağa başlamışdı. Lakin bu planlar baş tutmadı. 1915-ci il yanvarın sonunda rus qoşunları hücuma keçib Təbrizə girdilər. Dilman döyüşündə Xəlil bəyin korpusu əzildi və tezliklə Cənubi Azərbaycandan sıxışdırılıb çıxarıldı. Bunun ardınca rus ekspedisiya korpusu general Baratovun komandanlığı altında Həmədan və Rumu tutub İsfahana yaxınlaşdı. Bundan əvvəl isə İranın cənubuna ingilis qoşunları çıxarılmışdı[7].

1916-cı ilin yazında bütün Qafqaz cəbhəsi boyunca rus qoşunlarının Ərzurum və Trabzonun tutulması ilə başa çatan hücumu başlandı. Lakin rus qoşunlarının cəbhədəki sonrakı hücumu Rusiyanın bu bölgədə mövqelərinin gücləndirilməsindən çəkinən və Türkiyənin tamamilə darmadağın edilməsinə yol verməməyə çalışan İngiltərə və Fransa hökumətlərinin təzyiqi altında dayandırıldı.

Qafqaz cəbhəsində müharibə çox ağır şəraitdə gedirdi. Sərt iqlim şəraiti, nəqliyyatın yarıtmaz vəziyyəti, silah çatışmazlığı, bir çox zabit və generalların səriştəsizliyi və s. bütün bunlar böyük məhrumiyyətləri və canlı qüvvə itkilərini şərtləndirirdi.

Cənubi Qafqazın əvvəlcə hərbi əməliyyatlar meydanına, sonra isə cəbhəyanı bölgəyə çevrilməsi diyarın siyasi vəziyyətinə və iqtisadi həyatına xeyli zərər vururdu. Mərkəzi Rusiya ilə əlaqələr pozulmuşdu, bu da diyarın zəruri ərzaqla təchizatını çətinləşdirirdi. Qara dəniz limanlarının bağlanması və neft məhsulları ixracının dayanması üzündən neftin qiyməti aşağı düşmüşdü.

Türkiyənin ermənilər yaşayan vilayətlərindəki hərbi əməliyyatlar nəticəsində yüz minlərlə erməni rusların himayəsi altında İrəvan, Yelizavetpol və Bakı quberniyaları ərazisinə axışdı.

## §2. MÜXTƏLİF PARTİYA VƏ TƏBƏQƏLƏRİN MÜHARİBƏYƏ MÜNASİBƏTİ

Birinci Dünya müharibəsinin başlanması Azərbaycan cəmiyyətinin müxtəlif təbəqələrində kifayət qədər ziddiyyətli əks-sədaya səbəb oldu. Cəmiyyətin yuxarı sosial təbəqələri - burjuaziya, mülkədar və liberal ziyalılar müharibədə Rusiyanı müdafiə etdilər. Bu da burjua nümayəndələri və publisistlərinin açıq çıxışlarında, habelə rəsmi sənəd və bəyanatlarda öz ifadəsini tapdı.

Müharibənin elə ilk günlərindən Dövlət Dumasının müsəlman fraksiyası açıqdan-açığa çar hökumətini müdafiə edirdi. 1914-ci il iyulun 21-də bu fraksiyanın imzası ilə "Milliyyət" jurnalında "Rusiyanın müsəlman əhalisinə" müraciəti dərc edildi. Bu müraciət müsəlmanları hər şeyi "Rusiyanın şöhrəti, onun bütövlüyü naminə" qurban verməyə çağırırdı[8]. Azərbaycanın nümayəndəsi M.Cəfərov müsəlman fraksiyasının üzvləri adından müharibəni "azadlıq müharibəsi" adlandırdı və eyni zamanda qeyd etdi ki, "bir şey ki, rus ordusu xaricdəki xalqlara azadlıq gətirir, onda elə bu azadlıq Rusiya imperiyasının tərkibinə daxil olan çoxsaylı xalqlara da mütləq bəyan edilməlidir"[9].

Mütərəqqi Azərbaycan ziyalılarının nümayəndələri zahirən hökumətə loyallığını saxlayaraq, müharibə nəticəsində xalq üçün daha geniş azadlıqlar əldə ediləcəyinə ümid bəsləyirdilər. Bu baxımdan Fətəli xan Xoyskinin aşağıdakı sözləri səciyyəvidir:

"Bu müharibənin qalibi, kim olursa - olsun, bu müharibədən çoxlu yaralarla və zəifləmiş şəkildə çıxacaq. Zəifləməmiş və yaralanmamış bizlər isə xahiş yox, tələb edə

biləcəyik. Biz, islam şiə ölkəsi Romanovlar xanədanından nə gözləyiriksə, Osmanlılar xanədanından da onu gözləyirik. Müstəqillik, bizim üçün lazım olan bax budur, özü də böyük dövlətlər müharibədən sonra nə qədər çox zəif olsalar, bizim üçün azadlıq o qədər yaxşı olacaq. Bu azadlıq buradan, bizim yığılmış qüvvəmizdən, bizim pullarımızdan və bizim neftimizdən doğacaq. Çünki unutmaq olmaz: biz dünyaya daha çox lazımıq, nəinki dünya bizə"[10].

Müharibə nəticəsində müstəqillik əldə olunacağına bəslənən, sonradan tamamilə özünü doğrultmuş bu ümidi M.Ə.Rəsulzadə də özünün "Açıq söz" qəzetinin ilk sayında başqa şəkildə ifadə etmişdi. O yazırdı ki, bu müharibə əzilən ölkələrin müstəqilliyini möhkəmləndirəcək sülhlə bitməlidir, əks halda, bu sülh uzun çəkməyəcək. "Ancaq dövlətçilik uğrunda öz mübarizəsində birləşmiş xalqlar istiqlaliyyət qazanacaqlar, çünki ancaq onlar birlik və dəyanətdən doğan ideallarına və özlərinə inama malik ola bilərlər"[11]. Lakin bununla bərabər, "Müsavat"ın lideri Rusiya hökumətinin müharibədəki xəttini tamamilə müdafiə edirdi. Bu da qəzetin vətənpərvərlik istiqamətində öz ifadəsini tapırdı. M.Ə.Rəsulzadə elə həmin məqalədə yazırdı: "Bütün vətəndaşlarla birgə biz də hər şeydən əvvəl Rusiyaya uğurlar və qələbə diləməliyik"[12].

1914-1915-ci illərdə osmanlı emissarlar, habelə azərbaycanlı mühacir publisistlər antirus təbliğatını gücləndirsələr də (bu da öz ifadəsini vərəqələr və Bakı qəzetlərinin bəzi məqalələrində tapmışdı), bütünlükdə Azərbaycan cəmiyyətinin yuxarı təbəqələri sözdə də, işdə də Rusiyaya tam loyallıq göstərirdilər.

1914-cü il iyulun 23-də Bakı şəhər Dumasının təcili iclasının qəbul etdiyi qətnamədə Bakı ticarət-sənaye burjuaziyasının sadiq təəbəlik hissləri və müharibənin uğurla qurtarması naminə onun hər cür qurbanlara hazır olduğu ifadə edilirdi.

Bakıda, Gəncədə və digər şəhərlərdə vətənpərvərlik mitinqləri və nümayişləri, habelə məscidlərdə təntənəli dua oxuma mərasimləri keçirilir, bu tədbirlərdə bütün qüvvələrin, sərvətin və həyatın "vətən və taxt-tac" naminə verilməsinə hazırlıq ifadə edilirdi.

Türk-müsəlman ziyalıların 1914-cü il dekabrın 8-10-da Peterburqda keçirilmiş, işində M.Cəfərovun, M. Əsədullayevin və b. Iştirak etdikləri IV müsəlman qurultayında çarizmə sədaqət nümayiş etdirildi. Qurultay iştirakçıları rus ordusuna kömək göstərmək məqsədilə bir sıra tədbirlərin (cəbhəyə sanitar dəstələrinin göndərilməsi, müharibə fonduna vəsait toplanılması və s.) həyata keçirmək barədə qərar qəbul etdi.

Bakı neft sənayeçiləri qurultayının şurası 1914-cü ilin avqustunda döyüşən ordunun arxasında hospitalların təşkili üçün Qırmızı Xaç Cəmiyyətinə yarım milyon rubl ianə etməyi qərara aldı. 1914-cü ilin dekabrında Bakı neft sənayeçilərinin XXXIII qurultayı müharibənin ehtiyacları üçün 1 mln rubl ianə verilməsi qərarını çıxartdı və 1915-ci ilin yanvarından bu məqsədlər üçün neftin hər pudu üçün rüsum qoyulması barəsində vəsatət qaldırdı[13].

Lakin bu, Qara dəniz yolları üzərində yaranmış təhlükə ilə bağlı olaraq müharibənin əvvəlində neftin kəskin surətdə aşağı düşmüş qiymətlərinin

sabitləşdirilməsi müqabilində bir növ təşəkkür idi. Tezliklə neftin sürətlə artan qiyməti Bakı neft sənayeçilərinin müharibəyə çəkdikləri xərcləri artıqlaması ilə ödədi.

Milyonçulardan H.Z.Tağıyev, M.Nağıyev, Ş.Əsədullayev, N.Hacınski və b. müharibəyə külli məbləğdə ianələr verirdilər. Onlar həmçinin Qafqaz canişininə sədaqət teleqramları göndərərək, müsəlmanların çara və vətənə xidmət göstərməyə, hər vasitə ilə müharibənin zəfərlə başa çatdırılmasına kömək etməyə hazır olduqlarını bildirirdilər.

Yerli burjuaziyanın təşəbbüsü ilə Bakıda və Azərbaycanın digər şəhərlərində əhalidən ianə toplamaq və xeyriyyəçilik xətti ilə hospitallar təşkil etmək üçün komitələr yaradıldı.

I917-ci il ərəfəsində 125 min nəfər qaçqın və 200 min nəfər müharibədən zərər çəkmiş müsəlman var idi. Bakı müsəlman xeyriyyəçilik cəmiyyəti uşaq evləri təşkil etmək üçün böyük iş aparırdı. Belə müəssisələr müsəlman əhalisinin yığcam yaşadığı bütün yerlərdə (Bakı, Gəncə, İrəvan quberniyası, Qars vilayəti və i.a.) açılmışdı.

Azərbaycan burjuaziyasının nümayəndələri müharibədən zərər çəkmiş acarlara və Anadolu qaçqınlarına da yardım göstərirdilər.

Çar hökuməti müsəlmanları orduya çağırmasa da, bir çox azərbaycanlılar, əsasən də yüksək təbəqədən çıxanlar, könüllü surətdə hərbi xidmətə gedirdilər. Göstərilən dövrdə cəbhələrdə 200 nəfərədək azərbaycanlı zabit vuruşurdu. Məşhur generallar Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski, Hüseyn xan Naxçıvanski də cəbhədə idilər. Hüseyn xan Naxçıvanskinin komandirlik etdiyi "Qafqaz yadelli süvari diviziyası" və ya "Vəhşi diviziya" ən iri müsəlman hərbi birləşməsi idi. Şuşada təşkil olunmuş "Tatar süvari alayı" bu diviziyanın tərkibinə daxil idi. Bu diviziyanın seçmə süvari alayları büsbütün azərbaycanlı və dağıstanlı könüllülərdən ibarət idi.

1914-cü il Lodz əməliyyatında 21-ci piyada diviziyasının komandiri, rus qüvvələrinin bir hissəsini mühasirəyə alıb məhv etməyə çalışan general Makezinin alman zərbə qrupunun planlarını pozmuş general Səməd bəy Mehmandarov xüsusən fərqləndi. Sonra, Azərbaycan Xalq Cümhuriyyətinin müdafiə naziri olmuş S.Mehmandarov müharibənin sonuna yaxın korpuslar qrupuna komandirlik edirdi ki, bu da bütöv orduya komandanlıq etməyə bərabər idi.

"Artilleriyanın allahı" adlandırılmış general-leytenant Ə.Şıxlinski rus ordusunda artilleriya işinin ən yaxşı bilicilərindən biri sayılırdı. Müharibənin ilk günlərindən Peterburqun artilleriya müdafiəsi ona tapşırılmışdı. 1915-ci ildə Ə.Şıxlinski Ali Baş Komandanlıq qərargahında artilleriya hissələri üzrə tapşırıqlar generalı, sonra Qərb cəbhəsinin artilleriya rəisi, müharibənin sonuna yaxın isə 10-cu ordunun komandanı vəzifələrini tutmuşdu.

Bir çox azərbaycanlı zabitlər (polkovnik Talib Vəkilov, rotmistr Teymur Novruzov, kapitan Tərlan Əliyarbəyov və başqaları) döyüşlərdə göstərdikləri igidliyə görə "Georgi xaçı" ilə təltif edilmişdilər. İlk azərbaycanlı hərbi təyyarəçi poruçik Fərrux Qayıbovun təyyarəsi rus aviasiya qrupunun Vilnodakı alman hərbi obyektlərinə hava hücumlarında iştirak edirdi. Bir saat ərzində o, düşmənin 4 təyyarəsi ilə çarpışmış, onlardan 3-nü vurub salmış, lakin özü də vurulub

yandırılmış təyyarəsində qəhrəmancasına həlak olmuşdu.

Hələ 1914-cü ilin mayında Bakıdan IV Dövlət Duması müsəlman fraksiyasının sədri G.B.Tevkelova "Qafqaz müsəlmanları" imzası ilə göndərilmiş məktubda xahiş olunurdu ki, müsəlmanların ehtiyacları Nazirlər Şurasının sədrinə çatdırılsın; ərizəçilərin məktubunda deyildiyinə görə, bu ehtiyaclardan biri rus ordusu sıralarında hərbi xidmət keçmək zərurəti idi. Hərbi mükəlləfiyyət "müsəlman xalqının mənəvi özünüdərkinin qaldırılması və onun mədəni səviyyəsinin yüksəldilməsi" kimi qiymətləndirilirdi.

Lakin çar hökuməti ancaq avqustda 3000 nəfər azərbaycanlının hərbi müdafiə işlərinə səfərbər edilməsi barəsində elan verməklə kifayətləndi. Bu da yerli əhalinin narazılığına səbəb oldu[14]. Dumanın müsəlman fraksiyasının sədri G.B.Tekvelov və M.Cəfərov Nazirlər Şurasından tələb etdilər ki, səfərbərlik vaxtı elan edilərkən əhalinin tarla işləri ilə məşğul olması nəzərə alınsın, bu işlərə cəlb edilənlərin ailələrinə də, orduya çağırılanların ailələrinə olduğu kimi, dövlət ərzaq payları ayrılsın, fəhlə drujinalarına rəislər təyin edilərkən sonuncuların yerli dili bilməsi nəzərdə tutulsun və i.a. Fraksiyanın və onun bürosunun səyləri nəticəsində müsəlman əhalisinin səfərbərliyə alınması vaxtı sentyabrın 15-dək təxirə salındı.

Müharibə illərində Azərbaycanda özünə yer eləmiş erməni burjuaziyası və onun mənafelərini ifadə edən "Daşnaksutyun" partiyası hakim dairələr qarşısında xidmət göstərmək üçün xüsusi can-fəşanlıq edirdilər. Bu partiyanın nümayəndələri özlərinin çoxdankı arzularını ermənilərin də yaşadığı vilayətlərin Türkiyədən alınması və bu ərazilərdə Rusiyanın protektorluğu altında erməni dövlətinin yaradılmasından ibarət istəklərinin həyata keçirilməsini Rusiyanın hərbi qələbələri ilə bağlayırdılar.

Müharibənin ilk günlərində çara göndərdikləri sadiq təbəəlik müraciətində daşnaklar əmin edirdilər ki, onlar "Rusiyanın Şərqdəki tarixi vəzifələrinin" həyata keçməsində ürəkdən maraqlıdırlar.

Daşnaklar müharibənin əvvəlindən erməni əhalisini, o cümlədən də Türkiyə təbəələrini də Türkiyəyə qarşı silahlı mübarizəyə cəlb etmək üçün səs küylü təbliğat kampaniyasını genişləndirirdilər. Qafqaz canişininin icazəsi ilə onlar şəhər və kəndlərdən könüllü yığır, bunlardan hərbi drujinalar yaradırdılar[15]. Bu drujinalar Türkiyəyə qarşı döyüşən nizami rus qoşunlarına qatılaraq dinc türk əhalisinin kütləvi qırğınlarında fəal iştirak edirdilər. Bu avantürist hərəkət Türkiyənin erməni əhalisi üçün kədərli nəticələrə gətirdi, onların kütləvi surətdə deportasiya olunmasına səbəb oldu və sonralar erməni tarixşünaslığında siyasi möhtəkirlik məqsədi ilə saxtalaşdırılaraq, "genosid" kimi təqdim olunmağa başladı.

Qnçakçılar da guya ki, ermənilərin həyatında yeni səhifə açmalı olan bu müharibədə erməni xalqının iştirakına tərəfdar çıxaraq, daşnaklarla eyni mövqedən çıxış etməyə başladılar.

Birinci dünya müharibəsi illərində II Beynəlmiləl partiyalarından əksəriyyəti öz hökumətlərini müdafiə mövqeyinə keçərək, vətənin müdafiəsi və

müharibəyə mane olmamaq şüarını ön plana çəkdi.

Cənubi Qafqazda vətənpərvər menşeviklər qrupuna Noy Jordaniya başçılıq edirdi.

Bakı menşeviklərinin mövqeyi xeyli ziddiyyətli idi. Müharibə elan ediləndən bir neçə gün sonra onlar rəhbər kollektiv adından "Müharibəyə, müharibəyə" adlı iki vərəqə nəşr edib yaydılar. Bu vərəqələrdə müharibə pislənir, onun günahkarları - imperialistlər ifşa olunur, müharibəyə və mütləqiyyətə qarşı mübarizəyə çağırış səslənirdi[16]. Menşeviklərin sonralar "beynəlmiləlçilər" adlandırılmış bir hissəsi hələ də müharibə başlayan təqdirdə sosial-demokratların fəal surətdə müharibə əleyhinə çıxması haqqında qərar qəbul etmiş Bazel sosialist konqresinin təsiri altında idi. Bundan başqa proletariatın içərisində müharibə əleyhinə yönəlmiş əhvali-ruhiyyə güclü idi ki, bununla da hesablaşmamaq mümkün deyildi. Lakin menşeviklərin elə bu hissəsi də müharibəni, imperializmi və şovinizmi, habelə Plexanov və Jordaniyanın mövqelərini ancaq sözlə pisləməklə kifayətlənirdi.

Bakı menşeviklərinin çox hissəsi öz mövqeyi və taktikasına görə, Rusiya menşevik təşkilatının sol-mərkəzçi qanadına yaxın olub, Zaqafqaziya vilayət komitəsi ilə təşkilat əlaqələrini qoruyub saxlamışdı. Bu əlaqələrin qorunub saxlanılması, habelə Ümumqafqaz menşevik konfransının işində iştirakı Bakı menşevikləri içərisində vətənpərvər əhvali-ruhiyyənin tədricən güclənməsinə şərait yaradırdı. Məsələn, 1914-cü ilin dekabrında keçirilmiş, işində Bakı menşeviklərinin də iştirak etdikləri Qafqaz konfransı ordu üçün əsgərlər yığmaq yolu ilə ona kömək göstərilməsi barəsində qərar çıxardı. Dekabrın əvvəlində Bakıda "Milliyyətindən asılı olmayaraq qaçqınlara yardım komitəsi" yaradıldı. Müdafiəçi menşevik V.İ.Firolov onun sədri seçildi. Bu komitə şovinist əhvali-ruhiyyənin qızışdırılması meydanına çevrilmiş qaçqınlara kömək üzrə müxtəlif milli komitələrə qarşı dururdu[17].

Menşeviklərin 1915-ci ilin oktyabrında Ahal-Senaki şəhərində keçirilmiş digər Qafqaz konfransı "ölkənin" düşməndən müdafiəsini təşkil etməyə qadir olan "məsul nazirliyin" yaradılması barəsində kadet şüarına tərəfdar çıxdı. Konfrans habelə hərbi-sənaye komitələrinin fəaliyyətində, "HSK-nın fəhlə qrupları" deyilən qrupların yaradılmasında fəhlələrin iştirakını lazım bildi[18]. Bu qrupların yaradılmasında fəal iştirak edən Bakı menşevikləri V.İ.Frolov, İ.V.Anşeles bu yolla fəhlələri sakitləşdirməyə və müharibə müddətində tətil hərəkatını dayandırmağa səy göstərirdilər.

Azərbaycanın eser təşkilatlarının da mövqeyi birmənalı deyildi. Çoxsaylı həbslərdən sonra Bakı eser təşkilatının fəaliyyəti ancaq 1916-cı ilin payızında canlandı, onun şəhər komitəsi və mədən-zavod rayonlarında da bir neçə qrupu yenidən yaradıldı. Eserlərin bir hissəsi, əsasən fəhlələr müharibə əleyhinə çıxış etməyə və hətta tətillərin hazırlanmasında bolşeviklərlə əməkdaşlıq etməyə başladı[19]. Bakıdakı ilk eser təşkilatları Bakı vilayət HSK yanında fəhlə qrupunun seçkilərində

iştirakdan imtina etdi.

Lakin Bakı eserlərinin digər hissəsi, əsasən, rəhbər orqanlar vətənpərvərlik mövqeyində duraraq müharibədə Rusiyanı müdafiə edirdi.

"İmperialist müharibəsi"ndə qeyd-şərtsiz olaraq öz hökumətina qarşı çıxan yeganə partiya bolşeviklər partiyası idi. Artıq müharibənin ilk günlərində V.İ.Lenin tərəfindən "Müharibə haqqında tezislər" yazılmışdı. Sonralar bu tezislər yenidən işlənib "Müharibə və Rusiya sosial-demokratiyası" adlı manifestə çevrilmiş və bütün bolşevik" təşkilatlarının fəaliyyət proqramı olmuşdu. Bu sənəddə başlanmış müharibə şəraitində partiyanın əsas taktiki şüarları ifadə olunmuşdur: imperialist müharibəsinin vətəndaş müharibəsinə çevrilməsi; "öz" hökumətinin məğlubiyyətinə kömək göstərilməsi; sosial-şovinizmlə və onun bir növü olan mərkəzçiliklə (II Beynəlmiləlin bütün sosialist və sosial-demokrat partiyaları nəzərdə tutulurdu) əlaqələrin tamamilə kəsilməsi; III Beynəlmiləlin yaradılması[20].

1915-ci ilin fevralında RSDFP xarici bölmələrinin Bern konfransının qətnaməsi leninçi müddəalara əsaslanaraq imperialist müharibəsini vətəndaş müharibəsinə çevirməyin konkret yollarını müəyyənləşdirdi: 1) "hərbi kreditlərə səs verməkdən qeyd-şərtsiz olaraq imtina etmək və burjua nazirliklərindən çıxmaq; 2) "milli sülh" siyasəti ilə əlaqələrin tamamilə kəsilməsi, hökumət və burjuaziyanın hərbi vəziyyət tətbiq edərək konstitusiya azadlıqlarını ləğv etdiyi bütün yerlərdə qeyri-leqal təşkilatların yaradılması; 3) bir-biri ilə vuruşan millətlərin əsgərlərinin səngərlərdə və ümumiyyətlə müharibə meydanlarında qardaşlaşmasının müdafiə olunması; 4) proletariatın hər cür kütləvi inqilabi çıxışlarının ümumiyyətlə müdafiə olunması"[21].

Bu müddəalar həm Rusiya, həm də Zaqafqaziya bolşevik təşkilatlarının fəaliyyətinin əsasını təşkil etdi. Belə mövqelərinə və II Beynəlmiləl partiyaları ilə əlaqələri tamamilə kəsdiklərinə görə bolşevikləri "məğlubiyyətçilər" adlandırmağa başladılar.

RSDFP Bakı Komitəsinin irtica illərində tamamilə darmadağın edilməsinə baxmayaraq, 1914-cü ilin ikinci yarısında o öz tərkibini cüzi də olsa (cəmisi 60 nəfər), bərpa etməyə nail oldu. Leninin tezisləri və RSDFP-nin Manifesti Bakı bolşevikləri tərəfindən fəaliyyətə rəhbərlik kimi qəbul edildi.

Bundan əlavə, bolşeviklər fəhlələrin və çağırışçıların müharibə əleyhinə mitinq və nümayişlərinin keçirilməsində fəal iştirak edirdilər.

İyulun 22-də Sabunçuda müharibə əleyhinə nümayiş keçirildi. Bolşeviklərin təşviqatından sonra fəhlələr bildirdilər ki, özgələrinin mənafeyi naminə vuruşmaq üçün cəbhəyə getməyəcəklər. Fəhlələr Balaxanı-Sabunçu polismeysterini daşa basdılar. Yevlax, Yelizavetpol, Ağstafa, Tovuz, Dəllər və b. dəmir yol stansiyalarında da çağırışçıların və ehtiyatda olanların müharibə əleyhinə çıxışları baş verirdi.

1915-ci ildə Yelizavetpol jandarm idarəsinə verilən məlumatda deyilirdi ki, Yelizavetpol qəzası kəndliləri içərisində müharibə əleyhinə güclü təbliğat aparılır,

bolşeviklər kəndliləri hökumətin hərbi tədbirlərini yerinə yetirməkdən boyun qaçırmağa çağırırlar.

RSDF(b)P-nin Bakı və Tiflis təşkilatları cəbhəyanı rayonlarda əhalinin vəziyyətini öyrənmək adı altında bolşevikləri Qafqaz cəbhəsinə göndərir, onlar da orada müharibə əleyhinə təbliğat aparırdılar. A.Caparidze, B.Sərdarov, Q.Korqanov, M.Kedrov, X.K.Jgenti, Y.Koçetkov və b. cəbhəyə göndərilənlər arasında idilər. Cənubi Azərbaycanda yerləşmiş bir sıra hərbi hissələrdə gizli partiya özəkləri yaradılmışdı və o, bolşevik ədəbiyyatını yayırdı.

Bolşeviklər hərbi-sənaye komitələri nəzdindəki fəhlə qruplarının boykot edilməsi kampaniyasının təşkilinə mühüm əhəmiyyət verirdilər. Bakıda bu kampaniya iki dəfə - 1916-cı ilin əvvəlinə və sonuna yaxın keçirilmişdi.

Bir sıra rayonlarda fəhlə qruplarına müvəkkil seçkilərinin pozulmasına nail olunsa da, sənayeçilər 1916-cı ilin noyabrında Bakı vilayət iSK-nın fəhlə qrupuna seçkiləri keçirə bildilər. Bu qrupun tərkibinə menşeviklər və eserlər daxil oldu[22].

Bolşeviklərin müharibə əleyhinə fəaliyyəti zəhmətkeş kütlələr arasında narazılığı daha da qüvvətləndirir, Azərbaycanın Bakı və digər şəhərlərində sənaye müəssisələrində bir sıra tətillərin başlanmasına təkan verirdi.

## § 3. AZƏRBAYCANIN XALQ TƏSƏRRUFATI MÜHARİBƏ İLLƏRİNDƏ

**Sənayenin səfərbər edilməsi və nizamlanması üzrə tədbirlər. Dövlət-inhisarçı meyillərinin güclənməsi** Birinci dünya müharibəsi Rusiyanın bütün xalq təsərrüfatının yenidən qurulması zərurətini meydana çıxardı. Müharibənin geniş miqyası, ordunun hərbi və maddi təchizatı, lazımi əşyalara çox böyük tələbat ölkənin sənaye istehsalında ciddi struktur dəyişikliklərini şərtləndirdi. Bu dəyişiklərin mahiyyəti ondan ibarət idi ki, ağırlıq mərkəzi hərbi ehtiyacları ödəyən sahələrə keçirildi. Dinc bazarın, yəni geniş əhali kütlələri və mülki təsərrüfat sahələrinin tələbatına yönələn istehsal isə getdikcə daha çox tənəzzülə uğrayırdı[23].

Cəbhəyanı bölgəyə çevrilmiş Azərbaycan sənayesi Rus digər arxa rayonlarına nisbətən müharibənin dağıdıcı təsirinə daha güclü şəkildə məruz qalırdı. Müharibə əmtəə dövriyyəsinin, nəqliyyatın işini pozmuş, xammal və avadanlıq idxalını məhdudlaşdırmış, həm Rusiyanın sənaye rayonları, həm də Zaqafqaziyanın ayrı-ayrı bölgələri ilə əlaqələri qırmış, minlərlə fəhlə orduya çağırılmışdı.

Bütün Rusiya sənayesinin işinə mənfi təsir göstərən amillər-istehsalın məhdudlaşması, sənayenin hərbi məqsədlər üçün səfərbər olunması Azərbaycanda

da sənayenin vəziyyətini ağırlaşdırırdı. İstehsalın ən çox ixtisara düşməsi kənardan gətirilən xarici xammalla işləyən müəssisələrdə müşahidə olunurdu (məsələn, toxuculuq müəssisələri yerli pambığa keçməli oldu). İşçi qüvvəsinin çatışmaması və xarici bazarla əlaqələrin kəsilməsi balıqçılıq sənayesini öz istehsalını azaltmaq məcburiyyətində qoydu. Xəzər dənizinin limanlarında ixrac edilməyən çoxlu miqdarda mal yığılıb qaldı. Spirt zavodları öz istehsalını dayandırdı.

Müharibə davam etdikcə günü-gündən genişlənən xəzinə tələbatı ayrı-ayrı sənaye sahələrinin işinə müsbət təsir göstərdi. 1905-ci ilin payızında baş vermiş sənaye səfərbərliyi, yəni onun dövlət müdafiəsi işinə cəlb edilməsi bunun təzahürü idi. Səfərbər olunan sahələr sırasına Azərbaycanın neft, toxuculuq və balıq sənayesi də daxil edildi. Məsələn, neft sənayesi həm hərbi istehlakçıları bütünlüklə təchiz etməyə, həm də yeni məhsullar – toluol, benzol və ksilol istehsal etməyə başladı. Əvvəllər istehsalı dayanmış spirtçəkən zavodlar partlayıcı maddələr istehsalına başladı. Gön-dəri sənayesi ordu üçün ayaqqabı tikişi işinə keçdi. Yağ zavodları da əvvəlcə işi məhdudlaşdırdılar, sonra isə ordu üçün məhsul tədarükünə başladılar. Sənayenin səfərbər olunması mərmi və silah istehsal etməyə başlayan külli miqdarda xırda və orta müəssisələrin inkişafına, həmçinin yenidən qurulmasına güclü təkan verdi[24].

Müharibə illərində neft sənayesinin inhisarlaşması o vaxtadək görünməmiş miqyasa çatdı. Bunun səbəbi digər sənaye sahələri ilə müqayisədə bu sənayenin istehsal, ticarət-satış və nəqliyyat hissələrinin daha yüksək səviyyədə təmərküzləşməsi idi. Hələ müharibənin başlanması ərəfəsində ölkədə bütün səhm kapitalının 87 faizi və bütün neft hasilatının 60%-i üç möhtəşəm trestin ("Oyl", "Nobel" və "Şell") payına düşürdü[25]. Müharibə illərində Bakı rayonunda özəyi rus "Neft" şirkəti olan yeni trest birliyi formalaşdı. 1917-ci il ərəfəsində "Neft" qrupu firmalarının çıxardığı neft Rusiyada ümumi neft hasilatının 9%-ni təşkil edirdi[26]. Bu dörd inhisar qrupu əslində neft sənayesinin bütün istehsal hissəsinə sahiblik edirdi.

Azərbaycan neft sənayesində dövlətin inhisarçı meyillərinin güclənməsi Birinci dünya müharibəsi illərində baş verdi[27]. Bu proses müxtəlif formalarda gedirdi. Bunlardan əsasları inhisarlarla hökumət arasında şəxsi uniyanın (ittifaqın) möhkəmlənməsi və neft sənayesinin nizamlanması idi.

Müharibə illərində ölkənin ən iri bankları və beynəlxalq kapitalla sıx surətdə əlaqədar olan inhisarlar qrupu neft sənayesini nəzarət altına almaqda davam edirdi.

İnhisarlar iqtisadiyyatda hökmranlıqlarını möhkəmləndirdikcə və hökumətlə daha da yaxınlaşdıqca, onların siyasəti bir çox cəhətdən dövlət siyasəti ilə "üst-üstə düşməyə" başladı.

Birinci dünya müharibəsi illərində çar mütləqiyyəti ilk dəfə olaraq ölkənin iqtisadiyyatını planlaşdırmaqla idarə etməyə başladı. Lakin çarizm burjuaziyanın "şəxsi kapitalist təşəbbüsü" azadlığını məhdudlaşdıra bilmədi. Burjuaziya müharibədən

qazanc götürmək üçün öz müəssisələrini tezliklə hərbi məhsul istehsalına keçirməyə can atırdı.

Məsələn, neft sahəsində vəziyyət belə idi. Neftə tələbatın ödənilməsi birinci dərəcəli vəzifə idi və 1915-ci ilin iyulunda müdafiə üzrə xüsusi müşavirə neft sənayesinin böyük dövlət əhəmiyyəti olduğunu etiraf etdi. Lakin Azərbaycandakı neft sənayeçiləri bazar konyunkturasından məharətlə istifadə edərək, bütün müharibə illərində neftin qiymətini artırır, eyni zamanda onun istehsalını məhdudlaşdırırdılar.

Neftdən partlayıcı maddələr (toluol, benzol), habelə yağlar, aviasiya benzini və digər məhsullar alınması məsələsi xüsusi yer tuturd. Hökumət toluol zavodlarının tikilməsi və avadanlıqla təchiz edilməsi üçün 1 mln rubl vəsait buraxdı. Neft sənayeçiləri kifayət qədər operativ şəkildə zavodların tikintisinə başladı. Artıq 1916-cı ilin əvvəlində "Nobel qardaşları" şirkəti aylıq istehsal gücü 5-6 min pud olan birinci toluol zavodunu istismara verdi. Sentyabrdan isə "Benkendorf ticarət evi"nin istehsal gücü 6 min pud olan toluol, benzol və ksilol zavodu işə düşdü. 1916-cı ilin əvvəlində Bakıda Baş artilleriya idarəsinə tabe olan, istehsal gücü 2-3 min puda çatan xəzinə toluol zavodu da tikildi[28].

Artıq 1915-ci ilin əvvəllərində Bakı hərbi-sənaye komitəsinin çuqun mərmilər, fuqas qumbaraları və mina hazırlayan zavodu, "Nobel qardaşları" şirkətinin benzin istehsalı zavodu, habelə H.Z.Tağıyevin bez və parusin istehsalı səhmdar cəmiyyəti cəbhəyə işləyən ilk növbədə cəbhəni təmin edən müəssisələr sırasına daxil edildi. Hərbi nazirliyin 3 mln partladıcı hazırlamaq kimi böyük sifarişinin yerinə yetirilməsi üçün Xəzər maşınqayırma və qazan zavodları səhmdar cəmiyyəti müəssisələrinin yenidən qurulması məsələsi qaldırıldı[29]. Bakının digər 30-a yaxın müəssisəsi də hərbi sifarişləri yerinə yetirirdi.

1916-cı ilin iyulunda Bakı quberniyası üzrə hərbi idarələrin sifarişlərinin ümumi məbləği 3354 min rubl təşkil edirdi.

Cəbhə üçün işləyən müəssisələrdə çalışan fəhlələrin sayına görə Zaqafqaziyada birinci yeri xüsusilə iri hərbi sifarişlərin yerinə yetirildiyi Bakı tutdu. Belə ki, Bakı quberniyasında belə müəssisələrdə çalışan fəhlələrin sayı 65524 nəfər, Yelizavetpol quberniyasında isə 2523 nəfər idi.

Dövlət aparatının kapitalist inhisarları ilə qovuşması nəticəsində 1915-ci ilin avqustunda "Xüsusi müşavirələr" meydana çıxdı. Bunlar təsərrüfatın əsas sahələrini - sənaye, nəqliyyat, yanacaq sahələrini və ərzaq məsələlərini idarə edən ali hökumət idarələri idi[30]. "Xüsusi müşavirələr" sisteminin yaradılması ilə dövlət aparatının müxtəlif həlqələrinə burjuaziyanın müdaxiləsi gücləndi.

Hökumətin uğurlu müharibə aparmağa qadir olmaması, habelə bütün iqtisadi məsələlərin həllində rəhbər rol oynamaq istəyi burjuaziyanı yeni Ümumrusiya orqanı - Hərbi-Sənaye Komitələrini yaratmağa təhrik etdi.

1915-ci il mayın 26-da sənaye və ticarət nümayəndələrinin 9-cu Ümumrusiya qurultayı tərəfindən Mərkəzi Hərbi-Sənaye Komitəsinin təsis

olunması barəsində qərar qəbul edildi. HSK-nın yaradılmasının rəsmi amili sənayenin müharibə ehtiyacları üçün səfərbər edilməsinə kömək göstərilməsi idi. Bütün iri sənaye mərkəzlərində yerli və vilayət hərbi-sənaye komitələrinin təşkil edilməsi qərara alındı.

Bakı vilayət HSK-nın təşkilatca formalaşdırılması 1915-ci il iyunun 15-də BHSK-nın ilk təşkilat yığıncağında baş verdi. Komitənin tərkibinə iri sənayeçilər və burjua-texniki ziyalıların onlarla bağlı olan nümayəndələri daxil oldular.

Bakı HSK təkcə bu komitənin təşkili və fəaliyyətində yaxından iştirak etməklə kifayətlənməyən və sonradan ona maddi yardım da göstərən Bakı neft sənayeçiləri qurultayı şurasının fəal iştirakı ilə yaradıldı. BHSK-nın fəaliyyəti bütün Bakı quberniyasını əhatə edirdi və Yelizavetpol komitəsinin də daxil olduğu Zaqafqaziya vilayət HSK-dan asılı deyildi. Bakı HSK-na 9, Yelizavetpol HSK-na isə 7 müəssisə daxil idi[31].

BHSK yanında mərmi, tikinti və nəqliyyat bölmələri fəaliyyət göstərirdi. İlk dövrlərdə komitə şəhərin bir sıra müəssisələrinin, ilk növbədə, metal emalı zavodları və emalatxanaların hərbi cəhətdən yenidən qurulmasında müəyyən rol oynadı. Komitə özünün 900 fəhlənin işlədiyi mərmi zavodunu tikdirdi, partlayıcı maddələr istehsalını təşkil etdi. HSK xətti ilə artilleriya idarəsi və hərbi nazirliklərdən bir neçə əlverişli sifariş alındı (məsələn, 200 min mərmi, 40 min bomba, 20 min əl qumbarası və s. hazırlanması barəsində sifariş və i.a.). BHSK-nın təkcə mərmi zavodunun payına düşən sifarişlərin ümumi məbləği 2 mln. rubla bərabər idi[32].

Bütövlükdə isə BHSK-nın iqtisadi fəaliyyəti o qədər də genişlənmədi. Hərbi idarənin sifarişlərinin müntəzəm olaraq yerinə yetirilməməsi onların xeyli ixtisar olunmasına gətirib çıxardı. 1916-cı ilin sonuna yaxın hökumət hərbi-sənaye komitələrinin işini məhdudlaşdırmaq siyasəti yürütməyə başlayanda BHSK-nın fəaliyyəti daha da zəiflədi, hərbi-sənaye komitələri nəinki hərbi sifarişlərin paylanmasında inhisarçı olmadı, heç hökumət orqanlarının funksiyalarını belə əvəz edə bilmədi, hətta özləri çox güclü şəkildə hökumətdən asılı qaldılar.

Digər yeni Ümumrusiya burjua-mülkədar təşkilatı müharibənin lap əvvəllərində yaradılmış Ümumrusiya Şəhərlər İttifaqı (birliyi) oldu. Şəhərlər birliyinin vəzifəsinə yaralı döyüşçülərin müalicəsi və arxaya köçürülməsi, yeməkxana məntəqələri və camaşırxanaların açılması, ordunun isti paltarlarla təmin edilməsi, şəhərlərdən keçən hərbi hissələrə qulluq göstərilməsi və s. daxil idi.

1914-cü ilin sentyabrında Şəhərlər Birliyinin Bakı və Yelizavetpol komitələri fəaliyyətə başladı. Onlar şəhər özünüidarəsi xadimlərinin, burjua ziyalılarının və xırda burjuaziyanın bir hissəsinin cəmləşdiyi mərkəzlərə çevrildilər, Bakı komitəsininin sədri şəhər qlavası L.L.Bıç, Gəncə komitəsinin sədri isə şəhər qlavası Xəlil bəy Xasməmmədov idi[33].

Əvvəllər Bakı komitəsinin fəaliyyəti lazaret işi ilə məhdudlaşırdı. Bakıda 9 min çarpayılıq hospitallar açıldı, Qafqaz cəbhəsində hərbi əməliyyatlar genişləndikcə, komitə

öz üzərinə yeni vəzifələr (xəstə və yaralı döyüşçülərin arxaya köçürülməsi, qaçqınlara tibbi-sanitar yardımı göstərilməsi) götürürdü. Bunlara müvafiq olaraq Culfa, Gəncə, Gədəbəy, Annenfeld, Yelenendorf və b. yerlərdə qaçqınlara yardım şöbələri açıldı[34].

Bu orqan ordunun böyük ehtiyac hiss etdiyi hər cür nəqliyyat, əşya və intendent təchizatı üzrə hərbi sifarişlərin yerinə yetirilməsi işini qaydaya saldı. Azərbaycan şəhərlərində yəhər, xəncər, alt paltarı və şinel hazırlanması üzrə emalatxanalar təşkil olundu, infeksiya barakları, həkim və yeməkxana məntəqələri yaradıldı.

Müharibə illərində Bakı neft sənayeçiləri qurultayı şurasının əhəmiyyəti əsaslı şəkildə artdı. Şura Bakı neft sənayesinin zəruri metallar və nəqliyyat vasitələri ilə tam təchizatını, materialların firmalar arasında bölüşdürülməsini öz əlində cəmləşdirdi. Eyni zamanda Şura Bakı proletariatının güclənən tətil hərəkatı ilə mübarizədə fəal rol oynayırdı.

İri sənaye-ticarət və maliyyə burjuaziyasını birləşdirən sahibkarlıq təşkilatlarından biri - Bakı birja cəmiyyəti və onun seçkili orqanı -Birja Komitəsi idi. O, neft sənayeçilərini, gəmi sahiblərini, balıq sənayeçilərini, bank, ticarət müəssisələrini, metallurgiya, şəkər zavodlarının nümayəndələrini və b. birləşdirirdi[35].

Müharibə illərində Bakı Birja Komitəsi şəhərin sənaye və ticarət həyatının nizamlanması ilə bağlı bütün tədbirlərin həyata keçirilməsində coşqun fəaliyyət göstərmişdi.

Bakı neft sənayesi firmaları nümayəndələrinin Petroqraddakı müşavirəsi müharibə illərində böyük əhəmiyyət kəsb edirdi. Bu müşavirənin məqsədi iri neft sənayeçilərinin mənafelərini müdafiə etmək, hökumətə təzyiq üçün vahid taktikanı işləyib hazırlamaq, fəhlə hərəkatına qarşı neft sənayesi burjuaziyasının qüvvələrini birləşdirməkdən ibarət idi. Müşavirənin əsası Azərbaycan neft sənayesində sanballı qüvvəni təşkil edən 9-12 sayda Bakı firmasından ibarət idi. Belə ki, 9 iri firmanın mədənlərində 12780 fəhlə (bütün fəhlə və qulluqçuların 46%-i) çalışırdı, bunlardan 8-nin payına isə Bakı rayonundakı ümumi neft hasilatının 46,8% düşürdü[36]. Lakin müşavirədə əsas mövqe "Nobel qardaşları" şirkətinin əlində idi.

1916-cı ilin noyabrında müşavirə sənaye və ticarət nümayəndələri qurultayının şurası yanında neft bölməsinə çevrildi. Ölkənin neft sənayesi və yanacaq təchizatı barəsində hökumətin hər bir tədbirini diqqət mərkəzində saxlayan həmin bölmə neft inhisarlarının əsas iqtisadi siyasətini işləyib hazırlayan baş qərargahı idi.

Hökumətin və burjuaziyanın bütün sahələrdə göstərdiyi cəhdlərə baxmayaraq, möhkəm hərbi təsərrüfat yaratmaq, əmək məhsuldarlığının aşağı düşməsi və bahalaşma prosesinin qarşısını alıb dayandırmaq mümkün olmadı. Bu, iqtisadiyyatın ən mühüm sahələrində dərinləşən böhrana gətirib çıxardı.

Azərbaycan neft sənayesi bütün müharibə illəri ərzində ciddi çətinliklərlə üzləşirdi. Kəskin neft böhranının başlıca səbəbi təkcə metal aclığı və nəqliyyatın pozulmasını doğuran müharibə dövrü amilləri, hökumətin istehsalı nizamlamağa və neft yanacağını ən mühüm istehsalçılar arasında planauyğun bölüşdürməyə qadir olmaması deyil, həm də neft inhisarlarının istehsalı məhdudlaşdırmağa yönəlmiş siyasəti idi.

Neft və neft məhsulları ixracının dayandırılması ilə əlaqədar olaraq, müharibə

illərində kəskin pul qıtlığı meydana çıxır və neft sənayesinin fəaliyyətini daha da məhdudlaşdırırdı.

Texniki vasitələrin çatışmaması, xaricdən neft avadanlığı alınmasındakı çətinliklər, mədən-zavod təsərrüfatında əsaslı təmir işlərinin aparılmaması qazıma işlərinin də azalmasına, emal olunan məhsulların kəskin surətdə aşağı düşməsinə səbəb olurdu.

Metal məmulatlarının bahalaşması qazıma işlərinin maya dəyərini yüksəldir və onları xeyli məhdudlaşdırırdı. Odur ki, 1914-cü ildə 51987 sajen, 1917-ci ildə isə cəmi 23845 sajen quyu qazılmışdı.

Qazıma işləri miqyasının ixtisara düşməsi (1913-cü ildən 1917-ci ilədək qazımanın həcmi 63,5 faiz azalmışdı) Bakı neft sənayesinda ümumi tənəzzülün ilk əlaməti idi. Qazımanın azalmasının mənfi nəticələri neft hasilatına da təsir göstərdi. 1913-cü ildə 449,4 mln pud, 1914-cü ildə 431,7 mln pud, 1917-ci ildə isə cəmi 402,2 mln pud neft çıxarılmışdı.

Texniki vasitələrin bahalaşması, neft məhsulları ixracının kəsilməsi, habelə ölkə bazarlarında neft yanacağına tələbatın artması emal olunan məhsulların keyfiyyətinin xeyli pisləşməsinə, neft qalıqları buraxılmasına şərait yaradır, bu isə Azərbaycan neftayırma sənayesində texniki tənəzzülün davam etməsini şərtləndirirdi. Neft məhsulları emalının ümumi miqdarı 1917-ci ildə 1913-cü ildəki 320 mln puddan 225,3 mln. puda düşdü. Müharibə illərində Bakı emal zavodlarında yüksək keyfiyyətli neft məhsulları buraxılışı 38,2 faizdən 23 faizə endi.

Meydana çıxmış nəqliyyat çətinlikləri ilə əlaqədar olaraq, neft məhsullarının ixrac yolları arasındakı nisbət də dəyişdi. Dənizlə neft daşınması 1917-ci ildə 1913-cü ildəki 80,1 faizdən 87 faizə qalxdı. Lakin dəmir yolları neft məhsulları daşımalarının öhdəsindən qətiyyən gələ bilmirdi. Bu məhsulların Zaqafqaziya dəmiryolu ilə aparılmasının ümumi həcmi 1913-cü ilə nisbətən 1914-cü ildə 38,9 faiz, 1915-ci ildə isə 61,3 faiz azalmışdı.

Ümumi təsərrüfat dağınıqlığı Azərbaycan iqtisadiyyatının digər sahələrində də (dağ-mədən, ipəkçilik və i.a.) özünü göstərirdi. Gədəbəydə mis filizinin çıxarılması 1913-cü ildəki 1,8 mln puddan 1914-cü ildə 892,9 min puda, 1915-ci ildə isə 105 min puda enmişdi. Mis əridilməsi 1914-cü ildəki 49,2 min puddan 1915-ci ildə 2,5 min pudadək azaldı. Zəylik zəy zavodu tamamilə dayanıb istifadəsiz qalmış, Tovuzdakı sement zavodu bərbad hala düşmüşdü.

Nuxa və Şuşanın ipəksarıma fabriklərinin yarısından çoxu barama çatışmazlığı üzündən işləmirdi. Əgər müharibə ərəfəsində Azərbaycanda hər il yetişdirilən barama təqribən 250-260 min pud idisə, 1915-ci ildə cəmisi 139 min pud olmuşdu. 1916-1917-ci illər ərzində ipəkçilik sənayesi və xammal bazasının bərbad hala düşməsi yüngül sənaye müəssisələrində işləri tənəzzülə uğratmışdı.

Bir çox digər sahələrdə istehsal məhdudlaşmaqda davam edirdi ki, pambıq-parça istehsalı xeyli azalmışdı, 1917-ci il ərəfəsində Azərbaycanın tənbəki fabrikləri isə öz gücünün ancaq 30 faizi ilə işləyirdi, balıqçılıq sənayesi də tənəzzüldə idi. 1913-1915-ci illərdə balıq tutulması və kürü alınması 1910-1912-ci

illərdəki 11,6 min puda enmişdi.

Müharibə illərində Azərbaycan kənd təsərrüfatı da ciddi böhran keçirirdi. Dənli və xüsusən də texniki bitkilər əkini kəskin surətdə azalmışdı. Bakı və Yelizavetpol quberniyalarında taxıl əkini sahəsi 1914-cü ildə 958 min desyatin, 1915-ci ildə isə 556 min desyatin olmuş, yəni müharibənin bir ilində 42 faiz azalmışdı. Sonralar da davam edən bu tənəzzül nəticəsində dənli bitkilər səpilən sahələr Yelizavetpol quberniyasında 1913-cü ilə nisbətən 1916-cı ildə 70 faiz, Şuşa qəzasında isə 80 faiz daralmış, Azərbaycandakı taxıl məhsulunun həcmi 1914-cü ildəki 50,5 mln puddan 1917-ci ildə 26 min puda düşmüşdü.

Təsərrüfat dağınıqlığı pambıqçılıqda da hakim idi. Bakı və Yelizavetpol quberniyalarında pambıq əkini sahəsi 1914-cü ildə 93 min, 1916-cı ildə isə 33,7 min desyatin olmuş, təxminən üç dəfə, ümumi illik pambıq yığımı 1914-cü ildən 1917-ci ilədək 1305 min puddan 61 min puda enmiş, təxminən 21,3 dəfə əksilmişdi.

Hələ müharibənin lap əvvəlində biyan kökü çıxarılması kəskin surətdə aşağı düşmüş, 1914-cü ildə 525 min pud, 1915-ni ildə isə cəmi 194 min pud biyan kökü çıxarılmışdı. Müharibənin təkcə birinci ilində tütün əkinlərinin sahəsi 31 faiz aşağı düşmüşdü.

Birinci dünya müharibəsi Azərbaycanın iqtisadi həyatında mühüm yer tutan üzümçülüyü də bərbad hala salmışdı. Azərbaycanda üzüm yığımı (Naxçıvan qəzası istisna edilməklə) 1913-cü ildə 5369 min pud, 1915-ci ildə isə cəmisi 806 min pud olmuş, təxminən 7 dəfə azalmışdı. Xammal çatışmaması üzündən 1914-1915-ci illərdə 849 şərabçılıq müəssisəsi işi dayandırmışdı.

Azərbaycanın meyvə bağlarına da böyük zərər dəymişdi. Artıq müharibənin birinci ilində Azərbaycandan Həştərxana, Rostov, Odessa, Peterburq və digər şəhərlərə bağçılıq məhsullarının aparılması iki dəfə azalmış, 1920-ci ilin əvvəllərinə qədər isə meyvə bağlarının 15 faizi məhv edilmiş, təxminən bu qədəri isə məhv olmaq üzrə idi. Müharibəyə qədər hər il Rusiyaya və xaricə aparılan 40-50 mln manatlıq ən müxtəlif kənd təsərrüfatı məhsulu 1915-ci ildə iki dəfədən çox azalmış, 1916-cı ildə isə onun ixracı tamamilə kəsilmişdi.

Heyvandarlıq da ağır vəziyyətdə idi. Mal-qaranın sayı kəskin surətdə azalmışdı. Əgər 1913-cü ildə Azərbaycanda 200 minə yaxın at, 1900 min baş iribuynuzlu və 2500 min baş xırdabuynuzlu mal-qara qalmışdısa, mal-qaranın sayı sonrakı illərdə azalaraq, 1916-cı ildə Yelizavetpol quberniyasında mal-qaranın sayı 1913-cü ilə nisbətən 50 faiz aşağı düşmüşdü. Əgər 1913-cü ildə Cənubi Qafqazdakı iribuynuzlu mal-qaranın 43 faizi, xırdabuynuzlu mal-qaranın 45 faizi və atların 51 faizi Azərbaycanın payına düşürdüsə, 1916-cı ildə bu göstəricilər müvafiq olaraq 29, 30 və 44 faiz idi.

Mal-qaranın, xüsusən də at, camış və öküzlərin hərbi məqsədlər üçün yığılması ilə əlaqədar olaraq, müharibənin birinci iki ilində iş heyvanlarının sayı təxminən 50 faiz ixtisar olunmuş, 1916-cı ilin sonunda isə Azərbaycanda kəndli təsərrüfatlarının 60 faizdən çoxu

ümumiyyətlə iş heyvanlarından məhrum edilmişdi.

Cəbhəyə və xüsusən də arxa işlərinə səfərbərliklər kənd təsərrüfatını işçi qüvvəsindən xeyli dərəcədə məhrum edirdi. 1915-ci il iyunun 15-də müvafiq çar fərmanı verildikdən sonra Azərbaycan kəndinin də kişi əhalisinin 30 faizi - ən yararlı işçi qismi arxa işlərinə cəlb edilmişdi. 1916-cı ildə Yelizavetpol qubemiyasında kəndli təsərrüfatlarının 80,6 faizi, Bakı qubemiyasında 75,4 faizi işçi qüvvəsi çatışmazlığından ziyan görürdü, bir çox kəndlərdə isə ancaq qoca, uşaq və qadınlar qalmışdı.

Güclənməkdə olan təsərrüfat dağınıqlığının ən mühüm səbəblərindən biri nəqliyyatın böhran vəziyyətinə düşməsi idi.

Qafqazı Avropa Rusiyası ilə bağlayan ən başlıca yol Vladiqafqaz və Cənubi Qafqaz dəmir yolu xətləri idi. Lakin bütün Rusiyada olduğu kimi, Cənubi Qafqazda dəmir yollarının müharibə dövrü daşımalarına hazır olmadığı bəlli oldu. Parovozlar yeniləri ilə əvəz olunmur, dəmir yollarının texniki təchizatı Qərbi Avropa dövlətlərində olduğundan xeyli geri qalırdı. Qeyd etmək lazımdır ki, dəmir yollar Zaqafqaziyanın ayrı-ayrı hissələri arasında qeyri-bərabər şəkildə bölünmüşdü. Məsələn, diyarın iqtisadi həyatında daha mühüm rol oynayan Azərbaycanda hər 100 kv.km-ə 1,6 km, Gürcüstanda isə 1,25 km dəmir yol düşürdü. Cənubi Qafqaz dəmir yolu birxətli idi ki, bu da onun yükburaxma qabiliyyətini xeyli məhdudlaşdırırdı. Bakı istiqamətində yüklərin kifayət qədər çox vurulması, həm ərzaq, həm də digər yüklərin daşınmasında ağır vəziyyət yaradırdı. Biləcəri stansiyası çox vaxt vaqonlarla tıxanmış olurdu.

Buna görə 1916-cı il iyulun 4-dən etibarən şəxsi yüklər üçün Bakı ilə birbaşa əlaqə bağlanmışdı.

Dəniz nəqliyyatında vəziyyət nisbətən bir qədər yaxşı idi. Lakin Bakı limanı yükvurma-yükboşaltma şəraiti və imkanlarının ciddi surətdə yaxşılaşdırılmasına möhtac idi. Müharibə illərində teploxodlar, neft barjları və digər gəmilərin sayı təzələri hesabına artmışdı, mövcud gəmilərsə təmir tələb edirdi.

Nəqliyyat və təsərrüfat dağınıqlığı Azərbaycanda ərzaq təminatını xeyli kəskinləşdirdi. Zaqafqaziya dəmir yolunun orduya xidmətə keçirilməsindən sonra Rusiyanın əsas ərzaq rayonları ilə iqtisadi əlaqələr xeyli çətinləşdi. Ərzaq böhranı Bakıda, xüsusilə qaçqınlar axını və şəhərdə iri hərbi birləşmələrin məskunlaşması üzündən, daha da kəskinləşdi. Məsələn, 1916-cı ilin yanvarında Bakıya lazım olan 750 min pud əvəzinə, cəmisi 321 min pud buğda və un gətirilmişdi. Zəruri tələbat mallarından ibarət yüklərin, özü də hərbi idarələrə lazım olandan xeyli artıq miqdarda müsadirə edilməsi şəhərin ehtiyatlarını tükəndirirdi. Bakı ərzaq müşavirəsinin 2 mln manat məbləğində hökumət borcu - ssudası verilməsi barəsində vəsatəti də təmin olunmadı.

Müharibənin ilk günlərindən ərzaq məhsullarının qiymətləri hədsiz

dərəcədə sürətlə artırdı. Bakı şəhər idarəsinin məlumatına görə, çörəyin qiyməti 1914-cü illə müqayisədə 1916-cı ilin sentyabrında 266 faiz, 1917-ci ilin yanvarında isə 300 faiz artmışdı. Müharibə illərində Bakıda süd 305 faiz, mal əti isə 327 faiz, düyü 355 faiz, yumurta 392 faiz günəbaxan yağı 450 faiz, ərinmiş yağ isə 520 faiz bahalaşmışdı.

Ərzaq böhranı Azərbaycanın qəzalarında qeyri-adi dərəcədə dərinləşmişdi, Gəncə, Nuxa, Şuşa, Lənkəran və Qazaxdan ərzaq məhsulları çatışmazlığı və onların xeyli bahalaşması xəbərləri gəlirdi. Taxıl, ət, qənd və digər ərzaq məhsulları kəskin surətdə bahalaşdı. Məsələn, 1916-cı ildə taxılın qiyməti müharibə ərəfəsindəki dövrlə müqayisədə 7-8 dəfə artmışdı. Ərzağın qıtlığı və qiymətlərin fasiləsiz artması üzündən kənd əhalisi aclığa və müflis olmağa məhkum idi.

Müharibə əməklə kapital arasındakı ziddiyyətləri daha da kəskinləşdirdi, zəhmətkeş kütlələrin iqtisadi və siyasi vəziyyətini daha da ağırlaşdırdı. İlkin tələbat mallarının bahalığı, müharibədən yüksək gəlirlər götürən mülkədar və kapitalistlərin amansız istismarı, ərzaq çətinlikləri bütün Rusiya, o cümlədən Azərbaycan zəhmətkeşlərini də amansız məhrumiyyətlərə düçar edirdi.

Neft sənayesi fəhlələrinin həyat və iş şəraiti son dərəcə çətinləşmişdi. Bütün müharibə illəri ərzində neft sənayesi fəhlələrinin əməyi Rusiya xalq təsərrüfatında ən ağır işlərdən biri olaraq qalırdı. Hərbi əlavələr hesabına nominal əmək haqqının artmasına baxmayaraq, qiymətlərin artması fəhlələrin real əmək haqqını kəskin surətdə aşağı salmışdı. Əgər müharibəyə qədərki dövrlə müqayisədə ilkin tələbat mallarının qiyməti 4-5 dəfə artmışdısa, neft sənayesi fəhlələrinin orta aylıq əmək haqqı 1913-cü ildən 1916-cı ilədək 43 rubl 75 qəpikdən cəmisi 74 rubla qalxmış, yəni onların real əmək haqqı 2-3 dəfə azalmışdı.

Ən adi tibbi xidmət belə olmayan mədənlərdə iş günü 12-14 saatadək uzadılmışdı. Əzablı və üzücü iş günləri ona gətirib çıxardırdı ki, fəhlələr bir neçə ildən sonra xəstələnir, əmək qabiliyyətini itirir, əlil olurdular. İş vaxtından sonrakı əlavə işlər də onları üzüb əldən salırdı.

Neft sənayeçilərinin 34-cü qurultayına fəhlələrin "Müraciət”ində iqtisadi vəziyyətin yaxşılaşdırılması barəsində tələblər irəli sürülmüşdü. Fəhlələrin ağır vəziyyəti məsələsi təkcə neft sənayeçilərinin qurultaylarında deyil, həm də Bakı neft firmalarının Peterburqdakı xüsusi müşavirəsində müzakirə edilmiş, lakin heç bir əməli tədbirlər görülməmişdi.

İpək sənayesi müəssisələrində də dözülməz vəziyyət yaranmışdı. Rəsmi statistikanın məlumatlarına görə, mövcud antisanitariya, adi əmək şəraitinin yaradılmaması, 14-15 saatdan uzun iş günü və müntəzəm aclıq nəticəsində fəhlələr əmək qabiliyyətini vaxtından əvvəl itirirdilər; 1915-ci ildə fəhlələrin 50 faizdən çoxu vərəm xəstəliyinə tutulmuşdu. Azərbaycan ipək sənayesi müəssisələrində fəhlələr cüzi əmək haqqı: kişilər gündə 40 qəpikdən 75 qəpiyədək, yeniyetmələr 30 qəpikdən 45 qəpiyədək, qadınlar isə 15 qəpikdən 25 qəpiyədək haqq alırdılar.

Gədəbəyin mis mədənlərində, Tovuz sement zavodunda da fəhlələrin

vəziyyəti beləcə dəhşətli idi. Dözülməz şəraitdə 12 saatlıq işin müqabilində fəhlələr dilənçi payı qədər məvacib alırdılar. Sahibkarlar və müdiriyyət onlarla kobud davranır, yüksək cərimələr, işdən qovulma təhlükəsi onları daim izləyirdi.

Müharibə zəhmətkeş kəndlilərin yoxsullaşması və müflisləşməsinə gətirib çıxardı. Müharibənin ağırlıqları - kənd təsərrüfatının dağınıqlığı, arxa işlərinə səfərbərliklər, mütəmadi müsadirələr (rekvizisiyalar), bahalıq və möhtəkirlik Azərbaycan kəndlilərinin onsuz da ağır olan vəziyyətini daha da çətinləşdirirdi. Artırılmış vergi və mükəlləfiyyətlər kəndlilərin üzərində ağır yük idi. 1914-cü il 24 dekabr qanununa görə, torpaq vergisinin məbləği 50 faiz artırıldı. Dövlət kəndlilərindən yığılan zemstvo vergisi bu illərdə 20 faiz, hərbi vergi isə 50 faiz artdı. Yerquruculuğu və mərzləmə işləri adı ilə hakimiyyət orqanları bir çox dövlət kəndlisini pay torpaqlarından məhrum edir, kəndli torpaqlarını mülkədarların tutması halları çoxalırdı.

1916-cı ilin martında məşhur Rusiya sənayeçisi A.İ.Putilov 42 mln. manata Lənkəran qəzasında 12 kənd, Moskva və Bakının bir neçə kapitalisti də Yelizavetpol qəzasında iri torpaq sahələri satın aldılar və i.a. Çar məmurları müharibə illərində hökm sürən qayda-qanunsuzluq şəraitində özbaşınalıq edərək, müxtəlif bəhanə ilə kəndlilərin taxılını, mal-qarasını və s. zorla əllərindən alırdılar.

Bu illərdə sələmçilik xüsusən eybəcər şəkil almışdı. Sələmçilər kənd yerlərində istədiklərini edirdilər. 1916-cı ildə "Açıq söz" qəzeti onların Azərbaycanda baş alıb gedən özbaşınalığından yazırdı.

Müharibə kənddəki sosial təbəqələşmə prosesini gücləndirmişdi. Bakı və Yelizavetpol quberniyalarında tamamilə torpaqsız kəndlilərin sayı 1916-cı ildə 50 min, 1917-ci ildə isə 76 min nəfər idi. Yoxsul təbəqənin xüsusi çəkisi artırdı. 1917-ci ildə Azərbaycanda bütün kəndli təsərrüfatlarının 54,4 faizini yoxsul, 34 faizini ortabab, 8,6 faizini isə varlı və qolçomaq təsərrüfatları təşkil edirdi.

## § 4. FƏHLƏ HƏRƏKATI. KƏNDLİ ÇIXIŞLARI

Müharibənin başlanması Bakı proletariatının bir ay yarımdan çox çəkən möhtəşəm yay tətilinin, amansız cəza tədbirləri və təzyiqlərin nəticəsində, zəifləməyə doğru getdiyi vaxta düşdü. Şəhərdə səfərbərlik iyulun 18-də başlandı, orduya çağırılan minlərlə fəhlə səfərbərlik məntəqələrinin qarşısına yığılırdı. Hakimiyyət orqanlarının tətili dərhal dayandırmaq üçün bütün tədbirləri görməsinə baxmayaraq, neft mədənlərinin 5159 fəhləsi, 10 neftayırma zavodunun 2523 fəhləsi, podrat qazımasının 1836 fəhləsi, mexaniki emalatxanaların fəhlələri iyulun 20-dən sonra da tətili davam etdirirdilər. Ümumiyyətlə, bu günlərdə 40 firmanın 10 minə yaxın fəhləsi tətili dayandırmamışdı.

Hakimiyyət orqanları Bakıdakı tətil hərəkatını ancaq avqustun ortalarında yatırmağa nail oldu. Bakı fəhlələrinin I914-cü ilin avqustunadək çəkmiş tətil hərəkatı onların müharibə əleyhinə çevrilmiş əhvali-ruhiyyəsinin ifadəsi idi.

Geniş kütlələrin iqtisadi və siyasi vəziyyətinin kəskin surətdə pisləşməsi tətil mübarizəsinin yenidən yüksələcəyini labüd edirdi. Artıq 1915-ci ilin birinci yarısında 500 min nəfərdən çox adamın iştirak etdiyi 8 iqtisadi tətil baş vermiş və onların təşəbbüskarı neft sənayesi fəhlələri olmuşdu.

Bu dövrdə Nuxa ipək sənayesi fəhlələri iri çıxışlar keçirirdi. Aprelin 9-dan 20-dək Nuxanın 16 fabrikinin 1270 fəhləsi tətil edirdi. Onların tələbi əmək haqqının artırılması, iş gününün 1,5 saat qısaldılması idi[37]. İki aydan sonra, iyunun 9-da Nuxada tətillər yenidən başladı. Şəhərin əksər ipəksarıma müəssisələri fəhlələrinin qatıldığı bu tətil iyunun 21-dək davam etdi və dövrün ən iri aksiyası oldu[38].

1915-ci ilin yayından etibarən Bakı tətil hərəkatında dönüş başlandı və indiyədək müstəsna olaraq neft sənayesi fəhlələri, qismən də dənizçilərin iştirak etdikləri bu aksiyaya 1915-ci ilin ikinci yarısında şəhərin digər müəssisələrinin də fəhlələri qoşuldular. 1915-ci ilin payızında "Kaspi", "Trud" və Birinci mətbəə şirkəti mətbəə fəhlələrinin tətili uğurla keçdi.

Tovuz sement zavodunun 180 nəfər fəhləsi sentyabrın 3 gününü işə çıxmayıb, 9 saatlıq iş günü tətbiq olunmasını tələb etdilər. İqtisadi xarakterli tətillər Gədəbəy mis mədəni və misəritmə zavodunda da baş vermişdi.

Bakıda tətil hərəkatının artması hökumət orqanlarını fəhlələrlə sahibkarlar arasındakı konfliktlərə daha fəal şəkildə qarışmağa məcbur etdi.

Sentyabrın 17-si və 19-da Bakı qradonaçalnikinin dəftərxanasında prokuror, baş fabrik müfəttişi, gəmiçilik firmalarının sahibləri, sənayeçilərin nümayəndələri və b. iştirakı ilə müşavirə çağırıldı. Müşavirədə qərara alındı ki, fəhlələrin əmək haqqı müəyyən qədər artırılsın və eyni zamanda bütün fəhlələrə tətillərin təkrar olunacağı halda hərbi mükəlləfiyyətlilərin cəbhəyə göndəriləcəyi, İran təbəələrinin isə Bakı qradonaçalnikliyinin hüdudlarından kənara çıxarılacağı elan olunsun.

Bu hədələrə baxmayaraq, Bakıda tətil hərəkatı getdikcə güclənir, daha geniş əhali kütlələrini əhatə edirdi. 1916-cı il fevralın 14-16-da şəhərdə həyəcanlar baş verdi. Əksəriyyəti qadınlardan ibarət olan, aclıq və yoxsulluğun çıxılmaz vəziyyətə gətirib çıxardığı çoxsaylı kütlə alverçilərin üzərinə hücum edərək bazarları, mağazaları, ərzaq anbarları və dəyirmanları dağıtmağa başladı. Bu həyəcanlarda şagirdlər, yerli qarnizonun əsgər və matroslarının bir hissəsi də iştirak edirdi. Həyəcanları yatırmaq üçün Gəncə, Petrovsk və Temirxanşuradan Bakıya iri hərbi qüvvələr gətirildi.

1915-ci ilin payızından Bakı fəhlələrinin ümumi kütləvi çıxışlarına hazırlıq gedirdi. Bu işdə mədən-zavod komissiyalarının mühüm rol oynamasını planlaşdıran BK müharibəni başlayandan sonra amansız təqiblərə məruz qalmış bu komissiyaların bərpasına böyük əmək sərf edirdi.

1916-cı ilin yanvarında mədən və zavodlarda keçirilən yığıncaqlarda fəhlə təşkilatları seçildi, onların nümayəndələrindən Mərkəzi komissiya yaradıldı və o, Bakı fəhlələrinin tələblərini hazırlamaq və ümumi tətili təşkil etmək işini öz əlində cəmləşdirdi.

1916-cı ildə Bakıda tətillərin sayı xeyli artıb 94 aksiyaya çatmış, natamam məlumatlara görə, onlarda 13 min nəfərdən çox adam-Bakı proletariatının təxminən 1/4 hissəsi iştirak etmişdi. 1916-cı ilin əvvəllərində Nuxa fəhlələri yenə də tətilə çıxdılar.

Xəzər ticarət donanmasının dənizçiləri, bənnalar, konka işçiləri və b. iqtisadi tələblərlə çıxış edir, neftçilərlə yanaşı, digər sənaye sahələrinin fəhlələri, Azərbaycan qəzaları əhalisinin zəhmətkeş təbəqələri də mübarizəyə qoşulurdular.

1916-cı ildən işdən çıxarılmış fəhlələrin müəssisələrdə işinə qaytarılması, həbs olunanların azad edilməsi, bəzi idarə qulluqçularının işdən çıxarılması və i.a. tələblərin irəli sürüldüyü tətillərin sayı artdı. Bunlarda bütün tətilçilərin təxminən 11 faizi iştirak etmişdi. HSK-nın mərmi zavodunda (burada 400 fəhlə yoldaşlarının işdən çıxarılmasına etiraz olaraq tətilə çıxmışdılar), Benkendorfun mexaniki zavodunda və b. müəssisələrdə siyasi tətillər baş verdi.

Bakı fəhlələrinin 1916-cı il tətilləri 1915-ci il tətillərinə nisbətən daha çox kütləvi xarakterdə idi. Qafqaz-Qara dəniz cəmiyyəti, Moskva-Qafqaz şirkəti (may ayında burada 850 nəfər tətil edirdi), Mirzəyev qardaşları və Mantaşev firmaları və başqa iri müəssisələrin fəhlələrin mübarizəyə qoşuldular.

Sənayeçilər kütlələrin təzyiqi altında fəhlələrin zəhmət haqqının bir qədər artırılmasına (əsasən hərbi əlavələrin hesabına) razılıq versələr də, hökumət orqanları ilə əlbirlik edib tətilçilərə daha amansız divan tutur, həbslərə, cismani cəzalara, hərbi mükəlləfiyyətli fəhlələrin cəbhəyə göndərilməsinə və s. tədbirlərə əl atırdılar.

1916-cı ilin payızında Bakı proletariatının tətil hərəkatında yeni yüksəliş müşahidə olunurdu. Sentyabrda 9 firmanın 5,5 min nəfər fəhləsinin nümayəndələri tələblər irəli sürməklə küçələrə çıxdı.

Bütün müharibə dövrü ərzində Bakıda ən çox (19) tətil 1916 ilin oktyabrında

baş verdi. Həmin ayda Rusiyada baş vermiş tətillərin 10 faizini təşkil edən bu tətillərdə 2 min nəfərdən çox fəhlə iştirak etmişdi. Noyabr ayında müəyyən durğunluqdan sonra dekabrda tətilçilərin sayı 3 min nəfərə yaxınlaşdı. Bundan əlavə, 7325 nəfər fəhlənin, o cümlədən Nobel qardaşları, Qafqaz-Qara dəniz cəmiyyəti, Xəzər şirkəti kimi iri firmaların fəhlələri adından əmək haqqı və hərbi müavinət məbləğinin xeyli artırılması, əlilliyə görə tam əmək haqqı ödənilməsi və i.a. tələblər irəli sürüldü[39].

Neftin müəyyənləşdirilmiş qiyməti 1917-ci il yanvarın 1-dən artırıldı. Bu, neft sənayeçilərinin daha çox gəlir götürməsi demək idi və Bakı fəhlələrinin qəzəbini daha da artıraraq, ümumi tətil ideyasını kütlələr arasında xeyli populyarlaşdırdı[40].

Yanvarın 16-da partiya xadimləri və fəhlə nümayəndələrinin yığıncağında Bakı proletariatının RSDFP Bakı Komitəsi və mədən-zavod komissiyaları nümayəndələri tərəfindən işlənib hazırlanmış ümumi tələblərin layihəsi müzakirə olundu. Layihədə fəhlə təşkilatlarına xüsusi bölmə həsr olunmuşdu, kollektiv müqavilələrin bağlanılması üçün fəhlə müvəkkilləri şurasının seçilməsi tələbi irəli sürülürdü; fəhlə komissiyalarının razılığı olmadan sahibkarlar fəhlələri işdən çıxara bilməzdilər. Elə həmin gün ümumi tələblər layihəsinin müzakirə olunduğu yığıncağın iştirakçıları həbs edildilər. Səhərisi gün, həbslərə etiraz əlaməti olaraq, "Nobel qardaşları" şirkətinin mexaniki emalatxanalarında 700 fəhlə tətilə başladı. Elə bu dövrdə də şirkətin kimya və toluol zavodları, çəllək müəssisəsinin fəhlələri, elektrik stansiyası şirkətinin işçiləri onlara qoşuldular. Yanvarın 18-də tətil Balaxanı-Sabunçu rayonunun mədən-zavodlarını da əhatə etdi; saat 12-yə yaxın bu rayonda 3523 nəfər tətil edirdi[41]. Yanvarın 19-da "Nobel qardaşları" şirkəti gəmilərinin heyəti həmrəylik əlaməti olaraq gəmi və körpüləri tərk etdilər. Sonrakı günlərdə tətil genişlənərək 57 müəssisəni əhatə etdi. 10606 nəfərin iştirak etdiyi tətilə su kəməri, yanğınsöndürən və neftvurma müəssisələrinin fəhlələri də qoşulmuşdular. Bütün tətilçilərin yekdil tələbi həbs olunanların azad edilməsi, eyni zamanda fəhlə komissiyaları və fəhlə müvəkkilləri şurasının tanınması idi. Yanvarın 19 və 20-də hər birində 15-20 min nəfərin iştirak etdiyi fəhlə mitinqləri keçirildi.

Heç bir hədə, hətta hərbi mükəlləfiyyətlilərin cəbhəyə göndərilməsi fəhlələri qorxutmurdu. Hakimiyyət orqanları yanvarın 21-dən mədənlərə qoşun gətirməyə başladı. Yanvarın 27-də qradonaçalnikin yanında keçirilmiş müşavirədə fəhlələrin qeyri-iqtisadi xarakterli heç bir tələbinə güzəşt edilməməsi və üç gün ərzində işə başlamasalar, onların hərbi hakimiyyət orqanlarının ixtiyarına verilməsi qərara alındı. Yanvarın 28-də canişin tətil edən fəhlələrin cəbhəyə göndərilməsi zərurəti barədə imperatora teleqram vurdu və müsəlman fəhlələrin hərbi-işçi dəstələrinə göndərilməsinə aid vəsatət qaldırdı. Elə həmin gün II Nikolay bu xahişə razılıq verdi. Yanvarın sonunda təkcə "Nobel qardaşları" şirkətinin tətil edən fəhlələrindən 200 nəfəri cəbhəyə göndərildi. Bakı fəhlələrinin tətili 1917-ci il yanvarın 31-də başa çatdı. Həbs olunmuş fəhlələrin bir hissəsi azad edildi[42].

1917-ci ilin yanvarında Bakıda fəhlə hərəkatı bütün müharibə dövrü ərzində ən yüksək səviyyəyə çatmış, bütövlükdə 87 müəssisəni, 22293 nəfəri (yəni bütövlükdə 1915-1916-cı illərdə olduğundan çox) əhatə etmişdi. 1917-ci ilin yanvarında tətil hərəkatı bürümüş müəssisələrin sayına görə Bakı qradonaçalnikliyi Rusiyada birinci yeri

tuturdu.

1917-ci il fevralın 15-də Gəncədə fəhlə həyəcanları başlandı Mahlıc istehsalı ilə məşğul olan fəhlələrin, sonra isə dəmiryolçuların başladığı tətil fevralın sonunadək davam etdi.

Müharibə illərində iqtisadi böhranın dərinləşməsi, zəhmətkeş kütlələrin vəziyyətinin kəskin surətdə ağırlaşması və Azərbaycan kəndində sosial ziddiyyətlərin kəskinləşməsi kəndli hərəkatının yüksəlişinə səbəb oldu. Azərbaycanın Bakı və bir sıra qəza şəhərlərindəki fəhlə hərəkatı da buna ciddi təkan verdi.

1914-1917-ci illərdə qəzaların əksəriyyətini kəndli hərəkatı bürümüşdü. Köhnə ənənəvi formalarla yanaşı, kəndlilərin bir sıra yeni mübarizə formaları meydana çıxdı.

Lakin kəndli hərəkatının xarakteri bütövlükdə dəyişməmişdi. O, əvvəllərdə olduğu kimi, yenə də açıq təzahür edən aqrar xarakter daşıyırdı. Kəndlilər ilk növbədə kəskin ehtiyac duyduqları torpaq uğrunda mübarizə aparırdılar. Dövlət və mülkədar torpaqlarının tutulması mübarizənin on geniş yayılmış formalarından biri idi.

Müharibə illərində ən iri kəndli həyəcanları Yelizavetpol quberniyasında və Bakı quberniyasının Lənkəran və Quba qəzalarında baş verirdi. Bu həyəcanlar kəndlilər və hökumət nümayəndələri, mülkədar-qolçomaq dəstələri arasında silahlı toqquşmalarla müşayiət olunurdu.

Müharibə illərində əkin sahələri xeyli ixtisar olunsa da, kəndlilərin suvarma suyu uğrunda mübarizəsi davam edirdi.

Müharibə illərində meşələrin özbaşına qırılması halları artıb ərazisində meşə olan bütün qəzaları əhatə etdi. Özbaşına qırılan meşələrin sahəsi və buna görə kəndlilərdən alınan cərimələr 1916-cı ildə 1913-cü ilə nisbətən təxminən iki dəfə artmış, mülkiyyətin yandırılması halları da çoxalmışdı.

Müharibə illərində kəndlilərdə narazılığı gücləndirən səbəblərdən biri də vergi və mükəlləfiyyətlərin həddən ziyadə artırılması idi. Kəndlilər kütləvi surətdə vergiləri ödəməkdən və mükəlləviyyətləri yerinə yetirməkdən boyun qaçırır, çar məmurlarına və polisə silahlı müqavimət göstərirdilər. Ordu və arxa işlərinə səfərbərliklər, mal-qara və arabaların, taxıl və s. məhsulların fasiləsiz müsadirə edilməsi kəndli həyəcanlarını gücləndirir, hökumət nümayəndələri ilə silahlı toqquşmalara gətirib çıxarırdı.

Müharibə illərində qaçaqların - silahlı kəndli dəstələrinin çıxışları xüsusilə kəskin xarakter alaraq, Azərbaycanın bütün qəzalarını əhatə etdi. Onlar amansız istismara, hər cür sosial ədalətsizliyə qarşı mübarizə aparır, mütləqiyyətin vergi siyasətinə qarşı çıxırdılar. Başqa sözlə, qaçaq hərəkatı torpaqdan istifadədə hökm sürən qarmaqarışıqlığa, torpaq, suvarma suyu və meşə materialı çatışmazlığına, vergi və mükəlləfiyyətlərin ağırlığına, onların toplanması zamanı yol verilən özbaşınalıqlara, polis məmurlarının zoraki əməllərinə və s. qarşı yönəlmişdi.

Qaçaqlara əhalinin kömək və dəstək verməsi hərəkatın xəlqi sosial xarakterinə dəlalət edir. Müharibə illərində Azərbaycanda xalq intiqamçılarının 40-dək dəstəsi fəaliyyət göstərirdi. Qaçaq hərəkatının ən görkəmli başçılarından biri Qaçaq Süleyman Ağa Hüseyn

idi. O, öz dəstəsi ilə birlikdə Zəngəzur və Qarabağ bölgələrində çar müstəmləkəçiləri və yerli istismarçılara qarşı 15 ildən çox partizan müharibəsi aparmışdı. 1916-cı ildə onun dəstəsində 200 nəfərdən çox kəndli var idi.

Çar hökumət idarələri ona qarşı bütöv hərbi hissələr göndərirdi. 1917-ci ilin fevralında hökumət orqanları muzdlu qatillərin əli ilə Qaçaq Süleymanın dəstəsinə divan tutdular. Qaçaqlara rəğbət bəsləyən və kömək göstərən kəndlilər də amansızlıqla cəzalandırıldılar.

Müharibə dövrünün kəndli hərəkatında qadınların rolu xeyli artmışdı. İlk növbədə ərləri və oğulları orduya və müdafiə işlərinə səfərbər edilmiş qadınlar bu hərəkatda daha fəal iştirak edirdilər. Qadınların çıxışları Cavanşir, Şuşa, Naxçıvan, Yelizavetpol, Zəngəzur və b. qəzalarda baş vermişdi.

Cəbhədəki ağır vəziyyətə baxmayaraq, çar hökuməti kəndli hərəkatına qarşı bir sıra tədbirlər görmək məcburiyyətində qalıb, onun daha geniş yayıldığı Bakı, Yelizavetpol və Kutaisi quberniyalarında hərbi vəziyyət rejimi tətbiq etdi.

Müharibənin doğurduğu iqtisadi və siyasi böhran, günü-gündən artan fəhlə və kəndli hərəkatı, Rusiyanın digər regionlarında olduğu kimi, Azərbaycanda da yeni inqilabi şərait yarandığını göstərirdi.

IV FƏSİL

# MƏDƏNİYYƏT

## § 1. MAARİF

Azərbaycanda xalq təhsilinin inkişafına XX əsrin əvvəllərində olan sosial-iqtisadi yüksəliş təkan verdi. Xalq maarifinin bütün sahələri ölkədə inkişaf edən azadlıq hərəkatının təsiri altında idi. Hərəkatın vüsətindən asılı olaraq hökumət gah cəza tədbirlərinə əl atmağa, gah da bəzi liberal güzəştlərə getməyə məcbur olurdu. Lakin təhsil sistemindəki ruslaşdırma siyasəti şagirdlərin dini-monarxist tərbiyə prinsiplərindən kənara çıxmasına yol vermirdi. Çünki çar Rusiyasının müstəmləkəçi mənafeyi təhsil-xalqın maariflənməsi kimi strateji bir sahəni özünə əlverişli bir şəkildə və istiqamətdə qurub dəyişdirməyi tələb edirdi.

Hökumətin daxili siyasi kursunda nəzərə çarpan dəyişikliklər ilk növbədə təhsil haqqında qanun və qərarlarda, Xalq Təhsili Nazirliyinin əmr, sərəncam və göstərişlərində, sonra isə Qafqaz təhsil dairəsinin fəaliyyətində öz əksini tapırdı.

XX əsrin əvvəllərində Azərbaycanda təhsil şəbəkəsinin ibtidai məktəblərində tədrisin müəyyən yüksəlişi, ümumi orta və texniki-peşə təhsilinin, məktəbdənkənar və mədəni-maarif müəssisələrinin genişlənməsi davam edirdi.

Xalq maarifinin inkişafı çarizmin bilərəkdən yaratdığı bir sıra maneələrdən keçməli olurdu. Onların ən mühümü hökumətin maarifə buraxdığı vəsaitin məhdudluğu idi. Belə ki, bu vəsaitdən hər adama düşən pay 1902-ci ildə Bakı quberniyasında 79,3, Yelizavetpol quberniyasında 97 qəpik idi. Zaqafqaziyada polisi saxlamaq üçün ildə orta hesabla 4,4 milyon rubl xərcləyən hökumət xalq maarifinin ehtiyacları üçün ən çoxu 1,7 milyon rubl ayırırdı.

1903-cü il siyahıyaalmasının məlumatlarına görə, Azərbaycanın ən inkişaf etmiş sənaye mərkəzi Bakıda (mədən ərazisi istisna olunmaqla) öz zəhməti ilə yaşayan əhalinin 53,3 faizi tamamilə savadsız idi, həm də bu siyahıda azərbaycanlılar axırıncı yeri tuturdular (19,3%).[1]

Əhalinin sayı artdıqca təhsilə olan tələbat artır, məktəblərin sayı çoxalırdı. Azərbaycan əhalisi, xüsusən kəndlərdə yaşayanlar öz uşaqlarını ənənəyə uyğun olaraq mollaxanalara verir, onların doğma dildə savadlanmasına və dini tərbiyəsinə ümid bəsləyirdilər. Əvvəllər olduğu kimi, rus məktəblərinə daxil olana qədər mollaxanalara getmək təcrübəsindən istifadə olunurdu.

Rəsmi məlumata görə, XX əsrin əvvəlində məktəblər azərbaycanlı uşaqların xeyli hissəsini əhatə edirdi. Təkcə Yelizavetpol quberniyasında 1914-cü ilin sonunda 192 müəllimi və 5188 şagirdi olan 153 məktəb var idi. Şuşada (1901-ci il), Gəncədə (1906-cı il), Bakıda (1907-ci il) yeni mədrəsələr açılmışdı. 1914-cü ildə Gəncə mədrəsəsində beş müəllimin rəhbərliyi altında 110 şagird dini fəaliyyətə, habelə arzularından asılı olaraq, məktəblərdə dərs deməyə

hazırlanırdılar[2].

Köhnə məktəblər, sayca nisbətən çox olmasına baxmayaraq, öz mövqelərini itirir, ümumtəhsil ibtidai məktəbləri və yeni üsulla işləyən məktəblər tərəfindən sıxışdırılırdı.

Yeni üsullu məktəblər 1900-cü ildə Şamaxı qəzasının Mərəzə kəndində, 1905-ci ildə Salyanda, 1907-ci ildə Lənkəranda, 1908-ci ildə Şamaxı və Ağdaşda, 1909-cu ildə Şəki, Gəncə, Gədəbəy və Balakəndə, 1913-cü ildə Qax, Zaqatala və başqa yerlərdə açıldı[3]. Bəzi hallarda, məsələn, yerli əhalinin xahişi ilə, onlara rus dili müəllimləri də dəvət olunurdu (1911-ci ildə Naxçıvanda, 1913-cü ildə Şəkidə və Zaqatalada)[4].

Uşaqları, xüsusən qızları ümumtəhsil ibtidai məktəblərinə cəlb edənlərə qarşı mübarizə aparan mövhumatçı müsəlman ruhaniləri eyni zamanda yeni üsullu məktəblərə qarşı çıxır, onları "islam ruhuna zidd" hesab edir, müəllimləri ənənəvi təhsil üsulundan əl çəkmələrinə görə günahlandırıb lənətləyirdilər. Yeni üsullu məktəblərdə parta qoyulması da onların narazılığına səbəb olurdu. Lakin onların əksinə olaraq Cənubi Qafqazın ali ruhanilərindən şeyxülislam Axund Əbdülsalam Axundzadə, Molla Məhəmməd Pişnamazzadə, Müfti Hüseyn Əfəndi Qayıbov, öz dövrlərində yüksək təhsilli adamları kimi, xalqın maariflənməsinə hər cür şərait yaratmağa çalışır, Qurana, Məhəmməd peyğəmbərin hər bir müsəlmanın biliklərə yiyələnməyə çalışmalı olması barəsində vəsiyyətlərinə əsaslanırdılar.

Mövcud əsasnamələrə görə, xalq məktəblərinin direktorları məktəblərə ciddi nəzarət etməli idilər. Hökumət ruhani məktəblərində tədris prosesinin gedişinə qarışmır, xalq arasında böyük təsiri olan müsəlman ruhanilərini narazı salmaqdan çəkinirdi.

Bütün imperiyada olduğu kimi, Azərbaycanda da məktəb şəbəkələrinin genişlənməsi ibtidai məktəblər hesabına baş verirdi. Belə məktəblər həm şəhərlərdə, həm də kəndlərdə, bir çox hallarda isə paralel şöbələrin və nisbətən yuxarı (ikinci və üçüncü) siniflərin artıq fəaliyyət göstərdiyi tədris müəssisələrində açılırdı.

1914-cü ildə Bakı quberniyasında 448 ibtidai məktəbdən yalnız 28-i ikisinifli, qalanları isə birsinifli idi[5].

İbtidai məktəblərin çatışmazlığı aktual problem olaraq qalmaqda idi. Siniflərə həddən çox sayda uşaq götürülürdü. 1905-ci ildə Bakı Mixaylov şəhər məktəbində 200 əvəzinə 575 şagird təhsil alırdı[6]. 1905-ci ildə Bakı quberniyasının nazirlik məktəblərində "yer yox-dur" qeydi ilə 1623 müraciətə rədd cavabı verilmişdi.

Şəhər məktəblərinin çoxu (16-sı) Bakı şəhərində idi və 1914-cü ildə onlarda 1942 şagird təhsil alırdı.

1915-ci il yanvarın 1-də Bakı və Yelizavetpol quberniyalarında Xalq Təhsili Nazirliyinin sərəncamında 103 şəhər və 609 kənd ibtidai məktəbi var idi. Bu məktəblərdə 46530 şagird təhsil alırdı kı. onlardan 1427 nəfəri qız (28,3 faiz) və 15 776-sı (34 faizi) azərbaycanlı idi[7].

1900-cü il yanvarın 1-nə nisbətən bu quberniyalarda ibtidai məktəblərin sayı 557 (4,6 dəfə çox), şagirdlərin sayı 15805 (4,1 dəfə çox), qızların sayı 10944 (6 dəfə çox),

müsəlmanlar 13339 nəfər (6,4 dəfə çox) artmışdı. Göstərilən quberniyaların 1,6 milyon nəfərdən çox müsəlman əhalisinə (bütün əhalinin 66 faizinə) cəmi 373 məktəb, deməli, hər 1718 nəfərə bir məktəb düşürdü. Beləliklə, məktəbyaşlı uşaqların 9,9 faizi ibtidai məktəblərdə təhsil alırdı[8].

Məktəb binalarının çatışmazlığı və bir çox yerlərdə ümumiyyətlə yoxluğu da xalq təhsilinin inkişafına mane olurdu. 1914-cü ildə Bakı quberniyasında 377 məktəbdən yalnız 137-sinin (33,6 faizinin), Yelizavetpol quberniyasında isə 325 məktəbdən 68-nin (20,9 faizinin) öz binası var idi[9]. Qalan məktəblər kirayəyə götürülmüş evlərdə yerləşirdi ki, onların da çoxu məktəb üçün yararsız olub sanitariya-gigiyena tələblərinə cavab vermirdi.

XX əsrin başlanğıcında əvvəlki illərə nisbətən ibtidai məktəblərin ixtisaslaşdırılması həyata keçirilirdi. Yerli şərait və tələbat, həmçinin təlim rəhbərləri olduqda şagirdlər, xüsusən kənd yerlərində sənət öyrənməyə (çəlləkçi, çilingər, yəhərçi, dülgər-xarrat və s.) və kənd təsərrüfatı işlərinə (bağbanlıq, əkinçilik, qoyunçuluq, üzümçülük, ipəkçilik) qoşulurdular.

Qız məktəblərində əl işi, səbəthörmə, konservləşdirmə, həmçinin toxuculuğu və xalçaçılıqla (xüsusən Şuşada) məşğul olurdular.

Bütün bu məşğuliyyətlər əksər hallarda aşağı savad səviyyəsi ilə kifayətlənməyə məcbur olmuş uşaqlara kənd yerlərində lazım olan vərdişləri və təsərrüfat işlərinə dair müəyyən biliklər aşılayırdı. Eyni zamanda təcrübi məşğələlər ümumtəhsil biliklərinə yiyələnməyə mane olur, deməli, təhsili davam etdirmək üçün çox da böyük olmayan imkanı daha da azaldırdı.

XX əsrin əvvəllərində Azərbaycanda həmçinin kilsə-məhəllə məktəbləri də fəaliyyət göstərirdi. Onlar əsasən xaçpərəst əhali üçün olan pravoslav və erməni (qriqoryan) məktəbləri idi.

Azərbaycanda 1912-ci il Əsasnaməsinin tətbiqi ilə əlaqədar olaraq, "1872-ci il Əsasnaməsi" üzrə yaradılmış və biliklərə artan tələbatı ödəmək iqtidarında olmayan şəhər məktəbləri əsasında ali ibtidai məktəblər adlanan təhsil ocaqları yaradıldı.

Yeni məktəblər dördillik idi və 3-4 sinifli ibtidai məktəblərin sonrakı pilləsini təşkil edirdi. Dərslər ayrı-ayrı mövzular üzrə keçirilirdi. Proqrama təbiətşünaslıq, coğrafiya, fizika, riyaziyyat, həndəsə, ümumi tarix üzrə məlumatlar və s. fənlər daxil idi. Bu məktəblərin I-III sinif şagirdləri ümumtəhsil orta məktəblərinin müvafiq siniflərinə qəbul oluna bilərdilər. Təhsil kursunu bitirənlər isə xarici dildən imtahan verib peşə-texniki məktəblərinə və ya müəllimlər seminariyasına daxil olmaq hüququna malik idilər.

1915-ci ilin başlanğıcında Bakı, Gəncə, Quba, Lənkəran, Naxçıvan, Nuxa, Şamaxı və Şuşada 12 ali ibtidai məktəb fəaliyyət göstərirdi. Onlardan biri Bakıdakı qadın ali ibtidai, ikisi qarışıq, qalanları isə kişi məktəbi idi. Bütün bu məktəblərdəki 1669 şagirdin çoxu kəndli silkinə daxil idi və yalnız 659-u (39 faizi) azərbaycanlı idi.

Bakıdakı üç şəhər məktəblərindən birində - Q.Mahmudbəyovun başçılıq etdiyi Alekseyev məktəbində 1914-cü ildə 472 oğlan oxuyurdu. Xeyli şagirdi olan ilk dörd sinifin hər birinə 52-53 şagird düşürdü[10]. Müəllimlər əsasən təcrübəli, uzun illər boyu ənənəvi olaraq "rus-tatar" məktəbləri adlanan, türk-müsəlman uşaqların oxuduğu, ana dilinin - Azərbaycan türk dilinin öyrənildiyi məktəblərdə dərs demiş mütəxəssislər idi.

Orta təhsilə ilk pillə olan bu mərhələ pullu idi. İllik təhsil haqqı Qubada 50 manata, Bakının ali ibtidai məktəbində isə 12 manata bərabər idi.

Nəzərdən keçirilən dövrdə hökumətin xalq təhsilinə olan xərcləri yerli idarə orqanlarının, müxtəlif cəmiyyətlərin, xüsusi firmaların hesabına keçirmək ənənəsi xeyli gücləndi. Bu, məktəblərin inkişafına mənfi təsir göstərirdi. Çünki çox vaxt məktəb vergilərini ödəməyə imkanı olmayan kəndlilər sərəncamlarına verilmiş məktəblərin saxlanılmasından boyun qaçırmaq məcburiyyətində qalırdılar.

Bakının mədən-zavod rayonunda məktəb şəbəkəsi çox yavaş genişlənirdi. 1905-ci ildə burada 20 məktəb var idi[11]. 1904-cü ildən H.Z.Tağıyevin Əhmədli kəndindəki pambıq lifi emalı zavodunda, 1909-cu ildə Pirallahı adasında, "Nobel qardaşları"nın mədənində yeni məktəblər açılmışdı[12].

1912-ci il ərəfəsində Bakı neft sənayeçilərinin qurultayı Şurasının (BNSQŞ) ixtiyarında olan məktəblərin sayı 9-a, şagirdlərin sayı isə 2328-ə çatmışdı. Onlardan 959 nəfəri qız və yalnız 76-sı azərbaycanlı (türk-müsəlman) oğlan idi[13]. 1906-1907-ci təhsil ilində "yerli" siniflər adlanan təşkilatın təşəbbüsü müvəffəqiyyət qazanmadı, çünki müxtəlifdilli müsəlman şagirdlərə təhsil vermək üçün müəllim tapılmadı. 1910-cu ildə BNSQŞ-nin məktəblərində "yerli" siniflər bağlandı və onlar rus dili bilməyən "yerlilərin" hazırlıq şöbələrinə çevrildi[14].

Ümumiyyətlə, mədən-zavod rayonunda məktəbyaşlı uşaqların cəmi 36 faizi məktəbə gedirdi.

BNSQŞ-nin məktəbləri xüsusi binalarla, daimi müəllimlərlə, lazımi əmlakla, tədris vəsaiti ilə digər ibtidai məktəblərin çoxuna nisbətən yaxşı təmin olunmuşdu.

1908-ci ildə BNSQŞ-nin 27-ci qurultayının qərarına əsasən rəqabət mübarizəsinin gedişində neft rüsumunu ödəməyən firmalarda işləyənlərin uşaqlarının təhsili üçün ildə 50 manat verilməli idi. Bunun nəticəsində 1540 şagirddən 600 nəfəri bu məktəblərdən çıxarıldı[15].

1915-ci ildə keçirilmiş Bakı neft sənayeçilərinin 34-cü qurultayında qeyd olunurdu ki, neft sənayeçilərindən böyük gəlir, o cümlədən bir milyon manatdan çox 2 faizli zemstvo xərci götürən xəzinə onun ən adi mədəni tələbləri üçün heç nə xərcləmir.

Xalq Maarifi Nazirliyi sistemində "rus-tatar" (rus-azərbaycanlı) məktəbləri də var idi və onlar Azərbaycanda milli-azadlıq hərəkatı prosesində meydana çıxmışdı. Rus dilini bilməyən azərbaycanlılara bu məktəblər daha əlverişli idi. Belə məktəblərdə Azərbaycan dilini bilənlər dərs deyirdilər. Burada ana dili nəinki icbari fənn idi, hətta qismən tədris dili kimi istifadə olunurdu. Qey-ri-rus məktəbləri üçün qoyulmuş 1907 və 1913-cü il "qaydaları" özünün şovinist

ruspərəst mahiyyətinə baxmayaraq, bu məktəblərdə təhsilin başlanğıc dövründə doğma dildən istifadə olunmasını təsdıq etdi.

1906-cı ildə Bakıda rus-erməni məktəbləri açıldı. 1914-cü ildə altı məktəbdə 1865 şagird təhsil alırdı[16].

Rus-tatar məktəbləri vaxt ötdükcə birsiniflidən ikisinifliyə çevrilirdi. 1914-cü ildə Bakıda 12 rus-tatar məktəbi (üçü qadınlar üçün) var idi. Onlarda təhsil alan 2482 şagirddən 299 nəfəri qız idi[17]. Eyni məktəblər başqa şəhərlərdə də, məsələn, Şuşa və Şamaxıda (1906-cı ildən), Nuxa və Dərbənddə (1907-ci ildən), Lənkəranda (1911-ci ildən), Salyanda (1912-ci ildən), həmçinin Cavanşir, Şuşa qəzaları və başqalarının bir çox kəndlərində fəaliyyət göstərirdi. İrəvan və Tiflis quberniyalarında da "rus-tatar" məktəbləri açılmışdı[18]. Azərbaycanlı müəllimlərin dərs dediyi kənd ibtidai məktəblərinin çoxu əslində mahiyyətcə "rus-tatar" məktəbləri idi.

Bu məktəblərin digər məktəblərdən fərqi dəqiq məlum olmadığından onların ümumi sayını müəyyənləşdirmək xeyli çətindir. Bunun əsas səbəbi proqramların oxşarlığı idi (ana və rus dilləri, hesab, şəriət). Çox vaxt ayrı-ayrı adamların təsis etdiyi məktəbləri səhvən "rus-tatar" məktəbi adlandırırdılar. Halbuki onlarda fars və ərəb dilləri tədris olunurdu ki, bu da nazirlik məktəblərində qadağan idi.

Azərbaycan məktəblərinin qabaqcıl xadimləri "rus-tatar" məktəblərinin geniş yayılmasına çalışır, bununla təhsilin səviyyəsini qaldırmaq, bu məktəbləri bitirənlərin orta, hətta ali təhsil almalarına şərait yaratmaq istəyirdilər.

Azərbaycanda xalq maarifinin inkişafında H.Məlikovun (Zərdabi), T.Bayraməlibəyovun, R.Əfəndiyevin, F.Köçərlinin, H.Mahmudbəyovun, S.M.Qəniyevin, F.Ağayevin, S.S.Axundovun, Ə.İ.Cəfərzadənin, Ə.D.Orucəliyevin, M.Mahmudbəyəvun, H.Nərimanbəyəvun. B.Eyvazovun, M.T.Səfərovun (Sidqi), A.Talıbzadənin (Şaiq), M.H.Əfəndiyevin, N.Nərimanovun olduqca böyük xidmətləri olmuşdur.

Onlarla yanaşı, S.Əbdürrəhmanbəyov, S.Acalov, Z.Aslanov, M.T.Atakişiyev, B.Bədəlov, İ.Vəkilov, A. Vəlibəyov, MT.Vəliyev, M.Hacıbabayev, Ü.Hacıbəyov, S.Qayıbov, A.Hüseynov, B.İbrahimbəyov, K.İsmayılov, M.M.Qəmərlinski, M.Qarayev, Ə.Qasımov, P.Qasımov, N.Qiyasbəyov, Ə.Topçubaşov, R.Qulubəyov, M.Maqomayev, M.Mahmudov, S.Məlikyeqanov, A.Minasazov, R.R.Mirzəzadə, M.Muradov, Ə.Muradxanov, S.Musabəyov, Ə.Mustafayev, Ə.Muxtarov, B.Səfərəlibəyov, Ə.Sübhanverdixanov, Əli və Hanəfi Terequlovlar, H.Şıxlinski, A.Əfəndiyev və bir çox başqa maarifxadimləri xeyli iş görmüşlər.

XX əsrin əvvəllərində qadınlar üçün dünyəvi təhsil ocaqları meydana çıxdı. Bununla əlaqədar azərbaycanlı qadınların təhsil alması üçün şərait yarandı. Bu isə milli-azadlıq hərəkatının ən aktual problemlərindən biri idi. Bu problem şeyxülislam Ə.Axundzadənin müfti H.Qayıbovun, məşhur publisistlər Ə.Ağayevin, ƏM.Topçubaşovun, Ö. F. Nemanzadənin və bir çox başqa müəlliflərin çıxışlarında da öz əksini tapırdı, qabaqcıl Azərbaycan ziyalılarının hər birinin bu məsələnin həllində öz payı olmuşdu.

Yerli mətbuatda qadınların təhsilinin vəziyyəti, ayrı-ayrı məktəb və müəllimlərin fəaliyyəti ictimaiyyətin diqqətinə çatdırılır, bu sahədəki nöqsanlar "Molla Nəsrəddin" jurnalının səhifələrində kəskin surətdə tənqid edilirdi. 1906-cı ildə keçirilmiş I müəllimlər qurultayınının qərarlarında qadın təhsili məsələsinə xüsusi maddə ayrılmışdı.

Müsəlman qadınların əsarətdən xilası və hüquq bərabərliyi məsələsi Ə.Topçubaşovun təşəbbüsü ilə Ümumrusiya Müsəlmanları Partiyasının əsasnaməsinə daxil edildi. Bu amil Rusiya müsəlmanlarının qurultaylarında da elan edilirdi.

1901-ci ildə Bakıda ilk rus-müsəlman qadın məktəbinin təntənəli açılışı oldu[19]. Bu, ölkənin xalq təhsili tarixində mühüm mərhələ idi. H.Zərdabinin köməyi ilə xalqımızın böyük oğlu H.Z.Tağıyev Rusiya imperatorunun arvadı şərəfinə "Aleksandrinskaya" adlanan qız məktəbi açdı. H.Z.Tağıyev bu işi həyata keçirmək üçün 1896-cı ildən müxtəlif hakim dairələrə, hətta imperatora müraciət etmiş və nəhayət, 5 ildən sonra onun açılmasına nail olmuşdu.

Bu məktəb H.Z.Tağıyevin banka qoyduğu 125000 manatdan gələn faiz və məktəbə daxil olmuş qızların təhsil haqqı hesabına saxlanılırdı. Onların bu ödəniş haqqı 1906-cı ildən artaraq ildə 100 manatdan 250 manata çatdı[20]. Kasıb ailələrdən olan qızlar ödənişdən azad idilər. Təhsilin birinci ilində (1901-ci il) 57 şagirddən 35-i pulsuz təhsil və tərbiyə alırdı.

Məktəbin birinci ilində H.Z.Tağıyevin başçılığı altında ilk Qəyyum Şurası yaradıldı. Onun müavini Sona xanım Tağıyeva, üzvləri H.Zərdabi, dağ-mədən mühəndisi F.Vəzirov, "Kaspi" qəzetinin redaktoru, hüquqşünas Ə.M.Topçubaşov, Bakı qubernıyasının qazısı Hacı Əlizadə, Bakı şəhər qlavası fon der-Nonne, Bakı qubernıyasının və Dağıstan vilayəti xalq məktəblərinin direktoru A.S.Txorjevski, gimnaziya direktorları M.M.Latkina və A.İ.Pobedonostsev idilər.

İlk müdir Hənifə xanım Məlikova oldu. Məktəbin ştatına müdirdən başqa 9 müəllimə və şəriət müəllimi daxil idi. Dini tərbiyəyə çox mühüm fikir verilirdi. Məktəbin sinif otaqlarından biri ibadət üçün ayrılmışdı.

Tağıyevin birsinifli qız məktəbi 1913-cü ildə ikisinifli, 1916-cı ildə isə ali ibtidai məktəbə çevrildi. Bu məktəbi bitirənlərə öz təhsillərini gimnaziyada davam etdirmək imkanı verilirdi.

Qız məktəbində Qafqazın müxtəlif şəhərlərindən gələn uşaqlar təhsil və tərbiyə alırdılar. 1916-cı ilin başlanğıcında məktəbin 104 şagirdi var idi ki, onların 95 nəfəri azərbaycanlı, 6-sı dağlı və 3-ü Qazan tatarı idi. İctimai tərkibinə görə üstünlüyü meşşan qızları (42) və fəxri vətəndaş qızları (38) təşkil edirdi, 17 nəfər də zadəgan nəslindən idi.

Məktəbin ilk buraxılışı 1906-cı ildə oldu. Təhsili başa çatdırmış 15 nəfər - Sona Axundova, Nabat Nərimanova, Mina Məmmədova, Ayna Musabəyova, Xeyrənsə Axundova, Tuti (Tamara) Əhmədbəyova, Səidə Şeyxzadə, Firuzə Sultanova və başqaları sonrakı illərdə təhsil və tibb sahəsində müvəffəqiyyətlə çalışırdılar[22]. 1915-ci ildə məktəbi 13 qız bitirmişdi[23].

Tağıyevin qız məktəbi Azərbaycanda bu cür məktəblərin açılmasının başlanğıcı oldu. 1901-ci ildə İrəvanda, 1902-ci ildə Gəncədə 1907-ci ildə Nuxa və Ağdaşda bir,

1909-cu ildə isə Bakıda üç şəhər "rus - tatar" məktəbi açıldı. Bunun ardınca Qubada, Naxçıvanda, Ağdamda, Şuşada, Şamaxıda, əlavə olaraq Nuxa və Gəncədə, həmçinin bir çox kəndlərdə - Zəyəm (Göyçay qəzası), Salahlı (Qazaxı qəzası), Balaxanı (Bakı qəzası) və başqa yerlərdə də məktəblər açıldı.

XX əsrin əvvəllərində Hənifə xanım Məlikova, Məryəm Sulkeviç, Gülbahar Ağrıyeva, Səbirə Əbdülrəhmanbəyova, Xədicə Ağayeva, Sara Vəzirova, Mədinə Vəkilova, Gövhər Tağıyeva, Gövhar Səfərzadə, Xədicə Məmmədzadə, Şəfiqə Şeyxzadə (Əfəndiyeva) Azərbaycan təhsilinin görkəmli qadın nümayəndələri idilər.

Nigar və Sürəyya Vəlibəyovalar, Xədicə, Məlikə, Məryəm Terequlovalar, Asya, Qumru, Nabat Nərimanovalar, Məhtaban və Maral Əfəndiyevalar, yuxarıda adları çəkilən müəllimlərin bacıları Sürəyya Vəzirova, Səidə Şeyxzadə, Hənifə xanımın qızı Qərib-Sultan Məlikova ailəliklə müəllimlik fəaliyyətinə qoşuldular. Qadın təhsili sahəsində ilk azərbaycanlı müəllimlər sırasında Mina Aslanova, Səkinə Axundova, Böyükxanım Hacıbəyova, İqlimə Heydərova, Şərəbanı Şabanova, Zara Ağayeva (Şahtaxtinskaya), Nazlı Tahirova və b. var idi. Vaxtilə Tağıyevin qadın kurslarında dərs demiş, sonralar Azərbaycan Dövlət Tibb İnstitutunun professoru olmuş Adilə Şahtaxtinskayanın qadın pedaqoji təhsili ilə birbaşa əlaqəsi olmuşdu.

Qadın müəllimlərinin kifayət qədər olmaması qadın təhsilinin inkişafına mane olurdu. Tağıyevin qız məktəbi Azərbaycanda "rus-tatar" məktəbləri üçün bir növ pedaqoji kadrlar yetişdirən mərkəz rolunu oynayırdı.

"Rus-tatar" məktəbləri sayca azlığına, tədris proqramının isə məhdud olmasına baxmayaraq, Azərbaycanda qadın təhsilinin əsasını qoymaqla yanaşı, milli məktəblər üçün yetkin müəllimlər hazırlanmasında, qadınların ictimai fəaliyyətə cəlb edilməsində əhəmiyyətli xidmət göstərmişdi. Anadilli milli məktəb uğrunda mübarizə aparan qabaqcıl Azərbaycan ziyalıları yeni üsullu məktəblərin və "rus-tatar" məktəblərinin təcrübəsinə istinad edirdilər.

1906-cı ilin avqustunda Bakıda Qafqaz müsəlman müəllimlərinin I qurultayı oldu. H.Zərdabi və N.Nərimanovun sədrliyi altında keçən qurultay hamının pulsuz təhsil alması prinsipini əsas götürərək, xalq məktəbinin konkret inkişaf proqramını qəbul etdi. Bu proqramın vacib müddəaları aşağıdakılardan ibarət idi: Azərbaycanda məktəb şəbəkəsinin genişləndirilməsi; milli dilin - Azərbaycan türkcəsini öyrənməyin icbariliyi və onun yeni tədris proqramı və vahid metodunun hazırlanması; qadın təhsilinin inkişafı, müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırılması. Müəllimlərin birinci qurultayı Azərbaycan müəllimlərini milli məktəblərlə bağlı vəzifələri həyata keçirməyə səfərbər etdi. Bunun ən təxirə salınmazı milli dili tədris edən ixtisaslı müəllimlərin hazırlanması idi. Rusiya Xalq Maarif Nazirliyi sistemi üçün səciyyəvi olan müəllim çatışmazlığı qeyri-rus kontingentli məktəblərdə daha yüksək idi. Müəllimlərin, xüsusən ibtidai məktəblərdə çalışanların nüfuzu yüksək deyildi. Bu vəziyyət tədris idarəsinə əsas verirdi ki, ibtidai məktəbdə müəllimlik fəaliyyətinə müəyyən sayda imtahan vermək ilə orta və natamam orta məktəb məzunlarını cəlb etsin. İbtidai məktəblər üçün azərbaycanlı müəllimlər əsasən Qori və İrəvan

seminariyalarında hazırlanırdı. 1904-cü il ərəfəsində bu seminariyalarda 936, o cümlədən 229 (24,5 faiz) azərbaycanlı müəllim hazırlanmışdı. Əlavə olaraq 13 nəfər azərbaycanlı Tiflisdə Aleksandr Müəllimlər İnstitutunda peşə hazırlığı keçmişdi. Azərbaycan əhalisi arasında məktəb müəllimləri hazırlanmasında Qori seminariyasının "Tatar" - türk-müsəlman şöbəsinin olduqca böyük rolu olmuşdu. Lakin bu təhsil müəssisələri Azərbaycan dili müəllimlərini hazırlamırdı. Dünyəvi məktəblərdə də onları adətən ruhanilər içərisindən, ən yaxşı halda mədrəsə təhsili almışlardan seçirdilər. Azərbaycan dili müəllimlərinin hazırlanmasında sistemsizlik hökm sürürdü. 1905-1907-ci illərdə bu iş "Nəşri-maarif" cəmiyyətinin kurslarında, Bakı quberniyası və Dağıstan vilayətinin xalq məktəbləri direktorluğunun müəllim kurslarında (1911-ci ildə burada 43 müəllim hazırlıq keçmişdi), Yelizavetpol mədrəsəsində, həmçinin Tağıyevin qız məktəbində, 1915-ci ildə açılmış qadın pedaqoji kurslarında həyata keçirilirdi[25].

Qadın pedaqoji kurslarının proqramları ibtidai məktəblər üçün nəzərdə tutulan ümumtəhsil fənlərini əhatə edirdi. Həmin kursları keçənlər qadın məktəblərində işləməli olduqlarından ev və əl işlərini də öyrənməli idilər. İlk qəbul zamanı kurslara 17 qız seçildi, onlardan 11-i Tağıyevin qız məktəbinin məzunları idi. V. Musabəyova, A.Şahtaxtinskaya kursdan müəllimliyə dəvət olundular. Kursun müdiri Peterburqda Bestujev kurslarını bitirmiş Səlimə Yaqubova oldu[26].

Azərbaycan ictimaiyyəti uzun müddət Qori Müəllimlər Seminariyasının türk-müsəlman bölməsinin Azərbaycanın şəhərlərindən birinə köçürülməsi və ya başqa bir seminariyanın açılması uğrunda mübarizə aparırdı. Nəhayət, 1914-cü ildə qədim Gəncə şəhərində müəllimlər seminariyası açıldı. İki ildən sonra, yəni 1916-cı ildə belə bir seminariya Bakı şəhərində fəaliyyətə başladı. Yalnız 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti bu bölmənin əsasında Qazaxda müəllimlər seminariyası açdı. Bu seminariyada başqa tədbirlərlə yanaşı, milli məktəblər üçün peşəkar müəllimlər hazırlanmalı idi.

1914-cü ildə Azərbaycanda xalq təhsili sistemində 2254 nəfər çalışırdı, onların 77 faizi ibtidai məktəblərdə işləyirdi, 34 faizi qadınlar, cəmi 13,3 faizi isə milli kadrlar idi.

Azərbaycan ziyalılarının qabaqcıl nümayəndələri, ilk növbədə müəllimlər özlərinin maarif sahəsindəki vəzifələrini ana dillərinin tamhüquqlu fəaliyyətinə, qorunmasına və təkmilləşdirilməsinə kömək etməklə, xalqın mədəni inkişafında özünəməxsusluğu itirməyə qoymamaqda görürdülər. Türkiyədə təhsil almış bəzi həmvətənlərdən fərqli olaraq, onlar təkid edirdilər ki, azərbaycanlı şagirdlərə təhsil yalnız ana dilində verilsin.

Eyni zamanda Azərbaycan ictimaiyyətinin qabaqcıl nümayəndələri nə rus, nə də başqa dillərin mədəni əlaqələr üçün istifadəsini rədd etmirdilər. Onlar Azərbaycan dilinin yuxarı tipli məktəblərdə qeyri-mütləq fənn olmasının, ikinci dərəcəli sayılmasının əleyhinə çıxır, ümumi pulsuz təhsil məsələsini qaldırır, müəllimlər seminariyasında Azərbaycan dili tədrisinin genişləndirilməsini, maddi və mənəvi

cəhətdən hüquqları tapdalanan Azərbaycan (türk) dili müəllimlərinin vəziyyətinin yaxşılaşdırılmasını tələb edirdilər.

Bütün bu məsələlər müəllimlərin müştərək ərizələrində və müəllimlər qurultayının qərarlarında, həmçinin dövri mətbuatda öz əksini tapırdı. Mətbuat orqanlarında çap olunan məqalələrin müəllifləri əsasən görkəmli müəllimlər və ictimai xadimlər: Ə.Ağayev, H.Ağayev, H.Vəzirov, H.Zərdabi, Q.Qarabəyov, C.Məmmədquluzadə, M.Mahmudbəyov, H.Minasazov, N.Nərimanov, Ə.Topçubaşov, M. Əfəndiyev və başqaları idilər. Azərbaycanın mədəniyyət xadimlərinin çoxu doğma dildə təhsil məsələsini milli məsələnin vacib tərkib hissəsi hesab edir və ona siyasi nöqteyi-nəzərdən yanaşırdı.

Azərbaycan dilinin və təhsilinin inkişafı mövcud yazı problemi ilə sıx əlaqədə idi. Ərəb əlifbasının çətinliyi və onun islahatının zəruriliyi M.F. Axundovun ardınca M.D.Şahtaxtinski, F.Köçərli, Ə.M.Topçubaşov və başqaları tərəfindən irəli sürülürdü. Bu problem 1907-ci ilin avqustunda Bakıda keçirilmiş II Azərbaycan müəllimlər qurultayının da diqqət mərkəzində olmuşdu. Azərbaycan yazısında aparılacaq islahatın layihəsini təcrübəli müəllimlər - F.Ağazadə, S.Axundov, M.Mahmudbəyov və A.Əfəndiyev tərtib etmişdilər. Lakin qurultay iştirakçılarının çoxu onların təşəbbüsünü dəstəkləməyib, belə bir şərt irəli sürdülər ki, bu məsələni yalnız bütün müsəlman ölkələri nümayəndələrinin iştirakı ilə həll etmək olar.

Azərbaycan müəllimləri qarşısında duran digər aktual vəzifə dərs vəsaitlərini və uşaq ədəbiyyatını doğma dildə tərtib etmək idi. Onların tərtibi ilə Azərbaycanın görkəmli müəllimləri məşğul olurdular. Yeni dərsliklər müasir pedaqoji elmin tələblərinə uyğun olaraq tərtib edildi və sonralar vaxtın ciddi imtahanına məruz qaldı. Onlar əsasən milli dil və ədəbiyyatı öyrənmək üçün yazılmışdı.

1901-ci ildə R.Əfəndiyev "Bəsirət-ül-ətfal" ("Uşaq açıqgözlüyü") müntəxəbatını nəşr etdi. 1907-ci ildə Bakı rus-tatar məktəblərinin müəllimləri M.Mahmudbəyov, S.Əbdürrəhmanbəyov, S.S.Axundov, F.Ağayev, A.Talıbzadə (Şaiq) və Əbd. Əfəndiyev ibtidai məktəblərdə ikinci il təhsil alanlar üçün "İkinci il", 1909-cu ildə M.Mahmudbəyov və A.Mehdizadə (Səhhət) üçüncü il təhsil alanlar üçün "Üçüncü il" kitabını nəşr etdilər.

1910-cu ildə A.Talıbzadə birinci siniflər üçün "Uşaq gözlüyü" dərsliyini tərtib etdi. Bir ildən sonra K.Nərimanbəyov, M.M.Qəmərlinski və başqaları "Ana dili" dərsliyini yazdılar. 1912-ci ildə isə F.Köçərli "Balalara hədiyyə" müntəxəbatını nəşr etdi.

Müxtəlif fənlər üzrə də dərsliklər tərtib olunurdu: Ü. Hacıbəyov hesab dərsliyini (1908-ci il), Q.Mirzəzadə "Qafqaz coğrafiyası (1914-cü il) nəşr etdi. "Rus-türk" və "Türk-rus" lüğətləri, o cümlədən, 1907-ci ildə Ü.Hacıbəyov tərəfindən çap edilən lüğət nəşr olundu.

Azərbaycan dilində təhsil alanlar üçün hazırlanmış aylıq pedaqoji jurnal "Rəhbər"in nəşri müəllimlər üçün qiymətli vəsait oldu. O, 1906-1907-ci illərdə

M.Mahmudbəyovun redaktəsi ilə çıxırdı.

1906-1908-ci illərdə şagirdlər üçün A.İ.Cəfərzadənin və M.H.Əfəndiyevin redaktəsi ilə şəkilli "Dəbistan", şagird və müəllimlər üçün Q.Mirzəzadə və A.Əfəndiyevin redaktəsi altında 1906- 1907-ci illərdə "Məktəb" jurnalları nəşr olunurdu.

Azərbaycan uşaq bədii ədəbiyyatının inkişafında M.Ə.Sabir, A.Səhhət, R.Əfəndiyev, F.Köçərli, A.Şaiq və başqaları böyük rol oynadılar.

Əsasını müəllimlər təşkil edən qabaqcıl ziyalıların nümayəndələri xalq təhsilinin inkişafı üçün zəruri olan biliklərin yayılmasına yönəlmiş ictimai fəaliyyətlə məşğul olurdular. Kitabxanalar, qiraət ocaqları, dram dərnəkləri, hətta qrupları yaradılırdı. Bu işdə müəllimlər, savad kursları, başqa mədəniyyət ocaqları fəal iştirak edirdi. Müəllimlər çalışdıqları yerlərdə öz işlərinə uyğun olaraq folklor, tarix, arxeologiya, etnoqrafiya, toponimika, ölkənin təbiəti və iqtisadiyyatı üzrə material toplayırdılar. T.Bayramәlibəyov, R.Əfəndiyev və M.H.Əfəndiyevin Lənkəran, Nuxa qəzalarına, Göyçay qəzasının Lahıc kəndinə həsr olunmuş əsərləri elmi məzmunca xüsusilə fərqlənirdi.

Xalq müəllimlərinin Azərbaycanda ölkəşünaslığa, etnoqrafiyaya aid topladıqları materiallar, yazıya aldıqları şifahi xalq yaradıcılığı nümunələri, dağılmış abidələrin təsviri sonrakı nəsillərə yadigar qaldı[27]. Onların yığdığı və Qafqaz tədris dairəsinin külliyyatlarında nəşr olunmuş materiallar xalqımızın keçmişini öyrənmək üçün çox qiymətli mənbədir.

Kənd müəllimləri təkcə uşaqlara dərs deməklə kifayətlənməyərək, əhaliyə təsərrüfatın idarə olunması üsullarını öyrədir, bəzən də ilk tibbi yardım göstərirdilər (T.Bayramәlibəyov, M.Qarayev. C.Məmmədquluzadə və b.). Onu da qeyd etmək lazımdır ki, Azərbaycan alimləri, yazıçıları, bəstəkarları və aktyorlarının xeyli hissəsi ilk əmək fəaliyyəti və ictimai işlərə məhz məktəblərdə başlamışdı.

Xalq müəllimləri öz borclarını - xalqın uzun əsrlik cəhalətdən çıxmasına xidmət etməyi unutmur, əsil fədakarlıq göstərirdilər. Onların ağır maddi şəraitini və hüquqsuzluğunu çar məmurları və Dövlət Duması deputatları da etiraf etməyə məcbur olurdular[28].

Zaqafqaziya Müəllimlər Seminariyasını bitirmiş Ü.Hacıbəyov Cəbrayıl qəzasının Hadrut kəndində işləyərkən "Kaspi" qəzetində dərc olunmuş məqalələrinin birində yazırdı ki, kənd ictimai məktəblərində işləmiş müəllimlər illərlə yarıac yaşayır, "ağır zəhmətə görə dilənçi maaşı", həm də beş ay gecikməklə alır[29].

Xalq maarifi sistemində ən aşağı maaşı onlar alırdılar. Bu məktəblərin müəllimlərinin maaşları keçən ilin ortalarında alınan maaşa (ildə 400 manat) bərabər idi, həyatda baş verən bahalıqlar nəzərə alınmırdı. Yalnız Bakı "rus-tatar" məktəblərinin müəllimləri istisnalıq təşkil edirdilər. Bakı şəhər dumasının deputatları H.Məlikov, F.Vəzirov və Ə.Topçubaşovun ciddi tələbi nəticəsində onların maaşı nisbətən artırıldı, iş stajına uyğun olaraq əlavə əmək haqqı verildi. 1905 və 1906-cı illərdə rus-tatar məktəbləri müəllimlərinin əmək haqqı, mənzil haqqı daxil olmaq şərti ilə, ayda 75-92 manata, nəzarətçininki isə 123 manata qədər artırıldı.

Azərbaycan dili müəllimlərinə ən aşağı maaş müəyyən edilirdi. Bu müəllimlər eyni zamanda müsəlman şəriətindən də dərs deyirdilər. Bakı şəhər dumasının deputatları

Ə.Ağayev, H.Məlikov, F.Vəzirov və Azərbaycan ziyalılarının digər nümayəndələri bu müəllimlərin hüquqlarını onların digər həmkarlarının hüquqları ilə bərabərləşdirməyi tələb edirdilər; hesab edirdilər ki, onların dedikləri dərslər şagirdlərin mənəvi tərbiyəsinin təməlini təşkil edir. Azərbaycanlı müəllimlər pedaqoji işçilər üçün nəzərdə tutulmuş bəzi imtiyazlardan məhrum edilmişdilər.

Aşağı maaş alan müəllimlərin pensiyası da çox az idi. Maddi çətinliklər, arasıkəsilməz yoxlamalar, tədris müdiriyyətinin təftişləri, fanatik din xadimlərinin hücumları, yerli inzibatçıların müəllimlərin hər addımını nəzarət altında saxlaması müəllimləri təhqiramiz vəziyyətə salır, onların məktəblərdəki zəhmətini ağır əzaba çevirirdi. Bunun nəticəsi idi ki, müəllimlərin bir qismi təhsil fəaliyyətindən uzaqlaşır və daha çox maaş verilən işə keçirdi. Bu hal senator Kuzminskinin 1905-ci ildə Bakıda və Bakı quberniyasında keçirdiyi yoxlama barəsində yazdığı hesabatında da qeyd olunurdu[30].

Müəllimlərin ictimai və hüquqi müdafiəsinin zəruriliyi Bakı quberniyası və Dağıstan vilayətinin xalq məktəbləri Direktorluğunun müəllimlərinə kömək cəmiyyətinin yaradılmasına səbəb oldu. 1902-ci ildə cəmiyyətin tərkibində 302 müəllim var idi. Onun işində Ə.Vəlibəyov, S.M.Qəniyev, N.Qiyasbəyli, H.Mahmudbəyov. B.Səfərəliyev, M.H.Əfəndiyev və başqaları fəal iştirak edirdilər.

Ölkənin azərbaycanlı əhalisi arasında xalq maarifinin yayılması ilə bağlı olan bütün məsələlər, həmçinin müəllimlərin vəziyyəti xalq müəllimlərinin 1905-ci ildə Nazirlər Sovetinin sədri S.M.Vitteyə və Qafqaz canişini İ.İ.Vorontsov-Daşkova yazdıqları ərizədə öz əksini tapmışdı. Ərizədə ümumi pulsuz təhsilin, orta məktəblərdə Azərbaycan (türk) dilinin öyrənilməsinin və tədrisinin müəllimlər seminariyasında genişləndirilməsinin zəruriliyi qeyd olunurdu.

İnqilabi hərəkatın yüksəlişi dövründə müsəlman müəllimlərinin hüquq məhdudiyyətlərinin ləğvi və ya ona yenidən baxılması vədi də həyata keçmədi. XX əsrin əvvəllərində, xüsusən 17 oktyabr 1905-ci il Manifestinin elanından sonra xalq təhsilinə ümumictimai yardım hərəkatı milli ziyalıların və sahibkarların, cəmiyyətin bütün qabaqcıl qüvvələrinin birləşməsinə gətirib çıxardı. Təhsil məsələləri yerli dövri mətbuatın səhifələrinə də çıxarılırdı. Məqalələrdə milli dildə təhsil almağın, onun tədrisinin həcmi və keyfiyyətinin artırılması, şagirdlərin, xüsusən də orta və ali təhsil ocaqlarında təhsil alanların müdafiəsi öz əksini tapırdı. Bu hərəkatın gedişində ilk milli xeyriyyəçi-maarifçi cəmiyyətlər meydana çıxdı.

1906-cı ilin avqustunda nizamnaməsi təsdiq olunduqdan sonra H.Z.Tağıyevin başçılığı altında Bakı quberniyasının müsəlman əhalisi arasında təhsili yayan cəmiyyət - "Nəşri-maarif" fəaliyyətə başladı. Cəmiyyəti dəstəkləyən məşhur sahibkarlar Ş.Əsədullayev, M.Muxtarov, M.Nağıyev və H.Z.Tağıyev onun fəxri üzvləri seçildilər[31].

Şagirdlərə maddi yardım göstərən cəmiyyət ilk növbədə Abşeronda doğma dillə yanaşı, rus dilini də öyrədən ibtidai məktəblərin təşkili ilə çox ciddi məşğul olur, pedaqoji kurslar təşkil edirdi.

1914-cü il ərəfəsində 13 məktəb açıldı ki, onlarda 936 şagird, o cümlədən 72 qız təhsil alırdı[32].

"Nəşri-maarif" cəmiyyətinin fəaliyyətində müxtəlif illərdə görkəmli ictimai xadim və müəllimlər - Ə.Ağayev, F.Ağayev, Ə.Əmircanov, Ə.X.Axundov, İ.Aşurbəyov, A.Aşurov, H.A.Həsənov, M.H.Hacınski, Ə.İ.Cəfərov, Q.Qarabəyov, H.Mahmudbəyov, H.Məlikov, İ.Məlikov, M.H.Əfəndiyev və b. ən fəal surətdə iştirak edirdilər.

Ə.Adıgözəlovun təşəbbüsü ilə eyni cəmiyyət Gəncədə də açıldı. Onun sədrliyinə tanınmış həkim H.Ağayev seçildi. 1906-cı ildə Bakı müsəlman maarif cəmiyyəti - "Nicat"ın fəaliyyətinə icazə verildi. Cəmiyyətin məqsədi azərbaycanlı əhalinin arasında maarifi yaymaq, orta və ali tədris müəssisələrinin ehtiyacı olan tələbələrinə maddi yardım göstərmək, həmçinin Azərbaycan dilinin və ədəbiyyatının inkişafına şərait yaratmaq idi. Cəmiyyətin məqsədini həyata keçirmək üçün nəzdində pedaqoji, teatr və ədəbiyyat bölmələri olan məktəb yaradıldı[33].

Müxtəlif illərdə H.Ağayev, İ.Aşurbəyov, M.Ə.Rəsulzadə "Nicaf "ın sədri, M.Hacıbabayev, M.H.Hacınski, Q.Qasımov, M.Muxtarov, M.Səlimbəyov isə katib olmuşdular.

Cəmiyyət kitabxanaların təşkilinə, Azərbaycan dilində qəzet və kitab nəşrinə lazımi fikir verirdi.

1907-ci və 1916-cı illərdə "Nicat"ın təşəbbüsü ilə Azərbaycan müəllimlərinin qurultayları keçirildi. 1907-ci ildə Ə.X.Axundov, N.Vəzirov və başqalarının təşəbbüsü ilə yaradılmış Müsəlman Ruhani Cəmiyyəti - "Səadət"in qarşısında xalqı maarifləndirmə vəzifəsi dururdu. Cəmiyyət dini məktəbləri təkmilləşdirməyi lazım hesab edir, onların yayılmasına, ictimai kitabxanalar və qiraət zalları açılmasına çalışırdı.

"Səadət" cəmiyyətinin 1908-ci ildə açılmış və orta təhsil verən məktəbində F.Ağayev (o, eyni zamanda müfəttiş idi), C.Hacıbəyov, Ü.Hacıbəyov, Ə.D.İsmayılov, H.Terequlov müəllimlik edirdilər. Məktəbin müdiri, Azərbaycan (türk) dili və ədəbiyyatı müəllimi Əli bəy Hüseynzadə idi. 1910-1911-ci tədris ilində "Səadət" məktəbində 302 şagird təhsil alırdı[34].

Müsəlman maarifçi cəmiyyəti "Səfa"nın da qarşısında peşəkarlıq səviyyəsini artırmaqla məşğul olmaq vəzifəsi dururdu. İranın xeyriyyəçi "Əncüməni-xeyriyyə" cəmiyyəti maarifçiliyin inkişafına kömək edirdi. 1906-cı ildə İran tacirlərinin vəsaiti hesabına Bakıda "İttihad" mədrəsəsi açıldı[35]. Burada İran təbəələri ilə yanaşı, yerli azərbaycanlı uşaqları da təhsil alırdılar. Onlar 1911-ci ilin başlanğıcında bütün tələbələrin 61 faizini (170-dən 104-ü) təşkil edirdi ki, bu da xalq maarifi direktorluğunun narahatlığına səbəb olmuşdu.

Nuxada Şirəlibəy Əmircanovun sədrliyi ilə Nuxa Təhsil Cəmiyyəti yaradılmışdı.

İctimaiyyətin qabaqcıl nümayəndələrinin xalqı maarifləndirmək hərəkatı Azərbaycanda ümumxalq xarakterli mədəni prosesin bir hissəsi idi və onda əhalinin başqa milli qrupları da iştirak edirdi.

Hələ 1904-cü ildə Bakıda Roma katolik xeyriyyə cəmiyyəti ibtidai məktəb açmışdı. 1906-cı ildə Bakı Yəhudi Cəmiyyəti, 1907-ci ildə T.Q.Şevçenko adına "Prosvita cəmiyyəti" yaradılmış, onlar məktəblər və təhsil kursları təşkil etmişdilər. 1907-ci ildə birsinifli Bakı alman-isveç kilsə məktəbi ikisinifliyə çevrildi. 1912-ci ildə onun müxtəlif

millətlərdən olan 219 şagirdinin əksəriyyəti alman idi.

1909-cu ildə Bakıdakı gürcü cəmiyyətinin yaratdığı məktəbdə 1911-ci ildə 73 şagird təhsil alırdı[36].

"Erməni insanpərvər cəmiyyəti" maarifçilik fəaliyyətini davam etdirirdi. "Erməni mədəniyyət ittifaqı" isə qadın peşə məktəbini saxlayır və kənd kilsə məktəblərini maddi cəhətdən təmin edirdi. Beləliklə, bu və başqa xeyriyyəçi təşkilatlar öz qarşısına mədəni-maarif məsələlərinin həllini qoyur, eyni zamanda öz həmvətənlərinə maddi kömək göstərirdilər.

Azərbaycanda orta təhsil ciddi təşkilat və maliyyə çətinlikləri ilə rastlaşdığı üçün xeyli zəif inkişaf edirdi. 1910-cu ilə qədər Bakıda cəmisi iki orta təhsil müəssisəsi var idi: realnı məktəbi və gimnaziya. Yeni kişi gimnaziyası Bakı (1910-cu il), Nuxa (1915-ci il) və Lənkəranda (1916-cı il); realnı məktəb Şamaxı (1900-cü il), Balaxanı (1911-ci il) və Salyanda (1916-cı il); qadın gimnaziyaları Bakı (1903, 1913, 1916-cı illər), Lənkəran (1913-cü il) və Balaxanıda (1911-ci il); Müqəddəs Nina qız məktəbləri Gəncə (1913-cü il) və Nuxada (1915-ci il) fəaliyyətə başlamışdı.

1914-cü ilin rəsmi statistikasına görə, Azərbaycanın beş kişi gimnaziyasında 2422 şagird, o cümlədən 273 (11,3 faiz) azərbaycanlı, üç realnı məktəbində müvafiq olaraq 1433 və 441 (30,7 faiz) təhsil alırdı. Beləliklə, orta hesabla bu məktəblərin 3855 şagirdindən 714 nəfəri (18,5 faiz) azərbaycanlı idi[37].

Yeddi qadın gimnaziyasında 3. 158 şagird təhsil alırdı. 1914-cü ildə Qafqazdakı bütün orta qadın təhsili müəssisələrində cəmi 209 (0,8 faiz) azərbaycanlı var idi[38].

1915-ci ilin əvvəlində Azərbaycanda orta məktəb şagirdlərinin ictimai tərkibi şəhərlilərin, orta gəlirlilərin, əsasən meşşan uşaqlarının üstün mövqe tutması ilə xarakterizə olunur. Onlar kişi gimnaziyalarında 35,3 faiz (956 nəfər), realnı məktəblərində 49,6 faiz təşkil edirdi. 1900-cü ilə nisbətən zadəganların və məmurların xüsusi çəkisi azalıb, müvafiq olaraq 27,2 faiz (660 nəfər) və 21,3 faiz (306 nəfər) olmuşdu[39].

Qadın orta məktəblərində də meşşanlar üstün idilər. Tutulmuş 3853 şagird yerindən 1,463-ü (46,3 faizi) onların payına düşürdü, zadəgan və məmurların uşaqları isə (715 qız) 22,6 faiz təşkil edirdilər[40].

Qadın gimnaziyasını bitirənlər VIII pedaqoji sinifdə təhsillərini imtahansız davam etdirərək, rus dili və ya riyaziyyat üzrə ixtisaslaşa bilərdilər. 1914-cü ildə Azərbaycanın dörd qadın orta məktəbini (başqalarında buraxılış olmamışdı) 313 qız bitirmişdi[41]. Bu siniflər hələ XIX əsrin sonunda qadın pedaqoji təhsilinin əsasını qoymuşdu.

Pedaqoji sinifləri bitirənlər ev müəllimi adını, xüsusi fərqlənənlər isə ev mürəbbiyəsi və ibtidai xalq məktəblərində dərs demək hüququ alırdılar.

Orta təhsil müəssisələrinə şagirdlərin axını ildən-ilə artırdı. Yer olmaması üzündən onlara rədd cavabı vermək adi hal idi, 1914-cü ildə Bakı realnı məktəbinə daxil olanlardan 20 nəfərə, qadın orta məktəblərində isə qəbul üçün 1535 xahişnamə verəndən (o cümlədən 37 azərbaycanlı qız) 140 nəfərə yer olmamışdı[42].

Orta məktəblərin şagird heyətinin demokratikləşməsi yalnız onların ictimai tərkibi ilə deyil, eyni zamanda məktəblilərin xeyli hissəsinin təhsil haqqından azad olması ilə həyata keçirilirdi. Təhsil haqqının ildə 60-125 rubl arasında olması təhsilin çox yüksək dəyəri ilə

bağlı idi. Məsələn, Bakı realnı məktəbində bir nəfərin təhsili 1914-cü ildə 166 rubla başa gəlir, lakin 75 rubl haqq ödənilirdi. Təhsilin dəyəri ilə ödəniş haqqı arasında nisbət Şamaxı realnı məktəbində, müvafiq olaraq 224 və 180 rubl, Mariya qız gimnaziyasında 89 və 75 rubl idi[43]. Lakin buna baxmayaraq, şagirdlər təhsil almaqları müqabilində xeyli məbləğdə haqq ödəməli olurdular. Ona görə də orta məktəb qapıları yoxsul uşaqların üzünə bağlı qalırdı.

Tədris müəssisələrinin nizamnaməsinə əsasən, şagirdlərin 10-15 faizi təhsil haqqından azad olunurdular. Lakin ən yoxsul məktəblilərə aid olan bu güzəşt məhdud və müvəqqəti idi. Məsələn, Bakı Mariya gimnaziyasında 1914-cü ildə 717 şagirddən orta hesabla 100 nəfəri (13,9 faiz), Lənkəran progimnaziyasında 61-dən 7-si (11,5 faiz), Bakı realnı məktəbində 26,5 faizi, Gəncə gimnaziyasında isə 17,7 faizi təhsil haqqı ödəməkdən azad idilər[44].

Birdəfəlik maddi yardım və xüsusi şəxslərin, müəssisə və cəmiyyətlərin ardıcıl olaraq təqaüd ödəmələri təhsil haqqı verməkdən azad olunanların sayını bir qədər artırmağa imkan verirdi.

Çarizm kasıb ailələrdən olan uşaqların orta məktəblərə, xüsusi gimnaziyaya daxil olmalarına şərait yaratmırdı. Yerlilərin çatışmaması və bütün təbəqələrdən olan gənclərin təhsili davam etdirmək arzuları nəticəsində orta məktəblərə girmək ildən-ilə çətinləşirdi.

Orta məktəblərə daxil olarkən keçirilən ciddi müsabiqə imtahanlarını ən bacarıqlı, əsasən isə özəl dərs alan uşaqlar verə bilirdi. Yalnız varlı ailələr 7-8 illik təhsil müddətində öz uşaqlarını oxuda bilirdilər. Forma və dərsliklərin, başqa şəhərlərdən gələnlərin ev kirayəsinin haqqı və s. təhsil xərcindən az deyildi. Bir sözlə, məktəblərdə oxumaq təhsil haqqını ödəmək imkanı olanlara qismət olurdu.

Orta təhsil məktəblərində oxuyan kasıb uşaqlarından təhsil haqqını ödəməyənləri məktəbdən çıxarılmaq təhlükəsi gözləyirdi. Məsələn, 1901-ci ildə Bakı kişi gimnaziyası tələbələrindən 178 nəfəri belə bir təhlükə ilə üzləşmişdi[45].

Nazirliyin sərəncamındakı orta təhsil müəssisələrinin azlığı, təhsilin həcmi və məzmunca lazımi səviyyədə olmaması xüsusi gimnaziya və progimnaziyaların açılması zərurətini doğururdu. 1914-cü ildə Bakının üç gimnaziyasında 1258, Şəki gimnaziyasında isə 130 nəfər təhsil alırdı[46]. Gəncə və Şuşada, eləcə də başqa şəhərlərdə də belə gimnaziyalar var idi. Onlarda ödəniş nisbətən yüksək idi və məktəblilərin sosial tərkibini də bu müəyyənləşdirirdi.

1918-ci ilə qədər Azərbaycanda heç bir orta məktəbdə tədris ana dilində aparılmırdı.

Orta təhsil islahatı keçirməyə tələsməyən hökumət ölkənin demokratik ictimaiyyətinin təzyiqi altında gimnaziyalardakı ümum-təhsil fənlərini "klassik" dillərin hesabına bir qədər genişləndirmək məcburiyyəti qarşısında qaldı. Lakin "yerli" dilin, yəni Azərbaycan dilinin tədrisi hətta ölkənin yerli əhalisi üçün də mütləq hesab edilmirdi. Bu, milli dillərin hüququnun tapdalanması, yerli əhalinin mədəni tələblərinə etinasızlıq, əslində çarizmin apardığı assimilyasiya faktı idi. 1901-ci ildə realnı məktəblərini bitirənlərə gimnaziya kursu həcmində latın dili imtahanından uğurla keçmək şərtilə universitetlərin

tibb və fizika-riyaziyyat fakültələrinə girməyə icazə verilirdi[47].

Qadın gimnaziyalarında təhsilin həcmi kişi gimnaziyasına nisbətən aşağı səviyyədə idi.

Hökumət orta təhsil müəssisələrində tədrisin ideya istiqamətinə, şagirdlərin dini-mütləqiyyət ruhunda tərbiyə olunmasına ciddi nəzarət edirdi. Ona görə də müəllimlərin seçilməsi və təyinatının etibarlılığı həlledici sənədlə təsdiq olunmalı idi. Buna baxmayaraq, azadlıq hərəkatı sınağından çıxmış, inqilabi dərnəklərdə, kütləvi çıxışlarda iştirak etmiş şəxslər də orta təhsil müəssisələrində müəllimliyə düşə bilirdilər. Bunlardan V.V.Avalianini (Bakı realnı məktəbi), L.Laykomu (Bakının Müqəddəs Nina qız məktəbi) göstərmək olar[48]. Orta təhsil məktəblərinin ştatına, qaydaya görə, ali təhsil müəssisələrini bitirmiş şəxslər düşürdülər. Lakin diplomları olan azərbaycanlılar, müsəlman olduqlarına görə, bu tədris müəssisələrində dərs deməyə buraxılmırdılar. Məsələn, Sorbonnada təhsil almış Ə. Ağayev əvvəlcə Şuşa realnı məktəbində, sonrakı illərdə Bakı kommersiya məktəbində işləyirdi. Burada işləyənlərdən ali təhsil tələb olunmurdu.

Ştatdankənar müəllimlərin dövlət qulluqçusu hüququ yox idi və aşağı maaş alırdılar. Azərbaycanın qabaqcıl ictimaiyyəti ana dili müəllimlərinə münasibətdəki ayrıseçkiliyi kəskin surətdə tənqid edirdi.

Azərbaycan ziyalılarının nümayəndələri xalq təhsili işinə hərtərəfli yardım göstərirdilər. Onlar orta təhsil məktəblərinin qəyyum şuralarına daxil idilər.

1915-ci ilə qədər Azərbaycanın üç realnı məktəbini 2030 şagird bitirmişdi, onların 1521 nəfəri Bakıda qadın orta təhsil müəssisələrinin, o cümlədən 1285 nəfəri Bakı Mariya gimnaziyasının məzunu idi[49].

Orta məktəbləri bitirənlər arasında ali təhsilə meyil artırdı. 1914-cü ildə Bakı realnı məktəbini bitirmiş 80 nəfərdən 74-ü, o cümlədən 67-si texniki təhsil ocaqlarında, Şuşada 16-dan 13-ü, Bakı Müqəddəs Nina qız məktəbindən 23 nəfərdən 9-u öz təhsilini davam etdirmək istəmişdi[50].

Hər bir tədris müəssisəsinin, xüsusən orta məktəblərin açılması ilk növbədə maliyyələşdirmə məsələsində bir çox çətinliklərlə üzləşirdi. Xalq Maarif Nazirliyi lazım olan xərcin xeyli hissəsini təhsil alan uşaqların üzərinə qoyurdu. Azərbaycanda kişi gimnaziyaları büdcəsinin üçdə birindən çoxu onlarda təhsil alanlardan toplanan məbləğin hesabına yığılırdı. 1914-cü ildə gimnaziyaların büdcəsinin 35-45 faizi dövlət xəzinəsinin payına düşürdü, qalan hissəsi isə şəhər özünüidarəsi və başqa mənbələr hesabına idi.

XX əsrin əvvəli texniki-peşə, o cümlədən orta təhsilin daha geniş yayılması ilə xarakterizə olunur. Ticarət-sənaye fəaliyyəti ilə məşğul olan birja, bank, anbar, idarə və mağazaların idarəediçilərə, mühasiblərə, komisyonçulara, ticarət agentlərinə, əmtəəşünaslara, bank işçilərinə və başqa qulluqçulara ehtiyacı var idi.

Bakıdakı qısamüddətli kommersiya kursları əsasən yaşlılar üçün nəzərdə tutulmuşdu. Onlar hazırlıq və savad səviyyəsinə görə mövcud tələbatı ödəyə bilmirdilər. 1901-ci ildə Bakıda fəaliyyətə başlamış kommersiya məktəbi (BKM) müəyyən peşələr üzrə çatışmayan mütəxəssislər hazırlamalı idi. O, yerli sahibkarların səyi və maliyyə dəstəyi sayəsində açılmışdı. Onlardan təkcə H.Z.Tağıyev həmişəki kimi səxavət göstərərək 50000

manat ayırmışdı. Digər xeyriyyəçilər sırasında Ş.Əsədullayev, F.Vəzirov, A.Mantaşov, Nobel qardaşları da var idilər. H.Z.Tağıyev BKM-in ilk fəxri qəyyumu olmuşdu (1906-cı ilə qədər)[51].

Azərbaycanın peşə-texniki məktəblərinin büdcəsi ən yüksək təhsil haqqı (ildə 100-150 manat), həmçinin silki və gildiya sənədlərinin 15 faiz rüsumu hesabına yaranırdı.

1901-ci ildə bu məktəblərdə 166 şagird, o cümlədən 11 nəfər azərbaycanlı (6,6 faiz) təhsil alırdı. 1916-cı ildən şagirdlərin sayı 472 nəfərə çatdı ki, onların da 65-i (13,9 faizi) azərbaycanlı idi. Bütün təhsil alanlardan 349-u, yaxud 73,9 faizi ticarət və sənaye müəssisələrində çalışan qulluqçuların övladları idi[52]

BKM-də təhsil kursu 8 sinifdən ibarət idi ki, onlardan son ikisi ixtisas kursu hesab olunurdu. Hazırlıq sinifləri rus dilini bilməyənlər üçün idi. Xüsusi fənlərdən ən çox diqqət kommersiya haqqı hesabına, mühasibata, əmtəəşünaslığa, siyasi iqtisada verilirdi. Xarici dillərdən fərqli olaraq, azərbaycanlıların ana dili musiqi fənni kimi mütləq fənn hesab olunmurdu.

BKM proqramında ölkənin xüsusiyyətləri, Qafqazın coğrafiyası, tarixi və mədəniyyəti nəzərə alınmırdı. BKM-in qəyyumluq şurasına daxil olmuş Ə.M.Topçubaşov təhsil alan kontingentin milli və dini xüsusiyyətlərini nəzərə almağın zəruriliyi məsələsini irəli sürürdü. Rusiyanın Şərqlə ticarət əlaqələrinin genişlənəcəyini nəzərə alan Ə.M.Topçubaşov BKM-də təhsil alanlara Şərq dillərini, həmçinin Qafqaz ölkələri ilə qonşu ölkələrin iqtisadi coğrafiyasını öyrənməyi lazım bilirdi. Doğma dilin tədrisinə etinasızlıq nəticəsində onun qeyri-icbari fənn olması Ə.Ağayevin də etirazına səbəb olurdu[53].

BKM Rusiya ali məktəblərini bitirmiş ixtisaslı müəllimlərlə komplektləşdirilmişdi. Ştatdankənar işə götürülmüş Ə.Ağayev (1901-1909-cu illər) və N.Nərimanov (1906-cı ildə) burada Azərbaycan dili və şəriət dərslərini aparırdılar[54].

1915-ci ilədək BKM-i 191 mütəxəssis bitirmişdi. İlk məzunlardan (1909-cu il) Əbdülqasım Cəfərov və İskəndər Hacıyev təhsilini davam etdirmək hüququndan istifadə edərək, sonralar Rusiyada ali iqtisadi təhsil ala bilmişdilər[55].

Təhsilli mütəxəssis hazırlamaq üçün 1912-ci ildə Bakıda xüsusi kommersiya qadın məktəbi açıldı. 1902-ci ildə Azərbaycanda ilk peşəkar tədris müəssisəsi olan Bakı dənizçilik sinfi uzaq səfərlər mütəxəssisi hazırlayan orta dənizçilik məktəbinə çevrildi. 1911-ci ildə burada 151 nəfər, o cümlədən 14 azərbaycanlı, 1914-cü ildə isə 182 nəfər təhsil alırdı[56]. Məktəbin lazımi maddi bazası, hətta tədris gəmisi, xüsusi sifariş vermək imkanı var idi. Hər il onlarca dənizçi təcrübə keçərək şturman və şkiper adını alırdı. Bakı dənizçilik məktəbini bitirənlər Xəzər dənizi hüdudlarından uzaqlarda da ticarət gəmilərinə komandirlik edirdilər. Bakı dənizçilik məktəbi Xəzər hövzəsinin böyük məktəblərindən biri olduğu üçün buraya Rusiyanın cənub şəhərlərindən də təhsil almağa gəlirdilər. 1904-cü ildə Bakı dənizçilik məktəbi nəzdində açılmış gəmi mexanikləri kursları xüsusi məktəb hüququ əldə etdi[57]. Hər iki tədris müəssisəsini bitirənlər gəmi sükançısı və ya mexanik diplomu alaraq, Xəzər ticarət donanmasında işləyirdilər.

Əsrin başlanğıcında Bakı aşağı texniki məktəbinin orta məktəbə çevrilməsi üçün

icazə alındı. Sənaye müəssisələrində texniklərin yetərsizliyi müşahidə olunurdu. 1903-cü ildə Bakının mədən və zavodlarına başçılıq edən 130 müdirdən yalnız 30 nəfəri ali təhsilli, qalanlarının çoxu isə təcrübəli şəxslər idi[58]. Müxtəlif mürəkkəb sənaye avadanlığına texniki nəzarətin olmaması faciəli nəticələrə və itkilərə səbəb olurdu. Mühəndislərə əmək haqqı verə bilməyən kiçik müəssisə sahibləri daha çox texniklərə ehtiyac hiss edirdilər.

Bakı şəhər duması 1902-ci ildə orta texniki məktəb (BOTM) açılması məsələsini qaldırdı, onun mexanika və kimya istehsalı üzrə istiqamətini müəyyənləşdirməyi və gələcəkdə məktəbi bitirənlərin texniki ali məktəbə daxil olmaq hüquqlarını təmin etməyi özüzərinə götürdü[59].

BOTM-in tədris planı və proqramı hazırlandı. 1903-cü ilin tədris planı Rusiya Texniki Cəmiyyətinin Bakı bölməsinin (RTCBB) texniki təhsil daimi komissiyasında müzakirə olundu. Müzakirədə məşhur Bakı mühəndisləri lazımi fənləri, xüsusən neft texnologiyası və kimyasını vacib dərslər sırasına daxil etməyi təklif etdilər. Proqramlar öz zənginliyi və çoxcəhətliliyi ilə fərqlənirdi[60]. 1905-ci ildə BOTM mexaniki və texniki şöbələri yaradıldı. Ümumtəhsil kursu iki il hazırlıq siniflərində keçirilirdi. Sonrakı dörd sinifdə əsasən nəzəri fənlər öyrədilir və təcrübə məşğələləri keçirilirdi. Məktəb nəzdində aşağı sənətkarlıq məktəbi və təcrübə kursları qalırdı.

Mülki tikililərə tələbat artdığı üçün 1909-cu ildə daşyonma və kərpicbişirmə emalatxanası açıldı[61]. 1910-cu ildə mexaniki şöbə RTCBB-nin təklifi ilə neft-sənaye və elektrotexnika şöbələrinə bölündü. Azərbaycanda su çatışmazlığı şəraitində lazımi hidrotexniki bölmənin 1913-cü ildə açılması vəsaitin olmaması üzündən təxirə salındı[62]. Bakı orta texniki məktəbində çilingər, xarrat, mexaniki hissələr, dəmirçi-metaltökən və s. emalatxanalar fəaliyyət göstərirdi. 1910-cu ildə Rusiyada ilk dəfə Bakı orta texniki məktəbində döymə və minakarlıq emalatxanası yaradıldı. Bu emalatxana Azərbaycan xalqının tətbiqi xalq sənətinin zəngin ənənələrinə əsaslanırdı. 1913-cü ildə orada 15 tələbə təhsil alırdı[63].

Bakı orta texniki məktəbində müxtəlif kurslar təşkil olunurdu. 1905-1906-cı təhsil ilində savad kursu açılmış, 1912/13-cü tədris ilində isə mərzçi, texniklər, rəssamlıq, müəllimlər üçün kürsülər hazırlamaq kursları fəaliyyət göstərirdi[64].

1915-ci il ərəfəsində Bakı orta texniki məktəbinin 494 tələbəsi var idi və onlardan cəmi 20 nəfəri azərbaycanlı idi. İlk altı buraxılışın (1913-cü il) 164 məzununun 106-sı mexanika bölməsini bitirmişdi. İllik təhsil haqqı 50-60 rubl idi. Aşağı sənətkarlıq məktəbində 1914-cü ildə təhsil alan 120 nəfər, o cümlədən 3 azərbaycanlı tələbə müxtəlif peşə sənətkarlığına yiyələnir və ildə 12-16 rubl ödəyirdilər[65]. Bakı orta texniki məktəbi lazımi avadanlıq və tədris vəsaiti ilə yaxşı təchiz olunmuşdu. 1913-cü ildə emalatxanalarda 6 maşın, 202 dəzgah (ümumi qiyməti 91,735 man.), əsaslı kitabxanada 945 adda (14 244 cild), tələbə bölməsində isə 756 adda (1081 nüsxə) kitab var idi[66]. Fizika kabineti də lazımi cihazlarla təmin olunmuşdu. Müəllimlər yüksək peşəkarlığı olan mütəxəssis-mühəndislər və texniki ustalar idi.

Bakı orta texniki məktəbinin büdcəsi 1914-cü ildə 120,6 min manat idi. Əsas vəsaitlər dövlət xəzinəsi (25 faiz), şəhər özünüidarəsi (20 faiz) və tədris üçün rüsum (17 faiz) hesabına daxil olurdu[67]. Maliyyə vəsaitinin azlığı Bakı orta texniki

məktəbinin inkişafını ləngidirdi. Xeyriyyəçilərin köməyi büdcənin qorunub saxlanılmasına yardım edirdi. Məktəbə və onun şagirdlərinə Bakı orta texniki məktəbinin fəxri qəyyumu H.Z.Tağıyev daima kömək edirdi. Onun uzaqgörənliyi, xalq təhsili işini həmişə dəstəkləyib ona maddi yardım etməyə hazır olmasının böyük əhəmiyyəti vardı. O, digər sahibkar M.Muxtarovla birlikdə xarrat emalatxanası açmışdı, ehtiyac yarandıqda müəllimlərin əmək haqqını da ödəyirdi. O, 1901-ci il-də binanın tikilməsinə 6600 manat vermiş, 1909-1910-cu illərdə isə binanın ikinci mərtəbəsinin tikintisinə, kimya laboratoriyasının təşkilinə 50 min manat ayırmışdı[68]. H.Z.Tağıyev şəhər Dumasının deputatlarını məktəbə maliyyə ayırmağın, onun inkişafına əhəmiyyət verməyin, məktəb üçün nəzərdə tutulmuş torpaq sahələrini genişləndirməyin vacibliyinə inandıra bilmişdi.

Bakı orta texniki məktəbinin abadlığına daim qayğı göstərdiyinə görə şəhər Duması H.Z.Tağıyevin şəklini sifariş verib, onun fəxri hamisi olduğu məktəbin akt zalında qoyulmasını qərara almışdı.

Görkəmli rus rəssamı İ.Brodskinin 1913-cü ildə çəkdiyi həmin portret hazırda H.Z.Tağıyevin vaxtilə şəxsi mülkü olmuş indiki Azərbaycan Tarixi Muzeyində saxlanılır.

Məktəbin buraxdığı texniklərin sayı çox deyildi. Lakin onlar Azərbaycanın sənaye müəssisələrinin, ilk növbədə Bakı neft sənayesi rayonunda texniki yüksəlişi, eyni zamanda sənaye istehsalı üçün zəruri olan texniki kadrlar, ixtisaslı fəhlələr hazırlanması işini həyata keçirirdilər.

Bakı orta texniki məktəbi öz ixtisas yönümünə görə Qafqazda yeganə idi və bu regionun digər şəhərləri üçün də lazımi səviyyədə hazırlığı olan texnik mütəxəssislər hazırlayırdı.

XX əsrin əvvəllərində Zaqatala və Gəncə sənət məktəblərində mütəxəssislər hazırlanması davam edirdi. Onların hər ikisinin ipəkçiliyi və bağçılığı öyrənmək üçün kənd təsərrüfatına yararlı torpaq sahələri var idi. Çöl işlərindən azad olan vaxtlarda şagirdlər emalatxanalarda xarratlığı, araba, təkər düzəltməyi, dəmirçiliyi öyrənir. səbət toxuyur və bu qəbildən olan digər işlərlə də məşğul olurdular.

1914-cü ildə Zaqatala sənət məktəbinin üç emalatxanasında 3021 alət, Gəncənin dörd sənət emalatxanasında 5392 alət, o cümlədən bir buxar maşını və 34 dəzgah hazırlanmış, onların kitabxanalarında, müvafiq olaraq, 2215 (3771 cild) və 2075 adda (26027 cild) kitab var idi[69].

Gəncə sənət məktəbi şəhər özünüidarəsi hesabına maliyyələşir. xəzinədən ona cüzi vəsait xərclənirdi. Zaqatala sənət məktəbi isə xəzinə hesabına saxlanılırdı. 1915-ci il ərəfəsində Gəncə sənət məktəbində 112 (64-ü azərbaycanlı), Zaqatala sənət məktəbində isə 33 nəfər (16-sı azərbaycanlı) şagird təhsil alırdı[70]. Gəncə sənət məktəbində təhsil haqqı 12, pansionatda tərbiyə almaq xərci 140, Zaqatalada isə, müvafiq olaraq, 8 və 120 rubl idi. Gəncə sənət məktəbinin sosial tərkibində kəndlilər çoxluq təşkil edirdi Belə ki, Gəncədə 112 nəfərdən 102-si, Zaqatalada isə 33 nəfərdən 25-i kəndli idi. Təhsil haqqı və pansionat xərcinin nisbətən aşağı olması bu təhsil ocaqlarının sabit fəaliyyətini təmin edirdi. 1914-cü

ildə Gəncə sənət məktəbi pansionunda 98, Zaqatala məktəbində isə 32 nəfər şagird təhsil alırdı. Onlardan, müvafiq olaraq, 48 və 25 nəfər haqq ödəmirdi[71].

1915-ci ilə qədər sənət məktəbini Gəncədə 231, Zaqatalada 108, Bakıda isə 120 nəfər, yəni cəmisi 459 nəfər bitirmiş, müxtəlif peşə sənətkarlığına yiyələnmişdilər.

Gəncə və Zaqatala sənət məktəblərini bitirənlərin xeyli hissəsi dövlət idarə və müəssisələrində yaxşı maaşla iş tapır, kənd təsərrüfatı ilə əlaqəni kəsirdilər. Ona görə sənət məktəbləri kənd təsərrüfatı istehsalına lazımi təsir göstərə bilmirdi.

Əsrin 90-cı illərində sənayenin inkişafı, müəssisələrin ardıcıl və təhlükəsiz işləməsi üçün ixtisaslı fəhlələrə ehtiyacı nəzərə alaraq, RTCBB qazıma ustaları və ocaqçılar hazırlayan kurslar açılmasına təşəbbüs etdi. 1901-ci ildə isə bu qurum texniki təhsil komissiyası yaratdı[72]. 1903-cü ildə Bakıda texniki ziyalıların təşəbbüsü və səyi nəticəsində fəhlələr üçün texniki kurslar açıldı[73]. Fəhlələr əvvəlcə şəkil çəkmək və rəsmxət, sonra isə bununla əlaqədar hesab və həndəsə öyrənirdilər. Rəsmxət modelçilərə, dülgərlərə, çilingərlərə, xarratlara və başqa ustalara daha çox lazım idi. Belə ki, onlar öz iş fəaliyyətləri sahəsində cizgi çəkməyi və onlardan baş çıxarmağı öyrənirdilər. Bunun ardınca buxar qazanlarına qulluq edən qrup yaradıldı. Daha sonra təcrübəçi mütəxəssislər üçün 1907-ci ildə daxili yanma mühərriklərini, neft və qaz motorlarını öyrədən kurs açıldı.

RTCBB-nin yeni binasında aparılan nəzəri məşğələlər zavodlarda, elektrik stansiyalarında və təhsil ekskursiyalarında təcrübə keçməklə möhkəmləndirilirdi. Kurslarda hər elm sahəsi üzrə 1 -2 rubl haqq alınırdı və onun da yüksək olmaması çox dinləyici cəlb olunmasını əsaslandırırdı. 1915-ci ilin əvvəlində həmin kursların 242 dinləyicisi var idi. Kursların sayı yetərincə olmasa da, onlar fəhlələrin ciddi ixtisaslaşmasına və peşəkarlığının yüksəlməsinə qüvvətli təsir göstərirdi.

Azərbaycanda, xüsusən Bakıda texniki kurslardan başqa müxtəlif ixtisas, o cümlədən mamalıq, Gəncədə feldşer, biçmə və tikmə, rəsmxət, rəssamlıq və s. məktəb kursları var idi. Azərbaycanın mədəni həyatında Rusiya Musiqi Cəmiyyəti Bakı bölməsinin musiqi siniflərinin açılması əhəmiyyətli hadisə idi[74]. 1914-1915-ci tədris ilində orada 428 nəfər təhsil alırdı. Onlardan 328 nəfəri fortepiano, digərləri simli, nəfəsli alətlərdə çalmağı və vokal öyrənirdi. Təhsil haqqının yüksək - ildə 80-100 rubl olması və musiqi alətlərinin bahalığı musiqi siniflərində yalnız varlı uşaqlarının təhsil almasına imkan verirdi. Musiqidə təhsil alanlardan 11 nəfəri azərbaycanlı neft senayeçilərinin və gəmi sahiblərinin uşaqları idi[75]. Bakıda daha dörd xüsusi məktəb, o cümlədən tanınmış dirijor Şefferlinqə məxsus musiqi məktəbləri var idi.

Azərbaycanda klassik Şərq üslubunda oxumaq və milli musiqi alətlərində çalmaq sənətini öyrənmək geniş yayılmışdı, lakin tədris fərdi xarakter daşıyırdı. Şuşa öz musiqiçiləri və xalq musiqisinin köklü qədim ənənələri ilə məşhur idi. Üzeyir və Ceyhun Hacıbəyov qardaşları, Qurban Primov, Cabbar Qaryağdıoğlu və başqaları öz ilk musiqi təhsillərini burada almışdılar.

Sosial-iqtisadi inkişaf yüksək ixtisaslı texniki kadrlara ildən-ilə artan tələbata səbəb olurdu. XIX əsrin sonunda Tiflisdə, Vladiqafqazda, sonra isə Bakıda "Qafqazda ali təhsil müəssisələrinin yaradılması" uğrunda hərəkat başlandı.

Tiflis şəhər Duması xahişnaməsinə cavab gözləmədən universitet binası üçün torpaq sahəsi ayırmaq barəsində qarar çıxardı. Qafqaz inzibatçıları müxtəlif bəhanələrlə ali məktəbin açılması barədə müraciətə rədd cavabı verdi. Bunun əsas səbəblərindən biri hökumətin tələbələr arasında azadlıq ideyalarının yayılacağından qorxub ehtiyat etməsi idi.

1898-ci ildə Bakıda politexnikum açmaq təşəbbüsü ilə Bakı şəhər Dumasında dağ-mədən mühəndisi Fərrux Vəzirov çıxış etdi. Onun bu çağırışı gələcək ali məktəb üçün yaradılan fonda neft sənayeçiləri, o cümlədən H.Z.Tağıyev və "Nobel qardaşları" şirkəti də qoşuldular. Onların hər biri bu işə 100000 rubl ödəməyi öhdələrinə götürdülər. F.Vəzirov Bakının böyük gələcəyi olduğunu nəzərə alaraq, politexnikumu məhz Bakıda açmağın zəruriliyini təkidlə sübut edirdi. Lakin Qafqazdakı hakimiyyət orqanları ali təhsil ocağını diyarın inzibati mərkəzi Tiflisdə, burada nəzarət etmək daha asan olduğundan, açmağa üstünlük verirdilər.

Politexnikuma bina tikilməsi üçün vəsait toplanmasında bir çox Qafqaz şəhərləri, o cümlədən Bakı, Gəncə, Nuxa, Şamaxı və Lənkəran da iştirak edirdilər[76]. Ali məktəbin yönümünü müzakirəyə çıxararkən onun yaradılmasına vəsait qoymuş Bakı neft sənayeçiləri kimya şöbəsi əvəzinə mədən şöbəsi açmağı tələb edirdilər. Çünki Bakıda istehsalat təcrübəsi keçməyə və gələcəkdə iş yeri seçməyə mükəmməl şərait var idi[77].

Birinci dünya müharibəsinin başlanması hökumətin bu ali məktəbi tikmək qərarının icrasını təxirə saldı, yalnız 1917-ci ilin martında Rusiyanın Nazirlər Soveti Tiflisdə politexnikumu açmaq barədə qanunnaməyə baxmağa icazə verdi. Politexnukumun tərkibində kənd təsərrüfatı, kimya, və iqtisad fakültələri nəzərdə tutulmuşdu.

Bakıda Politexnik İnstitutu isə çox sonralar təşkil olundu.

XX əsrin əvvəllərində ölkənin həyatında baş verən yeni dəyişikliklər nəticəsində təhsilə meyil genişlənib kütləvi xarakter alırdı. Təcrübəli fəhlə qüvvəsinə tələbatın artması məktəbdənkənar təhsil müəssisələrinin açılmasına şərait yaratdı. Onlar əsasən rus dilini öyrənmək üçün açılır, doğma dil isə yalnız azərbaycanlıların təhsil aldığı kurslarda öyrədilirdi. Azərbaycan və rus dilləri dərslərinin dinləyiciləri ədəbiyyat, tarix, coğrafiya və təbiətə aid məlumatlar da alırdılar. Onlardan bəziləri hesabı, şəkil çəkməyi, cizgiçiliyi öyrənməklə yanaşı, mühasibat işlərinə dair zəruri biliklərə də yiyələnirdilər[78].

Bakı bazar günü məktəblərinin əsas heyəti milliyyəti, yaşı, sənəti peşəkarlıq səviyyəsi müxtəlif olan şəxslərdən ibarət idi. Dinləyicilərin çoxu rus dilini öyrənmək, ümumi savad sahibi olmaq istəyirdilər. 1916-cı ildə bu məktəblərə qadınları da qəbul etməyə başladılar. 1911-1912-ci tədris ilində buradakı dinləyicilərin sayı 738-ə çatdı ki, onların da cəmi 143-ü azərbaycanlı idi. Təhsil alanların dörddə biri yeniyetmə idi. Bakı bazar günü məktəbinin müəllimlər şurası müsəlman dinləyicilərinin artmasından məmnun idi, çünki bu, çar Rusiyasının strateji marağı ilə üst-üstə düşürdü. Onlar hazırlıq səviyyəsi və mülkiyyəti eyni olanları qruplaşdırırdı. Həmin qrupları Azərbaycan dilini bilən müəllim kadrları ilə təmin etməyə, kitabxana yaradaraq, lazımi tədris kitabları ilə təchiz etməyə çalışırdılar. Pedaqoji heyət şəhər məktəbləri müəllimləri və orta məktəblərin yuxarı sinif şagirdlərindən

təşkil olunmuşdu. Onların sırasında S.Adıgözəlov, M.Əliyev, A.Axundov, M.Vəkilov və başqaları da var idi.

Teatr və sərgilərə ekskursiyalar, rəngarəng proqramlı ədəbi gecələrin təşkili Bakı bazar günü məktəbi dinləyicilərinin mədəni səviyyəsinin yüksəlməsinə şərait yaradırdı. 1913-cü il ərəfəsində məktəbin açılışından keçən 20 ildə onun 11845 dinləyicisi olmuşdu[79].

Bakıda digər iki bazar günü məktəbi də fəaliyyət göstərirdi. Onlardan biri 1897-ci ildən şəhər ikisinifli qadın məktəbi nəzdində, o biri isə 1904-cü ildən Bayıl BNSQŞ-nin məktəbində idi[80].

1901-ci ildə yəhudi "Talmud-tövra" məktəbi nəzdində Bakı bazar günü məktəbinə oxşar şənbə kursları açıldı[81].

Azərbaycanlı əhali üçün kursların açılması zəruriyyəti barəsində Həsən bəy Zərdabi hələ 1904 və 1908-ci illərdə çıxış etmişdi. Azərbaycan əhalisinin məktəbdənkənar təhsili məsələsi ilə Bakıda "Nicat" Maarif Cəmiyyəti ciddi məşğul olurdu.

1907-ci ildə IV Rus-tatar məktəbi nəzdində cümə günü məktəbi açıldı. Onun 278 dinləyicisindən 245-i azərbaycanlı idi[82].

Cümə günü məktəbləri dinləyicisi olmaq istəyənlərin hamısını əhatə edə bilmədiyinə görə, 1909-cu ildə II şəhər məktəbində "Nicat"ın gecə kursları daimi fəaliyyət göstərməyə başladı.

1910-cu ildə kurslarda 240 nəfər məşğul olurdu ki, onların çoxunun yazı-pozu savadı yox idi[83]. Cümə günü məktəblərində və axşam kurslarında həm rus, həm də Azərbaycan (türk) dili keçilir, məşğələlər də Azərbaycan (türk) dilində aparılır və ən yaxşı tədris vəsaitlərindən istifadə olunurdu. Burada ustalarla, prikazçiklərlə, tacirlərlə yanaşı, din xadimləri də məşğul olurdular. Onlar məktəbləri yenidən qurmaq məqsədilə rus dilini öyrənmək istəyirdilər.

Bu təhsil ocaqlarının yaradılmasında rus-tatar məktəblərinin müəllimləri S.Acalov, M.Hacıbabayev, Ə.Hüseynov, V.İsmayılov, A.İsrafılbəyli, H. Qorçibaşov, H.Mirzəzadə, H.Minasazov, Ə.Mustafayev, A.Sübhanverdixanov, R.Tahirli, H.Şıxlinski və başqaları olduqca fəal iştirak edirdilər.

1907-ci ildə "Nəşri-maarif" cəmiyyətinin nəzarət etdiyi Zabrat, Əmircan, Sabunçu və başqa kəndlərdə gecə kursları şəbəkəsi genişlənməyə başladı.

"Səfa" cəmiyyəti də axşam kursları və bazar günü məktəbləri açmışdı. Məktəbdənkənar müəssisələr BNSQŞ-nin ibtidai məktəblərinin nəzdində açılırdı. 1905-ci ilə kimi Bakı neft-mədən rayonlarında 12 gecə kursu və iki bazar günü məktəbi var idi. Təkcə Sabunçu məktəbində 1904-cü ildə 240,"Təməddün" məktəbi nəzdində isə 1909-cu ildə 350 dinləyici var idi[84].

Məktəbdənkənar qurumlar Gəncə, Şamaxı, Nuxa, Şuşa, Qazax və Azərbaycanın digər şəhərlərində, həmçinin kənd yerlərində də bir qayda olaraq məktəblərin nəzdində idi. Onların dinləyiciləri arasında qadınlar yox idi.

Məktəbdənkənar təhsil müəssisələrində əsasən haqq ödənilmədiyinə görə, onlar maliyyə çətinliyi çəkirdilər, lakin müəllimlərin böyük həvəsi və dinləyicilərin təhsilə ciddi münasibəti sayəsində uğurla fəaliyyət göstərirdilər.

Gecə kurslarının və bazar günü məktəblərinin əhəmiyyəti onda idi ki, onlar zəhmətkeş əhalini, ilk növbədə, fəhlələrin müəyyən hissəsini savadlandırıb, təhsilə cəlb etməklə, onların bilik səviyyəsini yüksəldir, daha yaxşı ödənişli iş tapmaq şansını artırırdı.

Xalq təhsili genişlənib, əhali arasında savadlı adamlar çoxaldıqca, kitabxana və oxu zallarına tələbat da artırdı.

Azərbaycanda XIX əsrin axırlarında fəaliyyətə başlamış Nərimanov kitabxanasına oxşar rus-Azərbaycan kitabxanaları - oxu zalları meydana çıxmağa başladı. Onları ictimai təşkilatlar, xüsusi şəxslər, adətən xalq təhsili fəalları açırdılar.

Ölkədə azadlıq hərəkatının yüksəlişi ilə əlaqədar kitabxanalar şəbəkəsi genişləndi. Lakin kitabxana açmağa icazə bu iş üçün məsul olanlara inam, həmçinin kitab fondunun tərkibi və onun saxlanılması üçün nazirliyin müəyyənləşdirdiyi sərt qaydalarla tənzimlənirdi.

1902-ci ildə Ə.Topçubaşov "Kaspi" qəzeti redaksiyasının nəzdində rus-Azərbaycan kitabxanasını açdı[85]. Kitabxana və qiraətxanalar əksər hallarda müəllimlərin təşəbbüsü və iştirakı ilə yaranırdı. Onlardan 1905-ci ildə Salyanda Ə.Səfərbəyovun, 1906-cı ildə Şamaxıda A. və H.Minasazov qardaşlarının, 1906-cı ildə Ağdamda Qayıbovun, 1907-ci ildə Şamaxıda Abbas Səhhətin, Cəbrayılda B.Cavanşirovun, Ağdaşda M.Əfəndizadənin, Naxçıvanda M.T.Sidqinin kitabxanalarını göstərmək olar. Rus-Azərbaycan kitabxanaları əslində bütün qəza şəhərlərində, hətta bəzi kəndlərdə, o cümlədən Nuxa qəzasında Bum və Qutqaşın, Bakı qəzasının Keşlə, Maştağa və Əhmədli kəndlərində də var idi[86]. Kitabxanaların sayı Bakı şəhərində nisbətən daha çox idi. 1906-cı ilin əvvəllərində H. Zərdabinin köməyi ilə "Üxüvvət" tələbə ittifaqı tərəfindən ucuz Azərbaycan qiraətxanası təşkil olunmuşdu[87].

Bakıda ictimai kitabxanalardan ən böyüyü ictimai yığıncağın, Şəhər Dumasının, "Nicat" cəmiyyətinin maarif kitabxanaları və b. idi. "Nicat" kitabxanasının təşkilində M.E.Səlimbəyov, E.E.Əmircanov, L.Behbudov fəal iştirak etmişdilər[88]. "Nicat" kitabxanasının fondu azərbaycanlı oxucuların mənafe və marağı nəzərə alınaraq təşkil edildiyi üçün kitabxananın fəaliyyəti oxucularda milli şüurun yüksəlişinə kömək edirdi.

Kitabxana-qiraətxanaların çoxunun əsaslı maddi bazası olmadığından çox uzun müddət fəaliyyətdən qalırdılar, lakin bəziləri təhsilli şəxslərin dəstəyi hesabına yenidən həyata qaytarılırdı. Məsələn, Qubada, Şuşada, Şamaxıda, Nuxada, Salyanda və b. yerlərdə olduğu kimi.

Kitabxanalar Azərbaycanda yaşayan müxtəlif etnik qrupların xeyriyyəçi cəmiyyətləri tərəfindən də açılırdı. H.Z.Tağıyevin Əhmədli kəndindəki pambıq emalı fabrikində, neft mədənlərində, xəstəxanalarda, xalq evlərində bu cür cəmiyyətlər

fəaliyyət göstərirdi.

RTCBB-nin zəngin elmi-texniki kitabxanası var idi, RTCBB-nin təşəbbüsü ilə, onun keçmiş sədri A.S.Doroşenkonun adına xalq kitabxanaları açıldı. Onların təşkilində Fərrux bəy Vəzirov, İ.Qoslavski, L.Krasin, D.Landau və başqaları fəal iştirak etmişdilər[89].

1903-cü ildə Qaraşəhər, Ağşəhər və Bibiheybət xalq kitabxanalarının 1115 üzvü var idi. Üzvlər öz kitabxanalarına 20 minə qədər kitab almışdılar, kitabxana fondu 5230 nüsxə kitabdan (rus dilində) ibarət idi. Azərbaycanlı oxucuların sayı 2,6 faizdən çox deyildi[90]. Kitabxananı təşkil edənlərin Maarif idarəsindən Azərbaycan dilində kitab almaq təşəbbüsləri müvəffəqiyyət qazanmırdı.

Kitabların əksəriyyəti orta təhsil məktəblərində cəmlənmişdi. 1914-cü ildə Bakı və Yelizavetpol qubemiyalarının üç realnı məktəbində, beş kişi gimnaziyasında və yeddi qadın orta məktəbindəki əsaslı kitabxanalarda, 24337 adda 61389 nüsxə kitab var idi. Tələbə kitabxanalarında isə bu rəqəmlər, müvafiq olaraq, 34049 və 52063 idi[91].

XX əsrin əvvəllərindən kitabxana işi genişləndikcə, kitabxanalarda rusdilli kitablarla yanaşı, ana dilində olan ədəbiyyatın azərbaycanlı oxucular hesabına artması müşahidə olunurdu. Lakin kitabxanaların sayı və kitab fondunun tərkibi oxucuların böyük əksəriyyətinin tələbatını lazımınca ödəyə bilmirdi.

Azərbaycanda yeni növ müxtəlif mədəni-maarif müəssisələri, məsələn, xalq evləri, "Bilik-qüvvə" cəmiyyəti və başqaları meydana çıxırdı. Onlar maarifçilik tədbirləri ilə yanaşı, işdən azad vaxtlar kütləvi əyləncələr də təşkil edirdi.

Muzeylərin təşkil olunması işinə də başlanmışdı. 1904-cü ildə Bakı quberniya və Dağıstan vilayət xalq məktəbləri idarəsinin pedaqoji muzeyləri fəaliyyət göstərirdi. Onlarda müxtəlif əyani vəsaitlər, materiallar, flora və fauna üzrə kolleksiyalar toplanmışdı[92].

RTCBB nəzdində sənaye və texnika muzeyləri açılırdı. Lakin bu işin digər tərəfi də o idi ki, Bakı, Gəncə, Naxçıvan və Azərbaycanın digər şəhərlərində ayrı-ayrı şəxslərə məxsus xalça-palaz, müxtəlif silah, milli tətbiqi sənət məmulatı cəmləşsə də, onlardan muzey təşkil edilmirdi.

Azərbaycanda ümumməktəb və texniki-sənət təhsili yayıldığından onların yüzlərlə məzunu ali məktəblərə daxil olmaq istəyir və buna görə Rusiyanın müxtəlif şəhərlərinə yollanırdılar. Onların bir qismi əvvəllər Moskva və Peterburq universitetlərində təhsil alırdı, XX əsrin başlanğıcında isə Kiyev, Xarkov, Kazan, Odessa, Riqa və başqa şəhərlərin ali məktəblərində də onların sayı artmağa başladı.

Universitetlərin hüquq və tibb fakültələri azərbaycanlı gəncləri daha çox maraqlandırırdı. Çünki başqa fakültələri bitirdikdən sonra, alınmış bilikləri tətbiq etmək və iş tapmaq şəraiti məhdud idi.

Azərbaycanlı gəncləri texniki təhsil bir qədər gec, XIX əsrin sonlarında sənaye və nəqliyyat idarələrində mühəndis-texniki işçilərə tələbat artdığı zaman cəlb etməyə başladı. Onlar Peterburqda texniki ixtisaslar üzrə təhsil almağa daha çox meyil göstərirdilər. Ölkənin ən iri texniki ali məktəbləri, həmçinin texnologiya, dağ-mədən,

politexnik, meşə, yol mühəndisi və s. mülki mühəndis institutları əsasən burada cəmləşmişdi. Azərbaycanlı abituriyentlər texnologiya institutlarına üstünlük verirdilər. Ona görə ki, onlar mexanik, yaxud kimyaçı-texnoloq ixtisasına sahib olduqda vətəndə, ilk növbədə, neft sənayesində öz ixtisası üzrə iş tapır və yiyələndikləri bilik və bacarığı tətbiq etmək imkanı qazanırdılar.

Kiyev, Riqa politexnik institutlarında, Moskva Texniki Məktəbində, Petrovski-Razumovski Əkinçilik Akademiyasında, Moskva Kommersiya İnstitutunda, Peterburq Hərbi-Tibb Akademiyasında və başqa ali məktəblərdə onlarla azərbaycanlı gənc təhsil alırdı.

Abituriyentlərin bəziləri, maddi kömək ala biləcəklərinə ümid bəsləyərək, ali təhsil ardınca Qərbi Avropaya - Belçikaya, Fransaya, ən çoxu Almaniyaya gedirdilər. Onlardan Əbdülxalıq Axundov, Ağa Axundov, Ağa Aşurov, Bəhram Axundov, Bala Bakıxanov, Cavad və Şamil Vəzirovlar, Əli Verdiyev, Ceyhun Hacıbəyov, Sadıq Hüseynov, Həbib Kərimov, Ağalar Mahmudbəyov, Midhəd Məlikov, Balabəy Mustafayev, Əliheydər Orucov və başqalarını göstərmək olar. Gənclərin bir çoxu isə İranda və Türkiyədə humanitar təhsil almışdılar. Onların arasında H.Cavid, Ö.Nemanzadə, A.Səhhət, A.Sur, Q.Əfəndiyev (Qantəmir) və başqaları da var idi.

Azərbaycanlı qadınlar da ali təhsil almaq üçün səy göstərməyə başladılar. Onlardan birincisi Sona xanım Vəlixanova oldu. O,1908-ci ildə Peterburq Qadın Tibb İnstitutunu bitirdi. Xeyransa Axundova da tibbi təhsilini Moskvada, ali qadın kurslarında aldı. Qəmər İskəndərova Moskva Universitetinin nəzdində stomatoloq ixtisası üzrə imtahan verdi. Zara Ağayeva (Şahtaxtinskaya) Tiflisdə ali qadın kurslarında təbiətşünaslıq fakültəsini bitirdi[93].

Yoxsul uşaqlardan Rusiyada təhsil alan tələbələr Qafqaz şəhər özünüidarəsinin, müxtəlif cəmiyyətlər və xüsusi şəxslərin verdiyi təqaüddən istifadə edə bilirdilər. Azərbaycanlı tələbələr müsəlman olduqları üçün institut təqaüdünə (ildə 300 manat və pulsuz təhsilə) ümid edə bilməzdilər. İmtiyazlı Qafqaz təqaüdünə də ümid az idi, onu (ayda 20 manat və pulsuz təhsil) yalnız məmur uşaqlarına verirdilər.

1908-1916-cı illərdə yalnız 12 azərbaycanlı tələbə Qafqaz təqaüdündən istifadə etmişdi. Bakı şəhər idarəsi cəmi 34 təqaüd (350 manat) ödəyirdi. XX əsrin əvvəllərində müxtəlif illərdə şəhər təqaüdündən Ə.Axundov, İ.Əliyev, M.Vəkilov, M.Hacınski, Ə. Q.Cəfərov, R.Məlikov, P.Poladxanov, Ə.Bəylərbəyov, N.Nərimanov və başqaları istifadə etmişdilər[94].

Təqaüd məbləğinin çox az olması, həmçinin verilən təqaüdlərin sayca məhdudluğu bəzi tələbələri işləməyə məcbur edirdi. 1913-cü ildə Bakı qəzetlərinin birində ("İqbal") yazılırdı ki, azərbaycanlı tələbələrin 30 faizi ehtiyac içindədir[95]. Təminatı və təhsil haqqını ödəmək imkanı olmayan tələbələr institutdan çıxarılmaq təhlükəsi ilə üzləşirdilər. Tələbələrə "Nicat", "Səfa" cəmiyyətləri, Peterburq müsəlman xeyriyyə cəmiyyəti və başqa təşkilatlar kömək edir, keçirdikləri xeyriyyəçilik tədbirlərindən əldə olunan vəsaitləri ehtiyac içində olan tələbələrə paylayırdılar.

Təminatsız tələbələrə maddi yardım və təqaüdü Bakı sahibkarları Ş.Əsədullayev,

Bala bəy və Bəşir bəy Aşurbəyovlar, U.Dadaşov, M.Muxtarov, M.Nağıyev, H.Z.Tağıyev və başqaları ödəyirdilər. H.Z.Tağıyev sonralar xalqın tarixində müəyyən iz qoymuş bir çox tələbənin (Ağa Axundovun, R.Axundovun, M.Vəkilovun, H.Ağayevin, Q.Qarabəyovun, N.Nərimanovun, P.Tambiyevin və b.) ali təhsil almasına şəxsən kömək etmişdi.

Qarşılıqlı yardım zərurəti azərbaycanlı tələbələri birləşdirməyə məcbur edirdi. Onların təhsil aldıqları Rusiya şəhərlərində, o cümlədən Peterburq, Moskva, Kiyev, Kazanda həmyerlilər cəmiyyətləri var idi.

Təhsilini başa vurmuş gənc mütəxəssislər işləmək üçün Vətənə qayıdırdılar. Mühəndislər neft firmalarında, tikintidə, nəqliyyatda, müxtəlif təşkilat və idarələrdə çalışır, tibb mütəxəssisləri ictimai xəstəxanalarda, səhiyyə müəssisələrində işləyir və ya fərdi qaydada məşğul olurdular. Hüquqşünaslar müsəlman olduqları üçün çox vaxt dövlət qulluğuna qəbul edilmədiklərinə görə, adətən şəxsi vəkilliklə məşğul olur, yaxud təhsillərinə uyğun olmayan başqa işlərdə çalışmaq məcburiyyətində qalırdılar.

Azərbaycan ziyalıları sırasına daxil olmuş savadlı cavanlar üçün geniş ictimai fəaliyyət xarakterik cəhət idi. Onlar özünüidarə və maarif ocaqlarında, xeyriyyə məqsədilə keçirilən ədəbi-musiqili gecələrin və tamaşaların təşkilində iştirak edirdilər. İctimai-siyasi işlə məşğul olan diplomlu mütəxəssislərin bəzi nümayəndələri Dövlət Dumasına seçilmiş, Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra isə hökumətin və Milli Şuranın tərkibinə daxil olmuşdular.

1918-ci ilə qədər təhsil almış azərbaycanlı mütəxəssislər Azərbaycandakı başqa millətdən olan ziyalıların bir qismi ilə rəqabət aparmış, digər bir qismi ilə birgə çalışaraq öz vətənlərinin ictimai, iqtisadi və mədəni həyatında mühüm rol oynamışdılar.

Beləliklə, ümumiyyətlə XX əsrin əvvəllərində Azərbaycanda müxtəlif növ məktəblərin, ilk növbədə, ibtidai təhsil şəbəkəsinin dairəsi genişlənmiş, təhsil alanların, o cümlədən azərbaycanlıların sayı xeyli artmışdı.

1915-ci ilin başlanğıcına qədər Bakı və Yelizavetpol quberniyalarında və Zaqatala dairəsində 15262 müsəlman şagird var idi ki, onların çoxunu azərbaycanlılar (o cümlədən 1495 qız) təşkil edirdi. Müsəlman şagirdlər məktəbyaşlı uşaqların 10 faizini, qızlar isə bu növ təhsil alanların ümumi sayının onda bir hissəsini əhatə edirdi[96]. Lakin bununla belə, yerli əhalinin təhsil tələbatının ödənilməsi acınacaqlı səviyyədə qalırdı.

Çar Rusiyasının Azərbaycandakı təhsil sistemi onun müstəmləkəçilik siyasətinin strateji mexanizmi olduğu üçün azərbaycanlıların ana dilində təhsil almalarına imkan verilmirdi. Buna görə də ümumtəhsil məsələsi ölkənin qabaqcıl ictimaiyyətinin təzyiqi ilə müzakirə edilsə də, təhsil idarəsində, dövlət dumasında dəstəklənmədi, onun həll edilməsi üçün hökumət tərəfindən heç bir ciddi iş görülmədi. Xalq təhsili sistemində şagirdlərin Azərbaycan dilində təhsil almasına imkan məhdud idi.

Qafqaz tədris dairəsinin rəsmi məlumatına görə, 1915-ci ildə yuxarıda qeyd olunmuş ərazidə tələbatı əsasən ödəmək üçün 1745 məktəb lazım idi, halbuki onlardan mövcud olanların sayı 380, yəni ehtiyac olandan 4,6 dəfə az idi.

Bununla belə, XX əsrin əvvəllərindən Azərbaycanda ümumi və peşə-texniki təhsil şəbəkəsinin qismən də olsa inkişafı müxtəlif istiqamətli bir çox orta və ali təhsil müəssisələrinin yaradılması, milli təhsil və elmi kadrların yetişdirilməsi üçün zəmin yaratmağa başlamışdı.

## § 2. SƏHİYYƏ

Azərbaycanda əhaliyə tibbi xidmət aşağı səviyyədə qalmaqda idi, dövlət səhiyyə işlərinə hədsiz dərəcədə cüzi vəsait ayırırdı. 1903-cü ildə Qafqazın hər bölgəsində bir-iki qəza və bir neçə kənd həkimi, bir o qədər də orta tibb işçisi fəaliyyət göstərirdi. Mətbuatda qeyd olunurdu ki, Zaqafqaziyanın qəzalarında həkimlərin xidmətindən istifadə edənlər əhalinin 10 faizindən azdır.

XX əsrin əvvəllərində, Yelizavetpol qubernatorunun məlumatına görə, 27517 nəfərə bir həkim, 20815 nəfərə bir feldşer, 66902 nəfərə bir mama-həkim düşürdü. 1903-cü ildə bütün Azərbaycanda 911 nəfər tibb işçisi var idi. Onlardan 266 nəfəri - 29,2 faiz həkim, əsas hissə - 70,8 faiz isə orta təhsilli tibb işçiləri idi. Həkimlərin və orta təhsilli tibb işçilərinin 20 faizi dövlət tibb müəssisələrində, bir çoxu isə hərbi hissələrdə, sərhəd məntəqələrində, dəmir yolunda, ticarət donanmasında və digər yerlərdə çalışırdı.

Təsadüfi deyildi ki, bütün həkimlərin 63 faizi və ümumiyyətlə, bütün tibb işçilərinin 63,5 faizi Bakıda fəaliyyət göstərirdi. Burada səhiyyə sahəsində baş verən irəliləyişlər neft-sənaye strukturlarının, şəhər özünüidarəsinin, eləcə də sahibkarların şəxsi vəsaiti hesabına əldə edilmişdi.

XX əsrin əvvəllərində Bakı ictimai idarəsinin nəzdində olan Mixaylov xəstəxanası, doğum evi, göz müalicəsi şöbəsinə malik xəstəxana, uşaq xəstəxanası, əhalinin yoxsul hissəsinə xidmət göstərən pulsuz ambulatoriyalar (ilk dəfə 1901-ci ildə açılmışdı), bir neçə əczaxana Bakı şəhər büdcəsi hesabına maliyyələşdirilirdi.

1902-ci ildə şəhər idarəsi nəzdində tibb idarələrinə rəhbərlik edən xüsusi tibb-sanitar bürosu yaradılmışdı. Gəncə və Şuşa şəhər xəstəxanaları, Quba və Şamaxıda isə ambulatoriya fəaliyyət göstərirdi. Mədən-zavod fəhlələrinə Neft sənayeçiləri qurultayı Şurası müəyyən tibbi yardım göstərirdi. Şuranın Sabunçuda və Qaraşəhərdə xəstəxanaları, bir neçə ambulatoriyası var idi. Qaraşəhər xəstəxanasının uşaq şöbəsi 1905-ci ildə uşaq xəstəxanasına çevrilmişdi.

Bir sıra iri neft-sənaye firmalarında fəhlələr ambulatoriya xidmətindən istifadə edirdilər.

Hüquqi şəxslər (həkimlər, sahibkarlar və s.) Bakıda qadın və göz xəstəxanaları, doğum evi və s. açılmasına xeyli səy göstərmişdilər.

Görkəmli Azərbaycan kapitalisti M.Nağıyevin vəsaiti hesabına şəhərin kənarında xəstəxana tikilmişdi (1914-1918-ci illər). Hazırda bu xəstəxana onun adını daşıyır.

Azərbaycan şəhərlərində, xüsusən Bakıda əczaxanaların açılması əsasən fiziki şəxslərin adı ilə bağlı idi. Bakıda keçirilmiş 1903-cü il siyahıyaalma materiallarının məlumatına görə, şəhərdə tibb xidməti sahəsində 446 nəfər çalışırdı. Onlardan 167 nəfəri həkim (o cümlədən 56 diş həkimi), 299 nəfəri isə orta tibb xidmət işçiləri (feldşer, mama, tibb bacıları) idi.

Tibb işçilərinin 85 faizi şəhərin özündə, 15 faizi isə neft-mədən rayonlarında fəaliyyət göstərirdi.

Diş həkimlərinin yarıdan çoxu qadınlar idi. Orta tibb işçiləri sırasında da onların xüsusi çəkisi yüksək idi. Əczaxanalarda çalışanların sayı isə 113 nəfər idi ki, onların da böyük əksəriyyəti şəhərdə işləyirdi.

Bakı həkimlərindən 21 nəfəri tibb doktoru idi. Demək olar ki, həkimlərin çox hissəsi eyni zamanda xüsusi qəbulla da məşğul olurdu. Orta tibb işçilərindən də xüsusi qəbulla məşğul olanlar az deyildi.

Sonrakı illərdə hökumətin səhiyyə sahəsindəki siyasəti, demək olar ki, dəyişməz qaldı. 1904-cü ildə Dövlət Şurasının "Zaqafqaziyada kənd həkimliyi sahəsindəki dəyişikliklər haqqındakı qərarı" da elə bir yenilik gətirmədi. Bu qərara görə, 1904-cü ildə tibb müəssisələri şəbəkəsi hökumət hesabına deyil, fiziki şəxslərin hesabına nisbətən genişlənməli idi.

1905-ci ilin sonunda Rusiyanın maliyyə orqanları Azərbaycanın iki quberniyasında hər qəzada qəza hakimləri və iki feldşer olması barəsində vəsatət qaldırdı. Belə bir şəraitdə tibb işçilərinin sayının əsaslı surətdə artırılması, bu sahədə milli kadrların hazırlanması barəsində heç söhbət də gedə bilməzdi. Buna baxmayaraq, yeni yüzillikdə azərbaycanlılardan da tibb işçilərinin formalaşdığını görürük. Köhnə kadrlarla yanaşı, yeni kadrlar nəslinin yetişməsi prosesi gedirdi. Tibb sahəsində 1877-ci ildə Peterburq Tibb Cərrahlıq Akademiyasını bitirmiş, böyük həkimlik təcrübəsinə malik doktor Əbdülkərim Mehmandarov çalışırdı. 1883-cü ildən başlayaraq Qarabağda işləmiş Ə.Mehmandarov eyni zamanda Şuşa şəhər və qəza həkimi vəzifəsində fəaliyyət göstərmişdi. Artıq 1917-ci ildə onun bu sahədəki əmək stajı 35 il idi.

1904-cü ildə Xarkov Universitetini bitirmiş Xudadat bəy Rəfibəyli görkəmli tibb xadimi idi. O, 1907-ci ilin payızına qədər həmin universitetin cərrahlıq klinikasında çalışdıqdan sonra Gəncəyə gəlmiş və 1918-ci ilə qədər Gəncə şəhər xəstəxanasına başçılıq etmiş, daha sonra isə ADR hökumətində xalq səhiyyə naziri vəzifəsini tutmuşdu.

Azərbaycanlı həkimlərin böyük əksəriyyətinin fəaliyyəti Bakı şəhəri ilə bağlı olmuşdu. Onlardan Məmməd Rza Vəkilov ictimai təbabət sahəsindəki xidmətlərinə görə geniş şöhrət qazanmışdı. Şəhər zəhmətkeşləri üçün pulsuz müalicə otaqları yaradılmasının təşəbbüskarı olan M.R.Vəkilov 1901-ci ildən başlayaraq onların ikisinə başçılıq etmişdi. O, dəfələrlə şəhərin tibb-sanitariya işini yenidən qurmaq, zəhmətkeş kütlələrə pulsuz səhiyyə xidməti göstərmək barəsində təkliflərlə çıxış etmişdi. Doktor

Vəkilovun səyi nəticəsində 1903-cü ilin əvvəllərində Bakıda fəaliyyət göstərən iki ambulatoriyadan başqa, daha dörd belə tibb müəssisəsi açılmışdı. 1907-ci ildə yenə də onun təklifi ilə Bakı duması Mixaylovski xəstəxanasını genişləndirmək üçün şəhər ətrafında torpaq sahəsi almaq barəsində qərar çıxarmışdı. M.R.Vəkilovun irəli sürdüyü təklifləri Bakı duması deputatları H.B.Məlikov (Zərdabi), Ə.M.Topçubaşov və başqaları fəal müdafiə edirdilər.

1901-ci ildə Moskva Universitetinin tibb fakültəsini bitirmiş Həsən bəy Ağayev 1902-ci ildən Bakıda həkimlik fəaliyyətinə başlamış, 1903-1907-ci illərdə kasıblara xidmət edən dördüncü xəstəxanaya başçılıq etmişdi. H.Ağayev təbabəti xalqa yaxınlaşdırmaq, zəhmətkeş kütlələr arasında yoluxucu xəstəliklərin qarşısını almaq, əhali arasında tibbi bilikləri yaymaq və s. üçün var qüvvəsi ilə çalışırdı. Sonrakı illərdə H.Ağayev Gəncədə şəhər həkimi vəzifəsində çalışmışdı. O,1913-cü ildə Qafqaz şəhərləri nümayəndələrinin qurultayında "Gəncə şəhərində həkim-sanitariya işinin təşkili haqqında" məruzə ilə çıxış etmişdi.

XX əsrin əvvəllərində Bakı tibb müəssisələrində Əbdülxalıq Axundov və Bəhram bəy Axundov işləmiş, eyni zamanda xüsusi qəbulla məşğul olmuşdular. Əbdülxalıq Axundov Bavariyada və Derpt (indiki Tartu) Universitetində, Bəhram bəy Axundov isə Paris Universitetində təhsil almışdı. B.Axundov 1916-cı ildə Bakıda hərbi xəstəxanaya başçılıq etmişdi. 1900-cü ildən Bakıda həkim diplomunu almış Qarabəy Qarabəyov fəaliyyətə başlamışdı. O, əsasən rus-Azərbaycan (türk-müsəlman) məktəblərində işləmiş, yoxsullara xidmət göstərmiş, eyni zamanda xüsusi qəbulla məşğul olmuşdu. Tehran Universitetinin məzunu (1900-cü il) A.Səhhət də Şamaxıda həkimlik etmişdi. Məlum olduğu kimi, görkəmli ictimai xadim Əli bəy Hüseynzadə də ixtisasca həkim idi.

Odessa Universitetində təhsil almış N.Nərimanov, 1915-ci ildə Kazan Universitetinin tibb fakültəsinin bitirmiş S.M.Əfəndiyev də səmərəli təbib fəaliyyəti göstərmişdilər.

İlk azərbaycanlı diş həkimləri də meydana çıxmağa başladı. Onlardan biri əvvəllər müəllim olmuş, sonra Kazan şəhərində diş həkimliyi kursunu bitirmiş, Bakı müalicəxanalarında pulsuz xidmət göstərən Məmməd bəy Səlimbəyov idi.

Həmin dövrdə və sonrakı illərdə Bakının tibb müəssisələrində üçüncü şəhər xəstəxanasının müdiri Məmməd bəy Qayıbov, həmin xəstəxananın həkimi Əli Heydər Cavadov, Bəybala bəy Sultanov (birinci şəhər xəstəxanası), sanitar həkimlər Bahadur bəy Əliverdibəyov və Mustafa ağa Şərifov, Mixaylovski xəstəxanasının həkimləri Bahadur bəy Qayıbov və İlyas Cəfərov (göz xəstəlikləri şöbəsi), xəstəxana direktoru Məlik bəy Sultanov, Xosrov bəy Sultanov işləmişlər. Musa bəy Rəfiyev və Kərim bəy Sultanov 1916-cı ildə Bakıda hərbi xəstəxanaların rəhbərləri olmuşdular. 1915-ci ildə Sultan Məcid Əfəndiyev Kazan Universitetini bitirmiş və həkim diplomu almışdı.

Birinci dünya müharibəsi ərəfəsində və müharibə illərində Lənkəran, Cavanşir, Naxçıvan qəzalarında Əli Cəmil Ləmbəranski, Əsədulla bəy Şahtaxtinski və başqaları həkimlik etmişdilər.

Azərbaycanlı həkimlərin bəziləri ictimai işlərdə fəallıq göstərmiş, Bakı şəhər Dumasının deputatları olmuşdular. Onların bəziləri Azərbaycan Demokratik Cümhuriyyəti parlamentinin üzvü seçilmiş, hökumətdə mühüm vəzifələr tutmuşdular.

Başqa millətlərin bəzi nümayəndələri də Azərbaycanda səhiyyə işinin inkişafında, əhaliyə tibbi xidmətin yaxşılaşdırılmasında müəyyən rol oynamışdılar. Onların çoxu uzun müddət öz taleyini Azərbaycanla bağlamış, tibb kadrlarının hazırlanmasında və yetişməsində fəal iştirak etmiş, xüsusən Bakıda tibbi müəssisələrin təşkilində və onlara rəhbərlik edilməsində mühüm xidmət göstərmişlər.

Onlar cərrahiyyə işinin təşkili, göz, qadın, uşaq və digər xəstəliklərin müalicəsində gərgin əmək sərf etmişlər. Onların bəziləri kənd yerlərində də işləmiş, bir çoxları ADR hakimiyyəti dövründə və sonrakı illərdə də Bakıda fəaliyyət göstərməkdə davam etmişdilər. Onlardan Y.K.Varşavskini, A.Y.Qalkini, Y.Y.Gindesi, S.Q.Caparidzeni, A.N.Zaytsevi, L.B.Faynberqi, L.R.Kobılyanskini, A.L.Koqanı, D.T.Salikovu və başqalarını göstərmək olar.

Uzun illər boyu Azərbaycan səhiyyəsində fəaliyyət göstərmiş qadın həkimlər içərisində azərbaycanlı qadınlar, demək olar ki, olmamışdı. İlk azərbaycanlı həkim qadın - Sona Rəhimova 1908-ci ildə Peterburqda Tibb İnstitutunu bitirmişdi, ondan sonra həkimlik pilləsinə qalxan Sona xanım Axundova isə 1914-cü ildə Kiyev Universitetində təhsil alırdı.

Kurslarda həkimlik təhsili almış və həkim köməkçisi rütbəsini daşıyan ilk müsəlman qadın Bibi Raziyə Kutluyarova-Süleymanova 1900-cü ildə Bakıya gəldi. 1905-ci ildə Bakı şəhər idarəsi Əminə xanım Batırşinanı Bakıya dəvət etdi. O, 1904-cü ildə Peterburq Qadın Tibb İnstitutunu bitirərək, müsəlman qadınlar arasında birinci olaraq həkim diplomunu almışdı. Əvvəlcə o, sanitar həkimi vəzifəsində çalışmış, sonra isə üçüncü şəhər pulsuz xəstəxanasında xidmət etmişdi. Bakıda qadın həkimlərdən V.M.Korona, Y.P.Krutikova, K.İ.Levenson, M.B.Feynberq və başqaları məşhur idilər. Bəzi qadın həkimləri Gəncə, Şəki, Şamaxı, Salyan və başqa yerlərdə də işləmişdilər.

Əczaçılıq sahəsində milli kadrlar yox idi. Bakı xüsusi əczaxanalarında çalışanların 64 faizindən çoxu avropalılar idi.

Orta təhsilli tibb kadrlarından hazırlanan mütəxəssislər əsasən kənd yerlərində işləyirdilər. Aslan bəy Məmmədbəyov, Pənah bəy Quluxanov, Məcid bəy və Əbdürrəhman bəy Vəkilovlar, Əli Əliyev, Aslan Mahmudov, Məsim Şıxıyev və başqaları orta təhsilli tibb işçiləri idilər. Orta təhsilli tibb işçiləri arasında azərbaycanlı qadınlar da olmuşdu.

Ümumiyyətlə, bu mühüm sahənin kadrlarla təminatı mütləqiyyətin sosial siyasətini parlaq surətdə əks etdirir, daha dəqiq desək, milli kadrlar hazırlanmasını nəzərdə tutan siyasət aparılmamasını bir daha təsdiq edir.

Azərbaycanda səhiyyə işinin az-çox inkişafında ictimaiyyətin göstərdiyi səy və yardımın böyük rolu olmuşdu. Əsrin əvvəllərində bir qrup həkim və ictimai xadimin səyi nəticəsində "Uşaq ölümünə qarşı mübarizə ittifaqı" adlı xeyriyyə cəmiyyəti yaradılmışdı. Bu ittifaqa doktor Y.Y.Gindes başçılıq edirdi. 1914-cü ildə

bu cəmiyyətin sanatoriyası açılmış, uşaq xəstəxanası binasının tikintisinə başlanmışdı. İlk uşaq xeyriyyəçilik təşkilatı "Körpələr evi" ("Yasli") idi. "Uşaqları himayə cəmiyyəti" kimsəsiz uşaqları himayə edirdi. Hər iki cəmiyyətin işində H.Z.Tağıyev, Ə.M.Topçubaşov, Bakı sənayeçiləri və ziyalılarının nümayəndələri iştirak edirdilər. Hələ 1898-ci ildə yaradılmış Bakı həkimləri cəmiyyəti səhiyyə sahəsində mühüm elmi və təbliğati iş aparır, tibb müəssisələri həkimlərinin ixtisasını artırmaq üçün məktəb rolu oynayırdı. 1914-cü ildə X. Rəfibəyovun başçılığı altında Gəncədə Tibb cəmiyyəti yaradıldı. Onun banilərindən biri və katibi H.Ağayev idi.

Beləliklə, ictimai və xüsusi təbabət sahəsində həyata keçirilmiş tədbirlər, onun inkişafı üçün göstərilmiş xeyriyyəçi və elmi-praktik yardımlar, sözsüz ki, ümidverici amillər idi. Ancaq səhiyyənin vəziyyəti, bütövlüklə götürüldükdə, hələ xalqın ehtiyacını ödəməkdən. çox uzaq idi. Bu sosial sahənin inkişafı üçün bütün işləri yenidən qurmaq, xüsusi inkişaf proqramını həyata keçirmək lazım idi.

## § 3. MƏTBUAT

XX əsr Azərbaycan mətbuatı tarixində mühüm mərhələni təşkil edir. 1898-ci ildə Qafqazda nəşr olunan 41 adda dövri nəşrdən 5-i, yəni 12 faizi Bakının payına düşürdü ki, bu da Zaqafqaziyada rus dilində nəşr olunan qəzet və jurnalların (cəmisi 28 idi) 20 faizini təşkil edirdi.

Əgər gürcü və erməni dillərində 13 mətbuat orqanı çıxırdısa, Azərbaycan dilində, milli ziyalıların bu istiqamətdə çalışmalarına baxmayaraq, heç bir mətbuat orqanı yox idi. Beş il ərzində (1899-1903) dövri mətbuata Bakıda cəmisi üç ad əlavə olunmuşdu. 1903-cü ildə Tiflisdə Qafqazda Azərbaycan dilində yeganə qəzet - "Şərqi-Rus" çıxmağa başladı.

1905-1907-ci illər inqilabı mətbuatın inkişafı sahəsində çarizmi müəyyən güzəştlərə getməyə məcbur etdi. Həmin illərdə Bakıda Azərbaycan dilində 11 yeni mətbuat orqanı meydana çıxdı. "Molla Nəsrəddin" dərgisi ilə birlikdə onların ümumi sayı 12-yə çatmışdı. Bürokratik maneələrə, 1917-ci ilin fevralına qədər davam etmiş təqiblərə baxmayaraq, Azərbaycanda 227 dövri mətbuat orqanı nəşr edilmişdi. Onlardan 30 faizi (66 adda) milli mətbuat orqanları, 50 faizi (119 adda) rusdilli qəzet və jurnallar idi. Onların əksəriyyəti Bakıda, beşi Gəncədə, ikisi isə Şuşada nəşr edilirdi. Bakıda başqa dillərdə bir sıra qəzet və jurnallar çıxırdı (gürcü, erməni, polyak. alman və s.)

1917-ci ilin fevralına qədər çıxan qəzet və jurnalların 60 faizi 1905-1907-

ci illərin payına düşür və həmin illərdə işıq üzü görməyə başlamış mətbuat orqanlarının bir çoxu sonrakı illərdə də çıxmışdı. Bu da ictimai-siyasi həyatın oyanışı, mətbuata artan maraqla bağlı idi. Milli mətbuatın inkişafı Azərbaycan publisistika məktəbinin sonrakı yüksəlişini şərtləndirən amil oldu, bu isə Azərbaycan mədəniyyəti tarixində olduqca böyük əhəmiyyətə malik idi. Bu məktəb Azərbaycan ziyalılarının çox hissəsini - alimləri, yazıçıları, şairləri, tənqidçiləri, müəllimləri və b. öz ətrafına toplamışdı. Publisistika ictimai-siyasi, fəlsəfi və ədəbi fikrin formalaşmasında, Azərbaycan xalqının milli şüurunun tərbiyəsi yolunda mühüm işlər görmüşdü. Bir çox ziyalıların elmi və ədəbi yaradıcılığı qəzet və jurnallar vasitəsilə ictimaiyyətin malı olur, onlar milli mədəniyyət xadimlərinin yeni nəslinin yetişməsində böyük rol oynayırdı.

Azərbaycan jurnalistikasının banisi H.Zərdabinin "Əkinçi" qəzeti ilə başladığı estafet sonralar uğurla davam etdirildi. Publisistika H.Zərdabinin vəfatına qədərki (1907-ci il) çoxcəhətli fəaliyyətinin mühüm istiqaməti olmuşdu.

Vaxtilə "Əkinçi" və "Ziya" qəzetləri ilə əməkdaşlıq etmiş N.Vəzirov, A.Adıgözəlov (Gorani), Mirzə Həsən Əlqədəri, Mir Möhsün Nəvvab, Mirzə Rzaxan Daneş və S.M.Qənizadənin ədəbi və publisist fəaliyyəti milli mətbuatla bağlı idi.

XX əsrin əvvəllərində jurnalistika öz başlanğıcını 1903-cü ildən 1905-ci ilin yanvarına qədər Tiflisdə nəşr olunan "Şərqi-Rus" qəzetindən götürür. Qəzet Rusiyanın türkdilli xalqları tərəfindən və həmçinin Cənubi Azərbaycanda oxunurdu. Orta Asiyada, Kazanda, Krımda, Yaxın Şərqin bəzi ölkələrində onun müxbirləri var idi.

"Şərqi-Rus" qəzetilə jurnalistlərin, publisistlərin və ədəbiyyatşünasların yeni nəslinin formalaşması başlandı. M.A.Şahtaxtinski, C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Ağayev, F.Köçərli, A.Səhhət, Ə.Nəzmi (Məmmədzadə), M.S.Ordubadi, Ö.F.Nemanzadə, Ə.Q.Nəcəfov (Qəmküsar), M.Ə.Rəsulzadə, Ə.Məmmədzadə (Sədr), R.Əfəndiyev, H.Cavid (Rəsizadə), M.M. Axundov, M.L.İsmayılov (Şirvanski), M.C.Yusifzadə ana dilində nəşr olunurdular.

Milli mətbuatın inkişafında 1905-ci il iyunun 7-dən 1906-cı il sentyabrın 3-nə kimi Bakı şəhərində nəşr edilən "Həyat" qəzeti mühüm rol oynamışdı. Bu qəzet nəşr olunduğu zaman Qafqazın müsəlman əhalisi içərisində birinci, Krımda çap olunan "Tərcüman"dan sonra ikinci mətbuat orqanı olmuşdu. "Həyat"ın fəaliyyətində iştirak etmək üçün Qafqazdan, Krımdan, Kazandan, Ufadan mətbuat işçiləri dəvət olunurdu. Qəzet xalqın intellektual ziyalılarını mətbuat vasitəsilə birləşdirməyə çalışırdı.

1905-1907-ci illərdə "Füyuzat" jurnalı və "İrşad" qəzetinin çapdan çıxması əhəmiyyətli hadisə oldu. Bu orqanlar Azərbaycan ədəbiyyatında qüdrətli istiqamət olan romantizmi formalaşdırdı və onun görkəmli nümayəndələrinin yetkinləşməsində mühüm rol oynadı. O dövrün ən mühüm hadisələrindən biri də Tiflisdə satirik "Molla Nəsrəddin" jurnalının 1906-cı il aprelin 1-dən nəşrə başla-

ması oldu. Jurnal Azərbaycanda, Rusiyanın türkdilli xalqları arasında, həmçinin Yaxın Şərqdə satirik mətbuatın əsasını qoydu, həmçinin demokratik fikrin inkişafında mühüm rol oynadı. "Molla Nəsrəddin"in Rusiyada çoxlu oxucusu olduğu kimi, müsəlman Şərqində də geniş yayılmışdı, onun hətta Avropada, Amerikada da abunəçiləri var idi. Molla nəsrəddinçilər ədəbi-publisist məktəbinin təşəkkül tapması bu jurnalla bağlı idi.

Mətbuat orqanlarında publisistlərin sıraları xeyli genişləndi. Onlardan Ə.Hüseynzadə, N.Nərimanov, S.Nərimanov, Ə.Haqverdiyev, S.S. Axundov, Ü.Hacıbəyov, H.Vəzirov, M.Hadi, A.Şaiq, Ə.Müznib, S.M.Əskərov, Əli Rza (Şamçızadə), S.Mümtaz kimi şairlər, yazıçı və publisistləri göstərmək olar. "Həyat"ın səhifələrində H.Zərdabinin, Ə.Hüseynzadənin, N.Nərimanovun publisistikası, "İrşad"da isə Ə.Ağayev və Ü.Hacıbəyovun dərin məzmunlu, kəsərli yazıları xüsusilə seçilirdi.

Həmin illər Azərbaycanda sosial-demokrat istiqamətli mətbuat orqanlarının meydana çıxması ilə də əlamətdar idi. Sosial-demokrat təşkilatı "Hümmət"in 1904-cü ilin oktyabrından 1905-ci ilin fevralına qədər çıxmış "Hümmət" qəzetində M.Q.Mövsümov (Seyid Musəvi), M.Ə.Rəsulzadə, S.M.Əfəndiyev ədəbi və publisist fəaliyyətə başladılar. 1905-1907-ci illərdə nəşr olunmuş "Təkamül", "Dəvət-Qoç", "Yoldaş" qəzetləri ilə M.Əzizbəyov, T.Şahbazi (Simurq), C.Məmmədzadə (Əl-Dağıstani), "Bakı həyatı" ilə (1912) D.Bünyadzadə, Ə.Q.Rəsulzadə, H.Sultanov əməkdaşlıq edirdilər. Onların bir çoxu qeyri-partiyalı mətbuatın səhifələrində də çıxış edirdi.

1907-1918-ci illərdə nəşr olunan əsas və aparıcı mətbuat orqanları "Təzə həyat", "Tərəqqi", "İttifaq", "Həqiqət", "İqbal", "Yeni İqbal" və başqa qəzetlər idi. Müsavat partiyasının orqanı "Açıq söz" (1915-1918-ci illər) qəzetinin mətbuat tariximizdə xüsusi yeri var. B.Abbaszadə, D.Ağamirzadə, M.Əliyev, Əhməd Cavad, N.Bəsir, C.Bünyadzadə, Ə.Vahid, C.Cabbarlı, İ.Məlikov, H.Mirzəcamalov, O.Orucov, B.A.Talıblı, Q.Səmədov, S.Hüseyn, M.M.Seyidzadə, Y.V.Çəmənzəminli, İ.Qabulov, A.İbrahimov, S.Mənsur, Ə.Fəhmi (Cəfərzadə) bu dövrün görkəmli ədəbiyyatçı və publisistləri kimi ad qazanmışdılar.

"Molla Nəsrəddin"in ardınca onun təsiri altında "Arı", "Bəhlul", "Tuti", "Zənbur", "Məzəli", "Babayi-Əmir" (1907-1917-ci illər) satirik jurnalları nəşrə başladı. Uşaqlar və onların valideynləri üçün "Dəbistan" (1906-1908), "Rəhbər" (1906-1907), "Məktəb" (1911-1917) jurnalları işıq üzü gördü. Bu mətbuat orqanları ilə yeni əsrin başlanğıcında ədəbi-publisist məktəbin bir çox nümayəndələri əməkdaşlıq etmişdi.

XX əsrin əvvəllərində Azərbaycan qadınları da jurnalistika fəaliyyətinə başladılar. Mətbuatda çıxış edən ilk azərbaycanlı qız Nabat Nərimanova olmuş, onun birinci məqaləsi 1906-cı ildə "Dəbistan" jurnalında çap edilmişdi. İlk Azərbaycan qadın jurnalisti Şəfiqə Əfəndizadə bu məcmuədə (1906-1908-ci illər) fəal iştirak etmişdi. 1911-1918-ci illərdə o, "Məktəb" jurnalında və "Açıq söz" qəzetində bir çox publisist

məqalə və hekayələr nəşr etdirmişdi. Azərbaycan qadınının jurnalistika mühitinə cəlb edilməsində 1911-1912-ci illərdə ana dilində Bakıda nəşr olunan ilk qadın qəzeti "İşıq"ın mühüm rolu oldu. Onun işində Xədicə Əlibəyova, Sürəyya və Həcər Ananovlar, Asya Axundzadə, Sona Axundova, Şövqiyyə Gövhər Şeyxzadə, Maral Nəbizadə, Nabat Nərimanzadə, Xavər Tahirova iştirak edirdilər. 1914-1916-cı illərdə Səltənət Axundzadə onun səhifələrində məqalələrini çap etdirmişdi.

Azərbaycan ziyalılarının səyi ilə Rusiyanın başqa şəhərlərində ana dilində qəzetlərin çıxması da təqdirə layiq hesab edilməlidir. Məsələn, Həştərxanda çıxan "Bürhani-Tərəqqi", "Hakimiyyət", "Mizan", "Haqq" qəzetlərində 1906-1911-ci illərdə N.Nərimanov, Ə.Qəmküsar, M.L.İsmayılov-Şirvanski, R.K.Nəcəfov, M.Hadi, A.Abdulla, Ə.Cövdət, C.Abdulcabbarov, H.Axundzadə, M.S.Axundov, C.Cabbarov, A.İsmayılov, Q.Mahmudov (Naxçıvani), M.Mərcani, X.Musa, S.Saleh və başqaları çıxış etmişdilər.

Azərbaycan yazıçı və publisistləri Zaqafqaziya və Mərkəzi Rusiya mətbuat orqanlarında rus dilində də çıxış edirdilər. Bu, bütün leqal imkanlardan istifadə edərək, öz demokratik ideyalarını, maarifçi dünyagörüşlərini təbliğ etmək, ictimaiyyəti milli ədəbiyyatla tanış etmək üçün yaranan imkanı əldən verməmək arzusundan irəli gəlirdi.

Bu istiqamətdə Qafqazda ən kütləvi və təsirli mətbuat orqanı olan "Kaspi" qəzetinin böyük rolu var idi. O, Azərbaycanda ictimai fikrin inkişafına əhəmiyyətli təsir göstərir, onun formalaşması prosesində milli ziyalıların iştirakına şərait yaradırdı.

Əsrin əvvəllərində M.A.Şahtaxtinski, Ə.Ağayev, H.Zərdabi "Kaspi" qəzetində də məqalələrini nəşr etdirirdilər. 1898-1905-ci illərdə Ə.Ağayev onun daimi əməkdaşı idi. Qəzetdə nəşr olunan beynəlxalq icmalların və tənqidi-biblioqrafik materialların çoxu ona məxsus idi. Ə.M.Topçubaşovun böyük publisist istedadı da özünü bu orqanda göstərirdi. Qəzetdə yuxarıda adları çəkilən ictimai xadimlərin və başqa ziyalıların silsilə məqalələri çıxmaqda davam edirdi. Qəzetin ən nüfuzlu əməkdaşlarından bnri olan C.Hacıbəyov M.Hacınski ilə birlikdə "Müsəlmanların həyatı və mətbuatı" bölməsinin işini aparır, milli problemlərin daha dolğun işıqlandırılmasına səy göstərirdi.

Azərbaycan mətbuat işçiləri Bakıda başqa dillərdə çıxan mətbuat orqanlarında da fəal iştirak edirdilər. M. A. Şahtaxtinski "Baku" qəzetinin ilk redaksiya heyətinin tərkibinə daxil idi. Bu qəzetlə M.S.Axundov da əməkdaşlıq edirdi. C.Şahtaxtinski "Bakinskiye izvestiya" qəzetinin əməkdaşı idi. "Kavkazskoe slovo" qəzetində Rza Nağıyev, leqal fəhlə qəzeti "Qudok"da S.M.Əfəndiyev çıxış edirdi. 1906-cı ilin mayından "Bakinskiy raboçiy" qəzeti nəşr olunub.

Azərbaycan maarifçiləri və mətbuat işçiləri Zaqafqaziyanın rusdilli mətbuatında - "Qafqaz", "Zakavkazye", "Novoye obozreniye" və başqa qəzetlərin işində iştirak etməyə böyük əhəmiyyət verirdilər. Bu, XX əsrin əvvəllərində geniş miqyas alaraq, yeni məzmunla zənginləşdi, hətta milli mətbuatın meydana çıxıb genişləndiyi şəraitdə də onların sayı azalmadı. Çox vaxt dövrün mühüm problemləri barəsində mübahisələr mətbuat orqanlarına paralel surətdə çıxarılırdı. Mətbuat səhifələrində bu

formadan istifadə edənlərin sırasına hər iki dildə qələm sahibi olan H.Zərdabi, M.Şahtaxtinski, F.Köçərli, R.Əfəndiyev, S.Vəlibəyov, M.Qarayev və başqaları daxil idi. Öz ana dillərini çox yaxşı bilməsinə baxmayaraq, bəzi qələm sahibləri əksər hallarda rus dilində çıxış edirdilər (E.Sultanov, C.Minasazov, R.Məlikov, Həmzət bəy Qabulov-Şirvanski, M.H.Vəzirov, S.Ağamalıoğlu, Əsədulla bəy Şahtaxtinski və b.). Azərbaycanlı ziyalıların təşəbbüsü ilə bəzi mətbuat orqanlarında müsəlman şöbələri yaradılmışdı. Bu şöbələrə C.Məmmədquluzadə ("Vozrojdeniye"), Q.Qabulov-Şirvanski ("Zakavkazye"), E.Sultanov ("Zakavkazskaya reç") rəhbərlik edirdi.

Qafqazdakı rusdilli mətbuatda sosial-mədəni məsələlər qaldırılır, onun geridə qalması tənqid edilir, Azərbaycan xalqının zəngin mənəvi ənənələri təbliğ olunurdu.

Milli mətbuat xadimlərinin fəaliyyəti Peterburqun və Moskvanın iri mətbuat orqanları ilə bağlı idi. Onun səhifələrində H.Zərdabi, Ə.Ağayev, Ə.Hüseynzadə, E.Sultanov, xüsusilə də M.Şahtaxtinski çıxış edirdilər. M.Şahtaxtinski eyni zamanda "Moskovskiye vedomosti" və "Novoye vremya" qəzetlərinin İstanbulda Yaxın Şərq ölkələri üzrə müxbiri idi.

Kazanda təhsil alan R.Məlikov "Voljskiy listok" və "Kamsko-Voljskaya reç" qəzetlərində müxbir sifəti ilə işləyir, E.Sultanov Krımda çıxan "Tərcüman"la əməkdaşlıq edir, N.B.Usubbəyov isə bu qəzetin səhifələrində çıxış edirdi.

Ə.Əliyev "Ülfət", "Türkistan" (Daşkənd), "Vaqt" (Kazan), "Qarjiye" qəzetlərilə əməkdaşlıq edirdi.

Azərbaycan ziyalılarının mütərəqqi xarici mətbuatda da çap olunmaq arzuları təbii idi. Tələbəlik illərində Fransa mətbuat orqanlarında Ə.Ağayev çıxış etmişdi. 1906- 1908-ci illərdə İstanbul mətbuatında A.Sur çap edilirdi. 1910-cu ildə İstanbul qəzeti "Tanin"in "Əks-səda" redaksiyasında M.Hadi tərcüməçi vəzifəsində çalışmışdı. O, eyni zamanda bir sıra Türkiyə qəzet və jurnallarında özünün bir neçə əsərini dərc etdirmişdi. Ə.Ağayev Tehran qəzeti "Xurşud"da çıxış etmişdi.

XX əsrin əvvəllərində milli ziyalılar içərisində mətbuat təşkilatçıları və redaktorlarının bütöv bir nəsli yetişmişdi. H.Zərdabi bir çox jurnalistlərin, həmçinin başqa millətlərdən olan mətbuat işçilərinin bir qrupunun müəllimi şöhrətini qazanmışdı.

Azərbaycanın qabaqcıl ziyalıları içərisində onlarla qəzet və jurnal redaktoru yetişmişdi. Onlardan M.A.Şahtaxtinskini ("Şərqi-Rus"), Ə.Ağayevi ("Həyat" - 1905-1909; "İrşad", "Tərəqqi"), Ə.Hüseynzadəni ("Həyat", "Tərəqqi" - 1905-1907), C. Məmmədquluzadəni (1906-cı ildən, müəyyən fasilə ilə 1932-ci ilə qədər "Molla Nəsrəddin"), Q.Vəzirovu ("İrşad", "Təzə həyat", "İttifaq", "Səda", "Sədayi-Vətən", "Sədayi-haqq", "Sədayi-Qafqaz", satirik jurnal "Məzəli" - 1907-1916), M.Ə.Rəsulzadəni ("İrşad", "İqbal", "Yeni İqbal", "Açıq söz" - 1908-1918), Üzeyir Hacıbəyovu ("Tərəqqi", "Həqiqət", "Yeni İqbal", "Azərbaycan" - 1909-1919) göstərmək olar. "Azərbaycan" qəzetinin redaktəsində C.Hacıbəyov da iştirak etmişdi. 1910-1917-ci illərdə Q.İ.Qasımov, Seyid Hüseyn (Sadıqzadə),

Ə.Ə.Müznib (Mütəllibzadə), C.Məmmədquluzadə (Fani), Qafur Rəşad (Mirzəzadə), A.Əfəndizadə də bu sahədə işlər görmüşlər. Bu sahədə Mustafa Lütfi İsmayılov-Şirvanskinin sanballı xidməti olmuş, o, Həştərxanda çıxan Azərbaycandilli qəzetlərin redaktoru vəzifəsində çalışmışdı.

Redaktorluq fəaliyyəti ilə Ə.Əliyev ("Arı" və "Bəhlul" yumoristik jurnalları), A.İ.Cəfərov, M.Q.Əfəndiyev (Rusiya müsəlman uşaqlarının ilk mətbuat orqanı olan "Dəbistan"a rəhbərlik edirdilər - 1906-1908-ci illər), C.Əsgərzadə ("İrəvan"), Ə.P.Hüseynzadə, İ.Aşurbəyov, C.Bünyadzadə, M.B.Hacınski, H.Heydərov, İ.Mahmudbəyov (pedaqoji jurnal "Rəhbər", 1906-1907-ci illər), İ.Mirfətullayev ("İrəvan"), R.Səlimxanov, M.A.Sidqi, O.Orucov və başqaları da məşğul olurdular.

Bakıda milli mətbuatın inkişafı Cənubi Azərbaycanda mədəniyyətin bu istiqamətinin inkişafına əhəmiyyətli təsir göstərdi. 1906-1907-ci illərdə Təbrizdə 23 adda qəzet və jurnal nəşr edilirdi. Onlardan 20-si Azərbaycan türkcəsində, 3-ü isə Azərbaycan, türk və fars dillərində çıxırdı. Mirzə Ələkbərxan, S.M.Şəbüstəri görkəmli azərbaycanlı redaktorlar idilər. Şimali Azərbaycanın məşhur mətbuat xadimləri öz cənublu qardaşlarına həmişə kömək əli uzadırdılar. Ə.Səfərov (Qəmküsar) "Azərbaycan" satirik jurnalını, Seyid Hüseyn isə "Ədalət" və "Ana dili" qəzetlərini redaktə edirdi. 1910-cu ildə M.Ə.Rəsulzadə İran Sosial-Demokrat Partiyasının orqanı olan "İrane-nov" ("Yeni İran") qəzetinin redaktoru olmuş, bu qəzetdə publisist kimi də çıxış etmişdi.

Bakı peşəkar publisist və jurnalist kadrlar məktəbi ilə yanaşı, Azərbaycanın şəhərlərində, kənd yerlərində də mətbuatda milli kadrların formalaşması prosesi gedirdi. Məsələn, "Kaspi" qəzetinə, Azərbaycanın hər yerindən - Lənkərandan ("Bİ - T. Bayraməlibəyov - "Lənkəranlı" "A.B." və b.), Qubadan (Mehdi bəy Ağakişibəyov - "Azyazan" Qudyallı), Şamaxıdan ("Z", "Ayrılmış"), Salyandan (Ağa Əli Qasımov - "Rahab", D.B.Sadıxbəyov, A.B.Səfərbəyov), Göyçaydan ("Rafiq") məktublar gəlirdi. Qəzetin Hacıqabulda (İsmayıl Qulam oğlu), Kürdəmirdə ("B.İ."), Biləsuvarda (Axvayev) müxbirləri var idi. Qəzetin Yelizavetpol quberniyasında da nümayəndələri var idi. "Kaspi" qəzetində Şuşanın iqtisadi, ictimai-siyasi və mədəni həyatına dair xeyli geniş məqalələr çıxmışdı. Həşim bəy Vəzirov (Şuşa realnı məktəbinin müəllimi) XIX əsrin sonlarından başlayaraq şəhər ictimaiyyətini qəzetlə tanış edir, 1904-cü ildən isə qəzetə "Müslim" imzası ilə materiallar göndərirdi. Ağdamda (V. Səbirli, "Kəndli"), Karyagində ("Allahverdi") və Qarabağın başqa yerlərində də müxbirlər var idi. Gəncədən A.Ziyad-xanovdan, "Cəfər", "Xəbir" adlı müəlliflərdən materiallar göndərilirdi. Qəzetin Şəkidəki müxbirləri K.Abdullayev, Məhəmməd bəy İsmayılov, İsmayıl Calutski idi. Şəki kəndlərindən "Vartaşenlı" və s. imzalar ilə "Kaspi"də nəşr olunan müxbir var idi.

Qazax qəzasından M.Vəkilov, Ordubaddan Mir Hidayət Seyidov material göndərirdilər. "Kaspi"nin nümayəndələri Dərbənddə və Cənubi Azərbaycanda da (Rəşt, Ənzəli) var idi. Azərbaycandilli mətbuatın yerlərdə çoxlu müxbirləri fəaliyyət göstərirdi. Qəzalarda qəzet və jurnalların olmadığı bir şəraitdə bu yerlərdən

yazanların xidmətləri çox əhəmiyyətli idi. Nəşriyyatçılar qrupu xüsusən fərqlənirdi. O, milli mətbuatın inkişafında mühüm rol oynamışdı. Nəşriyyatçılar arasında Oruc, Qəmbər və Abuzər Orucov qardaşları, H.B.Vəzirov, İ.Aşurbəyov, Ə.Müznib, M.Mikayılov, M.Mirbağırov xüsusilə fərqlənirdilər. Onlardan başqa M.Abdullazadə, Z.Abdullabəyzadə, M.Əlibəyov, A.M.Ələkbərov, U.Əhmədov, M.Hacınski, K.Heydərov, Q.Qarabəyov, Q.R.Mirzəzadə, A.Q.Mirzəzadə, M.Tahirov, Q.R.Şərifov kimi nəşriyyat mütəxəssisləri də fəaliyyət göstərirdilər.

İri mətbuat orqanlarını azərbaycanlı sahibkarlar maliyyələşdirirdilər. Bu istiqamətdə H.Z.Tağıyevin xidməti xüsusi qeyd edilməlidir. "Kaspi", "Həyat", "Açıq söz" qəzetləri və "Füyuzat" jurnalı onun verdiyi vəsait hesabına çıxırdı. M.Muxtarov "Tərəqqi" qəzetinin nəşrini maliyyələşdirirdi və s.

1905-1906-cı illərdə Bakıda Orucov qardaşlarının (1905-1917-ci illər), İ.Aşurbəyovun, Q.Vəzirovun mətbəələri fəaliyyət göstərirdi. Artıq 1907-ci ildə Bakıda 24 mətbəə və litoqrafiya var idi. 1914-cü ildə onların sayı 35-ə çatdı. O dövrdə buraxılan mətbuatın böyük hissəsi Orucov qardaşlarının mətbəəsində çap olunurdu.

Gəncə, Şuşa, Lənkəran və Naxçıvanda kiçik mətbəələr var idi. C.Məmmədquluzadə və Ömər Faiq Nemanzadə Tiflisdə "Qeyrət" mətbəəsini təsis etmişdilər. Bu mətbəədə 1906-cı ildən "Molla Nəsrəddin" jurnalı və başqa ədəbiyyat çap olunurdu. Bu mətbəəyə tacir M.Bağırzadə böyük maddi yardım göstərmişdi.

Ana dilində mətbuatın inkişafına mətbuat işləri üzrə Qafqaz Komitəsində işləmiş, sonralar onun aparıcı əməkdaşlarından biri olmuş Mirzə Şəfi Mirzəyev yaxından kömək edirdi.

Beləliklə, iyirminci yüzilliyin ilk onilliklərində fəaliyyət göstərən mətbuat bir neçə nəsil istedadlı milli publisistlərin, nəşr işi təşkilatçılarının, ictimai xadimlərin yetişməsində mühüm rol oynayan amillərdən olmuşdu.

## § 4. ƏDƏBİYYAT, ELM VƏ İNCƏSƏNƏT

XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı da olduqca çoxcəhətli idi. Bu dövrün ədəbiyyatında çox mühüm hadisə o idi ki, ədəbiyyatda xalq kütlələrinin azadlıq istəyi, inqilabi hərəkatın güclənməsi, milli şüurun güclü oyanışı ilə əlaqədar olaraq tənqidi realizm aparıcı istiqamətə çevrilmişdi. Bu istiqamətin əsas meyli mütləqiyyətin mövcud dövlət quruluşunu ifşa etməkdən, qabaqcıl ictimai ideyaları yaymaqdan ibarət idi.

Realist Azərbaycan ədəbiyyatında xalq mövzusu mərkəzi yer tuturdu. Realistlər zəhmətkeşlərin həyatını olduğu kimi işıqlandırmağa çalışır, xalqın ən yaxşı oğullarının obrazını yaradır, onların vətənpərvərlik və qəhrəmanlıq ənənələrini əks etdirir, xalqı azadlıq mübarizəsinə çağırırdılar. Realist ədəbiyyat ailə probleminə, qadınların hüquqsuzluğu, maarifin təbliği, cahilliyin, fanatizmin tənqidinə və s. məsələlərə böyük diqqət yetirir, onları mühüm ictimai-siyasi cəhətlə sıx əlaqədə nəzərdən keçirirdi.

XX əsrin əvvəlinin realizmi Azərbaycanın klassik ədəbiyyatının qabaqcıl ənənələrinə və şifahi xalq yaradıcılığına əsaslanırdı. XX əsrin realist yazıçıları Xaqani və Nizaminin, Füzuli, Vaqif və Axundovun irsinə yaradıcı surətdə müraciət edir, bu klassiklərin ədəbiyyata gətirdikləri müsbət və qabaqcıl ideyaları qəbul edirdilər. Onlar eyni zamanda Şərq, rus və Qərbi Avropa ədəbiyyatını öyrənir, Homerin, Firdovsinin, Xəyyamın, Sədinin, Hafizin, Şekspirin, Puşkinin və Qoqolun yaradıcılığına müraciət edirdilər. Amma ədəbiyyatda rus ədəbiyyatının təsiri ilə yaranan meyillər özünü daha qabarıq şəkildə büruzə verirdi.

Azərbaycan tənqidi realizminin korifeylərindən biri, M.F.Axundovun realist ənənələrini davam etdirən Cəlil Məmmədquluzadə publisist fəaliyyəti ilə yanaşı, bir sıra parlaq bədii əsərlər yaratmışdı.

C.Məmmədquluzadə Azərbaycan ədəbiyyatında realist hekayəçiliyin əsasını qoyanlardan biridir. Onun "Usta Zeynal", "Poçt qutusu", "Qurbanəli bəy", "İranda hürriyyət" və başqa psixoloji hekayə və novellaları ədəbiyyatımızın qızıl fonduna daxil olmuşdur. Yazıçının ən yaxşı əsərləri xalqda özbaşınalığa və hüquqsuzluğa qarşı etiraz hissləri oyadır, ədalətli gələcəyə ümidi möhkəmləndirirdi. C.Məmmədquluzadənin köhnə dünyaya, çar hakimiyyətinə, Qərb imperializminə və Şərq despotizminə qarşı ən kəskin silahı satira idi. Onun felyetonları nəinki Azərbaycanda, həmçinin çar Rusiyasında və onun hüdudlarından kənarda da böyük müvəffəqiyyət qazanaraq, özünün siyasi kəskinliyi, mövzu aktuallığı və kompozisiyasındakı ustalığı ilə həmişə fərqlənmişdi.

C.Məmmədquluzadə 1917-ci ildə yazdığı "Cümhuriyyət" əsərində xalq hakimiyyətinin - demokratik respublikanın tələblərini irəli sürmüş, "Anamın kitabı" (1919) pyesində isə öz həmvətənlərində milli qürur hissi tərbiyə etməyə çalışmışdı. Mütəfəkkir yazıçı, gözəl söz ustası, istedadlı publisist və redaktor

C.Məmmədquluzadə Şərqin ən görkəmli şəxslərindən biri idi.

XX əsr Azərbaycan ədəbiyyatında realist istiqamətin inkişafında dahi xalq şairi Mirzə Ələkbər Sabirin müstəsna rolu olmuşdur. Onun şeirləri zəhmətkeş kütlələrin istək və arzularını, azadlıq ideyalarını tərənnüm edən xalq poeziyasıdır. 1905-1907-ci illərin ictimai-siyasi hadisələri Sabirin dünyagörüşünə böyük təsir göstərmişdi. "Molla Nəsrəddin" jurnalının ilk saylarından Sabir onun ən fəal müəlliflərindən biri olmuşdu. 1906-1911-ci illər - şairin yaradıcılığının ən yetkin və ən məhsuldar dövrü "Molla Nəsrəddin"lə bağlıdır.

Novator şair olan Sabir realizminin canı humanizm və azadlıq ideyalarında idi. Bakıxanov, Zakir və Şirvaninin ənənələrini davam etdirən böyük sənətkar Azərbaycanda satirik poeziyanı yeni zirvələrə qaldırmışdı. Tədqiqatçılar Sabir satirasının Saltıkov-Şedrin, Nekrasov, Beranje, Heyne satirası ilə ideya birliyini qeyd edirlər.

Sabir ən yaxşı əsərlərini xalqa həsr etmişdi. Odur ki, onun şeirlərinin kəskin sosial xarakter daşıması təsadüfi deyil. Şair kəndlilərin və fəhlələrin ağır həyatını təsvir edərək, ictimai ədalətsizliyə qarşı etiraz səsini ucaldırdı.

Rusiyada və Şərqdə baş verən mühüm ictimai-siyasi hadisələr şairin diqqətindən yayınmırdı. O, fəhlələri mübarizəyə çağırır. Dövlət Dumasının fəaliyyətini satira atəşinə tutur, çar məmurlarının özbaşınalığını və rüşvətxorluğunu ifşa edirdi.

Sabir öz əsərlərində İranda və Türkiyədə mütləqiyyət quruluşunu kəskin tənqid edir, Şərq ölkələrində şah və sultan rejimlərinə qarşı, Şərq xalqlarını əsarət altına almağa çalışan imperialistlərə qarşı yönəldilmiş xalq-azadlıq hərəkatını alqışlayırdı.

1911-ci ildə ağır xəstəlikdən sonra Şamaxıda vəfat etmiş böyük satirik şairin ilk kitabı 1912-ci ildə "Hophopnamə" adı ilə nəşr olunmuşdur.

Sovet Azərbaycanında dəfələrlə çap edilən "Hophopnamə" İranda, Türkiyədə və İraqda da nəşr olunmuşdur. Bu, bir daha sübut edir ki, indi də şair öz ruhlandırıcı sözləri ilə xalqlara azadlıq və istiqlaliyyət uğrunda mübarizədə kömək edir.

XX əsrin əvvəllərində *N. Nərimanovun* ədəbi yaradıcılığı əsasən publisist istiqamət almışdı. O, özünün məqalə və felyetonlarında Rusiya zəhmətkeşlərinin ən rəzil düşməni hesab etdiyi mütləqiyyətə qarşı çıxırdı.

N.Nərimanovun qələminin məhsulu olan və bədii ədəbiyyatda özünəməxsus yer tutan əsərlərindən biri də onun "Pir" povesti idi (1913). 1915-ci ildə isə o, adi insanların ağır həyatından bəhs edən "Bir kəndin sərgüzəşti" hekayəsini nəşr etdirmişdir.

XX əsr Azərbaycan ədəbiyyatında realizmin inkişafında *Ə.Haqverdiyevin* əsərlərinin də böyük rolu olmuşdur. 1901-ci ildə "Pəri cadu" pyesini başa çatdıran Ə. Haqverdiyev 1907-ci ildə ən böyük əsərlərindən biri - "Ağa Məhəmməd şah Qacar" faciəsini tamamlamışdı. Bu əsərində o, böyük ustalıqla

zülmkar şah obrazı yaratmış, İrandakı despotik quruluşu tənqid atəşinə tutmuşdur. Bu əsər uzun müddət Azərbaycan teatr səhnəsindən düşməmiş və böyük şöhrət qazanmışdı.

Ə.Haqverdiyevin digər pyesi - "Xəyalat" M.F.Axundovun həyat və yaradıcılığına həsr olunmuşdur. 1905-ci, 1905-1911-ci illərdə yazıçı bir neçə başqa dram əsəri də yazmışdı. Ə.Haqverdiyevin nəsr əsərləri içərisində "Molla Nəsrəddin" jurnalının səhifələrində çap olunan "Cəhənnəm məkrubları", "Mozalan bəyin səyahətnaməsi", "Marallarım", "Bomba", "Şeyx Şaban" əsərləri mövzu aktuallığı, yüksək bədii dəyərləri ilə fərqlənir və klassik Azərbaycan nəsrinin çox qiymətli incilərindən sayılır.

Ə.Haqverdiyevin hekayələrində mövcud quruluşun çirkinlikləri, çar məmurlarının və başqa zülmkarların bəd əməlləri, ikiüzlü və tənbəl simalar məharətlə açılıb tənqid edilir, xalqlar dostluğu ideyaları və s. böyük yer tuturdu.

Realist yazıçılar sırasına 1904-1907-ci illərdə qəzet və jurnal səhifələrində xeyli şer, felyeton və məqalələri çap olunmuş *Məmməd Səid Ordubadi* də daxil idi. O, "Molla Nəsrəddin" jurnalında xüsusilə fəal iştirak edirdi. 1907-ci ildə Ordubadinin şeirlər külliyyatı nəşr olunmuşdu. Həmin ildə o, "Bədbəxt milyonçu" əsərini çap etdirmiş, milli roman yaratmaq yolunda qələmini sınamışdı.

"Molla Nəsrəddin" jurnalı ilə realist yazıçılardan *Əliqulu Nəcəfov Qəmküsar* da fəal əməkdaşlıq edirdi. Onun Sabir yaradıcılığının təsiri altında yazdığı satirik əsərləri özünün həyatiliyi və mübarizliyi ilə fərqlənirdi. Şairin bir çox şerləri İran və Türkiyədə baş vermiş inqilabi hadisələrə həsr olunmuşdu.

Bu məktəbin nümayəndələrindən biri də *Əli Nəzmi* olmuşdur. Dövrünün bir çox sosial və ictimai-siyasi problemlərinə toxunan şair "Molla Nəsrəddin" jurnalında satirik şeir və felyetonlarla çıxış etmişdi. Uzun illər boyu jurnalın ətrafına cəmləşmiş yazıçı və şairlər arasında realist maarifçi və məşhur yazıçı *Süleyman Sani Axundov* da var idi. S.S.Axundov 1905-ci il hadisələrinin təsiri altında yazılmış əsərlərində, o cümlədən "Yuxu" və "Qonaqlıq" hekayələrində xalq hakimiyyəti ideyasını təbliğ edirdi. "Dibdat bəy" pyesində o, Peterburq tələbələrinin çarizmə qarşı inqilabi çıxışlarını rəğbətlə təsvir edir, Dövlət Dumasının fəaliyyətini tənqid atəşinə tuturdu. 1912-1913-cü illərdə yazılmış "Qorxulu nağıllar" silsilə hekayələrində mövcud quruluşun çatışmazlıqlarını, sosial ədalətsizliyi, dini fanatizmi ifşa edirdi.

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi kimi tanınmış yazıçı-dramaturq *Nəcəfbəy Vəzirov* 1909-1912-ci illərdə də bir sıra əsərlər yazmış, onlarda ailə və mənəviyyat məsələlərinə toxunmuş, "Keçmişdə qaçaqlar" pyesində isə çar üsuli-idarəsinə, yerli əsarətçilərə öz nifrətini bildirmişdir. O, özünün publisist məqalə və felyetonlarında (1905-1918-ci illər) xalqlar dostluğunu təbliğ edir, fəhlələrin ağır həyat şəraitinin mənzərəsini yaradır, İran despotizmini lənətləyib, Səttarxanın başçılıq etdiyi milli-azadlıq hərəkatını alqışlayırdı.

1915-ci ildə ədəbi fəaliyyətə başlayan, Birinci dünya müharibəsi illərində Sabirin təsiri altında satirik şeirlər yazan *C. Cabbarlı* bir neçə dram əsəri, o cümlədən

"Solğun çiçəklər" pyesini yazmışdı.İlk pyeslərində dramaturq ictimai ədalətsizlik şəraitində qadınların acı həyatını təsvir edirdi. Onun "Nəsrəddin şah" (1916-1918-ci illər) pyesi İrandakı qəddarlığa və zülmə qarşı etirazın bədii ifadəsi idi. Bundan başqa, bu illərdə yazdığı bir sıra hekayələr içərisində "Mənsur və Sitarə" xüsusilə qeyd edilməlidir.

Öz yaradıcılığının ilk illərində *Sultan Məcid Qənizadə* realist ədəbiyyat mövqeyində dayanmış, XX əsrin əvvəllərində yazdığı "Allah xofu" (1906), "Qurban bayramı" (1907) əsərlərində fəhlələrin acı həyatını, xalqın azadlıq uğrunda mübarizəsini əks etdirmişdir.

Bu ədəbi cərəyanın görkəmli nümayəndələrindən biri də *Yusif Vəzir Çəmənzəminli* idi. Onun əsrin əvvəllərində yaratdığı hekayələr Azərbaycan ədəbi nəsrinin parlaq nümunələri idi. Bu hekayələrdə müəllif zəhmətkeşlərin ağır vəziyyətini, qadınların acı taleyini, tələbə həyatının mənzərəsini verir, çar məmurlarının rüşvətxorluğunu ifşa edirdi.

*C.Hacıbəyovun* ədəbi yaradıcılığında, o cümlədən 1909-1911-ci illərdə "Kaspi" qəzetində çap etdirdiyi "Hacı Kərimin səhəri" povestində ədəbiyyatımızın realist ənənələri davam etdirilmişdir. 1911-ci ildə bu povest Bakıda kitabça şəklində, bir qədər sonra isə Vahab Ağaməlibəyovun tərcüməsində fransız dilində nəşr olunmuşdu. Dahi bəstəkar Üzeyir Hacıbəyov "Məşədi İbad" librettosunu yazmaq üçün bu povestdən istifadə etmişdir.

Molla nəsrəddinçilərin mövqeyinə yaxın olan mövqedən çıxış edənlərdən biri də *Seyid Hüseyn* idi. O, öz hekayə və məqalələrində mürtəce qüvvələrin əleyhinə çıxır, qadın azadlığı, dilin təmizliyi uğrunda mübarizə aparır, ictimai bərabərsizliyi ifşa edir, inkişafa və maariflənməyə çağırırdı. O, bədii yaradıcılığa 1907-ci ildə "Ata və oğul" hekayəsi ilə başlamışdır. Yazıçı "Həyat üçün incəsənət" nəzəriyyəsini müdafiə və təbliğ edirdi.

Bu dövrün digər ədəbi cərəyanı romantizm və onun ən görkəmli nümayəndəsi *Əli bəy Hüseynzadə* idi. Şairlərdən A.Müniri, Ə.Müznib, S.Mənsur və başqaları ona yaxın mövqedə olmuşlar. Romantiklərin nümayəndələrinin ədəbi yaradıcılığında tarixi keçmiş, din, xalqın azadlıq və istiqlaliyyət uğrunda mübarizəsi mövzuları əsas yer tuturdu.

Ə.Hüseynzadə özünün ədəbi-estetik baxışları ilə Azərbaycan ədəbiyyatına yeniliklər gətirməyə çalışırdı. O, lirik şeriyyətin yeni formaları, dastan janrının dirçəlməsi məsələləri barəsində danışırdı. Ə.Hüseynzadə tənqiddə və satirik əsərlərdə subyektivizmə mənfi münasibət bəsləyirdi. O, belə hesab edirdi ki, şəxsi mülahizələrə görə bu və ya digər müəllifi gülünc yerə qoymaq ciddi ədəbiyyat üçün nöqsandır. Onun fikrincə, həqiqi satira ictimai ideya daşımalı, şəxsi münasibətlərdən doğan hisslərdən, düşmənçilikdən uzaq olmalıdır. Tənqid hədəfi ayrı-ayrı şəxslər deyil, xalqın və cəmiyyətin nöqsanları olmalıdır. Ə.Hüseynzadə "Molla Nəsrəddin"i belə satirik istiqamətin nümunəsi hesab edərək qeyd edirdi ki, jurnal gülüş, ironiya və satira qələmi vasitəsilə cəmiyyətin çatışmazlıqlarını, nöq-

sanlarını qeyd etməlidir. Müəllif "Molla Nəsrəddin" gülüşünü Qoqolun, Sviftin, Dikkensin kəskin gülüşü ilə yanaşı qoyurdu. Ə.Hüseynzadə məqalələrində realist şair və yazıçıların əsərlərini müsbət qiymətləndirirdi. Onun publisistikasında Cəlil Məmmədquluzadənin realizmi rəğbətlə şərh edilir, Sabir poeziyasının ictimai məzmunu təqdim olunur, həyatın acı həqiqətlərini açan N.B.Vəzirovun felyetonlarının əhəmiyyəti dönə-dönə qeyd edilirdi.

Bunlara bənzər notlar Ə.Hüseynzadənin "Əbdi-Qlaf" (A.P.Çexovun "Qılaflı adam" hekayəsinə həsr etdiyi) povestdə və "Siyasəti-fürusət" traktatında özünü göstərirdi.

Ə.Hüseynzadə realizmin təqlidçi poeziyaya qarşı mübarizədə rolunu dərk etməsinə baxmayaraq, yenə də ədəbiyyat və incəsənətdə romantik hərəkatın ideoloqu idi. Başqa cərəyanlara da ögey münasibət bəsləyən ədib mövcud ictimai şəraitdə qiyamçı etirazını əks etdirən, gələcəyə böyük ümidlərlə dolu Qərbi Avropa romantizmini (Bayron, Şiller və b.) qiymətləndirməklə yanaşı, bədbin mücərrəd romantizmi də bəyənib müdafiə edir, onları dövrün məhsulu hesab edirdi.

Ə.Hüseynzadənin bədii əsərlərinə və publisistikasına azadlıq, bərabərlik, sülh, qardaşlıq ideyaları hopmuşdur. O, çarizmi və Şərq despotizmini, feodal geriliyini, dini fanatizmi tənqid atəşinə tuturdu. Bununla yanaşı, onun dilçilik üzrə mövqeləri mübahisə və polemika səciyyəsi daşıyırdı. 1909-cu ildə "Tərəqqi" qəzetində dərc olunmuş irihəcmli "Yazımız, dilimiz, ikinci ilimiz" adlı məqaləsi böyük mübahisələrə səbəb olmuşdu. Bir qədər sonra isə Ə.Hüseynzadə öz görüşlərinin səhv olduğunu etiraf edirdi.

Romantiklərin başqa bir qrupu M.Hadi, H.Cavid, A.Səhhət, A.Şaiq, A.Divanbəyoğlu və başqalarının şəxsində təmsil olunmuşdu. Onların yaradıcılığında realist ənənələr öz əksini tapırdı.

Mütəfəkkir şair *Məhəmməd Hadinin* bədii irsi orijinal yaradıcılıq xüsusiyyətlərinə malik idi. O, Şərq, o cümlədən Azərbaycan klassiklərinin bilicisi olub, Qərbi Avropa klassiklərinə böyük rəğbət bəsləyirdi. O, Türkiyə ədəbiyyatına dərindən bələd idi, mütərəqqi şairlərdən Tofiq Fikrətin və Namiq Kamalın şeirlərini çox sevirdi. Onun poeziyasında azadlıq, insanpərvərlik arzuları, əsarətə, zorakılığa və ədalətsizliyə qarşı üsyankar etiraz diqqəti cəlb edir. M.Hadi belə hesab edirdi ki, fikir və ideya azadlığı sənətkar üçün ən müqəddəs işdir. O, əsarət altında olan xalqların ədalətsizlik əleyhinə apardığı mübarizəyə və milli-azadlıq hərəkatına hüsn-rəğbət bəsləyən xeyli əsər yazmışdı.

1905-1907-ci illərdə qüvvətli siyasi və mədəni yüksəliş şəraitində Hadi öz şeirlərini müxtəlif mətbuat orqanlarında çap etdirirdi. Şairin bu dövrdəki əsərləri onu realist ədəbiyyata yaxınlaşdırırdı. 1908-ci ildə onun şeirlərinin ilk külliyyatı "Firdovsi-ilhamat" adı altında çapdan çıxdı. Sonrakı illərdə Hadi poeziyası özünün döyüşkənlik ruhunu itirdi, pessimizmə meyilləndi. Türkiyədə mütləqiyyət əleyhinə hərəkatdan ilham alan Hadi 1910-cu ildə İstanbula getmiş, bir sıra Türkiyə qəzet və jurnallarında şeirlərini çap etdirmişdi. Şair Türkiyə Sultanının despotizminə qarşı

çıxışlarına görə Solonikiyə sürgün edilmiş və 1914-cü ildə Bakıya qayıtmışdı. Uzun müddət sərgərdan həyat sürmək Hadinin yaradıcılığında öz əksini tapmışdır. Şairin taleyinə düşmüş Birinci dünya müharibəsində üçillik cəbhə həyatı xüsusilə faciəli olmuşdu. Hadinin poeziyası həddindən artıq fərdiliyi, dilinin qəlizliyi ilə fərqlənirdi. O, ömrünün sonunadək daima həqiqət axtaran şair olaraq qaldı.

XX əsrin əvvəllərində romantizmin görkəmli nümayəndəsi şair və dramaturq *Hüseyn Cavid Rəsizadə* idi.

H.Cavidin ilk şeirləri əsasən məhəbbət lirikası üstündə köklənmişdi. 1909-1912-ci illərdə yaratdığı şeir nümunələrində vətəndaşlıq mövzusu üstünlük təşkil edirdi: çarizmin milli zülmü, mövcud quruluşun çatışmazlıqları, xalq içindən çıxmış insanların faciəsi və s. Bunlarda şairin öz xalqının tarixi keçmişinə münasibəti də öz əksini tapmışdır.

Cavidin ilk şeirlər külliyyatı 1913-cü ildə çapdan çıxmışdı. Bu dövrdə Cavidin yaradıcılığında dramaturgiya mühüm yer tuturdu. O, Azərbaycan ədəbiyyatında şeirlə yazılmış ilk dram əsərinin müəllifidir.

Müəllif "Ana" (1913), "Maral" (1912) və "Şeyda" (1917) pyeslərində şəxsiyyətin azadlığı problemini qaldırmış, düzgünlük, alicənablıq, mərdlik kimi insani keyfiyyətləri tərənnüm etmiş, ailə münasibətlərində köhnəlmiş görüşləri tənqid atəşinə tutmuş, yeniliklə köhnəliyin arasında gedən kəskin mübarizəni göstərmişdi. Cəmiyyətdə olan ictimai əksliklərı nəzərdən keçirən Cavid belə bir nəticəyə gəlmişdi ki, həqiqət yalnız mübarizə yolu ilə qalib gələ bilər,ona görə də mübariz olmaq gərəkdir.

Böyük ustalıqla yazılmış "Şeyx Sənan" (1914) kimi əsəri fanatizmə, insanda olan ən ülvi hissin - məhəbbətin boğulmasına qarşı etiraz ifadə edən dərin fəlsəfi məzmunlu sənət incisidir.

Cavid yaradıcılığında "İblis" faciəsi mühüm yer tutur. Burada dövrünün bütün qəsbkar qüvvələrinin ümumiləşdirilmiş surətini yaratmış dramaturq hiyləgərliyə, zorakılığa, qəsbkar müharibələrə özünün nifrətini izhar etmişdir.

Cavid Azərbaycan dramaturgiyasında yeni mərhələnin əsasını qoydu, milli teatr mədəniyyətinin inkişafına güclü təkan verdi. Onun dramaturgiyasında ümumbəşəri əhəmiyyətə malik olan vacib problemlər öz əksini tapdı.

Azərbaycan poeziyasının istedadlı nümayəndələrindən biri də *Abbas Səhhət* idi. Onun lirik əsərləri vətənə hədsiz məhəbbətlə yoğrulmuşdur. Səhhət Azərbaycan ədəbiyyatında vətən təbiətinin parlaq tərənnümçüsü, eyni zamanda ictimai çatışmazlıqların bacarıqlı tənqidçisi idi. Səhhət öz əsərlərini müxtəlif qəzet və jurnallarda çap etdirirdi. 1912-ci ildə onun şerlər külliyyatı çapdan çıxdı. 1908-1912-ci illərdə şair özünün ədəbi yaradıcılığında mühüm yer tutan realist əsərlər yaratdı. "Əhmədin qeyrəti" poemasında şair Bakı fəhlələrinin ağır əmək və həyat şəraitini, Cənubi Azərbaycan əhalisinin İran despotizminə qarşı mübarizəsini əks etdirməyə çalışmışdı. Onun yaradıcılığında xurafatın və dini fanatizmin tənqidinə geniş yer verilmişdi. A.Səhhət eyni zamanda uşaqlar üçün əsərlər (lirik şeirlər, pyeslər, təmsillər) yazmış görkəmli pedaqoq kimi də məşhur idi.

Realist və romantik meyillərin çulğalaşması *Abdulla Şaiq* yaradıcılığı üçün

səciyyəvidir. Onun bir sıra lirik şeirlərində köhnə dünya ilə barışmazlıq hiss olunur. Bunu "Məktub yetişmədi" hekayəsində daha parlaq şəkildə görürük.

Uşaq ədəbiyyatının inkişafında A.Şaiqin böyük rolu olmuş, o, bu yaradıcılıqla 1910-1911-ci illərdə daha çox fəallıq göstərmişdi.

Uşaq ədəbiyyatı A.Səhhət, A.Şaiq, M.Ə.Sabir, Cəlil Məmmədquluzadə və S.S.Axundovun qələmindən çıxmış bir sıra əsərlər sayəsində XX əsrin əvvəllərində ədəbi fəaliyyətin müstəqil istiqaməti kimi meydana çıxdı. Sənətin bu çətin sahəsi gənc nəsildə vətən məhəbbəti, elmə, təbiətə sevgi, sosial ədalətsizliyə qarşı etiraz hissləri aşılayıb, onları işıqlı gənclik kimi tərbiyə etmək istəyirdi.

Öz yaradıcı fəaliyyətinə 1902-ci ildə başlamış *Abdulla bəy Divanbəyoğlu* (Sübhanverdiyev) romantik yazıçı idi. O, özünün "Duman", "Dan ulduzu", "Can yanğısı", "Cəng" və s. kimi povest və hekayələrində özbaşınalığı, zorakılığı ifşa hədəfi seçir, yoxsul Azərbaycan kəndlilərinin və ziyalılarının ağır həyatını təsvir edirdi.

*Haşım bəy Vəzirov* məişət mövzusunda bir neçə məzhəkə yazmış, çoxsaylı felyetonlarında feodal-patriarxal münasibətlərə, şahidi olduğu müstəmləkə üsuli-idarəsinə qarşı tənqidi münasibət ifadə etmişdi.

1913-cü ildən başlayaraq şeirlərini çap etdirməyə başlayan istedadlı şair *Əhməd Cavadın* ilk kitabı 1916-cı ildə nəşr olundu. Onun yaradıcılığı üçün romantik lirika səciyyəvi idi.

Beləliklə, XX əsrin əvvəllərində mətbuat və ədəbiyyat Azərbaycanın ictimai-siyasi və mədəni həyatını əks etdirir, 1905-1907-ci illər inqilabi hərəkatının təsiri altında mütləqiyyəti, polis sistemini, çarizmin milli-müstəmləkə zülmünü tənqid atəşinə tutur, zəhmətkeş kütlənin ağır iş şəraiti və güzəranına biganə qalmırdı. Bununla yanaşı, mətbuat və ədəbiyyat nümayəndələri ölkənin ictimai-siyasi həyatında baş verən mühüm hadisələrə (17 Oktyabr Manifesti, Dövlət duması və s.), Rusiya fəhlə hərəkatının məqsəd və vəzifələrinə, Rusiyanın gələcək dövlət quruluşu və s. məsələlərə müxtəlif mövqelərdən yanaşırdılar. Mətbuatda və ədəbiyyatda rus çarizminin, Qərb dövlətlərinin qəsbkar planlarının, həmçinin İran və Türkiyədə mütləqiyyət quruluşunun tənqidinə də geniş yer verilirdi.

Bu dövrdə realist ədəbiyyat sürətlə inkişaf edir, romantik sənətkarlar yetişir, hətta simvolizm, futurizm kimi cərəyanlara qoşulanlar da olurdu.

Qəzet və jurnalların demək olar ki, hər sayında müxtəlif ədəbiyyat məsələlərinə dair məqalələr verilir, onların bir çoxunda ədəbiyyat və incəsənət tənqidi şöbələri fəaliyyət göstərirdi. Bu şöbələrdə müxtəlif əsərlər haqqında ayrı-ayrı məqalələr, tənqidi xülasələr dərc olunur, ədəbiyyat tarixi və nəzəriyyəsi məsələləri nəzərdən keçirilir, keçmiş irsə, ədəbi ənənələrə münasibətdə bədii sözün və sənətin tərbiyəvi rolu qeyd olunurdu.

Azərbaycanda ədəbi dil problemləri də diqqət mərkəzində idi. Bu istiqamətin inkişafında mütərəqqi ədəbiyyat, incəsənət və mətbuat xadimlərinin, o cümlədən Ə.Haqverdiyev, S.S.Axundov, N.Vəzirov, Ü.Hacıbəyov, F.Köçərli, C.Məmmədquluzadə, N.Nərimanov, M.Ə.Sabirin və A.Səhhətin böyük xidməti

olmuşdu.

"Molla Nəsrəddin" jurnalının sadə, asan başa düşülən və lakonik dil üslubunun bu istiqamətdə böyük rolu olmuşdu. Onun redaktoru C.Məmmədquluzadənin əsərlərinin dili də əsil xalq dili olub, ədəbiyyata milli dilimizin zənginliyini gətirmişdi. Bu sahədə Ü.Hacıbəyovun da ədəbi və musiqi əsərlərinin mətn (libretto) dili, jurnalistlik fəaliyyəti nümunə ola bilər. O, qəzet redaktoru kimi sadə, hamının başa düşə biləcəyi bir dildə yazmağı tələb edir, özü də bu işdə nümunə göstərirdi. Ü.Hacıbəyov bu istiqamətdə gördüyü işi inkişaf etdirmək məqsədilə Bakıda "Vətən dili" adlı qəzet nəşr etmək istəyirdi.

Azərbaycan dili elmi əsərlərin də dilinə çevrilirdi. Azərbaycan xalq təhsili xadimlərinin hazırladığı dərs vəsaitləri də doğma dilin ədəbi normalarının inkişafına xidmət edirdi.

Milli mətbuat orqanlarının səhifələrində Azərbaycan ədəbi dili məsələsi üzrə kəskin mübahisələrə yol verilirdi. Bu istiqamətdə H.Zərdabinin, S.M.Qənizadənin, Ü.Hacıbəyovun, F.Köçərlinin, C.Məmmədquluzadənin, N.Nərimanovun məqalələrinin böyük əhəmiyyəti var idi. Bu məqalələrdə milli dili inkişaf etdirmədən milli mədəniyyəti inkişaf etdirməyin mümkün olmadığı qeyd olunurdu.

Xalq dilinin özünəməxsusluğunu rusdilli mətbuatın səhifələrində S.Ağamalıoğlu, H.Qabulov, H.Minasazov, M.Qarayev, R.Məlikov, E.Sultanov və b. müdafiə edirdilər.

XX əsrin əvvəllərində Azərbaycan elmi fikri də inkişaf edirdi. Görkəmli darvinşünas alim, Azərbaycanda müasir elmi biologiya, təbabətin və təbiətşünaslığın əsasını qoymuş H.Zərdabi təbii elmlər sahəsində əldə olunmuş nailiyyətləri təbliğ etməkdə böyük iş görürdü.

Biologiya, kənd təsərrüfatı, tibbi biliklərin yayılmasında alimlərdən Məmməd Tağı Əliyev, Abdulxalıq və Bəhram Axundovlar fəal iştirak edirdilər. N.Nərimanov tibb sahəsində elmi-kütləvi əsərlər nəşr etdirmişdi. Dəmir yol və tərsanə tikintisi üzrə ixtiraçı alimlər Xudadat bəy Məlikaslanov və Fətəli bəy Sultanov bir sıra maraqlı layihələr işləyib hazırlamış, paytaxt jurnallarında elmi məqalələr nəşr etdirmişdilər.

1905-ci ildə Mustafa bəy Əlibəyovun Azərbaycan dilində Bakı neftinə həsr olunmuş ilk kitabı çıxdı.

1912-ci ildə Moskva Universitetinin məzunu M.Y.Cəfərov hüquq elmləri üzrə elmi dərəcə almışdı.

Ə.Ağayev və Ə.Hüseynzadə elmi ictimaiyyət arasında da böyük nüfuz sahibləri kimi hələ XIX əsrin sonlarından geniş şöhrət qazanmışdılar.

Paris Sorbonna Universitetinin məzunu olan Ə.Ağayev bir neçə xarici dil bilirdi. Şərqşünas, ədəbiyyatşünas, tənqidçi alim kimi onu təkcə Rusiyada deyil, Yaxın və Orta Şərqdə, Qərbi Avropada da yaxşı tanıyırdılar. Onun tədqiqat dairəsi olduqca geniş idi: antik fəlsəfə və ədəbiyyat, zərdüştilik və "Avesta", Şərq, rus və Qərbi Avropa klassikası, Yaxın və Orta Şərqin sosial və mədəni problemləri, Rusiyada və Şərq

ölkələrində ictimai-siyasi hərəkatlar və s.

Ə.Ağayev görkəmli publisist və islamşünas alim idi. O, ibn Rüşd, Təbəri, Dante, Lüter, Konfutsi, Höte, Tolstoy, Spenser, eləcə də digər alim və mütəfəkkirlərin zəngin irsindən bəhrələnərək, islamşünaslıq elminin siyasi, ideoloji, etnik, iqtisadi, hüquqi-fəlsəfi cəhətlərinə toxunaraq, mənəvi və ictimai mahiyyətini açır və təsdiq edirdi ki, İslam hər hansı bir millətin inkişafına tamamilə uyğun gəlir.

Öz dövrünün çox tanınmış mütəfəkkirlərindən biri Əli bəy Hüseynzadə Şərq və Qərb ölkələrində şöhrət qazanmışdı. Ə.Hüseynzadə Peterburq Universitetinin fizika-təbiət fakültəsində oxumuş, Şərq fakültəsində mühazirələr dinləmişdi. Daha sonra o, İstanbul Universitetinin tibb fakültəsini bitirmiş, onun professoru olmuşdu. Ərəb, fars, ingilis və alman dillərini bilirdi. Ə.Hüseynzadə dünya ədəbiyyatının, fəlsəfəsinin, dinlərinin (Homer, Dante, Vergili, Xəyyam, Sədi, Füzuli, Şekspir, Höte, Şiller, Bayron, Budda, Kant, Şopenhauer, Hartman, Fihte, Spenser, Tolstoy) bilicisi olmuşdur. Onun elmi yaradıcılığında sosiologiya və tarix, fizika və təbiətşünaslıq, ədəbiyyatşünaslıq və fəlsəfə, psixologiya və dilçilik, etnoqrafiya və arxeologiya məsələləri öz əksini tapmışdır.

C.Məmmədquluzadə hərtərəfli və dərin biliyə malik şəxsiyyət idi. O, Sokrat, Kant, Spinoza, Holbax, Leybnits, Şekspir, Şiller, Qlinka, Bethoven, Derjavin, Puşkin, Zərdüşt, Mani haqqında, müxtəlif fəlsəfi-dini, ictimai-siyasi cərəyanlar barəsində məqalələr yazmış, ümumbəşəri elmi təfəkkürün nailiyyətlərini təbliğ etməyə çalışmışdı.

XX əsrin əvvəlinin tarixşünaslığı Rəşid bəy İsmayılovun "Qafqazın qısa tarixi" (Tiflis, 1904), Hacı Şeyx Həsən Mollazadə Gəncəvinin 1905-1913-cü illərdə nəşr olunmuş dördcildlik "Zübdət ül-təvarix" ("Tarixlərin qaymağı"), Mirzə Rəhim Fənanın "Qarabağın yeni tarixi" (1912-ci ildə yazılmışdı) əsərlərilə zənginləşdi.

N.Nərimanovun da əsərlərində tarixi mövzulara müəyyən dərəcədə yer verilmişdir.

XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan elmi fikrinin görkəmli nümayəndələri sırasında M.Şahtaxtinski fərqlənirdi. Tarixçi, şərqşünas, etnoqraf olan M.Ə.Şahtaxtinski Sorbonna Universitetinin fəlsəfə, tarix və hüquq fakültəsini bitirmiş, ərəb, fars, rus, fransız, alman dillərini kamil öyrənmişdi. Onun ilk elmi əsərlərini xarici alimlər rəğbətlə qarşılamış və yüksək qiymətləndirmişdilər. 1898-ci ildən başlayaraq beş il ərzində dünya elminin aparıcı mərkəzlərindən biri olan Parisdə Şərq dilləri problemi üzərində çalışan M.Ə.Şahtaxtinskinin əsərləri Fransanın elmi ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilmişdi. O, Şərq dillərini tədris etmək üçün Sorbonna Universitetinə dəvət olunmuşdu.

İbrahim ağa Vəkilov görkəmli alim, hərbi-topoqrafiya elmi üzrə görkəmli mütəxəssis idi. Peterburq hərbi-topoqrafiya məktəbində çalışan Məmməd Qasım Əliyev Şimali Mancuriyanın və Finlandiyanın topoqrafik coğrafiyasını tədqiq etməyə dəvət olunmuşdu.

1910-cu ildə Qafur Rəşad Mirzəzadənin Qafqazın coğrafiyasına dair kitabı nəşr

olunmuşdu. 1914-1915-ci illərdə Yusif Əliyevin və Fərhad Ağazadənin Avropa ölkələrinə həsr olunmuş coğrafiya əsərləri çap edilmişdi.

XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatı tarixi elminin təşəkkülü ilə əlamətdardır. Onun əsasını F.Köçərli qoymuşdu. 1903-cü ildə Tiflisdə bu barədə ilk kitabını rus dilində buraxdıran görkəmli ədəbiyyatşünas 1908-ci ildə "Azərbaycan türklərinin ədəbiyyatı" adlı üççildlik əsəri üzərində işi başa çatdırdı. F.Köçərli doğma ədəbiyyatın təbliğinə böyük əhəmiyyət verir, hesab edirdi ki, hər bir xalqın ədəbiyyatı ilə tanış olub, onun həyatı, inkişaf səviyyəsi, yetkinlik dərəcəsi, mənəvi qüdrəti və zənginliyi barədə fikir yürütmək mümkündür.

Azərbaycan ədəbiyyatı tarixi ilə Abdulla Sur da məşğul olmuş, tədqiqatını 1908-ci ildə yekunlaşdıraraq üççildlik "Türk ədəbiyyatı tarixi" əsərini nəşr etdirmişdi. Bu istiqamətdə M.M.Nəvvab da xeyli iş görmüşdü. Onun XIX əsr Qarabağ şairlərinə həsr olunmuş təzkirəsi böyük maraq doğurur. Bu təzkirəyə yüzdən artıq şairin tərcümeyi-halı və onların ən yaxşı əsərlərindən parçalar daxil edilmişdi.

Ədəbiyyat tarixinin tədqiqi Ceyhun Hacıbəyovun yaradıcılığında əhəmiyyətli yer tuturdu. O, ilk dəfə Azərbaycanın qadın şairlərinin irsini toplayıb öyrənmiş, onları rus dilinə tərcümə etmiş və 1911-ci ildə "Kaspi" qəzetində "Azərbaycan gülləri" adlı məqaləsilə birlikdə dərc etdirmiş, sonralar isə fransız dilində Parisdə ayrıca kitab kimi buraxdırmışdı. C.Hacıbəyov Azərbaycan klassikləri haqqında yazmış, ədəbiyyatın nəzəri məsələləri ilə məşğul olmuş, dünya ədəbiyyatı məsələlərinə toxunmuş, ədəbiyyatın ictimai vəzifələrini, onun mühüm tərbiyəvi əhəmiyyətini vurğulamışdı.

C.Hacıbəyov ilk dəfə Azərbaycanda yeni türk ədəbiyyatının geniş təfsilatını qələmə almış, burada Tofiq Fikrətin poeziyası, azadlıq ideyalarını yaymaqda onun roluna xüsusi diqqət vermişdi. Parisdə təhsil aldığı müddətdə C.Hacıbəyov Fransa ədəbiyyatı, mədəniyyəti və fəlsəfəsini dərindən öyrənmişdi.

Ədəbi tənqid və ədəbiyyatşünaslıq məsələlərinə N.Nərimanov, Seyid Hüseyn, C.Məmmədquluzadə, M.T.Sidqi, M.Hadi də bir sıra əsərlər həsr etmiş, H.Zərdabi, Ə.Haqverdiyev, N.Vəzirov və A.Şaiq öz yaradıcılığında onlara müəyyən yer vermişdilər.

Azərbaycan xalqının qədim və zəngin folkloru da diqqətdən kənarda qalmır, yazılı ədəbi nümunələrlə birlikdə tədqiq olunurdu. Şifahi xalq yaradıcılığına dair materialların toplanmasında və tədqiqində T.Bayraməlibəyov, M.V.Qəmərli, F.Köçərli, M.F.Musəvi, A.Şaiq və başqaları böyük əmək sərf edirdilər. 1913-cü ildə "İqbal" qəzetində çap olunmuş "Dilimiz və ədəbiyyatımız" məqaləsində A.Şaiq milli folklor nümunələrini toplamağın, onları tədqiq və nəşr etdirməyin böyük əhəmiyyətini qeyd etmişdi.

XIX əsrin sonu - XX əsrin əvvəllərində dilçilik elmi xeyli inkişaf etmişdi. Böyük dilçi alim S.M.Qənizadə Azərbaycan, rus, fars və ərəb dilləri üzrə bir çox vəsaitin müəllifidir. O, 1890-1904-cü illərdə Azərbaycan-rus dili lüğətləri tərtib etmiş, elmi-pedaqoji əsərlər yaratmışdır.

Yeni əsrin əvvəllərində A.Səhhət, S.S.Axundov, A.Şaiq, M.Mahmudbəyov ana dili və ədəbiyyatı dərslikləri hazırlamışdılar. Azərbaycan

dilinin tarixi, qrammatik quruluşu, lüğət fondu və s. məsələləri özündə əks etdirən bu dərsliklərin dilçilik elminin inkişafında böyük rolu olmuşdur.

Şair, maarif xadimi, Naxçıvanda yeni tipli məktəbin yaradıcısı olan M.Sidqi pedaqogika elminin nəzəriyyəçisi kimi də məşhur idi. O, həmçinin əxlaq və mənəviyyat barəsində bir çox elmi-fəlsəfi əsərlərin də müəllifidir.

XX əsrin əvvəllərində görkəmli mətbuat xadimləri, publisistlər, şairlər, yazıçılar, alimlər, ədəbiyyatşünaslar Azərbaycan xalqının ictimai-siyasi və fəlsəfi fikrinin təmsilçiləri idilər. Onlar öz sələflərinin irsini yeni ideyalarla zənginləşdirirdilər. Bu işdə dahi satirik şair M.Ə.Sabirin xüsusi əməyi olmuşdur.

XX əsrin əvvəllərində rus tarixçi-qafqazşünasları V.İ.İvanenko, S.Esadze, V.Potto, P.İ.Kovalevski və başqalarının Zaqafqaziya ilə bağlı əsərləri nəşr olunmuşdu. Bu əsərlərdə Azərbaycan xalqının tarixinin bəzi məsələlərinə də toxunulmuşdu. İ.L.Seqalın, S.M.Avalianinin, O.Syominin, Q.E.Startsevin, V.Simonoviçin əsərləri isə bilavasitə Azərbaycan neft sənayesinin inkişafına və aqrar məsələlərə həsr edilmişdi.

Neft haqqında elmin inkişafında qabaqcıl rus alimləri mühüm rol oynamışdılar. Görkəmli geoloq alimlərdən V.Qolubyatnikov və İ.M.Qubkinin Azərbaycanda neft yataqlarının geoloji cəhətdən öyrənilməsində böyük xidmətləri olmuşdur.

XX əsrin əvvəlləri Azərbaycan memarlıq sənətinin inkişafında da əhəmiyyətli irəliləyişlər mərhələsi idi.

Azərbaycanda, xüsusilə Bakıda kapitalizm dövründə şəhərsalma mədəniyyəti yeni inkişaf mərhələsinə qədəm qoymuş, yeni memarlıq məktəbinin formalaşmasında görkəmli memarlar nəslinin uzun illər boyu apardığı axtarışların önəmli əhəmiyyəti olmuşdu. Bu məktəbin nümayəndələri kökləri ilə tarixin dərinliklərindən gələn Azərbaycan xalq memarlığı ənənələrini Avropa memarlıq ənənələri ilə zənginləşdirirdilər.

XX əsrin əvvəllərində Bakıda fəaliyyət göstərmiş istedadlı memarlar - 1902-ci ildə Peterburq Mülki Mühəndislər İnstitutunu bitirmiş ilk azərbaycanlı mühəndis-memar Zivər bəy Əhmədbəyov, İ.Q.Hacınski, N.Q.Babayev, K.A.Borisoqlebski, D.D.Buynov, İ.V.Qoslavski, K.B.Skureviç, İ.K.Ploşko və Q.M.Qermikelov xeyli iş görmüşdülər. Onların yaradıcılığındakı milli-romantik istiqamət Azərbaycan memarlığında yeni inkişaf mərhələsinə çevrildi. XX əsrin əvvəlində M.Nağıyevin "İsmailiyyə" binasının, H.Z.Tağıyev və M.Muxtarova məxsus sarayların - memarlıq incilərinin tikilməsi yeni mərhələni xarakterizə edirdi. Şəhər Dumasının, ictimai məclisin, Opera və Balet Teatrının gözəl tərtibatlı binaları istifadəyə verildi. Din ocaqları -"Təzə pir" məscidi, polyak kilsəsi və yəhudi sinaqoqu, Tağıyevin qız məktəbi, realnı məktəb, kişi gimnaziyası. Kommersiya məktəbi, "Səadət" məktəbinin binaları Bakının yaraşığı oldu. Bir sıra tibb müəssisələri, o cümlədən uşaq xəstəxanası və Musa Nağıyevin xəstəxanası tikildi.

Ticarət, maliyyə və xidmət dairələri binaları sırasına (Tiflis kommersiya bankı və Şimal bankı) "Yeni Avropa" mehmanxanası (M.Nağıyev), Olginsk ticarət sıraları, bazar-

passaj binaları daxil oldu. 1903-cü ildə şəhərin dənizkənarı hissəsinin (bulvar) abadlaşdırılmasına başlandı. Şəhərdə yanaşı binaların tikintisi sürətləndi. Bunların bir çoxu memarlıq cəhətdən çox qiymətlidir (M.Nağıyev, K.A.Hacıyev, Sadıxovlar, Hacınski və b. məxsus binalar).

Bu nöqteyi-nəzərdən Bakı ətrafında kapitalistlərin (Ş.Əsədullayev, T.Aşurbəyov, İ.Hacınski və b.) tikdirdikləri istirahət ocaqları (villalar), Axund Əbu Turabın Mərdəkandakı mavzoleyi diqqətəlayiqdir. Milli memarlıq məktəbinin nümayəndəsi Məşədi Qafar İsmayılovun tikdirdiyi binalar milli memarlıq abidələridir. Bakıdakı möhtəşəm binaların çoxu İmran Hacı Qasımov tərəfindən inşa edilmişdi.

Şəhərin memarlıq tikintilərində aparıcı rol mülki şəxslərə məxsus idi. H.Z.Tağıyevin sifarişi ilə onun sarayı, müsəlman qız məktəbi, teatr (yanğından sonra), texniki məktəb, həmçinin toxuculuq fabriki və onun ətrafındakı fəhlə yaşayış məntəqəsi İ.V.Qoslavskinin layihələri əsasında tikilmişdi. Bu memar Bakı Şəhər Duması binasının da müəllifi olmuşdur.

Məşhur Bakı sahibkarları M.Nağıyev və M.Muxtarovun sarayları İ.K.Ploşko, Mayılov teatrı M.Q.Bayev, əsrarəngiz dini tikililər ("Təzə pir" və Əjdər bəy Aşurbəyovun məscidləri) Əhmədbəyov Zivər bəy Gəray oğlu tərəfindən tikilmişdir.

Bu memarlıq sənəti abidələrinin fenomenallığı onların çox qısa müddətdə tikilməsində idi. Memarların layihələri ilə Gəncədə, Şəkidə və başqa şəhərlərdə də binalar inşa edilmişdi. Z.G.Əhmədbəyovun layihələrilə Göyçayda (1906), Şamaxıda (1909) məscidlər tikilmişdi. Onun Ploşko ilə birlikdə Şamaxıda tikdiyi (1909-1918) "Cümə məscidi" gözəl memarlıq abidəsi idi.

Əsrin başlanğıcında milli teatr sənəti özünün yüksək inkişaf mərhələsinə qədəm qoydu. Daimi teatr truppalarının yaradılması mühüm əhəmiyyət kəsb edirdi. Onlardan biri Müsəlman Dram Artistlərinin Cəmiyyəti adlanırdı. Ə.Haqverdiyev ona həm başçılıq, həm də rejissorluq edirdi. Bu truppaların fəaliyyətində N.Vəzirov və N.Nərimanov da iştirak edirdilər.

1906-cı ildə "Təkamül" qəzeti nəzdində həvəskarların "Həmiyyət" qrupu və İ.Əbilovun Bakı müsəlman dram dərnəyi yaradıldı. Fəhlə rayonlarında çıxış edən "Həmiyyət" qrupunun tərkibinə M.Əliyev, A.Rzayev, C.Hacınski, H.Ərəblinski və b. daxil idilər. "Balaxanı dərnəyi" də xeyli iş görürdü. Onun rejissoru H.Ərəblinski idi.

Milli teatr sənətinin inkişafında maarif cəmiyyətinin Nicatın mühüm rolu olmuşdu. Onun nəzdində aktyor və jurnalist Mehdi bəy Hacınskinin başçılıq etdiyi teatr bölməsi var idi.

Maarif cəmiyyəti "Səfa"nın nəzdində 1912-ci ildən teatr qrupu fəaliyyət göstərirdi ki, ona da 1914-cü ildən C.Zeynalov rəhbərlik edirdi.

Yeni əsrin əvvəllərində ilk peşəkar aktyor birlikləri yaranmağa başladı. Onlardan biri Müsəlman Dram Cəmiyyəti (1916) aktyorların peşəkarlığının yüksəldilməsi, onların ustalığının təkmilləşdirilməsi məsələlərinə daim diqqət verirdi. Azərbaycan teatrının repertuarı getdikcə zənginləşirdi. Milli müəlliflərin əsərləri ilə yanaşı, rus, Qərbi Avropa, Şərq dramaturgiyası əsərlərinə də diqqət verilirdi. Lakin

milli səhnə əsərləri üstünlük təşkil edirdi. Əgər 1907-ci ildə Tiflis Nəşriyyat Komitəsi qarşısında altı əsərin tamaşaya qoyulması barəsində vəsatət qaldırılmışdısa, 1912-1913-cü illərdə on beş, 1916-cı ildə isə on yeddi əsərin tamaşaya qoyulması barəsində məsələ qaldırılmışdı.

Bütün bu tədbirlər Hacı Ağa Abbasov, Mirzəağa Əliyev, Hüseyn Ərəblinski, Cahangir Zeynalov, Əbülfət Vəliyev (Vəli), Mir Mahmud Kazımovski, Mehdi bəy Hacınski, Muxtar Məlikov (Əlvəndi), Murad Muradov, Hüseynqulu Rzayev, Sidqi Ruhulla, Abbas Mirzə Şərifzadə və başqa bu kimi istedadlı aktyorların yetişməsinə kömək edirdi. 1910-cu ildə Azərbaycan teatrının yaranmasında böyük xidmətləri olmuş C.Zeynalovun səhnə fəaliyyətinin 25 illiyi qeyd edildi.

Teatr tariximizdə milli səhnənin ilk peşəkar aktyoru olan H.Ərəblinskinin xüsusi yeri var. Azərbaycan dramaturgiyasının qayğıkeş təbliğatçısı olan dahi aktyor öz yaradıcılığında rus və Qərbi Avropa klassiklərinə geniş yer vermiş, Azərbaycan tamaşaçısını ilk dəfə Molyerin, Şillerin, Heynenin, Volterin qəhrəmanları ilə tanış etmişdir. H.Ərəblinski həm də istedadlı rejissor və teatr təşkilatçısı idi. Bütün bunlar ona geniş şöhrət qazandırmışdı. H.Ərəblinskinin yaradıcılığı Orta Asiyada, Şimali Qafqazda, Volqaboyunun türk xalqlarında, həmçinin İranda teatrın dirçəlməsinə güclü təkan vermişdi. O, 1916-cı ildə nümayiş etdirilmiş "Neft və milyonlar səltənətində" adlı ilk Azərbaycan filminin yaradılmasında fəal iştirak etmişdi.

Teatrın inkişafında dramaturq, rejissor, aktyor, teatrşünas, həm də bacarıqlı teatr təşkilatçısı kimi böyük rol oynayan N.Nərimanov həm də milli səhnənin bütün görkəmli xadimlərini özündə birləşdirən Türk Artistləri İttifaqının yaradılmasının təşəbbüskarı olmuşdu.

Azərbaycanın mədəniyyət xadimləri teatra xalqın maarifləndirilməsində qüdrətli vasitə kimi baxırdılar. Azərbaycanın digər şəhərlərində - Şuşa, Gəncə, Şəki, Şamaxı, Quba, Naxçıvan və Salyanda fəaliyyət göstərən teatr kollektivlərinin fəaliyyəti böyük əhəmiyyət kəsb edirdi. XX əsrin əvvəllərində bu şəhərlərdə teatr həyatı xeyli canlanmış, yaradıcı kollektivlərin səhnəyə qoyduqları pyeslərin sayı da artmışdı. 1904-cü ildə Şuşa səhnəsində ilk dəfə Şekspirin "Otello"su tamaşaya qoyuldu.

Azərbaycan sənətkarları ilə yanaşı, rus və digər əcnəbi müəlliflərin əsərləri də Gəncə şəhəri səhnəsində özünə geniş yer tutmuşdu. 1906-cı ilin avqustunda burada Ələsgər bəy Xasməmmədovun başçılığı ilə Müsəlman Dram Cəmiyyəti yaradılmışdı. Onun idarə heyətinə Mirzə Mahmud Axundzadə, Məmməd Bağır Şıxzamanov, Rüstəm bəy Mirzəzadə, Talıb bəy Məmmədzadə daxil idilər.

Əsrin başlanğıcından etibarən yerli həvəskar aktyorlar Salyanda da tamaşalar qoymağa başladılar. Teatr həvəskarlarının sayı başqa şəhərlərdə də artırdı. 1917-ci ildə Naxçıvanda "El güzgüsü" teatr cəmiyyəti təşkil edildi. Rza Təhmasib, Əliqulu Qəmküsar yerli teatrın görkəmli xadimləri idilər. XIX əsrin sonlarında Tiflisdə və İrəvanda yaradılmış milli dram qrupları öz fəaliyyətlərini genişləndirirdilər.

Bakının mədəni həyatında V.İ.Vasilyev-Vyatski, və V.İ.Nikulinin teatr qrupları görkəmli rol oynayırdı. Bu kollektivlərin səyi nəticəsində Azərbaycan dramaturqlarının (o

cümlədən N.Nərimanovun "Nadir şah" pyesi) əsərləri ilk dəfə rus dilində tamaşaya qoyuldu. S.İ.Valentinov Azərbaycan aktyor qruplarına rejissor köməyi göstərirdi. Azərbaycan milli dram kollektivlərində Azərbaycan dilini bilən rus aktyorları da var idi.

XIX əsrin 90-cı illərinin sonunda azərbaycanlı qızlar səhnədə görünməyə başladı. 1898-ci ildə M.F.Axundovun Gəncədə tamaşaya qoyulmuş "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasında qadın rollarını Mina xanım, həmçinin Rübaba və Məryəm İsgəndər qızı Mirzəyeva bacıları ifa etmişdilər. Tiflisdə ilk dəfə teatr tamaşasında Gövhər xanım çıxış etmişdi. Tiflis Azərbaycan teatrının görkəmli xadimi M.A.Abbasov qızı Diləfruz xanımı səhnəyə cəlb etmişdi. 1914-cü ildə Bakıda tamaşaya qoyulmuş Şekspirin "Otello"sunda Dezdemona rolunu Gülsabah xanım ifa etmişdi. O, 1916-cı ildə Gülbahar xanımla başqa bir pyesdə də iştirak etmişdi. Bütün bunlar, azərbaycanlı qadınların ilk, lakin peşəkar sənət yolunda atdığı sınaq addımları idi.

Azərbaycan teatrı nadanlığa, xurafata, xalqın inkişafına mane olan köhnə qalıqlara qarşı mübarizə kürsüsünə çevrilmişdi.

Azərbaycanda teatrşünaslıq da inkişaf edirdi. Onun milli və rus mətbuatında çıxış edən Ə.Ağayev, M.S.Axundov, H.Vəzirov, M.Hacınski, Q.İ.Qasımov, F.Köçərli, R.Məlikov və H.Minasazov kimi nümayəndələri var idi, onlar Azərbaycan dramaturgiyası və teatr tənqidinin inkişafında mühüm rol oynayırdılar.

Azərbaycan teatrı ictimai-mədəni inkişafın mühüm göstəricilərindən biri idi. Zaman keçdikcə milli teatrın fəaliyyəti, onun köhnə dünyaya, həyatın eybəcərliklərinə qarşı mübarizəsi, xalqın həyatını yeniləşdirmək uğrunda çalışması ictimai əhəmiyyət kəsb edirdi. Azərbaycan teatrı insanların gözünü açır, onları tərəqqi yoluna çağırır, onların təhkimçilikdən ruhən azad olmasına kömək edirdi.

Teatr sənəti milli özünüdərketmənin əhəmiyyətli vasitəsinə çevrilirdi. Teatr inkişaf etdikcə, dövrün aktyor və teatr xadimlərinin peşəkarlıq səviyyəsi də artırdı.

Azərbaycan teatrı həm mənəvi, həm də maddi cəhətdən xeyriyyəçilik məqsədləri ilə bağlı idi. Müstəmləkəçilik şəraitində yaşayan xalqın güzəranı ağır, maddi imkanları olduqca məhdud idi. Ona görə də teatr tamaşalarından əldə olunan vəsaitdən daha çox məktəblər, kitabxanalar, klublar açmaq, kasıb şagirdlərə, tələbələrə kömək etmək üçün istifadə olunurdu. Əslində teatrın özü də cəmiyyətin qabaqcıl qüvvələrinin xeyriyyəçiliyi hesabına yaşayır, maddi çətinliklər, kasıbçılıq içində olsa da, özünün mənəvi qüdrəti ilə xalqın mənəvi zənginləşməsi və mədəni tərəqqisi mənbələrindən biri idi. Məhz buna görə də teatrın ən görkəmli təşkilatçı və himayəçilərinin maarif xadimləri, xalq müəllimləri, ədəbiyyatçılar və jurnalistlər olması təsadüfi deyildi.

XX əsrin əvvəli Azərbaycan musiqi sənətinin də inkişafında yeni bir mərhələ oldu. Azərbaycan musiqisi iki istiqamətdə inkişaf edirdi. Onlardan biri xalq həyatı ilə sıx bağlı olan və peşəkar aşıqlar tərəfindən inkişaf etdirilən aşıq yaradıcılığı, digəri isə xanəndə və sazəndələrin yaradıcılığı idi. XX əsrin əvvəllərində xalq yaradıcılığının ictimai mahiyyəti xeyli zənginləşdi. Məhəbbət, gözəllik və s. haqqında şeirlərlə yanaşı, aşıqlar istismarçılara və zülmkarlara qarşı nifrət doğuran əsərlər yaradır, azadlıq uğrunda

mübarizə aparan qəhrəmanları tərənnüm edirdilər.

Aşıq sənəti Qazax, Gəncə, Tovuz, Şəmkir, Kəlbəcər və Borçalı bölgələrində geniş yayılmışdı. Göyçədə Azərbaycan aşıqlarının bütöv bir nəsli yetişmişdi. Aşıq yaradıcılığının inkişafında məşhur el sənətkarları Əsəd Abbasqulu, Hüseyn Bozalqanlı, Qurban, Miskin Əli, Nəcəfqulu, Şair Vəli, Xəyyat Mirzə və başqalarının böyük rolu olmuşdu.

Azərbaycan aşıqlarının yaradıcılığı qonşu regionlarda və ölkəmizdən kənarlarda da çox sevilirdi.

XX əsrin əvvəllərində Azərbaycan xalq musiqisinin yaradıcı şəkildə inkişaf və təbliğ etməkdə xanəndələrin böyük rolu olmuşdur. Xanəndələrin içərisində Cabbar Qaryağdı oğlu, İslam Abdullayev, Əbdülbaqi Zülalov, Mirzə Muxtar, Keçəçi Məhəmməd, Məşədi Məmməd Fərzəliyev, Mahbəyli Həmid, Mahbəyli Cümşüd, Zabul Qasım, Məcid Behbudov, Məşədi Cəmil Əmirov, Seyid Şuşinski, Zülfü Adıgözəlov, Xan Şuşinski, bakılı Seyid Mirbabayev, şəkili Ələsgər Abdullayev, şamaxılı Mirzə Məmməd Həsən və b. çox məşhur idilər. Xalq musiqisi xəzinəsinə H.Q.Sarabski də öz töhfəsini vermişdi. İranda və Zaqafqaziyada məşhur olan xanəndələrdən biri də Cənubi Azərbaycan torpağının yetirməsi Əbul Həsən xan Azər idi. Məşədi Zeynal (Şuşa), Qurban Primov (Ağdam), Mirzə Fərrac və Mirzə Mənsur (Bakı), Şirin Axundov (Salyan) və b. tar ustaları onun milli musiqi aləti kimi imkanlarını açmaq istiqamətində böyük xidmət göstərmişdilər. C.Qaryağdı oğlu, Q.Primov və S.Ohanezaşvili musiqi üçlüyü təkcə Qafqazda deyil, onun sərhədlərindən uzaqlarda da şöhrət tapmışdı.

XX əsrin əvvəllərində xalq musiqiçiləri arasında elmi biliyə və təhsilə, muğam sənətini daha da geniş miqyasda təbliğ etməyə meyl xeyli artmışdı. İstedadlı tar ustası Məşədi Cəmil Əmirov 1911-ci ildə İstanbula getmiş, burada not savadına yiyələnərək, Avropa musiqisi ilə tanış olmuş, eyni zamanda Azərbaycan xalq musiqisinin təbliği ilə məşğul olmuşdu. O, burada muğamı ilk dəfə nota köçürüb nəşr edənlərdən biri idi.

Xanəndə sənəti də yeni keyfiyyət qazanmağa, toy və başqa şənlik tədbirlərindən kənara çıxaraq, teatr və konsert salonlarına yol açmağa başladı.

Xalq musiqiçilərini ilk dəfə səhnəyə çıxaran mədəniyyət xadimi-məşhur yazıçı Ə.Haqverdiyev 1897-ci ildə Şuşada yerli həvəskarların iştirakı ilə Füzulinin "Leyli və Məcnun", 1902-ci ildə isə Nizaminin "Xosrov və Şirin" poemalarını səhnələşdirmişdi. Hər iki tamaşada baş rolda C.Qaryağdıoğlu çıxış etmişdi.

"Şərq konserti" adı ilə yeni konsert növü meydana çıxdı. Belə konsertlər ilk dəfə Şuşada (1901), daha sonra isə Bakıda (1902) təşkil olundu. Ə.Haqverdiyevin hazırladığı hər iki konsertdə C.Qaryağdı oğlu başda olmaqla, görkəmli muğam üçlüyü muğam, xalq mahnıları, rəqsləri, aşıq melodiyaları ifa etmiş, səhnələşdirilmiş musiqi əsərləri də göstərmişdi. "Şərq konserti"nin inkişafına maarif və xeyriyyə cəmiyyətləri kömək edirdilər. Məsələn, 1907-ci il yanvarın 20-də Müsəlman Xeyriyyə Cəmiyyəti Azərbaycan musiqisindən ibarət böyük konsert təşkil

etmişdi. "Nəşri-maarif" (1908-1914, 1915), "Nicat" (1914-1915), "Səfa" (1914) və s. cəmiyyətlər tərəfindən "Şərq konsert"ləri təşkil olunurdu.

"Şərq konsert"ləri (xüsusən Şuşada ilk səhnələşdirilmiş musiqi tamaşası) - milli operanın yaranmasında böyük rol oynadı. 1907-ci ildə Bakıda yeni konsert firması - "Şərq gecələri" meydana çıxdı. Bu gecələrin tamaşaçıları Qafqaz xalqlarının musiqisi ilə tanış edən müxtəlif proqramları var idi. Onlar geniş kütlələri özünə cəlb edir, beynəlmiləl səciyyə daşıyırdı. Şuşada, Gəncədə, Şəki və Tiflisdə də "Şərq gecələri" keçirilir, Bakıda yerli musiqiçilərin şəhərin fəhlə rayonlarında çıxışları çoxalırdı.

Əsrin əvvəllərində ənənəvi musiqi nəzəriyyəsinin təşəkkülü sahəsində ilk addımlar atıldı. Bu sahədə M.M.Nəvvab səmərəli fəaliyyət göstərmiş, onun tədqiqatları muğama həsr olunan "Musiqi incəsənəti" kitabının əsasını təşkil etmişdi.

Gənc həvəskar musiqiçi Ə.Əliverdibəyov Azərbaycan musiqi tarixinə, həmçinin başqa xalqların musiqi sənətinə dair materiallar toplamağa başlamışdı. İlk peşəkar sənətşünaslardan biri olan C.Hacıbəyov Bakı musiqi məktəbini bitirdikdən sonra təhsilini M.Muxtarovun köməkliyi ilə 1909-cu ildə Paris konservatoriyasında davam etdirmişdi. O, peşəkar musiqi təhsili almış ilk azərbaycanlı idi.

Azərbaycan xalqının musiqi mədəniyyəti nümunələrini toplamaq və nəşr etmək sahəsində əhəmiyyətli işlər görülürdü. 1901-ci ildə H.Zərdabi "Türk mahnıları" külliyyatını nəşr etdi. Müəllim və jurnalist C.Bünyadzadə 1910-cu ildə "Kəşkül" adı ilə ona oxşar ikinci bir külliyyatı çap etdirdi. 1917-ci il ərəfəsində Azərbaycan qadınları arasında ilk musiqişünas qadın - H.B.Ağayevin qızı X.Ağayeva fəaliyyətə başladı.

Musiqi təhsilini inkişaf etdirmək üçün də ilk addımlar atılırdı. Moskva konservatoriyasını bitirmiş A.N.Yermolayevanın təşəbbüsü ilə Bakıda mülki şəxsə məxsus xüsusi musiqi məktəbi fəaliyyətə başladı. 1910-cu ildə onun təşəbbüsü ilə nəzdində musiqi sinifləri olan Rusiya imperator musiqi cəmiyyətinin Bakı şöbəsi yaradıldı. Bu bölməyə A.N.Yermolayeva başçılıq edirdi. Belə bir vəzifənin Rusiyada qadına həvalə edilməsi ilk hadisə idi.

Yermolayevadan sonra uzun illər boyu musiqi qruplarına Peterburq Konservatoriyasından dəvət olunmuş S.R.Kronqold başçılıq etmişdi. 1907-1908-ci illərdə bu qruplarda 140 nəfər təhsil alırdı. 1918-ci ildə təhsil alanlardan cəmi yeddi nəfəri azərbaycanlı idi. 1916-1917-ci illərdə musiqi sinifləri Rusiya Musiqi Cəmiyyətinin Bakı şöbəsi nəzdində musiqi məktəbinə çevrildi. Bakıda bu məktəbə girmək üçün namizədlər hazırlayan kurslar və məktəblər mövcud idi.

Simfonik musiqi konsertləri Bakının mədəni həyatında əhəmiyyətli rol oynayırdı. Bu konsertləri özünün daimi orkestri olan Bakı ictimai yığıncağı təşkil edirdi. "Kaspi" qəzeti qeyd edirdi ki, paytaxtları və iri quberniya şəhərlərini (Varşava, Kiyev, Riqa) nəzərə almasaq, Rusiyada, yəqin ki, belə musiqi kollektivi olan ikinci bir şəhər yoxdur. Orkestr dinləyiciləri rus və Avropanın musiqi klassikləri ilə tanış edirdi. Orkestrdə işləmək üçün M.Q.Çernyaxovski (1903-1906), A.V.Pavlov-Arbenin (1906-1907, 1913) kimi böyük dirijorlar dəvət olunurdu. Bu orkestr dağıldıqdan sonra (1907) şəhərdəki Avropa yönümlü musiqiçilər iki simfonik kollektiv yaratdılar.

Milli operanın meydana çıxması yalnız Azərbaycanda yox, bütün müsəlman Şərqində çox böyük tarixi mədəni hadisə oldu. Onun yaradıcısı dahi Ü.Hacıbəyov Füzulinin xalq arasında məşhur olan "Leyli və Məcnun" poeması mövzusunda muğam operası yaratmaq arzusunu həyata keçirdi. Operada Azərbaycan poeziyası və musiqisinin qırılmaz vəhdəti öz əzəmətli əksini tapmışdır.

Əsərin uğurlu səhnə təcəssümü onu klassik faciə nümunələrinə yaxınlaşdırır. Bu opera ənənəvi milli muğam musiqisi ilə Avropa sənətinin xüsusiyyətlərini (xor, orkestr və s. istifadə olunması) özündə əks etdirən sənət əsəri kimi dünya musiqi tarixində də əlamətdar hadisə sayılmışdır.

"Leyli və Məcnun" operasının ilk tamaşası 1908-ci il yanvarın 12-də göstərildi. Orkestrə Ə.Haqverdiyev dirijorluq edirdi. Tarda Q.Primov və Ş.Salyanski müşayiət edirdilər. Operanın ilk tamaşasının böyük müvəffəqiyyət qazanması Məcnun rolunu böyük ustalıqla oynayan H.Sarabskinin adı ilə bağlı idi. Amma operada Sarabski əsl mənada şöhrət qazandı. Həmin vaxtdan H.Sarabski öz fəaliyyətini bütövlükdə operaya həsr etdi. Ü.Hacıbəyovla H.Sarabskinin əməkdaşlığı milli musiqi teatrının yaranması və inkişafı üçün çox faydalı oldu. "Leyli və Məcnun" operasının yaranmasında, onun ilk tamaşasında aparıcı rollardan birini ifa etmiş Ceyhun Hacıbəyovun da əməyi böyük idi. O, 1910-cu ildə Fransa mətbuatı vasitəsilə Qərbi Avropa ictimaiyyətini bu opera ilə tanış etməyə çalışmışdı.

Tamaşanın hazırlanmasında Ü.Hacıbəyovun yaxın köməkçilərindən biri - xalq xanəndəsi Mirzə Muxtar Məcnunun atası rolunu ifa etmiş və o vaxtdan taleyini opera sənətinə bağlamış, Üzeyir və Zülfüqar Hacıbəyovların, Müslüm Maqomayevin əsərlərinin səhnəyə qoyulmasında iştirak etmişdi.

"Leyli və Məcnun"dan sonra Ü.Hacıbəyov 1909-1916-cı illərdə beş opera və üç musiqili komediya yaratdı. Onun "Əsli və Kərəm" operası, "O olmasın, bu olsun" və "Arşın mal alan" operettalarının tamaşaları da məşhurlaşmışdı. Bu tamaşalara rejissorluğu H.Ərəblinski etmişdi. Ü.Hacıbəyovun musiqi yaradıcılığında yüksək məhəbbət, qadınları ictimai əsarət və qapalı vəziyyətdən azad həyat və sərbəst məişət səhnəsinə çıxarmaq ideyası özünün parlaq əksini tapmışdır.

Azərbaycan opera sənətinin inciləri Qafqaz ictimaiyyətinin diqqətini cəlb etmiş, 1914-cü ildə "Leyli və Məcnun" və "Əsli və Kərəm" operalarının Tiflisdə tamaşaları göstərilmişdir.

İlk azərbaycanlı qadın aktrisalarından - Göyərçin (Gövhər) xanım Əliyeva Ü.Hacıbəyovun qadın qəhrəmanlarının (Leyli, Əsli, Gülnaz) ifaçısı olmuşdu.

Zülfüqar Hacıbəyov da 1917-ci ilə qədər bir neçə opera və musiqili komediya yaratmışdı. 1916-cı ildə Müslüm Maqomayevin Bakıda göstərilmiş "Şah İsmayıl" operası Azərbaycan opera sənətinin qızıl fonduna daxil olmuş, Ü.Hacıbəyov ənənələrini davam etdirmişdir.

Musiqi əsərləri yaratmaq sahəsində Azərbaycan incəsənətinin digər nümayəndələri də öz qüvvələrini sınaqdan keçirmişdilər. Məşədi Cəmil Əmirov 1915-ci ildə "Seyfül-Mülük" operasını bəstələmiş, onun tamaşası həmin il Gəncədə, 1916-cı

ildə isə Tiflisdə göstərilmişdi. Tamaşaya müəllifin özü dirijorluq etmişdi. Bu operada iştirak etməklə Bülbül görkəmli opera sənətkarı kimi böyük uğur qazanmışdı. 1916-cı ildə H.Şərifov "Mehr və Mah" operasını yazmışdı. Həmin illərdə böyük aktyor Mirzəağa Əliyev Üzeyir və Zülfüqar Hacıbəyovların musiqili komediyalarındakı surətlərilə unudulmaz obrazlarını yaradaraq səhnə tariximizdə silinməz iz qoymuşdur.

Milanda təhsil alan Şövkət xanım Məmmədovanın 1910-cu ildə Bakıda ilk çıxışı oldu. O, İtaliyada musiqi təhsili almış ilk azərbaycanlı qadın idi. O vaxt artıq Rusiyada şöhrət qazanmış Fatma xanım Muradova 1913-cü ilin iyununda Bakıda konsert verirdi.

XX əsrin əvvəllərində ilk azərbaycanlı pianoçu qadınlar X.Qayıbova, N.Şahmirzə və K.Əliyeva konsert verməyə başladılar. X. Qayıbova konsertlərdə çıxış etmiş ilk azərbaycanlı qadın pianoçu idi. O, muğamat mövzusunda musiqi əsərlərini fortepianoda böyük məharətlə ifa edirdi. 1909-cu ildə Tağıyevin qız məktəbində musiqini tədris edən Kişvər Əliyeva 1914-cü ildə Moskva Konservatoriyasına daxil olmuşdu. Lakin maddi çətinliklər ona konservatoriyada təhsilini başa çatdırmağa imkan verməmiş və o, təhsilini Tiflis musiqi məktəbində başa çatdırmışdı.

Musiqili teatrın inkişafındakı nailiyyətlər librettoların nəşrinə şərait yaratdı. 1912-ci ildə Orucov qardaşları mətbəəsində Ü.Hacıbəyovun opera və musiqili komediyalarının mətnləri nəşr olundu. 1913-1917-ci illərdə "Arşın mal alan"ın librettosu üç dəfə çap edildi.

İncəsənətə həsr olunmuş ilk dövri nəşrlər - "Teatrların icmalı" (1910) və "Bakı teatr kuryeri" qəzetləri (1913-1914) notlar və pyeslər əlavə edilməklə meydana çıxdı.

Mətbuat səhifələrində aşıqların yaradıcılığı, Azərbaycan musiqisinin nəzəri əsasları və estetikası, musiqidə Şərqlə Qərbin qarşılıqlı əlaqələri, ifaçılıq sənətkarlığı və s. haqqında məqalələr çap olunurdu.

XX əsrin əvvəli Azərbaycan kino sənətinin təşəkkülü ilə də əlamətdar oldu. İbrahim Musabəyovun "Neft və milyonlar səltənətində" romanı üzrə A.D.Panova-Potyomkinanın ssenarisi əsasında ilk kinolenti yaradıldı. Onun rejissoru B.N.Svetlov idi. Filmdə rus aktyorları ilə yanaşı, H.Ərəblinski də iştirak etmiş, ona Lütfəli bəy kimi əsas rolun ifası tapşırılmışdı. Filmin hər iki seriyası 1916-cı ilin may və iyun aylarında ekranlara çıxdı.

Ü.Hacıbəyovun "Arşın mal alan" musiqili komediyası da ekranlaşdırılmışdı. Yalnız 1917-ci ilin noyabrında işıq üzü görən həmin ekran əsəri uğursuz alındığı üçün tezliklə ekrandan çıxarıldı.

Əsrin əvvəllərində təsviri sənət ədəbiyyat və teatrdan xeyli geri qalırdı. Hətta Bakıda belə peşəkar rəssam yox idi. Bakıda yaşayan rus rəssamları isə yaradıcılıqdan çox, müəllimlik fəaliyyətilə məşğul olurdular. Buna baxmayaraq, bu istiqamətdə müəyyən irəliləyişlər özünü göstərirdi. 1902-ci ildə M.M.Nəvvab "Teymurun portreti" kimi rəngkarlıq əsərini yaratdı.

Əli bəy Hüseynzadə XX əsr Azərbaycan rəssamlığını təmsil edənlərdən biri oldu. Onun peşəkar rəssam olmamasına baxmayaraq, yaratdığı rəssamlıq

əsərləri ("Şeyxülislamın portreti", "Bibiheybət məscidi" və s.) bədii dəyərə malikdir. 1906-cı ildə Bakı mətbuatı Peterburq imperator rəsm məktəbinin yetirməsi İsmayıl Nəbi oğlu haqqında məlumat dərc etdi.

Yeni əsrin əvvəllərində Azərbaycanın birinci peşəkar rəssamı Bəhruz Kəngərli idi. O, 1910-cu ildə C.Məmmədquluzadənin yardımı ilə Zaqafqaziyada yeganə olan Tiflis rəssamlıq məktəbinə daxil olmuş və 1915-ci ildə oranı bitirmişdi. B.Kəngərlinin yaradıcılığı çoxcəhətli idi. Rəssam yağlı və sulu boyalarla şəkillər çəkir, Naxçıvan teatr tamaşalarının bədii tərtibatını verirdi. Onun çoxsaylı əsərləri arasında aparıcı yeri mənzərələr tuturdu. Kəngərli teatr-dekorasiya sənəti sahəsinin də pioneri idi.

Təsviri sənətin inkişafında Abbas Hüseyni, Nəcəf Rasim, Y.V.Çəmənzəminli müəyyən rol oynamış, sulu boya ilə çəkilmiş bir sıra əsərlər (portretlər, mənzərələr və s.) yaratmışlar.

Yeni realist təsviri sənətin - satira qrafikası kimi yeni janrın meydana çıxması və inkişafı "Molla Nəsrəddin" jurnalı ilə bilavasitə bağlı idi. Onun ən parlaq nümayəndəsi Əzim Əzimzadə idi. Ə.Əzimzadə rəssam kimi bir sıra Azərbaycan dilli qəzet və jurnallarla əməkdaşlıq edirdi. O, M.Ə.Sabirin "Hophopnamə"sinə (1914) və A.Divanbəyoğlunun "Can yanğısı" romanına (1913) illüstrasiyalar çəkmişdi. Ə.Əzimzadənin yaradıcılığı gündəlik hadisələrə fəal münasibət, ifşaedici ahəng və mübarizə ruhu ilə fərqlənirdi. Onun zəngin irsində aparıcı yeri sosial-məişət mövzuları, həyatın mənfi cəhətlərinin tənqidi tuturdu. Rəssam öz əsərlərində çarizmin müstəmləkə siyasətini, çar məmurları və yerli istismarçıların özbaşınalıq və amansızlığını, qarətçi Qərb planları və Şərq despotizmini ifşa etmişdi.

Satirik qrafikanın inkişafına bu janrın təcrübəli ustaları və "Molla Nəsrəddin" jurnalının əməkdaşları Oskar İvanoviç Şmerlinq və İosif Rotter, həmçinin Bakı jurnalları "Zənbur" və "Mirat"ın işində fəal iştirak etmiş Benedikt Rafaeloviç Telinqater böyük təsir göstərmişdilər.

Bu işdə "Molla Nəsrəddin" jurnalı və Əzim Əzimzadədən təsirlənən rəssamlar B.Səid, T.Məmmədov, X.Musayev və M.Əliyevin də müəyyən rolu olmuşdu.

Təsviri sənət sahəsində azərbaycanlı qadınların fəaliyyətə başlaması diqqətəlayiq hadisə idi. Onlar arasında birinci olan Qeysər Kaşiyeva 1907-1908-ci illərdə Qafqaz incəsənətini yayan cəmiyyət nəzdindəki bədii siniflərdə peşəkar təhsil almışdı. Qeysər xanım yaradıcılığının ilk illərində Tiflis qadın xeyriyyə cəmiyyətinin mədəni tədbirləri üçün afişalar və elanlar hazırlamış, sonrakı illərdə isə rəsm əsərləri (portretlər, mənzərələr) yaratmışdı.

1913-cü ilin aprelində Bakıda açılan rəsm əsərlərinin ilk sərgisi şəhərin mədəni həyatında böyük hadisə oldu. Bu sərgidə onlarla Qafqaz rəssamının əsərləri nümayiş etdirilirdi.

## § 5. BAŞQA XALQLARLA QARŞILIQLI MƏDƏNİ ƏLAQƏLƏR

XX əsrin başlanğıcında əsası hələ əvvəlki əsrlərdə qoyulmuş Azərbaycan mədəniyyətinin başqa xalqların mədəniyyəti ilə əlaqədə olması ənənəsi daha da inkişaf edərək, mənəvi dəyərlər mübadiləsinin, qarşılıqlı faydalanmaya əsaslanan mədəni əlaqələrin yeni formalarını meydana çıxartdı.

1904-cü ildə şərqşünas Lüsyen Buva ilk dəfə M.F.Axundovun "Hacı Qara" komediyasını fransız dilinə tərcümə edərək, Azərbaycan türkcəsində mətni ilə giriş və lüğətlə "Aziatik" jurnalında çap etdirdi.

1901-ci ildə Parisdə fransalı coğrafiyaşünas baron de Beyin Azərbaycan barəsində kitabı çıxdı. Kitab müəllifin bu ölkə, onun tarixi abidələri, xalqın adət və ənənələri, Bakının mədəni həyatı barəsində öz təəssüratlarından ibarət idi. M.F.Axundovun pərəstişkarı və onun irsinin alovlu təbliğatçısı L.Buva fransız dilində çıxan şərqşünaslıq jurnallarının səhifələrində Azərbaycan mədəniyyətinə dair çap olunan əksər məqalələrin müəllifidir. O, Y.V.Çəmənzəminlinin 1919-cu ildə İstanbulda nəşr olunmuş "Azərbaycan ədəbiyyatına baxış" əsərini fransız dilinə tərcümə etmişdi.

L.Buva "Şərqi-Rus" qəzeti ilə sıx əlaqə saxlayır, onun işini "Aziatik" jurnalında işıqlandırırdı. Bu jurnal klassik irsin nümunələrini, o cümlədən "Kitabi-Dədə Qorqud"u, Nizaminin, Füzulinin, Xətayinin, Sabirin əsərlərindən tərcümələri dərc edirdi. Həmin jurnalla M.Şahtaxtinski də əməkdaşlıq edirdi. Onun Fransada elmi-pedaqoji fəaliyyətinin ikinci mərhələsi (1898-1902) Parislə bağlı olmuşdu.

Paris mətbuatı səhifələrində C.Hacıbəyov da çıxış edirdi. "Müsəlman dünyası" jurnalında onun "Azərbaycan gülləri" oçerki dərc olunmuşdu. Bu oçerk XIX əsrdə Qarabağın qadın şairləri Ağabəyim Ağa, Aşıq Pəri, Gövhər ağa, Fatma xanım Kəminə, Xurşidbanu Natəvan, həmçinin Qubalı Banuya həsr olunmuşdu. Oçerkin fransız dilinə tərcüməsinə şairələrin əsərlərindən nümunələr əlavə olunmuşdu. 1914-cü ildə bu əsər Parisdə ayrıca kitab kimi nəşr edildi.

1909-cu ilin sonunda Bakı mətbuatı məlumat verirdi ki, Paris Siyasi Elmlər Məktəbində təhsil alan şuşalı Səlim bəy Behbudov "Sultanın süqutu" adlı pyesini fransız dilində yazıb nəşr etdirmiş, onun teatrların birində tamaşaya qoyulması nəzərdə tutulmuşdu.

1901-1909-cu illərdə XIX əsrin görkəmli Azərbaycan yazıçısı və ictimai xadimi Rzaxan Daneşin "Haaqa sülh gözəlliyinin tərənnümü" poeması 15 dilə tərcümə olunmuşdu. Bu əsər humanist yazıçının dünya sülh tərəfdarları hərəkatının meydana çıxmasına cavabı idi. Poema ilk dəfə kitab halında 1904-cü ildə İstanbulda nəşr olunmuşdur.

1903-cü ildə "Fərhad və Şirin" poeması, 1908-ci ildə isə şeir nümunələri məcmuəsi gürcü dilində nəşr olundu. Gürcüstanda ədəbi yaradıcılığın bəzi cəhətlərinə aşıq folklorunun təsiri hiss olunurdu.

XX əsrin əvvəllərində (1912) şair David Kioişvili Azərbaycan dastanı əsasında yazdığı dörd hissədən ibarət "Koroğlu" poemasının nəşrini başa çatdırdı. A.Sereteli Azərbaycan xalqının mədəniyyətinə əvvəlki kimi yenə də böyük diqqət yetirirdi.

Rus şərqşünaslığının görkəmli nümayəndələrindən biri A.Y. Krimski Nizami irsinin tədqiqinə həyatının uzun illərini həsr etmişdi.

Rusiyada, eləcə də İran, Türkiyə və başqa Şərq ölkələrində qabaqcıl ictimaiyyətin diqqətini M.Ə.Sabirin yaradıcılığı daha çox cəlb edirdi. Onun əsərləri tatar, fars və başqa dillərə tərcümə olunmuşdu.

Azərbaycan ziyalılarını L.N.Tolstoyla və Qafqazın bir çox mədəniyyət xadimləri ilə ənənəvi dostluq telləri bağlayırdı. Qonşu xalqların mədəniyyətinin təbliği formalarından biri həmin xalqların görkəmli mədəniyyət xadimlərinin yubiley və xatirə günlərinin qeyd edilməsi idi.

1902-ci ildə Bakıda V.Hüqonun 80 illiyi, N.V.Qoqolun xatirə günü qeyd olundu. Gəncə Kişi Gimnaziyasında "Müfəttiş" pyesi tamaşaya qoyuldu və rollardan birini N.Usubbəyov ifa etdi. 1904-1906-cı illərdə Bakıda M.İ.Qlinkanın, V.A.Jukovskinin, T.Q.Şevçenkonun xatirə gecələri keçirildi. 1908-ci ildə L.N.Tolstoyun 80 illiyi qeyd olundu. 1908-ci ilin dekabrında A.Seretelinin ədəbi fəaliyyətinin Bakıda qeyd olunması iki Cənubi Qafqaz xalqının dostluğunun əsil nümayişinə çevrildi. Həmin il dekabrın 7-də "Zakafkazskoye obozreniye" qəzetində Q.Qabulov-Şirvanskinin gürcü xalqına təbrik məktubu dərc olundu. C.Məmmədquluzadə, Tiflisdə keçirilmiş təntənələrə qatılmış F.Köçərli Seretelinin yubileyinə məqalələr həsr etmişdi. 1909-cu ilin başlanğıcında Bakıda Seretelinin iştirakı ilə təntənəli gecə keçirildi. 1911-ci ildə isə Tiflis şəhərində M.F.Axundovun anadan olmasının yüzilliyi qeyd olundu. Həmin ilin mart ayında Tiflis qəzetlərində, Rusiyanın bir sıra mətbuat orqanlarında, həmçinin Parisdə çıxan jurnalda bu hadisəyə dair məqalələr dərc olundu və o, böyük ədəbi hadisə kimi qiymətləndirildi. Azərbaycan və gürcü ədəbiyyatının yaxınlığını, qarşılıqlı əlaqəsini göstərən dəlillərdən biri də 1916-cı ildə Azərbaycanda N.Barataşvilinin yubileyinin keçirilməsi oldu. A.Səhhət bu tədbiri Barataşvilinin şeirlərindən tərcüməsilə əlamətdar etdi.

XX əsrin əvvəllərində M.Ə.Sabirin "Hophopnamə"si, N.Vəzirov, C.Məmmədquluzadə, N.Nərimanov və Ə.Haqverdiyevin əsərləri özbək xalqı arasında geniş yayılmışdı.

1906-cı ildən başlayaraq Daşkənddə, Kokandda və Səmərqənddə çıxan bir çox qəzetlərdə Vaqifin, Hadinin və başqa Azərbaycan şairlərinin şeirləri dərc olunmuşdu. 1907-ci ildə Xarəzmdə tərtib edilmiş "Divan"a Sabir, Hadi və Şaiqin şeirləri daxil edilmişdi. Türküstanda "Molla Nəsrəddin" və "Dəbistan" jurnalları böyük şöhrət tapmışdı. Azərbaycan ədəbiyyatı Həmzənin, Sufizadənin, Acinin, Övlaninin və başqalarının yaradıcılığına qüvvətli təsir etmişdi.

Sabir poeziyasının başqa türklərin, həmçinin farsdilli xalqların ədəbiyyatına, o

cümlədən Q.Tuqayın, A.Lahutinin, S.A.Gilaninin, M.A.Dehhudun yaradıcılığına təsiri aydın seçilir.

Sabirin mübariz satirası Şərqin bir çox əsarət altında olan xalqlarının oyanışında mühüm rol oynamışdı. A.Səhhət yazırdı ki, Sabirin əsərləri İran inqilabı üçün böyük bir ordudan çox iş görmüşdür.

"Molla Nəsrəddin" jurnalının təsiri altında Volqa boyunda ("Ukmar", "Yaşen"), Türküstanda ("Tokmaq"), İranda ("Suri-İsrafil", "Azərbaycan", "Nəsimi-Şimal"), Türkiyədə ("Cam") satirik jurnalları yarandı, ancaq onların heç biri "Molla Nəsrəddin" səviyyəsinə yüksələ bilmədi.

Qarşılıqlı mədəni əlaqələr mətbuat orqanları arasında, onların səhifələrində, müxtəlif xalqların nümayəndələrinin çıxışlarında da öz əksini tapırdı. "Molla Nəsrəddin" tatar və başqa xalqların satirik jurnalları ilə sıx əlaqə saxlayırdı. "Həyat" qəzetində vaxtaşırı çıxış edən məşhur tatar şairi Q.Tukay "Molla Nəsrəddin" jurnalı ilə də sıx əlaqədə idi. "Molla Nəsrəddin" jurnalı qabaqcıl tatar ictimai-siyasi fikrinin formalaşması və inkişafında mühüm rol oynamışdı. Q.Tukay M.Ə.Sabirin bəzi şeirlərini tatar dilinə tərcümə etmişdi.

XX əsrin əvvəllərində Azərbaycanın bəzi mətbuat orqanlarında Krım tatarlarının məşhur ictimai xadimi İ.B.Qaspralının yazıları nəşr olunmuşdu. Azərbaycan ziyalılarının Həştərxanda nəşr etdikləri qəzetlər öz ətrafında tatar millətindən olan mətbuat işçilərinin bir çoxunu birləşdirmişdi. Onların arasında Q.A.Baybulatov, F.Bekayev, M.Qafuri, N.Qəsri, Q.A.Murasov, Y. Tanayev də var idi. Türkiyə yazıçıları, şairləri və ictimai xadimləri - Mustafa Sübhi, Tofiq Fikrət və b. Bakı mətbuatı ilə əməkdaşlıq edir, əsərlərini onlarda dərc etdirirdilər.

Bakı rus-müsəlman məktəblərinin təcrübəsini yaymaq kimi əlaqə növü də var idi. Orta Asiyada və Dağıstanda bu təhsil ocaqlarının ictimaiyyətin himayəsinə keçirilməsi təcrübəsindən də istifadə edirdilər.

Azərbaycan müəllimlərinin tədris vəsaitləri hazırlamaq sahəsində əldə etdikləri nailiyyətlər də diqqəti cəlb edirdi. 1914-cü ildə R.B.Əfəndiyevin "Ana dili" kitabı qaraçay dilinə tərcümə olunaraq Tiflisdə nəşr edilmişdi. Bu, həmin kitabın digər türk xalqları üçün də faydalı olmasını, onun geniş şöhrət qazanmasını sübut edir.

Başqa xalqların mədəniyyətinə, ədəbiyyatına və incəsənətinə olan maraq əməkdaşlığa, mədəniyyətlərin qarşılıqlı təsir və qarşılıqlı zənginləşməsinə kömək edirdi.

Qabaqcıl ziyalıların nümayəndələri Azərbaycan ədəbi mühitinə təkcə Şərqin klassik irsini deyil, həmçinin rus və Qərbi Avropa ədəbiyyatının mütərəqqi ənənələrini gətirir, milli ədəbi-bədii fikrin canlanmasına kömək edirdilər. Zəngin ənənələrin bu istiqamətdə inkişafında Azərbaycan mətbuatı mühüm rol oynayırdı. Bu mətbu orqanlar içərisində "Şərqi-Rus", "Həyat", "Füyuzat", "Tərəqqi", "İqbal" və b. daha çox iş görürdü. Onlarda Firdovsinin, İbn Sinanın, Xəyyamın, Hafizin, Sədinin, Caminin, Prudonun, Şekspirin, İbsenin, Hötenin, Şillerin, Mirabonun, Heynenin, Hüqonun, N.Kamalın, T.Fikrətin və başqalarının əsərlərindən nümunələr çap olunur, Puşkin, Lermontov, Nekrasov, Turgenev, Tolstoy, Krılov,

Qoqol, Çexov, Pleşşeyev, Çavçavadze, Sereteli, Tukay, Məhtimqulu və b. məşhur sənətkarların əsərləri təbliğ edilirdi.

Ümumbəşəri mədəni dəyərlərin Azərbaycanda təbliğində "Kaspi" qəzetinin, xüsusən onun redaktoru Ə.Topçubaşovun, qəzetin aparıcı əməkdaşı Ə. Ağayevin çox böyük rolu olmuşdu.

Azərbaycan ziyalıları Rusiyanın və xarici ölkələrin mətbuat orqanlarında çıxış edir, öz növbəsində həmin ölkələrin ictimaiyyətini xalqımızın mədəni irsi ilə tanış etməyə çalışırdılar.

XX əsrin əvvəllərində Fransa mətbuatı, xüsusən 1906-cı ildə Parisdə çıxan "Müsəlman dünyası" jurnalı Azərbaycan dövri mətbuatının məzmununu işıqlandırır, öz oxucularına Azərbaycanın teatr və ədəbi həyatı barədə məlumat verirdi.

Azərbaycan ziyalılarının da Fransa ədəbiyyatına marağı güclənirdi. Bu maraq N.Vəzirovun, Azərbaycan romantizminin nümayəndələri Ə.Hüseynzadə, A.Səhhət, M.Hadi, H.Cavidin və başqalarının əsərlərində öz əksini tapırdı. Onlar XVIII əsrin romantikləri kimi belə hesab edirdilər ki, bütün mövcud olanların yeganə meyarı ağıldır, insan təfəkkürüdür, ədəbi həqiqəti, ədaləti axtarmaqdır. Onlardan A.Səhhətin yaradıcılığı Fransa təmsilçisi Lafontenin yaradıcılığına yaxın idi.

C.Hacıbəyov ədəbi əlaqələri yaradıcı planda nəzərdən keçirir və hesab edirdi ki, bütün xalqlar biri digərindən öyrənə, görüb-götürə bilərlər. O yazırdı ki, XIX-XX əsrin əvvəllərinin əsas ədəbi istiqamətləri olan romantizm və realizmin əsasını ingilislər və almanlar qoymuşlar. Lakin bununla bərabər, C.Hacıbəyov Qərbə hədsiz dərəcədə meyllənməyin, onu təqlidin əleyhinə idi.

M.A.Şahtaxtinski, Ə.Ağayev, Ə.Hüseynzadə, Ö.F.Nemanzadə, A.Sur, M.Hadi, Y.V.Çəmənzəminli yeni rus-türk, Azərbaycan-Türkiyə mədəni əlaqələrinin, C.Hacıbəyov və Ə.Topçubaşov isə Azərbaycan-Fransa əlaqələrinin təşəkkülünün beşiyi başında durmuşdular. Azərbaycan ziyalılarının yaradıcılıq fəaliyyətində mühüm istiqamətlərdən olan tərcümə işi qarşılıqlı əlaqələrin inkişafında mühüm rol oynayırdı.

Ə.Hüseynzadə həm də Şərq və Qərb ədəbiyyatından nümunələri Azərbaycan dilinə tərcümə edən böyük tərcüməçi idi. O, Xəyyamı, Şekspiri, Höteni, Şilleri, Bayronu, Heyneni, Hüqonu Azərbaycan türkcəsinə tərcümə etmişdi. Onun əməyi sayəsində Azərbaycan oxucusu ilk dəfə öz ana dilində "Faust" və "Hamlet"lə, eləcə də F.Bodenştedt və başqalarının əsərlərilə tanış ola bilmişdi,

1901-ci ildə Bakıda Şekspirin "Otello" faciəsi çap olundu. Onu Azərbaycan dilinə ilk dəfə Haşım bəy Vəzirov tərcümə etmişdi. Şillerin "Qaçaqlar" pyesi M.B.Hacınski tərəfindən tərcümə olunmuşdu. Ə.Ağayev hər iki tərcüməni Azərbaycan ədəbiyyatı tarixində çox görkəmli hadisə kimi qiymətləndirmişdi. Mehdi bəy Hacınski Heynenin "Əlmənzor" pyesini də tərcümə etmiş və pyes 1907-ci ildə tamaşaya qoyulmuşdu.

Ə.Hüseynzadədən sonra Şekspirin "Hamlet" əsərini Ə.Haqverdiyev ana

dilimizə tərcümə etdi. Müsəlman Şərqinin ədəbiyyat abidələrinin nümunələrini ictimaiyyətə M.Ə.Sabir ("Şahnamə"), R.Əfəndiyev ("Rüstəm və Söhrab", Tiflis, 1906) və başqaları çatdırırdılar.

Qərb yazıçılarının əsərlərinin tərcüməsi ilə A.Səhhət və M.Şahtaxtinski də məşğul olurdular.

Gəncə gimnaziyasının müəllimi M.M.Axundov Türkiyə yazıçısı N.Kamalın "Vətən" dramını Azərbaycan türkcəsinə çevirmişdi. N.Kamalın, Saminin əsərlərinin tərcüməsi ilə S.S.Axundov, C.A.Şərifov və S.X.Axundova da məşğul olmuşdular. Ərəb yazıçısı Corci Zeydanın pyesi də Azərbaycan dilinə tərcümə olunmuşdu.

Rus klassik ədəbiyyatına münasibət müxtəlif formada öz əksini tapır, onun qabaqcıl ənənələrinin mətbuat vasitəsilə təbliği zamanı rus klassik ədəbiyyatının xəlqiliyindən, ictimai bəlaların ifşası, inkişafa mane olan hər cür köhnəliyə, eybəcərliklərə qarşı mübarizə kimi ədəbi üsullardan istifadə edilirdi.

Ə.Ağayev, M.Sidqi, Ə.Haqverdiyev, N.Vəzirov, S.S.Axundov, Ü.Hacıbəyov, Ə.Hüseynzadə, F.Köçərli, H.Minasazov, Ə.Topçubaşov, M.Şahtaxtinski, C.Məmmədquluzadə, N.Nərimanov, A.Səhhət və başqaları rus ədəbiyyatını yüksək qiymətləndirirdilər. Ə.Ağayev onu ədalətliliyinə və bədii keyfiyyətinə görə "böyük ədəbiyyat" adlandırmışdı. 1917-ci ildə o, İstanbulda nəşr olunan "Yeni jurnal"da rus ədəbiyyatı barəsində bir sıra oçerklər çap etdirərək, onun qədim dövrdən XX əsrə qədər keçdiyi yolu nəzərdən keçirmiş və yazmışdı ki, dünyanın heç bir ölkəsində ədəbiyyat həyatla belə ayaqlaşıb, onu belə yaxşı əks etdirməyib.

Azərbaycan-rus mədəni əlaqələrinin ən geniş yayılmış forması bədii tərcümə idi, xüsusən 1905-ci ildən sonra o, çox güclü ədəbi axına çevrilmişdi.

Çarizmə qarşı birgə mübarizə iki xalqın mənəvi həyatını bir-birinə yaxınlaşdırırdı. Rus ədəbiyyatının tərcüməsi və nəşri geniş vüsət almışdı. İ.V.Krılovun əsərlərindən tərcümələr dərsliklərə daxil edilir, "Molla Nəsrəddin" jurnalında geniş istifadə olunurdu. A. S. Puşkinin iyirmidən çox əsəri 1912-ci ilə qədər Azərbaycan dilinə tərcümə edilib nəşr olunmuşdu.

Əvvəllərdə olduğu kimi, M.Y.Lermontov yenə də Azərbaycanda məşhur idi. N.V.Qoqol, N.A.Nekrasov, L.N.Tolstoy, A.M.Qorki və başqalarının əsərləri Azərbaycan (türk) dilinə tərcümə edilirdi. Bu işlə milli ziyalıların həm yaşlı, həm də cavan nəslinin nümayəndələri - F.Köçərli, C.Məmmədquluzadə, Ü.Hacıbəyov, M.Ə.Sabir, M.Rəsulzadə, Q.Rəşad, A.Səhhət, B.Talıblı, A.Şaiq, R.Əfəndiyev və başqaları məşğul idilər.

Poetik tərcümə sahəsində peşəkar tərcüməçi A.Səhhətin adı xüsusilə qeyd olunmalıdır. Puşkin, Lermontov, Krılov şeirlərindən doğma dilə tərcümələr onun xüsusi xidmətidir. A.Səhhətin tərcümələri yüksək bədii keyfiyyəti ilə fərqlənərək, Azərbaycan dilinin poetik imkanlarının sərhədlərini xeyli genişləndirmişdi. A. Səhhət A.N.Ostrovskinin və M.Qorkinin əsərlərini, həmçinin gürcü və digər xalqların ədəbiyyatından nümunələri də tərcümə etmişdi. Şairin rus və Qərbi Avropa ədəbiyyatından etdiyi tərcümələr "Məğrib günəşləri" adlanan iki külliyyatda

toplanmışdı. Bu istiqamətdə F.Köçərli, R.Əfəndiyev və A.Şaiqin də xidmətləri qeyd edilməlidir. Əsrin əvvəllərində Ə.Haqverdiyev, H.İ.Qasımov, S.Mənsur da rus ədəbiyyatından tərcümələr etmişdilər. H.İ.Qasımov polyak yazıçısı St. Pşibışevskinin "Ana" dramını da ana dilinə çevirmişdi.

Azərbaycan ziyalıları gürcü, tatar dramaturgiyası nümunələrinə maraq göstərir, A.Şaiq, M.Camalov, H.Bünyadzadə və başqaları bu xalqların ədəbiyyatından tərcümələr edirdilər.

XX əsrin əvvəllərində incəsənət sahəsində qarşılıqlı əlaqələr daha da inkişaf etdi. Bu istiqamətdə teatr, onun truppalarının qastrol səfərləri mühüm əhəmiyyət kəsb edirdi. Bu qastrolların coğrafiyası çox geniş idi, bütün Qafqazı, Volqaboyunu, Türküstanı, Krımı, İranı (o cümlədən Cənubi Azərbaycanı) əhatə edirdi. 1909-cu ildə S.Ruhulla, C.Zeynalov və H.Ərəblinskinin iştirakı ilə Təbrizdə teatr təşkil olunmuşdu. Görkəmli teatr xadimləri həmin il həvəskarlardan ibarət "Azərbaycan artistləri dəstəsi" təşkil etdilər. Uzun illər boyu Təbriz və Tehranın yaradıcı kollektivləri öz repertuarlarını Azərbaycan dramaturqlarının əsərlərindən təşkil edirdilər.

Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələri başqa regionlarda da teatr işinə kömək edirdilər. Məsələn, N.Nərimanov tatar teatrının təşkilinə mühüm yardım göstərmiş, Həştərxana sürgün illərində teatr dərnəyi yaratmış, səhnə əsərləri hazırlamış, həvəskar gənclərə lazımi kömək etmişdi. N.Nərimanovun əsərləri (xüsusən "Nadir şah" dramı) milli truppaların qastrol tamaşaları repertuarında geniş yer tuturdu.

Azərbaycan teatrının rus, Qərbi Avropa dramaturgiyasından ən yaxşı nümunələrə, həmçinin türk, ərəb yazıçılarının əsərlərinə müraciəti beynəlmiləl xarakter daşıyırdı. Məsələn, H.Heynenin "Əlmənzor" pyesinin xoşbəxt taleyi Azərbaycan səhnəsi və H.Ərəblinskinin adı ilə bağlı idi. 1909-cu ildə "Kaspi" qəzeti yazırdı ki, əgər Avropa səhnəsi "Əlmənzor"u səhnəyə qoymaqda çətinlik çəkmişdisə, Heyne təsəvvür edə bilərdimi ki, səksən ildən sonra onun lirik faciəsini müsəlman artistləri teatr səhnəsinə çıxaracaqlar?!

Azərbaycan və tatar truppalarının birgə səhnələşdirmə təcrübələri həyata vəsiqə alırdı. Belə səhnələşdirmələr 1908-ci ildə H.Ərəblinskinin rəhbərliyi altında Tiflisdə, Gəncədə, Petrovskidə, Həştərxanda həyata keçirilmişdi. N.Vəzirovun Tiflisdə tamaşaya qoyulmuş "Müsibəti-Fəxrəddin" faciəsində Səadət xanım rolunu tatar aktrisası Voljskaya, Həştərxanda göstərilmiş "Nadir şah" tamaşasında isə baş rolu S.D.İzzatulina oynamışdılar. 1917-ci ilin yanvarında tatar səhnəsində "Nadir şah" tamaşası göstərilmiş və Nadir şah rolunu Kariyev ifa etmişdi.

Yaradıcılıq əlaqələri Zaqafqaziyanın, Rusiyanın digər ərazilərindəki xalqların səhnə xadimlərini bir-birinə yaxınlaşdırırdı. H.Ərəblinski yazırdı: "Səhnə artistləri qardaşlaşdırır. Ümid edirəm ki, o, xalqlar dostluğunu möhkəmləndirən sement olacaq".

Mədəniyyət sahəsində əlaqələrin genişlənməsinin göstəricilərindən biri də Rusiyanın məşhur Malı teatrının Bakıdakı qastrolu oldu. Hələ 1900-1901-ci illərdə bakılılar Y.D.Turçeninova və M.Q. Savinanın, bir qədər sonra isə

V.F.Komissarjevskayanın yaradıcılığı ilə tanış olmuşdular.

Azərbaycan teatrı haqqında tənqidi fikrin coğrafiyası da ölkənin sərhədlərindən çox-çox kənara çıxmışdı. Moskva və Peterburqda, Krımda, Volqaboyu və Orta Asiyada, Hindistan, İstanbul və Tehranda çap olunan mətbuatda Azərbaycan teatrı, onun tarixi, başqa milli teatrlara təsiri barəsində yazılarda aktyorların səhnə ustalığına yüksək qiymət verilirdi.

Qafqazın və digər regionların şəhərlərində məşhur xalq xanəndələrinin təşkil etdikləri "Şərq konsertləri", Riqada, Moskvada, Varşavada və başqa şəhərlərdə istedadlı xanəndələrin ifasında xalq melodiyalarının qrammofon yazıları mədəni əlaqələrin yeni forması olaraq, başqa xalqlara Azərbaycan xalqının özünəməxsusluğu və milli xüsusiyyətləri ilə tanış olmaq imkanı verirdi.

Xalq musiqiçilərinin xarici ölkə səfərləri mədəni əlaqələrin möhkəmlənməsində mühüm rol oynayırdı. Qarabağ sazəndələrinə təkcə Qafqazın müxtəlif yerlərində deyil, Orta Asiya, İran və Türkiyədə də rast gəlmək olurdu. Onların sənətkarlığı dəfələrlə bu yerlərdə yüksək mükafatlara layiq görülmüşdü. H.Sarabski İranda da qastrol səfərlərində olmuş, onun ictimaiyyətini Ü.Hacıbəyovun operaları ilə tanış etmişdi. Qafqaz qastrollarında olan Türkiyə müğənniləri Nübar əfəndi və Mələk xanım 1910-cu ildə Bakıda konsertlər vermişdilər.

XX əsrin əvvəllərində Azərbaycan və rus musiqi mədəniyyətlərində yeni qarşılıqlı əlaqə meylləri özünü göstərirdi. Bu nöqteyi-nəzərdən F.Şalyapinin (1910-1915), L.V.Sabinovun (1912-1914), S.V.Raxmaninovun (1911-1915) və b. Bakıya qastrol səfərləri mühüm əhəmiyyət kəsb edirdi. Onlar rus və Qərbi Avropa klassik opera sənəti nümunələrinin quruluşunu verir, Qlinka, Çaykovski, Motsart, Bethoven, Vaqner, Rimski-Korsakovun simfonik əsərlərini ifa edirdilər.

Bakıda məşhur musiqiçilərdən A.V.Verjbiloviç, İ.Qolfman, V.Landovskaya, Peterburq və çex kvartetləri çıxış edir, tərkibində Y.Qeltser, M.Kşesinskaya, M.Fokin kimi məşhur balet ustaları olan balet qruppaları tamaşalar göstərirdilər.

Beləliklə, Azərbaycanda zəngin milli xalq musiqisi ilə yanaşı, rus və dünya musiqi klassiklərinin əsərlərindən ən gözəl nümunələr də səslənirdi.

İdarə heyəti Moskvada yerləşən "Rus dram yazıçıları və opera bəstəkarları cəmiyyəti"nin hələ keçən əsrin sonlarından Bakı, Gəncə, Şəki və Şuşa nümayəndələri var idi. Bu cəmiyyətin Bakıda vitse-qubernatoru, digər şəhərlərdə isə müfəttişləri, təhsil müəssisələri var idi. Əsrin əvvəllərində Bakıda "Rus dram həvəskarları şirkəti", "Rus musiqisi cəmiyyəti"nin şöbəsi fəaliyyət göstərirdi.

Musiqi yaradıcılığı zirvəsini fəth etmək arzusu Azərbaycan milli opera sənətinin banisi Ü.Hacıbəyovu 1912-1913-cü illərdə əvvəlcə Moskva, sonra isə Peterburq konservatoriyalarına gətirdi, bu zaman rus musiqisinin görkəmli xadimləri - Rimski - Korsakov və Qlazunov orada çalışırdılar. Ü.Hacıbəyov burada özünün məşhur "Arşın mal alan" musiqili komediyasını yaratdı.

1913-1915-ci illərdə Ü.Hacıbəyovun operalarından Moskvada, Peterburqda səhnələr göstərilirdi. Onun "O olmasın, bu olsun" musiqili komediyası Tiflis artistləri və yerli həvəskarların iştirakı ilə 1914-cü ildə Təbriz səhnəsində göstərildi. Ü.Hacıbəyovun əsərləri başqa dillərə də tərcümə olunurdu. Belə ki, "Əsli və Kərəm" Bakıda erməni dilində göstərildi, rus, gürcü, erməni, Dağıstan dillərinə tərcümə olunan "Arşın mal alan", demək olar ki, Zaqafqaziyanın bütün şəhərlərində böyük müvəffəqiyyətlə tamaşaya qoyuldu.

1920-ci ildə Ceyhun Hacıbəyov "Arşın mal alan"ı fransız dilinə tərcümə edərək Parisdə tamaşaya qoydu.

Azərbaycan milli operalarının Azərbaycan artistlərinin köməyi ilə Daşkənddə tamaşaya qoyulması özbək musiqi mədəniyyətinə müsbət təsir göstərdi. 1916-cı ildə Orta Asiyanın bir çox şəhərlərində həvəskarlar tərəfindən "Əsli və Kərəm", "Məşədi İbad", "Arşın mal alan" və s. opera və operettalar tamaşaya qoyulmuşdu.

Əlaqələrin səmərəli nəticələri özünü başqa sahələrdə də göstərirdi. Azərbaycanın böyük realist rəssamı Ə.Əzimzadənin bir rəssam kimi formalaşmasında məşhur rus rəssamı Maslovun böyük rolu olmuşdu. Rus klassik təsviri sənəti Azərbaycanın ilk peşəkar rəssamı Bəhruz Kəngərliyə böyük təsir göstərmişdi. Müxtəlif vaxtlarda Bakıda yaşayıb-yaratmış O.Şmerlinq, M.Gerasimov, A.Kasatkin, Y.Samorodov və başqa rəssamlar təsviri sənət tarixində əhəmiyyətli iz qoymuşdular. N.Nərimanov və Azərbaycanın digər görkəmli nümayəndələri xalqlar dostluğu yolunda yorulmadan önəmli işlər görürdülər.

Başqa millətlərin nümayəndələri də bu istiqamətdə az iş görməmişdilər. XX əsrin əvvəllərində Bakıda və Azərbaycanın digər yerlərində latış yazıçıları E.Birzniyek-Upit, S.Edjus, A.Berde, Dağıstan xalq şairi S.Stalski, istedadlı Litva şairi Mitskeviç yaşayıb yaratmışdılar. Öz yazılarını Azərbaycan həqiqətlərinə həsr etmiş humanist yazıçılar xalqlar arasıda qarşılıqlı əlaqələrin və dostluğun möhkəmlənməsi üçün xeyli əmək sərf etmişdilər.

Mənəvi dəyərlərlə mübadilə Azərbaycan xalqının özünəməxsus zəngin mədəniyyətinə göstərilən qanunauyğun marağı eyni zamanda milli ziyalıların mənəvi yaxınlaşmaya, millətlərarası mədəni əməkdaşlığa can atmasını, Azərbaycan ədəbiyyatı və incəsənətinin beynəlmiləl və humanist ənənələrini əks etdirirdi.

V FƏSİL

# MÜSTƏQİLLİK ƏRƏFƏSİNDƏ AZƏRBAYCANDA SİYASİ VƏZİYYƏT

## § 1. AZƏRBAYCAN FEVRAL İNQİLABINDAN SONRA

1917-ci il fevralın 23-də Petroqradda fəhlələrin tətil və nümayişi ilə başlanan demokratik inqilab fevralın 27-də 67 minlik paytaxt qarnizonu əsgərlərinin nümayişi ilə özünün ən yüksək zirvəsinə çatdı. Fevralın 28-də inqilab qələbə çaldı. Elə həmin gün Dövlət Dumasının Müvəqqəti Komitəsi "Petroqradda qayda-qanun yaratmaq, idarə və şəxslərlə əlaqəni təmin etmək" məqsədilə hökumətin funksiyalarını öz üzərinə götürdüyü barədə bəyanat verdi. Bir gün əvvəl isə ölkədə inqilab proseslərinin inkişafında başlıca rol oynamış Fəhlə Deputatları Sovetinin Müvəqqəti İcraiyyə Komitəsi öz işinə başladı.

1917-ci il martın 2-də II Nikolay Rusiya çar mütləqiyyəti tarixində son, lakin taxt-tacı tərk etmək haqqında ilk manifesti imzaladı.

Martın 2-də ölkədə real hərbi-siyasi güc olan qurumun Petroqrad Fəhlə və Əsgər Deputatları Sovetinin bilavasitə dəstəyi ilə Müvəqqəti hökumət təşkil olundu. Hökumətin öz qarşısına qoyduğu əsas vəzifə ölkədə qayda-qanun yaratmaq və yeni Rusiyada konstitusiya quruluşunu qanuniləşdirəcək Müəssislər Məclisinə seçkilər keçirmək idi.

Mərkəzdə baş verən hadisələrin mahiyyəti Bakıda dərhal qiymətləndirilməsə də, artıq martın 3-də Bakı fəhlələri Petroqrad inqilabçılarını birgünlük tətil keçirməklə salamladılar. Elə həmin gün Bakıda keçirilən yığıncaqlarda Müvəqqəti hökumətə sədaqət andları və əmin-amanlığın qorunmasını, ordunun və əhalinin bütün zəruri mallarla təchiz edilməsi öhdəliyi barədə bəyanatlar səsləndi. Martın 5-nə keçən gecə yeni hakimiyyət orqanı - Bakı İctimai Təşkilatları Şurası və onun Müvəqqəti İcraiyyə Komitəsi təşkil edildi.

Məmməd Əmin Rəsulzadə o günlərdə yazırdı: "Rusiyanın xalqları öz ürəklərində saxladıqları məqsədlərə, nəhayət ki, çatdılar. Əliqanlı jandarm, bütün xalqın düşməni olan istibdad yıxılmışdır"[1].

Martın 3-də Cənubi Qafqazda mülki hakimiyyət yeni yaradılmış Xüsusi Zaqafqaziya Komitəsinə - OZAKOM-a verildi. Bu komitə regionun əsas millətlərini Dövlət Dumasında təmsil edən deputatlardan ibarət idi. OZAKOM-un sədri rus kadeti V.A.Xarlamov, üzvləri - azərbaycanlı kadet, sonralar müsavatçı M.Y.Cəfərov, gürcü federal-sosialisti K.Abaşidze, erməni kadeti M. Papacanov, rus kadeti P.Pereverzev idilər. İki gündən sonra Nazirlər Şurasının sədri Lvovun əmri ilə P.Pereverzev gürcü menşeviki A.Çxenkeli ilə əvəz edildi. OZAKOM-da Cənubi Qafqaz millətləri bərabər təmsil olunmadığı və aqrar məsələdə müəyyən mövqe tutulmadığına görə xalq kütlələri OZAKOM-a etimad göstərmədiyi üçün o,

lap əvvəldən tənqid hədəfinə çevrildi[2].

Yeni hakimiyyətin təşkili məsələsində siyasi partiyalar və onların liderləri müxtəlif mövqelərdə dayanırdılar. Menşeviklər belə hesab edirdilər ki, yeni hakimiyyət orqanları, mərkəzdə olduğu kimi, yeni inqilabi demokratiya orqanlarının (Fəhlə, Əsgər və Kəndli Sovetlərinin) burjuaziya nümayəndələri ilə əməkdaşlığı əsasında yaradılmalıdır. Eserlərin fikrincə, Müvəqqəti hökumətin yaranmaqda olan yerli orqanlarına Fəhlə və Əsgər Deputatları Sovetləri nəzarət etməli idi. Bolşeviklərə gəldikdə isə, onlar hələlik eserlərin tərəfində dursalar da, sonradan yalnız özlərinin hakimiyyətə gəlməsi uğrunda açıq mübarizə aparmaq mövqeyinə keçdilər.

1905-1907-ci illər inqilabı dövründə Sovetlərin yaradılması uğrunda hərəkatın fəal iştirakçısı olan fəhlələr onlann hakimiyyət orqanı kimi dirçəldilməsi ideyasını artıq 1917-ci ilin martında müdafiə edirdilər.

Bununla yanaşı, fəhlələrin bir qismi Müvəqqəti hökumətə və onun yerli orqanlarına etimad göstərirdi. Fəhlə Deputatları Sovetləri və İctimai Təşkilatların İcraiyyə Komitələrinin eyni vaxtda yaradılması məhz bu amillə bağlı idi. Bütün bunlar, Rusiyanın digər yerlərində olduğu kimi, Azərbaycanda da ikihakimiyyətlilik olduğunu göstərirdi.

Martın 7-nə keçən gecə 52 min fəhlə və qulluqçu tərəfindən seçilmiş 52 deputatdan ibarət (bunların 9 nəfəri bolşevik, qalanları isə menşevik və eser idi) Bakı rayonu Fəhlə Deputatları Soveti qəti şəkildə formalaşdı. Seçkilərdə Bakı fəhlə əhalisinin 2/3-dən çoxu iştirak etmişdi[3].

Sovetin birinci iclasında menşevik Q.Ayollo sədr, o dövrdə hələ menşevik olan M.N.Mandelştam isə katib idi. Yalnız martın 8-də Saratov sürgünündən qayıtmış S.Şaumyan qiyabi olaraq Sovetin sədri seçildi. Onun seçilməsi sosialist dairələrdəki şəxsi populyarlığı ilə bağlı idi[4]. Sovetin İcraiyyə Komitəsinə iki bolşevik (İ.Fioletov və İ.Ter-Qabrielyan) və bir eser (V.İ.Soçnev) daxil idi[5]. Həmin gün Bakı qarnizonunun əsgər deputatları Sovetləri də yaradıldı. Onun sədri eser M.Nikitin seçildi[6]. Azərbaycanlı əhali bu Sovetdə təmsil olunmamışdı. Fevral inqilabından sonrakı ilk günlərdə Sovetlər əslində bütün siyasi təşkilatları əvəz edirdi və müəyyən dərəcədə onların funksiyasını öz üzərinə götürmüşdü[7]. Sovet özünün fövqəladə səlahiyyətləri haqqında bəyanat verdi və fəhlələri hər cür çıxışlardan çəkinməyə, öz işlərini davam etdirməyə çağırdı.

Burjua hakimiyyət orqanı olan İctimai Təşkilatların İcraiyyə Komitəsi də buna oxşar çağırışla əhaliyə müraciət etdi[8]. Buraya həm Fəhlə Deputatları Sovetlərinin, həm də şəhər Dumasının və ictimai təşkilatların nümayəndələri daxil oldu. Sağ menşevik "Yedinstvo" təşkilatının üzvü L.L.Bıç sədr, həmin təşkilatın üzvləri A.K.Leontoviç, Y.İ.Smirnov, kadet İ.D.İonesyan, menşevik İ.Y.Anşeles komitə üzvləri seçildilər[9]. Fəhlə Deputatları Sovetindən fərqli olaraq, İcraiyyə Komitəsinə azərbaycanlı əhalinin təmsilçiləri M.H.Hacınski və M.Ə.Rəsulzadə də daxil oldular. Komitəyə milli neft sənayeçiləri maddi yardım göstərirdilər.

Bütövlükdə inqilabın ilk ayları müxtəlif siyasi cərəyanların, partiyaların, sosial

təbəqələrin Müvəqqəti hökumətə etimad göstərmələri və onu müdafiə etmələri ilə səciyyələnirdi. Bu dövrdə cəmiyyətdə nisbi birliyin saxlanılmasına kömək edən daha bir amil ondan ibarət idi ki, bolşeviklər Sovetlərin partiya tərkibini dəyişdirmək taktikasına hələ keçməmişdilər. İndiyə qədər yerli hakimiyyət orqanlarının hamısı "bütün demokratiyanın vəhdəti" şüarı altında formalaşır və Sovetlərlə yerli burjua hakimiyyət orqanları arasında spesifik münasibətlər yaranırdı. Partiyalararası münasibətlərin getdikcə kəskinləşməsi və qüvvələrin parçalanması hakimiyyət orqanlarının işini pozur, onun fəaliyyətinə qeyri-sabitlik gətirirdi. Sovetlərlə İcraiyyə Komitəsi arasındakı münasibətlərə təsir göstərən amillərdən biri də Sovetlərdə eser və menşeviklərin çoxluqda olmaları idi.

Bu mərhələdə sosial-demokrat yönlü siyasi qüvvələrin birləşməsi prosesi ciddi ixtilaflar doğurmadı. 1917-ci il martın 10-da bolşevik və menşevik nümayəndələrinin Birləşmiş Müvəqqəti Komitəsi - "Ümumşəhər Mərkəzi" seçildi. Mərkəzin tərkibinə ümumşəhər yığıncağından 10 nəfər və Bakı Fəhlə Deputatları Sovetinin partiya fraksiyalarından da eyni sayda nümayəndə daxil oldu. Birləşmiş Komitədə menşeviklər üstünlük təşkil edirdilər.

Bolşeviklərin və menşeviklərin vahid sosial-demokrat təşkilatında birləşməsi onların bərabər və eyni mövqedən çıxış etməsi demək deyildi. Təşkilatın mövcud olduğu 4 ay ərzində onların cari həyatın bütün məsələlərinə münasibəti bir-birindən fərqli idi. İki fraksiya arasındakı daimi mübarizə Müvəqqəti Komitənin mətbuat orqanı olan "Bakinskiy raboçiy" qəzetində əks olunurdu. Partiyanın birləşmiş Müvəqqəti Bakı Komitəsinin orqanı olan qəzet artıq 5-ci sayından sırf bolşevik qəzeti kimi çıxmağa başladı[10]. Menşeviklər isə öz mətbuat orqanlarını - "Sosial-demokrat" qəzetini buraxmağa başladılar. Qəzetin ilk nömrəsi 1917-ci il iyunun 17-də işıq üzü gördü[11].

Beləliklə, Bakıda menşeviklərin və bolşeviklərin bir-birindən təşkilati cəhətdən ayrılması prosesi hər bir cərəyanın və mətbu orqanını buraxması ilə başladı.

1917-ci il mayın 25-də bolşeviklər menşeviklərə xəbər vermədən fəhlələrin içərisində daha çox nüfuzları olduğu Balaxanıda özlərinin ayrıca konfransını keçirib xüsusi qətnamə qəbul edərək, menşevikləri Komitənin tərkibindən kənarlaşdırdılar[12].

1917-ci il iyulun 1-də isə menşeviklər 14 nəfərdən ibarət özlərinin müstəqil komitələrini yaratdılar və onun birləşmiş RSDFP-nin Bakı Komitəsi adlanması haqqında qərar qəbul etdilər[13].

Mütləqiyyətin devrilməsi ərəfəsində eserlər (sosial inqilabçılar) Azərbaycanda nə sanballı nüfuz sahibi, nə də kütləvi partiya idilər[14]. Onlar yalnız inqilabın gedişində təbliğ etdikləri sosial, vətənpərvərlik, müdafiəçilik ideyalarına, onun ziddiyyətli proqramına uyan geniş əhali təbəqələri bu təşkilata can atarkən real gücü olan kütləvi partiyaya çevrildilər.

1917-ci ilin martında Bakıda eserlər partiyasının Müvəqqəti İcraiyyə

Komitəsi təşkil edildi. Eserlər Almaniya ilə sülh bağlanana qədər müharibə aparmağa və Müvəqqəti hökumətə hərtərəfli kömək etməyə çağırırdılar. Onlar inqilabda kəndlilərin roluna xüsusi yer verirdilər. Sosial inqilabçılar Qafqazda kəndli ittifaqlarının təşkilində fəal iştirak etməyi zəruri sayırdılar. Onlar Cənubi Qafqazda milli məsələdən danışarkən yalnız sosialist partiyaların timsalında millətlərin demokrat nümayəndələri ilə taktiki saziş bağlamağın mümkünlüyünü iddia edir və "panislamçı düşmən" obrazının yaradılmasında xüsusi rol oynayırdılar. Eserlərin fikrincə, əzilən millətlərin, o cümlədən müsəlmanların hüquqlarının müdafiəsi "xüsusi hüquqlar və imtiyazlar uğrunda" mübarizə demək idi[15].

Fevral inqilabı bütün müsəlmanların, o cümlədən azərbaycanlıların siyasi fəallığını artırdı. Gündəlikdə duran ən vacib məsələlərdən biri təkcə Cənubi Qafqazın yox, bütün Rusiya müsəlmanlarının pərakəndə halda olan qüvvələrinin birləşdirilməsindən ibarət idi. Hələ Ümumrusiya Müsəlman Şurası yaradılmamışdan əvvəl 1917-ci il martın 27-də Bakı Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsi yaradılmış, "Müsavat" partiyasının üzvü, hüquqşünas Məmməd Həsən Hacinski onun sədri seçilmişdi[16].

Komitənin öz qarşısına qoyduğu əsas məqsədlərdən biri yerli özünüidarə orqanlarında və gələcək Müəssislər Məclisində müsəlmanların proporsional şəkildə təmsil olunmasına nail olmaq idi. Lakin bu tələbə bolşeviklər, menşeviklər və eserlər kəskin etiraz etdilər. Onların qənaətinə görə, gizli səsvermə şəraitində ümumi, birbaşa və bərabər seçki hüququ müsəlmanlara öz iradəsini tam ifadə etmək imkanı yaradır. Lakin bu qüvvələr müsəlmanlar içərisində savadsızlığın yüksək olduğunu, onların baş verən inqilabi proseslərdən hələ çox uzaq olduğunu nəzərə almırdılar.

Buna baxmayaraq, 1917-ci il mayın 21-də Bakı Ərzaq Komitəsinə keçirilmiş seçkilər heç milli hərəkat liderlərinin də gözləmədikləri nəticə ilə başa çatdı: müsəlman bloku 29735 səs, sosialistlər (menşeviklər, eserlər, bolşeviklər, daşnaklar) 18061, kadetlər isə yalnız 1028 səs topladı. Seçkilər Müvəqqəti hökumətin 1917-ci il 25 mart tarixli qərarına uyğun olaraq keçirilirdi. Komitənin əsas funksiyası sabit qiymət əsasında taxılın toplanması, bölgüsü və satışına dövlət inhisarını həyata keçirməkdən ibarət idi. "Kaspi" qəzeti sevinclə yazırdı ki, müsəlmanlar bu seçkilərdə görünməmiş yüksək mütəşəkkillik göstərərək "ictimai-siyasi kamillik imtahanından uğurla çıxdılar"[17].

Lakin Bakıdakı "inqilabi demokratiya"nın nümayəndələri müsəlmanların siyasi və ictimai təşkilatlarını qəsdən əksinqilabçılıqda günahlandırmaqda davam edirdilər. "İzvestiya Bakinskoqo Soveta" qəzeti səhifələrində "müsəlman məsələsinə" həsr etdiyi yazılarda "müsəlman millətçiliyin"dən, "müsəlman ictimai təşkilatlarının inqilab işinə vurduqları ziyan"dan bəhs edirdi[18]. "Musulmanskie izvestiya" öz növbəsində mayın 30-da M. Ə. Rəsulzadənin "Solların səhvləri" məqaləsini yenidən dərc etdi. Məqalədə müəllif Sovet liderlərini müsəlmanlar arasında iş aparmağın zəruriliyini başa düşməməkdə

günahlandırırdı. O, "solların səhvini" müsəlmanlara sinfi mövqedən yanaşmaqlarında görürdü[19]. Faktiki olaraq, bu məqalə "Bakı Sovetinin Xəbərləri" ("İzvestiya Bakinskoqo Soveta") qəzeti ilə polemikanın əsasını qoysa da, elə bir ciddi siyasi nəticələrə gətirib çıxarmadı.

Bu mərhələdə milli intibah qayəsi azərbaycanlıların şüurunda az da olsa iz buraxmış türkçülük ideyalarında ifadə edilirdi. Bu ideologiyanı milli mərkəzlərdə Bakı və Gəncədə yerləşən ayrı-ayrı qruplar həyata keçirirdilər.

Fevral burjua-demokratik inqilabının qələbəsindən sonra "Müsavat" partiyası leqal şəkildə xalqı öz tərəfinə çəkmək istiqamətində geniş siyasi və təşkilati fəaliyyətə başladı. Artıq 1917-ci ilin payızında "Müsavat" Azərbaycanda milli-demokratik hərəkata başçılıq edən, sinfi və sosial mövqeyindən asılı olmayaraq, Azərbaycan cəmiyyətinin müxtəlif təbəqələrini öz arxasınca apara bilən siyasi partiyaya çevrilirdi. Partiyanın dövlət quruluşu məsələsinə dair mövqeyi onun taktikasını və fəaliyyət istiqamətini müəyyən edən əsas amillərdən biri idi.

"Müsavat" partiyası federativ demokratik Rusiya tərkibində Azərbaycana milli-ərazi muxtariyyəti və 20 yaşına çatmış azərbaycanlı vətəndaşlara seçki hüququ verilməsi ideyasını irəli sürürdü. Monarxiyanın süqutundan cəmi bir neçə gün sonra Gəncədə Türk Federalistlər Partiyası yarandı. Bu partiya Rusiya dövlətinin muxtar ərazilərin federasiyasına çevrilməsi ideyası ilə çıxış edirdi. Partiyanın yaradıcısı və ideya rəhbəri Nəsib bəy Yusifbəyli idi.

Hələ 1905-ci ildə azərbaycanlı ziyalıların yaxından iştirakı ilə məramı Rusiya müsəlmanlarının hüquqlarını müdafiə etmək olan "Rusiyada Müsəlmanlıq partiyası" təşəkkül tapmışdı.

1917-ci ildə partiya və ona yaxın mühafizəkar dini dairələr ölkədə baş verən hadisələrə münasibətdə gözləmə mövqeyi tutdular.

1918-ci ilin yanvar ayında "Rusiyada Müsəlmanlıq Partiyası" ilə Gəncədəki "İttihad" Cəmiyyətinin qovuşması, nəticəsində vahid "İttihadi-İslam - Rusiyada Müsəlmanlıq Partiyası yarandı". Bir il sonra, yəni 1919-cu ilin aprelində partiyanın adı dəyişdirilərək, "Qafqaz İttihad firqəsi" adlandırıldı. Bu partiyanın əməli fəaliyyət və nəzəri baxışlarının bünövrəsi hər şeydən əvvəl islama əsaslanan ittihad - birlik idi. İslamı yalnız din deyil, siyasi, iqtisadi, hüquqi, mənəvi və s. norma kimi qiymətləndirən ittihadçılar onu müsəlman həyatının özülü, əsas strukturu hesab edir, inkişaf yolunu isə məhz İslam normalarını təkmilləşdirmək vasitəsilə həyata keçirməkdə görürdülər[20].

"Müsəlman kütlələrinin psixologiyasını nəzərə alan" və "özünün xüsusi tarixə malik olduğunu iddia edən bolşevik "Hümmət" partiyası 1917-ci il martın 3-də fəaliyyətini bərpa edib, özünün Müvəqqəti Komitəsini yaratdı. Müvəqqəti Komitənin başçısı N.Nərimanov, üzvləri isə M.Əzizbəyov, M.N.İsrafilbəyov və N.M.Sultanov seçildilər. Komitə bolşevik mövqeyində durduğunu bəyan etdi. Halbuki "Hümmət"in əyalətdəki komitələri menşeviklərin üstünlük təşkil etdikləri digər yerlərdə, həmçinin Tiflis quberniyasında onlara meyil göstərirdilər[21].

Yeni inqilabi şəraitdə Azərbaycan xalqının məqsəd və arzularını müəyyənləşdirmək məqsədi ilə bağlı ilk addım 1917-ci il aprelin 15-20-də Bakıda keçirilmiş Qafqaz müsəlmanlarının qurultayında atıldı.

Qurultay ərəfəsində Bakı Müsəlman İctimai Təşkilatlarının Müvəqqəti Komitəsi Qafqaz müsəlmanlarına müraciət dərc etdi. Müraciətdə deyilirdi: "Komitə ümummüsəlman qurultayı çağırmaqdan, milli-siyasi proqramı irəli sürməkdən imtina edir, lakin məhz indi millətlərin mənafeyini ən yaxşı təmin edə biləcək dövlət idarəçiliyi haqqında fikrini bildirməyi zəruri sayır... Belə bir idarə forması, söz yox ki, yalnız demokratik respublikadır"[22].

Hələ qurultay açılmamışdan əvvəl Azərbaycanın siyasi təşkilatları Rusiyanın gələcək siyasi quruluşu haqqında öz məramlarını elan etmişdilər. Onlar bütün Rusiyada demokratik respublikanın yaradılması ideyasını irəli sürən və müdafiə edən ilk təşkilatlardan biri idi.

Qurultayda Azərbaycanın siyasi partiya və ictimai təşkilatlarının, həmçinin Şimali Qafqaz, Gürcüstan və İrəvan müsəlmanlarının nümayəndələri iştirak edirdilər.

Qurultayda əsas məsələlərdən biri Rusiyanın gələcək siyasi quruluşu və kiçik xalqların hüquqlarına aid idi. Rusiyanın siyasi quruluşu barədə M.Ə.Rəsulzadə məruzə etdi. O göstərdi ki, "dövlətə daxil olan müxtəlif millətlərin möhkəm birliyini onların dövlət ittifaqı haqqında azad ifadə olunmuş arzusundan başqa heç bir qüvvə təmin edə bilməz"[23]. Qurultay Qafqaz müsəlmanlarının milli-siyasi idealları haqqında M.Ə.Rəsulzadənin məruzəsi üzrə qətnamə qəbul etdi. Qətnamədə deyilirdi: "Federativ əsaslarla demokratik respublika Rusiya dövlət quruluşunun müsəlman xalqlarının mənafeyini ən yaxşı təmin edən forma kimi tanınsın"[24].

RSDFP BK-nın qərarına əsasən qurultayın işində iştirak edən bolşevik-hümmətçilər N.Nərimanov, M.Əzizbəyov və R.Nağıyev nümayəndələr qarşısında tələblər irəli sürdülər. Onların tələbləri sosialist inqilabının ümumdünya miqyasında qələbəsi uğrunda hamını proletar Rusiyası şüarı altında birləşməyə çağıran sırf inqilabi şüarlardan ibarət idi. N.Nərimanov deyirdi: "Rusiyada inqilab ümumdünya imperialist müharibəsindən sonra bütün dünyada inqilabın başlanması deməkdir". O, kiçik xalqların taleyini yalnız fəhlə-kəndli Rusiyasının taleyi ilə bağlayırdı[25].

Qurultay aprelin 20-də keçirilmiş iclasında Qafqaz müsəlmanlarının Müvəqqəti hökumətə, habelə müharibə və Rusiyanın digər xalqlarına münasibəti məsələlərini müzakirə etdi.

Qafqaz müsəlmanları qurultayı Rusiya Müvəqqəti hökumətinin 1917-ci il 6 mart tarixli qətnaməsinin "Əsgər və Fəhlə Deputatları Sovetinin razılığı ilə bəyan etdiyi prinsiplərini ardıcıl və dönmədən həyata keçirəcəyi müddətdən onun bütün tədbirlərini hər cəhətdən müdafiə etməyi zəruri saydı"[26].

Müharibəyə münasibət məsələsində isə qurultay Rusiya demokratiyasının

müharibənin ilhaqsız və təzminatsız qurtarmaq tələbinə qoşulmağı qərara aldı.

Başqa xalqlara münasibət məsələsinə gəldikdə isə qurultayın qərarında deyilirdi: "Rusiya dövlətinin bütün xalqlarının, o cümlədən Qafqaz xalqlarının milli-siyasi ideallarını həyata keçirmək cəhdləri hər vəchlə müdafiə olunmalıdır". Qurultay qarşılıqlı hörmət əsasında ümumi demokratik idealları həyata keçirmək məqsədilə onlarla yaxınlaşmağın zəruriliyini vurğuladı[27], həmçinin Qafqazda qadınların vəziyyəti haqqında məsələni də müzakirə etdi. M.Ə.Rəsulzadə müsəlman qadının azad və bərabərhüquqlu olmasını müsəlman xalqlarının milli-azadlıq mübarizəsində ən mühüm məsələlərdən biri kimi qiymətləndirdi. M.Ə.Rəsulzadə göstərirdi: "Bütün digər xalqların qadınları kişilərlə bərabər ictimai-siyasi hərəkatda iştirak etdiyi və bununla da öz millətinin uğurlarına kömək etdiyi bir vaxtda müsəlman qadın dustaqlıqda qala bilməz və qalmamalıdır". Siyasi komissiyanın qətnaməsində müsəlman qadınlara kişilərlə bərabər siyasi və iqtisadi hüquqlar verilməsinin zəruri sayıldığı bəyan edildi[28]. Bu qətnamə Rusiyada ictimai həyatın bütün sahələrində kişilərə qadınların hüquqlarını bərabər tutan siyasi sənəd idi.

Qurultayın gündəliyinə fəhlə və torpaq haqqında məsələlər də daxil edilmişdi. Lakin qurultay bu məsələlərə aid qətnamə qəbul etmədi və onların həllini Müəssislər Məclisi çağırılana qədər təxirə saldı. Lakin buna baxmayaraq, qurultayda bu məsələlərə dair bəzi layihələr irəli sürüldü. Fəhlə və torpaq komissiyası adından məruzə edən X.P.Sultanov nümayəndələri fəhlə məsələsinə dair qətnamə layihəsi ilə tanış etdi. Həmin layihədə fəhlələrin həyat və güzəranını yüngülləşdirən bir sıra sosial islahatlar keçirilməsi təklif olunur, onların hamısının yalnız Müəssislər Məclisində qanunvericilik yolu ilə həll edilməli olduğu vurğulanırdı.

Torpaq məsələsinə aid aşağıdakı təkliflərin həyata keçirilməsi zəruri sayılırdı: "Qafqazda əməkçi kəndlilərin torpaq ehtiyaclarını ödəmək məqsədilə bütün dövlət, udel və idarə torpaqları müsadirə olunsun və iri xüsusi torpaq mülkiyyəti ədalətli qiymətlərlə məcburi şəkildə özgələşdirilsin"[29].

Məruzədə göstərilirdi ki, torpaqdan, istifadə edilməsi məsələsində meydana çıxa biləcək bütün mübahisə və anlaşılmazlıqlar kəndlilər, torpaq sahibləri və qəza icraiyyə komitələrinin nümayəndələrindən ibarət (barışdırıcı) komissiya tərəfindən həll edilməlidir.

Qurultayın müzakirə etdiyi son məsələ əhalinin əsas kütləsinin savadsız olduğu Qafqaz xalqları üçün çox böyük əhəmiyyəti olan kütləvi təhsil haqqında idi. Pedaqoq M.Ə.Əfəndiyevin məruzəsi üzrə "Türk dilində ümumi, məcburi və pulsuz təhsilin zəruriliyi haqqında" qətnamədə müəllim kadrlar hazırlamaq üçün seminariya və institutlar açılması nəzərdə tutulurdu[30].

Qurultayın sonuncu günü Qafqazda müsəlman milli komitələrinin təşkili və iki mərkəzin - biri Şimali Qafqaz üçün Vladiqafqazda və digəri Cənubi Qafqaz üçün Bakıda yerləşən iki mərkəzi büro açılması haqqında qərar qəbul edildi.

Müsəlmanların Ümumqafqaz qurultayı Rusiya müsəlmanlarının siyasi həyatında mühüm rol oynadı, siyasi hadisələrin həmin mərhələsində onların

mənafelərini ifadə edərək, Rusiya müsəlmanları milli hərəkatının gücləndirilməsi yollarını, demokratik respublika prinsiplərinə söykənən dövlət quruluşu seçimini müəyyənləşdirdi.

Milli regionlar çərçivəsində formalaşmış əksər qrupların (Cənubi Qafqaz, Başqırdıstan, Krım, Qırğızıstan və s.) nümayəndələri, Rusiya dövlətinin həyati mənafelərinə toxunmamaqla, bütün sahələrdə özünüidarə hüququ verən ərazi muxtariyyəti prinsipinin tərəfdarı idilər. Rusiyanın müxtəlif hissələrinə səpələnmiş tatarların nümayəndələri isə tamamilə əks mövqedə dayanırdılar[31].

Məsələ ilə bağlı ziddiyyətlər 1917-ci il mayın 1-dən 11-nə qədər Moskvada keçirilmiş Ümumrusiya Müsəlmanlar qurultayında özünü büruzə verdi. Qurultayı təşkil etmək üçün Qafqaz sosial-demokratı Əhməd Salihovun başçılığı ilə büro yaradıldı. Qurultay azərbaycanlı milyonçu Şəmsi Əsədullayevin Moskvadakı müsəlmanlara hədiyyə etdiyi binada 900 nümayəndənin iştirakı ilə keçirildi. Qurultayın gündəliyində Rusiyanın gələcək idarə forması; mədəni və məhəlli muxtariyyət, müharibəyə münasibət, Məclisi-Müəssisan; Qadınlar, fəhlə, torpaq məsələləri (hər biri ayrılıqda); Qafqaziya, Türküstan, Qazaxıstan məsələləri (müstəmləkə siyasəti və s.); əsgəri təşkilat, siyasi təşkilat məsələləri; bütün Rusiya müsəlmanlarının böyük milli şurasını seçmək və s. məsələlər dururdu. Konqresin gündəliyindəki on dörd məsələnin müzakirəsi üçün doqquz bölmə, onun əməli işini aparmaq üçün dörd komissiya təşkil olunmuşdu[32].

Qurultayın müzakirə etdiyi ən mühüm məsələlərdən biri Rusiyanın gələcək dövlət idarə üsulu haqqında idi. Məsələ ilə bağlı iki nümayəndə - M.Ə.Rəsulzadə və Ə.Salihov çıxış etdilər.

M.Ə.Rəsulzadə idarə üsulu haqqında Azərbaycan türk dilində etdiyi çıxışında göstərirdi ki, bu məsələyə həm insanlıq mədəniyyəti, həm də milli maraqlar nöqteyi-nəzərindən baxılmalıdır.

M.Ə.Rəsulzadə hesab edirdi ki, vahid Ümumrusiya təşkilatının yaradılmasına mane olan mədəni muxtariyyət proqramı türk xalqlarının yüksələn milli özünüdərketmə şüuruna ədalətli şəkildə cavab verə bilməz. O öz çıxışında da vurğuladı ki, "Rusiya xalq cümhuriyyəti üsulu ilə idarə edilməlidir... Mən, ədəmi-mərkəziyyəti muxtariyyətlərdən təşəkkül edən bir federasiya şəklində təsəvvür edirəm. Bu muxtariyyətləri milli-məhəlli prinsipi içində faydalı bilirəm"[33]. Müsəlmanların Rusiyada slavyanlardan sonra ikinci yeri tutduğu, onların 96 vilayət və qəzada yaşadıqları, Qafqazda, o cümlədən 10 vilayətdə - onlardan Bakı vilayətində 676243 (82,05%), Tiflis vilayətində 189098 (17,98%), İrəvan vilayətində 350096 (42,47%) nəfər olduğu göstərilmişdi[34].

Rusiya dövlətinin ərazi federasiyası əsasında təşkili əleyhinə çıxış edən Əhməd Salihov iddia edirdi ki, belə quruluş aqrar məsələnin həllini çətinləşdirəcək, müsəlman fəhlələr Ümumrusiya sosial qanunvericiliyinin faydasından bəhrələnə bilməyəcəklər, çünki həmin quruluş şəraitində qanunlar müxtəlif regionlarda fərqli xarakter daşıyacaqdır. Onun təklif etdiyi qətnamə layihəsində deyilirdi ki, ərazi federalizmi müsəlmanların tam parçalanmasına gətirib çıxaracaq və milli məsələni həll etməyəcəkdir. Federalizm

prinsipinin Rusiya müsəlmanlarını siyasi cəhətdən parçalayacağını israrla bildirən Ə.Salihovun fikrincə, birbaşa, bərabər və gizli seçki hüququ əsasında mərkəzi orqan - milli-mədəni parlament yaratmaqla müsəlman milli-mədəni muxtariyyəti formasında həyata keçirilməlidir[35].

Məsələnin vacibliyini nəzərə alan nümayəndələr Ə.M.Topçubaşovun rəhbərliyi altında bir daha onun müzakirəsinə qayıtdılar. Nümayəndələrə müraciət edən Topçubaşov göstərdi ki, "idarə üsulu məsələsi çox mühüm və böyük bir siyasi problemdir. Bu, bizim üçün bir imtahan məqamıdır". Məsələnin müzakirəsi çox gərgin keçdi. 200-ə qədər təklif verilmişdi. Ə.M.Topçubaşov öz çıxışında qeyd etdi ki, "hər şeydən əvvəl, biz xalq cümhuriyyəti (demokratik-federal cümhuriyyət) istəyirik, bu bizim əsas diləyimizdir. Xalq cümhuriyyəti demək, bütün hakimiyyətin tamamilə xalqın, demokrasinin öz əlində bulunan idarə deməkdir. Buna digər bir sözlə, "xalq hakimiyyəti" də deyilir".

Ərazi muxtariyyəti blokunun əsas məruzəçisi olan M.Ə.Rəsulzadə hesab edirdi ki, vahid Ümumrusiya təşkilatının yaradılmasına mane olan mədəni muxtariyyət proqramı türk xalqlarının yüksələn milli özünüdərk şüuruna ədalətli şəkildə cavab verə bilməz. "Sual olunur: millət nədir? Mən əminəm ki, millətin ən mühüm xüsusiyyətləri dili və tarixilə bağlı əlaqələrdən, adət və ənənələr birliyindən ibarətdir. Bəzən deyirlər ki, İslam millətin təcəssümüdür, çünki türk-tatardan milləti soruşulduqda, o "mən müsəlmanam" deyə cavab verir. Lakin bu, səhv baxışdır. Xristian milləti yoxdur və eləcə də İslam milləti mövcud deyildir. Bu böyük müsəlman evində türklər və ərəblər üçün ayrı-ayrı otaqlar olmalıdır"[36].

Nəticədə Rəsulzadənin "Müsəlman millətlərin mənfəətlərini saxlamaq üçün ən uyğun idarə üsulu milli-mədəni muxtariyyəti verən xalq cümhuriyyətidir" - fikrini ifadə edən layihəsinin lehinə 446, əleyhinə 271, Ə.Salihovun unitar cümhuriyyət təklifinin lehinə 271, əleyhinə 442 səs verildi.

Konqresdə 30 üzvdən ibarət Şura (Qafqazdan 5 nəfər) 12 nəfərdən ibarət İcra Komitəsi seçildi. Əsasən Azərbaycan siyasətçilərinin təmsil etdikləri federasiya tərəfdarlarının bu qələbəsinə baxmayaraq, onlar Petroqraddakı Mərkəzi Şuranın tərkibində say etibarilə xeyli az idilər, unitar dövlət tərəfdarları isə əksəriyyət təşkil edirdi. Bundan sonra unitar dövlət tərəfdarları ilə yalnız formal əlaqə saxlayan azərbaycanlı milli siyasi xadimlərin fəaliyyət dairəsi əsasən Cənubi və Şimali Qafqazı əhatə edirdi. Dövrünə görə mühüm qərarlar qəbul etmiş qurultay Rusiyadakı 30 milyonluq Türk aləminin düşüncələrini, ictimai-siyasi, milli, dini görüşlərini, arzu və məqsədlərini bəyan etdi[37].

Müsəlman Komitəsində birgə iş təcrübəsi qazanmış müsavatçılar artıq Ədəmi-Mərkəziyyət Partiyası ilə birləşmək məsələsini irəli sürdülər. Birləşmə 1917-ci il iyunun 20-də (yeni təqvimlə 3 iyul) baş verdi. Yeni partiya Türk Ədəmi-Mərkəziyyət Müsavat (Türk Federalistlər Partiyası Müsavat) Partiyası adlandı və qəbul etdiyi bəyannamədə özünü "əməkçi kütlələrə, həmçinin Rusiyanın türk və digər müsəlman xalqlarının milli-mədəni səylərinə əsaslanan demokratik partiya" elan etdi[38].

Birləşmə nəticəsində "Müsavat" Partiyası 1917-ci ilin yayında Azərbaycanın ictimai-siyasi həyatında xalqın milli-azadlıq hərəkatı ideyalarını daşıyan, yüksək nüfuzu olan siyasi qüvvəyə çevrildi.

1917-ci ilin yayı və payızında Rusiyada, o cümlədən Cənubi Qafqazda, xüsusən Bakıda kütlələrin genişlənən güclü inqilabi hərəkatı Zaqafqaziya bölgəsində vəziyyətə ciddi təsir göstərir, Azərbaycanda inqilabi hərəkat zamanı müxtəlif nəzəriyyələri, rəqabət aparan siyasi qüvvələrin intellektual, təşkilati və insani potensialını sınağa çəkirdi.

Bolşeviklərlə menşeviklər arasında siyasi mübarizə daha da kəskinləşdi. Eser-menşevik bloku kütlələri öz tərəfinə çəkmək üçün mübarizəni qətiyyətlə gücləndirir, öz baxışlarını daha fəal şəkildə təbliğ edirdi. 1917-ci ilin yayında ciddi məsələlərin həlli zamanı daşnaklar eser-menşevik blokunun mövqeyini müdafiə edir, bolşeviklər isə əksər hallarda təcrid olunmuş vəziyyətdə qalırdı.

1917-ci il iyulun 26-da Petroqradda bolşeviklər partiyasının VI qurultayı öz işinə başladı. Bakı bolşevik təşkilatını qurultayda Prokofi Caparidze və Ağabala Yusifzadə təmsil edirdilər[39]. P.Caparidze Mərkəzi Komitənin xəttini tam bəyəndiyini bildirdi. A.Yusifzadə "Hümmət" təşkilatı adından qurultayı təbrik edərək, Azərbaycanın və bütün Cənubi Qafqazın əməkçi kütlələrinin bolşevik təşkilatı ətrafında birləşməsi işində "Hümmət"in rolundan danışdı. O göstərdi ki, "...inqilabdan sonra təşkilat dirçəlməyə başlayıb. Artıq o, Bakının bütün rayonlarında geniş iş aparmağa başlayıb. Bir çox qəzalarda - Şamaxı, Quba və s. yerlərdə təşkilatın orqanları yaradılıb"[40].

A.Yusifzadənin çıxışında o da göstərilirdi ki, "Hümmət"in ətrafında hələlik yalnız sadiq ziyalı qrupu birləşsə də, şüurlu müsəlman fəhlələri də təşkilatda təmsil olunur. "Hümmət" qəzetinin vəsait çatışmazlığı üzündən həftədə cəmi bir dəfə çıxa bildiyindən şikayətlənən A.Yusifzadə təşkilata kömək göstərilməsi xahişi ilə qurultaya müraciət etdi[41]. Bunu nəzərə alaraq, RSDF(b)P MK-nın avqustun 5-də olmuş plenumu "Hümmət" təşkilatına 5 mln manat həcmində maddi yardım göstərilməsi haqqında qərar qəbul etdi[42].

Sosial-demokratiya təbliğatı aparan, "müsəlman kütlələrinin psixologiyasını nəzərə alan"[43] "Hümmət"in siyasi təşkilat kimi real gücü haqqında təkcə A.Yusifzadənin qurultaydakı çıxışı yox, həm də onun rəhbəri N.Nərimanovun sözləri də aydın təsəvvür yaradır. O qeyd etmişdi ki, 1917-ci ilin yazında təşkilatı genişləndirmək zərurəti ortaya çıxarkən işimiz çox olsa da, lazımi sayda adamlar çatışmırdı[44].

N. Nərimanov "Hümmət" təşkilatının vəzifəsini müəyyənləşdirərək belə demişdi: "Biz kütlələrin içinə getməli, insanlara Zaqafqaziya Komitəsinin mahiyyətini başa salmalı, xalqı maarifləndirməli, hər şəhərdə, hər bir kənddə iş aparmalıyıq"[45].

1918-ci il yanvarın 1-də N.Nərimanov müsəlman əhalisinin bütün hakimiyyətin Fəhlə və Kəndli Deputatları Sovetinə verilməsi tələbini müdafiə etməyə çağıraraq yazırdı ki, "əgər müsəlmanlar öz haqlarını qorumaq istəyirlərsə, ...onda onlar tezliklə öz səslərini ucaltmalıdırlar"[46].

VI qurultay V.İ.Leninin hakimiyyəti silahlı üsyan yolu ilə ələ almaq

xəttini qəbul etdi. Çünki bolşeviklər Rusiyada iyul hadisələrindən sonra yaranmış siyasi vəziyyəti təhlil edərək, onun ümummilli böhrana keçəcəyi qənaətinə gəlmişdilər.

Digər sosial-demokrat partiyaları da hakimiyyətə gəlmək imkanlarını götür-qoy edirdi. Bütün iyul ayı ərzində Bakı menşeviklərinin partiya komitələri iclaslar keçirirdi. Lakin bütövlükdə öz sayına və fəhlələr içərisindəki nüfuzuna görə menşeviklər getdikcə öz mövqelərini itirirdilər.

Eserlər rus əhalisi içərisində populyar partiya idi. Onun fəalları partiyalarının təcrübə və nüfuzundan geniş istifadə edir, mitinqlərdə Petroqrad hadisələrinin mahiyyətini kütlələrə izah edirdilər. Eserlərin iştirak etdikləri bütün yığıncaqlarda Müvəqqəti hökuməti müdafiə edən qətnamələr qəbul olunur, möhkəm inqilabi hakimiyyətin yaradılması, demokratiyanın yerlərdə bütün hökumət orqanlarına nəzarət etməsi tələbləri irəli sürülürdü.

1917-ci ilin iyulunda Bakı müsəlman ictimai və siyasi təşkilatlarında cəmiyyətin müxtəlif təbəqələrini birləşdirmək məqsədilə onun icraiyyə Komitəsini yenidən təşkil etmək qərara alındı. 33 nəfər üzvdən ibarət bu Komitə ilə əlaqədar müxtəlif rəylər söylənir və qeyd edilirdi ki, "Komitədə 6 yer kəndli və fəhlələrin nümayəndələri üçün saxlanılır"[47].

Hümmətçilər Komitənin tərkibinə daxil edilmədilər. İyulun 14-də 26 nəfərin iştirakı ilə keçən iclasda Əlimərdan bəy Topçubaşov Komitənin sədri, M.H.Hacınski və M.Ə.Rəsulzadə onun müavinləri, M.H.Vəzirov isə katib seçildilər.

"Hümmət" öz iclasında seçkilər haqqında məsələni müzakirədən keçirib, sonda iştirakdan imtina etmək qərarına gəldi. İmtinanın dörd səbəbindən ilk üçü daha çox prosedur məsələlərə aid idi, dördüncüsü isə ideoloji xarakter daşıyırdı. Qərarda deyilirdi ki, "Komitə üzvlərinin çoxu kapitalistlərin tərəfindədir"[48].

Avqustun sonlarında müharibənin əldən saldığı Rusiyada iqtisadi və siyasi vəziyyət pisləşdi. Belə şəraitdə Lavr Georgiyeviç Kornilov Müvəqqəti hökuməti devirməyə cəhd göstərdi. General Kornilovun qiyamı Azərbaycanda, demək olar ki, bütün siyasi partiyalar tərəfindən pislənildi. Eserlər yaxınlaşan təhlükə qarşısında bütün qüvvələri əksinqilabla mübarizəyə yönəltmək üçün sosialistləri köhnə ixtilafları unutmağa, bütün rayonlarda onların daxil olacağı xüsusi Sovetlər yaratmağa çağırırdı. Menşeviklərin və eserlərin təkidi ilə Bakı Sovetinin İcraiyyə Komitəsi İctimai Təşkilatların İcraiyyə Komitəsinə tabe olacaq "Əksinqilabla Mübarizə üzrə Mərkəzi Büro yaradılması haqqında" qərar qəbul etdi. Həmin büronun müstəqil orqan olması təklifini irəli sürən bolşeviklər bu qərara etiraz etdilər.

Bolşeviklər Sovetin 1917-ci il 30 avqust tarixli iclasında öz təkliflərini yenidən irəli sürüb, eserlərin tərəddüdündən faydalanaraq, 63 səsə qarşı 94 səslə iclas keçirməyə imkan qazandılar[49].

1917-ci il sentyabrın 1-də Sovetin qapalı iclasında menşeviklərin təşəbbüsü ilə bolşevik qətnaməsi ləğv olundu. Sovet Müvəqqəti hökumətə tam etimad göstərdiyini

bildirdi[50]. Eyni zamanda menşeviklər Kornilov qiyamına qarşı çıxış edən burjuaziya qrupları ilə birgə hərəkət siyasəti yeridirdilər.

Eserlər partiyası Şurası özünün 1917-ci il 30 avqust tarixli iclasında Əksinqilabla Mübarizə üzrə Büronun yaradılması haqqında Bakı Soveti İcraiyyə Komitəsinin təşəbbüsünü müdafiə etdi. Milli partiyalara münasibətdə öz taktikasına sadiq qalan Şura onların bu qurumda iştirakını arzuolunmaz hesab edirdi. Ancaq hadisələrin sonrakı gedişi kornilovçuluğa qarşı mübarizədə milli qüvvələrin qətiyyət göstərdiklərini nümayiş etdirdi. Müsəlmanlar, xüsusən də Zaqafqaziya müsəlmanları üçün Kornilov qiyamı son dərəcə narahatçılıq mənbəyinə çevrildi, çünki onun baş tutacağı təqdirdə müsəlmanların muxtariyyətlə bağlı ümidlərinə son qoyula bilərdi. Müsəlman İctimai Təşkilatları Şurasının Bakı İcraiyyə Komitəsi 1917-ci il avqustun 29-da əksinqilabi qiyamı qətiyyətlə pisləyərək, Müvəqqəti hökuməti tam müdafiə etdiyini bildirdi.

Müsəlmanlar sentyabrın 1 və 2-də Təzə Pir məscidində və Suraxanıda təşkil etdikləri mitinqlərdə Kornilov qiyamını qətiyyətlə pislədilər. Çıxış edənlər inqilabi demokratiya ilə həmrəy olduqlarını göstərməklə yanaşı, siyasi avantüraya qatılan "Vəhşi diviziya"nın hərəkətlərindən məyus olduqlarını bildirdilər[51]. Ə.M.Topçubaşov çıxışında bəyan etdi: "Bizim yolumuz düz və aydındır. Azadlığa doğru getmək və onu təsdiq etmək bizim xeyrimizədir. Biz inqilabi demokratiya ilə birgə olmalı, ...bütün əksinqilabi cəhdlərə qarşı çıxmalıyıq"[52].

Bakının müsəlman rayonlarında mitinqlər təşkil edən "Müsavat" Partiyasının Mərkəzi Komitəsi sentyabrın 1-də keçirdiyi konfransında inqilabı müdafiə etmək məqsədilə, partiya üzvləri tərəfindən bütün zəruri tədbirlərin görülməsi, o cümlədən lazım gəldikdə silaha əl atılması haqqında qərar qəbul etdi[53].

Lakin bu addımlardan sonra da eser və menşeviklərin Azərbaycan milli hərəkatına münasibətləri dəyişilmədi. Kornilov qiyamı günlərində təşkil olunmuş Əksinqilabla Mübarizə üzrə Büroya müsavatçıları qəbul etmədilər. Buna baxmayaraq, "Müsavat" fəal mövqe tutdu[54].

Kornilov qiyamı uğursuzluqla nəticələnsə də, Müvəqqəti hökumətin mövqeyini sarsıtdı. Kornilova qarşı inqilabi qüvvələrin səfərbərliyi gedişində yaranmış şərait bolşeviklərin nüfuzunun güclənməsinə kömək edirdi. Onlar fəhlələrin hüquqları uğrunda Rusiya sosialist partiyalarının mübarizə proqramına tərəfdar çıxaraq, sentyabrın sonlarında Bakıda başlanmış ümumi tətili tam müdafiə etdilər. Bakı Sovetində vəziyyət gərginləşdi, hamı həyəcan içində idi. Siyasi hadisələr çox sürətlə dəyişir və kütlələr tərəfindən tam dərk olunmurdu. Azərbaycanın siyasi xəritəsində müxtəlif fəallıq ocaqları var idi. Ən yüksək fəallıq mərkəzi olan Bakıda siyasi partiyaların əhalinin ayrı-ayrı təbəqələrinə göstərdiyi təsir müxtəlif idi.

Bu cəhətdən qəzalarda vəziyyət daha mürəkkəb idi. Baş verən siyasi hadisələr haqqında məlumat qəza sakinlərinə çox nadir hallarda çatırdı. Sovetin

İcraiyyə Komitəsinin başqa şəhərlərlə iş üzrə komissiyası yayın ortalarına qədər təkcə Bakı quberniyasını gəzdikdən sonra inqilabi prinsiplərin hələ əhalinin geniş təbəqələrinin şüuruna daxil olmadığı, onların baş verən hadisələrdən tam xəbərsiz qaldıqları, ruhanilərin, bəylərin nüfuzunun hələ də güclü olduğu yerli icraiyyə komitələrinin öz tərkibinə görə zamanın tələblərinə cavab vermədiyi qənaətinə gəlmişdi[55].

Ərzaq məsələsi əvvəlki kəskinliyində qalırdı. Bakı Sovetinin bu istiqamətdə gördüyü tədbirlər ancaq narazılıq törədirdi. Qənaətçilik, möhtəkirliklə mübarizə haqqında qərarlar icra edilmirdi. Sovet hər dəfə çörək paylarının azaldılmasını qanuniləşdirirdi.

Vaxtaşırı Sovetlərə "etimadını bildirən" fəhlələr əslində Sovetlərlə hesablaşmırdılar. İnqilabın demokratik qüvvələrin səpələndiyi ilk dövründə Sovetlər bu qüvvələri birləşdirir, onların bəziləri əhalinin geniş təbəqələrinin istəklərini əks etdirirdi. Onlar qanunverici, icraedici, məhkəmə hakimiyyətlərini, şəhər özünüidarəçiliyini, ərzaq təşkilatlarını, peşə ittifaqlarını əvəz edirdi. Hər hansı ehtiyacla üzləşən insanlar əsasən onlara üz tuturdular. Lakin siyasi partiyalar gücləndikcə, Sovetlər bütün hakimiyyətin cəmləşdiyi mərkəz rolunu itirirdi.

Bakı Sovetinin yenidən seçilməsinin vaxtı çatmışdı. Seçkilərin demokratik əsaslarla keçirilməsi fikrində hamı həmrəy olsa da, struktur məsələsi və seçkilər sisteminin özü siyasi partiyalar arasında ixtilaflar törətdi. 1917-ci il oktyabrın 22-də keçirilən seçkilərin nəticələri qeyri-sosialist partiyaların ictimai rəydəki rolunun gücləndiyini göstərdi.

Bakı Sovetinin İcraiyyə Komitəsi, S.Şaumyan başda olmaqla, milli partiyaların cəmiyyətdə artan nüfuzunun qarşısını almaq, onların seçkilərdə iştirakını zəiflətmək məqsədilə yeni seçkiqabağı kampaniyada dolaşıqlıq yaratmaq üçün seçkilərin keçirilməsi vaxtı haqqında axırıncı günə qədər heç bir məlumat vermədi. "Müsavat"ın Mərkəzi Bürosu öz xüsusi seçki nömrəsini son anda aldı və buna görə də fəhlələr içərisində kifayət qədər təbliğat aparmağa imkan tapmadı[56].

Seçkilərin nəticələri isə tamamilə gözlənilməz oldu: "Müsavat" 9617, eserlər 6305, bolşeviklər 3823, menşeviklər 687, daşnaklar 528 səs topladılar. Beləliklə, Zabrat rayonu istisna olmaqla, bütün neft-mədən rayonlarında keçirilmiş seçkilərdə "Müsavat" Partiyası qalib gəldi[57].

Bundan sonra "Müsavat" Partiyası diyarda hakimiyyət strukturlarının formalaşdırılması prosesinə ciddi təsir göstərməyə başladı. Onun üzvlərindən qəza və quberniya komissarları və müvəkkilləri vəzifəsində işləyənlər var idi. Məsələn, Bakı quberniyasında M.Rəfiyev və F.X.Xoyski, Bakı qəzasında Y.Əliyev, Quba qəzasında Səfərəlibəyov, Şamaxı qəzasında M.Mahmudov məsul vəzifələrə təyin olunmuşdular[58]. Ə.M.Topçubaşovun təqdimatına əsasən, OZAKOM İ.Heydərova Bakı quberniyasının komissarı, M.Vəkilova isə onun müavini vəzifələrini vermişdi[59]. Hələ mart ayında isə Dövlət Dumasının üzvü, Gəncə şəhər başçısı X.Xasməmmədov quberniya İcraiyyə Komitəsinin sədri seçilmişdi[60].

"Müsavat" Partiyasının 1917-ci il oktyabrın 25-dən 31-dək davam etmiş I

qurultayı Azərbaycanın ictimai həyatında və partiyanın özünün siyasi tarixində əhəmiyyətli hadisə idi. Partiya proqramının müzakirəsi və qəbul edilməsi qurultayın ən başlıca məsələsi oldu.

"Müsavat" Partiyasının proqramı dövlət quruluşu, fəhlə məsələsi, milli və dini məsələlər, vətəndaş hüquqları, aqrar məsələ və s. sahələri əhatə edən 9 bölmə və 76 maddədən ibarət idi.

"Müsavat"ın I qurultayı partiyanın sonrakı siyasi mübarizəsinin və Azərbaycana milli ərazi muxtariyyəti verilməsinin taktika və strategiyasını müəyyən etdi[61].

Proqramın "Dövlət quruluşu və muxtariyyət" adlanan birinci fəslində vətəndaşların hüquq və azadlıqlarının Konstitusiya tərəfindən qorunması, demokratik federativ respublika kimi təqdim edilən dövlət quruluşunun prinsipləri bəyan edilmiş, dövlət quruluşu forması olaraq federasiya və mədəni-milli muxtariyyət müəyyənləşdirilmişdi. Proqramda federasiyaya daxil olan muxtar vahidlərə öz aralarında əsasən iqtisadi sahədə ittifaq bağlamaq hüququ, mərkəzi hakimiyyətə isə müdafiə, pul və gömrük sistemi, xarici siyasət, dəmir yolları və s. məsələlərə aid səlahiyyətlər verilməsi nəzərdə tutulurdu.

Hər bir muxtar vilayətdə yerli əhalinin əksəriyyətinin danışdığı dil rəsmi dil hesab olunmalı idi. Cinsindən, milliyyətindən və dini etiqadından asılı olmayaraq, 20 yaşına çatmış bütün vətəndaşlar parlamentə seçə və ya seçilə bilərdilər.

Proqram Rusiya ərazisində yaşayan bütün türk xalqları arasında milli-mədəni ittifaq yaradılmasını, milli və dini fərqlərə baxmayaraq, bütün Rusiya müsəlmanları Müftisinin (Şeyxülislamın) seçilməsini nəzərdə tutur, onun rəhbərliyi ilə dini təşkilatların fəaliyyətinə nəzarət edən, bütün əyalətlərdən nümayəndələrin daxil olduğu komissiya yaradılması tələbi irəli sürülürdü. Maraqlıdır ki, həmin komissiyaya kürdlər, osetinlər, inquşlar, çərkəslər və s. qeyri-türk mənşəli müsəlmanlardan da nümayəndələr daxil etmək təklif olunurdu.

Mülki hüquq sahəsində partiya mənsubiyyətindən, milliyyətindən, dini etiqadından, siyasi mənsubiyyətindən asılı olmayaraq, federativ respublikanın vətəndaşlarının qanun qarşısında bərabərliyi prinsipini irəli sürür və bununla da dinin dövlətdən ayrılmasını nəzərdə tuturdu. O, Rusiyanı dünyəvi dövlət kimi tanıyır, lakin dini etiqad azadlığını istisna etmirdi.

Proqramda pasport sistemini ləğv etməklə ölkə və onun hüdudlarından kənarda sərbəst hərəkət etmək imkanı yaradılması təqdir edilirdi.

Maliyyə siyasətinin yumşaldılması üçün gəlir vergisindən başqa bütün vergilərin ləğv olunmasını, yeni vergi növü - vərəsəlikdən vergi alınmasını təklif edən partiya iqtisadi inkişafı sürətləndirmək məqsədilə gömrük rüsumlarının minimuma endirilməsini məqbul sayırdı.

Partiyanın kütlələr içərisində nüfuzu əhəmiyyətli dərəcədə aqrar məsələnin həllindən asılı idi. Proqramda qeyd edilirdi ki, bütün xəzinə, kilsə və sahibkar torpaqları pulsuz və əvəzsiz kəndlilərə paylanmalı, torpaq kəndlilərin tam mülkiyyətinə keçməlidir.

Sənəddə torpaq sahibliyinin minimum həcmi müəyyən edilir, xüsusi mülkiyyətə yalnız torpağın üstü, dövlət mülkiyyətinə isə torpağın təki şamil edilirdi.

Fəhlə məsələsində RSDFP-nin II qurultayında (1903-cü il) qəbul edilmiş fəhlə proqramını əsas götürən "Müsavat" öz partiya proqramında bütün fəhlə və qulluqçular üçün 8 saatlıq iş günü, onlara həftədə 24 saat fasiləsiz istirahət verilməsini, əlavə işlərə qadağan qoyulmasını, 16-18 yaşlı yeniyetmələr üçün 6 saatlıq iş günü müəyyən edilməsini, eyni zamanda məktəbyaşlı uşaqların muzdlu əməkdə istifadə olunmamasını, qadınların işlədiyi fabrik və zavodlarda südəmər uşaqlar üçün körpələr evi açılmasını, fəhlələrə həftəlik maaş verilməsini nəzərdə tuturdu. Qanunların icrasına nəzarət etmək üçün müəssisələrdə fəhlə müfəttişlikləri yaradılmalı, sahibkarlar əmək qanununu pozduqları halda cinayət məsuliyyətinə cəlb edilməli idilər.

"Müsavat" Partiyası məhkəmə orqanlarının yerli hakimiyyət orqanlarından tam ayrı və müstəqil fəaliyyət göstərməsini, yalnız qanunlara tabe olmasını, əhalinin hesabına ödənilən bütün məhkəmə xərclərinin ləğv edilməsini məhkəmə quruculuğu sahəsində əsas tələblər kimi irəli sürürdü.

Xalq təhsili sahəsi ilə bağlı proqram müddəalarına görə, ibtidai və ali məktəblərdə pullu təhsil ləğv olunmalı, təhsil hər bir muxtar vilayət əhalisinin əksəriyyətinin danışdığı dildə aparılmalı, ali məktəblərdə dərslər yalnız Azərbaycan dilində tədris edilməli, ali təhsil müəssisələrinə tam muxtariyyət verilməli idi[62].

Petroqradda bolşeviklərin hakimiyyəti ələ alması partiyanın qurultayı keçirilən günlərə düşdü. Buna baxmayaraq, qurultay bu hadisəyə konkret münasibət göstərməyib gözləmə mövqeyi tutdu. Yalnız qurultayın son günü Ş.Rüstəmbəyovun Rusiyadakı siyasi vəziyyətə aid dinlənilmiş məruzəsinə əsasən qəbul edilən qətnamədə Mərkəzi Komitəyə Azərbaycana muxtariyyət əldə edilməsi üçün bütün tədbirləri görmək və Mərkəzi Müsəlman Komitəsi qarşısında Azərbaycan Müəssislər Məclisini çağırmaq tələbini qoymaq tapşırığı verildi[63].

"Müsavat" Partiyasının I qurultayı partiyanı ideoloji və təşkilati cəhətdən tam formalaşdırmaqla yanaşı, onun ümummilli siyasi qüvvəyə çevrilməsi istiqamətində mühüm hadisə oldu. Qurultayda partiyanın rəhbər orqanları, eyni zamanda Məmməd Əmin Rəsulzadə onun Mərkəzi Komitəsinin sədri seçildi.

Beləliklə, fevral inqilabının qələbəsindən sonra Azərbaycanda, hər şeydən əvvəl, milli hərəkatın daha kütləvi və siyasi səciyyə alması, konkret iqtisadi tələblər irəli sürülməsi, milli dövlətçilik ideyası ətrafında əhalinin bütün təbəqələrinin birləşməsi kimi cəhətləri ilə fərqlənən tamamilə yeni mərhələ başlandı.

İmperiyanın milli ucqarları bəzi siyasi azadlıqlar əldə etmiş, bütün siyasi partiyalar leqal işə keçmişdilər. Şəhərlərdə və qəza mərkəzlərində fəaliyyət göstərən siyasi partiyalar və müsəlman milli şuraları ziyalıların, burjuaziya və mülkədarların ən qabaqcıl nümayəndələrindən təşkil edilmişdi. Azərbaycanda milli hərəkata vahid rəhbərlik məqsədilə Bakıda, digər şəhər və qəzalarda şöbələri olan Müsəlman Milli Şurası yaradılmışdı. Milli Şura öz fəaliyyətini demokratik prinsiplər əsasında quraraq, müsəlman əhalisinin bütün təbəqələrini milli partiya və təşkilatların ətrafında toplamışdı.

Fevral inqilabından sonra Azərbaycan milli azadlıq hərəkatını istiqamətləndirən Milli Şuradakı ictimai-siyasi təşkilatların hər biri ona rəhbərlik etmək uğrunda mübarizə aparırdı. Onlardan "Hümmət", "Ədalət" və "Birlik" təşkilatları daha fəal idilər. Fevral inqilabının qələbəsindən sonra "Hümmət" təşkilatı öz fəaliyyətini xeyli gücləndirmişdi.

Milli azadlıq hərəkatında və milli Azərbaycan dövlətinin yaradılmasında "Müsavat"ın rolu böyük idi. Partiyanın liderləri real vəziyyətdən çıxış edərək, Ölkədəki bütün demokratik qüvvələri milli Azərbaycan dövləti yaratmaq uğrunda mübarizəyə çağırırdılar.

Beləliklə, 1917-ci ildə Azərbaycandakı milli azadlıq hərəkatı üç istiqamətdə aparılan mübarizəni özündə birləşdirmişdi. Hər şeydən əvvəl, müvəqqəti hökumətin əsarətdə olan xalqlara qarşı yeritdiyi müstəmləkəçilik siyasətinə qarşı mübarizə qeyd edilməlidir. Müvəqqəti hökumət çarizmin müsəlman xalqlarına qarşı yeritdiyi müstəmləkəçilik siyasətini "daha incə və daha qapalı" şəkildə davam etdirir, Azərbaycan xalqını separatizmdə təqsirləndirir və milli azadlıq hərəkatını boğmağa çalışırdı.

İkinci istiqamət, inqilabçı demokratların rəhbərlik etdiyi Sovetlərə qarşı mübarizədən ibarət idi. Əvvəlcə göstərildiyi kimi, Fevral inqilabından dərhal sonra Bakı və digər şəhərlərdə ikinci hakimiyyət orqanı kimi Fəhlə və Əsgər Deputatları Sovetləri yaradılırdı. Onların içərisində nisbətən nüfuzlusu Bakı Soveti hesab edilirdi. Sovetlərin fəaliyyəti Azərbaycan xalqının tarixi taleyi və milli mənafeyinə yabançı idi. Bakıda Fəhlə və Əsgər Deputatları Sovetinin tərkibində azərbaycanlılar yox dərəcəsində idi. Sovetin tərkibi və rəhbər heyəti bütünlüklə ermənilərdən və ruslardan ibarət idi. Eser, menşevik, daşnak blokunun rəhbərlik etdiyi bu Sovet "vahid və bölünməz Rusiya" ideyasını təbliğ edirdi.

1917-ci il oktyabrın 25-də Petroqradda bolşeviklərin silahlı üsyanı nəticəsində Müvəqqəti hökumət devrildi. Oktyabrın 25-26-da Smolnıda keçirilən II Sovetlər qurultayında Sülh və Torpaq haqqında dekretlər qəbul edildi və Leninin başçılığı ilə Sovet hakimiyyətinin əsası qoyuldu.

## § 2. RUSİYADA OKTYABR ÇEVRİLİŞİ VƏ AZƏRBAYCAN

Bolşeviklərin Petroqradda hakimiyyəti ələ keçirməsi xəbəri alındıqdan sonra 1917-ci il oktyabrın 27-də Bakı Fəhlə və Əsgər Deputatları Sovetinin fövqəladə yığıncağı keçirildi. İclasın gündəliyində duran əsas məsələ hakimiyyət məsələsi idi. Bolşeviklərin kəskin etirazına baxmayaraq, menşevik-eser-daşnak bloku 168 səsə qarşı 246 səslə Bakıda ali hakimiyyət orqanı kimi İctimai Təhlükəsizlik Komitəsinin (İTK) yaradılması haqqında qərarın qəbul olunmasına müvəffəq oldu. Sovet səsvermədə qalib çıxmış həmin üç siyasi partiya (eserlər, menşeviklər və daşnaklar) adından bəyan etdi ki, inqilabın müdafiəsi Petroqradda başlanmış üsyanın qansız və dinc yolla ləğv olunmasını tələb edir, ölkədə bütün hakimiyyət Müəssislər Məclisinə verilməli, o vaxta qədər mövcud hakimiyyətin kifayət qədər inqilabi gücü olmadığı halda bütün hakimiyyət demokratiya daxilində koalisiyaya verilməlidir[64]. Və qüvvələr bolşevik partiyasını sosialist partiyası kimi qəbul etdiklərindən onun nümayəndələrinin nəzərdə tutulan koalisiyada iştirakına etiraz etmir, "Müsavat" Partiyasını isə millətçi partiya adlandıraraq onunla hər hansı bir bloka girməyi qəti rədd edirdilər. Eyni zamanda onlar şəhərin erməni əhalisini Sovetdə təmsil edən millətçi "Daşnaksutyun" partiyasının Bakı təşkilatına çox loyal münasibət bəsləyirdilər. Sovetin oktyabr iclaslarının menşevik-eser qətnamələri məhz daşnaklarla ittifaqda qəbul olunmuşdu.

Bolşeviklərin Sovetin qərarı ilə razılaşmayacaqları əvvəlcədən aydın idi. Bolşevik mətbuatı iddia edirdi ki, İctimai Təhlükəsizlik Komitəsinin yaradılması haqqında qərar "sağ eserlərdən hələ qəti şəkildə ayrılmamış və digər partiyadaşları" ilə birlikdə menşeviklərlə və daşnaklarla bloka girmiş sol eserlərin tərəddüdləri nəticəsində qəbul edilmişdir[65].

Bakı Sovetinin 1917-ci il 27 oktyabr tarixli qərarı ilə razılaşmayan bolşeviklər, mədən-zavod komitələri üzvlərinin dəstəyinə arxalanaraq Sovetin geniş iclasını çağırmaq taktikasına əl atdılar. Bolşeviklər Bakı Sovetinin oktyabrın 31-də toplanan iclasına onları açıq şəkildə müdafiə edən mədən-zavod, alay və donanma komitələrinin nümayəndələrini dəvət etdilər. Onlar Sovetin üzvlərindən dəfələrlə çox idi. Bu cəhəti iclasın ilk dəqiqələrindən diqqət mərkəzinə çəkən eserlər və menşeviklər həmin iclasın qeyri-qanuniliyi məsələsini qaldırdılar[66].

İclas çox qızğın şəraitdə keçirdi. İclasın gündəliyində 30-a qədər müxtəlif qətnamələrin qəbulu təklif edilmişdi. Birinci növbədə hərbi İnqilabi Komitənin ləğv olunması haqqında qətnamə qəbul edildi. Bolşeviklər hələlik "Bütün hakimiyyət Sovetlərə!" tələbini irəli sürməkdən çəkinərək, yalnız Sovetlərin səlahiyyətlərinin artırılmasına çalışırdılar. Onlar Bakıda hakimiyyəti ələ almaq üçün hələ özlərini kifayət qədər güclü hesab etmirdilər. Yalnız digər siyasi institutların ləğvi yolu ilə hakimiyyəti ələ keçirməyin mümkünlüyünü başa düşəndən sonra bolşeviklər qəti surətdə İctimai Təşkilatların İcraiyyə Komitəsinin buraxılması

məsələsini qaldırdılar.

Alay, batalyon, rota və gəmi komitələrinin onları hərtərəfli müdafiə etdiklərini görən bolşeviklər, Sovetlərin hakimiyyətini və Sovetlərdə öz üstünlüyünü bərqərar etmək məqsədilə, Bakı Sovetinin yeni iclasının keçirilməsini təkidlə tələb etdilər. Hakimiyyətin Sovetlərə keçməsi ilə razılaşmadıqlarını bildirən menşevik və eserlərin iclas zalından çıxıb getməsi bolşeviklərə olduqca sərfəli idi. İclasda iştirak edən 468 deputat və nümayəndədən 344 nəfəri qaldı. Onların yalnız az bir hissəsinin səsvermə hüququ vardı, lakin bunun artıq elə bir əhəmiyyəti yox idi, çünki bolşeviklərin öz qətnamələrini keçirmələri üçün istənilən qədər səs toplamaqlarından ötrü kifayət idi.

İki gün sonra - 1917-ci il noyabrın 2-də bolşeviklər öz mövqelərini daha da möhkəmləndirmək məqsədilə yenidən bütün hakimiyyətin Sovetə verilməsi məsələsini qoydular. Bu zaman onlar yenə də Sovetin vaxtilə bəhrəsini gördükləri geniş iclasını çağırmaq taktikasına əl atdılar. Siyasi qüvvələrin mövcud nisbəti də bolşeviklərin xeyrinə idi.

Sovetin 1917-ci il 31 oktyabr tarixli iclasında zəiflik göstərmiş eser-menşevik fraksiyası bu dəfə də qəbul edilən qərarlara real təsir göstərmək iqtidarında olmadı və bolşeviklərsiz yeni İcraiyyə Komitəsi yaradılmasının zəruriliyi qənaətinə gələrək hazırkı İcraiyyə Komitəsindən çıxdığını elan etdi.

Bu dövrdə müsavatçıların bolşeviklərə tərəfdar çıxması da mühüm əhəmiyyət kəsb edən amillərdən biri idi. Rusiyada baş vermiş Oktyabr çevrilişinə loyal münasibət nümayiş etdirən "Müsavat" Partiyası bundan sonra xalqların öz müqəddəratını təyin etmək hüququnun həyata keçiriləcəyinə ümid edirdi. Sovet hakimiyyətinin ilk sənədləri - "Rusiya xalqlarının hüquq bəyannaməsi" və "Rusiyanın və bütün Şərqin müsəlmanlarına müraciət"[67] bu ümidi daha da möhkəmləndirmişdi. Buna görə də yaranmış siyasi böhranı dinc yolla aradan qaldırmağı zəruri hesab edən "Müsavat" Partiyası İctimai Təhlükəsizlik Komitəsinin hərəkətlərinin barışıq və saziş siyasəti üçün ziyanlı olduğunu və buna görə də özünün həmin qurumda iştirakını mümkün saymadığını bildirdi[68].

"Müsavat"ın dəstəyini alan bolşeviklər Xəzər ticarət donanması, bir sıra həmkarlar ittifaqı və şəhər qarnizonu nümayəndələrini öz tərəflərinə çəkə bildilər və Sovetin 1917-ci il 2 noyabr tarixli iclasında onu Bakı şəhərinin ali hakimiyyət orqanı elan edən qərar qəbul edilməsinə nail oldular.

Bakı Soveti İcraiyyə Komitəsinin M.V.Basin, N.P.Vatsek, P.A.Caparidze, İ.T.Fioletov, S.G.Şaumyan və b. ibarət yeni tərkibi seçildi. İcraiyyə Komitəsinin sədri S.Şaumyan oldu[69].

Beləliklə, bolşeviklər Sovetdə iştirak edən digər partiyalar-eserlər və menşeviklərlə müsavatçılar arasındakı ziddiyyətlərdən istifadə edərək, Bakı Sovetində əsas vəzifələri asanlıqla ələ keçirə bildilər. Bu zaman 1917-ci il noyabrın 2-dən etibarən demokratik qüvvələr arasında hər iki düşərgənin səfərbər olması ilə müşayiət edilən açıq parçalanma prosesi başlandı.

Bakı və Yelizavetpol quberniyasında yerləşən qarnizonların əsgərləri Bakıda hakimiyyətin Sovetlərin əlinə keçməsini razılıqla qarşıladılar. Bununla belə, 1917-ci il

noyabrın 2-dən etibarən bir çox müəssisə və təşkilatlarda keçirilən iclaslarda, o cümlədən Bakı Dövlət Dəmir Yolu İdarəsi işçilərinin, Bibiheybət fəhlələrinin, Daşnaksutyun partiyası üzvlərinin, bank işçilərinin, Mühəndis və Texniklər Şurasının və b. iclaslarında bolşeviklərin hakimiyyəti bu yolla ələ almaları bəyənilməyib pislənildi[70].

Eser-menşevik blokunun Sovetdən çıxması mövcud vəziyyəti daha da gərginləşdirdi. Məlumdur ki, eserlər və menşeviklər bolşevikləri tam təcrid etmək məqsədilə birgə fəaliyyət göstərmək üçün onlara qoşulmaq təklifi ilə "Müsavat" Partiyasına müraciət etmişdilər. "Müsavat" Partiyasının 1917-ci il noyabrın 7-də keçirilən konfransında bu təklif barədə qəbul edilən qətnamədə bildirilmişdi: "Yerli demokratiya daxilində yaranmış münaqişəni bolşevikləri inqilabi demokratiyanın digər hissəsindən təcrid etmək yolu ilə həll etmək bütün demokratiyanın ümumi məqsədləri üçün zərərlidir. Çünki inqilabın sol qanadının zəifləməsi, eyni zamanda əksinqilabi sağ qanadın güclənməsi deməkdir"[71].

Lakin bu siyasi münaqişəni dinc yolla aradan qaldırmaq mümkün olmadı. Sovetin təkhakimiyyətliliyə nail olmasına Bakının digər siyasi hakimiyyət strukturları (İctimai Təşkilatların İcraiyyə Komitəsi, Şəhər Duması) da mane olurdu. Buna görə də Sovetin bolşeviklərdən ibarət İcraiyyə Komitəsi bu hakimiyyət orqanlarının ləğvinə çalışırdı. Nəhayət, 1917-ci il noyabrın 22-də İctimai Təşkilatların İcraiyyə Komitəsi ləğv olundu və bolşeviklərin Sovetdə öz hegemonluqlarını bərqərar etmək və diyarda təkpartiyalı sistem yaratmaq uğrunda mübarizəsi başlandı.

Lakin F.X.Xoyskinin rəhbərliyi ilə fəaliyyət göstərən Şəhər Duması bolşevik Sovetinin yeganə mümkün rəqibi kimi qaldı. Fevral inqilabından sonra Bakı Şəhər Dumasının statusunda dəyişiklik baş verdi. Bu hakimiyyət təsisatının tədricən siyasi mübarizə səhnəsinə cəlb olunaraq demokratikləşməsi müşahidə edilirdi. Nəticədə onun yeni heyətinin seçkilərində iştirak etmək üçün 12 müxtəlif partiya və qrup qeydiyyata alındı[72]. İctimai həyatda baş verən demokratikləşmə siyasi partiyaların proqram sənədlərində, hər şeydən öncə isə onların proqramlarındakı bələdiyyə seçkiləri keçirilməsi qaydasına aid hissədə özünü büruzə verirdi. Belə ki, bütün siyasi qüvvələr yerli idarəetmə orqanlarına seçkilərin gizli səsvermə yolu ilə bərabər, birbaşa keçirilməsinə tərəfdar çıxırdılar.

Bütövlükdə isə proqramlarda çoxlu prinsipial fərqlər var idi. Belə ki, sosialist bloku (eserlər və menşeviklər) və Müsəlman İctimai Təşkilatları Komitəsi (Komitə ilə "Müsavat"ın proqramları üst-üstə düşdüyündən, onlar seçkilərə vahid siyahı ilə gedirdilər) öz bələdiyyə proqramlarını mövcud quruluş şəraitində həyata keçirməyi nəzərdə tuturdu, bolşeviklər isə bildirirdilər ki, onların bələdiyyə proqramında ən mühüm məqsəd siyasi hakimiyyətin proletariatın əlinə keçməsidir.

Hakimiyyət uğrunda qızğın mübarizə getdiyi oktyabr günlərində yalnız şəhərdəki seçicilərin iştirakı ilə Dumaya seçkilər keçirildi, şəhər idarə dairəsi ərazisinə daxil edilməyən şəhərətrafı sənaye zonalarının əhalisi seçicilər siyahısına daxil edilməmişdi. Bolşeviklər bir qədər artıq (cəmi 16%) səs toplasalar da, heç bir partiya həlledici

üstünlük qazana bilmədi. Digər təşkilatların birləşib siyasi bloklarda iştirak etdiyi bu seçkilərdə müsəlman bloku isə 10 mindən çox səs aldı[73].

Şəhər Dumasının sonrakı fəaliyyəti göstərdi ki, başlanmış demokratikləşmə prosesi bu qurumun özü tərəfindən ləngidilir. Onda təmsil olunan fraksiya nümayəndələri Dumanın köhnə rejimində işləməsinə tez-tez etirazlar edir, lakin vəziyyətdən çıxmaq üçün isə yalnız Dumanın bağlanması təklifini irəli sürürdülər. Bu zaman hələ 1918-ci ilin əvvəllərində də heç bir siyasi partiya, o cümlədən bolşeviklərin özləri belə 1918-ci ilin yazında şəhərdə hakimiyyəti ələ keçirəcəklərini güman etmirdilər.

1917-ci il dekabrın 12-13-də bolşeviklərlə müsavatçılar arasında münasibətlərin gərginləşməsi şəraitində dəyişdirilmiş seçki qaydası əsasında Bakı Sovetinə seçkilər keçirildi. Nəticələr "Müsavat" Partiyası üçün ümidverici olmadı, bolşeviklərin 51 səsinə qarşı müsavatçılar 21, daşnaklar 41, sol eserlər 38, sağ eserlər 28, menşeviklər isə 11 səs almışdılar[74]. Sovetin 1917-ci il 31 dekabr tarixli iclasında seçki ilə əlaqədar çıxış edən M.Ə.Rəsulzadə bəyan etdi ki, "Sovet demokratik əsaslarla seçilmədiyinə və kəndlilər burada təmsil olunmadığına görə, partiya hakimiyyətin bu Sovetə keçməsinə səs verməyəcək"[75]. Lakin iclasın sonunda müsavatçılar bildirdilər ki, onlar tənəffüs zamanı bu məsələni əlavə müzakirə etdikdən sonra hakimiyyəti Sovetə vermək və İcraiyyə Komitəsinə daxil olmaq qərarına gəlmişlər[76].

Yeni İcraiyyə Komitəsinə 6 nəfər bolşevik, 5 daşnak, 4 sol eser, 3 sağ eser, 2 müsavatçı daxil oldu[77].

Beləliklə, 1917-ci ilin sonu - 1918-ci ilin əvvəlində Zaqafqaziyada baş verən hadisələr bütün diyardakı həm mövcud siyasi şəraitə, həm də siyasi partiyaların fəaliyyətinə ciddi təsir göstərirdi. Bu dövrdə diyar şərti olaraq iki hissəyə parçalanmışdı: birincisi, Rusiya bolşevizminin dayağına çevrilməkdə olan Bakı şəhəri; ikincisi, Zaqafqaziyanın qalan ərazisi hakimiyyəti ələ keçirmiş bolşeviklər Azərbaycana muxtariyyət vermək istiqamətində heç bir addım atmır, əksinə, inqilabi-demokratik qüvvələri V.İ.Leninin başçılıq etdiyi Xalq Komissarları Soveti ətrafında daha sıx birləşməyə çağırırdılar.

1917-ci il dekabrın 18-də V.İ.Lenin S.Şaumyanı Zaqafqaziya işləri üzrə xüsusi komissar təyin etdi, Bakı Sovetinin sədri vəzifəsini isə ondan sonra P.Caparidze tutdu. Bu dövrdə müsavatçılar, xüsusilə Gəncə müsavatçıları Bakıdakı öz fəaliyyət məkanını Rusiyadan getdikcə uzaqlaşan bütün Cənubi Qafqaz regionuna keçirməyə başladılar.

RSFSR XKS-nə tabe olmaq istəməyən və diyarı anarxiyadan qorumağa çalışan Gürcüstan Sosial-Demokrat Partiyası (menşeviklər), "Müsavat", Daşnaksutyun və sağ eserlərin nümayəndələri noyabrın 11-də Tiflisdə keçirdikləri müşavirədə Rusiya bolşevik hökumətinin hakimiyyətini tanımaqdan imtina etdiklərini bildirib, "Müstəqil Zaqafqaziya hökuməti" yaratmaq haqqında qərar çıxartdılar. Noyabrın 15-də Zaqafqaziya Komissarlığı yaradıldı. Onun tərkibinə Gürcüstandan Y.Gegeçqori (sədr) və A.Çxenkeli, Azərbaycandan F.X.Xoyski, M.Y.Cəfərov, X.Məlikaslanov, ermənilərdən T.Ter-Qazaryan, X.Karçikyan, A.Aqacanyan, sağ eserlərdən D.Donskoy daxil oldular[78].

Milli Şuralar vətənpərvər qüvvələri öz ətrafında birləşdirir və yerlərdə

hakimiyyəti ələ alırdılar. Bu cəhətdən Bakı Müsəlman Şurasının vəziyyəti çətin idi, çünki onun qarşısını bolşeviklərin başçılıq etdiyi Bakı Soveti kimi güclü bir rəqib kəsmişdi.

Milli hərbi hissələrin yaradılması yerli milli şuraların əsas fəaliyyət istiqamətlərindən biri idi. İlk milli dəstələrdən biri - əvvəllər çar ordusu birləşmələrindən olan "Qafqaz yerli süvari diviziyasına" daxil olan, Azərbaycan türklərdən ibarət süvari alayı "Tatar süvari alayı" idi. Çar ordusu dağıldıqdan sonra bu alay Azərbaycana qayıtdı və yaradılan milli silahlı qüvvələrin tərkibinə daxil oldu.

Yeni silahlı dəstələr yaradılması üçün silah çatmırdı. Bunu nəzərə alan Gəncə Müsəlman Şurası şəhərdə olan keçmiş çar ordusunun 219-cu alayını, həmçinin Qafqaz cəbhəsindən Rusiyaya qayıdan bir neçə hərbi eşelonu tərksilah etməyə razı oldu. Bu tədbirin həyata keçirilməsi nəticəsində 15 min tüfəng, 70-ə yaxın pulemyot və 20 top əldə edildi[79]. Bu əməliyyat zamanı Gəncə Milli Şurasına Zaqafqaziya Komissarlığının göndərdiyi zirehli qatar kömək etdi.

Dövrün ən kəskin sosial-iqtisadi məsələlərindən biri - aqrar məsələnin həlli üçün Zaqafqaziya Komissarlığı bir sıra addımlar atdı. Məsələn, 1917-ci il dekabrın 16-da "Dövlət, keçmiş xanədan, kilsə, monastır, hüquqi şəxslər və sahibkar torpaqlarının torpaq komitələrinə verilməsi haqqında" qanun qəbul etdi. Bu qanuna görə, kəndlilərin alacağı torpaqlar torpaq komitələrinin sərəncamına verilməli, kəndlilər isə torpağı həmin komitələrdən icarəyə götürməli idilər.

Zaqafqaziya Komissarlığının fəaliyyəti Antanta və ABŞ tərəfindən Sovet Rusiyasına qarşı hərbi müdaxilənin başladığı vaxta düşdü. İngiltərə, Fransa və ABŞ hökumətləri Cənubi Qafqazda antibolşevik qüvvələrə kömək etməyə xüsusi diqqət yetirirdilər. Onların nümayəndələri (ABŞ konsulu Smit, ingilis generalı Şor, fransız polkovniki Şardinyi və b.) 1917-ci il noyabrın 11-i və 15-də Zaqafqaziya Komissarlığının yaradılması ilə bağlı keçirilən iclaslarda olmuşdular. ABŞ konsulu Smit Vaşinqtona göndərdiyi məktubunda Zaqafqaziya Komissarlığını de-fakto tanımaq və antibolşevik qüvvələrə maliyyə yardımı göstərmək üçün Tiflisə 10 milyon dollar göndərməyi təklif edirdi[80].

Xarici siyasət sahəsində Zaqafqaziya Komissarlığının fəaliyyəti əslində diyarı bolşevik Rusiyasından ayırmaq məqsədi daşıyırdı.

1917-ci il dekabrın 5-də Ərzincanda Zaqafqaziya Komissarlığı ilə Türkiyə hərbi komandanlığı arasında barışıq sazişi bağlandı. 1918-ci il yanvarın 14-də isə Türkiyə komandanlığı Zaqafqaziya Komissarlığına tərəflər arasında sülh müqaviləsi bağlamaq haqqında danışıqlara başlamaq təklifi ilə müraciət etdi[81].

1917-ci ilin sonlarında Azərbaycanın və ümumiyyətlə, Zaqafqaziyanın siyasi həyatında baş vermiş ən əlamətdar hadisələrdən biri Ümumrusiya Müəssislər Məclisinə seçkilər keçirilməsi oldu. Ona hazırlıq işlərinə hələ Oktyabr çevrilişindən əvvəl başlanmış, Xüsusi Zaqafqaziya Komitəsi nəzdində Müəssislər Məclisinə seçkilər üzrə Mərkəzi Zaqafqaziya Komissiyası yaradılmışdı[82]. Azərbaycanda Müəssislər Məclisinə seçkilər üzrə komissiyaya F.X.Xoyski rəhbərlik edirdi.

Seçkilərə hazırlıq və onların keçirilməsi işində həm siyasi (seçkiqabağı kampaniyanın gedişində siyasi partiyalar arasında aşkara çıxan ixtilaflar), həm də sırf texniki xarakterli çoxlu çətinliklər var idi. Zaqafqaziya Komissarlığının Azərbaycanda seçkilərin təşkili üçün yerli orqanlara lazımi material və maliyyə köməyi göstərməməsi, onları zəruri təlimatlarla təmin etməməsi seçicilərin siyahıya alınması işinə ciddi maneə törədirdi. Siyahıyaalınma prosesi yerli əhali arasında savadsızlığın yüksək səviyyədə olmasını aşkar etdi (Müəssislər Məclisinə seçkilərdə iştirak etmək hüququna malik seçicilərin 50 faizindən çoxu savadsız idi, bu, seçkilərin mütəşəkkil keçirilməsini çətinləşdirən amillərdən idi)[83].

Sentyabrın sonlarında seçkilərə hazırlıq işləri qəzalarda qaydaya düşsə də, Bakı şəhəri və mədən-zavod rayonlarında vəziyyət mürəkkəb olaraq qalırdı. Bolşeviklər əhalinin tərkibində fəhlələrin çoxluğuna nail olmaq niyyətilə mədən-zavod rayonlarının şəhərə birləşdirilməsi üçün geniş təbliğat aparırdılar. Bu tədbirin həyara keçirilməsi həmin rayonların ərazilərindəki əhaliyə seçkilərdə iştirak etmək hüququ verməliydi. Müsavatçılar bu tədbirin fəal tərəfdarları kimi çıxış edirdilər. Bütün bu səylər nəticəsiz qalmadı və OZAKOM-un xüsusi göstərişi ilə mədən-zavod rayonları ərazisi şəhər idarəsi dairəsinə qatıldı.

"Müəssislər Məclisinə seçkilər haqqında əsasnamə" öz dövrünün burjua dövlət hüququ standartları baxımından demokratik sənəd idi. Qadınların, hərbi qulluqçuların səsverməyə buraxılması, dairələrin çoxunda proporsional seçki sisteminin tətbiqi və s. buna dəlalət edirdi. Bu fakt da maraqlıdır ki, Müəssislər Məclisinə seçkilər üzrə komissiya müsəlman qadınların seçki kampaniyasında iştirakını təmin etməyə çalışmış, onların səs verməsi üçün 9 seçki dairəsində xüsusi binalar ayrılmasına icazə vermişdi[84].

Zaqafqaziyada, o cümlədən Azərbaycanda Müəssislər Məclisinə seçkilər 1917-ci il noyabrın 26-da keçirildi[85]. Zaqafqaziya dairəsi üzrə seçkilərdə iştirak edən 15 partiya arasında menşeviklər, müsavatçılar və daşnaklar ümumilikdə səslərin 73 faizini qazandılar. Bolşeviklər bütün Zaqafqaziya dairəsində səslərin cəmi 4,4 faizini yığa bilmişdilər[86]. Bakıda isə onlara əhalinin 20 və qarnizon əsgərlərinin isə 70 faizindən çoxu səs vermişdi. Eserlər seçicilərin 16,9 faizini menşeviklər isə cəmi 5,1 faizinin səsini almışdılar[87].

Seçkilərin nəticələri göstərdi ki, Zaqafqaziyada bolşeviklərin hakimiyyətə gələ bildikləri Bakı şəhəri istisna olmaqla, "Müsavat" və "Daşnaksutyun" partiyaları daha güclü nüfuza malikdir.

## § 3. AZƏRBAYCAN ZAQAFQAZİYA DÖVLƏTÇİLİYİ SİSTEMİNDƏ

1918-ci ilin əvvəllərində Zaqafqaziyada vəziyyət son dərəcə mürəkkəb olaraq qalırdı. Rusiyanın Almaniya ilə Brest-Litovskda sülh danışıqları boşa çıxdıqdan sonra 1917-ci il dekabrın 6-da al-man-türk qoşunlan hücuma keçmişdilər. Türk qoşunlarının irəliləməkdə davam etdiyini görən Zaqafqaziya Komissarlığı 1918-ci il fevralın 6-da Qafqaz cəbhəsinin komandanı Vahib paşaya Türkiyə ilə sülh danışıqları aparmaq istədiyini bildirən teleqram göndərməyə məcbur oldu. Regionda heç bir nüfuzu və kifayət qədər güclü hakimiyyəti olmayan Zaqafqaziya Komissarlığı özünü buraxmaq məcburiyyətində qaldı. 1918-ci il fevralın 22-də Cənubi Qafqazdan Ümumrusiya Müəssislər Məclisinə seçilmiş deputatların yığıncağında Zaqafqaziya Seyminin yaradılması və yerli hakimiyyətin bu orqana verilməsi haqqında qərar qəbul edildi[88].

1918-ci il fevralın 23-də üç əsas partiya fraksiyalarının nümayəndələrindən ibarət olan Zaqafqaziya Seymi öz işinə başladı. Seymdə Gürcüstandan sosial-demokratlar (menşeviklər) 32 nəfər, Azərbaycandan müsavatçılar, onlara qoşulmuş bitərəf demokratlar - 30 nəfər, ermənilərdən Daşnaksütyun partiyasından olanlar 27 nəfər deputat iştirak edirdi[89]. Bundan əlavə, sosial-inqilabçılar (eserlər), milli demokratlar, Erməni Xalq Azadlıq Partiyası, Müsəlman Sosialist Bloku 7 nəfər, Rusiyada müsəlmanlar fraksiyası ("İttihad") 3 nəfər və menşevik-hümmətçilər partiyası 4 nəfər deputatla Seymdə təmsil olunmuşdular[90].

Zaqafqaziya Seymində Azərbaycan siyasi partiyalarının 44 nümayəndəsi var idi. Onlardan hümmətçi menşevik olanlar gürcü fraksiyasına daxil olmuş, qalanları isə müsəlman fraksiyası kimi birləşmişdilər, ancaq bu fraksiya gürcü və erməni fraksiyalarından fərqli olaraq, çox dağınıq şəkildə fəaliyyət göstərirdi.

Zaqafqaziya Seymi Y.H.Gegeçkori başda olmaqla Zaqafqaziya hökumətini təşkil etdi. Qafqaz cəbhəsində vəziyyət və Zaqafqaziyanın müstəqilliyinin elan edilməsi məsələləri istər Seymin, istərsə də hökumətin fəaliyyətində əsas yer tuturdu. Zaqafqaziya Seymindən müsəlman fraksiyasının lideri M.Ə.Rəsulzadə bu barədə yazırdı: "Seymdə müsəlmanların bütün səyləri cəbhə məsələsinin dinc yolla həlli və Qafqazın müstəqilliyinin dərhal həyata keçirilməsinə yönəlmişdi. Müstəqil Qafqazın mövcudluğu təkcə Qafqaz müsəlmanlarının deyil, həm də Rusiyanın daimi təhlükəsi qarşısında qalan digər müsəlman ölkələrinin də mənafeyinə uyğun idi"[91].

Seymin qarşısında duran əsas məsələlərdən biri yaxınlaşan sülh danışıqları üçün hüquqi baza yaratmaq idi. Lakin bu məsələ ilə əlaqədar qəbul edilmiş qərar ziddiyyətli xarakter daşıyırdı: Zaqafqaziyanı müstəqil dövlət elan etməyən Seym özünün xarici

dövlətlərlə sülh bağlamaq səlahiyyəti olduğunu bildirir, Türkiyə ilə danışıqlara dair proqramında göstərirdi ki, 1914-cü ildəki dövlətlərarası sərhəd bərpa olunmalıdır. Bundan əlavə, Zaqafqaziya nümayəndə heyəti Şərqi Anadoluda Türkiyə dövləti tərkibində olmaqla ermənilər üçün öz müqəddəratını təyin etmək hüququ əsasında muxtariyyət əldə etməyə çalışırdı. Danışıqlar aparmaq üçün üç Cənubi Qafqaz millətinin parlament fraksiyalarını təmsil edən siyasətçilər qrupundan nümayəndə heyəti təşkil olunmuşdu. Gürcü Akaki Çxenkelinin başçılıq etdiyi nümayəndə heyətindəki azərbaycanlılar - müsavatçılar M.H.Hacınski və X.Xasməmmədov, sosialist blokunun üzvü İ.Heydərov, ittihadçı Mir Yaqub Mehdiyev və menşevik-hümmətçi Ələkbər Şeyxülislamovdan ibarət idi. Martın 12-də bütün qrup üzvləri danışıqların başlanacağı Trabzona gəldilər[92].

Zaqafqaziya Seymi hələ Türkiyə ilə sülh danışıqlarına hazırlaşdığı vaxt Brestdə Rusiya ilə Almaniya arasında separat müqavilə imzalanmışdı və onun bir şərtinə görə Ərdəhan, Qars və Batum Türkiyəyə verilməli idi. Zaqafqaziya Seymi Brest sülhünün bu şərtini qəbul etmədi və Petroqrada XKS adına teleqram göndərərək bildirdi ki, "Brest sülhünü tanımır, çünki Zaqafqaziya heç vaxt bolşeviklərin və Xalq Komissarları Sovetinin hakimiyyətini qəbul etməmişdir". Türkiyə isə Brest sülhünün qərarlarına əsaslanaraq, Zaqafqaziya Seyminə Qars, Batum və Ərdəhanı dərhal boşaltması haqqında ultimatum verdi. Belə bir şəraitdə 1918-ci il martın 14-də Trabzonda Türkiyə və Zaqafqaziya Seyminin nümayəndə heyətləri arasında sülh konfransı açıldı[93].

Konfransda Türkiyə nümayəndəliyi mövqeyini açıqlayaraq bildirdi ki, əgər Zaqafqaziya beynəlxalq hüququn subyekti olmaq istəyirsə, tezliklə Rusiyadan ayrılmalı və öz müstəqilliyini elan etməlidir.

Seymdə mübahisələr getdiyi bir vaxtda Türkiyə tərəfi qətiyyətlə bəyan etdi ki, Zaqafqaziya Seymi ilə sülh Brest-Litovsk müqaviləsinin məlum şərti əsasında bağlanacaq.

Mart ayının 25-də Seymin Rəyasət heyətinin və fraksiya nümayəndələrinin birgə iclasında Azərbaycan deputatları Türkiyənin ultimatumunu qəbul etmək təklifi irəli sürdülər. Fraksiya adından çıxış edən M.Y Mehdiyev bildirdi ki, Zaqafqaziya öz müstəqilliyini elan etməsə, müsəlman fraksiyası sülh danışıqlarını müdafiə etməyəcək[94]. Çıxış edən Azərbaycan nümayəndələri Türkiyə ilə müharibə aparılmasına razı olmadıqlarını bildirdilər. Bununla belə, X.Xasməmmədov Türkiyəyə güzəştə gediləcən ərazilərin siyahısından Batumun çıxarılmasını təklif etdi. O, Bakı neft kəmərinin son məntəqəsi olan Batumun Zaqafqaziyanın tərkibində saxlanmasını Azərbaycan neft sənayesinin mənafeyinə uyğun hesab edirdi.

Müzakirələrin sonunda Trabzon danışıqlarında işi sürətləndirmək üçün Zaqafqaziya nümayəndəliyinin başçısı A.Çxenkeliyə fövqəladə səlahiyyətlər verilməsi haqda qərar qəbul edildi[95].

Trabzon danışıqlarında iştirak edən Zaqafqaziya nümayəndəliyinin daxilində Türkiyəyə güzəşt məsələsində yekdillik yox idi. Çünki ermənilər Qars vilayətinin böyük bir hissəsini, gürcü nümayəndələri Ərdəhanın və Batumun Zaqafqaziya dövlətinin tərkibində qalmasını istəyirdilər. Bu məsələyə münasibəti ilə neft sənayesinin mə-

nafeyini qoruyan Azərbaycan daha iki mühüm səbəbdən gürcüləri müdafiə edirdi: birincisi, bütün Zaqafqaziya, o cümlədən Azərbaycan üçün Qars və Ərdəhan Dünya Okeanına yeganə çıxış qapısı olan Batum qədər çox böyük əhəmiyyət daşımırdı; ikincisi, yerli əhalinin əksəriyyəti türklər olan bu iki vilayət milli, coğrafi, tarixi amillərlə Türkiyəyə bağlı idi.

Türkiyə tərəfinin güzəştə getmək və Zaqafqaziya rəhbərlərinin reallıqla hesablaşmaq istəməmələri danışıqların pozulmasına gətirib çıxartdı.

Aprel ayının 6-da Türkiyə tərəfi Zaqafqaziya nümayəndələrinə Brest-Litovsk müqaviləsinin şərtlərini qəbul edib-etməmək barəsində 48 saat ərzində cavab verilməsini tələb edən ultimatum təqdim etdi. Eyni zamanda danışıqlara yenidən başlamaq üçün Cənubi Qafqazın müstəqilliyini elan etməsi barədə əvvəlki şərtini çıxardı.

Nümayəndə heyəti başçısı A. Çxenkeli Türkiyə tərəfinin ultimatumunu qəbul etmək qərarına gəldi, lakin gec idi, çünki artıq Türkiyə qoşunları Batumdan başqa həmin ərazilərin hamısını tutmuşdu.

Aprelin 13-də Seymin, hökumətin və fraksiya nümayəndələrinin birgə iclasında danışıqların gedişi müzakirə olundu. Türkiyə ilə müharibə məsələsində hətta Azərbaycan fraksiyası daxilində də yekdillik yox idi. Hümmətçilər əvvəlki mövqelərini dəyişərək gürcü menşevikləri ilə birgə olacaqlarını bildirdilər. Müsəlman Sosialist Bloku isə tərəddüd edirdi. Azərbaycanlı deputatlardan bir neçəsi (X.Xasməmmədov, Ş.Rüstəmbəyov M.Y.Cəfərov) gürcülərlə münasibətləri korlamamaq üçün türkləri öz iddialarından çəkinməyə çağırdı.

"Müsavat", bitərəflər qrupu və "İttihad" məsələyə münasibətdə eyni mövqedən çıxış edərək, müharibə əleyhinə birgə qətnamə qəbul etdilər. Qətnamədə deyilirdi ki, Türkiyə ilə müharibənin Zaqafqaziya demokratiyası və onun daxili həyatı üçün ağır nəticələr verə biləcəyini əsas tutan "Müsavat" Partiyası, bitərəflər qrup "İttihad" Partiyası bu məsuliyyəti öz üzərinə götürməkdən imtina edir və müharibənin aparılmasına rəhbər partiyaların müsbət münasibətini nəzərə alaraq, müharibənin əlverişli surətdə ləğv edilməsi üçün Zaqafqaziya xalqlarına lazımi kömək göstərəcəklərini bildirirlər[96].

Lakin Seym elə həmin iclasda Trabzon danışıqlarını dayandırmaq və Türkiyə ilə müharibəyə hazırlaşmaq haqqında qərar qəbul etdi. Ölkədə hərbi vəziyyət elan edildi və Y.Gegeçkori, N.Ramişvili və X.Karçikyandan ibarət Ali Müdafiə Şurası yaradıldı[97]. Azərbaycan nümayəndəsinin bu Şuraya daxil edilməməsinin əsas səbəbi müsəlman fraksiyasının hadisələrin gedişinə təsir imkanlarını azaltmaq idi.

Lakin bu tədbirlər də Türkiyə qoşunlarının irəliləməsini dayandıra bilmədi və onlar 1918-ci il aprelin 14-də Batumu tutdular.

Bu dövrdə Zaqafqaziyada erməni şovinist millətçi qüvvələr öz məkrli siyasətlərini davam etdirirdilər. 1918-ci ilin yanvarından onlar Bakıda və Zaqafqaziyanın digər bölgələrində müsəlman qırğını törətmək üçün müxtəlif fitnəkarlıqlara əl atır, Bakı Sovetinin orqanlarına, şəhər idarəçiliyinin həlledici vəzifələrinə öz nümayəndələrini soxurdular.

Azərbaycanın qabaqcıl xadimləri gözlənilən təhlükəni irəlicədən duyurdular.

Birinci dünya müharibəsinin sonlarında Qafqazın xristian əhalisi məqsədyönlü şəkildə silahlandırılırdı. Mart qırğınları ərəfəsində Rus Milli Şurasının Cənubi Qafqazın xristian əhalisinə müraciəti elan edildi. Müraciətdə mart ayının 11-dən 18-nə qədər 19-25 yaşında olan bütün rus gənclərinin hərbi səfərbərliyə alındığı bildirilirdi[98]. Qafqaz cəbhəsinin ləğv olunması nəticəsində vətənə qayıtmalı olan rus alaylarının əsgər və zabitləri silah və sursatları dəyər-dəyməzinə ruslara (malakanlara) və daha çox ermənilərə satırdılar. Müharibədən məğlub çıxan və Oktyabr çevrilişindən sonra xarabazara dönmüş Rusiyada onları heç bir yaxşı şey gözləmədiyini bilən hərbçilər çox vaxt bir qarın çörəyə görə Bakıda qalmağı üstün tuturdular. Sonralar S.Şaumyan və əlaltıları bu qüvvələrdən çox məharətlə müsəlman əhalisinə qarşı istifadə etdi. Bakıda erməni və rus şovinist siyasi qüvvələrinin silahlandığını görən yerli əhali 1918-ci ilin fevralında şəhəri tərk etməyə başladı. Mart qətllərindən hələ bir həftə əvvəl Daşnaksutyun partiyası, Bakıdakı vəziyyətdən guya "narahat" olaraq, hakimiyyəti ələ almağın zəruriliyini bildirmişdi. Müsəlman cəmiyyətləri bu təhlükəni qabaqcadan gördükləri üçün tezliklə özünümüdafiə qüvvələri yaradılmasını zəruri hesab edirdilər. Onların təşəbbüsü ilə Gəncədə, Bakıda, Lənkəranda müsəlman hərbi hissələrinin yaradılması və Bakı kadet məktəbində müsəlmanlardan zabit hazırlanmasına başlandı. Lakin bütün bu işlər düşmən qüvvələrin qurduğu maneələrə rast gəldiyi üçün çox ləng gedirdi. Digər tərəfdən isə Qafqazda xristian əhalinin silahlanmasına Antanta ölkələri də ciddi maraq göstərirdilər. Çünki ingilislər Mesopotamiyadan Qafqaza gələnə qədər burada Türkiyə ordusunım irəliləməsini dayandırmaq məqsədinə nail olmaq üçün yerli xristianlara böyük ümid bəsləyirdilər. Rus imperiyası dağıldıqdan sonra erməni siyasətçiləri ingilispərəst təbliğat aparır və onlardan müəyyən dəstək alırdılar. Buna görə də müsəlman qəzaları fevral ayının axırlarında Zaqafqaziya Seyminə ingilis ordusunun Qafqaza müdaxiləsinin əleyhinə olduğunu bildirir və ingilislərlə aparılan danışıqların kəsilməsini tələb edirdilər".

Lakin Antanta qüvvələri nə qədər ki uzaqda idi, ermənilər öz məqsədlərinə bolşeviklərin əli ilə nail olmaq istəyirdilər. Onların dəyişkən mövqeyini tənqid edən N.Nərimanov yazırdı ki, "böyük Ermənistan" xülyalarını həyata keçirmək üçün daşnaklar hər cür maska geyməyə, hər sifətə girməyə hazırdılar. N.Qolitsın dövründə onlar özlərini inqilabi partiya hesab edirdilər, sonra V.Vorontsov-Daşkovun ayaqlarını öpüb qatı əksinqilab cəbhəsinə keçdilər, indi Qafqazda Sovet hakimiyyəti qurulsa, daşnaklar o dəqiqə maskalarını dəyişib, bu dəfə kommunist maskasını geyəcəklər"[100].

Uzun müddət bolşevik adı altında maskalanan və 20-ci illərdə sovetləşdirmə adı altında Azərbaycanın müsəlman əhalisinə qarşı '"proletariat diktaturası"nın ən qatı terror hərəkətlərinə fitva verən L.Mirzoyan sonralar yazırdı ki, bir çox yoldaşlar belə fikirləşirlər ki, guya 1918-ci ildə Bakıda Sovet hakimiyyəti daşnaklara söykənib. Bu, səhvdir. Əslində, Sovet hakimiyyəti daşnaklardan öz məqsədləri üçün istifadə edib. Belə "səhvlərə" tez-tez S.Şaumyanın da yazılarında rast gəlmək mümkündür[101].

Azərbaycanda milli hərəkatın genişlənməsi, milli-azadlıq carçısı olan "Müsavat"ın nüfuzunun artması "böyük Ermənistan" xülyası ilə yaşayan daşnakları ciddi

narahat edirdi. Daşnaklar mart qırğınını törətməklə "Müsavat"ın sosial bazasını, şəhərin müsəlman əhalisini məhv etməyi planlaşdırmışdılar. Bu məqsədlə təxminən 5 min erməni əsgəri müxtəlif cəbhələrdən Bakıya gətirilmişdi. Beləliklə, "Qırmızı qvardiya" adı ilə yaradılan 10-12 minlik ordunun da 70 faizi erməni idi[102]. Əsasən ruslardan ibarət olan Xəzər donanması içərisində xüsusi təbliğat işi aparılmışdı. Həmçinin, Şamaxı və Muğanda ehtiyat rus-malakan silahlı dəstələri də yaradılmışdı. Bu hadisələrin fəal iştirakçısı olan "bolşevik" N.Əsriyants sonralar öz xatirələrində yazırdı: "1918-ci ilin fevralında T.Əmirov bizi yığıb bildirdi ki, S.Şaumyan və A.Caparidzenin tapşırıqlarını yerinə yetirməliyik. S.Şaumyan əvvəlcədən bizə xəbər vermişdi ki, gecə saat 1-də siqnal olacaq, bu xəbərdarlıq siqnalından sonra biz hücum edib "Müsavat"ın qərargahını tutmalı idik və belə də oldu"[103].

Bu cinayəti həyata keçirmək üçün bəhanə lazım idi. Bu məqsədlə "Evelina" münaqişəsi törədildi. Azərbaycan milyonçusu Hacı Zeynalabdin Tağıyevin Lənkəranda xidmət edən oğlu Məhəmməd Tağıyev təsadüfən öz əlindəki silahdan açılan atəş nəticəsində həlak olmuşdu, müsəlman alayının zabitləri onun dəfnində iştirak etmək üçün Bakıya gəlmişdilər. Dəfn mərasimindən sonra zabitlər "Evelina" gəmisi ilə Lənkərana qayıtmalı idilər. Əlverişli məqamın yetişdiyini görən ermənilər gizli şəkildə Rus Milli Şurası, Xəzər matrosları. eser və menşevik partiyaları arasında belə bir şayiə yaydılar ki, guya "Evelina" ilə gedən zabitlər tapşırıq almışlar ki, Lənkəranda olan müsəlman hərbi dəstələri ilə birlikdə Muğandakı rus-malakan kəndlərini məhv etsinlər[104]. Bu təxribat xarakterli şayiə öz nəticəsini verdi. Bakıda olan bütün qeyri-azərbaycanlı siyasi və hərbi qüvvələr "Evelina" gəmisinin tərk-silah edilməsinə tərəfdar oldu. Təcili şəkildə, martın 30-da Bakı şəhəri mədən-zavod rayonlarının İnqilabi Müdafiə Komitəsi yaradıldı. Komitəyə S.Şaumyan, A.Caparidze, Q.Korqanov, İ.Suxartsev, S.Saakyan, M.Yolçiyan, N.Nərimanov daxil edildi[105]. İnqilabi Komitənin təşəbbüsü ilə "Evelina"nın Lənkərana yola düşməsi dayandırıldı və gəmidəki zabitlər tərksilah edildi. Müsəlman əhalisi məscidlərə toplanaraq silahların qaytarılmasını tələb etdi. Vəziyyətin çox ciddi xarakter aldığını görən Azərbaycanın milli təşkilatlarının nümayəndələri İnqilabi Komitəyə gəlib, alınmış silahları "Hümmət" müsəlman bolşevik komitəsi vasitəsilə qaytarmağa cəhd göstərdilər. Martın 30-da N.Nərimanovun evində S.Şaumyanla və həmin gün İnqilabi Müdafiə Komitəsində M.Ə.Rəsulzadə ilə keçirilən görüşlərdə müəyyən razılıq əldə edilməsinə, silahların qaytarılması vədi verilməsinə baxmayaraq, "Hümmət”ə o qədər də etibarı olmayan bolşevik-daşnak koalisiyası sözünə əməl etmədi. Onlar həm də N.Nərimanovun çoxluğu öz ətrafında birləşdirib "sağa meyil etməsindən" narazı idilər[106]. Beləliklə, əvvəlcədən sövdələşmə əsasında bolşevik-erməni koalisiyası, S.Şaumyanın dediyi kimi, "həlledici döyüşlərə hər cür hazırlıq görmüşdü və dərhal bütün cəbhə boyu hücuma başladı". Martın 30-da axşam saat beşdə Bakıda ilk atəşlər açıldı. Aldatma siyasəti yeridib özlərinin bitərəfliyini elan etmiş Daşnaksutyun və Erməni Milli Şurası bu ilk atəşlərdən sonra Bakı Sovetini müdafiə etdilər. M.Ə.Rəsulzadə bu barədə yazmışdır: "Milli türk təşkilatının əzmkar müdaxiləsi ilə hadisə az bir zərərlə yatışdırılmaq üzrə ikən sayğısız bir taqım cahilin qərəzli fitnəkarlara alət olması ilə fitnə təkrar olunmuş, zatən günlərdən bəri

qətllərə hazırlanmış bulunan bolşevik-erməni qüvvəyi-müsəlləhəsi hərbi bir vəziyyət alaraq şəhərin müsəlman məhəlləsini bombardman etməyə başlamışdır"[107]. Tarixə qanlı faciə kimi daxil olan mart qətlləri üç gün davam etdi.

İlk atəşlərdən sonra həmin gün şəhər silahlı dəstələrlə doldurulmuşdu. Ermənilər cənub hissədə səngərlər qazıb, torpaq və daşlardan sədlər qurmağa başlamışdılar. Erməni Milli Şurasının və Daşnaksutyun rəhbərlərinin müsəlman cəmiyyətləri ilə apardığı danışıqlar təxribat xarakteri daşıyırdı. Belə təhlükəli məqamda Bakı menşeviklərinin lideri Ayollo onların Soveti müdafiə edəcəklərini bəyan etdi. Eserlərin başçısı S.Saakyan panislamizmə qarşı vuruşacaqlarını, hətta bolşeviklərə dərin nifrət bəsləyən kadetlər də "rus işi" uğrunda mübarizə aparan bolşevikləri müdafiə edəcəklərini bildirdilər[108]. Uzun müddət menşeviklərə qarşı mübarizə aparan bolşeviklərin menşevik və eserlərlə, hətta kadet və daşnaklarla mart günlərində birləşməsi dini və milli zəmində baş verdi. Lakin ermənilərin rəhbərlik etdiyi bolşevik və daşnaklardan başqa heç kim hadisələrin belə qanlı xarakter alacağını, müsavatçılara qarşı birləşmiş qüvvələrdən şəhərin bütün müsəlman əhalisini məhv etmək üçün istifadə ediləcəyini qabaqcadan gözləmirdi. Martın 30-da axşam Bakı Soveti hərbi dəstələri başçılarının təcili iclası keçirildi. Döyüşə başlamaq haqqında qərar çıxarıldı və Erməni Milli Şurasına, daşnak liderlərinə müraciət edildi ki, öz hərbi dəstələrini hərəkətə gətirsinlər. Onların fəaliyyətinə "Kazino" mehmanxanasında yerləşmiş təcili açılmış təlim qərargahından rəhbərlik etmək A.Mikoyan və N.Anançenkoya tapşırılmışdı. Onların müsəlman silahlı dəstələrinin toplandığı yerə qəfil hücumu qələbə ilə başa çatdı. Xəzər donanması gəmilərindən müsəlman məhəllələrinin atəşə tutulması şəhərdə vahiməli vəziyyət yaratdı. Hərbi gəmilərə göndərilmiş xüsusi təbliğatçılar buradakı heyətlərin çoxunun nə ermənilərin, nə də bolşeviklərin təsiri altında olmadığını bildikləri üçün martın 30-da onları aldadıb inandırdılar ki, guya müsəlmanlar şəhərdə rus əhalisini qırır. Bir neçə saatlıq bombardmandan sonra rus matrosları bunun təxribat olduğunu, "Müsavat”a qarşı mübarizə bəhanəsi ilə müsəlman əhalisinin qırğına verildiyini bildikdə atəşi dayandırdılar. Xeyli malakan-rus hərbi dəstələri də eyni qaydada aldadılaraq, Muğandan Bakıya gətirilmişdi. Lakin onlar şəhərdə ayrı vəziyyət olduğunu görüb döyüşdən imtina etdilər və buna görə Bakı Soveti və erməni qoşunları tərəfindən tərksilah olundular. Malakanlardan alınan silahlar növbəyə durmuş erməni "könüllü"lərinə paylandı. Çıxılmaz vəziyyət yarandığını görən "Müsavat" liderləri əhalini xilas etmək üçün daha çox hisslərin təsiri altında hərəkət edib qırğına bəhanə verən "məhəllə qoçu dəstələri"nin əksinə olaraq, İnqilabi Müdafiə Komitəsinin ultimatumunu qəbul etdilər. Martın 31-də danışıqlar aparmaq üçün müsəlman nümayəndələri Sovetin İcraiyyə Komitəsinə gəldilər, İnqilabi Müdafiə Komitəsinin ultimatumunun qəbul edilməsinə baxmayaraq, orada P.Caparidze ilə aparılan danışıqlar nəinki heç bir müsbət nəticə vermədi, hətta müsəlman heyətindən üç nəfər geri qayıdarkən yolda güllələndi[109].

Martın 31-də səhərə yaxın bütün erməni hərbi dəstələrinin başçıları və silahlanmış erməni ziyalıları İnqilabi Müdafiə Komitəsinin qərargahına gəldilər. Onlar qısa vaxtda təlimatlandırılaraq müsəlman məhəllələrinə göndərildilər. Yaxşı

silahlanmış və hazırlanmış erməni əsgərləri müsəlmanların evlərinə soxulur, sakinləri öldürür, onları xəncər və süngü ilə doğrayır, uşaqları yanan evlərin içinə atır, көrpə uşaqları süngülərin ucuna keçirirdilər. Dinc əhalini qorxudan dəhşətə gətirib istədiklərinə nail olmaq üçün hər cür vəhşiliyə əl atan bolşevik-erməni cəlladları müsəlman qadınlarını daha ağır formada qətlə yetirdilər: şəhərin təkcə bir yerində qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış 57 müsəlman qadının meyiti tapılmışdı. Çoxlu gənc qadını diri-diri divara mıxlamışdılar. Qaçıb canını qurtarmağa çalışan əhalini güllələbaran etmək üçün şəhərin müvafiq yerlərində əvvəlcədən pulemyotlar qoyulmuşdu[110].

Bir çox müsəlman məhəllələri məhv edildikdən sonra, martın 31 -də axşamüstü İçərişəhərin alınması əməliyyatı başlandı. Bu qırğın əməliyyatında N.Anançenko başda olmaqla, gənc Suren Şaumyan, Ovçiyan, Qalstyan, Sarkis, Qaber-Kori, Artak, Manuçarov, Akopov və başqa "qırmızı qvardiyaçılar" fəal iştirak etdilər. Müsəlman meyitlərinin yandırılması və iyrənc formada təhqir edilməsinin erməni ziyalıları və kilsə xadimləri tərəfindən törədildiyini təsdiq edən onlarca sənəd mövcuddur[1]". Fövqəladə istintaq komissiyası sədrinin Ədliyyə Nazirliyinə təqdim etdiyi məruzəsində aşağıdakı faktlar göstərilir: Nikolay (indiki İstiqlaliyyət. - *Red.)* küçəsilə hücuma keçmiş erməni əsgərlərinə başlıca olaraq, erməni ziyalılarının nümayəndələri rəhbərlik ediblər. Belə dəstələrdən biri evə girib səkkiz qadın və uşağı güllələmişdir. Başqa dəstə Fars küçəsində Bala Əhməd Muxtarovun evinə girərək doqquz müsəlmanı küçəyə çıxarmış və kilsə meydanında güllələmişlər, meyitlərin ikisini "Dağıstan" mehmanxanasının alovu içinə atmışlar...[112].

Beləliklə, üç günün - 18-21 mart (30 mart-1 aprel) - qətl və qarətlərindən sonra, Fövqəladə İstintaq Komissiyasının ümumiləşdirdiyi hesabatına görə, Bakıda "əksinqilabçı" adı ilə 12 min nəfər azərbaycanlı əhalisi qətlə yetirilmişdi[113]. Menşevik qəzeti "Naş qolos" mart qırğınından sonra şəhərdəki vəziyyəti belə təsvir edirdi: "Hər yerdə meyitlər qıc olmuş, eybəcər hala salınmışdır. Təzə Pir məscidinin yanında ağır mənzərə var. Məscid atəşdən zərər çəkmişdir. Ziyarətgahın təhqiri geniş kütlələrin qəlbini ağrıdır, meyitlər onları daha çox həyəcanlandırır... Nifrət və təhqir zəhərinin necə dərinliyə işlədiyi hiss olunur. Bu düşmənçiliyi aradan qaldırmaq, bu nifrətin qəzəbli intiqam hissinə çevrilməsinin qarşısını almaq üçün çox iş görmək lazım gələcək"[114]. Martın 31-də müxtəlif bəhanələrlə danışıqları pozan İnqilabi Müdafiə Komitəsi aprelin 1-də artıq məsələnin həll edilmədiyini görüb yenidən ultimatum verərək bildirdi ki, İMK-nın tələbləri gündüz saat 3-ə kimi qəbul edilməsə, müharibə davam etdiriləcək.

Saat 4-də azərbaycanlı partiya və cəmiyyətlərin nümayəndələri A.Aşurov, Ə.M.Topçubaşov, Molla Hacı Mir Möhsün, Hacı Hüseyn Tağıyev, Əbdül Kazımzadə danışıqlar aparmaq üçün "Astoriya" mehmanxanasına getdilər. Bir saat sonra P.Caparidzenin açdığı "sülh konfransı"nda Fioletov, Dudin, Suxartsev, Erməni Milli Şurası tərəfindən L.Atabəyov, Ter-Mikaelyan və İranın Bakıdakı konsulu Həbibulla xan iştirak edirdi.

Həmin iclasa sədrlik edən Caparidzenin elan etdiyi ultimatum bütövlükdə

"Müsavat" Partiyasına qarşı yönəlmişdi. Ə.Kazımzadə baş vermiş hadisələrə görə "Müsavat"ın ittiham edilməsinə öz etirazını bildirdi və qeyd etdi ki, törədilən faciə üçün "sovet qoşunları" və daşnak hərbi hissələri məsuliyyət daşıyır. Axşam saat 9-dək uzanan mübahisələrdən sonra İMK-nın ultimatumu qəbul edildi. Ultimatumda göstərilirdi: "1. Bakı fəhlə, əsgər və matros deputatları Sovetinin hakimiyyəti qəbul edilir; 2. Əksinqilabi "Dikaya diviziya" (Qafqaz yerlilər korpusu) Bakı və onun rayonlarından çıxarılır, yerdə qalan başqa müsəlman əsgəri hissələri, habelə erməni milli qoşun hissələri ya Bakıdan çıxarılır, ya da tamamilə fəhlə, əsgər və matros deputatları Sovetinə tabe edilir, əhalinin bütün silahlanma işi Sovetinin nəzarətinə keçirilir; 3. Bakıdan Tiflisə və Petrovska dəmir yolunun açılması üçün təcili tədbirlər görülür"[115].

Atəşkəs haqqında saziş bağlanmasına baxmayaraq, erməni və sovet hərbi dəstələri" hücumları aprel ayının 2-si axşamına qədər davam etdirdilər, hətta tüstüsü ərşə qalxan "İsmailiyyə"dəki yanğını söndürməyə gələn müsəlman əhalisini yenidən atəşə tutdular. Şəhərin sağ qalan azərbaycanlı əhalisi kütləvi surətdə şəhəri tərk etməyə başladılar.

Aprelin 2-də Caparidze Şaumyana yazırdı ki, Daşkənddən və Şimaldan bizə kömək gəlir, artıq indi müsəlmanları sakitləşdirmək üçün onlara muxtariyyət vəd etmək olar. Üç gündən artıq davam edən faciəli hadisələrə inqilabi don geyindirmək üçün M.Əzizbəyov şəhərin onsuz da boş qalmış müsəlman hissəsinə komissar təyin edildi. O, müsəlman əhalisinin şəhərdən çıxmasını və yerdəyişməsini qadağan etsə də, bunun elə bir əhəmiyyəti olmadı[116]. Yerli dinc əhalinin qırğınından və özünümüdafiə dəstələrinin ağır məğlubiyyətindən sonra imzalanmış saziş haqqında Bakı Sovetinin yığıncağına məlumat verən İ.Suxartsev riyakarcasına sevinc içərisində elan etdi ki, "Müsavat" firqəsi darmadağın edildi və Türkiyənin Bakı cəbhəsi alındı..."[117] Əslində Mart qətliamından sonra 1918-ci ilin sentyabrına qədər müxtəlif koalisiyalarda olan ermənilər Bakıda tüğyan edirdilər, imkansızlıq ucbatından şəhəri tərk edə bilməyən və ətraf kəndlərdə yaşayan əhalini əzabla qırır, işgəncələr verirdilər. Bakıda törədilən türk-müsəlman soyqırımının saxtalaşdırılmasına, ona "vətəndaş müharibəsi" donu geydirilməsinə, qətl edilənlərin sayının azaldılmasına ilk cəhdi bu hadisələrin təşkilatçısı S.Şaumyan etmişdir. O, aprel ayının 13-də Moskvaya - XKS-yə göndərdiyi hesabatda utanmadan həyasızcasına yazırdı: "Üç gün - 30, 31 mart və 1 apreldə Bakı şəhərində şiddətli vuruşma olmuşdur. Bir tərəfdən Sovet Qırmızı Qvardiyası, bizim təşkil etdiyimiz Beynəlmiləl Qızıl Ordu, Qırmızı Donanma və erməni milli hissələri, o biri tərəfdən "Müsavat" partiyasının başçılıq etdiyi... müsəlman "Vəhşi diviziya"sı və silahlı müsəlman quldur dəstələr vuruşdular. Bizə aviasiya məktəbinin hidroaeroplanları da kömək etdi... Biz döyüşlərdə parlaq nəticələr əldə etmişik. Düşmən tamamilə darmadağın edilmişdir... Hər iki tərəfdən öldürülən üç mindən artıqdır... Onlar Bakıda üstün gəlsəydilər, şəhəri Azərbaycanın paytaxtı elan edər, bütün qeyri-müsəlman ünsürlər tərk-silah edilib qırılardı"[118].

Mart qırğınından bir il sonra ermənilər bu hadisəni bolşeviklərlə müsəlmanlar

arasında baş vermiş hakimiyyət mübarizəsi kimi təqdim etməyə başladılar. 1919-cu ilin payızında, Bakıya gəlmiş ABŞ missiyasının başçısı general Harborda təqdim etdiyi sənəddə Bakıdakı erməni yepiskopu Baqrat ermənilərin mart hadisələrində iştirakını danıb gizlədir, saxtakarlıqda S.Şaumyandan da irəli gedərək, Bakıda mart qırğını hadisələri vaxtı 1000 nəfərin - 300 nəfər erməni və rus, 700 nəfər müsəlmanın öldürüldüyünü həyasızcasına iddia edirdi[119].

Danılmaz tarixi fakt kimi məlumdur ki, Azərbaycan-müsəlman soyqırımı təkcə Bakı ilə məhdudlaşmadı. Bakıda törədilmiş cinayətlər aprel ayının ilk günlərindən etibarən eynilə Şamaxı, Quba. Xaçmazda törədildi. Azərbaycanın qəzalarına "sovet qoşunları" adı altında göndərilən cinayətkar dəstələrə quldur erməni "hərbçiləri" T.Əmiryan, H.Amazasp rəhbərlik edirdilər. Daşnak cəlladlarından ən ağır ziyan çəkən Şamaxı qəzası oldu.

Şamaxı qəzasında baş verən hadisələr "Qanlı mart təqvimi"ndə xüsusi səhifə təşkil edir. 1918-ci ilin yazında qəzada hakimiyyət artıq müsavatçıların başçılıq etdikləri yerli milli şuranın əlində cəmləşmişdi. Bunu öz hakimiyyəti üçün ciddi təhlükə hesab edən Bakıdakı bolşevik-daşnak Soveti Şamaxını ələ keçirmək üçün ciddi cəhd göstərirdi[120]. Artıq bu zamana qədər mövcud olmuş, ermənilər və malakanlardan ibarət hərbi qarnizon yerli milli şura tərəfindən tərksilah edilmiş və onun əvəzində azərbaycanlılardan ibarət yeni qarnizonun təşkilinə başlanılmışdı[121]. Nəzərə almaq lazımdır ki, bolşevik və daşnakların Azərbaycanın bütün ərazisini ələ keçirmək və öz hakimiyyətini qurmaq planlarında Şamaxı xüsusi strateji yer tuturdu.

Martın birinci yarısında Şamaxıya məlumat gəldi ki, Bakıdan Şamaxıya toplar, pulemyotlar və böyük miqdarda hərbi sursatla iki mindən üç minədək erməni qoşun dəstəsi gəlir. Dəstəyə S.Şaumyandan bilavasitə təlimat almış S.Lalayev başçılıq edirdi.

Lakin həmin dəstə gətirdiyi sursatı və silahı Şamaxı qarnizonuna verməkdən imtina etmiş və bildirmişdi ki, "onların məqsədi Şamaxı qəzasını quldur dəstələrindən təmizləmək, qəzada anarxiyaya son qoyub normal həyat bərpa etməkdir".

Martın 15-də sübh çağı S.Dalayevin dəstəsi Şamaxıya ilk dəfə hücum edərək, şəhərin müsəlmanlar yaşayan hissəsini top atəşinə tutdu. Bu atışma nəticəsində dinc əhali arasında çoxlu sayda tələfat oldu. Yalnız axşama yaxın şəhərdə bir qədər sakitlik yarandı[122].

Martın 18-də Şamaxı gecə ikən cənubdan ermənilər, şimal-şərqdən isə malakanlar tərəfindən mühasirəyə alındı. Onlar şəhərin müsəlman hissəsini bombalamağa başladılar. Müsəlmanlar topların qarşısında dayana biləcək vəziyyətdə olmadıqlarından geri çəkildilər. Dəhşətli qarışıqlıq baş verdi. Ermənilər və malakanlar axşama yaxın şəhərin ən varlı hissəsi "Piran-Şirvan"a daxil oldular. Evlər yandırılır, yanan evlərdən qaçan kişilər, qadınlar, uşaqlar və ümumiyyətlə, küçədə görünən hər kəs güllələnirdi. Dəstənin quldur üzvləri evlərə soxularaq, sakinləri öldürüb qarət edirdilər. Şəhərin küçələrində türk-müsəlman meyitləri üst-üstə qalaqlanmışdı[123].

Bu vəhşiliklər Gəncədən silahlı türk-müsəlman dəstəsi Şamaxı şəhəri və Şamaxı qəzası əhalisinin köməyinə gələnə qədər bir neçə gün davam etmişdi. Gəncəlilərin gəlişindən sonra ermənilər və malakanlar Şamaxıdan malakanlar yaşayan Qozlu kəndinə çəkildilər.

Müsəlman qoşunları onları təqib edərkən aydın oldu ki, ermənilər və malakanlar sayca onlardan qat-qat üstündür və buna görə də onlar geri çəkilməli, şəhərin, demək olar ki, bütün müsəlman əhalisini də özləri ilə aparıb Şamaxını tərk etməli oldular.

Müsəlman qoşunları gedəndən bir neçə gün sonra ermənilər və malakanlar şəhəri ikinci dəfə zəbt etdilər.

Nəticədə Şamaxı şəhəri və qəzasının 72 kəndi Bakı Sovetinin bolşevik-daşnak qoşunları tərəfindən dağıdıldı[124]. Şamaxı qırğınlarında 8 min nəfərə qədər azərbaycanlı öldürüldü, onların 1653 nəfəri qadın, 965 nəfəri uşaq idi. Şamaxıda yerli əhaliyə dəyən maddi ziyan o dövrün qiymətləri ilə bir milyard rubldan çox idi[125].

1918-ci ilin mart qanlı hadisələrindən sonra Şamaxı şəhəri uzun müddət özünə gələ bilmədi. Həmin hadisələr ərəfəsində 15 min əhalisinin 80 faizdən çoxu azərbaycanlılar olan Şamaxıda 1921-ci ildə cəmisi 1700 nəfər yaşayırdı[126].

Quba qəzasında qırğın törədən quldur cəza dəstəsinə S.Şaumyanın xüsusi səlahiyyətlər verdiyi Hamazasp rəhbərlik edirdi. Aprel ayında qəzanın 122 müsəlman kəndi dağıdılmış, yüzlərlə azərbaycanlı və dağlı, o cümlədən ləzgi məhv edilmişdi[127].

Göyçay, Kürdəmir, Salyan və Lənkəran bölgələrinin əhalisi də erməni cəza dəstələrindən ciddi ziyan çəkmişdi. 2 min nəfərlik sovet qoşununun Lənkəranda baş alıb gedən qanlı terror və vəhşi soyğunçuluğunun qarşısını Zaqafqaziya Seyminin bu zaman bölgədə olan gürcülərdən ibarət silahlı dəstələri almışdı.

1918-ci ilin mart-aprel aylarında kütləvi qanlı qırğınlar törətmək məqsədilə "Sovet hakimiyyəti"nin daşnak-bolşevik dəstələri Bakı quberniyasından sonra Azərbaycanın digər ərazilərini işğal etmək fikrində idi. Bakı, Şamaxı, Kürdəmir, Salyan, Quba, Lənkəran şəhərlərini zəbt edib hədəfi Yelizavetpolu (Gəncəni) ələ keçirmək idi. Bunu S.Şaumyan may ayında Xalq Komissarları sovetinə məlumatında da etiraf etmişdi. Onun fikrincə, Sovet qoşunları Yevlax körpüsünü ələ keçirib Kür boyunca müdafiə xətti tutduqdan sonra onları tez Yelizavetpola (Gəncəyə) yeritmək lazımdır ki, orada, sonra isə başqa yerlərdə ermənilər üsyan etsinlər.

Bakı hadisələri ilə əlaqədar olaraq, müsəlman fraksiyası Zaqafqaziya Seymindən Bakıya müsəlman əhalisini müdafiə etmək üçün qoşun göndərməyi tələb etdi. 1918-ci il aprelin 3-də Zaqafqaziya Seyminin Bakı hadisələrinə həsr olunmuş iclasında Fətəli Xan Xoyski bildirdi ki, "...müsəlman əhalini müdafiə etmək üçün tədbirlər görülməsə, müsəlman nazirlər hökumətin tərkibindən çıxacaqlar"[128].

1918-ci il aprelin 7-də Zaqafqaziya Seyminin iclasında müsəlman nazirlərin hökumətin tərkibindən çıxması haqqında bəyanatı ilə əlaqədar olaraq, Fətəli Xan Xoyski bildirirdi ki, "...müsəlman fraksiyası belə hesab edir ki, yaranmış şəraitdə, xüsusilə Bakı hadisələrilə əlaqədar, müsəlman nazirlər Bakının müsəlman əhalisini qorumaq üçün hökumətdən heç bir şey əldə edə bilmirlər və bu, onların qərar qəbul etmək üçün əsaslarını gücləndirir"[129].

1918-ci il aprelin 17-də F.X.Xoyski Zaqafqaziya hökuməti qarşısında məruzə ilə çıxış etdi. Məruzədə deyilirdi: "Bakı hadisələri Yelizavetpol quberniyasının hər yerində müzakirə olunur və bütün qətnamələrdə osmanlı qoşunlarının Bakıya buraxılması haqqında

maddələr vardır, əgər hökumət Bakı məsələsini həll edə bilməsə, onda Yelizavetpol qubemiyası müsəlmanlarının bu tələbini dinləməli olacaqdır. Və elə bir an yetişə bilər ki, xalq kütləsi özü hərəkət etməyə başlayar, bu da faciəvi vəziyyət yaradar, çünki Bakı məsələsi respublikanın olum və ya ölüm məsələsidir"[130].

1918-ci il aprelin 22-də müsəlman fraksiyasının təzyiqi altında Zaqafqaziya Seyminin geniş iclası keçirildi və müstəqil, demokratik, federativ Zaqafqaziya Respublikasının elan olunması haqqında qətnamə qəbul edildi. Aprelin 20-də Bakı hadisələrilə bağlı məsələnin müzakirəsi zamanı yaranmış hökumət böhranının bir nəticəsi də bu oldu ki, Y.Gegeçkorinin başçılıq etdiyi Zaqafqaziya hökuməti istefa verdi. Zaqafqaziya Seymi həmin gün aşağıdakı tərkibdə yeni Zaqafqaziya hökumətini təsdiq etdi: 1. A.Çxenkeli - baş nazir və xarıci işlər naziri; 2. N.Ramişvili - daxili işlər naziri; 3. A.Xatisyan -maliyyə naziri; 4. X.Məlik-aslanov - yollar naziri; 5. Fətəli - Xan Xoyski ədliyyə naziri; 6. Q. Georqadze - hərbi nazir; 7. N.Xomeriki –kənd təsərrüfatı naziri; 8. N.Yusifbəyli - maarif naziri; 9. M.H.Hacınski ticarət naziri; 10. A.Saakyan - ərzaq naziri; 11. R.Kazaçnuni -ictimai məişət xidməti naziri; 12. A.Erzikyan - əmək naziri və 13. İ.Heydərov - dövlət nəzarət naziri[131].

Göründüyü kimi, güc nazirlikləri və Xarici İşlər Nazirliyi gürcülərin əlində cəmləşdi. Bu isə onlara hökumətin siyasətinə ciddi təsir göstərmək imkanı verirdi.

Zaqafqaziya hökumətinin sədri A.İ.Çxenkeli Qafqaz cəbhəsinin komandanı Vahib paşaya teleqram göndərdi. Teleqramda deyilirdi: "Zaqafqaziya artıq müstəqil federativ respublika elan edilmiş və bu barədə dövlətlərə məlumat verilmişdir, deməli, Osmanlı nümayəndə heyətinin 1918-ci il 18 mart tarixli bəyanatının şərti də yerinə yetirilmişdir"[132].

Mart hadisələri ilə əlaqədar, Azərbaycanda vəziyyət çox gərginləşdi. Bir sıra şəhərlərdə bolşeviklərə qarşı etiraz dalğası baş qaldırırdı. Hətta 1918-ci il aprelin 15-də Gəncədə Zaqafqaziya Seymi üzvləri Xəlil bəy Xasməmmədov və Məmməd Yusif Cəfərovdan alınmış teleqramda xəbərdarlıq edilirdi ki, Bakı bolşeviklərinə qarşı cəza tədbirləri görməyən hökumətə (Zaqafqaziya hökumətinə - *Red.)* qarşı müsəlmanlar içərisində təbliğat aparılır[133].

Yelizavetpol quberniyasında silahlı müdaxiləni və Bakı Xalq Komissarları Soveti üzvlərinin həbs edilməsini tələb edən kütləvi mitinq və yığıncaqlar başlandı.

Hələ 1918-ci il aprelin əvvəllərində Zaqafqaziya Seyminin knyaz Maqalovun komandanlığı altında 2 min nəfərdən çox əsgəri olan qoşunu Bakıya doğru hərəkət etmiş, Nəcməddin Qotsinskinin dağlılardan ibarət dəstələri isə Dağıstandan Bakı istiqamətində hücuma başlamışdı. Knyaz Maqalovun qüvvələri Hacıqabul stansiyasına, Qotsinskinin qoşunu isə Bakının 10 kilometrliyindəki Xırdalan kəndinə çatmışdı[134].

1918-ci il aprelin 10-da Qotsinskinin dəstəsi Bakı Sovetinin qoşunları

tərəfindən məğlub edildi, knyaz Maqalov isə qüvvələrini aprelin 20-də Kürdəmirə tərəf geri çəkməyə məcbur oldu.

1918-ci il aprelin 20-də Zaqafqaziya Seymi sədrinin müavini S.O.Tiqranyan və Seymin üzvü İ.Heydərov Zaqafqaziya Seyminin adından Bakı Soveti ilə danışıqlar aparmaq üçün Bakıya yola düşdülər. Bakıya çatandan dərhal sonra İ.Heydərov bolşeviklər tərəfindən həbs edildi. Bununla əlaqədar olaraq, Zaqafqaziya Seyminin üzvü Camo Hacınski İ.Heydərovun azad edilməsi üçün təcili tədbirlər görməyi təklif etdi[135].

S.Şaumyanla sövdələşməyə girib, separat danışıqlar aparmış S.O.Tiqranyan isə Bakıdan yalnız 1918-ci il mayın 3-də qayıtdı. O, Seymdəki çıxışında hökumətdən Bakıdakı hakimiyyətə qarşı yönəldilmiş hərbi əməliyyatları dayandırmağı və iğtişaşların dinc yolla həll edilməsi üçün tədbirlər görməyi tələb etdi[136].

Bundan sonra "Bakı məsələsi"ni Zaqafqaziya Seyminin gücü ilə həll etmək cəhdlərinin əbəs olduğunu görən Azərbaycan fraksiyası yeganə çıxış yolunu Osmanlı qoşunlarının çağırılmasında gördü[137].

Zaqafqaziyada müstəqil respublika yarandığının elan olunması və Türkiyə qoşunlarının sürətlə cəbhə boyu irəliləməsi ilə əlaqədar olaraq, A.İ.Çxenkelinin başçılıq etdiyi Zaqafqaziya Respublikası hökuməti Trabzon sülh danışıqlarına yenidən başlamaq üçün Türkiyə hökumətinə müraciət etdi[138]. Trabzonda danışıqların yenidən başlanması ərəfəsində siyasi vəziyyət son dərəcə mürəkkəb idi.

Zaqafqaziyada vəziyyət getdikcə pisləşirdi, çünki müstəqilliyini elan etməsindən sonra Zaqafqaziya Federativ Respublikasının nə daxili, nə də xarici siyasətində ciddi bir dəyişiklik baş verməmişdi. Siyasi partiyaların nümayəndələri Zaqafqaziya Seymində ümumi dil tapa bilmirdilər, onların ümumi fəaliyyət proqramı yox idi və fraksiyaların hər biri isə öz siyasi xəttini həyata keçirməyə çalışırdı.

1918-ci il mayın 11-də Batumda Zaqafqaziya və Türkiyə arasında nümayəndə heyətləri səviyyəsində danışıqlar davam etdirildi. Zaqafqaziya hökumətinin sədri və xarici işlər naziri A.Çxenkelinin başçılıq etdiyi heyətin danışıqlarında Azərbaycanı M.Ə.Rəsulzadə və M.H.Hacınski təmsil edirdilər. Türkiyə tərəfin təmsilçilərinə xarici işlər naziri Xəlil paşa, Qafqaz cəbhəsi komandanı Vahib paşa və hərbi nazir Ənvər paşa başçılıq edirdilər,

Batum konfransında müşahidəçi sifətində general Otto fon Lossovun başçılığı ilə Almaniya nümayəndəliyi də iştirak edirdi. Lossov Batumda gürcü nümayəndələri ilə gizli görüşlər keçirərək, onlara hərbi və iqtisadi yardım göstəriləcəyini vəd etmişdi[139].

Batum konfransında Zaqafqaziya Seyminin nümayəndə heyəti Türkiyənin Qars, Ərdəhan və Batum əyalətləri haqqında tələblərini tamamilə tanıdı və bununla da Brest-Litovsk müqaviləsinin müddəasını təsdiq etdi. Bundan əlavə, Türkiyə Axalsıx, Axalkələk, Aleksandropol (Gümrü), Sürməli və Naxçıvan qəzalarının daxil olduğu ərazini də tələb

edirdi[140].

Batum konfransının gedişində general fon Kressin komandanlığı ilə 3 min nəfərlik alman qoşunu Gürcüstanın Poti limanına çıxarıldı. Onlar yalnız Gürcüstanı tutmaq, Azərbaycan və Ermənistanı isə Türkiyəyə saxlamaq niyyətində idilər. Eyni vaxtda hücumu müvəffəqiyyətlə davam etdirən Türkiyə qoşunları 1918-ci il mayın 17-də Gümrünü (Aleksandropolu) ələ keçirdilər və Culfa istiqamətinə çıxdılar. Almaniya və Türkiyə tərəfindən aparılan hərbi əməliyyatlar nəticəsində Batum konfransında gürcülər, azərbaycanlılar və ermənilər Türkiyə ilə ayrı-ayrılıqda danışıqlar aparmağa başladılar.

Digər tərəfdən, Batum konfransında Almaniya nümayəndələri ilə separat danışıqların gedişində və general Fon Kressin təzyiqi nəticəsində Seymin gürcü fraksiyası Gürcüstanın Federativ Zaqafqaziya Respublikası tərkibindən çıxmasını və öz müstəqilliyini elan etməsini qərara aldı. Bununla əlaqədar olaraq, 1918-ci il mayın 25-də Zaqafqaziya Seyminin müsəlman fraksiyasının iclası keçirildi. İclasda Cənubi Qafqazda siyasi vəziyyətin dəyişilməsi ilə əlaqədar olaraq oxunmuş rəsmi bəyanatda deyilirdi ki, Zaqafqaziya Seyminin gürcü fraksiyası, gürcü sülh nümayəndə heyəti üzvləri Batumda gizli danışıqlar aparır, ayrılmağa və Gürcüstanın müstəqilliyini elan etməyə hazırlaşırlar[141].

Zaqafqaziya Seyminin sədri və üzvləri - K.Çxeidze, A.Sereteli və Y.Gegeçkori gözlənilmədən 1918-ci il mayın 25-də Fətəlixan Xoyskinin sədrliyi ilə keçirilən axşam iclasına gəldilər. A.Sereteli gürcü fraksiyası adından bəyanat verərək xüsusi qeyd etdi ki, "...Zaqafqaziya xalqlarını müstəqillik şüarı ətrafında birləşdirmək mümkün olmadı və Zaqafqaziyanın (Respublika nəzərdə tutulur. - *Red.)* parçalanması faktı göz önündədir. Seymin sabahkı iclasında biz Zaqafqaziya Respublikasının ləğv olunması faktını təsdiq edəcəyik"[142].

Cavab nitqində Fətəli xan Xoyski bildirdi ki, "əgər gürcü xalqının iradəsi belədirsə, bizim ona mane olmağa haqqımız yoxdur. Azərbaycan türklərinə isə yeni vəziyyətlə bağlı olaraq müvafiq qərarlar qəbul etməkdən başqa bir şey qalmır"[143].

Gürcüstan nümayəndə heyəti iclası tərk etdikdən sonra Zaqafqaziya Seyminin müsəlman fraksiyası qətnamə qəbul etdi və orada bildirdi ki, Gürcüstan öz müstəqilliyini elan etdiyi halda, biz də öz tərəfimizdən Azərbaycanın müstəqilliyini elan etməliyik[144].

1918-ci il mayın 26-da Zaqafqaziya Seyminin son iclası oldu. Gürcü fraksiyası Zaqafqaziya Respublikasının dağılmasının bütün günahını müsəlman fraksiyasının üstünə yıxdı. Onların fikrincə, müsəlman fraksiyası türkpərəst mövqe tutduğu üçün elə vəziyyət yaranmışdır ki, gürcülər onlarla artıq əməkdaşlıq edə bilməz[145].

Zaqafqaziya Seyminin üzvü Şəfi bəy Rüstəmbəyov gürcü fraksiyası ünvanına kəskin tənqidlə çıxış edərək dedi: "...hesab edirik ki, Zaqafqaziyanın birgə siyasi mövcudluğunun indiki mürəkkəb və məsuliyyətli anında ayrılmaq üçün tutarlı və obyektiv əsaslar yoxdur və burada gürcü xalqının nümayəndələri tərəfindən irəli sürülən amillər, fikrimizcə, az inandırıcıdır. Eyni zamanda gürcülər

Zaqafqaziya xalqlarının birgə işləməsini qeyri-mümkün hesab edir və siyasi cəhətdən ayrı yaşamağa can atırlarsa, belə halda Seymin mövcudluğu üçün heç bir əsas qalmır"[146]. Buna görə də müsəlman fraksiyası belə vəziyyətdə Seymin özünü buraxmasına etiraz etmədi.

Uzun davam edən qarşılıqlı ittihamlardan sonra Zaqafqaziya Seymi Zaqafqaziya Respublikasının parçalanmasını təsdiq edən qətnamə qəbul etdi[147].

Beləliklə, hakim qüvvələrin təzyiqi altında yaradılmış Zaqafqaziya Respublikası daxili ziddiyyətlərin kəskinləşməsi nəticəsində dağıldı.

***

Mart hadisələrindən sonra Bakı şəhərində və onun neft-mədən rayonunda Bakı Sovetinin hakimiyyəti gücləndi. Aprel ayı ərzində Azərbaycanın şərq qəzalarında - aprelin 14-də Lənkəranda, aprelin 21-də Salyanda, aprelin 23-də Qubada və s. Sovet hakimiyyətinin yaradılması prosesi gedirdi. Bu regionu idarə etmək üçün ali icra hakimiyyəti orqanı Bakı Xalq Komissarları Soveti yaradılması tələb olunurdu. Onun yaradılması ətrafında Bakı Sovetində kəskin mübarizə başlandı.

1918-ci il aprelin əvvəllərində o dövrdə Bakıda fəaliyyət göstərən bütün partiya komitələri nümayəndələrinin daxil olduğu 308 nəfərdən ibarət Bakı Fəhlə, Əsgər və Matros Deputatları Sovetinin köhnə tərkibi hələ qalırdı. Sovetin belə çoxpartiyalı tərkibi bolşevikləri qane etmirdi. Onlar yalnız sol eserlərlə koalisiyaya üstünlük verirdilər. Doğrudur, əvvəlcə başda P.Caparidze olmaqla bolşeviklərin sağ qanadı sağ eserlər və daşnaklara 1-2 komissar vəzifəsi verməklə onları hökumətin tərkibinə daxil etməyi tələb edirdi. Lakin S.Şaumyan və tərəfdarları yalnız sol eserlərə və "beynəlmiləlçi" daşnaklara üstünlük verdilər və bununla da sağ partiyaların hökumətdə təmsil olunması təklifi rədd edildi. Lakin bolşeviklər bu partiyaları, xüsusən daşnakları siyasi həyatdan tam təcrid etmədilər. Məsələn, əksinqilabın əsas mənbələrindən biri kimi Erməni Milli Şurasını ləğv etmək haqqında müxtəlif partiyaların bolşeviklərə müraciəti cavabsız qaldı. Bununla yanaşı, Xalq Komissarları Soveti digər ictimai və siyasi strukturlara münasibətdə daha çox qətiyyət göstərirdi. Bolşeviklərin fikrincə, mart hadisələri zamanı qorxaqlıq göstərmiş Bakı hərbi donanmasının MK-sı yenidən seçildi.

Növbəti hücuma keçən bolşeviklər "Baku", "Kaspi", "Bakinets", "Naş qolos" və s. qəzetləri bağladılar, Bakı qradonaçalnikliyini ləğv etdilər, şəhərin komendantı vəzifəsinə daşnak B. Avakyanı oturtdular. Şəhər Dumasının buraxılması, onun funksiyalarının xüsusi şəhər təsərrüfatı şöbəsinə verilməsi də demokratik təsisatlara yönəlmiş həmin bolşevik hücumunun təzahürü idi. Fəhlə-kəndli milisi təşkil olunurdu. Ləğv olunmuş köhnə məhkəmə aparatı əvəzində "xalq məhkəmələri" fəaliyyət göstərməyə başladı. 1918-ci ilin yayında bolşeviklərin

demokratik orqanlara qarşı mübarizəsi onlar üçün çox uğurlu oldu, belə ki, bolşevik ideologiyasına yad olan bütün siyasi strukturlar ləğv edildi. Beləliklə, hakimiyyət uğrunda yarımillik mübarizə başa çatdı və demokratik təşkilatların xarabalıqları üzərində bolşeviklərin Bakı XKS yaradıldı.

1918-ci il mayın 1-də Bakı XKS gələcək funksiyaları və fəaliyyət proqramını müəyyən edən deklarasiyasını dərc etdi. Deklarasiyada qeyd edilirdi ki, Bakı XKS RSFSR XKS-nin bütün dekret ve sərəncamlarını həyata keçirməyə başlamış Ümumrusiya mərkəzi hökuməti ilə sıx əlaqədə fəaliyyət göstərəcək[148].

Beləliklə, Bakı Xalq Komissarları Soveti əslində Sovet Rusiyası hökumətinin Azərbaycanda fəaliyyət göstərən yerli orqanına çevrildi və bilavasitə Moskvaya tabe oldu. Buna görə də onun hər hansı sosial-iqtisadi dəyişiklik keçirmək cəhdi Rusiyanın mənafelərinə cavab verməli idi.

"Bankların milliləşdirilməsi haqqında" Dekret Bakıda komissarların həyata keçirdiyi ilk dekretlərdən biri sayılsa da, əslində heç bir milliləşdirmə həyata keçirilməmişdi. Yalnız bankların bolşeviklər tərəfindən rekvizisiya edilməsindən söhbət gedə bilərdi. Məsələn, 1918-ci il aprelin 29-da Bakı Xalq Komissarları Soveti A.Mikoyana orada olan pul və zinət şeylərini ələ keçirmək üçün Rusiya Xarici Ticarət Bankını tutmaq tapşırığı vermişdi[149]. Bundan əlavə, Rusiya Dövlət Bankı şöbəsinin pul vəsaiti Moskvaya aparılmışdı[150].

"Azərbaycan neft sənayesinin milliləşdirilməsi haqqında" 1918-ci il 2 aprel tarixli dekretin Azərbaycan iqtisadiyyatına vurduğu ziyanı da xüsusi qeyd etmək lazımdır. Bu dekretin qəbul edilməsi onunla əlaqədar idi ki, vətəndaş müharibəsi və iqtisadi blokada şəraitində Sovet Rusiyasının neftə xüsusi ehtiyacı var idi və buna görə də Bakını hər vasitə ilə öz əlində saxlamağa çalışırdı. RSFSR hökuməti, şəxsən Lenin Bakı XKS-dən neft təchizatını təmin etməyi tələb edirdi. Məsələn, mayın 28-də Bakıda V.İ.Lenindən "ilk növbədə, şübhəsiz, neft hasilatını təmin etmək" haqqında teleqram alınmışdı[151]. V.İ.Lenin iyunun 5-də S.Şaumyana "nefti ilk sıraya qoymaq" tapşırığını 152, iki gün sonra göndərdiyi teleqramda isə yenə "tezliklə Bakıdan neft göndərilməsi üçün tədbirlər görün" göstərişini vermişdi[153].

Dekretin belə tələsik həyata keçirilməsində yeganə məqsəd Bakıdan mümkün qədər çox neft daşınmasına nail olmaqdan ibarət idi. Ümumiyyətlə, 408 neft istehsalı müəssisəsi milliləşdirmə adı ilə zəbt edilmiş və onlar Bakı Xalq Komissarları Sovetinin orqanı olan Xalq Təsərrüfatı Şurasının ixtiyarına keçirilmişdi. Bakı neft sənayeçiləri və beynəlxalq maliyyə inhisarları bu dekretin həyata keçirilməsinə inadla müqavimət göstərirdilər. Böyük Britaniya və Fransa hökumətlərinin təşəbbüsü ilə İspaniya, Hollandiya, Norveç, Danimarka, İsveçrə və İranın Moskvadakı diplomatik nümayəndələri neft sənayesinin milliləşdirilməsinə qarşı etiraz etdilər, lakin onların etirazı "RSFSR hökumətinin daxili işlərinə qarışmaq" kimi səciyyələndirilərək rədd edildi.

"Xəzər ticarət donanmasının milliləşdirilməsi haqqında" dekret də neft sənayesinin milliləşdirilməsi siyasətinin tərkib hissəsi idi. 1918-ci il aprelin 5-də

gəmi sahiblərinin etirazlarına baxmayaraq, bu tədbir də zorakılıqla həyata keçirilməyə başladı. Bütövlükdə 1918-ci ilin aprel-iyul ayları ərzində Bakı Xalq Komissarları Sovetinin zorakı tədbirləri nəticəsində Bakıdan Sovet Rusiyasına 1,3 milyon tona yaxın neft və neft məhsulları daşındı[154].

İqtisadi proqramın həyata keçirilməsində yaranmış ərzaq böhranı ilə üzləşən yeni hökumət ərzaq məsələsinə ciddi diqqət verməyə məcbur oldu. Əsas ərzaq orqanlarına menşeviklər və eserlər nəzarət edirdilər. Ərzaq məsələsinin həlli bilavasitə kənddəki vəziyyətdən, yəni kəndlinin kənd təsərrüfatı məhsullarının əsas istehsalçısının kimin tərəfində olmasından asılı idi. Süni surətdə yaradılmış qəza kəndli sovetlərinin çoxsaylılığı haqqında məlumatlar nə kəndlilərin yeni hakimiyyəti müdafiə etməsi demək idi, nə də ərzaq probleminin yaxşılaşdırılması. 1918-ci ilin may-iyun aylarında kəndli qurultayları keçirmək kampaniyası bu işə müvəffəqiyyət gətirmədi. Bəzi yerlərdə kənd əhalisi şəhərə yardım etmək zəruriyyətinə inandılarsa da, ərzaq təchizatını durğunluq vəziyyətindən çıxarmaq mümkün olmadı. Bundan əlavə, Bakı Kommunasının tarixi bolşeviklərin və onların müttəfiqlərinin Azərbaycan kəndlilərini öz tərəflərinə çəkmək üçün göstərdikləri bütün səylərin tam iflasa uğradığını göstərir.

Fəhlələrin vəziyyəti də Kommunanın xeyrinə deyildi. Faktlar göstərirki, artıq 1918-ci il aprelin 18-də Qaraşəhərdə ixtisaslı fəhlələr arasında izahat işlərini gücləndirmək lazım gəlirdi[155]. Sonrakı həftələr çoxminli fəhlə mitinqləri ilə müşayiət olunurdu[156].

Fəhlələrin irəli sürdükləri tələblər kifayət qədər sərt idi: Sovetin yenidən seçilməsi, koalision hökumətin yaradılması, ərzaq məsələsinin tezliklə həll edilməsi, dərin böhranın aradan qaldırılması. Tələblərin yerinə yetirilmədiyi halda fəhlələr son tədbir kimi sabotajla və hətta Bakıdan çıxıb getməklə hökuməti hədələyirdilər. Söhbət ixtisaslı fəhlələrdən getdiyinə görə onların şəhəri tərk etməsi neftin çıxarılması və daşınması işini dayandıra bilərdi, bu da, öz növbəsində, sovet Rusiyasının iqtisadiyyatı üçün ciddi təhlükə yaradırdı. Bununla əlaqədar olaraq, S.Şaumyan hətta dekret verdi. Dekretə görə, şəhəri tərk etməyin zəruriliyi barədə tibbi arayış təqdim edənlərdən başqa bütün adamlara şəhərdən çıxmaq qadağan olunurdu[157]. Fəhlə müxalifətini mövcud hakimiyyətə qarşı çıxış edən müxtəlif həmkarlar ittifaqlarının üzvləri müdafiə edirdilər. Sovet hakimiyyətinə müqavimət göstərən ən inadlı əhali qrupu müəllimlərin həmkarlar ittifaqları oldu. 1918-ci ilin may ayında Bakı Sovetinin iclasında çıxış edən Maarif komissarı N.Kolesnikova müəllimlərin həmkarlar ittifaqının onun bəyanatına cavab verməməsindən, onların yeni hakimiyyətlə əməkdaşlığa hazır olmamasından şikayətlənirdi. N.Kolesnikovanın müəllimlər kollektivilə görüşmək cəhdini müəllimlər sabotajla və komissarın çağırdığı yığıncağı pozmaqla qarşıladılar[158].

Beləliklə, yeni hökumətin siyasəti təkcə liberal ünsürləri və orta təbəqəni deyil, həmçinin digər sosialist partiyalarını və onların arxasınca gedən fəhlələri ondan uzaqlaşdırdı. Şəhərin müsəlman əhalisi isə yeni hakimiyyətdən üz döndərdi. Bakıda, Azərbaycanda vəziyyət bolşeviklərin xeyrinə olmayan istiqamətdə dəyişdi və Bakı Kommunasının

süqutu ilə nəticələndi.

VI FƏSİL

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ELAN EDİLMƏSİ

## §1. BİRİNCİ DÜNYA MÜHARİBƏSİNİN BAŞA ÇATMASI DÖVRÜNDƏ AZƏRBAYCAN UĞRUNDA BÖYÜK DÖVLƏTLƏRİN DİPLOMATİK MÜBARİZƏSİ

Zaqafqaziya Federativ Respublikasının süqutu Cənubi Qafqazda üç müstəqil dövlətin - Azərbaycan, Gürcüstan və Ermənistan respublikalarının yaranması ilə nəticələndi.

1918-ci il may ayının 27-də artıq keçmiş Zaqafqaziya Seyminin Azərbaycan fraksiyası yaranmış siyasi vəziyyəti müzakirə etmək üçün fövqəladə iclas çağırdı. Uzun sürən müzakirələrdən sonra Müvəqqəti Milli Şura yaratmaq qərara alındı. Müvəqqəti Milli Şuranın sədri vəzifəsinə M.Ə.Rəsulzadə ("Müsavat" Partiyası MK-nın sədri), İcraiyyə Komitəsinin sədri vəzifəsinə isə F.X.Xoyski (bitərəf) seçildi.

1918-ci il mayın 28-də Tiflis şəhərində Azərbaycan Milli Şurasın sədrinin müavini Həsən bəy Ağayev, katib Mustafa Mahmudov, Fətəli Xan Xoyski, Xəlil bəy Xasməmmədov, Nəsib bəy Yusifbəyli, Mir Hidayət Seyidov, Nəriman bəy Nərimanbəyov, Heybətqulu Məmmədbəyov, Mehdi bəy Hacınski, Əliəsgər bəy Mahmudbəyov, Aslan bəy Qardaşov, Sultan Məcid Qənizadə, Əkbər Ağa Şeyxülislamov, Mehdi bəy Hacıbababəyov, Məmməd Yusif Cəfərov, Xudadat bəy Məlikaslanov, Rəhim bəy Vəkilov, Həmid bəy Şaxtaxtinski, Firidun bəy Köçərli, Camo bəy Hacınski, Şəfi bəy Rüstəmbəyov, Xosrov Paşa bəy Sultanov, Cəfər bəy Axundov, Məhəmməd Məhərrəmov, Cavad Məlik-Yeqanov və Hacı Molla Axundzadədən ibarət tərkibdə Azərbaycanın istiqlaliyyəti haqqında Akt (Əqdnamə) qəbul etdi:

## § 2. AZƏRBAYCAN İSTİQLALINI MÜBƏYYİN ƏQDNAMƏ

Böyük Rusiya inqilabının cərəyanı ilə, dövlət vücudunun ayrı-ayrı hissələrə ayrılması ilə, Zaqafqaziyanın rus orduları tərəfindən tərkibinə mövcud bir vəziyyəti-siyasiyyə hasil oldu. Kəndli qüvveyi-məxsusilərinə tərk olunan Zaqafqaziya millətləri müqəddəratlarının idarəsini bizzat kəndi əllərinə alaraq Zaqafqaziya Qoşma Xalq Cümhuriyyətini təsis etdilər. Vəqayi-siyasiyyənin inkişaf etməsi üzərinə gürcü milləti Zaqafqaziya Qoşma Xalq Cümhuriyyəti cüzindən çıxıb da müstəqil Gürcü Xalq Cümhuriyyəti təsisini səlah gördü.

Rusiya ilə Osmanlı imperatorluğu arasında zühur edən müharibənin təsviyyəsi üzündən hasil olan vəziyyəti-hazıreyi-siyasiyyə və məmləkət daxilində bulunan misilsiz anarşi Cənubi-Şərqi Zaqafqaziyadan ibarət bulunan Azərbaycana dəxi bulunduğu xarici və daxili müşkülatdan çıxmaq üçün xüsusi bir dövlət təşkilatı qurmaq lüzumunu təlqin ediyor.

Buna binaən arayi-ümumiyyə ilə intixab olunan Azərbaycan Şurayi-Milliyyəyi-İslamiyyəsi bütün cəmaətə elan ediyor ki:

1. Bu gündən etibarən Azərbaycan xəlqi hakimiyyət həqqinə malik olduğu kibi, Cənubi-Şərqi Zaqafqaziyadan ibarət Azərbaycan dəxi kamiləl-hüquq müstəqil bir dövlətdir.

2. Müstəqil Azərbaycan dövlətinin şəkli-idarəsi Xalq Cümhuriyyəti olaraq təqərrür ediyor.

3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlər və bilxassə həmcüvar olduğu millət və dövlətlərlə münasibati-həsəna təsisinə əzm edər.

4. Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif, silk və cins fərqi gözləmədən qələmrəvində yaşayan bütün vətəndaşlarına hüquqi-siyasiyyə və vətəniyyə təmin eylər.

5. Azərbaycan Xalq Cümhuriyyəti ərazisi daxilində yaşayan bilcümlə millətlərə sərbəstanə inkişafları üçün geniş meydan buraxır.

6. Məclisi-Müəssisan toplanıncaya qədər Azərbaycan idarəsinin başında arayi-ümumiyyə ilə intixab olunmuş Şurayi-Milli və Şurayi-Milliyə qarşı məsul hökuməti-müvəqqətə durur"[1].

Beləliklə, Azərbaycan dövlətçiliyi tarixində ilk konstitusiya aktı -İstiqlal Aktının qəbulu ilə Azərbaycan dövlətçiliyi dünyada Xalq Cümhuriyyəti formasında elan olundu.

Bu siyasi və hüquqi sənəddə müstəqil Azərbaycan dövlətinin yarandığı bəyan edilmiş, onun hakimiyyətinin şamil olunduğu ərazinin hüdudları müəyyənləşdirilmiş, həmçinin dövlətin əsas fəaliyyət prinsipləri öz əksini tapmışdır. İstiqlal Aktında demokratik

dövlətə məxsus atributların - hakimiyyətin xalqa mənsub olması, vətəndaşların mülki və siyasi hüquqlarının təmin edilməsi, bütün xalqların hər bir kəsin milli, dini, sinfi, silki və cinsi mənsubiyyətindən asılı olmayaraq azad inkişafı üçün şərait yaradılması, ən nəhayət, hakimiyyətin bölünməsi kimi prinsiplərin dövlət fəaliyyətinin əsası kimi bəyan edilməsi Azərbaycan xalqının suveren, demokratik, hüquqi dövlət yaratmaq əzmində olduğunu bütün bəşəriyyətə nümayiş etdirdi. İstiqlal Aktı bəyannaməsi Azərbaycan millətinin Kulturnation (millət-mədəniyyət) statusundan tamamilə başqa siyasi-hüquqi və mənəvi-psixoloji statusa - Statenation (millət-dövlət) statusuna qədəm qoyduğunu göstərdi.

İstiqlal Aktının qəbul edildiyi Milli Şuranın elə həmin iclasında ilk Azərbaycan hökumətini təşkil etmək tapşırığı almış Fətəli xan Xoyski Müvəqqəti hökumətin tərkibini elan etdi: Nazirlər Şurasının sədri və daxili işlər naziri - Fətəli xan Xoyski (bitərəf); maliyyə naziri və xalq maarifi naziri - Nəsib bəy Yusifbəyli ("Müsavat"); xarici işlər naziri - Məmməd Həsən Hacınski ("Müsavat"); yollar naziri və poçt-teleqraf naziri - Xudadat bəy Məlikaslanov (Müsəlman Sosialist Bloku); ədliyyə naziri - Xəlil bəy Xasməmmədov ("Müsavat"); əkinçilik naziri - Əkbər Şeyxülislamov ("Hümmət"); hərbi nazir - Xosrov-Paşa bəy Sultanov ("İttihad"); ticarət və sənaye naziri - Məmməd-Yusif Cəfərov (bitərəf); dövlət nəzarəti naziri - Camo Hacınski (Müsəlman Sosialist Bloku)[2]. Elə həmin gün Nazirlər Şurasının sədri F.X.Xoyski bir sıra dövlətlərin xarici işlər nazirliklərinə müstəqil Azərbaycan Cümhuriyyətinin yaradılması haqqında radioqram göndərdi. Radioqramda hökumətin müvəqqəti yerləşdiyi şəhərin Yelizavetpol (Gəncə) olduğu göstərilirdi[3].

1918-ci ilin yayında Azərbaycanda siyasi vəziyyət ölkədə ikihakimiyyətlilik olması ilə səciyyələnirdi. Belə ki, Azərbaycanın şərq hissəsi (Bakı quberniyası) Bakıda fəaliyyət göstərən Xalq Komissarları Sovetinin təsiri, qərb hissəsi isə (Yelizavetpol quberniyası) Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin hakimiyyəti altında idi.

1918-ci ilin yayında Azərbaycanın beynəlxalq vəziyyəti olduqca mürəkkəb idi. Burada Böyük Britaniya, Almaniya və RSFSR kimi üç böyük dövlətin siyasi və iqtisadi maraqları toqquşurdu. Onların hər biri Bakı neftinə yiyələnmək istəyir və bir-biri ilə rəqabət aparırdı. Davam edən Birinci dünya müharibəsi şəraitində mübarizə obyektlərindən biri də Azərbaycan, o cümlədən onun ayrılmaz hissəsi olan neft Bakısı idi. Dünyanı yenidən bölüşdürmək istəyən böyük dövlətlər üçün həmçinin Xəzər dənizində öz hökmranlığını bərqərar etmək cəhdləri səciyyəvi idi.

Yaxın Şərqdə böyük hərbi qüvvəyə malik olan və Sovet Rusiyasına qarşı hərbi müdaxiləni başlayan İngiltərə Bakını onun əlindən almağa və Almaniyanı Bakıya yaxın qoymamağa çalışırdı. İngiltərənin baş naziri D.Lloyd Corc öz memuarlarında yazırdı ki, "Biz o vaxt əli qoynunda oturmamışdıq"[4]. Sonralar ingilislərin 1918-ci ildə Bakıdakı hərəkətlərindən yazan İngiltərənin "Tayms" qəzeti bu cəhətin olduqca mühüm etirafı kimi yazmışdı: "Biz gəlmişdik ki, Bakının neft mədənlərini zəbt edək"[5].

İngiltərə rəhbərliyi Bakını işğal etmək əməliyyatını həyata keçirməyi İranın Ənzəli limanında cəmlənmiş Britaniya hərbi dəstəsinin komandanı general Denstervillə

tapşırmışdı: Denstervill Bakıdakı eser, menşevik və daşnaklarla əlaqə yaratdi ki, şəhərin işğalı planını hazırlamaqda və həyata keçirməkdə onlardan kömək alsın.

Daşnak, menşevik və eserlər cəbhədə və cəbhə arxasında intizamsızlıq törətmək məqsədilə öz pozuculuq fəaliyyətlərini gücləndirir, şəhərdə vəziyyətin ağır olmasından, mövcud ərzaq böhranının kəskinləşməsindən istifadə edərək, ingilis ordusunun Bakıya dəvət edilməsi üçün geniş təbliğat aparırdılar. Onlar mətbuatda və mitinqlərdə çıxış edib kütlələri inandırırdılar ki, ingilislər nəinki Bakını qoruyub saxlamağa kömək göstərəcək, həm də əhalini ərzaqla təmin edəcəklər. Əhalinin bir qismi bu təbliğatın təsiri altına düşürdü.

İyun ayında İngiltərə konsulu Mak-Donnelin fəal iştirakı ilə Bakıda eserlər tərəfindən sui-qəsdə cəhd edildi, lakin o, uğursuzluqla nəticələndi[6].

Neft mənbələri olan regionların zəbt edilməsi o zaman yanacağa və digər neft məhsullarına kəskin ehtiyac duyan Almaniya hökumətinin də planlarında böyük yer tuturdu.

General Lüdendorf belə hesab edirdi ki, Qafqazı ələ keçirməklə iqtisadi blokadanı yarmaq və Almaniyanı iqtisadi cəhətdən gücləndirmək, almanlarda qələbəyə inam oyatmaq mümkün olacaq. Lakin bunun üçün, onun açıqcasına etiraf etdiyi kimi, almanlara "Bakıya gəlib çıxmaq" lazım idi[7].

Almaniyanın Qafqazı, o cümlədən Bakını ələ keçirmək cəhdlərinin ciddiliyi və ona böyük əhəmiyyət verildiyini Almaniya Baş Qərargahının 1918-ci ilin iyul ayında Belçikanın Spa şəhərində keçirilmiş məxfi müşavirəsi də aşkar şəkildə göstərirdi. Müşavirədə kayzer II Vilhelm, Hindenburq, Lüdendorf və digər generallar iştirak edirdilər.

Lüdendorfun çıxışında qeyd olunmuşdu ki, Almaniyanın strateji vəzifələrinin həlli üçün neft məsələsi fövqəladə əhəmiyyət kəsb edir və buna görə də Bakını almaq lazımdır. Donanma idarəsinin stats-katibi onun Bakını almaq barədə fikrini dəstəkləyərək bildirmişdi ki, Almaniya donanmasının neftə olan tələbatı artır və sualtı müharibənin sonrakı gedişi onun ödənilməsindən asılıdır[8].

Lakin ordusu Qərb cəbhələrində olan Almaniya Bakını öz hərbi qüvvələri ilə zəbt edə bilməzdi, o, bu işdə yalnız öz müttəfiqinə -qoşunları Qafqaz İslam Ordusu tərkibində Bakıya hücum edən Türkiyəyə ümid bəsləyə bilərdi.

Lakin Almaniyanın bu hücuma münasibəti ikili və olduqca ziddiyyətli mahiyyət daşıyırdı: həm onu dəstəkləyir, həm də ondan ciddi ehtiyat edirdi.

Almaniyanın hakim dairələrində Qafqaz İslam Ordusunun Bakını ala biləcəyinə inam yox idi, amma hərbi əməliyyatların gedişində neft mədənlərinin məhv edilə biləcəyindən də narahat olurdular. Bu məsələ Almaniyanın İstanbuldakı konsulunun 1918-ci il iyul ayının əvvəlində təqdim etdiyi hesabatında öz əksini tapmışdı. Hesabatda bolşeviklərin Bakını möhkəm mühafizə etdiyi göstərilir və onun alınmasının qeyri-mümkün olduğu ifadə edilirdi[9]. Bu mülahizələrə əsaslanaraq, konsul Sovet Rusiyası ilə "Bakı məsələsi" üzrə danışıqlar aparmağı təklif edərək yazırdı: "Əgər biz bolşeviklərlə sazişə gələ bilsək, onda Bakının neft mədənləri və neft ehtiyatları bütövlükdə əlimizə

salamat keçəcək. Əgər bunun əksinə olaraq, bolşeviklər şəhəri tərk etməyə məcbur olsalar, mədənləri yandıracaqlar və onda nə biz, nə də türklər neft ehtiyatlarından istifadə edə biləcəyik. Onlarsız isə Qafqaz dəmir yollarının istismarı tezliklə dayanacaq"[10].

1918-ci ilin iyul ayında Mərkəz ölkələrinin və Cənubi Qafqaz respublikalarının qarşıdakı konfransında iştirak etmək üçün İstanbula göndərilmiş Azərbaycan diplomatik nümayəndə heyəti belə mürəkkəb və ziddiyyətli beynəlxalq vəziyyət şəraitində işləməli oldu. Heyətin başçısı M.Ə.Rəsulzadə, üzvləri isə X.Xasməmmədov başqaları idi". Nümayəndə heyətinə konfransın digər iştirakçıları (Türkiyə, Almaniya, Avstriya-Macarıstan, Bolqarıstan, Gürcüstan, Ermənistan və Dağlılar Respublikası) ilə siyasət, iqtisadiyyat, maliyyə məsələləri və hərbi problemlər barəsində danışıqlar aparmaq tapşırılmışdı[12].

Bundan başqa, nümayəndə heyəti üzvlərinə Türkiyə tərəfi ilə qapalı danışıqlara getmək və mümkün ola bilən separat müqavilə bağlamaq üçün səlahiyyət verilmişdi.

Azərbaycan nümayəndə heyətinin başçısı M.Ə.Rəsulzadə özünü məharətli diplomat kimi göstərərək, həmin vaxt RSFSR, Almaniya və Türkiyə arasında Bakı neftindən istifadə etmə uğrunda gedən diplomatik dairələrdə "Bakı məsələsi" adlandırılan siyasi mübarizənin mərkəzində oldu. Azərbaycan hökumətinə ünvanladığı hesabatlarında o, yaranmış vəziyyətin dərin təhlilini verir və həyata keçirilməli konkret tədbirlər təklif edirdi. M.H.Hacınskiyə məktubunda o, qeyd edirdi: "Sizə məlumdur ki, neft haqqında məsələ Azərbaycandan çox Türkiyə-Almaniya məsələsidir"[13].

Almaniyanın İstanbuldakı səfiri Bernsdorf, öz ölkəsinin hakim dairələrinin ehtiyatlandığını ifadə edərək, M.Ə.Rəsulzadədən Bakının bolşeviklər tərəfindən dağıdılması təhlükəsi haqqında məlumat verməsini xahiş etmişdi[14]. İstanbul konfransının keçirilməsində Almaniya öz məqsədlərini güdürdü. Alman qoşunlarının Gürcüstanda yerləşən məhdud kontingenti Türkiyəyə müqavimət göstərmək və ya Bakını tutmaq üçün kifayət deyildi. Buna görə də Qafqaz siyasətində Almaniya yalnız diplomatik kanallardan istifadə etməyə çalışırdı.

M.Ə.Rəsulzadə o günlərdə M.H.Hacınskiyə yazırdı ki, Almaniya və Türkiyə Bakı məsələsinə müxtəlif cür yanaşır. Neft mədənlərinin bolşeviklər tərəfindən dağıdılacağından ehtiyat edərək, almanlar onlarla razılığa gəlib neftin alınması haqqında saziş bağlamağa meyl göstərir. Daha sonra o, Türkiyə və Almaniya tərəfləri arasında Qafqaz haqqında məsələyə aid ziddiyyətlərin olduğunu da qeyd edirdi[15].

İstanbuldan göndərdiyi digər məlumatında M.Ə.Rəsulzadə yazırdı ki, "neft məsələsində vasitəçilik edərək, türklər almanlardan istifadə etmək istəyir, halbuki almanlar belə sövdəyə razılıq vermir"[16].

Bakı nefti uğrunda mübarizənin fəal iştirakçısı olan Sovet Rusiyası isə onu həm hərbi, həm də diplomatik yolla öz əlində saxlamağa çalışırdı.

Leninin rəhbərlik etdiyi RSFSR hökuməti bölgəyə kifayət qədər qoşun göndərmək imkanı olmadığına görə məqsədlərinə diplomatik xarakterli tədbirlər vasitəsi ilə nail olmaq ümidində idi. O, bir tərəfdən, Almaniya və onun müttəfiqlərindən Brest müqaviləsinin şərtlərinə əməl olunmasını və Qafqaz İslam Ordusunun Bakıya hücumunun dayandırılmasını tələb edir, digər tərəfdən isə Almaniyaya müəyyən iqtisadi güzəştlər etməyə, o cümlədən Bakıdan aldığı neftin bir hissəsini ona verməyə razı olduğunu bildirirdi.

Bu mülahizələri müsbət qarşılayıb nəzərə alan Almaniya hökuməti Sovet Rusiyası ilə "Bakı məsələsi" barədə danışıqlardan imtina etmirdi. Danışıqlar hələ 1918-ci ilin iyun ayında başlanmışdı. Onun gedişində Almaniya hökuməti Sovet səfirinin nəzərinə çatdırmışdı ki, onların yalnız müəyyən həcmdə Bakı nefti alacaqlarına təminat verildiyi halda, Türkiyə Bakıya hücumunu dayandırmağa məcbur ediləcək.

İyulun 7-də V.İ.Lenin Saritsında olan İ.V.Stalinə göndərdiyi teleqramda yazırdı ki, almanlara neftin bir hissəsini alacaqlarına təminat verildiyi halda, Türkiyə qoşunlarının Bakıya hücumunu dayandırmalarına razı olduqları barədə Almaniya hökumətinin Berlindəki rus səfirinə etdiyi təklifindən Şaumyanı xəbərdar etsin. Lenin: -deyirdi[17] "Əlbəttə ki, biz razı olacağıq".

Stalin Şaumyana göndərdiyi məktubunda "Zaqafqaziya məsələsində bizim ümumi siyasətimiz ondan ibarətdir ki, biz almanları gürcü, erməni və Azərbaycan məsələlərinin Rusiyanın daxili işi olduqlarını rəsmən tanımağa məcbur etməliyik[18] - qeydindən sonra bildirirdi ki, almanlar Bakının RSFSR-də qalması ilə razılaşaraq, onlara müəyyən qədər neft ayrılmasını istəyirlər və bu xahişi yerinə yetirmək olar[19].

Beləliklə, döyüşən Qafqaz İslam Ordusunun arxasında gizli sövdə aparan Almaniya və RSFSR Bakının taleyini həll etmək fikrində idilər.

Yaranmış vəziyyətdə Azərbaycan hökumətinin Bakı üzərində qanuni hüquqlarının təsbiq edilməsi olduqca çətin görünürdü. Türkiyə və Almaniyanın maraqları ilə hesablaşmaq, onlarla kompromisə nail olmaq lazım gəlirdi.

Almaniya və Türkiyə ilə danışıqların aparılması haqqında məsələ Azərbaycan hökumətinin üzvləri ilə İstanbuldakı diplomatik nümayəndə heyətinin başçısı arasında sonrakı məktublaşmada da əsas yer tuturdu. M.Ə.Rəsulzadənin məktublarından birində deyilirdi: "Görünür, biz, almanlara Bakıda məlum iqtisadi güzəştlər təqdim etməli olacağıq"[20].

Xarici işlər naziri M.H.Hacınskinin 1918-ci il iyul ayının əvvəlində İstanbula göndərilmiş məktubunda M.Ə.Rəsulzadəyə təklif edilirdi ki, o, Almaniya və Türkiyəni Azərbaycan hökumətinin onların maraqlarının ödənilməsinə hazır olduğuna inandırsın: "Türkiyə, Azərbaycan və Almaniyanın maraqlarının uzlaşdırılması üçün zəmin tapın. Bu zəmin Bakı nefti haqqında iqtisadi razılaşmadan ibarətdir. Burada güzəştlərə getmək olar"[21].

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması məqsədilə

M.Ə.Rəsulzadə Türkiyə hökumətinin rəhbərləri Ənvər Paşa, Tələt Paşa ilə, həmçinin Almaniyanın səfiri Bernsdorfla xüsusi görüşlər keçirirdi. Bu görüşlərin birində söhbət zamanı bəhs edilən məsələyə yüksək maraq göstərən Bernsdorf Rəsulzadədən soruşmuşdu: "Siz İstanbuldakı konfransda Azərbaycanın sərhədlərini müəyyən etməyi lazım bilirsinizmi?" Azərbaycanın daxili işlərinə bu cür müdaxiləni arzuolunmaz hesab edən M.Ə.Rəsulzadə ona cavab vermişdi ki, Azərbaycan hökuməti bu məsələni müstəqil həll edəcək və öz qərarını müttəfiqlərə bildirəcək[22].

Azərbaycan Cümhuriyyətinin qərb sərhədləri haqqında məsələ İstanbul konfransında xüsusi müzakirə mövzusu olmuşdu. Müzakirə üçün əsas M.H.Hacınskinin göndərdiyi xəritə idi. Azərbaycanın Tiflisdəki diplomatik nümayəndəsi M.Y.Cəfərovun Gürcüstandakı Almaniya qoşunlarının komandanı general fon Kresslə görüşündə də qərb sərhədləri barədə söhbət getmişdi[23].

Azərbaycanın şərq hissəsi respublikadan müvəqqəti təcrid vəziyyətində olduğu üçün hökumət ciddi maliyyə çətinliyi çəkirdi. 1918-ci ilin iyun ayında baş nazir F.X.Xoyski İstanbulda olan M.Ə.Rəsulzadəyə bu barədə yazırdı ki, hökumətimizin hazırda pula çox böyük ehtiyacı var. İndi normal borc almaq çox çətindir. Əsasən ona görə ki, Bakı bizim əlimizdə deyil[24]. Onun sözlərinə görə, ssuda kimi 3 milyon lirəyə qədər vəsait ayıra bilən Türkiyənin köməyinə ümid olmaq lazım idi[25].

Maliyyə məsələsi sonralar da kifayət qədər kəskin olaraq qalırdı. Baş nazir F.X.Xoyski Türkiyəyə göndərdiyi digər məktubunda maliyyə vəsaitlərinin olmamasını, göndərilən nümayəndə heyəti ilə birlikdə bu istiqamətdə ən təcili və təsirli tədbirlər görməyin vacibliyini M.Ə.Rəsulzadənin diqqətinə çatdırır və ondan borc əldə etməyə çalışmasını, dərhal heç olmasa 1 milyon Türkiyə lirəsi göndərməsini xahiş edirdi[26].

## § 3. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ HAKİMİYYƏTİNİN ÖLKƏNİN BÜTÜN ƏRAZİSİNDƏ BƏRQƏRAR EDİLMƏSİ

1918-ci ilin yazı və yayında Azərbaycanın müxtəlif yerlərində, o cümlədən Şimali-Şərq regionunda - Quba və Xaçmaz bölgələrində hərbi əməliyyatlar gedirdi. Könüllü azərbaycanlı dəstələri "Bakı-Petrovsk" dəmir yol xətti boyunca fəaliyyət göstərirdi. Korqanov etiraf etməyə məcbur olaraq demişdi ki, müsavatçılar onlara qarşı partizan müharibəsi aparır, dəmir yol aramsız

dağıdılır[27].

Azərbaycanlıların könüllü dəstələri və Bakı XKS-nin qoşunları arasında Quba uğrunda gərgin döyüşlər gedirdi. Şəhər iki dəfə əldən-ələ keçmişdi. Əsasən erməni qulduru Hamazaspın başçılıq etdiyi daşnaklardan ibarət sovet hökumət orqanları yerli əhaliyə amansız divan tutur, Hamazaspın cinayətkar daşnak dəstəsi Quba-Xaçmaz bölgəsində dəhşətli vəhşiliklər törədirdi.

Bu hadisələr barədə Azərbaycan Cümhuriyyəti hökumətinin yaratdığı fövqəladə İstintaq Komissiyasının üzvü Novatskinin həmin komissiyanın sədrinə "Quba və Quba qəzası kəndlərinin dağıdılması və adı çəkilmiş şəhər və kəndlərin sakinləri üzərində edilmiş zorakılıq haqqında"[28] adlı məruzəsində təfərrüatı ilə məlumat verilmişdir.

Həmin sənəddə göstərilir ki, 1918-ci ilin aprel ayında, Bakı və Bakı quberniyası bolşeviklərin əlində olan zaman, onların nümayəndəsi David Gelovani 187 silahlı əsgərdən ibarət dəstə ilə Qubaya gəlir və özünü Quba qəza komissarı elan edərək, əhalidən dərhal sovetlərin hakimiyyətini tanımağı tələb edir. Qubalılar onun bu tələbini yerinə yetirməyə məcbur olurlar.

Lakin bolşeviklərin bu hərəkəti cavabsız qalmadı və az müddətdən sonra ətraf kəndlərin əhalisi onlara qəfil hücum etdi. Özünü itirmiş Gelovani dəstəsi ilə şəhəri tərk etdi və buradakı bütün xristian əhalini də zor gücünə özü ilə apardı. Qəzəblənmiş əhali onları təqib edir və atəşə tuturdu. Atışma zamanı mülki əhalidən bir neçə adam öldürüldü.

1918-ci il mayın 1-də daşnak qulduru Hamazaspın başçılıq etdiyi və yalnız ermənilərdən ibarət olan cinayətkar dəstə şəhəri mühasirə edib atəşə tutmağa başladı. Şəhərin alınması müsəlman əhalinin kütləvi surətdə öldürülməsi və hər cür zorakılıqlara düçar edilməsi ilə müşayiət olunurdu. Ümumiyyətlə, iki minə qədər kişi, qadın və uşaq öldürüldü.

Hamazaspın dəstəsi Qubaya gəlib çatana qədər hərəkət etdiyi yol boyunca dəmir yolun hər iki tərəfində yerləşmiş müsəlman kəndlərinə hücum edib onları yandırmış, darmadağın edib əmlakını talamış, nə qadın, nə də uşaqlara rəhm etmiş, qaçıb gizlənməyə macal tapmayan sakinləri yerindəcə öldürmüşdü. Bu hadisələr zamanı Quba qəzasında 122 kənd viran edilmişdi[29].

Lakin cəbhənin ən mühüm hissəsi Kürdəmir istiqamətində idi. Bakı XKS-nin əsas qüvvələrinin Gəncə istiqamətində hücumu məhz buradan keçirdi.

Azərbaycan hökumətinin hərbi qüvvələri sovet qoşunlarının hücumlarını dayandırmaq və müdafiə olunmaq üçün kifayət qədər deyildi. Belə şəraitdə kənardan hərbi kömək tələb olunurdu. M.Ə.Rəsulzadə yazırdı ki, o zaman yaranmış şəraitdə yalnız Türkiyəyə ümid qalırdı və bu qardaş millət Azərbaycanı düşmənlərin əlindən qoparıb almalı idi[30].

Bir sıra mətbuat orqanlarında qeyd olunduğu kimi, Azərbaycan hökuməti dərk edirdi ki, Azərbaycanın öz qüvvəsi ilə hüquqi dövlət qurması, ölkədə qayda-qanun yaratması mümkün deyil. "Partiya mənsubiyyətindən asılı olmayaraq, Milli

Şuranın bütün üzvləri əmin idilər ki, xalqı Bakıdakı bolşevik hərəkatından və dağıdıcı anarxiyadan yalnız kənar qüvvə xilas edə bilər, bütün fikir və səylər Bakını tez bir zamanda düşmən qüvvələrdən xilas etməyə yönəlmişdi; Milli Şuranın bütün daxili imkanları tükənmişdi"[31]. N.Yusifbəyli yaranmış vəziyyəti səciyyələndirərək deyirdi: "Təkcə biz Azərbaycan türklərində deyil, həm də Zaqafqaziyanın bütün ərazisində mövcud olan bu cür böyük miqyaslı anarxiya bizim öz qüvvələrimizlə aradan qaldırıla bilməz; şərqdən bolşeviklərin hücumu isə vəziyyəti daha da ağırlaşdırır. Belə bir vəziyyətdə, bizim acizliyimiz şəraitində özümüzü qorumaq üçün xarici qüvvəyə müraciət etməkdən başqa çarəmiz qalmır. Bu halda biz sevinə bilərik ki, buraya gəlməli olan xarici qüvvə dost və qardaş Türkiyədir"[32].

1918-ci il iyunun 4-də Osmanlı imperiyası ilə Azərbaycan Cümhuriyyəti arasında dostluq haqqında müqavilə imzalandı. Bu, Azərbaycan Xalq Cümhuriyyətinin hər hansı bir xarici dövlətlə bağladığı ilk müqavilə idi. Onun müqəddiməsində deyilirdi: "Bir tərəfdən, Osmanlı imperiyası və digər tərəfdən, suverenliyini elan etmiş Azərbaycan Cümhuriyyəti hökuməti öz ölkələri arasında siyasi, hüquqi, iqtisadi və intellektual əsasda səmimi dostluq münasibətlərinin təsbit edilməsi üzrə qarşılıqlı sazişə gəlir"[33].

Müqavilənin birinci maddəsi Osmanlı imperiyası və Azərbaycan Xalq Cümhuriyyəti arasında daimi sülh və möhkəm dostluğun yaradılacağını təsdiq edirdi. İkinci maddə Osmanlı imperiyası və Azərbaycan, Gürcüstan, Ermənistan arasında dövlət sərhəd xəttinin müəyyənləşdirilməsinə aid idi; burada həmçinin Azərbaycan və Türkiyə arasında geniş dövlət sərhədi zolağı olması nəzərdə tutulurdu. Müqavilənin üçüncü maddəsinə əsasən, Azərbaycan, Gürcüstan və Ermənistan dərhal öz aralarında sərhədləri müəyyənləşdirən və həmin müqavilənin bir hissəsini təşkil edən protokollar imzalamalı və bu barədə Osmanlı hökumətinə məlumat verməli idilər,

Azərbaycan üçün həmin vaxt ən çox əhəmiyyəti olan dördüncü maddədə göstərilirdi ki, Osmanlı hökuməti, əgər zəruri olarsa, sülh və əmin-amanlığın möhkəmləndirilməsi, ölkənin təhlükəsizliyinin təmin edilməsi məqsədilə Azərbaycan Cümhuriyyətinə hərbi kömək göstərməyi öz üzərinə götürür.

Müqavilənin beşinci maddəsinə əsasən, Azərbaycan hökuməti Azərbaycan Xalq Cümhuriyyətinin sərhədboyu ərazilərindəki mövcud quldur dəstələrinin tərk-silah edilib zərərsizləşdirilməsini öz öhdəsinə götürürdü.

Müqavilənin sonrakı beş maddəsində tərəflərin dəmir yol yüklərinin daşınması üzrə öhdəlikləri, konsulluqlar konvensiyası, ticarət müqaviləsi və digər aktların hazırlanması, ölkələrə sərbəst gəlmə, Azərbaycan Beynəlxalq Poçt-Teleqraf Birliyinə daxil olanadək qarşılıqlı poçt-teleqraf əlaqələri, tərəflərin arasında bağlanan həmin müqaviləyə zidd olmayan Brest sülh müqaviləsinin qüvvədə olması barədə razılaşmalar əksini tapmışdı. Sonuncu - on birinci maddədə göstərilirdi ki, müqavilə bir ay ərzində ratifikasiya olunandan sonra mətnlərin mübadiləsi İstanbulda

həyata keçiriləcək[34].

Osmanlı imperiyası ilə müqavilənin bağlanması Azərbaycan dövlətçiliyinin beynəlxalq aləmdə təsdiq edilməsi və Azərbaycan türk millətinin müstəqilliyinin saxlanılmasında zəruri addım idi.

Müstəqil Azərbaycanın həyatında mühüm əhəmiyyətə malik olan bu müqavilə Azərbaycana osmanlı hərbi qoşun hissələrinin göndərilməsinin mümkünlüyünü də nəzərdə tuturdu. Nuru Paşa Müsəlman Korpusunun vəziyyəti ilə tanışlıqdan sonra Türkiyə qoşunlarının Baş komandanlığına göndərdiyi məktubunda bildirmişdi ki, osmanlı qoşun hissələri Azərbaycana gəlməsə, burada genişlənən bolşevik təcavüzünün qarşısını almaq mümkün olmayacaq. Bu qoşun hissələrinin Azərbaycana göndərilməsi hüquqi cəhətdən məhz iyunun 4-də imzalanan həmin müqavilədə öz əksini tapdı. Müqaviləyə hərbi kömək haqqında maddənin salınması əslində o demək idi ki, Qarabağın dağlıq hissəsində azğınlıq edən erməni quldur dəstələri məhv ediləcək və xarici düşmənlərdən təmizlənmiş Bakıda əmin-amanlıq və təhlükəsizlik bərqərar olunacaq.

Beləliklə, bir hissəsi bolşevik diktaturasının əlinə keçmiş öz torpaqları üzərində siyasi hakimiyyətini təsdiq və ərazi bütövlüyünü tam bərpa etməsi işində Azərbaycan Xalq Cümhuriyyətinə kömək etməkdən ibarət tarixi missiyanı Türkiyə öz öhdəsinə götürürdü.

Müqaviləni Azərbaycan tərəfindən Milli Şuranın sədri M.Ə.Rəsulzadə və xarici işlər naziri M.H.Hacınski, Türkiyə tərəfindən isə xarici işlər naziri Xəlil bəy və Qafqaz cəbhəsinin Baş komandanı Vahib Paşa imzaladılar.

Batum konfransı son nəticə etibarilə Tiflis quberniyasının Axalkələk və Axalsıx qəzalarını, Batum və Qars vilayətlərini, İrəvan quberniyasının 1 milyon 250 min nəfərlik əhalisinin böyük əksəriyyəti yerli müsəlmanlar olan Sürməli qəzasını özünə birləşdirən Türkiyənin xeyrinə başa çatdı[35].

Batum müqaviləsinə əsasən, Türkiyə ordusunun hərbi kontingenti olan 5 və 15-ci diviziya Azərbaycan Cümhuriyyətinə köməyə göndərildi. Əvvəlcə, Türkiyə ordusunda ən yaxşı diviziyalardan sayılan 5-ci diviziya gəldi. Birinci dünya müharibəsi zamanı Dardaneli müdafiə etdiyinə görə o, "Çanaqqala diviziyası" adını almışdı. Vahib Paşa Nuru Paşaya göndərdiyi teleqramda xüsusilə qeyd etmişdi ki, ona ən yaxşı diviziyanı göndərmək lazımdır[36]. Onun ardınca gəlmiş 15-ci diviziya da çox təcrübəli və ən döyüşkən hərbi hissələrdən ibarət idi, 1914-1915-ci illərdə Süveyş cəbhəsindəki döyüşlərdə fəal iştirak etmişdi[37].

Köməyə gələn Türkiyə qoşunları Gəncə quberniyasına iyun ayında daxil oldu. Başda Nuru Paşa olmaqla Qafqaz İslam ordusunun qərargahı Gəncə şəhərində yerləşdirildi.

Azərbaycan əhalisi müttəfiq Türkiyə qoşunlarını böyük sevinclə qarşılayır və onların gəlişini bayram edirdi. Yevlax və Gəncədə Nuru Paşaya duz-çörəklə ehtiram göstərir, M.Ə.Rəsulzadənin sözlərinə görə, onu hər yerdə göydən enmiş xilaskar mələk kimi alqışlayırdılar[38].

Tiflisdəki 18 günlük fəaliyyətdən sonra Milli Şura və hökumət 1918-ci il iyunun 16-da Gəncəyə köçdü. Lakin burada fəaliyyət göstərmək o qədər də sakit və maneəsiz olmadı. Çünki Azərbaycanın hər yerindən Gəncəyə axışan burjua-mülkədar və

klerikal dairələrdən olan nümayəndələrin məhdud dünyagörüşlü mürtəce hissəsi Milli Şura və hökumətin demokratik, inqilabi əhvali ruhiyyəli şəxslərdən təşkil olunmasını istəmirdi. Azərbaycanın Türkiyəyə ilhaq edilməsinin tərəfdarı olan bu dairələr Milli Şuraya qarşı fəal kampaniya aparırdı. Gəncədə yerləşən Qafqaz islam ordusunun bölmələri komandanlığı ilə milli hökumət üzvləri arasındakı münasibətlər də çox gərgin idi. General Nuru Paşanın müstəqil dövlətin daxili işlərinə qarışaraq, F.X.Xoyskinin başçılıq etdiyi kabinetə etimadsızlıq göstərməsi siyasi böhranla nəticələndi. Milli Şuranın üzvlərindən ibarət nümayəndə heyətinin Nuru Paşa ilə görüşmək cəhdləri uğursuz oldu. Onlar yalnız Nuru Paşanın müşaviri Əhməd bəy Ağayevlə görüşə bildilər. Həmin görüşdə Ə.Ağayev Milli Şuranın buraxılmasında və Nuru Paşa tərəfindən yeni hökumət kabinetinin təşkil olunmasında israr edib, əks təqdirdə türklərin hökuməti dəstəkləməyəcəklərini bildirdi[39].

Türkiyə qoşunları komandanlığının hərəkətləri Milli Şuranın radikal cinahının üzvləri N.Yusifbəyli, M.Y.Cəfərov və D.Vəkilovun etirazlarına səbəb oldu. Bu məsələdə onları sosialistlər dəstəklədi. İttihadçılar isə türkiyəpərəst mövqe tutdu.

Milli Şuranın buraxılması ərəfəsində "Hümmət" fraksiyası etiraz əlaməti olaraq onun tərkibindən çıxdığını elan etdi. Siyasi vəziyyət daha da gərginləşdi.

1918-ci il iyunun 17-də iclasını keçirən Milli Şura Türkiyə qoşunları komandanlığının təzyiqi nəticəsində yeni hökumət təşkil etməyə və özünün bütün vəzifələrini ona verməyə məcbur oldu.

"Müsavat" partiyasının lideri M.Ə.Rəsulzadə yaranmış bu vəziyyəti qiymətləndirərək demişdi ki, "...Azərbaycanın müvəqqəti paytaxtı olan Gəncədə naqis də olsa milli hakimiyyəti təmsil edən bir qurumun bu şəkildə meydandan çəkilmək məcburiyyətində qalması, heç şübhəsiz, demokratiyanın "bir rişəti və qəvayi-mürtəcenin bir müvəffəqiyyətidir"[40].

İyun böhranı nəticəsində fəaliyyətini müvəqqəti olaraq dayandıran Milli Şura öz tarixi missiyasını Azərbaycanın dövlət müstəqilliyini çox çətin və mürəkkəb bir mərhələdə bütün çətinlikləri dəf edərək qoruyub saxlamaq vəzifəsini yerinə yetirdi.

1918-ci il iyunun 17-də keçirilmiş iclasda Milli Şuranın qalan üzvlərinin iştirakı ilə "Müsavat" fraksiyası, bitərəflər və ittihadçılardan ibarət yeni kabinetin tərkibi təsdiq edildi[41].

Kabinetin tərkibinə aşağıdakılar daxil oldu: F.X.Xoyski - Nazirlər Şurasının sədri və ədliyyə naziri; M.H.Hacınski - xarici işlər naziri; B.X.Cavanşir - daxili işlər naziri; X.Məlikaslanov - yollar naziri; Ə.Ə.Əmircanov - maliyyə naziri; X.P.Sultanov - əkinçilik naziri; N.Yusifbəyli - xalq maarifi və etiqadlar naziri; A.Aşurov -ticarət və sənaye naziri; X.Rəfibəyov - xalq səhiyyəsi və himayədarlıq naziri. Bundan əlavə, müvəqqəti olaraq Poçt və Teleqraf Nazirliyi X.Məlikaslanova, Ərzaq Nazirliyi - A.Aşurova, Dövlət Nəzarəti Nazirliyi isə M.H.Hacınskiyə tapşırıldı[42].

Hökumət iyun ayının 23-də Azərbaycanda yaranmış gərgin vəziyyəti nəzərə alaraq, bütün ölkə ərazisində hərbi vəziyyət elan etdi[4J],

Yenidən təşkil edilən hökumət kabinetində hərbi nazir vəzifəsi yox idi. Hərbi Nazirliyin ləğv edilməsinə, heç şübhəsiz ki, tarixi şərait öz təsirini göstərdi.

Müsəlman korpusu Azərbaycan hökumətinin qərarı ilə 1918-ci il iyunun 26-da Azərbaycan korpusu adlandırıldı. Həmin il avqust ayının 13-də Qafqaz İslam Ordusu komandanının əmri ilə Azərbaycan korpusu ləğv edildi və onun yenidən qurulmasına başlandı. General-leytenant Ə.Şıxlinski yenidən qurulmasına başlanan Azərbaycan korpusunun komandiri vəzifəsində saxlandı[44].

Bu mərhələdə Azərbaycan rəhbərliyinin qarşısında duran ən mühüm vəzifə əvvəlcə Bakını bolşevik-daşnak işğalından xilas etmək və sonra gənc müstəqil dövlətin ərazi bütövlüyünün bərpasına nail olub müdafiəsini təşkil etmək idi. Buna görə də Qafqaz İslam Ordusunun Komandanı Nuru Paşa öz qoşunlarına müraciətində: "Bizim məqsədimiz - Bakıdır"[45] - demiş və onun düşmən qüvvələrindən təmizlənməsini ən vacib həyati məsələ kimi məqsəd seçildiyini vurğulamışdı. Çünki Azərbaycanı Bakısız təsəvvür etmək mümkün deyildi və hər şey onun azad edilməsindən başlanmalı idi.

Bütün Cənubi Qafqazı Sovetlərin bayrağı altında birləşdirmək istəyən bolşeviklər yaxşı anlayırdılar ki, bu istiqamətdə əsas maneə müstəqil Azərbaycan dövlətinin varlığıdır. Ona görə də Bakı XKS-nin rəhbərliyi, Sovet Rusiyasının hərbi yardımına arxalanaraq, bütün mövcud qüvvələrini səfərbərliyə alıb Gəncəyə qəti hücuma keçməyi və bununla da hərbi üstünlük qazanmaq niyyətini həyata keçirməyi qərarlaşdırdı.

Azərbaycan-Türkiyə birləşmiş qoşunları ilə XKS-nin qoşunları arasında ilk döyüş iyunun 16-18-də Göyçaydan 20 verst şərqdə yerləşən Qaraməryəm kəndi yaxınlığında baş verdi. Burada Türkiyənin 10-cu alayı vuruşur, düşmənlər Qaraməryəm kəndini ələ keçirə bilsə də, qızğın döyüş əməliyyatlarını davam etdirirdi.

İyunun 19-da xüsusi qatarla cəbhəyə gələn Nuru Paşa elə həmin gün Şərq Ordular Qrupu qoşunlarının komandanına 5-ci diviziyanın sovet qoşunları hücumunu xeyli itki bahasına dayandırdığı haqqında məlumat verdi. Lakin sonrakı günlərdə Bakı XKS-nin qoşunları yenidən Göyçaya tərəf irəliləyə bilmişdi.

Cəbhədəki vəziyyətlə əlaqədar olaraq xarici işlər naziri M. H. Hacınski M.Ə.Rəsulzadəyə yazırdı: "Cəbhədə vəziyyətimiz yaxşı deyil. İrəli gedə bilmirik". Bundan sonra o, Ənvər Paşa qarşısında tez bir zamanda Türkiyədən daha bir diviziya göndərilməsi barədə təkidlə məsələ qaldırmağı xahiş edirdi[46]. Az sonra M.Ə.Rəsulzadə ona cavabında bildirdi ki, Ənvər Paşanın sərəncamı ilə Azərbaycana yeni alaylar göndərilir və Nuru Paşa artıq təsdiq edib ki, hücumu davam etdirmək üçün kifayət qədər qüvvə vardır[47].

Qafqaz İslam Ordusu komandanlığının cəbhəyə göndərdiyi yeni qüvvələr dağ-artilleriya divizionu və türk piyada alayı iyunun 19-da döyüş zonasına gəldi.

Bu çətin anda qızğın döyüşlərə atılmış yeni qüvvələr arasında Azərbaycan xalqının övladlarından təşkil olunmuş bölmələr və könüllü dəstələr də var idi. Təkcə iyunun 19-da 600 nəfərdən ibarət Azərbaycan dəstəsi[48], onlardan sonra Dəllər və Zəyəmdən olan könüllülər cəbhəyə gəldi[49].

Yeni qüvvələr aldıqdan sonra Qafqaz İslam Ordusunun komandanlığı hücum planını hazırlamağa başladı. 5-ci Türk diviziyasının komandiri Mürsəl bəy bu barədə öz

mülahizələrini Nuru Paşaya bildirərək xahiş etdi ki, birbaşa cəbhəyə yollanmaq üçün ona əlavə olaraq 5100 nəfər əsgər verilsin. Göyçay və Bərdədən olan dəstələri o, düşmən cinahlarına zərbə endirməyi, Şəkidən olan hissələri isə 5-ci diviziyanın cəbhə arxası təhlükəsizliyini təmin etmək üçün göndərməyi təklif edirdi[50]. Nuru Paşa bu planı bəyəndi. Əsas zərbənin endirilməsi ilə eyni zamanda o, Şuşaya doğru irəliləməyi qərara aldı. Bu şəhəri almaq üçün artilleriyalı piyada batalyonlarını yeritmək nəzərdə tutulurdu[51]. Ancaq bu planı yalnız Bakı şəhəri azad edildikdən sonra həyata keçirmək mümkün oldu.

Döyüşlər əsasən Qaraməryəm-Ağsu şose və Müsüslü-Kürdəmir dəmir yolları ətrafında gedirdi. Bu döyüşlərdəki uğurlar sabit deyildi. İyunun 30-da sovet qoşun hissələri əvvəlki mövqelərinə - Qaraməryəmdən şərqə geri otururdulsa da, onlardan biri iyulun 1 -də yenidən Göyçaya soxuldu, lakin orada qala bilmədi[2]. Türkiyə-Azərbaycan qoşun hissələri onu sıxışdırıb yenidən Göyçayı azad etdi. Sovet qoşun hissələri geri mövqelərinə çəkilməyə məcbur oldu.

Qafqaz İslam Ordusunun Göyçay ətrafındakı döyüşlərdə qələbəsi Azərbaycanın şərq hissəsini, o cümlədən Bakını bolşevik-daşnak işğalından azad etmək uğrunda apardığı şərəfli müharibədə dönüş nöqtəsi oldu. Bu döyüşlərdə Bakı kommunası qoşunlarına, sovet hərbi hissələrinə elə ağır zərbələr vuruldu ki, onlar bundan sonra bir daha özünə gələ bilmədi.

Strateji təşəbbüsü ələ alması Qafqaz İslam Ordusu komandanlığına qazanılmış müvəffəqiyyəti daha da artırmaq imkanı verdi. İyulun 7-dən Kürdəmir uğrunda başlanan döyüşlər üç gün davam etdi. Bu döyüşlərin birində düşmən Moskvadan gəlmiş zirehli avtomobillər dəstəsini hücuma göndərdi, lakin onlardan ikisi hələ döyüşə girməmiş Türkiyə artilleriyasının sərrast atəşinə hədəf olub sıradan çıxarıldı. Türkiyə və Azərbaycan əsgərləri iyulun 10-da Kürdəmiri azad etdi, iyulun 14-də isə Karrar stansiyasını ağır döyüşlə aldılar.

İyulda Qafqaz İslam Ordusu qüvvələrinin cəbhə xəttində mövqeyi və fəaliyyət istiqaməti belə idi: sol cinahda (Şamaxı istiqamətində) və sağ cinahda (Salyan istiqamətində) Qafqaz İslam ordusu hərbi hissələri əməliyyatlar aparır, mərkəzdə (Kürdəmir istiqamətində) isə əsasən Azərbaycan qoşunları düşmənə hücum edirdi[53].

Bu zaman Qafqaz İslam Ordusunun tərkibində Azərbaycan qoşunlarının sayı xeyli artmaqda idi. 18-45 yaşında hərbi mükəlləfiyyətli şəxslərin yeni səfərbərliyə alınması nəticəsində[54] əsgərlərin sayı 5900 nəfərə çatmışdı[55]. Onlar əsasən dəmir yolu boyunca hərəkət edən və azərbaycanlı polkovnik Həbib bəy Səlimov tərəfindən rəhbərlik olunan Cənub qrupuna daxil idi[56].

Məhəmməd Qaxinin komandiri olduğu 150 əsgərdən ibarət süvari dəstəsi də cəbhənin qızğın döyüşlər gedən sahəsində vuruşurdu[57].

Kürdəmiri, sonra isə Hacıqabulu alarkən apardığı döyüşlərdə Azərbaycan əsgərləri 6 top, 18 pulemyot, xeyli silah və döyüş sursatı anbarı ələ keçirdilər[58].

İyulun 7-dən başlayaraq Ağsu, Meysarı, Mədrəsə və Mərəzə kəndləri yaxınlığında ağır döyüşlərə girən Qafqaz İslam Ordusu hissələri iyulun 20-də

Şamaxını azad etdi.

Cəbhənin cənub istiqamətində vuruşan mayor Həmid bəyin dəstəsi iyulun 18-də Bankə balıq vətəgələrini tutdu.

1918-ci il iyul ayının sonunda Bakı cəbhəsində vəziyyət belə idi: Azərbaycanda bir növ yenidən ikihakimiyyətlilik yarandı - Xalq Komissarları Soveti, sonra isə Sentrokaspi Diktaturası Bakıda və Milli Azərbaycan hökuməti Gəncədə real hakimiyyət sahibi idi.

Milli Şuranın qanunvericilik səlahiyyətini öz üzərinə götürmüş Azərbaycan hökuməti dövlət hakimiyyətini həyata keçirməklə və dövlət strukturlarını yaratmaqla məşğul idi. Bu istiqamətdə atılan ilk addımlar yeni dövlətin xarici və daxili siyasətinə aid bir sıra qanunların qəbul edilməsindən ibarət idi.

Hökumətin 1918-ci il 24 iyun tarixli qərarına əsasən, Azərbaycan Cümhuriyyətinin Dövlət Bayrağı kimi qırmızı fonda ağ aypara və səkkizguşəli ulduzun təsvir edildiyi qırmızı parçadan hazırlanmış bayraq qəbul olundu. Sentyabrın 9-da bu bayraq səthində ağ aypara və səkkizguşəli ulduz təsvir olunan, bərabər endə mavi, qırmızı və yaşıl zolaqlar rəngində bayraqla əvəz edildi. Azərbaycan Xalq Cümhuriyyətinin Dövlət bayrağının bu üç rəngi rəmzi olaraq "türk milli mədəniyyətini, müasir Avropa demokratiyasını və islam sivilizasiyasını təmsil edirdi"[59].

Qafqaz İslam Ordusunun əks-hücumu Bakıdakı siyasi və iqtisadi böhranı daha da dərinləşdirdi. Fəhlələrin sovetdən uzaqlaşması günü-gündən artırdı. Qorxu və aclıq onların loyal mövqeyini getdikcə dəyişdirirdi. Sovetin menşevik-eser-daşnak bloku Bakıya general L.Denstervilin komandanlığı altında Böyük Britaniyanın hərbi ekspedisiya qüvvələri yeridilməsinə nail olmaq üçün təşviqat aparmağa başladı. Britaniya qoşunları ilə şəhərin müdafiəsini möhkəmləndirmək imkanı Bakıda bir müddət müzakirə edildi, lakin bu təşəbbüs bolşeviklərin getdikcə kəskinləşən müxalifətçi mövqeyi ilə qarşılaşdı. Digər varianta üstünlük verən Bakı Xalq Komissarları Soveti vaxtilə ingilislərlə birlikdə Kiçik xana qarşı vuruşmuş keçmiş çar ordusunun kazak zabiti, polkovnik Lazar Biçeraxovun xidmətlərindən istifadə etmək qərarına gəldi. Biçeraxov 1,5 min nəfərlik dəstənin başında iyulun 7-də Bakının müdafiə xəttinin sağ cinah komandanlığını öz üzərinə götürdü. Şəhərdə vəziyyətin getdikcə daha da ümidsiz olduğunu görən Biçeraxov iyulun sonunda öz dəstəsi ilə cəbhəni tərk etdi və Petrovsk istiqamətində şimala doğru irəlilədi.

Şəhərdə siyasi şərait son həddə qədər gərginləşmişdi. 1918-ci il iyulun 25-də Bakı Sovetinin iclası keçirildi və burada səsvermə ilə ingilis qoşunlarının Bakıya dəvət olunması haqqında qərar qəbul edildi. Bu qərara tabe olmaqdan imtina edən Bakı Xalq Komissarları Soveti iyulun 31-də öz səlahiyyətlərindən imtina etməli oldu. Bakıda bolşevik-daşnak hakimiyyətinin uğursuzluğu bolşevizm ideyalarının burada yad olduğunu, Azərbaycan xalqı içərisində heç bir real zəminə söykənmədiyini əyani şəkildə göstərən faktdır.

Bakıda bolşeviklərin iflasından sonra hakimiyyət sağ eser-menşevik-daşnak blokunun əlinə keçdi və həmin blok avqustun 1-də Sentrokaspi Diktaturası və Fəhlə, Əsgər

Deputatlarının Müvəqqəti İcra Komitəsinin Rəyasət Heyəti adlanan hökumət təşkil etdi. Yeni hökumət Lenin rejiminə qarşı duran demokratik Rusiyaya düşmən münasibətində olmadığını göstərmək üçün özünün loyal mövqedə durduğunu bəyan etdi. Elə həmin gün Sentrokaspi Diktaturası öz nümayəndələrini ingilis komandanlığının İrandakı qərargahına göndərdi. 1918-ci il avqustun 4-də Britaniya hərbi yardımının ilk təmsilçiləri polkovnik Stoksun Ənzəlidən yola düşmüş dəstəsi Bakıya girdi. İngilislərin yerli xırda burjua partiyaları ilə sıx bağlı olması heç bir şübhə doğurmurdu. Heç ingilislər özləri də bu əlaqələri gizlətmirdilər. Bu barədə general Denstervil yazırdı: "Mən proqramları məqsədlərimizə daha çox müvafiq olan sosialist-inqilabçılarla dəfələrlə danışıqlar aparmışam. Onlar bizdən kömək, xüsusilə maliyyə yardımı istəyirlər. Onlar bilir ki, hakimiyyəti öz əllərinə alsalar, bir çox məsələlərdə bizə arxalana bilərlər"[60].

İngilislər avqustun 9-17-də Bakıya 3 batalyon, bir səhra artilleriyası bölməsi və bir neçə zirehli maşından ibarət qüvvə çıxardılar. Bu qüvvələr gözlənildiyindən çox az, hətta bolşeviklərin Bakıda sərəncamlarında olan Qızıl Ordu hissələrindən də zəif idi. Bolşevik kommunarlarının iflası, beynəlxalq vəziyyətin mürəkkəbliyi, Sovet Rusiyasının özünün ağır vəziyyətdə olması, müxalifətin qətiyyəti eserlərə imkan verdi ki, Bakıda hakimiyyəti çox qısa müddətə ələ keçirə bilsin. Lakin onların hakimiyyətə gəlməsi demokratik qüvvələrin hakimiyyətə gəlməsi demək deyildi. Bakıda yeni rejimin yaradılmasına sağ sosialist partiyalarının hakimiyyət uğrunda çox ağır, heç də həmişə aşkar olmayan mübarizəsinin nəticəsi kimi baxmaq olar. Şübhəsiz, onlar da Azərbaycan xalqının arzu və mənafeyinə qətiyyən cavab vermir və buna görə də Azərbaycan xalqının müstəqillik uğrunda apardığı mübarizəsində hərəkətverici qüvvə ola bilməzdilər.

Sentrokaspi Diktaturası ilə ingilis qoşunları komandanlığı arasındakı münasibətlər lap əvvəldən qarşılıqlı ittiham və inamsızlıq əsasında qurulmuşdu. Bakıda hakimiyyəti ələ keçirən yeni qüvvələr ingilislərdən aldığı köməyin azlığından məyus olub narazılıq edir, ingilislər isə hər şeyi ordudakı intizamsızlığın və yerli əsgərlərin düşkünləşməsinin üzərinə atırdı. Şəhəri xilas etməyin mümkün olmadığını görən Denstervil artıq sentyabrın 1-də onu tərk etməyə hazırlaşırdı. Lakin Sentrokaspi Diktaturası sahildən aralanan hər bir gəmini atəşə tutacağı ilə hədələdi. Çarəsiz qalan ingilis generalı sonuncu hücumu gözləməkdən savayı ayrı çıxış yolu tapmadığını etiraf etməli oldu.

1918-ci il sentyabrın 6-da İstanbulda M.Ə.Rəsulzadə, X.Xasməmmədov və A.Səfikürdskidən ibarət Azərbaycan nümayəndə heyətini Ənvər Paşa Türkiyədə yenicə hakimiyyətə gəlmiş Sultan IV Məhəmmədə təqdim etdi. Nümayəndə heyəti adından danışan M.Ə.Rəsulzadə sultanı Azərbaycan tərəfin Türkiyə və Sultana ən səmimi dostluq münasibəti bəslədiyinə inandırdı və Azərbaycanın azad edilməsi işində Türkiyənin qardaşlıq köməyini xüsusi minnətdarlıqla vurğuladı. Sultanla aparılan danışıqlar nəticəsində Türkiyə hakimi ümumi düşmənlə mübarizəni qələbə ilə başa çatdırmaq üçün Azərbaycan xalqına lazımi kömək göstəriləcəyinə söz verdi"

Döyüş əməliyyatlarına bir qədər ara verildikdən sonra artıq bilavasitə Xəlil Paşanın sərəncamına keçmiş 36-cı diviziya ilə qüvvtələndirilmiş Türkiyə qoşunları avqustun 26-dan sonra xeyli fəallaşdı. Bakı şəhərinə həlledici hücum sentyabrın 15-də səhər başlandı. Həmin günün sonunda Denstervilin dəstəsini göyərtəsinə almış, gəmilər buxtanı tərk edirdi. Onların arxasınca Sentrokaspi Diktaturasının üzvləri və ermənilər də qaçırdı. Türkiyə qoşunları sentyabrın 16-na qədər şəhərə daxil olmaqdan çəkindi. Yerli müsəlman və partizanlara, Azərbaycanın digər bölgələrindən olan könüllülərə şəhərin dünənədək türk-müsəlman qanına susamış ermənilərın yaşadığı yerlərində tam hərəkət sərbəstliyi verildi[62].

Mart faciəsini yaşamış azərbaycanlılarda qisas almaq arzusu ço.x qüvvətli idi. Lakin sentyabrın 17-də Bakıya daxil olmuş Azərbaycan hökuməti kütləvi qırğın törədilməsinin qarşısını aldı. Sonradan, Azərbaycan parlamentinin açılışı zamanı hesabat çıxışında həmin məsələyə toxunan F.X.Xoyski aşağıdakıları qeyd etdi: "Düzdür. şəhər alınan zaman yalnız ürəkağrısı və təəssüf doğuran bəzi hadisələr baş verirdi. Hökumət bunu gizlətmir və kədərləndirici faktların gizlədilməsini şərəfsiz sayır. O da düzdür ki, bir çoxları ağır hisslər keçirib... Lakin hökumətin bu hadisələrin qarşısını tamamilə ala bilməsi mümkün idimi? Bizə elə gəlir ki, onlara haqq-ədalət gözü ilə baxanlar etiraf edir ki, dünyada heç bir hökumət onların qarşısını ala bilməzdi. Axı burada müsəlmanlar qətlə yetirilmiş, onların insan hüquqları tapdalanmışdı. Şəhər üç ay davam edən döyüşlərdən sonra alınmış və əhalinin qəzəbi son zirvəyə çatmışdı, əlbəttə ki, əhalinin, hökumətin yox. Burada əsgər, əfsus ki, heç nə edə bilməzdi. Həm də ki hökumət şəhərə yalnız üç gün keçəndən sonra daxil olub. Nə olubsa, ondan sonra baş verməyib. Şəhərə daxil olan hökumət qəti tədbirlər görüb və nəticədə əmin-amanlıq və təhlükəsizlik yaradılıb"[63].

Bakıya daxil olandan sonra yayılmış hökumət məlumatında bildirilirdi ki, cümhuriyyət paytaxtına daxil olmuş Azərbaycan hökuməti şəhər və onun ətrafının əhalisini milliyyəti və dinindən asılı olmayaraq, Azərbaycanda yaşayan bütün vətəndaşların həyatı, əmlakı və hüquqlarını eyni dərəcədə qoruyacaq. Qarətçi, cani və ümumiyyətlə, əmin-amanlığı, ictimai qayda -qanunları pozan şəxslər, ölüm cəzası da daxil olmaqla, müharibə dövrü qanunlarının bütün ağırlığı ilə cəzalandırılacaq[64]. F.X.Xoyskinin imzaladığı bu bəyanat uzun müddət anarxiya və hərc-mərcliyin hökm sürdüyü, daxili çəkişmələr və bolşeviklərin, onlardan sonra isə sentrokaspiçilərin avantürist siyasəti nəticəsində əldən düşmüş şəhərdə qayda-qanunun bərpa edilməsində mühüm addım oldu.

Sentyabrın 18-də türk qoşunları Bakıya daxil oldu. Şəhərin əsil sahibi olan azərbaycanlı əhali onları ruh yüksəkliyi ilə, xilaskar kimi qarşıladı. Osmanlı qoşunlarının komandanlığı bildirdi ki, onlar Bakının azad edilməsində Azərbaycan hökumətinin iradəsinə uyğun olaraq iştirak edib.

1918-ci il mayın 28-dən sonrakı dövrdə Azərbaycanın həyatında ikinci mühüm hadisə baş verdi: Bakı azad edildi və Azərbaycan hökuməti tam heyətdə əsil paytaxtda qərarlaşdı. Bu haqda Almaniyanın "Folkişer Beobaxter" özünün 1933-cü il 2 dekabr tarixli nömrəsində Azərbaycana həsr etdiyi məqaləsində bu məsələdən bəhs edərək yazır: "1918-ci il sentyabrın 15-i Azərbaycan tarixi üçün müstəsna dərəcədə əhəmiyyət kəsb

edir. Bu zaman Avropada Azərbaycan Cümhuriyyətinə kömək edilməsi və ona yaşamaq imkanı verilməsinin zəruriliyi haqqında səslər ucalırdı. Lakin bu, Azərbaycana Bakısız Azərbaycan bəxş etməkdən başqa bir şey deyildi... Bədənin başsız yaşayacağı mümkün olmadığı kimi, Azərbaycan da Bakısız təsəvvür edilməzdir. Azərbaycanın süqutu və tərəqqisi Bakının taleyi ilə bağlıdır"[65].

Bakının azad olunması ilə Azərbaycan hökuməti respublika hüdudlarında öz hakimiyyətini bərqərar etdi. Bu münasibətlə, hökumətin yerləşdiyi oğlanlar gimnaziyasının qarşısında şəhər ictimaiyyətinin əzəmətli nümayişi keçirildi. Hökumət üzvləri nümayişçilər qarşısında təbrik nitqi ilə çıxış etdilər.

Bakının ingilislərə söykənən mürtəce sentrokaspiçi qüvvələrindən qurtulması ilə əlaqədar olaraq alovlu nitq söyləyən F.X.Xoyski baş vermiş hadisələri qiymətləndirərək deyirdi: "Bizim də yaşamaq, azad yaşamaq haqqımız var. Nə zirehli maşın, hidroplan, kanonerka, tikanlı məftil, mina və digər texniki qurğular, nə ingilislər və onların əlaltıları, nə də ümumiyyətlə hər hansı bir qüvvə tarixin təbii gedişini dayandıra bildi, onların əlliminlik orduya və texnikaya malik olmasına baxmayaraq, kiçik qüvvənin həmləsinə tab gətirməyib Bakını tərk etmələri öz rifahı və səadətini başqasının fəlakəti və bədbəxtliyi üzərində qurmağa çalışanlar üçün ibrət dərsi olmalıdır"[66].

Bakıya köçdükdən sonra Azərbaycan hökuməti Bakı Xalq Komissarları Sovetinin bütün tədbirlərinin ləğv olunduğunu elan etdi və özü sosial islahatlar keçirməyə başladı.

Azərbaycan hökumətinin respublikanın bütün ərazisində hakimiyyətini bərqərar etməsi hələ onun tam müstəqil fəaliyyət göstərməsinin təmin olunması demək deyildi. Türk qoşunlarının burada olması vəziyyəti mürəkkəbləşdirirdi. Azərbaycan hökuməti ilə türk hərbi komandanlığı arasındakı münasibətlərdə də mürəkkəblik var idi.

Real hərbi qüvvəyə malik olan Nuru Paşa ölkədə baş verən bütün hadisələri öz nəzarəti altında saxlayırdı. Müxtəlif yaşayış məntəqələrində yerləşən türk qamizonlarının rəisləri bir çox hallarda Azərbaycan məmurları ilə hesablaşmır və öz bildikləri kimi hərəkət edirdilər. Gəncə qubernatoru hökumətə məruzəsində bildirirdi ki, həmin zabitlər vəzifəli şəxslərin sərəncamlarına müdaxilə edir və hətta onları özləri təyin edirdilər. Şuşa qəza rəisinin 1918-ci ilin sentyabrında Xarici İşlər Nazirliyinə göndərdiyi teleqramda Şuşanın hərbi komendantının "bütün hakimiyyəti öz əlinə alaraq heç kimi tanımaq istəməməsindən" şikayətlənirdi[67].

Hərbi hakimiyyət nümayəndələrinin bu cür hərəkətləri respublika hökumətində etiraz bildirən narazılıq doğururdu. 1918-ci il avqust ayının 23-də F.X.Xoyski M.Ə.Rəsulzadəyə yazdığı məktubunda bu məsələyə toxunaraq qeyd edirdi: "Nuru Paşanın siyasəti bizim daxili işlərimizə getdikcə daha çox qarışmağa meyil edir

Bir həftə bundan sonra F.X.Xoyski bu haqda Azərbaycan hökumətinin tələblərini ifadə edərək yazırdı: "Bütün üsul-idarə Azərbaycan hökumətinin əlində cəmləşməlidir, türk hərbi hissələri isə özünün bütün arzu və tələblərini hökumətə yönəltməli və onun vasitəsilə həyata keçirməlidir və hazırda baş verdiyi kimi, bilavasitə idarəetmə işlərinə qarışmamalıdır"[69].

Yaranmış vəziyyəti səciyyələndirən F.X.Xoyski Nuru Paşaya müraciətində də Azərbaycan qəzalarında ikihakimiyyətlilik müşahidə olunduğunu, "son zamanlar Osmanlı imperiyasının hərbi qulluqçularının Azərbaycanın daxili idarəetmə işlərinə qarışması və Azərbaycan hökumət orqanları ilə tamamilə hesablaşmaması" hallarının getdikcə artdığını[70] diqqtət mərkəzinə çəkmişdi.

Türkiyə hərbi hakimiyyət nümayəndələrinin müntəzəm olaraq Dəmir Yol İdarəsinin işlərinə qarışması və bununla da ona ziyan vurması da Azərbaycanın hökumət dairələrində etirazlara səbəb olurdu[71].

Birinci dünya müharibəsi illərində Türkiyənin iqtisadiyyatı ağır vəziyyətdə idi. Onun neft və neft məhsullarına böyük ehtiyacı olduğu üçün Türkiyə hökuməti Bakı neft mədənlərinə çox maraq göstərirdi. Bakı azad edildikdən sonra buradakı Türkiyə qoşunları komandanlığının ilk sərəncamlarından biri onun bütün mədən işçilərinin dərhal işə çıxması haqqında əmri oldu[72]. Türkiyə hökumətinin maliyyə müşaviri Həmid bəy M.Ə.Rəsulzadə ilə söhbətində mədənlərin satılması və icarəyə verilməsinə qadağa qoyan və əvvəllər baş vermiş bu cür sövdələri qüvvədən düşmüş elan edən qanun qəbul olunmasını təklif etdi[73]. O, həm də bildirdi ki, tezliklə özü Bakıya gələcək.

Azərbaycan 1918-ci il sentyabrın 16-da Azərbaycan və Türkiyə hökumətləri arasında bağlanmış müqaviləyə əsasən, Türkiyə hökuməti adından fəaliyyət göstərən Kelcas Yolları Şirkəti İdarəsinə 2 milyon türk lirəsi həcmində müxtəlif mallar, o cümlədən ərzaq malları, Osmanlı Dəmir Yolları və Hərbi Limanlar İdarəsi ilə imzalanmış xüsusi müqavilənin şərtlərinə görə isə 1 milyon türk lirəsi məbləğində neft, pambıq, yun və s. məhsullar verməli idi[74].

Türkiyə komandanlığı tərəfindən neft məhsullarının daşınması üçün Bakı-Batum ağ neft kəmərinin təmiri üçün tədbirlər görülürdü. Eyni zamanda, Batumdan keçməklə Bakıdan Türkiyə və Almaniya üçün gündə ən azı 23 neft sisternindən ibarət yük qatarları yola salınmağa başlandı[75].

Azərbaycandan neft gətirilməsi Türkiyə iqtisadiyyatının vəziyyətini bir qədər yüngülləşdirməyə kömək etdi. Türk tarixçisi Əhməd Rəfiqin qeyd etdiyi kimi, o günlər neftlə doldurulmuş gəmilər bir-birinin ardınca Batumdan İstanbula yola düşürdü[76]. Bakıdan yetərincə neft və ağ neft gətirilməsi nəticəsində İstanbulda onların qiyməti 10 dəfə azaldı[77].

Türkiyə Azərbaycandan yalnız neft deyil, həm də pambıq və ipək də alırdı. 1918-ci il sentyabr ayının sonuna qədər Batumdan təqribən 200000 pud Azərbaycan pambığı daşındı. Bundan başqa, Qars-Ərzurum karvan yolu ilə böyük miqdarda pambıq çıxarıldı[78].

Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisindəki müttəfiq Türkiyə qoşunlarının təchizatını təmin etməli idi ki, bu da xeyli maddi vəsait tələb edirdi. Hökumətin 1918-ci il 21 iyun tarixli qərarına görə, Azərbaycandakı Türkiyə Ordusunun saxlanılması üzrə bütün xərclər yerli əhalinin üzərinə qoyuldu.

1918-ci il sentyabrın 26-dan noyabrın 5-nə qədər Azərbaycan hökuməti ordu komandanlığının sərəncamına 11 milyon manat ayırdı[79].

Hökumətin gördüyü tədbirlərə baxmayaraq, Azərbaycanda siyasi vəziyyət getdikcə

kəskinləşir və bu, xeyli dərəcədə beynəlxalq şəraitin dəyişməsi ilə əlaqədar idi.

Almaniya və Türkiyənin Birinci dünya müharibəsi cəbhələrində düçar olduğu məğlubiyyətlər Azərbaycan üçün əlavə çətinliklər doğurdu. Oktyabrın 30-da Türkiyə Antanta ilə Mudrosda barışıq müqaviləsi imzaladı. Həmin müqavilənin 2-ci maddəsinə əsasən Türkiyə öz qoşunlarını Cənubi Qafqazdan çıxarmalı, 14-cü maddəsinə görə isə Antantanın hərbi qüvvələri Bakı və Batuma daxil olmalı, bu ərazinin bütün dəmir yol xətləri, o cümlədən Azərbaycan dəmir yol şəbəkəsi onların nəzarətinə verilməli idi.

Mudros müqaviləsi Azərbaycan Xalq Cümhuriyyətinin xəbəri və razılığı olmadan imzalandığı üçün onun tərəfindən müvafiq əks münasibət doğurmaya bilməzdi. 1918-ci il noyabrın 4-də Azərbaycanın fövqəladə səlahiyyətli naziri kimi Ə.M.Topçubaşov Türkiyənin xarici işlər nazirinə Azərbaycanın hüquqlarının pozulması ilə bağlı etirazını bildirdi. Onun fikrincə, müqavilə "Azərbaycanın işğalını asanlaşdırır və bu ölkəni təhlükə qarşısında qoyurdu". Ə.M.Topçubaşov qeyd edirdi ki, Azərbaycan Xalq Cümhuriyyətinə məxsus olan dəmir yolun xarici dövlətin nəzarətinə verilməsi beynəlxalq hüquq normaları ilə bir yerə sığınır. Azərbaycan və Türkiyə hökumətləri arasında bundan əvvəl imzalanmış müqavilə yalnız türk qoşunlarının daşınmasına aid idi[80].

Azərbaycan tərəfin bu etirazı mövcud beynəlxalq vəziyyət şəraitində elə bir ciddi reaksiya doğurmadı. Türkiyə Xarici İşlər Nazirliyi cavab notasında bildirirdi ki, Antanta ilə barışıq şərtlərini yerinə yetirərkən sultan hökuməti ingilis qoşunlarının Bakını tutması ilə bağlı yarana biləcək münaqişədən kənarda qalmaq istəyir[81].

Türkiyənin arxasınca, 1918-ci ilin noyabrında Almaniya da Birinci dünya müharibəsində məğlub oldu və kayzer II Vilhelm hökuməti devrildi. Antanta ilə bağlanan sülhün şərtlərinə görə, Almaniya öz qoşunlarını Gürcüstandan çıxartmalı idi.

Mudros müqaviləsinin bağlanmasına baxmayaraq, Osmanlı imperiyasının dünya müharibəsində məğlub dövlətlər sırasında olmasından ehtiyat etməyərək, Azərbaycan xalqı Türkiyə ordusunu vaxtilə böyük hərarətlə qarşıladığı kimi, dərin hörmət və ehtiramla da yola saldı. Noyabr ayının 10-da Azərbaycan hökuməti Nuru Paşa ilə vidalaşma mərasimi təşkil edib, onun şərəfinə təntənəli ziyafət verdi. 400 nəfərdən çox tanınmış ziyalı və siyasi xadim, sənayeçilərin nümayəndələri, siyasi partiya və ictimai təşkilatların liderləri, Azərbaycan ordusunun rəhbərləri ziyafətdə iştirak edirdilər. Azərbaycan hökumətinin sədri F.X.Xoyski, "Müsavat" partiyasının lideri M.Ə.Rəsulzadə və başqaları çıxış edərək, Nuru Paşaya və onun komandanlıq etdiyi qoşunların əsgər və zabitlərinə göstərdikləri qəhrəmanlıq və fədakarlığa görə Azərbaycan xalqının ehtiram və minnətdarlığını bildirən təşəkkürlərini yetirdilər[82].

## § 4. BÖYÜK BRİTANİYA QOŞUNLARININ AZƏRBAYCANA GƏLMƏSİ

Mudros müqaviləsinin şərtlərinə əsasən Azərbaycan ərazisi ingilis qoşunlarının işğal zonasına daxil edilmişdi. İngilis komandanlığının buradakı dövlətin müstəqilliyi ideyasına necə yanaşacağı aydın deyildi. Azərbaycanın müstəqil dövlət taleyi üçün ciddi narahat olan siyasi liderləri bunun naminə bütün mümkün vasitələrdən istifadə edərək bir sıra diplomatik tədbirlər həyata keçirtdilər[83].

Noyabr ayının 10-da baş nazir F.X.Xoyski və xarici işlər naziri vəzifəsini icra edən Adil xan Ziyadxan Birinci dünya müharibəsinin son mərhələsində həlledici dövlətə çevrilmiş ABŞ-ın prezidenti Vudro Vilsona teleqramla müraciət edərək, ondan Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin dünya dövlətləri tərəfindən tanınması üçün kömək göstərməsini xahiş etdilər. Teleqramda deyilirdi: "Avropanın böyük dövlətlərinə müraciət etməzdən əvvəl, Azərbaycan xalqı və hökuməti əzilən kiçik xalqların müdafiəçisi kimi Sizin humanist şəxsiyyətinizə müraciət edib yardım almağa və tanınmağa ümid bəsləyir"[84].

Ə.M.Topçubaşov hələ o zaman - oktyabr ayının 31-də Baş nazir F.X.Xoyskiyə İstanbuldan yazdığı məktubda Rəşt və Ənzəlidə olan ingilislərlə təcili surətdə danışıqlar aparılmasını məsləhət görürdü. Buna görə də 1918-ci il noyabrın əvvəllərində N.Yusifbəyli, Ə.Ağayev və M.Rəfiyevdən ibarət nümayəndə heyəti Böyük Britaniyanın Şimali İran ordusunun komandanlığı ilə görüşmək üçün Ənzəliyə yola düşdü[85].

İngilis komandanlığı danışıqların əvvəlində Azərbaycan hökuməti ilə hesablaşmadı. Buna görə də ingilis ordusunun komandanı general Tomsona Azərbaycan Respublikasının hüdudlarına daxil olmazdan əvvəl onun müstəqilliyini tanımaq təklif olunanda o, "Azərbaycan Xalq Cümhuriyyəti adı altında bizə yalnız xalq kütlələri içərisində heç bir dayağı olmayan türklərin intriqaları ilə yaradılmış hökumət məlumdur"[86]- deyə diplomatik bəhanə tapıb təklifi qəbul etməkdən qəti surətdə yayındı.

Danışıqların sonunda Tomson bəyanat verərək elan etdi ki, noyabrın 17-də səhər saat 10-dək Bakı həm Türkiyə, həm də Azərbaycan qoşunlarından təmizlənməlidir. Bəyanatda Bakı və onun neft mədənlərinin ingilislərin nəzarətinə keçməsi, ölkənin qalan hissəsinin Azərbaycan hökuməti və ordusunun nəzarətində qalması nəzərdə tutulur, eyni zamanda deyilirdi ki, Azərbaycan rəsmi surətdə tanınmır, lakin İngiltərə, Fransa və ABŞ nümayəndələri Azərbaycan hökuməti ilə de-fakto əlaqə yaradacaqlar, V.M.Tomson Bakının general-qubernatoru olacaq,

şəhər polisinə ingilis zabiti rəhbərlik edəcək, L.Biçeraxov və onun dəstələri Britaniya ordusu ilə birlikdə Bakıya daxil olacaq və nəhayət, silahlı ermənilər şəhərə buraxılmayacaqlar[87].

Azərbaycan nümayəndələri ingilis hərbi komandanlığının bu planları haqqında Bakıya Nazirlər Şurasının sədrinə teleqrafla məlumat verdilər.

Bu zaman F.X.Xoyski əsil diplomat məharəti nümayiş etdirdi, 1918-ci il noyabrın 16-da V.M.Tomsona məktubla müraciət edərək, ingilis qoşunlarının Bakıya girməsinin Azərbaycanın dövlət müstəqilliyi və ərazi bütövlüyünə xələl gətirməyəcəyinə ümidvar olduğunu bildirdi[88].

Özünü şəhərin hərbi qubernatoru elan etmiş general Tomsonun başçılığı ilə hindli əsgərlərdən ibarət İngiltərə qoşunları 1918-ci il noyabrın 17-də Bakıya daxil oldu. Polkovnik F.P.Kokkerel Bakıda müttəfiq dövlətlərin polis komissarı təyin edildi. Bakıdakı ingilis qoşunlarının canlı qüvvəsi təxminən min nəfər əsgərdən ibarət idi[89].

Rəsmi qəbul mərasimində daxili işlər naziri B.X.Cavanşir, xarici işlər nazirini əvəz edən A.X.Ziyadxan, müxtəlif milli təşkilatlardan nümayəndələr iştirak edirdilər.

Elə həmin gün Bakıya daxil olan L.Biçeraxov ordusunu şəhərin xristian əhalisi böyük rəğbətlə qarşıladı. Böyük əksəriyyətini ermənilər təşkil edən bu ordu Bakıya daxil olan kimi Azərbaycanın dövlət rəmzlərini təhqir edir, milli hökumətin tezliklə dağılacağı barədə şayiələr yayırdılar. Bakıdakı rus və erməni milli şuraları L.Biçeraxovun gəlişi ilə belə bir qərar çıxardılar ki, guya "heç bir Azərbaycan yoxdur, yalnız Rusiya vardır. Azərbaycan hakimiyyəti devrilməli və o, Biçeraxovun başçılıq etdiyi Xəzəryanı hökumətlə əvəz edilməlidir"[90].

Qoşunlar Bakıya daxil olan zaman çox xoşagəlməz bir hadisə baş vermiş, general Tomson limanda Azərbaycan Cümhuriyyəti bayrağının İngiltərə, ABŞ, Fransa, İtaliya bayraqları ilə yanaşı asıldığını görərək, onu dərhal götürmək əmrini vermişdi[91].

M.Ə.Rəsulzadə öz xatirələrində yazırdı: "17 təşrini-sanidə iki Bakı vardı. Məhzun müsəlman Bakısı ilə məmnun xristian Bakısı... İki gün sonra komandanlığın əhaliyi-islamiyyəni məyus edəcək bir bəyannaməsi nəşr olunuyordu. Bu bəyannamədə, Biçeraxov bəyannaməsində olduğu kimi, "Qalib etilaf ordusunun məmləkətə dönmədən əvvəl zəfəri-müştərəkə bunca xidmətləri dəyən fədakar rus xəlqinə ədai-dinşüküran etmək vəzifələrində olduğu və bu vəzifənin ifası üçün Rusiyadan qoparılmış Qafqaziyanın düşməndən təxliyəsi üçün Ufada təşəkkül edən rus hökuməti ilə biletilaf buraya gəlindiyi" anladılıyordu. Böylə bir bəyannamənin təsirinə, bir də ingilis ordusu ilə bərabər gəlmiş Biçeraxov qitəatı erməni məfrəzələrinin şəhərdə ehdas etməkdə olduqları hadisələr və əhaliyi-islamiyyəyə qarşı takındıqları təhqiramiz hərəkətlər dəxi təsəvvür ediliyorsa, o zaman nə kibi saətlər yaşanmaqda olduğu kəndi-kəndinə anlaşılır..."[92].

Noyabrın 17-də axşam Rus Milli Şurasının üzvləri M.Podşibyakin, Y.Smirnov, V.Baykov və A.Leontoviçin general Tomson tərəfindən qəbul edilməsi Azərbaycan

hökumətinin narahatçılığını daha da artırdı. Görüş zamanı Rus Milli Şurasının üzvləri özlərini Azərbaycanın sahibi kimi apardılar. Onlar Tomsonun yaradılacaq koalision hökumətə daxil olmaq haqqında təklifini həm öz adlarından, həm də Erməni Milli Şurasının adından rədd etdilər. Onların fikrincə, xristianların Azərbaycan hökumətinə daxil olması onun müttəfiqlər tərəfindən tanınmasını asanlaşdıra bilərdi. Bu adamlar Azərbaycanın Rusiya müstəmləkəçiliyindən azad olub öz milli müqəddəratını təyin etməsi əleyhinə idilər. Nəhayət, görüş zamanı Tomson onlara xatırlatmağa məcbur oldu ki, hazırkı vəziyyətdə Rusiya, sadəcə olaraq, mövcud deyildir.

"Bu müşkülat məvacihəsində istiqamətlərin 360 dərəcə dəyişənlər vardı. Milliyyətpərvərliklərinə şübhə edilməyən bəzi zəvati-möhtərəm belə hasil olan vəxaməti anlamaq üçün "istiqlaldan istinkaf" təklifini tədqiq etmək zəfinə düşdülər", deyə M. Ə. Rəsulzadə yazırdı[93].

Lakin Antanta qoşunlarının Bakıya daxil olması ilə bağlı Azərbaycan hökumətinin noyabr ayının 18-də verdiyi rəsmi məlumatlardan da aydın olur ki, o, heç də gələcəyə bədbinliklə baxmırdı. Məlumatda deyilirdi ki, müvəqqəti olaraq Bakıya daxil olan müttəfiq qoşunları öz əlində yalnız hərbi hakimiyyəti cəmləşdirir, əldə olunmuş razılığa əsasən, ölkənin və onun paytaxtının daxili işlərinə müdaxilə edilməməlidir, bütün hökumət idarələri əvvəlki qaydada fəaliyyət göstərməlidir, son nəticədə Rusiya xalqlarının öz müqəddəratını müəyyən etməsi məsələsi beynəlxalq sülh konfransında həll edilməlidir. Məlumatda həmçinin göstərildi ki, hazırkı çətin şərait Azərbaycanın siyasi rəhbərliyindən ölkədə mövcud qayda-qanunu saxlamağı tələb edir. Hökumət Bakıya daxil olmuş müttəfiq qoşunlarının Azərbaycan xalqının suveren hüquqlarını tapdalamayacağına ümid bəslədiyini də bildirirdi[94].

Lakin ingilis hərbi komandanlığı Bakıda yerləşdiyi vaxtdan ölkənin ictimai-siyasi və iqtisadi həyatına aşkar müdaxilə etməyə başladı. General Tomsonun əmri ilə Bakıda "milli hakimiyyət ordunu ictimai asayişin qorunması məsuliyyətindən azad edə biləcək dərəcədə güclü olana qədər"[95] hərbi vəziyyət elan edildi. Onun 1918-ci il noyabrın 19-da verdiyi əmr hərbi dövr qanunlarının pozulmasına görə cəzalar haqqında idi. Bu əmrdə müttəfiq qoşunların hərbi rütbəli səxsləri və Rusiya hökumətinə xidmət edən şəxslər (ağqvardiyaçı zabitlər nəzərdə tutulurdu) istisna olmaqla, xüsusi icazə olmadan silah gəzdirmək, iclas və tətil keçirmək qadağan edilir, ağır cinayətlərə görə ölüm nəzərdə tutulurdu[96].

İngilis komandanlığı Bakıda hərbi vəziyyət elan etməklə, əslində şəhərdə və Bakı quberniyasında inzibati hakimiyyəti ələ keçirib, bütün məhkəmə və icra orqanlarını general Tomsonun ixtiyarına verdi.

Bundan sonra onlar şəhərin iqtisadi həyatına təsirlərini gücləndirməyə başladılar. Belə ki, 1918-ci il noyabr ayının 29-dan Xəzər Donanmasının bütün ticarət gəmiləri də ingilis komandanlığının sərəncamına keçdi[97]. Ticarət donanmasını idarə etmək üçün başda mayor Braun olmaqla "İngiltərə Dəniz Nəqliyyatı" şirkəti təsis olundu. Bununla da ingilislər "vahid, bölünməz Rusiya"nın bərpası işində Denikin ordusuna kömək etmək məqsədilə bütün Xəzər dənizinə nəzarət etməyə başladılar.

Mudros sülhünün şərtlərinə görə, ingilislər Batumu da tutdular və Zaqafqaziya Dəmir Yolunu öz nəzarəti altına götürdülər. Beləliklə, Qara dənizdən Xəzər dənizinə qədər mühüm strateji əməliyyat meydanı onların əlinə keçdi.

Bununla əlaqədar olaraq Böyük Britaniyanın o zamankı hərbi dəniz naziri Uinstn Çörçill yazırdı: "Britaniya qoşunları Batuma çıxarıldı və çox sürətlə Qara dənizdən Xəzər dənizinə qədər, başqa sözlə, Bakıya qədər Qafqaz dəmir yolunu tutdu. Onlar tezliklə Xəzər dənizində üstünlüklərini təmin edən donanma yaratdılar. Britaniya qoşunları dünyanın ən böyük strateji yollarından birinə sahib oldu"[98].

Neft sənayesini də nəzarətdə saxlamağa çalışan ingilislər bu məqsədlərinə nail olmaq üçün tezliklə Britaniya Neft İdarəsini təsis etdilər. Britaniya "Bibiheybət" neft şirkətinin sədri Herbert Alen 1918-ci ilin dekabr ayında Londonda bildirdi ki, "Britaniyanın rəhbərliyi altında lazımi surətdə təşkil olunmuş və gen-bol maliyyələşdirilən Rusiya neft sənayesi Britaniya imperiyası üçün dəyərli gəlir mənbəyi ola bilər"[99].

Doqquz ay ərzində - 1918-ci ilin dekabrından 1919-cu ilin avqustuna qədər ingilislər Bakıdan 113,5 milyon manatlıq, 30 milyon puda qədər neft aparmışdılar[100]. Onların sərəncamı ilə Bakıdan daşınıb çıxarılan bütün neft məhsullarına heç bir aksiz rüsumları qoyulmur və bütün yüklər yubandırılmadan buraxılırdı. Tomson Azərbaycan Cümhuriyyəti dəmir yolu işçilərinə ingilis zabitlərinin yükünü və qatarda gedən zaman sənədlərini yoxlamağı qadağan etmişdi.

İngilislərin özbaşınalığı o yerə çatmışdı ki, hətta əllərində saxlayıb istədikləri kimi sərəncam verdikləri Bakı ticarət limanını maliyyələşdirməyi Azərbaycan hökumətinin öhdəsinə vermişdilər.

Bu dövrdə ingilislər mülki idarəetmə sahələrinə də müdaxilə edirdilər. Onlar pul əsginaslarının buraxılışını öz nəzarətlərinə almış, əhalinin ərzaqla təminatı sistemini yenidən qurmuş, neft hasilatı və dəmir yol sahələrində mövcud əmək münaqişələrini özləri həll etmək üçün Əmək İdarəsi yaratmışdılar. İngilis komandanlığının əmri ilə Azərbaycanın Hərbi Nazirliyi Gəncəyə köçürülmüşdü. Onun yerli hakimiyyət orqanlarının hətta cari işlərinə də müdaxilə etməsi müşahidə olunurdu. Bütün bunlar milli hökumətin üzləşdiyi ağır vəziyyəti daha da çətinləşdirirdi.

Lakin tezliklə hamıya aydın oldu ki, general Tomsonun həyata keçirdiyi tədbirlərdən yaranmış ümidsizlik təəssüratı müvəqqətidir və Azərbaycan xalqı müstəqillik yolunu seçməkdə yanılmamışdır. Bakıda mövqeyini möhkəmləndirib vəziyyəti nəzarətə alan general-qubernator Tomson ölkədəki ictimai-siyasi reallıqlarla yaxından tanışlıqdan bir neçə gün sonra bildirdi ki, F.X.Xoyskinin hökuməti ölkədə fəaliyyət göstərən yeganə mülki hakimiyyət olaraq qalır. İngilislər Azərbaycan Cümhuriyyətinin baş nazirini "Bakıda ən bacarıqlı adamlardan biri"[101] adlandırırdılar.

Beləliklə, general Tomsonun Azərbaycan hökumətini təqdir edən mövqeyi düşmən qüvvələrin "vahid və bölünməz Rusiya"nın bərpa olunmasına bəslədiyi ümidi puça çıxartdı, müttəfiq qoşunlarının Bakıya daxil olması ilə yaranmış dövlət müstəqilliyini təhdid edən təhlükəli vəziyyət Azərbaycan Cümhuriyyəti rəhbərlərinin səyləri nəticəsində

aradan qaldırıldı. Eyni zamanda Azərbaycanın demokrat liderləri uzaqgörən siyasət yeritmələri sayəsində müttəfiq qoşunları komandanlığı tərəfindən de-fakto real hakim qüvvə kimi tanına bildilər.

VII FƏSİL

# AZƏRBAYCANDA MİLLİ DÖVLƏTÇİLİYİN BƏRQƏRAR OLMASI

## § 1. AZƏRBAYCAN CƏMİYYƏTİNDƏ DEMOKRATİK DƏYİŞİKLİKLƏRİN BAŞLANMASI

Respublikanın mürəkkəb beynəlxalq vəziyyəti onun Avropa demokratiyası ilə sıx əlaqə yarada biləcək nümayəndəli orqanının sürətlə formalaşdırılması zərurətini doğurur və bu istiqamətdə ciddi fəaliyyət göstərilməsini diktə edirdi.

Milli Şuranın özünü buraxması, altı ay müddətində Azərbaycan Xalq Cümhuriyyəti ali qanunvericilik orqanının ümumi, gizli və birbaşa səsvermə əsasında seçilmiş Müəssislər Məclisinin çağırılması haqqında qətnamə hələ 1918-ci il iyunun 17-də qəbul olunmuşdu. Milli Şuranın həmin qətnamədə irəli sürdüyü bu vəzifələrin yerinə yetirilməsi üçün özünün müəyyən etdiyi möhlət 1918-ci il dekabrın 16-dək idi.

1918-ci il sentyabrın 14-də hökumət Müəssislər Məclisinə seçkilər üzrə F.X.Xoyskinin sədrliyi ilə komissiya yaratdı. Oktyabnn 21-də isə Müəssislər Məclisinə seçkilər haqqında qanun hazırlamaq üçün əvvəlkindən daha geniş təmsil olunmuş bir komissiya təsis olundu (M.Rəfiyevin sədrliyi ilə), amma müxtəlif səbəblərə görə bu komissiyaların işi ciddi nəticə vermədi.

Birinci dünya müharibəsi qurtardıqdan sonra beynəlxalq münasibətlərdə yeni sistem yaratmalı olacaq sülh konfransının vaxtı yaxınlaşırdı. Bu vəziyyət tələb edirdi ki, Azərbaycanın bu konfransda onu təmsil edə biləcək hansısa bir siyasi orqanı olsun. "Kaspi" qəzetinin yazdığı kimi, "sülh konfransı və ümumiyyətlə müharibə edən ölkələr tərəfindən siyasi məsələlərin həll edilməsi Azərbaycanın Müəssislər Məclisinə seçkilər keçirməsini gözləməyəcək. Biz kənarda qala bilərik, orada isə, məsələn, Bakı şəhərinin Azərbaycanın tərkibindən çıxarılması haqqında və ya bundan da pis qərar qəbul edə bilərlər"[1].

Müəssislər Məclisinə seçkilər üzrə komissiya bu nöqteyi-nəzərdən çıxış edərək müvəqqəti parlament yaratmağı təklif etdi.

Noyabrın 5-də komissiya özünün ilk iclasında Milli Şuranın qeyri-mümkün olduğunu, lakin siyasi şəraitin xalq nümayəndələrinin siyasi məsələlərin həll olunmasında iştirakını tələb etdiyini nəzərə alıb "təcili olaraq sadələşdirilmiş şəkildə müvəqqəti

Azərbaycan parlamenti çağırılması" qənaətinə gəldi[2].

Lakin əsas çətinlik bu parlamenti necə formalaşdırmaqda idi. Mürəkkəb siyasi şəraitdə ümumxalq seçkiləri keçirməyin mümkün olmaması kooptasiya və ya təyinetmə metodunun da bu dövrdə qabaqcıl ölkələrdə mövcud olan seçki prinsiplərinə uyğun gəlməməsi göstərirdi ki, təşkil edilmiş parlamenti dünya ictimaiyyəti ümumxalq mənafeyini təmsil edən qurum kimi tanımayacaq.

Ona görə də yeganə çıxış yolu üzvləri Ümumrusiya Müəssislər Məclisinə ümumxalq seçkiləri əsasında seçilmiş Milli Şuranı əvvəlki tərkibdə bərpa etmək ola bilərdi.

Bu yolu seçən respublika hökuməti 1918-ci il 9 noyabr tarixli qərarı ilə Milli Şuranın çağırılmasını noyabrın 16-na təyin etdi. Seçki qanunu hazırlamaq üçün M.Ə.Rəsulzadə, M.Rəfiyev və H.Ağayevdən ibarət xüsusi komissiya təşkil olundu.

Beş aylıq fasilədən sonra- 1918-ci il noyabrın 16-da yığışan Milli Şura hazırkı fövqəladə şəraitdə Müəssislər Məclisinin çağırılmasının qeyri-mümkünlüyü ilə əlaqədar özünü parlamentə çevirməyi qərara aldı. Qanunların hazırlanması üzərində işləyən müvafiq komissiyanın təqdim etdiyi layihə - Azərbaycan parlamentinin yaradılması haqqında qanun Milli Şura tərəfindən 1918-ci il noyabrın 20-də qəbul edildi[3].

Qanuna görə, birpalatalı parlamentə seçkilər gizli keçirilirdi. Azərbaycanın rəhbər xadimləri, ingilislərin demokratiya ilə bağlı məsələlərə həssas münasibətini nəzərə alaraq, seçkiləri milli təmsilçilik prinsipi əsasında keçirməyi məqsədəuyğun saydılar və bununla da respublikada millətlərarası sülhün tam bərqərar edilməsi üçün real şərait yaratdılar.

1918-ci il noyabrın 29-da M. Ə. Rəsulzadənin imzası ilə Milli Şuranın "Bütün Azərbaycan əhalisinə" müraciəti dərc olundu. Sənəddə “sırf Azərbaycan müsəlmanlarına məxsus olan Şurai-Millinin milli bir şəkildən çıxarılıb" "dövləti bir şəklə" salınacağı bəyan edildi. Bununla da Milli Şuranın parlamentə çevrilməsi niyyəti açıqlandı. Parlamentin Müəssislər Məclisinin yaranmasına qədər ölkə maraqlarının müdafiəsi, hökumətin formalaşdırılması və qanunvericilik funksiyasının yerinə yetirilməsi ilə bağlı səlahiyyətləri öz üzərinə götürəcəyi bildirildi. Müraciətnamədə Azərbaycan vətəndaşlarına xitabən deyilirdi ki, bizə fəlakət və səfalətdən başqa bir şey verməyən ədavət və ixtilafi bir tərəfə qoyaq. Tarix, bizdən asılı olmayaraq, hamımızı bir yerdə yaşamaq məcburiyyətində qoyub. "Bütün Azərbaycan vətəndaşları bila-fərqi millət və məzhəb, bir vətənin övladlarıdırlar. Ümumi Vətəndə müştərək həyatlarını qurmaq və bərabərlikdə kəndi səadətlərini hazırlamaq üçün onlar bir-birlərinə əl uzatmalı və yardım etməlidirlər"[4].

Gənc respublikanın taleyi həll edildiyi bir vaxtda onun rəhbərlərinin çağırışını müsbət qarşılayan əhali yüksək vətənpərvərlik nümayiş etdirərək, Azərbaycanın istiqlalı şüarı ilə keçirilən seçkilərdə fəal iştirak etdi.

Bununla belə, Azərbaycan Xalq Cümhuriyyətinin ali dövlət orqanı olan parlamentə münasibət heç də birmənalı olmadı.

Azərbaycan Milli Şurası noyabrın 25-də erməni və rus milli şuralarına öz nümayəndələrini parlamentə göndərmək təklifi ilə müraciət etdi, hər iki şuradan əvvəlcədən mənfi cavab alındı. Ermənilər siyasi və milli-mədəni talelərindən

gileylənərək, öz şuralarının bütövlükdə ermənilərin mənafeyini təmsil etmək hüququ olmadığını bildirdilər[5]. Cənubi Qafqaz respublikalarının öz müstəqilliklərini elan etmələrinə baxmayaraq, Rus Milli Şurası Ümumrusiya Müəssislər Məclisi və sülh konfransının qərarınadək bütün Zaqafqaziyanı Rusiya dövlətinin bir hissəsi saydığı üçün "Rusiyanın iradəsini bilmədən bizim nə Azərbaycan Xalq Cümhuriyyətini, nə də onun parlamentini tanımağa haqqımız var"[6] - cavabını verdi.

Lakin milli azlıqların sabotajından əzmini itirməyən Azərbaycan hökuməti bəyan etdi ki, hətta milli azlıqlardan heç biri də parlamentdə iştirak etmək istəməsə, yenə də o, parlamenti yaradacaq, çünki ölkənin taleyinə görə məsuliyyət çoxluğun üzərinə düşür. Bu çoxluq, əgər azlıqlar bundan imtina etsə belə, ölkəni təklikdə idarə etməlidir[7].

Yalnız general Tomson F.X.Xoyskinin yaratdığı və 1918-ci il dekabrın 26-da parlamentin təsdiq etdiyi hökumətə müttəfiqlər ordusu komandanlığının hərtərəfli yardım edəcəyi haqqında bəyanat verdikdən[8] sonra Erməni Milli Şurası və Slavyan-Rus Cəmiyyəti Şurası parlamentə daxil olmaq haqqında qərar qəbul etdilər. Slavyan-Rus Cəmiyyəti Azərbaycan dövlətçiliyini tanımasa da, rus əhalisinin mənafeyi naminə, Ümumrusiya Müəssislər Məclisi çağırılanadək "cəmiyyət və onun tərkibinə daxil olan təşkilatların üzvlərinin marağının müdafiəsi üzrə birgə iş xatirinə"[9] Azərbaycan Parlamentinə daxil olmağı mümkün saydı.

Azərbaycan parlamentinin müxalifətə münasibəti ondan ibarət idi ki, istiqlal bayrağı qaldırmış bu qurumun sıralarına daxil olan şəxslər artıq özlərinin bu hərəkətilə Azərbaycan dövlətçiliyinin mövcudluğu faktını tanımış olurlar. Eyni zamanda parlament Azərbaycanı Rusiyanın tərkib hissəsi kimi qəbul edən müxalifətlə hesablaşmamaq hüququnda olduğunu da bəyan etdi. Azərbaycan rəhbərliyi həmçinin rus demokratiyasına qarşı düşmənçilik mövqeyində dayanmadığını bildirib qeyd etdi ki, Rusiyaya konkret münasibətin müəyyən edilməsi yalnız Azərbaycan Müəssislər Məclisinin səlahiyyətindədir[10].

Parlamentin əsas özəyini keçmiş Milli Şuranın 44 üzvü təşkil edirdi. Daha 36 müsəlman deputat isə keçmiş milli komitələrin xətti ilə şəhər və qəzalardan seçilmişdi. Şəhər özünüidarəsi və milli komitələri olmayan qəzalarda deputatlar kənd icmaları nümayəndələrinin qurultayı tərəfindən seçilə bilərdilər[11]. Nəzərdə tutulan 120 deputatdan 80 nəfəri müsəlman əhalini, 21 nəfəri erməni, 10 nəfəri rus milli azlıqlarını, 4 nəfər də alman, yəhudi, gürcü və polyak azlıqlarını təmsil etməli idi. Həmkarlar təşkilatlarına 3 yer, Neft Sənayeçiləri Şurası və Ticarət-Sənaye İttifaqına 2 yer ayrılmışdı. Qanunda ərazi proporsiyası müəyyənləşdirilirdi:

a) Türk-müsəlman əhalisindən 80 nəfər, o cümlədən Bakı 5, Göyçay 2, Cavad qəzası 2, Quba qəzası 2, Lənkəran qəzası 2, Şamaxı qəzası 2, Gəncə qəzası 2, Ərəş qəzası 2, Cavanşir qəzası 1, Zəngəzur qəzası 2, Qazax qəzası 1, Cəbrayıl qəzası 1, Nuxa qəzası 2, Şuşa qəzası 2, Zaqatala qəzası 2, İrəvan quberniyasının türk-müsəlman hissəsi 3 və

Tiflis qubemiyasının türk-müsəlman hissəsindən-1 nəfər.

b) erməni əhalisindən 21 nəfər; Gəncə və Şuşanın hərəsindən 8 nəfər, Bakı Erməni Milli Komitəsindən 5 nəfər;

c) Bakı Rus Milli Şurasından 10 nəfər;

ç) Alman milli təşkilatından 1 nəfər;

d) Yəhudi Milli Şurasından 1 nəfər;

e) Gürcü Milli Şurasından 1 nəfər;

ə) Polyak Milli Komitəsindən 1 nəfər;

f) Bakı həmkarlar ittifaqlarından 3 nəfər;

g) Bakı Neft Sənayeçiləri Şurası və Ticarət-Sənaye İttifaqından 2 nəfər (müştərək)[12].

Əvvəlcə Milli Şura, sonra da Azərbaycan parlamenti bütün siyasi partiyaları parlamentin işində iştirak etməyə dəvət etdi. Siyasi partiyaların gələcək parlamentə münasibəti 1918-ci il dekabrın 6-14-də keçirilən və bolşeviklərdən başqa bütün partiyaların iştirak etdiyi demokratik müşavirədə aydınlaşdı. Eserlərin tələbi ilə müşavirə "vahid və bölünməz Rusiya" haqqında məsələni müzakirə etdi. Rus partiyalarının əksəriyyəti - kadetlər, menşeviklər "vahid və bölünməz Rusiya" ideyasını müdafiə edir, yeni yaranmış dövləti tanımaqdan və yerli hökumətdə iştirakdan imtina etməyə çağırırdılar. Azərbaycanın milli partiyaları - "Müsavat", "İttihad", "Hümmət" və Müsəlman Sosialist Bloku isə Rusiya ilə yenidən birləşmək ideyası əleyhinə çıxış edirdilər. "Bund"un mövqeyi Azərbaycan milli partiyalarının mövqeyinə yaxın idi, yəni o da parlament və hökumətin yalnız milli təmsilçilik prinsipi əsasında təşkil edilməsi təklifini irəli sürürdü. Bolşeviklər fəal boykot taktikasına keçmişdilər. Menşeviklərin idarə etdikləri Həmkarlar İttifaqları Şurası da parlamentə qarşı müxalifətdə idi. Şura üzvlərindən 6 nəfər bitərəf qalmaqla parlamentdə iştirak etməmək haqqında qərar çıxarmışdı[13]. Menşevikpərəst hümmətçilər parlamentin açılmasına kömək edir, amma hakimiyyəti ələ almağa hazır olmadıqları üçün bunun könüllü olmadığını bildirir, parlamentdəki fəaliyyətlərini özlərinə məxsus inqilabi təbliğat forması kimi təqdim edirdilər[14].

Parlamentdə iştirak etməyin mümkünlüyünü nəzərdən keçirən eserlər partiyasının Bakı Komitəsi Azərbaycanın öz müqəddəratını təyin etməsini yalnız vahid Federativ Rusiya tərkibində mümkün sayırdı. Bu partiyanın qənaətinə görə, Azərbaycan Cümhuriyyəti Rusiya Federasiyasının bərabərhüquqlu üzvü olmaqla zəhmətkeş xalqın normal inkişafını təmin edər, parlament isə yalnız demokratik seçkilər keçirilməsi əsasında nüfuzlu orqan ola bilərdi[15]. Demokratik seçkilərin əsası kimi onlar milli təmsilçiliyi deyil, yalnız partiya təmsilçiliyi prinsipini qəbul edirdilər.

1919-cu il yanvarın 25-də parlament eser partiyası Bakı Komitəsinin ona 5 yer ayrılması haqqında xahişini müzakirə etdi. "Əhrar" fraksiyası və "bitərəflər" bu xahişi o şərtlə qəbul etdilər ki, onlar sosialist fraksiyasına daxil olsunlar, çünki

bu yerlər milli azlıqlar üçün ayrılmışdır. Eserlər özlərini beynəlmiləlçi partiya hesab etdiklərindən heç bir milli komitəyə daxil olmamışdılar. Amma parlament partiya prinsipi ilə deyil, milli əsas üzrə yaradıldığı üçün qərara alında ki, milli azlıqlar hesabına eserlərə yer ayrılsın[16].

Eserlərin parlamentdə iştirakını müdafiə edən M.Ə.Rəsulzadə müxalif qüvvənin orada olmasının zəruriliyini bildirdi. "Bizim fəaliyyətimizin tənqid olunması və bizim mövqeyimizə qarşı etiraz parlament binasından kənarda deyil, parlament tribunasından bildirilməli və həmin tribunadan da ona cavab alınmalıdır"[17]. Bununla belə, eserlər parlamentin fəaliyyətində iştirak etmədilər. Parlamentin işə başlaması ərəfəsində Azərbaycanda siyasi qüvvələrin ümumi düzümü belə idi.

Azərbaycan parlamentinin açılışı dekabrın 3-də nəzərdə tutulmuşdu. Parlamentin açılmasının ləngiməsi ingilis komandanlığının Azərbaycan hökumətinə etdiyi təzyiqlərlə bağlı idi. Britaniya ordusu Baş qərargahının rəisi S. Stoksun mayor Rolansona göndərdiyi məktubunda ona tapşırılırdı ki, koalision hökumət müttəfiqlər komandanlığı tərəfindən tanınmayınca parlamentin açılmasına imkan verməsin[18].

1918-ci il dekabrın 7-də müsəlman Şərqi tarixində ilk dəfə olaraq parlament Azərbaycan Xalq Cümhuriyyətinin müvəqqəti ali qanunverici orqanı öz işinə başladı və hər hansı bir dövlət tərəfindən belə tanınmamış respublika öz varlığını və demokratiya prinsiplərinə bağlılığını bütün dünyaya nümayiş etdirdi. Həmin gün "Azərbaycan" qəzeti iftixarla yazmışdı: "Tarixi hadisələrin gedişilə bizlər dövlətçiliyimizin baniləri və xalqların öz müqəddəratını təyin etməsi şüarı ilə yayılan yeni siyasi hərəkatın pionerləri olduq"[19].

Parlamentin açılışı böyük təntənə ilə keçdi. Bakı şəhəri bayram içində idi, insanlar bir-birini təbrik edirdilər. Müvəqqəti olaraq Hacı Zeynalabdin Tağıyevin Nikolayev küçəsində yerləşən keçmiş qız məktəbinin binasında toplaşmış parlament xüsusi sayıqlıqla mühafizəyə alınmışdı. Gündüz saat 1-ə yaxın deputatlar öz yerlərində əyləşdilər: mərkəzdə - müsavatçılar və milli azlıqların nümayəndələri, sol cinahı sosialist bloku və hümmətçilər, sağ cinahı isə ittihadçılarla bitərəflər tutdular, lojada diplomatik dairələrin nümayəndələri yerləşdilər[20].

Parlamentdə 3 fraksiya və qrup təmsil olunmuşdu. 1919-cu ilin əvvəlində parlamentin cəmi 79 üzvü var idi. "Müsavat" fraksiyasını 11 "İttihad"ı 11, "Əhrar"ı 9, "Hümmət"i 5, "Müsəlman Sosialistlər Bloku"nu 5, "bitərəflər"i 15, "milli azlıqlar"ı 4, "Rus-Slavyan Cəmiyyəti"ni 3, "erməni fraksiyası"nı 4 deputat təmsil edirdi[21].

Parlamentin birinci iclasını Milli Şuranın və "Müsavat" fraksiyasının sədri M.Ə.Rəsulzadə açaraq, hərarətli nitqində Azərbaycan Cümhuriyyəti qarşısında duran ən mühüm məsələlər barəsində fikirlərini söyləyib, başlıca milli qayənin azadlıq və müstəqillik ideyalarını gerçəkləşdirmək və təsdiq etmək olduğunu vurğuladı.

Öz xalqının milli ideallara sədaqətini heç vaxt itirməyəcəyinə, azadlıq və

müstəqillik yolunu tutaraq dönmədən irəliləyəcəyinə sarsılmaz inam ifadə edən M.Ə.Rəsulzadə Azərbaycan xalqının bütün millətlərə, o cümlədən Rusiya xalqlarına da azadlıq və demokratiya arzuladığını bildirərək, eyni zamanda qeyd etdi ki, "Qafqaziya dağlarının şimalında təşəkkül edən müstəbid və təcavüzkar bir hökumətə biz laqeyd qala bilmərik"[22].

Cənubi Qafqaz xalqlarının birliyi, yəni onların mehriban qonşular kimi əl-ələ verərək azad və müstəqil yaşamağa qadir olmaları M.Ə.Rəsulzadənin bu tarixi nitqində toxunulan mühüm məsələlərdən biri idi və onun həlli konkret tarixi şəraitə uyğun olaraq qoyulurdu. Əsas fikir ondan ibarət idi ki, burada yaşayan millətlər öz müqəddəratlarını özləri təyin etməlidir.

Bir dövlət olaraq dünya birliyi ölkələri tərəfindən tanınması və onun tamhüquqlu bir tərəf kimi beynəlxalq aləmə çıxması gənc Azərbaycan Xalq Cümhuriyyəti üçün çox mühüm əhəmiyyət kəsb edirdi. M.Ə.Rəsulzadə milli səviyyədə fikir və əməl birliyini, fəaliyyət yekdilliyini bu mühüm məsələnin uğurlu həlli üçün əsas şərt hesab etmiş və buna görə də öz tarixi nitqini yekunlaşdıraraq demişdi: "Azərbaycan bir atəş mənbəyidir... Bu atəş sönməmək üçün əl-ələ verib müttəhidən çalışalım, əfəndilər! Mən sizi belə bir ittihada dəvət edirəm"[23].

M.Ə.Rəsulzadənin parlamentin sədrini və onun müavinini seçmək təklifindən sonra "Müsavat" fraksiyası adından çıxış edən Ş.Rüstəmbəyov sədrliyə Əli Mərdan Topçubaşovun, onun müavini vəzifəsinə isə Həsən bəy Ağayevin namizədliyini irəli sürdü. Səsvermədən sonra artıq parlament sədrinin müavini seçilən H.Ağayevin təklifi ilə ən gənc deputat, Rəhim bəy Vəkilov parlamentin katibi seçildi. Ə.M.Topçubaşov Bakıda olmadığından sədr vəzifəsinin icrası müvəqqəti olaraq H.Ağayevə həvalə olundu. Parlamentin cari işlərinin nizama salınması məqsədilə parlament sədri, onun müavini və fraksiyaların nümayəndələrindən ibarət ağsaqqallar şurası (senyorkonvent) yaradıldı.

Sonra parlament baş nazir F.X.Xoyski hökumətinin daxili və xarici siyasəti haqqında hesabat məruzəsini dinlədi.

Hökumətin hesabatında Azərbaycanın məlum səbəblər üzündən xarabazarlığı xatırladan bir ölkəyə çevrilməsi şəraitində, ilk növbədə, Türkiyənin qonşuluq köməyi və onunla bağlanmış sülh müqaviləsi sayəsində çətinlikləri qismən aradan qaldıraraq dövlət müstəqilliyinin qaydaya salınmasından danışılır, daxildə baş alıb gedən hərc-mərcliyə son qoymağın vacibliyini nəzərə alıb polis işlərinə önəm verildiyi və onun artıq ölkə ərazisinin çox hissəsinə nəzarət etdiyi, dəmir yolların, poçt və teleqrafın fəaliyyət göstərdiyi bildirilirdi. Hesabat məruzəsində həmçinin Azərbaycanın Gürcüstan və Ermənistanla şərikli pul buraxmasının məcburiyyət nəticəsində baş verdiyi və tezliklə milli pul buraxılacağı bəyan edilirdi.

Bakı şəhəri və quberniyasında yerli türk-müsəlman əhalinin S.Şaumyanın rəhbərliyi ilə bolşevik-daşnak qüvvələrinin həyata keçirdikləri soyqırımı hadisələrinin qarşısını almaq, ölkənin baş şəhərini düşmən işğalından azad etmək üçün Azərbaycan Xalq Cümhuriyyətinin Osmanlı hökumətindən hərbi yardım

almağa məcbur olduğunu bildirən baş nazir F.X.Xoyski hesabat məruzəsində həmçinin hökumət rəhbərliyinin bir müddət Osmanlı ordusu komandanlığı tərəfindən göstərilən təzyiqlər altında olduğunu etiraf edir və bunu onunla əlaqələndirirdi ki, hökumət bir tərəfdən, öz dövlət suverenliyinin pozulmamasına, digər tərəfdən isə hərbçilərin köməyinə ehtiyac duyduğu üçün onların xətrinə dəyməməyə çalışırdı.

Hökumətin hesabat məruzəsində müttəfiqlərin Azərbaycan dövləti ilə əlaqədar yürütdükləri siyasətə böyük ümid bəslənir və bildirilirdi ki, İngiltərə, Fransa, Amerika kimi böyük dövlətlər Azərbaycan xalqının öz müqəddəratını təyin edib azad yaşamaq haqqından məhrum olmasını istəməyəcək, onun öz istiqlaliyyəti yolunda gördüyü işlərə və apardığı mübarizəyə kömək göstərəcəklər.

Azərbaycan Xalq Cümhuriyyəti ilk hökumət kabinetinin qarşılaşdığı, mütləq həll etməli olduğu çox mühüm məsələlərdən biri də Cənubi Qafqazda yaranmış respublikalarla, həmçinin digər qonşu ölkələrlə dostluq əlaqə və münasibətləri qurmaq vəzifəsi idi. Gürcüstanla daim qarşılıqlı anlamda olan Azərbaycan hökuməti hər hansı bir mübahisəni onunla dinc yollarla - tərəflərin bir-birinə etimadına əsaslanan danışıqlarla həll edə bilmişdi. Şimali Qafqaz xalqları ilə münasibətlər daha asan qurulmuş, heç bir mübahisəli məsələ yaranmamış, hər iki tərəf bir-birinə mümkün yardımını əsirgəməmişdi. Bütün bunlar hökumətin hesabat məruzəsində nəzərdən keçirilir və qeyd edilirdi ki, qonşu Ermənistanla normal ikitərəfli münasibətlər qurulması milli zəmində baş vermiş qırğınlar və müharibə nəticəsində yoluna qoyulmamışdı. Bu məsələ ilə bağlı olaraq xüsusilə vurğulanırdı ki, səbəbkar axtarmaq, kimin daha çox qan tökdüyünü, zülm etdiyini tərəziyə qoymaq indinin yox, gələcəyin işidir, indilikdə isə qonşu respublika ilə sülhə və normal qonşuluq münasibətlərinə nail olunmalıdır.

Hökumətin hesabat məruzəsində ayrı-ayrı nazirliklərin fəaliyyətindən ümumiyyətlə danışılarkən məktəb və ədliyyə sisteminin qurulması və işlək hala gətirilməsi, bir çox dövlət idarələrində Azərbaycan "türk dili bilən adamlar"ın vəzifələrə təyin edilməsi ciddi irəliləyişlər kimi qeyd edilir və hökumətin həmişə "Millətin hüququ, istiqlalı, hürriyyəti!" şüarını bir prinsip kimi rəhbər tutdugu vurğulanırdı.

Baş nazir F.X.Xoyski hökumət kabinetinin fəaliyyəti haqqında hesabat məruzəsini yekunlaşdırarkən hökumətə başçılıq edən bir kabinetin parlamentdə seçilib təyin edilməsinin vacibliyini səbəb göstərərək, əvvəlki heyətdən ibarət hökumət kabinetinin istefa verdiyini elan etdi[24].

Parlamentin mandat, reqlament və təsərrüfat komissiyalarını seçməklə davam etdirdiyi birinci iş gününün əlamətdar məqamlarından biri də, "İttihad" partiyasının təklifinə uyğun olaraq, ali dövlət orqanının fəaliyyətə başlaması münasibətilə siyasi məhbuslara amnistiya elan edilməsi oldu.

Parlamentin 1918-ci il 10 dekabr tarixli ikinci iclasında fraksiyalar fəaliyyətlərinin əsas prinsip və məqsədlərini əks etdirən bəyannamələrini açıqladılar. Bütün fraksiyaların Azərbaycanın müstəqilliyini qorumaq və ölkədə demokratik quruluşu bərqərar etmək kimi

niyyətləri səslənsə də, qarşıya qoyulmuş məqsədlərə nail olmağın yolları və vasitələri müxtəlif cür başa düşülürdü.

"Müsavat"ın bəyannaməsi ilə çıxış edən M.Ə.Rəsulzadə başçılıq etdiyi siyasi qüvvənin ilk olaraq Azərbaycan istiqlalının bayrağının qaldırılmasını xatırladaraq yaşadıqları tarixi dövrü partiyanın daşıdığı ideyaların təntənəsi dövrü kimi dəyərləndirdi. O, Azərbaycanın bütün partiyalarını artıq müstəqillik ideyasının təbliğatına deyil, mövcud tarixi faktın siyasi, hüquqi və diplomatik cəhətlərdən təsbit edilməsinə yönəlmiş fəaliyyətə çağırdı. Bəyannamədə "Müsavat"ın milli demokratiya mövqeyində dayanması vurğulanırdı, yeni formalaşacaq hökumətin xarici siyasət sahəsində əsas vəzifələri kimi Azərbaycanın dünya dövlətləri tərəfindən tanınması və Qafqaz xalqlarının birliyinə nail olması göstərilirdi. "Müsavat" fraksiyasının bəyannaməsində xüsusi olaraq Azərbaycanda yaşayan bütün xalqların bərabərliyi amalı ifadə olunurdu: "Azərbaycan Cümhuriyyəti övladını ögey-doğmaya ayırmaz: erməni, rus, yəhudi, gürcü, nemes, polyak və sair azlıqda qalan millətlər Azərbaycan vətəndaşı olmaqla bərabər, milli-mədəni muxtariyyətə malik olub kəndi ümuri-məzhəbiyyə, milliyyə və mədəniyyələrini kəndiləri (özləri *-Red.)* idarə etməlidirlər". Bəyannamədə partiyanın torpaq və fəhlə məsələlərinə dair mövqeyini açıqlamağa mühüm yer ayrılmışdı.

Aqrar məsələ ilə bağlı bildirilirdi ki, bütün torpaqların kəndlilərə pulsuz verilməsi, torpağın kəndlilərin tam mülkiyyətinə çevrilməsi nəzərdə tutulur, eyni zamanda qeyd olunurdu ki, kəndlilərə yalnız yerin üstü verilməli, yerin təki isə dövlətin mülkiyyətində saxlanmalıdır. Meşələr, göllər, şoranlıq və sular ümumxalq sərvəti elan edilirdi. Fəhlə məsələsi ilə bağlı tədbirlərdə 8 saatlıq iş gününə keçilməsi, sığortanın tətbiq edilməsi, barışdırıcı komissiyaların, əmək birjasının təşkili, bütün müəssisələrdə fabrik müfəttişlərinin təyin edilməsi, gecə qulluğunun, 16 yaşına qədər uşaqları işlətməyin qadağan olunması, qadınların səhhətlərinə zərərli işlərdən azad edilməsi kimi mühüm vəzifələr nəzərdə tutulurdu.

Bəyannamədə həmçinin xalq təhsilinin inkişafı, Azərbaycan dilinin dövlət idarələrində işlədilməsi, ərzaq probleminin həlli, ordunun təşkili məsələlərinə toxunulur, yeni hökumətin təşkilinə gəldikdə isə, onun koalisiya şəklində qurulması istəyi ifadə olunurdu. Bu koalisiyanın həm millətlərarası, həm də partiyalararası zəmində formalaşmasının vacibliyi bildirilir, parlament qarşısında cavabdeh olan hökumətin bərqərar edilməsi xüsusi vurğulanırdı[25].

Sosialist fraksiyasının (Müsəlman Sosialistlər Bloku və "Hümmət"in) A.Səfikürdski, Ə.Şeyxülislamov və Ə.C.Pepinovun açıqladıqları bəyannaməsində yeni hökumətin koalision olması və demokratik prinsiplərə əsaslanması tələbi qoyulurdu. Burada Azərbaycan Cümhuriyyətinin müstəqilliyinin qorunması və demokratiyanın təsdiqi hökumətin ümdə vəzifəsi kimi müəyyənləşdirilir, Müəssislər Məclisinin tezliklə çağırılması, parlament üzvlərindən ibarət mart və sentyabr hadisələri ilə bağlı xüsusi istintaq komissiyasının təşkili israrla tələb edilirdi. Fəhlə məsələsinin həlli üçün 8 saatlıq iş gününün tətbiqi, inqilab dövründə fəhlələrlə bağlanmış müqavilələrin qüvvədə qalması, fəhlə təşkilatlarına dövlət tərəfindən maddi yardım göstərilməsi kimi tədbirlərin görülməsi

təklif edilirdi. Aqrar məsələyə gəldikdə isə, hələ Zaqafqaziya Seyminin müsəlman fraksiyalarının iştirakı ilə qəbul etdiyi qanunun həyata keçirilməsi məqsədilə torpaq komitələri yaradılması nəzərdə tutulurdu. Bəyannamədə "müdafiə edəcəyimiz məsələlərdən biri də-qadınlarımızın haqq və səlahiyyəti kişilər ilə bərabər olmaqdır" - fikri xüsusi vurğulanırdı. Xarici siyasət sahəsində qonşu dövlətlərlə, Avropa ilə ən geniş əlaqələr qurulmasının vacibliyi qeyd edilirdi.[26]

"İttihad" partiyasının Q.Qarabəyov tərəfindən təqdim edilmiş bəyannaməsində hakimiyyətin millətə məxsus olması ideyasının gerçəkləşməsi müsəlmanların azadlıq uğrunda apardığı mübarizənin son məqsədi sayılırdı. Ona görə də partiya bu ideyanın qismən də olsa həyata keçməsinə şaddır və var qüvvəsilə Azərbaycan xalqı tərəfindən hakimiyyətin tam ələ alınması üçün iş aparacağını bəyan edir. Bəyannamədə Azərbaycanda yaşayan bütün xalqların sülh şəraitində birgə yaşamalarına imkan yaradılması tələb edilirdi. Fəhlə məsələsində "İttihad" menşeviklərin proqramı ilə çıxış edərək, fəhlələrin səadətini təmin etməyə səy göstərəcəyini vəd edir, aqrar məsələdə isə torpağın pulsuz olaraq kəndlilərə paylanılması təklifini irəli sürürdü. Maliyyə sahəsinə gəldikdə o, mütərəqqi gəlir vergisinin tətbiqini tələb edərək digər vergilərin ləğvini israr edirdi. Maarif sistemində isə bu partiya ibtidai məktəblərdə ümumi və icbari təhsilin bərqərar edilməsinə, məktəblərin milliləşdirilməsinə tərəfdar çıxdığını bildirirdi[27].

Çıxış edən milli azlıqların təmsilçiləri - Slavyan-Rus Cəmiyyətindən M.İ.Vinoqradov, gürcülərin nümayəndəsi Q.İ.Texakaya, polyak S.A.Vansoviç, almanların nümayəndəsi L.Y.Kun, Yəhudi Milli Şurasından M.A.Quxman Azərbaycan parlamentini işə başlaması münasibətilə təbrik edərək, əmin olduqlarını bildirdilər ki, Azərbaycan onun ərazisində yaşayan bütün xalqların birgə səyi nəticəsində azad və demokratik dövləti qura və möhkəmləndirə biləcək. Amma rusların nümayəndəsi çıxışında "Yaşasın vahid və bölünməz Rusiya"! - şüarını səsləndirməkdən yan keçə bilmədi. Bir yəhudi nümayəndə isə arzu etdi ki, "...sona yetən 1918-ci il Azərbaycan tarixində yeni parlaq dövrü açsın və Azərbaycan türkləri bərabərhüquqlu və bərabərdəyərli üzv kimi gələcək Ümumrusiya siyasi ailəsinə, Rusiya Federativ Respublikasının tərkibinə daxil olsunlar". Bu fikrin əksinə olaraq, Azərbaycanda yaşayan polyakları təmsil edən natiq Azərbaycanın Avropa xalqlarının ailəsinə daxil olacağına inandığını söylədi[28].

"Əhrar" Partiyasının bəyannaməsi bir qədər sonra, dekabrın 26-da keçirilmiş parlament iclasında Abdulla bəy Əfəndizadə tərəfindən açıqlandı. Azərbaycan Cümhuriyyətinin qurulmasını alqışladığını bildirən "Əhrar" eyni zamanda hökuməti yarımillik fəaliyyətinin kifayət qədər qənaətbəxş olmadığına görə tənqid etdi. Onun bəyannaməsində tələb edilirdi ki, hər bir nazirliyin başında müvafiq sahənin mütəxəssisi dursun. Aqrar islahatlarla bağlı "Əhrar" iri mülkədar torpaqlarının özgəninkiləşdirilərək kəndlilər arasında bölünməsini düzgün sayırdı. Fəhlə məsələsində bu partiya 8 saatlıq iş günü, əməyin mühafizəsi tələblərinə tərəfdar çıxırdı. Xarici siyasət sahəsində qonşu respublikalarla dostluq münasibətlərinin qurulması və inkişaf etdirilməsinə üstünlük verən "Əhrar" sülh konfransında təkcə Azərbaycan xalqının yox, bütün Qafqaz xalqlarının müstəqilliyinin və onların hüquqlarının müdafiə edilməsinin vacibliyinə xüsusi diqqət

yetirirdi[29].

Parlamentin işə başlaması ilə bağlı olaraq, hökumətin həmin gün istefa verməsindən sonra dərhal yeni Nazirlər Şurasının təşkilinə başlandı.

1918-ci il dekabrın 13-də qüvvətli hökumətin yaradılması, onun həm daxili, həm də xarici siyasət sahəsində məhsuldar fəaliyyət göstərməsi parlamentdə təmsil olunmuş siyasi cərəyanların qarşısında yox, yalnız koalisiyalı, cəmiyyətdəki bütün təbəqələri demokratiya platformasında birləşdirəcək güclü mərkəzin - parlamentin formalaşması əsasında mümkün idi.

Azərbaycan parlamentində mərkəzi mövqedə ən nüfuzlu qüvvə "Müsavat" dururdu. O, koalisiya prinsipini dövlətin maraqlarına uyğun hesab edərək, öz fəaliyyətində bütün siyasi təşkilatlarla konstruktiv əməkdaşlığa meyl göstərirdi. Müsavatçılar parlamentdə demokratik bitərəflər qrupu ilə ittifaqda çıxış etməklə yanaşı, dövlət siyasətinin əsaslarını müəyyənləşdirməkdə aparıcı rol oynayan qüvvə kimi qalaraq, sosialist fraksiyasına arxalanmağı məqsədəuyğun sayırdılar.

Həmin fraksiya "Hümmət" və "Müsəlman Sosialistlər Bloku" təşkilatları çərçivəsində fəaliyyət göstərən azərbaycanlı sosial-demokratları, eserləri və menşevikləri özündə birləşdirərək parlamentin sol cinahını təşkil edirdi. Bu qüvvələrin respublikanın həyatında mühüm rol oynaması şübhə doğurmasa da, taktiki cəhətdən yetkin olmaması, hadisələrə və hakimiyyətdaxili proseslərə yanaşmada birmənalı mövqe tutmaması da nəzərə çarpırdı.

Parlamentin sağ cinahı əsasən "İttihad" fraksiyasından ibarət idi. İttihadçılar ölkədə siyasi üstünlüyə malik milli-demokratik cərəyana qarşı sərt müxalifət mövqeyində durur və 1919-cu ilin dekabrınadək hökumət kabinetlərinin formalaşmasında iştirakdan imtina edirdilər.

Beləliklə, parlamentin yaranmasından sonra onun daxilində əmələ gələn konkret siyasi durumu və qüvvələr nisbətini nəzərə alaraq, yeni hökumətin məhz koalisiya şəklində qurulmasının məqsədəuyğun olması, demək olar ki, hamı tərəfindən etiraf edilirdi[30].

Parlament sədrinin müavini H.Ağayev F.X.Xoyskiyə hökumət təşkil etmək xahişi ilə müraciət etdi. Müraciətdə deyilirdi: "Fraksiyaların arzusu, habelə Sizin siyasi təcrübəniz, Vətənə və Millətə xidmət işində göstərdiyiniz mühüm fəaliyyət və fədakarlığınız məni vadar edir ki, Sizi vacib və çətin bir işə, baş nazir vəzifəsini öz üzərinizə götürməyə və koalisyon kabinet təşkil etməyə dəvət edim"[31].

F.X.Xoyski əvvəlcə səhhətinin pozulmasına istinad edərək bu təklifdən imtina etdi. Lakin həmin təkliflə yenidən müraciət edildikdə ölkədə yaranmış vəziyyətin mürəkkəbliyini nəzərə alıb, Vətəninin onun siyasətçi bacarığına və dövlət idarəçiliyi sahəsindəki qabiliyyətinə ehtiyacı olduğunu görüb yeni hökumət təşkil etməyə və onun rəhbəri baş nazir olmağa razılıq verdi.

Ölkədə formalaşmış partiya sistemi və siyasi qüvvələrin mövcud düzümünə hər cəhətdən gözəl bələd olan F.X.Xoyski 1918-ci il dekabrın 26-da

yeni, koalisyon hökumətin tərkibini parlamentin təsdiqinə çıxartdı.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından sonra sayca artıq üçüncü Nazirlər Şurasının tərkibinə Fətəli Xan Xoyski (bitərəf) - baş nazir və xarici işlər naziri, Xəlil bəy Xasməmmədov ("Müsavat") - daxili işlər naziri, Səmədağa Mehmandarov (bitərəf) – Hərbi nazir, Nəsib bəy Yusifbəyli ("Müsavat"") - xalq maarifi və etiqadlar naziri, Xudadat bəy Məlikaslanov (bitərəf) - yollar naziri, Aslan bəy Səfikürdski (sosialist) - poçt, teleqraf və əmək naziri, Mehdi bəy Hacınski ("Müsavat") - dövlət nəzarəti naziri, R. Xoyski ("Müsavat") - təminat naziri, Xosrov bəy Sultanov (bitərəf) - əkinçilik naziri daxil oldular[32]. 1919-cu ilin yanvarında Slavyan-Rus Cəmiyyətinin üzvləri İ.Protasyev və K.Lizqar, müvafiq olaraq, maliyyə və ərzaq naziri vəzifələrini tutdular, bir qədər sonra isə doktor Y.Y.Gindes səhiyyə naziri təyin olundu[33].

Parlamentin yeni Nazirlər Şurasını təsdiq etdiyi 1918-ci il 26 dekabr tarixli iclasında baş nazir F.X.Xoyski hökumət bəyannaməsini təqdim etdi. Sənəddə Azərbaycanın müstəqilliyinin hərtərəfli şəkildə gücləndirilməsi hökumətin əsas vəzifəsi kimi qoyulur, bununla bağlı olaraq, dünyanın digər dövlətləri ilə münasibətlərin qurulması və inkişaf olunmasının əhəmiyyətinə xüsusi diqqət yetirilirdi. Sülh konfransı tərəfindən müstəqil Azərbaycana qarşı ədalətli qərarın çıxarılacağına ümid bəslənildiyi qeyd edildi. Hökumət qarşısında duran ən başlıca vəzifələrdən birinin də Azərbaycanın ərazi bütövlüyünü qoruya biləcək güclü ordu təşkil etmək olduğu bildirildi.

Hökumətin respublika elan edildikdən bəri yürütdüyü daxili siyasətində bəzi səhvlər buraxdığının etiraf edilməsi ilə yanaşı, "...millət gərək özü hökumətə müavinət etsin" - fikri söylənildi. Hökumətin qarşısında maarif sahəsində xüsusi olaraq Azərbaycan dilinin dövlət dili kimi geniş işlədilməsi, ölkədə yaşayan bütün xalqların mədəni inkişafı üçün bərabər şəraitin yaradılması kimi vəzifələrin qoyulduğu bəyan edildi. Ərzaq probleminin həlli, nəqliyyat yollarında baş verən mənfi halların aradan götürülməsi, Azərbaycan pullarının buraxılması, ədliyyə və məhkəmə sistemində ədalət prinsipinin bərqərar edilməsi istiqamətlərində bütün lazımi tədbirlərin görüləcəyi vəd edildi. Hökumət bəyannaməsində həll edilməsini gözləyən problemlər içərisində ən kəskini olan fəhlə və aqrar məsələlər barədə deyilirdi: "...hökumət millət üçün olduğu aşkardır. Milətin əksəriyyəti fəhlə və kəndlidən ibarətdir. Hökumət bilir ki, torpaq əkinçiyə verilməz isə, fəhlənin həyatı təmin edilməz isə, o hökumət yürüməz. Hökumət bunun üçün bir məsai nəzarəti düzəltməyə qərar verdi, ta ki fəhlələr də insan surətində dolana bilsinlər. Onların həyatı təmin olunsun... onlar lazımdır səkkiz saat işləsinlər, ondan artıq onları işləməyə qoymasınlar... Qaldı ki, torpaq məsələsi: hökumət bunu da sizə şadlıq ilə deyəcək ki, bu barədə parlament fraksiyaları həmrəydirlər. Hökumət buna binaən lazım bilir ki, torpaq əvəzsiz olaraq əkinçiyə verilsin"[34].

Yeni, koalisyon hökumətin təsdiq edilməsi və işə başlamasından dərhal sonra general Tomson bu hökuməti yeganə qanuni hakimiyyət kimi tanıdığı

haqqında bəyanat verdi[35].

İngilis komandanlığının siyasəti təkcə Azərbaycan Hökumətini yeganə qanuni hakimiyyət kimi tanımaqla məhdudlaşmırdı. Öz siyasi mənafelərindən çıxış edən ingilislər əslində Rusiyanın birləşdirilməsinə deyil, onun parçalanmasına çalışırdılar. Bununla da onlar bir tərəfdən, öz müstəmləkələrinin təhlükəsizliyini təmin etməyə, digər tərəfdən isə Rusiyanı zəiflətməyə və sabiq Rusiya əyalətlərinin bütün iqtisadiyyatını öz əllərinə keçirmək üçün imkan qazanmağa çalışırdılar[36].

Buna görə ingilislər Azərbaycan Cümhuriyyətinin daxili işlərinə qarışır, onları nəzarətdə saxlamağa can atırdılar. Məsələn, 1919-cu il yanvarın 23-də ingilis hərbi polisinin komissarı polkovnik Q.Kokkerel Azərbaycan daxili işlər nazirindən tələb etmişdi ki, polis işçilərinin təyin olunmasını şəxsən onunla razılaşdırsın və "polis rütbəli heyətdə və ya təyinatlardakı hər cür dəyişikliklər onun dəftərxanasından keçsin"[37]. Daxili işlər naziri Azərbaycan Cümhuriyyəti Nazirlər Şurası sədrinə aşağıdakı məzmunda məlumat vermişdi: "Müttəfiq dövlətlərin polis komissarı bütün Bakı rayonu polisinin rəhbəri təyin edilmiş və polisin bütün üzvləri ona tabe edilmişdir. Bu komissarın sərəncam və əmrləri tez-tez Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyət dairələrinin sərəncam və əmrlərini ləğv etsə də, polis məmurları tərəfindən qeyd-şərtsiz icra olunur. İşlərə müdaxilə o həddə çatıb ki, hətta polis komissarı tələb edir ki, polis heyətindəki dəyişikliklər və təyinatlar yalnız onun dəftərxanası vasitəsilə aparılsın"[38].

Özlərini Bakı şəhərinin sahibləri kimi hiss edən ingilis zabitləri yerli əhaliyə qarşı münasibətdə kobud və əxlaqsız hərəkətlərə də yol verirdilər. 1919-cu il aprelin 7-də Bakı əhalisindən Azərbaycan Cümhuriyyəti daxili işlər nazirinin adına ingilis əsgərləri tərəfindən törədilən biabırçılıqlar haqqında şikayət daxil olmuşdu. "Əsgərlər özlərini o qədər sırtıq, biabırçı və ədəbsiz aparırlar ki, qadınlar ingilis əsgəri küçədə olanda, oraya qətiyyən çıxa bilmirlər"[39]. İngilis hərbçiləri tərəfindən yerli vətəndaşların döyülməsi halları da olmuşdu. Bakı kəndləri sakinlərindən də yerli əhalini ingilis əsgərləninin qarət etməsi, onlardan zorla pul və ərzaq almaları haqqında şikayətlər daxil olurdu. İngilislər özbaşınalığı o dərəcəyə çatdırmışdılar ki, hətta Xarici İşlər Nazirliyinin ünvanına daxil olan diplomatik məktubları da açırdılar[40].

Siyasi vəziyyət həddən çox mürəkkəb idi. Sosialist partiyaları liderlərinin rəhbərlik etdikləri Bakı Fəhlə Konfransı (BFK) yeni təşkil olunmuş hökumət üçün ciddi müxalifətə çevrilmişdi. 1918-ci il dekabrın 18-də BFK öz iclasında siyasi tələblər (tutulanların azad edilməsi, mətbuat, həmkarlar ittifaqları, yığıncaq azadlıqlarının bərqərar edilməsi haqqında və s.) təqdim etməklə, tətil keçirmək barədə qərar qəbul etdi[41].

1918-ci il dekabrın 24-də BFK-nın rəhbərliyi altında tətil başlandı. Tətilin gedişində menşevik Çurayevin sədrliyi ilə BFK-nın xüsusi iclası keçirildi. Hökuməti tanımamaq mövqeyində duran sosialist partiyalarının liderləri konfransın qərarını ingilis komandanlığına göndərdilər. BFK ingilis komandanlığından tələb edirdi ki, kollektiv müqavilənin bərpası üçün sənayeçilər və fəhlə konfransı nümayəndələrindən ibarət saziş

komissiyası yaradılsın. İclasda iştirak edən M.Ə.Rəsulzadə BFK liderlərinin bu cür fəaliyyətlərinə kəskin etirazını bildirdi və xüsusilə qeyd etdi ki, bu cür ciddi məsələlərin həllində ingilis komandanlığını deyil, parlamentə arxalanan qanuni Azərbaycan hökumətini yeganə səlahiyyətli orqan sayır[42].

1918-ci ilin üçgünlük dekabr tətili Bakı fəhlələrinin qələbəsi ilə qurtardı. Tətil həm fəhlə kütlələri arasında bolşevik nüfuzunun güclənməsini, həm də ingilis komandanlığının indiyədək Bakı proletariatının qüvvəsi haqqında tam təsəvvürə malik olmamasını göstərdi. İndi ingilis komandanlığı onun mübarizə qabiliyyətini nəzərə alaraq daha ehtiyatlı olmağa və fəhlələrin tələblərinə daha diqqətlə yanaşmağa başladı. İngilis komandanlığı həbs edilənlərin buraxılmasına razılıq verdi. Yaranmış vəziyyəti nəzərə alaraq, parlament 1918-ci il dekabrın 25-də keçirilən iclasda siyasi dustaqların amnistiyası üzrə komissiya yaratmaq haqqında qərar çıxartdı. Komissiyaya A.Qardaşov, A.Əfəndiyev, Ə.Tağıyev, A.Səfikürdski, S.Ağamalıoğlu daxil oldular. Komissiya inzibati qaydada azadlıqdan məhrum edilən bütün şəxsləri təxirəsalmadan azad etməyə çağırdı[43].

Fəhlə məsələsi hökumətin daxili siyasətində ən ciddi məsələlərdən biri olduğu üçün nə parlament, nə də BFK iclaslarının gündəliyindən düşürdü. Dekabr tətilindən sonra fəhlə konfransının iclasları daimi xarakter alaraq həftədə bir dəfə çağırılır və gündəlikdə əsasən siyasi xarakterli məsələlər qoyulurdu. 1919-cu ilin yanvarında milliyyətcə rus olan və onların yaxınlıq etdiyi fəhlə kütlələrinin bolşeviklərə meyl etməsi artıq aşkar hiss olunmağa başlayırdı. Onlar konfransda daha tez-tez çıxış edir, fəhlələr arasında öz proklamasiyalarını yayırdılar. Həmin ilin mart ayında kommunistlər fəhlə konfransında çoxluq qazandılar və öz nümayəndələrini onun rəyasət heyətinə daxil etdirdilər (rəyasət heyətinin 10 üzvündən 7 nəfəri kommunist, hümmətçi və ədalətçi idi).

1919-cu il yanvarın 8-də A.K.Kazımzadə parlament iclasında "Müsavat" fraksiyasının əmək nazirinə ünvanlanmış fəhlələrin çox ağır vəziyyəti haqqında sorğusunu oxudu: kollektiv müqavilə ləğv olunmuşdu və azaldılan əmək haqqı xərclərin yarısını zorla ödəyirdi[44]. "Müsavat" fraksiyasının bu sorğusuna cavab olaraq əmək naziri A. Səfikürdski bildirdi ki, fəhlələrin vəziyyətinin ağır olması faktı doğrudur, hökumət onların vəziyyətinin yaxşılaşdırılması üçün bütün tədbirlərə əl atacaq[45].

Bununla əlaqədar olaraq A.Səfikürdskinin sədrliyi altında müttəfiqlər komandanlığı, neft sənayeçiləri, banklar və əmək haqlarının artırılması üzrə fabrik müfəttişliyi nümayəndələrinin iştirakı ilə müşavirə keçirildi. Müşavirədə qərara alındı ki, 1919-cu il yanvarın 1-dən əmək haqqına əlavə olaraq ayda subaylara 120 rubl, ailəlilərə isə 360 rubl müavinət verilsin. Neft sənayesinin vəziyyətini yaxşılaşdırmaq üçün neft sənayeçilərinə də 10 mln rubl ssuda vəd edildi[46].

Bu istiqamətdə işi davam etdirən Əmək Nazirliyi 1919-cu il yanvarın 25-də səlahiyyətlərinə fəhlələrin əməyinin mühafizəsi və məişət şəraitinin yaxşılaşdırılmasının daxil olduğu fəhlə məsələsi üzrə xüsusi müşavirənin təşkilinə başladı. Xüsusi müşavirə tərəflərin bərabər təmsil edilməsi şərti ilə, fəhlə və sahibkarlığın nümayəndələri daxil olmaqla, 10 nəfərdən ibarət idi[47]. Lakin fəhlə məsələsi xüsusi müşavirənin statusu Azərbaycan parlamentində yalnız 1919-cu il martın 10-da təsdiqləndi[48].

Respublika hökuməti fəhlələrin həyat şəraitini yaxşılaşdırmaq üçün imkanlar arayır və iqtisadi böhrandan çıxış yolları tapmağa çalışırdı.

İstehsal səviyyəsinin aşağı düşməsi ilkin tələbat mallarının qiymətinin artmasına səbəb olurdu. Bu da fəhlələri bundan sonra da yaranan vəziyyətdə qalmaq və gənc dövləti isə maliyyə böhranı ilə üzləşmək təhlükəsi qarşısında qoyurdu.

1919-cu il yanvarın sonlarında Əmək Nazirliyi sənayenin dirçəlməsi məqsədilə sahibkarlara müraciət edərək, onları istehsalat üzərində nəzarəti gücləndirməyə çağırdı. Hökumət öz növbəsində zehmətkeşlərin əmək və məişət şəraitinin, hüquqi vəziyyətinin yaxşılaşdırılacağını vəd etdi[49]. Əmək naziri A.Səfikürdski eyni zamanda qeyd etdi ki, hökumət fəhlə və sahibkarlardan mövcud böhran vəziyyətindən yeganə çıxış yolu olan əmək məhsuldarlığını yüksəltməyi tələb edəcək[50].

1919-cu il fevralın 4-də növbəti parlament iclasında əmək haqqının artırılması haqqında qanun layihəsi ilə çıxış edən işçi komissiyası[51] bu artımın zəhmətkeşlərin vəziyyətini əslində yaxşılaşdırmayacağını qeyd edən sosialistlərin tənqidinə məruz qaldı. Qanun layihəsi müsavatçılar tərəfindən müdafiə olundu. "İttihad" isə sosialistləri müdafiə etdi[52] və bununla da hökumətə etimad göstərməyənlərin öncüllərindən biri oldu.

Torpaq məsələsi əvvəlki kimi həllini gözləyən başlıca məsələlər sırasında qalırdı. Hökumət onu həll etməyə tələsmirdi. Parlamentin iclasında çıxış edən baş nazir F.X.Xoyski torpaq məsələsinin həllini Müəssislər Məclisi çağırılanadək təxirə salındığını bildirdi. Bununla bərabər, aqrar məsələ tam həll olunana qədər mülkədar torpaq sahibliyini qoruyub saxlamaq məqsədəuyğun sayıldı və hökumətə tapşırıldı ki, onun toxunulmazlığı təmin edilsin[53].

Amma kəndlilərin ağır vəziyyəti hökuməti aqrar məsələni parlamentin müzakirəsinə çıxarmağa məcbur etdi. Azərbaycan parlamenti 1919-cu il fevralın 4-də keçirilmiş iclasında ilk dəfə olaraq aqrar məsələyə baxdı və onun tapşırığı ilə hümmətçi-menşevik Səməd bəy Ağamalıoğlunun başçılıq etdiyi aqrar komissiya yaradıldı.

Dövlət hakimiyyətinin özül strukturlarının - parlament və hökumətin qurulması əsasən başa çatmışdı, lakin parlamentdə təmsil olunan partiyalar arasında mövcud olan barışmaz ziddiyyətlər hökumətə hər hansı bir zəruri məsələni həll etmək imkanı vermirdi. Buna görə respublikanın yaşadığı ağır sosial-iqtisadi və siyasi şəraitdə uzun müddət davam edən hökumət böhranı baş verdi.

Yanvarın 28-də parlamentin on birinci iclasında "İttihad" fraksiyası neft möhtəkirliyinə qarşı mübarizə, 1918-ci ildə yığılmış taxıl məhsulunun talan edilməsi və Hacı Zeynalabdin Tağıyev firmasında bez satışı ilə bağlı qanunsuzluqlar haqqında üç bənddən ibarət sorğu ilə hökumətə müraciət etdi[54]. Həmin fraksiyanın rəhbəri Q.Qarabəyov bu məsələlərin nizamlanması üçün xüsusi müşavirə çağırmağı təklif etdi. Parlamentin növbəti iclasında sosialistlər də hökumətə Tağıyevin fabrikində

fəhlələrin işdən çıxarılması, həmçinin Ermənistanla hələ indiyədək əlaqələrin yaradılmaması barədə sorğularını irəli sürdülər. Müsəlman sosialistlər hələ də seçki orqanları, zemstvolar, həqiqi demokratik şəhər özünüidarəsi olmadığını, torpaqların əvvəlki kimi varlı sinfin əlində qaldığını, ticarət və sənayenin getdikcə daha çox möhtəkirlərin toruna düşdüyünü söyləyib hökuməti tənqid edirdi.

Sorğuda gətirilən faktların mövcudluğunu hökumət üzvlərinin özləri də etiraf edir, lakin ikiaylıq iş müddətində hökumətin mövcud çatışmazlıqları aradan qaldırmaq, daxili idarə mexanizmini tənzimləmək imkanının olmadığını da göstərirdilər.

Fevralın 4-də verilən sorğularla əlaqədar hökumət üzvlərindən daxili işlər naziri X.Xasməmmədov, ərzaq naziri K.Lizqar, ticarət və sənaye nazirinin müavini T.Səfərəliyev, hətta müxalifətin tələbi ilə hökumət başçısı F.Xoyski parlament qarşısında çıxış etdilər. Onların verdiyi cavablarla hesablaşmayan Qarabəyov öz fraksiyaa adından hökumətin izahatını qeyri-qənaətbəxş saydığını bildirib ona etimadsızlıq göstərilməsi tələbini irəli sürdü. "Müsavat" fraksiyası, bitərəflər və milli azlıqlar hökuməti müdafiə etdilər. Müsavatçılar müxalifəti bütün məsuliyyəti hökumətin üzərinə yıxmaqda haqsız sayırdılar. Partiyanın iclasındakı çıxışında bu məsələyə toxunan M.Ə.Rəsulzadə göstərdi ki, bez və qorodovoylar problemləri ilə bağlı etimadsızlıq məsələsini qoymaq olmaz. Nəyin bahasına olursa - olsun hökuməti yıxmaq daha çox bizim müstəqilliyimizin düşmənlərinə sərfəlidir[56].

Müzakirələr göstərdi ki, hökumətə tam etimadsızlıq göstərilməsini təkcə "İttihad" Partiyası istəyir, sosialistlər isə F.X.Xoyski kabinetinə qarşı kəskin münasibətdə olmalarına baxmayaraq, hakimiyyətin sağların əlinə keçəcəyindən ehtiyatlanaraq, hökumətin istefasına qarşı çıxıb kabinetin tərkibində bəzi fərdi dəyişikliklər etməyə razılıq verdilər. Bu məqsədlə onlar cinayət və möhtəkirlik məsələlərini araşdıraraq geniş səlahiyyətli xüsusi parlament komissiyasını təsis etmək, vəzifə cinayətləri, habelə möhtəkirlik və ölkədəki əksinqilabi cinayətləri mühakimə edəcək ali tribunalın əsaslarını işləyib hazırlamaq üzrə xüsusi komissiya haqqında qətnamə layihələrini təklif etdilər[57]. Lakin parlament "Müsavat" fraksiyasının təklif etdiyi, hökumətin fəaliyyətini qənaətbəxş sayan qətnaməni qəbul etdi, eyni zamanda sosialistlərin tələbi ilə ölkədə ərzaq məsələsini tənzimləyəcək xüsusi komissiya yaratdı[58]. Əksinqilabi cinayətləri, möhtəkirlik və ölkədə əksinqilabla bağlı işləri mühakimə etməli ali tribunal haqqında sosialistlərin təqdim etdikləri layihə isə parlament tərəfindən rədd edildi [59].

"Müsavat" fraksiyasının hökuməti xilas etməsinə baxmayaraq, aydın oldu ki, parlamentdə qüvvələrin bu cür nisbəti hökumətin uzunmüddətli fəaliyyətinə imkan verməyəcək. Fevralın 25-də hökumətin başçısı F.X.Xoyski səhhətini əsas gətirərək öz səlahiyyətlərinin təhvil verilməsi haqqında bəyanatla çıxış etdi. M.Ə.Rəsulzadənin təklifi ilə parlament bu istefanı müzakirəsiz qəbul etdi. F. X.Xoyski yeni hökumət yaradılanadək icra hakimiyyətinə rəhbərlik etdi.

Yeni hökumətin təşkil olunması, namizədliyi "İttihad"dan başqa bütün

fraksiyalar tərəfindən müdafiə edilən "Müsavat" fraksiyasının üzvü N.Yusifbəyliyə tapşırıldı. Gələcək hökumətin nəzərdə tutulan tərkibi fraksiyalar arasında kəskin fikir ayrılığına səbəb oldu. 1918-ci ilin dekabrında hökumət yaradılan zaman F.X.Xoyskiyə nazirləri seçməkdə müstəsna hüquq verilmiş və bununla da kabinetin təşkil olunması sürətləndirilmişdi. İndi isə hökumətin tərkibi yalnız bütün parlament fraksiyalarının razılığından asılı idi. Bu isə baş nazirin təşəbbüskarlığını məhdudlaşdırır və yeni kabinetin təşkili prosesini uzadırdı.

Parlamentdə mütləq çoxluğa malik olmayan "Müsavat" müstəqilliyin müdafiəsi şərtlərini qəbul edən, yubanmadan Müəssislər Məclisini çağırmağı, demokratik özünüidarəni və ölkənin hərbi qüdrətinin möhkəmləndirilməsini istəyən dikər partiyalarla bloka girməyə razı idi[60]. Buna görə də "Müsavat", "Əhrar" və sosialistlərin koalisiyası güman edilirdi.

Müsəlman sosialistlər hesab edirdilər ki, təşkil olunacaq hökumət geniş əhali təbəqələrinin tələblərini təmin edən əsil demokratik hökumət olmalıdır. Onların fikrincə, bunun üçün mərkəzin demokratik hissəsi ilə sol qüvvələrin koalisiyası lazımdır. Bununla yanaşı, onlar hökumətin siyasətinə təsir etmək imkanına malik olmaq üçün nazırlər kabinetindəki yerlərin, daxili işlər naziri vəzifəsi də daxil olmaqla, yarıya qədərini tutmağa çalışırdılar.

"Müsavat" ümumən sosialistlərlə razılaşsa da, hesab edirdi ki, portfellərin bölüşdürülməsi müstəsna olaraq baş nazirin səlahiyyətində qalmalıdır[61]. Sonra bitərəf və milli azlıqlar qrupları da daxil edilməklə, yeni koalisiya ideyası irəli sürüldü, lakin sosialistlər bitərəfləri "parlamentdə özlərinə yuva qurmuş ən mürtəce ünsürlər"[62] kimi qiymətləndirib onların koalisiyaya daxil edilməsinin əleyhinə çıxış etdilər. Bitərəflər adından çıxış edən Yusif Əhədzadə öz qrupunun daxili işlər naziri vəzifəsinə sosialisti, kabinetə isə daşnakları buraxmamaqdan ibarət mövqeyini parlamentdə açıqladı. Onlar bütün qalan məsələlərdə baş nazirə fəaliyyət azadlığı verilməsini nəzərdə tuturdular[63]. Eyni zamanda, bitərəflər iki konkret nazir (ticarət və sənaye naziri və əkinçilik naziri) portfelini tələb edirdilər. Üç hökumət vəzifəsini, eləcə də yeni hökumətin fəaliyyətinin Rusiyanın mənafeyinə zidd olmayacağı haqqında təminat tələb edən Rus-Slavyan Cəmiyyəti də nazir portfellərinin bölgüsünə aid danışıqlardan kənarda qalmaq istəmirdi[64].

"İttihad" da kabinetə daxil olmaq ehtimalını nəzərdən keçirirdi. Buna görə o, Azərbaycanın müstəqilliyi ideyasını müdafiə edən, rus-slavyan və erməni fraksiyalarından başqa, bütün partiyaların parlament mərkəzinin yaradılmasını təklif etdi və bildirdi ki, əks təqdirdə "Müsavat" - sosialist mərkəzi adlandırılan mərkəz əgər baş tutarsa, ölkəni səhvlərdən və müxalifətdən xilas edə bilməyəcək[65].

Beləliklə, partiya fraksiyaları arasında ümumi razılıq əldə olundu. Kabinetə daxil olmaq haqqında sosialistlər ("Hümmət"siz), "Əhrar" və bitərəflər də razılıq verdilər. Lakin bu, mütləq çoxluğu təşkil etmək üçün kifayət deyildi. Ona görə də erməni və rus-slavyan fraksiyalarının hərəsinə bir yer verildi. Daxili işlər naziri vəzifəsi mübahisələrə səbəb olduğu üçün N.Yusifbəyli mövqeləri neytrallaşdırıb tərəfləri barışdırmaq məqsədilə bu vəzifəni öz üzərinə götürdü.

Nəhayət, baş nazir N.Yusifbəyli hökumətin bəyannaməsini parlament üzvləri qarşısında açıqlayaraq bir daha bildirdi ki, Azərbaycanın varlığının əsas prinsipi müstəqil suveren dövlətçilik prinsipidir. O, on ay bundan əvvəl müstəqilliyini elan etmiş Azərbaycanın böyük dövlətlər tərəfindən tanınacağına və "Azərbaycan türklərinin yaxın bir zamanda dünyanın bilcümlə mədəni millətləri ailəsinə daxil olacağına" inandığını söylədi. N.Yusifbəyli kabinetin qarşısında duran əsas məsələlər üzərində dayandı. Bunlardan biri Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi idi. Dağlılar Respublikasına münasibət xarici siyasət sahəsində çox mühüm yer tuturdu. Onu müdafiə etmək və Denikinin təcavüzünə qarşı onunla ittifaqda olmaq haqqında qəti qərar çıxarıldı.

Milli siyasət sahəsində Azərbaycanda yaşayan milli azlıqların hüququnun qorunmasına xüsusi diqqət yetirildi və bu onların etiqad azadlığına sahib olmaları, öz mədəni və milli xüsusiyyətlərini saxlaya bilmələri ilə əlaqələndirildi. Hökumət milli toqquşmalara yol verməyəcəyini öhdəsinə götürürdü.

Fəhlə məsələsində azad əməyə təminat verən qanunvericiliyi genişləndirməyə xüsusi fikir verilirdi.

Bəyannamədə ciddi məsələ olan aqrar məsələyə də toxunulurdu. Amma N.Yusifbəylinin hökuməti də, özündən əvvəlki hökumət kimi, onun həllinə girişmir, bu mühüm işi yaradılacaq Müəssislər Məclisinin səlahiyyətinə aid edirdi.

Demokratik hüquqi dövlətin əsas əlamətlərini təşkil edən söz, vicdan, mətbuat, yığıncaq, həmkarlar ittifaqları azadlıqlarına təminat verilirdi. Bu istiqamətdə hökumət demokratik əsaslarla təcili olaraq zemstvolar yaradılmasını və şəhər özünüidarəsinin yaxşılaşdırılmasını ilk addımlarından biri hesab edirdi.

Xalq təhsili sahəsində nəzərdə tutulan tədbirlər haqqında da danışıldı. Ümumi icbari təhsil haqqında qanun layihəsinin işlənməsi, ibtidai və orta məktəblərin milliləşdirilməsi və xüsusilə də milli azlıqlara rus və ana dillərində təhsil almaq hüququ üçün təminat verilməsi tələb olunurdu.

Yeni hökumət kabinetinin bəyannaməsində neft siyasətinə xüsusi diqqət verilmişdi. Azərbaycan neftinin əsas istehlakçısı olan Rusiya ilə ticarətin dayanmasının böyük çətinliklər törətdiyini və belə davam edərsə, onların daha da çoxalacağını gizlətməyən N.Yusifbəyli bildirmişdi ki, Azərbaycan Cümhuriyyəti Rusiya ilə sülh və qarşılıqlı faydalanmaya əsaslanan dostluq münasibətləri qurmağa, bir-birinin daxili işlərinə qarışmamaq şərtilə, həmişə hazırdır.

Yeni kabinet ordu quruculuğu işini daim diqqət mərkəzində saxlayacağını, əsgəri xidmətə ilk öncə varlıların, imkanlıların və ziyalıların övladlarının cəlb ediləcəyini, bu müqəddəs borcu yerinə yetirməkdən yayınanların çox ciddi cəzalandırılacağını bəyan etmişdi.

Baş nazir N.Yusifbəyli yeni təşkil olunan hökumət kabinetinin bəyannaməsinin parlamentdə təqdimatını yekunlaşdırarkən demişdi:" ...hər şeydən əvvəl istiqbalımız qüvvətə və millətin əzminə möhtacdır. Birincisi hərbiyyə nazirimizin müqtədir və təcrübəli əllərində olub, ikincisi isə sizin əlinizdədir... Təşkil etdiyim hökumət aramızda bulunan bütün

firqələri ehtiva etmir. Onun bütün təbii, müxalifətdə qalanlar dəxi sizin aranızda olacaqdır. Mən ancaq bir şeyə əminəm, o da istiqlaliyyət məsələsində olan birliyinizdir. Və bunun üçün də var qüvvəmlə və böyük inamımla çalışacağımı vəd edirəm"[66].

1919-cu il aprelin 14-də Azərbaycan parlamenti 4-cü hökumət kabinetini aşağıdakı tərkibdə təsdiq etdi: Nazirlər Şurasının sədri və daxili işlər naziri N.Yusifbəyli ("Müsavat"), maliyyə naziri Əliağa Həsənov (bitərəf), ticarət və sənaye naziri Ağa Əminov ("Müsavat"), xarici işlər naziri M.Y.Cəfərov (bitərəf), poçt və teleqraf naziri Camo Hacınski (sosialist), ədliyyə və əmək naziri - A.Səfikürdski (sosialist), hərbi nazir S.Mehmandarov (bitərəf), təminat naziri -V.V.Klenovski (Rus-Slavyan Cəmiyyəti), səhiyyə naziri A.N.Dostakov (bitərəf), maarif və dini etiqad naziri - R. Kaplanov ("Əhrar"), əkinçilik naziri A.Qardaşov ("Əhrar"), portfelsiz nazir X.Amaspür ("Daşnaksutyün"), nəzarət naziri N.Nərimanbəyov ("Müsavat")[67].

Yeni hökumətin tərkibini səciyyələndirən "Müsavat"ın lideri M.Ə.Rəsulzadə bunları qeyd etdi: "Bu gün başdan-ayağa demokratik bir proqram ilə hüzurunuza çıxan hökumətin heyətinə əgər nəzəri-diqqət etsəniz, bu heyət gənc bir heyətdir. Ehtimal ki, bu heyət içərisində bir çoxları üçün yeni isimlər vardır. Məlumdur ki, biz siyasətdə yeni təcrübəyə başlamış bir millətiz. Dünya inqilabı nəticəsində hər şeyin dəyişdiyi və yeniliyə doğru getdiyi bir zamanda cavan qüvvətlərin iş başına gəlməsini hüsnü tələqqi edə biləriz. Bizə şöhrətli bütlərdən ziyadə, əzmkar və namuskar xadimlər lazımdır. Yeni hökumətin... heyəti gənc olsa da bizə ümid verir ki, demokratik proqramla hüzurumuza çıxan hökumət bəyannaməsindəki fəsillərin qövldən felə çıxarılması işində ...əzm və səbat göstərəcəkdir..."[68]

Parlamentin öz fəaliyyətinin ilk mərhələsində mühüm qanun layihələrini qəbul etmək iqtidarında olmamasının əsas səbəblərindən biri də partiyalar arasında birgə fəaliyyət ənənəsinin yoxluğu idi ki, bu da, öz növbəsində, dövləti məsələlərin həllini və hakimiyyətin təşkilini çətinləşdirirdi. Çoxluğu təşkil etmək üçün bir neçə partiyanın razılığa gəlməsi lazım idi; bu isə praktiki cəhətdən çox çətin görünürdü. Hazırlanmış sistem üzrə yerlərdə keçirilən əlavə seçkilər nəticəsində parlament işlərinə əsasən az hazırlıqlı, özünün müəyyən siyasi proqramı olmayan deputat kontingenti seçilmişdi. Bununla belə, parlament fəaliyyətinin bu mərhələsində də icra hakimiyyətinə nəzarət edən orqan kimi, sözsüz ki, respublikanın siyasi həyatında böyük rol oynadı.

N.Yusifbəyli yeni hökumətin proqramını elan etsə də, aydın idi ki, parlamentin mövcud tərkibi ona bu proqramı yerinə yetirməyə imkan verməyəcək. Parlament öz mövcudluğunun ilk 4 ayı ərzində yalnız xırda qanun layihələrinə baxmaqla məşğul oldu, günün başlıca məsələləri isə həll olunmamış qaldı. Aqrar komissiya yalnız indi torpağın ödəncsiz müsadirə olunması məsələsinə baxmağa başlamışdı. Lakin onun müzakirəsi başa çatdırılmadı; müzakirələr parlamentdən partiya konfranslarına keçirildi.

1919-cu il mayın əvvəllərində hümmətçi menşeviklərin 3-cü konfransı oldu. Konfrans indiki parlamenti fəhlə və kəndli mənafelərinin həqiqi müdafiəçisi

saymadığını göstərdi. Hazırkı siyasi şəraitdə parlament tribunasının əhəmiyyətini vurğuladı və hümmətçi deputatlara parlamentdə müvəqqəti qalmaq səlahiyyəti verdi[69].

Əvvəlki hökumətdən fərqli olaraq, yeni hökumət iqtisadi sahədə Azərbaycanın ənənəvi iqtisadi tərəfdaşı olan, Azərbaycan neftinə kəskin ehtiyac duyan və vaxtilə onun əsas bazarı sayılan Rusiya ilə münasibətləri dirçəltməyi nəzərdə tuturdu.

Təxminən 150 mln pud miqdarında yığılıb qalmış neft məhsulları ehtiyatlarını[70] ixrac etməyin imkansızlığı respublikada neft hasilatının getdikcə azalmasına, bu isə, öz növbəsində, mədənlərdə işlərin ixtisarı və fəhlələrin işdən çıxarılmasına, dəhşətli bahalığa, kağız pulların sürətlə qiymətdən düşməsinə səbəb oldu. İqtisadi vəziyyətin ağırlaşması Bakıda tətil hərəkatının güclənməsi ilə müşayiət edilirdi.

Fabrik Müfəttişliyinin məlumatına görə, 1919-cu ilin yanvarında 790, fevralında 2765, martında isə 4710 nəfər tətil etmişdi[71]. Bütün tətillərin əksər hissəsi 1919-cu ilə təsadüf edirdi - bu vaxt 6189 fəhlə, 1918-ci ildə - 849 fəhlə, 1920-ci ildə isə 3263 fəhlə tətil etmişdi[72]. Bu tətillərin əksəriyyəti sırf iqtisadi xarakter daşıyırdı.

İqtisadi böhranın dərinləşməsi şəraitində fəhlə hərəkatının və bolşevik təbliğatının güclənməsi respublikada daxili siyasi vəziyyəti daha da gərginləşdirirdi. Hökumətin böhrana qarşı konkret proqramı olmasına baxmayaraq, bolşeviklər fəhlələrə müraciət edərək, onları Bakı Fəhlə Konfransının tərtib etdiyi kollektiv müqavilənin bağlanması, Həştərxanla mal mübadiləsinin təmin olunması kimi iqtisadi tələblərlə ümumi tətilə çıxmağa çağırdı[73].

1919-cu ilin 1 May nümayişi ümumi siyasi tətilin başlanğıcı oldu. Lakin Azərbaycan siyasi xadimlərinin 1 Mayı bayram etməyi qərara alması, onların dünya proletariatının səsinə hay vermək çağırışı ilə azərbaycanlı fəhlələrə müraciət etməsi bolşeviklər üçün gözlənilməz olub onların planlarını puça çıxartdı.

Hələ 1919-cu il aprelin 29-da "Müsavat" Partiyasının təşkil etdiyi fəhlə konfransı keçirildi. Burada çıxış edən fəhlə-natiqlər 1 May bayramının beynəlxalq xarakter daşıdığını göstərir, eyni zamanda qeyd edirdilər ki, onlar bu bayramın əhəmiyyətini yalnız müstəqilliyə nail olduqdan sonra anlayıblar. İki anlayışı beynəlmiləlçilik və milli müstəqilliyi vəhdətdə görən konfrans iştirakçıları 1 May nümayişinə yeni şüarla - "Yaşasın müstəqil Azərbaycan!" şüarı ilə çıxmağı qət etdilər[74].

1 Mayı bütün dünya fəhlələrinin bayramı kimi qiymətləndirən konfrans nümayəndələri ölkənin azad vətəndaşlarına dünya demokratiyasının səsinə səs vermək əzmini nümayiş etdirmək məqsədilə bu bayramda iştirak etmək qərarına gəldilər. Konfransdakı çıxışında "Müsavat" partiyasının fəallarından olan bir fəhlə qeyd etdi ki, müstəqil olmayan millətin yoxsul sinfi də asılı vəziyyətdə olacaqdır. Ona görə də "Yaşasın bu istiqlalı qoruyan millət və partiya!"[75]. Bu şüar da

sonradan nümayişdə səslənib alqışlandı.

Konfransın uğurla nəticələnməsi, müsavatçı liderlərin öz sıralarını səfərbər etməsi azərbaycanlı fəhlələrə mütəşəkkil qaydada nümayişə çıxmaq imkanı yaratdı. Nümayişdə bolşevik təşviqatçılarının irəli sürdükləri və əsasən rus fəhlələrini birləşdirən "Yaşasın Sovet Rusiyası!" şüarına qarşı azərbaycanlı fəhlələr öz şüarlarını qoydular. 1 May günü küçələrdə gözəl Şərq təranələrinin sədası altında irəliləyən müsəlman təşkilatlarının üçrəngli bayraqları qırmızı bayraqlarla birgə dalğalanırdı. Müsəlman natiqlərin çıxışları uzun sürən sürəkli alqışlarla müşayiət olunurdu. Bayramın şən keçməsində orkestrin müşayiəti altında bir sıra inqilabi mahnılar ifa edən Dövlət Opera Teatrı xorunun da xidmətləri az deyildi[76].

Beləliklə, Azərbaycan siyasi xadimlərinin səyi nəticəsində nümayiş beynəlxalq bayram kimi qeyd olundu.

Ancaq BFK-nın bolşevik liderləri ümumi tətil keçirilməsinə yenə cəhd göstərdilər. Mayın 4-də BFK mayın 6-dan ümumi iqtisadi tətil başlanacağını elan etdi və ona rəhbərlik üçün Mərkəzi Tətil Komitəsini seçdi[77].

Tətilin keçiriləcəyi haqqında məlumatı olan hökumət onun qarşısını almaq məqsədilə bir sıra qəti tədbirlərə əl atdı. Bununla əlaqədar olaraq, Azərbaycan parlamenti baş nazir N.Yusifbəylinin tətilin ləğvi üzrə görülmüş işlər haqqında məruzəsini dinlədi və bu sahədə hökuməti müdafiə etmək barədə qərar qəbul etdi.

1919-cu il mayın 5-də Azərbaycan hökuməti daxili işlər nazirinin məruzəsi üzrə qətnamə qəbul etdi. Burada "fəhlə konfransının elan etdiyi tətil siyasi tətil sayılır", hökumətin onunla əlaqədar fəaliyyət istiqaməti müəyyənləşdirilərək deyilirdi ki, baş nazirə fəaliyyəti Azərbaycan dövlətçiliyinin əleyhinə yönəlmiş hesab olunan şəxslərin həbs olunması və Azərbaycan ərazisindən çıxarılması da daxil olmaqla tam fəaliyyət sərbəstliyi verilsin, əmək nazirinə tapşırılsın ki, iqtisadi tələbləri sahibkarlar və fəhlələrlə birlikdə müzakirə etsin[78].

Azərbaycan hökumətinin qadağalarına baxmayaraq, BFK-nın liderləri 1919-cu il mayın 6-da tətil keçirdilər. Tətilin elan olunması anından azərbaycanlı fəhlələr onun ləğv olunmasında çox fəal iştirak etdilər. Məsələn, azərbaycanlı dəmiryolçular siyasi tətil elan etməyə qarşı ciddi etiraz etdilər, bu isə tətilçilərin sırasında qarışıqlığa səbəb oldu. Azərbaycanlı fəhlələrin sayəsində dəmiryolçuların tətildə iştirakı baş tutmadı. Tətilçiləri dəstəkləməyən çapçıların xidməti sayəsində isə qəzetlərin nəşri davam etdirildi[77]. Su kəməri və teleqraf fəhlələri də tətilə qoşulmadılar.

Tətil keçirmək məsələsində fəhlələrin aralarında birlik olmaması, BFK-nın menşevik-eser və bolşevik liderləri arasındakı ixtilaf, müsəlman sosialist partiyalarının hökumətin xəttini müdafiə etməsi, hakimiyyətin qətiyyəti və ingilis komandanlığının onu dəstəkləməsi tətili elə ilk gündən uğursuzluğa məhkum etdi, tətil hərəkatı tezliklə səngiməyə başladı. BFK-nın menşevik-eser cinahı lap başlanğıcda gözləmə mövqeyi tutmuşdu, sonra isə tətilə münasibətdə əks mövqeyə keçdi. Obyektiv gerçəkliklə barışmaq

istəməyən bolşeviklər isə tətilin dayandırılmamasına çalışırdılar. Onlara Xəzər donanması dənizçiləri daha çox etimad göstərir və tətili davam etdirirdilər.

Parlament və ingilis komandanlığı tərəfindən müdafiə olunan hökumət mayın 9-da tətilçilərin qızışdırıcılarını və təşkilatçılarını həbs etdi. Onların arasında 43 nəfər fəal iştirakçı, tətil komitəsinin əsas rəhbərləri A.Mikoyan, A.Anaşkin, A.Çurayev və Qubanov da var idi. Hökumətin siyasi xəttini müdafiə etdiyini bir daha nümayiş etdirmək istəyən müttəfiq qoşunların Qafqazdakı baş komandanı general C.Miln dəmir yolları, rabitə sistemi, körpülər və hərbi anbarların və s. işinin pozulmasında iştirak edən adamların hərbi məhkəməyə verilməsi və ölüm hökmü ilə cəzalandırılması barədə əmr verdi[80].

Yaranmış şəraitlə əlaqədar olaraq, BFK Həştərxanla mal mübadiləsinin bərpa edilməsi haqqında tələbi gündəlikdən çıxarmağı qərara aldı və həbs olunanların buraxılması, tətil müddətində işdən çıxarılanların işə bərpa olunması, tətil günləri üçün pul ödənilməsi və əmək haqqına əlavələr edilməsi haqqında tələblər irəli sürdü.

Hələ mayın 9-da hökumət əmək nazirinə göstəriş vermişdi ki. fəhlə konfransı nümayəndələri və sahibkarlarla birlikdə tətilin dayandırılması və fəhlələrin həyatının yaxşılaşdırılması barədə danışıqlar aparsın. Elə həmin gün hökumət maliyyə nazirinə də "...ağır vəziyyətləri ilə əlaqədar olaraq, may ayı üçün, istisna hal kimi, fəhlələrə ssuda verməyi və neft sənayeçilərindən borcun ödənilməsi haqqında təminat tələb etməyi[81] tapşırmışdı.

1919-cu il mayın 13-də tətil tam uğursuzluqla sona çatdı.

Bu, bolşeviklərin məğlubiyyətə uğramasını göstərsə də, onlar ölkədə sabitliyi pozmaq məqsədindən əl çəkməmişdilər. Onların BFK-nı yenidən qurmaq cəhdi uğurla nəticələndi, rəhbərlikdəki eser-menşeviklər bolşeviklərlə əvəz olundu. Həmkarlar ittifaqlarına nəzarət etmək uğrunda mübarizə başlandı. Onlar bolşevik marağı üçün təsadüfi obyekt deyildi. Ən mühüm iqtisadi problemlər, o cümlədən Sovet Rusiyasına neft göndərilməsi həll olunmadığından fəhlələr narazı idilər və etirazlarını bildirirdilər. Bolşeviklər isə həmkarlar ittifaqlarını fəhlələrə məhz siyasi təsir vasitəsi sayır və hökumetin həmkarlar ittifaqları ilə tənzimlənən əlaqəsi olmadığından faydalanırdılar. Bolşevik liderlərinin fəhlələrin həyatının yaxşılaşdırılmasını birbaşa siyasi quruluşun dəyişdirilməsi ilə bağlayan bəyanatları BFK və həmkarlar ittifaqlarında xırda burjua müxalifətinin zəifləməsinə və 1919-cu ilin yazında bolşeviklərin həmkarlar ittifaqları üzərində tam nəzarətinə səbəb oldu, həmçinin Azərbaycan, Dağıstan və Zakaspi həmkarlar ittifaqlarının 1919-cu ilin aprelində keçirilən qurultayının bolşevik platformasında dayanması ilə nəticələndi[82]. Həmin ilin yayında Bakıdakı həmkarlar ittifaqlarının, demək olar ki, hamısının idarə heyətində kommunistlər çoxluq təşkil edirdilər. Sentyabrda onlar sağ sosialistlərin son dayağı olan Bakı həmkarlar İttifaqları Şurasını ələ keçirdilər. Az sonra Azərbaycan kooperasiyasının da aqibəti belə oldu[83].

Daxili həyatın hər cür çətinliklərinə baxmayaraq, Azərbaycanın taleyi daha çox dünya səhnəsində baş verən hadisələrlə, ilk növbədə, Sovet Rusiyası ilə bağlı idi. O dövrdə Sovet Rusiyasının öz taleyi isə bu ölkədə hansı qüvvələrin qələbə çalmasından asılı idi. Bu reallığın dərk olunması azərbaycanlılar üçün belə bir sual ortaya çıxarırdı: vətəndaş

müharibəsində iki tərəfdən hansı onlar üçün daha az təhlükəlidir?

Rusiyada düşmənçilik edən iki tərəfdən azərbaycanlılar üçün daha çox təhlükə törədən Cənubi Rusiyada general Anton Denikinin komandanlıq etdiyi Könüllülər Ordusu "Ağ qvardiya" idi. "Vahid və bölünməz Rusiya" uğrunda vuruşan mühafizəkar hərbçilər müqəddəratını təyin etmiş dövlətlərin suverenliyinə çətin ki, hörmət bəsləyəydilər.

Petrovsk şəhərini tutan Denikin ordusu cənuba doğru hərəkət edirdi. Dağlılar Respublikasının parlamenti və hökuməti özünü buraxmağa məcbur oldu. Azərbaycanla Sovet Rusiyası arasında bufer dövlət rolunu oynayan Dağlılar Respublikasının süqutu artıq Azərbaycan üçün birbaşa təhlükə idi, buna görə də Denikinin irəliləməsi ciddi təşviş doğururdu. Azərbaycan Cümhuriyyətinin Xarici İşlər Nazirliyi müttəfiq qoşunların komandanlığından Könüllülər Ordusu qoşun hissələrinin Dağıstandan çıxarılması üçün hər cür qəti və təxirəsalınmaz tədbirlər görülməsini tələb etmişdi[84].

İngilislərin Denikini müdafiə etmələri siyasi gediş idi və onlar heç də Bakını tutmaq, Könüllülər Ordusuna yardım etmək fikrində deyildilər. Hələ 1919-cu ilin yanvarında Tomson Qafqaz dağları boyunca və Dağıstanın şimal hissəsindən keçən demarkasiya xəttini müəyyənləşdirmişdi. Bundan əlavə, martda ingilislər Bakının yaxınlığında yerləşmiş, Rus Xəzər Donanması adlandırılan hərbi birliyin tərksilah olunması haqqında fərman vermiş, general Prjevalski isə Azərbaycan ərazisini təcili tərk etmişdi. İngilislər Biçeraxovun dəstəsinin də tərksilah edilməsinə çalışırdılar, polkovnik özü isə təltif olunmaq bəhanəsilə İngiltərəyə dəvət edilmişdi.

Beləliklə, ingilis komandanlığı Denikinin cənub istiqamətində irəliləməsinə münasibətdə öz qətiyyətini büruzə verməyə çalışırdı. Lakin hadisələrin sonrakı gedişi bunun A.Denikinin planlarına təsir göstərmədiyini təsdiqlədi. Bütün bunlar milli hökumətin Vətənin taleyi uğrunda narahatçılığını daha da artırırdı. Aydın olurdu ki, Bakı nefti ağqvardiyaçıların növbəti məqsədidir.

Hökumət yeni diplomatik tədbirlərə əl atdı, o cümlədən general Şatelvorq və Bakıdakı İtaliya nümayəndəliyi ilə danışıqlar apardı. Könüllülər Ordusunun ingilis qərargahı yanındakı nümayəndəsi general Lazarev hökuməti əmin etdi ki, "Denikin ordusu Azərbaycana münasibətdə heç bir təcavüzə əl atmaq fikrində deyil və onun müstəqilliyini tanıyır"[85]. Lakin bu, Denikinin əsl niyyətlərini yaxşı təsəvvür edən hökuməti sakitləşdirə bilməzdi.

Denikinçilər tərəfindən Dərbəndin tutulması ingilis komandanlığının Azərbaycanla Denikin ordusu arasında qoyduğu demarkasiya xəttinin birbaşa pozulması demək idi.

1919-cu il mayın 26-da parlament öz iclasında Könüllülər Ordusu tərəfindən Petrovsk və Dərbəndin tutulması ilə bağlı "Müsavat" fraksiyasının sorğusunu, eyni zamanda respublikanın müstəqilliyinin müdafiəsi üzrə tədbirləri müzakirə etdi. Bu məsələ ilə bağlı çıxış edən fraksiya lideri M.Ə.Rəsulzadə bildirdi ki, müstəqilliyimizi qorumaq zərurəti aydındır, çünki Dağıstan Rusiyanın Azərbaycana və yeni yaranan dövlətlərə giriş qapısıdır[86]. Sorğuya cavabla çıxış edən baş nazir N.Yusifbəyli dövlət sərhədlərinin təhlükəsizliyini təmin etmək üçün hökumətin atdığı konkret addımlar haqqında danışdı.

Aydın oldu ki, Xarici İşlər Nazirliyi Könüllülər Ordusunun Dağıstanın hüdudlarından çıxarılması tələbi ilə ingilis komandanlığına nota göndərmiş, hökumətin sədri isə digər zəruri diplomatik tədbirlər görmüşdür. Parlament hökumətin həyata keçirdiyi bütün tədbirləri bəyəndi və ona yardım edəcəyini bildirdi[87].

Azərbaycanın ciddi təhlükə qarşısında dayandığı bir dövrdə parlamentin bütün fraksiyaları ölkənin müstəqilliyini qorumaq əzmində olduqlarını yekdil nümayiş etdirdilər. Denikin ordusunun Azərbaycan sərhədlərinə getdikcə yaxınlaşması onunla mübarizəni ölkənin ən başlıca ümummilli vəzifəsinə çevirdi. Denikin təhlükəsi "Bütün Qafqazda sülhün və sabitliyin qorunması missiyasını" öz üzərinə götürmüş Britaniya komandanlığı ilə aparılan diplomatik danışıqların əsas predmeti olmaqla bərabər, bütün Qafqazda təhlükəsizliyin təmin edilməsi sahəsində Cənubi Qafqaz respublikalarının birgə əməkdaşlığı üçün də real zəmin yaratdı.

1919-cu il mayın 29-da F.X.Xoyski Tiflisdə keçirilən Cənubi Qafqaz respublikalarının konfransında çıxış edərək, Könüllülər Ordusunun Şimali Qafqaz Dağlı Xalqları İttifaqı Respublikasının ərazisinin, xüsusən Dağıstanın Azərbaycan üçün bilavasitə təhlükə yaradan işğalına qarşı etiraz bildirməyi tələb etdi[88]. Azərbaycan nümayəndəliyinin təkidi ilə konfrans Könüllülər Ordusu tərəfindən Şimali Qafqazın öz müqəddəratını təyin etmiş xalqlarının ərazisinin işğal edilməsini pisləyən qətnamə qəbul etdi. Qətnamədə həmçinin bu qüvvələrin bütün Cənubi Qafqaz respublikalarının müstəqilliyinə bilavasitə təhlükə törətdiyi qeyd olunurdu.

Paris sülh konfransının və neytral dövlətlərin diqqətini general Denikinin işğalçı niyyətlərinə və onun öz müqəddəratını təyin etmiş Qafqaz xalqlarının hüquqlarını pozmasına yönəldən Cənubi Qafqaz konfransı "ümumi təhlükəyə qarşı öz azadlığını və müstəqilliyini qorumaq naminə bütün Zaqafqaziya respublikalarının hərbi-diplomatik səylərini birləşdirməyi" qət etdi[89].

Mübarizəsini diplomatik səviyyədə davam etdirən Azərbaycan hökuməti Denikinə böyük kömək göstərdiyi üçün ona ciddi təsiri olan ingilis komandanlığına dəfələrlə müraciət edərək, Könüllülər Ordusunun hərəkətlərinə qarşı öz etirazını bildirdi. Yeni demarkasiya xəttinin müəyyənləşdirilməsinə və Könüllülər Ordusunun göstərilən xətdən geri çəkilməsi haqqında ingilis komandanlığının qəti tələbinə baxmayaraq, general A.Denikinin dəstələri Dərbənd şəhərində və bütün Dağıstanda qalmaqda davam edirdi.

1919-cu il iyunun 3-də Yekaterinodarda Azərbaycanın Kubandakı diplomatik nümayəndəsi C. Rüstəmbəyovla ingilis hərbi nümayəndəliyinin başçısı general Briqsin iştirakı ilə keçirilən görüşdə general A.Denikin Azərbaycan diplomatını əmin etməyə çalışdı ki, onun tərəfindən Dərbəndin və Petrovskun tutulması Həştərxan kommunistlərinə qarşı mübarizədən doğan strateji niyyətlərlə izah edilməlidir[90]. Amma baş vermiş sonrakı hadisələr denikinçilərin vədlərinin yalan olduğunu, ingilis komandanlığının isə Könüllülər Ordusuna loyal münasibət bəslədiyini inandırıcı surətdə sübut etdi. İkili standart siyasəti yürüdən ingilis komandanlığı bir tərəfdən, Azərbaycanın müstəqilliyinin tərəfdarı olduğunu bildirir, digər tərəfdən isə Könüllülər Ordusunu özünün müəyyənləşdirdiyi "Zaqatala-Qızılburun" demarkasiya xəttində dayandırmaq üçün heç bir ciddi cəhd

göstərmirdi. General Denikinin Bakıdakı müttəfiq qoşunlarının komandanı general Şatelvorqa göndərdiyi teleqramda birbaşa göstərilirdi ki, onun qoşunları demarkasiya xəttini ingilis komandanlığının razılığı ilə keçiblər. O, öz ordusunun Dağıstanda olmasını bu bölgədə dinc həyatı bərpa etməyin, sərhədlərin möhkəmləndirilməsini isə bolşevizmin bütün təzahürlərinə qarşı mübarizənin vacibliyi ilə izah edirdi[91].

Ağqvardiyaçıların bu hərəkətlərinə ingilis komandanlığının razılıq verməsi faktı Azərbaycan hökumətinin ciddi təşvişinə səbəb oldu. Hökumətin başçısı N.Yusifbəylinin general Kori ilə görüşü oldu. General növbəti dəfə hökumət başçısını əmin etməyə çalışdı ki. Denikinlə hərbi əməliyyatlar olacağı təqdirdə ingilis komandanlığı Azərbaycanı müdafiə edəcək[92]. Lakin ingilis komandanlığının əvvəlki vədlərini də yerinə yetirmədiklərini nəzərə alan Azərbaycan hökuməti öz təhlükəsizliyinin ancaq vədlərlə təmin ediləcəyinin mümkünsüzlüyünü yaxşı başa düşürdü.

Artıq yeni demarkasiya xətti - Zaqatala-Qızılburun xətti haqqında danışan Denikin komandanlığının Azərbaycanla bağlı bəyanatları daha sərt xarakter daşımağa başlamışdı. Azərbaycan hökumətinə göndərdiyi teleqramda polkovnik Lazarev öz ordusunun əsas məqsədlərini belə açıqlamışdı: "Cənubi Rusiya silahlı qüvvələrinin komandanlığı Azərbaycanı Rusiyadan ayrılmış hesab etmir. O, Rusiyada ali hakimiyyətin bərpa olunacağından sonra onun bu məsələni həll edəcəyinə qədər Azərbaycanın müstəqilliyini mümkün sayır və onu tanıyır"[93]. Beləliklə, keçmiş çar general və zabitləri Azərbaycanı Rusiyanın tərkib hissəsi saymaqda davam edirdilər.

Təşviş doğuran bu səbəbləri nəzərə alan Azərbaycan parlamenti iyunun 5-də bir daha Denikin təhlükəsi ilə bağlı məsələnin müzakirəsinə qayıtmağa və hökumətdən ölkənin müdafiəsinə dair daha əməli və qəti tədbirlər görməyi tələb etməyə məcbur oldu. Deputatlar qarşısında çıxış edən baş nazir N.Yusifbəyli hökumətin gördüyü bütün tədbirlər haqqında onlara məlumat verdi. Hökuməti qətiyyətsizlikdə günahlandıran və ondan daha sərt tədbirlərə əl atmağı tələb edən sosialistlərdən başqa, parlamentin bütün fraksiyaları hökumətin bu istiqamətdə fəaliyyətini təqdirəlayiq hesab etdi.

N.Yusifbəylinin məruzəsi üzrə çıxışlarda bütün fraksiyalar ümumi düşmənə qarşı vahid cəbhədən çıxış etməyin vacibliyini vurğuladılar. Parlamentin qəbul etdiyi bəyanatda deyilirdi ki, Denikinin dövlətçiliyimiz əleyhinə yönəlmiş hərəkətləri kiçik xalqları əsarət altına alıb, azadlıqsevər demokratiyanı məhv etməyə çalışan keçmiş çar generallarının imperialist niyyətlərinin nəticəsidir. Parlament Azərbaycanın bütün vətəndaşlarını hökumətin ətrafında birləşməklə ordunun və hökumətin yaxınlaşmaqda olan düşmənə qarşı mübarizədə müvəffəqiyyət qazanmasına yardım etməyə çağırdı. Parlament ümidvar olduğunu bildirdi ki, Cənubi Qafqazın bütün xalqları özlərinin azad inkişafı və müstəqilliklərinin qorunması uğrunda apardıqları mübarizədə birləşəcəklər. O, öz müqəddəratlarını təyin etmiş xalqları müdafiə etmək üçün dünya xalqları və parlamentlərinə müraciət edərək, onları Denikinin yürüşünə qarşı öz etirazlarını bildirməyə çağırdı[94]. Ölkənin müdafiəsi məqsədilə Azərbaycan parlamenti hökumətin tərkibində ölkəni və ya onun bir hissəsini fövqəladə hərbi və ya mühasirə şəraitində elan etməyə, könüllü dəstələr təşkil etməyə və s. səlahiyyəti olan xüsusi orqan təsis edilməsini məqsədəuyğun

hesab etdi[95]. 1919-cu il iyunun 14-də N.Yusifbəyli (sədr), A.Səfikürdski, X.Məlikaslanov, M.Y.Cəfərov və S.Mehmandarovdan ibarət tərkibdə yaradılmış Dövlət Müdafiə Komitəsi bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan etdi və onun Denikinlə mübarizəyə yönəlmiş, hamı üçün məcburi olan qərarı baş nazirin imzası ilə dərc olundu[96].

Respublikada hərbi vəziyyətin elan olunması Denikin təhlükəsinə qarşı mübarizənin yeni mərhələsi oldu ki, bu da hökumətin daha qəti və konkret tədbirləri ilə səciyyələnirdi. Ancaq ingilislərin mövcud şəraiti Denikinə güzəştlər edilməsi hesabına yüngülləşdirmək cəhdləri vəziyyəti daha da gərginləşdirirdi.

1919-cu il iyunun 11-də ingilislər Petrovskdan cənubda yeni demarkasiya xətti ilə müəyyənləşdirilən sərhədləri qeydə aldılar. Bu, onların Denikinin bütün Dağıstanı işğal etməsi faktı ilə prinsipcə razı olduqlarını göstərirdi. Nəticədə Könüllülər Ordusu Azərbaycan sərhədlərinə daha da yaxınlaşmış olurdu[97]. Eyni zamanda Böyük Britaniya su nəqliyyatının rəisi polkovnik Braunun sərəncamına uyğun olaraq, Xəzər dənizinin Petrovsk, Bakı və Krasnovodsk limanları ingilislərin idarəsi altında qalırdı[98].

Bütün bu faktlar ingilislərin Qafqazda ikili standart siyasəti yeritdiklərini bir daha təsdiq edir və bütün əhalinin narazılığına səbəb olurdu.

1919-cu il iyunun 8-də Bakı şəhərinin Balaxanı, Zabrat, Ramana neft-mədən rayonları fəhlələrinin böyük mitinqi oldu və onlar hökumətdən Bakının və Azərbaycan sərhədlərinin müdafiə olunması üzrə təcili tədbirlər görülməsini tələb etdilər. Fəhlələrin qəbul etdikləri qətnamədə deyilirdi: "...Bakı limanından Denikinə mərmilər göndərilir və buna Zaqafqaziyada, o cümlədən də Bakıda iki-üzlü siyasət yeridən həyasız ingilis komandanlığı kömək edir"[99],

İkinci demarkasiya xəttinə də Denikinin məhəl qoymaması Azərbaycan-Gürcüstan əməkdaşlığı üçün görülən tədbirləri daha da sürətləndirdi və hər iki respublika öz aralarında hərbi müqavilə bağlamağı qərara aldılar. Bu barədə Ermənistan hökumətinə də müraciət edildi. Lakin öz qonşularına qarşı Denikinlə gizli sazişə girmiş Ermənistan hökuməti müxtəlif bəhanələrlə iyun ayının 16-da Denikin təhlükəsinə qarşı Azərbaycanla Gürcüstan arasında imzalanan hərbi-müdafiə paktına qoşulmadı. Həmin pakta görə, Azərbaycanın və Gürcüstanın müstəqilliyi və ərazi bütövlüyünə qarşı hər hansı dövlət tərəfindən təcavüz olduğu təqdirdə müqavilədə olan tərəflər üç il müddətində bir-birinə hərbi yardım göstərməyə borclu idilər[100].

Əvvəlcə ingilis komandanlığının Azərbaycan-Gürcüstan hərbi-müdafiə paktına münasibəti mənfi idi. Lakin sonralar bu münasibət dəyişildi. Paris sülh konfransına göndərilən məlumatda deyilirdi ki. ingilis komandanlığı imzalanmış hərbi sazişi Cənubi Qafqazın birliyi üçün başlıca təminat hesab edir[101].

Paris konfransında iştirak edən Azərbaycan, Gürcüstan və Dağlılar Respublikası nümayəndələri Avropa hökumətlərini, Antanta Ali Şurasının üzvlərini inandırmağa çalışırdılar ki, Cənubi Qafqazda Könüllülər Ordusunun yolunu bağlamaq lazımdır. Onların Ali Şuraya təqdim etdiyi bəyanatda göstərilirdi ki, müttəfiqlər tərəfindən müdafiə olunan

Könüllülər Ordusuna bildirilməlidir ki, o, Qafqaz xalqları ilə mübarizə aparmaq üçün deyil, bolşevizmə qarşı mübarizə aparmaq üçün yaradılmışdır. Ona görə də bəyanatda təklif edilirdi ki, Qafqaz respublikalarının hüquqlarına hörmətlə yanaşılması və işğal edilmiş ərazilərdən çıxmaları Könüllülər Ordusundan tələb edilməlidir[102].

Beləliklə, bütün Qafqaz xalqlarının azadlıq və müstəqilliyinə qarşı Şimaldan gələn təhlükə ilə mübarizəni təşkil etmək istiqamətində Azərbaycan və Gürcüstan hökumətlərinin birgə səyləri hərbi müdafiə paktının bağlanması ilə başa çatıb öz bəhrəsini verdi. Dost Azərbaycan və gürcü xalqları bütün dünyaya sübut etdilər ki, öz hüquqlarını birgə müdafiə etməyə hazırdırlar.

Azərbaycan parlamentinin müqaviləni ratifikasiya etdiyi, 1919-cu il iyunun 27-də keçirdiyi iclasında çıxış edən "Müsavat" fraksiyasının lideri M.Ə.Rəsulzadə bağlanmış sazişi Cənubi Qafqaz xalqlarının daha sıx və daimi əməkdaşlığı istiqamətində atılan ilk addım kimi qiymətləndirərək qeyd etdi ki, "bu ittifaq yalnız bir məqsəd üçün əqd olunmuşdur ki, o məqsəd də bizim istiqlalımızı və təmamiyyəti-mülkiyyətimizi xarici qüvvələrə qarşı müdafiədir. Burada təcavüz məqsədi yoxdur və olamaz..."[103].

Müqavilənin ratifikasiyasından sonra hökumət Tiflisdən 12 yüngül, 12 dağ topu, 24 "Maksim" tipli pulemyot və xeyli miqdarda digər sursat və hərbi ləvazimat aldı. Müqaviləyə uyğun olaraq, bir qrup azərbaycanlı hərbi təhsil müəssisələrində oxumaq üçün Gürcüstana göndərildi. 1919-cu ilin sonlarında İtaliyanın hərbi naziri ilə Azərbaycana avtomobil, aeroplan, projektor və s. verilməsi barədə də danışıqlar aparılırdı[104].

Cənubi Qafqaz respublikalarının öz qüvvələrini cəmləşdirməsinə hərbi-müdafiə müqaviləsini imzalamayan daşnak Ermənistanı ciddi maneə törədirdi. İrəvan daşnak hökuməti özünü Rusiya əleyhinə olan hər hansı bir blokda heç bir vəchlə təsəvvür edə bilmirdi.

Bununla yanaşı, Azərbaycanda uzun müddət qaldıqlarına görə narazılıq edən və vətənə qayıtmalarını istəyən ingilis əsgərlərinin sıralarında da intizamsızlıq və əxlaqsızlıq halları güclənirdi. Bu, ingilislərin Bakıdan çıxarılması prosesini sürətləndirdi. İngilis komandanlığı Azərbaycanı tərk edib getməmişdən əvvəl hərbi ləvazimatı Könüllülər Ordusuna, sərəncamında olan Xəzər Hərbi Donanmasını isə 1919-cu il avqustun əvvəllərində Denikinə verdi. Buna kəskin etiraz edən Azərbaycan hökumətinin notasında göstərilirdi ki, "...Xəzər hərbi Donanması hissələrinin Könüllülər Ordusuna verilməsi Azərbaycanın müstəqilliyi və bütövlüyü üçün birbaşa təhlükədir və onun əhalisinin ciddi narahatçılığına səbəb olmaya bilməz"[105].

Eyni zamanda 1919-cu il avqustun 4-də ingilis komandanlığı Azərbaycan və Gürcüstan sərhədləri boyunca üçüncü demarkasiya xəttini müəyyən etdi. Nəticədə Dağıstan tamamilə Könüllülər Ordusunun nəzarəti altında qaldı. Bu zaman Cənubi Qafqaz respublikalarına təkid edilirdi ki, ağqvardiyaçı qoşunlara qarşı hər hansı hücum hərəkətindən çəkinsinlər və general Denikinə kömək göstərsinlər[106].

Britaniya komandanlığının bu addımı onun həm Denikin ordusunun arxadan təhlükəsizliyini təmin etmək, həm də Cənubi Qafqazda sülhü və sabitliyi saxlamaq niyyətində olmasından xəbər verirdi.

Britaniya qoşunlarının tezliklə Azərbaycandan çıxarılacağı haqqında rəsmən məlumat alan Azərbaycan hökuməti regionda hadisələrin gedişatını təşvişlə izləyirdi. Denikin qoşunlarının ölkənin şimal sərhədlərinə yaxınlaşdığı, Qarabağda vəziyyətin hələ də gərgin olduğu bir zamanda Azərbaycan dünyanın güclü dövlətlərindən birinin himayəsinə ehtiyac duyurdu. Belə bir dövlət həmin dövrdə yalnız Böyük Britaniya ola bilərdi. Buna görə də Azərbaycan hökuməti xarici işlər naziri M.Y.Cəfərovun şəxsində ingilis hökumətinə müraciət edərək, onun öz qoşunlarını Azərbaycandan çıxarmaq haqqında qərarından narahat olduğunu bildirərək, bu qərara yenidən baxmağı ondan xahiş etmişdi. General Şatelvorqla görüşündə Britaniya qoşunlarının müəyyən hüquqi şərtlərlə Azərbaycanda qalmasının mümkünlüyü haqqında danışan M.Y.Cəfərov[107] həmçinin Azərbaycanın öz ərazisinin su sahələrini qorumaq üçün lazımi vasitələrə malik olmadığını bildirmiş və buna görə də gəmilərin bir hissəsinin Azərbaycan hökumətinin sərəncamına verilməsini xahiş etmişdi[108].

İngilislərin susması M.Y.Cəfərovu general Şatelvorqa yenidən müraciət etmək məcburiyyətində qoydu. Onun 1919-cu il avqustun 8-də ingilis generalına göndərdiyi məktubunda göstərilirdi ki, Britaniya hökumətinin məlum qərarı Azərbaycan dövlətinin paytaxtını və onun ərazisinin su sahələrini mümkün xarici müdaxiləyə və bolşevik təhlükəsinə qarşı müdafiəsiz qoymaqla bərabər, əhalidə dərin narahatlıq yaradır. Bütün bunları bir daha İngiltərə hökuməti nümayəndəsinin nəzərinə çatdıran M.Y.Cəfərov Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin əvvəl tələb etdiyi gəmilərin ona verilməsi barədə xahişini yenidən ona xatırlatdı[109]. Xəzər donanması gəmilərinin Könüllülər Ordusunun ixtiyarına verilməsi Azərbaycan Cümhuriyyətinə məxsus mülkiyyətin özbaşınalıqla ələ keçirilməsi faktı idi. Bununla belə, Azərbaycan hökumətinin bütün cəhdlərinə baxmayaraq, onun bu müraciəti də cavabsız qaldı. Lakin sonradan M. Y. Cəfərovla görüşündə general Kori Azərbaycan tərəfini bir daha əmin etməyə çalışdı ki, gəmilərin, nəqliyyat vasitələri və avadanlıqların, xüsusi tankerlərin Könüllülər Ordusuna verilməsi Cənubi Qafqaz Respublikalarının toxunulmazlığını təmin etmək şərti ilə həyata keçirilmişdir[110].

Denikin ordusuna belə böyük kömək göstərmələrini ingilislər Versal konfransında bolşevizmə qarşı müharibə aparılmasının məqsədyönlü sayılması ilə əsaslandıraraq, bu işə qoşulan bütün qüvvələrə yardım etmək arzusunda olduqlarını bildirdilər[111].

Öz əsas qüvvələrini Qızıl Ordunun hücumlarının qarşısını almaq üçün cəmləşdirib başqa istiqamətə yönəldən general Denikin Qafqazda hərbi əməliyyatları müvəqqəti dayandırsa da, öz nümayəndəsi general N.Baratova göndərdiyi təlimatda Cənubi Qafqaza Rusiyanın tərkib hissəsi kimi baxmağı, ancaq hələlik yerli hökumətlərin mövcudluğunu qəbul etməyi tövsiyə edirdi[112].

Müttəfiq qoşunlarının Cənubi Qafqaz ərazisindən çıxarılması 1919-cu il avqustun 4-21-nə nəzərdə tutulmuşdu[113].

İngilis qoşunlarının Azərbaycandan çıxarılması ölkənin gələcək taleyinə aid sualları yenidən ortaya gətirdi. Müttəfiq qoşunları Cənubi Qafqazdan getdikdən sonra Azərbaycan müstəqil yaşamaqda davam edir, ölkədə heç bir qeyri-adi hadisə

baş vermirdi. Hadisələrin gedişatı göstərdi ki, Qarabağda olan münaqişədən başqa, daxili qayda-qanunu qorumaq üçün heç vaxt xarici qüvvəyə ehtiyac olmayıb. Qərb dövlətlərindən hərbi yardım almaq zərurəti isə Denikin yaxud Sovet Rusiyası tərəfindən həmişə mövcud olan təhlükə ilə bağlı idi. Eyni zamanda kiçik dövlətlərin müstəqil yaşaması heç də onların iqtisadi və siyasi cəhətdən sabit olan daha böyük ölkələrə oriyentasiyası məsələsini ortadan çıxarmırdı. Bu baxımdan müttəfiqlərin qoşunları getdikdən sonra Azərbaycanın və Gürcüstanın taleyi onların Antanta dövlətlərinə yönüm seçimini tələb edirdi.

1919-cu il avqustun 6-da Versal konfransında Azərbaycanın, Gürcüstanın və Dağlı Respublikası nümayəndələrinin birgə iclasında xarici dövlətlərə oriyentasiya məsələsi müzakirə edildi. İclasa sədrlik edən Ə.M.Topçubaşov qeyd etdi ki, indiki vaxtda bizim dövlət həyatının müstəqilliyinə hədsiz arzumuza baxmayaraq, müəyyən bir dövrdə kənardan kömək və yardım olmadan keçinə bilmərik. Bir halda ki, vəziyyət belədir, onda sağımıza və solumuza baxıb özümüzə kömək axtarmalıyıq. Müzakirələrin gedişində bir sıra təkliflər irəli sürüldü. Əvvəlcə göstərildi ki, Azərbaycan və Gürcüstan nümayəndələri Millətlər Cəmiyyətinə müraciət etsin, mandatı qəbul edən ölkə Millətlər Cəmiyyəti tərəfindən müəyyən edilsin. Öz ölkəsinin İngiltərədən başqa heç bir oriyentasiyası olmadığını söyləyən M.H.Hacınski sonra təklif etdi ki, Azərbaycanın mandatını götürmək İngiltərədən xahiş edilsin. Gürcüstan nümayəndələri də bu təklifi dəstəklədilər. Lakin iclasda qeyd edildi ki, bu müraciət digər dövlətləri incik salmayan bir formada olmalıdır. Ona görə də tərəflər əvvəl İngiltərə tərəfinin fikrini öyrənmək, sonra isə Millətlər Cəmiyyətinə müraciət etmək qənaətinə gəldilər. Millətlər Cəmiyyətində Böyük Britaniyanın həlledici rol oynayacağına əsaslanıb bu niyyəti həyata keçirməyin mümkün olacağına ümid bəsləmək olardı[114]. Lakin ümid doğuran ehtimal baş tutmadı, avqust ayının axırlarında ingilislər Qafqazdan çıxdılar. Azərbaycan hökumətinin Parisdə olan nümayəndələrinə respublikanın xarici siyasətilə bağlı göndərdiyi hesabatda göstərilirdi ki, avqust ayının axırlarında sonuncu ingilis hərbi dəstələri Azərbaycan ərazisindən çıxmışdır[115].

Azərbaycandan çıxmaq ərəfəsində, avqust ayının 23-də müttəfiq qoşunlarının komandanlığı adından ingilis generalı Şatelvorq Bakı əhalisinə "vida çağırışı" ilə müraciət etmişdi. Müraciətdə deyilirdi: "Fürsətdən istifadə edib indi Bakını tərk edən Britaniya qoşunları adından Azərbaycan, xüsusən Bakı şəhəri əhalisindən üzr istəyirik. Səmimiyyətlə təəssüflənirik ki, çoxsaylı dostlarımızla və tanışlarımızla vidalaşırıq, onlara ürəkdən sülh və xoşbəxtlik arzulayırıq. Britaniya Ordusunun bütün qulluqçuları Azərbaycanda keçirdikləri günlərin ən yaxşı xatirəiərini özlərilə aparırlar"[116].

İngilis qoşunlarının 1918-ci ilin noyabrından 1919-cu ilin avqustuna qədər Azərbaycanda olması bir çox cəhətdən Qərb demokratiyası çərçivəsində dinc yolla başa çatdı. 1918-ci ilin oktyabrında imzalanmış Mudros sülhü şərtlərinə əsasən Bakıya daxil olmuş İngilis qoşunları 1919-cu ilin avqustunda Azərbaycandan ehtiramla çıxdılar. Adil xan Ziyadxanlı 1919-cu ildə Bakıda nəşr edilmiş "Azərbaycan" adlı kitabında yazırdı: "Müttəfiqlərin bizə olan münasibət və əlaqələri daha əvvəlinci gündən zahir olub hörmət pərdəsi aramızda quruldu. Yüz cürə əhvaldan nəticə, əlbəttə, o oldu ki, mədəni millətlərin

nümayəndələri bizim torpağımıza gəldikdə Azərbaycanda bütün əhvali-ictimaiyyə və siyasiyyənin əhalinin rizasilə axıb getməkdə olduğunu gözləri ilə görüb həqiqət halı yaxından dərk etdilər. Mən kəmali-ümid və cəsarətlə deyə bilərəm ki, nə qədər böyük, mədəni millətlərlə münasibət və əlaqədə olarsaq bir o qədər də aramızdakı əlaqeyi-dostanə möhkəmləşib bir-birimizin həqiqi əhvalından artıcaq xəbərdar olacağıq"[117].

İngilis ordusunun Qafqazda olması təkcə Denikin təhlükəsinin qabağını almaq üçün deyil, eyni zamanda Qafqaz respublikalarının münasibətləri kontekstində iri dövlətlərin öz marağı üçün də əhəmiyyət kəsb edirdi. U.Çörçill belə bir fikir də söyləmişdi ki, guya "Qara dənizdən Xəzər dənizinə qədər bütün Qafqazı tutmuş Britaniya diviziyası bir-birilə rəqabət aparan xalqlar - gürcülər, ermənilər, türklər (azərbaycanlılar. - *Red.),* dağlılar və ruslar arasında sülhün yeganə təminatçısı idi[118]. Böyük Britaniyanın Cənubi Qafqaz siyasətini obyektiv işıqlandırmağa cəhd göstərmiş R.Uilman da qeyd edirdi ki, ingilis siyasəti region xalqları arasında milli qırğınları aradan qaldırmaqda müsbət cəhət kimi qiymətləndirilməlidir.

İngilislərin Bakıdan çıxması münasibətilə Azərbaycan Nazirlər Şurasının sədri "Metropol" mehmanxanasında general Korinin və digər yüksək rütbəli şəxslərin şərəfinə ziyafət vermişdi. Ziyafətdəki çıxışında general Kori qeyd etmişdi ki, bu çətin keçid dövründə Azərbaycan hökumətinin və xüsusən Azərbaycan Xarici İşlər Nazirliyinin fəaliyyəti, onların gördüyü işlər adamı heyrətləndirir[119].

Bakını tərk edərkən ingilislər şəhər limanının idarəçiliyini, hərbi hissələrin radiostansiyalarını, ordunun hərbi sursatını və hərbi gəmilərin bir hissəsini Azərbaycan hökumətinə verdilər. İngilislərin verdiyi gəmilər əsasında Azərbaycanın Xəzər Donanması yaradıldı. Azərbaycan hökumətinin öz dəniz sərhədlərini qorumaqla bağlı atdığı bu mühüm addım az sonra Denikinin rəhbərlik etdiyi Cənubi Rusiyanın silahlı qüvvələrinin etirazına səbəb oldu. Könüllülər Ordusunun dəniz donanmasının vitse-admiralı Gerasimov Azərbaycan hökumətinə verdiyi notada Azərbaycan Xəzər Donanmasının ləğv edilməsi tələbini irəli sürürdü. Notada deyilirdi: "Rusiya ilə İran arasında 1828-ci il fevralın 10-da imzalanmış Türkmənçay müqaviləsinin 8-ci maddəsinə əsasən, yalnız Rusiya və İran Xəzər dənizində ticarət donanması saxlaya bilər. Hərbi donanma saxlamaq hüququ isə ancaq Rusiyaya məxsusdur. Cənubi Rusiya silahlı qüvvələrinin Baş Komandanlığı yanında Dənizçilik İdarəsi bunu bildirməyi zəruri hesab edir ki, Azərbaycan hərbi və ticarət gəmilərinin rus bayrağından başqa hər hansı bayraqla üzməsinə yol verməyəcək"[120]. Bu əsassız notanı Azərbaycan Dövlət Müdafiə Komitəsi öz iclasında müzakirə edərək Xarici İşlər Nazirliyinə tapşırdı ki, Cənubi Rusiya silahlı qüvvələrinin Baş Komandanlığının nümayəndəsinə aşağıdakı məzmunda cavab versin: 1) Rusiya və İran arasında imzalanmış Türkmənçay müqaviləsi yalnız Rusiya və İran üçün məcburi ola bilər, bu, yeni yaranmış dövlətlərə aid deyildir; 2) Xəzər dənizi sahillərində yerləşən Azərbaycanın limanları və ticarət gəmiləri vardır və bu gəmilər Azərbaycan bayrağı altında üzəcəkdir. Eyni zamanda Dövlət Müdafiə Komitəsi Könüllülər Ordusu rəhbərliyinin belə tələblərini Azərbaycan Cümhuriyyətinin suveren hüquqlarına qarşı yönəlmiş akt kimi qiymətləndirdi və Xarici İşlər Nazirliyinə tapşırdı ki, bu məsələ ilə bağlı müttəfiqlərin Ali komissarları qarşısında etiraz

notası ilə çıxış etsin.

Bu məsələ ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyi ABŞ, Böyük Britaniya və İtaliyanın Cənubi Qafqazda olan missiyalarına etiraz notası verdi və özünün Tiflisdə, Parisdə, Kuban hökumətində olan diplomatik nümayəndələrinə məlumat göndərdi ki, mümkün olan diplomatik vasitələrlə Könüllülər Ordusunun Azərbaycan hərbi Donanmasının yaradılmasına qarşı yönəldilmiş təcavüzkar məqsədlərini dəf etsinlər. Kuban hökuməti yanında diplomatik nümayəndə C.Rüstəmbəyova bildirilirdi ki, admiral Gerasimovun notası ilə bağlı general Denikinlə görüşüb ona bildirsin ki, Azərbaycan Türkmənçay müqaviləsini imzalamadığı üçün müqavilənin maddələrinin ona dəxli yoxdur. Əgər söhbət Türkmənçay müqaviləsinə görə, gəmilərin rus bayrağı altında üzməsindən gedirsə, onda gəmilərin ingilis bayrağı altında üzməsi də yolverilməz hesab edilməli idi. Ona C.Rüstəmbəyov vasitəsilə general Denikinə çatdırılırdı ki, Azərbaycan hökuməti öz milli donanmasının özgə bayrağı altında üzməsinə razı ola bilməz"[121].

Bu dövrdə artıq Könüllülər Ordusunun hərbi-siyasi vəziyyəti pisləşməkdə idi. Onun əsas qüvvələri şimalda cəmləşmiş, cəbhənin cənub hissəsini isə xalq üsyanları bürümüşdü. Dağıstan xalqlarının general Denikinlə kəskin mübarizəsi daha da güclənməyə başlamışdı. Kəndlər dağıdılır, dağıstanlıların tutduğu Dərbənd şəhəri isə dənizdəki gəmilərdən top atəşlərinə tutulurdu. Bölgənin vahimələnmiş əhalisi sığınacaq üçün qonşu ərazilərə qaçaraq, Azərbaycan üçün əlavə problemlər yaradırdı. Azərbaycan Cümhuriyyəti hökuməti öz vətəndaşlarının təhlükəsizliyinə qorxu yarandığından və dağıstanlı qaçqınların vəziyyətindən ciddi narahat olaraq hadisələrin gedişini diqqətlə izləyirdi. Hökumət Böyük Britaniya nümayəndələrinə dəfələrlə müraciət edərək, Dağıstanda qan tökülməsinin qarşısının alınmasını və Azərbaycanla Könüllülər Ordusunun tutduğu ərazi arasında bitərəf zona yaradılmasını xahiş etmişdi[122].

Məlumdur ki, artıq bu zaman Azərbaycanda heç bir Britaniya əsgəri qalmamış, işğalçı dəstələrin qərargahında hərbi komandan-ığı diplomatik nümayəndəliklər əvəz etmişdi.

1919-cu il sentyabrın 28-də Britaniyanın Cənubi Qafqaz respublikalarındakı diplomatik missiyasının başçısı O.Uordrop Bakıya gəldi[123]. Onun əsas vəzifələrindən biri bu respublikalarla Könüllülər Ordusu arasındakı mümkün ixtilafları aradan qaldırmaq, demarkasiya xəttinə əməl edilməsinə nəzarət etmək, digəri isə bölgədə ingilis ticarətinin imkanlarına şərait yaratmaq idi[124].

Buna görə də Azərbaycan hökumətinin sonrakı müraciətləri O.Uordropa ünvanlanırdı. Dağıstandakı vəziyyəti nizamlamaq üçün Azərbaycan tərəfi Britaniya hökumətinə Könüllülər Ordusu Dağıstandan çıxarıldıqdan sonra onun gələcək dövlət quruluşuna dair öz variantlarını təklif edirdi. Bunun üçün, ilk növbədə, Denikin qoşunlarının Britaniya komandanlığının müəyyənləşdirdiyi demarkasiya xəttindən kənara çıxarılması məsələsini qaldıran Azərbaycan hökuməti onun həlli ilə bağlı olaraq, Dağıstan diyarını idarə etmək hüququnun Azərbaycan Cümhuriyyətinə verilməsi; müttəfiq dövlətlərin himayəsi altında öz hakimiyyətini təşkil etmək hüququnun Dağıstan əhalisinin özünə həvalə edilməsi, yaxud da Dağıstanda xüsusi general-qubernatorluq yaradılması

variantlarına baxılmasını istəyirdi[125].

Ancaq ingilislər Dağıstan xalqlarının hərəkatının milli deyil, sosial xarakter daşıdığını, onun bolşeviklərin işi olduğunu iddia edərək, Azərbaycan hökumətinin təklif etdiyi variantlara etinasız yanaşıb növbəti dəfə Denikini dəstəklədilər[126].

Beləliklə, Könüllülər Ordusuna ingilislərin ciddi təsir göstərməsi üçün Azərbaycan hökumətinin etdiyi növbəti cəhd uğursuz oldu. Halbuki Azərbaycan hökuməti, ingilislərin bölgədəki hərbi iştirakının Denikinə Cənubi Qafqaz respublikaları ilə bağlı niyyətlərini axıradək başa çatdırmaq imkanı vermədiyinə baxmayaraq, bütün ümidlərini onlara bağlamamalı, Denikinin qarşısını almaq üçün göstərdiyi siyasi, diplomatik və iqtisadi səyləri heç də az mühüm olmayan başqa məsələlərin həllinə yönəltməli idi.

1919-cu ilin ortaları Azərbaycanda təkcə müxtəlif xarakterli daxili problemlərin, xarici müdaxilə təhlükəsinin mövcudluğu ilə seçilmədi, həm də gənc demokratik respublikanın müstəqil həyatının ildönümü ilə də əlamətdar oldu.

1919-cu il mayın 28-i - Azərbaycan Xalq Cümhuriyyəti yaranmasının birinci ildönümü - Milli istiqlaliyyət günü ölkə vətəndaşları tərəfindən təntənə ilə bayram edildi.

Azərbaycan xalqının müstəqil siyasi həyat yoluna qədəm qoyduğu gündən bir il keçdi. Bu bir il ciddi mübarizə və ağır sınaqlar ili oldu. Bolşevik-daşnak hakimiyyəti və Sentrokaspi Diktaturası ilə silahlı mübarizə Bakının azad edilməsi ilə nəticələndi. Azərbaycan xalqı üçün Bakının azad edilməsi təkcə respublikanın ərazi bütövlüyünün təmin edilməsi deyil, həm də onun müstəqil həyatının əsas şərti demək idi. Birillik müstəqil həyat bütün dünyaya sübut etdi ki, Azərbaycan xalqı hər cür əsarətdən azad olmağa, öz mədəni və dini tələbatını təmin etməyə qadirdir. Qısa müddət ərzində xalq təhsilinin daha da inkişafı, təhsil müəssisələrinin, bədii-teatr müəssisələrinin milliləşdirilməsi və yenilərinin təşkili, bir sıra qəzalarda dünyəvi məktəblərin açılması və s. işlər bunu bir daha sübut edirdi.

M.Ə.Rəsulzadənin təbirincə, müsəlman dünyasında ilk respublika, türk dünyasında isə ilk milli dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti qısa vaxt ərzində qonşu Gürcüstanla dostluq münasibətləri qurmağa, Ermənistanla bəzi mübahisəli məsələlərdə dil tapmağa, Denikinlə mübarizə aparan qardaş Dağıstana kömək əli yetirməyə nail oldu. Mövcudluğunun ilk ilində Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisində tam hakimiyyət sahibi kimi öz dövlət institutlarını parlamenti, hökuməti, ordunu və maliyyə sistemini formalaşdırdı.

Azərbaycan Xalq Cümhuriyyəti yaranmasının birinci ildönümünün bayram edilməsi ilə əlaqədar olaraq, onun hökumətinin öz ölkə vətəndaşlarına ünvanlanan müraciətində deyilirdi:

"1919-cu il mayın 28-i Azərbaycan Xalq Cümhuriyyətinin milli bayramıdır. Bu elə bayramdır ki, onun xatiri ümum Azərbaycan vətəndaşları üçün daima möhtərəm və müqəddəs sayılacaqdır. Bu az vaxt ərzində Azərbaycan türkləri özlərinin müstəqil və azad yaşamağa layiq olduqlarını gözəl surətdə göstərib dövlət təşkilinə istedad və qabiliyyət yetirdiklərini sübut etdilər. Bunun

sayəsində indi məmləkətdə insanı məmnun edəcək bir dərəcədə nizam və asayiş hökmfərmadır"[127].

Müraciətdə keçilmiş birillik yol təhlil edilib ona bir növ məntiqi yekun vurulur, bu müddət ərzində dövlətin möhkəmləndirildiyi, əhalinin bütün təbəqələrinə milli dövlətçilik hissi aşılandığı qeyd edilir və onun xalqın azad fikir və məslək yolu olduğu təsdiqlənirdi[128].

Azərbaycan parlamenti Milli istiqlaliyyət bayramına həsr olunan təntənəli fövqəladə iclas keçirdi. "Müsavat" fıraksiyasının lideri M.Ə.Rəsulzadə yubileyin qeyd edildiyi özünəməxsusluğunu nəzərdə tutaraq göstərdi ki, "bu gün Azərbaycan istiqlalı bilxassə onun üçün əzizdir ki, bu istiqlalımıza xaricdən təhlükə var, təhdid var. Bununla bərabər hər birimizin idrakında, qəlbində hürriyyət və istiqlaliyyət uğrunda şəhid düşmüş olanların xatirəsi üçün böyük minnətdarlıq hissi vardır"[129].

Müxtəlif partiya və cərəyanları təmsil edən digər natiqlər öz çıxışlarında bir sıra məsələlərə aid fərqli rəy söyləsələr də, Azərbaycanın müstəqilliyinin tarixi əhəmiyyəti və onun qorunması məsələsində yekdil olduqlarını nümayiş etdirdilər.

Respublikanın ildönümü şərəfinə ölkənin paytaxtında hərbi keçid, bütün şəhər və kəndlərində yığıncaq və mitinqlər təşkil olunmuş, müstəqillik ideyası millətin əsas amalı və qayəsi kimi nümayiş etdirilmişdi.

## § 2. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNDƏ SOSİAL-SİYASİ VƏZİYYƏT

**1919-cu ilin axın - 1920-ci ilin əvvəli.** Respublikada iqtisadi və siyasi vəziyyət mürəkkəb olaraq qalmaqda davam edirdi. Ölkədə yaranmış siyasi şərait və iqtisadi vəziyyətlə əlaqədar olaraq, 1919-cu il sentyabrın 12-də "Müsavat" Partiyasının parlament fraksiyası hökumətə etimad məsələsini irəli sürdü, sesvermə zamanı bitərəf mövqe tutan "Müsavat" fraksiyasından fərqli olaraq, "Əhrar", "İttihad" və sosialistləri təmsil edən fraksiyalar hökumətə etimad göstərmədiklərini qəti və açıq şəkildə bildirdilər.

Koalisyon hökumətə etimad barədə sorğunun nəticələri göstərdi ki, hakimiyyətdə təmsil olunmuş partiyalar arasında birlik yoxdur və o, təsadüfi çoxluğa arxalanır. Bunu nəzərə alan Nazirlər Şurasının sədri N.Yusifbəyli 1919-cu il sentyabrın 13-də parlament sədrina yazılı müraciət etdi və göstərdi ki, koalisiyaya girdiyi partiyalarla hökumətə etimadsızlıq bildirən sosialistlər arasında dərin

ixtilaflar meydana çıxdığı üçün bundan sonra özünün baş nazir vəzifəsində qalmasını mümkünsüz hesab edir[130].

Rusiya ilə iqtisadi əlaqələrin qırılması, xüsusilə onun tələbatını ödəmək üçün şimala neft ixracının dayandırılması üzündən neft sənayesində dərinləşən böhran, işsizliyin artması, fəhlələrin vəziyyətinin daha da pisləşməsi və aqrar məsələsinin həll edilməməsi bu istefanın əsas səbəblərindəndir. Müxtəlif siyasi partiyalar arasındakı ziddiyyətlər və mövqe ayrılığı koalisyon hökumət yaratmaq imkanını məhdudlaşdırırdı. Buna görə də hökumət böhranı uzun müddət - dekabrın sonuna qədər davam etdi. Heç bir partiya məsuliyyəti öz üzərinə götürüb koalisyon hökumət yaratmağa cəsarət etmirdi. Eyni vaxtda parlament və bütün nazirliklər fəaliyyət göstərməkdə davam edirdi.

Hökumət böhranı davam edən dövrdə respublikanın siyasi həyatında bir sıra mühüm hadisələr baş verdi. Türk Demokratik Federalistlər "Müsavat" Partiyasının 1919-cu il dekabrın 2-də öz işinə başlayan II qurultayında onun bütün MK və parlament fraksiyası üzvləri də daxil olmaqla 140 nümayəndə, həmçinin digər siyasi partiyalardan qonaqlar və tanınmış ictimai xadimlər iştirak edirdilər.

"Müsavat" Partiyası MK sədri M.Ə.Rəsulzadə qurultayı açaraq, onun iştirakçılarına müraciətində qeyd etdi ki, partiyanın növbəti qurultayı Azərbaycan xalqının öz istiqlaliyyətinə qovuşduğu yeni bir tarixi şəraitdə və müstəqil azad Azərbaycanın paytaxtında öz işinə başlamışdır. Partiyanın iki qurultayı arasındakı dövrdə göstərdiyi fəaliyyətə siyasi qiymət verən M.Ə.Rəsulzadə eyni zamanda partiyanın millət qarşısında daşıdığı məsul vəzifələri xatırladaraq, onların şərəflə yerinə yetirilməsi naminə bütün partiya üzvlərini daha sıx birləşməyə çağırdı.

Qurultayın rəyasət heyətinə M.Ə.Rəsulzadə sədr, Ş.Rüstəmbəyov, M.A.Rəfiyev, A.B.Rüstəmzadə, İbrahim Yusif sədrin müavinləri, İ.Kabulov, M.M.Axundov, D.Axundzadə və Mövsümzadə isə katib seçildilər.

Qurultayın ilk günü çıxış edən natiqlər dövlət quruculuğu sahəsində "Müsavat"ın bir siyasi partiya kimi aparıcı rolunu qeyd etdilər.

Qurultaya təbriklə müraciət edən baş nazir N.Yusifbəyli çıxışında göstərirdi ki, "Müsavat" öz fəaliyyəti ilə müstəqilliyin möhkəmləndirilməsi üçün mühüm "xidmət göstərmiş və partiyanın rəhbərliyi həmişə xalqın mənafeyini öz partiya maraqlarından üstün tutmuşdur"[131]. Yollar naziri Xudadat bəy Məlikaslanov da bu partiyanın Azərbaycan xalqının taleyində oynadığı rolun tarixi əhəmiyyətini nəzərdə tutaraq qeyd etdi ki, "əgər "Müsavat" Partiyası olmasaydı, indi bizim şahidi olduğumuz hadisələrin heç biri baş verməzdi"[132].

Qurultayın birinci iş günü, əsasən, iştirak edən qonaqların təbrik çıxışlarına və teleqramların oxunmasına həsr edildi, əsas məsələlərin müzakirəsinə isə növbəti gün başlandı və hesabat məruzəsi ilə "Müsavat" Partiyası MK sədri M.Ə.Rəsulzadə çıxış etdi.

Məruzədə partiyanın I qurultaydan sonra keçən dövrdəki fəaliyyəti, II qurultaydan qabaq Azərbaycanda mövcud olan siyasi vəziyyət dərindən təhlil

edilmişdi. Hesabat məruzəsində həmçinin partiyanın parlament fəaliyyəti də öz əksini tapmışdı. M.Ə.Rəsulzadə bunun vacibliyini onunla izah edirdi ki, partiyanın MK-sı və MK üzvlərindən bir çoxunun sırasında olduğu parlament fraksiyası həmişə sıx əlaqədə fəaliyyət göstərmişdir.

Sədrin hesabat məruzəsi ciddi müzakirələrə səbəb oldu. Müzakirə zamanı çıxış edən partiya üzvləri onu aqrar və fəhlə məsələləri üzrə partiya siyasətini hesabatda kifayət qədər əks etdirmədiyi üçün tənqid etdilər. O da xüsusi qeyd olundu ki, "Müsavat" nümayəndələrinin başqalarına nisbətən çoxluq təşkil etdiyi hökumət bu sahədə hələ də ciddi bir qərar qəbul etməmişdir. Buna görə də çıxış edənlər öz partiya yoldaşlarından Azərbaycanda vəziyyəti yaxşılaşdırmaq üçün hökumət orqanlarında öz fəaliyyətlərini gücləndirməyi tələb edirdilər. Partiyanın liderlərindən biri - Mirzə Bala Məmmədzadə aqrar siyasət sahəsində parlamentin fəaliyyətindən danışarkən göstərdi ki, "...tərkibində daha çox müsavatçılar olan və öz bəyanatında bəylərlə kəndlilər arasındakı mövcud ziddiyyətləri aradan qaldıracağını vəd etmiş hökumət öz vədini yerinə yetirmədi"[133]. Mirzə Bala Məmmədzadə bəylərin kəndlilərlə amansız rəftarını sübut edən çoxlu fakt gətirdi. O, "Müsavat" Partiyası torpağın aqrar məsələ tam həll edilənə qədər bəylərin əlində qalmasını zəruri saydığına görə, heç olmazsa bəylərin kəndlilərdən vergi toplamasını dayandırmağı təklif edirdi[134].

M.Ə.Rəsulzadə çox təəssüflə təsdiq etdi ki, cəmiyyət hələ də köhnə çar qanunları ilə yaşamaqda davam edir və təkcə "Müsavat" Partiyasının gücü ilə mövcud vəziyyəti dəyişmək mümkün deyildir. M.Ə.Rəsulzadənin fikrincə, "Müsavat" fraksiyasının parlamentdə çoxluq təşkil etməməsi və fraksiyalar arasındakı fikir ayrılıqları çox ciddi məsələ olan aqrar məsələni qısa zamanda həll etməyə imkan vermir".

Aqrar məsələ hesabat məruzəsində öz ciddi əksini tapmadığına görə qurultay nümayəndələrin tələbi ilə yenidən partiyanın aqrar proqramının müzakirəsinə qayıtdı və dekabrın 8-də keçirilən 4-cü iclasını tamamilə aqrar məsələnin müzakirəsinə həsr etdi. Məsələ barəsində fikrini bildirən 20 nümayəndənin əksəriyyəti qurultayın aqrar komissiyasının mövqeyini müdafiə etdi. Dörd saatlıq müzakirədən sonra həmin komissiyanın irəli sürdüyü aşağıdakı qətnamə qəbul olundu:

"1. Xəzinəyə, keçmiş çar ailəsinə, həmçinin mülkədarlara və xüsusi sahibkarlara məxsus olan torpaqlar əvəzsiz olaraq onların əlindən alınır və zəhmətkeş kəndlilər arasında bölüşdürülür.

2. Torpaqların zəhmətkeşlərə verilməsilə əlaqədar olaraq, suvarma qurğuları və motorlar alınır və onların dəyəri varlı siniflər üzərinə qoyulan gəlir vergisi hesabına yaranan fonddan ödənilir"[136].

Partiyanın aqrar proqramının müzakirəsi onun II qurultayda qalan maddələrinin bu dəyişikliklərlə birlikdə əvvəlki kimi saxlanaraq qəbul edilməsi ilə başa çatdı.

Hesabat məruzəsində qurultayın xüsusi diqqət yetirdiyi fəhlə məsələsi haqqında qeyd edildi ki, partiya müəssisələrin milliləşdirilməsinin tərəfdarı deyil və partiyanın Mərkəzi Komitəsi hökumətə ciddi kömək göstərməklə fəhlə məsələsi

üzrə mümkün olan hər şeyi etmişdir[137]. Bu tezis ciddi mübahisələrə səbəb oldu. Çıxış edənlər fəhlələrin və onların ailələrinin ağır güzəranından, evsizlik, yaxud barak şəraitində yaşamaları kimi problemlərindən bəhs edir, onların həll edilməməsini bu və ya digər dərəcədə "Müsavat" Partiyasının fəaliyyəti ilə əlaqələndirirdilər. Məsələn, "Müsavat" Partiyasının üzvü, artıq məşhurlaşmağa başlamış gənc Azərbaycan dramaturqu Cəfər Cabbarlı qurultaydakı çıxışında partiya proqramında siyasi məsələlərlə yanaşı, iqtisadi məsələlər də olmasına baxmayaraq, bu sahədə onun heç bir iş görmədiyini qeyd edərək deyirdi ki, öz proqramını həyata keçirmək üçün hər bir partiya hakimiyyətə gəlməyə çalışır, bizim partiya da Azərbaycanda hakimiyyətə gəldikdən sonra öz partiya məqsədlərini unutdu[138].

Fəhlə məsələsi üzrə müzakirələrdə çıxış edən bütün nümayəndələr fəhlələrin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün partiya rəhbərliyindən təcili tədbirlər görməyi tələb etdilər. Qurultayda çıxış edən partiya üzvü Cavad Məlik-Yeqanov partiyanın fəhlə məsələsi ilə bağlı fəaliyyəti barədə kəskin tənqidi fikirlər söyləyərək, müstəqil Azərbaycan dövlətinin yaradılmasında və onun ərazi bütövlüyünün qorunmasında fəhlələrin rolunu xatırladaraq bildirdi ki, bunun müqabilində onlara "heç də yaxşı şərait yaradılmayıb. Buna baxmayaraq, fəhlələr "Müsavat"ın arxasınca gedir və inanırdılar ki, bu partiya onların iqtisadi vəziyyətini yaxşılaşdıracaq"[139].

Qurultayın işlədiyi vaxt davam etməkdə olan hökumət böhranı da qurultay iştirakçılarının diqqətindən yayınmadı və onların müzakirə obyektinə çevrildi. Məsələ ilə əlaqədar baş nazir N.Yusifbəylinin məlumatını dinləyərək, ölkənin idarə edilməsi sahəsində onun apardığı xətti bəyəndiyini və ona etimad göstərdiyini bəyan etdi. Mövcud hökumət böhranı ilə əlaqədar narahatlığını bildirən müsavatçılar partiyanın parlament fraksiyasına digər parlament fraksiyalarının köməyinə arxalanaraq tezliklə yeni hökumət kabineti təşkil etmək üçün səylərini artırmağı tövsiyə etdi[140].

II qurultay həmçinin Denikin hücumunun təhlükəsi barəsində qətnamə qəbul etdi və bu təhlükəni dəf etmək üçün Azərbaycan xalqını öz hökuməti ətrafında birləşməyə çağırdı.

Respublikanın daxili siyasi həyatına aid olan sosial-iqtisadi və siyasi məsələlərlə yanaşı, Qafqaz xalqları konfederasiyasının yaradılması məsələsinə xüsusi diqqət yetirən qurultay konfederasiya ittifaqında birləşmək prinsipini məqsədəuyğun hesab etdiyini bildirərək, bütün Qafqaz demokratiyasını, həmçinin qonşu respublikaların hökumətlərini bu amalı həyata keçirməyə çağırdı[141].

1919-cu il dekabrın 11-də "Müsavat" Partiyasının II qurultayı MK sədri M.Ə.Rəsulzadə, MK üzvləri H.Ağayev, M.H.Hacınski, Ş.Rüstəmbəyov və M.Hacınski olmaqla partiyanın Mərkəzi Komitəsini seçdikdən sonra öz işini başa çatdırdı[142].

Hakimiyyət böhranının davam etməsinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin hökumət və parlamenti öz fəaliyyətlərini davam etdirir, vətəndaşların

hüquq və azadlıqlarının real müdafiəsi istiqamətində mühüm əhəmiyyətli addımlar atırdı. 1919-cu il oktyabrın 30-da parlament tərəfindən qəbul edilmiş "Mətbuat haqqında Nizamnamə" məhz bu məqsədə xidmət edirdi. Oktyabrın 23-də parlamentin iclasında müzakirəyə çıxarılan Nizamnamə layihəsi sosialistlərin simasında dərhal müxalifətin tənqid hədəfinə çevrildi. Sosialistlərin etirazına səbəb olan əsas məsələ layihənin mətbuat orqanlarının açılması şərtləri haqqında maddəsində yerli hakimiyyət tərəfindən naşirin səlahiyyətlərinin yoxlanmasının nəzərdə tutulması idi. Layihəni "boyunduruq" adlandıran sosialist fraksiyası ümumiyyətlə mətbuat haqqında hər hansı qanun qəbul edilməsinə qarşı çıxdı[143]. Layihənin birinci oxunuşunda digər fraksiyalar "Əhrar" və "İttihad", həmçinin bitərəflərin bir hissəsi sosialistləri dəstəklədilər. Yad dövlətin təbəələrinə mətbu orqanları buraxmağı qadağan edən maddə daha kəskin mübahisələrə səbəb oldu. Nizamnamə layihəsinin bu maddəsinə qarşı xüsusi fəallıq göstərən sosialistlər sırf partiya mənafeyindən çıxış edirdilər.

Əslində Azərbaycan hökumətinə, hakim dairələrinə düşmən mövqedə duranlar senzuranın, demək olar ki, yoxluğundan istifadə edərək, özlərinin "İskra", "Znamya truda", "Trudovoe Znamya", "Vpered", “Molot", "Nabat" və s. kimi mətbuat orqanları vasitəsilə bolşeviklərin və b. siyasi qüvvələrin müstəqil milli dövlət quruculuğuna qarşı yönələn və onun dayaqlarını sarsıdan ideyalarını açıq şəkildə təbliğ edirdilər.

Qanun layihəsini baş nazirin özü, "Müsavat" fraksiyasının üzvləri M.Rüstəmbəyov, M.Ə.Rəsulzadə, K.Kazımzadə, Y.Əhmədov müdafiə etdilər.

Opponentlərin ümumi fikrini ifadə edən Ə.Pepinov, S.Ağamalıoğlundan sonra çıxış edərək, məhdudlaşdırıcı tədbirlər haqqında maddələri çıxarıb layihədə dəyişiklik etmək üçün onu komissiyaya qaytarmağı təklif etdi[144]. Səsvermə zamanı 27 səsə qarşı 39 səslə sosialistlərin qətnaməsi keçsə də, qanun layihəsinə dəyişiklik edilməsini istəməyənlər əlavə səsvermə keçirilməsinə və onun ilkin variantda qəbul edilməsinə nail oldular.

Ciddi müzakirələrdən sonra qəbul edilən "Mətbuat haqqında qanunnamə", bir sıra nöqsanlarına baxmayaraq, demokratik və azad mətbutatın inkişafı üçün real imkanlar açırdı. Nizamnaməyə görə, məttbu orqanların açılması üçün hökumətin razılığı tələb olunmurdu. Həddi-büluğa çatmış və məhkum olunmamış hər bir savadlı Azərbaycan vətəndaşı mətbu orqan aça bilərdi. Bu orqan yalnız məhkəmənin qərarı əsasında və cinayət törətdiyi halda məsuliyyətə cəlb oluna bilərdi[145]. Axırıncı müddəa əslində mətbuat üzərində senzuranın ləğv edilməsi demək idi. Bu qanunun qəbul edilməsi söz azadlığı sahəsində Azərbaycanı qabaqcıl dünya ölkələrilə bir sıraya qoyurdu. Nizamnamənin ümumi ruhu kütləvi informasiya vasitələri haqqında mütərəqqi təsəvvürlərə və normalara tamamilə uyğundur.

Bununla bərabər, yeni hökumət kabinetinin formalaşdırılması prosesi də davam etdirilirdi. Bu işə məsul olan N.Yusifbəyli partiyaların nümayəndələri ilə danışıqlar aparırdı. Yaranmış vəziyyət koalisiyanın indi başqa qüvvələrdən ibarət olacağını göstərirdi. N.Yusifbəyli tərəfindən təqdim edilən namizədlər siyahısından görünürdü ki, o, "Müsavat"dan sonra ən böyük parlament fraksiyasına malik olan

"İttihad" partiyasının nümayəndələrini hökumətə cəlb etmək istəyir. İttihadçıların hökumətə cəlb edilməsi təsadüfi xarakter daşımırdı. Nazirlər kabinetində əksəriyyət təşkil edən "Müsavat" Partiyası üzvləri indiyə qədər onlara müxalifətdə olan digər siyasi qüvvədən əməkdaşlıq vasitəsilə istifadə etməyə çalışırdı.

"İttihad" yeni hökumətin "Müsavat" və "İttihad" fraksiyaları, həmçinin bitərəflər bloku əsasında formalaşdırılmasını təklif edirdi[146].

Lakin "Müsavat" iri burjuaziyanın nümayəndələri olan bitərəflərlə ümumi dil tapa bildi və 1919-cu il oktyabrın 23-də onlar "Müsavat və bitərəflər" adı altında bir fraksiyada birləşdilər[147]. Bu birləşmə müsavatçıların mövqeyini gücləndirdi. Kabinetin tərkibi məsələsi təkrar müzakirə edildikdən sonra "İttihad" "Müsavat"ın daxili və xarici siyasət taktikası ilə prinsipial ixtilafda olduğuna görə yeni hökumətin tərkibində iştirakdan imtina etməyi qərara aldı. Eyni zamanda N. Yusifbəylini bitərəf hökumət yaratmağa qadir olmayan məhdud partiya lideri hesab etdiyini bildirən "İttihad" onun təşkil etdiyi hər cür hökumətə etimadsızlıq göstərilməsi haqqında qərar qəbul etdi.

Sosialistlər də hökumətə daxil olmaq təklifini rədd etdilər, lakın bu qərar qəti deyildi və onlar hökumətə daxil olmaq imkanını irəli sürdükləri tələblər yerinə yetiriləcəyi halda istisna etmirdilər.

Həmin tələblər aşağıdakılar idi:

1. Denikinə qarşı mübarizə aparan dağlı xalqlarına fəal kömək göstərmək;

2. Qonşu respublikalar arasında bütün mübahisəli məsələləri həll etmək;

3. Fəhlə təşkilatlarının təqib edilməsini dayandırmaq və siyasi motivlərə görə həbs olunanları azad etmək;

4. Ölkədə mövcud olan qanunsuzluqların, özbaşınalıqların və siyasi hüquqların məhdudlaşdırılmasının qarşısını almaq;

5. Torpağın dərhal kəndlilərə verilməsini dekretləşdirmək, məsələ tam həll edilənə qədər bütün torpaq icarəsi müqavilələrini ləğv etmək və torpaqları kəndlilərdə saxlamaq;

6.Ərzaq məsələsinin nizama salmaq üçün qəti tədbirlər görmək[148].

Millətlərarası razılıq əldə etməyə çalışan N.Yusifbəyli erməni fraksiyasının nümayəndələrini də hökumətə cəlb etməyə razı idi, Vəzifələrin əhalinin milli tərkibinə uyğun bölüşdürülməsini və erməni millətindən olan vətəndaşlar üçün xüsusi şərait yaradılmasını təklif edən və hökuməti erməniləri sıxışdırmaqda günahlandıran erməni fraksiyası əslində yerinə yetirilməsi mümkün olmayan şərtlər irəli sürürdü[149]. Erməni deputatlarına müraciəti bir sıra fraksiyalar tərəfindən etirazla qarşılanan N.Yusifbəyli bu addımı ilə ermənilərin ittihamlarının əsassızlığını sübut etməyə çalışırdı.

Dekabrın əvvəllərində N.Yusifbəylinin fraksiyalarla danışıqları gedişində yeni koalisiya haqqında prinsipial razılıq əldə edildi. Nazir vəzifələrinin bölüşdürülməsi həll olunmamış qalırdı. Ən çox mübahisəyə səbəb olan daxili işlər naziri vəzifəsi idi. "Müsavat" və sosialistlər bu vəzifəni özlərində saxlamağa, "İttihad" isə bitərəf adama verməyə çalışırdı. Bütün fraksiyaların bu vəzifəyə yiyələnmək cəhdləri bu güc nazirliyinin dövlət idarəçilik sistemində xüsusi vəziyyəti ilə, yəni həm polis orqanlarının, həm inzibati orqanların, həm də gömrük və vergi strukturlarının ona tabe olması ilə bağlı idi. Son nəticədə

bütün fraksiyalar M.H.Hacınskinin namizədliyi ilə razılaşdılar.

Beləliklə, növbəti kabineti formalaşdırmaq məsələsi ətrafında fraksiyaların mübahisələri 1919-cu il dekabrın ortalarına qədər davam etdi və nəhayət, yeni hökumət üzvlərinin siyahısı parlamentə təqdim edildi.

1919-cu il dekabrın 22-də parlament hökumətin aşağıdakı tərkibini təsdiq etdi: Nəsib bəy Yusifbəyli - Nazirlər Şurasının sədri "Müsavat"), Məmmədhəsən Hacınski - daxili işlər naziri ("Müsavat"), Xəlil bəy Xasməmmədov - ədliyyə naziri ("Müsavat"), Həmid Şahtaxtinski - xalq təhsili naziri ("İttihad"), Rəşid Kaplanov – ticarət - sənaye və ərzaq naziri ("Əhrar"), Əhməd bəy Pepinov - əmək və əkinçilik naziri (sosialist), Camo Hacınski - poçt və teleqraf naziri (sosialist), Sultan Məcid Qənizadə - dövlət nəzarətçisi "İttihad"), Səməd bəy Mehmandarov - hərbi nazir (bitərəf), Xudadat bəy Məlikaslanov - yollar naziri (bitərəf)[150].

Yeni hökumət kabinetinə, demək olar ki, bütün fraksiyaların nümayəndələri daxil idi və onlardan heç biri çoxluq təşkil etmirdi.

Beləliklə, uzun sürən hökumət böhranından və qızğın parlament mübarizəsindən sonra yeni koalisyon hökumət təşkil olundu.

Hökumətin yeni tərkibi təsdiq edildikdən sonra baş nazir parlament üzvləri qarşısında yeni kabinetin perspektiv vəzifələri haqqında geniş məruzə ilə çıxış etdi. Azərbaycan Xalq Cümhuriyyətinin qarşısında duran ən ümdə problemlər - sosial-iqtisadi və maliyyə məsələlərinin həlli, ölkənin ərazi bütövlüyünün təmin edilməsi, vətəndaş hüquqlarının qorunması, dövlətin demokratik və hüquqi əsaslarının möhkəmləndirilməsi, xarici ölkələrlə həm siyasi, həm də iqtisadi əməkdaşlığın qurulması və onların genişləndirilməsi kimi problem məsələlər məruzədə öz əksini tapmışdı.

Hökumətin fəaliyyət proqramında nəzərdə tutulmuş əsas istiqamətlərdən biri dövlətin ərazi bütövlüyünün müdafiəsi və möhkəmləndirilməsi məsələsi çoxdan idi ki, diqqət mərkəzində dururdu. Artıq yeni kabinet təşkil olunanda Lənkəran qəzası və vaxtilə qiyamçı qüvvələrin əlinə keçmiş Zəngəzur qəzasının yarısı da daxil olmaqla Qarabağın əksər hissəsi azad edilmiş, Şərur-Naxçıvan məsələsi faktik olaraq Azərbaycanın xeyrinə həll edilmişdi[151]. Bu mürəkkəb məsələlər, məruzədə qeyd edildiyi kimi, daha çox dinc vasitələrlə, milli azlıqların, xüsusən Qarabağ ermənilərinin hüquqları nəzərə alınmaqla yoluna qoyulmuşdu. Qarabağın erməni əhalisi yerli özünüidarə məsələlərinin, birinci növbədə maarif məsələlərinin həllinə cəlb edilmişdi. Azərbaycan Xalq Cümhuriyyəti milli azlıqların hüquqlarının qorunması məsələsində Cənubi Qafqaz respublikaları içərisində qabaqcıl mövqe tutaraq çox iş görmüşdü.

Hökumət bəyannaməsində də Azərbaycanın qonşu ölkələrlə münasibətlərdə sülh prinsiplərinə sadiq qalacağı bir daha vurğulanırdı. Bu zaman Gürcüstan hökuməti ilə hərbi müdafiə paktı imzalanmışdı, yeni hökumətin yaradılması dövründə isə Azərbaycan Xalq Cümhuriyyəti ilə Ermənistan Respublikası arasındakı qarşılıqlı münasibətlərdə mövcud olan bir sıra mübahisəli məsələlərin, o cümlədən sərhəd məsələlərinin müzakirəsi üçün Bakıda Azərbaycan-Ermənistan konfransı keçirildi. Baş nazir N. Yusifbəylinin fikrincə, "bütün bunlar gələcəkdə Cənubi Qafqaz respublikaları arasında daha sıx əlaqələr

yaradılmasına və bu əlaqələrin ya ittifaq, ya da konfederasiya şəklində birliyə gətirib çıxaracağına"[152] ümid verirdi,

Xarici əlaqələrin inkişafını diqqət mərkəzinə çəkən baş nazir öz məruzəsində həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin qonşu Türkiyə və İran dövlətləri ilə qarşılıqlı əlaqələrinə də toxunaraq, hər iki ölkə ilə siyasi və iqtisadi münasibətlərin möhkəm təməl üzərində qurulmaqda olduğunu qeyd etdi. Hökumət artıq İranda nümayəndəliyin açılması haqqında qərar qəbul etmişdi. Ancaq yeni hökumət bununla kifayətlənməyərək, Avropa ölkələri ilə də əlaqələrin genişləndirilməsini və bu istiqamətdə ilk addım kimi böyük dövlətlərin paytaxtlarında diplomatik missiyalar, yaxud nümayəndəliklər açmağı nəzərdə tuturdu.

Azərbaycanın beynəlxalq münasibətlərində Rusiyaya xüsusi əhəmiyyət verən N.Yusifbəyli hələ birinci kabinetini formalaşdırarkən onunla sıx əlaqələr qurulması kursunu elan etmişdi. Rusiyanın Azərbaycan nefti üçün əsas bazar olduğunu qiymətləndirən hökumət buna görə, birinci növbədə onunla diplomatik münasibətlər qurulmasının vacibliyini dərk edirdi. Lakin hadisələrin sonrakı inkişafı Azərbaycan-Rusiya münasibətlərində yeni təzadlar və problemlər yaratdı.

Hərbi quruculuq sahəsində əhəmiyyətli uğurların olduğunu qeyd edən baş nazir hərbi islahatların həyata keçirilməsi üçün ciddi səylər göstərəcəyini bildirdi.

Hökumətin fəaliyyət proqramında nəzərdə tutulmuş məsələlərin həlli, ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi və ən nəhayət, güclü, demokratik dövlət yaradılması üçün dövlətin iqtisadi platformasının mühüm tərkib hissəsi olan yeni maliyyə sisteminin formalaşdırılması qarşıda duran ən mühüm vəzifələrdən idi.

Baş nazir bəyannaməsində iqtisadi məsələlərə xüsusi yer ayıraraq, ölkənin maliyyə vəziyyətinin əsaslandırılmış tənqidi təhlilini verdi. Mövcud vəziyyəti yaxşılaşdırmaq üçün bəyannamədə bir sıra məsələlərin həlli, o cümlədən vergi sisteminin dəyişdirilməsi, əmtəə dövriyyəsinin artırılması, milli valyutanın möhkəmləndirilməsi nəzərdə tutulurdu.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətindən qarşısına qoyduğu vəzifələri həll etmək üçün birinci növbədə milli kadr hazırlığı tələb olunurdu. Respublikanın mövcudluğunun ikinci ilində artıq milli təhsil sisteminin yaradılmasına başlanılmış, bütün ibtidai məktəbdə təlimin ana dilində aparılması, dövlət dilinin icbari fənn kimi tədrisi həyata keçirilmiş, Bakı Dövlət Universiteti təsis edilmişdi. Milli kadrların hazırlanması ölkənin öz daxilində görülən işlərlə məhdudlaşdırılmamış, parlament azərbaycanlı tələbələrin xarici ölkələrin qabaqcıl ali məktəblərində təhsil almağa göndərilməsi haqqında müvafiq qərar vermişdi.

Dörd ay davam etmiş hökumət böhranı sosial həyat şəraitinin daha da pisləşməsinə səbəb oldu. Dövlətin sosial siyasətinin mühüm tərkib hissəsi olan səhiyyə sistemində yaranmış ağır vəziyyət bunu aydın göstərirdi. Respublika ərazisində malyariya, traxoma və diger tropik xəstəliklər yayılmaqda idi. Həkim və digər səhiyyə kadrları, dərmanlar çatışmırdı, əhali arasında, xüsusən kənddə savadsızlığın yüksək səviyyəsi elementar sanitargigiyena tədbirlərinin uğurla həyata keçirilməsinə əngəl törədirdi.

Xalq səhiyyəsi sahəsində yaranmış ağır vəziyyəti yüngülləşdirmək üçün hökumətin başçısı bir sıra tədbirlərin həyata keçirilməsini bataqlıq və göllərin qurudulmasını, içməli suyun keyfiyyətinin yaxşılaşdırılması üçün müəyyən işlər görülməsini, tibbi kadrlar hazırlanmasını, onların sayca artırılmasını zəruri hesab etdi. Lakin bütün bu işlərin yerinə yetirilməsi üçün tələb olunan külli miqdarda mal vəsaitini isə tapmaq çox çətin idi. İrəvan quberniyasında ermənilərin genosidinə məruz qaldığı üçün öz tarixi vətənlərindən Azərbaycana pənah gətirmiş, sayı 150 mindən çox qaçqın türk-müsəlman əhalinin olması vəziyyəti daha da mürəkkəbləşdirirdi.

Təbii ki, yalnız dövlətin gücü ilə bu çətin vəziyyətdən çıxmaq mümkün deyildi, buna görə də baş nazir öz bəyannaməsində yerli təşkilatları qaçqınların həyat şəraitini yüngülləşdirmək üçün səylərini artırmağa çağırdı.

Sosial islahatların həyata keçirilməsi - əməyin təşkili və mühafizəsi sahəsində qanunların qəbul edilməsini, vergilərin varlı təbəqələrindən tutulmasını, dövlət aparatı işçilərinin aldığı maaşların artırılmasını, zəruri tələbat malları qiymətlərinin aşağı salınmasını nəzərdə tuturdu.

Respublika əhalisinin əksər hissəsini təşkil edən kəndlilərin həyat şəraitinin yaxşılaşdırılması torpaq məsələsinin həllindən bilavasitə asılı idi. Amma hökumətin o vaxtadək bu sahədə atdığı addımlar uğursuzluqla nəticələnirdi. Bununla əlaqədar olaraq, baş nazir parlament qarşısında aqrar qanununun təcili müzakirəyə çıxarılıb qəbul edilməsi məsələsini qaldırdı.

Baş nazir hökumətin fəaliyyəti barədə çıxışının sonunda hökumətin əsas vəzifəsinin Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq olduğunu xüsusi qeyd etdi və həm parlamenti, həm hökumət üzvlərini siyasi qarşıdurmaya son qoymağa və yeni hökumətin ətrafında birləşməyə çağırdı[153].

"İttihad" fraksiyasının lideri doktor Q.Qarabəyov, partiyası üçün hökumətdə iki nazir vəzifəsi alsa da, öz ənənəsinə sadiq qalaraq hökumətin proqramını kəskin tənqid etdi. O, dövlət məmurlarını rüşvətxorluqda, vəzifədən sui-istifadədə ittiham edib, "Respublika qəzalarını tamamilə yaddan çıxarmış" Maarif Nazirliyini isə kəskin tənqid atəşinə tutdu.

Sonuncu hökumət kabinetinin tərkibinə də, özündən əvvəlki iki kabinetdə olduğu kimi, sosialist fraksiyasının nümayəndələri daxil edilmişdi və bu onların özlərini hökumət partiyalarından biri kimi qəbul etmələrinə əsas verirdi. Lakin bu fraksiyanın nümayəndələri də hökümətə qarşı ittihadçılar kimi tənqidi mövqedə dayanmışdılar. Belə ki, öz fraksiyası adından çıxış edən A.Səfikürdski (əvvəlki hökumətdə o, əmək və ədliyyə nazirliklərinə başçılıq etmişdi, yeni hökumətə isə daxil edilməmişdi) keçmiş hökuməti ölkədəki iqtisadi böhran dövründə fəhlələrin ağır vəziyyətini yaxşılaşdırmamaqda günahlandıraraq, onlara hökumətin müdaxiləsi olmadan həmkarlar ittifaqları yaratmaq da daxil olmaqla geniş siyasi hüquqlar verilməsini təkid etdi. Bundan sonra o, hökumətin digər bir zəif yeri olan aqrar məsələyə toxunaraq onun tez bir zamanda kəndlilərin xeyrinə həll olunacağına ümid etdiyini bildirdi[154].

Hökumətin fəaliyyətini tarixi şəraitin reallıqlarını nəzərə almadan tənqidi qiymətləndirmək, ona kölgə salmaq birmənalı qarşılana bilməzdi. Məhz buna görə əhrarçı M.Ə.Əfəndizadə və "Müsavat"ın lideri M.Ə.Rəsulzadə sonra çıxış edib həmin natiqlərin mövqelərinə mənfi münasibətlərini açıqladılar. M.Ə.Rəsulzadə partiyası yeni hökumətin tərkibinə öz nümayəndələrini keçirə bilən "İttihad"ın liderinə məsuliyyət hissindən azad bir insanın psixologiyasından əl çəkməyi məsləhət gördü. O, Q.Qarabəyovun nitqində Maarif Nazirliyinin fəaliyyətinə qarşı səslənmiş iradlarla əlaqədar xatırlatdı ki, yeni hökumətdə Maarif Nazirliyi məhz "İttihad"ın nümayəndəsi H.Şahtaxtinskiyə həvalə edilmişdir və parlament üzvləri yeni təyin edilmiş nazirin bu işi yeni tələblər səviyyəsində quracağına ümid edirdilər. Səfikürdskinin mövqeyinə münasibətini bildirən Rəsulzadə sosialist fraksiyasının deputat rolunda özünü çox sərbəst hiss edən "sorğu vermək, sual etmək" bacarığına malik olan başçısına onun keçmiş nazir kimi hökumətin fəaliyyəti ilə birbaşa bağlı olduğunu yadına saldı[155].

Hökumət proqramının təqdim olunmasından sonra parlamentdəki fraksiyalar arasında başlanan müzakirələrin gedişi bir daha göstərdi ki, yenicə formalaşdırılmış koalisyon hökumətdə başlıca məsələlərə dair konsensusa nail olmaq çətin olacaq. Çünki yeni hökumətdə koalisiyaya girən partiyalar arasında mövcud siyasi ixtilafları törədən ziddiyyətli səbəblər qalmaqda idi. Bu isə hökumətin gələcək fəaliyyətinə öz mənfi təsirini göstərməkdə idi.

Öz fəaliyyətinin ilk günlərindən yeni hökumət kommunistlərin güclənməsi kimi yeni siyasi amili ciddi şəkildə nəzərə almalı oldu. Kommunistlərin 1918-ci ilin yayından aşağı səviyyəyə enmiş nüfuzu 1919-cu ilin sonlarında bir qədər artdı. Hələ 1918-ci ilin noyabrında Rusiya Kommunist (bolşeviklər) Partiyası adlanmış partiyanın sağ qalan yerli üzvlərin sonralar Bakı Komitəsinə çevrilmiş Müvəqqəti Büro yaratdılar.

Bolşeviklər ilk növbədə mədən-zavod komitələri nümayəndələrindən ibarət olan, daimi fəaliyyət gostərən orqanı - Bakı Fəhlə Konfransını ələ aldılar. Bakı Fəhlə Konfransı (BFK) adlanan təşkilat ilk dəfə 1918-ci il dekabrın 15-də toplandı. Bu seçkili təşkilatda səsvermə hüququndan yalnız Bakı şəhərinin fəhlə və qulluqçuları istifadə edirdilər. Bundan əlavə, BFK-ya gəmi və idarə komitələrindən, həmkarlar ittifaqlarından da nümayəndələr göndərilirdi[156].

BFK öz fəaliyyətinə iqtisadi məsələlərlə bağlı işlərdən başladı, sonra isə kommunistlərin təsiri altında siyasi mübarizə yoluna keçdi, BFK-da liderlik uğrunda eserlər, menşeviklər və kommunistlər arasında gərgin mübarizə gedirdi. Son nəticədə BFK-da rəhbərlik kommunistlərin əlinə keçdi, bu da BFK-nın çıxardığı qərarların xarakterini dərhal müəyyənləşdirdi.

Parlamentarizm bərqərarlaşdıqca ölkədə Azərbaycan sosialist hərəkatı və başqa siyasi cərəyanlar fəallaşırdı. Bu dövrdə Azərbaycan kommunistləri Azərbaycan sol eserləri ilə ittifaqda idi. Onlar sosializm uğrunda inqilabi mübarizə və Sovet hakimiyyəti mövqeyində durur və milli məsələdə Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin tanınması və onun müstəqil sovet respublikasına çevrilməsi tələblərini irəli sürürdülər. Ruhulla Axundov, Əhməd Əhmədov, Rəhim Hüseynov, Həbib Cəbiyev, Əli Bayramov və başqaları sol

eserlərin fəal nümayəndələri idilər[157].

Azərbaycan sol eserlər partiyasının yaranması 1918-ci ilin noyabrından başlanır[158]. Bu partiya əsasən Bakı fəhlələri içərisində fəaliyyət göstərirdi. Doğrudur, Azərbaycan sol eserlər partiyası və digər müsəlman sosialist partiyaları geniş müsəlman zəhmətkeş kütlələri içərisində böyük nüfuza malik deyildilər, çünki Fevral inqilabının başlanmasından 1919-cu ilə qədər olan dövrdə azərbaycanlı əhali içərisində dərin siyasi ayrılıq nəzərə çarpmırdı.

1919-cu ilin noyabrında Bakıda "Xalqçı" müsəlman eserlər partiyasının Mərkəzi Komitəsi tam formalaşana qədər bu partiya qrupunun nümayəndələri müsəlman eser təşkilatına daxil idilər[159]. “Xalqçı" Partiyası əsasən ziyalılardan ibarət idi. Onun, demək olar ki, bütün nümayəndələri ali və ya orta təhsil almışdı, sədri isə A. Səfikürdski idi.

1919-cu ilin sonu - 1920-ci ilin əvvəllərində "Xalqçı" artıq müstəqil partiya kimi fəaliyyət göstərirdi və Müsəlman Sosialist Blokunun üzvü hüququnda parlamentə daxil idi. Partiya, demək olar ki, bütün məsələlərdə "Müsavat"a qarşı tənqidlə çıxış edirdi. Buna görə də bütövlükdə Müsəlman Sosialistlər Bloku hökumətin tərrkibində qaldığı halda, "Xalqçı" partiyasının üzvləri N.Yusifbəylinin başçılıq etdiyi kabinetə daxil olmadı. "Xalqçı" kommunistlərlə heç bir əlaqə saxlamırdı[160].

Kommunistlərlə əlaqədə hərəkət edən digər müsəlman sosial-demokrat partiyası "Hümmət" idi.

Hakimiyyətə can atan kommunistlər müsəlman sosialist hərəkatı amilini nəzərə almaya bilməzdilər. Bu hərəkatın yerli əhali ilə möhkəm əlaqədə olmadığını nəzərə alan kommunistlər müsəlman sosialistlərinin işini bu istiqamətə yönəltməyə, eyni zamanda bu işə rəhbərliyi qeyri-rəsmi olaraq öz əllərinə keçirməyə çalışırdılar. Bundan Hümmət", "Əkinçi", "Ədalət" partiyaları daxil olmaqla, bütün ifrat sol müsəlman təşkilatlarının fəaliyyətini səmərəli şəkildə idarə etmək lazım idi. "Hümmət”ə münasibətdə bu partiyanın ənənələrini, rəhbərliyində menşeviklərin üstünlüyünü və onun sadə üzvlərinin Rusiya ilə bağlı olan hər şeyə etibar etmədiyini nəzərə alsaq, bu çox da sadə məsələ deyildi.

1919-cu ilin mayında rus bolşeviklərinin azərbaycanlılara təsirinin məhdudluğu barədə A.Mikoyan Moskvaya yazırdı: "Bizim partiyamızda ağıllı, işə sədaqətli və fəal müsəlman nümayəndələrinin kəskin çatışmazlığı müsəlman sosialistlərinin millətçi ruhlu sağ qanadına müsəlman fəhlələrinin bir hissəsini öz təsiri altında saxlamağa imkan verir. Sovet tipli hökuməti qəbul edənlər qorxurlar ki. bu, əcnəbi rus hökuməti olacaq və onların özləri hakimiyyətə gələ bilməyəcəklər"[161].

"Hümmət"i özlərinə tamamilə tabe edənə qədər bolşevik liderləri "hümmət" rəhbərliyinin radikal və mülayim əhval-ruhiyyəli qanadları arasında daxili ziddiyyətləri qızışdırmaq yolu ilə partiyanı yenə və bu dəfə qəti, parçalanmaya gətirib çıxartdılar. Bu hadisə iyulun sonlarında baş verdi. Partiyanın əvvəllər Tiflis mərkəzi ilə bağlı olan üzvləri

öz təşkilatının köhnə adını (Sosial-Demokrat Fəhlə Partiyası "Hümmət") saxlamaqla özlərini sağ təşkilat kimi qələmə verirdilər. Onlar parlament sisteminin tərəfdarları kimi qalırdılar. 1919-cu ilin dekabrında onların liderlərindən biri - Ə.Pepinovun əmək naziri kimi N.Yusifbəylinin hökumət kabinetinə daxil olması bunu sübut edirdi. "Hümmət"in sol qanadı isə Azərbaycanda hakimiyyətin sovetlərə keçməsi məsələsini açıq şəkildə qoyurdu.

## §3. AZƏRBAYCAN ORDUSUNUN QURULMASI. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ƏRAZİ BÜTÖVLÜYÜ UĞRUNDA MÜBARİZƏ

Azərbaycanın istiqlaliyyətinin elan olunduğu tarixi şərait, onun qərar tutduğu bölgədə cərəyan edən proseslər xalqın müstəqilliyini qoruyacaq ordunun formalaşdırılmasını tələb edirdi.

Hələ Türkiyə hərbi qüvvələri Azərbaycanda olarkən başlanmış ordu quruculuğunu sürətləndirmək və onu daha da səmərəli aparmaq üçün 1918-ci il oktyabrın 23-də respublika hökumətinin iclasında Hərbi Nazirliyin yaradılması qərara alındı[162]. Bu qərar Nazirlər Şurası tərəfindən noyabr ayının 1-də imzalandı. Yeni şəraitdə Azərbaycanın ərazi bütövlüyünün qorunması tamamilə Hərbi Nazirliyin üzərinə düşməli idi. Bu struktur dövlətin qarşısında duran tarixi vəzifələrin həllində mühüm rol oynadığından ona rəhbərliyi ilk vaxtlar Nazirlər Şurasının sədri F.X.Xoyski öz üzərinə götürdü. Nazir müavini isə artilleriya generalı Səməd bəy Mehmandarov təyin edildi və ona Nazirliyin formalaşdırılması tapşırıldı[163].

General S.Mehmandarov milli ordunun yenidən qurulmasına formalaşması başa çatmamış və pərakəndə halda olan hissələri möhkəmləndirmək, onları vahid rəhbərlik altına gətirmək üçün, ilk növbədə, mərkəzi hərbi idarəetmə orqanlarını təşkil etməkdən başladı. Qısa müddət ərzində Hərbi Nazirliyin aparatı yaradıldı. Hərbi Nazirliyin təşkili barədə hökumət qərarından iki həftə sonra noyabrın 15-də ordunun Ümumi Qərargahının (Qlavnıy ştab) təsis edilməsi barədə S.Mehmandarovun müvafiq əmri imzalandı. Onun tərkibi ləvazimat, mühəndis, növbətçi general, general-kvartirmeyster, topçu, topoqrafiya, tibb, hərbi təhsil və nəzarət şöbələrindən ibarət idi[164]. Bu şöbələrin başçıları vəzifələrinə milli qoşun hissələrinin yaradılmasında artıq kifayət qədər xidmətləri olan zabitlər təyin edildilər: polkovnik H.Səlimov - Ümumi Qərargah və dəftərxananın, polkovnik Qaytabaşı - növbətçi general, polkovnik Seyfulla Mirzə - ləvazimat; general-mayor Tlexas - topçu şöbələrinin rəisləri, general- mayor Usubov hərbi təhsil şöbəsinin rəisi və qoşunlarda atıcılıq işinin müfəttişi oldular[165]. Adları çəkilən rəislərdən yalnız general Usubovdan başqa hamısı Müsəlman Korpusu yaradıldığı gündən milli hərbi hissələrin təşkilində fəal iştirak etmiş və Azərbaycanın ərazi bütövlüyünün qorunmasında, eləcə də müstəqil ordusunun formalaşmasında dəyərli xidmətlər göstərmişdilər.

Mudros müqaviləsinin şərtlərinə görə, müttəfiq dövlətlər adından Bakıya gəlməli olan ingilis hərbi qüvvələri komandanı general V.Tomson hələ Azərbaycana qədəm qoymamışdan əvvəl tələb etdi ki, 1918-ci il noyabrın 17-dək Türkiyə qoşunları kimi

Azərbaycan qoşunları da Bakı şəhərini tərk etsinlər[166]. Çünki Tomson Bakı şəhərini iqtisadi baxımdan, istərsə də hərbi-siyasi baxımdan mühüm strateji mərkəz sayır və ona nəzarəti tamamilə öz əlində saxlamaq istəyirdi. O, müstəqil Azərbaycan hökumətini tanımaq istəmədiyi kimi, onun nəzarəti altında olan hərbi qüvvələrə də etibar etmirdi. Ona görə 1918-ci il noyabrın 22-də Hərbi Nazirlik Gəncəyə köçdü[167] fəaliyyətini burada davam etdirdi. İngilis qoşunlarının komandanlığı Hərbi Nazirliyin Bakıdan kənarda fəaliyyət göstərməsinə etiraz etmirdi[168].

Bütün hökumət strukturlarının Bakıda yerləşdiyi halda, Hərbi Nazirliyin Gəncəyə köçürülməsi, heç şübhəsiz ki, hökumət orqanlarının onunla əlaqələrində və bütünlüklə ordunun formalaşması prosesində çətinliklər yaradırdı. Bununla belə S.Mehmandarovun rəhbərliyi altında hərbi komandanlığın apardığı yüksək təşkilatı işlər qısa zaman ərzində öz nəticəsini verdi. Həmin səmərəli fəaliyyətin nəticəsi idi ki, Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun əsas qüvvələri məhz Hərbi Nazirliyin Gəncədəki fəaliyyəti zamanı qurulmuşdu.

Hərbi Nazirlik yaradılanadək mövcud olan ordu hissə və bölmələri əsasən Gəncə və Qarabağda yerləşdirilmişdi. Bu da tarixi şəraitlə və qoşun hissələrinin icra etdikləri vəzifələrlə bağlı idi. Hərbi Nazirlik Gəncədə yerləşdikdən dərhal sonra 1918-ci il noyabr ayının 27-dən dekabrın 3-dək S.Mehmandarov Gəncə və Ağdam ətrafında yerləşən hərbi hissələri gəzib oradakı vəziyyətlə şəxsən tanış oldu. S.Mehmandarov hələ Türkiyə qoşunları Azərbaycanda olarkən təşkil edilmiş bu hissələrdə çox ciddi nöqsanlarla rastlaşdı və onları ümumiləşdirərək xüsusi əmrlə hissə komandirlərindən belə nöqsanların aradan qaldırılmasını tələb etdi[169]. S.Mehmandarov hissə və bölmə komandirləri qarşısında hər şeydən əvvəl belə bir vəzifə qoydu ki, Azərbaycan Ordusunda xidmət edən bütün şəxs-lərin dərhal Azərbaycan Xalq Cümhuriyyətinə sədaqət andı içməsi təşkil edilsin[170].

1918-ci ilin sonu və 1919-cu ilin əvvəllərində Hərbi Nazirliyin rəhbərliyində və strukturunda qismən dəyişiklik edildi ki, bu da ordunun formalaşdırılması prosesinə müsbət təsir göstərdi. Nazirlər Şurasının 1918-ci il 25 dekabr tarixli qərarı ilə artilleriya generalı Səməd bəy Mehmandarov hərbi nazir təyin edildi. Rus ordusunda xidmət edib yüksək hərbi rütbəyə çatmış S.Mehmandarova yüksək etimad göstərilməsi və onun nazir vəzifəsinə təyin edilməsi, heç şübhəsiz ki, elə ilk günlərdən ordunun formalaşdırılması istiqamətində onun səmərəli fəaliyyəti və hər şeydən əvvəl isə Azərbaycanın istiqlaliyyətinə sədaqəti ilə bağlı idi. Bu sədaqətini S.Mehmandarov respublika ordusundakı həyatı boyu xidməti ilə təsdiq etdi və bunun nəticəsi idi ki, 1918-ci ilin sonundan başlayaraq bolşevik istilasına qədər bir neçə hökumət kabineti dəyişsə də, S.Mehmandarov əvəzsiz olaraq hərbi nazir vəzifəsində qaldı.

Hərbi nazir kimi S.Mehmandarov əmrini ilk dəfə olaraq 1918-ci il 27 dekabrda imzaladı. Hökumətin 1918-ci il 29 dekabr tarixli qərarı ilə isə general-leytenant Ə.Şıxlinski hərbi nazirin müavini təyin edildi[171] Bu təyinat da Azərbaycan Ordusunun formalaşdırılması istiqamətində hökumətin qəbul etdiyi dəyərli qərarlardan biri idi. Çünki bu iki şəxsin təcrübəsi və biliyi orduda quruculuq işlərinin səmərəli xarakter almasına zəmin yaratdı.

Azərbaycanın ərazi bütövlüyünü qorumağa qadir olacaq ordunun qurulması üçün

mövcud olan strukturlar artıq müvafiq tələblərə cavab verirdi. Bu strukturların təkmilləşdirilməsi, qarşıda duran böyük vəzifələrlə əlaqədar olaraq, onların imkanlarının artırılması tələb olunurdu. Bunun nəticəsi idi ki, 1918-ci il 31 dekabr tarixli əmrlə Ümumi Qərargahın tərkibində olan topçu şöbəsinin bazasında Topçu İdarəsi yaradıldı.

Hərbi Nazirlik orduda xidmətin hüquqi əsaslarının hazırlanmasına xüsusi diqqət yetirirdi. Azərbaycan Ordusunun yeni qanunvericilik bazasının qısa müddətdə yaradılması mümkün olmadığı üçün hərbi nazirin 1919-cu ilin əvvəlində imzaladığı əmrlə Rusiya İmperiyasında 1917-ci il yanvar ayının 1-dək qəbul edilmiş hərbi qanunvericilik aktları qüvvədə saxlanıldı[172]. Buraya hərbi nizamnamələr, döyüş təlimatları, bütün xidməti sahələri tənzimləyən sənədlər, səfərbərlik, hərbi məhkəmə işlərinin aparılması üzrə əsasnamələr və s. daxil idi. Azərbaycan Ordusunda xidmət rejimi əsasən həmin qanunvericiliyə müvafiq qurulmalı idi. Ancaq həmin aktların Azərbaycanın müstəqilliyi, milli orduda xidmətin bu və ya digər tələbləri ilə uyğun gəlməyən tərəfləri ləğv edilir və nazirin əmrinə uyğun ya dəyişiklik edilməklə, ya da yeniləşdirməklə təkmilləşdirilirdi.

1918-ci il dekabrın 27-də Azərbaycan Xalq Cümhuriyyətinin hərbi nazirinin 34 saylı əmri ilə Azərbaycan dili orduda dövlət dili qəbul edilmişdi. Bununla bağlı hərbi nazir orduda xidmət edən, lakin dövlət dilini bilməyən zabitlər qarşısında belə bir tələb qoydu ki, bir ay müddətində heç olmasa komanda sözlərinin azərbaycanca qarşılıqlarını öyrənsinlər və əsgərlərə Azərbaycan dilində komanda versinlər. Bir ay müddətində bu tələbi yerinə yetirə bilməyən zabitlər dərhal ordudan xaric edilməli idilər[173]. Azərbaycan dilinin öyrənilməsi və savadsızlığın ləğvi üçün orduda müvafiq kurslar yaradıldı və həmin kursların aparılmasına təcrübəli mütəxəssislər cəlb edildi[174]. Əsgərlərlə ünsiyyətin, hərbi təlimin ana dilində aparılması, heç şübhəsiz ki, şəxsi heyəti əsgəri xidmətə daha yaxından bağlayır, onların mənəvi-psixoloji vəziyyətinə müsbət təsir göstərirdi. Hərbi Nazirliyin rəhbərliyi bu məsələyə xüsusi diqqət yetirirdi.

Azərbaycan döyüşçüsünün milli ruhda tərbiyələndirilməsi üçün mənsub olduğu xalqın tarixi keçmişindən qəhrəmanlıq nümunələrini öyrənməyə böyük əhəmiyyət verilirdi. Bu baxımdan S.Mehmandarov çox dəyərli fikir və təkliflər irəli sürmüşdü. O hesab edirdi ki, Azərbaycan xalqının qəhrəmanlıqlarla dolu hərb-döyüş tarixi araşdırılmalı və geniş kütlələrə çatdırılmalıdır. S.Mehmandarov şübhə etmirdi ki, azərbaycanlılardan təşkil edilmiş hərbi qüvvələr öz xalqının qəhrəmanlıq tarixini yaxşı bilməli, ondan ibrət götürməlidir. Hərbi nazir bu istiqamətdə aparılan işlərdə ifratçılıq etməyə, milli tərbiyənin millətçiliyin qızışdırılması ilə bir səviyyədə tutulması razı deyildi. Nazir onu da vacib sayırdı ki, Azərbaycan xalqının qəhrəmanlıq tarixi araşdırılmalı, kitablar şəklində çap edilməli və qoşun hissələrinə çatdırılmalıdır.

Hərbi qulluqçuların geyim formasında dəyişikliklər edilməsi və onun milli üslubda hazırlanması da əsgər və zabitlərin milli ruhunun formalaşması istiqamətində dəyərli addım oldu. Bunun üçün xüsusi komissiya yaradılmışdı. Komissiyaya general-leytenant Ə. Şıxlinski sədrlik edirdi və onun rəhbərliyi ilə hazırlanan hərbi geyim forması Azərbaycan Ordusunda 1919-cu il yanvarın 11-dən rəsmiləşdirildi.[175]

Yeni meyarlar əsasında qurulan orduya əsl milli kadrlar hazırlanması da Hərbi

Nazirliyin rəhbərliyi qarşısında dayanan mühüm vəzifələrdən biri idi. Bu vəzifənin həllinə nail olmaq üçün hələ Türkiyə qoşunlarının Azərbaycanda olduğu vaxt Gəncədə fəaliyyətə başlamış podpraporşiklər məktəbinin fəaliyyəti yenidən quruldu və onun statusu artırılaraq praporşiklər məktəbinə çevrildi[1]". Məktəbdə təlim-tərbiyə prosesi də yeni statusa uyğun olaraq yeniləşdi. Bu statusun mahiyyəti ondan ibarət idi ki, əgər əvvəldə məktəbi bitirənlərə ilkin zabit rütbəsini praporşik çinini yalnız hərbi hissələrdə bir müddət xidmət etdikdən və zabitliyə layiq olduqlarını sübut etdikdən sonra verirdilərsə, indi onlar dərhal praporşik rütbəsinə layiq görülürdülər. 1919-cu ilin sonunda isə praporşiklər məktəbinin bazasında hərbiyyə məktəbi təşkil edildi. Bundan başqa, Azərbaycan Ordusuna milli hərbi kadrlar hazırlayan istehkamçılar, hərbi dəmiryolçular və hərbi feldşer məktəbləri də açılmışdı[177].

Hərbi Nazirlik yaradıldığı ilk gündən onun qarşısında dayanan mühüm vəzifələrdən biri də xidmətə çağırış və səfərbərlik işini təşkil etmək idi. Bu məsələnin həllinin başlıca çətinliyi ondan irəli gəlirdi ki, Türkiyə qoşunları Azərbaycanda olarkən bir sıra qanunsuzluqlara yol verilmiş, əhalidə əsgəri xidmətə qarşı etimadsızlıq. təşviş və qorxu hissləri yaranmışdı. Digər tərəfdən, əvvəllər xidmətə cəlb olunanlara qarşı fiziki cəzaların tətbiq edilməsi, onların şəxsiyyətlərinin təhqir olunması, ən adi yaşayış normalarına malik olmamaları fərariliyin artmasına zəmin yaradırdı. Çağırış və səfərbərliyin təşkili yeni nazirliyin rəhbərliyi üçün nə qədər aktual idisə, fərariliyin artmasına səbəb olan şəraitin aradan qaldırılması üçün səmərəli tədbirlər sisteminin tətbiq edilməsi də o qədər vacib idi.

1918-ci ilin dekabrında S.Mehmandarov göstərirdi ki, fərariliyin əsas səbəblərindən biri orduya çağırışla məşğul olan orqanların fəaliyyətinin düzgün qurulmaması səbəbindən xidmətə yalnız rüşvət verib canlarını qurtara bilməyən şəxslərin çağırılmasıdır və qoşun hissələrində bir nəfər belə varlı övladının olmaması nəticəsidir. Yalnız praporşiklər məktəbində imkanlı adamların övladlarına rast gəlmək olardı ki, onlar da öz arzuları ilə təhsil almağa gəlmişdilər. Hərbi mükəlləfiyyətin bütün ağırlığı isə kasıbların üzərinə düşürdü[178].

1918-ci il dekabrın 25-də S.Mehmandarov hərbi xidmətə çağırışın yaxşılaşdırılması münasibətilə xalqa müraciət etdi. Həmin müraciətdə S.Mehmandarov Türkiyə qoşunlarının Azərbaycanda olduğu vaxt çağırış işində yol verilən nöqsanlara, hissələrdə əsgərlərə qarşı fiziki güc tətbiq edilməsinə, ağır məişət şəraitinə toxunur və onları aradan qaldırmaq üçün qətiyyətli tədbirlər həyata keçirilməsinə başlandığını vurğulayırdı.

Həyata keçirilən bütün bu tədbirlər Azərbaycan Ordusunun yeni-yeni hissələrinin təşkilinə imkan verdi. 1919-cu ilin əvvəllərində bu sahədə xeyli fəallıq duyulurdu. 1919-cu ilin yanvar ayında Gəncədə olan təlim taboru ləğv edildi və o, Gəncə alayının 2-ci taboruna çevrildi. Elə həmin ilin yanvar ayında bir zirehli qatarın şəxsi heyəti komplektləşdirilmişdi. Nazirlər Şurasının 1919-cu il 22 yanvar tarixli qərarı ilə Azərbaycan Korpusunun qərargahı ləğv edildi, onun zabitlərindən bir qismi Hərbi Nazirliyin aparatına cəlb edildi, bir çoxu isə qoşunlarda xidmətin təşkilinə göndərildi[179].

Qoşunların sayının artması ilə Ümumi Qərargahın tərkibində olan ləvazimat şöbəsi 1919-cu ilin əvvəllərində Ləvazimat İdarəsinə çevrilərək birbaşa hərbi nazirin tabeçiliyinə keçdi[180].

1919-cu il yanvarın 10-da hərbi Nazirlikdə Müvəqqəti Hərbi Şura yaradıldı. Hərbi Şuranın Əsasnaməsi və daimi tərkibi təsdiq edilənə kimi Müvəqqəti Hərbi Şura hərbi qanunvericilik və hərbi idarəetmə sahəsində mühüm məsələlərin müzakirə edilməsi və müvafiq qərar qəbul edilməsi ilə məşğul olmalı idi. Onun tərkibinə piyada və süvari diviziyalarının rəisləri, Ümumi Qərargahın rəisi, Topçu, Ləvazimatı və İstehkam idarələrinin rəisləri, general-kvartirmeyster, növbətçi general və tapşırıq generalı daxil idi. Hərbi Şuranın iclasları hərbı nazirin, ya da onun müavininin sədrliyi altında keçməli idi, Nazirliyin digər idarə və xidmət rəisləri onların xidmətlərinə aid olan məsələlərin müzakirəsi zamanı Müvəqqəti Hərbi Şuranın iclaslarına dəvət oluna bilərdilər[181].

1919-cu ilin martında Azərbaycan Ordusunun idarəetmə orqanlarında mühüm keyfiyyət dəyişikliyi baş verdi. Hərbi nazirin əmri ilə mart ayının 26-da Baş Ərkani-Hərb (Qeneralnıy ştab) təsis edildi və general-leytenant Məmməd bəy Sulkeviç bu orqanın rəisi təyin edildi. S.Mehmandarov bu strukturun yaradılmasını onunla əlaqələndirdi ki, Ümumi Qərargah (Qlavnıy ştab) həm qoşunların təlim-tərbiyəsi, həm ordunun döyüş hazırlığı, həm də ordunun təsərrüfat məsələləri və gündəlik qayğıları ilə eyni vaxtda səmərəli məşğul ola bilmir. Ordu böyüdükcə onun təsərrüfat məsələləri, təchizat, döyüş hazırlığı və s. kimi vəzifələr yeni yaradılan Baş Ərkani-Hərbin səlahiyyətinə, təsərrüfat və təminat məsələləri isə Ümumi Qərargahın səlahiyyətinə verildi. General-leytenant M.Sulkeviç Baş Ərkani-Hərbin rəisi təyin edildikdən sonra ordu hissələrinin formalaşması daha ahəngdar xarakter aldı, o cümlədən 2-ci Bakı piyada alayının formalaşdırılması sürətləndirildi, 3-cü Şəki süvari alayının təşkili tezliklə başa çatdırıldı.

Azərbaycan hökumətinin Azərbaycan xalqının iradəsini əks etdirdiyinə əmin olan müttəfiq dövlətlərin hərbi komandanlığı 1919-cu il aprelin əvvəllərində milli qoşun hissələrinin azsaylı kontingentinin Bakıda da yerləşdirilməsinə razı oldu. Martın 31-də hərbi nazirin əmri ilə Bakı şəhərində yerləşəcək hissə və bölmələr müəyyənləşdirildi. Həmin qüvvələrə bir piyada taboru, 400 nəfərlik süvari və bir topçu batareyası daxil idi. Bütün bu qüvvələrə 1-ci Tatar süvari alayının komandiri polkovnik Fərhad Ağalarov rəhbərlik edirdi. Bakı qarnizonunun rəisi vəzifəsi də ona həvalə olunmuşdu. Aprelin 5-də həmin qüvvələr Bakıya daxil oldu və Salyan kazarmalarında yerləşdirildi. Bu münasibətlə hərbi nazir S.Mehmandarov da Bakıya gəldi[182].

Azərbaycan Ordusunun qoşun hissələrini çox böyük təntənə ilə qarşılayan şəhər əhalisinin izdihamlı mitinqi keçirildi. Həmin mitinqdə Hacı Zeynalabdin Tağıyev çıxış edərək belə bir ordunun yaradılması münasibətilə S.Mehmandarovu təbrik etdi və öz sevincini bildirdi.

1919-cu ilin yayında və payızında ordu hissələrinin formalaşdırılması böyük sürətlə davam etdirilirdi. Bu dövr qoşun hissələrinin yaradılmasında ən məhsuldar dövr sayıla bilər. İngiltərə hərbi qüvvələri Azərbaycan ərazisini tərk etdikdən sonra Hərbi Nazirliyin rəhbər orqanları 1919-cu il iyunun 28-i, iyulun

əvvəllərində yenidən Bakıya köçürüldü[183].

1919-cu ilin payızında təşkil edilən ən əhəmiyyətli hərbi strukturlardan biri - Bakı İstehkam hissəsi, yəni Bakının Möhkəmləndirilmiş Müdafiə rayonu idi. Bu strukturun yaradılmasından başlıca məqsəd Denikin ordusunun şimaldan, xüsusən dənizdən ehtimal olunan təhlükəsinin qarşısını almaq və Bakının etibarlı müdafiəsini bütünlüklə təşkil etmək idi. Bu məsələ ilə bağlı hərbi nazir S.Mehmandarovun yazdığı raport 1919-cu il sentyabr ayının 13-də Dövlət Müdafiə Komitəsinin (DMK) iclasında müzakirə edildi və nazirin qaldırdığı vəsatət burada qəbul olundu. DMK-nın bu barədə qərarında Bakı İstehkam hissəsinin rəisi vəzifəsini təsis etmək, onu şəhərin hərbi general-qubernatoru vəzifəsi ilə birləşdirmək, Bakı rəisliyi ərazisini ona tabe etmək sərəncamları da öz əksini tapmışdı[184].

Sentyabr ayında Bakı hərbi limanının, Təyyarə dəstəsinin, Zirehli avtomobil taqımının, Mövqe batareyasının ştatlarının tərtibinə başlanıldı. Sentyabrın 14-dən təyyarə və zirehli avtomobil dəstələrinin, sentyabrın 24-dən Mövqe batareyasının, oktyabrın 1-dən isə "Astrabad" hərbi gəmisinin ştatları müəyyənləşdirildi[185].

Böyük sürətlə 6-cı Göyçay piyada alayının formalaşdırılması aparılırdı. Qışlaların çatışmazlığına, geyim, ərzaq sahəsində çətinliklər olmasına baxmayaraq, həmin alayınn təşkili 1919-cu il oktyabrın sonunadək əsasən başa çatdırıldı[186].

1919-cu ilin sonuna kimi Lənkəran köməkçi (ehtiyat) taboru alaya çevrilərək 7-ci Şirvan alayı adlandırıldı. Bakı İstehkam hissəsinin müdafiə taboru yaradıldı, süvari və piyada alaylarınən, əlahiddə taborların və hərbi məktəbin döyüş bayraqlarının təsviri təsdiq edildi[187].

Elə həmin ildə 8-ci Ağdaş piyada alayının və Zəngəzurdakı kürd kəndlərinin əhalisindən ibarət xüsusi hərbi hissələrin formalaşdırılması başa çatdırıldı[188].

Bütün bu təşkilati işləri həyata keçirməklə Hərbi Nazirlik 1919-cu ilin sonunadək Azərbaycan Ordusunda şəxsi heyətin sayını 20 min nəfərə, ordudakı atların sayını isə 5 min başa çatdırmğı nəzərdə tuturdu. 1920-ci ildə davam etdiriləcək təşkilati işlər ordu heyətinin sayını daha da artırmalı və onu 40 min nəfərə, ilin sonunadək atların sayını isə 10 min başa çatdırmalı idi[189].

1919-cu ilin yayından etibarən əvvəlcə Qarabağda və Lənkəranda, sonra isə Zəngəzurda hərbi şəraitin səngiməyib kəskinləşməsinə baxmayaraq, Hərbi Nazirliyin rəhbərliyi quruculuq işindəki ahəngdarlığı saxlamağa çalışırdı. 1920-ci ilin elə ilk günündən zirehli qatarın komplektləşdirilməsinə başlanıldı[190].

Ancaq 1920-ci ilin ilk dörd ayı həm Azərbaycan xalqının, həm də Azərbaycan Ordusunun həyatında çox mürəkkəb bir məqam idi. Azərbaycan Ordusunun rəhbərliyi bu il üçün böyük tədbirlər planı müəyyənləşdirib onun həllinə başlamalı olsa da, onları ilin dörd ayı ərzində ağır bir şəraitdə həyata keçirməli idi. Erməni təcavüzü praktiki olaraq ilin əvvəlindən ara vermirdi. Mart ayının sonlarına yaxın isə bu təcavüz açıq müharibəyə çevrildi. Ona görə də 1920-ci ildə ordu quruculuğu, onun möhkəmləndirilməsi və sıralarının genişləndirilməsi üçün nisbətən münasib şərait ilk üç ayda mövcud oldu.

Həmin müddətdə görülən dəyərli işlərdən biri növbəti çağırış-səfərbərlik kampaniyasına başlanması[191] və ordunun ali idarəetmə orqanlarında əsaslı struktur dəyişiklikləri aparılması oldu. 1920-ci il martın 1-də Baş Ərkani-Hərb ilə Ümumi Qərargah birləşdirilərək Azərbaycan Ordusunun Ümumi Qərargahı yaradıldı və general-mayor Həbib bəy Səlimov bu qurumun rəisi təyin edildi[192].

1920-ci ilin bolşevik istilası ərəfəsində Azərbaycan Ordusunun əsas döyüş hissələri və birləşmələri aşağıdakılardan ibarət idi: iki piyada diviziyasında birləşmiş olan 1-ci Cavanşir, 2-ci Zaqatala, 3-cü Gəncə, 4-cü Quba, 5-ci Bakı, 6-cı Göyçay, 7-ci Şirvan, 8-ci Ağdaş piyada alayları, süvari diviziyasında birləşmiş olan 1-ci Tatar, 2-ci Qarabağ, 3-cü Şəki süvari alayları və iki topçu briqadası.

Bunlardan başqa, Azərbaycan ordusunda bir sıra yardımçı hissə-bölmə və müəssisələr də var idi. Bütün bunlar qısa müddət ərzində Azərbaycanda ordu quruculuğu sahəsində aparılan işlərin nəticəsi idi.

Şimali Azərbaycanın dövlət müstəqilliyi elan edildikdən sonra qarşıda duran başlıca vəzifələrdən biri qonşu ölkələrlə sərhəd mübahisələri və ixtilafların aradan qaldırılması, Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyünün təmin edilməsi idi.

İlkin olaraq Zaqatala məsələsi Gürcüstanla aparılan danışıqlar yolu ilə həll edildi: əhalisinin 91,9 faizini müsəlmanlar təşkil edən və Azərbaycanın əzəli torpağı olan Zaqatala mahalında Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti 1918-ci ildə bərqərar edildi[193].

Azərbaycan ordusunun formalaşdığı dövrdə ölkədə mürəkkəb hərbi-siyasi şərait mövcud idi. Bu isə həm ordunun formalaşma prosesinə, həm də bütünlükdə ölkənin bütün ictimai-siyasi həyatına öz təsirini göstərirdi. Bir tərəfdən, ölkənin cənub bölgəsi - Lənkəran Azərbaycanın müstəqilliyinə yad olan qüvvələrin nəzarəti altında idi və bu qüvvələr Azərbaycan Xalq Cümhuriyyətini tanımaq istəmirdilər. Digər tərəfdən isə Qarabağ və Zəngəzur bölgəsində erməni daşnakların təcavüzkarlığı kəskinləşməkdə davam edirdi. Həmin əraziləri parçalayaraq Ermənistana birləşdirmək istəyənlər hər cür vasitələrə əl atırdılar. Bir tərəfdən də çar Rusiyasının sərhədlərini bərpa etməyə çalışan denikinçi qüvvələr şimaldan Azərbaycanın müstəqilliyinə təhlükə yaradırdılar. Bu real təhlükələrin aradan qaldırılması üçün həm hökumət, həm də Hərbi Nazirlik tərəfindən qətiyyətli addımların atılması tələb olunurdu.

Belə qaynar nöqtələrdən biri olan, geostrateji mövqe etibarilə müxtəlif siyasi qüvvələrin diqqətini cəlb edən Lənkəran bölgəsində möhkəmlənməyə çalışan bir neçə siyasi qüvvə çox qısa müddətdə öz hakimiyyətlərini elan etdi. 1918-ci ilin əvvəllərində müsavatçı qüvvələr buradakı silahlı ünsürləri tərksilah edib hakimiyyət orqanlarını nəzarət altına alsalar da, 1918-ci ilin aprelində "Aleksandr Jander" gəmisində bölgəyə gələn sovet qoşunları hakimiyyəti ələ keçirdilər[194]. Ancaq bolşeviklərin hakimiyyəti də bölgədə uzun sürmədi. Bakı Xalq Komissarları Sovetinin yıxılması və "Sentrokaspi Diktaturası"nın yaradılması ilə cənub bölgəsində də bolşevik qüvvələrinin nüfuzu xeyli zəiflədi. Onların əvəzinə bölgədə yerləşdirilən və vaxtilə bölgədə məskunlaşdırılmış rus əhalisi tərəfindən müdafiə olunan rus qoşun hissələrinin millətçi zabitləri fəallaşmağa başladılar.

Rusiyadakı Denikin qoşunları ilə sıx əlaqəsi olan bu qüvvələrə polkovnik İlyaşeviç rəhbərlik edirdi. O, İranla sərhəd xəttini qorumaq üçün Muğanın cənubunda yerləşdirilmiş 29-cu rus sərhəd briqadasının komandiri idi[195]. 1918-ci ilin avqust ayında öz qərargahı ilə Cavad qəzasının Biləsuvar kəndindən Lənkəran qəzasının Prişib kəndinə keçən İlyaşeviçin briqadasında bu vaxt 6 minə qədər silahlının olması güman edilirdi. Həmin silahlıların təzyiqi ilə avqustun 4-5-də Prişib kəndində fövqəladə qurultay çağırıldı və orada Lənkəran və Cavad qəzalarında hakimiyyət məsələsi müzakirə edildi. Qəbul edilən qərara görə, həmin qəzaları idarə etmək üçün 5 nəfərdən ibarət "Müvəqqəti Diktatura" yaradıldı. Bu diktatura bəzən "Beşlər diktaturası" da adlandırılırdı[196].

Beləliklə, şovinist millətçi rus zabitləri Azərbaycan Xalq Cümhuriyyətinin cənub bölgəsində hakimiyyəti öz əllərinə aldılar. İxtiyarlarında olan silahlı qüvvələrə, bölgənin rus qolçomaqlarına, Bakıdakı Rus Milli Şurasına və Denikin yardımlarına arxalanaraq, "Müvəqqəti Diktatura" əhalini çapıb-talamağa, öz mənafeyinə uyğun olan yeni bir rejim yaratmağa başladı. 1919-cu ilin fevralında rus zabitlərinin nəzarəti altında olan ərazilər "Lənkəran Respublikası" elan edildi və Suxorukovun rəhbərliyi ilə "demokratik" hökumətin təşkil olunduğu bildirildi[197].

1919-cu il martın 21-də müstəqil Azərbaycan Xalq Cümhuriyyətini parçalamaq iddiasında olan qüvvələrin Prişibdə qurultayı çağırıldı. Bu qurultayda belə bir qərar qəbul edildi ki, Paris sülh konfransı öz işini qurtaranadək, Lənkəran qəzası Azərbaycanın hakimiyyəti altına verilməsin və "Muğan vilayəti" adı altında yaradılan müstəqil quruma tabe etdirilsin[198].

1919-cu ilin may və iyun aylarında ölkənin cənubunda hərbi şərait xeyli kəskinləşdi. Həmin il aprelin 25-də kommunistlər polkovnik İlyaşeviç və onun tərəfdarlarını həbs edərək Lənkəran bölgəsinə nəzarəti əllərinə keçirmişdilər. Burada qəsb edilən hakimiyyətə qanuni don geyindirilməsi məqsədilə 1919-cu il mayın 15-dən "Muğan Kəndli Deputatları Sovetinin fövqəladə qurultayı" çağırıldı. Lənkəranda keçirilən həmin "qurultay"da iştirak edən deputatların təxminən yarısı qeyri-azərbaycanlı idi[199]. Dörd gün davam edən qurama qurultay Azərbaycanın cənubunda sovet hakimiyyətinin qurulduğunu elan edərək, 35 nəfərdən ibarət qanunverici orqan seçdi. "Muğan Diyar Soveti" adlandırılan bu orqanın sədri vəzifəsinə David Çirkinin, onun müavini vəzifəsinə isə Şirəli Axundovun namizədliyi irəli sürüldü[200].

Zaqafqaziyada sovet hakimiyyətinin yeganə dayaq nöqtəsi olan Lənkəran bölgəsində üsyanın baş tutması xəbərini alan kommunistlər buraya yardımı daha da artırdılar. 1919-cu il aprel ayının sonuncu günləri kommunistlər Bakıdan gizlicə "Vstreça" gəmisi ilə Lənkərana xeyli miqdarda silah və sursat, 9 milyon rubl pul və çoxlu siyasi ədəbiyyat gətirdilər[201].

Həştərxandan da Lənkərandakı qəsbkar qüvvələrə kömək göstərilirdi. V.İ.Leninin tapşırığı ilə kommunist T.İ.Ulyantsev (Otradnev) də Lənkərana gəlib burada İnqilabi Şura təşkil etdi[202]. 1919-cu il may ayının sonunda cənubda elan olunmuş sovet hakimiyyətinin sərəncamında bir piyada taboru, süvari eskadronu, 6 səhra və 3 dağ topu, 3 hidroplan var idi. Muğanda bolşevik silahlı qüvvələrinin

ümumi sayı 5-6 min nəfərə çatırdı[203].

Azərbaycan hökumətinin ölkənin cənubunda baş verən bu qanunsuzluqların qarşısını almağa hələlik kifayət qədər gücü yox idi. Çünki mövcud olan hərbi qüvvələr Qarabağda genişlənən erməni təcavüzünün və Şimaldan yaxınlaşan təhlükənin qarşısının alınmasına cəlb edilmişdi.

1919-cu ilin avqustunda Qarabağda vəziyyət nisbətən sakit keçdi. Bu məqamdan istifadə edən Hərbi Nazirliyin rəhbərliyi Lənkəran bölgəsinə qoşun dəstəsi çıxarmaq qərarına gəldi. Bu barədə hökumət hələ 1919-cu il iyul ayının əvvəllərində göstəriş vermişdi[204]. Həmin vaxt bölgədə nəzarət kommunist qüvvələrin əlində idi. Lakin onların elan etdikləri "Muğan Sovet Respublikası"-nın ömrü uzun sürmədi. Ağqvardiyaçı rus zabitlərinin rəhbərliyi altında olan qüvvələr iyul ayının 24-25-də Lənkəranın mühüm obyektlərini yenidən nəzarət altına aldılar. İyulun 26-da isə Prişibdə özlərinin qurultayını çağıran ağqvardiyaçılar bölgədə öz hakimiyyətlərini bərpa etdiklərini elan etdilər[205]. Bu qüvvələri sıxışdırıb bölgədən çıxarmaq və burada Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyətini bərqərar etmək üçün Lənkəran dəstəsi yaradıldı.

1919-cu il avqust ayının əvvəllərində Lənkəran dəstəsi artıq formalaşdırılmış, onun hərəkət etməsi üçün müəyyən hazırlıq işləri görülmüşdü. Bununla bağlı avqustun 4-də hərbi nazirin imzaladığı müvafiq əmrlə dəstənin komandanlığı Ümumi Qərargahın rəisi general-mayor Həbib bəy Səlimova həvalə olundu və ona göstəriş verildi ki, dəstənin tərkibinə daxil olan hissələrlə Hacıqabul, Salyan, Pokrovsk, Prişib və Lənkəran marşrutu ilə Lənkəran qəzasına doğru irəliləməli, orada qayda-qanunu və sakitliyi bərqərar etməlidir[206].

Hacıqabulda toplaşan Lənkəran dəstəsi avqustun 13-də Lənkarana doğru hərəkətə başladı[207]. Qarşısına qısa müddətdə bölgədəki silahlı qüvvələri tərksilah etmək vəzifəsi qoyulmuş dəstə qətiyyətli və çevik fəaliyyəti nəticəsində sentyabr 3-də tapşırılmış vəzifəni müvəffəqiyyətlə yerinə yetirdi və bölgədəki rus qüvvələrini tərk-silah etdi[208]. Hərbi nazir S.Mehmandarovun Lənkəran dəstəsinin fəaliyyətinin nəticələri ilə bağlı 1919-cu il 19 sentyabr tarixli 490 saylı əmrinin ikinci bəndində deyilirdi: "Lənkəran şəhərinin tutulması, həmin rayonda qayda-qanunun bərpa edilməsi və Azərbaycan hökumətinin hakimiyyətinin təsdiq edilməsi üçün mənim tərəfimdən Lənkərana Qərargah rəisi general-mayor Səlimovun komanda altında üç qoşun növündən ibarət xüsusi dəstə təchiz edilmiş və göndərilmişdi.

Hacıqabuldan Lənkərana və geriyə olan 430 verstlik məsafəni çox güclü istidə bizim gənc ordumuz, xəstələr və arxada qalanlar olmadan, 15 günə qət etmişdir. Bütün yürüş ərzində dəstədə qayda-qanun pozulmamış, yerli sakinlərdən heç birinə kiçik bir ziyan da vurulmamışdır. Yol boyu şəhər və kəndlərin əhalisi dəstənin zabit və əsgərlərinin nəzakətli davranışlarını böyük minnətdarlıqla qeyd edirdilər. Mən buna dəstənin Lənkərandan getməsindən sonra olan şəxsi səfərim zamanı əmin oldum, hamıda əsl hərbi görkəmi və nümunəvi nizam-intizamı ilə güclü təəssürat yaradan dəstə zəngin hərbi qənimətlə Lənkəran qəzasını və Muğanı əzizimiz Azərbaycanın ağuşuna qaytardı, zülmdən və anarxiyadan əziyyət

çəkən əhalini sakitləşdirdi və əmin-amanlığı təmin etdi. Bütün bunlar bir damla qan tökülmədən həyata keçirildi.

Azərbaycan Ordusunun birinci hərbi yürüşündə özlərini qoçaq və şərəfli döyüşçü kimi göstərmiş gənc əsgərlərə ürəkdən "sag ol" deyirəm"[209].

Hərbi yürüş əməliyyatları başa çatdıqdan sonra bölgədə sabitliyin qorunması və Azərbaycanın ərazi bütövlüyünə qarşı çıxa biləcək qüvvələrə lazımi müqavimət göstərilməsi üçün Lənkəranda ehtiyyat piyada taboru təşkil edildi. Ağqvardiyaçı qüvvələrdən və rus əhalisindən müsadirə edilmiş yüngül silahlar da kapitan S.Rəfibəyovun komandir təyin olunduğu həmin tabora təhvil verildi.

Azərbaycan hökuməti regiondakı mübahisəli sərhəd məsələlərini siyasi yollarla həll etmək niyyəti ilə hələ 1918-ci ilin iyun ayında qonşu (tərəflərə, o cümlədən Ermənistana danışıqlara başlamağı təklif etdi. Azərbaycan Milli Şurası müstəqilliyini elan etmiş qonşu dövlətə yardım məqsədi və gələcəkdə onunla vahid Qafqaz Konfederasiyasına daxil olmaq istəyi ilə 1918-ci il mayın 29-da İrəvan şəhərini Ermənistan Respublikasının paytaxtı kimi tanıdı[210]. Lakin bu xeyirxah addım iki dövlət arasındakı münasibətlərin kəskinləşib hərbi münaqişəyə çevrilməsinin qarşısını ala bilmədi. Çünki bu dövrdə Qafqazda yaranmış vəziyyəti və beynəlxalq şəraiti "Böyük Ermənistan" ideyasının reallaşdırılması üçün əlverişli sayan ermənilər Azərbaycana qarşı ərazi iddiaları irəli sürərək, onun Naxçıvan, Qarabağ və Zəngəzur mahallarında etnik təmizləmə siyasəti həyata keçirməyə başladılar. Bunun nəticəsində Azərbaycanın bir sıra bölgəsində, xüsusilə həmin mahallarda yaşayan dinc əhali Andronik, Dro və Njdenin quldur dəstələri tərəfindən məqsədyönlü soyqırıma məruz qalmışdı.

1918-ci ilin ortalarından etibarən Zəngəzur qəzasında erməni silahlı dəstələrinin azərbaycanlı əhaliyə qarşı həyata keçirdiyi soyqırım genişlənməkdə davam edirdi. Vəhşi əməlləri heç bir çərçivəyə sığmayan Andronikin dəstələri qəzanın azərbaycanlılardan təmizlənməsi və bu ərazilərin Ermənistana birləşdirilməsi üçün heç bir cinayətdən çəkinmirdilər. Yerli dinc əhalinin özünümüdafiə imkanlarına malik olmaması, havalar soyuduqca Azərbaycanın mərkəzi zonası ilə əlaqələrin çətinləşməsi erməni-daşnak silahlı dəstələrinin qarşılarına qoyduqları niyyətlərin həyata keçirilməsini daha da asanlaşdırırdı. 1918-ci ilin payızında Zəngəzurda 52 kənd məhv edilmişdi. 32 kənddə 495 ev yandırılmış, 492 ev dağıdılmış, 2254 azərbaycanlı öldürülmüş, 304 nəfər azərbaycanlı isə diri-diri yandırılmışdı[211].

1918-ci ilin noyabr-dekabr aylarında Türkiyə qoşunlarının Azərbaycan ərazisini tərk etməsi Zəngəzurda və Qarabağda erməni təcavüzünün yeni bir faciəli dövrünün başlanmasına səbəb oldu. Azərbaycanlılara qarşı həyata keçirilən qırğınlar xeyli genişləndi. Həmin il dekabr ayının 2-də Gülyataq erməniləri böyük bir silahlı dəstə ilə Sırxavənd kəndi üzərinə hücum etdi. Bütün gücü ilə müdafiə olunan azərbaycanlılar 1 erməni öldürüb, 6 ermənini yaralasalar da, aparılan yüzlərlə mal-qaranı geri qaytara bilmədilər[212].

Müxtəlif xarici siyasi himayədarlığa can atan Andronik hərbi-maliyyə əlaqələri yaratmaq məqsədilə 1919-ci ilin yayında bir tərəfdən, S. Şaumyan vasitəsilə Sovet Rusiyasına yaxınlaşmağa, digər tərəfdən tərəfdən isə ermənilərin katolikosunun araçılığı ilə ingilislərlə ittifaq yaratmağa çalışırdı[213]. Daşnakların 1918-ci ilin martında Tiflisdə keçirilən

müşavirəsində onlara "...Bizim yeganə dostumuz Rusiyadır... Rusiyanın qapılarını üzümüzə bağlamayın"[214] - deyən Andronik 1918-ci ilin yayında Naxçıvanı Sovet Rusiyasının ayrılmaz hissəsi elan etmişdi. O, burada Sovet hakimiyyətinin qurulduğunu bildirmiş, iyunun 4-də isə S.Şaumyana xüsusi teleqram göndərərək dəstəsi ilə birlikdə Rusiya mərkəzi hökumətinin sərəncamına keçməyə və "Bakı Kommunası"na yardım göstərməyə hazır olduğunu xəbər vermişdi[215]. Həmin teleqram barədə Leninə məlumat verən Şaumyan Andronikə cavabında yazırdı: "Culfa, Xalq rəhbəri Andronikə. Sizin 577 №-li teleqramınızı aldım. Tam mətnini Moskvaya-Mərkəzi hökumətə xəbər verdim. Öz tərəfimdən Sizin şəxsin əsl xalq qəhrəmanını salamlayıram"[216].

"İzvestiya" və digər Moskva qəzetləri Andronikin Sovetlərə meylini alqışlayaraq, onun Naxçıvana dair mövqeyini və yürütdüyü siyasəti "Sovet Rusiyasının böyük qələbəsi" kimi qiymətləndirirdilər. Andronikin Sovet Rusiyasına istiqamətlənməsi və "Bakı Kommunası"nı müdafiə etməsini daşnak liderlərindən A.Camalyan 1918-ci il avqustun 16-da alman hərbi missiyasının başçısı general fon Kresslə görüşündə təsdiqləmişdi: onun fikrincə, Andronik Zəngəzurdan Qarabağa keçmək, türklərə arxadan zərbə endirmək və Bakıya yol açmaq istəyirdi[217].

Andronikin Biçeraxov və Denikinlə əlaqələri var idi. O, bir sıra dövlətlərdən hərbi-siyasi və maliyyə yardımı alırdı[218].

Andronik Azərbaycan torpaqlarında soyqırım siyasəti yeridərkən Ermənistan rəhbəriiyi ilə sıx əlaqələrə malik olmuş və hətta xaricə qaçdıqdan sonra belə bir sıra məclislərdə, o cümlədən də Paris sülh konfransında daşnakları təmsil etməyə çalışmışdı[219].

Ermənistan silahlı qüvvələrinin, ilk növbədə isə Andronikin quldur dəstəsinin Naxçıvan və Zəngəzurdakı qəsbkarlığının genişləndiyi bir vaxtda Qarabağın dağlıq hissəsi problemi meydana atıldı. Belə ki, Ermənistanın hiyləgər siyasi təbliğatı və güclü hərbi yardımı nəticəsində Qarabağın dağlıq hissəsində kök salmış ermənilər 1918-ci ilin iyul və sentyabr aylarında keçirdikləri qurultaylarda bu mahalın müstəqilliyini elan etdilər[220]. Bunun ardınca isə 1918-ci ilin payızında Zəngəzurun bir hissəsində möhkəmlənən Andronik burada bir növ erməni "qubernatorluğu" təşkil edərək, Gorusu onun "mərkəzi"nə çevirdi, sonra da paytaxtı "Şuşa olacaq" "Kiçik Ermənistan" dövlətini yaratmağa çalışdı[221]. 1918-ci ilin sentyabrında Türkiyənin hərbi siyasi yardımı vasitəsilə Bakıdakı hərc-mərcliyə son qoyan Azərbaycan rəhbərliyi dövlətin ərazi bütövlüyünə edilən qəsdlərə qarşı dövlət müstəqilliyinin saxlanması və möhkəmləndirilməsi, ölkənin ərazi bütövlüyünün təmin olunması məqsədilə bir sıra hərbi-siyasi və iqtisadi-maliyyə tədbirləri həyata keçirməli oldu. Mudros müqaviləsinə əsasən, Türkiyə qoşun hissələrinin Azərbaycandan, o cümlədən də Naxçıvan, Qarabağ, Zəngəzur mahallarından çıxması ilə Azərbaycanın bütövlüyü və onun əhalisinin taleyi yenidən təhlükə qarşısında qaldı. Çünki Türkiyə silahlı qüvvələri bölgəni tərk etdiyi zaman azərbaycanlı əhali özünü və torpağını qorumaq üçün hələlik qüvvətli dövlət qurumlarına, nizami hərbi hissələrə malik deyildi. Regionda əcnəbi müttəfiqlərin, xüsusən ingilislərin ikili siyasət yürütdükləri bir şəraitdə separatçı ermənilər fəallaşmışdılar. Buna görə də istər Azərbaycan hökuməti, istərsə də Naxçıvan, Qarabağ və Zəngəzur bölgələrindəki milli-vətənpərvər siyasi qüvvələr tanın-

mış, nüfuzlu şəxslər tərəfindən Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi istiqamətində məhəlli səciyyə daşısa da, yaranmış şəraitlə uzlaşan, müəyyən əhəmiyyət kəsb edən tədbirlər görürdü, bu baxımdan Naxçıvan bölgəsində yaradılan Araz-Türk Respublikasının mühüm əhəmiyyəti var idi. Azərbaycan XİN-in respublika Nazirlər Şurasının sədrinə 1919-cu il 17 iyun, Azərbaycan Cümhuriyyəti siyasət idarəsi başçısının müttəfiq qoşunlarının komandanına 1919-cu il 8 yanvar tarixli məktubları və s. sənədlərdən göründüyü kimi, bu respublika 1918-ci ilin noyabrında yaranmış və təxminən 1919-cu ilin martınadək fəaliyyət göstərmişdi[222]. Onun ərazisi Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarını, habelə Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri və s. bölgələri əhatə etmiş, mərkəzi isə Naxçıvan şəhəri olmuşdu[223].

Araz-Türk Respublikası Azərbaycan Xalq Cümhuriyyəti ilə sıx əlaqələr yaratmağa çalışmış, onunla birləşmək üçün yollar aramışdı. Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən də müəyyən qarşılıqlı tədbirlər görülmüşdü. Belə ki, Azərbaycan parlamenti yaradılarkən Naxçıvan bölgəsi - Araz-Türk Respublikası ilə bağlı məsələlə nəzərə alınmışdı. "Azərbaycan parlamentinin yaradılması haqqında qanun"da yazılırdı ki, Azərbaycanın ərazisini... İrəvan quberniyasının bəzi hissələri (burada Naxçıvan bölgəsi də nəzərdə tutulurdu. *-Red.)*[224] təşkil edir. Parlamentə Zəngəzurdan iki və İrəvan quberniyasının azərbaycanlılar yaşadığı hissəsində (Naxçıvan, Şərur, Ordubaddan söhbət gedir.- *Red.)* üç nəfər millət vəkili seçilməli idi[225]. Amma Araz-Türk Respublikası aşağıdakı səbəblərə görə tezliklə süquta uğradı: ermənilərin güclü hərbi və siyasi-diplomatik təzyiqi; ingilislərin Azərbaycan tərəfi dəstəkləməməsi və ermənipərəst mövqe tutması; Azərbaycan Xalq Cümhuriyyətinin bölgələri və oradakı dövlət quruluşu ilə kifayət qədər əlaqələrin yaradılmaması, ona yetərincə hərbi-siyasi yardım göstərə bilməməsi və s.

Araz-Türk Respublikasının əhəmiyyətinə və onun qısamüddətli fəaliyyətinin nəticələrinə gəldikdə isə o, Azərbaycan üçün çox gərgin bir dövrdə bölgənin azərbaycanlı əhalisinin qüvvələrinin düşmənlərə qarşı birgə mübarizə aparılması məqsədilə birləşdirilməsində müəyyən rol oynadı və ən başlıcası isə mahalın ermənilərin əlinə keçməsinə imkan verməməklə onun toxunulmazlığını qorudu, bununla da Azərbaycanın ərazi bütövlüyü təmin edildi.

Birinci dünya müharibəsi başa çatdıqdan sonra Qafqazda, o cümlədən də Azərbaycanda möhkəmlənmək sahəsində təşəbbüsü ələ alan ingilislər öz məqsədlərinə çatmaq üçün ermənilərdən də istifadə etməyə başladılar. Öz növbəsində lord Kerzonun "...əlahəzrət hökumətinin başlıca məqsədi ermənilərin azad edilməsidir" - fikrindən[226] ruhlanan ermənilər də ingilislərin siyasətindən faydalanmağa çalışırdılar. Qarşılıqlı mənafe və maraqların üst-üstə düşdüyü bir şəraitdə - 1919-cu ilin yanvarında Naxçıvan mahalına çox az sayda ingilis hərbi qüvvələri gətirildi. Bununla eyni vaxtda isə Ermənistanın qoşun hissələri Zəngəzur, Naxçıvan, Qarabağ bölgələrinə qarşı təcavüzü daha da genişləndirdilər. Bu dövrdə Şərurda erməni nizami qoşunları üzərində mühüm qələbə qazanılsa da (yerli sakin Məşədi Ələsgərin başçılıq etdiyi silahlı qüvvələr erməni əsgərlərinə divan tutmuşdu və onlar 15 gün meyitlərin və yaralıların yığışdırılması ilə məşğul olmuşdular), bölgədə vəziyyət gərginləşməkdə idi.

Belə bir şəraitdə ingilislər Naxçıvan mahalını müvəqqəti bitərəf zona elan edərək, burada general-qubernatorluq yaratdıqlarını bildirdilər. Ermənilər üzərindəki Şərur qələbəsindən sonra Naxçıvan mahalında yeni diktatura hökumətinin yaradıldığı elan olunmuşdu. Bu hökumət isə mövcud gərgin vəziyyətdə Azərbaycan Xalq Cümhuriyyəti ilə geniş əlaqələrin qeyri-mümkünlüyü və s. səbəblərə İranla birbaşa münasibətlər yaratmağa cəhdlər göstərmişdi. Yeni hökumətin başçısı Cəfərqulu xanın Naxçıvan-Şərur dairəsinin ingilis- general-qubernatoruna yolladığı 1919-cu il 26 fevral tarixli məktubdan da göründüyü kimi, İranla yaxınlaşmaq cəhdləri osmanlı ordularının getməsindən sonra bölgə üçün ermənilər tərəfindən yaradıdılan təhlükədən və onun Azərbaycandan təcrid olunmasından irəli gəlmişdi[227]. Məktubda həmçinin ingilis general-qubernatorundan mahalın bir hissəsi olduğu ana torpaqla - Azərbaycanla birləşdirilməsi üçün şərait yaradılması xahiş olunurdu.

İngilislərin Naxçıvanda qaldıqları müddət ərzində Azərbaycan rəhbərləriyi bu ərazi üzərində öz suveren hüquqlarını müdafiə edirdi. Dövlətin təhlükəsizliyinin təminatına yardım göstərmək və bölgə əhalisinə qarşı ermənilərin törətdikləri vəhşiliklərin qarşısını almaq, mahalı Şimali Azərbaycanın digər torpaqları ilə birləşdirmək sahəsində hökumət müəyyən tədbirlər həyatda keçirirdi. Azərbaycan parlamentinin 1919-cu il yanvarın 8-i və 25-də olan iclaslarında Naxçıvan bölgəsi və ümumiyyətlə, keçmiş İrəvan quberniyasının azərbaycanlı əhalisinin vəziyyəti ilə bağlı məsələlər müzakirə edildi[228]. Yanvarın 25-dəki iclasda xüsusi bəyanatla çıxış edən M.Ə.Rəsulzadə .Ermənistan hökumətinin Naxçıvan və digər qəzaların azərbaycanlı əhalisinə düşmən münasibət bəsləməsinə qarşı çıxaraq qəti tədbirlər görməyə çağırdı.

Keçmiş İrəvan quberniyası türk-müsəlman əhalisinin vəziyyətinin öyrənilməsi, ermənilərin onlara qarşı törətdikləri vəhşiliklərin qarşısının alınması, Azərbaycanın cənub-qərb bölgələrinin ərazi toxunulmazlığının təmin olunması istiqamətində müəyyən tədbirlər görüldü. Azərbaycan Cümhuriyyətinin Ermənistanda açılmış diplomatik nümayəndəliyi bu işlərdə çox mühüm rol oynadı. Azərbaycan parlamentininın üzvü Məhəmməd xan Təkinski 1919-cu il yanvarın 29-da İrəvana səfir təyin edilmişdi[229].

Azərbaycan hökuməti ilə Naxçıvan bölgəsi arasında əlaqələrin yarıdılması və inkişafında, mahalın azərbaycanlı əhalisinin problemlərinin həllində keçmiş İrəvan quberniyasından olan ictimai xadimlərin, ziyalıların və onların yaratdıqları müxtəlif təşkilatların səyləri də mühüm rol oynamışdı. Həmyerlilər cəmiyyəti idarə heyətinin üzvü Mirabbas Mirbağırovun bölgədəki siyasi vəziyyəti öyrənmək, ingilislərin buradakı siyasətlərinin məqsədini aydınlaşdırmaq məqsədilə 1919-cu ilin yanvar-fevral aylarında Naxçıvana səfəri və onun yekunları barədə məruzəsi[230] Azərbaycan hökuməti ilə mahalın azərbaycanlı əhalisi arasında əməli əlaqələrin yaradılması yolunda atılmış birinci ciddi addım hesab oluna bilər.

Azərbaycan hökumətinin öz dövlət ərazisi Naxçıvan bölgəsində suveren hüquqlarını həyata keçirməsi, mahalın idarə olunmasında onun iştirakının təmin edilməsi zəruri məsələ idi. Bu zərurət müsəlman əhalisinin problemlərinin çevik həllini, burada xüsusi general-qubernatorluğun təşkilini şərtləndirirdi. Cənub-

Qərbi Azərbaycanın (Naxçıvanın) Müvəqqəti hökumətinin işlər müdiri Behbudxan Naxçıvanski 1919-cu il fevralın sonlarında Bakıda olduğu zaman öz missiyasının məqsədlərini açıqlayaraq belə bir vacib məsələyə toxunmuşdu ki, Naxçıvan, Şərur və Ordubad qəzaları Azərbaycan torpaqları olduqlarından Müvəqqəti hökumət həmin ərazilərin "Cənub-Qərbi Azərbaycan" adı altında Azərbaycan Xalq Cümhuriyyəti ilə birləşməsi üçün onun rəhbərliyinə, ingilis komandanlığına müraciət etmək qərarına gəlmiş və onların razılığını almışdı[231].

Azərbaycan hökuməti özünün 1919-cu il 28 fevral tarixli qərarı ilə Naxçıvan general-qubernatorluğunu (arxiv sənədlərində "Cənub-Qərbi Azərbaycan general-qubernatorluğu", habelə "Naxçıvan, Ordubad, Şərur-Dərələyəz və Vedibasar rayonlarının müvəqqəti general-qubernatorluğu" adlanır) yaratdı[232]. Həmin qərara əsasən də Bəhram xan Naxçıvanski general-qubernator, Kərim xan İrəvanski və Hacı Mehdi Bağırov isə onun köməkçiləri təyin olundular, həmçinin yerli hakimiyyətin təşkili və qoşun hissələrinin saxlanması üçün DİN-in 20 milyon manatlıq fondundan 500 min manat pul ayrıldı[233]. General qubernatorluğun nəzdində 7 nəfərdən ibarət Şura formalaşdırıldı.

Daha sonra respublika hökumətinin 1919-cu il 3 mart tarixli qərarına müvafiq surətdə bölgədə nə qədər silahlı qüvvənin olmasını, onun necə təşkil edilməsi və saxlanmasını aydınlaşdırmaq məqsədilə general-qubernatorluğa nümayəndə göndərilməsi Hərbi Nazirliyə tapşırıldı və əlavə olaraq daha 500 min manat vəsait buraxılması razılaşdırıldı[234]. Doğrudur, Naxçıvan general-qubernatorluğu müəyyən obyektiv (bölgənin Azərbaycan Cümhuriyyəti ilə sıx əlaqələrin qurulmasındakı çətinliklər) və subyektiv (bölgədəki siyasi qüvvələr və nüfuzlu şəxslər arasındakı ixtilaflar) səbəblərə görə geniş və səmərəli fəaliyyət göstərə bilməsə də, hər halda onun yaradılması və tədbirləri bölgənin Azərbaycan hökuməti ilə əlaqələrinin möhkəmlənməsində müəyyən rol oynadı.

Osmanlı qoşunlan getdikdən sonra Zəngəzur mahalında da siyasi –hərbi vəziyyət xeyli kəskinləşdi, yerli türk-müsəlman əhalisi –azərbaycanlılar yenidən zorakılıq və məhrumiyyətlərə məruz qaldılar. Müttəfiqlərin Azərbaycana gəlişi ilə bağlı fəallaşan ermənilər yaranmış şəraiti özlərinin ərazi iddialarının reallaşması üçün əlverişli məqam sayaraq müəyyən təxribatlara əl atdılar.

Ermənistan hökuməti tərəfindən ruhlandırılan, maliyyələşdirilən və təchiz olunan Andronik və onun quldur dəstəsi Zəngəzurda yeni-yeni özbaşınalıq və vəhşiliklər törədirdi.

Andronikin Zəngəzurdakı "etnik təmizləmə" fəaliyyəti 1918-ci il noyabrın ikinci yarısında özünün yeni, azərbaycanlı əhali üçün daha faciəli mərhələsinə başladı. Onun quldur dəstələrinin 1918-ci il noyabrın 22-də Zəngəzur qəzasının Mərkəzi olan Gorusa soxulması, azərbaycanlıların kəndlərini viran etməsi, əhaliyə divan tutması nəticəsində qısa müddətdə burada 30-dan çox azərbaycanlı kəndi dağıdıldı[235].

Andronikin quldur dəstələrinin Qarabağda və Zəngəzurda törətdikləri özbaşınalıqlar və qanlı hadisələr barədə ayrıca məsələ Azərbaycan parlamentinin 1918-ci il

dekabrın 20-də keçirilmiş fövqəladə iclasında müzakirə olundu[236]. Hökumətin gördüyü tədbirlər haqqında F.X.Xoyskinin çıxışı və onun müzakirəsindən sonra parlament Azərbaycanın ərazi bütövlüyünün qorunması və təcavüzə məruz qalmış əhaliyə mənəvi və maddi yardımın göstərilməsi istiqamətində aparılan işlərin gücləndirilməsi barədə qərar qəbul etdi.

Erməni silahlı dəstələrinin azğınlığı getdikcə daha dəhşətli xarakter alırdı. Bu özbaşınalıqlara qarşı qətiyyətli mübarizə aparmaq üçün Nazirlər Şurası 15 yanvar 1919-cu il tarixli iclasında Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzaları üzrə müvəqqəti general-qubernatorluq yaradılmasını qərara aldı. Müvəqqəti general-qubernatorluğa fövqəladə səlahiyyətlər verilməsi nəzərdə tutulmuşdu[237].

Nazirlər Şurasının 1919-cu il 15 yanvar tarixli iclasında Xosrov bəy Sultanov Qarabağın general-qubernatoru vəzifəsinə təsdiq edildi və aprelin 3-də onun səlahiyyətləri müttəfiq qoşunlar komandanı tərəfindən də tanındı[238].

Qarabağ general-qubernatorluğunun təşkilinin zəruriliyi aşağıdakı amillərlə şərtlənirdi: 1) rəsmi İrəvanın hərtərəfli dəstəklədiyi ermənilərinin separatçılıq hərəkətləri və yerli müsəlman əhaliyə qarşı törətdikləri zorakılıqlar; 2) Andronikin silahlı quldur dəstələrinin mahallara soxulmasından sonra burada vəziyyətin daha da ağırlaşması; 3) həmin qəzaların, xüsusən də Zəngəzurun Gəncə qubernatorluğunun tabeçiliyində olmasının çətinlikləri.

Qarabağ general-qubernatorluğunun yaradılması haqqında Azərbaycan hökumətinin qərarı Qarabağda və Zəngəzurda müsəlman əhaliyə qarşı qırğınların genişlənməsinə yeni bir təkan verdi. Andronikin quldur dəstəsi isə Zəngəzur istiqamətindən Qarabağın içərilərinə doğru irəliləyərək qarşısına çıxan bütün kəndləri talan etdi. O, Şuşanın 35 kilometrliyinə çatmışdı. 1919-cu il fevralın ikinci yarısında 200 nəfərlik ingilis qoşun bölməsinin Şuşaya gəlməsi[239] silahlı quldur dəstəsinin irəliləməsinin qabağını aldı[240].

1919-cu ilin aprel ayında Qarabağ ermənilərinin 5-ci qurultayı çağırıldı. Burada başlıca olaraq erməni Azərbaycan münasibətləri müzakirə olundu. Şovinist-millətçi ünsürlərin təsiri və təzyiqi altında qurultay belə bir qərar qəbul etdi ki, Azərbaycan hökuməti ilə əlaqəsi olan hər hansı bir dövlət idarəçiliyi forması qəbul edilə bilməz[241]. Yəni qurultay bir daha erməni qüvvələrinin təcavüzkar xəttini təsdiqlədi və ermənilərin Azərbaycan torpaqlarına olan təcavüzkar iddialarından əl çəkmədiyini nümayiş etdirdi.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin öz ərazisində general-qubernatorluq yaratmasını və X.Sultanovu ona başçı təyin etməsini Ermənistan hökuməti geniş miqyaslı siyasi-diplomatik hay-küylə qarşıladı. Ermənistan XİN-nin beynəlxalq təşkilatlara və dövrün sözükeçən nüfuzlu dövlətlərinə, Azərbaycan rəhbərliyinə ünvanladığı çoxsaylı teleqram və etiraz notalarında, daşnak mətbuatında ("Vpered", "Aşxatavor" və s.) Azərbaycan hökuməti "Ararat Respublikasının hüquqlarına qəsd etməkdə", qonşu xalqlar arasındakı münasibətləri pozmaqda suçlandırılırdı. Vəziyyətdən yeganə ağıllı çıxış yolu kimi, bölgə ermənilərinə ya hər hansı bir general-qubernatorsuz yaşamaq imkanı verilməsi, ya da heç olmazsa burada müvəqqəti ingilis general-qubernatorluğunun yaradılması məsləhət görülürdü[242].

Ermənistanın Azərbaycanın daxili idarəçiliyi işlərinə kobudcasına müdaxilə

cəhdlərinə qarşı xarici işlər naziri əvəzi A.Ziyadxanovun Ermənistan hökumətinə etiraz notalarında Azərbaycan tərəfinin Qarabağ və Zəngəzura dair tarixi-etnik hüquqlarını bir daha xatırlatmış, onun daxili işlərinə hər hansı müdaxiləyə yol verilməyəcəyini bildirmişdi. Eyni zamanda o, bütün münaqişələri sülh yolu ilə həll etməyə tərəfdar çıxdığını bəyan etmişdi. Bölgədə ikili siyasət yürüdən ingilislər əvvəlcə Zəngəzur qəzasının bir hissəsinin Ermənistana verilməsini bildirsələr də, az sonra Azərbaycan hökumətinin Qarabağ general-qubernatorluğu yaratmasını himayə etmişdilər[243]. Bu, erməniləri xeyli çaşdırmış və narazı salmışdı. Onlar "müxtəlif dəlillər" gətirməklə və cürbəcür tədbirlərlə Böyük Britaniya hökumətini öz "tarixi hüquqları"na inandırmağa, cəhdlər göstərmiş, müəyyən şərtlər irəli sürmüşdülər.

Lakin ingilislər ermənilərin şərtlərini bəzən diplomatik üsulla, bir sıra hallarda isə hədə yolu ilə rədd etmişdilər. Şatelvorqun 1919-cu il aprel tarixli bəyanatı ilə X.Sultanovun general-qubernator vəzifəsinə təyinatını tanımaqla ingilislər Andronikin silahlı dəstəsinin mahallardan çıxarılmasında israr etdilər[244].

Ümumiyyətlə, Qarabağ və Zəngəzura dair ingilis siyasəti bütövlükdə ziddiyyətli səciyyə daşımışdır. Bunu X.Sultanovun apardığı təhlil və gəldiyi nəticələr də yaxşı açıqlayır. İngilislər vədlərinə xilaf çıxaraq, bölgələrdə hakimiyyəti əslində Azərbaycana deyil, Erməni Milli Şurasına vermiş, hətta ermənilərin Qarabağ və Zəngəzurda möhkəmlənməsinə mane olan bir şəxs kimi Xosrov bəyi vəzifəsindən kənarlaşdırmağa cəhd göstərmiş, bütün bunlarla da ermənilərin edə çoxlu zorakılıq hərəkətlərinə yol verməsinə, Azərbaycan hökumətini tanımamasına şərait yaratmışdılar. İyun ayının 4-də Qarabağ general-qubernatoru Xosrov bəy Sultanovun Şuşa-Yevlax yolunun təhlükəsizliyinin təmin edilməsi üçün Şuşa ətrafında və yol boyunca hərbi postlar yaratması erməni millətçilərini daha da qəzəbləndirmiş və nəticədə onların silahlı bölmələri Azərbaycan hərbçilərinin postları üzərinə hücum etmişdilər. Bu silahlı basqın zamanı 4 azərbaycanlı əsgər şəhid olmuşdu[245].

Azərbaycan əsgərlərinə qarşı belə təxribatın həyata keçirilməsi kütləvi təcavüzün başlanmasına bir işarə oldu. Ermənilər Şuşa-Yevlax yolu ilə hərəkət edən Azərbaycan köçlərinin üstünə hücum çəkdilər. Köç adamları arasında da ölənlər və yaralananlar oldu. Bu hadisələr böyük əks-səda verərək, bir sıra yaşayış məntəqələrində silahlı qarşıdurmaya gətirib çıxartdı. Bəzi yerlərdə bu silahlı qarşıdurmanın kütləvi qırğınlara çevrilməməsi üçün general-qubernatorun xahişi ilə qoşun bölmələri göndərildi. Lakin bütün münaqişə məntəqələrinə hərbi qüvvələrin göndərilməsi mümkün deyildi. Çünki qoşunların səpələnməsi Xankəndi qarnizonunun zəifləməsinə və ermənilər tərəfindən güclü hücumlara məruz qalmasına səbəb ola bilərdi[246].

Ermənilər ingilislərin himayəçiliyi ilə Naxçıvan mahalında öz "idarəçiliklərini" yaratmağa cəhd göstərmişdilər. 1919-cu il aprelin 15-dən başlayaraq bölgənin ermənilərin "idarəçiliyinə" keçməsi ilə bağlı xəbərlərin yayılması mahalda həyəcan yaratdığından Azərbaycan Xalq Cümhuriyyətinin İrəvandakı diplomatik nümayəndəliyi rəsmi Bakı qarşısında ermənilərin qanunsuz hərəkətlərinin dəf edilməsi barədə məsələ qaldırmışdı[247]. Bir sıra ingilis-erməni birgə hazırlıq tədbirlərindən (general Devinin Naxçıvana səfəri, onun və

Dronun imzaladıqları əmr, Ermənistanın baş naziri Q.Xatisyanın bölgəyə gəlişi və s.)[248] sonra 1919-cu il mayın ortalarından iyulun axırlarınadək mahalda daşnak "idarəçiliyi" peyda oldu. Belə bir şəraitdə mahalın azərbaycanlı əhalisi həm müxtəlif ünvanlara (Cənubi Qafqazdakı Britaniya qoşunlarının komandanı general Koriyə, müttəfiq dövlətlərə, T.Xatisyana və Azərbaycan Xalq Cümhuriyyətinin xarici işlər naziri M.Y.Cəfərova) yazılı etirazlar, Təbrizə nümayəndə heyəti göndərdi, həm də Ordubadda, Şahtaxtıda və digər ərazilərdə erməni "idarəçiliyinə" müqavimət göstərdi[249]. Qısa müddətli erməni "idarəçiliyi" zamanı bölgədə törədilən özbaşınalıqlar, bir qədər sonra daşnakları qovmaq üçün yaranan əlverişli şərait (ingilislərin getmələri; Azərbaycan Ordusu zabitlərinin yerli əhalini hərbi cəhətdən təşkil etmələri; Ermənistanın öz qərb sərhədlərini möhkəmləndirmək məcburiyyətində qalması; Vedibasar rayonunda ermənilərin məğlubiyyəti və s.) əməli addımlar atılmasını şərtləndirirdi.

Müəyyən hərbi-maliyyə və siyasi-mənəvi səciyyəli hazırlıq işlərindən sonra 1919-cu il iyulun 19-25-də aparılan uğurlu döyüşlər erməni "idarəçiliyi"nin bölgədən qovulması ilə nəticələndi. Mahalda daşnak "ağalığı"na son qoyulduqdan sonra siyasi şəraitin yaxşılaşmasına müsbət təsir göstərən bir proses getdi erməni icmaları yığıncaqlar keçirərək rəsmi sənədlərlə Azərbaycan hökumətini tanıdılar[250].

Azərbaycan hökumətinin Dağlıq Qarabağ ermənilərinə münasibətdə yürütdüyü sülhsevər siyasət bu diyarda mövcud olan ümumi vəziyyətin tədricən dinc məcraya yönəlməsində mühüm rol oynadı, Dağlıq Qarabağda Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətinin bərqərar edilməsi perspektivinə yerli ermənilərdə müsbət münasibətin formalaşmasına imkan verdi. Hətta danışıqların gedişində Azərbaycan hökuməti erməni ruhanilərinin dəstəyini almağa nail ola bildi. Tezliklə Qarabağ ermənilərinin 7-ci qurultayı ilə Azərbaycan hökuməti arasında 26 maddədən ibarət razılaşma bağlandı. Razılaşmada göstərilirdi ki, məsələnin sülh konfransında qəti həllinə qədər Qarabağın dağlıq hissəsinin, Şuşa, Cavanşir və Cəbrayıl qəzalarının erməni əhalisi bu ərazilərin Azərbaycan Xalq Cümhuriyyəti hüdudları daxilində olduğunu qəbul edir. Razılaşmanın 5-ci bəndinə əsasən Qarabağ general-qubernatorluğu nəzdində erməni və azərbaycanlı əhalisini təmsil edən və hər tərəfdən üç nəfər olmaqla Şura yaradılması nəzərdə tutulurdu. Ümumiyyətlə, razılaşmanın Azərbaycan üçün əhəmiyyəti onda idi ki, orada Dağlıq Qarabağın erməni əhalisinə yalnız mədəni özünüidarəetmə hüququ verilirdi.

1919-cu il avqustun 19-da Dağlıq Qarabağ ermənilərinin 7-ci qurultayı yekdilliklə Azərbaycan hökuməti ilə bağlanmış razılaşmanın şərtlərini qəbul etdi[251].

Beləliklə də Azərbaycanın ərazi bütövlüyünün rəsmən tanınmasının təmin edilməsi etiraf olunurdu. Bu isə Azərbaycan dövlətinin sülhsevərliyi və demokratikliyinin bariz nümunəsi idi. Lakin bununla belə, 1919-cu ilin yazında Paris sülh konfransında Azərbaycan nümayəndə heyəti Ermənistan və İranın "öz tarixi torpaqlarını qaytarmaq" cəhdlərinə qarşı ardıcıl siyasi-diplomatik mübarizə aparmaqda idi. Azərbaycan diplomatiyası Versalda həm ermənilərin, həm də İranın Azərbaycan Xalq Cümhuriyyətinə qarşı irəli sürdükləri ərazi iddialarını dəf etməyə müvəffəq ola bildi.

İngilislərin Şimali Azərbaycandakı mövqelərinin zəiflədiyi zaman yəni 1919-cu

ilin ikinci yarısında fəallaşan ABŞ hökuməti məlum bölgələr, xüsusilə də Naxçıvan bölgəsi ətrafındakı erməni-azərbaycanlı münaqişəsindən faydalanmağa çalışdı. Naxçıvan ilə bağlı məsələlərdə əsasən ermənipərəst mövqe tutan ABŞ müəyyən mülahizələrə (regiona kifayət qədər hərbi qüvvə gətirə bilməməsi, mahalın azərbaycanlı əhalisinin çox güclü müqaviməti. Azərbaycan hökumətinin barışmaz mövqeyi və s.) görə, ikili siyasət yürüdürdü. "Modus vivende" yaratmağı özünün Cənubi Qafqaz missiyasının başlıca vəzifələrindən biri sayan müttəfiqlərin Ermənistandakı ali komissarı polkovnik V.Haskel Zəngəzur və Qarabağı Azərbaycanın tərkib hissələri kimi tanıyaraq, ermənilərlə müsəlmanlar arasında normal münasibətlər yaradılması adı altında Naxçıvan və Şərur-Dərələyəz qəzalarının müvəqqəti xüsusi bitərəf zona elan edilməsi və burada amerikan general-qubernatorluğu yaradılması təklifini irəli sürmüşdü[252]. Lakin mahalın azərbaycanlı əhalisinin inadlı müqaviməti, Azərbaycan hökumətinin hərtərəfli ciddi səyləri sayəsində ABŞ-ın müəyyən diplomatik gedişlərlə Naxçıvan bölgəsində möhkəmlənmək siyasəti boşa çıxdı. Ermənilərin amerikanlar vasitəsilə Naxçıvana yiyələnmək niyyətləri baş tutmadı.

1919-cu ilin payızında isə Ermənistanın Zəngəzurda növbəti və daha geniş miqyaslı döyüş əməliyyatlarına hazırlıq tədbirləri, o cümlədən onların təbliği-ideoloji təminatı (Versal konfransına və Qərb dövlətlərinin Qafqazdakı nümayəndələrinə təsir etmək cəhdi "mübahisəli məsələlərin həlli" məqsədi ilə konfrans keçirmək təşəbbüsü və s.) gücləndirildi.

Genişlənən erməni təcavüzünün qarşısını almağa gücü çatmayan Azərbaycan kəndlərinin sakinləri yurdlarını tərk etməyə məcbur olurdular. Mövcud olan bəzi məlumatlara görə, 1919-cu il oktyabr ayının əvvəllərində Zəngəzurun 110 böyük türk-müsəlman kəndi məhv edilmişdi[253]. Bu kəndlərin sakinləri ya qırılmış, ya da dədə-baba ocaqlarını tərk edərək qaçmağa məcbur olmuşdular. Yurdlarını tərk etmək məcburiyyətində qalan əhalinin çoxu Qarabağa pənah gətirirdi[254].

Zəngəzur qəzasından qaçqın düşənlərin sayı 60 minə çatmışdı. Rəsmi İrəvanın Zəngəzur ermənilərini Azərbaycan hökumətini tanımamağa təhrik edən müxtəlif səpkili hərəkətləri, buradakı qiyamçı silahlı qüvvələri açıq-aşkar siyasi-hərbi cəhətdən dəstəkləməsi Azərbaycan rəhbərliyini Qarabağ general-qubernatorunun sərəncamına verilən 1-ci alay diviziyasının komandiri general-mayor C.Şıxlinskinin komandanlığı altında məhdud qoşun kontingentini 1919-cu il oktyabrın sonlarında bölgəyə göndərməyə məcbur etdi.

Azərbaycan hökumətinin bu tədbirini Zəngəzurun daxili işlərinə müdaxilə və dinc əhaliyə qarşı silahlı əməliyyat kimi qələmə verən Ermənistan Qafqazın hüdudlarından da kənarda beynəlxalq diplomatik qalmaqal saldı. Ermənistanın Bakıdakı diplomatik nümayəndəsi olan .Bekzadyan Ermənistan - Azərbaycan konfransının çağırılması ilə əlaqədar 1919-cu il oktyabrın 12-13-də N.Yusifbəyli və M.V.Cəfərovla görüşərkən ərazi mübahisələri ilə bağlı məsələlərə də toxundu[255]. Erməni tərəfinin konfrans çağırmaq təşəbbüsündə Zəngəzur və Naxçıvana yiyələnmək niyyətini duyan Azərbaycan rəhbərliyi artıq İrəvanın və Eçmiədzin qəzasının güzəştə gedildiyini xatırlatmış, Azərbaycanın

digər əzəli torpaqlarının - Qarabağ, Naxçıvan və Zəngəzurun ona mənsubluğu barədə söhbətin belə yolverilməz olduğunu qəti bildirmişdi.

Zəngəzur ekspedisiyası erməni təbliğatının genişlənməsi nəticəsində çox böyük rezonans aldığı üçün bu məsələ 1919-cu il noyabrın 19-da Dövlət Müdafiə Komitəsində də müzakirə olundu. Qəbul edilmiş qərarda deyilirdi ki, yaranmış vəziyyəti nəzərə alaraq, Zəngəzurda erməni silahlı qüvvələri ilə Azərbaycanın qoşun bölmələri arasında silahlı qarşıdurmanın aradan qaldırılması üçün lazımi tədbirlər görülsün[256].

1919-cu il noyabrın 23-də Azərbaycan və Ermənistan hökumətlərinin sədrləri görüşdülər. ABŞ nümayəndələrinin vasitəçiliyi ilə təşkil edilmiş bu görüş başlıca olaraq ərazi məsələlərinin müzakirəsinə həsr edilmişdi. Azərbaycan və Ermənistan hökumətlərinin sədrləri Tiflisdə razılaşma imzaladılar. Həmin sənədin birinci bəndində deyilirdi ki, Azərbaycan və Ermənistan davam edən qarşıdurmanı dayandırır və bir daha silah işlətməməyi öhdələrinə götürür, müqavilənin başqa bir maddəsində isə bildirilirdi ki, hər iki respublika bütün məsələləri, o cümlədən sərhəd məsələlərini sülh konfransında həll etməyi öhdələrinə götürürdülər. Hər hansı bir məsələ mübahisə doğurduqda üçüncü tərəf kimi ABŞ nümayəndəsinin fikri əsas tutulacaq[257].

Əslində bu saziş müvəqqəti xarakter daşıyırdı, çünki sazişə görə, dövlətlərarası mübahisəli məsələlərin bütün kompleksini yalnız qarşıdakı Ermənistan-Azərbaycan konfransı həll edə bilərdi. Sazişin nəticələrinə gəldikdə isə onlar Azərbaycan tərəfi üçün faydalı olmadı, əksinə onun siyasi və hərbi maraqlarına xələl gətirdi. Ermənilərin səmimi olmalarına inanan və müttəfiqlərin müraciətlərini əsas tutan Azərbaycan hökuməti razılaşdırılmış məsələlərin həllini gözləmədən öz qoşun hissələrini Zəngəzurdan çıxartdı[258]. Saziş ərəfəsində və onun bağlandığı günlərdə belə Zəngəzurda hərbi əməliyyatları davam etdirən Ermənistan hökuməti bu şəraitdən faydalanaraq, dərhal bölgəyə əlavə nizami silahlı qüvvələr yeritdi, ada hərbi əməliyyatların yeni və daha irimiqyaslı mərhələsinə başladı[259].

1919-cu il dekabrın 14-ü ilə 21-i arasında Bakıda keçirilən Azərbaycan-Ermənistan konfransında F.X.Xoyskinin ilk növbədə ərazi problemlərini müzakirə etmək təklifi və M.Hacınskinin sərhəd mübahisələrini 23 noyabr sazişinə uyğun olaraq həll etməyi konfransın əsas vəzifəsi sayması Ermənistan tərəfindən (Arutünyants və Bekzadyan) ərazi mübahisələrinin qəti həlli üçün hələ lazımi şərait və vaxtın yetişməməsi mülahizəsi ilə qarşılaşdı[260]. Ümumiyyətlə, bu konfransda iki dövlət arasındakı gərgin münasibətlərə heç bir aydınlıq gətirmədi, mübahisəli sərhəd-ərazi məsələlərinin, o cümlədən də Zəngəzur probleminin həllində əməli işlərlə nəticələnmədi.

1920-ci il yanvarın ikinci yarısından etibarən Ermənistanın Azərbaycana qarşı yeni, daha faciəli bir təcavüzü baş verdi. Müşahidəçilər tamamilə haqlı olaraq qeyd edirdilər ki, erməni təcavüzünün bu səhifəsi 1920-ci il yanvarın 11-də müttəfiq dövlət tərəfindən Gürcüstanla bərabər, Azərbaycanın da müstəqilliyinin de-fakto tanınması ilə bağlı idi. Erməni millətçi dairələri Azərbaycanın müstəqilliyini tanımaq və iddia etdikləri Azərbaycan torpaqlarından imtina etmək

fikri ilə qətiyyən razılaşmırdılar. Dövlətlər arasında sərhəd hələ dəqiqləşdirilməsə də, ermənilər artıq bu məsələnin büsbütün onların xeyrinə həll ediləcəyinə əmin deyildilər. Ona görə də müttəfiq dövlətlərin onlara ərazi məsələsində "səxavət" göstərəcəklərini gözləmədən yenidən silah gücünə öz niyyətlərinə çatmağa cəhd edirdilər[261].

1920-ci il yanvarın 16-da Dövlət Müdafiə Komitəsi öz iclasında Zəngəzurda hərbi şəraitin yenidən mürəkkəbləşməsini müzakirə etdi. Burada bildirilirdi ki, 1919-cu il noyabrın 23-də Tiflisdə imzalanan razılaşmadan sonra Azərbaycan öz qoşun hissələrini Zəngəzurdan geri çəksə də, Ermənistan tərəfi nizami qoşun hissələrini nəinki geri çağırmadı, əksinə onları möhkəmləndirdi. Həmin vaxtdan keçən müddət ərzində Zəngəzurun daha 40-dək kəndi talan edilib sakinləri qətlə yetirildi[262].

Genişlənən erməni təcavüzünün dayandırılması üçün Azərbaycanın Xarici İşlər Nazirliyi Ermənistan Xarici İşlər Nazirliyinə etiraz notasında qətiyyətli şəkildə Zəngəzurda genişlənməkdə olan talan qırğınlara son qoyulmasını tələb etdi[263].

Azərbaycan tərəfi ilə danışıqlara girib müxtəlif razılaşmalar bağlasa da, ayrı-ayrı dövlətlərin vasitəçiliyindən istifadə etsə də, erməni millətçiləri öz xislətlərindən əl çəkmirdilər və məqsədləri Azərbaycan tərəfini sakitləşdirmək, onun diqqətini yayındırmaq, yeni qüvvələr toplayıb təcavüzü daha da genişləndirmək idi. Yanvarda genişlənən təcavüzlər də ermənilərin bu ikiüzlü siyasətinin davamı idi.

Zəngəzurda vəziyyət mürəkkəbləşən kimi Hərbi Nazirliyin məsul şəxsləri bölgəyə ezam olundular.

Yanvarın 27-də general-leytenant M.Sulkeviç və süvari diviziyasının komandiri general-mayor T.Novruzov Şuşaya gəldilər. Vəziyyətlə tanış olduqdan sonra M.Sulkeviç bölgədə hərbi texnikanın artırılmasını məqsədəuyğun bildi[264].

Yanvar ayının sonlarında gərginlik nisbətən səngidi və sakitliklə olundu. Bundan faydalanan erməni qüvvələri diqqəti öz əməllərindən yayındırmağa çalışır və növbəti təcavüzə hazırlaşırdılar. Mart ayının əvvəllərində əldə edilmiş kəşfiyyat məlumatları da sübut edirdi ki, Qarabağ ərazisində kütləvi üsyan törətmək üçün ciddi hazırlıq işləri aparılır[265].

1920-ci ilin əvvəllərində Şimali Qafqazda Qızıl Ordunun uğurlu hərbi əməliyyatları Könüllülər Ordusunun vəziyyətini yenidən xeyli ağırlaşdırdı. Həmin ilin mart ayında denikinçilərə ağır zərbə vuruldu. Denikinin Azərbaycana qarşı təcavüzü baş tutmadı. Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinə başqa bir təhlükə - Sovet Rusiyası qoşunları yaxınlaşmaqda idi.

Erməni millətçi dairələri bu vəziyyətdən istifadə etdilər. Martın 19-da erməni silahlıları hücum edərək 2 nəfər azərbaycanlı əsgəri qətlə yetirdilər[266]. Erməni qüvvələrinin hücumu martın 22-də gecə saat 3-də eyni vaxtda Şuşa, Xankəndi, Əsgəran, Xocalı və Tərtərdə yerləşən qoşun bölmələrinin üzərinə basqınla başladı.

Ermənilərin Qarabağda və Zəngəzurda böyük qüvvələri cəmləşmişdi. Ancaq

qarşıya qoyulan məqsədə çatmaq üçün onlar bu bölgəyə yeni-yeni qüvvələrin gətirilməsini planlaşdırırdılar. Martın ortalarında Dilicandan Zəngəzura 7 min erməni silahlısı gətirilmişdi. İrəvan qubemiyasının Yenibəyazid qəzasından Qarabağa doğru çoxsaylı erməni silahlı dəstələri yola düşmüşdü[267].

Qarabağda ermənilərin təcavüzü genişlənən kimi yeni əlavə qüvvələrin göndərilməsi qərara alındı və Azərbaycan Ordusunun bütün potensialı səfərbər edildi. Erməni silahlı qüvvələrinin təcavüzünə qarşı aparılan mübarizəyə rəhbərlik etmək üçün Baş Qərargahın rəisi general-mayor H.Səlimovun rəhbərliyi altında başqa bir xüsusi qərargah da yaradıldı və o, martın 26-da Ağdamda yerləşdi[268].

Qarabağdakı qüvvələrin daha da möhkəmləndirilməsi üçün Hərbi Nazirlik buraya göndərilən qüvvələrin sayının artırılmasını məqsədəuyğun bilirdi. 8-ci Ağdaş piyada alayı və Zaqatala alayının 700 nəfərlik Nuxa taboru da Qarabağa yollanmaq əmri aldı. Tezliklə həmin qüvvələr Qarabağa gətirildi[269].

Martın 26-da general H.Səlimov Ağdama çatan kimi Əsgəran yolunun kəşfiyyatını apardı. Əsgəran ətrafındakı bütün yüksəkliklər erməni silahlılarının əlində idi.

Martın 29-da Azərbaycan qoşun hissələrinin Əsgəran istiqamətində hücumu başladı. Əsgəranın möhkəmləndirilmiş mövqelərinin tutulması üçün hücum şose yolu boyu Xanabadadək aparılmalı idi. Döyüşə partizan dəstələri də cəlb edilmişdi. Onlar 3360 nömrəli hündürlük istiqamətində hərəkət etməli idilər. Xramort kəndi istiqamətində Parlament mühafizə dəstəsi, Daşbaşı kəndi istiqamətində isə Bakı piyada alayının bölmələri irəliləməli idi.

Lakin ilk hücum uğurla nəticələnmədi. Aprelin 2-də Ağdama Zaqatala piyada alayının, Şirvan alayının və Tərtər süvari alayının hissə və bölmələri gəlib çıxdı. Bu da Ağdam dəstəsinin xeyli möhkəmlənməsinə imkan verdi[270]. Əlavə nizami qüvvələrlə möhkəmləndirilən Ağdam dəstəsi aprel ayının 3-də yenidən Əsgəran istiqamətində hücuma başladı. Erməni silahlı qüvvələri bütün imkanlarını səfərbərliyə alıb əvvəlki hücumda olduğu kimi, Ağdam dəstəsinin qarşısını almağa çalışsalar da, gərgin şəraitdə keçən döyüş Azərbaycanın qoşun bölmələrinin böyük uğuru ilə nəticələndi. Xeyli təlafat verən düşmən əvvəlcə Əsgəranı, sonra da Xocalını tərk etməli bölgədə strateji əhəmiyyətə malik olan bu iki məntəqə Ağdam dəstəsi tərəfindən azad edildi[271].

Uğurlu yürüşə başlayan Azərbaycan qüvvələri aprel ayının 5-də Ağdama daxil oldular[272].

Aprelin 9-dan 12-dək Şuşa yaxınlığındakı Keşişkənd ətrafında da gərgin döyüşlər baş verdi. Bu döyüşlərdə Qarabağdakı erməni qüvvələrinin ən mühüm və çox ciddi möhkəmləndirilmiş bazası məhv edildi[273].

Martın 22-dən başlayaraq davam edən döyüşlər qoşun bölmələrini yormaqla bərabər, onlara müəyyən maddi və canlı itkilər də verilmişdi. Döyüşlərin davam etdirilməsi bu itkilərin bərpa olunmasını tələb edirdi. Keşişkənd ətrafında erməni qüvvələri güclü zərbə olsalar da, tamamilə məhv edilməmişdilər. Xırda

qruplarda birləşərək onlar Azərbaycan mövqeləri üzərinə öz hücumlarını davam etdirirdilər. Belə hücumların qarşısının qətiyyətlə alınması üçün qoşun bölmələrinin hərtərəfli təmin və təchiz edilməsi günün zəruri məsələsinə çevrilirdi.

Ancaq Hərbi Nazirliyin rəhbərliyi Qarabağa nəinki canlı qüvvə göndərmək imkanına malik deyildi, əksinə, Qızıl Ordunun şimal sərhədlərinə yaxınlaşması ilə buranın möhkəmləndirilməsi üçün Qarabağdan qüvvə gətirilməsinin mümkünlüyünü öyrənirdi. Aprelin 16-da hərbi nazirə göndərdiyi teleqramında general H. Səlimov bildirirdi ki, Şuşa və Xankəndi ətrafında xırda dəstələrdə birləşmi erməni silahlıları sakitləşmək bilmirlər. Belə vəziyyətdə Qarabağdakı qüvvələrin zəiflədilməsi arzuolunmaz nəticələrə gətirib çıxara bilərdi. General H.Səlimov teleqramında daha sonra yazırdı: "Siyasi vəziyyət, şübhəsiz ki, Sizin üçün daha aydındır. Ancaq cəsarət edərək öz fikrimi bildirirəm ki, biz iki cəbhədə müharibə apara bilmərik və belə mübarizənin nəticələri bizim üçün çox pis ola bilər. Qəti hücıma keçmək üçün əlavə köməyin göndərilməsini xahiş etmək istərdim. Cəbrayıl dəstəsini möhkəmləndirmək üçün mənim indi heç nəyim yoxdur"[274].

Bolşevik qoşunları Azərbaycanın şimal sərhədlərinə yaxınlaşdıqca, erməni silahlı dəstələrinin fəallığı da artırdı. Geniş cəbhədə Azərbaycan qoşun bölmələrinin təzyiqinə davam gətirməyən erməni silahlıları ailələrini Zəngəzura köçürüb kiçik dəstələrlə Azərbaycan kəndlərinə hücum edirdilər.

Daha çox narahatçılıq və təşviş doğuran Cəbrayıl istiqamətində müdafiə qüvvələrinin möhkəmləndirilməsi üçün döyüşçülərinin sayı ən azı min nəfərə çatan 2 piyada taborunun göndərilməsi tələb olunurdu. Canlı qüvvəyə olan ehtiyacın aradan qaldırılması üçün H.Səlimov aprelin ikinci yarısında Şuşa qəzasında səfərbərliyin keçirilməsi barədə əmr verdi.. Bu əmrə əsasən, 30 yaşınadək olan yerli əhali hərbi xidmətə cəlb olunurdu[275].

Azərbaycanın müdafiə qüvvələrinin Qarabağda sayca azalmasından erməni silahlı dəstələri hər vasitə ilə istifadə etməyə çalışırdılar. Keşişkənd döyüşündən sonra Ağdam dəstəsinin fəaliyyəti də əsasən müxtəlif məntəqələrdə fəallaşan erməni silahlı dəstələrinin susdurulması ilə bağlı idi. Aprelin 18-dən 19-na keçən gecə erməni silahlı dəstəsi Qaybalı kəndinə daxil olaraq onun bir hissəsini yandırdılar[276].

Aprelin 24-də səhər tezdən 60 nəfərlik erməni silahlı dəstəsi Şuşikəndin şimal-qərbindəki yüksəkliklərdə yerləşən çöl qarovul postlarına hücum etdi. Tezliklə bu hücum dəf edildi. Elə həmin gün erməni silahlıları Kətik kəndi yaxınlığındakı yüksəkliklərdə olan mövqelərə də hücum etdilər. Burada da onlar Azərbaycan döyüşçülərinin müdafiəsini poza bilmədilər[277].

Qarabağdakı uğurlu döyüşlərdən sonra Azərbaycan qoşunları qarşısında Zəngəzur istiqamətində hərbi əməliyyatlar keçirmək vəzifəsi qoyuldu. Aprelin 27-də Hərbi Nazirliyə göndərdiyi teleqramda H.Səlimov bildirdi ki, onun dəstəsində qalan qüvvə yalnız Şuşa-Ağdam yolunu qorumağa çatır. Həmin gün Bakıya göndərdiyi digər bir teleqramında isə general H.Səlimov çətin vəziyyətdə olduğunu xatırladıb soruşurdu ki, ixtiyarında olan

qüvvə ilə Zəngəzura doğru hərəkət etsin, ya yox? 1919-cu il noyabrın 23-dək Zəngəzurda mövcud olan vəziyyətin bərpası üçün orada əməliyyat keçirilməsinin və ya yalnız sərhədlərin qorunmasının məqsədəuyğunluğu barədə H.Səlimov ona dəqiq göstəriş verilməsini xahiş edirdi[278].

Ümumiyyətlə, 1920-ci il aprelin sonunadək Azərbaycan Ordusu regiondakı 1919-cu il noyabrın 23-nə olan vəziyyəti bərpa edərək ölkəsinin ərazi bütövlüyünü qorudu və bununla da öz vəzifəsini şərəflə yerinə yetirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğu zamanı onun ərazisi 113895,97 kv.km idi. Onun 9729767 kv.km mübahisəsiz, 16.598,30 $km^2$-i mübahisəli zonaları əhatə edirdi[279].

Hərbi münaqişə Azərbaycan hökumətini əsas ordu qüvvələrini respublikanın qərb sərhədlərində yerləşdirməyə vadar etdi ki, bu da sərhədlərinin xeyli zəifləməsinə gətirib çıxartdı. Qarabağda qiyam Ermənistan hökuməti tərəfindən təşkil edilmiş məkrli planını Sovet komandanlığı rəsmi İrəvanla birgə hazırlamışdı və Azərbaycana hücum edən XI Qızıl Ordunun əməliyyatını asanlaşdırmaq məqsədini güdürdü. Lakin bunun fərziyyə deyil, fakt olması sonralar Ermənistan hökumətinin 1920-ci ilin iyununda Moskvaya Millətlərin işi üzrə Komissarlığa və RK(b)P təqdim etdiyi məktubunda təsdiq edilmişdir[280].

Azərbaycanın sovetləşdirilməsi işində ermənilərin rolu Ermənistan hökuməti və Qarabağ İnqilab Komitəsi XI Qızıl Ordu ilə bilavasitə əlaqələrin yaradılmasından ibarət olmalı idi. İkitərəfli razılığa əsasən Azərbaycan hərbi qüvvələrinin böyük bir hissəsini Qarabağa cəlb etmək və rus qoşunlarının Bakıya hücumunu yüngülləşdirmək məqsədilə Novruzun birinci günü Qarabağda üsyan qaldırmaq qərarlaşdırılmışdı.

Azərbaycanın XI Qızıl Ordu tərəfindən istilası və kommunistlərin hakimiyyəti ələ keçirməsi ölkənin ərazi bütövlüyünün tamtəmin edilməsini başa çatdırmağa imkan vermədi. Aprelin 28-də Hərbi Nazirliyin rəhbərliyi qoşun hissələrinə komandanlığı hakimiyyətə gəlmiş Sovet orqanlarına təhvil verdi.

VIII FƏSİL

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN XARİCİ SİYASƏTİ

Müstəqilliyini elan etmiş gənc Azərbaycan Xalq Cümhuriyyəti xarici siyasət məsələlərinə xüsusi diqqət yetirirdi. İstiqlaliyyətin qorunub saxlanması daxildən daha çox, xarici amillərlə də bağlı idi. Dünya müharibəsinin getdiyi mürəkkəb beynəlxalq şəraitdə - iştirakçı ölkələrin Qafqaz və onun zəngin guşələrindən olan Azərbaycan uğrunda hərbi əməliyyatların genişləndiyi dövrdə Azərbaycanın dövlət müstəqilliyinin qorunması onun uğrunda mübarizələrdə yetişmiş siyasətçilərdən və dövlət xadimlərindən hər an dəyişən vəziyyətə uyğun çevik siyasi manevretmə bacarığı tələb edirdi. Azərbaycan diplomatiyasının bu çətin vəzifənin öhdəsindən gəlməsi üçün 1918-20-ci illər dövründə təşkil olunmuş müxtəlif hökumət kabinetlərində Xarici İşlər Nazirliyinin möhkəmləndirilməsi və təşkilati strukturunun təkmilləşdirilməsinə böyük diqqət yetirilirdi. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasət idarəsinə müxtəlif vaxtlarda dovrünün ziyalıları, dünya siyasətinin sirlərinə bələd olan, çevik diplomatik bacarığa malik Fətəli Xan Xoyski, Məmməd Həsən Hacınski, Məmməd Yusif Cəfərov, Adil xan Ziyadxanlı başçılıq etmişdilər. Azərbaycan diplomatiyasının hazırlanmasında və həyata keçirilməsində Ə.M.Topçubaşov, M.Ə.Rəsulzadə, Ə.Ağayev, N.Yusifbəyli, Ə.Şeyxülislamov, C.Hacıbəyli, M.Y.Mehdiyev. M.Məhərrəmov, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli və digərləri yaxından iştirak etmişlər.

Milliyyətindən və dini etiqadından asılı olmayaraq qonşu dövlətlərlə mehriban münasibətlər Azərbaycan diplomatiyasının aparıcı istiqaməti olub, onun çıxış nöqtəsini təşkil edirdi. Böyük dünya siyasəti baxımından Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətini üç dövrə bölmək olar: Türkiyə oriyentasiyası dövrü (1918-ci il may-oktyabr); Qərb oriyentasiyası dövrü (1918-ci il noyabr-1920-ci il yanvar); geniş və hərtərəfli dünya əməkdaşlığına daxil olmaq uğrunda mübarizə dövrü - (1920-ci il yanvar-aprel).

XX yüzilliyin əvvəllərindən Azərbaycanda genişlənən milli-azadlıq mübarizəsində onun öncülləri Osmanlı dövlətinə boyük ümid bəsləyirdilər. Əsrin əvvəllərindəki təlatümlü hadisələr Azərbaycanın türk-müsəlman əhalisinin həyatında milliyyətçilik ideyasının geniş yayılması və inkişafına ciddi təkan verdi.

Balkan müharibələri dövründə Rusiyada antitürk əhvali-ruhiyyəsinin qızışdırılması bir tərəfdən Qafqaz müsəlmanlarını ondan narazı saldı, digər tərəfdən isə Azərbaycan xalqında Osmanlı dövlətinə qarşı təbii meyli gücləndirdi. Bu dövrdə milliyyətçi qüvvələrin yaydığı bəyannamədə göstərilirdi: "... Biliniz və agah olunuz ki, bizim yeganə çareyi-nicatımız Türkiyənin istiqlalı və onun tərəqqisidir"[1].

Dünya müharibəsinin son mərhələsində Azərbaycan millətinin müstəqillik

arzusu Türkiyənin Qafqaz siyasəti ilə çarpazlaşdığından tərəflər arasında bir-birinə olan təbii meyil onların sosial-siyasi, hərbi-iqtisadi əməkdaşlığında maddiləşməklə yeni mərhələyə daxil oldu. Bu yeni mərhələnin səciyyəvi cəhəti ondan ibarət idi ki, azərbaycanlıların Osmanlı dövlətinə söykənməyi milli idealla yanaşı, meyli dərəcədə millətin fiziki varlığının hifz edilməsi zərurətindən irəli gəlirdi.

1918-ci ilin əvvəllərində Trabzon və Batum danışıqları Zaqafqaziya Seyminə daxil olan xalqların Türkiyəyə münasibətində köklü fikir ayrılıqlarını üzə çıxartdı. Trabzon danışıqları dayandırıldıqdan sonra Batuma səfər edən Ənvər Paşa Trabzonda Zaqafqaziya hökumətinin dağılacağı təqdirdə Türkiyə ilə geniş sərhədləri olan müstəqil Azərbaycan dövlətinin yaradılmasına tərəfdar olduğunu və bu dövlətin Türkiyə tərəfindən müdafiə ediləcəyini bildirdi[2]. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından sonra Azərbaycan-Türkiyə münasibətləri yeni mərhələyə - dövlətlərarası münasibətlər mərhələsinə daxil oldu.

Bu mərhələdə Azərbaycan-Türkiyə münasibətlərinin hüquqi əsasını 4 iyunda imzalanmış Batum müqaviləsi təşkil edirdi. Müqavilədə göstərilirdi: "Bir tərəfdən, Osmanlı imperator hökuməti, digər tərəfdən isə müstəqilliyin elan etmiş Azərbaycan Xalq Cümhuriyyəti hökuməti öz ölkələri arasında siyasi, hüquqi, iqtisadi və intellektual zəmində mehriban dostluq münasibətləri bərqərar etməklə qarşılıqlı surətdə razılığa gəlirlər"[3]. 4 iyun müqaviləsi və iyunun ortalarında imzalanan çoxtərəfli sazişlər Azərbaycan-Türkiyə münasibətlərinin bütün sahələrini əhatə edən ilk dövlətlərarası sənədlər idi. Hələ Batumda olan M.Ə.Rəsulzadə və M.H.Hacınski xarici hərbi müdaxiləyə son qoymaq və daxili asayişi qorumaq məqsədilə 4 iyun müqaviləsi əsasında hərbi yardım göstərilməsi barədə Türkiyəyə müraciət etdilər, Həmin müraciəti qəbul edən Osmanlı dövləti elə etmək istəyirdi ki, Azərbaycana ordu göndərilməsi Cənubi Qafqazda möhkəmlənməyə çalışan Almaniyanın etirazına səbəb olmasın. Ona görə qarşılıqlı razılıq əsasında osmanlı hərbi hissələri və Azərbaycan könüllülərindən ibarət Qafqaz İslam Ordusu yaradıldı[4].

Azərbaycan-Türkiyə münasibətlərinin genişlənib dərinləşməsində 1918-ci ildə keçirilməsi nəzərdə tutulan İstanbul konfransına M.Ə.Rəsulzadə, X.Xasməmmədov və A.Səfikürdskidən ibarət nümayəndə heyəti göndərilməsinin böyük əhəmiyyəti oldu. Nümayəndə heyətinə bu beynəlxalq konfransa dəvət edilmiş Osmanlı, Almaniya, Avstriya-Macarıstan, Bolqarıstan, Gürcüstan, Ermənistan və Dağlılar dövlətlərinin nümayəndələri ilə siyasi, iqtisadi, maliyyə və hərbi məsələlərlə bağlı danışıqlar aparmaq və müqavilələr bağlamaq səlahiyyəti verilmişdi[5]. Nəzərdə tutulan beynəlxalq konfrans keçirilməsə də, Azərbaycan nümayəndələrinin İstanbul missiyası çox faydalı oldu. İyun ayının axırlarından oktyabrın axırlarına qədər Azərbaycan, Osmanlı və digər dövlətlərin İstanbulda olan nümayəndələri səmərəli danışıqlar apardılar.

Sentyabrın 6-da isə Azərbaycan nümayəndələri Mehmet Rəşadın vəfatından sonra taxta əyləşmiş Sultan VI Mehmet Vahideddin tərəfindən qəbul edildi. Həmin gün Sultan taxta çıxması münasibətilə İstanbulda olan diplomatik nümayəndələr üçün təntənəli rəsmi qəbul (audiensiya) mərasimi düzəltmişdi. Gözləmə zalında bir çox xarici nümayəndəliklər

olmasına baxmayaraq, Sultanın şəxsi təşəbbüsü ilə Azərbaycan nümayəndələri birinci qəbul edildilər. Onları Ənvər Paşa qarşılayıb Sultana təqdim etdi. Azərbaycan Xalq Cümhuriyyəti adından VI Mehmeti təbrik edən M.Ə.Rəsulzadə yüzillik əsarətdən xilas olmuş Azərbaycan xalqının öz istiqlaliyyətini və hürriyyətini qoruyub saxlamaq yolunda qardaş Türkiyəyə arxalandığını bildirdi. Sultan cavabında qeyd etdi: "Sevimli Azərbaycanımızın nümayəndələri tərəfindən təbrik edildiyimi həyatımda xoşbəxt bir hadisə qəbul edirəm. Əsarətdən xilas olmuş türk və müsəlman hökumətinin istiqlaliyyət və hürriyyətini təmin etmək mənim hökumətimin ən müqəddəs vəzifəsini təşkil edir. Azərbaycanın həyat və qüvvət kəsb edərək, bizimlə birlikdə ümumi düşmənlərimizə qalib gələcəyinə ümid edirəm".

Bu qəbul barədə Azərbaycan hökumətinə məlumat verən M.Ə.Rəsulzadə yazırdı: "Biz çıxanda Sultanın Ənvər Paşa həzrətlərinə yaxınlaşaraq "bu dəqiqələr ömrümün ən xoşbəxt dəqiqələridir" dediyini eşitdik və bundan köksümüz iftixarla doldu"[6].

1918-ci ilin yayında Azərbaycan ətrafında cərəyan edən beynəlxalq vəziyyət Bakının tezliklə azad edilməsini zəruri edirdi. Dünya müharibəsinin sonunda Bakı Türkiyə, Almaniya, İngiltərə, Sovet Rusiyası arasında mübarizənin əsas obyektinə çevrilmişdi.

1918-ci ilin yayında İstanbulda vəziyyəti müşahidə edən almanlara aydın oldu ki, Türkiyənin müdafiə etdiyi Azərbaycan hökuməti bolşeviklərin əlində olan Bakı quberniyasını heç kimə güzəştə getmək istəmir. Buna görə, almanlar Bakı ilə bağlı planlarına Sovet Rusiyası vasitəsilə çatmaq fikrinə düşdülər və bu məqsədlə onunla gizli danışıqlara başladılar.

Sovet Rusiyasının Almaniya vasitəsilə işə qarışması Azərbaycan hökumətinin Bakını azad etməsini xeyli yubandırdı. Berlin danışıqları davam etdiyi zaman Bakı Xalq Komissarları Sovetinin şəhəri əldə saxlamaq üçün çar polkovniki L.Biçeraxovdan yardım almaq ümidləri boşa çıxdı və iyul ayının axırlarında Bakı Kommunası yıxıldı. Sentrokaspiçilər və avqustun əvvəllərində L.Denstervil başda olmaqla Bakıya daxil olan ingilislər şəhəri Qafqaz İslam Ordusunun hücumundan müdafiə etmək iqtidarında deyildilər. Nəhayət, Berlində üç aya qədər davam edən Almaniya-Rusiya danışıqları avqustun 27-də saziş imzalanması ilə nəticələndi. Sazişin 12-ci maddəsində göstərilirdi: "Almaniya Qafqazda Gürcüstanın hüdudlarından kənarda hərbi əməliyyatlarda hər hansı üçüncü dövlətə heç bir yardım etməyəcək... Rusiya Bakı vilayətində neft çıxarılmasını bütün imkanları daxilində artıracaq, çıxarılan neftin dörddə birini Almaniyaya verəcək"[7].

İstanbulda olan Azərbaycan nümayəndələri bu sazişlə əlaqədar Almaniya səfirliyinə etiraz notası təqdim etdilər. Notanın surəti Türkiyə Xarici İşlər Nazirliyinə, Avstriya - Macarıstan və Bolqarıstan səfirliklərinə, habelə bitərəf ölkələrin diplomatik nümayəndəliklərinə də verildi.

1918-ci il sentyabrın əvvəllərində Azərbaycan nümayəndələri Sədr-Əzəm Tələt Paşa tərəfindən qəbul edildi və danışıqlar zamanı Tələt Paşanın Berlinə səfəri ərəfəsində Almaniyanın Bakı məsələsində tutduğu mövqe, Bakının tezliklə azad edilməsinin zəruriliyi müzakirə olundu.

Az sonra Berlinə gedən Tələt Paşa təcili şəkildə 27 avqust sazişinin ləğv

edilməsini Almaniyadan tələb etdi. Bu addım Bakının edilməsində mühüm əhəmiyyətə malik oldu. Sentyabrın ortalar Azərbaycan-Türkiyə hərbi qüvvələri Bakıya girdi.

Bakının azad edilməsi istiqlalı elan olunmasından sonra Azərbaycanın taleyində ikinci böyük tarixi hadisə idi. Bu qələbənin diplomatik cəhətdən təmin edilməsi Azərbaycan diplomatiyasının ilk uğurlarından idi. Bakının azad edilməsi ilə Azərbaycan Xalq Cümhuriyyəti öz hakimiyyətini gənc respublikanın ərazisində bərqərar etdi.

Bakının azad edilməsi barəsində məlumatı Ənvər Paşa İstanbulda olan Azərbaycan nümayəndələrinə çatdırdı. İstanbuldan baş nazir F.X.Xoyskiyə və xarici işlər naziri M.H.Hacınskiyə yazdığı məktubda M.Ə.Rəsulzadə göstərirdi ki, Bakının alınması burada əhvali-ruhiyyəni qaldırmışdır. Bakı azad edildikdən sonra Almaniyanın hərbi və ticarət nümayəndəsi baron fon der Qolts, Avstriya-Macarıstan diplomatik nümayəndələri, Osmanlı Sultanlığının Qafqaz Ordusunun hərbi qərargahı Bakıya gəldi.

Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında Ə.M.Topçubaşovun İstanbul missiyasının böyük əhəmiyyəti oldu. O, 1918-ci il sentyabrın 28-də İstanbula gəldi və Azərbaycan hökumətinin fövqəladə səlahiyyətli naziri kimi işə başladı.

Berlin danışıqlarından sonra oktyabrın 2-də Ə.M.Topçubaşovu qəbul edən Tələt Paşa məlumat verərkən bildirmişdi ki, Azərbaycanın mənafeyi naminə nə mümkündürsə, hamısını etmişdir. Danışıqlar zamanı Tələt Paşa Berlindəki rus səfiri A.A.İoffenin Azərbaycana münasibətdə qərəzli mövqeyini də açıqladı[8].

1918-ci ilin oktyabrında Ə.M.Topçubaşov İstanbulda Türkiyənin rəsmi dövlət nümayəndələri ilə bir sıra görüşlər keçirdi. Lakin Türkiyə məğlubiyyət ərəfəsində böhran içərisində olduğu və ay yarım ərzində üç hökumət kabineti dəyişdiyi üçün Azərbaycanla Osmanlı dövləti arasında sabit münasibətləri bərqərar etmək mümkün olmadı.

1918-ci ilin payızında Almaniya, Türkiyə, Avstriya-Macarıstan və Bolqarıstanın daxil olduğu Dördlər İttifaqı məğlub oldu. Oktyabr ayının 30-da təkcə Türkiyə üçün deyil, Azərbaycan Xalq Cümhuriyyəti üçün də son dərəcə ağır olan Mudros barışığı imzalandı. Barışığın 11-ci maddəsinə görə, Türkiyə ordusu tezliklə Azərbaycanı tərk etməli, on beşinci maddəyə görə, Türkiyə Zaqafqaziya Dəmir yolu üzərində nəzarət hüququnu Antantaya verməli və müttəfiqlərin Bakını tutmasına heç bir etiraz etməməli idi[9].

Noyabrın 4-də Ə.M.Topçubaşov Azərbaycan hökuməti adından Mudros barışığının Azərbaycana aid maddələrinə etirazını bildirdi[10]. Lakin bu etirazın elə bir əhəmiyyəti olmadı.

Mudros barışığının Azərbaycana aid maddələrinə görə, Osmanlı dövlətindən narazı qalmasına baxmayaraq, onun dünya müharibəsində məğlub dövlətlərdən biri olmasından ehtiyat etməyərək, noyabrın 10-da Azərbaycan hökuməti Respublikanı tərk edən Türkiyə ordusunun şərəfinə ziyafət verdi. Türkiyə qoşunları həmin gün Bakıdan, az

sonra isə bütün Azərbaycandan çıxdı. Bununla da Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətində Türkiyə oriyentaliyası dövrü başa çatdı.

Birinci dünya müharibəsinin sonunda Böyük Britaniyanın Azərbaycana marağı müstəsna dərəcədə artmışdı. Bu, bir tərəfdən, Almaniya-Türkiyə blokunun Qafqaza meylinin güclənməsi, digər tərəfdən isə dünya neft istehsalının böyük bir hissəsinin Bakının payına düşməsi ilə bağlı idi. Müharibə ərəfəsində Rusiyada hasil edilən neftin 83 faizi Bakıda çıxarılırdı[11]. Dünya müharibəsində iştirak edən ölkələr isə Bakı neftinə çox vaxt qələbəni müəyyən edən amil kimi baxırdılar. İngiltərənin baş naziri Lloyd Corcun fikrincə, müharibənin sonunda Antantanın üstünlüyünə baxmayaraq, alman bloku Bakı neftindən istifadə edərdisə, hərbi əməliyyatların hansı nəticələr verəcəyini qabaqcadan söyləmək olmazdı. Ona görə də Yaxın və Orta Şərqdə möhkəmlənmiş İngiltərə qoşunları 1918-ci ilin mayından başlayaraq Bakı istiqamətində hərəkətə başladı. Lakin bu zaman Cənubi Azərbaycanda möhkəmlənmiş Türkiyə qoşunları onların hərəkətini dayandırdı və ingilislərin Bakıya müdaxiləsi 1918-ci ilin avqustuna qədər mümkün olmadı. Bakıda XKS-nin hakimiyyəti devrildikdən sonra sentrokaspiçilərin ilk addımı Ənzəlidə dayanmış ingilisləri Bakıya dəvət etmək oldu. Avqustun 4-də polkovnik Stoksun başçılıq etdiyi ilk qoşun dəstəsi Bakıya daxil oldu. Avqustun ortalarında general Denstervil başda olmaqla min nəfərlik ikinci hərbi dəstə Azərbaycana gəldi. Şəhərin xristian əhalisi ingilisləri böyük sevinclə qarşıladı. Mart qırğınlarını törətmiş ermənilər ingilislərin simasında öz xilaskarlarını görürdülər. Lakin Britaniya qüvvələrinin azlığı onların ümidlərini puça çıxartdı.

Bakıya gələn Britaniya qoşununun çoxsaylı olması haqda məlumatların şayiə olduğunu bilən Qafqaz İslam Ordusu şəhəri azad etmək uğrunda son hərbi əməliyyatlara başladı. 1918-ci il sentyabr ayının ortalarında Britaniya qoşunu general Denstervil başda olmaqla Bakını tərk etmək məcburiyyətində qaldı. Lakin 1918-ci ilin payızında ikiaylıq fasilədən sonra onlar yenidən Bakıya qayıtdılar. Bu, Türkiyə və onun müttəfiqlərinin Birinci Dünya müharibəsində tam məğlubiyyəti ilə bağlı idi.

1918-ci il noyabrın 17-də müttəfiqlərin qoşunları Bakıya daxil oldu. Bundan az əvvəl, Azərbaycan hökuməti ABŞ prezidenti V.Vilsona, öz fəaliyyətini bərpa etmiş Milli Şura isə dünya dövlətlərinə müraciətlər qəbul etdilər[12]. Müttəfiqlərin gəlişi Azərbaycanın istiqlaliyyətini ciddi təhlükə qarşısında qoydu. Rus və erməni milli şuralarının cəhdlərinə baxmayaraq, Bakıda vəziyyətlə yaxından tanış olduqdan sonra, general V.Tomson bildirdi ki, onun "Bakıda ən bacarıqlı adamlardan biri" saydığı F.X.Xoyskinin hökuməti ölkədə koalisiya hökuməti təsdiq edilənə qədər yeganə təsirli hökumət olaraq qalır.

Balkanda və Qafqazda olan ingilis qoşunlarının baş komandanı general Corc Miln az sonra Bakıya gələrək V.Tomsonun bəyanatını təsdiqlədi və bildirdi ki, Böyük Britaniya hökuməti Azərbaycan hökumətini bu ölkənin bütün ərazisində yeganə qanuni hakimiyyət kimi tanıyır. Azərbaycan hökumətində qəbul zamanı o dedi: "Mən buraya böyük müttəfiq millətlərin nümayəndəsi hesabında gəldim. Məqsədimiz məmləkətdə sülh və ədaləti bərpa etməkdir. Müttəfiqlərin qələbəsi hüquqi-ədalət və millətlərin təyini-müqəddərə-ixtiyari təmininin rəhnidir. Sülh konfransında burası bəyan ediləcəkdir. İbraz etdiyiniz hüsni-istiqbaldan naşı təşəkkürümü bəyan edirəm Qoşunlarımız məmləkətinizdə bulunduqca hüsni-qəbul və hər

dürlü müzahirət görəcəklərinə ümidvaram. Məmləkətinizin ticarət sənaətinin tərəqqisinə var qüvvəmiz ilə çalışacağıq"[13].

F.X.Xoyski ilə danışıqlar zamanı C.Miln bildirdi ki, "Azərbaycan dairəsində İngiltərə hökuməti Azərbaycan hökuməti-Cümhuriyyəsini tanıyır və qəbul edir və hökumətə müttəfiqlər komandanlığı hər barədə kömək edəcəkdir. Ayrı-ayrı millətlərin təyini-müqəddərat hüququ İngiltərə hökuməti nöqteyi-nəzərincə müdafiə edilməlidir. Sülh konfransında İngiltərə nümayəndələri bunu müdafiə edəcəklərdir. Bundan əlavə, general bəyan etmişdir ki, müttəfiqlər komandanlığı təzə təşkil edilmiş Zaqafqaziya hökumətlərinin daxili işlərinə qarışmayacaqdır. Və müttəfiqlərin yeganə məqsədi bu dövlətlərdə asayiş və müsalimətə kömək etməkdir"[14]. Əlbəttə, bu, tək general C.Milnin fikri deyildi, 1918-ci ilin dekabr ayında Cənubi Qafqaz məsələsi bir neçə dəfə Britaniya hökumətinin iclaslarında müzakirə edilmişdi. Lord Kerzon bu fikirdə idi ki, Cənubi Qafqazda sabitlik lazımdır, əks təqdirdə "anarxiya, qarma-qarışıqlıq, yaxud bolşevizm" bu regionda ingilis siyasətinə maneçilik törədə bilər.

1919-cu ilin əvvəllərindən başlayaraq İngiltərə-Azərbaycan əlaqələri Bakıda olan ingilis komandanlığı, İstanbuldakı ingilis hərbi və diplomatik nümayəndəliyi, sonralar isə Paris Konfransında təmsil olunan sülh heyəti vasitəsilə həyata keçirilirdi.

Dekabr ayında ingilislər Batum və Tiflisi də tutdular və 1919-cu ilin yayına qədər Qafqazda qaldılar. İngilislərin Azərbaycanın daxili işlərinə müdaxilə etməsi tədricən aradan qaldırıldığına görə, Azərbaycan hökuməti bütün işləri öz əlində toplayır, addımbaaddım tam irəliləyərək müstəqilliyini bərqərar edirdi.

U.Çörçill sonralar öz xatirələrində yazırdı ki, Cənubi Qafqaza daxil olmuş 20 minlik Britaniya Ordusunun yardımı ilə Gürcüstan, Ermənistan və Azərbaycan tam müstəqil olmalı idi və bu müstəqil dövlətlər İrana və Türkiyəyə bolşeviklərin gözlənilən müdaxiləsinin qarşısında durmalı idilər[15].

Azərbaycan xarici siyasətinin qarşısında duran ciddi məsələlərdən biri qonşu dövlətlərlə qarşılıqlı mehriban münasibətlər yaratmaq, müəyyən məsələlərə münasibətdə Qafqaz həmrəyliyinə nail olmaq idi. Azərbaycan parlamentinin Dağıstan, Gürcüstan və Ermənistana göndərdiyi müraciətdə deyilirdi: "Qafqaz elə bir vəziyyət qarşısındadır ki, bu ərazi üzərində qurulmuş olan cümhuriyyətlər müqabil dostluq və həmrəylik yapmadan yaşaya bilməzlər".

Azərbaycan hökuməti Bakıya gəldikdən sonra Dağlılar Respıblikası ilə əməkdaşlığı inkişaf etdirmək üçün 1918-ci ilin oktyabr-noyabr aylarında bir sıra müqavilələr bağladı. İki dövlət arası bağlanmış müqaviləyə əsasən, Azərbaycan hökuməti ciddi maliyyə çətinlikləri ilə qarşılaşmış, Dağlılar hökumətinə 10 milyon manat həcmində yardım göstərmiş və o, Denikinin təcavüzünə məruz qaldıqda əlində olan bütün vasitələrlə ona yardım göstərəcəyini bildirmişdi. 1919-cu il mart ayının əvvəllərində general Tomsona etiraz notasında Azərbaycan hökuməti bəyan edirdi: "Dağlılar üçün ağır bir zamanda Azərbaycan hökuməti onlara lazımi köməklik göstərməyi özünə borc sayır". Təkcə Dağıstanı

deyil, bütün Qafqazı hədələyən ağ və qırmızı Rusiyasına münasibətdə Azərbaycan hökumətinin mövqeyi respublika XİN-nin Kuban hökumətindəki səlahiyyətli nümayəndəsi C.Rüstəmbəyova məktubunda öz əksini tapmışdı. Orada deyilirdi: "Bizim hökumətin fikri belədir: kim olursa-olsun, bolşevik, menşevik, denikinçi və i.a., Azərbaycan istiqlaliyyətinə qəsd edən hər kəs onun düşmənidir"[16].

Cənubi Qafqazın üç yeni respublikası - Azərbaycan, Gürcüstan və Ermənistan arasında sülh və sabitliyin yaradılması çox çətin oldu. Müstəqilliyin ilk günlərində Gürcüstan hökumətinin Borçalı, Sığnaq və ümumilikdə Qarayazıda Gürcüstanın sərhədlərini müəyyən etmək adı altında mövcud vəziyyəti dəyişmək cəhdləri Azərbaycan hökumətinin müqaviməti ilə qarşılaşdı. Azərbaycan Xalq Cümhuriyyətinin xarici işlər naziri M.H.Hacınski iyunun 14-də Gürcüstan hökumətinin 1918-ci il 5 iyun tarixli qərarına etiraz edərək Gürcüstan hökumətinin xarici işlər idarəsinin başçısına yazırdı: "Borçalı, Tiflis və Sığnaq qəzalarının başdan-başa müsəlmanlardan ibarət olan hissələrinin əhalisi öz nümayəndələri vasitəsilə Azərbaycan Xalq Cümhuriyyəti tərkibində olmaq arzularını ifadə etdiklərini nəzərə alaraq, mənim hökumətim gürcü hökumətinin yuxarıda qeyd olunan sərəncamına qarşı qəti etiraz edir və ölkələrimiz arasında mehriban qonşuluq münasibətlərinin saxlanması naminə Borçalı qəzasının hüdudlarından qoşun hissələrini çıxarmaq, Azərbaycan ərazisinin yuxarıda qeyd edilən hissələrinin tutulması haqqında sərəncamı ləğv etmək üçün təcili tədbirlər görməyi təkidlə xahiş edir"[17]. Azərbaycan hökumətinin ciddi səyi ilə Qarayazıdakı status-kvo saxlanıldı, Azərbaycan ordu hissəsinin burada qalması şərti ilə beynəlxalq komissiya yaradılması barədə razılıq əldə edildi. Az sonra isə məsələnin müzakirəsi 1919-cu il aprelin 25-də Tiflisdə işə başla-yan Qafqaz konfransının gündəliyinə daxil edildi. Lakin 1919-cu ilin iyununda, Şimaldan yaxınlaşan təhlükə ilə bağlı olaraq, Qafqaz konfransı öz işini dayandırdı. Denikin ordusunun Dağıstan üzərinə hücumu və Cənuba doğru irəliləməsi Azərbaycan-Gürcüstan əməkdaşlığını zərurətə çevirdi. Yaranmış vəziyyətdə Ümumqafqaz həmrəyliyinin yaradılmasında Azərbaycan diplomatiyası Gürcüstanla əlaqələrin genişləndirilməsinə xüsusi diqqət yetirirdi. 1919-cu il iyunun 16-da iki dövlət arasında üç il müddətinə hərbi-müdafiə paktının imzalanması Azərbaycan Xalq Cümhuriyyətinin dəyərli diplomatik addımı hesab edilməlidir. Bu pakta görə, Azərbaycan və Gürcüstanın istiqlaliyyəti və ərazi bütövlüyünə hər hansı dövlət tərəfindən təcavüz olduğu təqdirdə müqaviləni bağlayan tərəflər öz öhdələrinə bir-birinə hərbi yardım göstərmək borcunu götürmüşdülər. Eyni zamanda müqavilənin 10-cu bəndində göstərilirdi ki, "bu müqavilə barədə rəsmi məlumat verildikdən sonra Ermənistan iki həftə ərzində bu müqaviləyə qoşula bilər"[18]. Həmin müqavilə iyun ayının 27-də hər iki ölkənin parlamentlərində təsdiq edildi.

16 iyun hərbi-müdafiə paktına uyğun olaraq, tərəflər hərbi-texniki saziş imzaladılar və birgə hərbi Şura yaratdılar. İngilis komandanlığının Azərbaycan-Gürcüstan müdafiə paktına münasibəti əvvəlcə mənfi idi, lakin sonralar dəyişdi. Britaniyanın Şərqi Avropa və Qafqazda olan qüvvələrinin baş komandanı general C.Miln Denikinin Cənuba doğru hərəkəti ilə razı olmadığı barədə baş nazir

N.Yusifbəyliyə radioteleqram göndərdi[19].

Müstəqilliyin ilk günlərindən Gürcüstan Respublikası ilə qurulan diplomatik əlaqələr çox çətin və ziddiyyətli bir yol keçsə də, 1920-ci ilin əvvəllərində normal məcraya düşdü. Hər iki respublikanın müstəqilliyi Versal Ali Şurası tərəfindən de-fakto tanındı.

İranla münasibətlərdə də əvvəlki narazılıqlar, daha çox isə anlaşılmazlıqlar 1919-cu ilin ortalarından etibarən öz yerini əməkdaşlıq meyllərinə verməyə başladı. Həmin ilin payızında yaradılan birgə Azərbaycan-İran komissiyasının gərgin işi nəticəsində iki dövlət arasında münasibətlərin bir sıra tərəflərini əhatə edən müqavilə və saziş hazırlandı. 1920-ci il mart ayının 20-də iki dövlət arasında əməkdaşlığın bütün sahələrini əhatə edən 7 müqavilə və saziş imzalandı.

Məğlubiyyətdən sonra çətin vəziyyətə düşmüş Türkiyə ilə də əlaqələr bərpa edilməyə başlamış, tanınmış yazıçı Yusif Vəzir Çəmənzəminli İstanbula səfir təyin edilmişdi. Azərbaycan diplomatiyası Avropa və Qafqazdakı fəaliyyətində həyatla ölüm arasında mübarizə aparan Anadolu türklərinin də mənafeyini müdafiə edirdi.

Rusiya və Ermənistanla münasibətlər bütün dövr ərzində qeyri-stabil olaraq qaldı. Azərbaycan diplomatiyasının ciddi-cəhdlərinə baxmayaraq, "böyük dövlətçilik" mövqeyindən çıxış edən bu döv-lətlərlə normal münasibətlər yaratmaq mümkün olmadı.

Birinci Dünya müharibəsində Türkiyənin məğlubiyyəti 1918-ilin axırlarında ermənilərin yenidən fəallaşmasına şərait yaratdı. Artıq dövlət siyasəti səviyyəsinə qaldırılan "dənizdən dənizə Böyük Ermənistan" iddiaları yerli türk əhalisinə görünməmiş müsibətlər gətirdi

Belə bir vəziyyətdə Azərbaycan Xalq Cümhuriyyətinin qarşısında duran əsas vəzifə erməni dəstələrinin zorakılığının qarşısını almaq və Ermənistanla normal qonşuluq münasibətlərini bərqərar etmək idi. Lakin Azərbaycan hökuməti dəfələrlə müraciət etsə də, Ermənistan öz təcavüzkar siyasətini dayandırmadığı üçün iki dövlət arasında nəinki normal münasibətlər yaratmaq mümkün olmadı, hətta əksinə bir sıra böyük dövlətlər tərəfindən dəstəklənib qızışdırılan vs onların əlində oyuncağa çevrilən Ermənistan Zəngəzuru, Naxçıvanı və Qarabağın dağlıq hissəsi kimi qədim Azərbaycan torpaqlarını açıq və gizli şəkildə işğal etmək yolunu seçdi.

1918-ci ilin yayından başlayaraq türk xalqının qəddar düşməni Andronik Naxçıvan və Zəngəzur bölgələrində Azərbaycan sərhədlərini pozub dinc əhaliyə qarşı kütləvi qırğınlara başladı. Erməni quldur dəstələri Zəngəzur əhalisindən tələb edirdilər ki, ya Ermənistan hökumətinə tabe olsunlar, ya da Zəngəzuru boşaltsınlar. Lakin əhali Andronikin bu həyasız tələbini rədd edərək öz torpaqlarının müdafiəsinə qalxdı, 1918-ci ilin payızından Azərbaycan torpaqlarının müsəlman əhalisindən təmizlənməsi əməliyyatına Ermənistan hökuməti bilavasitə rəhbərlik etməyə başladı. Daşnaklar 1918-ci ilin axırlarında Zəngəzurda 115, Cavanşir, Cəbrayıl, Şuşa qəzalarında 21, İrəvan quberniyasında 60-dan çox Azərbaycan kəndini məhv etdilər və əhalisini soyqırımına məruz qoydular. Həmin ərazilərin 100 mindən artıq türk-müsəlman əhalisi öz dədə-baba

yurdundan qovulub didərgin oldu[20].

Bu təhlükənin qarşısını almaq üçün Azərbaycan hökuməti bir sıra zəruri addımlar atdı. 1919-cu il yanvarın əvvəllərində Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarını Gəncə qubernaiyasından ayırıb, mərkəzi Şuşa şəhəri olmaqla həmin qəzalardan ibarət Qarabağ general-qubernatorluğu yaradıldı. Həmin il fevralın 12-dən Xosrov bəy Sultanov general-qubernator təyin edildi. General-qubernatora tapşırıldı ki, Qarabağda separatist hərəkatı ləğv edib, qayda-qanun yaratsın və yerli hakimiyyəti təşkil etsin.

Ermənistan hökuməti Qarabağ general-qubernatorluğunun yaradılmasına və Xosrov bəy Sultanovun general-qubernator təyin olunmasına dərhal etiraz etdi və belə iddia irəli sürdü ki, buranın böyük hissəsi Ermənistan ərazisidir, X.Sultanov isə ermənilərin düşmənidir.

1919-cu il yanvarın 2-də Azərbaycan Xalq Cümhuriyyətinin xarici işlər naziri Ermənistanın xarici işlər nazirinə göndərdiyi teleqramda Ermənistanın etirazını əsassız sayaraq bildirdi ki, Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzaları Azərbaycanın ayrılmaz hissəsidir. Eyni zamanda Ermənistanın etirazı suverenliyə qəsd və Azərbaycanın daxili işlərinə qarışmaq cəhdi kimi qiymətləndirildi. Onu da qeyd etmək vacibdir ki, Ermənistan Qarabağ general-qubernatorluğunun yaradılması ilə əlaqədar öz etirazını Qafqazda Böyük Britaniya qoşunlarının baş komandanı general Tomsona və müttəfiq dövlətlərin Zaqafqaziyadakı baş komissarı Haskelə də bildirmişdi. Lakin onlar Azərbaycanın Qarabağ qubernatorluğu yaratmaq və ona general-qubernator təyin etmək hüququnu müdafiə etdilər.

1919-cu il iyunun 18-də Azərbaycan Ermənistana nota göndərdi. Bu notada Ermənistanın etiraz və iddiaları rədd edilərək, Qarabağ məsələsində Azərbaycan Cümhuriyyətinin daxili işlərinə qarışmamaq tələb olunurdu[21].

İyunun əvvəlində Şuşada vəziyyət yenidən gərginləşdi. Bu zaman Qarabağda baş vermiş hadisələr bilavasitə Erməni Milli Şurasının planı əsasında törədilmişdi. Bu Şuranın Qarabağda erməni və müsəlman icmaları arasında sabitliyi pozmağa yönəlmiş fəaliyyətini öyrəndikdən sonra ingilis komandanlığı hələ aprel ayında onun üzvlərinin Qarabağın hüdudlarından uzaqlaşdırılacağını vəd etmişdi. İyun ayının əvvəllərində məlum oldu ki, Erməni Milli Şurası Şuşanın ermənilər yaşayan məhəlləsinə gizli yolla silah gətirir. Onların məqsədi Qarabağ yaylaqlarına qalxaraq azərbaycanlıların qarşısını almaq idi. Belə olduqda, X.Sultanov köç gedən yollarda təhlükəsizliyi təmin etmək üçün Azərbaycan Ordusunun əsgərlərini təhlükəli yerlərə göndərdi və eyni zamanda Erməni Milli Şurasının üzvlərinin həbs edilib Qarabağdan çıxarılması haqqında göstəriş verdi. Buna cavab olaraq, silahlanmış ermənilər iyun ayının 4-də Azərbaycan əsgərlərinə atəş açdılar və üç əsgər öldürüldü. Bu hadisədən sonra X.Sultanov Şuşada və ətraf kəndlərdə qayda-qanun yaratmaq üçün fəaliyyətə başladı və ilk addım kimi Erməni Milli Şurasının üzvlərinin Azərbaycandan çıxarılmasına nail oldu, həmin vaxt Şuşada hərbi toqquşma baş verdi və hər iki tərəfdən itkilər oldu. İyunun 6-da Şuşada sülh əldə edildi. Baş vermiş hadisə ilə bağlı Şuşa erməniləri X.Sultanova üzrxahlıq məktubu yazaraq bildirdilər ki, hörmətli Xosrov bəy, icazə verin Sizin şəxsinizdə Şuşa şəhərinin müsəlman camaatından dünən törədilmiş hadisə ilə bağlı üzr istəyək. Biz adını erməni qoymuş xuliqanların Sizin əsgərlərə qarşı törət-

diyi zorakılıq faktından çox həyəcanlanmışıq və bu, haqlı olaraq, Sizin ordunun və zabitlərin həyəcanına səbəb olmuşdur"[22]. Lakin Ermənistan hökuməti Azərbaycan Ordusunun Qarabağdan çıxarılmasını tələb edirdi. Bu tələb Azərbaycanın Xarici İşlər Nazirliyi tərəfindən rədd olundu.

1919-cu ilin yayında Azərbaycan hökumətinin qəti mövqeyi və məqsədyönlü siyasəti nəticəsində respublikanın qanuni hakimiyyəti Qarabağda bərpa edildi. Qarabağın dağlıq hissəsində, Zəngəzurda və ermənilərin planlarına daxil olan digər yerlərdə Azərbaycanın suveren hüquqlarının bərpa edilməsində Qarabağ general-qubernatoru Xosrov bəy Sultanov böyük xidmət göstərdi. Qaniçən Andronik onun ciddi təkidi və müttəfiqlərin yardımı ilə nəinki Azərbaycanı, hətta bütün Cənubi Qafqazı tərk etməyə məcbur olmuşdu.

"Böyük Ermənistan" iddialarına daxil olan ərazilərdən biri də Naxçıvan bölgəsi idi. Naxçıvanda hələ 1918-ci ildə Araz-Türk Respublikası yaranmışdı. Respublikanın ərazisinə Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Şərur, Naxçıvan, Ordubad qəzaları daxil olmuşdu. Paytaxt Naxçıvan şəhəri idi. Hökumətin Bakı uğrunda döyüşlər apardığı bir dövrdə, bu respublika əhalinin daşnak hücumlarından qorunmasında faydalı iş gördü.

Daşnak hökuməti hələ 1918-ci ilin noyabrında Naxçıvan, Şərur-Dərələyəz, İçmiədzin qəzalarını, Qars vilayətini müsəlman əhalisindən təmizləyib, Ermənistan hökumətinin hakimiyyətini bərqərar etmək istəyirdi. Lakin bu yerlərin müsəlman əhalisinin güclü müqaviməti həmin planın həyata keçirilməsinə mane oldu. Hətta ingilis komandanlığı müvəqqəti olaraq Naxçıvanın idarəçiliyini Ermənistana versə də, qəza əhalisinin böyük əksəriyyəti Azərbaycan türkləri olduğu üçün daşnak hökuməti bu qərarı həyata keçirə bilməmişdi. İngilislərin Zəngəzur və Yuxarı Qarabağı Azərbaycan torpaqları kimi tanıyıb, Naxçıvanı Ermənistanın idarəçiliyinə vermək ideyası Azərbaycanla Türkiyənin arasını kəsmək, ümumilikdə Türkiyə ilə qalan müsəlman xalqları arasında xristian erməni dövləti yaratmaq barədə Kerzon planının tərkib hissəsi idi.

1919-cu ilin mayında xarici işlər naziri F.X.Xoyski general Tomsonla görüşündə müttəfiqlərin baş komandanlığı tərəfindən Naxçvanın idarəçiliyinin müvəqqəti olaraq Ermənistana verilməsinə kəskin etiraz etmiş, Naxçıvan, Ordubad, Şərur-Dərələyəzin qədim Azərbaycan torpaqları olduğunu bildirmişdi[23]. Burada silah gücünə öz hakimiyyətini qura bilməyən Ermənistan hökuməti 1919-cu ilin yayında ABŞ layihəsi üzrə bu ərazilərdə neytral zona yaradılmasına çalışırdı. Çünki ABŞ nümayəndəsinin idarə edəcəyi Naxçıvan, Şərur-Dərələyəz general-qubernatorluğunun gələcəkdə bu ərazilərin Ermənistana keçməsi üçün əlverişli şərait yaradacağı şübhəsiz idi.

Naxçıvanlıların dəyanəti və Azərbaycan hökumətinin səyləri nəticəsində Ermənistanın amerikanlar vasitəsilə Naxçıvana yiyələnmək niyyətləri puça çıxdı.

Ermənistanla Azərbaycan arasında 1919-cu il noyabrın 23-də imzalanan sazişdən sonra Azərbaycan öz hərbi hissələrini Zəngəzurdan geri çağırdı[24]. Bağlanan sazişə görə, toqquşmalar dayandırılmalı, mübahisəli məsələlər, o cümlədən sərhəd məsələləri danışıqlar vasitəsilə həll edilməli idi. Lakin Ermənistan bu sazişi kobud surətdə pozub, Zəngəzura nizami qoşun hissələri göndərdi. Azərbaycan kəndlilərinin talanı və dinc əhaliyə

vəhşicəsinə divan tutulması geniş miqyas aldı. 1919-cu il dekabrın 14-də Azərbaycan hökumətinin təşəbbüsü ilə Bakıda Ermənistan-Azərbaycan konfransı açıldı. Lakin konfrans, ermənilərin günahı üzündən, tərəflər arasında ziddiyyəti həll edə bilməyərək işi yarımçıq dayandırdı.

1920-ci ilin yanvarında Ermənistanın hərbi əməliyyatları yenidən gücləndi. Belə bir şəraitdə Azərbaycan hökuməti erməni təcavüzünü dəf etmək üçün ciddi tədbirlər görmək məcburiyyətində qaldı.

Azərbaycanın həyatı mənafeyi sovet Rusiyası ilə normal münasibətlər qurulmasını tələb edirdi. Yeni iqtisadi əlaqələrin hələ yaradılmadığı və ənənəvi əlaqələrin pozulduğu bir vaxtda Azərbaycanın neft, pambıq və digər xammallarının Rusiya bazarından məhrum olması Azərbaycan hökumətinin şimal qonşusu ilə münasibətləri normallaşdırmasını zəruri edirdi.

Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsi RSFSR xalq xarici işlər komissarına göndərdiyi 1918-ci il 6 oktyabr tarixli məktubunda Moskva vilayəti ərzaq komitəsinin Bakıda olan səlahiyyətli nümayəndəsi İ.P.Orlovun Azərbaycanla iqtisadi əlaqələr yaratmaq sahəsində gördüyü işləri qeyd edərək, Bakıda və Moskvada rəsmi nümayəndəlik təyin olunmasını, həmçinin ticarət mübadiləsinin ümumi istiqamətlərini müəyyən etməyi təklif edirdi.

M.Ə.Rəsulzadənin parlamentin açılışında söylədiyi nitq Azərbaycan hökumətinin Rusiyaya münasibətini bildirmək baxımından diqqəti çəkir: "Bizim Rusiya camaatına qarşı heç bir ədavət və nifrətimiz yoxdur. Bezar olduğumuz Rusiya çarizm Rusiyası istibdadıdır... Bizcə, mənfur olan Rusiya millətləri əzən və hüquqlarını verməyən rəsmi Rusiyadır, hər millət müstəqil və hürr olmalı, hürr olduğundan sonra digər millətlərlə ürək istədiyi kimi əqdi-ittifaq etməlidir... Biz Rusiyanın səadətini istəriz, Rusiya səadətini sevəriz. Fəqət kəndi istiqlalımızı da əziz tutarız"[25].

1919-cu ilin yazında Nazirlər Şurasının yeni seçilmiş sədri N.Yusifbəyli təşkil etdiyi hökumətin proqramında Sovet Rusiyası ilə iqtisadi-ticarət əlaqələrinin bərpası vəzifəsini də irəli sürmüşdü.

Bundan ötrü isə, ilk növbədə, Azərbaycan hökumətinin bu barədə dəfələrlə müraciət etməsinə baxmayaraq, Sovet Rusiyası müxtəlif əsassız bəhanələr gətirməklə buna razılıq verməkdən yayınırdı.

Bu diplomatik oyunbazlığın arxasında isə Bakı neftinə sahib olmaq iddiası dururdu. V. İ. Leninin 1920-ci il martın 17-də Qafqaz cəbhəsinə göndərdiyi teleqramda bu niyyət açıq-aydın göstərilmişdi: "Bakını almaq bizə olduqca, və olduqca zəruridir. Bütün səyinizi buna verin..."[26]

Göründüyü kimi, bolşevik Rusiyası üzdə millətlərin öz müqəddəratını təyin etmək hüququnu qəbul etdiyini deməsinə baxmayaraq, müstəqil milli dövlətlərin varlığı ilə barışa bilmirdi. Bakı quberniyası Xalq Komissarları Sovetinin məğlubiyyətindən sonra da bolşevik hökuməti Azərbaycanı, xüsusən Bakını Rusiyanın ayrılmaz hissəsi hesab etmək iddiasından əl çəkmirdi.

Lakin Rusiya ilə münasibətlərin yaxşılaşdırılmasına əngəl törədən çətinliklərə baxmayaraq, Azərbaycan xalqının milli mənafeyinə uyğun xarici siyasət yeritmək, mürəkkəb beynəlxalq vəziyyətdə Azərbaycanla qonşu dövlətlər arasında mehriban münasibətlər yaratmaq, onu dünya birliyinin bərabərhüquqlu üzvünə çevirmək Azərbaycan diplomatiyasının başlıca məqsədi idi. O bu mühüum məqsədə Paris sülh konfransında nail oldu.

Hökumət çoxsaylı çətinliklərlə bağlı olan daxili problemləri həll etməyə çalışdığı bir vaxtda Azərbaycan diplomatları Parisdə toplanmış qalib dövlətlər tərəfindən tanınmaq və kömək əldə etmək üçün ağır mübarizə aparırdılar. Azərbaycan parlamenti Paris sülh konfransında iştirak etmək üçün Ə.M.Topçubaşov - sədr, M.H.Hacınski – sədrin müavini, nümayəndə heyətinin üzvləri Ə.Şeyxülislamov, Ə.Ağayev və müşavirlər M. Məhərrəmov və C.Hacıbəyov olmaqla nümayəndə heyətini təsdiq etmişdi[27]. "Avropanın sivil dövlətləri və ABŞ-ın ictimai fikrini onların işgüzar dairələri ilə ticarət əlaqələri yaradılmasına ən çox kömək edən istiqamətə hazırlamaq" üçün Azərbaycan nümayəndə heyətinə əlavə səlahiyyətlər verilmişdi[28]. 1919-cu il yanvarın 18-də həmin nümayəndə heyəti İstanbula yola düşdü. Burada onlar 1919-cu il yanvarın 20-də Parisə getmək üçün viza almalı idilər. Lakin İstanbula gəldikdən sonra nümayəndə heyəti 1919-cu ilin aprelinə qədər burada ləngidi, çünki müttəfiq qoşunlarının komandanlığı hər vasitəyə əl atıb onun Paris sülh konfransında iştirakına mane olurdu.

Nümayəndə heyətinin başçısı Əli Mərdan bəy Topçubaşovun İstanbuldan göndərdiyi məlumatlar onun Parisə getməyə viza almaq üçün böyük əmək sərf etdiyini sübut edirdi. Yalnız mayın ortalarında Azərbaycan diplomatları Fransaya gələ bildilər, bu da onların qarşısında duran məsələlərin həllinə köməyi təmin etmək üçün lazımi hazırlıq işləri görmələrinə imkan vermədi.

Lakin artıq 1919-cu il mayın 28-də Azərbaycan nümayəndə heyəti ABŞ prezidenti V.Vilsonla görüşə bildi. Görüşün nəticələri çox da ümidverici deyildi. ABŞ prezidenti qeyd etmişdi ki, dünyanın kiçik ərazilərə parçalanmasını Sülh Konfransı istəmir və Azərbaycan məsələsinə Rusiya məsələsi həll olunduqdan sonra baxıla bilər. Eyni zamanda V.Vilson Azərbaycan nümayəndə heyətini əmin etmişdi ki, "...bundan sonra Azərbaycan xalqı öz azadlıq və müstəqilliyini qoruyub saxlamaq kimi müqəddəs işində böyük Amerikanın kömək və yardımını alacaqdır"[29]. O, azərbaycanlılara Cənubi Qafqaz xalqlarının konfederasiyası ideyasını müzakirə etməyi məsləhət görmüş və demişdi ki, konfederasiya Millətlər Cəmiyyətinin himayəsinə veriləcək ölkə kimi böyük dövlətlərdən birinin himayəçiliyinə ümid edə bilər[30].

Azərbaycan nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşov Paris Sülh Konfransına təqdim edilmiş memorandumun surətini ABŞ prezidenti V.Vilsona təqdim etmişdi. Sənəd xüsusi xəritəli vərəqdə sərhədləri göstərilməklə Qafqaz Azərbaycanının mustəqilliyinə; iqtisadi xəritə ilə birlikdə Azərbaycanın iqtisadi vəziyyəti və maliyyəsinə; etnoqrafik xəritə və diaqramlarla birlikdə Azərbaycan əhalisinin etnik tərkibinə dair 3 maddədən[31] ibarət idi.

Paris konfransının iştirakçılarını respublikadakı siyasi vəziyyətlə tanış etmək üçün Azərbaycan nümayəndə heyəti böyük işlər görmüş, məsələn, 1919-cu il mayın 23-ü

İngiltərə nümayəndəsi A.Mallet və ABŞ nümayəndəsi K.Morgentau ilə görüşlər keçirmişdi.

Paris Sülh Konfransında keçmiş Rusiya imperiyası ərazisində yaranmış bütün müstəqil dövlətlərin nümayəndələri iştirak edirdilər. Bu konfransın gedişində onlar görüşlər keçirir və öz müşahidələri barədə fikir mübadiləsi aparırdılar. Bəzi məsələlər üzrə onlar eyni tələblərlə çıxış edirdilər.

1919-cu il iyunun 13-də V.Vilson, D.Lloyd Corc, J.Klemanso. V.Orlando və baron Makinonun imzası ilə Rusiya ərazisində admiral Kolçakın ali hakimiyyətinin qismən tanınmasına dair sənəd dərc olundu. Bununla əlaqədar olaraq Azərbaycan, Gürcüstan, Latviya, Estoniya, Şimali Qafqaz, Belorusiya və Ukrayna nümayəndələri 1919-cu il iyunun 13-də Paris konfransının sədrinə etiraz notası təqdim etdilər[32].

Parisdə Azərbaycan nümayəndə heyəti İranla münasibətlər məsələsi üzrə xeyli iş gördü. Məlum olduğu kimi, Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra İran Azərbaycana qarşı ərazi iddiaları irəli sürür və onun İran dövlətinə birləşdirilməsini tələb edirdi.

1919-cu il avqustun 19-da Londonda İngiltərə-İran müqaviləsi bağlandıqdan sonra İran Azərbaycanla bağlı ərazi iddialarından əl çəkdi. 1919-cu il noyabrın 1-də Parisdə Azərbaycanla İran arasında Azərbaycanın müstəqilliyinin tanınması haqqında müqavilə bağlandı və iki ölkə arasında diplomatik münasibətlərin yaradılmasına razılıq əldə edildi[33]. Bu müqavilənin bağlanması Azərbaycan diplomatiyasının beynəlxalq səhnədə mühüm qələbəsi idi.

Lakin Azərbaycan nümayəndə heyətinin, həmçinin digər yeni yaranmış dövlətlərin nümayəndə heyətlərinin fəaliyyəti onunla mürəkkəbləşirdi ki, Paris Sülh Konfransında bu dövlətlərin müstəqilliyinin tanınması məsələsinin müzakirəsi konfransın gündəliyindən "Rusiya məsələsi" ilə əlaqələndirilərək açıq-aşkar ləngidilirdi. Bu da onların beynəlxalq hüquq subyektləri kimi tanınmasını şübhə altına qoyurdu. 1919-cu il oktyabrın 8-də Azərbaycan, Gürcüstan, Latviya, Estoniya müstəqil respublikaları, Şimali Qafqaz dağlıları və Ukraynanın nümayəndələri sülh konfransının sədri Klemansoya 1919-cu il 7 iyul tarixli birgə bəyannaməyə əlavə olan məktub göndərdilər. Həmin məktubda bu respublikalara münasibətdə böyük dövlətlərin mövqeyi kəskin şəkildə pislənir, keçmiş Rusiya imperiyası ərazisində yaranmış siyasi vəziyyətə toxunularaq göstərilirdi ki, "...Rusiya bolşevikləri proletariat və kommunizm diktaturası yaratmağa çalışır, Rusiyanın irticaçı dairələri isə həmin ərazidə özünün hərbi diktaturasını qurmağa və xalqları əsarət altına almaqla keçmiş Rusiyanı bərpa etməyə cəhd göstərirlər"[34]. Yuxanda göstərilən dövlətlərin nümayəndə heyətləri onların beynəlxalq hüquq subyektləri kimi tanınması məsələsinin həllini təxirə salmamağı xahiş edir, onun həllinin qeyri-müəyyən vaxta təxirə salınmasının müstəqilliyə can atan xalqlar üçün çox ağır nəticələr verə biləcəyini vurğulayırdılar. Klemansoya ünvanlanmış məktubda Ali Şuranın müzakirəsinə təqdim edilən iki məsələ: "birincisi, hər bir respublikanın müstəqil dövlət kimi tanınması; ikincisi, ərazi, maliyyə, iqtisadiy-

yatla bağlı digər məsələlərin dərhal müzakirə edilməsi" təklif olunurdu[35]. Bolşevik təhlükəsinin güclənməsi nəticəsində Qafqazda yaranmış vəziyyət Antanta ölkələrini ciddi şəkildə düşünməyə və real əməli addımlar atmağa məcbur etdi. Qızıl Ordunun Qafqaza yiyələnməsi bütün Yaxın və Orta Şərqi təlatümə gətirib bolşevik ideyalarının İranda və digər Şərq ölkələrində yayılmasına kömək edəcəyi aydın idi. Buna görə də Avropanın bir çox siyasətçiləri Azərbaycan və Gürcüstanın sovet imperiyasına qarşı çıxmasını təmin etmək məqsədilə onları müvafiq müdafiə vasitələrilə təchiz etməyə və onların müdafiə qabiliyyətini gücləndirməyin zəruriliyi ideyasına tərəfdar çıxırdılar. Lakin suverenliyi tanınmayan ölkələrə yardım göstərmək işi müharibədən sonra qərarlaşmış beynəlxalq münasibətlərin əksinə olduğu üçün müəyyən çətinliklərlə qarşılaşırdı. Eyni zamanda bu respublikaların beynəlxalq birlik tərəfindən tanınmasına mane ola biləcək "vahid və bölünməz Rusiya" ideyası artıq yeni yaranmış şəraitdə öz əhəmiyyətini itirmiş, onun tərəfdarlarının ümidləri özünü doğrultmamışdı. Məhz buna görə hadisələrin belə axarda inkişaf etdiyi bu dövrdə Azərbaycan və Gürcüstanın müstəqilliyinin tanınması təxirə-salınmaz məsələyə çevrildi.

Bu məqsədlə 1920-ci il yanvarın 10-da Böyük Britaniyanın təşəbbüsü ilə Paris Sülh Konfransı Ali Şurasının sessiyası çağırıldı. Sessiyada İngiltərə, Fransa və İtaliyanın hökumət başçıları və xarici işlər nazirləri, ABŞ və Yaponiya tərəfindən isə onların sülh konfransındakı nümayəndələri, həmçinin Parisdəki səfirləri iştirak edirdilər. Ke d'Orsedə keçirilən sessiyada Cənubi Qafqaz respublikalarının problemi geniş və hərtərəfli müzakirə edildi[36].

Qafqazda vəziyyət haqqında ətraflı məlumat verən Britaniya baş naziri bolşeviklərin Cənuba doğru irəlilədiyini, Denikinin darmadağın ediləcəyi və Xəzər dənizinin tutulacağı halda onlann türklərin köməyinə ümid edə biləcəklərini qeyd etdi. Belə olduqda Qafqaz dövlətlərinin çıxılmaz vəziyyətdə qalacaqlarını bildirdi. Buna görə də Lloyd Corc bu dövlətlərin silah və hərbi sursatla təchiz olunmasının ən sərfəli variantını işləyib hazırlamağı təklif etdi. Onun təklifilə Ali Şura qərar qəbul etdi. Qərara uyğun olaraq, hərbi ekspertlər Qafqaz respublikalarına kömək etmək üçün təkliflər hazırlamalı idilər. Lloyd Corcun bəyanatını tamamilə müdafiə edən Jorj Klemanso Qafqaz işlərində təcrübəsi olan Britaniya nümayəndələri tərəfindən "Qafqaz respublikalarına kömək etmək haqqında" memorandum hazırlanmasının zəruriliyini qeyd etdi[37].

Ali Şuranın Lloyd Corc və Klemansonun iştirak etmədiyi gündüz iclası xarici işlər nazirləri səviyyəsində davam etdirildi və burada İngiltərə naziri lord Kerzonun təklifi ilə Qafqaz respublikalarına münasibət probleminin siyasi tərəflərinə aid müzakirə aparıldı. Öz çıxışında Kerzon Lloyd Corcun Azərbaycan və Gürcüstanın müstəqil dövlət kimi tanınmaq məsələsini Ali Şuranın gündəliyinə çıxartmaq niyyətində olduğunu bildirdi. "Erməni məsələsi"nə gəldikdə isə onu "Türkiyə məsələsi" ilə bir yerdə həll etmək nəzərdə tutulurdu. Xarici işlər nazirləri Azərbaycan və Gürcüstana qarşı üçtərəfli təhlükə yaranması ilə bağlı eyni fikirdə olduqlarını bildirdilər[38]. Onlar "üçtərəfli təhlükə" dedikdə, əvvələn, bolşevik Rusiyası qoşunlarının cənuba doğru irəliləməsini; ikincisi, geri çəkilən Denikin qoşunlarının bu respublikalara soxula biləcəyini; üçüncüsü isə kamalçıların, Rusiya ilə sazişə əsasən, bu

respublikalara daxil ola biləcəyini nəzərdə tuturdular. Vəziyyətin kəskin böhranlı şəkil alması Azərbaycan və Gürcüstan hökumətlərini Antanta ölkələrindən kömək istəməyə məcbur etdi[39].

Bu xahişlər barədə Ali Şuraya məlumat verən Kerzon Azərbaycan və Gürcüstanın dərhal de-fakto tanınması təklifini irəli sürdü. Versal konfransında yaranmış vəziyyət faktiki olaraq fəaliyyət göstərən dövlətlərin tanınması üçün bütün zəruri şərtlərin olmasından xəbər verirdi. Onun reallaşmasından ötrü yalnız təkan verəcək bir tərəf lazım idi, o tərəf də sülh konfransının iştirakçısı Böyük Britaniyanın xarici işlər naziri lord Kerzon oldu[40].

Kerzonun fikrincə, Britaniya qoşunlarının Qafqaz hüdudlarına daxil olması Mudros barışığından sonra İngiltərə hökumətinə çox böyük üstünlüklər verirdi. Bir qədər sonra - yanvarın 11-də müttəfiqlərin Ali Şurası lord Kerzonun təklifi ilə aşağıdakı məzmunda qərar qəbul etdi: "Müttəfiq və birləşmiş dövlətlər Azərbaycan və Gürcüstan hökumətlərini de-fakto səviyyəsində birgə tanıyırlar"[41].

ABŞ və Yaponiya nümayəndələri bildirdilər ki, Azərbaycan və Gürcüstanın tanınması aktına qoşulmaq üçün onlar öz hökumətlərinin rəyini öyrənməlidirlər[42]. Az sonra Yaponiya Ali Şuranın 11 yanvar tarixli qərarına qoşuldu. Amerika Birləşmiş Ştatları qərara qoşulmaqdan rəsmi olaraq imtina etdi. ABŞ-ın bu qərarı müxtəlif səbəblərlə izah edilirdi. Onlardan biri Amerika hökumətinin Qafqazda Böyük Britaniyanın nüfuzunun güclənməsindən ehtiyatlanması idisə, digəri də sülh konfransının yekun mərhələsində ABŞ-la onun Avropa müttəfiqləri arasında ciddi ixtilaflar yaranması idi. Lakin ABŞ-ın Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyini tanımaqdan imtina etməsinin təkcə İngiltərə-Amerika ziddiyyətlərindən irəli gəlmədiyi gümanı da istisna deyildi. Amerika Senatının Versal müqaviləsinə qoşulmaga razılıq verməməsi, Vilson hökumətinin həyata keçirdiyi geniş beynəlxalq əməkdaşlıq siyasətinin tənqidə məruz qalması onun Qafqazla bağlı siyasətinə də öz təsirini göstərdi.

Yanvarın 13-də ABŞ-ın Parisdəki səfiri Valles İngiltərə və Fransanın Azərbaycan və Gürcüstan dövlətlərinin müstəqilliklərini de-fakto tanımaları və onlara yardım göstərməyə hazırlaşmaları barədə Vaşinqtona məlumat verdi.

ABŞ hökumətinin Fransadakı səfirinə cavab məktubunda deyilirdi ki, Birləşmiş Ştatlar İngiltərə və Fransanın Qafqaz dövlətlərinə kömək etmək ideyası ilə razılaşsa da, onların müstəqilliklərinin tanınmasını Rusiyanın dağılmasının başlanğıcı kimi qiymətləndirir.

Bununla yanaşı, yanvarın 19-da müttəfiqlər tərəfindən Ermənistanın müstəqilliyinin tanınmasını ABŞ heç də Rusiyanın dağılması kimi qiymətləndirmədi və 1920-ci il aprelin 23-də özü də de-fakto olaraq Ermənistanı tanıdı.

Yanvarın 15-də Azərbaycan və Gürcüstan nümayəndələri Fransa Xarici İşlər Nazirliyinə dəvət olundular. Azərbaycan (Ə.M.Topçubaşov və M.Məhərrəmov) və Gürcüstan (İ.Sereteli və Z.Avalov) nümayəndələri nazirliyin birinci katibi Jül Kambon, İngiltərə nümayəndəsi Filipp Kerr və İtaliya nümayəndəsi

markiz de la Torreta tərəfindən qəbul edildilər[43]. Jül Kambon Azərbaycanın Ali Şura üzvləri və müttəfiq dövlətlər tərəfindən de-fakto tanınması haqqında Paris Sülh Konfransının rəsmi qərarını Ə.M.Topçubaşova təqdim etdi. Azərbaycan və Gürcüstan nümayəndələrini təbrik edən Kambon bildirdi ki, bundan sonra Azərbaycan və Gürcüstan müstəqil dövlətlər kimi, bu və ya digər məsələlərin həllində rəsmi şəkildə sülh konfransına müraciət edə bilərlər. Bu vaxtdan etibarən hər iki ölkə rəsmi şəkildə Ali Şura ilə əlaqəyə girə, həmçinin öz ehtiyaclarının qeydə alınmasını, qanuni hüquqlarının və konfransın iclaslarında bərabərhüquqlu üzvlüyünün təmin olunmasını tələb edə bilər.

Bundan əlavə, Kambon bildirdi ki, bu dövlətlərin hökumətlərinin tanınması aktı onların Rusiyadan ayrılması faktının tanınması ilə bir vaxtda baş vermişdir[44]. Sonra Kambon nümayəndələrin xahiş və təkliflərini dinlədi. Azərbaycan Xalq Cümhuriyyəti adından çıxış edən Ə.M.Topçubaşov Azərbaycanın siyasi quruluşu haqqında qısa məlumat verərək qeyd etdi ki, Azərbaycan Xalq Cümhuriyyəti böyük dövlətlər tərəfindən həm kömək, həm də özünün de-yure tanınmasını gözləyir.

Yanvarın 15-də Versalda hərbi ekspertlər Şurası Azərbaycana Gürcüstana hərbi kömək göstərməklə bağlı məsələləri müzakirə etdi. Şuranın işində iştirak etmək üçün Böyük Britaniyanın hərbi naziri U.Çörçill, Britaniya İmperiya Ordusu Baş Qərargahının rəisi feldmarşal H.Vilson, admirallığın birinci lordu U.Lanq, lord-admiral A.Bitti və başqaları təcili olaraq Londondan Parisə gəldilər[45].

Yanvarın 16-da hərbi ekspertlərin işi davam etdirildi, onların iclasına J.Klemanso sədrlik edirdi. Bir gün əvvəl Azərbaycan və Gürcüstan nümayəndələri ilə görüşən J.Klemanso J.Kambondan Qafqazda vəziyyət haqqında məlumat verməyi xahiş etdi. Qafqaz respublikalarının müdafiə qabiliyyəti haqqında iclas iştirakçılarına məlumat verən J.Kambon qeyd etdi ki, onlar maliyyə, hərbi və digər yardımlara ciddi ehtiyac hiss edirlər. Lakin J.Kambon və F.Kerrin məlumatları Klemansonu qane etmədi. Qərara alındı ki, Azərbaycan və Gürcüstan nümayəndələrinin iştirak edəcəyi sabahkı iclası feldmarşal H.Vilson aparsın.

Yanvarın 17-də Azərbaycan nümayəndələrinin yaşadığı "Klaric" mehmanxanasında H.Vilsonun sədrliyi altında admiral Bitti, İngiltərə Xarici İşlər Nazirliyinin nümayəndəsi Robert Vansittart, həmçinin Azərbaycan və Gürcüstan nümayəndələrinin iştirak etdikləri müşavirə keçirildi.

Müşavirənin əsas məqsədi bolşevik basqını təhlükəsi qarşısında qalan Azərbaycan və Gürcüstana maddi kömək göstərilməsi ilə bağlı məsələlərin aydınlaşdırılması idi. Bununla belə, iclasda Qafqaza müttəfiq qoşunları vasitəsilə kömək etmək məsələsi müzakirəyə çıxarılmadı. Yalnız hərbi sursat və ərzaq məhsulları göndərilməsi çərçivəsində yardım göstərmək məsələsinə toxunuldu. Admiral Bittinin Azərbaycanın xaricdən kömək almadan Xəzər dənizi sahillərini qorumaq üçün öz hərbi-dəniz qüvvələrini yarada bilməsi sualına Ə.M.Topçubaşov mənfi cavab verdi.

1920-ci il yanvarın 19-da Paris Sülh Konfransı Ali Şurasının hökumət

başçılarının iştirakı ilə keçirilən iclasında Cənubi Qafqaz respublikaları problemi ətraflı müzakirə edildi. Həmin gün Paris Sülh Konfransının iclasında Lloyd Corc, Klemanso, Nitti, Kambon, Matei, Kerzon, Çörçill, Foş, Bitti, Vilson, eləcə də o dövrün digər görkəmli siyasətçiləri və hərbçiləri, həmçinin Azərbaycan nümayəndə heyətinin bütün üzvləri iştirak edirdilər. İclasda, Ali Şuranın 10 yanvar tarixli tapşırığına əsasən, ingilis nümayəndələri tərəfindən tərtib edilmiş memorandum elan olundu. Memorandumda aşağıdakı tədbirlər nəzərdə tutulurdu:

1. Azərbaycan və Gürcüstanın tanınması (bu tədbir həyata keçirilmişdi);
2. Əvvəllər Denikinə verilmiş və Potidə olan silah və sursatın Azərbaycan, Gürcüstan və Ermənistana verilməsi;
3. Azərbaycana və Gürcüstana əlavə ərzaq, maliyyə və hərbi (silah və geyim) cəhətdən yardım göstərilməsi;
4. Bakının müdafiəsinin möhkəmləndirilməsi üçün əlavə tədbirlərin görülməsi;
5. Xəzər sahillərinin müdafiəsinin təmin olunması, bolşevik ordusunun Xəzər dənizinə və Xəzər donanmasına buraxılmaması, Denikinin dəniz donanmasının müttəfiqlərin ümumi istifadəsinə qaytarılması, bu, mümkün olmadıqda isə onun batırılması[46].

İclasda müttəfiqlərin hərbi ekspertləri adından məruzə ilə Ferdinand Foş çıxış etdi. Cənubi Qafqaz respublikalarına nədə və hansı formada kömək göstərmək məsələsi kəskin mübahisələrə səbəb oldu. Hərbi ekspertlər heyətinin başçısı marşal Ferdinand Foş Qafqaza bir neçə diviziya göndərməyi zəruri hesab etdi. Ferdinand Foşla həmrəy olan feldmarşal H.Vilson əlavə etdi ki, Britaniya donanması Xəzər dənizində təşəbbüsü öz əlinə almazsa, Qafqazı saxlamaq mümkün olmayacaq. Hərbi nazir U.Çörçill H.Vilsonun fikrilə razılaşdı və bildirdi ki, İngiltərə Xəzər dənizində hökmranlığı ələ almazsa, Qafqaza göndərilən bütün silahlar bolşeviklərin əlinə keçəcək[47].

Hərbi ekspertlərin təklifinə qətiyyətlə etiraz edən Lloyd Corc qeyd etdi ki, hərbçilər siyasətdə heç nə başa düşmürlər. "Əgər ordu göndərmədən Qafqazı saxlamaq mümkün deyilsə və göndərilən silahlar itiriləcəksə, deməli, məntiqə əsasən, köməkdən imtina etmək lazımdır". Loyd Corc marşal Foşa müraciət edərək soruşdu: "Hərbçilərin qərarını məhz bu məzmunda başa düşmək olarmı?" Marşal Foş isə haqlı olaraq hesab edirdi ki, yalnız qoşun göndərməklə Qafqazı bolşevik basqınından xilas etmək olar[48].

Beləliklə, Klemanso və Çörçill Qafqaza bilavasitə qoşun göndərmək tərəfdarı olduqları halda, Lloyd Corc və Nitti köməyi hərbi göndərməklə məhdudlaşdırmağı nəzərdə tuturdular.

Azərbaycan və Gürcüstana hərbi yardım göstərməyin zəruriliyini qeyd edən Lloyd Corc eyni zamanda bu respublikalar tərəfindən yardımına səmərəli istifadə edilməsi imkanlarını aydınlaşdırmağa çalışırdı. O, bu yardımın da vaxtilə Denikinə göndərilmiş yardım kimi bolşeviklərin əlinə keçməyəcəyinə əmin olmaq istəyirdi.

Azərbaycan və Gürcüstan nümayəndələrinə müraciət edən konfransın sədri J.KJemanso onlardan ölkələri üçün hansı təhlükə olduğu və Lloyd Corcun qaldırdığı məsələ ilə bağlı olaraq, müttəfiqlərin verdiyi yardımdan səmərəli istifadə edə bilmək imkanlan barədə məlumat istədi[49].

Buna görə də konkret suallara cavab verən məlumat almaq üçün Azərbaycan və Gürcüstan nümayəndələrini dinləmək qərara alındı. Əldə olunmuş razılığa görə, hər iki nümayəndə heyəti adından çıxış edən İ.Sereteli Gürcüstan və Azərbaycanın müttəfiqlərin yardımına böyük ehtiyacları olduğunu bildirdi. Klemansonun "Siz qoşun istəyirsinizmi?" - sualına cavab olaraq Sereteli bildirdi ki, bu, çox yaxşı olardı, çünki bolşeviklər tez-kec Qafqaza soxulacaqlar[50].

Sonra Lloyd Corc Azərbaycan silahlı qüvvələri haqqında suallar verdi. Azərbaycan nümayəndə heyətinin müşaviri M.Məhərrəmov onun suallarını cavablandırarkən bildirdi ki, lazımi miqdarda silah və sursat olarsa, Azərbaycanda orduya qısa müddətdə 100 min nəfər səfərbər etmək mümkündür[51].

İclasda çıxış edən Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşov Azərbaycan Xalq Cümhuriyyətinin bolşeviklərə, həmçinin Denikinə qarşı heç bir iddia etmədiyini, hər hansı bir formada Rusiyanın daxili işlərinə qarışmaq fikrində olmadığını qeyd etdi. Bununla bərabər, bildirdi ki, hər iki qüvvənin Azərbaycanın müstəqilliyi üçün törətdiyi təhlükədən müdafiə olunmaq üçün bütün imkanlardan, o cümlədən müttəfiqlərin yardımından səmərəli istifadə olunmasını məqsədyönlü sayır. Onun fikrincə, müttəfiqlər İngiltərənin Ənzəlidəki donanmasından istifadə edərək, Bakının müdafiə qabiliyyətini xeyli gücləndirə bilərdilər.

Ə.M.Topçubaşov müttəfiqlərə şimaldan hərəkət edən ordu ilə Qafqaz respublikaları arasında bufer rolu oynayan Dağlılar Respublıkasını da de-fakto tanımağı təklif edirdi.

İclasa yekun vuran Lloyd Corc Qafqaz respublikalarına silah, sursat və geyim formasında təcili yardım göstərməyi zəruri hesab etdi. Azərbaycana və Gürcüstana qoşun göndərmək məsələsinə toxunan Lloyd Corc bunun qeyri-mümkünlüyünü etiraf etdi. Onun fikrincə. Qafqaz respublikaları öz silahlı qüvvələri hesabına öz müdafiə qabiliyyətlərini, xüsusilə Bakının müdafiə qabiliyyətini gücləndirməlidirlər[52].

Lloyd Corc Dağlılar Respublikasını de-fakto tanımaq haqqında Ə.M.Topçubaşovun irəli sürdüyü təklifi bəyəndi[53]. Nəticədə müzakirə olunan məsələlərlə əlaqədar olaraq Ali Şura Qafqaza aid dörd maddədən ibarət olan qərar qəbul etdi:

1. Ermənistan və Dağıstanın de-fakto tanınması. Bu qərarda Ermənistanın sərhədlərinin müəyyənləşdirilməsi məsələsinə toxunularaq qeyd edilirdi ki, bu məsələyə "Türkiyə məsələsi" ilə birlikdə baxılacaqdır.

2. Müttəfiq dövlətlərin Qafqaz respublikalarına qoşun göndərmək imkanları yoxdur.

3. Müttəfiqlər Qafqaz respublikalarına silah, döyüş sursatı və ərzaq göndərməklə yardım edəcəklər.

4. Hərbi materialların nədən ibarət olması və onların Qafqaz respublikalarına çatdırılması yollarının dəqiqləşdirilməsilə bağlı məsələlərə baxılması marşal Foş və feldmarşal Vilsondan xahiş edilsin[54].

Beləliklə, 1920-ci ilin yanvarında Paris Sülh Konfransında Azərbaycan Xalq Cümhuriyyətinin de-fakto tanınması Ə. M. Topçubaşovun rəhbərlik etdiyi Azərbaycan nümayəndələrinin diplomatik fəaliyyətlərinin uğurlu nəticəsi kimi qiymətləndirilməlidir. Böyük çətinliklər və məhrumiyyətlər hesabına əldə edilmiş bu nailiyyətlə əlaqədar Ə.M.Topçubaşov Parisdən Azərbaycan hökumətinin başçısı N.Yusifbəyliyə göndərdiyi məktubda yazırdı: "Hər hansı real bir formada bizim də azad və müstəqil yaşamaq ümidlərimizin möhkəmləndiyi bir dövr başlandı. Mütərəqqi Azərbaycan cəmiyyəti heç vaxt və hətta çar Rusiyasının başqa xalqlara qarşı yeritdiyi müstəmləkə siyasətinin ən ağır günlərində belə azadlıq, müstəqillik ümidlərini itirmirdi. Azərbaycan xalqı müstəqil yaşaya biləcəyinə, müstəqilliyə nail olacağına inanırdı". Ə.M.Topçubaşov məktubunda vurğulayırdı: "Bununla yanaşı, biz digər kiçik xalqların ibratamiz mübarizələrini də unutmuruq. Öz azadlıqlarını əldə etmək üçün bu xalqlar yarım il, bir il yox, on illərlə və daha çox mübarizə aparmış, çoxlu insan və maddi itkilər hesabına arzularına çatmışlar. Belə dəyərli xoşbəxtliyin qarşısında biz heç vaxt geri çəkilməmişik və çəkilməyəcəyik də, çünki biz bu səadətə bərabər olan heç nə tanımırıq"[55].

1920-ci il yanvarın 2-də Azərbaycan hökumətinin fövqəladə iclası keçirildi. Yanvarın 14-də bütün Azərbaycan ərazisində bayram şənlikləri keçiriləcəyi elan edilmişdi, respublikanın paytaxtında mitinqlər və nümayişlərin, həmçinin Azərbaycan Ordusunun hərbi keçidinin və Azərbaycan parlamentinin təntənəli iclasının keçirilməsi haqqında qərar qəbul edildi. Azərbaycanda yanvarın 14-ü istirahət günü elan olundu; həmin gün respublikanın baş naziri N.Yusifbəylinin Azərbaycan vətəndaşlarına müraciəti dərc olundu. Müraciətdə deyilirdi: "...Azərbaycan istiqlaliyyəti haqqında böyük müttəfiqlər alisi tərəfindən müttəhidən rəy qəbul edilmişdir. Azərbaycanın bütün hüquqa malik olaraq Qərbin pişrov millətləri ailəsinə daxil olması onun tarixində ən işıqlı bir gündür. Bu gündən etibarən ruhən və mənən tərəqqi edərək, millətin qüvveyi-mənəviyyəsi gündən-nəşvü - nüma edəcəyinə şübhə yoxdur. Yenidən nə növ manea və xətərlər baş versə də, hürr və müstəqil məmləkətin səadətini təmin etmək yolunda bütün vətəndaşların yekvücud olaraq müavinət və müzahirətdə bulunacaqlarına hökumət iman ediyor. Yaşasın müstəqil Azərbaycan xalqı!"[56]

Azərbaycan müstəqilliyinin elan olunması beynəlxalq aləmdə ona marağın artmasına təkan verdi. Bir çox ölkələr - Belçika, İsveçrə, Hollandiya, Çexiya və Slovakiya Bakıda öz konsulluqlarını açmağa başdılar, İtaliya isə burada öz nümayəndəliyini yaratdı[57].

Fevral ayında Denikin ordusunun məğlubiyyəti respublikanın dinc nəfəs alması üçün mühüm hadisə oldu. Qonşu Gürcüstan və İranla hərtərəfli əməkdaşlıq yaradılması prosesi başlandı. 1920-ci il martın 20-də Azərbaycanla İran arasında sülh və

dostluq haqqında müqavilə bağlandı. Müqaviləyə əsasən, İran hökuməti Azərbaycanın müstəqilliyini de-yure tanıdı. Tərəflər dostluq və iqtisadi əlaqələrin yaradılması və inkişaf etdirilməsi, həmçinin Tehranda Azərbaycan səfirliyinin, Bakıda isə İran səfirliyinin açılması barədə öhdəliklər götürdülər[58]. Bundan əlavə, həmin gün Azərbaycanla İran arasında gömrük, ticarət, poçt-teleqraf və konsul əlaqələri haqqında saziş imzalandı[59]. Bir qədər sonra Tehranda Azərbaycan səfirliyi açıldı, Təbrizdə isə Azərbaycanın baş konsulluğu fəaliyyət göstərməyə başladı[60].

1920-ci il aprelin ortalarında Azərbaycan parlamenti Böyük Britaniya, Fransa, İtaliya, ABŞ, İsveçrə, Polşa, Latviya, Litva, Estoniya, Finlandiya, Ukrayna, Rumıniya, Almaniya və Rusiyada AXC-nin diplomatik nümayəndəlikləri açılması haqqında qanun qəbul etdi [61]. Türkiyə, Gürcüstan və Ermənistan kimi qonşu ölkələrlə diplomatik əlaqələr genişləndi. Bu dövrdə Bakıda 20-dən çox ölkənin diplomatik missiyaları fəaliyyət göstərməyə başladı.

1920-ci il 28 aprel çevrilişi ərəfəsində beynəlxalq aləmdə Azərbaycan Xalq Cümhuriyyətinin tam təcrid olunması aradan qaldırılmışdı. Müstəqil Azərbaycanın diplomatik cəhətdən geniş tanınması və hərtərəfli beynəlxalq əlaqələr sisteminə daxil olması prosesi başlanmışdı.

IX FƏSİL

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN İQTİSADİ SİYASƏTİ

Azərbaycanda dövlətçiliyin təşəkkül tapması iqtisadiyyatın da tamamilə yenidən qurulmasını tələb edirdi. Lakin Birinci dünya müharibəsi, ikihakimiyyətlilik dövründə Cənubi Qafqazda, eləcə də Azərbaycanda baş alıb gedən anarxiya, hərc-mərclik, xalqın varidatının Bakı kommunarları ilə "Sentrokaspi" tərəfindən talan edilməsi və nəhayət, müstəqil dövlət quruculuğu dövründə ölkənin xarici qoşunların təsiri altında olması nəticəsində iqtisadiyyatın, demək olar ki, tam dağılması gənc hökuməti böyük çətinliklərlə qarşılaşdırmışdı. Hökumətin iqtisadiyyat sahəsində əsas vəzifəsi yalnız dağılmış təsərrüfat sahələrini bütünlüklə bərpa etmək deyil, həm də yeni iqtisadi sistemin prinsiplərini müəyyənləşdirmək və həmin prinsiplər əsasında islahatlara başlamaq idi. Lakin Azərbaycan Xalq Cümhuriyyəti hökumətini təmsil edən şəxslərin əksəriyyəti Rusiyanın qabaqcıl universitetlərinin məzunları olsalar da, onların müvafiq islahatlar keçirmək sahəsində zəruri təcrübələri kifayət etmirdi. Hökumətin kursu tarixi şəraitə görə həddən ziyadə ideoloji məzmun daşıyır və özünü respublikanın bütün icra orqanlarında büruzə verirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi və siyasi platforması bütün vətəndaşların həqiqi hüquq bərabərliyini bərqərar edərək, demokratik bir cəmiyyət qurmağı nəzərdə tuturdu. Bu məqsədə çatmağın əsas vasitəsi mülkiyyət formasının müxtəlifliyi prinsipini fellən həyata keçirməkdən, dövlətə, xüsusi şəxslərə, səhmdar birliklərə bələdiyyə - özünüidarə orqanlarına məxsus mülkiyyət formalarının inkişafı üçün bütün vətəndaşlara bərabər imkan verən demokratik şəraiti təmin etməkdən ibarət idi.

Bununla yanaşı, hökumət bu mövqedə idi ki, mülkiyyət formalarının müxtəlifliyi iri mülkiyyətin, xüsusilə də dövlət iqtisadiyyatının özəyini təşkil edən iri fabrik və zavodların parçalanmasına gətirib çıxarmamalıdır.

Mülkiyyət formalarının müxtəlifliyi üçün bərabər imkan verən şəraitin təmin edilməsi ideyası respublikanın iqtisadiyyat sahəsinə aid ilk qanunvericilik aktlarının əsasını təşkil edirdi. Lakin zaman həmin aktların heç də hamısının işlək olmadığını və özünü doğrultmadığını göstərdi. Respublikadakı iqtisadi vəziyyət isə mürəkkəb olaraq qalırdı.

Görkəmli Azərbaycan sənayeçisi Hacı Zeynalabdin Tağıyev Azərbaycan Xalq Cümhuriyyətinin Baş naziri N.Yusifbəyliyə 1919-cu ilin iyununda verdiyi rəsmi müraciətində maliyyə, ticarət və sənaye sahələrində hökumət kursunun dəyişdirilməsində qətiyyət göstərilməsindən bəhs edirdi.

Hacı Zeynalabdin Tağıyevin Baş nazirə işgüzar məktubu ölkənin sahibkar dairələrinin lideri olan şəxsin mövqeyini aydın əks etdirdiyi üçün çox diqqətəlayiqdir və ibrətamiz təəssürat oyadır. O öz müraciətini: "Allaha şükür ki, doğma vətənim üzərində parlayan müstəqillik günəşinin şəfəqlərini seyr etmək mənə nəsib olmuşdur"[1] - sözləri ilə

başlayırdı. Lakin buna baxmayaraq, onun səmimi və nəzakətli tonu, milli ideyaya loyal münasibətinin arxasında iqtisadi sərbəstlik istəyən burjuaziyanın sərt dialoqa hazır olması aydın hiss olunurdu.

H.Z.Tağıyev öz məktubunu birbaşa problemin mahiyyəti barədə fikirlərini açıqlamaqla başlayır: "Zənnimcə, indi elə bir münbit şərait mövcuddur ki, bu şəraitdə mən sizin diqqətinizi hökumətin fəaliyyət mərkəzindən kənarda qalan bir sıra mühüm məsələlərə, maliyyə və iqtisadi siyasət məsələlərinə cəlb etmək istəyirəm"[2].

Öz fikirlərini öyrəncəli olduğu valyuta-birja dilində izah edən H.Z.Tağıyev sonra yazırdı: "Mal ixracına qoyulmuş qadağalar milli valyutanın tamamilə qiymətdən düşməsinə gətirib çıxarmışdır: idxal-ixrac əməliyyatları üzərində sərt nəzarət, mal mübadiləsinin məhdudlaşdırılması sərmayə sahiblərinə ciddi ziyan gətirdi". Onun tənqidi də konkretdir: əgər hökumət insan hüquqlarına hörmət edəcəyinə, xüsusi mülkiyyətin toxunulmazlığına təminat verirsə, onda o öz sözünün üstündə axıradək durmalı və müxtəlif qadağalara, maneçiliklərə, məhdudiyyətlərə əl atmamalıdır.

Tağıyevin gəldiyi nəticələr isə həm real, həm də sosial ünvanlıdır, onun fikrincə, hökumətin belə iqtisadi siyasətindən ən çox qazanan alverçilər və vicdansız məmurlar, itirənsə istehsalçılar və istehlakçılar olacaqlar.

Yaradıcı işgüzar adamların Tağıyevin məktubunda ifadə edilmiş narazılığı əslində göründüyündən qat-qat əsaslı idi.

Məlumat vərəqinin əsas qayəsi aşağıdakı sözlərlə ifadə olunmuşdu: işlərin normal gedişatına mane olan ən əsas amil iqtisadiyyatda nizamlama sisteminin və sabit dövlət qiymətlərinin mövcud olmasıdır. "Hər iki tədbirin tərəfdarları elə düşünürlər ki, guya sənayeçi dövlətin və cəmiyyətin düşmənidir, yalnız öz marağını güdür və buna görə də cinayət törətmiş cani kimi onun üzərində sərt nəzarət lazımdır. Belə baxışların əsassız olmasını sübut etməyə ehtiyac yoxdur. Azad sahibkarlar dövlətin düşməni yox, dostu və dayağıdır"[3].

Əlbəttə, Hacının bu problemi yalnız iqtidarda olan şəxslərin axıradək dərk etməməsi ilə əlaqələndirməsi onu sadələşdirmək demək idi. Əsil həqiqətdə isə bu, şüurlarda kök salmış ideologiyanı öz fəaliyyətində əsas tutan iqtidar nümayəndələrinin davranış xəttini müəyyənləşdirən bir təzahür idi. İddia etməyə əsas var ki, iqtisadiyyatda yaranmış inzibati rejim ölkədə mövcud olan dağınıqlığın nəticəsi olmaqla yanaşı, eyni zamanda respublikanın aparıcı partiyası olan "Müsavat"ın ideoloji görüşlərinə görə, millət dedikdə xalq (demokratik çoxluq) başa düşülməlidir, əsil milli hökumət isə təkcə bir sinfi deyil, bütün xalqın mənafeyini müdafiə edən hökumətdir.

Qiymətlərin tənzimlənməsi, xüsusi mülkiyyətin sosiallaşdırılması, istehsal və maddi nemətlərin bölüşdürülməsi prosesinə müdaxilənin zəruriliyini əsaslandırmağa çalışan F.X.Xoyski və N.Yusifbəylinin təşkil etdiyi hökumət kabinetləri eyni zamanda siyasi məqsədlər güdürdü. Bu iqtisadi kurs dovlətin cəmiyyət üzərində əvvəllər görünməmiş hədsiz qəyyumçuluğa cəhd göstərməsinin təzahürü idi.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin inflyasiyanın qarşısını alması, inflyasiya şəraitində maaşları və pul tədavülünü tənzimləməsi, qonşu ölkələrlə iqtisadi əlaqələri sahmana salması, öz valyutasını yaratmaq planları, vergi vasitəsilə dövlət və sahibkarlar arasında qarşılıqlı münasibətləri nizamlaya bilməsi diqqətəlayiqdir.

Kənd təsərrüfatı neft sənayesi ilə birlikdə Azərbaycan iqtisadiyyatının əsas özülünü və ölkə əhalisinin 76 faizinin fəaliyyət və dolanışıq mənbəyi sahəsini təşkil edirdi. Belə ki, torpaq məsələsi ən kəskin iqtisadi, sosial və siyasi məsələlər sırasında dururdu. Onun həll edilməsi həm bütün sosial-iqtisadi vəziyyəti yaxşılaşdırmağa, həm də böyük kəndli kütləsinin yeni hökumətə etimad göstərməsinə imkan yaradırdı[4].

Ümumiyyətlə, respublikada aqrar islahatlara keçid dövründə kənddəki mövcud istehsal münasibətlərinin - kəndlilərin təbəqələşməsi ilə müşayiət olunan kapitalist münasibətlərinin genişlənməsi müşahidə olunur: 1917-ci ildə aqrar bölmənin quruluşu aşağıdakı kimi idi: yoxsul təsərrüfatları - 54,4 faiz, ortabablar - 34 faiz, qolçomaqlar 6 faiz təşkil edirdi[5]. Mülkiyyət formaları arasında dövlət və mülkədar torpaq sahibliyi üstün idi. Belə ki, bütün kənd təsərrüfatı sahəsinin 29,5%-i mülkədarların mülkiyyətində, 68,7%-i dövlətin payında olduğu halda, yalnız 1,8%-i kəndlilərə məxsus idi[6]. Torpaqsız və aztorpaqlı kəndlilər mülkədarlardan torpaq icarə etməyə və ya muzdur kimi işləməyə məcbur idilər. İcarə Azərbaycanın bütün qəzalarında torpaqdan istifadənin əsas forması idi"[7]. Mülkədar təsərrüfatlarında muzdur əməyindən geniş istifadə olunurdu[8]. İslahatların keçirilməyə başlandığı dövrdə Azərbaycanda mülkiyyət formalarının qısa xarakteristikası bundan ibarətdir: islahatların əsas özəyini onların məhz "kəndliyə torpaq vermək"[9] məqsədi güdən hissəsi təşkil etməli idi.

Hələ Zaqafqaziya Seyminin fəaliyyəti dövründə Qafqaz demokratiyası populist bolşevik şüarlarına qarşı təcili olaraq öz şüarlarını irəli sürməyə, o zamanın inqilabi coşqunluq tələblərinə uyğun aqrar tezislərini-ümumi şəkildə "torpaq layihəsi" deyilən bir sənədi hazırlamağa başladı və 1918-ci il martın 7-də Zaqafqaziya Seymi tərəfindən təsdiq edildi[10].

Bu qanunun qeyri-mükəmməlliyi Cənubi Qafqaz dövlətləri müstəqilliklərini elan etdikdən sonra aşkar olundu. Azərbaycan hökuməti də bu qanunla kütlə arasına çıxmağın mümkün olmadığını etiraf edərək və dövlətin həyati maraqlarına cavab verə biləcək yeni sənəd hazırlamağı lazım bildi. F.X.Xoyskinin başçılıq etdiyi birinci Hökumət kabineti hələ 1918-ci il iyunun 22-də Seymin aqrar qanun şərtlərinin Azərbaycan Xalq Cümhuriyyəti ərazisinə şamil edilməməsi haqqında fərman vermişdi. Həmin dekretin icra hissəsində deyilirdi: 1.Zaqafqaziya Seyminin qəbul etdiyi torpaq islahatı haqqında qanunun iclası Müəssislər Məclisi çağırılana qədər dayandırılsın; 2.İndiyədək həm xüsusi, həm də dövlət torpaqlarının tutulması halları aradan qaldırılsın; 3.Torpaq pulu ödənişləri haqqında məruzə təqdim edilsin; 4.Yaxın müddətdə torpaq komitələrinin 'cnidən qurulması və ya ləğv

edilməsi haqqında məruzə təqdim edilsin".

Zaqafqaziya Seyminin qəbul etdiyi aqrar qanunla yanaşı, Bakı Xalq Komissarları Sovetinin bu vaxtadək Bakı quberniyasına aid torpaq haqqında dekreti də ləğv edildi[12].

Üçüncü hökumət kabinetinin formalaşmasından sonra (dekabr 1918-ci il) ilk çıxışında baş nazir F.X.Xoyskinin millətin tərəqqisi üçün ona siyasi və iqtisadi sərbəstlik verilməsinin zəruriliyini vurğulaması sübut edir ki, Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətini təmsil edənlər ictimai tərəqqinin aqrar məsələdə uğurlu həllindən birbaşa asılı olduğunu dərk edirdilər. Bu məsələ hökumət kabinetinin bəyanatında xüsusi yer tuturdu: "Kəndli və fəhlə ünsürləri təminatı qayğısı hökumətin ən başlıca vəzifəsi olmalıdır... Torpaq kəndliyə havayı verilməlidir"[13]. Lakin belə sosial islahatın həyata keçirilməsi üçün müvafiq qanun qəbul edilməlidir. Beləliklə iki istiqamətdə - parlament komissiyası çərçivəsində və hökumət səviyyəsində bu sahədə fəaliyyətə başlandı. 1919-cu il fevralın 4-də torpaq islahatı haqqında qanun layihəsi hazırlamaq üçün menşevik-hümmətçi Səməd bəy Ağamalıoğlu başda olmaqla müxtəlif siyasi fraksiyaların nümayəndələrindən ibarət xüsusi parlament komissiyası yaradıldı. Onun 9 nəfər üzvündən dördü "Müsavat”dan (Mustafa Mahmudov, Məmmədbəy Şeyxzamanov, Murtuz Axundzadə və Nəriman bəy Nərimanbəyov), "İttihad"dan (Bəhram bəy Vəzirov), sosialist blokundan (Rza bəy Qaraşarov), "Əhrar"dan (Hacı Hüseyn Əfəndiyev), "Daşnaksutyun"dan (Arşak Malxazyan) və "Rus-Slavyan Cəmiyyəti"ndən (M.N.Vinoqradov) idi[14]. Komissiya üzvlərinin siyasi mənsubiyyət cəhətdən çox müxtəlif olması qanun layihəsini lap əvvəldən müvəffəqiyyətsizliyə düçar etmişdi, çünki onların təmsil etdiyi partiyaların aqrar məsələyə aid yekdil nöqteyi-nəzərləri yox idi. Ona görə də layihənin alternativ variantına malik olmayan komissiya Zaqafqaziya Seyminin 1918-ci il martın 7-də qəbul etdiyi, müəlliflərindən biri də indiki komissiyanın sədri S.Ağamalıoğlu olan aqrar qanunun əsasları ilə kifayətlənmək məcburiyyətində qalmışdı. Görünür, məhz bu səbəbdən yeni layihə dövrün tələbinə cavab verməyən, artıq Azərbaycan hökuməti tərəfindən imtina edilmiş şərikli qanunun köhnə modelinə bənzəyirdi. Komissiya onun hazırlanması işini ləngidən və sona çatdırılmayan müzakirələrini kənddə vəziyyətin kəskinləşməsi şəraitində aparırdı. O dövrün mətbuatı kəndlilərin vaxtaşırı mülkədar torpaqlarını özbaşına tutması, onların malikanələrini talan etməsi, qiyam qaldırması kimi faktları tez-tez hallandırırdı.

Bütün bunlar parlamentin işinə ciddi təsir göstərir, ölkədə vəziyyəti kəskinləşdirir və tez-tez hökumət böhranlarına səbəb olurdu. Qanun layihəsinin müvəffəqiyyətsizliyi artıq parlament komissiyasının 1919-cu il 23 aprel tarixli iclasında onun mühüm bəndlərindən birinin müzakirəsində özünü göstərdi. Komissiya gündəliyə mülkədar və xüsusi sahibkar torpaqlarının, həmçinin digər torpaqların ya müsadirəsi və ya ləğvi məsələsini qoymuşdu. Müxtəlif partiyaların iclasda iştirak edən nümayəndələri elə ilk andan bir-birinə qarşı anlaşılmazlıq və etimadsızlıq şəraiti yaratdılar. "İttihad" fraksiyası adından çıxış edən

Bəhram bəy Vəzirov qeyd etdi ki, onun fraksıyası mülkədar və xüsusi sahibkar torpaqlarının pulla satın alınmasını israr edir. Bitərəflər fraksiyasının bir qrupu da ittihadçılara qoşuldu. Onların nümayəndəsi torpaq sahiblərinə dəyən maddi zərəri ödəmək məqsədilə xüsusi fond yaradılması zəruriliyini qeyd etdi. Müsavatçıların sağ cinahı bitərəflərin torpağı satın almaq haqqındakı ideyalarını müdafiə edərək bildirdilər ki, müsadirə məsələsi torpaq sahiblərinin ciddi etirazına səbəb olar və bununla da aqrar sektorun dağılmasını stimullaşdıra bilər. "Müsavat"ın sol cinahının nümayəndəsi Mustafa Mahmudov partiya yoldaşını partiyanın proqramı ilə kifayət qədər yaxşı tanış olmamaqda günahlandırıb onunla razılaşmadı. Sosialist bloku və hümmətçi menşeviklərin platforması eyni idi torpaq müsadirə edilməli və ödəncsiz olaraq həqiqi sahiblərinə-kəndlilərə verilməlidir. Uzun müzakirələrdən sonra keçirilən səsvermə sosialistlərin xeyrinə nəticələnsə də, aqrar məsələnin həllinə ciddi təsir göstərmədi.

1919-cu il avqustun sonu - sentyabrın əvvəllərində, nəhayət, torpaq komissiyası layihə üzərində işini tamamladı. Layihənin əsas tezisləri aşağıdakılardan ibarət idi: 1. Respublika ərazisindəki bütün torpaqlar dövlətin mülkiyyətidir; 2.Torpaq əvəzsiz olaraq dövlətin ixtiyarına keçir; 3.Əvvəlki mülklərinin müəyyən hissəsi aşağıdakı normalar üzrə əsas sahibkarların istifadəsi üçün onların özündə qalır: 1-ci dərəcə torpaqlar - 7 desyatin (bağlar və becərilən sahələr); 2-ci dərəcə torpaqlar - 15 desyatindən 20 desyatinədək (əkin yerləri); dərəcə - 40 desyatindən 50 desyatinədək (otlaqlar). Qalan bütün torpaqlar dövlət torpaq fonduna daxil edilir. Torpaq haqqında qanunun *son v*ariantı Azərbaycan Xalq Cümhuriyyəti Müəssislər Məclisi tərəfindən təsdiq olunmalı idi[16].

Həmin layihənin müzakirəsi 1919-cu il oktyabrın 2-də parlamentin 81-ci iclasının gündəliyinə daxil edildi, lakin əkinçilik nazirinin müavini X.Sultanovun təklifi ilə ona baxılması dayandırıldı. Əkinçilik Nazirliyi torpaq komissiyasının layihəsi ilə yanaşı, işin xeyri üçün özünün qanun layihəsini də təqdim etməyi münasib bildi və palamentdən xahiş etdi ki, bu məsələyə baxılması onun öz qanun layihəsi daxil olanadək təxirə salınsın[17].

Torpaq məsələsi ilə bağlı mühüm işlərin bu şəkildə mürəkkəbləşməsi başqa bir səbəbdən də irəli gəlirdi. Belə ki, aqrar məsələnin işlənib hazırlanması ilə Əkinçilik Nazirliyinin xüsusi komissiyası da paralel məşğul idi. Burada qanun layihəsi işlənib hazırlanmazdan əvvəl aqrar bölmənin vəziyyəti haqqında daha ətraflı təsəvvür əldə etmək məqsədilə torpaq fondu ciddi təftiş edilmişdi. Bunu qanun layihəsinə əlavə edilmiş izahat məktubu və çoxlu statistik məlumatlar da sübut edir[18]. Onların əsasında cədvəl (səh. 506) tərtib edilib.

Qanun layihəsi hazırlananadək Nazirliyin həyata keçirdiyi digər bir iş isə vaxtilə buraya köçürülmüş rusların və ermənilərin tərk etdikləri torpaqların, həmçinin yiyələri tərəfindən atılmış xüsusi sahibkar malikanələrinin müvəqqəti olaraq dövlətin sərəncamına verilməsi idi. Həmin torpaqlar Əkinçilik, Daxili İşlər və Maliyyə nazirlikləri nümayəndələrindən ibarət qəza komissiyaları tərəfindən kənd icmalarına və ayrı-ayrı kəndlilərə, yalnız beləleri olmadıqda isə bu ərazidə yaşamayan kənar şəxslərə icarəyə verilirdi. Məsələn, Əkinçilik Nazirliyinin

sərəncamına uyğun olaraq, Muğanda 5 min desyatinlik suvarılan torpaqlar 1919-cu ildə səpin aparmaq üçün ancaq kənd icmalarına birilliyə satışsız icarəyə verilmiş[19], icarə haqqı isə natura ilə alınmışdı. Lakin bu təcrübə ümidləri doğrultmadı; nə xəzinə gözlənilən gəliri ala bildi, nə də kəndlilər icarəyə ciddi maraq göstərdilər. Bunun səbəbi icarə müddətinin azlığı və torpaqdan səmərəli istifadə etməyə imkan verməməsi idi.

1919-cu il iyunun 6-da Əkinçilik Nazirliyinin nəzdində aqrar islahatlar şöbəsi təsis edildi[20] və ona tapşırıldı ki, bir ay müddətinə aqrar islahatlar layihəsini bəyənilmək üçün Nazirlər Şurasına təqdim etsin[21]. Nazirlikdə işlər artıq 1919-cu ilin avqustunda nazir müavini Sultanovun rəhbərliyi altında "Azərbaycan Xalq Cümhuriyyəti əhalisinin torpaq təminatı haqqında" və "Xüsusi sahibkar meşələrinin dövlətin mülkiyyətinə çevrilməsi haqqında"[22] Qanun layihələrinin hazırlanması ilə başa çatdırıldı.

Qanun layihələrində əksini tapan əsas məsələlər xüsusi sahibkar torpaqlarını əhalinin hansı kateqoriyasından, nə qədər və hansı şərtlərlə alınıb dövlət torpaq fonduna keçirilməsilə əlaqədar idi. Burada xüsusi sahibkar torpaqlarının torpağın istismarı zamanı verdiyi gəlir hesabına əvəz ödənilməklə özgəninkiləşdirilməsi nəzərdə tutulur Nazirlik belə hesab edirdi ki, xüsusi sahibkar torpaqlarını əvəzödə-nilmədən müsadirə etmək xüsusi mülkiyyəti ləğv etməyə bərabərdir. Buna görə də qanun layihəsində torpağın əkinçi əhaliyə yalnız istehlak norması üzrə xüsusi mülkiyyətə verilməsi məqbul sayılır[4]. Eyni zamanda sahibin saxladığı sahənin ölçüsü malikanənin özünün dəyəri və xarakterindən asılı olaraq müəyyən edilirdi və kənd yerlərində suvarılan torpaq sahəsi 100 desyatindən, suvarılmayan torpaq sahəsi 150 desyatindən, şəhər yerlərində isə 5-7 desyatindən artıq olmamalı, həyətyanı torpaq sahələri bu normalara daxil edilməməli idi[25].

Lakin bu qanun layihələri xüsusi parlament komissiyasının hazırladığı layihə kimi uğursuz oldu. Belə ki, Azərbaycanda baş vermiş hökumət böhranı onların heç müzakirə olunmasına da imkan vermədi.

Baş nazir Yusifbəylinin kifayət qədər radikal dünyagörüşlü gənc siyasi xadimlərdən təşkil etdiyi yeni hökumət kabineti özünün yeni aqrar siyasət kursunu işləyib hazırlamaq əzmində olduğunu bəyan etdi. Yeni əkinçilik naziri sosialist Əhməd Cövdət bəy Pepinov nazirliyin hazırlamış olduğu əvvəlki iki qanun layihəsini təcili təkmilləşdirmək üçün parlamentdən tələb edib geri aldı[26].

1920-ci il martın əvvəllərində "Xüsusi sahibkar torpaqlarının dövlət torpaq fonduna keçirilməsi və Azərbaycan Xalq Cümhuriyyəti əhalisinin torpaqla təmin olunması haqqında qanun"un yeni layihəsi[27] üzərində işi başa çatdıran nazirlik onu baxılmaq üçün Nazirlər Şurasına təqdim etdi.

Yeni qanun layihəsi Gürcüstan sosial-demokrat hökumətinin Azərbaycan sosial-demokratiyası tərəfindən bəyənilən aqrar qanunu əsasında hazırlanmışdı. Bu layihə kənd yerlərində olan xüsusi sahibkar-hüquqi şəxslərin bütün torpaqlarını, o cümlədən monastır, vəqf, məscid və kilsə torpaqlarını, habelə şəhər ərazisinin şəhər mülkiyyətinə

daxil olmayan sahələrinin sahiblərindən alınıb əvəz verilmədən dövlət torpaq fonduna verilməsini nəzərdə tuturdu[28]. Mülkiyyəti əlindən alınan sahibkarların ixtiyarında saxlanan torpaq sahəsinin ölçüsü həmin yerlərin təsərrüfat şəraitinə uyğun olaraq, kənddə becərilən bitki təsərrüfatları üçün 7-10 desyatin, taxılçılıq təsərrüfatı üçün 15-20 desyatin, maldarlıq təsərrüfatları üçün 40-50 desyatin, şəhərdə müvafiq olaraq, 1,5-3 desyatin, 3-5 desyatin, 10-12 desyatin müəyyən edilirdi. Sahibkarların mülk və bağları da bu hesaba daxil idi[29].

Sosial-demokratların fəaliyyəti haqqında hesabat parlamentin aqrar siyasət komissiyası çərçivəsində ilk dəfə 1919-cu il sentyabrın 25-də Qazax qəzası kəndlilərinin hökumətin torpaq siyasətini müzakirə edən I qurultayının keçirildiyi vaxtda dinlənilmişdi. Qurultayda iştirak edən bolşeviklərlə digər sosial-demokratlar arasında düşən kəskin mübahisə birincilərin məğlubiyyəti, digərlərinin müvəffəqiyyəti ilə nəticələnmiş, böyük əksəriyyət sosial-demokratları müdafiə etmişdi. Qurultayın qəbul etdiyi qətnamədə deyilirdi; "...Rusiya inqilabının ən böyük nailiyyətlərindən birisi torpağın zəhmətkeşlərə verilməsi şüarı idi. Ona görə də biz parlament və hökumətdən tələb edirik ki, ən yaxın müddətdə bu məsələni həll etsin və kəndlilərin tələbini yerinə yetirsin"[30].

Parlament komissiyası torpağı əvəzsiz olaraq alınmaq tələbində israrını davam etdirirdi. Ona görə də Nazirliyin hazırladığı layihənin parlamentə təqdim olunması ləngidilirdi. Ölkədə vəziyyət gərginləşmişdi. Hökumət hələ də aqrar qanununun müzakirəsinə başlamamışdı. Lakin bunun əsas səbəbini təkcə partiyalar arasında gedən kəskin siyasi mübarizə ilə, yaxud yalnız ölkənin ağır iqtisadi vəziyyəti ilə izah etmək olmaz. Nəzərə alınmalıdır ki, bu məsələ həddən artıq səbəblərlə bağlı mürəkkəb sosial-iqtisadi məsələ idi hələ "Müsavat" partiyasının II qurultayında partiyanın rəhbərliyi kəskin tənqid edildiyi vaxt partiyanın lideri M.Ə.Rəsulzadə göstərmişdi ki, bu məsələdə tələskənlik, eləcə də onu həddən ziyada uzatmaq eyni dərəcədə mənfi nəticələrə gətirib çıxara bilər[31]. Partiya qurultayı aqrar məsələyə təkrar baxaraq, onun aqrar siyasət komissiyasında hazırlanmış layihəsinin parlamentdə müzakirəyə qoyulması haqqında qətnamə çıxartsa da, o, xeyli vaxt icra olunmadı. "Müsavat" frakasiyası yalnız 1920-ci il fevralın 16-da parlamentin növbəti 123-cü iclasında partiyanın qurultayda bəyənilmiş aqrar məsələ üzrə qanun layihəsini müzakirəyə təqdim etdi.

"Müsavat" partiyasının qanun layihəsi də xüsusi sahibkar torpaqlarının əvəzsiz olaraq alınıb dövlət torpaq fonduna verilməsini nəzərdə tuturdu. Lakin burada sahibkarların mülkiyyətində, bağ və həyətlər də daxil olmaqla, 25-75 desyatin torpaq saxlanılması; şəhər yerlərində isə bu sahənin becərilən bitkilərin xüsusiyyətindən və eləcə də əhalinin torpağa olan ehtiyacından asılı olaraq, 5 desyatindən 7,5 desyatinədək məhdudlaşdırılması göstərilirdi[32].

Torpaqların alınması, özəlləşdirilməsi məsələsinə ehtiyatlı münasibət tamamilə düzgün idi. Çünki torpaqların əvəzsiz müsadirəsi məsələsi hərtərəfli düşünülmüş münasibət tələb edən məsələ idi. Unutmaq olmaz ki, "xüsusi torpaq sahibləri" məfhumu arxasında nüfuzlu konkret fiziki şəxslər dururdu və onların taleyi hökuməti maraqlandırmaya bilməzdi. Hökumətin islahat proqramı elə çevik qurulmalı idi ki, o, aqrar bölmədəki bütün sosial təbəqələrin marağını maksimum

ifadə edə bilsin. Əlbəttə, aqrar məsələyə aid hüquqi-normativ aktlara bu nöqteyi-nəzərdən yanaşılaraq deyilməlidir ki. sonuncu (sayca dördüncü) qanun layihəsi o dövr üçün nisbətən tam və mükəmməl, daha müasir qanun layihəsi idi.

Sonuncu qanun layihəsinin ciddi öyrənilməyə və müzakirəyə ehtiyacı olduğundan parlament onu baxıb müzakirə etmək üçün aqrar komissiyaya 10 gün möhlət vermişdi[33]. Amma aqrar komissiyanın fəaliyyəti bu dövrdə tamamilə səmərəsiz idi, onun üzvləri hökumət böhranları ilə əlaqədar olaraq, artıq çoxdan bir yerə yığışmırdılar. Buna görə də onun dəyişilməz sədri S.Ağamalıoğlu təklif etmişdi ki, komissiyanın işini bərpa etmək üçün onun tərkibi sosialistlərdən ibarət yeni üzvlər cəlb etməklə dəyişdirilib möhkəmləndirilsin. Lakin parlament onun təklifini qəbul etmədi, hətta aqrar komissiya "Müsavat" Partiyasının hazırladığı qanun layihəsini müzakirə etdiyi birinci iş günündə müsavatçı Rüstəmbəyov komissiyanın sədr müavini seçildi[34]. Əlbəttə, bu addım komissiyada müsavatçıların mövqeyini gücləndirdi. Lakin S.Ağamalıoğlunun siyasi qüvvələrin komissiyadakı tarazlığını pozmaq cəhdi və Nazirliyin layihəsini təkrar müzakirəyə qaytarmaq təklifi uğur qazanmadı və "Müsavat"ın layihəsi əsas kimi saxlanıldı[35]. Komissiyanın işləri başa çatmadı, aqrar qanun layihələri variantlarından heç biri qanun statusu almadı, aqrar bölmədəki durğunluq aradan götürülmədi, Azərbaycan Xalq Cümhuriyyətinin varlığı üçün əsas vacib məsələlərdən biri tam həll olunmamış qaldı.

Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi tədbirlərindən biri də gənc respublikanın maliyyə sistemini tənzimləmək və xəzinədə vəsait toplanmasına nail olmaq idi.

Azərbaycan Xalq Cümhuriyyətinin maliyyə vəziyyəti çox ağır idi. Siyasi sabitliyin pozulması, işsizliyin artması, manatın dəyərinin düşməsi ölkə əhalisində hökumətə inamsızlıq doğururdu. Bu məsuliyyətin bir hissəsi həm də parlamentin üzərinə düşürdü, çünki iqtisadi məsələlərin həlli ilə bağlı müəyyən bir iş görülməsinə vaxt tapmır, sırf siyasi məsələlərin müzakirəsi ilə məşğul olurdu. Parlament dağılmış iqtisadiyyatı bərpa etmək məqsədi ilə bir sıra qanunverici aktların hazırlanmasına, onların baxılıb qəbul edilməsinə yalnız dörd aydan sonra başladı. Bu aktlar ilk növbədə kredit, vergi, bank və gömrük sahələrinə aid idi.

Dövlət vergi siyasətinin formalaşmasına yardım edən qanunlar zərfi hazırlanırdı. İlk vaxtlar bu sahədə aparılan iş keçmiş Rusiya imperiyasının müvafiq qanunlarına düzəliş və əlavələr etməklə məhdudlaşırdı, sonralar isə müxtəlif vergilər haqqında ayrı-ayrı qanun layihələri müzakirəyə çıxarılır və qəbul edilirdi. Təəssüf ki, bu zaman başlıca olaraq ənənəvi vergi sistemindən, xəzinənin ehtiyaclarını ödəmək üçün dolayı vergilər-inhisar yığımları, gömrük vergiləri və aksizlərdən istifadə edilirdi.

AXC hökumətinin büdcəsi aşağıdakı vergi növləri hesabına formalaşırdı:

1. Müstəqim vergilər, torpaq vergisi, daşınmaz əmlak vergisi, dövlət gəlir vergisi, sənaye vergisi, kapital qoyuluşundan gəlir vergisi, hərbi mükəlləfiyyət

vergisi, notarial vergi;

2. Dolayı vergilər - tütün, papiros kağızları, şəkər, çay, ağ neft, benzin, kerosin, sürtkü yağlarından və digər neft məhsullarından tutulan vergi, gömrük rüsumu və gəlirləri;

3. Möhür haqqı məhkəmə, kargüzarlıq, sənəd yazışmalarından gəlirlər;

4. Hökumət inhisarlarına aid vergilər, mədən gəliri, poçt gəliri teleqraf gəliri, meşələrdən, balıq vətəgələrindən, pambıqçılıq təsərrüfatlarından gələn gəlirlər;

5. Dövlət dəmir yolundan gəlirlər - yük daşınmasından gəlirlər[36].

AXC hökuməti maliyyə siyasətində mütərəqqi gəlir vergisi siyasətinə üstünlük verirdi. Parlamentin 26 dekabr tarixli iclasında çıxış edən baş nazir Fətəli xan Xoyskinin təqdim etdiyi hökumət proqramında deyilirdi: "Ölkədəki maliyyə vəziyyəti hələlik qeyri-müəyyəndir. Hələlik Azərbaycanın öz pul əsginası yoxdur. Azərbaycan hökuməti öz pullarını buraxmaq əzmindədir. Maliyyə siyasətində mütərəqqi gəlir vergisi həyata keçiriləcək"[37].

AXC parlamentinin fəaliyyəti dövründə təqdim olunmuş 315 qanun layihəsindən 82-si Maliyyə Nazirliyi tərəfindən təqdim edilmişdi. Parlamentə təqdim olunmuş bir qanun layihəsinə görə, vergi məsələsi ilə bağlı bütün şikayətlərə Maliyyə Nazirliyi əməkdaşlarından ibarət şura baxmalı idi.

Bütün siyasi partiyalar, o cümlədən hökumət partiyası olan "Müsavat" da dolayı vergilərin ləğvi və mütərəqqi gəlir vergisinin tətbiq edilməsini istəsələr də, hökumət və parlament əlavə vəsait əldə edilməsi məqsədilə tez-tez dolayı vergilərin tətbiqinə məcbur olurdu. 1919-cu ilin əvvəlinədək dövlətin gəliri 600 mln manat idı ki, bunun da 400 mln manatı dolayı vergilərin, xüsusən neft məhsullarının payına düşürdü[38]. Lakin Azərbaycanın mövcud şəraitində kənd təsərrüfatının əsas özəyini əkinçilik təşkil etdiyi bir halda, ona müasir vergi sistemi tətbiq etmək çox çətin məsələ idi. Çünki onun üçün həm yeni minimum hədd müəyyən etmək, bütün vergiyə cəlbetmə dərəcələrini nəzərdən keçirmək, həm də büdcə haqqında qanun olmadığını nəzərə almaq vacib idi. Bütün bunlar dövlət büdcəsinin vaxtında tərtibinə və xərclərinin bölüşdürülməsinə mənfi təsir göstərirdi.

Vergi siyasətindəki vəziyyət bir də o səbəbdən ağırlaşmışdı ki, bütün yerlərdə vergilərin təyin edilməsi və yığılmasını həyata keçirən məsul struktur orqanlar yox idi, o zaman vergiləri qəza rəisləri yığırdılar. Maliyyə Nazirliyi nəzdindəki müvafiq vergi şöbəsi obyektiv səbəblərə görə vergi növlərini və ölkə ərazisini bütünlüklə əhatə edə bilməmişdi. Buna görə verginin qədəri smetada qabaqcadan təyin edilmədiyi üçün yığım və inhisarlar şöbəsi təsis etmək məqsədəuyğun hesab edildi[39].

1919-cu il martın 17-də parlamentin qəbul etdiyi yeni qanun yerlərdə vergi yığmaq hüququnu üzvləri zemstvo yığıncaqları və icmalar tərəfindən seçilən gəlir vergisi üzrə quberniya və qəza idarə heyətlərinə verildi. Bundan əlavə iyulun 16-da parlament Maliyyə Nazirliyi nəzdində vergi müfəttişi vəzifəsini təsis etdi, ona vergi müvəkkillərinin və vergi

məntəqələrinin fəaliyyətini nəzarətində saxlamaq və təftiş etmək səlahiyyəti həvalə olundu[40].

Oktyabrın 20-də "Maliyyə naziri yanında müxtəlif vergilər qoyulması üzrə şikayətlərə baxan ali instansiya olan Şura haqqında" daha bir qanun layihəsi qəbul olundu. Həmin qanuna görə, Şuraya daimi üzvlərdən əlavə, məhkəmə və prokurorluq orqanlarının, həmçinin vergi ödəyənlərin müvəqqəti nümayəndələri də daxil edilmişdilər[41].

1919-cu ilin aprelində sonralar dövlət vergi siyasətinin formalaşmasında əsas rol oynamış bu mühüm qanun da Maliyyə Nazirliyindən daxil olmuşdu. Cəmi iki bənddən ibarət olan həmin qanunun ölkənin maliyyə-iqtisadi inkişafı üçün mühüm əhəmiyyəti var idi, çünki ilk dəfə olaraq (bu qanun "Kapital vergisinin ödəniş möhləti və tarif dərəcələrinin dəyişdirilməsi haqqında qanun" adlanırdı) müstəqim vergilərin qəti təyin olunmuş vaxt və tarif dərəcələrini müəyyən edirdi. Kapital vergisi hər 100 manatdan 30 manat olmaqla ilin başlanğıcında (ancaq fevralın 1-dən gec olmayaraq) ödənilir, gəlir vergisi isə ilin sonunda, gəlirin həcmi bəlli olandan sonra ödənilirdi[42]. Müvafiq qanun mayın 15-də qəbul olundu. Həmin il iyulun 23-də isə parlament bu qanuna müvafiq olaraq yaşayış minimumunun dövlət gəlir vergisinə cəlb olunmayan həddini 1000 rubldan 5000 rubladək artırmaq haqqında qərar qəbul etdi[43].

Qəbul olunmuş qanunlar dövlətin maliyyə vəziyyətinin müəyyən qədər yaxşılaşdırılmasına xidmət edirdi.

Bu qanunlarla yanaşı, parlament hökumətin tələbi ilə dəfələrlə torpaq vergisi, sənət vergisi, spirtli içkilərə, kənd təsərrüfatı məhsullarına, neft məhsullarına qoyulan aksizlər, daşınmaz əmlak vergisi tariflərinin artırılmasına razı olmuşdu. Lakin bu dolayı vergi tariflərinin qəbul edilməsi əks nəticəyə gətirib çıxarırdı, çünki onlar daxili bazarda qiymətlərin qalxmasına, inflyasiyanın artmasına səbəb olur və bunların nəticəsində əhalinin güzəranına pis təsir edirdi. Buna görə də, əsas maliyyə məsələlərindən biri də respublikanın müstəqil kağız pul əskinaslarının buraxılması idi.

Çarizmdən qalan ağır mirasdan biri kifayət qədər maliyyəçi milli kadrların olmaması idi. Gənc dövlətin ağır maliyyə vəziyyətini düzəltmək, maliyyə sistemini ciddi böhrandan xilas etmək üçün yüksək səviyyəli mütəxəssis kadrlar tələb olunurdu. Pulun sürətli emissiyası hökuməti "Bakı bonu" adlanan yeni pullar kəsmək yolunu tutmağa vadar edirdi. Bakı bonlarının buraxılmasına, Şəhər Dumasının 1917-ci il 23 dekabr tarixli qərarına uyğun olaraq, 1918-ci ilin əvvəllərindən başlanmış və 1918-ci il martın sonlarınadək davam etmişdi. Bakı Sovetinin hakimiyyəti dövrü (noyabr 1917 - iyul 1918) emissiya sahəsində hər hansı bir qayda-qanun və heç bir hesabatın olmaması ilə səciyyələnirdi. Pul imkanlarının miqdarı yalnız litoqrafiyanın məhsuldarlığı ilə müəyyən edilir və bolşeviklərin mülahizələrinə görə xərclənirdi. Məhz buna görə də pul imkanlarının hər hansı təminatından söhbət gedə bilməzdi[44]. 1918-ci ilin sentyabrında Azərbaycan hökuməti axırıncı emissiyanı həyata keçirdi.

Bakının bolşeviklərdən azad edilməsi ərəfəsində Azərbaycan hökuməti Gürcüstan və Ermənistan hökumətləri ilə keçmiş Zaqafqaziya Komissarlığının bonlarının birgə buraxılması haqqında razılığa gəldilər. Güman edilirdi ki, Azərbaycanın payına düşən

bonların miqdarı ölkənin ehtiyacının ödənilməsi üçün kifayət edəcəkdir. Bakı bolşeviklərdən azad edildikdən sonra Bakı pul nişanlarının (bonların) hesabdan silinməsi haqqında təkliflərin ortaya çıxması da məhz bununla izah olunurdu. Lakin bu təklifin həyata keçirilməsi bolşevik tədbirləri ilə heç bir əlaqəsi olmayan bon sahiblərinin iflası ilə nəticələnə bilərdi. Buna görə də hökumət Bakı bonlarını dövriyyədə saxlamaqla, pul kəsilməsini davam etdirmək əzmində olduğunu bildirdi[45]. Tədavüldə 4 valyuta var idi: çar hökuməti tərəfindən kəsilmiş ("Nikolayevski" adlandırılan) rubllar, Müvəqqəti hökumətin kəsdiyi rubllar ("kerenkalar"), Tiflisdə buraxılmış Zaqafqaziya hökuməti bonları və nəhayət, Bakı bonları. Bütün bu valyutalar qanuni ödəniş vasitəsi olaraq dövriyyədə idi.

Yaranmış şəraitlə əlaqədar olaraq 1918-ci il sentyabrın 22-də hökumət Bakı bonlarının dövriyyəyə buraxılması haqqında qərar çıxardı. Qərara uyğun olaraq, 40 manat (Bakı bonu) 1 Türkiyə lirəsinə bərabər idi. Başqa pul vahidlərinin dövriyyədən çıxarılması hələ nəzərdə tutulmurdu.

Kağız pulla bağlı məsələləri daim diqqət mərkəzində saxlayan Cümhuriyyət hökumətinin verdiyi fərmanlardan 22 sentyabr tarixli birincisi Bakı bonunun dövriyyəyə daxil edilməsi, 25 sentyabr tarixli ikincisi isə 10, 25 və 50 bon nominal dəyərlərində daha 30 milyon bon-manat kəsilməsi və bu işə 150 min manatlıq kredit ayrılması haqqında idi. Tezliklə kəsilən bu pulların həqiqi nominal dəyəri məlum oldu. O vaxt İstanbulda olan M.Ə.Rəsulzadəyə göndərdiyi xüsusi sənəddə bu haqda məlumat verən baş nazir kursun 20 manat da düşdüyünü, hökumətin nəzərdə tutduğu 40 manat kursunu qoruyub saxlamağın mümkün olmadığını bildirmişdi.

Növbəti fərman 1918-ci il oktyabrın 26-da verilmişdi. Müxtəlif maliyyə işlərində yerli bonlardan istifadə edilməsi hesabına öz mövqeyini bir qədər möhkəmlədən Maliyyə Nazirliyi əlavə olaraq daha 51 min manat buraxa bilmiş və bu da, öz növbəsində, F.X.Xoyski hökumətinə dövlət qulluqçularının maaşını 10 faiz artırmağa, eləcə də xüsusi olaraq Maarif Nazirliyinin ehtiyacları üçün 22 min manat ayırmağa imkan vermişdi. Hökumətin bir sıra tədbirlərinə baxmayaraq, inflyasiya prosesini dayandırmaq mümkün olmamışdı.

Vəziyyət bir də onunla çətinləşmişdi ki, qonşu Gürcüstan Azərbaycan hökumətinə təzyiq göstərərək tələb edirdi ki, o, Zaqafqaziya bonları buraxsın. 1918-ci il oktyabrın 28-də Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Kabinetinin iclasında Gürcüstan hökumətinin xahişi ilə növbəti Zaqafqaziya bonlarının kəsilməsi haqqında məsələ müzakirə olundu. Azərbaycan hökuməti əlavə olaraq daha 80 milyon kağız pul kəsməyə razılıq verdi və bunun əvəzində tələb etdi ki, həm ona olan borclar ödənilsin, həm də bu valyutanın bir hissəsi respublikada qalsın[46]. Belə şəraitdə milli valyutanın öz xüsusi pulunun yüksək kursunu qoruyub saxlamaq çox çətin idi. Xeyli zəif iqtisadi potensiala malik olan hər iki qonşu respublika sərt maliyyə siyasəti apararaq çalışırdılar ki, ixrac etdikləri mala görə ödəniş öz milli valyutaları ilə aparılsın[47].

Lakin Azərbaycan hökuməti buna nail ola bilmədi. Hərçənd ki, o, mühüm

strateji xammala - neftə malik idi, lakin hökumət ixrac olunan maldan gələn gəliri tez-tez müxtəlif valyutalarla almaq məcburiyyətində qalırdı.

Əlbəttə ki, əsas vəzifə inflyasiyanı dayandırmaq idi, lakin iqtisadiyyatın böhranlarla müşayiət olunan o dövrkü vəziyyətində bunu etmək mümkün deyildi. 1919-cu il yanvarın əvvəllərində maliyyə naziri İ.Y.Protasyev baş nazir F.Xoyskiyə ünvanlanmış izahat məktubunda əvvəlcə, nominal dəyəri 100 manat olan bonların dövriyyəyə buraxılması və bundan sonra başqa nominalların kəsilməsi zərurətini vurğulayır və bu pul əsginaslarının saxtakarlıqdan qorunması üçün onların üzərində baş nazir və baş maliyyəçiyə məxsus imzaların həkk olunmasını təklif edirdi. Nazirin pul üzərində saxtakarlıq ehtimalı haqqındakı təşvişi təsadüfi deyildi, belə ki, saxta bon kəsilməsi və onların böyük miqdarda dövriyyədə olması məlum fakt idi.

Kağız pulla bağlı əsas məsələlərdən biri də dövriyyədəki valyutaların paralelliyi idi. O, getdikcə daha çox bon kəsməyi tələb edən Gürcüstanın daimi təzyiqi ilə müşayiət olunurdu. 1920-ci il yanvarın 27-də Azərbaycan hökuməti daha 20 milyon Zaqafqaziya bonu kəsməyə razılıq verərək, Gürcüstan qarşısında şərt qoydu ki, bu kəsilmiş bon Zaqafqaziya kağız pulu olacaq, belə ki, hər bir dövlətin dövriyyədə özünün valyutası olmalıdır. Bununla bərabər, xarici işlər naziri M.Y.Cəfərov hökumətdən əlavə olaraq daha 70 milyon Zaqafqaziya, bonu kəsməyi xahiş etmiş və fikrini onunla əsaslandırmışdı ki, 20 milyon Gürcüstan dövlətinin yalnız birgünlük xərclərini ödəyir. M.Y.Cəfərov bunu həm də siyasi motivlə əsaslandıraraq göstərmişdi ki, əks təqdirdə qonşu Gürcüstan və Ermənistan separat müqavilə bağlaya bilərlər. Az sonra, doğrudan da, belə bir müqavilə bağlandı. 1919-cu il fevralın 12-də Gürcüstan və Ermənistan 320 milyon Zaqafqaziya bonu kəsmək haqqında razılığa gəldilər[48]. Azərbaycan hökuməti bu hadisədən ciddi narahat olduğunu bildirdi. İş o yerə çatdı ki, qonşu respublikalarda Bakı bonunu qəbul etmirdilər, amma Ermənistan və Gürcüstanın pulları Azərbaycanda sərbəst işlədilirdi. Dövlətin ərazisində 4 pul vahidinin qeyri-bərabər bazar qiymətilə işlədilməsi və emissiya hüququndan həddən ziyadə istifadə edilməsi kimi qeyri-nominal vəziyyət ölkədə maliyyə iflasına səbəb ola bilərdi.

1919-cu il aprelin 14-də baş nazir N.Yusifbəyli parlamentdəki çıxışında göstərirdi ki, pul-maliyyə siyasətini düzgün qurmaq üçün pul kəsilməsi məsələsində mütləq Bakı ilə Tiflis arasındakı paralelliyi aradan qaldırmaq lazımdır. O, belə hesab edirdi ki, əgər Azərbaycan pulunun kursunu ixrac olunan malların köməyi ilə tənzimləmək mümkün olarsa, onda əlavə pul kəsməyə ehtiyac qalmayacaq. Pulun dəyərini qaldırmaq məqsədilə o, ilkin olaraq təklif edirdi ki, neftin yalnız Azərbaycan puluna satılmasına keçilsin. Əlavə olaraq qeyd edək ki, hökumət yalnız 1920-ci ilin yazında bu məsələni müəyyən qədər həll edə bildi. Azərbaycan dəmir yolları nazirinin maliyyə nazirinə məlumatında göstərilirdi ki, Maliyyə Nazirliyinin 1920-ci il 22 aprel tarixli qərarına uyğun olaraq, Batuma apanlan neft və neft məhsulları üçün gömrükdən aksiz haqqını ancaq Azərbaycan manatı ilə alırlar[49].

1919-cu ilin iyulunda Azərbaycan birjasında Cümhuriyyət valyutasının kursu xarici valyutalara münasibətdə aşağıdakı kimi idi: 1000 rubl ("kerenka") - 1850 manat; 500 rubl ("romanovka") -1600 manat; 100 rubl ("romanovka") - 350

manat; 1 funt-sterlinq -310-315 manat; 1 dollar- 250 manat; 1 frank- 8-10 manat; 1 İtaliya lirəsi - 7 manat; 1 İran tüməni - 125-130 manat; 1 Türkiyə qızıl lirəsi - 390 manat; 1 rus qızıl rublu - 420 manat; 1 Nobel aksiyası -16500 manat[50].

Lakin sonrakı dövrdə inflyasiya daha da gücləndi. Bakı bonu kursunun funt-sterlinqə nisbətdə aşağı düşməsi haqqında rəqəmlər məlumdur: 1919-cu ilin oktyabrında 1 funt - 525 manat, noyabrın əvvəlində isə 730 manat oldu[51].

Buna görə də hökumətin maliyyə siyasətində başlıca vəzifəsi emissiyanı dayandırmaqdan, dövriyyədən pulları çıxarmaq üçün başqa mənbələr və üsullar tapmaqdan ibarət idi. Parlament pul emissiyasını öz nəzarəti altına almağa cəhd göstərdi. 1919-cu ilin aprelində Maliyyə Nazirliyinin emissiya hüququnu 510 milyon manata qədər artırmaq haqqında təqdim etdiyi qanun layihəsi parlament üzvlərinin kəskin etirazına səbəb oldu[52]. Deputatların bir qismi hökumətə parlamentin icazəsi olmadan pul kəsməyi qadağan edən müvafiq qanun qəbul edilməsi təklifi ilə çıxış etdi. Bu məsələyə əvvəlcə qanun layihəsinin parlamentin müzakirəsinə çıxarılması əleyhinə çıxış edən maliyyə-büdcə komissiyasında baxıldı. Komissiya üzvləri bir məsələdə yekdil idilər ki, pullar təyinatı üzrə xərclənmir. Aylıq xərclər 135 milyon manat təşkil edirdi ki, bunun da 60 milyonu neft sənayesini maliyyələşdirməyə, 35 milyonu ingilis komandanlığına, 40 milyonu isə digər dövlət ehtiyaclarına xərclənirdi. Buna görə də xərclərin mütəmadi artması hökuməti çap dəzgahının imkanından yararlanmağa məcbur edirdi. 1919-cu il mayın 5-də keçirilən iclasda parlament tələb olunan məbləğdə pul kəsilməsinə icazə verən qanun qəbul etdi və onu da bildirdi ki, parlamentin sanksiyası olmadan əlavə kağız pul kəsmək olmaz, eyni zamanda Dövlət Bankının təşkil olunmasına baxmayaraq pul kəsilməsinin başlanılması haqqında göstəriş verdi[53]. Bundan 7 ay keçdikdən sonra hökumət parlament qarşısında təkrar emissiya (bu dəfə 600 milyon manat) haqqında məsələ qaldırdıqda aydın oldu ki, artıq parlamentin razılığı olmadan yüz milyon manat buraxılıb[34].

Sollar hökumətin maliyyə siyasətini pisləyir, "Əhrar", "İttihad" və erməni fraksiyalar da onlarla həmrəylik nümayiş etdirirdi. Parlamentin üç iclası bu məsələnin müzakirəsinə həsr olundu. Ə.Qarayev hökuməti ölkəni iflasa gətirib çıxaran pul kəsməklə məşğul olmaqda, Maliyyə Nazirliyini isə dolayı vergiləri sonsuz sayda artırmaqda günahlandırdı. Ə.Pepinovun fikrincə, 600 milyon manat üç aya bəs edəyər, bundan sonra isə hökumət yenə də pul emissiyası haqqında icazə tələbini irəli sürəcək. Onlar ticarəti inhisarlaşdırmağı yenədə alternativ siyasət kimi təklif edirdilər[55].

İttihadçılar sosialistlərin ticarəti dövlət inhisarına almaq haqqında mövqeyini müdafiə etdi. Malxazyan (erməni fraksiyası) isə xammalın ölkədən sərbəst çıxarılmasını təkid edirdi. Həm sollara, həm də sağlara etiraz edən M.Ə.Rəsulzadə əhalidəki pulun dövriyyəyə cəlb edilməsi yollarından biri kimi daxili istiqraz buraxılmasını təklif etdi[56]. Ə.Qarayevin dolayı vergilər barədə məsələ haqqında mövqeyini rədd edən M.Ə.Rəsulzadə bildirdi: "Mən Qarayevə məsləhət görürəm ki, Sovet Rusiyasının maliyyə işlərini yaxşılaşdıra biləcək bir qanun layihəsi hazırlayıb, bu zəhməti üçün onu kifayət qədər mükafatlandıra biləcək Leninə göndərsin"[57].

Dövlətin ehtiyaclarını yalnız vergilərlə ödəmək mümkün olmadığı, xarici valyutanın yoxluğu şəraitində nağd pul sadəcə olaraq çatışmırdı. Onun üçün də qeyri-istehsal xərclərini azaltmaq və yeni gəlir mənbələri axtarıb tapmaq lazım gəlirdi. Belə bir maliyyə çətinlikləri torundan çıxmaq üçün ixracın həcmini artırmaqdan savayı elə bir ümidverici çıxış yolu görünmürdü.

Müzakirələr zamanı ölkənin maliyyə vəziyyətinin sağlamlaşdırılması yolları haqqında bir sıra mülahizələr irəli sürüldü. İttihadçılar istiqraz buraxılması ideyasını rədd etməsə də, bu addımın səmərəliyini şübhə altına alırdı ki, xalq hökumətə inanmadığından onları almayacaq.

Uzun müzakirələrdən sonra, sosialistlərin və ittihadçıların onun əleyhinə olmasına baxmayaraq, 600 milyon emissiya haqqında qanun layihəsi qəbul olundu. Elə həmin iclasda parlament mütərəqqi gəlir vergisinin artırılması haqqında qanun layihəsini rədd etdi və təklif verdi ki, hökumət ticarət-sənaye müəssisələrinin, eləcə də kommersiya ilə məşğul olan ayrı-ayrı şəxslərin həqiqi gəlirinin vergiyə cəlb olunması və yaşayış minimumunun artırılması haqqında təcili olaraq qanun layihəsi təqdim etsin[58].

Lakin çox qəribə vəziyyət yaranmışdı. Bolşevizmlə mübarizə aparan Cümhuriyyət hökuməti pul nişanlarını bolşevik Xalq Təsərrüfatı Şurası üzvlərinin imzası ilə buraxmağa başlamışdı. Öz xüsusi pul nişanlarının buraxılmasının zəruriliyini yaxşı başa düşən hökumət bu məsələni yalnız bank işinin təşkili ilə sıx əlaqədə təşkil edə bilərdi. Yalnız respublikada bank sisteminin formalaşdırılmasının əsas prinsipləri müəyyənləşdirildikdən sonra emissiyanın subyekti və yeni əsginasların xarici əlamətləri ilə bağlı məsələləri həll etmək mümkün oldu.

Eyni zamanda dövlətin emissiya siyasətinin tənzimlənməsi sahəsindəki cəhdləri milli bank sisteminin yaradılması problemi ilə üzləşir, aydın olurdu ki, milli bank təsis edilməzsə, hökumət müstəqil maliyyə sistemini yarada bilməyəcək. İlk əvvəldən bu məsələdə hökumət ingilis komandanlığından müəyyən mənada asılı vəziyyətə düşmüşdü. Azərbaycana gəldikdən sonra müttəfiqlərin komandanlığı faktik olaraq bütün inzibati hakimiyyəti öz əlində cəmləşdirmiş, bir çox mühüm strateji obyektlərin maliyyələşdirilməsini milli hökumətin üzərinə qoymuşdu. Təəccüblü deyil ki, iqtisadiyyatın mühüm sahələrindən olan bank sistemi ingilis komandanlığının nəzarəti altında idi.

1919-cu il yanvarın 3-də general-mayor Tomson Dövlət Bankının Bakı şöbəsinin açıldığını bildirdi və T.V.Hevelkeni öz nümayəndəsi təyin etdi. O, öz fəaliyyətinə görə Maliyyə Nazirliyi qarşısında hesabat verməyə borclu deyildi[59]. Əsas funksiyası emissiya proseslərinə nəzarət etmək olan bank eyni zamanda yeni pul əmanətlərinin qəbulunu və kommersiya bankları ilə əməliyyatları da həyata keçirməli idi.

İngilislər ölkədə bütün iri maliyyə əməliyyatlarının aparılmasında Rusiya Bankı Bakı şöbəsinin yeganə səlahiyyətli orqan kimi qalmasını təkid edir,

alternativ layihələrlə qəti razılaşmırdılar. Müttəfiq qoşunların komandanlığının nümayəndəsi polkovnik Nyukomb öz komandanlığının fikrini ifadə edərək birbaşa demişdi ki, Paris Sülh Konfransında yeni yaranmış müstəqil dövlətlərin məsələsi həll edilənə qədər, Rusiya Bankının Bakı şöbəsi neytral müəssisə olaraq qalmalıdır. Başqa sözlə, komandanlıq Bankın gələcək tale bilavasitə Azərbaycanın müstəqilliyinin perspektivləri ilə bağlayırdı.

Lakin hökumət bu fikirlə qəti razılaşmamış, bankın müstəqil maliyyə qurumu kimi fəaliyyət göstərməsinin zəruriliyini bildirmişdi. Ölkənin mal dövriyyəsi və iqtisadi-təsərrüfat həyatını möhkəmləndirmək üçün isə hökumətin müvafiq nizamlayıcı maliyyə aparatı yalnız Dövlət Bankı ola bilərdi. 1919-cu ilin yanvarından ingilis komandanlığı ilə Azərbaycan hökuməti emissiya hüququnun məxsusluğu, daha müstəqil hökumət kursu uğrunda qızğın diskussiyalara başlamışdı.

Bu məqsədlə hökumət maliyyə və digər iqtisadi məsələlər barədə xüsusi müşavirələrin keçirilməsi praktikasını tətbiq etməyə başladı. Bu müşavirələrdə Dövlət Bankının Bakı şöbəsinin statusu, Bank, komandanlıq və hökumət arasında qarşılıqlı əlaqələrin nizamlanması ölkə iqtisadiyyatının əsas məsələlərindən biri kimi daim gündəlikdə qalırdı.

Rusiya Bankının Bakı şöbəsi, həmçinin əksəriyyəti Rusiya banklarının filialları olan özəl qısamüddətli kredit bankları öz idarə heyətləri ilə əlaqələri kəsildikdən sonra yeni əmanətlər daxil olmadığına görə öz fəaliyyətlərini məhdudlaşdırdılar. Bundan başqa, kredit müəssisələrinə inamını itirmiş əhali də bu banklara öz vəsait və əmanətlərini qoymaqdan vaz keçirdi. Birləşdirici mərkəzi orqanın olmaması ucbatından ssuda-əmanət və kredit cəmiyyətlərinin də fəaliyyəti dayanmışdı.

Müttəfiqlərin komandanlığı Rusiya Dövlət Bankının Bakı şöbəsini emissiya hüququndan məhrum edərək, ölkədəki bütün valyuta xərclərinə nəzarəti (öz xərclərinə aid maddə də daxil olmaqla) hökumətə verməli idi. Başqa sözlə, komandanlıq maliyyə vəsaitinə ehtiyac duyduğu hər bir halda, hökumətə müraciət etməli idi. Baxmayaraq ki, ingilis komandanlığı vəsaitlərin qaytarılmasına söz verirdi (özü də funt-sterlinqlərlə), onların iştahasına yaxından bələd olan hökuməti bu məsələ ciddi narahat edirdi. Məlumdur ki, yalnız bircə ay ərzində ki dəfə (9 və 12 aprel 1919-cu il) Maliyyə Nazirliyi dövlət xəzinəsindən ingilis komandanlığının ehtiyacları üçün müvafiq olaraq 5 mln manat[60] və 10 mln manat[61] vəsait ayrılması haqqında göstəriş almışdı. Sonralar bu məbləğ daha da artmışdı.

Azərbaycan hökuməti xüsusi qərarla Maliyyə Nazirliyinə müttəfiqlərin cari hesabına artıq 15 mln manat pul keçirməsini tapşırmışdı.[62] İngilislərə pul nişanlarının verilməsi bütün Cənubi Qafqazda onların kursunun möhkəmlənməsi üçün imkan yaratsa da, belə vəziyyət hökuməti qane edə bilməzdi.

Bununla belə bəzi obyektlərin (Xəzər donanmasının, avtokolon işçilərinin) maliyyələşdirilməsi məsələsində Azərbaycan hökuməti bir sıra siyasi

amilləri nəzərə alaraq prinsipiallıq göstərmiş və həmin obyektləri maliyyələşdirməkdən imtina etmişdi.

1919-cu ilin bütün yayı ərzində ali komandanlıqla hökumət arasında keçirilən müşavirə və danışıqların nəticəsində Milli bankın açılması zəruriliyini hər iki tərəf təsdiqləyib razılığa gələ bildi. İngilislərin hökumətə həmrəylik göstərməsi siyasi mülahizələrlə izah olunurdu, belə ki, Azərbaycan hökumətini ölkədə de-fakto yeganə hakimiyyət kimi tanıyaraq onun legitimliyini təsdiqləyən atributu etiraf etməsi idi. Bundan əlavə, ingilisləri bu addımı atmağa vadar edən iqtisadi problemlər də mövcud idi. Dövlət Bankının Bakı şöbəsi mövcud problemlərin öhdəsindən gələ bilmirdi. Yuxarıda qeyd edildiyi kimi, heç bir hökumət idarəsi, Bakının yerli əhalisindən heç kim şöbənin cari hesabına pul keçirməmişdi, hökumət özü isə əhalinin şöbə ilə əməkdaşlıq etməsi üçün səy göstərmirdi[63].

Hökumətin ixtiyarında kifayət qədər hazırlıqlı, işini yaxşı bilən, müxtəlif maliyyə əməliyyatlarının aparılması sahəsində təcrübə qazanmış bank işçilərinin də olması bankın açılması xeyrinə idi.

Dövlət Bankının yaradılması zərurətini bütün siyasi fraksiyalar aydın başa düşsələr də, əslində parlament daxilində bəzi qüvvələr bu qanun layihəsinin keçirilməsini hər vəchlə əngəlləyib ləngidir və məsələyə münasibətlərini də sinfi maraqlar üstündə qururdular. 1919-cu il avqustun 18-də müzakirəyə təqdim olunan qanun layihəsi 1919-cu il avqustun 23-də üçüncü oxunuşdan sonra qəbul olunmuşdu. Azərbaycan Dövlət Bankının məqsədi pul tədavülünü asanlaşdırmaq, milli ticarət, sənaye və kənd təsərrüfatına yardım habelə pul sistemini möhkəmləndirməkdən ibarət idi. İlk vaxtlar bankın əsas kapitalı 500 milyon, ehtiyat kapitalı isə 20 milyon manata bərabər idi. Əsas kapitalı yaratmaq üçün hökumət əlavə 50 milyon Azərbaycan və Zaqafqaziya kağız pulu verdi. İndi o, kağız pul kəsmək üçün müstəsna hüquqa malik idi[64].

Qanuna görə, bankın əsas vəzifəsi emissiyanı yerinə yetirmək, valyuta məsələsini tənzimləmək və özəl banklara nəzarət etməkdən ibarət idi. Banka bankirlər şurası rəhbərlik edirdi. 1919-cu il sentyabrın 18-də Dövlət Bankının nizamnaməsi təsdiqləndi və sentyabrın 30-da onun təntənəli açılışı oldu. 1919-cu il sentyabrın 1-dən fəaliyyət göstərən Gəncə bankı isə oktyabrın 25-də verilmiş qanunla Dövlət Bankının şöbəsi statusunu aldı[65].

Azərbaycan Milli Bankının tezliklə açılması ölkənin və xalqın mənafeyindən irəli gələn və vaxtı çatmış zərurət idi. Bank təkcə qısamüddətli kredit müəssisəsi olmamalı, həm də öz idarələrinin əmanət kassalarının, ssuda-əmanət və kredit cəmiyyətlərinin köməyi ilə bütün azad vəsaitlərin cəlb edilməsi yolu ilə ölkədə pul dövriyyəsini tənzimləməli, həmçinin emissiya, valyuta məsələlərinin həlli və ölkənin düzgün hesab balansının müəyyənləşdirilməsində aparıcı rol oynamalı idi.

Azərbaycan Dövlət Bankının yaradılması ilə bağlı əmanət bankları və xırda kredit şirkətləri haqqında məsələ də ortaya çıxdı. Əmanət bankları bu vaxta qədər də mövcud idi, lakin faktiki olaraq fəaliyyət göstərmirdi. 1919-cu il oktyabrın axırında parlament 12 mərkəzi və 70 yerli əmanət kassaları, 200-ə qədər xırda kredit müəssisələrinin açılması haqqında qanun layihəsi qəbul etdi.

Parlament 1920-ci il yanvarın 15-də kənddəki sahibkarlara, sənətkarlara, sənayeçilərə və onların təşkil etdikləri artellərə, şirkətlərə inventar, mal-qara, toxum almaqda yardım göstərmək və onları zəruri pul vəsaiti ilə təmin etmək üçün xırda kredit haqqında qanun və xırda kredit təsis olunması üçün qayda qəbul etmişdi.

Qanunun qəbul edilməsi ilə Rusiyanın kooperativ birlikləri və onların ittifaqları haqqında qaydalar öz qüvvəsini itirdi. Bunun əvəzində xırda kredit təsis edilirdi. Ssuda vermək və əsas kapitalı artırmaq üçün onlara dövlət xəzinəsindən iki milyon manat həcmində təxsisat ayrılmışdı[66].

Azərbaycanda bu dövrdə Dövlət Bankından başqa bir sıra özəl banklar da mövcud idi: məşhur kapitalistlər - həqiqi mülki müşavir H.Z.Tağıyev, birinci gildiyalı tacir M.Nağıyev, kommersiya müşaviri Dmitri Vasilyeviç Sirotkin, Həştərxan taciri İvan Fyodoroviç Skriptnitski və Həştərxan taciri İvan Matveyeviç Lobovun[67] təsis etdikləri Bakı Ticarət Bankı, Bakı-İran Bankı[68], Tiflis Ticarət Banvinin Bakı filialı[69], idarə heyəti Moskvada yerləşən Birləşmiş Bankın filialı və başqaları[70].

Dövlət Bankının, əmanət banklarının, xırda kredit və digər maliyyə strukturlarının təsis edilməsi maliyyə-kredit siyasətini möhkəmləndirdi, pul tədavülü üzərində nəzarəti gücləndirdi.

Lakin milli valyutanın möhkəmləndirilməsi üçün tədbirlər görülməsinə baxmayaraq, onu Azərbaycan ərazisində yeganə ödəniş vasitəsinə çevirmək mümkün olmamışdı. 1920-ci ilin əvvəlində Azərbaycan Xalq Cümhuriyyətində 269736 rubl dəyərində Ümumrusiya kredit bileti və "kerenka"lar, Zaqafqaziya Komissarlığının 104436 rubl pulu, 746836 dəyərində müxtəlif marka və nişanlar, 28564244 manatlıq Bakı bonları tədavüldə idi[71].

Azərbaycan hökuməti gömrük qanunvericiliyinin yaradılması sahəsində də bir sıra real addımlar atmışdı. Özünün mövcudluğu ərzində parlament gömrük sahəsində 20-dək qanun qəbul etmişdi. Nəticədə 1920-ci ilin əvvəlində respublikada formalaşmış dövlət gömrük xidməti mövcud idi. Bu qanunlara görə, bir sıra sərhəd məntəqələrində gömrük postları təşkil etmək nəzərdə tutulurdu. Parlamentin qərarı ilə 1919-cu il martın 27-də gömrük idarəsi yenidən quruldu. 1919-cu il 23 iyun qanunu ilə Maliyyə Nazirliyinin nəzdində gömrük rüsumu şöbəsi təşkil edildi. Bu şöbə gömrük rüsumunu tənzimləməli idi[72].

Dəfələrlə idxal və ixrac edilən mallar üçün yeni qayda və tariflər müəyyən edən qanunlar qəbul olunmuşdu. Hökumət "Gömrük sərhəd xidmətinin təşkil edilməsi haqqında" Qanun qəbul etmişdi. Bu qanunda, Azərbaycan Xalq Cümhuriyyətini qeyri-leqal ticarətdən qorumaq və qaçaqmalçılıqla mübarizə məqsədilə, Azərbaycanın sərhədlərində gömrük işlərində etibar edilə biləcək yerli əhalidən öz silah və atı ilə ştatdankənar xidmətçi kimi 992 keşikçidən ibarət 99 sərhəd postu qurulması nəzərdə tutulurdu. Bu sərhəd xidmətinin təşkilinə rəhbərlik etmək və onun fəaliyyətini dövlət gömrük idarəsi ilə uzlaşdırmaq üçün, mərkəzi orqan kimi, Maliyyə Nazirliyində xüsusi sərhəd keşiyi şöbəsi təsis edilmişdi. Qanun sərhəd

dəstələrinin ştat və smetasını da müəyyənləşdirmişdi[73].

AXC-nin iqtisadi tədbirləri sırasında ən əhəmiyyətlisindən də qonşu və xarici dövlətlərlə iqtisadi əlaqə yaratmaqdan ibarət idi. Bu sahədə AXC hökuməti təkcə qanun layihələri hazırlamaqla kifayətlənməyib, dünyanın bir sıra ölkələri, o cümlədən 1918 iyunun 4-də Türkiyə, 1919-cu il mayın 23-də İran, İngiltərə, Amerika, Fransa, İtaliya, Gürcüstan, Ermənistan, Dağıstan, Orta Asiya dövlətləri ilə iqtisadi əlaqə yaratmağa nail olmuşdu[74]. Bəzi dövlətlərlə ticarət müqaviləsi bağlanmış, bəziləri ilə isə şifahi razılıq edilmişdi.

1919-cu il aprelin 14-də parlamentin növbəti iclasında baş nazir ölkənin ağır iqtisadi vəziyyətini təhlil edərək göstərmişdi ki, bizim keçirdiyimiz ağır həyat şəraiti ölkəmizin qeyri-normal ticarət s sətindən irəli gəlir. Ona görə də Azərbaycanın qonşu və xarici dövlətlərlə ticarət əlaqələrinin bərpası zəruridir. Bizim ölkənin (Azərbaycanın) müvəffəqiyyətləri və sərvəti, neft və onun inkişafı xarici ticarət əlaqələrindən çox asılıdır[75].

Xarici dövlətlərlə iqtisadi və ticarət əlaqələri yaratmaq üçün Ticarət və Sənaye Nazirliyi bir sıra tədbirlər görmüşdü. Azərbaycan Xalq Cümhuriyyətinin ticarət və sənaye Nazirliyinin əməkdaşı L.Pokrovski yazırdı ki, Azərbaycan sənayesinin inkişafı ona nəinki qonşu dövlətlərlə, hətta iqtisadi cəhətdən qüvvətli dövlətlərlə ticarət və iqtisadi əlaqələrini genişləndirməyə imkan verir. Bu öz növbəsində, Azərbaycana kapital axınına və həm də burada xoş həyat tərzi yaratmağa imkan verər[76].

Azərbaycanın xarici ölkələrlə iqtisadi və ticarət əlaqələrinin genişlənməsinin zəruriliyi haqqında məşhur milyonçu H.Z.Tağıyevin də fikirləri maraqlıdır. H.Z.Tağıyev baş nazir N.Yusifbəyliyə yazdığı müraciətində dövlətin maliyyə və sənaye-ticarət sahəsindəki siyasətində qəti dönüş yaratmağı təkid etmişdi[77].

H.Z.Tağıyev o dövrdə Azərbaycan manatının kursunun aşağı düşməsinin səbəblərini araşdırmağı, bununla əlaqədar olaraq Qərbi Avropa bazarlarında milli manatın hətta 2 qəpikdən də aşağı olmasına diqqət yetirməyi dövlətin əsas vəzifəsi olduğunu, manatın kursunun aşağı düşməsinin bir sıra səbəblərini dövlətin xarici ticarət üzərində nəzarətsizliyində, maliyyə siyasətinin düzgün aparılmamasında görürdü. H.Z.Tağıyev, dövlətin xarici iqtisadi siyasətini kəskin tənqid edərək yazırdı ki, Azərbaycan mallarının xaricə ixracı qadağan edildiyinə görə, Azərbaycan valyutası xaricdə lazımsız olub. Xarici kapital da onunla əlaqə saxlamaqda maraqlı deyil[78]. Doğrudan da 1919-cu ildə Azərbaycan parlamenti maliyyə nazirinin təklifi ilə xaricə mal ixracatı, xüsusilə mazut və xam neftin ixracı üzərinə ikiqat aksiz vergisi qoymaq haqqında qanun qəbul etmişdi[79]. Bu da həm Avropa və həmdə rus kapitalistlərinin mənafeyinə toxunurdu.

Azərbaycanın xarici iqtisadi ticarət fəaliyyətinin sağlamlaşdırılması tədbirləri AXC parlamentinin 1919-cu il 24 noyabr tarixli iclasında geniş müzakirə olunarkən müxtəlif və bir-birinə zidd fikirlər irəli sürülmüşdü. Ə.C.Pepinov xaricə

ixrac olunan bəzi əmtəələrin, xüsusən taxıl, pambıq, yun və s. ticarətini inhisarlaşdırmağı, bir başqası isə həmin əmtəələrin azad ticarətinin genişləndirilməsini irəli sürürdü. M.Ə.Rəsulzadə ölkədə zəruri tələbat mallarına ehtiyacı ödəyəcək ticarətə keçməyi irəli sürürdü, inhisarlaşdırma üçün isə hələlik kifayət qədər təlimat və qaydaların yox olduğunu qeyd edirdi[80]. 1919-cu il aprelin 14-də parlamentin iclasında N.Yusifbəyli də öz çıxışında göstərmişdi ki, ölkənin neft istehlakçısından məhrum olması Azərbaycan iqtisadiyyatını ağır vəziyyətə salır. Odur ki, Azərbaycan neftinin ən mühüm istehlakçısı olan Rusiya ilə iqtisadi əlaqələrin bərpası günün vacib məsələsidir[81].

Hökumət və parlament iqtisadiyyatdakı ağır vəziyyətdən əsas yollarından biri kimi qonşu ölkələrlə, ilk növbədə, istehsal olunan neftin əsas hissəsinin daxil olduğu Sovet Rusiyası ilə xarici ticarət əlaqələrini yaxşılaşdırmaqda görürdü. Bu ölkələrlə əlaqələrin pozulması ona gətirib çıxarmışdı ki, Bakının anbarlarında milyonlarla ton strateji xammal yığılıb qalmışdı.

Rusiyanın Azərbaycanın müstəqilliyini tanımaq istəməməsinə baxmayaraq, Sovet Rusiyası ilə Azərbaycan hökuməti arasında ticarət haqqında danışıqlar aparılırdı. Bu danışıqlar nəticəsində 1920-ci il martın 30-da Sovet Rusiyası ilə Azərbaycan Respublikası arasında ticarət müqaviləsi imzalandı. Qeyd etmək lazımdır ki, Rusiya ilə Azərbaycan hökuməti arasında hələ ticarət müqaviləsi bağlanmamışdan əvvəl Bakı və Həştərxan bolşevikləri dövlətdən gizli yolla Rusiyaya neft və neft məhsulları axıdırdılar. Bakı və Rusiya arasında dəmir yolu əlaqəsi kəsildiyi üçün yeganə ticarət yolu Xəzər dənizi idi. 1918-ci ilin naviqasiyasının açıldığı gündən iyulun 30-dək Bakıdan Həştərxana 3948 pud neft məhsulları göndərilmişdi[82]. Bu cür talançılığın qarşısını almaq üçün Azərbaycan hökuməti neft məhsulların istehsalı və daşınması üzərində 1919-cu il 26 may tarixli qərarı ilə ciddi nəzarət yaratdı. Qərara əsasən dənizlə Həştərxana olan yol bağlanmışdı[83]. Əlbəttə, bu, Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadiyyatı üçün heç də əlverişli deyildi.

Məlumdur ki, keçən əsrin 90-cı illərindən başlayaraq Rusiya imperiyasında istehsal olunan neftin ümumi həcminin 85 faizi Bakının payına düşmüşdü, bu isə dünya neft istehsalının təxminən yarısını təşkil edirdi. Birinci dünya müharibəsinin ilk dörd ili ərzində, yəni 1914-cü ildən 1917-ci ilə qədər Bakı ildə 7 milyon ton neft istehsal etmişdi ki, bu da dünyada həmin vaxt istehsal olunan neftin ümumi həcminin 75 faizinə bərabər idi. Müharibə edən bütün ölkələrin Bakı regionuna qızğın marağı da buradan irəli gəlirdi.

1918-ci ilin yazında Bakı XKS Rusiyanın mənafeyinin müdafiəçisi kimi çıxış edərək, özünün 4 aylıq hakimiyyəti ərzində Bakıdan Sovet Rusiyasına 1,3 milyon ton pulsuz neft göndərmişdi. Birinci I Dünya müharibəsinin sonlarında Bakının əldən-ələ keçməsi nəticəsində neft sənayesi ciddi itkilərə məruz qalmış, neft hasilatı xeyli azalmışdı. 1918-ci və 1919-cu illərdə müvafiq olaraq hasil olunan 3376 min ton və 3690 min ton neftin ümumi həcmi 1916-cı il hasilatının yalnız yarısına bərabər idi[84].

Neft sənayesini böhrandan çıxarmağa çalışan Azərbaycan Xalq Cümhuriyyəti hökuməti yarandığı ilk gündən bu sahədə konkret addımlar müəyyənləşdirdi. Azərbaycan

parlamenti neft istehsalı ve satışını öz nəzarətinə aldı, bununla bağlı olaraq dəfələrlə hökumətin məruzələrini dinlədi, neft sənayesinin rentabelliyinin yüksəlməsinə yardım edən bir sıra qanunverici sənədlər qəbul etdi.

Bu məqsədlə müxtəlif idarələrdə neft məhsulları ilə bağlı sui-istifadə və cinayətləri təhqiq etmək üçün xüsusi təftiş-istintaq komissiyası təsis olunmuşdu. 1919-cu il iyulun 27-də qəbul olunmuş qanunla həmin komissiyaya bütün hökumət müəssisələri, vəzifəli şəxslər və ictimai təşkilatlardan istənilən zəruri məlumatları almaq; hər bir şəxsin çağırılan zaman gəlməsini təmin etmək; hər bir şəxsə qarşı cinayət təhqiqatı qaldırmaq; poçt-teleqraf yazışmasına baxış və onları zəbt etmək; istintaq müddəti vəzifədən kənar etmək hüquqları verilirdi. Bütün bunlar həmin məsələlərin hökumət üçün strateji əhəmiyyət daşıdığını təsdiq edir. Vaxtilə Bakı Şura Komissarlığı Sovet Rusiyasının arzusu naminə neft sənayesinin milliləşdirilməsini elan etmişdi. Buna görə milli hökumətin ilk zəruri addımı 1918-ci il oktyabrın 6-da neft sənayesi müəssisələrini öz sahiblərinə qaytarmaq haqqında qərar verməsi oldu. 1918-ci il oktyabrın 7-də hökumətin neft mədənləri və zavodlarını, Xəzər ticarət donanması gəmilərini sahibkarlara qaytarmağı nəzərdə tutan dekreti nəşr olundu və neft sənayesində xüsusi mülkiyyət prinsipi bərpa edildi[85]. Belə bir tədbir ondan irəli gəlmişdi ki, milliləşdirmə nəticəsində neft sənayesində olan kəskin böhran elektrik enerjisi hasilatına, dəmir yol və dəniz nəqliyyatına, maşınqayırma və metal emalı müəssisələrinə, demək olar ki, bütün sənaye sahələrinin işinə mənfi təsir göstərmişdi. Səkkiz saatlıq iş günü, müştərək müqavilə və "istehsal üzərində fəhlə nəzarəti" ləğv edildi.

Neft Azərbaycanda ixracatın əsas mənbəyi olduğundan hökumət onunla əlaqədar iqtisadi əlaqələri bərpa etməyə çalışırdı. Rusiya bazarı respublika üçün məlum səbəblərə görə itirildiyindən bütün diqqəti Azərbaycanın dünya bazarına neft ixracına imkan verən Bakı-Batum neft kəmərindən istifadə etməyə yönəltmək lazım idi. Bu kəmərin taleyi çox mürəkkəb idi. Onun tikintisinə hələ XIX əsrin sonlarında- 1897-ci ildə başlanmış, 1907-ci ilin iyulunda isə başa çatdırılmışdı. Ümumi uzunluğu 830 km olan neft kəməri Zaqafqaziya Dəmir yolu boyunca uzanıb gedirdi.

1917-1918-ci illərdə neft kəməri üzərində iş aparılması haqqında olan müxtəlif məlumatlar mahiyyət etibarı ilə məhz həmin neft kəməri ilə bağlı idi. Məlumdur ki, Bakı neft sənayeçiləri onun məhz neft kəməri kimi inşa edilməsinə lap başlanğıcda etiraz etmişdilər. Uzun və gərgin mübarizədən sonra Zaqafqaziya Dəmir Yolu İdarəsinə Bakı - Batum magistral boru xəttini yol boyu inşa etməyə icazə verilmişdi. Amma bu dəfə kəmərlə ağ neftin nəqli nəzərdə tutulduğundan onun inşasına neft sənayeçiləri etiraz etmədilər. Çünki bu halda Bakı neft emalı zavodları sahiblərinə Qara dəniz sahillərində rəqiblər meydana gəlməsi təhlükəsi sovuşur, Bakının mövqeyi neft emalı sənayesi mərkəzi kimi möhkəmlənirdi.

Təəssüf ki, sonralar, məhz 1917-ci il iyulun 1-də ağ neft kəməri qara neft kəmərinə çevrildi[86]. Azərbaycanın müstəqilliyi elan olunduğu məqamda neft kəməri

işləmirdi Bakı-Batum marşrutu ilə neftin ötürülməsi yalnız 1918-ci il dekabrın 12-də bərpa olundu. Bunun ardınca 1918-ci il dekabrın 26-da Azərbaycan və Gürcüstan respublikaları arasında "Azərbaycan dəmir yolunun Zəyəm stansiyasından Gürcüstan dəmir yolunun Saloğlu stansiyasınadək neft ötürülməsinin müvəqqəti qaydaları" haqqında tranzit müqaviləsi bağlandı. Neft Sənayeçiləri İttifaqı yanında neft kəmərinin ehtiyatı üçün firmalar arasında neftin pay bölgüsü siyahısını müəyyən edən xüsusi şura mövcud idi. Neft sənayesi işlərinin bərpa olunduğu dövrdə Azərbaycanda Bakı, Biləcəri, Hacıqabul, Yevlax, Dalmalıoğlu, Gəncə, Şamaxı və Ağstafada yerləşən 25 anbar var idi[87].

Neft əsasən Bakı-Batum kəməri ilə nəql edilirdi.

Azərbaycan ilə Türkiyə arasında bağlanmış müqaviləyə görə, Azərbaycan Türkiyəyə neft və neft məhsulları göndərməyi öz öhdəsinə götürmüşdü. Lakin Türkiyəyə göndəriləcək neft Batumdan keçdiyi üçün Gürcüstan hökumətinin razılığı lazım idi. Azərbaycan və Gürcüstan arasında razılaşmadan sonra Gürcüstan hökuməti Bakıdan Türkiyəyə göndərilən neft və neft məhsullarının 1918-ci ilin oktyabr ayından Batum vasitəsilə Aleksandropola ötürülməsinə rəsmi icazə verdi[88].

Paris Sülh Konfransında Azərbaycan nümayəndələrinin səyi nəticəsində Almaniya ilə iqtisadi əlaqə yaratmaq mümkün olmuşdu. Belə ki, Azərbaycan nümayəndələri Almaniya nümayəndələri ilə hər iki dövlət arasında iqtisadi, ticarət əlaqələri yaratmaq haqqında şifahi razılıq əldə etmişdilər[89].

Almaniya nümayəndələri ölkələrinin Azərbaycanla iqtisadi əlaqələr yaratmağa maraqlı olduğunu bildirmişdilər. 1918-ci il oktyabr ayının əvvəlində Almaniya bu məqsədlə öz nümayəndələrini Azərbaycana göndərmişdi[90].

Paris Sülh Konfransında Azərbaycan nümayəndələri Amerika, İtaliya, Fransanın nümayəndələri ilə də Azərbaycanın həmin ölkələrlə iqtisadi əməkdaşlıq etmək imkanını müzakirə etmişdilər.

Azərbaycan nümayəndəsi M.T.Hacınski 1919-cu il iyunun 19-da ABŞ və Fransa nümayəndələri ilə belə bir şifahi razılaşma əldə etmişdi ki, o ölkələrdən Azərbaycana manufaktura, ayaqqabı və s. gündəlik tələbat malları gətirilsin. Azərbaycanla ticarət əlaqəsi yaratmaq haqqında Fransanın xarici işlər naziri cənab Pişo da öz müsbət rəyini söyləmişdi[91].

1920-ci ilin yanvarında Azərbaycan hökuməti ilə ABŞ arasında ticarət müqaviləsi bağlanması haqqında razılaşma əldə edilmişdi. Bağlanması nəzərdə tutulan bu ticarət müqaviləsinə əsasən, Azərbaycan Batum vasitəsilə oraya neft və neft məhsulları göndərməli, əvəzində isə oradan ərzaq məhsulları almalı idi[92]. 1920-ci ilin yanvarında Amerika ilə bağlanan müqaviləyə görə, hər həftə Azərbaycan oraya 1500 ton mazut göndərməli idi[93].

Azərbaycan hökumətinin İngiltərə ilə iqtisadi əlaqələrinə gəldikdə isə demək lazımdır ki, o zamankı çox mürəkkəb bir siyasi şəraitdə Azərbaycanı bir çox dövlətlər və o cümlədən ingilislər özlərindən asılı vəziyyətə salmağa çalışırdı. 1919-cu il noyabrın 17-də "Bakı və onun neft mədənlərini işğal etmək"[94] niyyəti ilə general Tomsonun başçılığı ilə ingilis qoşunları Bakıya daxil oldu.

İngilis komandanlığı burada ticarət, sənaye, nəqliyyat və s. üzərində bir sıra məhdudiyyətlər qoysa da, Azərbaycan hökumətinin qəti etirazı və tələbi ilə Azərbaycan polisi, su nəqliyyatı və neft sənayesi, maliyyə idarələri və s. üzərində qoyulan bu məhdudiyyətlər ləğv olundu. M.Ə.Rəsulzadə yazırdı ki, bu dəyişiklik ingilislərin buradakı həm siyasi və həm də iqtisadi mənafeləri ilə bağlı idi. Neftin müstəqil Azərbaycan dövləti əlində olması, ümumiyyətlə, Azərbaycanın Rusiyadan ayrılması ingilislərin xeyrinə idi[95].

Azərbaycan hökuməti ilə İngiltərə arasında 1919-cu il 23 may tarixli razılaşmaya görə, Azərbaycandan İngiltərəyə aparılan mallar rüsumsuz, icazəsiz aparılmalı idi[96]. Bu qərara əsasən Azərbaycandan İngiltərəyə Batum vasitəsilə 450000 pud mazut, 150 min pud neft, 75000 pud benzin aparılmasına icazə verilmişdi[97]. Təkcə 1919-cu il iyunun 30-da Bakıdan Batum vasitəsilə İngiltərəyə 10 vaqon benzin, 2 vaqon isə müxtəlif mallar göndərilmişdi[98].

Onu da göstərmək lazımdır ki, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti dövründə ölkənin neft ticarətində xarici şirkətlərin rolu müəyyən qədər saxlanılmışdı. Məsələn, Azərbaycanın ticarət palatası neftin satışı və qiyməti haqqında müstəqil hərəkət edə bilmirdi. Bakıdan Batuma göndərilən ağ neftin satışı və qiyməti ingilis kampaniyası Şell, Şibayev, "Oleum neft cəmiyyəti" və s. əlində idi. Bunlar təkcə bir ay ərzində milyonlarla pud ağ neft ixrac etmişdilər. Mazut ixracı da ingilis komandanlığının əlində cəmlənmişdi[99].

Xammalın, ilk növbədə neft məhsullarının ixracına qoyulan qadağaların götürülməsinə kəskin ehtiyac yaranmışdı. 1919-cu ilin dekabrında parlament bu məsələni özünün ilk iclasında müzakirədən keçirərək, "Azərbaycan Cümhuriyyəti ərazisindən xammalın ixracı şərtləri haqqında" Qanun layihəsini qəbul etdi.

Parlamentin özündə bu məsələyə ikili münasibət mövcud idi. Azad ticarət tərəfdarları ixraca qoyulmuş bütün qadağaların götürülməsində israrlı idilər. Belə olduqda ölkə daxilində mal qıtlığı yarana bilərdi. Ticarət azadlığı verilməsinin ilk nəticələri doğrudanda acınacaqlı oldu: ixrac olunan malların taxıl, pambıq və s. əvəzində Azərbaycan bazarı heç bir dəyəri olmayan kağız pulla dolduruldu.

Sosialist fraksiyasının bir hissəsi və ittihadçılar ticarət üzərində dövlət inhisarı ideyasını müdafiə edirdilər. Bu qərarın qəbul olunması da ağır nəticələr verə, istehsalı stimullaşdırmadığına görə sənaye və ticarətin tənəzzülünə səbəb ola bilərdi.

Nəticədə parlament azad ticarətlə dövlət ticarəti arasında aralıq mövqeyi nəzərdə tutan daha optimal bir qərar qəbul etdi. İxracatçı malın dəyərinin yarısını xarici valyuta ilə ödəməli idi. 1919-cuil dekabrın 11-də qəbul olunmuş qanunla siyahısı ciddi müəyyənləşdirilmiş malların (əsasən kənd təsərrüfatı məhsulları və neft məhsullarının) sərbəst ixracına icazə verildi. Aparılan mallardan dövlət xəzinəsinə 95 faiz rüsum ödənilməsi də müəyyən edildi[100].

Neft və neft məhsulları Azərbaycan sənayesinin əsas özəyini təşkil edirdi. İqtisadiyyat, hər şeydən əvvəl, məhz neft məsələsində siyasət ilə, özü də dünya siyasəti ilə bağlı idi.

Azərbaycan Xalq Cümhuriyyəti qonşu Gürcüstan ilə də iqtisadi əlaqə yaratmışdı. Uzun danışıqlardan sonra hər iki ölkə arasında 1919-cu ilin iyul ayında ticarət və nəqliyyat müqaviləsi bağlanmışdı[101]. Bu müqaviləyə əsasən, Gürcüstan Batum vasitəsilə Bakı neftinin xaricə ixracına imkan yaratmalı idi. Batum ticarət yolunun açılması haqqında danışıqlar uzun çəksə də, müsbət nəticələndi[102]. Gürcüstan ilə Azərbaycan hökuməti arasında ticarət və nəqliyyat müqaviləsinə əsasən, Azərbaycandan tranzit yolla xarici ölkələrə mal aparılmasına tam sərbəstlik verilirdi. Gürcüstan ilə Azərbaycan arasında bu müqavilə imzalanmamışdan əvvəl 1918-ci ildə neft kəmərinin texniki müqaviləsi imzalanmışdı, həmin müqaviləyə görə, Bakı nefti bu kəmər vasitəsilə bir sıra xarici ölkələrə axıdılırdı. Belə ki, 1918-ci ilin təkcə oktyabr ayından hər gün Gürcüstana 3 sistern neft və 2 sistern ağ neft göndərilməsi qərarlaşdırılmışdı[103]. Sonradan bu norma 20 sisternə qədər artırılmışdı[104].

Gürcüstanla Azərbaycan arasında tranzit müqaviləsinin imzalanmasının hər iki dövlətin həyatında həm siyasi, həm də böyük iqtisadi əhəmiyyəti var idi. Neftlə zəngin Azərbaycana birinci növbədə əhalinin ilkin zəruri ərzaq məhsulları və kağız pula tələbatını təmin etmək lazım idi. Buna görə də hökumət nefti ərzağa dəyişdirməyi qərara aldı. Azərbaycan Gürcüstandan neftin əvəzinə puldan başqa, odun kömürü, lobya, kələm, şəkər, habelə avtomobil şinləri alırdı. Gürcüstan Azərbaycanı kifayət qədər şəkər və taxılla təmin edə bilmədiyi üçün hökumət Ukraynaya müraciət etmiş, amma bu dəfə də Gürcüstanın ərazisindən Qara dənizədək tranzit kimi istifadə olunmuşdu[105]. Eyni səbəbdən Azərbaycanla İtaliya arasında da ticarət münasibətləri meydana gəlməyə başladı. İtaliyadan hərbi və iqtisadi yardım almaq, əvəzində isə oraya neft məhsulları və s. göndərilməsi haqqında İtaliya missiyasının rəhbəri polkovnik Qabbe ilə general N. Yusifbəyli intensiv danışıqlar aparmışdı. İtaliya ilə Azərbaycan dövləti arasında mal mübadiləsi haqqında müqavilə bağlanması üçün həmin malların qiymətinin müəyyən olması haqqında da danışıqlar gedirdi[106]. Polkovnik Qabbe belə bir fikirdə idi ki, əgər Bakıdan İtaliyaya 1000 ton neft göndərilərsə, deməli, Azərbaycan ilə İtaliya arasında faktiki olaraq iqtisadi əlaqələr yaranmış olar[107]. Polkovnik Qabbe onu da qeyd etməyi lazım bilmişdi ki, amerikalılar və ingilislər öz mənafelərini üstün tutaraq, Azərbaycanın başqa ölkələrə neft göndərməsinə mane olurlar[108].

1919-cu il dekabrın 1-də N.Yusifbəyli İtaliyaya göndərdiyi məktubunda Batum vasitəsilə oraya 590000 pud ağ neft, 660000 puda yaxın mazut göndərməyi qərara aldığını bildirirdi. Hər bir ton neftin qiyməti 35 dollar, mazutun tonu isə 25 dollar idi[109]. 1920-ci ilin əvvəllərində Bakı-Tiflis dəmir yolu vasitəsilə və sonra Qara dənizə çıxmaqla barter sövdələrinin həyata keçirilməsinə başlandı. İtaliya Azərbaycana manufaktura malları, ayaqqabı və s. gündəlik tələbat malları göndərib əvəzində xam neft və neft məhsulları alırdı[110].

Tranzit müqaviləsinə qayıdaraq qeyd etmək lazımdır ki, o, Gürcüstan üçün əlverişli şərtlərlə bağlanmışdı. Belə ki, Gürcüstan ərazisindən Qara dənizədək tranzit kimi istifadə edildiyindən, müqaviləyə əsasən, neftin bir hissəsini qonşu dövlət müftə alırdı. Neft kəməri ilə Qafqazdakı Britaniya komandanlığına da neft

verilirdi. Yalnız 1918-ci il oktyabrın 1-dən 1919-cu il aprelin 1-dək Bakı stansiyalarından Saloğlu stansiyasınadək (Gürcüstan ərazisi) 6168000 pud neft ötürülmüşdü. Bunun 3.220.754 pudu ingilis komandanlığına, 281160 pudu isə Gürcüstan hökumətinə göndərilmişdi[111]. Neft kəmərinin fəaliyyətinin bərpa edilməsindən sonra isə, yəni 1918-d dekabrın 12-dən 1919-cu il aprelin 1-dək Gürcüstan dəmir yoluna 3882808 pud neft verilmişdi[112]. Bu vaxtadək alınmış neftə görə Gürcüstanın Azərbaycana borcu 15940364 rubl 44 qəpiyə çatmışdı[113].

Qara neftin kəmərlə nəqli sərfəli gəlir mənbəyi deyildi. Neft Sənayeçiləri İttifaqı Şurasının tələbi və ingilis komandanlığı nümayəndələrinin iştirakı ilə 1919-cu il mayın 20-də Şuranın iclası oldu. Orada neft kəmərinin ilkin funksiyasına, yəni ağ neftin nəql edilməsində istifadə olunmasına qaytarılması məsələsi xüsusi olaraq müzakirəyə qoyuldu. Bu, kifayət qədər də xam neft olmasını tələb edən çox mürəkkəb bir texniki proses idi. 1919-cu il mayın ortalarında Azərbaycanın anbarlarında 15 milyon pud ağ neft, ağ neft emal etmək üçün isə 70 milyon pud xam neft ehtiyatı var idi"[114]. Bu kəmərlə ağ neft ötürülməsi işlərinin bərpa olunması üçün real imkanların mövcudluğu demək idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğu müddətində bu layihəni axıradək başa çatdırmaq mümkün olmadı. Hətta əksinə, bütün neft sənayesində tənəzzül baş vermişdi. Əgər 1913-cu il göstəricilərini 100% qəbul etsək, onda 192 ilin rəqəmləri müharibədən əvvəlki rəqəmlərlə müqayisədə belə, quyu qazılması 3,49%, neft hasilatı 39,18%, neft emalı - 35,54%[115].

M.Ə.Rəsulzadə yazırdı ki, bir sıra sosial-iqtisadi nailiyyətlərdən sonra, Azərbaycan həyat qabiliyyətini yalnız öz içində deyil, xaricdə də hiss etdirdi. Az keçmədi ki, Avropanın, Amerikanın elçiləri Azərbaycanın paytaxtını ziyarət edərək onu tanıdıqlarını və onunla hər növ mədəni və ticarət əlaqəsinə girmək istədiklərini bildirdilər[116].

Azərbaycan hökuməti zəhmətkeşlərin sosial vəziyyətinə, yarandığı ilk günlərdən, diqqət yetirməyə çalışırdı. İstehsalın tənəzzülü, neft sənayesinin böhranı, ərzaq məhsullarının bahalaşması, əmək haqqının aşağı olması fəhlə və qulluqçuların onsuz da ağır olan vəziyyətini daha da ağırlaşdırırdı.

Sosial problemlərin köklü şəkildə həll olunmaması hökumət böhranlarına gətirib çıxarır, siyasi qüvvələr arasındakı ixtilafların daha da dərinləşməsinə şərait yaradırdı.

Azərbaycan hökumətinin sosial siyasəti əsasən aşağıdakı istiqamətlərdə aparılırdı: 1.Fəhlə və dövlət qulluqçularının, ümumiyyətlə zəhmətkeş əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması; 2. Sahibkarlar və fəhlələr arasındakı münaqişələrin həll edilməsi; 3.Fəhlə qanunvericiliyinin hazırlanması; 4. Sosial təminat sahəsinin inkişafı, ilk növbədə pensiya və sığorta siyasətinin əsaslı surətdə formalaşdırılması; 5. Sosial problemlərin həlli və tənzimlənməsi istiqamətində müxtəlif siyasi qüvvələrlə əməkdaşlığa nail olunması, xüsusi olaraq sahibkarlar və fəhlələrin maraqlarını ifadə edən təşkilatlarla, həmkarlar ittifaqları ilə müvafiq birgə fəaliyyətin əlaqələndirilməsi.

Sosial problemlərin, ən başlıcası isə fəhlə məsələsinin tənzimlənməsi ilə həm parlamentin fəhlə komissiyası, həm də Əmək Nazirliyi məşğul olurdu. Əmək Nazirliyinin fəaliyyəti digər hökumət idarələri ilə yanaşı, 1918-ci il oktyabrın 12-

də Ticarət və Sənaye Nazirliyi nəzdində təsis edilən Bakı quberniyası Fabrik Müfəttişliyi[117] və Əmək Nazirliyinə tabe olan və Bakının 8 rayonunu əhatə edən Əmək Müfəttişliyi (5 avqust 1919-cu ildə yaradıldılar)[118] və Baş Əmək Müfəttişinin köməyi ilə həyata keçirilirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin Əmək Nazirliyi 1919-cu il yanvarın 21-dən fəaliyyət göstərməyə başladı[119]. Sosialistlərin nümayəndəsi Aslan bəy Səfikürdski əmək naziri təyin edildi.

1919-cu il 8 yanvar tarixli parlament iclasında "Müsavat" fraksiyasının adından çıxış edən A.Kazımzadə Bakı rayonu fəhlələrinin maddi və mənəvi ehtiyaclarının ödənilməsi istiqamətində həyata keçirilmiş tədbirlər barədə əmək nazirinə sorğu verdi[120]. Fəhlələrin ağır vəziyyətdə yaşamalarını etiraf edən nazir yaxın vaxtda hökumət tərəfindən bu məsələnin həlli məqsədilə mühüm addımların atılacağını vəd etdi[121].

Əmək haqqının artırılması ilə əlaqədar keçirilən müşavirədə 1919-cu il yanvarın 1 -dən etibarən əmək haqqı ilə yanaşı, ayda 360 manat məbləğində ailəli vətəndaşlara və 120 manat ailəsiz vətəndaşlara əlavə pul vəsaitinin verilməsi haqqında qərar çıxarıldı[122]. Bundan sonra Əmək Nazirliyi mədən və fabriklərdə əmək mühafizəsinin təmin edilməsi barədə qərar çıxardı[123]. O, sahibkarlardan əməyin düzgün təşkil olunmasına diqqət yetirmələrini tələb etdi. Sahibkarlara tapşırıldı ki, onlar hələ də qüvvədə olan Fabrik-mədən Müfəttişliyi haqqında 1913-cü il tarixli Əsasnaməni rəhbər tutaraq, bir həftə ərzində müəssisələrdə fəhlə əməyi ilə bağlı məsələlərə nəzarət edən şəxslər barədə məlumatları Bakı quberniyası Fabrik Müfəttişliyinin Baş İdarəsinə çatdırsınlar. Bundan əlavə, sənayeçilərdən bir aylıq müddətdə fəhlələrin əmək şəraitini qaydaya salmaq tələb olunurdu[124].

Bir az sonra Əmək Nazirliyi tərəfindən, bəzi düzəlişlər istisna olunmaqla, kollektiv müqavilə bərpa edildi. Hökumət həmçinin neft sənayesinin böhrandan çıxması üçün maliyyə vəsaitləri ayırır, onların müəyyən hissəsi də fəhlələrin əmək haqlarının ödənilməsinə xərclənirdi[125].

Sahibkarlar və fəhlələr arasında ciddi münaqişələr yarandıqda, həmçinin tətillərin aradan qaldırılması və kollektiv müqavilələrin hazırlanması məqsədilə barışdırıcı komissiyalar təşkil edilirdi. Əmək Nazirliyinin məlumatına görə, 1919-cu il yanvarın 1-dən oktyabrın 15-nə qədərki dövrdə bu idarəyə daxil olmuş 1537 şikayətdən 928-i fəhlələrin xeyrinə həll edilmiş, 456-sı isə öz həllini tapmamışdı[126].

Əmək Nazirliyinin tələbi ilə, parlament 1919-cu il martın 19-da nazirliyin nəzdində Fəhlə məsələsi üzrə Xüsusi Məşvərət Şurasının yaradılması haqqında qanun qəbul etdi. Beş nəfər fəhlə və beş nəfər də sahibkar olmaqla on nəfərdən ibarət həmin qurum əməyin mühafizəsi, fəhlə və sahibkarlar arasındakı münasibətlərin tənzimlənməsi məsələləri ilə məşğul olmağa başladı. Xüsusi Şuraya əməyin mühafizəsi və zəhmətkeşlərin maddi vəziyyətinin yaxşılaşdırılması məsələlərinə toxunan qanunların icra edilməsinə nəzarət etmək hüququ verildi[127]. Fəhlə məsələsi

üzrə Xüsusi Məşvərət Şurasının Müvəqqəti Nizamnaməsində deyilirdi ki, əmək nazirinin sədrliyi altında fəaliyyət göstərəcək bu orqan "istər əməyin mühafizəsi, istərsə də əmək şəraiti və zəhmətkeş siniflərin məişətinin yaxşılaşdırılmasına yönələn məsələlərlə bağlı mövcud qanunların dəqiq icra edilməsi üzrə tədbirlərin ilkin müzakirəsi məqsədilə təsis edilir"[12]

1919-cu il mayın 31-də sosial və istehsalat münaqişələrinin həllinə cavabdeh olacaq Arbitraj orqanının yaradılması haqqında qərar çıxarıldı[129].

Ümumiyyətlə demək olar ki, Azərbaycan hökuməti dövlət qulluqçularının maddi vəziyyətinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirirdi. Buna misal, hökumətin 1918-ci il 28 dekabr, 1919-cu il 21 aprel, 1920-ci il 5 yanvar və 7 fevral tarixli iclaslarında qəbul etdiyi müvafiq qərarları göstərmək olar[130]. Dövlət qulluqçularının maddi vəziyyətinin yaxşılaşdırılması işində Azərbaycan hökuməti tərəfindən 1919-cu il fevralın 10-da yaradılan dövlət qulluqçularının əmək haqlarının qaldırılması üzrə idarələrarası komissiyanın rolu oldu[131].

Dövlət qulluqçularının maddi vəziyyətinin yaxşılaşdırılması məsələsinə parlament səviyyəsində də baxılırdı. Parlament 1919-cu il mayın 12-də qulluqçulara müvəqqəti əlavə pul vəsaitinin verilməsi haqqında[132], 1920-ci il martın 15-də isə mülki və hərbi idarə qulluqçularının maaşlarının artırılması haqqında[133] qanunlar qəbul etdi.

Fəhlə və dövlət qulluqçularının maaşını qaldırmağa çalışan Azərbaycan hökuməti vergi tariflərini də qaldırmağa məcbur olurdu. Digər tərəfdən, maaşların artırılması dövlət büdcəsindəki kəsiri çoxaldırdı. Nəticədə yenidən pul emissiyası həyata keçirilirdi. Fəhlələrin sosial vəziyyətinin pisləşməsi isə davam edirdi. Belə ki, parlament 1919-cu il fevralın 4-də dəmir yol fəhlələrinin maaşının artırılması haqqında qanunu qəbul etdikdən cəmi 10 gün sonra hökumət dövlət tariflərinin də artırılması haqqında qanun layihəsini parlamentə təqdim etdi, çünki maaşların qaldırılması nəticəsində Azərbaycan dəmir yolunun aylıq kəsiri 8 milyon manata qalxdı[134].

1919-cu il martın 16-da Azərbaycan hökuməti fəhlələrin əmək haqlarının qaldırılması barədə əmək nazirinin çıxışını dinləyib maliyyə, həmçinin ticarət və sənaye nazirlərinə fəhlələrə əmək haqları ödənilməsi məqsədilə neft sahibkarlarına 10 milyon manatdan az olmayaraq pul vəsaiti buraxılması barədə tapşırıq verdi[135].

1919-cu il sentyabrın axırlarında əmək naziri bahalığın artmasını nəzərə alaraq, Bakı rayonunda yerləşən sənaye müəssisələrinin fəhlə və qulluqçularının maaşlarını qaldırmaq məsələsini müzakirə etməyi zəruri saydı və müvafiq komissiya yaratdı[136].

Lakin hökumətin səylərinə baxmayaraq, bahalıq və inflyasiyanın təsiri nəticəsində Azərbaycan vətəndaşlarının böyük əksəriyyətinin sosial vəziyyəti daha da ağırlaşırdı. Bunu statistik məlumatlar da təsdiq edir.

1919-cu ilin dekabrında Azərbaycan dövlət müəssisələrində 32705 nəfər (bunun 30 faizini ailəlilər təşkil edirdi) işləyirdi. Onların saxlanması xərci ildə 7889641 manat təşkil edirdi. Qeydə alınmış qiymətlərlə subay adama ərzaq üçün ayda 231 manat 75 qəp., ailələr üçün 418 manat 50 qəp. (hamısına birlikdə ayda 13650379, ildə isə 163804948 manat) lazım idi. Həmin ərzaq məhsullarının dəyəri 1920-ci il yanvarın

birinci yarısında bazar qiymətləri ilə ayda 35150038 manat təşkil edirdi[137].

Nazirliyin statistika şöbəsinin məlumatına görə, 1919-cu ilin son altı ayı ərzində qiymətlər: çörək 10 faiz, yağ 56 faiz, balıq 150 faiz, yumurta 96 faiz, ət 200 faiz artmışdı[138]. Beləliklə, göstərilən dövr üçün orta bahalaşma həddi 100 faiz, əmək haqqı artımı isə 39 faiz idi. Bu fərqi nəzərə alan Ticarət, Ərzaq və Sənaye Nazirliyi 1920-ci ilin yanvarında hökumətə problemin həll olunması üçün başqa yol təklif edərək, fəhlə və qulluqçuların çörək, çay, qənd, düyü, bez və s. əsas ərzaq məhsulları və ilkin tələbat malları ilə təchizatını qəti müəyyənləşdirilmiş sabit qiymətlərlə təmin etməyin məqsədəuyğun olduğunu bildirdi. Bunun üçün həmin nazirliyin nəzdində xüsusi təchizat idarəsi yaratmaq nəzərdə tutulurdu.

Azərbaycan hökuməti fəhlə məsələsi ilə bağlı qanun layihələrini hazırlayıb parlamentə təqdim etmişdi. Lakin bu layihələr uzun müddət deputatların diqqətindən kənarda qalmış və parlamentin ümumi iclaslarına çıxarılmamışdı. Əhalinin sosial vəziyyətinin müəyyən dərəcədə yaxşılaşmasına hökumət in 1918-ci ilin mart və sentyabrında baş vermiş hadisələr zamanı zərərçəkənlərə maddi yardımın göstərilməsi haqqında 1919-cu il 7 fevral tarixli[139] və kasıb ailələrdən olan şagirdlərə maddi yardımın göstərilməsi haqqında 1919-cu il 12 fevral tarixli[140] qərarları, parlament tərəfindən qəbul olunmuş qaçqınların ehtiyaclarının ödənilməsinə 21 milyon manat məbləğində vəsaitin buraxılması haqqında 1920-ci il 8 yanvar tarixli qanun[141] yönəlmişdi.

Ümumiyyətlə, ölkədə müşahidə olunan siyasi sabitsizlik, xarici təhlükənin mütəmadi mövcudluğu, Birinci Dünya müharibəsinin dağıdıcı nəticələri və Rusiyada cərəyan edən proseslər üzündən Azərbaycanın iqtisadi cəhətdən təcrid olunması, hakimiyyət strukturlarının fəaliyyətində dürüst əlaqələndirmənin olmaması sosial-iqtisadi islahatların keçirilməsini ləngidir, bu da iqtisadi böhranın daha da dərinləşməsinə gətirib çıxarırdı. Ancaq mənfi amillərin müvafiq təsirinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyi ölkədə iqtisadi vəziyyətin yaxşılaşması, sosial problemlərin həlli istiqamətində ciddi addımlar atmağa cəhd edir, müxtəlif sosial proqramların həyata keçirilməsini planlaşdırırdı. Azərbaycanın liderləri hesab edirdilər ki, milli dövlətin varlığı və möhkəmləndirilməsi çoxukladlılıq bazasında yeni inkişaf modelinin qurulması yolundadır. Əsasən obyektiv səbəblərdən - xarici təzyiq və təcavüzün baş verməsi ucbatından onlar bu məqsədə nail ola bilmədilər.

X FƏSİL

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNDƏ MƏDƏNİ QURUCULUQ

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması Azərbaycan xalqının milli dövlətçilik və özünüdərkinin inkişafı tarixində misilsiz bir hadisə idi. Onun mövcudluğu millətin bütün sosial qatlarında sevinclə duyulmuş, fəaliyyəti cəmiyyətin bütün təbəqə və qurumlarına, milli həyatın hər sahəsinə nüfuz etmişdi. Azərbaycan Cümhuriyyəti öz fəaliyyətində milli mədəniyyətin: təhsilin, ədəbiyyat və incəsənətin inkişaf etdirilməsinə də xüsusi diqqət yetirmişdi. Faktlar Azərbaycan parlamenti və hökumətinin sosial-mədəni sahənin köklü inkişaf etdirilməsi üçün sistemli və məqsədyönlü şəkildə iş apardığına dəlalət edir. Müharibələr və daxili qarma-qarışıqlıq nəticəsində dağıdılmış məktəblər şəbəkəsinin bərpa edilməsi, məktəblərin yeni şəraitə uyğunlaşdırılması, təhsil müəssisələrinin milliləşdirilməsi, milli incəsənətə kömək göstərilməsi kimi sahələrdə hökumət tərəfindən mühüm quruculuq tədbirləri görülürdü.

Azərbaycan Cümhuriyyətinin yaranması ərəfəsində sosial-mədəni sahədə çox ağır vəziyyət mövcud idi. Əgər 1914-cü ildə Azərbaycanda bütün tiplərdən olan 976 məktəb var idisə və bunlarda 73,1 min şagird təhsil alırdısa, 1919-1920-ci təhsil ilində cəmisi 643 ibtidai və 23 orta məktəb fəaliyyət göstərirdi. İbtidai məktəblərdə 48078, orta məktəblərdə isə 9611 şagird oxuyurdu[1]. Belə şəraitdə məktəb sisteminin dağıdılmasını dayandırmaq Azərbaycan Cümhuriyyətinin qarşısında mühüm vəzifə kimi dururdu.

Mühüm vəzifələrdən biri maarif sisteminin işini xalqın milli mənafelərinə xidmət etməyə yönəltmək, onu dövlətçiliyin tələblərinə uyğun şəkildə yenidən qurmaq olduğu üçün AXC hökumətinin həyata keçirdiyi ilk tədbirlərdən biri təhsil müəssisələrinin milliləşdirilməsi oldu.

Nazirlər Şurasının 1918-ci il 28 avqust tarixli qərarı ilə bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin ana dilində aparılır, eyni zamanda dövlət dili icbari qaydada tədris olunurdu[2]. Bütün ali ibtidai məktəblərdə və orta təhsil müəssisələrində tədris dövlət dilində aparılır, tədrisi bu dildə olmayan bütün hazırlıq sinifləri ləğv olunurdu. Şagirdlər orta məktəblərin beşinci sinfindən başlayaraq tədris müəssisəsini bitirənə qədər rus dilində oxuyur, Azərbaycan türk dilini isə məcburi fənn kimi öyrənirdilər. Milliləşdirmə tədbirlərinin şagirdlərin bir hissəsini məktəbdən kənarda qoya biləcəyini nəzərə alan hökumət 1918-ci ilin noyabrında öz qərarlarında dəyişikliklər apardı. Müəyyən edildi ki, yaşayış məkanlarında cəmisi bir təhsil müəssisəsi varsa, yuxarı hazırlıq siniflərindən başlayaraq tədrisin rusca aparıldığı paralel siniflər açılmalı, müəyyən yerdə eyni-tipli bir neçə tədris müəssisəsi olarsa, onların bir hissəsi milliləşdirilməli,

qalanlarında isə dövlət dili məcburi fənn kimi keçilməklə tədris rusca aparılmalıdır[3].

Milliləşdirmə siyasəti ciddi çətinliklərlə qarşılaşırdı. Pedaqoji kadr və müəllim çatışmazlığı, lazımi dərsliklərin kifayət qədər olmaması, tələskənlik, səhvlər və əhalinin tərkibindəki rus və erməni azlıqlarının Azərbaycan dövlətçiliyini tanımamağa, qəbul etməməyə meyllənmiş müqaviməti təhsilin milliləşdirilməsini əngəlləyirdi. Lakin hökumət bu məsələdə qəti mövqe tutdu və bütün çətinliklərə baxmayaraq, müstəqil milli təhsil siyasətini davam etdirdi. 1919-cu ilin sonuna olan məlumatlara görə, Bakı politexnik və kommersiya məktəbləri, iki kişi və üç qız gimnaziyası istisna olunmaqla, bütün orta məktəblər milliləşdirilmişdi[4].

Hökumət çarizmin müstəmləkə siyasətinin ağır nəticələrini tezliklə aradan qaldırmaq məqsədilə azərbaycanlı şagirdlərin təhsilinə xüsusi diqqət yetirirdi. Xalq Maarifi Nazirliyi orta məktəb rəislərinə göndərdiyi 1919-cu il 7 sentyabr tarixli xüsusi sərəncamında azərbaycanlı uşaqların ancaq milliləşdirilmiş əlifba və hazırlıq siniflərinə, həmçinin birinci siniflərə qəbul olunması göstərişini vermişdi. Tədrisin rusca aparıldığı həmin siniflərə azərbaycanlı uşaqların qəbul edilməsinə isə ancaq müstəsna hallarda, nazirin icazəsi ilə yol verilirdi[5]. Tədris müəssisələrinə qəbul zamanı azərbaycanlılara bəzi güzəştlər edilirdi. Görülmüş tədbirlər nəticəsində şagirdlərin ümumi sayı içərisində azərbaycanlıların xüsusi çəkisi artdı. Əgər 1914/1915-ci tədris ilində 9643 nəfər orta məktəb şagirdindən (müəllimlər seminariyaları çıxılmaqla) ancaq 1137 nəfəri azərbaycanlı idisə, 1919/1920-ci tədris ilində 9611 şagirddən 3115-i azərbaycanlı idi[6].

Məktəb şəbəkəsinin bərpa edilməsi məqsədilə hökumət onun maddi-texniki bazasının möhkəmləndirilməsi, məktəb binalarının təmiri, bərpası və yeni məktəblərin tikintisi üçün vəsait ayrılması üzrə tədbirlər görürdü. Nazirliyin göstərişi ilə müxtəlif qəzalarda məktəblərin bərpa edilməsinin smetaları hazırlanıb təqdim olunurdu. Zaqatalada, Göyçay və Şuşa qəzalarında, başqa yerlərdə yeni məktəblər açılırdı. Nəticədə köhnə məktəblərin xeyli hissəsinin bərpasına, bir sıra yeni məktəblər açılmasına və nəzərdə tutulmuş layihələrin qismən yerinə yetirilməsinə nail olundu. Məsələn, əgər 1918-ci ildə Şamaxı və Göyçay qəzaları xalq məktəbləri müfəttişliyində uçotda olan 108 məktəbdən ancaq 10-u fəaliyyət göstərirdisə, 1919-1920-ci tədris ilində onların sayı 70-ə çatdırıldı[7]. Bakı Şəhər İdarəsi məktəb şöbəsinin məlumatlarına görə, şəhər ibtidai təhsil ehtiyaclarının ödənilməsi üçün artıq kifayət qədər məktəblər şəbəkəsinə malik idi.

Maarifin milliləşdirilməsi ilə əlaqədar olaraq, bütövlükdə məktəb islahatı məsələsi ortaya çıxdı. İslahatın mahiyyəti məktəbi yeni şəraitə uyğunlaşdırmaqdan, onu milli dövlətçilik ideyaları və mənafelərinə yaxınlaşdırmaqdan, milli dəyərləri mənimsəmiş yeni nəsil hazırlamaqdan ibarət idi. Bu məqsədlə orta məktəblərin yeni proqramlarının hazırlanması üçün komissiyalar yaradılırdı. Komissiyalar ümumi tarix və coğrafiya, Azərbaycan dili və ədəbiyyatı, riyaziyyat, ilahiyyat üzrə proqramlar

hazırlayırdılar. Tədris müəssisələrinin proqramına türk xalqları tarixinin də daxil edilməsi cəmiyyətdə baş verən milliləşdirmə prosesi ilə bağlı idi. 1919-cu ildə türk xalqları tarixinə aid kurs üzrə proqramlar və izahat qeydləri hazırlandı.

Qadınların təhsilinə xüsusi diqqət yetirilirdi. Orta təhsil müəssisələrində azərbaycanlı qızların sayı artırdı. Məsələn, əgər 1918/1919-cu tədris ilində Gəncə gimnaziyasında cəmisi 4 azərbaycanlı qız oxuyurdusa, 1919/1920-ci tədris ilində onların sayı 296 nəfərə çatmışdı[8].

Azərbaycan hökumətinin həll etməli olduğu ən kəskin məsələlərdən biri də maarif işçilərinin maddi təminatı, onların güzəranının yaxşılaşdırılması idi. 1919-cu ilin sentyabrında parlament Azərbaycan Cümhuriyyəti qulluqçularının məvacibinin artırılması və maaşların müvafiq şəkildə sistemləşdirilməsi haqqında qanun qəbul etdi. Bu qanuna görə, müəllimlərə xeyli imtiyazlar verilməli, əlavə işlər üçün onlara əmək haqqı xüsusi cədvəl üzrə ödənilməli idi[9].

Yaşlı əhali və türk-müsəlman olmayan vətəndaşlar arasında savadın yayılması və dövlət dilinin öyrənilməsi üzrə tədbirlər də dövlət və ictimai həyatın milliləşdirilməsi siyasəti ilə bağlı idi. Hökumətin təşəbbüsü ilə 1919-cu ilin sentyabrında Azərbaycan (türk) dilinin öyrənilməsi üzrə kurslar təşkil olundu və onun üçün 351000 manat vəsait ayrıldı[10].

Azərbaycan hökumətinin ən mühüm təşəbbüslərindən biri - əlifba islahatı da onun maarifçilik fəaliyyətinin və xalq təhsili üzrə proqramlarının reallaşdırılmasına xidmət edirdi.

1919-cu il martda X.Məlikaslanovun sədrliyi altında əlifba islahatı üzrə xüsusi komissiya yaradıldı". Təqdim olunmuş layihələrdən ancaq müəllim Abdulla bəy Əfəndiyevin variantı parlament tərəfindən bəyənildi və yeni əlifba üçün əsas kimi qəbul edildi.

Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən iqtisadiyyat, idarəçilik və mədəniyyətin bütün sahələri üzrə kadrlar hazırlanmasına dair cürətli proqramlar işlənib hazırlanmışdı və onların həyata keçirilməsindən ötrü hər cür imkan və mümkün formalardan istifadə olunur, kompleks tədbirlər görülür və xeyli vəsait xərclənirdi.

Azərbaycan hökuməti təhsil sistemini kökündən yeniləşdirmək üçün pedaqoji kadrların hazırlanmasına birinci dərəcəli əhəmiyyət verirdi. Pedaqoji kadrlara olan ehtiyacın ödənilməsi üçün Maarif Nazirliyi tərəfindən hər il respublikanın müxtəlif məntəqələrində dörd seminariya açılması nəzərdə tutulurdu[12]. Qori Müəllimlər Seminariyasının müsəlman şöbəsi Qazax şəhərinə köçürüldü və müstəqil seminariyaya çevrildi. 1919-cu ilin sentyabrında Bakıda kişi seminariyası açıldı. Lakin bu seminariyalar zəruri olan qədər pedaqoji kadrların hazırlanması üçün kifayət deyildi. Parlamentin 1919-cu il iyulun 19-da qəbul etdiyi qanuna əsasən, Qazax, Nuxa, Şuşa, Quba, Zaqatala, Salyan, Gəncə və Bakıda (sonuncu iki şəhərdə kişilər və qadınlar üçün) bir-birindən ayrı olan ikiaylıq pedaqoji kurslar açıldı və onlara dövlət xəzinəsindən 2390 min manat vəsait ayrıldı[13]. Kursların hər birində ən azı 50 müəllim hazırlanmışdı. Xaricdən, əsasən Türkiyədən müəllimlər dəvət olunurdu. Texniki təhsilin təşkili üçün də tədbirlər

görülürdü. Gəncə stansiyasında dəmir yol və teleqraf xidməti işçiləri hazırlayan kurslar açılmışdı. Salyanda açılacaq hidrotexniki təhsil müəssisəsinin layihəsi işlənib hazırlanmışdı[14].

Peşə təhsili almaq üçün azərbaycanlılara müəyyən güzəştlər verilirdi. Maarif nazirinin Bakı Politexnik Məktəbinin direktoruna ünvanlanmış 1919-cu il 30 avqust tarixli sərəncamında təklif olunurdu ki, qəbulun digər tələblərinə uyğun gələn bütün azərbaycanlı şagirdlər məktəbə imtahansız qəbul olunsunlar[15].

Kənd Təsərrüfatı üzrə orta təhsilin təşkili də mühüm məsələ idi. 1919-cu ilin noyabrında Əkinçilik Nazirliyinin kənd təsərrüfatı şöbəsində kənd təsərrüfatının müxtəlif sahələri və balıqçılıq üzrə təlimatçılar hazırlayacaq ikiillik kursların təşkili haqqında qanun layihəsi işlənib hazırlandı. Gəncədə orta, Nuxa və Zaqatalada isə ibtidai kənd təsərrüfatı məktəblərinin açılması qərara alındı[16].

İxtisaslı fəhlə kadrlarının hazırlanması üçün texniki kurslardan istifadə olunurdu. Qadınların peşə hazırlığının təşkili üzrə də bəzi tədbirlər görülürdü.

Respublikada ali təhsilin təşkili məsələsi siyasi xadimlər və ziyalılar arasında, ticarət-sənaye dairələrində qızğın surətdə müzakirə olunur, Azərbaycan hökumətinin qarşısında duran təxirəsalınmaz vəzifə hesab edilirdi.

Hələ 1918-ci ilin avqustunda Azərbaycan hökuməti Tiflis Politexnik İnstitutunun maliyyələşdirilməsində iştirak etmək haqqında məsələni nəzərdən keçirmişdi. Onunla əlaqədar olaraq, maarif naziri N.Yusifbəyli təklif etmişdi ki, hökumət institutun maliyyələşdirilməsini onun Azərbaycan ərazisinə köçürülməsi şərti ilə öz üzərinə götürsün[17]. Bakıda Pedaqoji İnstitutun açılması barəsində Maarif Nazirliyi tərəfindən qanun layihəsi işlənib hazırlanmışdı. Bakı Musiqi Məktəbinin bazasında konservatoriya açılması məsələsi də gündəlikdə idi[18].

Azərbaycan hökuməti Bakı şəhərində universitetin açılmasına böyük dövləti əhəmiyyət verirdi. Məsələnin həllinə tezliklə nail olmaq məqsədilə professor V.İ.Razumovski başda olmaqla universitet komissiyası təşkil edilmişdi. Komissiya qısa müddətdə universitetin təsis edilməsi haqqında qanun layihəsini, universitetin nizamnaməsini, həmçinin 1919-1920-ci tədris ili üçün müvəqqəti ştat və smeta cədvəllərini hazırlayıb təqdim etmişdi.

1919-cu il avqustun 21-də Dövlət Universitetinin təsis edilməsi haqqında qanun layihəsinin ilkin müzakirəsi göstərdi ki, parlamentin əksəriyyəti Azərbaycanın elm və maarif ocağının açılmasına prinsipcə razıdır. Bununla belə ali qanunverici orqana təqdim edilmiş qanun layihəsinin opponentləri də var idi.

Qanun layihəsinin tərəfdarları M.Ə.Rəsulzadə, F.X.Xoyski, N.Yusifbəyli, M.Hacınski, A.Əfəndizadə, S.A.Vonsoviç, S.M.Qənizadə, Ə.H.Qarayev, S.Ağamalıoğlu, R.Kaplanov və b. universitetin tezliklə açılmasının əhəmiyyətindən danışaraq göstərdilər ki, o, xalqın maariflənməsinə, Azərbaycanda elmin inkişafına, ictimai həyatın müxtəlif sahələri üçün ixtisaslı kadrlar hazırlanmasına təkan verəcək.

Qanun layihəsinin əleyhdarları - Q.Qarabəyov, Y.Əhmədov, M.Əfəndizadə və b. universitetdə tədrisin Azərbaycan dilində deyil, rus dilində aparılması barədə iradlarını

azərbaycanlı müəllimlərin çatışmaması ilə əlaqələndirir, öz mövqelərini yaxın gələcəkdə universitetin təşkili üçün lazımi maliyyə vəsaiti tapılmayacağı ilə izah edirdilər.

Bakı Universitetinin yaradılmasının tərəfdarı M.Ə.Rəsulzadə parlamentdə müzakirə olunan məsələ ətrafında vəziyyəti xarakterizə edərək qeyd etmişdi: "Burada universitetin açılması məsələsində iki fikir mövcuddur. Məsələyə müxalif olan münasibət onunla əsaslandırılır ki, bizdə kifayət qədər elmi kadrlar və mütəxəssislər yoxdur. Amma universitetin təsis edilməsi dövlətin əsas vəzifələrindən biri olmalıdır, buna görə də bütün maneələr aradan qaldırılmalıdır. Əlbəttə, yaxşı olardı ki, açılacaq elm ocağı türk (Azərbaycan. - *Red.)* dilində olaydı, lakin bu hələlik mümkün deyildir. Lakin, bu, başqa dildə də olsa, universitetin fəaliyyət göstərməsinə mane olmamalıdır.

...Universitetdə türk (Azərbaycan. - *Red.)* dili keçiləcək, tələbələrin özləri də Bakıda, öz doğma xalqı içərisində özlərini rahat hiss edəcəklər"[19].

1919-cu il sentyabrın 1-də parlament Bakı şəhərində Dövlət Universitetinin təsis edilməsi haqqında qanun qəbul etdi. Qanunda Universitetin dörd fakültədən: tarix-filologiya, fizika-riyaziyyat, hüquq və tibb fakültələrindən ibarət olduğu göstərilmiş, 1919-cu il sentyabrın 1-dən başlayaraq birillik müvəqqəti ştat və smeta cədvəli, universitet komissiyasına üç il müddətinə ilk rektor və dekanları, kollegiyaya isə professorları dəvət etmək, elmi şuraya idarə heyəti təşkil etmək hüququ verildiyi öz əksini tapmışdı.

Qanunda universitetin 1919-1920-ci dərs ilində tədrisi təşkil etməsi, avadanlıqlarla təchiz olunması üçün dövlət büdcəsindən 5 mln manat vəsait ayrılması nəzərdə tutulur, bütün fakültələrdə Azərbaycan türk dilinin icbari fənn kimi tədris edilməsi xüsusi göstərilir və o, 1919-cu il sentyabrın 1-dən etibarən fəaliyyətə başlamış sayılırdı[20].

Bakı Universitetinin ilk rektoru professor V.İ.Razumovski, tibb fakültəsinin dekanı professor A.M.Levin, tarix-filologiya fakültəsinin dekanı isə N.A.Dubrovski təyin olundular. Universitetdə dərs demək üçün Moskva universitetindən, Rostov, Yekaterinoslav, Xarkov və Rusiyanın digər şəhərlərindən görkəmli alim və professorlar dəvət edildilər[21].

İlk tədris ilində universitetdə təhsil alan tələbələrin sayı 877 nəfər idi. Bundan başqa, universitetə 217 azad dinləyici qəbul edilmişdi. Maraqlı fakt odur ki, tarix-filologiya fakültəsinin 509 tələbəsindən yalnız 12 nəfəri azərbaycanlı idi. Tibb fakültəsinə 10 nəfər azərbaycanlı qızın qəbul edilməsi müsəlmanlar arasında qadın həkimlərə kəskin ehtiyac duyulduğu bir şəraitdə mühüm əhəmiyyətli bir hadisə idi.

Beləliklə, Azərbaycan Cümhuriyyətində ən müxtəlif sahələr üzrə yüksək ixtisaslı mütəxəssislər hazırlamaq üçün müxtəlif imkanlardan istifadə edilirdi.

Milli mədəniyyətin təməlini təşkil edən ən mühüm amil dil və ədəbiyyatdır. Onun komponentləri və atributları: mətbuat, poeziya, dramaturgiya, teatr və s. milli oyanışın, özünüdərkin, istiqlal arzularının inkişafında əsas rol oynayır.

Azərbaycanda XIX əsrin ikinci yarısından təşəkkül tapıb formalaşmağa başlayan milli dirçəliş, milli özünüdərk və istiqlal şüurunun, mədəni millətçilik hərəkatının

fəlsəfəsi də, məfkurə təlimi də əsasən "Əkinçi" (1875-1877) qəzetindən "Azərbaycan"a (1918-1920) qədərki milli mətbuatımızda yaranmışdır.

"Əkinçi"dən sonra Ünsizadə qardaşlarının Tiflisdə və Şamaxıda nəşr etdirdikləri "Ziya" (1879-1880), "Ziyayi-Qafqaziyyə" (1880-1884), "Kəşkül" (1883-1891) adlı qəzet və jurnalları müəyyən mənada M.F.Axundov və H.Zərdabinin başladığı işi davam etdirirdilər. "Din ayrı, millət ayrı. Biz azərbaycanlıyıq" fikri milli mətbuatda öz əksini tapdı. "Kəşkül" qapandı, Qafqaz müsəlmanları 15 il mətbuat orqanlarından məhrum edildilər. M.Şahtaxtılı Tiflisdə "Şərqi-Rus" (1903-1905) qəzetində sələflərinin maarifçilik ideyalarını təbliğ etməyə başladı.

1905-ci il inqilabından sonra sıçrayışla inkişafa başlayan Azərbaycan dövri mətbuatı - "Həyat" (1905-1906). "İrşad" (1905-1908), "Təkamül" (1906), "Dəvət-Qoç" (1906), "Tazə həyat" (1907-1908), "Səda" (1909-1911), "Həqiqət" (1909-1910), "Bəsirət" (1917-1920), "Füqəra sədası" (1919) və s. 1918-1920-ci illərdə yüksək mərhələyə çatdı.

AXC dövründə, iki ilə yaxın bir vaxt kəsiyində Bakıda, Tiflisdə, Gəncədə və başqa inzibati mərkəzlərdə ideya istiqamətinə görə bir-birindən uzaq 80-dən çox qəzet və jurnal çıxırdı. Bunların 39-u Azərbaycan türkcəsində, 44-ü rus və başqa dillərdə nəşr olunurdu.

"Molla Nəsrəddin" (1906-1917), "Füyuzat" (1906-1907), "Tərəqqi" (1908-1909), "İqbal" (1912-1915), "Dirilik" (1914-1916), "Açıq söz" (1915-1918), "Müsavat" (1917) kimi qəzet və jurnalların zəngin tarixi ənənələrinə güvənən AXC milli mətbuatı içərisində "Azərbaycan" (1918-1920) qəzetinin müstəsna yeri vardı.

1920-ci il aprelin 27-də AXC-nin süqutundan sonra ictimai siyasi ədəbiyyatda, tarixi materiallarda, ədəbi əsərlərdə "Müsavat" sözünə əksinqilabçı, "millətçi", xalq düşməni donu geydirildiyi üçün "Azərbaycan" qəzetini də Müsavat Partiyasının orqanı adlandırıblar. Ü.Hacıbəyov bu fikri "Düz yol" adlı məqalədə təkzib edərək yazmışdır: "Danışırlar ki, "Azərbaycan" qəzeti, guya, "Müsavat" Partiyasına mənsub firqəvi bir qəzet imiş... Bu fəqərə barəsində bəyan etməyi lazım bilirəm ki, qəzetimiz partiya qəzeti deyildir"[22].

1918-1920-ci illərin ideyalarını özlərində əks etdirən "İqbal", "Dirilik" və "Açıq söz"dən əlavə, "Müsavat" Partiyasının rəsmi orqanı "İstiqlal" (1918-1920) qəzeti var idi, "Azərbaycan" isə "firqə xaricində" tam azad bir orqan olub, sözün həqiqi mənasında, ictimai tribuna idi: "Vətən azadlığı və abadlığından, millət salamatlığından, camaat tərəqqisi və dövlət intizamından" danışan hər bir qələm sahibinə qəzet öz "sütunlarını bir ananın balasına qarşı açdığı qucağı kimi meyil və məhəbbətlə tamam açmışdı"[23].

"Azərbaycan" qəzeti həm Azərbaycan, həm də rus dilində hər gün çıxırdı. Azərbaycan redaksiyasına ayrı-ayrı vaxtlarda C.Hacıbəyli, Üzeyir Hacıbəyli, Xəlil İbrahim rəhbərlik etmiş, rus dilində nəşrin isə Ceyhun Hacıbəyli ilə Ş.Rüstəmbəyov redaktoru olmuşlar.

"Azərbaycan"ın yaradıcı kollektivi - bir tərəfdən AXC rəhbərlərinin özləri:

M.Ə.Rəsulzadə, Ə.M.Topçubaşov, N.Yusifbəyli, C.Hacıbəyli, digər tərəfdən XX əsrin əvvəllərindən milli şüurun ən görkəmli nümayəndələri: M.Hadi, Ə.Müznib, S.Hüseyn, H.Cavid, Ü.Hacıbəyov, Ə.Cavad, Y.V.Çəmənzəminli, N.Vəzirov, A.Şaiq, C.Cabbarlı, F.Ağazadə, M.S.Axundov və b. kimi görkəmli yazıçı və jurnalistlər qəzetdə müntəzəm çıxış edir, dəyərli ədəbi və siyasi publisistik yazıları ilə qəzetin tarixi rolunu, ideya istiqamətini və məzmun zənginliyini təmin edirdilər.

Xalqın milli-azadlıq şüurunun formalaşmasında fəal iştirak edən "Azərbaycan" qəzeti eyni zamanda respublika hökumətinin rəsmi sənədlərini, qərar və fərmanları, parlament iclaslarından raportlar çap edirdi. Qəzet təkcə 1919-cu ildə özünün 46 sayında parlamentin 25 iclasının bütün gedişini tam əks etdirmişdi. Bununla "Azərbaycan" qəzeti Xalq Cümhuriyyətinin canlı salnaməsi və sənədli tarixini yazmışdı.

1919-cu il oktyabrın 15-də parlamentdə mətbuat haqqında qanun qəbul edilmişdi. Cümhuriyyət dövründə bu sahədə demokratik prinsiplərin yaşadığını iqtidaryönlü mətbuatla yanaşı, Azərbaycan və rus dillərində təqribən 40 adda nəşr olunan müxalifət qəzetinin də ("Əxbar", "Al bayraq", "Zəhmət sədası", "Azərbaycan füqərası", "Bednota", "Raboçiy put", "Məşəl" və b.) fəaliyyət göstərməsi sübut etməkdədir. Bunların içərisində ən fəal və güclüsü kommunist mətbuatı ("Nabat", "Füqəra sədası", "Hürriyyət") idi.

AXC Azərbaycanda milli ənənələrin, ictimai ideyaların, bədii və fəlsəfi fikrin, xalqın öz ruhundan doğan milli hərəkatın qanuni yekunu kimi təşəkkül tapmışdı. Bu, Cümhuriyyət dövrü ədəbiyyatında - poeziyada, nəsrdə və dramaturgiyada, səhnə sənətində özünü hərtərəfli nümayiş etdirmişdir.

AXC dövründə ən çox *poeziya* dəbdə idi. Çünki ictimai zülm və ağır güzərandan çıxıb demokratik azadlıqlara qovuşan, inqilabi əhvali-ruhiyyə ilə yaşayan xalqın arzu və istəklərini müdafiə etmək üçün poeziya nəsr və dramaturgiyaya nisbətən daha mütəhərrikdir və geniş imkanlara malikdir. AXC dövründə yaranan poeziyada mövzu əlvanlığı, müəlliflərin ayrı-ayrı məsələlərə fərdi münasibəti, XX yüzilliyin əvvəllərindən ədəbiyyatda kök salmış milli istiqlal məfkurəsinin azadlıq sevincindən yaranan coşqun pafosla tərənnümü güclü idi.

M.Hadi, H.Cavid, A. Şaiq kimi məşhur romantiklər və "Cümhuriyyət şairi" Ə.Cavad başda olmaqla böyük şairlər dəstəsi 1918-1920-ci illərdə Azərbaycan istiqlalını tərənnüm edirdilər.

"Şühədayi-hürriyyətimizin ərvahinə - ithaf", "Əsgərlərimizə, könüllülərimizə" (M. Hadi), "Vətənin yanıq səsi", "Yeni ay doğanda", "Müsavat" Partiyasına ithaf olunmuş "Türk ədəmi-mərkəziyyət firqəsi" (A.Şaiq), "Can, can Azərbaycan", "Azərbaycan ordusuna" (Ə.Cavad), "Sevdiyim", "Sevgili ölkəm", "Azərbaycan bayrağına" (C.Cabbarlı), "Əsgər anasına", "Bir mayis günündə" (Ümgülsüm Sadıqzadə) kimi şeir və poemalar Cümhuriyyət intibahından çox az seçmə nümunələridir. Dövrün poeziyası üçün ideyalılıq, həyata bağlılıq, azadlıq fərəhi səciyyəvi idi. Ə.Cavadın "Dalğa", F.Sacidin "Fəryad" adlı şeirlər kitabı, "Milli şərqilər" toplusu AXC dövründə nəşr olunmuşdur. Bu dövr poeziyanın ən

görkəmli nümunəsi Ə.Cavadın "Dalğa" kitabı idi.

İstiqlal mövzusu, azadlığın uğur və çətinlikləri, xilaskar türk mehmetciyinin (əsgərinin) bədii obrazı, düşüncə oyanışı və ictimai həyata şüurlu münasibət kimi məsələlər bu illərin *nəsrində* də geniş yer tuturdu. Ü.Hacıbəyov "Qurtuluş" adlı publisist hekayəsində Bakının daşnak-bolşevik zülmündən xilas edilməsində iştirak edən qoşun birləşməsinin xalqın imdadına vaxtında çatdıqlarını bədii dillə ifadə edərkən, hekayəni qüdrətli şair Ə.Cavadın şerindən seçdiyi bir bəndlə tamamlayır:

*"Şu gördüyün duman çıxan bacadan*
*Sən gəlmədən iniltilər çıkardı.*
*Geciksəydin, məzlumların fəryadı,*
*Yeri-göyü, kainatı yakardı".*

1918-1920-ci illərdə erməni genosidi, zorakılıq, daşnak irticası Cümhuriyyət nəsrində mühüm yer tuturdu. Azərbaycanda istiqlaliyyət və müstəqillik uğrunda mübarizə qərargahı - "İsmailiyyə"ni erməni daşnak-bolşevik qaragüruhu 1918-ci ildə yandırmışdı ki, xalqımızın azadlığa ümidini qırsınlar. Yazıçı Seyid Hüseyn bu tarixi faciəyə "həzin bir xatirə - "İsmailiyyə" adlı kiçik bir hekayə ("Azərbaycan" qəzeti, 20, 25, 26 avqust 1919) həsr etmişdi. Bu xatirə hekayədə İsmailiyyənin xaincəsinə və alçaq niyyətlə yandırılmasına qarşı xalq qəzəbi, həm də azad və xoşbəxt gələcəyə böyük inam və dərin ümid hakimdir. Müəllif inanırdı ki, milli əməllərimizin doğulduğu o möhtəşəm binanı, Azərbaycan hürriyyətini məhv etmək olmaz, ona görə ki, bu fikirləri aləmə isbat edən bir həqiqət vardır. Nədir o həqiqət? "Azərbaycan parlamenti üzərində üçrəngli və səkkiz guşə yıldızlı təməvvüc edən Azərbaycan bayrağı".

İsmailiyyə binasının başına gələn dəhşətlərdən "İstiqlal" (1918-1920), "Bəsirət" (1917-1920) qəzetlərində də qiymətli yazılar çıxmışdı.

1918-1920-ci illərdə milli məktəblərin istəyini ödəmək üçün yoldaşlıq, mehriban münasibət mövzularında "Məktəb" jurnalında kiçik uşaq hekayələri, günəşli nağıllar və yumorlu lətifələr çap olunurdu.

AXC dövründə bədii nəsr sahəsində axtarış aparılırdı. Bu illərin ədəbiyyatında, o cümlədən də bədii nəsrdə, yeni ruhlu əsərlər də yaranırdı, özü də bu əsərlərin çoxu ənənəvi ailə-məişət, tarixi mövzularda idi. C.Məmmədquluzadə, Ə.Haqverdiyev kimi realist yazıçılar həmin illərdə sadə, yumorlu və satirik hekayələr yazırdılar. Bununla belə bu dövrü romansız düşünmək olmaz. A.Yusifzadənin "Sınıq qanad" əsəri 1918-1920-ci illərdə A.Şaiqin "Əsrimizin qəhrəmanları"ndan sonra meydana çıxan ikinci romandır.

Milli dirçəliş, istiqlal ideyası, ana dilimizə bağlılıq C. Məmmədquluzadə və C.Cabbarlının dramatik əsərlərində də öz əksini tapmışdı. Demokratik respublikanın qurulması və yaşadığı qısa zaman içərisində Azərbaycanın çağdaş gerçəkliyini göstərən

dramaturji irs kəmiyyətcə o qədər də zəngin deyildi. O dövrün zəruri və kəskin problemlərinə əks-səda verən müəlliflər içərisində ən fəalları C.Məmmədquluzadə, C.Cabbarlı və Mirzəbala Məmmədzadə idi.

M.Məmmədzadə "Bakı uğrunda müharibə" pyesi ilə uğurlu yol açmışdı. Əsərdə xarici və daxili düşmənlərə qarşı mübarizə, Bakı azad ediləndən sonra Xalq Cümhuriyyəti hökumətinin Bakıya köçürülməsi mərasimi və bir sıra sahələrdə qələbənin təntənəsi əks olunurdu.

Gənc C.Cabbarlının "Ədirnənin fəthi", "Trablis müharibəsi", yaxud "Ulduz" faciələri, İ.Aşurbəylinin "Azərbaycan" pyesi AXC dövrünün dəyərli səhnə əsərləridir. Bunların arasında "Anamın kitabı" (C.Məmmədquluzadə) pyesi xüsusi əhəmiyyət kəsb edir.

"Anamın kitabı" pyesi həm Azərbaycan dramaturgiyası tarixində unikal hadisə, həm də doğma ana dilimizin başına faciələr gətirən səbəblərin güzgüsü idi.

İstiqlal bəyannaməsindən sonra M.Ə.Rəsulzadə, Ə.M.Topçubaşov, N.Yusifbəyli, Ü.Hacıbəyov, C.Hacıbəyov, Ə.Ağaoğlu və digər milli mədəniyyət mücahidlərinin səyilə Azərbaycan dili dövlət dili elan edildi. AXC-nin varlığı dövründə yaranmış Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Teatrı, Teatr Xadimləri Cəmiyyəti, "Yaşıl qələm" ədəbi birliyi öz fəaliyyətləri ilə ictimai fikir və mədəniyyət tariximizdə şanlı səhifələr açdı.

1918-1920-ci illər Azərbaycan *teatrının* inkişafında mühüm keyfiyyət dəyişiklikləri, teatr işinə dövlətin fəal müdaxiləsi, repertuarlarda Azərbaycan tarixi və milli müstəqillik uğrunda hərəkatla bağlı olan yeni səhnə əsərlərinin görünməsi və ictimai həyatda onun rolunun artması ilə səciyyəvidir. Azərbaycan teatrının qabaqcıl nümayəndələri cəmiyyətdəki mütərəqqi dairələrin yardımına arxalanaraq, teatrın ideya-bədii səviyyəsini qaldırmaq və onu təşkilati cəhətdən möhkəmləndirmək üçün pərakəndə teatr truppalarının birləşməsinə cəhd göstərirdilər. "Nicat" və "Səfa" maarifçilik cəmiyyətlərinin qüvvəsi ilə aktyorların mədəni və yaradıcılıq inkişafına qayğı göstərən "Müsəlman aktyorlar cəmiyyəti" yaradıldı[24].

Azərbaycan teatr truppasının yaradılması üçün göstərilən cəhdlər öz bəhrəsini verdi. 1918-ci ilin oktyabrında Bakıda "Hacıboyov qardaşları"nın müdiriyyəti tərəfindən yeni teatr truppası təşkil edildi Müsəlman səhnə sənətinin bütün xadimləri istisnasız olaraq onun tərkibinə daxil oldular.

Azərbaycanın digər şəhər və qəzalarında da belə teatr truppaları təşkil olundu. Şuşada "Hacıbəyov qardaşları"nın teatr müdiriyyətinin filialı təşkil edildi.

Azərbaycan hökuməti müsəlman teatr truppasını öz himayəsi altına götürməyi qərara aldı. Nazirlər Şurası 1919-cu il noyabrın 17-də öz iclasında maarif, nazirinin türk opera-dram teatrının təşkili haqqında məruzəsini dinləyərək, Dövlət Türk-Opera-Dram Teatrının təşkil olunmasını nəzərdə tutan qanun layihəsini bəyəndi[25].

Beləliklə, türk (Azərbaycan. - *Red.)* teatrı ayrı-ayrı şəxslərin təsirindən

çıxarılıb dövlətin himayəsinə verildi. 1919-cu il oktyabrın 10-da dövlət teatrının direktoru Q. N. Şərifzadə elan etdi ki, Azərbaycan Cümhuriyyəti Xalq Maarif Nazirliyinin tapşırığına əsasən, bu gündən etibarən türk dilində olan opera, operetta və dram tamaşaları dövlətin ixtiyarına keçəcəkdir. Bağlanan müqavilələrin və dövlət xidmətinin şərtləri ilə tanış olmaq üçün aktyor və aktrisalar dövlət teatrına dəvət edilirlər[26].

Nazirlər Şurasının 1919-cu il 8 noyabr tarixli iclasında Dövlət Teatrının bərpası üçün 300605 manat vəsait ayrıldı[27].

Aktyorların bədii ustalığının və peşəkarlığının yüksəldilməsi əvvəlki kimi mühüm problemlərdən biri olaraq qalırdı. Çünki H.Ərəblinski istisna olunmaqla, aktyorlardan heç biri xüsusi peşə təhsili almamışdı. Ona görə də aktyorların peşə hazırlığının yüksəldilməsi məqsədilə dram dərnəklərinin açılması məsələsi öz həllini gözləyirdi.

Azərbaycan aktyorları Avropadakı həmkarlarından fərqli olaraq səhnə məharəti kursları keçməmiş və səhnə sənətinin peşəkarlıq sirlərinə elmi cəhətdən bələd olmamışdılar, həmçinin tarixin keçmiş ictimai və siyasi mərhələləri, xalqın musiqi irsi barəsində kifayət qədər məlumata malik deyildilər.

Tələm-tələsik bir yerə toplanmış həvəskar aktyorları öz milli ədəbiyyat, dil və mədəniyyəti ilə bilavasitə tanış etmək məqsədilə kursların açılması zəruri idi. Onlar səhnə sənətinin sirləri və incəliklərini mənimsəməli, habelə incəsənətlə bağlı olan psixologiya, tarix, dil və s. elm sahələri ilə tanış olmalı idilər. Ona görə də teatr haqqında qanunların qəbul edilməsi ilə yanaşı, milli səhnə kurslarının açılması məsələsi də az əhəmiyyət daşımırdı[28]. Hələ 1918-ci ilin əvvəllərində A. M. Şərifzadənin təşəbbüsü ilə Bakıda incəsənət məktəbi yaradılmışdı[29]. Burada incəsənətin bu və ya digər növləri üzrə ibtidai biliklər verilirdi. 1919-cu ilin sentyabrında "Hacıbəyov qardaşları"nın müdiriyyəti "Türk (Azərbaycan - *Red.)* aktyorları ittifaqı" ilə birlikdə musiqi şöbələri olan türk dram kursları açdı[30].

Dram şöbəsinə A.M.Şərifzadə, H. Sarabski, komediya şöbəsinə M.A.Əliyev, musiqi şöbəsinə Z. və Ü.Hacıbəyovlar, M.Maqomayev, Q.Primov, ədəbi şöbəyə isə Ə.Müznib və R.Z.Əfəndi müəllim kimi dəvət olundular. Kurslara azərbaycanlı həvəskar aktyorlar, habelə müxtəlif millətlərdən olan aktrisalar cəlb edilmişdi[31].

Teatr kollektivləri və digər mədəni müəssisələrin vergiyə cəlb edilməsi incəsənətin müxtəlif növlərinin inkişafına mane olurdu. Məsələn, teatr və kinematoqraf kütləvi tamaşalardan əldə etdiyi gəlirin çox hissəsini vergi kimi ödəməyə məcbur olur, ziyana düşür və öz kollektivlərini saxlamağa maliyyə imkanı tapmadıqları üçün fəaliyyət çərçivələrini daraldırdılar. Biletlərə görə alınan bu ağır vergilər Bakı şəhər idarəsinin 1917-ci ilin dekabrında qəbul olunmuş qərarı ilə təyin edilmişdi. Sahibkarlar onların hədsiz dərəcədə yüksək olmasından şikayətlənir və ləğvini xahiş edirdilər[32].

Bütün bunları nəzərə alan Maarif Nazirliyi teatrın inkişafına qayğı göstərərək, parlamentə teatr vergisinin ləğv olunması barəsində məruzə təqdim

etdi. Məruzədə bu vergilərin şişirdilmiş miqyasına dəlalət edən faktlar gətirilirdi. Nəticədə parlament "Müsavat" fraksiyası tərəfindən təklif olunmuş qanun layihəsini qəbul etdi. Teatr tamaşalarına və kütləvi tamaşalara qoyulmuş dövlət vergisi yarıbayarı azaldıldı.[33]

1919-cu il oktyabrın 24-də dövlət teatrının opera və operetta truppası teatr mövsümünü açdı. Açılışda parlament və hökumət üzvləri, dövlət idarələri qulluqçuları iştirak edirdilər. Kiçik nitqlə çıxış edən Dövlət truppasının inzibatçısı Rza Zəki Əfəndi tamaşaçıları son 15 il ərzində Azərbaycanda səhnə sənətinin formalaşması tarixi ilə tanış edərək, Dövlət truppasının yaradılması ideyasının həyata keçirilməsindən danışdı. Sonra böyük müvəffəqiyyətlə İsa bəy Aşurbəyovun tarixi mövzuda olan "Azərbaycan" pyesinin tamaşası göstərildi[34].

Dövlət teatrının repertuarında N.Nərimanovun "Nadir şah", Ə.Haqverdiyevin "Bəxtsiz cavan", Türkiyə yazıçısı Namiq Kamalın "Akif bəy və ya namus", N.Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük", Ü.Hacıbəyovun "O olmasın, bu olsun", "Arşın mal alan", Z.Hacıbəyovun "50 yaşında cavan" kimi əsərləri mühüm yer tuturdu. Xeyriyyə tamaşalarının təşkili teatrın praktikasında tez-tez baş verən hadisəyə çevrildi. "Azərbaycan" qəzetində həlak olmuş döyüşçü ailələrinin xeyrinə təşkil olunan teatr tamaşaları barəsində çoxlu elanlar verilirdi. Bu işdə Üzeyir və Zülfüqar Hacıbəyov qardaşlarının truppası xüsusi fəallıq göstərirdi. Məsələn, həlak olmuş döyüşçü ailələrinin xeyrinə dövlət teatrının direktoru Zülfüqar Hacıbəyov tərəfindən təşkil edilmiş tamaşadan Azərbaycan Ordusunun bölməsinə 22292 manat 80 qəpik pul vəsaiti verilmişdi[35]. 1919-cu ilin martında Qazax seminariyasının şagirdləri tərəfindən N. Nərimanovun "Nadir şah" pyesi oynanılarkən qadınlar kasıb şagirdlərin xeyrinə 4485 manat pul toplamışdılar[36]. Ağdaşda yerli ziyalıların təşkil etdikləri xeyriyyə tamaşasından toplanmış vəsait Dağıstanın Qırmızı Aypara Cəmiyyətinə göndərilmişdi[37].

Azərbaycanın müstəqilliyi uğrunda mübarizə tarixinə həsr olunmuş dram əsərləri yaradılırdı. Bu və ya digər tarixi hadisələrin yubileyləri münasibəti ilə Mirzə Bala Məmmədzadənin "Bakı uğrunda müharibə", İ.Aşurbəyovun "Azərbaycan", C.Cabbarlının "Bakı müharibəsi", "Ədirnənin fəthi" kimi vətənpərvərlik ruhunda yazılmış əsərlər oynanılırdı.

Teatrda tamaşaya qoyulan əsərlərin keyfiyyətinə, cəmiyyətdə düzgün bədii zövqün formalaşmasına xüsusi əhəmiyyət verilirdi. Opera teatrı tərəfindən səhnə əsərlərinin seçilməsi və onların ədəbi və bədii keyfiyyətlərinə lazımi diqqət yetirilməsi üçün xüsusi ədəbi komissiya yaradılmışdı[38].

Azərbaycanın mədəni həyatında teatr çox böyük rol oynayırdı. Rəsmi hökumət qəzetlərinin səhifələrində böyük elanlar, rolların ifaçıları barəsində zəruri informasiyalar çap olunurdu. Hüseyn Ərəblinskinin ölümünün cəmiyyət və hökumət dairələrində doğurduğu əks-səda burada teatra necə əhəmiyyət verildiyinə dəlalət edir. Hüseyn Ərəblinskinin əzəmətli matəm mərasimində çıxış edən M.Ə.Rəsulzadə aktyorun səhnədə və ədəbiyyatda misilsiz fəaliyyətinə yüksək

qiymət vermiş, Azərbaycanda səhnə sənətinin inkişafı və çiçəklənməsində onun böyük xidmətlərini qeyd etmişdi. Natiq xüsusi olaraq vurğulamışdı ki, H.Ərəblinskinin ən böyük xidməti xalqa Azadlıq və Müstəqillik ruhu və ideyalarının aşılanması ilə əlaqədardır, Azərbaycanın müstəqillik ideyası mədəniyyət xadimlərinin hesabına reallaşmışdı[39].

H.Ərəblinskinin dəfnində Molla Əbdürrəhim Hadızadə, Bakı qubernatoru Rəşid bəy Axundzadə, İran konsulu Mirzə Məhəmmədxan və başqaları iştirak edirdilər[40]. "Azərbaycan" qəzeti bir sıra nömrəsini bu kədərli hadisəyə həsr etmişdi. H.Ərəblinskiyə qəbirüstü abidə qoyulması və onun anasına maddi yardım göstərilməsi məqsədilə "Hacıbəyov qardaşları"nın müdiriyyəti "Nadir şah" faciəsinin tamaşasını təşkil etməyi qərara aldı[41].

Azərbaycan teatrının qonşu ölkələrin incəsənət xadimləri ilə tarixi əlaqələri davam edir və genişlənirdi. 1918-ci ilin oktyabrında Tiflisdəki müsəlman artistlərinin truppası Türkiyəyə qastrola yola düşdü. Onun tərkibində S.Kirmanşahlı, M.Mərdanov, İsfahanlı və başqaları kimi səhnə xadimləri çıxış edirdilər[42]. Təkcə İstanbulda azərbaycanlı artistlərin qastrolları üç aydan çox davam etdi. Türkiyə qəzetlərindən biri yazırdı ki, "Qafqazın zəngin səhnələrində, rusların və azərbaycanlıların köməyi ilə tamaşalar verməyə alışmış bu aktyorlar bizim sınıq-salxaq dekorasiyalı səhnələrimizdə qətiyyən Avropanı yamsılamadan öz milli xəzinələrindən götürülmüş və bizim ruhumuza tamamilə uyğun olan tamaşalar verirlər"[43].

Həmin günlərdə Azərbaycan incəsənəti Türkiyədə yüksək qiymətləndirildi. Türkiyə jurnallarından biri yazırdı ki, Azərbaycan artistlərinin Türkiyədə qastrolları "bizə qonşu olan, son illər ərzində xeyli mənəvi inkişaf istedadı nümayiş etdirmiş millətin həyatı haqqında da bizdə təsəvvür yaranmasına kömək göstərəcəkdir. Bu qastrollar bizim üçün Azərbaycanın teatrı və onun həyatının digər tərəfləri barəsində məlumatlar almaq üçün gözəl vasitədir. Azərbaycan teatrı da sənətin nadir bir hissəsi kimi özündə şübhəsiz inkişaf və artım meylini təzahür etdirir"[44].

Ü.Hacıbəyovun başçılıq etdiyi artistlər truppası İranda oldu, bəzi çətinliklərə və fanatiklərin müqavimətinə baxmayaraq, Rəşt və Ənzəli şəhərlərində teatr tamaşaları verdi. 1920-ci ilin yazında Bakıdan Təbrizə teatr xadimləri qrupu göndərildi. Təbrizdə Şeyx Məhəmməd Xiyabani onları qəbul etdi və onlara xeyli kömək göstərdi[45].

Lakin 1918-1920-ci illərdə Azərbaycan teatrının inkişafını ziddiyyətlərdən xali, hamar bir proses kimi təsəvvür etmək düzgün olmazdı. Ayrı-ayrı səhnə ustaları arasındakı ziddiyyətdən doğan, bəzən toqquşmaya gətirib çıxaran umu-küsülər kifayət qədər tez-tez baş verən hadisələrə çevrilmişdi. Hətta Mirzəağa Əliyev kimi aktyor "Hacıbəyov qardaşları"nın müdiriyyəti ilə onun arasında yaranmış ixtilafla əlaqədar olaraq, səhnəni müvəqqəti tərk etmişdi[46]. Müxalifət qəzetləri "Hacıbəyov qardaşları"nı teatr işini inhisara almaqda, istedadlı aktyorları sıxışdırmaqda təqsirləndirirdilər. Teatr və kino işçilərinin maddi vəziyyəti ağır idi. İş tətillərə qədər gedib çıxırdı.

1919-cu ilin aprelində teatr işçilərinin ümumi yığıncağında qərara alındı ki, əgər teatr və kinematoqraf sahibləri əmək haqqını qaldırmasalar, qəti tədbir kimi tətilə əl

atılsın. Lakin bütün bu çətinliklərə və ziddiyyətlərə baxmayaraq, Azərbaycan teatr sənəti bütövlükdə öz inkişafının yeni mərhələsinə qədəm basırdı.

Bu dövrdə kinematoqrafiya sənəti də inkişaf edirdi. Bakıda 16 kinematoqraf fəaliyyət göstərirdi və onlardan ancaq ikisinin ("Muza" və "Mars") sahibi azərbaycanlı idi[47]. 1918-ci ildə Ü.Hacıbəyovun "O olmasın, bu olsun" operettası ekranlaşdırıldı[48].

*A r x i t e k t u r a  v ə  h e y k ə l t ə r a ş l ı q* sənəti sahəsində də müəyyən iş aparılırdı. Məsələn, Bakı Texniki Məktəbin nəzdində heykəltəraşlıq sinfinin açılması nəzərdə tutulmuşdu. 1920-ci il yanvarın 1-də Azərbaycan Aktyorlar İttifaqının yığıncağında H.Ərəblinskinin qəbri üzərində monumental abidənin ucaldılması qərara alındı[49]. 1918-ci ildə Bakının azad edilməsi zamanı həlak olmuş Azərbaycan və Türkiyə əsgərlərinin şərəfinə ucaldılacaq kompleks abidənin layihəsi işlənib hazırlandı. Bakıdakı xeyriyyəçi cəmiyyətin təşəbbüsü ilə onun tikinti işləri 1919-cu il sentyabrın 15-də başlandı və 1920-ci ilin sentyabrınadək başa çatmalı idi. Belə abidələrin təkcə Bakıda yox, Gəncədə də ucaldılması nəzərdə tutulurdu. Bu işlərin təşəbbüskarı Azərbaycan hökuməti idi[50]. Gəncədə o dövr üçün müasir olan üslubda Nizami Gəncəviyə abidə ucaldılması nəzərdə tutulurdu. Azərbaycan Cümhuriyyəti xarici işlər nazirinin müavini olmuş Adilxan Ziyadxanlı özünün Tehranda nəşr olunmuş memuarlarında bu abidənin layihəsinin mövcud olduğunu xatırlayır[51].

Digər bir qaynaqda Maarif Nazirliyi tərəfindən Gəncədə Nizaminin mavzoleyinin tikintisinə yarım milyon manat vəsait ayrılmasından danışılır[52].

Azərbaycan Cümhuriyyətinin bərqərarlaşması və yaradılması ədəbiyyatda canlanmaya, milli ruhun güclənməsinə səbəb oldu. Bu dövrü haqlı olaraq çoxəsrlik Azərbaycan ədəbiyyatının inkişafında yeni mərhələnin başlanğıcı adlandırmaq olar. "Yaşıl qələm" ədəbi cəmiyyəti özündə görkəmli yazıçıları, şairləri və ictimai xadimləri birləşdirirdi. Əhməd Cavad, Cəfər Cabbarlı, Üzeyir Hacıbəyov, Əliabbas Müznib, Salman Mümtaz, Ümgülsüm və başqaları milli ruhun və müstəqillik ideyasının nümayəndələri və daşıyıcıları idilər. Abdulla Şaiq və Məmməd Əmin kimi şairlər öz əsərlərində Azərbaycan ordusunun qəhrəmanlığı və qələbələrini tərənnüm edirdilər. C.Cabbarlının "Azərbaycan bayrağına" və "Sevgilim" şeirlərində müstəqillik tərənnüm olunurdu. Əhməd Cavad respublikanın dövlət himninin mətnini yazdı. Azərbaycançılıq ideyası əhalinin xeyli hissəsinin şüurunda hakim ideyaya çevrildi.

Beləliklə, ağır iqtisadi vəziyyətə və ictimai-siyasi şəraitin ciddiyyətli və mürəkkəb olmasına baxmayaraq, Azərbaycan Cümhuriyyəti incəsənətin müasir növlərinin inkişaf etdirilməsinə səy göstərir, bu sahədə mühüm tədbirlər həyata keçirirdi.

Azərbaycan Cümhuriyyətində milli ruhun və milli ideyaların güclənməsi nəticəsində milli mədəniyyətin təbliği və tədqiqinə, tarixi və milli irs ənənələrinə maraq fövqəladə dərəcədə artdı. Bunlardan hər birinin öyrənilməsi və təbliği peşəkar səviyyədə təşkil olunmuşdu, bu istiqamətdə ardıcıl siyasət yürüdülməsi ilə yanaşı, bu məqsədlə hökumətin və ictimai təşkilatların imkanlarından da istifadə edilirdi.

1918-ci ilin oktyabrında Bakıda yaradılmış "Türk ocağı" cəmiyyətinin

fəaliyyətini xüsusi qeyd etmək olar. Cəmiyyətin məqsədi Azərbaycan və Osmanlı türkləri, habelə keçmiş Rusiya imperiyası ərazisində yaşayan xalqlar arasında mədəni əlaqələri inkişaf etdirməkdən və onları bir-biri ilə yaxınlaşdırmaqdan ibarət idi. "Azərbaycan" qəzetində cəmiyyətin 22 bənddən ibarət proqramı dərc olunmuşdu[53]. Yenə "Azərbaycan" qəzeti bununla əlaqədar olaraq yazırdı: "Millət və vətən naminə səylərimizin birləşdirilməsi üçün biz vahid məqsəd ətrafında sıx birləşməliyik. Belə məqsəd ancaq "Türk ocağı" kimi müəssisələr ola bilər"[54]. "Müsavat" Partiyasının Bakı Komitəsinin təşəbbüsü ilə 1919-cu ilin dekabrında "Türk ocağı" siyasi klubunun açılması qərara alındı. Bu məqsədlə tərkibinə M.Ə.Rəsulzadə, R.R.Şərifzadə, Ş.Rüstəmbəyov, R.Ağabəyov, Seyid Hüseyn və M.Şeyxzamanov kimi məşhur siyasi xadimlər və mədəniyyət nümayəndələrinin daxil olduqları komissiya yaradıldı.

"Müsavat" Partiyası üzvlərinin iştirakı ilə "Türk gecələri" adlanan təntənəli musiqi konsertləri təşkil olunurdu. Konsert proqramlarının hazırlanması və tərkibinə xüsusi komissiya nəzarət edirdi. Proqramlar kifayət qədər maraqlı və orijinal idi, onlarda digər türk xalqlarının da musiqisinə geniş yer verilirdi. "Türk gecələri" konsertlərində habelə tatarlar, osmanlı türkləri, Azərbaycan və Türkiyə şairləri, artistləri və rəssamları təmsil olunurdular. Axşamların bədii tərtibat hissəsinə rəssam Ə.Əzimzadə rəhbərlik edirdi. Ədəbi vokal hissəyə yazıçı və publisistlərin "Yaşıl qələm" ittifaqı cavabdeh idi. Dövlət truppasının aktyorları isə türk xalqlarının milli həyatından bəhs edən əsərlərin tamaşasını göstərirdilər. Bu əsərlərin "Azərbaycan müstəqilliyi", "Türk tipləri", "Türk qadınının dünyası", "Milli birlik" və s. kimi adları onların məzmunu barədə aydın təsəvvür yaradır. Türk xalqlarının etnoqrafiyası və məişətinə həsr olunmuş "Türk ocağı", "Türkmən çadrası", "Atəşgah", "Şərq salonları" kimi sərgilər təşkil olunurdu. Bu konsertlərdə M.Ə.Rəsulzadə məsul müdir kimi çıxış edirdi[55]. "Müsavat" Partiyasının və Azərbaycan hökumətinin bir çox üzvü və digər siyasi xadimlər də bu konsertlərin keçirilməsində bilavasitə iştirak edirdilər.

Azərbaycan mədəniyyətinin və milli irsinin öyrənilməsinə maraq fövqəladə şəkildə artmışdı. Azərbaycan tarixi, ədəbiyyatı, iqtisadiyyatı, təbiətşünaslığı və coğrafiyası üzrə çoxlu əsərlər meydana çıxdı. Xaricdə Azərbaycanı təbliğ etmək üçün fransız dilində kitabçalar, sənədlər və materiallar nəşr olunurdu.

Bunların içərisində Adilxan Ziyadxanlının "Azərbaycan" kitabını, Əkbərağa Şeyxülislamovun 1919-cu ildə Parisdə fransız dilində nəşr olunmuş "Qafqaz Azərbaycan Cümhuriyyəti" broşürasını, C.Hacıbəyov tərəfindən Versal konfransı üçün hazırlanmış materialları və b. fərqləndirmək olar. Adilxan Ziyadxanlının kitabında Azərbaycan tarixi, mədəniyyəti barəsində materiallar verilmişdir. Bunların içərisində Azərbaycan Cümhuriyyətinin yaradılması və möhkəmləndirilməsi üçün hökumətin iqtisadi və mədəni tədbirləri haqqında məlumatlar diqqəti cəlb edir. M.Ə.Rəsulzadənin tarixi mövzuya həsr olunmuş "İran və Azərbaycan", "Azərbaycanın paytaxtı" məqalələrində Azərbaycan xalqının

mənşəyi, onun qonşu dövlətlər və xalqlarla qarşılıqlı münasibətləri haqqında, Bakının yaranması və inkişafı barəsində qədim tarixçilər və coğrafiyaçılara istinad edən, bu gün də öz aktuallığını saxlayan bir sıra qiymətli fikirlər var[56].

Bununla bərabər, Azərbaycan tarixi və mədəniyyəti barədə ümumiləşdirici materialları özündə birləşdirən bir toplu buraxılması zərurəti kəskin surətdə hiss olunurdu. Məşhur ictimai xadim və yazıçı Yusif Vəzir Çəmənzəminli bu barədə yazırdı: "Allaha şükür ki, bizim tariximiz, ədəbiyyatımız, musiqimiz, teatrımız və b. mədəni nailiyyətlərimiz vardır. Əgər bütün bunlar haqqında yazılsa, onda biz özümüzü dərk edərik və əcnəbilərə bizi dərk etmək imkanı verərik. Bizim vətənimizdə çoxlu tarixi abidələr var. Bunların hər biri haqqında, hər nömrədə ətraflı məlumat vermək zəruridir"[57].

1919-cu ildə cəmisi 6 nömrəsi çıxmış "Övraqi-nəfisə" jurnalı belə bir toplu oldu. Bu jurnal Azərbaycan mətbuatı tarixində ədəbiyyat və incəsənət məsələlərinə həsr olunmuş ilk dövri mətbuat orqanı idi. Burada musiqi, teatr və memarlıq abidələri barəsində məqalələr və fotoşəkillər dərc olunurdu.

Milli özünüdərkin dirçəldilməsi üçün əməli işlər görülür (bu, Azərbaycan hökumətinin məfkurəvi fəaliyyətinin başlıca istiqamətlərindən biri idi), tarixi yerlərin, şəhərlərin və digər yaşayış məntəqələrinin adları bərpa olunurdu. Hökumətin 1918-ci il 30 iyun qərarı ilə Yelizavetpol şəhəri yenidən Gəncə adlanmağa başlandı, Karyagin qəzası isə əvvəlki Cəbrayıl qəzası adını aldı[58]. Milli xüsusiyyətlərinə müvafiq olaraq şəhərlərə, küçələrə görkəmli şəxsiyyətlərin, yazıçıların və şairlərin adları verilirdi. Məsələn, Qazax şəhər Dumasının 1920-ci ilin martında olmuş iclası şəhər küçələrinin adlarının dəyişdirilməsini müzakirə edərək, onların bir çoxuna qazaxlı şairlərin - Samiqin, Arifin, Vaqifin və Nasirin adlarının verilməsini qərara aldı[59]. Respublikanın məktəblərində "Türk xalqlarının tarixi" fənninin o dövrdə böyük ruh yüksəkliyi ilə həyata keçirilən tədrisi də cəmiyyətin həyatında baş verən proseslərlə əlaqədar idi.

Orta təhsil müəssisələrində nəzərdə tutulan islahatla əlaqədar olaraq, şərqşünas A.A.Zimin tərəfindən türk xalqlarının Şərqin ümumi tarixi ilə əlaqələndirilmiş tarixinin proqramı işlənib hazırlandı. Bu proqramda başlıca diqqət milli ictimai hərəkatlara verilirdi. 1919-cu il oktyabrın əvvəllərində Maarif Nazirliyi rusdilli orta məktəblər üçün türk xalqları tarixi üzrə epizodik və sistematik kursların, habelə türk xalqlarının coğrafiyası proqramının tərtib edilməsi üzrə müsabiqə elan etdi. Ən yaxşı layihə hökumət mükafatına layiq görüləcəkdi.

Müstəqillik dövründə Azərbaycanın mədəni həyatında "Səfa", "Nicat", "Nəşri-maarif" cəmiyyətləri kimi mədəni-maarif qurumları mühüm rol oynayırdı. Bu cəmiyyətlər azərbaycanlı əhalinin maariflənməsinə, milli mədəniyyətin inkişafına xidmət edirdilər. Onlar kasıb şagirdlərə maddi kömək göstərir, Azərbaycan dilinin və ədəbiyyatının inkişafına çalışırdılar. "Nicat" cəmiyyəti Bakıda kitabxana-qiraətxana və axşam kursları, xeyriyyə məqsədi ilə konsertlər və elmi mövzuda müzakirələr təşkil etmişdi[60]. "Nəşri-maarif" xeyriyyə cəmiyyəti Azərbaycanın rayonlarında maarifçilik işi aparırdı. Belə ki, Şuşada cəmiyyət tərəfindən "Ulduz" dərnəyi təşkil edilmişdi. Dərnəyin fondunu ayda 25 qəpik məbləğində üzvlük haqları və göstərilən teatr

tamaşalarından alınan vəsait təşkil edirdi. 1920-ci ilin əvvəlində Bakıda "Maariflənmiş əməkçi müsəlman qadınlar" ittifaqının yaradılmasına cəhd göstərildi. İttifaq mədəni-maarif işi aparmaq, qadınlar arasında savad və bilik yaymaq niyyətində idi[61]. Lənkəranda öz qarşısına əhali içərisində mədəni-maarif işi aparmağı məqsəd qoymuş "Lənkəran şəhəri tələbələri və abituriyentləri ittifaqı" yaradıldı.

Qeyd etmək lazımdır ki, Azərbaycan Cümhuriyyəti hökumətinin ictimai birliklərə və ittifaqlara münasibətdə yürütdüyü demokratik siyasət liberal istiqamətli mədəni-maarif cəmiyyətləri şəbəkəsinin geniş yayılmasına və inkişafına şərait yaradırdı. Bu işdə Bakı ümumtəhsil kursları və "Xalq əyləncələri" cəmiyyəti xüsusi fəallıq və təşəbbüskarlıq göstərirdi. Xəzəryanı cəmiyyətin - "Kooperasiya"nın idarə heyəti açılmaqda olan xalq universitetinin bürosuna maliyyə köməyi çərçivəsində 10000 manat pul göndərdi[62]. 1919-cu ilin əvvəllərində Bakı və onun mədən-zavod rayonlarındakı mədəni-maarif cəmiyyətlərini birləşdirmək üçün müəyyən addımlar atıldı.

Mədəni-maarif cəmiyyətləri konfransının çağırılması üçün təşkilat komissiyası seçildi və bir müddətdən sonra "Bakı şəhəri mədəni-maarif müəssisələri ittifaqının nizamnaməsi" təsdiq olunmaq üçün hökumətə göndərildi[63]. Nizamnamədə deyilirdi ki, mədəni-maarif cəmiyyətləri ittifaqının məqsədi Bakı əhalisinin mədəni səviyyəsini yüksəltmək məqsədilə şəhərin bütün mədəni qüvvələrini birləşdirməkdən ibarətdir[64]. Azərbaycan Cümhuriyyətinin mövcudluğu dövründə Bakıda "Əhali ittifaqı", "Tələbələr ittifaqı", "Müsəlman tələbələri ittifaqı" kimi milli və milli azlıqlara məxsus mədəni-maarif cəmiyyətləri var idi.

Cümhuriyyət hökuməti respublikada kitabxana işinin inkişafını da diqqətdən kənarda qoymurdu 1919-cu ildə Bakıda şəhər ictimai məclisinin texniki cəmiyyətləri fəaliyyət göstərirdi. Belinski adına kitabxana şəhər özünüidarəsinin qulluqçularına, yəhudi kitabxanası əhalinin yəhudi hissəsinə xidmət göstərirdi. "Erməni insanpərvər cəmiyyəti"nin kitabxanası da işləyirdi.

1919-cu ildə Balaxanı-Sabunçu, Bibiheybət və Ağşəhər fəhlələri üçün kitabxanalar açıldı[65]. Həmkarlar ittifaqlarının nəzdində də kitabxanalar təşkil olunurdu. Bakıdakı həmkarlar ittifaqı kitabxanalarının ən böyüyü (kitab fondu 2000 cild) açıldı.

1919-cu ilin iyulunda kommunistlər mətbəə işçiləri həmkarlar təşkilatının rəhbərliyini ələ keçirib onun kitabxanasında kütləvi siyasi partiya işi aparmağa nail oldular.

Kütlələrin maariflənməsi istiqamətində "İqla" cəmiyyəti nəzdində fəaliyyət göstərən kitabxana az əhəmiyyət daşımırdı. "Kooperasiyalar ittifaqı"nın kitabxanası da mühüm əhəmiyyət kəsb edir, şəhərin müxtəlif yerlərində özünün şöbələrini açırdı.

Müxtəlif nazirliklər öz əməkdaşları üçün kitabxanalar açırdılar. Məsələn, Ədliyyə Nazirliyi öz əməkdaşları üçün nazirliyin nəzdində hüquqi ədəbiyyat kitabxanası yaratmaq məqsədilə hökumət fondundan 50000 manat ayrılmasına nail olmuşdu[66]. Səhiyyə Nazirliyi öz nəzdində kitabxananın açılmasına 10000 manat ayırmışdı[67]. Azərbaycan hökuməti tərəfindən kitabxana işinin inkişafına böyük yardım göstərilirdi.

Azərbaycan Cümhuriyyəti parlamentinin 1919-cu il sentyabrın 16-da qəbul

etdiyi qanuna görə, xalq məktəbləri kitabxanalarına türk (Azərbaycan) dilində yeni kitablar almaq üçün dövlət xəzinəsindən Xalq Maarifi Nazirliyinin sərəncamına 1000000 manat buraxıldı[68].

1920-ci ilin 28 apreli ərəfəsində Azərbaycan Cümhuriyyətində ümumi fondu 95 min nüsxə kitab olan 11 kitabxana vardı[69].

Muzey işinin inkişaf etdirilməsi üçün bünövrə qoyulurdu. Ədəbi cəmiyyətin üzvləri Q.M.Camalov və M.Ağayevin təşəbbüsü ilə parlament milli İstiqlal muzeyinin təşkil olunması barəsində qərar qəbul etmişdi.

Azərbaycan hökuməti tərəfindən fəhlələr içərisində texniki biliklərin yayılmasına qayğı göstərilirdi. Maarif Nazirliyi fəhlələrin öz biliklərini artırmaq arzusunu və Azərbaycanda, xüsusən də müsəlman əhalisi içərisində texniki təhsilli ustaların kifayət qədər olmadığını nəzərə alaraq, müsəlman fəhlələri üçün tədris türk (Azərbaycan) dilində aparılan texniki kurslar açılması barəsində qərar verdi. Bu kurslar iki yarımşöbəsi - maşınqayırma və elektrotexnika yarımşöbələri olan mexaniki şöbədən ibarət idi. Kursların təhsil müddəti 10 ay idi[70]. Bu kursların fəaliyyətini təmin etmək üçün Xalq Maarifı Nazirliyi tərəfindən 32400 manat vəsait ayrılmışdı[71].

Əsasən 1919-cu ilin başlanğıcı ərəfəsində həmkarlar ittifaqları nəzdində olan mədəni-maarif müəssisələri öz fəaliyyətlərini bərpa etdilər. Onlar bu vaxt artıq Bakı proletariatının başlıca nümayəndəli orqanına çevrilmiş Mərkəzi Bakı Fəhlə Konfransının nəzarəti dairəsində fəaliyyət göstərirdi. Müsavatçılar, kommunistlər, menşeviklər və eserlərin bu fəhlə təşkilatında üstün nüfuz qazanmaq uğrunda mübarizəsi onun mədəni-maarif qurumlarının fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərirdi. Mədəni-maarif təşkilatlarını siyasiləşdirib sinfi mübarizə alətinə çevirməyə çalışan bolşeviklər bu mübarizədə daha çox müvəffəqiyyətə nail olurdular.

Bakı Fəhlə Konfransında seçilən, rayon mədəni-maarif komissiyasının nümayəndələrinin də təmsil olunduğu Mərkəzi Mədəni-Maarif Komissiyası kütlələr arasında öz fəaliyyətini genişləndirirdi.

Mərkəzi Fəhlə Klubunun yeni idarə heyətinin siyahısı Bakı kommunistlər təşkilatının, "Hümmət" təşkilatının, İran kommunist "Ədalət" təşkilatının və Beynəlxalq Gənclər İttifaqının keçmiş üzvləri adından təklif edilmişdi. Seçkilər nəticəsində bolşeviklərin nüfuzu möhkəmləndi. İdarə heyəti bütünlüklə bolşeviklərdən ibarət idi[72].

Bakı bolşeviklərinin təşəbbüsü ilə 1919-cu il iyunun 24-də fəhlə klubları idarə heyətinin konfransı çağırıldı. Konfrans Mərkəzi Klubun idarə heyətinin tərkibinin seçilməsi barəsində bolşeviklərin təklif etdikləri qətnaməni qəbul etdi. Bu qətnaməyə görə, üzvlərinin sayından asılı olmayaraq, hər bir rayon idarə heyəti Mərkəzi Klubun idarə heyətinə dörd nəfər nümayəndəsini seçirdi[73].

Əslində Mərkəzi Fəhlə Klubu Bakıda kommunist hərəkatının mənzil qərargahına çevrildi[74]. RK(b)P Qafqaz Diyar Komitəsi və Bakı kommunist komitəsi bürosu artıq öz iclaslarını onun binasında keçirirdi.

Fəhlə klubları və digər belə təşkilatlar müstəqil milli dövlətçilik əleyhinə aparılan təşviqat işinin ocaqlarına və onların partiya yığıncaqlarının keçirildiyi isti

yuvalara çevrildiyi üçün hökumət bu fəaliyyətin qarşısını almaq üçün tədbirlər görməyə məcbur oldu. Dəfələrlə edilmiş xəbərdarlıqlardan sonra hökumətin göstərişinə əsasən, daxili işlər naziri 1919-cu il dekabrın 9-da Bakıda mövcud olan bütün fəhlə klublarının bağlandığı haqqında sərəncam verdi[75].

Buna cavab olaraq, Fəhlə Konfransının rəyasət heyətinin çağırışı ilə ertəsi gün fəhlələrin tətili başladı. Bu, polis orqanlarını Fəhlə Klubunun binasını açmağa, lakin burada siyasi mövzularda mühazirələr oxunmasını yasaqlamağa məcbur etdi. Fəhlə Klubunun idarə heyəti bir sıra mühazirələrin oxunması üçün icazə almaq məqsədilə Bakı general-qubernatoruna müraciət etdi. General-qubernator həmin müraciətə cavab olaraq yazmışdı: "Yaşadığımız məqam, Bakı şəhəri və onun rayonlarında qüvvədə olan hərbi vəziyyətlə əlaqədar olaraq, mən, mühaziręçinin istək və arzusundan asılı olmayaraq, hər hansı siyasi mövzuda oxunan mühazirələrin hazırkı dövrdə dövlət qayda-qanununa, ictimai sabitliyə və cəmiyyətin qeyri-sabit elementlərinə edəcəyi mənfi təsiri nəzərə alaraq bunu mümkün saymıram"[76].

Lakin 1920-ci il martın 15-də, bir sıra nəticəsiz xəbərdarlıqdan sonra, hökumət yenidən fəhlə klublarını bağlamalı oldu. 1920-ci il martın 23-də Mərkəzi Fəhlə Konfransının rəyasət heyəti və həmkarlar şurasının (Sovprof) idarə heyəti fəhlə klublarının bağlanması ilə əlaqədar olaraq hökumətə etirazlarını bildirdilər. 1920-ci il martın 25-də hökumət Mərkəzi Fəhlə Klubundan başqa bütün klubların işləməsinə icazə verdi.

Beləliklə, əslində kütlələrin maarifləndirilməsi vasitəsi olan fəhlə mədəni-maarif təşkilatlarını kommunistlər kəskin siyasi mübarizəyə qoşdular.

Kütləvi fəhlə maarifçilik təşkilatlarının ən başlıca formalarından biri rayon fəhlə klubları idi. Onların istiqamətləri rəngarəng idi.

Zavağzal fəhlə klubunda həmkarlar ittifaqlarının işçiləri üçün ayyarımlıq həmkarlar hərəkatı və siyasi-iqtisadi kurslar açılmışdı.

Balaxanı rayon klubunun nəzdində Azərbaycan dilində dram dərnəyi təşkil edilmişdi. Burada dərnək üzvlərinin qüvvəsi ilə səhnə tamaşaları göstərilirdi.

Klub tipli müəssisələr sırasına "xalq evləri" də daxil idi. Xalq evləri Bakı şəhərinin mədən-zavod rayonlarının əhalisi arasında mədəni-maarif işi aparmaq üçün mühüm əhəmiyyət daşıyırdı. Onlar bir çox tədbirlərin mərkəzinə çevrilmişdi: burada savadartırma kurslarından tutmuş universitet kurslarına qədər müxtəlif kurs məşğələləri keçilir, kitabxana-qiraətxanalar təşkil edilir, teatr tamaşaları, konsertlər göstərilirdi.

Qaraşəhərdəki xalq evi böyük mədəni-maarif işi aparır, teatr tamaşaları təşkil edirdi. Mövsüm bağlandıqdan sonra dövlət teatrı öz fəaliyyətini burada davam etdirmiş və həftədə iki dəfə opera tamaşası göstərmişdi[77].

Qaraşəhərdəki Xalq Evi Cəmiyyəti nəzdində mayın 1-də mədəni-maarif və musiqi-teatr bölmələri təşkil edilmişdi[78]. İyulun 2-də isə Şamaxı xalq evi təsis edilmişdi[79].

Xalq evinə xeyriyyə köməyi də göstərilirdi. Belə ki, "Uriot" xeyriyyə cəmiyyəti xalq evlərinə avadanlıq alınması üçün 600 manat vəsait ayırmışdı. Məhz bu yardım

sayəsində orada kinematoqrafiya zalı yaradılmış və filmlərin nümayiş etdirilməsinə başlanmışdı.

Beləliklə, qısa vaxt ərzində Bakı şəhərində, onun bütün mədən və zavod ərazilərində Xalq Evi Cəmiyyətinin şöbələri açılmış, böyüklər üçün təşkil edilmiş savad kurslarında beş minə yaxın adam oxumaq və yazmaq öyrənmişdi[80]. Xalq Evi Cəmiyyəti bu kurslara 7 min manatdan çox vəsait xərcləmişdi[81]. Xalq evləri öz təyinatlarına - mədəniyyətin və maarifin əhali arasında geniş yayılması məqsədlərinə tam cavab verirdi.

Lakin fəhlə klublarının və xalq evlərinin qismətinə kifayət qədər ikili, ziddiyyətli və mürəkkəb bir rol düşmüşdü. Bir tərəfdən, onlar mütərəqqi maarifçilik meylinin daşıyıcıları idilər, digər tərəfdən isə onların fəaliyyəti mürtəce xarakter daşıyırdı; çünki Azərbaycan Cümhuriyyətinə düşmən olan bolşeviklər maarifçilik pərdəsi altında onun müstəqillik özüllərini qazıyıb yıxmağa yönəlmiş ideyalarını yayırdılar.

Azərbaycan Cümhuriyyətinin sosial-mədəni sahədə fəaliyyəti ölkədəki azlıqlardan ibarət əhali ilə sıx qarşılıqlı əlaqədə həyata keçirilirdi. Milli azlıqların mədəni-maarif ehtiyaclarının ödənilməsi üçün mövcud imkanlardan (dövlət xərcləri, ictimai təşkilatların və xeyriyyəçi cəmiyyətlərin qüvvələri) istifadə olunurdu.

Azərbaycan hökumətinin demokratik mahiyyətli incə və ehtiyatlı siyasəti sayəsində əhalinin etnik qatlarının mənafe ahəngdarlığı təmin edildi, ilk vaxtlarda bəzi tədbirlərlə əlaqədar meydana çıxmış bir çox anlaşılmazlıq və narazılıqlara baxmayaraq, respublikanın mədəni həyatında bütün millətlərin fəal iştirak etmələrinə nail olundu.

Azərbaycandakı milli azlıqlar özlərinin mədəni-maarif cəmiyyətləri ilə təmsil olunurdular. Rus, erməni, yəhudi, polyak, alman, fars və başqa milli icma və koloniyalara məxsus cəmiyyətlər - "Bakı rus xeyriyyə cəmiyyəti", "Serafim komitəsi", "Bakı erməni mədəni birliyi", "Erməni Miutsyun" tələbə ittifaqı və digərləri sərbəst fəaliyyət göstərirdi. Beləliklə, Azərbaycan hökumətinin həyata keçirdiyi demokratik siyasət nəticəsində liberal təmayüllü mədəni-maarif cəmiyyətləri böyüyür və inkişaf edirdi.

Azərbaycan Cümhuriyyətinin varlığı dövründə milli dirçəliş naminə maarif və mədəniyyətin inkişaf etdirilməsi əsas amil sayılmış və onun həyata keçirilməsi üçün mümkün olan heç nə əsirgənməmişdi. Daxili sabitlik möhkəmləndikcə, müstəqillik qüvvətləndikcə sosial-mədəni sahəni əhatə edən konkret, məqsədyönlü siyasət işlənib hazırlanmış, bu zaman dünyəvi dövlət, təhsil və mədəniyyət prinsipləri əsas götürülmüşdü. Milli özünüdərkin güclü oyanışı, onun yüksəlişi düzgün yola, yaradıcı axara istiqamətləndirilərək inkişaf etdirilirdi. Sosial-mədəni problemlərin həlli zamanı milli mənafelər diqqət mərkəzində saxlanır, meydana çıxan ziddiyyət və çətinliklər demokratik məzmunlu, sivil üsullarla həll edilirdi.

Azərbaycan Cümhuriyyətinin xalq maarifi və mədəniyyət sahəsindəki fəaliyyətinin təhlili belə bir qənaətə gəlməyə imkan verir ki, onun bu istiqamətdə gördüyü işlər mədəni inkişafın qanunauyğun davamı, Azərbaycan maarifçilərinin çoxdankı arzularının yeni şəraitdə gerçəkləşməsi idi.

XI FƏSİL

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN SÜQUTU

1920-ci ilin yazından müsəlman partiya və qruplaşmaları -"Müsavat", "Əhrar", "İttihad", sosialistlər, kommunistlər, bitərəflər arasında mübarizənin güclənməsi respublikada siyasi durumu pozan və sabitsizliyi dərinləşdirən mühüm amillərdən biri idi. Hakim "Müsavat" Partiyasında üzə çıxan ziddiyyətlər, dövlətin daxili və xarici siyasətinin birmənalı qarşılanmaması fraksiya üzvlərinin sayına görə parlamentdə ikinci yerdə olan "İttihad"ın parlamentin fəaliyyətinə təsirini gücləndirir və parlamentdə öz şərtlərini diktə etməsi üçün şərait yaradırdı.

"Müsavat" partiyası hələ 1919-cu ilin dekabrında beşinci hökumət kabinetini təşkil edərək ittihadçıların müqavimətini neytrallaşdırmaq niyyəti ilə onlara koalisiya təklif etmişdi. Belə ki, "Müsavaf"ın konkret məqsədi "İttihad" partiyasının simasında parlamentin sağ hissəsini özünə tərəfkeş etmək idi[1]. Lakin "İttihad" hökumətə daxil olmaq təklifi müqabilində üç şərt irəli sürdü: 1) bütün müsəlman partiyalarının koalisiyasına riayət olunsun; 2) daxili işlər naziri portfeli M.H.Hacınskiyə verilsin; 3) dövlət nəzarəti vəzifəsi bu partiyanın nümayəndəsinə həvalə edilsin[1a].

Dövlət nəzarəti vəzifəsini ələ keçirən "İttihad" bununla da hökumətdə öz gələcək fəaliyyətinin əsas istiqamətini - dövlət strukturlarındakı qanunsuzluqlarla mübarizə aparmaq adı altında "Müsavat"ın əleyhinə kampaniyaçılıq istiqamətini müəyyənləşdirdi. Bu geniş miqyaslı kampaniya daha çox təbliğat xarakteri daşıyırdı. Onların fikrincə, pozuntular və korrupsiyanın daha çox baş verdiyi struktur Ticarət və Sənaye Nazirliyi idi. Bu səbəbdən Nazirlik xüsusi hücumlara məruz qaldı. Nəticədə 1919-cu ilin fevralında əleyhinə kampaniya aparılan nazir müavini Y.A.Əliyev işdən getməyə məcbur oldu. Digər sahələr üzrə geniş yoxlamalar və tədqiqatlar aparılmağa başlandı. Bu kampaniyanın hökumətdən daha çox "Müsavaf"a qarşı yönəldiyini gizlətməyən ittihadçılar hesab edirdilər ki, sui-istifadə məsələlərinə görə müsavatçılar daha çox məsuliyyət daşıyırlar. Hücumlar o səviyyəyə çatmışdı ki, "İttihad" siyasi rəqibini dövlət vəsaitini qanunsuz olaraq özünün partiya təbliğatı üçün istifadə etməkdə ittiham edirdi[2].

"İttihad"ın başladığı kampaniyanı Daxili İşlər Nazirliyində davam etdirən M.H.Hacınskinin həyata keçirdiyi tədbirlər nəticəsində çoxlu məmur xidmətdən kənarlaşdırıldı. M.H.Hacınskinin bu hərəkətləri, həmçinin fəhlə liderləri və kommunistlərlə yaxınlaşması parlamentin müsavatçılar və bitərəflər fraksiyasında etirazlara səbəb oldu. Onu bolşevizmə yuvarlanmaqda ittiham etməyə başladılar. Lakin yoxlamalar bir sıra dövlət orqanlarının işində özbaşınalıq və korrupsiya faktları olduğunu aşkarladı. Xarici işlər naziri F.X.Xoyskinin qohumu, hücum hədəfinə çevrilən Qazaxın general-qubernatoru Aslan Xoyski ittihadçıların tələbi ilə, müsavatçılar və bitərəflər fraksiyasının razılığı olmadan, M.H.Hacınski tərəfindən vəzifədən kənarlaşdırıldı. Bu hərəkətlər sonuncunun nazir vəzifəsindən geri çağırılması üçün

daha bir bəhanə oldu.

"İttihad" partiyası bir sıra məsələlərə münasibətdə bir qədər bolşevikpərəst mövqedən çıxış edirdi. Belə ki, "İttihad" qəzeti o vaxt rəğbətlə yazırdı: "Bolşevizm müsəlmanlardan kənarda güclü qüvvə olduğuna və bütün bəşəriyyəti, o cümlədən müsəlmanları əsarət və zülmün bütün formalarından, Avropa kapitalizmi və imperializmindən azad etmək uğrunda mübarizə apardığına görə partiya tərəfindən müdafiə edilir"[3].

Partiyanın qəzetində islamın - "təkcə dini təlim deyil, həm də müsəlmanların siyasi və ictimai həyatının çıxış nöqtəsi olan" bu etiqadın sosializmlə birliyinin mümkünlüyü haqqında məqalələr dərc olunurdu[4]. "İttihad"ın bu fəaliyyəti Azərbaycan xalqının dövlət müstəqilliyinə qarşı çevrilmiş siyasət - Azərbaycan Cümhuriyyətinin varlığına qəsd idi və yalnız hökumət böhranı deyil, həm də bütün dövlət hakimiyyəti böhranını dərinləşdirirdi.

"İttihad" kommunizmin Qərb imperializminə qarşı mübarizədə müsəlman dünyasına göstərdiyi köməyi onun ateist xarakterindəki günahı yuyub təmizləyən əvəz sayaraq kommunistlərlə ittifaqa çağırır, Rus Sovet ordusunun Antantaya qarşı mübarizə aparan Türkiyə ilə birləşməsi üçün Azərbaycana buraxılmasını tələb edirdilər. Bir-birinə əks cəbhələrə parçalanmış Türkiyənin özündə də müəyyən qüvvələr belə mövqe tuturdu. Bu hadisələrlə bağlı olaraq, müharibədən sonra Azərbaycanın Türkiyə ilə münasibətləri yeni şəkildə qurulurdu.

Türkiyə qoşunları Mudros müqaviləsinin şərtinə görə Azərbaycandan çıxarılsa da, burada Türkiyə amili qalmaqda idi. Mustafa Kamal müttəfiqlərə qarşı çıxdıqdan sonra Türkiyənin nüfuzu Azərbaycanda yenidən yüksəldi, "gənc türklər" də sovet Rusiyası ilə əməkdaşlıqda Qərb imperializminə qarşı mübarizə aparmaq üçün mümkün üstünlüklər görürdülər. Buna görə də həm onlar, ham də kamalçılar sovet Rusiyası ilə sıx əlaqə yaratmağa çalışırdılar. Azərbaycan isə bu əlaqələrin yaradılması üçün ən əlverişli yer hesab olunurdu, çünki sovet köməyi müharibə edən Anadoluya Azərbaycandan keçərək çatdırıla bilərdi. Buna görə də Mustafa Kamal müttəfiqlər tərəfindən Cənubi Qafqaz respublikalarının tanınmasını çox narahatlıqla qarşıladı. Buna baxmayaraq, Türkiyənin azadlıq müharibəsi Azərbaycanda cəmiyyətin ən geniş təbəqələrindən getdikcə daha çox tərəfdar qazanırdı.

Azərbaycan cəmiyyətindəki sabitliyə ciddi təsir edən amillərdən biri də "Müsavat" partiyasının sıralarındakı qeyri-müəyyənlik idi. Partiyanın sol qanadı kifayət qədər guclü şəkildə ondan ayrılmağa meyillənmişdi. Bu qanad hökumətin daxili və xarici siyasətini kəskin şəkildə tənqid edirdi. Bitərəflər qrupunun lideri Behbud Xan Cavanşir və "Müsavat" partiyasının üzvü M.H.Hacınski də Sovet Rusiyası ilə dostluq münasibətləri yaradılmasına tərəfdar idilər[5]. Azərbaycanın siyasi xadimlərinin dövlət idarəçiliyi və siyasət-diplomatiya təcrübəsinin olmaması da özünü göstərirdi. Bu amillər kommunistlərin uğurlarına əhəmiyyətli dərəcədə kömək edirdi. Onların sonrakı

fəaliyyəti üçün zəruri şərt - bütün kommunist, sosialist qruplarının yalnız bir partiyada birləşmələri çatışmırdı.

Birləşmədən bir qədər əvvəl "Hümmət" Partiyasında parçalanma baş verdi. Parçalanmadan sonra sol hümmətçilər R.A.Axundovun başçılıq etdiyi Azərbaycan eserlər partiyası ilə birləşməyə cəhd göstərdilər. Təşəbbüs uğursuzluqla nəticələndi. Müsəlman eserlərin kommunistlərlə əlaqə yaratmaq cəhdi də baş tutmadı, çünki eserlərin fikrincə, formalaşmaqda olan Azərbaycan Kommunist Partiyasının tərkibinə yalnız azərbaycanlılar daxil olmalı idi.

Ədalətçilərin fəaliyyəti kommunistlərin rəhbərliyi altında genişləndi, 1919-cu ilin əvvəllərində keçirilən konfransda onların B.D.Ağayev, M.D.Ağayev, R.Kərimov, I.Basir, S.Ç.Cavadzadədən (Pişəvəridən) ibarət RK(b)P Bakı təşkilatı, "Hümmət" və "Ədalət" MK seçildi[6].

Azərbaycan kommunist təşkilatlarının 1920-ci il fevralın 11-12-də Bakı şəhərində keçirilən I qurultayında Azərbaycan Kommunist Partiyası yaradıldı[7]. Bu vaxtdan etibarən kommunistlərin silahlı üsyana hazırlığı başlandı. Onlar Bakıda silahlı çıxışlarının uğurunu Qızıl Ordunun Şimali Qafqazda qələbələri, Xəzər gəmiçiliyinin bərpa edilməsi və Həştərxan-Xəzər Donanmasının göstərə biləcəyi köməklə bağlayırdılar. Həştərxan-Xəzər Donanmasının komandanlığı isə, öz növbəsində, Bakıda sonrakı əməliyyat hərəkətlərini genişləndirməyi sovet qoşunları tərəfindən Petrovsk limanı tutulduğu halda planlaşdırırdı[8].

Respublikada siyasi vəziyyətin sabit olmaması parlamentin və hökumətin işində də öz əksini tapdı. Yeni hökumətdə əmək və əkinçilik naziri vəzifəsini tutmuş Ə.Pepinov 1919-cu il dekabrın 28-də həmkarlar təşkilatlarının iştirakı ilə fəhlə məsələsinə dair müşavirə keçirdi. Nazir həmkarlar təşkilatlarının işlərinə nazirliyin qarışmayacağını vurğulayaraq, fəhlələri əmin etdi ki, fəhlə klubuna və fəhlə təşkilatlarına polis basqınları dayandırılacaq, Bakı hərbi general-qubernatorluğu ləğv ediləcək, yığıncaq azadlığı məhdudlaşdırılmayacaq və əmək haqqı artırılacaqdır. Nazir fəhlələrdən ona kömək göstərmələrini xahiş etdi və fəhlələr isə onun verdiyi bütün vədlərə əməl edildikdən sonra kömək göstərəcəklərini bildirdilər[9].

Sosialist nazirin fəhlə klubları ilə bağlı bəyanatı təsadüfi xarakter daşımırdı. Hökumət Mərkəzi Fəhlə Klubunu bağlamaq üçün dəfələrlə cəhd göstərmişdi. İlk dəfə 1919-cu il dekabrın 9-da MFK-nın binası möhürlənmişdi[10]. Buna cavab olaraq, Fəhlə Konfransının Rəyasət heyəti ertəsi günə nəzərdə tutulan etiraz tətilinə çağırışla çıxış etmiş və hökumət orqanlarını Mərkəzi Fəhlə Klubu binasını açmağa məcbur etmişdi.

Fəhlə sinfinin mənafeyini müdafiə etmək şüarı ilə kommunistlər milli hökumətə qarşı mübarizə aparırdılar. Respublikanın əsil mənafelərinə zidd, Azərbaycan müstəqilliyinə təhlükə olan bu siyasəti əslində Moskva diktə edirdi. Kommunist təbliğatçıları fəhlələrin öz hüquqları uğrunda mübarizəyə qarşı Daxili İşlər Nazirliyinin mane olması barədə fəhlələr içərisində kampaniya aparırdılar. Respublikanın daxili işlər naziri M.Vəkilov bununla əlaqədar olaraq bəyanat verərək Nazirliyin fəhlələrin öz

iqtisadi və hüquqi vəziyyətini yaxşılaşdırmaq uğrunda mübarizəsinə qarışmayacağını bildirdi, eyni zamanda qeyd etdi ki, dövlətə qarşı yönələn bütün çıxışları yatırmaq üçün hər vasitədən istifadə ediləcəkdir[11].

Bununla əlaqədar olaraq, 1920-ci il martın 15-də polis kommunist təbliğatçıları D.Bünyadzadə, K.İsmayılov. S.Fətəlizadə və başqalarını həbs etdi, Fəhlə Klubunu da yenidən bağladı[12].

Bakı möhkəmləndirilmiş rayonunun general-qubernatoru Murad-Girey Tlexasın məlumatından aydın olurdu ki, keçirilmiş həbslər "bolşevik qəsdinə" qarşı yönəldilmişdir, silahlı üsyan hazırlamağa və qanuni hakimiyyəti devirməyə çalışanların fəaliyyət mərkəzi fəhlə klublarıdır. Tlexas qeyd etdi ki, hökumət fəhlələrin həqiqətən də ağır olan maddi vəziyyətini yüngülləşdirmək üçün qəti tədbirlər görəcəkdir. Hökumət hesab edirdi ki, bu məsələlər qanlı döyüşlər, hətta xaricdən düşmən qüvvələri cəlb etməklə deyil, bütövlükdə cəmiyyətin qanunlara riayət edəcəyi və bütün münaqişələri dinc yolla nizamlayacağı şəraitdə həll oluna bilər.

Parlamentdə çoxsaylı siyasi partiyaların olması və onların arasındakı daimi mübarizə Azərbaycan Cümhuriyyətinin mövcud olduğu bütün müddət ərzində hökumətin vəziyyətini ağırlaşdırırdı. Şəxsi və partiyalararası çəkişmələrdən irəli gələn daimi və uzunmüddətli hökumət böhranları, hamını öz iradəsinə tabe edə bilən qətiyyətli rəhbərlərin başçılıq etdiyi nizamlı siyasi qrupların olmaması, hökumətə öz inzibati aparatını möhkəmləndirməyə və dövlət işi, xüsusən ölkənin müdafiəsinə hazırlıq kimi ən mühüm məsələ ilə ciddi məşğul olmağa imkan vermirdi.

Ələmli 28 aprel günündən düz 4 ay əvvəl "Müsavat" Partiyasının görkəmli üzvləri və parlamentin bitərəflər qrupu - cəmi 12 nəfər F.Xoyskinin kabinetində toplaşdılar. Toplantıda baş nazir N.Yusifbəyli başda olmaqla müsavatçı nazirlər də iştirak edirdilər. Bu tarixi müşavirədə ölkədə vəziyyətin son dərəcə ciddi olması yekdilliklə etiraf olundu və dərhal təxirəsalınmaz tədbirlər görülməsi tələb edildi. Hökumətə aşağıdakı tədbirlərdən ibarət təklif verildi.

1. M.H.Hacınskini daxili işlər naziri vəzifəsindən kənarlaşdırmaq və onun yerinə kommunistlərlə mübarizə aparmağa qabil olan adam təyin etmək;

2. M.H.Hacınski ilə birlikdə digər sosialist nazirlərin gedəcəyi halda onları dərhal başqaları ilə əvəz etmək;

3. Parlamenti buraxmaq və hökumətə xarici siyasət və ölkənin müdafiəsi işində ən geniş səlahiyyətlər vermək;

4.6 aydan sonra Müəssislər Məclisinə seçkilər keçirmək[13].

Lakin hadisələrin sonrakı gedişi nəzərdə tutulan bu tədbirləri həyata keçirməyə imkan vermədi. Sovet Rusiyası tərəfindən təhlükə getdikcə artırdı. Buna görə də 1920-ci il yanvarın 2-də RSFSR Xalq Xarici İşlər komissarı Q.V.Çiçerinin ağqvardiyaçı Denikin ordusuna qarşı hərbi ittifaq bağlamaq təklifi ilə[14] xarici işlər naziri F.X.Xoyskiyə göndərdiyi nota Azərbaycanı Rusiyanın daxili münaqişələrinə cəlb etmək və bununla da gələcəkdə Azərbaycanı işğal etmək üçün nəzərdə tutulan siyasi manevrdən başqa bir şey deyildi. Çiçerin notasının əsas

məqsədini düzgün başa düşən Azərbaycan xarici işlər naziri F.Xoyski onun təklifini rədd etdi. F.Xoyski özünün 1920-ci il yanvar tarixli cavab məktubunda məhz bu faktı vurğulayırdı ki, Denikin məsələsi Rusiya dövlətinin daxili işidir və Azərbaycan suveren dövlət kimi başqa suveren dövlətin daxili işlərinə müdaxiləyə yol verə bilməz. Bununla da nazir müstəqil Azərbaycanın daxili işlərinə qarışmamağı tələb etdi.

Bolşevik təhlükəsinin real olduğunu nəzərə alan F.Xoyski hökumətdən respublikada fövqəladə vəziyyət tətbiq etməyi, parlamentin buraxılmasını, yaxın vaxt ərzində Müəssislər Məclisinə seçkilər keçirilməsini tələb etdi[15].

Sovet Rusiyasına münasibət məsələsi Azərbaycanın siyasi partiyaları arasında əsas ziddiyyət nöqtəsinə çevrildi. Sovet Rusiyası hökuməti ilə qarşılıqlı münasibətlər yaradılması məsələsində partiyanın mövqelərində kəskin qütbləşmə baş verdi. 1920-ci il yanvarın 15-də A.Səfikürdski sosialist fraksiyası adından xarici işlər naziri F.Xoyskiyə sovet Rusiyasının notasına hökumətin münasibəti barədə sorğu göndərdiyini bildirdi və Azərbaycan hökumətinin cavabını fraksiyaların nümayəndələri ilə birlikdə müzakirə etməyi təklif etdi. Bu təklif qəbul olunmadığı halda, hökuməti yaranmış problemin həllindən uzaqlaşdıracağını və parlamentin fəaliyyətində ixtilaflar törədəcəyini nəzərə alan çoxluq sorğunun parlamentdə müzakirəsini rədd etdi və hökuməti müdafiə etməyi qərara aldı[16].

Bu fakt göstərdi ki, partiya fraksiyaları arasında Denikin təhlükəsinə münasibətdə mövcud olan birlik bolşevik Rusiya ilə bağlı məsələdə artıq yoxdur. Sosialistlər və ittihadçılar Çiçerinin notasına müsbət cavab vermək tərəfdarı idilər.

Hökumətin siyasətinə qarşı onun bəzi üzvləri də müxalifətçi mövqe tutdular. Əsas mübahisə Sovet Rusiyasına loyal münasibətin tərəfdarı daxili işlər naziri M.H.Hacınski ilə Rusiya təzyiqinə qarşı radikal tədbirlər görülməsinin tərəfdarı olan xarici işlər naziri F.Xoyski arasında baş verdi. Radikallar qalib gəldilər və 1920-ci il fevralın 18-də M.H.Hacınski daxili işlər naziri vəzifəsindən getdi, lakin ticarət, sənaye və ərzaq naziri vəzifəsini tutdu[17].

Martın ortalarında müsavatçılar və bitərəflər fraksiyasının birgə iclasında bu məsələ tam kəskinliyi ilə qoyuldu. M.H.Hacınski öz baxışlarını şərh etdi. F.X.Xoyski başda olmaqla digər qrup M.H.Hacınskinin məruzəsini mənfi qarşıladı. F.X.Xoyski qeyd edirdi ki, "heç bir rus partiyası, heç bir Rusiya hökuməti heç vaxt Zaqafqaziya respublikasının müstəqilliyini tanımayacaq və yalnız Qafqaz xalqlarının güclü ordusu və əldə silah müstəqilliyini qorumaq əzmi olduğu zaman Qırmızı Moskva bizimlə hesablaşacaq və bizim sərhədlərimizi keçməyəcəkdir"[18]. Buna görə də sərt xəttin tərəfdarları respublikanı müdafiə etmək üçün bütün zəruri tədbirləri görməyə və ölkəni kommunist ünsürlərindən və onlara rəğbət bəsləyənlərdən təmizləməyə çağırırdı. Bu tədbirləri həyata keçirmək üçün onlar hökumətə fövqəladə səlahiyyətlər verməyi və vaxt itirmədən qonşu respublikaları Qafqazın birgə müdafiəsinə çağırmağı təklif etdilər. Lakin sərt kurs tərəfdarlarının təklifləri qəbul edilmədi[19].

Azərbaycan hökumətində daxili mübarizənin davam etdiyi bütün dövr ərzində

Sovet Rusiyası tərəfindən təzyiq hiss olunurdu. Xarici işlər naziri F.X.Xoyskinin Rusiya ilə hərbi ittifaqdan imtina etməsinə cavab olaraq, 1920-ci il yanvarın 23-də Q.V.Çiçerin ikinci notanı göndərdi və Azərbaycanı Rusiyadakı hərbi münaqişəyə cəlb etmək üçün yenidən təşəbbüs göstərdi. Yeni notada Azərbaycan hökumətinin müstəqil siyasətindən Rusiya Xalq Xarici İşlər Komissarlığının açıq narazılığı ifadə edilmişdi. Nazir Azərbaycan hökuməti tərəfindən "onun notası"nın səsinə səs verən hər hansı bir əks-səda doğurmamasından şikayətlənir və "onun atdığı addımın uğursuz olmayacağına" ümid bəslədiyini bildirirdi[20].

Sovet Rusiyasının Azərbaycan Cümhuriyyətinə münasibətində göstərdiyi bu diplomatik fəallıq həm iqtisadi, həm də siyasi amillərlə izah olunurdu. 1920-ci ilin əvvəllərində Rusiyanın özündə vətəndaş müharibəsi qurtardıqdan sonra sovet hökuməti qarşısında dağılmış xalq təsərrüfatını bərpa etmək kimi çox çətin və mürəkkəb vəzifənin yerinə yetirilməsində neft amili mühüm əhəmiyyət kəsb edirdi. 1920-ci ilin yanvar-mart aylarında iki ölkə arasında baş vermiş diplomatik qarşıdurmanın əsasında məhz bu problem dayanırdı. 1920-ci il martın 17-də V.İ.Leninin Qafqaz cəbhəsi Hərbi-İnqilabi Şurası adından göndərdiyi teleqram sovet hökumətinin Azərbaycana münasibətindəki gizli niyyətlərindən xəbər verir: "Bizim üçün Bakını ələ keçirmək son dərəcə vacibdir. Bütün səyləri bu istiqamətə yönəldin, həm də bəyanatlar sırf diplomatik olmalıdır, möhkəm yerli Sovet hakimiyyətinin hazırlanmasında maksimum yəqinlik əldə edilməlidir"[21].

F.X.Xoyski Q.V.Çiçerinin yeni notasını cavabsız qoymadı və 1920-ci il martın 7-də Azərbaycan xarici işlər naziri daha qətiyyətli şəkildə tərtib olunmuş üçüncü notasını göndərdi. F.X.Xoyski rus və Azərbaycan xalqları arasında mehriban qonşuluq münasibətlərinin yaradılmasının vacibliyini etiraf edərək bildirdi ki, danışıqlar məhz bu istiqamətdə aparıla bilər. Notada xüsusən o fikir vurğulanırdı ki, RSFSR tərəfindən heç bir qeyd-şərt qoyulmadan Azərbaycan Cümhuriyyətinin suverenliyinin tanınması bu danışıqların başlanmasının şərti ola bilər[22]. F.X.Xoyski qeyd edirdi ki, mehriban qonşuluq münasibətlərinin yaradılması yalnız hər iki tərəfin suverenliyi əsasında həyata keçirilə bilər və məhz bu cəhətdən Azərbaycan hələ sovet Rusiyası tərəfindən heç bir həmrəylik görməmişdir[23].

Siyasi dairələrdə Rusiya ilə əlaqələr yaratmağın vacibliyi yaxşı başa düşülürdü. Bu əlaqələrin pozulması nəticəsində Azərbaycan iqtisadiyyatı, xüsusən neft sənayesi ağır böhran keçirirdi. 1920-ci il yanvarın əvvəllərində Bakı anbarlarında neft ehtiyatları (250 milyon puddan çox) şəhərin adi ehtiyac normasından üç dəfə çox idi. Nəticədə hasil edilən neftin miqdarı ixrac edilən neftin miqdarına uyğun gəlmirdi. Bakıda orta hesabla ayda 18-19 milyon pud neft çıxarılır, amma onun cəmi 5-6 milyon pudu ixrac edilirdi[24].

Buna görə də sovet Rusiyası ilə iqtisadi əlaqələr yaradılması və əmtəə mübadiləsinin başlanması qaçılmaz zərurətə çevrilmişdi. Lakin belə əmtəə mübadiləsi yalnız xalqların hüquqi bərabərliyi və suverenliyi prinsipləri əsasında mümkün idi. Deməli, obyektiv reallığın özü Rusiya ilə münasibət məsələsinin həllini irəli sürürdü. Maraqlıdır ki, hətta Antanta hökumətləri müttəfiqlərin sovet hakimiyyəti və bolşeviklərə münasibətdə siyasətində dəyişiklik etməyərək 1920-ci il yanvarın

16-da Rusiyaya qarşı iqtisadi blokadanı dayandırmaq və onunla ticarətə icazə vermək haqqında qərar qəbul etdilər.

Belə şəraitdə sərt siyasət kursunun tərəfdarları öz xətlərini davam etdirməkdə getdikcə daha çox çətinlik çəkirdilər. Sovet Rusiyası xeyrinə çıxışlar getdikcə daha tez-tez səslənirdi.

"Müsavat"ın M.H.Hacınskini daxili işlər naziri vəzifəsindən geri çağırmaq niyyətindən xəbər tutan "İttihad" hökumət koalisiyası haqqında öz razılaşmasını ləğv etmək və hökumətdəki nümayəndəsini geri çağırmaq haqqında qərar qəbul etdi[25].

Daxili işlər naziri vəzifəsinə yeni namizəd məsələsində "Müsavat" heç bir güzəştə getmək istəmədi və bu vəzifəyə yalnız "Müsavat" Partiyasının üzvünü irəli sürəcəyini bildirdi. Bu, hökumətin tərkibi haqqında partiyalar arasında bağlanmış müqavilənin pozulması demək idi, lakin bu addım bolşeviklərin və digər qüvvələrin dövlətə zidd fəaliyyətinə qarşı qətiyyətli mübarizə aparmaq əzmi və zərurətindən irəli gəlirdi. Kompromisə meyli olan M.H.Hacınski bu vəzifənin öhdəsindən gələ bilmirdi, Daxili İşlər Nazirliyi isə digər dövlət təşkilatları, xüsusən ordudan fərqli olaraq, bolşevik təbliğatına məruz qalmamış yeganə orqan idi. Daxili İşlər Nazirliyini gücləndirmək üçün "Müsavat" Partiyası fevralın 23-də bu vəzifəyə hökumətin ən gənc üzvü olan M.Vəkilovu, onun müavini vəzifəsinə isə partiyanın radikal mövqeli liderlərindən olan Ş.Rüstəmbəyovu məsləhət gördü. Məhz onların səyi ilə dövlətə zidd ünsürlərə qarşı fəal mübarizə başlandı, bolşeviklər içərisində həbslər keçirildi, fəhlə klubları və ən irticaçı, ciddi müxalifət mövqeyində olan qəzetlər "Yedinaya Rossiya", "Novıy mir" və s. bağlandı.

Amma bu tədbirlər digər parlament fraksiyalarının kəskin narazılığına səbəb oldu. Yeni təyinatlardan razı qalmadığını bildirən "İttihad" Partiyası Baş nazir Yusifbəyliyə partiyalarla məsləhətləşməyi və Hacınskini nazir vəzifəsində saxlamağı təklif etdi[26].

Lakin partiya fraksiyaları arasında danışıqlar heç bir müsbət nəticə vermədi. "İttihad" Partiyası "Müsavat"ı hakimiyyəti zorla ələ keçirməkdə ittiham etməkdən də çəkinməyərək bildirdi ki, "Müsavat" parlamentdə çoxluğu təsadüfən qazandığından onun iqtidarda olması qanunsuzdur. "İttihad" Partiyasının mətbuat orqanı yazırdı: "Yalnız xalqın öz iradəsini sərbəst bildirməsi şəraitində keçirilən seçkilər nəticəsində çoxluq qazanan partiya özünü hakim partiya hesab edə bilər. "Müsavat" Partiyası isə özünün say çoxluğunu Tiflisdən gətirmiş və polis satraplarının şallaqları ilə artırmışdır[27]. Bu qəbil antimüsavat təbliğatı ilə kommunistlərin rəğbətini qazanmağa çalışan "İttihad" hökuməti onlara qarşı hakimiyyət tədbirlərinin də əleyhinə çıxır və bildirirdi ki, kommunistlərlə qamçı ilə yox, kökə dilində danışmaq olar və lazımdır[28]. Martın 20-də sosialist-nazir Ə.Pepinov parlamentin iclasında Fəhlə Klubunun bağlanması və keçirilmiş həbslərlə bağlı etiraz bəyanatı verdi. Onun bu bəyanatını təcili müzakirə etmək təklifi hökumət üzvlərinin əksəriyyəti tərəfindən rədd edildi. Parlamentin sonrakı iclasında Ə. Pepinov öz partiyasının qərarına əsasən istefaya getdiyini bildirdi[29] və martın

23-də nazir səlahiyyətlərindən əl çəkdi[30]. Bu hadisə vəziyyəti mürəkkəbləşdirdi. Ə.Pepinovun ardınca aprelin 9-da digər sosialist-nazir Cəmo Hacınski də istefa verdi[31]. Sosialistlərin və "İttihad" nümayəndələrinin getməsi hökumət böhranını kəskinləşdirdi. Hökumətdə qalan müsavatçılar artıq Nazirlər kabinetinin süqutunun qarşısını almaq iqtidarında deyildilər. Sosialist fraksiyası radikal-sosialist hakimiyyəti yaradılmasını təkid edirdi. Baş nazir kimi M.Y.Cəfərov, M.H.Hacınski, M.Ə.Rəsulzadənin adları çəkilirdi. Əhrarçılar da yeni iqtidarın yaradılması mövqeyində dururdular. Onlar göstərirdilər ki, "...hadisələr hökumət üzvlərinin əksəriyyətinin nəinki radikallaşma yolunu tutmaq istəmədiyini, hətta onların vəziyyəti daha da kəskinləşdirdiyini və pisləşdirdiyini sübut edir"[32]. 1920-ci il aprelin 15-də Aslan bəy Qardaşov "Əhrar" fraksiyası adından koalisiyadan çıxdığını və öz nümayəndələrini hökumətdən geri çağırdığını bəyan etdi[33].

Beləliklə, müstəqillik mövqeyində duran bütün siyasi qüvvələrin səmərəli işbirliyi quracağına bəslənən ümidlər özünü doğrultmadı. Sovet təhlükəsinə qarşı mübarizə üçün ümumi platforma hazırlamaq mümkün olmadı, nəticədə sovet qoşunlarının Azərbaycan sərhədlərinə yaxınlaşması haqqında alınan ilk xəbərlər hökumətin dağılmasına gətirib çıxartdı.

N.Yusifbəyli kabineti üzvlərinin istefası vəziyyəti dəyişdirmədi. Yaranmış vəziyyətdən üç çıxış yolu görünürdü: 1) hökumət yalnız "Müsavat" Partiyası üzvlərindən təşkil olunur; 2) birgə yaradılmış platforma əsasında bütün siyasi fraksiyaların - koalisiyası yaradılır; 3) "Müsavat" hakimiyyətdən gedir və digər partiyalar hökumət təşkil edir. Lakin bu variantlar icra hakimiyyətinin sabitliyinə təminat vermirdi. "Müsavat"ı siyasi səhnədən çıxarmağa çalışan "İttihad" üçüncü varianta nail olmağa çalışır, əks halda hökumətdə iştirakdan imtina edəcəyi ilə hədələyirdi[34].

Birpartiyalı hökumət mövcud şəraitdə qeyri-mümkün idi. Çünki ən böyük fraksiyada - müsavatçılar və bitəriflər fraksiyasında parçalanma baş vermişdi. Parçalanmanı aradan qaldırmaq və yaradılan kabinetdə liderliyi saxlamaq üçün hakim partiya yeni hökumətin təşkilini M.H.Hacınskiyə tapşırdı və ona bütün parlament fraksiyaları ilə danışıqlarda hərəkət sərbəstliyi verdi.

Hökumət başçısı vəzifəsini tutmaq imkanı olmayan "Əhrar" və "İttihad" partiyaları müsavatçıların ən loyal nümayəndəsi saydıqları M.H.Hacınskinin namizədliyi ilə razılaşdılar. Sosialistlər üç nazir vəzifəsini tələb edir, daxili işlər, xarici işlər və hərbi nazir vəzifələrinə C.Hacınski, A.Səfikürdski və B.Rzayevi təklif edirdilər.

M.H.Hacınski bu vəzifələri verməkdən imtina etdiyinə görə sosialistlər nazir vəzifələrinin konkret bölüşdürülməsini müzakirə etmədən gələcək hökumətin ümumi platformasını hazırlamağı təklif etdilər[35].

Yeni hökumətin təşkili prinsipləri ilə razılaşmayan "Müsavat" Partiyası üzvlərinin bir hissəsi M.H.Hacınskinin yaratdığı hökumətə daxil olmaq təklifindən imtina etdilər. Müsavatçıların mövqelərinin zəifləməsi nəticəsində hakimiyyəti ələ

keçirmək üçün fəal şəkildə silahlı üsyana hazırlaşan kommunistlərin nüfuzu güclənirdi.

Azərbaycan kommunist təşkilatları əsas gücü fəhlələrin və döyüş dəstələrinin silahlanmasına sərf edir, silahlı üsyanın hazırlanmasını özlərinin ən yaxın məqsədləri hesab edirdilər. Azərbaycan kommunistlərinin Həştərxanla əlaqəsi bu sahədə işi yüngülləşdirdi. Həştərxan vasitəsilə Moskvadan göstərişlər daxil olur, bolşevik fəalları, silah ehtiyatları və pul vəsaiti gətirilirdi.

Bakıdan Həştərxana çox böyük təhlükə altında benzin, neft və s. aparan qayıqlar göndərilirdi. Bakı radiostansiyası orada işləyən kommunistlərin vasitəsilə Həştərxan, Moskva, Krasnovodsk və s. ilə əlaqə yaratmışdı[36]. 1920-ci ildə Xəzərdə naviqasiya başladıqdan sonra Bakı limanı ərazisinin güclü nəzarət altında saxlanılmasına baxmayaraq silah gətirilməsi daha da gücləndi[37]. Bu dövrdə V.İ.Leninin göstərişilə RK(b)P-nin Bakı Komitəsinin sərəncamına "hərbi məqsədlər üçün" 15 milyon manat pul göndərilmişdi[38]. Silah Həştərxandan başqa Orta Asiyadan da gətirilirdi. 1920-ci ilin mart ayı ərzində Türküstan cəbhəsi komandanlığının köməyi ilə Krasnovodskdan Bakıya qayıqlarla 2 minə yaxın tüfəng, çoxlu döyüş sursatı və pul vəsaiti gətirilmiş, bunlar Qaraşəhərdə və Bayılda düzəldilmiş xüsusi anbarlarda gizlədilmişdi[39].

Qızıl ordunun durmadan cənuba irəliləməsi və Qərb ölkələrindən kömək almağa ümidlərin getdikcə azaldığı bir şəraitdə Azərbaycanda yaranmış vəziyyət nikbinlik üçün heç bir əsas vermirdi. Yeni hökumət təşkil etmək cəhdləri müxtəlif partiyalar arasında kəskin siyasi mübarizə fonunda baş verirdi.

Yeni hökumət kabineti yaratmaq səlahiyyəti almış M.H.Hacınski Azərbaycan kommunistləri ilə danışıqlara girərək, onlara nazir vəzifələri təklif etdi. Lakin kommunistlər bu təklifə razı olmadılar. Həmin dövrdə artıq kommunist partiya təşkilatının üzvü olan Ə.H.Qarayev bəyan etdi ki, "...Siz Azərbaycanda kommunist hərəkatına münasibətdə fəal siyasət yeritməsəniz, biz yaxın vaxtlarda sizin hökumətinizin əleyhinə çıxmayacağıq"[40].

Həmin Ə.H.Qarayev 1920-ci il martın 30-da Dağıstanda Sovet qoşunlarının komandanı B. Şeboldayevə tamamilə başqa məzmunda teleqram göndərdi: "Ən yaxın günlərdə Bakıda çevrilişə hazırlaşırıq. Hərəkat başlanandan əvvəl öz yürüşümüzün məqsədləri haqqında Azərbaycan fəhlələrinə və kəndlilərinə müraciətnamə buraxacağıq"[41].

1920-ci il aprelin 15-də F.X.Xoyskinin Q.Çiçerinə sonuncu notasında göstərilirdi ki, "...Azərbaycan Cümhuriyyəti sərhədləri yaxınlığında Dərbənd rayonunda Rusiya Sovet hökumətinin xeyli hərbi qüvvələrinin cəmlənməsi müşahidə olunur. Sovet hökumətinin niyyətlərindən xəbərsiz olan Azərbaycan hökuməti göstərilən rayonlarda qoşunların cəmlənməsinin səbəb və məqsədləri haqqında təcili xəbər verməyi xahiş edir"[42]. Bu nota cavabsız qaldı. Yaxınlaşan "bolşevik təhlükəsinin" bütün ciddiliyini başa düşən F.X.Xoyski özünün həmkarı Y. P. Gegeçkoriyə hələ 1919-cu il iyunun 27-də Gürcüstanla Azərbaycan arasında general Denikinə qarşı yönəlmiş birgə müdafiə taktikasının şərtlərini reallaşdırmaq üçün zəruri tədbirlər görməyi təklif etdi.

Lakin Azərbaycanla hərbi əlaqələrin belə konkretləşdirilməsi artıq o

dövrdə Gürcüstan hökumətinin mənafeyinə uyğun gəlmirdi. Həmin dövrdə Gürcüstan nümayəndəsi Uraqadze Moskvada öz hökuməti adından Çiçerinlə Gürcüstanın Sovet Rusiyası tərəfindən tanınması barədə danışıqlar aparırdı.

Təcili hərbi tədbirlər barədə F.X.Xoyskinin konkret təkliflərinə Gürcüstanın xarici işlər naziri Y.P.Gegeçkorinin diplomatik cavabı Gürcüstan hökumətinin real şəraiti və öz mənafeyinin Azərbaycan xalqının taleyi ilə bağlılığını başa düşməkdən nə qədər uzaq olduğunu göstərdi. Y.P.Gegeçkori bildirdi ki, Azərbaycan hökuməti xüsusi bəyanatla Batuma və Batum əyalətinə Gürcüstanın tam hüquqlarını tanıdığı halda, Gürcüstan hökuməti bu məsələni müzakirə edə bilər. Əlbəttə, F.X.Xoyski öz təklifilə Y.P.Gegeçkori qaldırdığı məsələ arasında heç bir əlaqə görmürdü, lakin bununla belə öz hökuməti adından Azərbaycanın Batuma və Batum əyalətinə heç bir ərazi iddiası olmadığı barədə bəyanat verməyə hazır olduğunu bildirdi. Lakin bu cavab Gürcüstan nazirini qane etmədi. Hər iki respublikanın üstünü almış təhlükə qarşısında Gürcüstan və Azərbaycan hərbi qüvvələrini real əlaqələndirmək cəhdləri nəticəsiz qaldı.

1920-ci il aprelin əvvəllərində Tiflisdə keçirilən Zaqafqaziya konfransında Azərbaycanın konfederasiya yaratmaq və onun sərhədlərini birgə müdafiə etmək haqqında təklifinə cavab olaraq Ermənistan nümayəndəsi A. Aqoranyan açıq şəkildə bildirdi: "Ermənistan İrəvan qəzasından ibarət olan müstəqil Ermənistanın indiki sərhədlərilə razılaşa bilməz"[43].

1920-ci ilin yazında Qızıl ordunun Qafqaza çıxmasının Yaxın və Orta Şərqdə İngiltərənin mənafeyinə ciddi təhlükə törətməsinə baxmayaraq, Lloyd Corc hökuməti Sovet Rusiyası ilə ticarət-iqtisadi əlaqələri qaydaya salmaq xətti götürürdü. Eyni zamanda 1920-ci ilin aprelində Cənubi Qafqaz respublikalarına hərbi kömək planlarını müzakirə edən Antanta liderləri belə nəticəyə gəldilər ki, onların bu köməyi göstərmək imkanları yoxdur[44].

Öz müstəqilliyi uğrunda Qərb dövlətləri ilə mübarizə aparan və sovet Rusiyasının hərbi və diplomatik yardımına ehtiyacı olan Türkiyə isə şimal qonşusu ilə sıx əlaqələr yaratmağa çalışırdı. Ankara hökumətinin RSFSR hökumətinə ilk rəsmi müraciətində - Mustafa Kamal Atatürkün V.İ.Leninə 1920-ci il 26 aprel tarixli məktubunda qeyd edilirdi ki, "...Sovet qüvvələri Gürcüstana qarşı hərbi əməliyyata başlamaq və ya diplomatik yolla, öz nüfuzu vasitəsilə Gürcüstanı ittifaqa daxil olmağa məcbur etsə, ingilisləri Zaqafqaziyadan qovmağa çalışsa, Türkiyə imperialist Ermənistana qarşı hərbi əməliyyatları öz üzərinə götürür və Azərbaycan Cümhuriyyətini Sovet dövləti dairəsinə girməyə məcbur etməyi öhdəsinə alır"[45]. Bunun müqabilində Türkiyə sovet Rusiyasından ilk yardım kimi qızılla 5 milyon türk lirəsi, həcmi və miqdarı danışıqlar zamanı müəyyən ediləcək silah və sursat, həmçinin bəzi hərbi-texniki vasitələr, tibb-sanitariya materialları və ərzaq xahiş edirdi[46]. Tərkibində keçmiş Türkiyə hərbi əsirlərindən təşkil olunmuş hərbi hissələr olan XI Ordunun Bakıdan yan keçməklə, Antanta qoşunlarına qarşı mübarizə aparmaq üçün Qarabağ və Ermənistandan keçərək Anadoluya gəlməsi nəzərdə tutulurdu[47]. Buna görə də Azərbaycanın sovetləş-

məsi xəbəri Ankarada böyük razılıq hissilə qarşılandı. Uzağa gedən geosiyasi məqsədlərini həyata keçirməyə çalışan sovet Rusiyası isə, öz növbəsində, hər vasitə ilə hərbi-strateji cəhətdən çox mühüm olan regionu, ilk növbədə, Bakı neft sənaye rayonunu ələ keçirməyə, Yaxın və Orta Şərqin qapısında möhkəmlənməyə çalışırdı.

Eyni zamanda RSFSR Silahlı Qüvvələri Baş komandanlığının V.İ.Leninə göndərilmiş 20 mart tarixli məktubunda göstərilirdi ki, cənub istiqamətində fəal hücum əməliyyatları keçirmək üçün Qafqaz cəbhəsi qoşunlarının kifayət qədər hazırlığı olmaması ilə əlaqədar, həmçinin "Gürcüstanla Azərbaycanın inadlı mübarizəyə hazırlaşdıqları halda, bizim hücumların ilk mərhələsi məğlubiyyətlə qurtara bilər"[48]. Daha sonra sənəddə qeyd edilir ki, "bizim əlimizdə Gürcüstan və Azərbaycanın və ya heç olmazsa bu respublikalardan birinin daxili vəziyyəti haqqında dəqiq məlumatlar olmalıdır"[49]. "Əgər sovet Rusiyası qoşunlarının bu ölkələrin sərhədlərində görünməsi daxildə inqilabi hərəkata səbəb olacaqsa, o zaman uğurlu hücum imkanı istisna edilmir. Başqa sözlə, əgər Gürcüstan və Azərbaycanda inqilabi vəziyyət varsa, Qafqaz cəbhəsinin vəziyyətindən asılı olmayaraq, bizim hücumumuzu ləngitmək doğru olmazdı"[50]. Artıq martın 23-də Baş komandan S.S.Kamenev Qızıl Ordunun Qafqazda Bakı istiqamətində əməliyyatlarının genişlənməsi barədə hökumət direktivinin həyata keçirilməsinə başladığı haqda Fəhlə-Kəndli Müdafiə Şurasına məlumat verirdi[51]. 1920-ci il aprelin 8-də RK(b)P Mərkəzi Komitəsinin plenumu RK(b)P MK-nın Qafqaz Bürosunun yaradılması haqqında qərar qəbul etdi. Büronun tərkibinə S.M.Kirov, A.M.Nazaretyan, N.N.Nərimanov, Q.K.Orconikidze, Y.D.Stasova və b. daxil oldular[52].

Bakıda üsyan başladığı halda, birgə hərəkəti əlaqələndirmək məqsədilə RK(b)P Qafqaz Diyar Komitəsinin bürosu, AK(b)P və Kirovun XI Ordunun komandanlığı ilə yazışmaları bütün aprel ayı ərzində davam edirdi. XI Ordunun komandanlığı, RK(b)P Qafqaz Diyar Komitəsi və AK(b)P nümayəndələrinin iştirakı ilə aprelin 22-də Bakıda vo aprelin 25-də Port-Petrovskda keçirilən müşavirələrdə qarşıdakı birgə əməliyyatlar planını təfsilatı ilə müzakirə etdi. Bu plan aprelin 27-də Bakıda kommunistlərin silahlı çıxışını və həmin gün XI Ordunun Azərbaycan sərhədini keçməsini nəzərdə tuturdu. AK(b)P rəhbərliyi dövlət çevrilişi planının reallaşdırılması üçün vaxtın yetişdiyini qət etdi. Aprelin 25-də bütün partiya komitələri hərbi komandanlığın tabeliyinə keçirildi və xəbərdarlıq olundu ki, komandanlığın əmrinə tabe olmayanlara ölüm cəzası veriləcəkdir.

Aprelin 27-də səhər tezdən kommunistlərin silahlı dəstələri həm şəhər daxilində, həm də onun kənarlarında ən mühüm obyektləri: dəmir yol vağzalını, poçtu, teleqrafı, radiostansiyanı, polis məntəqələrini, iri neft mədənlərini, sənaye müəssisələrini, hərbi və ticarət limanını və s. yerləri ələ keçirməyə başladılar. Təxribatçı qruplar Bakı, şimal sərhədi və Gəncə arasında telefon və teleqraf əlaqəsini kəsdilər, bu da hökumətə əyalətlərdə yerləşən özünə sadiq hərbi hissələri vaxtında köməyə çağırmağa imkan vermədi. Bakı qarnizonu isə əslində Azərbaycan İnqilab Komitəsinin tərəfinə keçdi. Eyni zamanda hərbi nazir S.Mehmandarov zabitlərə yeni hökumətə tabe olmağı əmr etdi.

1920-ci ilin aprelində Bakıda hərbi çevrilişin hazırlanması və keçirilməsində

burada olan Türkiyə hərbi xidmətçiləri və kommunistləri fəal rol oynayırdılar. Məhz onların köməyi nəticəsində şəhərdə bir çox mühüm obyektlər, o cümlədən dəmiryol vağzalı tutuldu, şəhərin hərbi qubernatoru M.Q.TIexas həbs edildi[53]. Məhz Türkiyə zabitləri və əsgərləri hökumətin Bakını tərk etmək cəhdinin qarşısını aldılar[54].

Bakıda baş verən aprel hadisələrində Xəzər Hərbi Donanması əhəmiyyətli rol oynadı. Donanma gəmilərinin heyəti bu dövrdə kommunistlərdən və onlara rəğbət bəsləyən matroslardan ibarət idi. Hakimiyyətin iki saat ərzində Azərbaycan İnqilab Komitəsinə təhvil verilməsini ultimatumla tələb edən hərbi gəmilər sahildə düzüldülər və öz toplarını hökumət orqanları binalarına tuşladılar.

Aprelin 27-də günorta, artıq hərbi drujinaların faktiki olaraq şəhərdə vəziyyətə tam nəzarət etdiyi və XI qızıl ordunun ön hissələrinin Azərbaycan Cümhuriyyəti ərazisində olduğu bir vaxtda Azərbaycan İnqilab Komitəsi qanuni hökuməti devirib hakimiyyəti qəsb etməsinə qanuni don geydirməyə çalışırdı. Bu məqsədlə aprelin 27-də saat 11-də başda H.Sultanov olmaqla kommunistlərin nümayəndə heyəti AK(b)P MK, RK(b)P Qafqaz Diyar Komitəsinin Bakı Bürosu və Mərkəzi Fəhlə Konfransının adından hakimiyyəti N.Nərimanovun başçılıq etdiyi sovet fəhlə-kəndli hökumətinə təslim etmək barədə Ç.İldırım tərəfindən tərtib olunmuş ultimatumu parlamentə təqdim etdi. Cavab 2 saat ərzində verilməli idi, əks-halda bolşeviklər atəş açmaqla hədələyirdilər[55].

Həmin ultimatumu müzakirə etmək üçün parlament iclasından əvvəl M.H.Hacınski, M.Ə.Rəsulzadə, Q.Qarabəyov, A.Səfikürdski, A.Qardaşov, Ağamalı oğlundan ibarət komissiya yaradıldı. Komissiya ultimatuma cavab olaraq öz şərtlərini hazırladı və bu şərtlər parlamentin müzakirəsinə verildi[56].

N.Yusifbəylinin yanında məhdud dairədə keçirilmiş müşavirədə Ş.Rüstəmbəyov bəzi deputatlara qan tökülməsinə yol verməmək üçün Bakıdan çıxmağı və bolşeviklərə qarşı mübarizəni təşkil etmək üçün Gəncəyə keçməyi təklif etdi. Lakin onun təklifini toplantı iştirakçıları qəbul etmədilər[57]. Saat 20.45-də Azərbaycan parlamentinin təcili iclası açıldı. Gündəlikdə bir məsələ - Azərbaycan İnqilab Komitəsinin hakimiyyəti təhvil vermək barəsində ultimatumu məsələsi dururdu. Müzakirə başlamazdan əvvəl çıxış edən hərbi nazir S.Mehmandarov silahlı müqavimətin mümkün olmadığını bildirdi. M.Ə.Rəsulzadənin təkidi ilə, "xalqdan xəbərsiz qərarlar qəbul olunmaması və xalqın bizim hansı vəziyyətdə olduğumuzu bilməsi üçün" parlamentin açıq iclasını keçirmək qərara alındı[58].

Ultimatumun mətnini oxuyan və öz təslimçilik mövqeyini bir daha nümayiş etdirən M.H.Hacınski ultimatumun şərtlərini qəbul etməyi təklif etdi və deputatları inandırmağa çalışdı ki, qızıl ordu Bakıya girmədən Türkiyəyə köməyə keçmək niyyətindədir[59]. Qızğın müzakirələrin gedişində çıxış edən müxalif parlament fraksiyalarının nümayəndələri: S.Ağamalıoğlu ("Hümmət"), Q.Qarabəyov ("İttihad"), A.Səfikürdski (Sosialist bloku), A.Qardaşov ("Əhrar") M.H.Hacınskinin hakimiyyəti təhvil vermək təklifini müdafiə etdilər.

"Müsavat" fraksiyası adından onun sədri M.Ə.Rəsulzadə çıxış edərək dedi: "Bizə kobud ultimatum verilmişdir. Bizim xilaskarımız hörmət etdiyimiz Türkiyədir. Biz

öz müstəqilliyimizin tapdalanmaması şərtilə Türkiyəyə köməyə gedən qüvvələri müdafiə edirik. Lakin, cənablar, bizim razılığımızı soruşmadan sərhədlərimizi keçən qüvvələr bizə dost deyil, düşməndir! Bu ultimatumun qəbul edilməsi hakimiyyəti dost maskası geymiş düşmənə vermək deməkdir! Biz buraya millətin iradəsi və arzusu ilə gəlmişik və bizi buradan yalnız güc və süngü ilə çıxarmaq olar"[60]. Bununla belə, vətəndaş müharibəsi təhlükəsini nəzərə alan "Müsavat" fraksiyası Azərbaycanın müstəqilliyinin saxlanacağı şərtilə kommunistlərin ultimatumunu qəbul etmək haqqında çoxluğun fikrinə qoşulmağa məcbur oldu.

1920-ci il aprelin 27-dən 28-nə keçən gecə parlament hakimiyyəti Müvəqqəti İnqilab Komitəsinə təhvil verdi. Komitənin tərkibi onun qiyabi seçilmiş sədri N.Nərimanov, A.Alimov, D.Bünyadzadə, M.Hüseynov, Ə.Qarayev, Q.Musabəyov və H.Sultanovdan ibarət idi. Komitə radio vasitəsilə RSFSR hökumətinə "Qızıl ordu hissələrini göndərmək yolu ilə dərhal real kömək göstərmək" haqqında rəsmi xahişlə müraciət etdi[61]. Müraciət əslində formal xarakter daşıyırdı. Səsvermə nəticəsində (əleyhinə - 1, bitərəf qalanlar -3, səsvermədə iştirak etməyənlər- 3 nəfər) 1920-ci il aprelin 27-də axşam saat 11 radələrində parlament hakimiyyətin Azərbaycan İnqilab Komitəsinə verilməsi haqqında qərar qəbul etdi. Parlament sədrinin müavini M.Y.Cəfərov və İşlər İdarəsinin direktoru M.Vəkilov tərəfindən imzalanmış sənəddə hakimiyyətin verilməsi şərtləri göstərilirdi: "Nəzərinizə çatdırırıq ki, biz aşağıdakı şərtlərlə hakimiyyəti təhvil veririk:

1. Sovet hakimiyyəti tərəfindən idarə edilən Azərbaycanın tam müstəqilliyi saxlanılır;

2. Azərbaycan Kommunist Partiyasının yaratdığı hökumət müvəqqəti orqan olacaqdır;

3. Hər cür xarici təzyiqlərdən asılı olmayaraq, Azərbaycanın qəti idarə formasını Azərbaycan Fəhlə, Kəndli və Əsgər Deputatları Soveti simasında Azərbaycanın ali qanunvericilik orqanı müəyyən edəcəkdir;

4. Hökumət idarələrinin bütün qulluqçuları öz yerlərində qalır və yalnız məsul vəzifə tutan şəxslər dəyişdirilir;

5. Yeni təşkil olunan müvəqqəti kommunist hökuməti parlament üzvlərinin həyatının və əmlakının toxunulmazlığına təminat verir;

6. Hökumət qızıl ordunun döyüşlə Bakıya girməsinin qarşısını almaq üçün tədbirlər görəcəkdir;

7. Yeni hökumət kimin tərəfindən təşkil edilməsindən asılı olmayaraq, Azərbaycanın müstəqilliyinə son qoymaq məqsədi güdən bütün xarici qüvvələrə qarşı qəti tədbirlərlə və bütün vasitələrlə mübarizə aparacaqdır".

Qərarın yekun hissəsində göstərilirdi: "Azərbaycan parlamenti özünün fövqəladə iclasında səs çoxluğu ilə bu şərtləri qəbul etmişdir və onu sizin nəzərinizə çatdırırıq"[62].

Lakin XI ordunun ön dəstələri artıq aprelin 27-nə keçən gecə, Bakıda kommunistlərin çıxışlarının başlanmasına qədər, planı əvvəlcədən Q.K.Orconikidzenin fəal iştirakı ilə M.Q.Tuxaçevski və qərargahın rəisi S.A.Puqaçovun rəhbərliyi altında

Qafqaz Cəbhəsi Qərargahı tərəfindən hazırlanmış Bakı əməliyyatının həyata keçirilməsinə başladı. Qafqaz cəbhəsi Komandanlığının 490 saylı 1920-ci il 21 aprel tarixli direktivinə əsasən, XI ordunun komandanı M.K.Levandovski aprelin 27-də Azərbaycan sərhədini keçməli və ən qısa müddətdə Bakı quberniyası ərazisini tutmalı idi. Gürcüstandan və ya Şimali İran ərazisində yerləşən ingilis qoşunları tərəfindən Azərbaycan Cümhuriyyətinə göstərilə biləcək köməyin qarşısını almaq üçün əməliyyatı 5 gün müddətində başa çatdırmaq nəzərdə tutulurdu. Volqa-Xəzər Hərbi Donanmasının komandanı F.F.Raskolnikova XI ordunun hissələri yaxınlaşarkən Bakı Neftdaşıma Donanmasını ələ keçirmək və neft mədənlərinin dağıdılması imkanını aradan qaldırmaq üçün Ələt stansiyası rayonuna hərbi-dəniz desantı çıxarmaq əmri verilmişdi. Azərbaycan Cümhuriyyətinin bütün ərazisini ələ keçirmək aprelin 23-də, 490 saylı direktivə əlavə olaraq, XI orduya son vəzifə kimi tapşırıldı[63].

Hələ aprelin ortalarında XI ordunun birləşmələri və hissələrinin Azərbaycan sərhədində cəmləşməsi başlandı. Gələcək əməliyyatlarda iştirak etmək üçün 20, 28 və 32-ci atıcı diviziyaları (20 minə yaxın süngü), sonralar 2-ci süvari korpusunda birləşdirilən 7 və 8-ci süvari diviziyaları və Taman süvari briqadası (cəmi 7 min qılıncla) ayrılmışdı. Dərbənddə yerləşən 5 zirehli qatar, həmçinin bir neçə aviasiya dəstəsi də XI ordunun sərəncamında idi[64]. Ordu komandanı M.Levandovski 25 aprel tarixli əmrlə hərbi hissələrə konkret tapşırıqlar verdi: 2-ci korpus özünün əsas qüvvələri ilə aprelin 30-na qədər Şamaxı-Ağsu ərazisini ələ keçirməli və Kürdəmir stansiyasında Bakı-Gəncə dəmir yolunu bağlamalı idi. Qızılburuna çatdıqda atıcı diviziyalarla birgə Bakıya hücum etmək üçün öz qüvvələrinin bir hissəsini ayırmalı idi. Üç atıcı diviziyası öz növbəsində dəmir yol xətti boyunca Bakıya hücum etməli və 1920-ci il mayın 1-dək bütün Bakı rayonunu ələ keçirməli idi.

Nəzərdə tutulan əməliyyatda ordunun tərkibinə daxil olan zirehli qatarlar qrupuna xüsusi əhəmiyyət verilirdi. Dəmir yol döyüş məntəqəsinin rəisi M.Q.Yefremova 4 zirehli qatar və 28-ci diviziyanın 299-cu atıcı alayının 2 rotasından ibarət desantla birlikdə (cəmi 350 əsgər) sürətli hərəkətlə Bakıya soxulmaq tapşırığı verilmişdi. Qızılburun, Giləzi və Sumqayıt stansiyaları ərazisində dəmir yolunun dəniz sahilinə lap yaxın və top atəşi mənzilində olduğu nəzərə alınsa, Azərbaycan donanmasının bir döyüş gəmisi dəmir yol xəttini dağıtmaq və sovet zirehli qatarlarının irəliləməsinin qarşısını almaq üçün tamamilə kifayət idi. Gəmilərdə 3 uzaqvuran sahil artilleriyası topu qoyulmuşdu. Lakin donanma Azərbaycan İnqilab Komitəsinin tərəfinə keçdiyinə görə döyüş gəmiləri reyddə görünmədilər.

Samur sərhəd körpüsünün minalanması barədə sovet komandanlığının narahatçılığı əbəs idi, çünki bu çox mühüm obyekti cəmi bir tağımın əsgərləri qoruyurdular. Şimal sərhədindən Bakıya qədər Azərbaycan Ordusunun çox az qüvvələri - cəmisi 3 min nəfərlik nizami qoşun dəstələri və ehtiyat batalyonu (onlara verilmiş zirehli qatarlarla birlikdə cəmi 5 min süngü və qılınc)

yerləşdirilmişdi. Yalama -Xudat rayonunda həmçinin iki cərgə çəkilmiş məftil çəpərlə möhkəmləndirilmiş 2 məntəqə, Bakı yaxınlığında isə 3 cərgə tikanlı çəpər səddi qoyulmuşdu[65].

Aprelin 27-də saat 1-ə 5 dəqiqə işləmiş, Azərbaycan parlamentinə ultimatum verilməsindən 12 saat əvvəl, A.Mikoyan, Q.Cəbiyev və Q. Musabəyovu gətirən "III Beynəlmiləl" zirehli qatarı Samur körpüsündən keçdi və yol boyu qəflətən yaxalanmış azsaylı və pərakəndə ordu hissələrinin müqavimətini qırmaqla Bakıya doğru hərəkət etdi. İki saatlıq qanlı vuruşmadan sonra zirehli qatar Yalama stansiyasını ələ keçirdi. Stansiyanı Quba alayının 2 bölüyü, süvari divizionu (360-ə qədər qılınc), jandarm dəstəsi (200 nəfərə yaxın) qoruyurdu. Bu döyüşdə sovet əsgərlərinin 6 nəfəri öldürüldü və 8 nəfəri yaralandı.

Süvari-dağ divizionu, kürd taborunun 2 bölüyü ilə mühafizə olunan Xudat stansiyası yaxınlığında 1 saylı zirehli qatarın sovet zirehli qatarının irəliləməsini dayandırmaq üçün yeni cəhdi uğur qazanmadı. Qırmızıların hərəkətini gecikdirmək məqsədilə geri çəkilən əsgərlər Xaçmaz stansiyası yaxınlığında körpünü yandırdılar və yol dəyişdiricisini sıradan çıxartdılar. Lakin yanğın tezliklə söndürüldü, dəyişdirici düzəldildi və bundan sonra zirehli qatarlar elə bir ciddi müqavimətə rast gəlmədən Bakı istiqamətində hərəkətlərini davam etdirdi. Sonuncu qısamüddətli döyüş Xırdalan və Biləcəri stansiyaları arasında baş verdi və bundan sonra Azərbaycan zirehli qatarı Keşlə, sonra isə Bakı stansiyalarından uzaqlaşdı[66]. Aprelin 27-də axşam saat 21-də Biləcəri stansiyası sovet zirehli qatarları tərəfindən tutuldu, səhər saat 4-də isə "III Beynəlmiləl" zirehli qatarı Bakı stansiyasına gəldi.

Aprelin 30-da XI Ordunun əsas hissələri şəhərə daxil oldu. Onların irəliləməsi zamanı başda Xəlil paşa olmaqla yerli əhali içərisində təbliğat aparan və əhalini XI orduya müqavimət göstərməməyə çağıran Türkiyə zabitləri qrupu sovet qoşunlarına fəal kömək edirdi[67]. Həmin gün 7-ci süvari diviziyanın hissələri Şamaxı və Ağsuya daxil oldular, mayın 1-də isə Azərbaycan hissələrinin müqavimətini aradan qaldıran Sovet zirehli qatarları Gəncə stansiyasını ələ keçirdilər.

Mayın 1-də Volqa-Xəzər Hərbi Donanmasının gəmiləri Bakı limanına daxil oldu. Mayın 3-də və 4-də Lənkəran və Astaraya hərbi dəniz desantı çıxarıldı. 1920-ci il mayın ortalarında XI Ordu Azərbaycan Cümhuriyyətinin, demək olar ki, bütün ərazisini nəzarət altına aldı. Beləliklə, bolşevik Sovet Rusiyasının hərbi müdaxiləsi ilə suverenliyini bəyan etmiş Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi, hakimiyyət kommunistlərin əlinə keçdi.

Aprel hadisələrinin bilavasitə icraçılarından biri - milli hökumətə hakimiyyəti bolşeviklərə vermək barədə ultimatum təqdim etmiş Həmid Sultanov 1920-ci ilin oktyabrında keçirilmiş AK(b)P-nin II qurultayındakı çıxışında göstərirdi ki, hakimiyyətin devrilməsi üçün MK heç bir fəhlə, heç bir kəndliyə göstəriş verməmişdi. "Biz bilirdik ki, indi də olmasa, sabah, ya birisi gün qırmızı süngü burada olacaqdır. Belə də oldu, biz sovet hakimiyyətini hazır formada aldıq, onu bizə boşqabda gətirdilər"[68].

AXC hakimiyyətinin devrilməsi ciddi daxili və xarici səbəblərin nəticəsi idi. 1920-ci ilin yazında Respublikada getdikcə dərinləşən siyasi sabitsizlik ölkədə fəaliyyət göstərən müsəlman partiyaları "Müsavat", "Əhrar", "İttihad", sosialistlər, bitərəflər qrupu və b. arasında gedən mübarizənin qızışması ilə müşayiət olunurdu. İki ilə yaxın bir müddətdə beş hökumət kabinetinin bir-birini əvəz etməsi həmin mübarizənin nəticəsi idi. Azərbaycanın rus-sovet ordusu tərəfindən istilası ərəfəsində siyasi partiyaların qarşıdurması o qədər kəskinləşmişdi ki, həmin ərəfədə yeni hökumət kabineti təşkil etmək heç cür mümkün olmadı. Parlament fraksiyalarının demokratiya adı ilə pərdələnən qarşılıqlı düşmənçiliyi tamamilə bürokratik xarakter daşıyırdı. Bütün bu çəkişmələrin arxasında bir tərəfdən müsavatçılar, digər tərəfdən isə ittihadçılar dayanırdı. Yerdə qalan digər partiyaların təmsilçiləri isə gah bu, gah da o biri tərəfə qoşulur, məhz bununla da öz aralarında daha böyük cəncəl və qalmaqal törədirdilər. Siyasi partiyaları çulğamış dartışmalar ayrı-ayrı partiyaların daxili durumuna da sirayət edirdi. Ölkənin ən böyük partiyası olan "Müsavat" da həmin ərəfədə iki qanada haçalanmış, sosialistləri də belə bir tale haqlamışdı. Beləliklə, partiyaların və onların parlament fraksiyalarındakı təmsilçilərinin bir-biri ilə apardığı mübarizəni Azərbaycanın 1920-ci ilin aprelində istila edilməsinə münbit şərait yaratmış daxili səbəblərdən biri saymaq olar.

Respublikada vəziyyəti mürəkkəbləşdirib dərinləşdirən digər ciddi amil o idi ki, hökumət dövlət ərazisinin bütövlüyünü təmin etmək üçün erməni daşnakları ilə mübarizəyə həddindən artıq iqtisadi və hərbi ehtiyatlar cəlb etmək məcburiyyətində qalmışdı.

Lakin bu vaxt, dərinləşməkdə olan siyasi və iqtisadi böhranın mövcudluğuna baxmayaraq, Azərbaycanda "inqilabi şəraitin yetişməsi" deyilən bir vəziyyət yox idi. O zaman Azərbaycan xalqı üçün aşkarda olan ən vacib məsələ müstəqilliyin nəticələri idi.

N.Nərimanov çevrilişdən bir neçə ay öncə Moskvaya Azərbaycandakı vəziyyət barədə məlumat verərkən ərzaq məsələsinin yaxşı vəziyyətdə olduğunu, Azərbaycana gediş-gəlişin sərbəstliyini, hər istiqamətdə qəzet nəşrini, mətbuat azadlığını, çoxpartiyalı parlament fəaliyyətini, əmək birjasının mövcudluğunu, ziyalı əməyinin yaxşı qiymətləndirildiyini (onlara yaxşı əmək haqqı verildiyini), 5 may və 14 avqustda uğursuz tətillərdən sonra fəhlələrin nüfuzunun qismən enməsini, yalnız müsəlmanlardan ibarət nizami ordunu, onun başında təcrübəli generalların durduğunu, əsgərlərin normal təminatını ətraflı şərh etmişdi[69].

Müstəqil dövlət quruculuğu üçün əlverişli olan belə bir şəraiti arzulayan Moskvadakı kommunist mərkəzi yerli kommunist hərəkatı təşkilatların öz güclərini və səylərini vahid Azərbaycan Kommunist Partiyasında birləşdirməyə nail oldu. Beləliklə, Azərbaycanı qəsb etmək üçün daha bir ciddi zəmin yarandı, yerli kommunistlər istilanın iştirakçıları və Mərkəzin arxalandığı əsas qüvvə oldu. Yerli partiya təşkilatlarından birinin 28 apreldən sonrakı hesabatında deyilirdi: "Əgər inqilab qansız keçibsə, Müsavat hakimiyyəti devrilməyibsə, bu o demək deyil ki, bizim partiyamız güclü idi. Bu ona görə belə oldu ki, XI qızıl ordu güclü idi"[70].

Beləliklə, aprel çevrilişi xarici qüvvənin "ildırım sürətli öldürücü" yürüşü nəticəsində həyata keçdi. Daxili səbəblər isə (hökumət böhranı, Qarabağ münaqişəsi, silahlı üsyana hazırlıqda yerli kommunistlərin fəal iştirakı, Türkiyə hərbi qulluqçularının köməyi) qızıl ordunun ölkəni istila etməsini yalnız asanlaşdırdı.

Cümhuriyyətin yaradılması, uğursuzluğuna baxmayaraq, onun 23 aylıq fəaliyyəti Azərbaycan xalqının tarixi taleyində çox mühüm hadisə idi. O, qısa müddətdə öz parlamenti, hökuməti, ordusu və pul vahidi olan demokratik respublikaya çevrildi. Azərbaycan Cümhuriyyəti demokratik respublika kimi bərqərarlaşırdı.

# NƏTİCƏ

"Azərbaycan tarixi"nin V cildi XX yüzilliyin ilk iyirmi ilini əhatə edən, Azərbaycan xalqının həyatında mühüm prinsipial əhəmiyyət kəsb edən mürəkkəb və çox ziddiyyətli sosial-iqtisadi, ictimai-siyasi və mədəni proseslərlə zəngin olan bir dövrə həsr edilmişdir. Şimali Azərbaycanın iqtisadiyyatı daha sürətlə inkişaf edərək tam bazar iqtisadiyyatı xarakteri almış, məhsuldar qüvvələrin coşqun inkişafı zəminində milli şüurun formalaşması və tərəqqisi yeni-daha yüksək pillələrə qalxmış, milli ideyaların aparıcısı olan güclü ziyalılar yetişmiş, zəngin milli koloritə malik, özündə Şərq incəliyi və Avropa müxtəlifliyini qəribə şəkildə uzlaşdıran rəngarəng mədəniyyət ortaya çıxmış, tədricən təşkilatlanan milli siyasi qüvvələr, nəhayət ki, rus müstəmləkə rejimini yıxaraq uzunmüddətli fasilədən sonra milli dövlətçiliyimizi bərpa etmiş, Azərbaycan Xalq Cümhuriyyəti yaratmışdılar.

Bu, yeni demokratik və dünyəvi Azərbaycan dövlətinin yaradılması, bünövrəsi hələ XIX yüzildə qoyulmuş, həmin əsrin əsasən II yarısından quzey torpaqlarımızda meydana çıxan sosial-iqtisadi və ictimai-siyasi proseslərin inkişafının qanunauyğun nəticəsi olmuşdur.

XX yüzilliyin ilk iki onilliyində Şimali Azərbaycan iqtisadiyyatının sosial-iqtisadi strukturunda sənaye sahələrinin, ticarət-kapitalist xarakterli sahələrin xüsusi çəkisi durmadan artmış, bazar yönümlü kapitalist istehsal münasibətləri xalq təsərrüfatında müəyyənedici mövqelərə yiyələnərək həlledici amilə çevrilmişdi.

Bu dövrdə də iqtisadiyyatımızın ən mühüm sahələrindən biri olan kənd təsərrüfatında ciddi təkamül prosesləri müşahidə olunur. Çar mütləqiyyətinin bütün ciddi cəhdlərinə baxmayaraq, əsas istehsalçıların - kəndlilərin torpaq sahibkarlarına çevrilməsi yollarında xeyli dəyişikliklər baş vermiş, 1900-1903-cü illərin qanunları kənd sakinlərimizin böyük əksəriyyətini - xəzinə kəndlilərini öz pay torpaqlarının daimi istifadəçisi elan etmiş, nəhayət, 1912-ci il 20 dekabr qanunu isə bəy-mülkədar torpaqlarında məskunlaşmış sahibkar kəndlilərini pay torpaqlarının mülkiyyətçisinə çevirmişdi. Bu addımın kənd təsərrüfatının gələcək inkişafı üçün möhtəşəm əhəmiyyəti danılmazdır. Hətta torpaq üzərində xəzinə mülkədar sahibkarlığının ağalığı şəraitində kənd burjuaziyası - qolçomaqlar müxtəlif sahələrdə bütün təsərrüfatların 10-15 faizini təşkil edərək, kənd təsərrüfatında bazar iqtisadiyyatı münasibətlərinin başlıca daşıyıcısına, əsas əmtəə istehsalçılarına, kənddə öncül sosial qüvvəyə çevrilməkdə idilər. XX əsrin əvvəllərində kənd təsərrüfatının elə bir sahəsi qalmamışdı ki, burada kapitalist istehsal münasibətləri özünə möhkəm yer tutmasın, bu sahə bazar iqtisadiyyatının nüfuz dairəsinə cəlb olunmasın. Lakin əkinçilik, xüsusən də texniki bitkilər becərilməsi və emalı sahələrində əmtəə-kapitalist münasibətləri xüsusən dərin köklər atmışdı. Bununla yanaşı, kənd təsərrüfatının hətta maldarlıq, taxılçılıq kimi ənənəvi sahələri də getdikcə daha çox bazar iqtisadiyyatı çərçivəsinə daxil olur, bazarın tələbatı əsasında qurulurdu.

H.Z.Tağıyev, M.Nağıyev, Ş.Əsədullayev, A.Quliyev kimi iri sahibkarların meydana çıxıb formalaşması, ölkənin iqtisadi həyatında mühüm rol oynamağa başlamaları

Şimali Azərbaycanda kökləri XIX yüzilliyə gedib çıxan bazar-kapitalist iqtisadiyyatı cəmiyyətinin inkişafının qanunauyğun yekunu idi.

Kənd təsərrüfatında azad muzdlu əməyin tətbiqi, ilkin emal müəssisələri şəbəkəsi getdikcə daha sürətlə genişlənmiş, Bakıda bu sahə ilə birbaşa bağlı olan, hazır yeyinti məhsulu verən iri sənaye müəssisələri, Şimali Azərbaycanda müasir toxuculuq sənayemizin ilki sayıla biləcək, əsası görkəmli sənayeçi və xeyriyyəçi H.Z.Tağıyev tərəfindən qoyulmuş fabrik işə düşmüşdü.

Sənaye sahəsində XX əsrin ilk iki onilliyində istehsalın mərkəzləşməsi və təmərküzləşməsi prosesləri getdikcə güclənmiş, Nobel, "Şell", "Oyl" kimi sənaye nəhəngləri neft sənayesi və onunla bağlı olan sahələrin əsl ağalarına çevrilmişdi. Sənayedə hakim mövqelərə yiyələnmiş inhisar birlikləri saysız-hesabsız mədənlərə, zavod və tərsanələrə, nəqliyyat vasitələrinə və satış şəbəkələrinə, o cümlədən dünya bazarlarında uğurla fəaliyyət göstərən satış şəbəkələrinə malik idi.

Hələ XIX əsrin sonuncu onilliyində neft hasilatının həcminə görə ABŞ-a çatmış və onu ötüb keçmiş Bakı neft sənayesi rayonu XX yüzilliyin əvvəllərində də dünyanın ən mühüm yanacaq sənayesi mərkəzlərindən biri kimi planetin iqtisadi xəritəsində özünə layiq yer tuturdu. Avropa və Asiya bazarlarında Şimali Azərbaycanın təkcə nefti deyil, şərabı, xalçası, tütünü, taxılı və s. məhsulları da güclü rəqabətə uğurla dözüm gətirirdi. Azərbaycan sənayesi və kənd təsərrüfatının onlarla məhsulu Avropanın müxtəlif sərgi və yarmarkalarında onlarla fəxri mükafata layiq görülmüşdü.

XX yüzilliyin başlanğıcında Şimali Azərbaycanın nəqliyyat şəbəkəsi də xeyli genişlənmişdi. Əsrin lap başlanğıcında Biləcəri-Port-Petrovsk xətti ilə Ümumrusiya dəmir yolları şəbəkəsinə çıxış əldə olunması, şose yolları şəbəkəsinin genişlənməsi, dəniz nəqliyyatı imkanlarının yeni mərhələyə yüksəlməsi bir tərəfdən, ölkənin əyalətləri ilə sənaye mərkəzlərinin əlaqələrini xeyli sıxlaşdırmış, ümummilli bazarların formalaşması prosesini yekunlaşdırmış, digər tərəfdən isə daxili və xarici ticarətin dövriyyə imkanlarını görünməmiş dərəcədə artırmış, dünya bazarlarına çıxışları rəngarəng etmişdi.

Şəhərlərimizin həyatında da ciddi dəyişikliklər baş verməkdə idi. XIX yüzilliyin son rübü ərəfəsində xırda əyalət şəhərlərindən heç də fərqlənməyən Bakı artıq XX əsrin əvvəllərində əsl ümummilli mərkəzə, Rusiya imperiyasının ən möhtəşəm sənaye və ticarət nəhənglərindən birinə çevrilmişdi. İri yanacaq energetika sənayesi mərkəzi kimi Bakı təkcə Azərbaycan və Cənubi Qafqazın deyil, həmçinin Rusiya, imperiyasının iqtisadiyyatına, dünyanın neft bazarına böyük təsir gücünə malik idi.

Yüz minlərlə əhalinin cəmləşdiyi Bakı sənaye rayonu ilə yanaşı, İrəvan, Gəncə, Dərbənd, Şuşa, Nuxa, Şamaxı kimi ticarət və sənətkarlıq mərkəzləri də getdikcə daha çox sənaye şəhəri xarakteri almağa başlayırdı. Özü də Bakıdan fərqli olaraq, digər quberniya və qəza mərkəzlərində milli kapitalın mövqeyi xüsusən qüvvətli idi.

Şəhərlərlə yanaşı, bir sıra kənd yaşayış məskənlərinin -Kürdəmir, Ağdam, Ləki, Salyan, Cavad, Əylis, Uluxanlı və başqalarının tədricən sənaye və ticarət mərkəzlərinə çevrilməsi ölkənin sosial-iqtisadi həyatında yeni, mütərəqqi hadisə idi.

XX əsrin əvvəllərində Şimali Azərbaycan əhalisinin tərkibinin rəngarəngliyi

daha da güclənmişdi. Bütün dövrlərdə Azərbaycan əhalisi üçün səciyyəvi olan, XX yüzilliyin əvvəlində bir qədər də güclənmiş milli etnik rəngarəngliyə sosial müxtəlifliyin daha da güclənməsi əlavə olunmuşdu. Kənddə və şəhərdə muzdlu əməklə dolanan sosial elementlərin xüsusi çəkisi durmadan artır, öz təsərrüfatlarını bazar iqtisadiyyatının tələblərinə müvafiq şəkildə quran sərmayədarların ölkənin iqtisadi həyatında nüfuzu və rolu gündən-günə güclənirdi. Sosial qütbləşmə prosesi getdikcə geniş miqyas alırdı. Bu dövrdə Bakı, Gəncə, İrəvan, Dərbənd, Şuşa, Nuxa, Şamaxı kimi şəhərlərimizin əhalisi içərisində sənaye fəaliyyəti ilə bağlı olanların xüsusi çəkisi durmadan artırdı.

Məhsuldar qüvvələrin inkişafı, iqtisadiyyatın ümumi tərəqqisi fonunda milli burjuaziyanın təşəkkülü və getdikcə güclənməsi, milli şüurda yeni meyllərin ortaya çıxması milli mədəniyyətin yeni, daha yüksək mərhələyə qalxması ilə nəticələnirdi. Milli şüurun inkişafının yeni mərhələsinə xas olan bu meyillər əvvəllər ancaq qeyri-azərbaycanlı etnik kütlələrə yönəlmiş (RSDFP-nin Bakı Komitəsi), bir qədər sonra bununla bağlı olan "Hümmət" tipli təşkilatın ardınca, xüsusən də 1905-ci ildən başlayaraq, milli-siyasi və b. ictimai təşkilatların meydana çıxmasına gətirib çıxardı. Məhz "İttifaqi müslimin", "Difai", "Müdafiə" kimi ilk siyasi partiya və qruplar 1911-ci ildə yaranan, Birinci dünya müharibəsi dövründə xeyli fəallaşaraq çarizmin devrilməsindən az sonra usubbəyçi ədəmi-mərkəziyyətçilərlə birləşib ümummilli siyasi partiyaya çevrilmiş "Müsavat" Partiyasının ortaya çıxıb ərsəyə gəlməsi üçün zəmin yaratmışdı.

Milli-siyasi qüvvələrin fəallaşması rus müstəmləkəçilərini bərk narahat etmiş, onlar öz ağalıqlarını qorumaq üçün əvvəlkitək "kökə"-dən "dəyənəyə"dək müxtəlif üsullara əl atmışdılar. Çar hökuməti günü-gündən güclənən inqilabi hərəkatın vüsətini yatırmaq üçün ermənilərlə azərbaycanlılar arasında milli ədavət - qırğın törətmiş, inqilabi qüvvələrə qarşı kütləvi repressiyalara əl atmış, bunlarla yanaşı, "Zemstvo müşavirələri", Duma kampaniyaları kimi tədbirləri işə salmışdı. Çar hökumətinin niyyətlərinə baxmayaraq, bu kampaniyalar, xüsusən də I-IV Rusiya dumalarındakı fəaliyyət XX əsrin əvvəlləri dövrü Azərbaycan siyasətçilərinin, Topçubaşov, Xoyski, Xasməmmədov, Cəfərov və b. ibarət bütöv bir siyasətçilər nəslinin təşəkkülündə, onların zəruri dövlətçilik təcrübəsi qazanmasında əvəzedilməz rol oynadı ki, bu təcrübə də milli-siyasi qüvvələrin təşəbbüskarlığı ilə birlikdə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və idarəsində əvəzedilməz əhəmiyyətə malik olmuşdur. Bu siyasi təcrübənin qazanılması prosesində, milli qüvvələrin daha da fəallaşmasında xüsusən də I Dünya müharibəsi dövrü müstəsna rol oynamışdır.

XX yüzilliyin əvvəlləri Şimali Azərbaycanda elm və mədəniyyətin inkişafı baxımından da əlamətdar bir dövr olmuşdur. Bu dövrdə mədəni-maarif müəssisələrinin şəbəkəsi, xüsusən də şəhərlər və kəndlərdə ilkin və ruhani təhsili verən məktəb və mədrəsələrlə yanaşı, dünyəvi təhsil verən müxtəlif çeşidli tədris müəssisələrinin şəbəkəsi xeyli genişlənmişdir. Abşeron, Naxçıvan, Şəki-Zaqatala, İrəvan və s.

bölgələrin kəndlərində belə xeyli dünyəvi məktəblər fəaliyyət göstərirdi. Lakin başlıca olaraq rus təhsili verən bu məktəblər əhalinin tədris müəssisələrinə olan tələbatını az-çox ödəməkdən çox-çox uzaq idi. Eyni sözləri miqyası bir qədər genişlənmiş səhiyyə müəssisələri haqqında da demək olar.

Haqqında danışdığımız dövrdə ibtidai və orta təhsil müəssisələrinin şəbəkəsi bir qədər genişlənsə də, Qori Müəllimlər Seminariyasının müsəlman şöbəsi Azərbaycana köçürülsə də, seminariya və orta ixtisas təhsili verən bəzi müəssisələr meydana gəlsə də, onlar tələbatı qətiyyən ödəmirdi. Uzun müzakirələrə baxmayaraq, çarizm Cənubi Qafqazda, o cümlədən Şimali Azərbaycanda ali təhsil müəssisəsinin yaradılmasına imkan verməmişdi. İlk ali məktəbi də məhz XX əsrdə ilk milli dövlətimiz yaratdı.

Lakin bütün bunlara baxmayaraq, hələ XIX yüzilliyin II yarısından etibarən Rusiya imperiyasının ali məktəblərində təhsil alan azərbaycanlı gənclərinin sayı ilbəil artırdı. XX yüzilliyin əvvəlləri də daxil olmaqla bu dövr ərzində həmin məktəbləri 200 nəfərdən çox gənc bitirmişdi. Həmin nəsil Azərbaycanın təkcə sosial, iqtisadi və mədəni həyatında deyil, ictimai-siyasi mühitində də çox mühüm qüvvəyə çevrilə bildi. Bunların içərisində elə C.Hacıbəyli, M.Hacınski, Z.Əhmədbəyov, C.Hacınski, X.Məlikaslanov, A.Səfikürdski, R.Xoyski, H.Ağayev, M.Vəkilov, M.Cəfərov, Ə.Pepinov, F.Xoyski, M.Mirqasımov, H.Şahtaxtinski, X.Sultanov, N.Usubbəyli, N.Nərimanov, X.Rəfibəyov, T.Şahbazi, Y.V.Çəmənzəminli, S.Axundova və onlarla başqalarının adlarını çəkmək mümkündür. Onlardan hər biri XX yüzilliyin əvvəllərində Şimali Azərbaycanın həyatında mühüm rol oynamış görkəmli simalardır.

Əsrin əvvəllərində milli mətbuat keyfiyyətcə yeni inkişaf mərhələsinə qalxaraq, nəinki sosial-iqtisadi və ictimai həyatın operativ güzgüsünə çevrilmiş, həmçinin bir çox baxımdan milli ideyaların geniş kütlələrin malına çevrilməsi sahəsində, müstəmləkə əsarətinə qarşı milli-azadlıq hərəkatında kəsərli silah rolunu oynamışdır. Görkəmli mütəfəkkir Cəlil Məmmədquluzadənin "Molla Nəsrəddin" jurnalının başçılıq etdiyi Şimali Azərbaycan milli mətbuatı bütün müsəlman və türk dünyası mətbuatının şəksiz və şəriksiz liderinə çevrilmişdi.

Ü.Hacıbəyov, C.Məmmədquluzadə, Ə.Hüseynzadə, Ə.Ağayev, N.Vəzirov, Ə.Haqverdiyev, M.Ə.Sabir və bir çox başqa dahilərimiz Şərq və Qərb mədəniyyəti qaynaqlarından bəhrələnməklə özünəməxsus məziyyətlərə malik elə bir özünəməxsus mədəniyyət yaratdılar ki, onun dəyəri bu gün də, yüz ildən sonra da, nəinki azalmışdır, əksinə, bir çox sahələrdə əlçatmaz zirvə rolunu oynamaqdadır.

Rusiyada çarizm devrildikdən sonra keçmiş imperiyanın ucqarlarında yaranmış müstəqil dövlətlərdən biri olan Azərbaycan Xalq Cümhuriyyəti ölkədəki bütün siyasi partiyaları, milli azlıqları və az-çox əhəmiyyətli ictimai təşkilatları öz strukturlarında təmsil etdirən, öz fəaliyyətini onların rəyi əsasında quran və məhz bununla da demokratik prinsipləri həyata keçirən bir siyasi qurum idi. O, milli şüur və demokratik hərəkatın inkişafında ən yüksək nöqtə olmuş, hər işdə Azərbaycanın və Azərbaycan xalqının bütövlüyü qayəsini, xalq mənafeyinin aliliyini əsas meyar tutmuşdu.

1918-1920-ci illər Azərbaycan xalqının həyatında çox böyük əhəmiyyət kəsb edən bir dövrdür. Azərbaycan məhz bu taleyüklü dövrdə ilk dəfə olaraq dövlət suverenliyini qazanaraq dünya birliyində layiqli yer tutmağa çalışmışdır. Bu dövr millətin həyatında mühüm mərhələ olmaqla yanaşı, onun gələcəyinin və istiqlalının bünövrəsini qoymuşdur.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda mövcud olmuş ictimai-siyasi, ədəbi, fəlsəfi fikrin məntiqi nəticəsi olmuşdur. Beşiyi başında H.Zərdabinin, Ə.Hüseynzadənin, Ə.Ağaoğlunun, Ə.Topçubaşovun, C.Məmmədquluzadənin, Ü.Hacıbəyovun və başqalarının durduğu milli-demokratik hərəkat Azərbaycan Cümhuriyyətini doğurdu. Onlar öz ictimai-siyasi, ədəbi, maarifçilik fəaliyyəti ilə xalqımızda milli şüurun oyanıb inkişaf etməsinə böyük təsir göstərmişlər.

Azərbaycan Cümhuriyyəti həm də bu dövrdə genişlənən və Avropada toplanmış bütün nəzəri və əməli təcrübəni özündə cəmləşdirən milli-azadlıq hərəkatının bilavasitə nəticəsi idi.

Eyni zamanda Azərbaycan Cümhuriyyətinin yaranması həmin ərəfədə Rusiyada və bütün dünyada baş verən ictimai-siyasi hadisələrin məntiqi inkişafı nəticəsində yaranmış əlverişli şəraitin məhsulu idi.

Birinci dünya müharibəsinin doğurduğu böhran Rusiyada köklü inqilabi dəyişikliklərə gətirib çıxardı. Fevral inqilabı çar monarxiyasını devirməklə yanaşı, "xalqlar həbsxanası" sayılan Rusiyada milli-azadlıq hərəkatının genişlənməsinə səbəb oldu. Rusiyada baş verən sonrakı hadisələr, xüsusilə, Oktyabr çevrilişi tərkibində Azərbaycan nümayəndələrinin də olduğu Zaqafqaziya seyminin Rusiyadan ayrılmaq qərarı ilə nəticələndi.

1917-ci ilin martından 1918-ci ilin mayına qədər cənubi Qafqazda yaradılmış müxtəlif idarəçilik qurumları bölgənin xalqları arasında ciddi ziddiyyətlərin olduğunu üzə çıxardı. 1918-ci ilin yazında azərbaycanlıların mənafeyinə zidd olaraq Cənubi Qafqaz hökumətinin Osmanlı dövlətilə müharibə etməsi, onların erməni-bolşevik soyqırımına məruz qalması milləti xilas etmək üçün müstəqil dövlətin yaradılmasını zəruri edirdi. Qanlı mart hadisələrini yaşamış Azərbaycan xalqının qabaqcıl ziyalıları indi millətin xilasını muxtariyyətdə deyil, müstəqillikdə görürdülər.

Bölgədə baş vermiş hadisələr son nəticədə Zaqafqaziya dövlətçiliyinin ləğvi və Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi ilə nəticələndi. Cümhuriyyətin yaradılmasını elan etməklə Azərbaycan Milli Şurası millət qarşısında çox böyük bir tarixi missiyanı yerinə yetirdi. Azərbaycan milli dövlətinin yaradılması xalqın taleyində tarixi hadisə idi. M.Ə.Rəsulzadə 28 May bəyannaməsinin siyasi mənasını yüksək qiymətləndirir və bunu bir növ Azərbaycan millətinin varlığının təsdiqi hesab edirdi. Bu, Rusiyada və dünyada gedən sosial-siyasi proseslərin tərkib hissəsi olmaq etibarilə, həmçinin beynəlxalq əhəmiyyətli hadisə idi.

May ayının 28-də Azərbaycanın istiqlal bəyannaməsini elan etməklə Milli Şura Azərbaycan xalqının şərəf və namusunu, onun məhv olmaq təhlükəsi ilə qarşılaşmış fiziki mövcudluğunu xilas etdi. Milli müstəqilliyini elan etməklə Azərbaycan xalqı ilk növbədə itirilmiş dövlətçiliyini bərpa etdi və XX yüzillik üçün səciyyəvi olan milli dövlət quruculuğuna başladı.

İki il tarix üçün o qədər də böyük zaman kəsiyi deyil. Lakin bu iki ildə Azərbaycan Cümhuriyyətinin gördüyü işlərin miqyası, əhəmiyyəti və mənası Azərbaycan xalqının həyatında olduqca böyük hadisədir.

Azərbaycan Cümhuriyyəti çox mürəkkəb tarixi və coğrafi-siyasi şəraitdə mövcud olmuşdur. Məhz əlverişli coğrafi-strateji əhəmiyyətinə, təbii-iqtisadi sərvətlərinə görə o, dünyanın iri dövlətlərinin marağını özünə cəlb etmişdi.

Gənc Respublikanın müstəqilliyinə və ərazi bütövlüyünə real təhlükə, onun milli mənafeyinin qorunması təsirli tədbirlər görülməsini tələb edirdi.

Məhz 1918-1920-ci illərdə ermənilərin Azərbaycanın əzəli torpaqlarının işğalına yönəlmiş siyasəti daha həyasız xarakter almış, bu isə Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi üçün ən ciddi maneəyə çevrilmişdi. Buna görə də ölkənin ərazi bütövlüyünü qorumaq üçün Azərbaycan rəhbərliyi çox böyük qüvvə sərf etməli olurdu.

Bolşevik-erməni talanlarından milləti xilas etmək üçün milli ordunun yaradılması Azərbaycan Cümhuriyyətinin ən böyük xidmətlərindən biri hesab edilməlidir. Məhz qısa vaxtda formalaşdırılan güclü nizami ordu 1919-cu ildə Qarabağda Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü bərpa etməyə imkan verdi.

Az bir vaxtda Azərbaycan Cümhuriyyəti parlamenti, hökuməti, ordusu, gömrük və hüquq mühafizə orqanları olan, milli rəmzlərə və dövlət atributlarına malik, vətəndaş haqlarını və hüquqlarını hər şeydən uca tutan demokratik bir respublikaya çevrildi. Azərbaycanda milli, dini, siyasi, sinfi mənsubiyyətinə görə fərq qoyulmadan vətəndaşların hüquq və azadlıqları təmin edilmişdi. Bu, XX əsrin əvvəllərində yalnız monarxiya hərbi-feodal rejimlərinin hökm sürdüyü Şərqdə tarixi fenomen idi. Çünki ilk dəfə Azərbaycanda vətəndaş həmrəyliyinə əsaslanan demokratik, dünyəvi, unitar dövlət qurulmuşdu.

İlk Cümhuriyyətin yaradıcılarından biri M.Ə.Rəsulzadə yazırdı: "Azərbaycan Cümhuriyyətinin əsas iradəsi bütün vətəndaşların bərabər hüquqda yaşaması üzərində qurulmuşdu. Burada hər bir insanın möhtərəm şəxs, Azərbaycan vətəndaşı olduğu üçün hüququ saxlanılırdı. Xoşbəxt həyatın ancaq hürriyyətlə hasil olacağını Azərbaycan Cümhuriyyəti hökuməti ona izn verilməsini istəmişdi. Burada söz azadlığı, mətbuat azadlığı, vicdan azadlığı yüksək dərəcəyə çatmışdı".

Azərbaycan Cümhuriyyətinin Parlamenti hakimiyyət bölünməsi və plüralizm prinsiplərinin hökm sürdüyü bir tribuna oldu. Azərbaycanın bütün siyasi qüvvələrinin və millətlərinin təmsil olunduğu Parlament Cümhuriyyətin demokratik xüsusiyyətlərini güzgü kimi özündə əks etdirirdi. Azərbaycan Parlamenti xalqın milli şüurunun inkişafında

mühüm rol oynamaqla bərabər, siyasi və hüquqi dəyişikliklərin həyata keçirilməsində mühüm addımlar atmışdı. Parlament əslində ölkədə çoxpartiyalı siyasi sistemin təşəkkül tapması üçün ilk meydan oldu. Qısa müddət ərzində Parlament Azərbaycanın siyasi, iqtisadi və mədəni həyatı ilə bağlı çox işlər gördü.

Cəmiyyətin siyasi sisteminin mühüm tərkib hissəsi olan partiyalar dövlətin daxili və xarici siyasətinin formalaşdırılmasında aparıcı rol oynayırdılar, onların ictimai-siyasi fəaliyyəti, dövlət quruculuğunda tamhüquqlu iştirakı üçün hər cür şərait yaradılmışdı.

Azərbaycan rəhbərliyi çox çətin şəraitdə fəaliyyət göstərdiyindən iqtisadiyyatı əsaslı surətdə bərpa etmək üçün zəruri vaxt və vəsaitə malik olmamışdı. Bununla bərabər, bu istiqamətdə bir sıra addımlar atılmış, birinci növbədə sosial-iqtisadi islahatların keçirilməsi üçün hüquqi baza olan iqtisadi qanunlar qəbul edilmiş, dövlətin iqtisadi siyasətini həyata keçirən strukturlar, o cümlədən vergi və maliyyə orqanları, Dövlət Bankı formalaşdırılmışdı.

Azərbaycan mədəniyyətinə və xalq maarifinin inkişafına milli hökumət və parlament xüsusi qayğı göstərmişdir. Belə bir qayğı Azərbaycan demokratik ziyalılarının uzun illərdən bəri milli məktəb və mədəniyyət uğrunda apardıqları gərgin mübarizənin bilavasitə təzahürü idi.

Bütün məktəblərdə təhsilin icbari qaydada ana dilində qurulması, maarif sahəsində ruslaşdırma siyasətinin nəticələrinin aradan qaldırılması, müxtəlif səviyyəli təhsil müəssisələrinin, mədəniyyət ocaqlarının təşkili, xüsusən 1919-cu ildə Bakı Dövlət Universitetinin açılması Azərbaycan Cümhuriyyətinin ən mühüm xidmətlərindən biri idi.

AXC hökuməti xarici siyasət sahəsində də müəyyən uğurlar əldə etmişdi. Qərbi Avropanın və Asiyanın bir sıra ölkələrində Azərbaycan Cümhuriyyətinin diplomatik missiyası təsis edilmiş, Paris Sülh Konfransında isə respublikamız öz müstəqilliyinin de-fakto tanınmasına nail olmuşdu.

Hələ XX əsrin əvvəllərində Azərbaycan demokratiyasının baniləri insan hüquqlarına hörmət prinsipini, dövlətlər arasında bərabər hüquqlu və sərfəli münasibətlərə riayət etməyin zəruriliyini, zor işlətməyin yolverilməzliyini, dövlətlərin ərazi bütövlüyünə hörmət və daxili işlərinə qarışmamaq prinsipini öz fəaliyyətində əsas tutur və bu prinsiplərə dönmədən əməl edirdilər.

Artıq indi, biz onların qəbul etdikləri fəaliyyət prinsiplərinin nə qədər həyati olduğunu daha aydın dərk edirik.

1918-1920-ci illərin kəsiyində Azərbaycan Cümhuriyyətinin daxili vəziyyəti sovet Rusiyası və daşnak Ermənistanın bölgədə yeritdiyi siyasət, iri dövlətlərin öz maraqlarını həyata keçirmək üçün apardıqları rəqabət, həmçinin ölkədaxili ziddiyyətlərin ciddiləşməsi nəticəsində daha da kəskinləşmişdi. Cümhuriyyətin mövcudluğunun son dövründə Azərbaycanın daxilində çox ziddiyyətli proseslər gedirdi. Parlamentdə və ondan kənarda müxtəlif siyasi qüvvələr bir-biri ilə rəqabət, hakimiyyət uğrunda mübarizə aparırdı. Bütün bunlar

isə Xalq Cümhuriyyətinin fəaliyyətini zəiflədirdi.

Belə bir şəraitdə Azərbaycanın müstəqilliyinə qarşı çıxan xarici və daxili qüvvələrin təzyiqi altında fəaliyyət göstərən milli dövlətimiz son nəticədə süquta uğradı.

Nəticədə Azərbaycan Cümhuriyyətinin Parlamenti son dərəcə mürəkkəb və ziddiyyətli şəraitdə özünün sonuncu iclasında hakimiyyəti Azərbaycan kommunistlərinə verərək öz fəaliyyətini dayandırdı.

Uğursuz nəticəyə baxmayaraq, Azərbaycan Cümhuriyyətinin iyirmi üç aylıq fəaliyyəti xalqımızın yaddaşına əbədi həkk olundu. Azərbaycan SSR 70 ilə yaxın bir dövrdə kommunist ideologiyasının hökmran olduğu SSRİ-nin tərkibində olmuşdur. Mürəkkəb, ziddiyyətli hadisələrlə dolu bu 76 il müddətində xalqımız böyük məhrumiyyətlərə uğramış, soyqırımına məruz qalmış, böyük itkilər vermişdir. Eyni zamanda bu müddətdə bütün məhrumiyyətlərə baxmayaraq, xalqımız yaşamış, yaratmış, inkişaf etmişdir. Bu 70 il ərzində itkilərimizlə yanaşı, Azərbaycan xalqı böyük nailiyyətlər qazanmış, iqtisadi, elmi, mədəni yüksəlişə nail olmuşdur. Azərbaycan bu dövrdə öz müstəqilliyini faktik olaraq itirsə də, müstəqil dovlətin atributları olan konstitusiyaya, əraziyə, sərhədlərə formal olaraq malik idi.

Məhz dövlətçilik ənənələrinin, mədəni, elmi, iqtisadi, kadr potensialının mövcudluğu Azərbaycan xalqına öz varlığını, mədəniyyətini, milli mənliyini qorumağa və yenidən dirçəlib 1991-ci ildə milli dövlət - Azərbaycan Respublikası kimi tarix səhnəsinə çıxmağa imkan verdi.

1918-1920-ci illərdə Azərbaycan Cümhuriyyətinin topladığı böyük tarixi təcrübə, əsasını qoyduğu demokratiya, demokratik dövlət quruculuğu bu gün onun hüquqi və mənəvi varisi olan Azərbaycan Respublikasında dönmədən həyata keçirilir və inkişaf etdirilir. Tam əsasla demək olar ki, varis öz sələfinin müstəqillik və suverenlik prinsipini hər şeydən əziz və uca tutur.

# РЕЗЮМЕ

История Азербайджана начала XX в. богата как социально-экономическими, так и общественно-политическими событиями, которые нашли свое отражение в V томе "Истории Азербайджана". Хронологически том охватывает период с 1900 г. вплоть до провозглашения 28 апреля 1920 года Азербайджанской ССР.

Известно, что в начале XX в. народное хозяйство получило свое дальнейшее развитие, однако оно не было равномерным по всей территории Азербайджана. Кроме того, сказывалось то обстоятельство, что в конце XIX - начале XX в. царская Россия усилила экономическое "завоевание" страны, Северный Азербайджан все более превращался в сырьевую базу российской промышленности и в рынок сбыта товаров, произведенных российскими фабриками, т.е. экономика здесь носила колониаальный характер.

В этот период богатый нефтью Баку представлял собой исключительное явление не только для России, но и в мировом масштабе. Царское правительство, эксплуатируя богатейшие недра Баку, обеспечивало свою промышленность топливом. Наряду с нефтяной промышленностью в Баку развивались и другие отрасли - пищевая и легкая промышленность, производство стройматериалов, металлургия и др. В этот период развивалась промышленность и в уездах Азербайджана. В частности, в Кедабеке действовал крупный центр медеплавильной промышленности. Существовата широкая сеть хлопкоочистительных предприятий. Многочисленные промышленные предприятия были разбросаны по всему Северному Азербайджану: от Дербенда и Кубы до Иревана и Нахчывана, от Загатал и Гянджи до Лянкярана.

Промышленное производство Азербайджана было представлено тремя типами крупных капиталистических предприятий: 1) предприятия, находившиеся в собственности отдельных лиц; 2) торговые дома; 3) акционерные компании. Последние были представлены в двух формах: акционерные общества и паевые товарищества.

Первые два типа предприятий представляли собой узкие, ограниченные общества, что же касается акционерных компаний, то они являлись наивысшей формой капиталистических предприятий. Они обеспечивали широкую концентрацию капитала, были более конкурентоспособными, а их имущество было превращено в обобществленную собственность.

Акционерные компании по своим экономическим и организационным особенностям представляли собой основную форму организации предприятий в процессе зарождения финансового капитана. Если торговые дома в процессе конкуренции вытесняли отдельных частных собственников, то акционерные общества, в свою очередь, вытесняли торговые дома. Несмотря на это, в указанный период все три формы капиталистических предприятий сосуществовали и их

число возрастало.

Процесс концентрации и централизации капитала шел и в уездах Азербайджана, где действовали десятки компаний в таких отраслях промышленности, как шелкоткацкая, горнодобывающая, рыбная, хлопкоочистительная, производство цемента и др. В отличие от Баку, в уездах Азербайджана преобладали не акционерные общества, а торговые дома.

В Азербайджане, в том числе в Баку, имелись также капиталистические предприятия, которые остались в стороне от процесса монополизации. В основном, они находились в собственности отдельных предпринимателей. В числю таких промышленных предприятий входило большинство шелкообрабатывающих фабрик Нухинского и Шушинского уездов, Ордубада, а также Загатальского округа, хлопкоочистительные заводы Гейчайского уезда, Агдаша, Кюрдамира, Аджигабула, некоторые винокуренные заводы Шамахинского и Елизаветпольского уездов, табачные фабрики Нухинского уезда и Загатальского округа, предприятия капиталистического типа пищевой и легкой промышленности, предприятия по производству стройматериалов и т. д.

Города Азербайджана - Баку, Шуша, Гянджа, Иреван, Дербент, Нахчыван, Шеки и некоторые другие являлись капиталистическими городами. Торговая буржуазия была представлена в них купцами I и II гильдий, а также торговцами, не входившими в гильдии.

В азербайджанской деревне развитие товарного производства достигло товарно-капиталистического уровня. Капиталистическая организация хозяйства в селе получила более интенсивное развитие.

В деревнях, земли колорых принадлежали государству, землепользование претерпело значительные изменения. Взаимоотношения между государством, владевшим землей, и обрабалывавшими ее крестьянами нашли свое отражение в законе о поземельном устройстве государственных крестьян Закавказья, водворенных на казенных землях, изданном в мае 1900 г. Согласно этому закону, земля была передана в постоянное пользование сельских обществ, однако землевладельцем по-прежнему являлось государство и обрабатывавшие эту землю крестьяне обязаны были выплачивать оброчную подать в казну.

Крестьяне, проживавшие на землях, находившихся в частном ала-дении, за пользование бекскими землями обязаны были выплачивать землевладельцам денежные и натуральные подати. Такое положение сохранялось до 1912 г., когда частновладельческие крестьяне превратились в собственников своих земельных наделов. Несмотря на это, полуфеодальный характер землевладения продолжал существовать, так как сохранилась государственная собственность на землю, а также и бекско-мюлькедарская земельная собственность. В этот период характер бекской собственности на землю несколько изменился. Прежде всего, бекские земли теперь могли быть проданы лицам, не принадлежавшим к бекскому сословию. Во-вторых, что очень важно, под влиянием развития товарно-

капиталистических отношений часть беков создала свои хозяйства, основанные на использовании наемного труда, что было выгоднее, чем сдавать земли в аренду. Таким образом, часть бекских хозяйств превращалась в капиталистические хозяйства.

В азербайджанской деревне ускорился процесс расслоения сельского населения, в результате чего сформировался слой сельских капиталистов, состоявший из кулаков, ведущих свое хозяйство на основе использования наемного труда, с одной стороны, и слоя безземельных и малоземельных батраков, занимавшихся продажей своей рабочей силы, - с другой. И все же в азербайджанской деревне преобладали мелкие крестьянские хозяйства, основанные на использовании собственного труда. Азербайджан являлся в этот период страной мелкого крестьянского хозяйства. Вместе с тем, в условиях, когда товарное производство приобретало ведущий характер, а в экономику внедрялась капиталистическая организация производства, мелкие крестьянские хозяйства не остались в стороне от этих процессов и большинство из них постепенно превращались в сферу приложения капитала. В результате этого часть крестьян обогащалась и вступала в ряды сельской буржуазии; они расширяли свои земельные участки и создавали хозяйства, основанные на наемном труде.

Таким образом, в начале XX в. в результате широкого развития товарного производства, применения наемного труда, перехода многих помещичьих хозяйств к капиталистическому хозяйствованию, внедрения промышленного и банковского капитана и, наконец, усиления торгово-промышленного капитала в азербайджанской деревне, несмотря на наличие полуфеодальной земельной собственности, способ производства в целом был уже капиталистическим.

Вместе с тем, в социально-экономической структуре Азербайджана сохранялись пережитки феодальных отношений. До завоевания Северного Азербайджана Советской Россией здесь все еще сохранялись бекскопомещичьи латифундии. Хотя крестьяне были лично свободными, они все же были в определенной степени зависимы от мюлькедаров-землевладельцев.

Следует отметить, что в начале XX в., в условиях, когда в сельском хозяйстве ведущую роль играно товарное производство, даже мелкие хозяйства не могли оставаться в прежних узких рамках натурального производства. В этот период многие из крестьян, несмотря на полуголодное существование, хотя бы для выплаты податей и удовлетворения насущных потребностей семьи, вынуждены были продавать часть урожая, т. е. эта часть их урожая превращалась в товар. Кроме того, владельцы указанных хозяйств попадали под влияние торгового и ростовщического капитала. Таким образом, зачатки капиталистического уклада проникали и в эти хозяйства.

Итак, в начале XX в. в городах Азербайджана, его промышленных очагах капиталистические производственные отношения уже занимали господствующее положение. В азербайджанской деревне в условиях сохранения

докапиталистической земельной собственности, наряду с капиталистического типа хозяйством кулаков и зажиточных крестьян, имелись и мелкие хозяйства, находившиеся под влиянием торгово-ростовщического капитала. Тем не менее и здесь товарно-капиталистические отношения занимали определяющие позиции. В целом же в социально-экономической структуре Азербайджана господствующее положение занимал капиталистический способ производства.

В начале XX в. перестройка административно-полицейского аппарата характеризуется расширением его карательных функций, стремлением царизма при помощи армии, жандармских, полицейских, судебных органов - в целом всего государственного аппарата подавить усиливавшееся с каждым днем освободительное движение в Северном Азербайджане. Уже в 1902-1903 гг. "Положение о мерах к охранению государственного порядка и общественного спокойствия" от 14 августа 1881 г. стало одним из основных законов Российской империи и было распространено на многие города и уезды Азербайджана.

26 февраля 1905 г. на Кавказе было восстановлено наместничество. В царском рескрипте на имя назначенного наместником Воронцова-Дашкова отмечалось, что главная его задача состоит в скорейшем "водворении спокойствия на Кавказе".

Царское правительство, посчитав недостаточными репрессии против национально-освободительного движения, учредило должности временных генерал-губернаторов с чрезвычайными полномочиями и начало вводить во многих губерниях военное положение. Уже в феврале 1905 г. в Баку и в Бакинской губернии, а в сентябре 1905 г. - в Елизаветпольской губернии было введено военное положение. На территории Елизаветпольской губернии было создано два временных генерал-губернаторства. Одно из них охватывало Зангезурский, Джаваншírский, Джебраильский и Шушинский уезды, а другое - все остальные уезды. Указом от 28 октября 1906 г. для управления городом Баку и примыкающими к нему нефтедобывающими и фабрично-заводскими районами было создано Бакинское градоначальство.

Несмотря на все это, в начале XX столетия национально-освободительная борьба азербайджанского народа постепенно достигла качественно нового, более высокого уровня развития. Шел процесс создания политических организаций и партий. Именно в этот период в национальном самосознании народа, прошедшего несколько важных этапов в своем развитии за короткий срок от робких просьб, петиций о некоторых элементах культурной автономии в составе унитарной Российской империи, сложилось понимание необходимости создания суверенного и независимого Азербайджана, восстановления своей государственности. Политические корифеи, создавшие первое на Востоке независимое демократическое государство - АДР, выросли и сформировались именно в гуще этих очень сложных и многосторонних процессов национально-освободительной борьбы.

В 1901 г. был создан Бакинский комитет РСДРП. В 1904 г. при этом комитете начала действовать организация "Гуммет". В 1911 г. возникла партия "Мусават", которая очень скоро стала ведущей политической силой в Азербайджане.

С одной стороны, связанное с общим кризисом тяжелое экономическое положение, а с другой, усиление политической пропаганды привели в 1901 г. к ряду выступлений рабочих, приобретших очень быстро массовый характер.

Выступления происходили не только в Баку, но и в уездах Азербайджана. Социальные противоречия обострились и в азербайджанской деревне. Отказ крестьян от уплаты налогов, захват помещичьих и казенных земель, увеличение числа налетов на поместья беков еще более накаляли обстановку. Крестьянские выступления зачастую выливались в вооруженные столкновения с полицией. Активизировалось гачагское движение в Нухинском, Етизаветпольском, Казахском, Джаватском, Кубинском, Геокчайском уездах и Закатальском округе.

Одной из форм борьбы самодержавия с народным движением в Азербайджане и в целом в Закавказье было провоцирование межнациональных столкновений. Первое из этих столкновений было организовано 6-9 февраля 1905 г. в Баку.

М. С. Ордубади в своем произведении "Кровавые годы", посвященном резне 1905-1906 гг., писал: "Бомба, заложенная в основу двух наций, взорвалась, и весь Кавказ содрогнулся от воздействия этой бомбы... эта бомба - Бакинская трагедия 6 февраля 1905 г., которая возымела действие на весь Кавказ. И этим была начата мусульмано-армянская резня, продолжавшаяся около двух лет".

Народное движение 1905-1907 гг. по ряду объективных причин не привело к изменению существующего строя. Первые зачатки демократизма в лице Государственной думы столкнулись с сильным сопротивлением бюрократии. Самодержавная власть, разогнав третью думу и начав наступление на демократические силы, стала возвращать позиции, утраченные в ходе ожесточенной борьбы.

Несмотря на это, события 1905-1907 гг. сыграли значительную роль в истории Азербайджана, оказали большое влияние на подъем рабочего и национально-освободительного движения.

После короткой, но очень жестокой черносотенной реакции, уже с 1910 г. наблюдался новый стремительный рост национально-освободительного движения. Участились и усилились рабочие и крестьянские выступления. Политическая активность широких масс приобрела особенный размах в годы первой мировой войны. Эта война, которая началась в августе 1914 г., не имела в прошлом аналогов по масштабу разрушений и количеству жертв.

Начало первой мировой войны породило достаточно противоречивые настроения в различных слоях азербайджанского общества. Верхушечная часть буржуазии, помещиков поддерживала Россию.

Это нашло свое отражение в выступлениях представителей буржуазии, статьях публицистов, а также в официальных документах и заявлениях. Но основная масса азербайджанского общества была, естественно, против войны, все невзгоды и трудности которой тяжелым бременем легли на плечи трудящихся масс.

Хотя царское правительство и не призывало мусульман в армию, но на фронтах сражалось более двухсот офицеров-азербайджанцев, в основном выходцы из высших слоев общества. Знаменитые генералы Самед бек Мехмандаров, Али ага Шихлинский, Гусейн хан Нахичеванский относятся к их числу. "Кавказская инородческая конная дивизия" или же "Дикая дивизия" под командованием Гусейн хана Нахичеванского являлась в то время не только самым крупным мусульманским военным формированием, но и одной из самых боеспособных единиц во всей российской армии.

Первая мировая война вызвала необходимость перестройки всего народного хозяйства. Огромные масштабы войны, потребность в материальном и военном обеспечении - все это обусловило серьезные структурные перемены в промышленном производстве страны. Суть этих перемен заключалась в переносе центра тяжести на те отрасли промышленности, которые удовлетворяли военные нужды. Наоборот, значительный упадок наблюдался в тех отраслях производства, которые обеспечивали мирный рынок и потребности широких слоев трудящихся масс.

Несмотря на все свои попытки и содействие буржуазии, царскому правительству не удалось создать эффективное военное хозяйство, приостановить упадок производительности труда, помешать росту цен. Это привело к кризису в важнейших отраслях хозяйства: в январе 1917 г. рабочее движение в Баку достигло своего апогея, по числу охваченных забастовкой предприятий город занял первое место по России.

Усугубление экономического кризиса и резкое ухудшение положения трудящихся масс в годы войны привели к обострению социальных противоречий в азербайджанской деревне и послужили причиной усиления крестьянского движения. В Баку и в некоторых уездах Азербайджана серьезный толчок этому давало рабочее движение.

Порожденный войной экономический и политический кризис, разраставшиеся день ото дня рабочее, крестьянское и национально-освободительное движение показали, что в Азербайджане, так же как и в других регионах Российской империи, возникли объективные условия для буржуазно-демократической революции.

Настоящий том отражает также успешное развитие национальной культуры Азербайджана в начале прошлого столетия. Наряду с развитием традиционных отраслей и форм, в азербайджанской культуре было отмечено широкое распространение новых форм культурной деятельности - музыкальной

оперы, сатирической печати и т. д. Дальнейшее развитие получило народное образование. Такими общественно-благотворительными организациями как "Нашри-маариф", "Саадат", "Сафа" и др. была создана действенная и эффективная сеть просветительных учреждений. Усилием таких корифеев, как Уз.Гаджибеков, Дж.Мамедкулизаде, М.А.Сабир, Г.Араблинский, З.Ахмедбеков и др. в области национальной культуры были достигнуты значительные успехи, чем был внесен значительный вклад в формирование всетюркской, всемусульманской и всемирной культуры XX столетия.

Политическое положение на Южном Кавказе, в том числе в Азербайджане накануне провозглашения независимости было сложным и противоречивым. Свержение царской монархии, приход в России к аласти Временного Правительства создали совершенно новую обстановку. Вскоре после Февральской революции 1917 г. из закавказских депутатов Государственной думы был образован Особый комитет для управления краем - ОЗАКОМ, а также Совет Рабочих и Солдатских Депутатов. Таким образом, в стране устанавливается двоевластие. В апреле 1918 г. Закавказье было провозглашено независимой от России демократической республикой. Однако разногласия между Закавказскими республиками, сложная международная обстановка усилили сепаратистские тенденции к образованию отдельных независимых государств. 26 мая 1918 г. Сейм объявляет о самороспуске, Закавказская Федеративная Республика распадается, и уже в тот же день Грузия, а через два дня Азербайджан и Армения провозглашают свою независимость. Мусульманская фракция Сейма объявила себя Национальным Советом Азербайджана, взявшим на себя бремя управления Азербайджанской Демократической Республикой. Первые общегосударственные нормативные акты, изданные Национальным советом Азербайджана, закрепили независимость, заложили основы демократической политической и государственной системы. Постановлениями Национального Совета 28 мая 1918 г. было образовано правительство - Совет Министров республики, а в ноябре-декабре 1918 г. заложены основы демократической представительной системы.

17 июня 1918 г. Временное правительство переезжает в Елизаветполь, где Национальный Совет объявил о самороспуске. Несмотря на провозглашение независимости республики, Баку - крупнейший политический, экономический, культурный центр все еще оставался во власти большевистско-дашнакского альянса. Помимо этого не ослабевал и интерес империалистических держав к Бакинскому нефтяному району.

Поэтому для Азербайджана возвращение Баку было не только вопросом территориальной целостности республики, но и условием ее жизнеспособности. Правительству пришлось приложить много усилий, чтобы добиться признания исключительного права на Баку за Азербайджаном. Освобождение Баку 15 сентября 1918 г. объединенными турецко-азербайджанскими войсками и поражение Германии и ее союзников в мировой войне сорвали замыслы

противников независимости Азербайджана. 16 сентября 1918 г. национальное правительство переехало из Гянджи в Баку. По Мудросскому соглашению, 30 октября 1918 г. Турция вывела в ноябре 1918 г. войска из этого региона. На смену им вводились воинские соединения союзных держав, представленные английскими войсками под командованием генерала Томсона, объявившего себя генерал-губернатором города.

В этих сложных условиях пришлось закладывать первые краеугольные камни новой национальной государственности. Правительство принимает решение создать верховный орган государственной власти Азербайджана - Парламент. 20 ноября 1918 г. Национальный Совет принял "Закон об образовании Азербайджанского парламента", определивший принципы формирования парламента. 7 декабря 1918 г. АДР объявила об открытии первого на мусульманском Востоке парламента. Председателем Парламента был избран Али Мар-дан бек Топчибашев. Парламент был представлен 11 фракциями и группами. На первых же заседаниях все политические фракции и группы в декларациях и заявлениях определили свои позиции и программы будущей деятельности. "Центр" в парламенте составляла партия "Мусават", представлявшая собой крупную организованную силу. Считая наиболее соответствующим интересам государства принцип коаниции, она всегда стремилась к совместной работе с другими политическими партиями и группами. Мусаватисты в парламенте выступали совместно с группой беспартийных. Правый сектор составляли иттихадисты, которые до декабря 1919 г. не участвовапи в правительственных образованиях. Левую позицию занимали фракции "Гуммет" и "Социалистический блок".

Одной из главных забот правительства явилось создание сильной армии. Формирование первых воинских частей началось еще в гян-джинский период. Армия была создана фактически в течение нескольких месяцев. В ее составе действовали две пехотные и одна конная дивизия, шесть пехотных полков, две артиллерийские бригады, три конных полка.

7 ноября 1918 г. было учреждено Военное министерство. Порт фель военного министра быш предоставлен председателю Совета Министров Азербайджанской Республики Фатали Хану Хойскому, заместителем его был назначен генерал-от-артиллерии Самедбек Мехмандаров. Однако после прихода англичан, по требованию Томсона, азербайджанские части были выведены из столицы, в связи с чем военное Министерство республики переехало в Гянджу. Только в апреле 1919 г., после снятия этого неоправданного ограничения союзных держав, азербайджанские войска вернулись в Баку.

Весной 1919 г. резко ухудшилась обстановка на Северном Кавказе. С занятием Петровска и Дербента Добровольческой армией Деникина создалась реальная угроза для независимости Азербайджана и Грузии. Был образован особый орган - Комитет Государственной Обороны, объявивший 11 июня 1919 г. военное положение на всей территории республики. Аналогичные меры

безопасности были осуществлены и правительством Грузии. 27 июня 1919 г. между Азербайджаном и Грузией было заключено военно-оборонительное соглашение сроком на 3 года. Военное министерство предприняло ряд важных шагов по укреплению обороноспособности страны: были заложены основы собственной военной флотилии, которую составили канонерки "Ардаган" и "Каре", несколько посыльных судов - "Астрабад", "Араке", "Нарген" и др.

Азербайджанская армия выполняла важную роль по обеспечению территориальной целостности республики. Армения начала в это время неприкрытую войну против Азербайджана. Регулярные армейские части неоднократно вторгались в Зангезур, Карабах, Нахичевань. 22 марта 1920 г., в день Новруз байрамы, дашнакские банды вероломно напали на гарнизон азербайджанских войск, расположенный в сел. Ханкенди.

8 Ленкорани и на Мугани была установлена так называемая "Муганская диктатура", не признававшая власти азербайджанского правительства, а с апреля 1919 г. там была провозглашена Муганская Советская республика. В конце июля 1919 г. азербайджанские войска заняли Ленкорань и восстановили порядок и законность в уезде.

Наиболее острой и сложной проблемой для южнокавказских народов было решение территориальных вопросов. Особой шовинистической направленностью отличались территориальные претензии со стороны Армении. АДР выступала за то, чтобы при установлении границ в основу были положены объективные данные фактического и национально-территориального расселения. Однако Грузия и особенно Армения считали за собой право на присоединения к себе древних азербайджанских земель сплошного проживания азербайджанского населения, входивших по тогдашнему административному делению, доставшемуся в наследство от российского самодержавия, в состав Эриванской и Тифлисской губерний.

АДР особенно запомнилась своей деятельностью по развитию образования, национальной культуры, литературы и искусства. Одним из первых мероприятий Азербайджанского правительства была национализация учебных заведений. С 28 августа 1918 г. во всех начальных учебных заведениях обучение стало производиться на родном языке учащихся, вместе с тем в обязательном порядке преподавался государственный язык. Политика национализации сталкивалась с серьезными трудностями, начиная с нехватки педагогических кадров до отсутствия необходимого количества учебников. Надо отметить поспешность, ошибки и сопротивление определенной части населения, которая не признавала азербайджанский язык и азербайджанскую государственность. Однако правительство в этом вопросе занимало решительную позицию и продолжало политику национализации.

Азербайджанское правительство придавало первостепенное значение подготовке педагогических кадров с целью коренного обновления системы

